AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

NƏSİMİ ADINA DİLÇİLİK İNSTİTUTU

# SƏMƏD VURĞUNUN BƏDİİ DİLİNİN İZAHLI L Ü Ğ Ə T İ

BAKI – 2011

*Lüğət xalq şairi Səməd Vurğunun anadan olmasının 105 illiyinə həsr olunmuşdur.*

Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu Elmi Şurasının 29 iyun 2011-ci il tarixli iclasının (4 №-li protokolu) qərarı ilə nəşr olunur.
Lüğət Kitab Evi İctimai Birliyinin təşəbbüsü ilə çap edilmişdir.

Redaktor və ön sözün müəllifi **İsmayıl Məmmədli**, *filologiya elmləri doktoru, professor*

Tərtibçilər: **prof. İsmayıl Məmmədli, prof. Aydın Ələkbərov, f.e.n. Bəhruz Abdullayev, f.e.n. Nərgiz Rəhimzadə, f.e.d. Nəriman Seyidəliyev, f.e.d. Mirvari İsmayılova, Nigar Xəlifəzadə**

Rəyçilər: **Məsud Mahmudov**, *filologiya elmləri doktoru, professor*
**Fəridə Ləman**, *filologiya üzrə fəlsəfə doktoru*
**Salatın Əhmədli**, *filologiya üzrə fəlsəfə doktoru*

Səməd Vurğunun bədii dilinin izahlı lüğəti.
Bakı, «Elm», 2011, …..səh.

Lüğət S.Vurğunun əsərlərinin dilinin lüğət tərkibini əks etdirən ilk izahlı lüğətdir. Burada S.Vurğunun bədii əsərlərində işlənmiş bütün lüğəvi vahidlər əhatə olunmuşdur. Lüğətdə sözlərin mənaları və məna incəlikləri verilmiş, onlar S.Vurğunun lirik əsərlərindən, habelə epik-lirik və dram əsərlərindən gətirilmiş illüstrasiyalar (poetik mətnlər, bəzən isə misra və beytlər) əsasında izah olunmuşdur.

Şairin ədəbi-bədii irsində istifadə etdiyi frazeoloji birləşmələrin də məna incəlikləri, çoxmənalılı nümunələrlə verilmişdir. Lüğət məqalələrindəki leksik vahidlərin orfoqrafiyası şairin əsərlərinin çap variantındakı kimi, dəyişdirilmədən verilmişdir. Lüğət S.Vurğunun əsərlərinin 6 cildliyi əsasında tərtib olunmuşdur.

S.Vurğunun bədii dilinin lüğətində 6215 söz və 1753 ifadə qeydə alınmışdır.

Lüğətdə ümumiyyətlə 7968 söz və ifadə öz izahını tapmışdır.

***Xalqın böyük bir dövləti də vardır. O da xalqımızın dilidir. Dil xalqın namusu deməkdir, tarixi deməkdir, vicdanı deməkdir. Biz, dil məsələsini hər bir yerdə göz bəbəyimiz kimi gözləməliyik***

***Səməd Vurğun***

# ÖN SÖZ

Səməd Vurğun XX əsr Azərbaycan ictimai-siyasi və bədii fikrinin, nəzəri-estetik düşüncəsinin tarixində təkrarsız bir tarixi şəxsiyyət olmuşdur. Onun ədəbi irsi eyni zamanda ədəbi bədii dilimizin inkişafı, zənginləşməsi və dil quruculuğu baxımından bu gün də son dərəcə dəyərlidir. Bütövlükdə hər bir söz sərrafının, söz korifeylərinin bədii əsərləri gələcək nəsillər üçün də qiymətli xəzinəyə çevrilir. Bu xəzinə lüğətləşdikdə isə onun həm беля sənətkarların yaşadıqları dövrün dil mənzərəsini tam dəqiqliyi ilə qoruyub saxlamaqda, həm də sonrakı nəsillərə bəhs olunan dövrün söz cövhərlərini çatdırmaqda, məna incəlikləriniн əks etdirilməsində dəyərini, mövqeyini heç bir şeylə əvəz etmək olmaz. Səməd Vurğunun bədii yaradıcılığından danışarkən şairin xalqın həyatını nə dərəcədə dolğun, dürüst, sərrast təsvir etməsi, sənətkar məqsədinin bədii həlli, bugünkü dünyamızın işıqlı tərəflərinə, müasirlərimizə, zəmanəmizin müsbət enerjili adamlarına yönəldilən diqqət, qədim, yaşarı ənənələrimizin davamı və inkişafı kimi ciddi məsələlər təhlillərin əsasında dayanır.

Vaxtilə böyük rus alimi L.V.Şerba azman söz ustalarının ədəbi-bədii irsləri barədə demişdir: “Nəhəng sənətkarların hər bir sətri belə gələcək nəsillər üçün misilsiz dərəcədə qiymətlidir.”

Bu sözləri ölməz şairimiz Səməd Vurğuna da aid edə bilərik, çünki söz sərrafımız şeir sənəti tariximizdə təkrarsız bir qələm sahibi olduğu kimi, Azərbaycan ədəbi-bədii dilinin gözəl bilicisi, ona yeni çalarlıqlar, məna incəlikləri gətirən yenilikçi

şair, Azərbaycan bədii-poetik üslubunun inkişafı tarixində özünəməxsus fərdi üslubu ilə seçilən bir ədəbiyyat xadimidir. Səməd Vurğunun 6 cildliyinin (1960-1972-ci illər nəşri) 4 cildindəki şeirləri, poemaları və dram əsərləri əsasında tərtib olunan bu lüğət Azərbaycan lüğətçiliyi tarixində anadilli yazıçı və şairlərimizin bədii irslərini tam mənada özündə əks etdirən ilk məlumat kitabıdır, ilk təşəbbüsdür. Lüğətdə 6215 söz və 1753 ifadə vardır. Cəmisi 7 968 söz və ifadədir. Şairin dilinin lüğətinin hazırlanmasında əsas məqsəd ədibin bədii əsərlərində istifadə olunmuş leksik vahidlərin miqdarını göstərmək və mənalarını müəyyənləşdirmək olmuşdur. Lüğət eyni zamanda XX yüzilin I yarısı Azərbaycan ədəbi-bədii dili tarixinin dərindən öyrənilməsi üçün, habelə gələcəkdə hazırlanılacağı nəzərdə tutulmuş Azərbaycan dilinin böyük izahlı lüğəti üçün də gərəkli mənbə kimi dəyərlidir. Səməd Vurğunun dilinin lüğətini sözün tam mənasında dilin izahlı lüğəti (doğrudur, burada sözlərin izahlı lüğətə düşməyən mənaları da müşahidə olunur) hesab etmək olmaz. Ümumən şair və yazıçıların əsərləri əsasında hazırlanmış lüğətlər lüğətçilikdə məlumat xarakterli lüğətlər kimi qəbul olunur. Çünki belə lüğətlər ana dilinin izahlı lüğətinin bütün vəzifə və xüsusiyyətlərini yerinə yetirə bilmir. S.Vurğunun dilinin lüğəti şairin bədii əsərlərində işlənmiş söz və frazeoloji ifadələri əhatə etmək vəzifəsini yerinə yetirmişdir.

Lüğətlərdə verilən lüğət məqalələri bu və ya digər sözün məna və işlənməsinin səciyyələndirilməsinə həsr olunmuşdur. Bu sözlərin hər birinin S.Vurğunun dilində kəsb edildiyi mənaların köməyi ilə oxucuda aydın təsəvvür hasil ola bilər.

Səməd Vurğunun dilinin lüğətini AMEA Nəsimi adına Dilçilik İnstitutu Lüğətçilik şöbəsinin əməkdaşları – şöbə müdiri, filologiya elmləri doktoru, professor İsmayıl Oruc oğlu Məmmədli, baş elmi işçi, filologiya elmləri doktoru, professor Aydın Qulam oğlu Ələkbərov, aparıcı elmi işçi, filologiya elmləri namizədi mərhum Bəhruz Teymur oğlu Abdullayev,

aparıcı elmi işçi, filologiya elmləri doktoru Nəriman Fərman oğlu Seyidəliyev, baş elmi işçi, filologiya elmləri namizədi mərhum Nərgiz Rəsul qızı Rəhimzadə, böyük elmi işçi, filologiya elmləri doktoru Mirvari Abbas qızı İsmayılova, elmi işçi Nigar Əli qızı Xəlifəzadə tərtib etmişlər. Lüğət qısa müddətdə 1999-2000-ci illərdə hazırlanmışdır. Kartotekanın hazırlanması və lüğətin tərtibi az bir zamanda həyata keçirildiyi üçün çox gümanki bu məlumat kitabına şairin işlətdiyi sözlərdən düşməyənləri də ola bilər. Vaxt məhdudluğuna görə şairin dilindəki sözlərin işlənmə tezliyini də verə bilmədik. Odur ki, vurğunsevərlərdən, belə bir halla rastlaşa bilənlərdən irəlicədən üzr istəyirik. Lüğət ilk təşəbbüs olduğu üçün kitabda yol verilə bilinən nöqsan və qeyri-dəqiqlikləri görüb bizə yazıb göndərən həmvətənlərimizə də bəri başdan razılıq edirik. Təbiidir ki, və təkliflərinizi lüğətin gələcək nəşrlərində nəzərə alacağıq. Lüğətin çapa hazırlanması zamanı tərtibçilərə öz dəyərli tövsiyə və məsləhətləri ilə kömək etmiş professor Məsud Mahmudova, filologiya üzrə fəlsəfə doktorları Fəridə Ləmana, Salatın Əhmədliyə dərin təşəkkürümüzü bildiririk.

***Professor***
***İsmayıl Məmmədli***

## Lüğətdə gedən ixtisarlar

Alm – almanca
anat. – anatomiya termini
arxeol. - arxeologiyda
arxit. - arxitekturada
ata.sözü – atalar sözü
bağl. – bağlayıcı
biol. – biologiya termini
bot. – botanika termini
coğraf. – coğrafiya termini
dan. – danışıq dilində
dəniz. – dənizçilikdə
dilç. – dilçilikdə
etnoqr. - etnoqrafiyada
əd. – ədat
ər. – ərəbcə
əvəz. – əvəzlik
*fars.* – farsca
f. – feil
f.bağ. – feili bağlama
fəls. – fəlsəfə termini
f.sif. – feili sifət
f.is. – feili isim
fiz. – fizika
fr. - fransızca
xar. – xarici
xəb. – xəbər
xüs. – xüsusi termin
icb. – icbar növ
iqt. – iqtisadiyyat termini
ing. – ingiliscə
is. – isim
isteh. – istehza ilə
ital. - italyanca

iş əvəz – işarə əvəzliyi
kiç. – kiçiltmə isim.
kin. – kinayə ilə
kit. – kitab dilində
köhn. – köhnəlmiş söz
klass. – klassik dildə
qarş. – qarşılıqlı feil
qayıd. – qayıdış feil
qəd. – qədim söz
qoş. – qoşma
qramm. – qrammatikada
lat. - latınca
məc. – məcazi mənada
məch. – məchul feil
məh. – məhəlli söz
miqd.s. – miqdar sayı
monq. – motqolca
mus. - musiqidə
müq.dər. – müqayisə dərəc.
nifr. – nifrət
oxş. – oxşama forması
pol. - polyaçka
rəs. – rəsmi dildə işlənən söz
rus. - rusca
səs təql. – səs təqlidi
sıra s. – sıra sayı
sif. – sifət
şair. – şairanə söz
tar. – tarix
tənt. – təntənəli söz
t.-li f. – təsirli feil
t.-siz f. – təsirsiz feil
top. – toplu isim
türk. - türkcə
üst. d. – üstünlük dərəcəsi

uş. – uşaq dilinə məxsus söz
yer. – yerlik halda
yun. - yunanca
z. – zərf
zar. – zarafatla
zool. – zoologiya termini

## Şərti işarələr

.. sitatlarda ixtisarı bildirir
□ Məna ilə əlaqədar olan söz birləşmələrini izahdan ayıran işarə
// Məna incəliklərini ayıran işarə
◊ Frazeologiyanı (idiomatik ifadələri) ayıran işarə
— sitatları tərtibçi misallarından ayıran işarə

## Lüğətin quruluşu

Lüğət ümumən şair və yazıçılarımızın bədii irslərinin dili əsasında tərtib edilmiş, ilk sorğu kitabıdır. Lüğətin sözlüyünün hazırlanması zamanı müəyyən meyar və prinsiplər gözlənilmişdir:

1. Lüğətdə sözlər əlifba sırası ilə verilir.
2. Lüğətin sözlüyünə şairin bədii əsərlərinin lüğət tərkibində, işlənmiş bütün niitq hissələrinə aid sözlər və söz birləşmələri daxil edilmişdir.
3. Xüsusi adlar – antroponimlər, toponimlər və b. coğrafi adlar lüğətdə verilməmişdir.
4. Sözlüyə daxil edilən leksik vahidlərin orfoqrafiyası şairin nəşr olunmuş çoxcildliyində olduğu kimi saxlanılmışdır.
5. Ayrı-ayrı leksik vahidlərin mənaları, məna çalarları yalnız şairin bədii dilində ifadə etdiyi mənalara, kəsb etdiyi məzmuna görə sıralanmışdır.
6. Şairin bədii dilindəki sözlərin semantik quruluşu daha müfəssəl şəkildə əks olunur.
7. Lüğətin sözlüyünə daxil edilən leksik vahidlərin qrammatik, üslubi və başqa əlamətləri haqqında daha dolğun məlumat verilir.
8. Şairin bədii dilindəki frazeoloji ifadələr bütünlüklə və tam şəkildə seçilmiş və lüğətdə izahını tapmışdır.

# AZƏRBAYCAN ƏLİFBASI

**Aa**
**Bb**
**Cc**
**Çç**
**Dd**
**Ee**
**Əə**
**Ff**
**Gg**
**Ğğ**
**Hh**
**Xx**
**Iı**
**İi**
**Jj**
**Kk**
**Qq**
**Ll**
**Mm**
**Nn**
**Oo**
**Öö**
**Pp**
**Rr**
**Ss**
**Şş**
**Tt**
**Uu**
**Üü**
**Vv**
**Yy**
**Zz**

# A

**A.** *nida* cümlənin əvvəlində və ya ortasında çağırış, xitab, müraciət bildirir. Kəfəndir, a balam, sərapərdələr. Dostum, a qardaşım, apar məni tez! [*Şuriyə*:] A kişi, bir danış! A qızım, üzündən götür duvağı. Qoy açıq görünsün ayın qabağı.

**Ab**, *is.* [*fars.*] (*klas.*) su.

**Abad**, *sif.* [*fars.*] *məc.* şən, şad. könül mülkü bir tamaşa. Vətən mülkü abad yaşar vəfadarı görəndə, Bu gün könlüm evi yenə abaddır. □ Abad olmaq, - yaxşılaşmaq, yaşayış üçün lazım olan hər cür vəsaitlə təmin olunmaq İstəsəniz soluxmaz abad olar.

**Abadanlıq**, *is.*: abadanlığa əl qoymaq - hər hansı bir yerdə əhalinin yaşayışına lazım olan şəraiti yaratmaq. Hərə bir əl qoysa abadanlığa; Kəndimiz böyüyüb bir şəhər olar.

**Abı**, *sif.* Açıq-göy, mavi rəngli. Gah abı rəng olur, gah da qırmızı.

**Abidə**, *is.* [ər.] 1. Tarixi əhəmiyyəti olan bir hadisəyə və ya tarixi bir şəxsə xatirə olaraq qoyulan nişangah, heykəl və s. Onların şərəfli, şanlı adını; Mərmər abidələr üstündə yazdıq; 2. Qədim dövrlərə aid mədəniyyət əsəri. Tarixlər şahidi abidələr də; 3. *məc.* Yadigar. Yanır gözəl abidələr.

**Abi-həyat** – həyat suyu, dirilik suyu (əfsanələrə görə, guya zülmətdə bir çeşmənin suyu olub, onu içənlər heç ölməzlərmiş. [Azər baba:] Bu da abi-həyat… iç, oğlum. Bunu.

**Abır**, *is.* [*fars.* abru] Üst-baş, geyim, qiyafət, zahiri görünüş mənasında. «… Bu abırla necə gəzim mən küçələrdə?»

**Ac**, *sif.* 1. Aclıq hiss edən, yeməyə ehtiyacı olan, qarnıboş. Nə dilənçi qaldı, nə bir nəfər ac. Arvad-uşağımız İranda acdır. ◊ Ac qurd *(məc.)* – Son *dərəcə ac*, acgöz, qarınqulu. Ac qurd kimi yalayırlar dodaqlarının gəlini.

**Acgödən**, *sif.* *(dan.)*. Çox yeyən, doymaq bilməyən. Fikri dar, qəlbi dar, acgöz, acgödən.

**Acgöz**, *sif.* Tamahkar, heç şeydən gözü doymayan. Fikri dar, qəlbi dar, acgöz, acgödən.

**Acgözlü**, *sif.* Tamahkar, heç şeydən gözü doymayan. Yem olar acgözlü ağ buludlara.

**Acı**, *isf.* 1. *məc.* Fəlakətli, məşəqqətli, dərd və kədərlə dolu. Alnında min acı fəlakət izi, Günlərin birində bir acı ruzgar.

**Acıdil**, *sif.* Danışarkən hamını sancan, acı söz deyən, acılayan, zəhərləyən. Bədsifət, acıdil olur bir çoxu.

**Acıq**, *is.* Hirs, qeyz, qəzəb. Qara zənci acığından nəfəs alır ağır-ağır.

**Acıqlanmaq**, *f.* 1. Acığı tutmaq, hirslənmək, şiddətlənmək, qızmaq. O, tez acıqlanır, tez də yumşalır.

2. Birinin üstünə qışqırmaq, məzəmmət etmək, danlamaq. – İmran acıqlanır… – uşaqsan ki, sən… Oyan, ancaq acıqlanıb Yenə məni söymə gəl.

**Acıqlı**, *sif. məc.* Şiddətli, coşqun, dəhşətli, qorxunc və s. mənalarda. Acıqlı Kür ilan kimi dolanar. Üfüqlərində acıqlı yellər əsən..

**Acılıq**, *is.* Acı şeyin halı; acı dad, acı dad verən. Bəlkə də hər şirinlik bir acılıq yeməkdir.

**Acımaq**, *f.* 1. Yazığı gəlmək, ürəyi yanmaq, rəhmi gəlmək, mərhəmətə gəlmək. Acıyıram bu ceyrana, Sonasan acıyır bacıya qardaş. Acımaq bilməyir o insanlara. Nə ömrə acıyır, nə yaşa ceyran.

2. Təəssüf etmək, heyfsilənmək. Acımadan gəncliyinə, parlaq əməllərinə.

**Aciz**, *sif.* [ər.] Əlindən iş gəlməyən, bacarıqsız, zəif. Axan sellər qarşısında; Aciz miskin qalırlar. Cəlal düşündükcə bu qədər aciz.

**Acizlik**, *is.* Bacarıqsızlıq, zəiflik, qətiyyət... Qoy bunu ellər. Bir acizlik, bir şikayət kimi sanmasın.

**Aclıq**, *is. məc.* 1. Yeməyə ehtiyac hissi // uzun müddət doyunca yeməmə. Aclığından dişləri kilidlənən… insanları.. Aclıq yağır baxışlardan.

2. Ümumiyyətlə qıtlıq, hər hansı istehlak şeylərinin azlığı, çatışmaması, tapılmaması. Budur yoxsulluğun, aclığın sonu. Deyirlər: «Kolxozda aclıq olarmı?»

3. Məhsulsuzluq və ya başqa bir ictimai fəlakət nəticəsində əmələ gələn qıtlıq, qəhətlik, ərzaq yoxluğu. Dözər aclığa da bir iftixarla. Bu bayraqda canlanır bir son aclıq dünyası..

**Açar**, *is.* Qıfılı açıb bağlamaq üçün dəmirdən qayrılmış alət. // *məc. mənada.* Yaşa, elmin qadir səsi! Bir Tanrısan; Qıfıllanmış hikmətlərə sənsən açar.

**Açıq**, *sif.* 1. Səmimiyyət ifadə edən, səmimi. Ondakı hər fikrin açıq gözləri. Dedim bir az açıq danış; Bu sözün sirri nədir.

2. Örtüsüz heç bir şeylə örtülməmiş. A qızım, üzündən götür duvağı; Qoy açıq görünsün ayın qabağı.

**Açıqlıq**, *is.* Açıq yer, düzəngah, açıq sahə, meydan. Teylənir dağların qılınc yalında; Bəzən açıqlıqda, bəzən qalında.

**Açıqürək**, *sif.* Səmimi, ürəyiaçıq. Açıqürək, qaraqabaq bir loğman kimi.

**Açılmaq**, *f.* 1. Çiçəklənmək, görünmək, zahir olmaq. Çiçəklər açılıb quşlar güləndə.

2. Başlanmaq. Açılır ortada bir rəsmi söhbət; Ayağa qalxaraq ministr Elxan.

3. Buluddan azad olmaq, aydınlaşmaq, ayazımaq. Günəş qırpınanda açıldı hava; Dayandı ordular, durdu üz-üzə.

**Açmaq**, *f.* 1. İnanıb söyləmək, açıqcasına demək. Kimdir açıb deyən İmrana bunu; Gəl məndən gizlətmə, aç, söylə aşkar.

2. *məc.* Xoşuna getmək, ürəyinə yatmaq, sevindirmək. Nə də ki o durna gözlərin sənin; Artıq güldürməyir, açmayır məni.

3. Həll etmək, yoluna salmaq, tədbir görmək. // Vidadi! Darıxma, bizdə məsəl var; Bir yandan bağlayan, bir yanda açar.

**Ad**, *is.* 1. Doğulduğu zaman adama verilən şəxsi isim. «Ay qız, nədir adın?» // Hər çiçəyin bir adı var… [Xosrov:] Adları çoxsa da, özləri yoxdur!.. [Məryəm:] Lənətə gələydi Xosrovun adı!.. / Adına insanlar – Məcnundur – dedi. Odlar ölkəsidir müqəddəs adın.

2. Şöhrət. Adın şərəflidir sənin ey qadın! Vaxtsız öldünüzsə, durur adınız; Hər gələn sabaha, hər keçən günə; İnsanın hünəri, eşqi ad olsun… Adın var xalqımın hər alqışında Düzü, qorxuludur Eldarın adı.

3. Bir şeyin şifahi şairəsi. İndidən adını qoyuram «Maral» / dedilər o günün adına siniflərin davası Bir də hər insanın. Hər şeyin adı / İşçilərin adından bir elçidir bu bayraq. Nə Məcnun, nə Leyli, nə də biyaban qalmamış, onların adı yaşandı..

4. *məc.* Əsas, bəhanə, səbəb mənasında. O hər axşam kef çəkməyə gedər iclas adına. İnsanlıq adına divanlar tutduq – O da insanlığın böyük adilə bizi alqışlar. Dedim: Bir şey yazım – həyat adına..

◊ Ad almaq – şöhrət qazanmaq, məşhur olmaq, yaxşılıqda məşhur olmaq. Bir ad alacaqmış Məhəmməd Qacar… Ad vermək – qiymətləndirmək. Şair bu insana nemət ad vermək.. Hələ baxaq ellər. Ona nə ad verir. Ah, nə deyim, nə ad verim bu aləmdə mən sana? Mən nə deyim? Nə ad verim o ötərki vədlərə? Ad qoymaq – yaxşı işləri ilə adını əbədiləşdirmək, şöhrət qazanmaq (bu mənada «ad qoyub getmək» şəklində də işlənir.) Yetişdi sahilə köhnə tərlanım; Tarixdə ad qoyan fəhrəmanım. Dünyada bir ad qoysa da, İnsan ola bilməz / Sabah çinli dostum ad qoyur Çində; Tarixdə ad qoydu / Adı var, özü yox – yalnız sözdə olub həqiqətdə mövcud olmayan şey haqqında. Özü bir yoxluqkən, adı var idi. Ad tutmaq – yada salmaq, xatırlamaq. Edilən cinayətlərin adını tut onlardan xəbər al! Adı çəkilmək – xatırlanmaq. Adım çəkiləm bəxtimdən küsdüm. Ad çıxarmaq – şöhrət qazanmaq, məşhur olmaq. Divarlarda ad çıxarmış qəhrəmanların..

**Ada**, is. *[coğr.]* hər tərəfi su ilə əhatə olunmuş quru; cəzirə // Təşbih, bənzətmə mənasında. Burjua qanlı bir dəniz; Sən ortalıqda bir ada…

**Adam**, *is.* [ər. adəm] 1. Heyvandan fərqli olaraq danışmaq və düşünmək, ictimai əmək prosesində alət qayırmaq və ondan istifadə etmək qabiliyyətinə malik olan canlı məxluq; insan, bəşər. Adam anasını heç unudarmı? Baxır gözlərinə, inanmır adam.

2. *məc. (dan.)* Arxa, havadar, tərəfdar, köməkçi, himayəçi, qohum-qardaş. Baxır qırılmasın bizim adamlar. Şair, Cavad xanın adamıyıq biz.

**Addım**, *is.* 1. Yeriyərkən ayağın qaldırıb irəli atılmasından ibarət hərəkət; qədəm. O yeridi beş-on addım. Bəzən iti, bəzən seyrək. Addımlarımla mən; Yaxınlaşdım ona..

2. «Sürətli», «geniş», «qəti» və s. sözlərlə bərabər bir şeyin irəliləməsini, inkişafını göstərmək üçün işlənir. Əsrin geniş addımları sürət talandan bəri..

◊ Addım atmaq, *f.* 1) müntəzəm addımlarla yerimək, irəliləmək, irəli addım atmaq. Mən addım atdıqca hey ağır-ağır. 2) *məc.* Təşəbbüs etmək. Kimdir addımını sağdan atanlar? Deyib addımını irəli atır.

**Addım-addım**, *z.* Ağır-ağır, yavaş-yavaş. Sən dolaşdın bu yerləri addım-addım…. Addım-addım, asta-asta, türbəyə ayaq basır.

**Addımbaşı**, *z.* Hər addımda, hər yerdə, tez-tez, arası kəsilmədən. Hər addımbaşında bir yeni nemət; Hər addımbaşında bir kənd, bir şəhər.

**Addımlamaq**. 1. Müntəzəm addımlarla yerimək, irəliləmək, irəli addım atmaq. Qoca rəssam addımlayır səndələyərək.

2. *məc.* Ötmək, keçmək, ötüb-keçmək.. O tabutun arxasınca addımlayır bir şəhər günlər addımlayır, gedir irəli.

**Addımlıq**, *is.* 1. Adətən saylara qoşularaq məsafənin neçə addım olduğunu göstərir. Barı addımlıq bir mənzil isə..

**Adət**, *is.* [ər.] 1. Hər hansı bir xalqın həyatında qədimdən bəri qəbul edilmiş və kök salmış ənənə, rəsm. Hər elin, hər günün öz adəti var. [Azər baba:] Bu qoca dünyada bir adət də var. Qadın olan yerdə ədalət də var!.. ..Hər qanundan, hər adətdən. Yemiş dönə-dönə və diksinmişdir. // Qayda, dəb. Elminlə tapdadın məphus adəti.. Ayrıla bilmərəm mən bu adətdən.

2. Bir adam üçün adi hal almış qayda. Üsul, hərəkət tərzi, təmayül; vərdiş. Bir əllə də qılınc vurmaq mənim köhnə adətimdir. Bu tərki-dünyalıq yaman adətdir. [Azər baba:] Fələkət özü də bir cür adətdir. Adətim olmuşdur alışıb yanmaq. Burjuyun qan sormaq olmuş adəti. Mən də bu sadəlik bir adət olmuş. Əzəldən məsəldir; taleyi, bəxti / Cevizdə sınarlar, bu bir adəti – Qayalardan atılmaq ona bir adət olmuş.

3. Xasiyyət mənasında. «Buğa, bu adətdən bir dəfə əl çək!»

**Adi**, *sif.* [ər.] Sadə başqalarından fərqlənməyən. ..adi fəhlədir! – [Azər baba:] Bu adi su deyil, Abi-həyatdır. – Boğmaca cəhd edir öz pəncəsilə. Boyük bir insanı adi sətəlcəm – Adi daşdan qurur, adi taxtadan.

**Adil**, *sif.* [ər.] Ədalətli. Buyruq sizinkidir adil hökmdar; Sizdə ədalət də, fəzilət də var. – Ha… ha… qəm yeməyin, adil hökmdar!

**Adlanmaq**, *f.* Müəyyən ad danışmaq, müəyyən adı olmaq. [Vəzir:] Ey Xosrov adlanan böyük hökmdar! – Tərk etdim o Qazax adlanan yurdu… – Qardaşlıq adlanan ilk nəğməmizə. Quşlar da səs verdi…

**Adres,** *is.* Ünvan. Məni incidir… bəzən... Şübhəli qızlardan adres almağım..

**Adsız**, *sif.* Adı olmayan // Adı məlum olmayan. Adsız qəhrəman.

**Adsızlıq** «Adsız»dan *mücər*. Gördüm adsızlığını və savadsızlığını ləğv edən... bolşevik işçiləri.

**Afərin**, *nida* (*fars.*) Tərif, təhsin, ifadə edir; əhsən, məhrəba. Bizdən uzaq xəyalına afərin!

**Afət**, *is.* [ər.] *məc. (şair)*. Son dərəcə gözəl qız, qadın, dilbər haqqında. Çox da düşünməsin o afətcan / Neçin utanmadınız? Heç satılırmı afət?

**Afitab**, *is.* [*fars.*] Günəş. Yerdə idi afitab..

**Ağ.** 1. *sif.* Qar, süd, tabaşir rəngli (qara əksi). Nurlar tökülürdü ağ saçlarından; Tarixlərin şahididir mənim bu ağ birçəyim; Ah, bu axşam nə gözəldir ondakı mənaya bax. Parçalanmış ağ buludlar göydə bağdaş quraraq; Burda ağ suların xoş nəşiyəsi; Gördüm ki, gəlinəm… geymişəm düm ağ…

2. *sif.* Təmiz, yazılmamış. Sinəmdə ağ qalan bir dəftərim var.

3. *sif.* Aydın, aşkar, gizli olmayan. Ömür dedikləri dalğalı bir su… Ağdır insanların fikri, duyğusu.

4. *iş. (məc., tar.)* sosializmin düşmənləri mənasında. Sahillər boyunca qovduq ağları. Qoy ağlar da, qaralar da; Səadətlə nəfəs alsın; Ağ əlləri … sıxdığı zamandan satdı Şuralar ölkəsini; El böləndü … ağ və qızıl əsgərə.

5. *sif. (məc.)*. Xeyirli, faydalı, xeyir-bərəkət gətirən sonra baş götürüb dön bir ağ yelə; Yerişin oxşasın əsən ağ yelə.

◊ Ağ kəfən geyinmək, *Bax* ağ geyinmək. Ağ kəfən geyindi düzlər, yamaclar. - Ağ geyinmək, Qarla örtülmək. Dümağ geyindikcə o, [qış] başı batmış, Yenə qar basacaq dağ döşlərini, Ağ gün görmək - ömür vəfasızdır bizi tərk edir, heç ağ gün qara gün ömürdən gedir. Bir ağ gün eşqilə hər qara gündə, Günəşdən, havadan, sudan doymadıq; Ağ günlər əsrinə çox görmə bunu… Həyata, insana ödə borcunu. Bax ağ günə çıxmaq. Xoşbəxt olmaq, xoşbəxt həyat keçirmək, ehtiyacdan qurtarmaq. Ağ günlərə çıxsın sizin Əli bəy; Körpə quzum, ağ günə çıx; Yenə Bakı tez çıxardar bizi ağ günə.

**Ağ gün** (*məc.*) – Xoşbəxtlik, səadət. Hər ağ gün, hər gözəl bayram onunçün bir fəlakətdir. Ağ ünün işığı görünər sizə. Dostun ağ günündə qara geyənlər. Dedim «qara günün»,

«ağ günün» də var… Bəlkə də hər bir ağ gün bir qara gün deməkdir. Pozuldu ömrümün ağ gün dəftəri. Ağ olmaq. Heç cür razılaşmamaq, üzünə ağ olmaq, üzünə qayıtmaq. Bəzən tanrıya da ağ olur insan. Yoxsa ağ olursan böyük Allaha.

**Ağa**. *is. (köhn.)* 1. Hakim, istismarçı siniflərə mənsub adam; mülkədar, bəy, zadəgan. Buyruq sizinkidir möhtərəm ağa! / Bir el ağasıydı əvvəlki ərim / Xəstədir «ağalar, qullar dünyası» / …çağırır.. Ağasız, kölәsiz bir günə.

2. Sahib, sahibkar, yiyə, hakim. Olarsan onlara sən də bir ağa.

3. Keçmişdə mənsəb sahiblərinə, yaxud yaşlı və hörmətli adamlara verilən ləqəb – [İslam:] Xoş gördük, ağalar!

**Ağac**. 1. Budaqları və bərk gövdəsi olan çoxillik bitki. Sapsarıdır ağacların yarpaqları // Xoşdur ağacların sərin kölgəsi // Söyüd ağacında bar ola bilməz // Nə bir kölgəlik var, nə də bir ağac.

2. Ağacdan hazırlanan tir, dirək, taxta, şalban və s. – Dirəyi titrəmiş ağac evlərin // Axşamdan uzandı ağac taxtına.

3. Dar ağacı – *məc.* ölüm. Qaçıb qurtarmışam dar ağacından // Asılacaqsınız dar ağacından.

◊ Ağaca dönmək 1. bərkimək, qurumaq, sərtləşmək;

2. Hərəkətsiz hala gətirmək, hissizləşmək, hissini itirmək. Bərkiyib ağaca döndü qolları.

**Ağalıq**, *is.* Hakimiyyət, hökmranlıq. – Bəxtiyar arzular eylə bir dünya – Ağalıq, kölәlik olmasın orda.

**Ağarışmaq**, *f.* Ağarmaq, görünmək *(çoxlu ağ şey haqqında)*; ağarmağa başlamaq, Üfüq yavaş-yavaş ağarışırdı; Tarlada üç dəstə qız yarışırdı.

**Ağarmaq**, *f.* 1. Qarla örtülmək, qar basmaq. Ağarır süd kimi dağların qarı.

2. Görünmək, öz ağlığı ilə nəzərə çarpmaq *(ağ şey haqqında)*. Ağarır sadə izlər belə yox daşlarda; Ağ dumanlar ağarır qaşlarda. Ətəkli çöllərdə ağaran dəniz.

3. Saç və saqqala dən düşmək; çallaşmaq. Varsın da qədrini bilməsin həyat! Ağardı saçların, ömrün də yarı //Ağarsa saçlarım, tökülsə dişim. İstərəm yetişəm o yarə bəlkə // Saç ağardı, unutmadım sizi mən // Ağaracaq saçların.

4. Açılmağa başlamaq; dan yeri sökülmək, işıqlanmaq. Ağardı kainat Günəş gülərkən / Ağarır dan yeri. // Ağardı pəncərəm oyandı şəhər.

5. *məc.* Üzünün rəngi qaçmaq (qorxudan və s.). Ağarmış bənizi dümağ süd kimi.

**Ağbığlı**, *sif.* Satdı Şuralar ölkəsini uzun və ağbığlı generallara.

**Ağbirçək**. *sif.* Saçı ağarmış yaşlı, qoca, hörmətli *(qadın haqqında)*. Gözündə kainat başqadır bütün; Gənclikdən zövq alır ağbirçək qarı // Ağlayır ixtiyar, ağbirçək ana // …Ağsaqqal ata, ağbirçək ana..

**Ağbirçəkli**. Bax ağbirçək … Ağbirçəkli Tamam qarı öz gəlinlik paltarını sandığından çızardaraq … // Gəlinlər də, ağbirçəkli qadınlar da; Fərhad kimi gülünc vurub bu dünyada // Öz oğlunu yola salmış ağbirçəkli anası da // Nəzər yetir yurdumuza, min büsat var, cəlal var; Toy paltarı geyinmişdir ağbirçəkli qarılar // Ağbirçəkli nənəmi də basıb keçsə bu təkərlər.

**Ağdaşlı**, *sif.* Tikintidə istifadə edilən daş növü. Yerində ağdaşlı evlər qurulur.

**Ağı**, *is.* Zəhər. Yaşamaq onlara ağıdan acı, Axtarır içməyə ağı…

**Ağıl**, *is.* [ər.əql.] İnsanda düşünmə və dərketmə qabiliyyəti; zəka // Şüur, idrak. Ağıl deyir, qalmayacaq yer üzündə qandan əsər; Hər könülə ilham kimi gələcəkdir gözəl səhər / Bir mənim ağlımın kəmliyinə bax / Ayıq ağlımızı şaşırırıq biz… / Ən böyük ürəklər, yetkin ağıllar / Ağlın sənəti işıqlanmadı. Ağlımın göyləri naxış-naxışdır / Ağıl ummayıram boş kötüklərdən / Deyin, heç olmasa, ağlınız varmı? Nə üçün ağlımız bu sirləri…

◊ **Ağlını başına yığmaq** – ağıllanmaq, ağıllı olmaq, öz hərəkətini ölçüb-biçmək, fikirləşmək, düşünmək. O sözün ağlımı yığdı başıma. Ağıldan getmək – *məc.* Məftun olmaq, vurulmaq, valeh olmaq. [Məryəm:] Ağıldan gedərdi məni görənlər. Ağlına gələni danışmaq – fikirləşmədən nə gəldi demək, danışmaq. Ağlına gələni danışır bir-bir. Ağlı çaşmaq – çaşıb qalmaq, nə edəcəyini bilməmək. Muğan sakit, ağlım çaşır, fikrim dolaşır.

**Ağıllı**, *sif.* 1. Dərrakəli, düşüncəli, şüurlu. Mənim çox ağıllı bir gəlinim var. *məc.* Tədbirli, öz işini bilən – gör nələr danışır ağıllı təlxək. [Xosrov:] Şapur, ağıllı dost, sən danış barı!

2. Ağla əsaslanan, ağlabatan. Hər ağıllı, hər mənalı deyilən söz; Bir səhər ki, min bir ətir saçmalıdır / Ağıllı sayılan sözlər.

3. *məc.* Tərbiyəli, qanacaqlı. Mənim şirin balam, ağıllı qızım / Düzdür, ağıllıdır qızımız Günar. / Ağıllı baladır, Allah saxlasın. Gizləmə.. gizləmə, ağıllı gəlin!

**Ağılsız**, *sif.* Ağlı olmayan, düşüncəsiz, şüursuz, axmaq, gic. [Vəzir] Of… məndə olsaydı, bundakı hünər!.. [Vaqif] Ağılsız köpəklər ulduza hürər.

**Ağır**, *sif.* 1. Böyük çəkisi, vəzni olan (yüngül ziddi) [Azər baba: ] …Ağır barxanamı çəkən də sənsən / Ağır qayaları, daşları dələr / Yaxın bir keçmişin ağır daşını. Çırpdın öz daşına… / Tomlardan ağırdır hər bir varağı.

2. Güclü, şiddətli, təsirli. Boğazdan yapışır ağır əlləri / Toplardan ağırdır sözün nəfəsi. Ağır söz gülməyir dodaqlarına.

3. *məc.* Əziyyətli məşəqqətli, əzablı, məşəqqətlə dolu, kədərlə dolu. Mən indi bildim ki, xeyli ağırdır Dünyanı düşünən bir şair. Hər günü, saatı ağır bir ildir. Elə can qoymadan ağır vergilər. Ağır aylar, ağır illər / Ağır aylar, illər Bükdü qamətini … Göylərə sığmayan ağır zamanlar / Ağır gündə xoş xatirə təsəllidir.

4. *məc.* Bərk, dərin. Qızcığaz oyanır ağır yuxudan / Ağır keçən yuxularda ürək dincəlir / Sizi yatırmasın ağır yuxular / Ağır bir yuxuyla keçir min səhər… Bir ağır yumruqkən qəlbimə haman / Həyata bir süzgün baxışla ruhum… Ağır yatan ovçu dostum / Gözlərini aç daha..

5. *məc.* Dözülməz, təhəmmül edilməz. …Güzəran ağır /

Məni qınamayın Ağırdır.. Qatillər evində məclis keçirmək / Ağır günləri də az görmədik biz. Ağır bir daş oldu ürəyimizdə.

6. *məc.* Nəticəsi təhlükəli, qorxulu, çox ciddi. Ağır yaralanmış o qart canavar.

7. Gərgin, çətin, narahatedici, darıxdırıcı, sərbəst olmayan. Mən də ağır bir nəfəslə o söhbətə dözürəm.

8. *məc.* Ağırlıq təsiri bağışlayan (öz böyüklüyü, çoxluğu, sıxlığı, tutqunluğu, alçaqlıqlı, rənginin qəlizliyi, sürətinin yavaşlığı və s. ilə). Bəzən bu səfərdə ağır dumanlar / Gəlib quldur kimi kəsir yolunu / Ağır elli oymağım var, obam var.. Samur çayı salam verir bizim ağır ellərə.. // çoxluq, böyüklük mənasında / Aranlı, yaylaqlı ağır ellərim / ..Ağır elli / Axar çaylar / Ağır ellər kimi sən də talandın..

9. Qəliz, kəsafətli, pis iylənən, nəfəsi çətinləşdirən, darıxdırıcı, dözülməz. Bəzən bu səfərdə ağır dumanlar / Gəlib quldur kimi kəsir yolunu ..

10. *məc.* Təmkinli, vüqarlı, ciddi, heysiyyətini gözləyən. ..Ovçu könlüm.. ..ağır gəzib, ellər dolanır.. / Ağır dağlar .. yas tutur / Ağır danışdığım, ağır dindiyim.

11. Toxunan, qəlbi incidən, ürək sındıran. Xatirə dəyən, xoşagetməz, acı / O dağlardan ağır istehza nədir?

12. Kök, yoğun, ətli-canlı. Ağır gövdəmizlə ağzını yumduq.

13. *məc.* Cansıxıcı, faciəli, ələmli, kədərləndirici. Düşündü bir ağır dərdi var kimi / Qış çox ağır keçdi Muğanda bu il.

14. *(hərb.)* Çox güclü təchizatı, döyüş üçün güclü vasitələri olan. Ağır toplar divan tutdu, yazıqlar sizə / Ağır toplar

kimi dinsin şerimiz / O ağır gövdəli ağır topların .. Toplardan ağırdır hər bir varağı

◊ **Ağır oturmaq** – Özünü ciddi aparmaq. Bir də ağır oturmağı, ağır durmağı. Ağır gəlmək – könlünə dəymək, qəlbinə toxunmaq qəlbi qırılmaq [Dedi:] Az da görünməyim nədən sizə ağır gəlir?

**Ağır-ağır**, *z.* Yavaş-yavaş, tədriclə, asta-asta, tələsmədən. Qara zənci acığından nəfəs alır ağır-ağır. Ağır-ağır zamanların / Ömrə yük olmayır vaxt ağır-ağır / Qara zənci acığından nəfəs alır ağır-ağır / … Asiman da Nəfəs alır ağır-ağır … / Qatar durur … Yollar susur … Yer tərpənir ağır-ağır Hey düşünür ağır-ağır.

**Ağırlaşmaq**, *f.* 1. Daha ağır olmaq; yükü, çəkisi çoxalmaq. Birdən ağırlaşır çiynimdə tüfəng.

2. *məc.* Tənbəlləşmək, atilləşmək (?), özündə bir ağırlıq hiss etmək, hərəkət edə bilməmək. Elə zənn etmə ki, ağırlaşmışam..

**Ağırlıq**, *is.* 1. Ağır şeyin halı (yüngüllük isminin ziddi). Dağlar ağırlıqda dərdim var mənim.

2. «Ağır»dan mücər. Ömrün ağırlığını öz çiynində daşıyan..

3. *məc.* Qayğı, əziyyət, zəhmət. Hər saatın, dəqiqənin ağırlığı ilə dönür.

4. Vüqar, təmkin, ciddilik... Təbiətində, doğrusu, düşkünlük, ağırlıq vardır..

**Ağız**, *is.* 1. İnsan və heyvanların üzlərinin alt tərəfində, alt və üst çənələri arasında yerləşən yeyib-içməyə və səs çıxarmağa məxsus üzv. – O, mənim ağzımda şirin dilimdir // Dişlər inci, ağız püstə // Ziyarətə gələnlərin ağzı qırıl, dili laldır. Ağzın kiçik bir püstədir // O da ilham alır insan ağzından // Sözüm ağızlarda əzbər çəkilir. O, ağzımda dilimdir.

2. Saylarla — dəfə, yol. Bir ağız şikəstə, bir ağız Qatar.

3. Odlu silahların lüləsinin ön tərəfindəki deşik, güllə çıxan tərəf. …Tüstülər qopmuş … toplar ağzından.

◊ Ağzını qurd kimi ayırmaq. Hücum çəkmək, Ağzını qurd kimi ayıracaq qış. Ağzını açmaq. 1) Danışmağa başlamaq. O axşam ağzını açmadı Sarvan // Qara zənci ağız açır. 2) Başlamaq, güclənmək – Elə ki, ağzını açır gilavar. 3) Məlumat, bilgi vermək, Açacaq ağzını qalın kitablar. Ağız açıb o gülməmiş… nəşələrə biganədir. Ağzını bağlamaq – Örtmək, oxumamaq. Təəssüf ki, yetişincə bir çörəyə; Bağlayırıq kitabların ağzını biz. Ağız burmaq – bəyənməmək, məhəl qoymamaq, narazılıq etmək Nə yaradar, nə də qurar, Yaradana ağız burar / Ağzı burulanda gülərək həmən xırda bir kitabça qapıb cibindən ..mənmiyəm yaramaz?... Ağzını büzüşdürmək *məc.* – narazılıq ifadə etmək, bəyənməmək, məmnuniyyətsizliyini üzünün ifadəsi ilə anlatmaq. O murdar ağzını büzdü şəriət… Ağzında dişi qalmamaq – dişləri tökülmək, qocalmaq. Ağzında qalmadı sağlam bir dişi… Ağzına qıfıl vurmaq – danışmamaq, cavab verməmək. Qıfıl vurar öz ağzına / Ağzı qıfıllanmış xəzinələr. Ağzına qıllı (çullu?) dovşan sığmamaq – həddindən artıq lovğa, təşəxxüslü, özünü öyən, gopçu adam haqqında – Ağzıma qıllı bir dovşan da sığmaz. Ağzında sözü dolaşmaq – müxtəlif psixoloji vəziyyətlərlə bağlı danışa bilməmək, fikrini çatdıra bilməmək, aydın danışa bilməmək. Cəlalın ağzında dolaşır sözü. Ağıza-dilə düşmək – dillərə düşmək, dillərdə sözü söyləmək. O gündən şücaəti ağız-dilə düşdü. / Nədən şeirlərim ağıza düşüb. Dağların çobanı məni anmasın? / Düşdü ağızlara babanın adı Ağzını yummaq – qorxutmaqla, hədələməklə, yaxud pul verməklə və ya başqa bir vasitə ilə susdurmaq, sükuta, danışmamağa məcbur etmək. Ağır gövdəmizlə yumduq ağzını (pulemyotun ağzını) / Ey hava dalğası, ağzını bir yum! Ağzında sözü kəsilmək – fikrini qurub (deyib) qurtarmağa macal tapmamaq, sözü yarımçıq qalmaq – Atlının ağzında kəsildi sözü. Ağzı kilidlənmək – öyrənilməmək, açılmamaq. Ağzı kilidlənmiş lal qərinələr… Ağızda-dildə gəzib dolaşmaq. Gəzib dolaşardı ağızda, dildə... / Ağızlarda gəzən sevdası varmış. Ağzına

götürmək – aşıb-daşmaq, sel-su basmaq. Ağzına götürür yaxın kəndləri *(Kür çayı haqqında deyilir)*. Ağzından od parlamaq – şiddətli döyüşmək, qılınclaşmaq mənasında. İlanbaşlı qılıncların od parlayır ağzından. Ağzı od tökmək – atəş açmaq. Messerşmidtlərin ağzı od tökdü. Ağzından söz qapmaq – dərhal ləngimədən öyrənmək – Ağzından qurd kimi söz qapanları [iclaslarda]… ağızlardan söz qapar. Ağzı üstə yerə düşmək – yıxılmaq. Ağzı üstə yerə düşür körpə uşaq. Ağzı xeyir – xeyir, xoş söz danışan adam haqqında. Ağzı xeyir sözlüm, incimə məndən. Ağızlarda əzbər olmaq – hər tərəfə, hamıya bəlli olmaq, yayılmaq. Bəli, kiçik bir hadisə, yaxud xəbər; Görürsən ki, ağızlarda əzbər olur.

**Ağız-burun sallamaq** – narazı olduğunu bildirmək, küsmək, deyinmək. Yoldadır, sallanmış ağız-burunu…

**Ağızda-dildə şərbət olmaq** – sular şərbət oldu ağızda-dildə.

**Ağızdan-ağıza dolaşmaq** – yayılmaq, bir-birinə keçmək. Dolaşır ağızdan-ağıza. Ağız-ağız gəzmək – Ağız-ağıza, bir ağızdan o birisinə keçmək. Barı gəzsin ağız-ağız, İndən belə yazdıqlarım… Ağız-ağız – Ağızdan-ağıza, bir ağızdan o birisinə keçərək. Şöhrətini ağız-ağız; Oymaq-oymaq eşitdik biz / O gün boyu və saçları danışılır ağız-ağız..

**Ağlamaq**, *f.* 1. Şiddətli ağrı, ruhi sarsıntı və ya başqa bir ağır təəssürat nəticəsində göz yaşı axıtmaq. Başının üstündə ağlayır ana / Onunla bir ağla, onunla bir gül! Gah gülər, gah ağlayar – həm dəmdə bir mənası var. Barı kor olmasın o ağlamaqdan [Qızı qana boyanmış görüb] Günüm, gecəm keçir ağlar. / ..Mən buna bicdən ağladım, inan!

2. *məc.* Yas tutmaq, matəm saxlamaq. Buludlar kişnədi, göylər ağladı. / Quşlar da ağlayar ellərimizdə. / Gözəlsiz ağlayır ən böyük xəyal / Baxışlarda bahar.

3. Həyatından, yaşayışından, vəziyyətindən şikayətlənmək. [Fərhad:] Didib parçalayım o daş qəfəsi; Bir də ağlamasın cananın səsi!

**Ağlar**, *sif. məc.* Qüssəli, ələmli, kədərli, fəlakətli, müsibətli. Hanı Füzulinin ağlar qəzəli. Vaqifin gözaltı gülən gözəli. Gəlsin Füzulinin ağlar qəzəli!

◊ Ağlar (günə) qoymaq – bədbəxt etmək, dərdə salmaq, müsibətə salmaq. O, çox anaları ağlar qoyubdur.

**Ağlar**, *is.* Ağqvardiyaçılar, əksinqilabçılar. Gəliyor nəzərə yenə də ağlar… / «Ağların» başına dünya dar oldu. / Bizdə nə ağlar var, nə də qaralar.

**Ağlargözlü**, *sif.* Gözüyaşlı, gözü yaşla dolu. [Şirin:] Bəs Məryəm, bəs ağlargözlü o ana?

**Ağlaşma** 1. «Ağlaşmaq»dan *f.is.*

2. *is.* Yas, matəm. Qarışdı bir-birinə ağlaşmalar, alqışlar.

□ Ağlaşma açmaq (qurmaq) – bir yerdə ağlamaq. Bir ağlaşma qurdu göyün nərəsi.

**Ağlaşmaq**, *qarş.f.* Birlikdə ağlamaq, ağız-ağıza verib ağlamaq, bir-birinə qoşulub ağlamaq. Anasız ağlaşır körpə balalar // Ölünün üstündə ağı deyib, bir yerdə ağlamaq. Əzizlər ağlaşır asta səs ilə…

**Ağlatmaq**, *f.* 1. Ağlamağa məcbur etmək, birinin ağlamasına səbəb olmaq. O, bəzən güldürür, bəzən ağladır… Onu da ağladan bir intizardır… Yıxılmış torpağa, ağladır məni.

2. *məc.* Çox təsir etmək, son dərəcə mütəəssir etmək... Ağlatmayır insanları; Leyli-Məcnun dastanları. / O kəsilən başlar, tökülən qanlar Duyan ürəkləri çox ağladarmış. Matəmin ağlatdı Azərbaycanı.. Ağlayıb, ağlatdı bizim elləri..

**Ağrı**, *is.* 1.Duyğu sinirlərinin qıcıqlanması nəticəsində bədənin hər hansı bir yerində hiss edilən əziyyət, əzabu sancı, sızı; acı. Ağrısını unutmuşdur yaralılar.

2. *məc.* Kədər, qəm, qüssə, dərd, ələm, iztirab hissi. Fəqət hər ağrıya köksünü gərən / Səni balam kimi bağrıma basdım; Sənin hər ağrına mən qulaq asdım./ Bu həsrətin ağrısını duydu Əmirxan.

◊ Ağrı çəkmək – hamilə qadınlarda: sancı və əziyyət çəkmək, doğmağa yaxın bərk sancı // *məc.* mənada. Gecə boylu bir qadındır … ağrı çəkərək; Xoşüzlü bir uşaq kimi

doğur səhəri. Çəkdin ağrısını illər uzunu / Ağrılar çəkirəm hər səhər erkən.. Şahımız, sən çəkdiyimiz ağrıları duya bilsən.. Səkdiyimiz ağrıları, zillətləri unuduruq. Ağrın(ı) alım (ağrın ürəyimə) – birinə mehribançılıqla xitab, müraciət və ya oxşayıb əzizləmə zamanı işlənən ifadədir. Siz ciyəz sağ olun, ay ağrın alım; Bircə Xanlarımdır – dövlətim, malım. Nə yaman gecikdin, ay ağrın alım, ..Ağrın alım..

**Ağrılı-ağrısız**, *sif*. Ağrılı-ağrısız çimdik də alır.

**Ağrımaq**, *f*. 1. Bədənin bir yerində ağrı hiss etmək. İndi də ağrıyır, demə, unutduq?

2. *məc*. Kədərlənmək, ürəyi sınmaq, incimək. Şahim / Vicdanınız sonra ağrıyar…

**Ağrıtmaq**, *f*.1. Əziyyət vermək, ağrı vermək, incitmək, ağrıya səbəb olmaq. [Xosrov:] Bu dərd məni ağrıdacaq qəbrədək. Bax, məni incidir, ağrıdır bəzən. Başqa bir qüsur da ağrıdır bizi.

**Ağrıyan**, *f.sif*. Əziyyət verən, incidən, narahat edən. Ağrıyan başların bəlaları var.

**Ağsaçlı**, *sif*. 1. Saçı ağarmış, qoca. Dünya görmüş o ağsaçlı qarıya bax! Görəcəyəm: kolxoza bir səslə yazılan əməkçilərin ağsaçlı qarısını. Sən ağsaçlı bir millətı şöhrətisən, vüqarısan/ Ağsaçlı – qocaman!

2. *məc*. Qədim. Ağsaçlı keşmişləri salsan bir az da yada.

**Ağsaqqal**, *sif*. və *is*. 1. Saqqalı ağarmış, qoca. Ağsaqqal ata, ağbirçək ana.

2. *məc*. Bir ailənin, elin, cəmiyyətin ən yaxşı və hörmətli adamı, başçısı. Mən bu yanan kəndin ağsaqqalıyam. Bir el tapşırılmış bir «ağsaqqala»

**Ağürək**, *sif*. Qorxaq, cəsarətsiz, ürəksiz, aciz. [İslam] Eh… Bu şairlər də ağürək olur.

**Ağzıavara**, *sif*. (avara, səfeh, axmaq). Ağzıavaradan dost ola bilməz.

**Ah**. 1. Nida. Ağrı, həyəcan,həsrət və s. hissləri ifadə edir. Ah, duyan, düşünən nə bəxtiyardır / Ah, müqəddəs qadın, müqəddəs ana! Ah, şu dərdli könlüm, şu xəstə. Könlüm..

Ah… mənsəb! Ah, şöhrət!.. *İs. mənasında*. Fəryad, fəğan. Ahım dağlardakı dumana dönsün / Bükdü qamətini ahlar, amanlar. …Məzlumların ahı… Vurğunun ahları yüksəldi göyə.

□ Ah çəkmək – kədər, qüssə, həsrət, heyrət, həyəcan ifadəsi olaraq. «Ah» demək. Qoyun bir ah çəkim ərisin daşlar. Gülpəri ah çəkir, yalvarır, söyür.

**Ah zar, Ahu zar**, *is.* Ah çəkmə, sızlama;, fəryad, inilti / Ah günlərin sonu ahu zar olub.

**Aha**, *nida.* 1. Bir şeyi birdən-birə başa düşdükdə, bir şeyi axtararkən gözlənilmədən ona rast gəldikdə yaxud da unudulan bir şey birdən yada düşdükdə deyilir. Aha! Xilas üçün yüyürür Cəlal. [Məryəm:] De, sənsənmiş? Aha… ovlanan şikar. Aha, halal olsun bu Xuramana.

2. Təsdiq, razılıq bildirir, əlbəttə, yaxşı, hə, bəli. Aha, yerə enirik.

**Ahəng**, *is.* [*fars.*] Səslər, rənglər və s. arasında uyğunluq, müvafiqət. Sanki simfoniyadır bu gözəl ahəng. *Məc.* Büsbütün dəyişər, dönər ahəngi. Mətləbi qurtaraq, gəldi bir zaman. Gecənin ahəngi dəyişdi haman. Məclisin ahəngi yenə dəyişdi.

**Ahəngdar**, *sif.* [*fars.*] Qulağa (gözə) xoş gələn, qulaqları (gözləri) oxşayan, ahəngli, xoş lətif. Dil açmışdır orkestrin ahəngdar səsi.

**Ahənrüba**, *is.* [*fars.*] *bax* maqnit. *məc.* Cəzbedici qüvvə, cazibə… Ahənrüba kimi birləşən … əllərimizdir.

**Ahəstə**, *sif.* və *z.* [*fars.*] Asta, yavaş, ağır, üsullu. O mələk ahəstə qərib, rəvan.

**Ahu**, *is.* [*fars.*] Ceyran. *Məc.* Humay ahu kimi ürkərək həmən; Soxulur çadırın küncünə sarı.

**Ah-uf**, *is.* Dərd, kədər, qüssə, qəm. Ah-uf da deyirik.

**Ax**, *nida*. Təəccüb, arzu, həsrət və başqa hissləri bildirir. Ax, bu axşam nə gözəldir, ondakı mənaya bax; Parçalanmış ağ buludlar göydə bağdaş quraraq.

**Axan**, *f.sif.* axıcı, rəvan, qəlbəoxşayan. Axan şeyriyyəti duymadı əri.

**Axar**, 1. *sif.* Daim axan (axmaz əksi). Yenə axar çaylar üstdə dəmir körpü qurulacaq; Saatlarla o dalarmış axar sulara.

2. *məc.* Səlis, rəvan, ahəngdar. Noldu söylədiyin axar qoşmalar; Andımı həsrətlə səni hər nigar?!

**Axar-baxar**, *is.* Hər tərəfi açıq və xoş mənzərəlim yer, göz işlədikcə görünən yer; mənzərə. Dəyişir hər yerin axar-baxarı.

**Axıcı**, *sif. məc.* Bir yerdə qərar tapmayan, sabit olmayan, daim dəyişən. Zaman axıcı bir su..

**Axın**, *is.* 1. Sürətlə axan su; sel, iti cərəyan, güclü axan su, selab. Sən ki son nəfəsinlə vətəni andın; Çayların axını dayandı bir an.

2. *məc.* Arası kəsilmədən hərəkət edən insan və s. kütləsi, izdiham. Bu bir axındır ki, baş alıb gedir; İndi kəndlilərə də sirayət edir.

3. *məc.* Gediş, cərəyan. Ürəklərdə axın, qollarda qüvvət.

**Axın-axın**, *z.* Sel kimi bir-birinin ardınca, arasıkəsilməz axın kimi; aramsız. Ətəkli çöllərdən hey axın-axın; Qalxan dolaşalar çaqqıldaşaraq; Başımın üstündə dövrələr vurur.

**Axır**, *is.* Son, nəhayət, bir şeyin qurtaracağı, son nöqtəsi. Axırı puç olur dövlətin-varın; Axır qərargahı oldu biyaban.

**Axırda**, *z.* Son nəticədə, ən nəhayətdə, nəhayət. Axırda yaradır könül möhnəti / Onu da çox gördün axırda bizə.

**Axirət**, *is.* [ər.] Dinəi görə öləndən sonra insanların düşəcəyi ikinci və əbədi dünya. Axirət dünyası qalacaq bizə.

**Axırıncı**, *sif.* Bir şeyin sırasında sonuncu, ən axırda gələni, olanı. Əridi dağlarda axırıncı qış.

**Axış**, *is.* Axma, axma tərzi. Durğun sulardakı axışla ruhum.

**Axışmaq**, *f. məc.* Axın halına gəlmək, getmək, yayılmaq (bəzən «axışıb gəlmək» şəklində işlənir). Axışıb öz eli, ulusu gəlir… Axışıb atlılar, arabalılar.

**Axıtmaq**, *f.* Axmasına səbəb olmaq. Adam öldürmək ya yaralamaq. O, gənc ikən axıdıb bir igidin qanını.

**Axmaq[1]**, *f.* 1. *məc.* Gəlmək, tökülmək. Alovlar dağıdan xoş nəfəsindən; Hər əsgər qəlbinə min qüvvət axdı.

2. *məc.* Getmək, ötmək, keçmək (bəzən «axıb getmək» şəklində işlənir) Fikrində hissəsində inqilab yarat; Anla ki, hər zaman axır bu həyat.

**Axmaq[2]**, *sif.* Səfeh, ağılsız, gic. Bilirsənmi, ay axmaq. Axmaq! Koroğlunun bir təmiz adı; Bəylərdə, xanlarda tutar qoymadı.

**Axsaq**, *sif.* və *is.* Bir qıçı qısa və ya əlil olan, topal, çolaq. Sürünün axsağı arxada qalar.

**Axsamaq**, *f. məc.* İrəliləməmək, yaxşı getməmək, ləng getmək, geridə qalmaq. Axsadığım günlər oldusa bəzən, mən yıxılmadım.

**Axşam**, *is.* Günün axırından gecənin başlanmasına qədər olan vaxt, günbatan vaxt. Bir cənub axşamı mavi göylərə / Bu axşam şairim, şerim azaddır. Səhəri xoşüzlü, axşamı sərin…

□ Axşamınız xeyir – axşamçağı bir-biri ilə görüşdükdə söylənilən təbrik sözü. [Banu:] Axşamınız xeyir, igid balalar!

**Axşam-axşam**, *z.* Üfüqlər min rəngə… girir axşam-axşam.

**Axşamçağı**, *bax.* Axşamüstü. Günəş, günəş! Mənalısan axşam çağı.

**Axşamlamaq**, *f.* Yol gedərkən bir yerdə gecələyib qalmaq axşamı oraya keçirmək. Köçəri quş kimi hər yerə qoşar / Harda axşamlasa, orda əl yaşar.

**Axşam-səhər**, *z.* Həmişə, daim. Unutmaram bil ki, hər axşam-səhər. Tamam qocalıb da dörd qat əyil sən.

**Axşamüstü**, *z.* Axşam vaxtı, günbatana yaxın, hava qaranlıqlaşan vaxt. Axşamüstü qoy uzaqdan havalansın. Xanın səsi, Qarabağın şikəstəsi.

**Axtalamaq**, *f.* Axta etmək; İnsan və ya heyvanın erkəklik vəzilərini çıxartmaq, burmaq. Məni uşaq vaxtı axtaladılar.

**Axtalanmaq**, *f. məc.* Axta edilmək, erkəklik vəziləri çıxarılmaq, burulmaq. O insan qatili, o axtalanmış.

**Axtarış**, *is.* Cinayəti sübut edəcək əşyayi-dəlil tapmaq məqsədilə hökumət orqanları tərəfindən icra edilən axtarma, yoxlama işi, təftiş əməliyyatı. Bilirəm ki, bu axtarış düz axtarışdır. *Məc.* Ömrün yolu başdan-başa bir axtarışdır.

**Axtarmaq**, *f.* 1. Aramaq, tapmağa çalışmaq, Deyən ər axtarır şüur.

2. Əldə etməyə çalışmaq. Oğul, Sarvan! Soruşursan axtardığım şeylər nədir?

**Aqibət**, *is.* [ər.] Son, axır, nəticə, nəhayət. Qəlbə dəysən, yaman olar aqibətin; Zülmün aqibəti beləymiş demə!

**Aqil**, *sif.* [ər.] Ağıllı, müdrik, tədbirli. Onun **aqil** məsləhəti zaman-zaman; Yol göstərdi hökmdarlar dünyasına; Oxucum! Belədir, aqil babalar; Bir dastan yaradır ikicə sözlə.

**Aqronom** [yun.] Kənd təsərrüfatı (aqronomiya) mütəxəssisi. Aqronom gedirəm, – deyib Əmirxan.

**Al**, *sif.* Qırmızı. Zümrüd göydə günəş yandı; Al şəfəqə yer boyandı.

□ Al geymək (məc.) – bəzənmək, qızarmaq. Al geyib qızarır yenə üfüqlər; Bir azdan gözünü açacaq səhər.

**Ala**, *sif.* Ala gözlər – şəhla gözlər, açıq-mavi gözlər. Of! Məni titrətdi sənin gözlərin; Göz yaşı görməsin ala gözlərin.

**Alacalanmaq**, *f.* Ala-bula rəngi olmaz ala-bula olmaq, rəngarəng olmaq. □ Gözü alacalanmaq – gözü pər-pər çalmaq, ala-bula görmək. Bu nədir, yerdə də mahtabmı yanır; Yoxsa gözlərimin alacalanır?

**Alagöz**, *sif.* İri açıq-mavi gözlü. Yenə qılıncını çəkdi üstümə; Qurbanı olduğun o alagözlər.

**Ala-seyrək**, *sif.* və *z.* Seyrək, dağınaq, orada-burada. Dəniz buruqları hələ tək-təkdir; Gecələr işıq da ala-seyrəkdir.

**Alay**, *is.* Diviziya tərkibinə daxil olan müstəqil qoşun vahidi; polk. Topçular alayı gəlir arxadan; Fırlanır dolaşıq təkər səsləri.

**Alay-alay**, *z.* Dəstə-dəstə, böyük dəstələr halında, izdihamla. Gəlin alay-alay! Gəlin nəsillər; Halımız bir nəfəs, bir ürək kimi.

**Albom,** *is.* [fr.] Şeir və s. yazmaq, şəkil çəkmək, marka yapışdırmaq və s. üçün təmiz səhifələri olan kitab və ya dəftər. Yenə də ruhumu kəsdi bu duyğu; Götür albomunu, mən deyim, sən yaz!

**Alçaq**, *sif. məc.* Rəzil, şərəfsiz, namərd, çox pis. Get, alçaq. Dediyin böhtandır mana. Səadətdən, məhəbbətdən danışma hər bir alçaqla – Ah!.. Qırıb tükətdi bizi alçaqlar. [Şiruyə:] O hansı alçaqdır, söylə atacan? Bizim təmiz vicdanlara böhtan atır o alçaq.

**Alçalmaq**, *f.* 1. Aşağı düşmək, gödələmək, boyu qısalmaq, enmək, aşağı salınmaq. Bəşərsiz günəş də yerə alçalır.. Qarnımda diz çöküb göylər alçalır.

2. *məc.* Hörmətdən, nüfuzdan düşmək. Neçin tərlan ovlağından sən yerlərə alçalırsan.

3. Özünü alçaltmaq, izzəti nəfsini itirmək. Həyat təpikləndi, insan alçaldı…

**Alçaltmaq**, *f.* Azaltmaq, aşağı salmaq, zəiflətmək. Asta get, nalıyan səsini alçalt …Göymü yerə alçaldır?

**Aldadış**, *is.* Aldatma işi, aldatma. Cavab ver sözümə və doğru danış; Cəzanı artırar hər bir aldadış.

**Aldanmaq**, *f.* 1. Hiyləyə uymaq, yalan vədlərə uymaq. Yalan sözü doğru saymaq, başdan çıxmaq. Yanıldım, doğrusu, uyub aldandım – Nə qədər aldanıb aldanılmışam – Rəva deyil, ona heç aldanmasın şair / Heç aldanma dünya varına.

2. Ümidi boşa çıxmaq, yanılmaq. Alqışlara aldanmayaq.. – Aldanardım bu ülfətə.. – Nə rəvadır vüsalə aldanmaq. – Xayır. Aldanma, əziz arkadaşım.

**Aldatmaq**, *f.* Qəsdən yayındırmaq, başını tovlamaq, yoldan çıxarmaq. Bəlkə də aldadır Cəlal könlümü – Gedin aldadanmaz məni saraylar! – Sizi aldatmasın yalan vədlər. –

Bizi aldatdığım tarix boyunca – Göz aldadan bir söz kimi… lal anar asta-asta… – Aldanmış, qansız!

**Aləm**, *is.* [ər.] 1. Kainat, dünya, yer üzü *məc.* İstəsən aləmi gəz qarış-qarış – Yarış meydanıdır əzəldən aləm; Görüm büdrəməsin sürdüyümüz at. Elə ki aləmdən əlim üzülür. Başqa bir aləmin qonağıyam mən!

2. *məc.* Məfhumlar, hisslər, təəssürat, təsəvvürlər, həyəcanlar mühiti – Yarış meydanıdır əzəldən aləm, görüm büdrəməsin sürdüyümüz at. Bir bayram sözü var, bir də ki, matəm, nəşə bir aləmdir, qüssə bir aləm.

3. *məc.* Çox maraqlı, cazibəli, diqqəti cəlb edən, zövq və nəşə verən, tamaşalı, özünə məxsus gözəlliyi olan şey haqqında deyilir və başqa keyfiyyət bildirir. Səninsə mənalı nəzərlərində; Açıldı bambaşqa yeni bir aləm – Hər simin üsündə bir aləm çalır.

4. Xalq, camaat, el, bütün adamlar, insanlar. Məcnun… çox da aləmə səs salmasın… Aləmə naz satdılar – Bu gün bir süngüdür əlimdə qələm; Mənim bayrağıma göz dikir aləm.

**Alicənab**, *sif.* [ər] Başqalarının xatirinə öz şəxsi mənafeyindən keçən; namuslu, səxavətli, nəcib, nəcabətli. Nə bir alicənab, nə bir çıxan var...

**Alıcı**, *sif.* 1. Yırtıcı, ovçu *(quşlar haqqında)*. Onun baxışları alıcı tərlan baxışları kimi kəskindir.

2. *məc.* İtigörən, cəld, sayıq. Silahlı qardaşım, sərhəd boyunca; Alıcı gözlərin qızılgül olsun!

**Alim,** *is.* [ər.] Hər hansı bir elm sahəsində mütəxəssis olan adam. Təbib də, alim də, kərpic kəsən də / O müdrik alimin hər bir kəlməsi.

2. *sif.* Elmli, bilikli, məlumatlı, çox oxumuş. Alim paltarında gəlməlisən sən!

**Alın**, *is.* Kəllənin qabaqdan üst tərəfi, göz və qaşların üstünə düşən hissəsi. – Dayan! – deyib, yaxın gəldi, öpdü onun alnından / Yay gününün xoş səhəri, bir də dağlar küləyi.

3. Xalq, camaat, el, bütün adamlar, insanlar. Bu gün bir süngüdür əlimdə qələm; Mənim bayrağıma göz tikir aləm.

**Alınmaz**, *sif.* Alınması, ələ keçirilməsi mümkün olmayan; yenilməz. Sənin ulduzlu alnında müzəffər, şanlı bir arzu; Bütün aləm qoşun çəksə, alınmazdır sözün yurdu!

**Alqış**, *is.* Birini təbrik üçün və ya bir şeyi bəyənmə ifadəsi olaraq əl çalma // Nida mənasında əhsən, afərin, mərhəba. Alqış bu dövrana, alqış bu günə / Gəl əziz bayramım, bir də görüşək.

**Alqışlamaq**, *f.* Birini təbrik etmək üçün və ya bir şeyi bəyənmə ifadəsi olaraq əl çalmaq, təbrik etmək. – Alqışla insan pak əməlini; Uzat yer üzünə hünər əlini– Mən həyatın bu hökmünü ömrüm boyu alqışladım! – Alqışlayın bu niyyəti – İnsan oğlu alqışlasın al geyinmiş baharı… *məc.* // çox bəyənmək, tərifləmək, razılığını izhar etmək. Mən həyatın bu hökmünü; Ömrüm boyu alqışladım. – Alqışlayır onu günəş, bir də ruzgar, gəzirəm, gəzirəm alqışlayaraq.

**Allah**, *is.* [ər.] 1. Dini etiqadlara görə bütün kainatı yaradan və idarə edən mütləq qüvvə. // Qədim dillərdə təbiət fövqündə təsəvvür edilən vücud. [Şirin:] Ah, Allah… nə böyük zülmün olarmış. – Allah sənə göz olsun. Barı, kor vicdanın baxsın Allaha.

2. *məc.* Hakim, ağa; Heç kəsə tabe olmayan azğınlıq edən, başlı-başınalıq edən adam haqqında. Mən Qacar nəsliyəm, şahlar şahıyam / Mən də yer üzünün bir Allahıyam. Ömrün sonu ad verdi bu mənalara Allah!

◊ Allah eşqinə! – yalvarış, xahiş, iltimas bildirir. [Şirin:] Deyin, siz kimsiniz, Allah eşqinə? Allaha «kərimdir» söylə:

Dar gündə Allaha «kərimdir» söylə Allah göstərməsin / Allah göstərməsin sizə göz dağı. Allah saxlasın – birinə can sağlığı və uzun ömür arzusu. Ağıllı baladır, Allah saxlasın. Allaha şükür – yaxşı oldu ki, xoşbəxtlikdən. Niyə nə dərdim var, Allaha şükür! Allaha çox şükür, xoş olsun xəbər. Allaha bəd gedər. Allaha bəd gedər, naməhrəmsiniz. Allaha xoş gedər: qaldı uşaqlar.

◊ **Allah evi** (*din.*) – məscid. Nə qədər komsomol olsaq da yenə; Gərək sataşmayaq Allah evinə!

**Allo** (*ing.* hallo). Telefonla danışarkən «qulaq asıram», «qulaq asın» mənasında işlənən nida. Allo, Bakımıdır? – deyir Talıstan: Yaşasın gələcək! Yaşasın insan! Allo! Mingəçevir, Bakıyam! Mənəm!

**Almaq**, *f.* 1. Əlinə götürmək, əl ilə tutub götürmək, qaldırmaq, cəld qapmaq, tutmaq, ələ keçirmək. Kim aldı, ay nənə? Kim aldı? İlyas / Onu da bu gecə zorla aldılar. Qacara yazdığım cavabdır alın!

2. Satın almaq. Mənə bir xələt alsana! Al, nənə! Özünə get bir inək al. Qul kimi aldılar, satdılar bizi. ..Nə qədər istəsən; Al, evə apar.

3. Qaldırmaq, götürmək, çıxarmaq, açmaq. Yenə kərpic alır əlləri yerdən.

4. Göndərilən, verilən, təklif edilən, gözlənilən, istənilən bir şeyi qəbul etmək, götürmək, əldə etmək. Bizdən işıq aldı uzaq ölkələr. Aldı öz payını Qızyetər qarı. Onunla birlikdə kənd yoxsulları / Sənə göndərdiyim şeyi aldınmı.. Aldıq məktubunu Məhəmməd Qacar. Keçici bayrağı Sarvan alacaq. A!.. deyib yıxılsa bir vətən oğlu; Onun bayrağını yoldaşı alır.

5. Rütbə, ad, dərəcə, vəzifə sahibi olmaq, qazanmaq. Aldı yeni qızıl bir adı; Leninqrad. Bir ad alacaqmış Məhəmməd Qacar..

6. Ələ keçirmək, fəth etmək, istila etmək, tutmaq, özünə tabe etmək. Çünki dünən Çin ordusu nankini aldı.

7. Zəbt etmək, əlinə keçirmək, tutmaq, ixtiyarına keçirmək. [Vəzir:] Taxtını, tacını mən alam gərək!.. Alıb silahını düzəldi yola

8. Evlənmək, özünə arvad etmək, [Xosrov:] Bu dostluq şərtiylə Məryəmi aldım.

9. Bürümək, qaplamaq, əhatə etmək, basmaq, sarmaq, örtmək. Yenə dağ başını duman, qar alır…

10. *məc.* (dan.). Təsir etmək, əsər etmək, Südündən aldığım istedadımla.

11. Məhrum etmək. Məni səndən aldılar.

12. Bir sıra isimlərdən sonra gətirilərək, mürəkkəb fel və müxtəlif ifadələr düzəldilir: rəng alıb rəng vermək, qarğışını almaq, zövq almaq, can almaq, soraq almaq, cənnəti almaq, qisas almaq, könül almaq, əlinə qələm almaq, qanadına almaq, dərs almaq, qüvvət almaq, intiqam almaq, nişan almaq, səbrini əlindən almaq, qadasını almaq. Rəng alıb, rəng verir gözlərin aydın. Ellərin yağısı olmuş əzəldən / Alıb qarğışını min bir gözəldən / Sən ki, zövq alırsan gözəldən, yardan? Can alan hər nəğmənin mənası eşqdir. Üçüncü gündür ki, aldım sorağı.. Cənnəti alıram mən bu dünyadan. Bildiyim qisası sonra alaram. Sevdiyi – naləmi bir könül almaq / Ərzə yazsın, qələm alsın əlinə. Alıb qanadına gəzdirər səni. Başqa bir qisas da siz alın ondan / Qisas almalıyam bu dünyadan mən!.. Deyirlər dərs alır Molla Pənahdan. Qoy alsın ürəyim bir yeni qüvvət! [Məryəm:] O ki gözlərimdə qoydu kamımı; Al ondan özün al intiqamımı. Onun nişan almağı; Həsrətini səbrini əlimdən aldı. Yox… yox… qadan alım / Min əyri göz var.

**Almalı**, *sif*, alma olan yer, bağ. Almalı, armudlu bağlar bizimdir.

**Alman**, *is.* Almaniyanın əhalisinin əsasını təşkil edən xalq və bu xalqa mənsub adam. [Valentin:] Alman ordusuyla gəldilər üz-üzə … Mənim axar çaylarımdan alman atı su içməsin.

**Almaz**, *is.* 1. Son dərəcə bərk, rəngsiz, şəffaf qiymətli daş (xüsusi şəkildə taraşlanmış almaz brilliant adlanır). Ağ almazlar kimi parlayıb durur / …İncidən, almazdan parlaq.. Hər sözü bir ulduz; Bir şəffaf almaz.

2. Xüsusi təşbehlərdə – şəffaflıq, saflıq, parlaqlıq mənasında. Hər sözü bir ulduz, bir şəffaf almaz; Mənalar dünyası qaranlıq deyil. Mavi göydən almaz bir ay endi gizlicə..

**Alnıaçıq**, *sif.* Vicdanı təmiz, utanılacaq işi olmayan, namuslu. İlk baharın sevincilə xumarlanan gözəl səhər / Min zəfərlə qarşılayır alnıaçıq ordumuzu.

**Alosman**, *is.* Çəkdin ciyərimə Alosman dağı.

**Alov**, *is. məc.* mənada yanan bir şeydən çıxan od. Alovlar dağıdan xoş nəfəsindən; Hər əsgər qəlbinə min qüvvət axdı.

**Alovlanmaq**, *f.* 1. Bərk yanmaq, alışıb-yanmaq. …O kitablar alovlanır…

2. *məc.* Qızarmaq, işıqlanmaq, parlamaq Günəş kimi şölə çəkib, alovlandın əməlindən. Alovlanan, ey könül, yenə alovlan! .. bəlkə də.. Sevgimin yada salıb alovlanırsan?

3. *məc.* Şiddətlənmək, qızışmaq, güclənmək. Söylə, nədir ürəyində alovlanıb yanan şam?

**Alovlu**, *sif. məc. (tənt.)* hərarətli, atəşin, ehtiraslı, coşqun. Alovlu, yanğınlı nəfəsimdən; …Bahar geyinmişdir bir alovlu odlu köynək… Bu alovlu, odlu sözlər yanğını salır ürəklərə / Nədir gözlərdəki o alovlu kin?

**Alrəngli**, *sif.* al rəngində olan. Üstündə alrəngli bir bayraq oldu.

**Alt**, *is.* 1. Bir şeyin aşağı hissəsi, üstünün əks tərəfi, səth üzərinə qoyulan tərəfi. Nəmli torpaqların alt qatında ilan kimi yaşayanlar. – Üzə çıxır yer altının qızıl mədəni. Örtülü bir şeyin üst tərəfinin əksi, aşağısındakı yer. [Fərhad:] Boylandım göylərin yeddi qatına; Dənizə baş vurub, girdim altına. Yanğınlarda nəfəs alır göylə yer altı. Dedik: – çox yaşadıq torpaq altında! Hər daşın altında bir gövhər axtar.

2. Bir şeyin səthindən aşağı tərəf. İnsan oğlu yer altda da uçurur dağı / Sən ey, yer altında gördüyüm dünya. Niyaz bəy tələsik qalxıb atına / Soxulmaq istərkən yolun altına. O söyüd altına qonaq gəlmişəm.

3. Bir adamın durduğu, oturduğu yer. Vətən qızlarının ayaq altına.

4. Bir şeyin təsir dairəsini göstərir. Gün altında quruduqca vətən çölləri Gün altında ot biçən / Komandan altında insan övladı Körpünün altını kəsib Bəxtiyar.

6. Yalnız yönlük, yerlik və çıxışlıq hallarda. Bir şəxsin və ya şeyin düşdüyü və ya içərisində olduğu vəziyyəti, keyfiyyəti bildirir. Gərək qan altında qalsın bu dağlar. Bir bayraq altında fırtınalardan..

◊ Altından çıxmaq – öhdəsindən gəlmək, ödəmək, əvəzini vermək. Dediyinin üstdən keçər. Altdan çıxar asta-asta.

**Altı**, *miqd.s.* Qəmdən sonra gələn ədəd – 6. O altı kommunist – altı qəhrəman; Nə fəryad qoparır, nə aman deyir.

**Altun**, *is.* Qızıl. Sən ey altun qəfəslərdə / Xumarlanan, süzülən.. Bilərziyi ağ altundan..

**Alyaşıl**, *is. (köhn.).* Al-yaşıl rəngli ipək parça. Al-yaşıl geyinmiş uca dağların.

**Amal**, *is.* [*ər*. əməl. söz cəmi] (*tənt*.). Qayə, məqsəd, arzu, ümid, dilək. Söndün mənim ruhum, amalım kimi. Hər nəsli üçün öz amalı müqəddəsidir. Ah, o rəzil qadın, o kirli amal..

**Aman**, *is.* [*ər*.] 1. Rəhm, mərhəmət. □ Aman vermək – rəhm etmək, mərhəmət etmək, əfv etmək, bağışlamaq. Get, düşmənə aman vermə davada..

2. İmdad, yardım, kömək, nicat, mərhəmət diləyi. Solğun dodaqları ah, aman gəzir.. – Bükdü qamətini ahlar, amanlar.

3. *Nida*. Can ağrısı, həyəcan, fəryad, iztirab, qorxu və s. hissləri ifadə edir. Nələr gördün aman Vaqif! Nə qansızmış zaman, Vaqif! Aman, Fərhad, igid balam, nə xəbər? [Banu:] Aman… Tablamayır qəlbim hicrana. Aman! Ayaqladı müqəddəs dini..

7. *Nida*. Rica, xahiş, yalvarış bildirir (bəzən «amandı», «amandır» şəklində işlənir). Amandır yetirin o yarə məni! – Amandır, örtməsin, ey nazlı nigar; O ay camalına qara buludlar. // Yenə həmin mənada. Bəzən günüdür sözü ilə bərabər işlənir. Gəl, amanın bir günüdür, Yenə də yelkənim ol.

**Amansız**, *sif.* Rəhmsiz, mərhəmətsiz, rəhm bilməyən mərhəmət bilməyən; barışmaz. Hakimlər yaratdı sizi aman-

sız – Əsdikcə, bozüzlü amansız külək – Həyat amansızdır… səndə nə günah?!

**Amazonka** [*yun*.xüs. isimdən] (*mif.*) Qədim yunan əsatirində: Qara dəniz sahillərində yaşamış və qonşu ölkələrə basqınlar etmiş cəngavər qadınlar. Amazonka dediyiniz bu qəhrəman qadın nəsli..

**Amma**, *bağl.* Cümlələri, habelə cümlə üzvlərini (əsas həmcins üzvləri) birləşdirərək qarşılıq bildirir // Amma çox razıyam qanacağından.

**An**, *is.* [ər.] Ən cüzi bir zaman, ….dəm, bir göz qırpımlıq müddət □. Bir an – bir saniyə, bir dəqiqə. Doğrudur, qardaşım, inan ki bir an. Gəzər, gəzər öylə durmadan bir an. Bir anında nəfəs alır qərinələr. Bir anda, bir(cə) an içində – Dərhal, o saat, göz yumub açınca. Susdu dəniz bir anda – Bircə an içində gözdən yox olur. [Şahbaz:] Səhər! Səni dalğın görəndə bir an. Hər an, hər anda – hər zaman, həmişə, daim. Dünyanın dərdini, qəmini hər an / Mənə bir baxışla unutdurursan. Bir eşqli istisi qızdırdı hər an.

**Ana**, *is.* 1. Öz övladına nisbətən qadın, övladı olan qadın. Səni görmək üçün ölmək istərəm ürəyin daşdanmı yaranmış, ana. Qayıt evimizə gözləyir anam. Elədir, ana can… dedin ürəkdən, ov, anacan, ana! *Məc.* Mən bir uşaq, sən bir ana. Odur ki, bağlıyam sana. Zaman bizə bir anadır; Biz zamanın övladıyıq.

2. Yaşlı qadına hörmətlə müraciət. Gəl, ana! O evdə rahatlan bir az.

2. *məc.* Bir şeyin kökü, mərkəzi mənasında. Sən ey şeirimizin ana şairi. Həqiqət! Anası budur sənətin ..

4. Vətən mənasında / Alqış ananıza – Azərbaycana!

5. Müraciət, nəvazişli xitab zamanı. Anam, bacım, qızqəlin.

◊ Ana vətən, ana torpaq, ana yurd *(tənt.)* – Vətən. Bakı! Bakı! – Ana Vətən! Bizə şöhrət yarandın sən. Bilir bizim ana torpaq, ana Vətən. Ana torpaq! Sən ilhamın, bir də şeirin, ilk səsisən. Ana yurdun hər yerindən kəsiləcək yad aya-

ğı... Ürəklərdə ana yurda bir məhəbbət. Qara geymiş.. polyakların. Ana yurdun bu qəhrəman, bu namuslu oğlunu.

◊ **Ana dili** – bir adamın doğma dili, körpəlikdən öz ata-anasından öyrəndiyi dil. Deyir mahnısını ana dilində. Ana südü kimi (qədər) (*məc.*) – halal, qanuni. Onu biz anamızın südü qədər əziz, mehriban tutduq..

**Anacan**, *is.* Anaya nəvazişlə müraciət. Əzizim anacan, gözüm anacan!

**Anadil**, *is.* Quş. Qarayazı meşəsində anadil adlı bir quş var.

**Analıq**, *is.* Ananın öz uşaqlarına olan əlaqə və münasibəti, ana vəzifəsi. Analıq mehrini görmək istərəm. İndi bildim analığın nə müqəddəs haqqı vardır.

**Anasız**, *sif.* Anası olmayan, ana tərəfdən yetim. Sən anasız balaları.. bağrına bas.. – Anasız ağlaşır körpə balalar.

**Anbar**, *is.* Taxıl, ərzaq, mal və s. saxlamaq üçün xüsusi bina, tikili. Mən evdən çıxanda boş qaldı anbar. Yanır anbar, yanır zəmi. *Məc.* Dolu, çoxlu, bir sürü boş söz anbarı!

**Ancaq**. 1. *bağl.* Lakin, amma. Ancaq sabahın da az işləri var. O öz vədəsinə gecikdi, ancaq.. Ancaq çıxarmasın bizi yadından.. [Xosrov:] Qoy olsun, ancaq; Mənimki Məryəmlə baş tutmayacaq. Razıyam… ancaq.

2. Ədat kimi işlənir, yalnız, təkcə, tək. Hər kəsdən ziyadə bu işdə ancaq; Atadan, anadan şikayətim var. – Ürəyindən keçən yeri ..inalarda görmüş ancaq.

3. *Zərf mənasında.* Çətinliklə, zorla, güc-bəla ilə. Ancaq qaçıb qurtardıq.

**And**, *is.* Bir şey haqqında verilən təntənəli vəd, söz // Sədaqətə riayət etmək haqqında rəsmi və təntənəli vəd. Bu and xəbər verir bizə cəbhədən; Bizim zəfər toplarının o qadir səsi. – Mənim öz andım var, öz ilqarım var.. Bugünkü sevginin başqadır andı.

□ And içmək – müqəddəs, yaxud böyük və əziz sayılan bir şeyin və şəxsin adımı çəkməklə öz sözünə, vədinə yaxud öhdəsinə aldığı vəzifəni layiqincə yerinə yetirəcəyinə inan-

dırmaq. Mənim and içdiyim o məhəbbətin / Ruhunda müqəddəs bir pəri yaşar – Biz and içdik… şəhidlərin məzarına, ..anaların.. fəryadına.. [Məryəm:] Sən yalan deyirsən; böyük hökmdar. Eşqimə and içib vermişdin qərar. Qoy dünyanın min milləti; Bir and içib, qardaş olsun. Mən and içmişəm ki, bir də qələmim; Gözəllərdən ilham almayacaqdır.

**Andırmaq**, *f.* 1. Anlatmaq, başa salmaq, qandırmaq. Nələr andırırsan bu gedişlə sən. Leylinin Məcnunu məni andırır.

2. Xatırlatmaq, yada salmaq, oxşar kimi görünmək. Geyləri andırır ala gözləri. Onun baxışında duyduğum aləm. Andırır.. bahar fəslini. Darısqal alnının qırışıqları. Tarixdə ən qara günlər andırır.

**Anlamaq**, *f.* 1. Başa düşmək, düşünmək, qanmaq, dərk etmək. Anlayan varmıdır tarixdə bunu – Hələ ki anlaya bilməyirəm mən.

2. Duymaq, hiss etmək, başa düşmək. Məhəbbət anlamaz, söz qanmazsınız!

**Anlaşıqlı**, *sif.* Aydın, başa düşülən, hamının başa düşəcəyi şəkildə olan. Biz… hamının qəlbinə yol açan, aydın, anlaşıqlı və sadə bir dildə yazılmış şeirlər yaratmalıyıq.

**Anlıq**, *z.* ◊ Bir anlıq [Xosrov:] Azadlıq verdimi mənə bir anlıq Azadlıq istəsə torpaq bir anlıq Fəlakətin bir anlığı… Çatıb qara qaşlarını, fikrə getdi o bir anlıq.

**Anmaq,** *f.* Yada salmaq, xatırlamaq, yad etmək, yada gətirmək. Noldu söylədiyin axar qoşmalar; Andımı həsrətlə səni hər nigar – Bəlkə də… Məni anırsan? – Arabir də anıb yenə Qalın Topçu meşəsini; Yada saldı həsrət ilə maralların nərəsini.

**Aparat**, [lat.] (tex.) Alət, cihaz, qurğu. Ey cəbini qərbin, sizdəsə əlbət / Hikmətin ən qorxunc aparatları.

**Aparmaq**, *f.* 1. Bir şeyi əlinə götürərək, yaxud dalına yükləyərək bir yerdən başqa yerə köçürmək, gətirmək. Al bayrağı aparmasam; Kəndimizdən köçəm gərək.

2. Özü ilə bərabər gətirmək. Toyudur… gəldim ki, aparam sizi.

3. Özü ilə bərabər götürüb getmək. Məni çəkə-çəkə hey apardılar.

4. Oğurlamaq, qaçırmaq, alıb qaçmaq. [Banu:] Onlar apardı qızı; Apardı baxtımızı.

5. Aparıb çıxarmaq, gətirib çıxarmaq, yönəltmək. Aparıb ötürüm sizi Tiflisə.

6. Bir sıra isimlərə qoşularaq mürəkkəb feil və müxtəlif ifadələr düzəldir. Qırmızıları güllələdiyi zaman aparmışdı top Əlini… Aparır xəstəni qara bir xəyal. Xeyir xəbər aparacaq..

**Ar**, *is.* [ər.] həya, abır, utanma; namus, qeyrət, izzəti-nəfs, mənlik. Bu qoca vaxtında heç arı yoxdur: Bunda qalmamışdır nə namus, nə ar. Vəfasız olurmuş ögey analar.

 Ar olmaq – eyib olmaq. …çıxaq yarışa; Kim qoyun qaçırsa; Ona ar olsun!

**Ara**, *is.* İki hadisə, iş, əhvalat və s. arasındakı vaxt, müddət. // fasilə.  Ara vermədən – dayanmadan, arası kəsilmədən, fasiləsiz. Bəxtiyar tüfənglə vermədən ara; ..Ya mən ölməliyəm, ya siz! Deyirdi.

◊ Ara vurmaq (vuruşdurmaq, pozmaq) – yoldaşlar, dostlar və b. arasında nifaq, düşmənçilik salmaq, dalaşdırmaq, əlaqələrini pozmaq. Aramızı vuran bir evi yıxdım.. Ara qarışdırmaq – araya fitnə salmaq, pozğunluq, qarışıqlıq salmaq. Qızışdı, getdikcə qarışdı ara.. Ara pozulmaq – küsüşmək, əlavə və dostluq pozulmaq. Yoxsa siyasətlə pozular aram. Ara düzəltmək – barışdırmaq vasitəçilik etmək, arada əlaqə düzəltmək. Ara düzəldən oğraş! Araya çaxnaşma salmaq – araya fitnə salmaq, pozğunluq, qarışıqlıq salmaq. Düşməndir araya çaxnaşma salan. Ara yerdə – arada, aralıqda, ortalıqda. Bir gün ara yerdə itəcək qanın. Aradan çıxmaq – canını qurtarmaq. Gəray bəy aradan çıxdığı zaman.

**Araba**, *is.* İki və ya dördtəkərli nəqliyyat vasitəsi. Nə zaman ki arabalar; Köç yoluna düzülər..

**Arabalı**, *sif.* Arabası olan şəxs. Axışıb atlılar, arabalılar..

**Arabir**, *z.* Hərdən bir, gahdan bir, bəzən. Arabir anamın yatdığı yerə; Baxıb ağlayırdı. Deyirlər arabir dəliqanlıyam. – Öz müsafir dostlarıma arabir göz qoyuram…

**Aralı**, *z.* Bir-birindən bir qədər uzaq, arada bir qədər məsafə qoyaraq. Çadırdan aralı gəzinir yalqız.

**Aralıq**, *is.* 1. İki şey arasındakı boşluq, boş yer, iki yerin arası; ortalıq, orta, ara. Aralıq çaxnaşdı yenə – Varmı.. aramızda görəsən, hələ.. – qarışdı, səsləndi birdən aralıq..

2. «Bu» sözülə bərabər: bu aralıq, bu zaman, bu vaxt, bu əsnada, bu dəmdə. Bu aralıq… səmimi bir qız ona yaxınlaşaraq..

3. *Yer.* aralıqda – ortalıqda, ortada, arada. Aralıqda söhbət olur, saz olur..

**Aramaq**, *f.* Axtarmaq. Quyunun sirrini çox aradıq biz. Eşit ey! Aradığım şey. Artıq nə eşqdir və nə də hicran. Arar, arar, yavrum bir geniş meydan.

**Aram-aram**, *z.* Yavaş-yavaş, asta-asta, aramla. Düşünürəm aram-aram..

**Aran**, *is.* Azərbaycanda: yaylaq yerlərə nisbətən alçaq və iqlimcə isti olan yerlər. Bir xəbər gəlmədi aran yerinə – Aranda, yaylaqda, sular başında. Düzənlik nə bir dağım, aranım var. Cırır köynəyini bürküdən aran.

**Aranlı**, *is.* (*dan.*) Həmişə aranda yaşayan adam. Aranlı yaylaqlı ağır ellərim.

**Aranmaq**, *f. məch.* Axtarılmaq. İtkinəm, aranmadım.

**Araz**, *is.* Xüs. Eşitmişəm uzaqlardan. Sakit axan Arazları..

**Arçan**, *sif.* (bot.) Ardıc (ağac). Arçan ağacı daşa dönmüş, fəqət torpaq olmamışdır.

**Ard**, *is.* 1. Arxa, dal. Hər yerdə sahilə söykənir ardı.

2. Hər şeyin arxa, dal tərəfi, gerisiz, geri tərəfdə olan yer. Günəş çəkilərkən dağlar ardına; Üfüqlər qarardı, sular qarardı.

3. Başlanmış bir şeyin davamı, dalı, mabədi, sonu. Sonra atışmanın uzandı ardı, Onun ardında nə hikmət görünür!

**Ardıc**, *is.* (bot.). Sərvağacı fəsiləsindən olub çox zaman qayalıqlarda bitən iynə yarpaqlı, həmişəyaşıl kol ya ağac. Qovaqlar, ardıclar, söyüdlər, narlar.

**Arx**, *is.* Tarlaya, bostana və s.-yə su axıtmaq üçün açılan yol. Yolçular arxların üstdə dincəlir. Kişilər arx çəkir Kürdən hər yana.

**Arxa**, *is.* 1. İnsanın kürəyi, beli. Döyüşdə düşmənə arxa çevirsən; Südüm haram olsun sənə..!

2. Bir şeyin dal tərəfi. Geri tərəfi. Baxdı arxasınca qızın gözləri – Arxanda dağ kimi dayanacağam. Vurmaq istəyirdi səni arxadan.

3. Müharibə xəttinin dal tərəfində, gerisində olan yer (cəbhə müqabili). Bir bölük göndərin arxaya sarı Qacarla vuruşun arxa tərəfdən.

4. *məc.* Kömək, havadar, dayaq, himayəçi. [Azər baba:] Oğul arxadırsa, qız yaraşıqdır. [Məryəm:] Bizans dövlətdir arxamda duran! Nə arxamız vardı, nə köməyimiz / Ordumuza bir arxadır; Qalstuklu pionerlər.

□ Arxada qalmaq – geridə qalmaq. Arxada qalanın üstünə güldü. Arxa döndərmək – kömək durmaq, havadar olaraq. Tanrı dediyinə arxa döndərər. Arxasında dağ kimi durmaq – Birisini müdafiə etmək, dalında durmaq, havadarlıq etmək. [Vəzir:] Əlbəttə, şəksiz; Arxanda dağ kimi durmuşuq ki biz.

**Arxalanmaq**, *f.* Güvənmək, istinad etmək, bel bağlamaq. – Bu böyük günlərə arxalanaraq. Göstər bu meydanda yeni bir hünər! Nə dosta arxalan, nə də ki yada.

**Arxalıqlı**, *sif.* (köhn.). Əynində arxalıq olan, arxalıq geymiş. Bu gün yenə bizim Sabir bağçasında; Oturmuşdur arxalıqlı bir ixtiyar.

**Arxanca**, *z.* Ardınca. Qoşardı arxanca yorulmadan, ah.. Çıx ki, arxanca mən eyvah eləyim.

**Arxayın**, *z.* Xatircəm, rahat. Bəli üstə, baş üstə, arxayın ol, xan! Siz arxayın olun İbrahim xandan!

**Arı**, *is.* Zərqanadlılar fəsiləsindən bal hasil edən cücü. Pətəyi bal süzən arı məndədir / Uçuşdu arılar, ac kəpənəklər.

**Arif**, *sif.* [ər.] Bilən, qanan, başa düşən, anlaqlı, mərifətli. Üstü unlu olan hər arif qoca; Öz ürək sözünü deyər doyunca. *İs.* mənasında, Arifləri dindir… Ey ariflər, nəzər salın təbiətin qurğusuna!

**Arifanə**, *z.* və *sif.* [ər. arif və *fars.* …anə] Arifcəsinə, arif kimi, arif adama, qanacaqlı və mərifətli adama yaranan bir surətdə. Hikmətamiz, arifanə söhbətlərin / İlhamı var o ağtüklü sinələrdə.

**Arqadaş**, *is.* Yoldaş, dost. Bayaq siz göstərərək arqadaşım söylədi. Xayır! Aldanma əziz arkadaşım.

**Armudlu**, *sif.* Armudu olan, armud yetirən. Almalı, armudlu bağlar bizimdir.

**Arpa**, *is.* Adətən yazlıq taxıl bitkisi. Arpası çox düşən kimi / Şıllaq atan yabılar var. – Nə çuval dibində bir arpa vardır.

**Arsız**, *sif.* Arı, həyaslı olmayan; həyasız, utanmaz, sırtıq, üzlü. …ömrü boyu arsız olsa da.. …arsız paxıllar rəzalətlə / Yaşamaqdan heç usanmasın.

**Arş**, *nida*. Haydı, arş irəli Vətən ordusu!

**Artan**, *f. sif.* Getdikcə çoxalan, böyüyən. – Nədən mənim qabağımdan artanları yeyənlər.

**Artıq**, *sif.* 1. Çox, çoxlu, xeyli, olduqca, çoxlu miqdarda. Nə artıq pul sevir, nə də təmtəraq.

2. Üstün, irəli, yaxın, qiymətli, yüksək. Yox… yox, sən anadan artıqsan mənə.

3. *əd.* Daha, bundan əlavə. O, artıq cahanda bir quru azdır.

4. Lazım olduğundan çox, gərəksiz, lüzumsuz. Neçin yaranmışdır artıq adamlar.

5. *əd.* Bir işin bitmiş olduğunu bildirir. Artıq zənci tribunadan vüqar ilə düşüb enir – Seyrəlmişdir artıq insan, sanki şəhər; Baş qoyacaq sükunətin yastığına.

**Artıq-əskik**, *z.* Artıq, lüzumsuz, yersiz, münasibəti. Artıq-əskik deyib incitdim səni.

**Artırmaq**, *f.* Miqdarını, çəkisini çoxaltmaq, həcmini, sahəsini böyütmək. – Sən də artır öz əlinlə zəfərlərin sayını / O qədər artırıb ki, yenə qaçaqlar.

**Arvad**, *is.* Qadın. Bir də gözəl arvaddan. // Ərli qadın, ərk olan ya olmuş qadın. [Məryəm:] Xosrovun arvadı ola-ola mən, Almaq istəyirsən onu əlimdən. Bir də hər kişinin aldığı arvad namusdan sayılır.

**Arvadsız**, *sif.* Arvadı olmayan. [Məryəm:] Bəs necə? Kişi də arvadsız olar?

**Arvad-uşaq**, *is.* (dan.) Ailə, külfət. Arvad-uşağımız İranda acdır; Bir parça çörəyə, suya möhtacdır.

**Arzu**, *is.* [*fars.*] Bir şeyin olmasını ürəkdən istəmə; istək, dilək, əməl, həsrət. Mən də bir insanam, mən də canlıyam; Mənim də qəlbimin arzuları var – Onun hər diləyi, hər bir arzusu. Bəs məktəb? Oxumaq? Gözəl arzular?

2. Daxili ehtiyac, həvəs. Muğana su gəlir, milə su gəlir; Torpağa insanın arzusu gəlir.

□ Arzusuna yetişmə(mək) – istədiyin nail ol(ma)maq. Öz arzuma yetişməmiş yarı yolda ölsəm əgər…

**Asan**, *sif.* Zəhmət tələb etməyən, zəhmətsiz yerinə yetirilə bilən, zəhmətsiz əldə edilə bilən, yüngül (çətin ziddi). Ömürgün sevdası deyildir asan.

**Asfalt** (*yun.*). Təbii və ya süni sürətdə hasil edilən qara rəngli, bərk, qatrana oxşar kütlə. …asfalt döşəməli bir meydan.

**Asılı**, *sif.* Asılmış halda olan asılmış vəziyyətdə duran. Divardan asılı yadigar durur.

**Asılmaq**, *f.* «Asmaq» *feilinin məchul* növü. Dar ağacına çəkilməklə edam edilmək. O gün məlun cinayətkar; Asıla-

caq boğazından – Asıldıq hər zaman dar ağacından, Nədir o dar ağacları, de, kimlərdir asılan?

**Asiman**, *is.* [*fars.*] Göy. Mənimsə üstümə asimanlardan; Yağışlı, yağmurlu buludlar gəlir. Asiman dolanır, asiman dönür. O qocaman asiman da nəfəs alır ağır-ağır.

**Asqırmaq**, *f.* Burun sinirlərinin birdən-birə qıcıqlanması nəticəsində qeyri-iradi olaraq öskürməyə bənzər səs çıxarmaqla burun və ağızdan selik püskürmək, səbir gətirmək. Eyvaz bir asqırıb, bir öskürərək..

**Aslan**, *is.* 1. Şir, aslan. Bu dağlar qoynunda aslan yatmışdır; Burda Koroğlular at oynatmışdır. ..Aslanın erkəyi dişisi olmaz.

2. *məc.* Qoçaq, igid, qəhrəman mənasında. / Kəsiləcək aslanların yurdundan; Toyuq tutan çaqqalların ayağı. Bizim gənclik bəsləmişdir, böyütmüşdür aslanları.

**Aslanürəkli**, *sif.* Qoçaq, cəsur. Ey aslanürəkli, pəhlivan atım.

**Asmaq**, *f.* Bir şeyi yuxarıdan bir şeyə ilişdirib sallamaq, asılı hala salmaq. Divardan asmışam bir şəklinizi.

2. Darağacından asmaqla edam etmək, dara çəkmək. O bilmiş ki, asacaqlar onu da sabah.

**Asta**, *z.* Yavaş, yavaşca, aram ilə, üsullu, ağır. // Qaranlıq düşəndə qulağını çat; Asta get, nalının səsini alçalt. Əzizlər ağlaşır asta səsilə. Bəzən uca, bəzən asta;

**Asta-asta**, *z.* Ağır-ağır, yavaş-yavaş, tədriclə, aram ilə, tələsmədən. Asta-asta çox girərdik qılığına. Maral gəzər asta-asta. – Bir sahildə, qumlar üstdə; Kim tərpənir asta-asta.

**Astadan**, *z.* Yavaşca, səs çıxarmadan. // Astadan danışır gur səsimiz də.

**Aşağı**, *z.* Yerə doğru, aşağıya doğru.. Həyatdır… onun da dolanacaqlı; Vaxt olur aşağı düşür, neyləmək?

**Aşıb-daşmaq**, *f.* Bol olmaq, yığıb-yığışdıra bilməmək. Yenə aşıb-daşacaqdır sarı buğda anbarımız… Yayda da, qışda da buz kimi sərin; Ürəyin qüvvətlə aşıb-daşacaq. Gözlərindən aşıb-daşan həyat həvəsi.

**Aşiq**, *is.* [ər.] Birisinə məhəbbət bağlamış, vurulmuş, bənd olmuş adam; vurğun. Aşiqin vüsalı bitmir nüsrətlə.. // Məftun, vurulmuş, aludə / Həyat aşiqidir eşqin, diləyin… Dağıtmış yuxumu yenə gözümdən / Əzəldən nəğmələr aşiqiyəm mən. Mən saz tutub, şeir yazan aşiqiyəm bu günlərin.. [Ay:] Mən də insan xəyalıtək gündüzlərin aşiqiyəm.

□ Aşiq olmaq – vurulmaq, məhəbbət bağlamaq; məftun olmaq. – Göymü aşiq olub yerə yalvarır.

**Aşıq**, *is.* Xalq xanəndəsi; həm oxuyan, həm çalan, həm də söz qoşan söz şairi. …Aşıq deyər sərin-sərin. De gəlsin hər nəyin vardır; Deyilən söz yadigardır. Aşıq Şəmşir Dəli dağdan keçəndə; Saz tutub söz qoşub yada sal məni. Mən də aşıqlara baxıb dinlədim.

**Aşırmaq**, *f.* Öhdəsindən gəlmək, yaşamaq. Elə ki əllini aşırdı yaşı.

**Aşiyan**, *is.* [*fars.*] (şair). Yuva, quş yuvası. …Zavallı quş! …Özünə bir aşiyan qur. De hansı məclisdə sənsiz oturdum; Bir aşiyan tikib, bir yuva qurdum.

**Aşkar**, 1. *sif.* Açıq, aydın, göz qabağında olan, bəlli, məlum, açıq, aydın, gizləmədən. Bu haqqı canammam aşikar gördün. Yox, …sənin səsində bir titrəyiş var; Gəl məndən gizləmə, aç söylə aşkar.

2. *is.* Həqiqət. O, aşkarda girər qına.

**Aşmaq**, *f.* 1. Bir şeyin üzərindən atılıb keçmək, hündür bir şey üstünə çıxıb, o biri tərəfinə enmək, düşmək, hoppanmaq. Aşıb şiş dağları, boz səhraları; Gedək bir zəfərlə gedək irəli. Arxadan gələn var – deyə qaçdılar; Atlılar gəlincə dağdan aşdılar. Arabir dalğalar başından aşır. Məni düzdə qoyub aşdın bərəni.

2. Keçmək, düşmək, çıxmaq. O qız yaldan tək aşanda… Humay qonşuluqda aşıb hasarı.

◊ Kar aşmaz – bir şey çıxmaz. Eh… bir də bunlardan mənə kar aşmaz. Bundan kar aşmaz; Həddindən aşmışdır yenə qaçaqlar.

**Aşna**, *is.* 1. Dost, yaxın, tanış, tanış-biliş, yoldaş. Biz ayrı düşsək də aşnadan, yardan // Bəzən zarafat, istehza, kinayə ilə deyilir: – Aşna, bəri bax! Nə var? Qaş-qabağın tökünmüş yenə / Aşna! Deyən yenə sən.

**At**, *is.* Qoşulan və minilən ev heyvanı. Ağ atın üstə minsə, – Atları quş qanadlı / Ah, onu gördükcə at belində mən / Oynaşır ilxılar, kişnəşir atlar. □ At çapmaq – at qovmaq, at sürməklə yarışmaq. O qədər atını çapdı ruzikarda; Atını dördnala çapdıqca zaman. Tarik öz atını çapır sürətlə.

◊ At oynatmaq. Burda Koroğlular at oynatmışdır – Hər gələn cahangir bir at oynatdı.

**Ata**, *is.* 1. Öz övladlarına nisbətən kişi; dədə. Atamın fikrini söyləyirəm mən. Ata, qoy öldürüm o mürvətsizi! Dedi ki: – Atana məndən salam de!

2. *məc.* Bir nəzəriyyənin, məsələnin və s.-nin banisi. İnqilab atası, inqilab oğlu.

3. Yalnız cəm şəklində: atalar–Əcdad, ata-baba. Bizim ataların bir məsəli var.

**Ata-ana**, *is.* Öz övladına nisbətən kişi və qadın; valideyn. Baxıb ləzzət alır ata-analar.

**Ata-baba**, *is.* Əcdad ulu baba, nəslin ilk baniləri. Ata-baba yerimizə – Ata-baba qaydamızla şərbət içib, plov yeyək...

**Atacan**, *is.* Müraciət, xitab. Düz deyirsən, atacan, Bilirəm ki, atadan böyük / Dünyada nə var?

**Atalıq**, *is.* Ata ilə övlad arasında qan qohumluğu. Ata üzərinə düşən vəzifə, borc. Atalıq haqqın əsirgəməsən.

**Atəş**, *is.* [*fars.*] Od. // Atəş, su, bulud bir zaman; Allah idi əlbət. İnsan oğlu can verir pərvanətək atəşlərə. □ Atəş açmaq – tüfəng və s.-dən atmağa başlamaq. Haqq istəyənlərə atəş açarmış.

**Atəşgədə**, *is.* [fars] Atəşpərəstlərin ibadətgahı, məbədi. Dillənin, ey sönmüş atəşgədələr!

**Atəşli**, *sif.* Hərarətli, odlu, qızğın, alovlu // *məc.* Çox təsirli. Atəşli vicdanlar, çılğın ürəklər.. Baxdım keçmişlərə bu həqiqətdir..

**Atəşpərəstlik**, *is.* Oda sitayiş etmə, atəşpərəstlərin dini. Bir də atəşpərəstlikdən adət qalan; Bayramlara zinət verən fişəng səsi.

**Atılmaq**. 1. «Atmaq» *felinin məch* növü.

2. t-siz. Bir şeyin üstündən hoppanmaq, hoppanıb tullanmaq. [Azər baba:] İgidlər! Dərələr, dağlar olsa da; Üstündən atılın şiri nər kimi.

3. *t-siz*. Cəld yönəlmək, yerimək, yürümək, cummaq; üz tutmaq, özünü atmaq. – Atıl cəbhələrə aslanlar kimi. Atıl ümmana eşq ilə; Get, atıl murdarın qan qucağına.

◊ Atılıb-düşmək – etiraz etmək, narazılıq göstərmək, müqavimət göstərmək. [Vəzir:] Qoy atılıb-düşsün sonra yumşalar.

**Atışma**, *is.* Vuruşma (odlu silahla). – İmran atışmaya gedəndən bəri. Uşaqlara qalır…

**Atkişnəməz**, *sif.* ..o mərd ana açdı sənin mərd üzünə.. Qayaların.. atkişnəməz yollarını.

**Atlanmaq**, *f.* Ata minmək. // Şeir, sənət əsgərləri atlandılar. Bəzən atlanıb cıdıra çıxdıq.

**Atlamaq**, *f.* keçmək, ötmək, aşmaq. Zamanlar atlayıb gedim.

**Atlas** (atlaz). i. Yaşıl dağlar atlas geyir.. …atlas geyir yamaclar. Dünya dəyişəcək atlas donunu.

**Atlı**, *sif.* 1. Ata minmiş suvari. Yorğun piyadalar, atlı ordular. Axar çaylar öpdü o gün; Atlıların ayağından.

2. *is.* Ata minmiş adam. Götür beş-altı atlı.

**Atmaq**, *f.* 1. Bir şeyi əlindən buraxaraq yaxına və ya uzağa tullamaq, fırlatmaq. Atın meyitimi, düşsün çöllərə.

2. Tərk etmək, buraxmaq, üz döndərmək. Yenə varmı öz yurdunu atıb tərk edən? Yorulub atmayır o bizi darda.

3. Doldurulmuş tüfəngdən, tapançadan, topdan və s. silahdan atəş açmaq. Top-tüfəng atdılar, nərə çaldılar.

4. *məc.* Uzatmaq. Qəpik-quruş atır ona (qoca rəssama) gəlib gedənlər.

**Atüstü**, *z.* Çox tələsik, ötəri. Atüstü olsa da qısa bir söhbət; Dönür unudulmaz bir xatirəyə.

**Avara** [*fars.* avarə] Ağzı avaradan dost ola bilməz.

**Avaz**, *is.* [*fars.*] 1. Səs, səda. Mən duyuram avazından onun dərhal; Buruqların o yeraltı nəfəsini.

2. Mahnı, nəğmə, xoş səs. Ötdükcə sənətin, şeirin avazı // Nə gözəl, nə şirin avazın vardır.

**Avqust** [lat.] Təqvim ilinin səkkizinci ayı. Avqust, sentyabr on yeddinci il.

**Avto** [fr.] Avtomobil. Avtolar, insanlar, yeraltı canlar / Uzanmış şəhərin polad əlləri, Qatarlar, avtolar gəlir Muğana // Qatarlar, avtolar gedir dalbadal, keçici bayraqlar yanaşı durur.

**Avtor** [lat.] müəllif. Hitler özü avtorudur qaniçici fərmanların; Onun ilk avtoru Sarıvəllidir.

**Ay**, *is.* 1. Yer kürəsinin peyki olub, onunla birlikdə Günəşin ətrafında fırlanan və gecələr inikas edən Günəş işığı ilə işıqlanan göy cismi. Ay dolandı, il dolandı; O, verdiyi sözü dandı. // *məc.* Gözəlin camalına təşbeh (bəzən «ay üz», «ay parçası», «on dörd gecəlik ay» və s. tərkiblərdə işlənir)… A qızım, üzündən götür duvağı. Qoy açıq görünsün ayın qabağı.

**Aya**, nida. Sual və təəccüb ilə bərabər təmənna və ümid bildirir, Zəif qollarından tutub ikimiz: «Aya, yorulmusan, gəl otur!» – dedik.

**Ayaq**, *is.* İnsan və heyvanın yeriməsinə xidmət edən bəzən üzvü. O gül dodağınla xeyir dua ver; Ayağın altında titrəməsin yer.

◊ Ayaq basmamaq. Bir yerə daha gedib-gəlməmək, əlaqəsini kəsmək, girməmək. Basma ayağını bizim torpağa. Ayaq saxlamaq – dayanmamaq, durmamaq, – Qandal ayağında, zəncir qolunda; Ayaq saxlamadı nəsillərimiz. Ayaq tərpətmək. *məc.* Hücum etmək, basqın etmək. Yadlar ay-

ağını tərpətsə bir an bizim bu bəxtiyar ellərə sarı. İlandan, əqrəbdən yar ola bilməz. Ayağa qalxmaq. 1) Durmaq, hərəkətə gəlmək. Silahı qurşanıb ayağa qalxdı. Onun ürəyində bu zaman, bu an bizim planetamız qalxır ayağa. 2) Üsyan etmək, hərəkətə gəlmək. Biz ayağa qalxdıq, dedik – zamandır. Ayağını üzmək – ayayğını yerdən götürmək, havaya qalxmaq. Yerdən ayağını quş kimi üzüb Yay kimi dartılıb, ox kimi süzüb.. Ayağa qaldırmaq *(məc.)* – hərəkətə gətirmək, həyəcana gətirmək. Sarıl Günəş rəngli bir al bayrağa / Səsinlə elləri qaldırmaq ayağa. Mən heç kəsin ayağına getmərəm dedi. Ayağına yazılmaq – birisinin hesabına (adına) yazılmaq – Günah da yazıldı ayağımıza. Ayağına getmək – minnət götürmək, xahiş etmək.

**Ayaqlamaq,** *məc.* Saymamaq, tapdalamaq, pozmaq. Mən deyirəm: «Qoy var olsun sinəmdəki el ürəyi / Mərd oğullar ayaqlamaz and içdiyi düz-çörəyi…»

**Ayaqlanmaq**, *t-li (məc.)* Birisinin üzərinə hücum etmək, qalxışmaq, təcavüzə başlamaq. Mən dayanıb dursam bir az; Ayaqlanar qarı düşmən!

**Ayazlı**, *sif.* Şaxtalı, soyuq. Ayazlı, şaxtalı bir qış axşamı. Sən ayazlı gecələrdə ulduzların sirdaşısan; Boranların, çovğunların, dumanların qardaşısan.

**Ayıltmaq**, *f.* Yuxudan oyatmaq, ayılmağa, gözlərini açmağa məcbur etmək. Səhər yuxudan ayıldır məni; Sinəmə sığmayaq böyük duyğular.

**Aynabənd**, *is.* [*fars.* ayinəbənd] Şüşəli balkon, pəncərələri çox böyük olan otaq, şüşəbənd. Aynabənd evlərin eyvanı sərin; Yuyunur qoynunda al şəfəqlərin. Hər batan günəşin, doğan səhərin; Hüsnün salamlayır pəncərələrin.

**Aynalı**, *sif.* Aynası, güzgüsü ya şüşəsi olan. Yorğun-arğın insanlar işdən sonra; Yığılmışdı divarları daş aynalı bir salona.

**Ayrı.** Ayrı salmaq – ayırmaq, uzaqlaşdırmaq, əlaqənin kəsilməsinə səbəb olmaq; Gəlin, çox yormayın sevgimizi; Fələk ayrı saldı deyəsən bizi.

**Az**, *sif.* Sayca çox olmayan, cüzi (çox ziddi). Az işləyib çox qazanar – Çox danışıb az yazanlar unudulur. Mən az (z) görməmişəm bu sarayları; Burda düzə çıxan ahu-vahları. – Az qalır kəsilə nəfəsimiz də – Az qalır, az qalır işin ömrünə. İnsanın ömrü az olur – Ağır günləri də az görmədik biz.

◊ Az qala – demək olar ki, həmin-həmin. Hirsindən az qala.. Qədəhi bir lordun başına çırpam.

**Azad**, *sif.* [*fars.*] 1. Azadlıqdan istifadə edən, başqasından asılı olmayan, sərbəst. Oğul, mən azadam başdan, binadan… Qoy var olsun azad insan, azad bahar. Bir quş ki uça düzlərə, səhralara azad.. Könüllər yolçusu azad bir quşam. Nə qədər mən sağam, Get dolan azad! Bütün ailəsi qəmdən azaddır / Könlüm azad gəzən havalı bir quş.. Şərqilər dedikcə azad nəslimiz.

2. Heç bir şeylə məhdud edilməyən; maneəsiz, əngəlsiz sərbəst. …azad könül, azad vicdan… Burada hər qayğıdan, dərddən azadam…

◊ Azad olmaq. 1. Xilas olmaq, qurtulmaq. [Xosrov:] Olaq hər qüssədən, hər qəmdən azad; Azad olacaqdır… Qəm mülkündən azad olum / Artıq azad olmuş ilk məhəbbətim.

2. Azadlıq əldə etmək. Ellərin məhbusları azad olar.

**Azadlıq**, *is.* Hər hansı bir sinfin yaxud bütün cəmiyyətin və ya onun üzvlərinin ictimai-siyasi həyatında və fəaliyyətinə mane olan sıxıntı və məhdudiyyətlərin olmadığı hal; müstəqillik. Nədir üzündəki o aydın səhər; Azadlıq, qurtuluş onda gülümsər.

**Azar** *is* [*fars.*] Xəstəlik. Budur, Şərqin ciyərini gəzən ilk azar..

**Az-az**, *z.* Yavaş-yavaş, tədriclə. Azəri yurdunun oğluyam mən də; Az-az uydururam yeri gələndə.

**Azərbaycanlı**, *is.* Azərbaycan Respublikasının və Cənubi Azərbaycanın əsas əhalisini təşkil edən, türk dillərindən birində danışan xalq və bu xalqa mənsub adam; azəri // *sif.* mənasında. Şahim, siz özünüz azərbaycanlı!

**Azəri**, *is.* Azərbaycanlı. Azəridir mənim adım; Füzulidir söz ustadım / Azəri yurdunun oğluyam mən də / Az-az uydururam yeri gələndə.

**Azğın**, *is.* mənasında *məc.* Qudurmuş, vəhşi, yırtıcı, amansız, sərt, şiddətli // Qudurğan, lovğa, təkəbbürlü. Burada at çapdı keçən azğınlar.

# B

**Baba**, *is.* 1. Atanın ya ananın atası; nəvəsi olan kişi. [Oğlum] hər səhər göstərərək döşündəki bir ordeni: «Baba! Baba!» söylədikcə onun körpə dodaqları.. – zülmətlə diz-dizə əyləşən babam..

2. Yaşlı və hörmətli kişi, yaxud yaşlı kişiyə hörmətlə müraciət. [Banu:] Söylə, Azər baba, nə fəlakətdir? – Durub cütcü baba öpdü alnımdan; Bildim ki, mehriban olurmuş insan.

3. Sadə, adi, fağır mənasında (adətən təvazö üçün peşə, sənət bildirən sözlərə qoşulur). Bir kəndli babadır, vicdanı təmiz. Bir mömin babayam Quran görməmiş.

4. Yalnız cəm şəklində: babalar – əcdad. …O sadə vüqar; Bizim babalardan bir yadigardır. – Biz and içdik.. Babaların ocağına – Seyrə vardıqda o heçlikləri mən; Deyirəm: torpağa dönmüş babalar.. Ömrü yazıq keçən babalarım tək.. – Qalmış babalardan bizə yadigar…

**Babacan**, *is.* Babaya yaxud qoca kişiyə mehribanlıqla müraciət. Biz sual veririk qocaya bu dəm: De, kimsən, babacan..?

**Bac**, *is.* [*fars.*] *(köhn.)* 1. Keçmiş zamanlarda bir yerdən başqa bir yerə aparılan mal və sairədən alınan rüsum, vergi. Ümumiyyətlə vergi // *məc.* [Loğman:] O zaman hər şeirin göydən bac alar. …Göylərdən bac alacaqdır..

2. *(tar.)* Qalibin məğlubdan aldığı təzminat, vergi. Üstümə hər gələn bac aldı keçdi..

**Baca**, *is.* Tüstü çıxmaq üçün ocağın üstündə kərpicdən hörülən və ya dəmirdən qayrılan içi boş boru. Önündə bir baca. Qalxır bacalardan alovlar, odlar.

**Bacardıqca**, qüvvətləndirici ədat mənasında. Beləsindən bacardıqca kənarda gəz.

**Bacarmaq**, *f.* Əlindən gəlmək, görə bilmək, bir işi görməyə qabiliyyəti, iqtidarı olmaq, öhdəsindən gələ bilmək, müvəffəq olmaq. Bacarmısınız! Çünki milyonlardan yüz qat alasınız!

**Bacı**, *is.* Hörmət üçün qadınların adlarına yaxud ləqəblərə əlavə olunur. Ey qadın! Ey Nuhun böyük bacısı.. Elmin bacısı da var. O da təmiz bir ürəkdir. [Məryəm] Şirin, gözəl bacım, tanrını dinlə. Müraciət bildirir: Anam, bacım qız gəlin.

**Bad**, *is.* [*fars.*] Yel, küək. □ Bad(i)-səba *(şair.)* səba yeli, səhər əsən xəfif, sərin meh.

◊ Bada vermək – puç etmək, yox etmək, məhv etmək, tələf etmək. [Azər baba:] Dedim ki, dünyanın məhvəri dönməz; Xəyanət aləmi versə də bada – Gedən gəlməz bu dünyada; Öz ömrünü vermə bada. – …Səninkidir o tək məzar; Onu dövran verdi bada. **Bada getmək** – heçə çıxmaq, puç olmaq, tələf olmaq, məhv olmaq, boşa çıxmaq, zay olmaq, hədər getmək. Onların ömrü də tez gedər bada / Hər kəs əkdiyini biçər dünyada – Bir qonağam bu dünyada – Bir gün ömrüm gedər bada – Ürəksiz yaranan tez gedər bada.

**Badalaq**, *is.* 1. *Məc.* Hiylə, gələk, fənd, fırıldaq mənasında. Mən az görməmişəm badalaqları …

**Badə**, *is.* [*fars.*] (şair). 1. Şərab, çaxır. Ney tutulsun, badə gəlsin gülzar eşqinə! – Yadımdadır.. o badələr, o nitqlər…

2. *məc.* Şərab piyaləsi mənasında. Vaxtdır, badələri qaldırın dostlar! İçək təzə ilin şərəfinə biz – Dostlar, badələri qaldırın!

**Badımcan**, *is.* Xiyara bənzər, tünd bənövşəyi rəngli bostan meyvəsi. …Bizim bostanda.. Bir az.. badımcan olsun.

**Baftalı**, *sif.* Bafta ilə işlənmiş bafta ilə bəzəkli, bafta tikilmiş, baftadan köbə tikilmiş. O baftalı çuxası. – Sındı beli salonların, Zər baftalı paqonların.

**Bağ**, *is.* 1. Meyvə ağacları əkilmiş sahə. Üzüm bağı, nar bağı – Min nemət yetirir hər bağça, hər bağ – Qoy bağ olsun, bağat olsun – Bağ yaradın, bağça salın şoran yerində. Ev tikib, bağ salıb, yollar çəkərik – Şoranlıqda bağ salınır, bataqlıqda qızılgüllər.

2. *məc.* Güllük, çiçəklik, yaşıllıq yer. …Məclis quraq mənim bağımda / Hər bağın, hər bağçanın bir bülbülü – şeydası var; – Çiçək açmaz könül bağım. Azadlıq bağından gül dərə-dərə.

3. *məc.* Yaylaq, şəhərdən kənarda bağ-bağat yer. …Məclis quraq mənim bağımda.

4. *məc.* Yaşanan ömür, ötən illər, ömürdən keçən illər – Uçub tökülürdü ömrünün bağı. – Min çiçək topladın ömrün bağından.

**Bağ-bağat**, *is.* Bağlıq, ağaclıq, yaşıllıq. Muğanda sayrışır bağlar-bağatlar. – Şirvanda sayrışır bağlar-bağatlar.. – O vaxt aşıb-daşacaqdır bağlar-bağatlar.

**Bağban**, *is.* [fars] 1. Bağa baxan, bağa qulluq edən adam; bağ yetişdirməklə, bağçılıqla məşğul olan adam; bağçı. Qoca bağban… – Bağban olub o girdikcə hər bağa; Kar çatlayıb şaftalılar saralır.

**Bağça**, *is.* 1. Kiçik bağ, həyət bağı. Bu gün yenə bizim Sabir bağçasında; Oturmuşdur arxalıqlı bir ixtiyar Ətirdən məst olur; Yüz bağça, yüz bağ. Min nemət yetirir hər bağça, hər bağ – Payız vaxtı bağçamızın heyvaları dəyəndə.

2. *məc.* Güllük, çiçəklik. Hər bağın, hər bağçanın bir bülbüli-şeydası var.

3. Məktəb yaşına çatmamış uşaqlar üçün tərbiyə, əyləncə müəssisəsi («uşaq bağçası» şəklində də işlənir). Siz ey bağça-

larda yatan uşaqlar.. – Bəzən bağçadakı bir çocuq səsi – Uşaq bağçası.

**Bağça-bağ**, *is.* Güllük, çiçəklik. Şaxtaral vurmayır bağçanı-bağı – Ürəksiz əkilən yerlər saralar / Şitillər boy atıb bağça-bağ olmaz. Keçdiyin yollar da bağça-bağ oldu.

**Bağçacıq**. Bağçadan kiçik. Suyun sahilində bir bağçacıq var.

**Bağcalı**, *sif.* Bağçası olan; həyatində çiçəklik, güllük olan. Yerlərə baxıram – bağçalı, bağlı.

**Bağçılıq**. Bağbanın peşəsi, işi, sənəti, bağbanlıq; Hər addımda bir bağçılıq, bir təzə bağ.

**Bağdaş**. *is* Bardaş: Barğaş qurmaq – bardaş qurub oturmaq – dizlərini qatlayıb baldırlarını bir-birinə keçirərək oturmaq. Parçalanmış ağ buludlar göydə bağdaş quraraq // Ürək, qəlb mənasında. Yerin bağrı şırım-şırım. Yerin bağrı zolaq-zolaq.

**Bağır.** ◊ Bağrını qana döndərmək – həddən artıq kədərlənmək, iztirab vermək. – Bağrımı döndərmə qana, bənövşə! Bağrını döymək – özünü çırpmaq, ora-bura vurmaq – Döyürdü bağrını dağ-daşa sellər. Bağrını dəlmək – son dərəcə kədərlənmək. Ulduzlar havanın bağrını dəlir – Bağrını dəldi yerin. Bağrını yarmaq – dəhşətə salmaq. Torpağın bağrını təpiklə yaran. Bağrına basmaq – məhəbbətlə, nəvazişlə qucaqlamaq. …məni .. öz bağrına bas! – Yazıq, bədbəxt balasını basacaqdır bağrına. Bağrıma basıram ana vətəni. – Öpə-öpə öz bağrına basacaqdır – Sən də ana kimi öz bağrına bas. – Bu canlı sənəti öz bağrına bas. – Aşıqlar bağrına basıb sazını. Bağrını dəlmək – aydınlığa çıxarmaq, xoşbəxtliyə çatdırmaq, azadlığa çıxarmaq. Qoy dəmir barmaqlarımız soyuq və qaranlıq gecələrin bağrını dəlsin. [Səhər:] Qüssə xəncər kimi bağrımı dəlir – Sənin bağrını nizələr dəldi. Bağrını başı od tutmaq – davam gətirməyib ürəyi partlamaq. [Banu:] Tez ol, danış, bağrım başı od tutar. Bağrını yarmaq – 1. Öldürmək; 2) bərk qorxutmaq, dəhşətə salmaq. – Biz də zülmətlərin bağrını yaraq. – havanın

bağrını düz yara-yara. – bağrı yarılarmış dəli göylərin. Bağrı çatlamaq – davam gətirməyib ölmək, ürəyi partlamaq. Ancaq az qalırdı çatlasın bağrım. Bağrına çəkmək – qucaqlamaq. Çəkin bağrınıza o sərvinazı. Bağrını parçalamaq – bərk qorxutmaq, dəhşətə salmaq. – Qacarın bağrını parçalayacaq.

**Bağırmaq**, *f.* 1. Bərk qışqırmaq, çığırmaq, tələb etmək. Çil toyuq bağırır – haqq bağıran nəfəsindən – bu mənfur kitablar qəsdən bağırır.

2. Haray salmaq, fəryad etmək. – Yüksəl! Yüksəl! – deyə bağırdı gerçək. Bağırsan, hayqırsan, həm də cürətlə; Qursun bir ailə [kütlə]. Bağırdım gülərək ey ləkəli dul!

**Bağışlamaq**, *f.* 1. Bir şeyi qarşılıqsız (əvəzsiz) olaraq başqasına vermək, hədiyyə etmək, peşkəş vermək. Sonra əlindəki bir gödəkcəni; Mənə bağışladın.. – Ellər ona… güldəstələr bağışlar... – Bu temanı mən ona bağışlardım… *//məc.* Bəxş etmək, vermək. Günəş bizə bağışlamış al bayraqlı səhəri – Oxuyun şeirimin sizə bağışladığı həyat səhnəsini.

2. Günahından, təqsirindən keçmək, əfv etmək. Məncə yaraşmayır çoxuna bu ad; Məni bağışlasın sevgilim həyat.

3. Əmr şəklində: bağışla, bağışlayın. Söylənməmiş bir sözə, yaxud namünasib bir işə görə üzr istəmək və ya söylənmiş bir fikri düzəltmək üçün deyilir. [Şahbaz:] Bağışla, sözünə davam et, Cəlal. – bağışla, oxucum, mümkünsə əgər – Yox, yox… Vidadi can, bağışla məni. Şahim! Bağışlayın hüzurunizə.

**Bağlamaq**, *f.* 1. İp və s. bu kimi şeylər vasitəsilə zəbt etmək. İp və s. ilə bir şeyi başqasına və ya bir neçə şeyi bir yerə rəbt etmək, düzəltmək. …dərz bağlayır ot biçənlər..

2. Sarınmaq, sarğı keçirmək, sarğı ilə sarımaq. Mehriban əlinlə yaramı bağla.

3. Qapmaq, qıfıllamaq, kilidləmək. Qapıları tez ol bağla.. – Bağlayıram qapıları – Gah Allah bağladı, gah da hökmdar. Bağlayıb yolları, dar keçidləri.

4. Kəsmək, qabağını almaq, mane olmaq. Bağlayıb bəndləri, kəsib yolları; Qıy vurub keçdiniz..

5. Bənd etmək, aşıq etmək. Mənə könül bağlayanlar.

6. Yazmaq, tərtib etmək, qoşmaq, düzəltmək. Adına bağlayım bir yeni dastan. Elmin şöhrətilə yüz kitab bağla!

7. Bir sıra isimlərə qoşularaq mürəkkəb feil və müxtəlif ifadələr düzəldilir. Mənə könül bağlayanlar.

**Bağlanmaq**, *f.* Qapanmaq, qıfıllanmaq, kilidlənmək. Bağlansın qapılar; Sönsün ocaqlar – Qəfəsdə bağlanıb qalarmı hünər? Elə ki, bağlanır dağların yolu.. – Bağlanır qapılar, pəncərələr.

**Bağlı**, *sif.* 1. İp, zəncir və s. ilə bağlanmış, rəbt edilmiş, bənd edilmiş. Əllərimiz bağlı…, – Göylərə baxıram qapısı bağlı. *Məc.* Bağlı tilsimləri mən açmadımmı? // Sarınmış, sarğılı. Bir dustağam qolum bağlı.

2. Qapalı Bağlı qazanın da üstündən keçir.

3. Qıfıllı, kilidli, qapalı. Üzümə bağlıdır mehmanxanalar.

4. İşlənməz, keçilməz; hərəkətə yol verməyən, qabağına sədd çəkilmiş. Təbriz büsatdadır; Bağlıdır Tehran.

4. *məc.* Asılı, əlaqədar, əlaqəli. Bir ona bağlıdır, ah, əməllərim. – Torpağa bağlıdır rəssam nəfəsi.

**Baha**, [*fars.* bəha] □ Baha oturmaq – çox bahaya, böyük səy və zəhmətə mal almaq, yaxud çox pis nəticələnmək, nəticəsi pis olmaq. O dövran qatilə oturdu baha..

**Bahar**, *is.* [*fars.*] İlin qış, yay arasında olan fəsli; yaz. Dolaylarda, bahar çağı; Bir doyunca gəzim dağlar! Baharın eşqilə xoşbəxtdir insan. – Unutma sevgilim, indi bahardır. Sizdə qış günüdür; Bizdə bahardır! – Bizi dəvət edir qışdan bahara. [Valentina:] Min bahar görmüşdür, min boranlı qış.

□ İlk bahar *(şair)* – yaz yaxud baharın təravət saçan ilk çağı, ilk dövrü. Gül üzünün çiçək açmış gülləri / İlk baharın müjdəsidir aləmə. Son bahar (*şair.*) – payız. Ukraynanın son baharı; Yağış yağır narın-narın. *Obrazlı təşbehlərdə:* Keçdi gəncliyimdən otuz beş bahar; Keçdiyim yollara baxdım bir daha.

2. *məc.* (şair.) Gənclik; gəncliyim dadlı xəyal və arzularla dolu olan dövrünə işarədir. Bahar, istəklimsən başdan, binadan. [Şahbaz:] Salama gəldikcə eşqin baharı. Məncə, həyatdır ömrün baharı.

3. *məc.* Yaz havasını xatırladan, yumşaq, ılıq, açıq, mülayim hava haqqında. Otuz yeddi bahar keçmiş / O dediyi zamandan / Bir üzü bahardır, bir üzü qışdır. [Azər baba:] Qışında bahar var, baharında qış. – Əsir bahar yeli ürəyimizə – hər əməlin bir baharmış / Açılan və gülən baharım olsun. Yayda da, qışda da bir baharsınız.

**Bahasız**, *sif.* Ucuz. Mən nəyəm? Bir sümük, bir bahasız ət.

**Baxarlı**,*sif.* Hər tərəfi açıq və xoş mənzərəli. Baxarlı dağların quzey qarı da.

**Baxış**, *is.* 1. Baxma tərzi, gözlərin ifadəsi; nəzər. Mənə bir baxışla unutdurursan. – Ona bir baxışda vurulur insan. – [Səhər:] Ya mənalı bir söz, məsum baxış / Bu gözəllik heykəlinin baxışında qəzəb vardır. Burda insanların xoş baxışından – Nur tökülür bu vaxt qızın baxışlarından. – Almış ilk baxışda o, Bəxtiyarı.

2. *məc.* Görüş, fikir, mülahizə, nöqteyi-nəzər. Həyata bir yeni baxışınla.. ..Həyata bağladın məni..

**Baxışlı**, (*şair.*) *sif.* Adətən başqa bir sözə qoşularaq, tərkib halında mürəkkəb sifət kimi işlənilir. O mələk simalım, şahbaz baxışlım.

**Baxışmaq**, *f. qarş.* Bir-birinə baxmaq. …O taya baxışır hamı.

**Baxmaq**, *f.* 1. Bir şeyi görmək üçün gözlərini ona dikmək, nəzərini bir şeyə dikmək, nəzər yetirmək. Həzin-həzin baxarmış; Onun da mənası varmış.. – Bir özünə baxır, bir ona ceyran. – Sarvan baxır, gözü dolur, qaşlarını sıx-sıx çatır. – Baxıb xeyir-dua verdi bu an bayrağa. Baxır gözlərimə böyük bir insan. – Baxıb övladına deyirdi: «Var ol!»

2. Tamaşa etmək, gözdən keçirmək, müşahidə etmək, seyr etmək. Sarvan baxır ulduzlara, baxır hörmətlə. [Fər-

had:] Şirlərin, divlərin qarnına baxdım; Yenə də tutmadım ondan bir xəbər. – Baxır səhralara, baxır diqqətlə. Ax, bu axşam nə gözəldir; Ondakı mənaya bax. – Cavanşirin surəti də baxır divardan. Yenə də dünyaya baxdı gözləri. Bir bax! Qılıncımda qanlara bir bax! Aha!

3. Mütaliə etmək, ötəri oxuyaraq, ya göz gəzdirərək tanış olmaq, gözdən keçirmək; tanış olmaq. Baxıram … kitablarına; Dəstədən geridə qalmamaq üçün. *Məc.* Yoxlamaq, gözdən keçirib düzəltmək, təshih etmək. Öz gündəlik dərslərinə ötərgi baxdı.

4. Göz gəzdirmək, axtarmaq, araşdırmaq. ..ev də yansa, durub baxar asta-asta..

5. Birindən nümunə götürmək, ibrət götürmək, özünü ona oxşatmaq, fikir vermək. Tarix adlı carçıya bax, Gör nə deyir onun səsi..

6. Fikir vermək, əhəmiyyət vermək, diqqət yetirmək, nəzərə almaq, qulaq asmaq, hesablamaq. Nə ölümə baxır, nə də qorxuya (inkar mənasında). – Dedin ki,.. özünə baxmırsan… – Çox dedim, sözümə baxdınız siz. Bir baxmayır mən deyənə (inkarda).

7. Bir şey haqqında müəyyən rəyi, fikri, mülahizəsi olmaq; bir münasibət göstərmək, qiymətləndirmək, hesab etmək, soymaq. Baxarıq kimdədir, kimindir hünər?

8. Ölçüb-biçmək, yoxlamaq, fikirləşmək, düşünmək, mülahizə etmək. Elin qüdrətinə lovğa baxanlar. – Sən insan oğlunun taleyinə bax!

9. Əmr şəklində: bax – təkid, hədə, xəbərdarlıq, qəti tapşırıq bildirir, yaxud diqqəti deyilən sözə cəlb etmək üçün işlənir. Odur bax, hazırdır yəhərli atlar! Gəncliyə bir bax! Fikrində, hissində inqilab yarat.. – Bir buna bax! Məlun! Bir bax! Qılıncımda qanlara bir bax! May bayramı. Bakı böyük. Parad keçir, bax. – Budur, bax, Muğandan keçirəm yenə. – Baxın, bu dünyada neçə hakim var. Asta bax, qaralar birdən gözlərin. Bir bax gözlərinə… Baxışı qandır.

◊ Allaha baxmaq, – vicdanla hərəkət etmək, insaflı olmaq. Barı, kor vicdanın baxsın Allaha! Gözü ilə baxmaq (kimin?) – çox inanmaq, əqidəsini qəbul etmək. Gözünə doğru (düz) baxmaq. Heç nədən çəkinməmək, haqlı olmaq. Bir gözümə doğru bax! [Alim:] .. adamların gözünə düz bax!

**Baxt**, *is.* [*fars.*] *Bax* bəxt. 1. Tale, qismət. İndi sevin şeyx Alı; Baxtına gün doğalı – Şairim, belədir bizim baxtımız – Gəldi cavan ömrümüzün; Tərlan baxtı.. [İsmət] Sən niyə baxtından küsən kişisən?

2. Mənsubiyyət (nisbət) şəkilçisi ilə, çıxışlıq halda. Baxtımdan – bir hadisə, keyfiyyət və s. münasibəti ilə məmnunluq, razılıq ifadə edir. Belə bir kitabdır, Mənim baxtımdan..

**Bais**, *is.* [ər.] Səbəbkar, səbəb olan adam. Eh… baisin evi yansın.

**Bakal** [fr.] İri qədəh, içki piyaləsi. İçək bu bakalı o sağlığa ki… Dostlar qapını düşmən qaldırardı öz bakalında.

**Bal**, *is.* 1. Arıların çiçək və meyvə şirəsindən hasil etdikləri qatı şirin maddə. Şanada bal tutan barmağın yalar. Pətəyi bal süzən arı məndədir.

2. *məc.* Çox şirin, çox dadlı, çox ləzzətli şey haqqında. Bal kimidir dodaqların.

**Bal**. 2. *is.* [*fars.*] [*klas.*] qanad klassik ədəbiyyatda çox vaxt «balü pər» yaxud «pərü bal» şəklində işlənir – qolqanad. Döyüşdükcə qoca qartal; Qüvvət alır balü pəri. …ürək / …balü pər açar…

**Bala**. 1. *is.* Övlad, uşaq, oğul. Ana igid balasına; Açdı öz qollarını – Beşikdə boğuldu balalarımız. Bilirsən nə şeytan baladır Gülnar? Doğma balanız da yad olacaqdır. Balalar quş kimi versin səs-səsə. Balalar bəsləyin! Haqqı danmasın. *Məc. mənada* Xəyal doğma balasıdır. Bizim ana həyatın. – Azərbaycan balası – Yazıq, bədbəxt balasını basacaqdır bağrına. [Banu:] Axşamınız xeyir, igid balalar!

2. Kiçik, körpə heyvan, quş! …Yanında balası yağış gölündən; Əyilib su içir bir ana ceyran…

3. Xitab yerində (çox vaxt «a balam», «ay balam», «balam» şəklində də işlənir). Sən də, qızım, gözəl balam, sevsən ürəklə. [Banu:] Hanı şirin balam? Nə oldu qızım? Oxu, bala, dinləyirəm təranəni. Ac qalarıq sabahdan; De, neylərəm, balacan?! Olsun, ay bala! Yox, ay bala! Sağlıqla geyəsən mehriban bala! Səndən uzaq olar… göyərçin balam!

4. *sif.* Kiçik, balaca, xırda, körpə. …Ağlayır, ağlayır bala qızcığaz.. Sarayda qız balalar – Anasız ağlaşır körpə balalar!

**Balaca**, *z.* mənasında. Əhəmiyyətsiz, cüzi, yüngülvarı; bir qədər, bir az. Gəray bəy bu sözü dediyi zaman; Əlindən hədəri düşüb tökülür. «Niçevo» deyərək balaca gülür.

**Balıq**, *is.* Suda yaşayan, qəlsəmələr vasitəsilə nəfəs alan, üzgəcləri olan, soyuqanlı onurğalı heyvan. Girdabları yara-yara; Yem olmuşdur balıqlara. – Suyu balıq kimi tən; Könlü balıq istəyən; Gərək girsin dənizə. – Bil ki, balıq qədər qanım soyuqdur.

**Balıqçı**, *is.* Balıq ovlayan, balıq tutmaqla məşğul olan adam. İki qardaş iki ürək; Balıqçıymış bu dənizdə. O balıqçı gənc yaşında; Yemmi olsun balıqlara?

**Balıqçılıq**, *is.* Balıq tutma sənəti, balıqçı peşəsi; balıq tutmaqla məşğul olma. Balıqçılıq deyil peşəm.

**Ballı**, *sif.* Balı olan, içində bal olan. Ballı pətəklərə bənzər beynimiz.

**Balta**, *is.* Odun doğramaq, ağac kəsmək və s. üçün işlədilən saplı, enli və itiağızlı dəmir alət. Balta vurar, gülüng çalar yorulmayan qolları – Qızır baltaları polad pəncəsi..

◊ *məc.* Balta vurmaq. Birinin əleyhinə iş görmək, ziddinə danışmaq; birinə quyu qazmaq. Baltalar vurulub ömür daşıma; Bu eşqin yolunda yaman olmuşam.

**Baltalı**, *sif.* Əlində balta olan, balta ilə işləyən. …əli baltalı bir cəllad..

**Bambaşqa**, *sif.* Tamamilə başqa, tamamilə ayrı. Başında bambaşqa bir sevdası var – Bambaşqa zövqü var bugünkü toyun. Hünəriniz varsa, bir «Rast» oxuyun. Səninsə mənalı

nəzərlərində; Açıldı bambaşqa yeni bir aləm. Nə qədər bambaşqa olsa da zaman; Yenə Vətən mülkü heç qocalmamış.

**Ban**, *is.* Xoruz səsi, xoruz banlaması. Xoruz banı. Dan ulduzu. Şəfəqli ürək; Vüqar ilə mən anıram ötən gəncliyi.

**Bana**, *əv.* «Mənə» mənasında yönlük halda. Doğrusu şu hərif (maydan) / Bana çox xəcalət verirdi.

**Bandit** [ital.] Soyğunçu, quldur, qarətkar, talançı. Gecələri banditlərə güllə daşıyan.

**Bandura**, *is.* [əsli *yun.*] barmaqla çalınan çoxsimli, geniş qollu Ukrayna musiqi aləti. Kimindir banduru söylədən ellər? Yaşıl bağlar tellənəcək; Banduranın xoş səsindən…

**Bar**, *is.* [*fars.*] Meyvə, məhsul. Bel götürüb su verdikcə torpağa; Hər ağacdan nemət alır, bar alır. – Söyüd ağacında bar ola bilməz.

**Barə** [*fars.*] Adətən nisbət (mənsubiyyət) şəkilçiləri ilə işlənir – xüsusda, xüsusunda, haqqında. Bu kəlamın barəsində qilü-qal olsun gərək!

**Barxana,** *is.* [*fars.*] (köhn.) Ev şeyləri, ev ləvazimatı, müxəlləfat, avadanlıq, dirilik, başqa bir yerə aparılmaq üçün yığılıb bağlanmış şeylər, yük. [Azər baba:] Ağır barxanamı çəkən də sənsən.

**Barı**, *əd.* [*fars.*] Heç olmasa. Barı, kor vicdanın baxsın Allaha! Yazıqlar ki, bir nişan da qalmamışdır ondan barı. Həyat da romandır.. Fəqət bu romanı sonuna qədər; Oxuyan olmuşmu barı bir nəfər? Əmr edin, dayansın yanğınlar, barı. Barı sənət qüdrətimi; Onlar danmasın. Barı bir gün görsün övladlarım… soldu barım.. Barı yüz addımlıq bir mənzil isə; Başa vurmamışdır iradəsizlər.. Alışdır özünü barı möhnətə.

**Barışdırıcı**, *sif.* və *is.* Barışdıran, iki düşmən arasında sülh və ya küsülü arasında yenidən dostluq və səmimilik yaradan. – Yüz barışdırıcı kitab da yazsan, Tutqun üfüqlərdə açılmaz sabah.

**Barışmaq**, *f. məc.* Uzlaşmaq, yollaşmaq, razılaşmaq, sazişə gəlmək. Barışır zaman.

**Barışmaz**, *sif.* Heç bir sazişə, heç bir sülhə yol verməyən; kəskin amansız. Cənub, Şimal, Şərq, Qərb bölünsün; İki düşmən və barışmaz cəbhəyə! – El bölündü iki düşmən və barışmaz səngərə..

**Barıt**, *is.* Odlu silahlardan ötrü patron, mərmi hazırlamaq üçün partlayıcı maddə. Barıt vardır havalarda… ◊ Barft qoxusu – müharibə qorxusu …Barıt qoxusu, ..tüstü.. his.. müharibə gedir.

**Barlı**, *sif.* Meyvəli, məhsullu, bargətirən, meyvəverən. Əlinlə qurduğun barlı bağçalar; Tufanlar qopsa da saralıb solmaz.

**Barmaq**, *is.* 1. İnsanın və bəzi heyvanların əl və ayaqlarının qurtaracağındakı beş mütəhərrik üzvdən hər biri. – Barmağını xəritədə o gəzdirərək. – barmağlar dincəlir, əllər şad olur.

**Barrikáda** [fr.] Küçə vuruşmasında inqilabi kütlələrin müxtəlif iri şeylərdən (şalban, içi torpaqla dolu kisələr, daş, ağac və s.-dən) düzəltdikləri səngər. Zəhərli qurşunlara qurban olundu revolyusion barrikadalar. – Keçir albayraqlı barrikadalar.

**Basdırmaq**, *f.* Əkmək, sancmaq. Bu gün basdırdığın körpə şitillər.

**Basılmaq**, *f. t-siz*. Məğlub olmaq. Bəzən basılır hünər. – Əlbəttə, basılar… Yaraşmayır basılmaq.

1. Üstdən sıxmaq, təzyiq etmək, ağrılıq vermək. – Yenə qar basacaq dağ döşlərini.

2. Qalib gəlmək. Bu dəfə basdı Qoca.

3. Bir şeyin çoxluğunu, sıxlığını geniş sahə tutduğunu, yayıldığını bildirir. – Körpünü basmışdır yabanı otlar.

4. Örtmək. Basıb daş yağını dar döngələri..

5. Bir sıra isimlərə qoşularaq, mürəkkəb feil və müxtəlif ifadələr düzəldilir: ayaq basmaq, bağrına basmaq. Basma ayağını bizim torpağa; İlandan-əqrəbdən yar ola bilməz.

Sənsə öz bağrına basıb yarını. – Kim basdı bağrına can-hacan səni? – Yazıq bədbəxt balasını basacaqdır bağrına.

**Basılmaz**, *sif.* Məğlub edilə bilməyən, məğlubedilməz. O dedi ki: Basılmazdır qadir insan / Yaşa, yaşa! O basılmaz qüdrətinlə.

**Basılmış**, *f. sif.* Məğlub edilmiş, məğlub olmuş. Basılmış ordusu çəkilib geri..

**Basqın**, *is.* Ansız hücum, qərildən, gözlənmədən edilən hücum. Basqına keçmişdir Məhəmməd Qacar. – Basqın güruhları çəkildi geri.

**Basmaq**, *f.* 1. Tapdalamaq, ayaqlamaq, basdalamaq.

2. Batırmaq, içinə salıb islatmaq. O məni dənizə basıb dedi: – Xan, Bir sıra isimlərə qoşularaq, mürəkkəb feil və müxtəlif ifadələr düzəldilir, məs. Ayaq basmaq. Basma ayağını bizim torpağa; İlandan, əqrəbdən yar ola bilməz. – Yox… yox… Basılmaz Vətən!

**Baş**, *is.* 1. İnsan bədəninin kəllə və sifətdən ibarət olan yuxarı hissəsi. Durnalar başın üstdən keçəndə – Deyirəm mənim də başımda bu var. // Heyvan bədəninin, beyin olan yuxarı və ya ön hissəsi. Bəxtiyar saxlayır atın başını.

2. Bir şeyin ən yuxarı hissəsi, təpəsi, zirvəsi, üstü. Qəlbinin başında çırpınır bir quş.

3. Bir şeyin başlandığı yer, başlanğıc. Hər bulaq başında bir söhbət olur. – Bulaqlar başında qurban kəsərmiş..

◊ Baş vermək – 1) əmələ gəlmək, meydana gəlmək, vaqe olmaq, qadir olmaq, ortaya çıxmaq, olmaq. Xatalar baş verir hər vuran əldən… Baş vurmaq – baş endirmək, təzim etmək. Qalxdılar, baş vurub oturan zaman. Baş qaldırmaq – üzə durmaq, itaətsizlik göstərmək, tabe olmamaq. – Bir də baş qaldırıb deyinməsinlər! – İndi baş qaldırır müstəmləkələr. Başdan keçmək – candan keçmək, özünü fəda etmək. – Öz başından keçənlərə ……… heyran qalırsan? Baş əymək – 1) ehtiram etmək, təzim etmək, salam vermək. – Bəs baş əymədiniz! – Bəli, əymədim. *Məc.* Rüzgarlara baş əydikcə su yolunda hər qamış, Durnalara baş əyir. 2) tabe olmaq,

itaət etmək, alçalmaq – Baş əymədin xanlara. Baş yarmaq – (*din.*) keçmişdə: Məhərrəm ayında aşura günü qatı mövhumatçıların baş çapmaq, baş yarmaq ayini. Nə zəncir vuran var, nə də baş yaran. Başına yığmaq (tapmaq) – başına toplamaq. Komsomol Bəxtiyar kəndə gələli; Toplayıb başına yoldaşlarını. Baş götürüb axmaq – qarşısına gələn istiqamətə doğru getmək, baş götürüb getmək, qaçmaq. Günlər baş götürüb axır irəli. Baş çəkmək – hal soruşmaq, birinin halını bilmək üçün onun yanına getmək; dəymək, yoxlamaq. Məclisə baş çəkir, hər gəlib gedən; Onların üstünə özü baş çəkir. Başa keçmək – məclisin yuxarısına keçmək, ən hörmətli yeri tutmaq, başda oturmaq. Yox bir başa keçsin çiynində çomaq. Başa vurmaq – axıra çatdırmaq, bitirmək, tamamlamaq, tamama yetirmək. İyirmi il vurdum başa. Başı qarışmaq – bir şeylə məşğul olmaq. Qarışsın cəbhədə onların başı, Təki böyüklərə, bəylərə qarşı. Başını qaldırmaq – Şaşqalar başını qaldırdı göyə.. Başını qurtarmaq – canını qurtarmaq, xilas olmaq. Başını qurtarmaq istəyir bir az. Başından od çıxmaq – möhkəm əsəbiləşmək, bərk hirslənmək. Başından od çıxır danışdıqca sən. Əzəl başdan – lap əvvəldən, lap başdan, çoxdan, yaranandan. Əzəl başdan düşmənimdir üzü murdar qaranlıq. Hər torpağın öz eşqi var, hər millətin öz adı. Əzəl başdan bu bağdayam.

**Baş-ayaq**, *z.* Tərs (tərsinə), əksinə, başı ayağına və ayağı başına tərəf.

 Baş-ayaq danışmaq (vurmaq) – danışığının nə başı, nə ayağı olmaq, danışığında heç bir məntiq və rabitə olmamaq. Görürəm sözlərim baş-ayaq vurur, Bəzən quş yerinə dağ-daş uçurdur.

**Baş-başa**, *z.* Bir yerdə, yan-yana, bir-birinə sıxılaraq uca dağlar baş-başadır, Qayaları baş-başadır. – «Qoşa yatıb… baharla». Baş-başa, dincəlim bir göy çəməndə. Bizik dənizləri baş-başa çatan.

 Baş-başa vermək – bir-birinə yaxın durmaq, yanaşı durmaq, yan-yana düzülmək, durmaq. Sayrışan ulduzlar

verib baş-başa; Bir cüt ulduz kimi verib baş-başa; Süzülüb gedəndə xəyala gözlər. Qayalar! Qayalar, verib baş-başa. Baş-başa durmaq – bir yerdə oturmaq, bir yerdə durmaq, yan-yana oturmaq, bir yerə cəmlənmək. Sıxnaşıb bir yerə baş-başa durur. Baş-başa gəlmək – üz-üzə gülmək, rastlaşmaq. O qopan üsyanın zəlzələsindən; Baş-başa gəlmişdir böyük binalar. Baş-başa gəlmişdir ölümlə hünər. Toplar, təyyarələr gəlmiş baş-başa.

**Başdan**, *z.* Əvvəl(in)dən, ibtida(sın)dan, təzədən, yenidən. Oğul, mən azadam başdan, binadan…

**Başdan-ayağa**, *z.* Bütünlüklə, tamamilə, hər yeri, hər tərəfi; bütöv, tamam, səlt. Başdan-ayağadək geymiş qırmızı..

**Başdan-başa**, *z.* Tamamilə, bütöv, tamam. Dünya başdan-başa təzə görünür. Yaxşılıq insanla bir sənət olsun; Dünya başdan-başa qoy cənnət olsun. Qara geymiş başdan-başa; Polyakların ana yurdu. Ömrün başdan-başa bir axtarışdır.

**Başdaşı**, *is.* Qəbrin üzərində baş tərəfdə sancılan daş və s.-dən ibarət nişangah. «Bir məzar ki, nə başdaşı» nə adı var.. Qəribədir saraydakı başdaşları; Bir çoxunu yaxına gəl, seyr et barı.

**Başıaçıq**, *z.* Başında heç bir şey olmadığı halda, papaqsız, başı örtüksüz. Yağış yağır narın-narın.. Başıaçıq dayanmışıq qəbrin yanında.

**Başıaşağı**, *sif.* (*məc.*). Sakit, dinc, fağır, heç kəslə işi olmayan, ancaq öz işi ilə məşğul olan. …Görürsən? Səssizcə, başıaşağı.. Mənim ilhamıma yaxındır düzü..

**Başıbatmış**, *sif.* və *is.* (*dan.*). Söyüş, qarğış yerində işlənən ifadədir. Düm ağ geyindikcə o, başıbatmış; Yenə qar basacaq dağ döşlərini.

**Başısoyuqluq**, *is.* Öz işinə, vəzifəsinə soyuq baxma, səhlənkarlıq; diqqətsizlik, qeydsizlik. Gülüncdür bu başısoyuqluq şəksiz..

**Başıucalıq**, *is.* Məğrurluq, vüqarlılıq, mənlik, şərəflilik. Dağlar bizdən öyrənmişdir nədir başıucalıq. [Loğman] Gənclik yaranmışsa başıucalıq.

**Başıyelli**, *sif.* (*məc.*) Sürətlə, qeyzlə, acıqla, iti, köpüklənə-köpüklənə. ..Başıyelli axar çaylar.

**Başkəsən**, *sif.* Cəllad, insan qatili, xunxar; vəhşi, yırtıcı dələduz. Evyaran, başkəsən quldurlar kimi.

**Başqa**, *sif.* Bu yox, digər, o biri, əvvəlkindən fərqli, qeyri, ayrı, sair, özgə.Bizə yasaq oldu başqa kitablar / Başqa bir zövqü var bugünkü toyun; Hünəriniz varsa bir rast oxuyun. Başqa bir qisas da siz alın ondan. – Bu gün mən başqa bir dünyaya çıxdım. Başqa zövq alıram bu gün aləmdən.

**Başqalaşmaq**, *f.* Başqa vəziyyət, şəklə, hala düşmək; başqa cür olmaq; tamamilə dəyişmək. Bir də sevgilimi aldatmaq üçün; Dəyişib cildimi başqalaşmadım.

**Başlamaq**, *f.* 1. Bir işə girişmək, şüru etmək. [Şahbaz:] Başlanacaq imtahan. – Sən ey başladığım dumanlı əsər.

2. Bir işin əsası qoyulmaq, əmələ gəlmək, meydana gəlmək. Bir səyahət günü başlamışam mən.

**Başlanmaq**, *f.* Meydana çıxmaq, törəmək; törəməyə ortaya çıxmağa, əmələ gəlməyə başlamaq. Qulaq as, başlanır bir yeni dastan.

**Başlıca**, *sif.* 1. Ən əsas, ən mühüm, ən ümdə. Dedi: – Mənim küsməyimin başlıca bir səbəbi var.

**Başlıq**, *is.* Yağışdan, soyuqdan, küləkdən qorunmaq üçün başa geyilən örtük. Əynində boz şinel, başında başlıq / Nə isə pıçıldayır o, fəhlələrə – Yun başlıq göndərirəm..

**Başmaq**, *is.* (köhn.) Üzüörtülü, daban tərəfi və pəncənin yarısı açıq, nallı kişi və qadın ayaqqabısı. Qalxıb başmağını geyir hər səhər.

**Başsağlığı**, *is.* Yaxın adamı ölmüş bir şəxsə ya ailəyə təsəlli vermə, səbr verməə; təziyə. Yetirin şairin başsağlığını.

**Başsız**, *sif.* Azğın, qabağıalınmaz, önüalınmaz. // *məc.* Dayanın, car çəkən başsız küləklər!

**Bataqlıq**, *is.* Durğun su, lığ, lehmə, palçıq ilə örtülü yer; bataq çox olan yer. [Valentin:] Burda bir bataqlıq çıxırdı dizə.

**Batırmaq**, *f.* Qərq etmək, suyun dibinə çökdürmək, cumdurmaq. …batır suda, vur quruda, havada!

**Batlaq**, *bax* palçıq. Döşündə sarı gil, dizində batlaq.

**Batmaq**, *f.* 1. Şiş tərəfi ilə bir yerə sancılmaq, girmək, soxulmaq. Üzümə ox batar. – Onun gözlərinə batır ox kimi.

2. Suyun dibinə dalmaq, cummaq, düşmək. Dənizlər dibinə batdı gəmilər.

3. Qürub etmək, gözdən itmək. Hər batan axşamın bir adı vardır… – Hər batan axşamın, doğan səhərin hüsnü salamlayır pəncərələrin. – Bir axşam günəşin batdığı zaman; Sizin bildiyiniz o topal Gəray. // *məc.* Sən bir Günəş idin, doğdunda batdın. Gah doğur, gah batır könül riqqətim.

4. Məhv olmaq, puç olmaq, hədər getmək, yox olmaq. Yer altında batıb getmiş; O dövranın dastanları.

5. *məc.* (dan) Qalib gəlmək, üstün gəlmək, gücü çatmaq. Batmaq olarmı Xana. Qoy ulduzu atsın, günəşi sönsün.

◊ Elə bil ki, gəmin batıb qərq olmuşdur sulara.

Gözü batmaq. - Ölmək, canını tapşırmaq // çox arıqlamaq. Gözləri çuxura düşmək. Şahsuvar tərəfə patron boşaldı, Qüvvədən düşərək gözləri batdı. Göz yaşına batmaq – ağlamaq neçin göz yaşına batsın analar. Gözü çuxura batmaq // bax gözü batmaq. Gecən qara, günün qara, Batdı gözün çuxurlara. Gözünə ox kimi batmaq – çox təsir etmək. Onun gözlərinə batır ox kimi. Gözünə batmaq – gözünü kor etmək, müqavimət göstərmək. Kimdir qartal kimi qayada yatan; Pəncəsi düşmənin gözünə batan.

**Bayaq**, *z.* Bir az bundan əvvəl, qabaqca. Bayaq söylədiyin o töhmətlərə; İndi nə deyirsən? – Bayaq sizi göstərərək arkadaşım söylədi. Amerika! Yeni dünya! – vətənimdir, dedim bayaq. [Şirin:] Bayaq qulaq asdım ürəkdən ona.

**Bayaqdan**, *z.* (bəzən «bəri» sözü ilə bərabər). Bir az əvvəldən; çoxdan. Tulalar da zingildəşir.. bayaqdan.

**Bayatı**, *is.* 1. Azərbaycan xalq musiqisində həzin bir hava adı. Dillərdə bayatı, kəsmə şikəstə. – Bir bayatı… Bir şikəstə, min şam yanır qəbrin üstə. Götür Şəmşədini. Bir bayatı çal.

2. *is.* Azərbaycan şifahi xalq ədəbiyyatında nəzm formalarından biri, çox zaman onun dörd misrasından 1, 2 və 4-cüsü həmafiyə, 3-cü misrası isə sərbəst olur. Mənim dilimdədir bayatılar, qoşmalar. – Çoban tütəyindən axan bayatı.

**Bayğın**, *sif.* və *z. Məc.* Xumar, məstanə, süzgün. Bayğın gözlərin etdi əhvalımı pərişan.

**Bayır**, *is.* Binanın və s.-nin xarici; eşik, həyət, çöl, kənar, açıq yer. Bayırdır gecikənlər, geri qalanlar.

**Bayquş**, *is.* 1. İrigözlü, girdəbaşlı, çirkin səsli, qarmaqburun, yırtıcı gecə quşu. Gecələr, çox səssiz olur, yahnız ular bayquşlar.

2. *is.* Mənhusluq, uğursuzluq simvolu kimi. [Eloğlu:] Ölümlər oxuyur bizə o bayquş?! [Xosrov:] Fəlakət? Bayquşsan doğrudan da sən – ötür yavaş-yavaş o bayquş səsi – sussun o bayquşun pərişan səsi.

**Bayraq**, *is.* 1. Uzun və nazik bir ağacın baş tərəfinə rəbt edilmiş və adətən üzərində dövlətin, yaxud hərbi və ya ictimai təşkilatın xüsusi əlaməti – nişanı çəkilmiş bir və ya müxtəlif rəngli qumaş parçası. – Veriləcək bu bayraq birincilik qazanan insanlara şübhəsiz. Bir bayraq altında fırtınalardan… -

2. *məc.* Rəhbər ideya, məramnamə, qayə mənasında. Mərd oğullar bu bayraqla qalxdı ayağa / – Bayraq oldun ellərə.

**Bayraqdar**, *is.* 1. Bayraq tutan, bayraq daşıyan adam. O böyük bayrağın bayraqdarına..

2. *məc.* Başda gedən, qabaqda gedən. Hər günə, hər ilə bayraqdar olduq. Bayaq sur etdiyin o bayraqdarın; Kama yetişməmişdi haqqı, suradı – Bir qoca onlara bayraqdar olmuş.

**Bayraqlı**,*sif.* Bayrağı olan, əlində bayraq olan. İnqilab bayraqlı bizim ellərə.. – Nişan verir bayraqlı bir izdihamı.

**Bayram**, *is.* 1. Hər hansı bir tarixi və s. hadisə şərəfinə keçirilən şadlıq günü; təntənə. May bayramı, Bakı böyük. Parad keçir, bax / – Gəl, əziz bayramım, bir də görüşək, Bu bayramdan yenə qəlbim güc aldı..

2. Şadlıq, şənlik, xoşbəxtlik, səadət mənasında. Bayramlara, şənliklərə qoşa gedirlər – Bu bayram axşamı, bu əziz gündə – Bir bayram sözü var, bir də ki matəm… Gələndə hər bahar Novruz bayramı.

**Bayramqabağı**, *sif.* və *z.* Bayrama yaxın, bayram ərəfəsində olan. Bizim gəlinlərin bayramqabağı; Fəsəli yaymağı yadıma düşdü.

**Bazar**, *is.* 1. Alış-veriş yeri. Bazar başlarında soğan satanlar… Toplanıb başına «sağ ol!» – deyirlər.

2. Alver, alış-veriş, alğı-satqı. Sənətin bazarına sürülməsin bu saxta mallar.

**Becərmək**, *f.* Xidmət edərək, bəsləyərək, yetişdirmək. Bol taxıl becərsə.. Qışın şaxtasında taxıl becərən.

**Bel**[1], *is.* 1. İnsanın və bəzi heyvanların qarnının arxa tərəfi, sağrı ilə çiyinlər arasında hissə, dal. Nə həyat insanın belində yükdür. – Sıçrayıb; Qıratın belinə qalxdın.. At belinə qalxmağı.

2. *məc.* Hündür dağın iki təpəsi arasındakı əyilmiş yer və alçaq keçid. Min Qazaxda Köhlən ata; Göy yaylaqlar belinə qalx.

3. *məc.* Dövrə, ətraf. Tiflisin arxası Qazağın beli.. [Kür]

◊ Beli bükülmək – 1) qocalmaq. İndi bükülmüşdür böylə tez beli. Bükülmüşdü beli keçə atmaqdan.. 2) ağır müsibət, bədbəxtlik, fəlakət üz vermək – sinəsi qurudu, beli büküldü. – O gülüşlərlə belindən bükülən. Yeni bir səhnədə covlan edirəm. Belini sındırmaq – çox ağır mənəvi zərbə vurmaq, son dərəcə sarsıtmaq, bədbəxt etmək. Belimi sındırıb onun həsrəti. Beli sınmaq – fəlakət üz vermək. Sındı beli salonların.

**Bel²**, *is.* Sağ və ya sol yanında ayaqla basmaq üçün çıxıntısı olan uzun saplı qazma aləti. Dedilər arxamca «El şairidir, külüng şairidir, bel şairidir». Zülmün… qəbrini qazan / Kürəklər, ..bellər bizdədir. Əllər də yapışdı beldən, kürəkdən Qələm də, süngü də, bel də, ketmən də..

**Belə**, *əvəz.* 1. Bu cür, bu təhər, bu kimi, bu sayaq. Kimin vardır belə yarı? Doğrudurmu bunlar barı? Belə cavab verən dilin car olsun! Daxili vəziyyət belədir düzü. Belədir babalar dövründən bəri. [Vəzir:] Şirini Afərin belə kamalı.

2. «hətta» mənasında bağlayıcı kimi işlənir. Quşlar belə ürküb qaçır. «Yaşım ötsə belə, qulaq verin».. Vulkan olub od püskürsə dəniz belə, ümman belə. Sənin məhəbbətin belə solmasın.

3. Bu boyda, bu yekəlikdə. Kürd qızından belə oğul?

4. «Bundan», «bu gündən» sözləri ilə bərabər bundan sonra, bundan etibarən, başlayaraq. Məncə, nə olsa da bu gündən belə.

5. Yalnız cəm şəklində: belələr(i) – bu cür adamlar. Belələri də var.

6. «Beləsi» şəklində də (mənsubiyyət şəkilçisi ilə) işlənir – bu cür. Beləsi güdaza tez verər bizi…

7. «Belə». Qarı, hardan belə? Belə, ağ gün görəsiniz.

**Belibükülü,** *sif.* Qocalmış, beli bükülmüş. O bir vaxt gördüyüm belibükülü.

**Benzin** [xar.] Əsasən neftdən və ya yaş kömür kitrəsindən distillə yolu ilə yaxud süni surətdə alınan rəngsiz, tez alışan uçucu maye. Mən nəfəsləri benzin və kükürd qoxulu milyonların şairiyəm..

**Beş**, *say.* Dörddən sonra gələn ədəd – 5. Mən hər zaman beş alardım ixtisasımdan. Beş qara qış keçdi / Beş qara bahar (5 il vətən müharibəsi nəzərdə tutulur). Dolandı beş bahar; Dolandı beş qış. *Məc.* Çox az, cüzi mənasında. Bu dünya beş gündür, beşi də qara. **Beş-altı** – az, cüzi, bir neçə, əhəmiyyətsiz miqdarda. Götür beş-altı atlı.

**Beşbucaqlı**, *sif.* Beş bucağı olan. Yanır Kremlin beşbucaqlı yaqut ulduzu. Gördüm: ...Döşündəki beşbucaqlı qırmızını.. Beşbucaqlı ulduzun ülkəridir baxtımızın..

**Beşdaş**, *is.* Xırda daşlarla oynanan bir oyun adı. [Məryəm:] Beşdaş oynamasın mənimlə dövran.

**Beşcə**, *sif.* Ancaq beş, yalnız beş. Beşcə günün qonağıyıq bu aləmdə biz.

**Beşguşəli**, *sif.* Beş tipli, beş guşəsi olan. Beşguşəli yıldız taxdın başına.

**Beşgünlük**, *sif. məc.* Az davam edən, az sürən; müvəqqəti, sürəksiz, davamsız. Beşgünlük aləmə gülə-gülə gəl.

**Beşik**, *is.* 1. Körpə uşaqlara məxsus yırğalanan kiçik yatacaq. Beşikdə boğuldu balalarımız / Beşik yırğalayıb, paltar yumaq. [Amaliya:] Yatma... qundaq belə... beşik yırğala.

2. *məc. (tənt.)* Bir şeyin törəndiyi, meydana gəldiyi yer; mənbə, yurd, ocaq, vətən mənasında. Ey könül beşiyi – böyük məhəbbət / Gözəl vətən! Mənan dərin beşiyisən gözəllərin!

**Beş-on**, *say.* Az, cüzi, əhəmiyyətsiz miqdarda, bir neçə. Sən, ey beş-on dolların eşqinə 150 milyon azad insanları satan Şarlatan! O yeridi beş-on addım..

**Beşyüzillik**, *sif.* Beş yüz il yaşı olan. Beşyüzillik bu sarayın ömrü vardır.

**Betər**, *sif.* [*fars.* bədtər] Daha pis, daha yaman, daha bərbad, lap pis. Bil ki, qayğıdan betər.

**Beton** [*fr.*] 1. Çınqıl, xırda çaydaşı, qum və sement məhlulu və s. qarışığından ibarət tikinti materialı. Sement verin! Beton tökün! Qaçırmayın Kürü gözdən / Polad nəslimizin varlığı beton!

**Beyin**, *is.* 1. (anat.) Mərkəzi sinir sisteminin ən mühüm üzvü, habelə bu üzvü təşkil edən və kəllə ilə bel sümüyü kanalını dolduran maddə. Düşünən bir beyin bir torpaq olur – Düşünən bir beyin yaşayacaqdır. Ballı pətəklərə bənzər beynimiz.

2. *məc.* (dan.) Ağıl, şüur, fəhm, zəka, baş mənasında. Hələ toxtamamış beyni qan bahar. Nə başımız qaldı, nə də beynimiz. …beynimin qüvvətini öz sinfimə verirəm.

◊ Beyninə qan vurmaq – son dərəcə qəzəblənmək, özündən çıxmaq, hiddətdən özünü bilməmək. …Dalğa-dalğa vurur beynimizə qan.. Beynini yormaq – cana doydurmaq, bezdirmək, təngə gətirmək. Yordu mənim beynimi bu saysız bilməcələr. Beyin yemək – Başımı, beynimi ovub yedilər – Beyin yeyən… bir iblissən.

**Beynəlmiləl**, *is.* [ər.] *tar.* Beynəlxalq birləşmə. Gözlərimiz ayıq, oxumalıyıq beynəlmiləl havasını – Ən böyük nəğməmiz beynəlmiləldir. Alıb dalğalara beynəlmiləli.

**Beyniqanlar**, *sif., is.* Cavanlar hələ bərkə-boşa düşməyənlər, bir qərara gəlməkdə tərəddüd edənlər mənasında. .. beyniqanların da qanı qaynar, qəlbi coşar.

**Bezikmək**, *f.* Usanmaq, bezmək, təngə gəlmək, cana gəlmək, bezar olmaq, bığmaq. Doğrusu, yorulub bezikmədin sən; Elə vətən, vətən deməkdən?

**Bezmək**, *f.* Bezikmək, usanmaq, təngə gəlmək, cana gəlmək. Yorulub bezmədik vuruşmalardan.

**Bəbək**, *is.* Göz giləsinin ortasındakı qara dairəcik.. «Göz» sözü ilə bərabər şəfqət və nəvazişlə müraciət. Dedi: – Oğlum! Göz-bəbəyi, sən ey ömür çiçəyim; Tarixlərin şahididir mənim bu ağ birçəyim.

**Bədbəxt**, *sif.* [*fars.* bəd və *ər.* bəxt] Talesiz, bəxtsiz, taleyi pis, uğursuz. Nə olsun? Bədbəxt, bədbəxtəm, inan! Bədbəxt yaranmışdır bəzi kitablar. Yazıq bədbəxt balasını basacaqdır bağrına.

□ Bədbəxt olmaq – bədbəxtliyə məruz qalmaq, yazıq olmaq. [Vəzir:] Bir də, bədbəxt olur aşiq olanlar.

**Bədbin**, *sif.* [fars] Həyatda hər şeyi pis görən, hər şeyə ümidsiz baxan, gələcəyə inanmayan. Bu fəryad bədbinlərə məxsus, bizi şad etməyəcəkdir. O bədbin qəlbimə çox ağır vurdu.

**Bədbinlik**, *is.* Bədbin adamın əhvali-ruhiyyəsi; ümidsizlik, gələcəyə inamsızlıq, düşkün əhvali-ruhiyyə. Şahim! Yaraşmayır bədbinlik sizə.

**Bədən**, *is.* [ər.] İnsanın vücudu; gövdə. Elə bil od tutub yanır bədənim. Ən gözəl qüvvə ki, parlar bədənin. [Xosrov:] Məryəmlə yaşamış yalnız bədənim.

**Bədənsiz**, *sif. Məc.* Gövdəsi olmayan, vücudu olmayan. Yerindən danışan bədənsiz başlar.

**Bədsifət**, *is.* [*fars* bəd və *ər.* sifət] Sərt, qaşqabaqlı, üzügülməz. Bədsifət, acıdil olur bir çoxu.

**Bəduğur**, *sif.* [*fars* bəd və uğur] Bəxti gətirməyən, uğursuz. Bilməzdim bəduğur quş olduğunu.

**Bəhanə**, *is.* [*fars.*] Bir iş üçün əsas olan bilən keyfiyyət, səbəb, dəlil. Hicran göz yaşına bir bəhanədir.

**Bəhri-bipayan**. Könül yenə bəhri-bipayan kimi…

**Bəhri-Xəzər**, *is.* [ər.] (köhn.) Dəniz, dərya; Xəzər dənizi. Bir tərəfin Bəhri-Xəzər.

**Bəxt**, *is.* [*fars.*] Tale, qismət. Kəndlər də çaxnaşır mənim bəxtimdən. [Şirin:] Qoy olsun, bəxti də hər... [Azər baba:] Şirin ana yurdun doğma qızıdır / Bizim bəxtimizin dan ulduzudur.

◊ Bəxtinə gülmək – taleyi gətirmək, işi gətirmək, baxt ağ olmaq. Bəxtinə nə günəş, nə də ay güldü. Bəxtinə qara demək – xoşbəxt olmamaq, bədbəxt – niyə öz bəxtinə qara deyirsən? Sən də təzə-təzə qəlbə dəyirsən! Qorxma, bəxtinə də söyləmə qara. Bəxtinə gün doğmaq – Bəxtinə gün doğalı. Bəxtindən küsmək. Taleyindən razı olmaq. Adım çəkiləli bəxtimdən küsdüm – Bəxtinizdən küsün. Bəxtinə qismət olmaq bəxti, taleyi gətirmək– O da kor bəxtimə qismət olmadı.

**Bəxtiqara**, *sif.* (bəzən «bəxtiqarə» şəklində işlədilir). Bütün ömrü boyu talesiz, qara gün, əziyyət və məşəqqətlə yaşayan, bədbəxt, talesiz. Bıy, a Yaxşı, nə deyim, mən bəxtiqara? Niyə öz bəxtinə qara deyirsən!

**Bəxtiyar**, *sif.* və *z.* [*fars.*] Xoşbəxt, bəxtli. İnsanlar qayğısız, həyat bəxtiyar. Bəxtiyardır o şair ki, bu dünyada; Yaxın dostu şeir duyan insan olsun. [Şahbaz:] Bir onun eşqilə bəxtiyaram mən. Ah, duyan, düşünən nə bəxtiyardır..

**Bəxtiyarlıq**, *is.* Xoşbəxtlik. Bu müqəddəs təbiətin saf şeiriyyəti; İnsanlığı dəvət edir bəxtiyarlığa. [Loğman:] Cahanda yol açar bəxtiyarlığa. Qoy onların.. bəxtiyarlığı… heçliyə varsın.

**Bəkləmək**, *f.* gözləmək. Hardasan, gözlərim həp səni bəklər; Bax, övladın necə giryandır, ana!

**Bəla**, *is.* [ər.] 1. Uğursuzluq, bədbəxtlik, müsibət, fəlakət, afət. [Şirin:] Ah, Allah.. nə böyük zülmün olarmış! Başının nə yaman bəlası varmış. Bu bəlaya pək erkən düşməyimi bilmədin. Yaşamağın min bəlası var…

2. Qəm, qüssə, kədər, dərd, əzab, iztirab. Məndən çox uzaqdır hər bəla, hər qəm. Orda nə qəm vardır, nə bəla vardır. Bəlalar tanrısı o məhəbbətdən.

□ Bəlaya düşmək – əziyyətə, müsibətə məruz qalmaq, xataya düşmək, çətin vəziyyətə düşmək. Bu bəlaya pək erkən düşməyimi bilmədin. Başına bəlalar gəlmək – bədbəxtliyə düşmək, müsibətə düşmək. Çatandan bəridir on beş yaşıma. Çox bəlalar gəlib qanlı başıma.

**Bəlalı**, *sif.* Müsibət və əziyyət çəkmiş, ağır günlər keçirmiş, uğursuz, bədbəxt. O şair mədh edir min bir gülzarı / Bəlalı aşiqi, sevdalı yarı. – Bəlalıdır başım əzəldən bəri.

**Bələd**, *sif.* [ər.] Bir adam, iş və s. ilə yaxşı tanış olan, bilən, yetik. Eldarın halına bələdəm az-çox.

**Bələdçilik**, *is.* Bələdçinin işi. □ Bələdçilik etmək – qabağa düşüb yol göstərmək. Bu vəhşi dağlarda bələdçilik et!

**Bələnmək**, *f.* Bulaşmaq, bulanmaq. Al saçaqlı şəfəqlərə bələndin..

**Bəli**, *əd.* 1. Verilən suala müsbət cavab və ya təsdiq üçün işlənir; hə, elədir; (yox ziddi). Bəli, dərs alacaq bizim böyük xan. Bəli, o dələduz? Bəli, uzaqdadır, həsrəti çoxdur.

2. Anlaşılmayan bir sözü təkrar etdirmək üçün sorğu yerində işlənir. Bəli, budur sözün düzü. Kəndistan yeridir, bəli, kəndistan!

3. Danışılanlara yekun vurmaq, ya fikirdə olan şeylərə xülasə etmək üçün söylənilir. [Azər baba:] Bəli… Ana qəlbi bir pərvanədir.

4. Bəzən təəssüf, yaxud kinayə, narazılıq ifadə edir. Bəli! Qara doğmuş məni öz anam. Bəli! – dedi qara zənci, – vətən. Mənə bir qürbətdir.

**Bəlkə**, *modal söz*. 1. Ola bilər, ola bilsin, ehtimal, sayəd, ola ki, olsun ki. Şeirlərim, dastanlarım bəlkə. Bir xəyal oldu. – Bəlkə zədələndi o dərdiyim gül. Bəlkə də ilhamdır məni gəzdirən? Bəlkə də bir şirin əfsanədir bu.

2. İrəlidə söylənmiş fikrin əksini ifadə edir. İstərəm yetişəm o yarə bəlkə… Böyük Firdovsilər yaratdı bəlkə…

3. Hətta, heç. Bəlkə tanrıya da mən baş əyməzdim. Bəlkə, bir sətrim də, bircə bəndim də.

4. «Də» ədatı ilə: bəlkə də: tərəddüd, şübhə, qeyri-müəyyənlik ifadə edir. Nə deyim… bəlkə də bir əfsanədir. Bəlkə də yaxşını seçək yamandan. …Bəlkə də sevgilini yada salıb alovlanırsan. Bəlkə də, bəlkə də bu bir azardır.

**Bəlləmək**, *f.* Bələdləmək, nişanlamaq, gözaltı etmək. Çatdın bəllədiyin nöqtəyə, Kamal!

**Bəlli**, *sif.* Aydın, aşkar, məlum, meydanda olan. // Gözəlliyi bəlli, məşhuri-cahan.. *Xəbərlik şəkilçisi ilə.* Oxucum, bu surət bizə bəllidir. Əzəldən böyükdür gözəl vətənin; Dünyaya bəllidir şöhrətin sənin.

**Bən,** *türk.* mən. Şəxs əvəzliyi yerində işlənir. Bəni düzdə qoyub aşdın bərəni (meydanı).

**Bənd**, *is.* 1. Ayrı-ayrı hissələrdən ibarət olan bir şeirin hər parçası. Bir bənd deyim son dəfə mən… Vurğunun sözlərindən; Bir bənd deyim sən də dinlə. Bəlkə, bir sətrim də Bircə bəndim də.

2. Bir yeri seldən, daşqından qorumaq, yaxud suyun (arxın, kanalın) kənara axmasının qabağını almaq üçün çəki-

lən sədd. Açdı.. yelkənini …çayın baş bəndinə.. Tarlaların bəndələrini qıranda sellər.. Bağlayıb bəndələri, kəsib yolları / Qıy vurub keçdiniz..

**Bəndə**, *is.* [*fars.*] *(köhn.)*. 1. Qul, kölə. Bütün bu bəndələr xanın quludur.

2. Keçmişdə danışan şəxs hörmət və təvazö üçün özünə işarə olaraq, «mən» əvəzində belə deyərdi. Bəli, qulluğunuz bəndəyə dair?

**Bəniz**, *is.* Üz, çöhrə, sifət. Nə təmizdir, nə parlaqdır; Mahtabın süd bənizi. // Üzün rəngi O yerlərdə cana gələr sarı, solğun bənizlər. Bənizləri düm ağ olmuş / Nə qədər solğundur onun bənizi.

**Bənizli**, *sif.* Üzün rəngi. Axşam işıq salır; Süd bənizli ağ..

**Bənna**, *is.* [ər.] Binanın daş, kərpic hissəsini tikən usta. Alman bənnası və sovet zabiti.

**Bənövşə**, *is. fars.* Yazda bitən, əksərən açıq qırmızıya çalar abı rəngli, gözəl qoxunu kiçik çiçək. Açmadı çiçəklər, tər bənövşələr. Bənövşə qoxulu sərin küləklər. Bu körpə bənövşələr. Yaşıl köynəyini geyinir meşə / Yaxama quş kimi qonur bənövşə.

**Bənzəmək**, *f.* 1. Oxşamaq. Ağaclar bənzədi bir-birinə.. Lap şeirə bənzədi bu son sözlərin. Bənzəyir tutulan ağ buludlara.

2. Tay olmaq, tənlətmək, bərabər olmaq, uyğunlaşmaq. Dənizə bənzəyir yaşıl zəmilər. Nə elmə bənzəyir, nə də nağıla. Bir aya bənzədi..

**Bənzər**, *sif.* 1. Oxşar, oxşayan, bənzəyən, tay, uyğun. Nə də tərki-dünya olmuş parolda bənzər.

2. *is. misl.* Tay, bərabər, timsal. Bir az da Humaya bənzəri vardır. Bənzəri var şairlərin söz dünyasına.

**Bərbad**, *is.* [*fars.*] Dağılmış, dağınıq, pozğun, pərişan, uçmuş, pozulmuş, çox pis, çox xarab. □ Bərbad etmək (qoymaq) – dağıtmaq, pozmaq, viran etmək, xarab etmək, puç etmək, alt-üst etmək. Min bir yuvanı, bax, sən etdin bərbad.

**Bərbərxana**, *bax* dəlləkxana. Bərbərxanadan basıb yanlarını çıxdığı zaman.

**Bərə**, *is.* Çıxacaq yer, yol, aralıq. Səni düzdə qoyub aşdın bərəni.

**Bərəkət**, *is.* [ər.] Bolluq, məhsuldarlıq, xeyir, səmərə, fayda, artım.

**Bərəkətli**, *sif.* [ər.] Bol, məhsullu, məhsuldar, bəhrəli, münbit. Qapımız ömründə xırman görmədi; Məhsullu və bərəkətli.

**Bəri**, *z.* 1. Bu tərəfə, buraya, bu yana, yaxına. Bir bəri gəl öpüm sənin gözündən – Göz atdım gözünə himlədim bəri – Bəri qulaq as.

2. *Qoş.* Bir şeyin (hadisənin və s.-nin) başlanma nöqtəsini və o andan başlayaraq davam etdiyini bildirir. İnsanlıq böyükdür əzəldən bəri... Bu nemətlər yarandığı gündən bəri; Busə kimi şirin olur dodaq üstə. Çatandan bəridir on beş yaşıma; Çox bəlalar gəlib qanlı başıma.

**Bərk**, *sif.* 1. Sərt, qatı. Oralar çox bərkdir – Ayağı altında bərk idi torpaq.

2. Çox güclü, çox şiddətli, çox böyük. O il qış bərk gəldi. Muğan çölünə – Çox bərk yapışacaq boğazınızdan. // Ümumiyyətlə, bir şeyin şiddətin dərəcəsini bildirir. [Fəlxək:] Ayağını bərk uzat / Yaxşı uzan, yaxşı yat.

**Bərk-bərk**, *z.* Möhkəm, ciddi. Deyib Gülpəridən yapışır bərk-bərk.

**Bərkimək**, *sif.* Möhkəmlənmək, qurumaq. Bərkiyib azca döndü qolları...

**Bəs**, *əd.* [*fars.*] 1. Yetər, kafi, kifayət. Əmr şəklində: bəsdir, bəsdirin – yetər, kifayətdir, kifayət edər. Bəsdir, bir doymadın içdiyin qandan... Bəsdir, ydurduğun bu min bir yalan.. Комacığım mənə bəsdir.

**Bəs**, *əd.* Sualı və ya fikri gücləndirmək, qüvvətləndirmək üçün işlənir. O qamış komalar bəs indi hanı? Yaxşı bəs nə oldu o İbrahim xan? Belə və necə əvəzlikləri ilə işlənərək

sualın emosional çalarını artırır. Bəs belə, bəs belə? Vəfasız Məryəm! Bəs necə? Bu günü düşündünmü heç..

**Bəsləmək**, *f.* 1. Tərbiyə edib böyütmək, boya-başa çatdırmaq. Bizim gənclik bəsləmişdir, Böyütmüşdür aslanları. [Gəncə:] Qoynunda bəsləyib böyütdü səni.. Balalar bəsləyin haqqı danmasın.

2. Qidalandırmaq, yedirmək, yedirib-içirtmək. Mən o yaşıl bağların; Bəslədiyi bir canım.

2. *məc.* Qorumaq, saxlamaq. Bir türbəni bizim ellər ürəyində; Bir müqəddəs məbəd kimi bəsləmişdir. Sən müqəddəs bir diyarda; Öz könlünü bəsləmisən.. Xan da səni bəsləyəcək.

**Bəslənilmək**. «Bəsləmək»dən *məc.* «etmək» sözünün sinonimi kimi dilək isminə qoşulmuşdur. Bəslənilən hər dilək çətinlikdən çəkinərsə, bir xəyala dönəcək.

**Bəslənmək**, *f.* «Bəsləmək»dən *məch.* Nə dananlar, necə canlar bəslənəcəkdir. Qoynunda bəslənir gözəl diləklər.

**Bəstə**, [*fars.*] Musiqi kompozisiyası // *məc.* Nəğmə, hava, mahnı, musiqi. Seyr et bu varlığı, şeyda bülbülüm! Həyata müjdədir, hər yeni bəstən!

**Bəstəkar**, *is.* [*fars.*] Musiqi əsərləri yaradan şəxs, bəstəçi. [Səhər:] Ya bir bəstəkarın ürək nəğməsi. Bir bəstəkar kimi nəğmə də qoşur; Böyük bəstəkar.

**Bəşər**, *is.* [ər.] İnsan, adam. Kainat qurğusu, canlı bir əsər!.. Bəşər yaşadıqca yaşamaq istər hökmdar / Bəşər dühasının pəncərəsini. // *toplu mənada.* Kamalın, hüsnün eşqilə bəşər cənnət yaratmışdır. Bir ananın döşlərindən süd əməcək bütün bəşər.. Bəşər nəsil-nəsil dünyadan köçər. Bəşər dedikləri duyğusuz vicdan.. Unutmayaq bəşər sizdən diləyir, Elm, ədəb, həm irfanı cavanlar.

**Bəşəriyyət**, *is.* [ər.] İnsanlıq, insanlar. Bir boynu olsaydı bəşəriyyətin. Onu bu qılıncla vurardım yəqin. Tiryək satanısan bəşəriyyətin.

**Bətn**, *is.* [ər.] Qarın. Yeraltı damlarda ana bətnindən / İşığa düşmədik, zülmətə düşdük.

**Bəy**, *is.* 1. Azərbaycanda bolşeviklərin hakimiyyətinə qədər (1920-ci ilin aprelin 28-nə qədər) müsəlman əhalisi arasında zadəgan təbəqəsinə mənsub olub, kəndliləri istismar edən mülkədar. Axmaq, Koroğlunun bir təmiz adı. Xanlarda, bəylər də tutar o adı, – Ay Eldar! Doğrudan bu bəylər ki var. // Bu zümrəyə mənsub adamların adına əlavə edilən ləqəb. Nə bəydə insaf var; nə xanda qan var. Əli bəy necədir? Damağı çağdır? Vaqif! Danışmadın heç Əli bəydən.

2. (*etnoqr.*) Toyu edilən, evlənən oğlan. Bəy də öz toyunda oynasın gərək!

**Bəyan**, *is.* [ər.] □ Bəyan etmək (qılmaq) – söyləmək, bildirmək, izah etmək, anlamaq. Hələ çaylardakı coşqun cərəyan. Bənə bir başqa xiyalatı bəyan ediyor.

**Bəyənmək**, *f.* Zövqünə, ruhuna, təbiətinə uyğun gəldiyi üçün bir şeyi xoşlamaq; yaxşı bilib qəbul etmək, təqdir etmək; ürəyinə yatmaq (burada inkarda). O da çoxlarını heç bəyənmədi.

**Bəzək**, *is.* Bəzəyən şey, gözəllik verən şey, zinət, yaraşıq. Mərmər abidələr tökmə heykəllər; Bəzəkdir ..şəhərə.

◊ Bəzək vurmaq, *f.* Özünə zinət vermək, özünə bəzək vurmaq, yaraşıqlı geyinmək. Bəzək vurar özünə. Gəlin kimi bəzək vurub ay da çıxmış otaqdan.

**Bəzəkli**, *sif. Məc.* Bəzək vurulmuş, bəzəklilik; zinətli. Bəzəkli yurdumuz çiçək-çiçəkdir; Hər keçən ömrümüz bir gələcəkdir. Kimindir bəzəkli gəlin kimi yaz.

**Bəzəmək**, *f.* Zinətləndirmək, yaraşıq vermək, gözəlləşdirmək, qəşəngləşdirmək, nəzəri cəlb edəcək gözəl bir vəziyyətə salmaq. Nəğmələr bəzəsin vətən mülkünü / At belində gəzərmiş; Yəhərini bəzərmiş.

**Bəzən**, *z.* [*ər.*] Bəzi vaxt, bəzi hallarda, arabir, gah-gah. O, bəzən bir mələk, bəzən iblisdir. Bəzən tanrıya da ağ olur İnsan. O, bəzən hirslənib quduran zaman; Mənəm cilovunu çəkib saxlayan. Bəzən onun kaman kimi çatılır qaşı; Bəzən də bir gülüş gəzir dodaqlarında. İnsan oğlu şam təki; Bəzən yanır gizlicə. Çıxıram böyləcə bəzən; O xəyal dağına mən.

**Bəzənib-düzənmək**, *f.* Özünə zinət vermək, özünə bəzək vurmaq, yaraşıqlı geyinmək. Bəzənib-düzənib gəlinlər, qızlar.

**Bəzisi**, *əvəz* [ər.] bəzi Hamısı yox bir parası, ayrı-ayrı.. xalılar. – Bəzisi hinddəndir.

**Bıçaq**, *is.* Kəsmək üçün alət. Bıçağını saxla bir dəm.. Çox gözəl, hər sözün iti bir bıçaq.

◊ Bıçaq sümüyə (iliyə) dayanmaq – son həddə çatmaq, əlacı kəsilmək, lap cana gəlmək. Bıçaq iliyəmi yoxsa dayanır?

**Bıçaqkəsməz**, *sif.* Möhkəm, bərk. Sazan da var… mərifətii ..Bıçaqkəsməz olur əti.

**Bıqmaq**, *f.* Bezikmək, usanmaq, təngə gəlmək. Çəkil, çəkil, artıq yoruldum, bıqdım.

**Bıy**, *nida.* Təəccüb, heyrət, narazılıq, təəssüf bildirir (bəzən təkrar şəklində işlənir). Bıy, elə mən dedim, inandın sən də. [Fitnə:] Bıy, bıy, canım Topal, bir danış görək! Bıy… Yaxşı, nə deyim mən bəxti qara?

**Biçarə**, *sif.* [*fars.*] 1. Yazıq, miskin, fağır, məzlum; bədbəxt. Tanıtsın hər yerdə biçarə məni.

2. Çarəsiz, əlacsız; aciz. Mən halda var yəqin çox biçarələr.

**Biçənək**, *is.* Biçiləcək yer, otlaq, çəmənlik. Təslim olur dəryazına o göy biçənək. Doyunca islandı göy biçənəklər.

**Biçimli**, *sif.* Burada *məc.* geyimli. ..O quldur biçimli casus yponlar.

2. Paltarlı, yaraşıqlı, kəndə oxşar. Kənd biçimli bir şəhər.

**Biçin**, *is.* Otu, taxılı oraqla, maşınla və s. ilə biçmək işi. Əkində, tarlada, suda, biçində. Kəndli yoldaş əkinindən, biçinindən üzülər.

**Biçinçi**, *is.* Biçin işi ilə məşğul olan adam, ot ya taxıl biçən adam. Yaylağı olmuşam biçinçilərin.. (Çinar).

**Biçmək**, *f.* 1. Taxılı, otu oraq, dəryaz, maşın və s. ilə kəsmək. Dərz bağlayır ot biçənlər.. Yer əkən, ot biçən hər qabarlı əl.. Əkir də, biçir də çarxlı nəhənglər.

2. *məc.* Parçadan boya, bədənə görə paltar və s. kəsmək. Boz dağlara, qayalara yeni don biçir.

**Bidət**, *is.* [ər.] Hamı tərəfindən qədimdən bəri qəbul edilmiş qayda və adətə yaxud dinə zidd olan şey, keyfiyyət. Əsgi, pək, əsgi röya, bidətlə. Həm də bidətlərdən, dürlü imandan; Bir əsər görünməz..

**Biganə**, *sif.* [*fars.*] Yad, yabançı, özgə, tanış olmayan. Gülüb-sevinməyə biganə Humay. O hər şeyə biganədir. // *Z.* mənasında. Ağız açıb o gülməmiş baxdın.. nəşələrə biganədir.

**Bığ**, *is.* Kişilərin üst dodağı üstündə bitən tüklər. Kosa əllərini bığına çəkir…

◊ Bığını burmaq (*məc.*) – lovğalanmaq, özünə güvənmək, təşəxxüs atmaq. Gəray bəy kənarda bığını burur. Görəcəyəm… bığlarını kişmişlə buran.. lampaların ölmüşünü.

**Bığıburma**, *sif.* Gənc, yetişmiş, yekə, boylu-buxunlu. Bığıburma bir cavandır.

**Bığlı**, *sif.* Bığları olan.. uzun bığlı generallar.

**Bihudəcə**, *z.* [*fars.*] Boşboşuna əbəs; nəticəsiz, mənasız, faydasız. Həm kəndini yordun bihudəcə sən.

**Bihuş**, *sif.* [*fars.*] Huşsuz, yaddaşsız, hafizəsiz; fikri dağınıq, məst, heyran. Ən sonra qayğısız, bihuş gəzərdim.

**Bikarə** [*fars.* bikarə] *Z.* Avara, səfil, sərgərdan … bikarə divanələr…

**Bilək**, *is.* Qolun dirsəkdən ələ qədər olan hissəsi. Dəqiqələri biləyində daş kimi daşıyanlar; Biləkdən düşəydi kaş ki əllərim.

**Bilərzik**, *is.* Qadınların yaraşıq üçün biləklərinə taxdıqları gümüş, qızıl və s.-dən qayrılmış halqa; qolbaq. Bilərziyi ağ altundan…

**Bilik**, *is.* Oxumaq və ya təcrübə nəticəsində əldə edilən məlumat; elm. Bilik cəbhəsinin şəfqət bacısı.. (qadın)

**Bilinmək**, *f.* 1. Məlum olmaq, aşkar olmaq, bəlli olmaq, anlaşılmaq, dərk edilmək. Böyük bir keçmişin vardır; Bilinməyir yaşın sənin. Elbrus! Söylə bilinməzmi yaşın?

**Bilməcə**. Tapmaca. Yordu mənim beynimi bu saysız bilməcələr.

**Bilmək**, *f.* 1. Bir şey haqqında məlumatı olmaq, xəbərdar olmaq, vaqif olmaq. Yaxşı, lovğalanma, bildik, gücün var // Hər hansı bir sahədə xüsusi biliyi, şəristəsi olmaq, yaxşı bələd olmaq… təmiz bilin dilinizi.

2. Öyrənmək, xəbər tutmaq, məlumat almaq. Sənin bilmədiyin bir xəbər də var.

3. Başa düşmək, dərk etmək, aydın təsəvvür etmək. Bil ki, balıq qədər qanım soyuqdur.

4. Tanımaq. Tanıyaq onları, bilək yaxından.

5. Əlindən gəlmək, bacarmaq. Neçə sənət bilir hər bir sənətkar.

6. Yardımçı feil kimi iltizam feillərinin axırına gətirilərək feilin bacarıq forması düzəldilir. Kəsilib qanadım uça bilmirəm.

7. Bilirsən (bilirsiniz, bilsən(iz) A.S.M.) – müsahibin diqqətini əsas mətləbə cəlb etmək üçün işlənir. Bilirsən, bunlardır kəndlinin varı. // Siz ki, bilirsiniz, o uzaqdadır.

8. Aşkar şəklində: bilməmək. Hələ ki, anlaya bilməyirəm mən.

9. Hesab etmək, zənn etmək, saymaq. Zövqü sadə gülüş bilmək heç bir kəsə əfv olunmaz.

**Bilmərrə**, *z.ə.* Heç, əsla, hər bir dəfə, qətiyyən, tamamilə, büsbütün. …Ya bilmərrə heyvan olub biyabanda ot otla!

**Bimürvət**, *sif.* [*fars.* bi… və ər. mürüvvət] Mürüvvətsiz, insafsız, amansız, rəhmsiz, ədalətsiz Vidadi, qardaşım, sənmisən, gəl-gəl; Bizi ayrı saldı bimürvət əcəl // Bəzən söyüş kimi iləmir. Ah, cəllad, bimürvət! / İndi qulaq as.

**Bin,** *turk.* Min (1000). Səhər irişniçə bin nəğmə urar.

**Bina**, *i.ə.* Tikili, mülk ev. Gördüyün bir bina, bir yüksək saray.

□ Binası qoyulmaq – 1) olunmaq, Əsrimin binası qoyuldu möhkəm. 2) tikilmək, qurulmaq, təsis edilmək, əsası qoyulmaq. Elmin binası qoyuldu möhkəm / Gülümsər kai-

nat, gülümsər həyat.

**Binamus**, *sif. far.* bi… və ə. namus. Namussuz. Binamus… Nə dedin? – Gözümdən itil!

**Binə**, *i.* Köçərilərin mal-qara ilə köçüb kənddən kənarda məskən saldıqları yer, yurd. Binələri çadır-çadır; Çox gəzmişəm özüm, dağlar!

**Binəva**, *sif. fars.* Yazıq, fağır, bədbəxt, zavallı. Bir yazığın gəlsin mən binəvaya.

**Bir**, *s.* 1. 1 rəqəmi ilə işarə olunan sayın adı, miqdar sayının ilk vahidi. Al nənə! Özünə get bir inək al.

2. *z.* Bir yerdə, birlikdə, birgə. Günəş ilə bir oyanır evdə hər səhər.

3. Bircə, yeganə, ancaq. Koroğlunun bir təmiz adı.

4. Bir sıra sözlərin qabağında qeyri-müəyyənlik bildirir. Xalama bir plov hazırla.

5. Fellərin qabağında təkid, israr, lüzum bildirir. Bir bax! Qılıncımda qanlara bir bax!

6. Sifətlə ismin arasında yaxud isimlə xəbər arasında təyinlik dərəcəsini artırır, ya da azaldır. Tez olun, yaxşı bir kabab bişirin!

7. Tərəf, yan cəhət kimi sözlərin əvvəlinə gətirildikdə bölgü məzmunu ifadə edir. Babam da bir yandan belimi qırır.

8. «Oldu» sözü ilə bərabər – iki yaş ya hadisənin sürətinin aniliyini, eyni zamanda baş verdiyini bildirir. Oldu, bir işdir bu da.

□ Bir az – 1) azacıq, azca, az miqdarda. Yalnız Araz üstə bir az meşə var; 2) bir qədər, azacıq, zaman. Gəl, ana! O evdə rahatlan bir az. Bir azdan – tezliklə çox keçmədən, azacıq. Bir azdan gözünü açacaq səhər. Bir an – bir ləhzə, bir saniyə. Ömrü bir an üçün yazıq tərk edir. Bir anlıq – bir saniyəlik. [Şapur:] Şərabın nəşəsi bir anlıq olur. Bir anlığa – çox az müddətdə, çox qısa. Ağrısını unutmuşdur bir anlığa yaralılar. Bir bölük – bir dəstə, bir qrup. Uzaqdan göründü bir bölük atlı; Atları quşlardan iti qanadlı. Bir vaxt – vaxtilə, bir zaman, keçmişdə, əvvəllər. [Xosrov:] Bir vaxt

bürümüşdü məni düşmənlər. Bir qucaq – çox, çoxlu. Saçları bir qucaq, yerlə sürünür. Bir daha – 1. Bir dəfə də, yenə də. Təkrar. [Şiruyə:] Mən ona bir daha az anam desəm; Qoy dilim Qurusun!

2. *bax* bir də. O gündən bir daha görmədi onu. Bir də – 1. Bundan sonra, daha artıq. Bir də eşitməyək hicran səsini. 2. bir daha. Bir də ataların bir məsəli var.

3. əlavə, başqa, üstəlik. Cənub müqəssirdir; Bir də, şairlər. Bir dünya – bir aləm, çoxlu, hədsiz. Bir dünya könüldə əmanətin var. Bir zaman – vaxtilə, bir zamanlar. O dərdlə bir zaman mən də inlədim. Bir yığın – çoxlu, külli miqdarda. Bir yığın göz yaşı, bir yığın aləm. Bir para – bəzi. Bir para Xudpəsənd insanlar kimi.. Bir parça – bir az, azğın, azca, bir tikə. Bir parça çörəyə, suya möhtacdır. Bir təhər – bir cür, bir növ. Biz başa vermədik ömrü bir təhər. Bir sürü – çoxlu, xeyli, çox miqdarda. Bir sürü boş söz anbarı!

**Biranlıq**, *z.* Çox az müddətdə, çox qısa bir zaman üçün, bir ləhzəlik. Ağrısını unutmuşdur biranlığa yaralar, Çünki ömürlükdür, biranlıq deyil.

**Birbaş(a)**, *z.* Arada heç bir yerdə durmadan, bilavasitə, düz. Baltik dənizindən Xəzərə birbaş… Azadlıq ordusu varsın birbaşa… // bir nəfəsə, arası kəsilmədən, durmadan. Karvanım yol alıb gedir birbaşa; Əsirdi durmadan birbaşa yellər. Birbaşa mümkünmü bunu oxumaq.

**Bir-bir**, *z.* 1. Tək-tək, ayrı-ayrılıqda. Sonra qadınlar da növbəylə bir-bir. Doğrayıb alnından saçını bir-bir.

2. Bir-birinin ardınca, ardıcıl surətdə, növbəilə. Hər gün dəstəsini yoxlayır bir-bir. □ Bir-birinə qarışmaq - qarışıqlıq düşmək, qarışmaq. Qarışdı bir-birinə ağlaşmalar, alqışlar.

3. Təfsilatı ilə, təfərrüatına qədər, hər biri ayrı olaraq. Sayım gördüyümü bir-bir, qulaq as. Baxıram, keçdiyimiz yollara bir-bir baxıram. Hər biri şeirdir sayılsa bir-bir. Bir-bir… Müxtəlif hal şəkilçiləri ilə // Bir-birinə, bir-birindən, bir-birini – qarşılıq bildirir. Bir-birinə hey can deyib, can eşidirlər – Ağaclar bənzədi biri-birinə… Şeirimiz oxşayır

biri-birinə… Bir-birini qova-qova gəlib keçir aylar, illər.

**Bircə**, *say.* 1. Yalnız bir, tək bir, yalnızca, təkcə, yeganə, vahid. O böyük dünyada bircə qanun var. [Vəzir:] Ona bircə dəfə təpinsən yalnız; Bil ki, qorxusundan ödü saralar. Bircə ovuc torpaq atdın o məzara öz əlinlə.

2. Ancaq, yalnız. Bircə günəş nur səpəcək // Heç olmasa, heç olmasa bir… Ölüb getmədi bircə bu qarı.

3. *əd.* Arzu bildirir. Gedək, gedək, tez qayıdaq bircə şəhərə.

4. *əd.* Təkid, xahiş bildirir. Bircə farağat dur, ..göz dəyər sana!

**Birçək**, *is.* Yaraşıq üçün alnına tökülən saç telləri, ümumiyyətlə saç. Tökülsün sinənə qara birçəklər.

**Birdəfəlik**, *z.* Həmişəlik, qəti. Xeyr, dostum! Zənn etmə ki, mən onları; Birdəfəlik unutmuşam bu dünyada. Ölən kapitalı birdəfəlik susduracaq. …Qoy özümü birdəfəlik asım ağacdan.

**Birdən**, *z.* Gözlənilmədən, qəflətən, qəfildən, nagah. İşıq karvanları göründü birdən. Birdən yaman xəbər de, qız nə eşitmək yaxındır, birdən? Asta bax, qaralar birdən gözlərin.

2. Eyni zamanda, bir vaxtda. ..Cansız dəmiri də əridir birdən. Neçin şimşək olub birdən çaxırsan?

**Birdən-birə**, *z.* Gözlənilmədən, qəflətən. İçib qızışırıq biz birdən-birə.. Yapışdı birdən-birə.

**Birəyüz**, *z.* Hər bir saya qarşı yüz, yüz dəfə artıq. Adətən birə-bir, birə-iki, birə-yüz və s. şəklində işlənərək, ikinci rəqəm kəmiyyətin əslində olduğundan neçə dəfə artırıldığını göstərir. Hər gün döyüşlərdə vurduq birə-yüz; Dağlara səs salır hücum borusu.

**Birgə**, *z.* Bir yerdə, birlikdə, bərabər. Birgə qonaq getdik.

**Birinci**, «Bir»dən sıra s. 1. *Sif.* Yaxud əvəzlik mənalarında. Birinci addımda lovğalananlar.. İkinci addımda yıxılacaqlar. // ilk dəfə olan, əvvəlinci.. [Şarur:] Necə? Gözəl Pəri… Bu ola bilməz! Biz ki görüşürük birinci kərə.

2. Bir neçə şeyi sadaladıqda yaxud tutuşdurduqda, o biri-

lərindən əvvəl adı çəkilən şeyi göstərmək üçün işlənir. Birincisi oynaq, qayğısız xoşüz..

**Birincilik,** *is.* Hər hansı bir keyfiyyət, nailiyyət, xidmət və s. cəhətdən üstünlük, birinci yer. Veriləcək bu bayraq; Birincilik qazanan insanlara şübhəsiz.

**Birləşmək**, *f.* 1. Bir araya toplaşaraq, bir-birinə qarışaraq bir küll halına gəlmək. Araz ilə Kür çayının birləşməsini…

2. İttifaq bağlamaq, həmrəy olmaq, bir araya toplaşmaq, öz qüvvələrini birləşdirmək. Şairlər! Birləşək bütün dünyada. Birləşin! – dedilər, bir şüur gördüm. Qüvvəti çox olar birləşən elin.

**Birlik**, *is.* 1. Bir olma, bütövlük, bölünməzlik, vəhdət. Gündüzləri birliyi hesabına yaşayan.

2. İttifaq, həmrəylik, ümumilik. Bu tok, bu toku yaradan «blok». İşçi-kəndli birliyidir!

**Birlikdə**, *z.* Bir yerdə, bərabər, birgə, başqası ilə bir olaraq, əlbir surətdə, elliklə. Birlikdə can bulur hər qərib niyyət ..Ta çocuqlardan birlikdə çalışar əkin əkərdik!..

**Birnəfəsə**, *z.* 1. Arası kəsilmədən, aramsız, arada durmadan, dayanmadan. İnsan birnəfəsə dırmanır dağa.

2. Tələsik, hamısını birdən. Qaçır birnəfəsə kəndə çatmağa.

**Birsəslə**, *z.* Yekdilliklə, hamılıqla. Görəcəyəm… Kolxoza birsəslə yazılan.. Ağsaçlı qarısını.

**Bismillah**, [ər.] 1. Əsl mənası «Allahın adı ilə» olub, müsəlmanların bir işə başlarkən dua kimi işlətdikləri söz. Mərd oğullar yelkən vurub gəmilərə, «Bismillah»la atılarmış dağlara.

2. *məc.* (dan.) Buyur, başla, elə, et mənasında. Yazılardan gözə çarpan bir «bismillah».

**Bişirmək**, *f.* Odun üstündə qaynatmaqla, qızdırmaqla yeyiləcək hala gətirmək, hazırlamaq. Tez olun, yaxşı bir kabab bişirin!

**Bişmək**, *f.məc.* Təcrübələnmək, ustalaşmaq, püxtələşmək, bərkdən-boşdan çıxmaq. Beşikdə qovrulduq… Qundaqda

bişdik..

**Bit,** *is.* İnsan və heyvan qanını sormaqla qidalanan kiçik, qanadsız cücü. Əzizim İbrahim xan! Bit yerisin yaxandan.

**Bitləmək**, *f.* Bitləri təmizləmək. Əlilə bitləmiş sarı kürkünü.

**Bitmək**[1], *f.* Tamam olmaq, qurtarmaq, başa çatmaq, axıra çatmaq. Bitib tükənməyir bəxtiyarlığı. Top-tüfəng səsləri yenə bitmədi…

**Bitmək**[2], *f.* Yetişmək, cücərmək, çıxmaq. [Fərhad:] Hər bulaq başında bitən söyüdün; Hər qoca çinarın öz vüqarı var. Gül açdı, ot bitdi qaya döşündə.

**Bivəfa**, *sif.* [*fars.* bi … və *ər.* vəfa] Vəfası olmayan; vəfasız sədaqətsiz, etibarsız. Dostluqda, məhəbbətdə sabit və möhkəm olmayan. Sevgi dildə şüur olsun! Vəfasıza çox ar olsun! İtil gözlərimdən bivəfa yarım! Əğyara dil verən o bivəfaya / De ki, Vurğun gədalara dönübdür. // *is. məc.* Canan üz döndərdi…, Dövran bivəfa.

**Biyaban**, *is.* [*fars.*] Otsuz, bitkisiz düz yer; səhra, çöl (bəzən «çöl-biyaban» şəklində işlənir). Məcnunun bəxtiyar və gənc yaşında; Axır qərargahı oldu biyaban. Biyabanda ot otla! Qazanar hər kəsdən sevinc, həvəsi; Çölü, biyabanı bizim dağların.. Nə Məcnun, nə Leyli; Nə də biyaban qalmamış.

**Biz**, birinci şəxs əvəzliyinin cəm şəkli. Danışan şəxs bu sözlə özünlə bərabər bir neçə nəfər yaxud bir çox adam olduğunu bildirir. Biz yenə yaşadıq torpaq üstündə / Ömür vəfasızdır bizi tərk edir / Hər ağ gün, qara gün ömürdən gedir. Şahim, biz qardaşıq… birdir qanımız. Bizə qəhət olmaz bir parça çörək.

**Bizar**, *sif.* [*fars.* bizar] Usanmış, bezmiş, təngə gəlmiş, incik, narazı. Zülm əlində həyatdan bizar idi..

**Bizimki**, 1. *əvəz.* Bizə məxsus olan, bizə aid olan. Uşaq bizimkidir, mübarək olsun!

2. *əvəz. is.* mənasında, adətən cəm şəklində: bizimkilər – bizə yaxın olan adamlar, bizim yoldaşlarımız, bizimlə işlə-

yən bizimlə həmməslək ya həmvətən olan adamlar, yaxud bizim ailə (üzvləri). Nə top var, nə tüfəng bizimkilərdə.

**Blok** [ing.] (*mex.*) Özü bir sıra elementlər və hissələrdən ibarət qurğunun və s.-nin ayrı-ayrı hissəsi ..Bu tok, bu toku yaradan «blok» işçi-kəndli birliyidir.

**Bloknot**, [fr.] Qopardılan ağ kağız vərəqlərindən ibarət dəftər. …Şeiri.. oxuyur yazdığı bloknotundan..

**Boğaz**, *is.* 1. (*anat.*) Boyunun, qida borusunun başı və nəfəs yollarının yerləşdiyi ön hissəsi. Ağız içinin dal tərəfindəki boşluq, hulqum. Qurşun tökür boğazına.. Həmin kəmənd keçdi düz boğazına. Çəkin boğazımdan məni min dara.

◊ Boğazından yapışmaq – çıxılmaz vəziyyətə salmaq, məcbur etmək. Boğazından yapışacaq onun (aslanın) qadir pəncəsi. Boğazdan yapışır ağır əlləri.

**Boğmaq**, *f.* 1. Boğazı sıxmaqla nəfəs yolunu, nəfəsini kəsmək. Boğmağa cəhd edir… ..İnsanı adi sətəlcəm, Ulu Hürmüz Əhriməni öz əlilə boğacaqdır – şahlar bizi boğsa da.. Boğar aylar, illər məni..

2. *məc.* İnkişaf etməyə, yayılmağa, güclənməyə qoymamaq, qabağını almaq. Bütün məslələri bir məslək boğar. [Mahnigar:] Mənim də qəlbimi ağrılar boğur.

3. Yatırtmaq, məhdudlaşdırmaq, üzə çıxmasına, görünməsinə, eşidilməsinə mane olmaq. Onu da boğacaq gedən üsyanlar. Boğsun azğınları – vicdansızları. Qan boğa bilmədi zəfər odumu…

4. Boğub öldürmək.. Boğarıq sərçə kimi. Yer oğlunu boğmayacaq yerin möhnəti.

**Boğuq**, *sif.* 1. Aydın olmayan, aydın eşidilməyən, ahəngdar olmayan. Boğuq hıçqırıqlar, dumanlı ahlar.

2. Tutqun, zəif. Açılmamış boğuq rəngin..

**Boğuqluq**, *is.* Boğuq şeyin halı. Onun rəngindəki boğuqluğa bax!

**Boğulmaq**, *f.* 1. Hava azlığından nəfəsi çətinləşmək, nəfəs ala bilməmək. Bürküdən darıxır, boğulur Muğan.. Boğul-

duqca, ağladıqca o gülümsər.

2. *məc.* Məhv olmaq, tələf olmaq, qeyb olmaq, yox olmaq. Görürəm ilk dəfə ulduzun, ayın; Alovlar içində boğulduğunu. Boğulur varlığım hər bir addımda. O qəlbidir ki, yetimlikdə, yoxsulluqda boğuldu.

3. *məc.* Son dərəcə sıxıntı, təzyiq, mənəvi və cismani əzab hiss etmək. Yazıqda qalmayır taqətdən əsər; Boğulur qəfəsdə bir bülbül kimi. Beşikdə boğuldu balalarımız. – Bu hiss ilə boğuluram bəzən fikir dəryasına. // Elə bil boğulub qaralır hava.

**Bol**, *sif.* Çoxlu, son dərəcə çox, həddən artıq. Yaşasın buğda biçən əllərimiz, Suyu bol, torpağı bol ellərimiz.

□ Bol olmaq – çox olmaq nəsildən-nəsilə bol olsun çörək. Çörək bol olarsa, basılmaz Vətən!

**Bol-bol**, *z.* 1. Çox, çoxlu, artıq, həddindən artıq. Tutduğum çiçəkli reyhanlı bu yol Hər qəlbə sevinclər vəd edər bol-bol…

2. Artıqlaması ilə. Arazın suyundan bol-bol içdikcə…

**Bollanmaq**, *f.* Bol olmaq, xeyli çoxalmaq, artmaq. Bollanacaq yurdumuzun bağçaları, bağları.

**Bollu**, *sif.* Çoxlu, həddən artıq, bol …Bollu günlər gələcək…

**Bolluq**, *is.* Firavanlıq, rifah. Azərbaycan gözəl bir yaz.. Həyat bolluq, işıq çox. Bolluq içrə ömür sürər sərbəsər.

**Bolşevik**, [rus.] Bolşevizm tərəfdarı. Gördüm.. kəndimizə özək katibi gedən bolşevik işçiləri.. O dilsiz-ağızsız qərinələri; Dəyişdi qüdrəti bolşeviklərin!

**Bomba** [fr.] İçərisinə partlayıcı maddələr doldurulub, əl və ya silah vasitəsilə, yaxud da təyyarədən atılan mərmi, qumbara. Şəhərlərə bomba yağır. O gərdi öz köksünü bombaların səsinə.

**Bomboş**, *sif.* və *z.* Tamamilə boş, lap boş, içində heç bir şey olmayan. Həyətlər bomboşdur.

**Bomboz**, *sif.* Tünd boz rəngli. Şıx kəndi, dağ döşü, bomboz qayalar Bomboz təpələri dolandı ovçu.

**Boran**, *is.* Küləkli qar və yağış; çovğun, qasırğa. Gərək çəkinməyək borandan, qardan. Nə yağmur, nə yağış, nə boran, nə qar ..Nə duman, nə çən ..Səni qorxutmadı. Qabaqdan ağ geyib gəlir qara qış / İstinin soyuğu, boranı varmış. // *məc.* Müsibət, fəlakət, bəla mənasında. Nəfəsi çovğunla, boranla dolu Qış… Başından min boran keçmiş, dəyişmiş qanlı dövranlar.

**Boranlı**, *sif.* Küləkli qar və ya yağışlı; bərk küləkli, qasırğalı. Üzündə rəqs edir boranlı bir qış. [Şahbaz:] Nədir üzündəki bu boranlı qış?

**Borc**, *is.* 1. Qaytarmaq şərti ilə birindən alınan, ya birinə verilən pul və sairə; alacaq, verəcək. Bizə minnət qoyma, borcunu qaytar. Öz borcumu ödəyərsəm bu gün sana.

2. Vəzifə. Yox, yox! Bu, borcumdur, borcumdur mənim.

□ Borc olmaq – vəzifə olmaq, ödənilməsi lazım gəlmək, üzərinə vəzifə qoymaq. Lakin bu hünərin qədərini bilmək; Hər hünər əhlinə borc olsun gərək!

**Borclu**, *sif.* və *is.* Borcu olan; başqasından borc almış olan; verəcəkli. Həyatım olduqca borcluyam sana!

**Boru**, *is.* Nəfəslə çalınan, gurultulu səs çıxaran musiqi aləti. Sabahın qoynunda borular çalan… (şeypur).

**Bostan**, *is.* [*fars.*] Qovun, qarpız, xiyar, badımcan kimi tərəvəz bitkiləri yetişdirilən tarla. Taladın bütüncə bostanı, bağı. *Məc.* □ Başında bostan əkmək – çox incitmək, əziyyət vermək. Başında hər zaman bostan əkilmiş.

**Boş**, *sif.* və *z.* 1. İçində heç bir şeyi olmayan. Di get, yerin olsun o boş mağara.

2. Müdafiəsiz, sahibsiz. Ax! Namərd… Deməli boş qaldı qabaq.

3. Əbəs, hədər, əsassız. Bir sürü boş söz anbarı. – Ömür röya kimi boş keçəcəkdir.

4. *məc.* mənasız, məzmunsuz, qeyri-ciddi. Bu dünya boş deyil, öz qanunu var. Boş sözdür, dünyanı heçdən yaradan.

5. İşsiz, gücsüz, veyl. Ağıl ummayıram, boş kötüklərdən.

6. Ağılsız, safeh. Ancaq mənim boş başım.

7. Mənasız, faydasız. Çünki boşdur nalə qılmaq, çünki boşdur ahuzar.

 Boşa çıxmaq – boşalmaq, puç olmaq, hədər getmək, heç bir nəticə çıxmamaq. Aldığın nişanlar çıxmasın boşa. Çənəsini boş qoymaq – mənasız, cəfəng sözlər danışmaq. İndidən boş qoyub sən öz çənəni. Boş yerə – 1) əbəs, nahaq; 2) səmərəsiz, faydasız, hədər. Boş yerə yapışma o dalğalardan.

**Boşalmaq**, *f.* 1. Boş olmaq, boş qalmaq, boş hala gəlmək. – Ey göylər suları sən boşalma. Şərqin varı boşalmayacaq Avropanın limanlarına.

2. Ciddiyyətini itirmək, zəiflik göstərmək, iradəsizlik göstərmək. // *Məc.* Bərkliyi boşalmış sinirlərimiz. Dünya boşalsa da, dünya dolsa da. // ölmək mənasında. Bir yandan boşalır, bir yandan dolur.

**Boşaltmaq**, *f.* Atmaq (odlu silahdan). Dayanmadan tüfəngimi boşaldtım / Dallarınca bir neçə güllə atdım.

**Boşboğaz**, *sif.* Ağzına və ağlına gələni danışan, boşuna danışan, naqqal, gəvəzə. Şair həbs eləyir boşboğazları.

**Boşluq**, *is.* 1. Boş yer, boş sahə. Bəzən də boşluğa rast gəlir yolun… // *məc.* fəza. Uçurur fikrimi boşluqlara, Göyü xəncər kimi dümdüz dararaq. ..Dərin və dibsiz göylərin «mələkmi» boşluğuna. Çalxandı nəhayətsiz olan boşluğa əfkar..

2. *məc.* (*dan.*) Ümumiyyətsizlik, laqeydlik, zəiflik. Utanmadan boşluğunu alim kimi göstərir.

**Boy**, *is.* 1. Bədənin uzunluğu; qədd, qamət, bədən quruluşu, bədəndə tənasüb. Nə gözəl də boyu var! O mənim boyumu öpüb oxşardı. Lap sərvdir boyun sənin.

2. Adətən boyda şəklində – böyüklükdə. London boyda bir şəhər də… suya möhtacdır. // Adətən boyu, boyunca, boyunda, boyu ilə / Bütün iclas boyu o, heç dinmədi. Bir gün dünya boyu bir axın var ki / Araz boyundakı şor qışlaqlarda.

◊ Boy atmaq – 1) Uzanmaq, böyümək, inkişaf etmək.

Çinarlar boy atdı cərgələnərək.. Burda, bu ağacda hər oğlan, hər qız / Bir zaman boy atıb bir nər olacaq. Sıx meşələr öz-özünə heyran olub boy atarmış. 2) *məc.* İnkişaf etmək, tərəqqi etmək, irəliləmək. Boy atır yurdumun gəlini, qızı.. O, ellər eşqilə gündə boy atdı. Boy atır sünbülün, gülün möhnəti. Boya-başa çatmaq – yetişmək, böyümək, tərbiyələnib ortaya çıxmaq. Onun çörəyilə boya-başa çatmaq.

**Boya**, *is.* 1. Bir şeyə müəyyən rəng vermək bir şeyi boyamaq, yaxud rəsm çəkmək üçün işlədilən rəng maddəsi. Yaramaz şey boya, şu qırmızı rəng, Ayazda, şaxtada donan əlləri; Nə boya görmüşdü, nə də bir əlcək.

**Boyaq**, *is.* Bir şeyə müəyyən rəng vermək, bir şeyi boyamaq, yaxud rəsm çəkmək üçün işlədilən rəng maddəsi. Başqa boyaq, başqa bir rəng vursa əlinə, Memar yoldaş! Puça çıxar öz əməlin. Axşam kimi zəng edərək hər səhəri / Həqiqətə boyaq vurmuş əfsanə tək.

**Boyaqsız**, *sif.* Boyanmamış, rənglənməmiş. Boyaqsız, rəngsiz, əmmasız olan söz…

**Boyalı**, *sif.* Boyanmış, rəngli; boya sürtülmüş. O boyalı sima, o dönük iman.

**Boyanmaq**, *f.* 1. *məc.* rəngləmək, boya ilə örtülmək. Bu eşqin isti nurilə bütün dağlar boyanmışdır. Səhralar al-əlvan rəngə boyanır, Günün şəfəqilə boyansın, – dedi.

2. Batmaq, bulanmaq. Qoynumdakı güllü yaylıq… …Boyanmışdır öz qanıma.. Boyansın demişəm, al qana, dağlar!

**Boyasız**, *sif.* Boyasız rəngli olmayan, rəngsiz, rəng çəkilməmiş. Alqış o boyasız, rəngsiz üzünə! Bakının sayrışan ulduzlarından, Çadrasız, boyasız türk qızlarından…

**Boylana-boylana**, *z.* Ətrafa baxa-baxa, baxına-baxına. Boylana-boylana səmada tərlan.

**Boylanmaq**, *f.* 1. Boynunu uzadıb baxmaq, başını çıxarıb baxmaq. Məclisin gəlini, qızı, qarısı; Üzünə boylanıb baxdılar mat-mat.

2. Ümumiyyətlə, başını qaldırıb baxmaq, ətrafına baxınmaq, göz gəzdirmək. Bir şeyə boylandı, bir insanlara. // *məc.* Dumanlar içində.. əli göz üstə; Qoca Şərq boylanır dalınca sənin.

**Boylu**[1], *sif.* Ucaboy, boylu-buxunlu, qədd-qamətli. Ruhum boylu bir çinar kimi sevər. Etila – Bir qatar-qatar boylu çinarlar. Laçın boylu tankçıya bax.

**Boylu**[2], *sif.* (dan.) İkicanlı, hamilə. Gecə boylu bir qadındır ağrı çəkərək.

**Boynubükük**, *sif.* Məzlum, məhzun, yazıq, fağır. // *z.* yazıq-yazıq, fağır-fağır. Boynubükük duran tər bənövşələr.

**Boysuz**, *sif.* Boyu kiçik, qısa. Yarpaq töküb çılpaq qalır boysuz ağaclar. Boysuz olmayacaq otlar, ağaclar..

**Boyun**, *is.* 1. Bədənin, başı bədənlə birləşdirən hissəsi. Bir boynu olsaydı bəşəriyyətin; Onu bu qılıncla vurardım yəqin. Boynuna tax daş-qaşları.

2. Yerlik halında: boynunda, boynumda, boynumuzda və s. – üzərində, üzərimizdə; öhdəsində, öhdəmdə, öhdəmizdə və s. Boynumuzda ana yurdun oz atalıq haqqı var.. Yaxşılıq boynunda qalmayacaqdır.

◊ Boynuna götürmək – öhdəsinə götürmək, razı olmaq, üzərinə götürmək. Boynumuza götürürük hamı qad olur. Boynundan atmaq – rədd etmək, üzərindən atmaq, öhdəsinə götürmək. Sən də öz boynundan at bu minnəti. Boynunu burmaq – fağır-fağır durmaq. De, boynunu acı ruzgar / Yetim kimi niyə burmuş? Yetim uşaq kimi boynunu burma. Boynunu bükmək – məzhun-məhzun, yazıq-yazıq, məzlum-məhzum oturmaq. Bükür dağ döşündə boynunu maral.. bir dəstə yağı. Boyun büküb əsir gəlir… Boyun bükdü sarı sünbül. Boyun qaçırmaq – boynundan atmaq, imtina etmək, qəbul etməmək. [Məryəm:] Xosrovun vəfası olsaydı bir an / Boyun qaçırmazdı öz peymanından. ..çıxaq yarış, kim boyun qaçırsa, ona ar olsun! Boyun əymək – tabe olmaq, itaət etmək. Sənin sözlərinə boyun əyməmək / Boyun əyir məstəli şah, Hacı Qara. Boyun əyib çeşmələrdən su içər.

Boynunu vurmaq – başını kəsməklə edam etmək // cəza olaraq öldürmək. O, ağıllı olsa belə, Yenə xanmış; Adətiymiş göz çıxarıb, boyun vurmaq. Boynuna sarılmaq – qucaqlamaq. Sənsə ona könül verdin və sarıldın boynuna.

**Boz**, *sif.* Kül rəngli, qara rənglə ağ rəngin qarışmasından əmələ gələn rəng. Əsrlər boyunca bu boz çöllərdə; Bir Vətən eşqilə siz yaşadınız. Önündə diz çökür boz qaya, Boz dağ.

2. Tutqun, dumanlı, çiskin. Sıx buludlar, boz dumanlar..

3. Bitkisiz, çılpaq. Buruqlarım hayqıraraq, nərə salır boz çöllərə.. Yenə öz yerində, boz dağlardadır / Lakin mənim torpağım boz, nə çiçəyim, nə gülüm var. Bu dənizin saf suyunu / Bu boz dağlar içəcəkdir.

◊ Boz üz göstərmək – üzə bozarmaq, nəzakətsizlik etmək, özünü qatı aparmaq. Boz üzmü göstərir ellərə şoran?

**Bozarmaq**, *f.* 1. Boz rəng almaq, bozlaşmaq; solmaq, rəngi qaçmaq, rəngi getmək. Bu sözdən Cəlalın rəngi bozardı.

2. *məc.* Üzə qabarmaq; hörmətsizcəsinə, ədəbsizcəsinə, qabacasına cavab vermək, acıqlanmaq. Qaçaqlar dalınca əldə tüfəngi; Hirsindən bozarıb qızarır rəngi. Gah bozarır, gah qızarır, üşütmələr var canında. – Gəray bəy bozarıb bir də soxulur.

**Bozüzlü**, *sif. Məc.* Sərt, soyuq, külrəngli. Əsdikcə bozüzlü amansız külək. Bozüzlü daşlarla pəncələşərək.

**Böhran**, *is.* [*ər.*] (*iqt.*) Xırda istehsalatçıların iflasına, istehsalın azalmasına səbəb olan dövraşırı nisbi həddən artıq əmtəə istehsalı. Hər üsyana səbəb olan böhran yenə çoxaldı.

**Böhtan**, *is.* [*ər.*] Birini ləkələmək üçün nahaqdan ona pis bir şey isnad etmə; iftira, şər. Desəm, bir böhtan olmazmı? Tarix cavab verər bu böhtanlara … Yalanlar, böhtanlar sürür hökmünü.

□ Böhtan atmaq – birinə olmayan bir işi və ya sözü isnad vermək; iftira demək, ləkə vurmaq. Bizim təmiz vicdanlara böhtan atır alçaq. Qaçır Bəxtiyara böhtan atmağa. Böhtana düşmək – nahaqdan şərə düşmək, iftiraya məruz qalmaq. Özü böhtanlara düşsə də hərdən.

**Böhtanlı**, *sif.* Böhtanı olan, günahkar, təmiz olmayan. Bir çoxu fitnəli, həm böhtanlıdır (qəlblər).

**Bölmək**, *f.* 1. Bir şeyi parçalara, paylara, hissələrə ayırmaq. Quzular, qoyunlar düzdə böləndə..

2. Arasını kəsmək, ayırmaq. Yüz xətt bölür hər ümmanı, hər kiçik çayı.

**Bölük**, *is.* Piyada və bəzi xüsusi qoşun hissələrində batalyon tərkibinə daxil olan əsgəri hissə; bölük (rota). Bir bölük göndərin arxaya sarı.

**Bölük-bölük**, *z.* Dəstə-dəstə, dəstələr halında. Görmədin sən; Aclığından dişləri kilidlənən, bölük-bölük, yığın-yığın canları.. Bölük-bölük sıx meşələr.

**Böylə**, *əvəz.* Belə, bu cür. Hələ yazılmamış böylə bir əsər; Ölər ayrılsa odlardan / Vətənsiz böylədir insan / O böylə günləri yaşamış… Böylə birxabidə bulmuşdum rahət. Bu gün matəm, sabah bayram / Əzəldən böylədir aləm.

**Böyləcə**, *Z.* beləcə, bu cür. Çıxıram böyləcə bəzən o xəyal dağına mən.

**Böyrək**, *is.* (*anat.*) İnsan və heyvanlarda; sidik ifraz edən bədən üzvü. Yağ içində böyrək kimi.

**Böyük**, *sif.* 1. Kəmiyyətcə, ölçücə yekə, iri (kiçik ziddi). Böyük bir qayığa doldu dəstəmiz. // Geniş, sonsuz. Ana qəlbi böyük olar. Dünya çox böyükdür, min bir yuvam var. Elin böyük qəlbi var.

2. Bəzi isimlərin qabağında gücləndirici məna daşıyır. [Xosrov:] Nə qədər böyükmüş ondakı vüqar. Hər böyük mənadan qəlbə nur yağır. Bu böyük dastanın ilk variantı / Səbr ilə yaranır hər böyük zəfər. Mənə böyük dərd olar. Böyük bir aləmə çağırır bizi..

3. Çox güclü, çox şiddətli.. O heykəlin surətini çəkdir bir gün / Cabbarlının məndən böyük söz qüdrətin.

4. Yaşca o birindən artıq olan. *İs.* mənasında. □ Böyüklə böyük, kiçiklə kiçik – hər kəslə yola gedən, hər şeyin məqamını bilən; hörmətcil adam haqqında. Böyüklə böyüksən, uşaqla uşaq. // *İs.* mənasında. Yaşlı, qoca (çox vaxt cəm

şəklində işlənilir). Öz yaşından böyüklərlə durub-oturdu.

5. Təntənəli, dəbdəbəli, əzəmətli. Bizə təsəllidir böyük gələcək. Burda nəfəs alır böyük bir şəhər. El axıb, el gəlir bu böyük günə. Bu böyük sabahın xoş havasını.

6. Fövqəladə tarixi və siyasi əhəmiyyəti olan. [Səhər:] Heç, Şahbaz, çox böyük müharibədir. Neçə illər bundan qabaqkı çağı, O solğun bağçanı, o viran bağı, Xatırlamazmısan, ey «böyük dahi!»

7. Dahi, ulu, xariqüladə zəka sahibi olan. İnsanlıq böyükdür əzəldən bəri… Böyük bəstəkar. Böyük Füzulinin şu küçük bağı; Gülümsər hər gecə məlahətindən. Fəqət, sən ey zənginlərin, böyüklərin yavrusu. [Fərhad:] O indi qəfəsdə çırpınır, aman; Qəlbinə qüvvət ver, böyük yaradan! // Tarixdə çox görkəmli rol oynamış şəxsiyyətlərin adlarına əlavə edilən epitet. Böyük bir insan olmasam da həyatda.. Deyir xoş buyurmuş böyük hökmdar.. Çox bir patavalı kiçik bir ölkə.. Böyük Firdovsilər yaratdı bəlkə / Böyük dahilərin hər bir kəlamı.. Böyük hürmüz! Böyük Hürmüz! Ölümündən intiqam al ki.. Bir də ki, dünyada böyük adamlar / Satıldığında böyük ad almamışlar.. Dünyasının böyük başı! (Zərdüşt haqda) / Məhəbbət böyükdür əzəldən bəri.

8. Çox mühüm, əhəmiyyətli, vacib. Gəlin ki, hər böyük, hər kiçik əsər.. Böyük fikirlərlə məşğuldur aləm. Fəqət natamamdır o böyük kitab.

9. *is.* (*dan.*) Başçı, rəis, rəhbər, yüksək vəzifə sahibi. Atadan, babadan böyüyümüzdür. [Azər baba:] Axşamınız xeyir, böyük hökmdar. Buna da bir «böyük vəzir» dedilər.

10. Müqəddəs, ulu. Yoxsa ağ olursan böyük Allaha?

11. Əvəzsiz, misilsiz. Böyük bir yaxşılıq olar bu bizə.

**Böyük-kiçik**, *is.* 1. Yaşlarından asılı olmayaraq hamı. Böyük-kiçik dalğa-dalğa hey axın-axın.

**Böyüklük**. «Böyük»dən Kəmiyyətcə, ölçücə yekə, iri. Dağlar! Sizdəki bu böyüklük, vüqar. Nə olur bir zaman olsaydı məndə.

**Böyümək**, *f.* 1. Həcmcə və ya miqdarca artmaq, geniş-

lənmək. Kəndimiz böyüyüb bir şəhər olar!

2. Artmaq, şiddətlənmək, güclənmək. Onun gözlərində böyüyür birdən…

3. Boy atmaq, uzanmaq, inkişaf etmək, yetişmək. Körpələr böyüdü, gənclər qocaldı. Paho… Lap böyüyüb, yaxşı cavandır.

4. Hər hansı bir yerdə ömür keçirmək, yaşamaq, cavanlığını, uşaqlığını keçirmək. Bəzən də ötərki bir həyat qəmi; Ürəkdə böyüyüb bir dastan olur.

**Böyütmək**, *f.* Boya-başa çatdırmaq, tərbiyələndirmək, yetişdirmək. Onu başqa ruhda böyüdüb zaman. Alqış sizi böyüdən bu torpağa, bu suya. Onu Xəzər dənizi böyütmüşdür qoynunda.

**Brilyant** [fr.] Cilalanmış (təraş edilmiş) almaz, çox baha qiymətli (bahalı) parlaq daş. …Brilyant da… saralır..

**Bu**, *iş. əvəz.* Zaman və ya məkan daxilində bilavasitə göz qabağında olan şeyi göstərir, həm də ismə konkretlik verir (o müqabili). Çox keçmişəm bu dağlardan.. Durna gözlü bulaqlardan.

2. *is.* mənasında. Haqqında danışılan, göz qabağında olan hadisə, şey. Ay ev yiyəsi? Aman bu olmasın Vaqifin səsi?

**Bugünkü**, *sif.* Bu günə aid olan. Sübutlu Kitayın bugünkü halı..

**Buket** [fr.] Gül, çiçək dəstəsi. Günəş buket verir əllərimizə. Bizə buket bağlayır könül yarpaqlarından.

**Bulaq**, *is.* 1. Yerin altından sızıb çıxan su mənbəyi; çeşmə, qaynaq. Çox keçmişəm bu dağlardan; Durna gözlü bulaqlardan. Səhəngini söykəyərək bulaq daşına. // *məc.* şairanə təsvir və təşbehlərdə.. Sənin sənət bulağından neçə nəsil şərbət içdi.

**Bulamaq**, *f.* Bəzi isimlərə qoşularaq müxtəlif ifadələr düzəldilir, məs.: başını bulamaq. Bulayıb başını sarı Şəmistan.

**Bulanmaq**, *f. məc.* Coşmaq, həyəcanlanmaq. Mən ağ

günlər şairiyəm; fəqət yaman bir xəbərdən; Dəniz kimi bulannam mən.

**Bulud**, *is.* 1. Havada toplanan kəsifləşmiş su buxarı yığını. Uzaqda dağılır buludlar lay-lay. Yenə öz yerində yuvarlanır ay.

2. *məc.* Əhval pozğunluğu, qəm, kədər, tutqunluq; pərişanlıq, məyusluq simvolu kimi işlədilir. Açılacaq dərdlilərin bulud almış qaşqabağı.

3. Adətən yerlik halında: buludlarda – çox ucalarda. Anan yerdə deyil, buludlardadır; Ona yetişməyir insanın səsi.

**Buraxmaq**, *f.* 1. Tərk etmək, əl çəkmək, vaz keçmək, boşalmaq, atmaq. Ölüb gedənlərin yasını burax, Anla ki, hər zaman axır bu həyat.

2. Əlaqəni kəsmək, uzaqlaşmaq, əl çəkmək. İstəsən aləmi gəz qarış-qarış / Xain adamları tez görüb, burax..

**Busə**, *is.* [*fars.*] Öpüş. Deyirlər şirindir busənin dadı; O da kor bəxtimə qismət olmadı.

**Buynuz**, *is.* Bəzi heyvanların başında sümük kimi bərk maddədən ibarət çıxıntı. O, şiş buynuz ilə adam vurarmış.

**Buynuzlamaq**, *f.* *məc.* Buynuzu ilə vurmaq, itələmək. Gözü götürməmək, sığışdırmamaq, birinin əleyhinə getmək, incitmək. [Buğa:] Səni buynuzlamaq, vurmaq istərkən. Beyninə sıçramış qəzəbindən qan.

**Buyruq**, *is.* Əmr, hökm, sərəncam. Buyruq sizinkidir, adil hökmdar! Buyruq səninkidir!

**Buyurmaq**, *f.* 1. Əmr etmək, hökm etmək. [Şapur] Aha, şah həzrəti buyurur, yəqin. // Eyni zamanda nəzakət və hörmət mənasında deyilir. Buyurmuş peyğəmbər əleyhüssəlam!

2. (*köhn.*) Söyləmək, demək, təklif etmək (hörmət və nəzakət ibarəsi olub, bəzən zarafat yaxud kinayə və istehza üçün deyilir). Nə buyurursan? Nə buyursan göz üstədir.. Of… dostum, qardaşım xoş buyurmusan.

3. Əmr formasında: buyur, buyurun – nəzakətlə dəvət

müraciət, təklif bildirir, yaxud bir şeyi təqdim etdirdikdə deyilir. Buyurun, qapımız açıqdır sizə; Dedim: – Buyur, şad olaram, Buyur doyunca iç tökdüyün qandan! Buyur köməkçim ol, yapış əlimdən gül-çiçəklə bəzənmişdir, buyurun, baxın.

**Buz**, *is.* Donmuş su. □ Buz bağlamaq [tutmaq] – buzla örtülmək, donmaq. Sevgilim, qış gəlir, şaxta düşəcək / Yenə axar çaylar buz tutacaqdır. Qarlı-buzlu ölkələr.. Mənə dünyada (qaldı) qarlı-buzlu ölkələr.

**Büdrəmək**, *f.məc.* Yolunu azmaq, sapmaq, yanılmaq. Büdrəyənin, yıxılanın qolundan tutur; Qoy hamının işi getsin, deyə, qabağa.

**Bükülmək**, *f.* Qatlanmaq, əiylmək, bükük hala düşmək. [Tamara:] Külək əsər, gül bükülər.

**Bükülməz, bükülməyən**, *sif.* Bükülə bilməyən, qatlanmaz, əyilməz. // *məc.* sarsılmaz, qüvvətli, möhkəm. Buna şahid, qocalsam da, bükülməyən qamətimdir.

**Bürümək**, *f.* Ətrafını almaq, dövrələmək, əhatə etmək, araya almaq, ortalığa almaq, mühasirəyə almaq. Bürüyür dövrəmi saysız ulduzlar.

**Bürünmək**, *qayıd.* Qaplanmaq, çulğalanmaq, örtülmək. // obrazlı təşbehlərdə. Səhralar al geyib gülə bürünür, sevinir yurdumun oğulu, qızı.

**Büsbütün**, *z.* Tamam, tamamilə. Ey dan ulduzu! İzdiham çoxalır, qəhrəman şəhər; Büsbütün ayağa qalxmışdır bu gün.

**Bütün**, *əvəz.* Hamı, hamısı, ümum, cəm. Bütün arzularım gülür yarına / Xəyaldan ilhamlar almamaq üçün..

# C

**Cadar-cadar,** *z.* Çatlaq-çatlaq, yarıq-yarıq, hər tərəfi çatlamış. ..Susuz dodaqlar kimi cadar-cadar olmuş; Ciyəri atəşdən yanan Muğan.

**Caddə**, *is.* [ər.] Böyük yol; baş küçə. O sağır göylərə açdığın caddə; Zəif qanadlarçün, bil ki, yoxuşdur.

**Cağ**[1], *is.* Vaxt, zaman. Dolaylarda bahar çağı; Bir doyunca gəzim, dağlar. – Təbiətin bu mənalı, gözəl çağında.

**Cağ**[2], *sif.* Sağlam, saz; dərdsiz, qəmsiz. Əli bəy necədir? Damağı çağdır? – Kefim sazdır, damağım çağ..

**Cah(ü)-calal**, *is.* [ər.] Calal, ehtişam, büsat, dəbdəbə, təmtəraq, var-dövlət. Pozmaq istəyirlər cah-cəlalımı.. – Keçir xatırından cahü-cəlalı..

**Cahal**, *is.* Cavan, gənc, cahıl. Hardasan, a başı bəlalı cahal?

**Cahan**, *is.* [*ər.*] 1. Dünya, aləm, kainat. [Şahbaz:] qalib gələcəkmi cahanda kamal? – Cahanda ən gözəl, məncə, həyatdır.. □ Cahana gəlmək – dünyaya gəlmək, doğulmaq. Cahana hər gələn bir əsər qoyur. – Həqiqət eşqiylə gəldik cahana…

2. Tərəf, istiqamət; front. Düşmən üstünə; İki cahandan hücum çəkərək..

**Cahangir**, *is.* [*fars.*] 1. Dünyanı istila edən, dünyanı tutan, ölkələr fəth edən. Dünyanın cahangirləri mənim əsirim olsun! – Hər gələn cahangir bir at oynatdı..

2. İgid, qəhrəman. Seç onların birini, Həm də cahangirini; Qoy qüvvəmiz çoxalsın.

**Cahanşümül**, *sif.* [*fars.* – cahan və ər. şümül – şamil olan] Bütün dünya üçün əhəmiyyəti olan, dünyanı tutan. ..Bəzi tənqidçilərimiz .. ancaq cahanşümül əsərlərdən bəhs etmək kimi xəstəliyə tutulmuşlar.

**Cahil**, *sif.* [*ər.*] Savadsız, avam, nadan; anlamaz, qanmaz. Cahil olan hər insana əfsanələr çox satılır.. – Cahil ərlər sizi bir qul sanmasın..

**Calaq**, *is.* Calaq vurmaq – peyvənd etmək, qələm eləmək. Ağacdan ağaca calaq vuraraq; Əllərim sevinib xoşbaxt olardı.

**Calal**, *is.* [*ər.*] Əzəmət, ehtişam, dəbdəbə, təmtəraq, büsat. Hey baxıram yurdumuzun dastan olmuş calalına.. – ..Kaşanələr yüksələcək calal ilə. – Bax, bu calal, bu saray!

**Cam**, *is.* [*fars.*] Müxtəlif metaldan hazırlanan piyalə. O nədir ki dost əlindən cam alı, Aya, günə timsal olar camalı?

**Camal**, *is.* [*ər.*] 1. Gözəl üz, gözəl sifət. Camalın dünyadır, qucağın cənnət.. – Camalın süd kimi belə düm ağdır.. // Görünüş; mənzərə; obraz. Sən qızıl Moskva! Sən gözəl şəhər! Sənin camalından zövq alar bəşər. // *məc.* Açır camalını dağlar səhəri.

2. Gözəllik. Min bir kitab bağlanacaq yenə ömrün camalına.. – Min gözəllik heykəlilə bu dilbərə camal verək!

3. Dilbər, canan, yar. Nerdə, bir söylə, ah, nerdə o camal?

**Camış**, *is.* İrigövdəli gövşəyən ev heyvanı. Camışlar belində dönərdik evə; Axşam qaranlığı düşdüyü zaman.

**Can**, *is.* [*fars.*] Ürək, könül, qəlb. Bu bir həqiqət ki, sevdi can səni. – ...Birdir vicdanımız, birdir canımız. – Biz səni sevirdik canla, ürəklə.

2. Bədən, gövdə. Canımız soyuqda donana kimi. – Candan çıxardılar ürəyimizi. – Ayrılarmı könül candan? // *məc.* Hələ qışın soyuğu var yerin canında. // Korpus, divarlar [Reyxstaq binasının] canında neçə min güllə yeri var.

3. Həyat, varlıq. Hansı namərd can əsirgər..? – Çox sevirik canımızdan.

4. Mehribanlıqla müraciət məqamında. Düşmən «can» desə də, düşməndir yenə.. – Can, ay Musa, gözüm Musa! – Yox, yox… Vidadi can, bağışla məni. // Canım şəklində

(həmin mənada). Canım, nə cəhənnəm, nə cənnət vardır. – Canım! Bir düşün, bu səadətdir…

◊ Can almaq – öldürmək. Can alan hər nəğmənin mənası yalnız eşqdir. Can atmaq – bir şeyi əldə etməyə və ya həyata keçirməyə həddindən artıq səy göstərmək, bütün varlığı ilə çalışmaq. Ömrün kitabını tamamlamağa; Çox da can atmasın əlimdə qələm. – Can atır ki, tamamlasın başladığı bir əsəri.. // arzulamaq, istəmək. Sən can atdın günə sarı.. Can bulmaq – təzahür etmək, üzə çıxmaq, özünü göstərmək, təcəssüm etmək. Birlikdə can bulur hər qərib niyyət. Can vermək – 1. Son dəqiqələrini yaşamaq, can üstə olmaq. Can verir ağalar, qullar dünyası. – Dünən dövran sürən bu gün can verir.

2. Canından keçmək, özünü qurban vermək. İnsan var ki, dost yolunda can da verər.

3. Ruhlandırmaq, canlandırmaq, həyat vermək. Bir qızıl qan olub axar sular da; Can verir torpağın damarlarına. – Ömrün boyu eşqə can ver, yaşa vüqarla. Can qoymaq – müqəddəs bir iş uğrunda canından keçmək, özünü fəda etmək. İllər boyu can qoyduğu bir iş üstündə. Can qoymamaq – çox incitmək əziyyət vermək, əldən salmaq. Eldə can qoymadı ağır vergilər. Can(ını) qurtarmaq – xilas olmaq, yaxasını qurtarmaq. Birdəfəlik can qurtarım bu ehtiyacdan. – Gizlənib, ordudan canını qurtar. Can deyib, can eşitmək – çox mehriban, səmimi olmaq. Can deyən can eşidən bir ölkənin oğluyuq.. – Bir-birinə hey can deyib can eşidirlər. Can dəftəri – gündəlik. Sonra dinləmişəm can dəftərini.. – Yenə varaqladı can dəftərini. Can dostu (sirdaşı) – ən yaxın adam. Qoca çinar yalnız deyil, onun da can dostu var. – [Qartal] Hünərlə qovuşar can sirdaşına. Can evi – 1. Bədən, gövdə. Ey könül! Can evindən seyrə çıx bir..

2. Ata evi, doğulan, böyüyən ev. Ayrılaraq can evindən altunlara satıldın.

3. Ürək. Can evində dustaq qalmış neçə diləyim. Can yanğısı (torpağın) – vulkan mənasında. Torpağın can yanğı-

ları; Soyuduqca zaman-zaman.. Can yandırmaq (yaxmaq) – qayğısına qalmaq, qeydini çəkmək, dərdinə qalmaq. Qoy püstələr, o badamlar az olmasın; Qulluq edək, can yandıraq bu neymətə. – Mən, zarafat deyil, ey sevdiciyim, can yaxıram… Can yaraşığı – övlad, bala, uşaq. [Banu:] Hanı gözəl balam, can yaraşığım? Can gəzdirmək – mənasız, boş həyat sürmək, zorla ayaq üstə durmaq, üzülmək. Nəşəni də, qüssəni də duymayanlar; Arsız-arsız can gəzdirər bu dünyada. Can gəlmək – dirilmək, canlanmaq. Susuz səhralara can gəlsin deyə.. Can gətirmək – *bax* can vermək 3-cü mənada. Adam boylu dağ otları; Can gətirir xəstələrə.. Can möhnəti – əzab, əziyyət. Qapıya qoymuram can möhnətini. Can otağı – 1. *bax* can evi 1-ci mənada. Ürək ayrı düşsə can otağından.. 2. Yataq otağı, yataq. Onun da can otağında səhər oyanır. Can(ı) sıxılmaq – yorulmaq, üzülmək; nəfəsi çatmamaq. Yer darısqal, hava tozlu, nəfəs durur, can sıxılır. Can üstündə (olmaq) – son dəqiqələri yaşamaq, can vermək. Gecə can üstündə, açılır səhər. Bəzən ölüm ayağında can üstündə də; Yer oğlu öz köməyinə göyü səsləyir. [Humay] Təbibsiz, davasız can üstündədir.. Can şirindir (şirin olur) – öz canının qədrini bilmək, özünü istəmək mənasında. Deyirlər ki, can şirindir. – Ah-uf da deyirik, şirin olur can. Cana doymaq – təngə gəlmək, bezmək, bıqmaq. Lap cana doymuşam bunlardan, düzü. Cana yayılmaq – çox xoşuna gəlmək, ləzzət vermək. Gülzarın da fleytası yayılır cana. Cana yanğın salmaq – həyəcanlandırmaq, cuşa gətirmək. Cana yanğın salır əsirin səsi. Cana gəlmək – dirçəlmək, dirilmək, canlanmaq. O yerlərdə cana gələr sarı, solğun bənizlər.. – Mənim varlıq nəfəsimdən torpaqlar da gələr cana. Candan əziz tutmaq – çox istəmək, özündən artıq istəmək. Candan əziz tutum səni mən, atım! Candan (canından) keçmək – özünü qurban vermək, özünü fəda etmək. [Vəzir:] Sizin uğrunuzda candan keçərəm. – O, el üçün keçdi candan. – O sənin uğrunda keçdi canından. Candan üzülmək – zəifləmək, əldən düşmək. Baxıb əhvalıma candan

üzülür. Canım (sənə) qurban! – oxşama, əzizləmə, yaxud yalvarış mənasında. Bircə canım vardır, o sənə qurban. Canına azar! – qarğış ifadəsi. – Nə olacaq? – Canına azar! Hankı təriqətdə bu vəhşilik var? Canına qəsd eləmək – özünü öldürmək. Deyərək, canına qəsd eləmişdir. …canına düşmək – daraşmaq; şirnikmək, meyl salmaq. Düşmüş gecələrin canına o quş. Canına (sarı) yağ kimi yayılmaq – ürəyinə yatmaq, canına yatmaq. Yayılar canına sarı yağ kimi… Canında üşütmə olmaq – həyəcan keçirmək; təşvişə, qorxuya düşmək. Gah bozarır, gah qızarır, üşütmələr var canında. – Canımda bir qara üşütmə vardır.. Canından qorxmaq – öz canını qorumaq, bəsləmək, təhlükədən qorxmaq. Güllə qabağında canından qorxan.. Canından od (tüstü) çıxmaq (qalxmaq) – yanıb-yıxılmaq. [Şiruyə:] Elə bil od çıxdı yenə canımdan. – Canımdan tüstülər, dumanlar qalxır; Hirsimdən əllərim titrəyir mənim. Canından getməmək (çıxmamaq) – sağalmamaq; aradan qaldıra bilməmək, kökünü kəsməmək. Yüz min il yaşasam canımdan getməz. – Canından çıxmamışdır köhnə tamahkarlığın. Canını dişinə tutmaq – könülsüz, həvəssiz, özünü məcbur edərək eləmək. Tutub canımızı dişlərimizə.. Canını odlara yaxmaq – özünə əziyyət vermək, zəhmətə salmaq. Canını odlara yaxdı nahaqdan; O ceyran baxışlı baxdı uzaqdan. Canını sıxmaq – sıxılmaq, darıxmaq, dərd çəkmək, fikir çəkmək. Elə ki, dörd divar canını sıxdı.. Canını titrətmək – üşütmək, soyutmaq, əsdirmək. Titrədir canımı dağlar ruzgarı..

**Canan**, *is.* [*fars.*] Sevgili, yar, dilbər, məhbubə. Cananlar min-min olsa da, mələyim sənsən. – [Fərhad:] Didib parçalayım o daş qəfəsi, Bir də ağlamasın cananın səsi! – Canan üz döndərdi.. Dövran bivəfa. Ən böyük musiqi canan səsidir.

**Canavar**, *is.* [*fars.*] 1. İt cinsindən yırtıcı heyvan; qurd. Tülküdən çəkinər, qorxar canavar. – Ağır yaralanmış o qart canavar. 2. *məc.* Çox qəddar, rəhmsiz, zalim adam haqqın-

da. İranı talayan o qart canavar. – Gah bir qoyun oldu, gah bir canavar..

**Can-baş**, *is.* dan. Səhhət. Odur ki, canımız-başımız sağdır.

**Can-can**: can-can demək – çox mehribanlıq göstərmək, nəvaziş göstərmək. Nə çıxar bu qədər can-can deməkdən?

**Canhacan**, *z.* Ürəklə, məhəbbətlə, riqqətlə. Bir mənim başıma gəlmədi hicran; Kim basdı bağrına canhacan səni?..

**Cani**, *is.* [ər.] Cinayət etmiş, cinayətkar. [Loğman:] Doğrudan caniyəm?

**Canlanmaq**, *f.* 1. Dirilmək, dirçəlmək, cana gəlmək. Canlanır yenidən sönən bir həyat..

2. *məc.* Daha fəal, daha sürətli, dağa canlı getmək, fəallaşmaq. Uzaqdan canlandı əmək səsləri. – Çöldə traktorun səsi canlandı.

3. *məc.* Hafizədə, xəyalda bərpa olmaq, təcəssüm etmək. Artıq unudulmuş keçən günlərin; Gözümdə canlanan son nişanısan. // Canlı bir şey kimi görünmək. Hansı rəssamın əlilə canlanır dünyanın evi?

**Canlı**, *sif.* 1. Diri, sağ, yaşayan. [Şirin:] Oynatmaq olarmı canlı bir qəlbi? – Mən də bir insanam, mən də canlıyam; Mənim də qəlbimin arzuları var! / *is.* mənasında. Belədir hər canlı, belədir insan. □ Canlı sənət – təbiətin yaratdığı gözəl mənzərə, çiçək və s. O canlı sənəti görə bilsəniz!.. – Hər gülün rəngində bir canlı sənət.. Canlı heykəl – fövqəladə bir əsər (insan və ya təbiət yaradıcılığı). Moskva, basılmaz sənin qüdrətin. Canlı heykəlisən əbədiyyətin!

2. *məc.* Əbədi, daimi, ölməz. Tarixdə ən böyük, ən canlı insan. – Kainat qurğusu, canlı bir əsər…

3. İri, yekə, gövdəli; zorba, möhkəm. Bir pəhləvan gücü də var onun canlı biləyində.

4. *məc.* Fəal, qızğın, coşğun, işgüzar; diribaş, hərəkətli. Həyat sevir canlıları.. – Canlı bir ahəngdir orda intizam.

**Cansız**, *sif.* 1. Canlılar aləminə mənsub olmayan, canı olmayan. ..Cansız dəmiri də əridir birdən. – Unuduram hər canlının, hər cansızın öz adını.

2. Həyat əlaməti olmayan, ölü, ruhsuz. Cansız cəsədlərə dirilik qurar.

3. Ölgün, tabsız, gücsüz, taqətsiz, zəif. Nə qədər cansızam yenə mən bu gün.. – Yaslanıb [çil toyuq] samanın üstündə cansız.

4. *məc.* Hərəkətsiz, yuxulu; ölgün. Gecə cansız, gecə sakit, gecə lal! – Sevmədim qurama sözlərin cansız hərəkətini.

**Car**: car çəkmək – 1. Yüksək səslə camaata bir şeyi xəbər vermək, elan etmək, bildirmək. Hansı könül nə dərd duymuş, nə də qəm? Yer üzünə car çəkin ki, o mənəm!

2. *məc.* Uğuldamaq, guruldamaq. Gecələr car çəkir göyə zavodlar. – Yerdə car çəksə də çarxların səsi..; Ceyranlar düzdədir, quşlar yuvada.

◊ Aləmə car çəkmək – hamıya bildirmək. Xəbər vermək, aləmə yaymaq. Aləmə car çəkib, bir xəbər yayın!

**Carçı**, *is.* Xəbər verən; uzaqdan, keçmişdən xəbər verən. At qan-tərə bata-bata; Carçı kimi kəndə gəlir. Tarix adlı carçıya bax; Gör nə deyir onun səsi.

**Casus**, *is.* [ər.] 1. Dövlət sirri olan məlumatı, materialları və s.-ni başqa dövlətə vermək üçün gizli surətdə toplamaqla məşğul olan adam. ..O quldurbiçimli casus yaponlar.

2. *məc.* Xəbərçi, çuğul, şeytançılıqla məşğul olan. Qapımızda casus duran.. – Sən ey mərhəmətsiz, duyğusuz, casus!

**Cavab**, *is.* [ər.] Şifahi və ya yazılı suala, sorğuya və s.yə qarşılıq olaraq söylənən söz. Cavab gəldi güllələrdən: Şair, nə tez qocaldın sən? – Sizdən gözlənilməz bir cavabdır bu. – Qacara yazdığım cavabdır, alın! □ Cavab almaq – yazılan məktuba, müraciətə və s. qarşılıqlı məktub almaq, söz eşitmək. Min bir sualımı cavab aldığım. Cavab vermək – suala, sorğuya qarşılıq olaraq söz demək (yazılı ya şifahi). Belə cavab verən dilin var olsun! – Verir cavabımı fikirləşmədən.

– [Şapur:] Bir cavab verməyir böyük hökmdar! // Göstərmək. Tarix cavab verər bu böhtanlara…

Cavabdeh, *sif.* Bir iş üçün məsuliyyət daşıyan, cavab verməli olan, məsul. Hər kəs tutduğuna özü cavabdeh…

Cavabsız, *sif. məc.* Lal. Ellər talan olur, vergilər ağır. Göylər cavabsızdır buludlar sağır. – Cavabsız qalmamış hələ sualım.

**Cavan**, [*fars.*] 1. *sif.* Gənc, yeniyetmə, hələ yaşa dolmamış. Gəldi cavan ömrümüzün Tərlan baxtı.. – London qarısı da.. Bir vaxt uşaq oldu, bir vaxt da cavan.. // *is. mənasında.* Yolda söz atmışdı ona bir cavan.

2. *z.* Xam, təcrübəsiz, naşı. Doğrudur, cavansan… Düşünsən bir az.

3. *məc.* Coşqun, ehtiraslı; həvəsli. Mənim də ürəyim hələ cavandır.

Cavanlaşmaq, *f.* 1. Gəncləşmək, yaxşılaşmaq, cavan görünmək. Ömür cavanlaşır ellər deməkdən.

2. Dirçəlmək, gücə gəlmək. Qoca pələng cavanlaşır şikar vaxtı.

3. *məc.* Sevinmək, ruha gəlmək, ruhlanmaq. Dağlar cavanlaşdı səsin gələndə.

**Caynaq**, *is.* Bir çox heyvan və quşların barmaqlarının iti ucları. Caynağında didim-didim parçalandı yapalaq.. – qurtardı quzğunun caynaqlarından..

Caynaqlı, *sif.* Caynağı olan. Pəncəli, caynaqlı anaş qaraquş; Götürüb Humayı göylərə uçmuş..

**Caz**, *is.* [ing.] Nəfəsli və zərbli alətlərdən ibarət orkestr və belə orkestr üçün yazılmış musiqi. Xəyalında bir restoran, bir rəqs, bir də caz.

**Cehiz**, *is.* və *sif.* Qızlar ərə gedərkən ata evindən apardıqları ev əşyası və s. Cehiz sandığına bir qıfıl vurur. Humayın gündəlik işləri budur. – Cehizlər qurulub, toy başlanacaq?

**Cehizlik**, *is.* Cehiz kimi ayrılmış, cehiz olaraq verilmiş. Uşaq əziz gündə sınmasın deyə; Anam cehizliyi yorğan üzündən Mənə üst köynəyi tikdi hədiyyə.

**Ceviz (cövüz)** – qoz: cevizdə sınamaq – qoz ilə fala baxmaq. Əzəldən məsəldir: taleyi, bəxti; Cevizdə sınarlar, bu bir adətdi.

**Ceyran**, *is.* 1. Antilop cinsindən itiqaçan incə bir heyvan. Ceyran qaçar, cüyür mələr düzümdə. – Ceyranam düzə gəlləm, Otlaram düzə gəlləm.

2. *məc*. Gözəl, cavan qız. Acıyıram bu ceyrana.. tez açılır könül bağı, Bəzən onun yersiz gülüb, yersiz sözlər danışmağı.

**Ceyranbaxışlı**, *sif.* Məzlum, təmiz baxışı olan. Ceyrangözlü. O ceyranbaxışlı baxdı uzaqdan; Canımı odlara yaxdı nahaqdan..

**Ceyranyerişli**, *sif.* Vüqarlı, gözəl yerişi olan. O dodağı ballım, ceyranyerişlim; .. Yandırıbdır məni, yanan olmuşam.

**Cəbhə**, *is.* [ər.] 1. Düşmənlə üz-üzə durub vuruşan ordu hissələrinin yerləşdiyi sahə, xətt. Gəlir cəbhələrdən qara xəbərlər. – Qulaq tutuldusa cəbhədə səsdən.. – Gərək yumşalmasın cəbhədə ürək! // qoşun hissəsi. Beləcə, cəbhələr atışdı xeyli.. □ Cəbhə yoldaşı – cəbhədə bir yerdə vuruşan, ən yaxın dost. O, cəbhə yoldaşım, öz sevgilimdir.. Cəbhə yarmaq – hərbi əməliyyat nəticəsində düşmənin xəttini yarmaq. Şir kimi cəbhələr yardığı zaman..

2. *məc.* Bir məqsəd, bir amal uğrunda çalışan adamların ən geniş birləşməsi. Şeyirlərimi şüarlara döndərirəm; Onları son döyüşün ilk cəbhəsinə göndərirəm.

3. *məc.* İdeoloji müharibə. Kitabda cəbhəsiz vergül də yoxdur.

□ Cəbhədən keçirmək – ideoloji cəhətdən götürqoy etmək. Keçirir Markası o, cəbhələrdən.

**Cəbin**, *is.* [ər.] Alın. Ey cəbini qərbin, sizdəsə əlbət; Hikmətin ən qorxunc aparatları.

**Cəfa**, *is.* [ər.] Əzab, əziyyət, incitmə. [Vaqif:] Görmüşəm şahların vəfasını mən; Xanların zülmünü, cəfasını mən. □

Cəfa çəkmək – iztirab çəkmək, əziyyət çəkmək. Gərçi istər çəkim çoxlu cəfa yar. Mən istərəm sürsün çoxlu səfa yar.

**Cəfalı**, *sif.* Cəfa çəkən, hər cür dərdə, əzaba dözən; cəfakeş. Nə bilim ki, arır olacaqmış böylə; Eylədi Vurğunu cəfalı maydan. – Sənin kimi bir əfsanə xəyala; Uyğunlaşsa yaşar cəfalı Göygöl.

**Cəhalət**, *is.* [ər.] Avamlıq, nadanlır, cahillik. Cəhalətin pəncəsində boğulduqca qəlbim yenə; Bir kor kimi boylanıram bu mənalar aləminə. – Qalxsın cəhalətin qaranlığından!

**Cəh-cəh**, səs təql. Quşların ötərkən çıxardığı səs: cəh-cəh vurmaq – ötmək, oxumaq (quşlar haqqında). Bülbül kimi cəh-cəh vuraq çəmənzarı görəndə.

**Cəhd**: cəhd etmək – çox çalışmaq, səy və qeyrət göstərmək, can yandırmaq. Boğmağa cəhd edir öz pəncəsilə Böyük bir insanı adi sətəlcəm.

**Cəhənnəm**, *is.* [ər.] 1. Dini etiqadlara görə bu dünyada günah işlər görmüş adamların öldükdən sonra əbədi əzab çəkəcəkləri yer. Canım, nə cəhənnəm, nə cənnət vardır.. – Bil ki, cəhənnəmin hər əziyyəti səndən uzaq olar…

2. *məc.* Son dərəcə əzablı, əziyyətli, işgəncəli şərait, yer və s. haqqında. [Şahbaz:] Həyat cəhənnəmdir binadan başdan..

◊ Cəhənnəm olsun! – rədd olsun, çıxsın getsin. Qoy cəhənnəm olsun! Yox yaxşı qızdır! Cəhənnəmə ki… – nə işimə, nə vecimə, nə olsun ki (laqeydlik bildirir). Eh, onunla nə işim var, cəhənnəmə ki! – Gülən güləcəkdir.. Cəhənnəmə ki…

**Cəhət**, *is.* Bir şeyə aid olan, onu səciyyələndirən keyfiyyət, əlamət, xüsusiyyət. Bu dövrdə ədəbiyyatımızdakı nikbinliyin iki cəhəti var idi.

**Cəhl**, *is.* [ər.] *bax* cəhalət. Çəkildi sinəmə cəhldən bir dağ..

**Cəhrə**, *is.* Yun əyirmək üçün əl ilə işlədilən sadə alət. Çoxdandır kiriyib əyri cəhrəsi..

**Cəld**, *sif.* və *z.* Tez, iti, yeyin. Quş kimi cəld olub üzüstə yatdın.. – Yerindən quş kimi cəld sıçrayaraq..

**Cəllad**, *is.* [ər.] 1. Ölüm hökmünü icra edən adam. Ölüm pəncəsində yaşamaq meyli Cəlladlara qızdı «bir az dur» dedi.

2. *məc.* Qəddar, mərhəmətsiz adam, qaniçən. Tomris o cəlladdan qisas alaraq; Hökmdar tacından daha keç! – dedi. – Ah, cəllad bimürvət! İndi qulaq as..

3. *məc. klas.* Canalan (gözəlin məftunedici qaşına, gözünə işarə). Yenə cəllad olub durdu qəsdimə; Qələm qaş altında piyalə gözlər.

**Cəlladlıq**, *is.* Zalımlıq, qəddarlıq, amansızlıq. Cəlladlıq babamın bir adətidir..

**Cəmdək**, *is.* 1. Heyvan ölüsü, leş // *dan.* İnsan ölüsü, cəsəd. Quşlar belə ürküb qaçır orda cəmdək qoxusundan..

2. *dan. kob.* İnsan bədəni, bədən. Tfu! Sizin qoxumuş cəmdəyinizə!

**Cəmiyyət**, *is.* [ər.] Qarşılarına ümumi məqsəd qoymuş adamlar birliyi; təşkilat. «Ölürəm… Sonsuzam, çox dövlətim var; İtləri saxlayan cəmiyyət üçün».

**Cənab**, *is.* [ər.] 1. Cəmiyyətin imtiyazlı təbəqəsinə mənsub şəxsə oxşayan adam. – Cənab kimdir? – O, Teylerdir!

2. Cəmiyyətin imtiyazlı şəxslərə nəzakətlə müraciət forması. Eşidin! Susmayın, danışın cənab! // Başqa dövlətlərin nümayəndələrinə işarə və nəzakətlə müraciət forması. ..Cənab Çorçill Mənə əl uzadır təzim edərək. // Bəzən istehza ilə deyilir. Bir para «marksist» cənablar da var.

**Cənazə**, *is.* [ər.] Kəfənə tutulmuş ölü, meyit. Tabutu günəş də salamlayır, ah!.. Şəfəqlər içində üzür cənazə.

**Cəng**, *is.* [ər.] Vuruş, döyüş; dava, müharibə. Kimsə girişməzmiş onunla cəngə. – Coşqun sulara məxsus ahənglə, Lazım gəlsə məşğul olardım cənglə..

**Cəngi**, *is.* [*fars.*] mus. Qəhrəmanlıq və cəngavərlik ruhunda hava. İndi dayansın Qacar! Cəngi çalın, hücum var!

**Cəngli-cidalı**, *sif.* Döyüşdə, müharibədə sınanmış, ad qazanmış. O alçaq, o cəngli-cidalı knyaz; Çarın sədaqətli, ya-

xın nökəri.. – Döşü medallı knyaz; Cəngli-cidalı knyaz; Boyanmışdır al qana.

**Cənnət**, *is.* [ər.] 1. Dini etiqadlara görə, guya bu dünyada savab iş görmüş adamların axirətdə səadət içərisində yaşayacaqları yer; behişt Axırda qismətin olacaq cənnət. – Canım, nə cəhənnəm, nə cənnət vardır..

2. *məc.* Son dərəcə gözəl mənzərəli, ürəkaçan yer haqqında. Fələklər yaratmış bu yeri cənnət.. – Bir cənnətə dönəcəkdir bugün yanmış xərabələr. – Vətən adlı bir cənnətə səs verirəm!

3. Təşbehlərdə sevgili cananın ağuşuna, qucağına işarə. Camalın dünyadır, qucağın cənnət.

**Cənub**, *is.* [ər.] 1. Dünyanın dörd cəhətindən biri, şimal əksi. Cənub, Şimal, Şərq, Qərb Bölünsün iki düşmən və barışmaz cəbhəyə! // *sif. mənasında.* Bir eşqin istisi qızdırdı hər an; Cənub səhrasını, şimal qütbünü. // Şimala müqabil olan səmt, tərəf. Budur cərgə-cərgə cənuba sarı..

2. İsti iqlim qurşağında yerləşən ölkə, ərazi. [Cəlal:] Cənub müqəddəsdir. Bir də şairlər. // *sif. mənasında.* Cənub göyləri tək üzə güldükcə..

**Cərahət**, *is.* Yara yeri, çapıq. Ürəkdə dincəlməz cərahətin var.

**Cərəyan**, *is.* [ər.] 1. Suyun öz məcrası ilə axması; axın. Hələ çaylardakı coşqun cərəyan; Bənə bir başqa xiyalatı bəyan ediyor.

2. *məc.* Ədəbi-bədii və ya siyasi-ictimai məslək. Allah! O nədir? Məncə təxəyyül cərəyanı..

**Cərgə**, *is.* [*fars.*] 1. Yan-yana və ya bir-birinin dalınca duran adamlar və ya şeylər düzümü; sıra. Gəlir bizim bu «qəhrəman» dal cərgədə əyləşir.. – Alay-alay cərgə düzəlt..

2. Bir amal, bir məqsəd uğrunda birləşən adamlar toplusu; cəbhə. Bütün bolşeviklər bənzəsə sənə; Ürəklə gələrəm mən cərgənizə. – Elə tənbəl insanların cərgəmizdə yeri yox. □ Cərgədən almaq (ölüm haqqında) – öldürmək, canını almaq. Bizim Maksimi də cərgədən aldı; Yenirkən ölümün

qara pəncəsi.. Cərgədən çıxmaq – yox olmaq, məhv olmaq. Mənsəbə, şöhrətə, pula həvəs də..; Bir tüfeyli kimi çıxır cərgədən.

**Cərgə-cərgə**, *z.* Cərgələrlə, sıra-sıra, səf-səf. Cərgə-cərgə qatar vursun Üzüm bağı, nar bağı.. – Odur! Odur! Al bayraqlar cərgə-cərgə gəlib keçir.

**Cərgələnmək**, *f.* Cərgə-cərgə, sıra-sıra düzülmək, durmaq, sıralanmaq. Baxın, durna kimi cərgələnmişdir; Göydən yer üzünə nur ələnmişdir. – Çinarlar boy atdı cərgələnərək.

**Cərrah**, *is.* [ər.] Cərrahlıq mütəxəssisi olan həkim. Görüncə bir kiçik budağı xəstə; Kəsir cərrah kimi öz əllərilə.

**Cəsarət**, *is.* [ər.] 1. Qorxmazlıq, ürəklilik, hünər. Ən böyük bir qüvvədir cəsarətlə ehtiyat. – Yazırdı.. Bir aslan qəlbinin cəsarətilə.. // Cürət. Cibgirlər! Oğrular! Cəsarətə bax! – Aha! Cürətə bax, cəsarətə bax!

2. Cəsarətlə şəklində – qorxmadan, çəkinmədən, ürəklənərək. .. Günəş parlar cəsarətlə..

**Cəsəd,** *is.* [ər.] 1. Ölü bədən, meyit. Cansız cəsədlərə dirilik qurar.. Şahbazı, tərlanı bizim dağların. – Nə cəsəddə canım, nə nəfəsim var..

2. Bədən, cüssə. Öldürüb cəsədi, alıb nəfəsi..

**Cəsur**, *sif.* Qorxmaz, ürəkli, cəsarətli, igid. Mədənlər yavrusu cəsur bir insan Yerindən sıçrayıb, danışır ələn.. – Azacıq keçmədən cəsur insanlar; Qoşdu iş başına, tərpəndi şəhər..

**Cəza**, *is.* [ər.] Hər hansı təqsirə, cinayətə, pis əmələ, qəbahətə görə birinə qarşı tətbiq edilən təsir tədbiri. Cavab ver sözümə və doğru danış; Cəzanı artırar hər bir aldadış. – Bütün bu insanlar tüpürər bizə, Cəzalar verilər hər ikimizə…

**Cıdır**, *is.* At yarışı. Cıdırda qızışan köhlənlər kimi.. – Cıdır gedir, arabir də tüfəng səsi… □ Cıdır düzü – minik atlarının yarışı keçirilən yer, meydan. Gördüm dəniz olub bu

cıdır düzü. Cıdıra çıxmaq – at yarışında iştirak etmək, at çapmaqda yarışmaq. Bəzən də atlanıb cıdıra çıxdıq..

**Cığalı**, *sif.* Cıqqası olan. Başının ön və yan tərəfinə tökülən telləri. Aldım ilhamımı min bir gözəldən; Ucu tər cığalı tellər bizdədir.

**Cığır**, *is.* Gediş-gəlişdən əmələ gələn ensiz yol. Nə cığır görünür, nə ayaq izi.. – Dağların döşündən gedən cığırlar.

◊ Cığır açmaq – yeni istiqamət vermək, yol açmaq. Açdığım cığırla yol gedəcəkdir..

**Cılız**, *sif.* İnkişaf etməmiş, boy atmamış. Hər solan yarpağın, cılız şitilin; Axtardı sirrini, tapdı sehrini.

**Cırıq**, *sif.* Cırılmış, yırtılmış, parça-parça olmuş. Cırıq şalvarından çıxmış dizləri..

**Cırmaq**, *f.* Kağızı, parçanı və s. doğram-doğram, parça-parça etmək; parçalamaq. Cırır matəm köynəyini; Göyün qərib axşamları. – Göy darısqal idi, üfüqlər qara; Kainat cırırdı dar paltarını…

**Cırmalamaq**, *f.* Cırmaq atmaq, dırnağı ilə dərisini qopartmaq, cırmaqlamaq. Analar saç yolub, üz cırmaladı.

**Cib**, *is.* Pul və başqa xırda şeylər qoymaq üçün paltara üst və iç tərəfdən tikilən kisəcik. ..Cibindən çıxarır islaq məndili..

◊ Cibi dolu – pullu, varlı. O nə qədər xərcləsə də yenə cibi doludur. Cibinə (cibə) (qatlıyıb) qoymaq – özü üçün saxlamaq, gizli saxlamaq. ..Qatla cibinə qoy uydurmaları… Cib güdən – pulgir, pul hərisi; öz xeyrini, mənafeini güdən. Bütün ömrü boyu cib güdən əllər.

**Cibgir**, *is.* Cib oğrusu, cibə girən oğru. Cibgirlər! Oğrular! Cəsarətə bax!

**Cida**, *is.* Sivri dəmir ucluqlu, dəlici qədim silah; mizraq. Körpələrin meyidləri kabab olur cidalarda.. – Cidandakı al bayrağa insanlığın hörməti var.

**Ciddi**, *sif.* Mənaca, məzmunca əhəmiyyətli, məzmunlu. [Tənqid sahəsində çalışan yoldaşlardan] ..Ciddi tənqidi məqalələr istəməliyik.

**Cik-cik**, *səs təql.* Sərçələrin və başqa kiçik quşların çıxardığı səs. Bizim şəhər bağındakı sərçələr də; Cik-cik ilə yığışır öz yuvasına.

**Cild**, *is.* [ər.] Kitabın üzü, üz qabığı. Bu kitab andırır şeiri, sənəti; Sözləri incidir, cildi qırmızı.

◊ Dost cildində düşmən – özünü dost kimi göstərən, xain. Mefistofel, yaxud dost cildində düşmən (başlıq). Cildini dəyişmək – başqa dona girmək, hər hansı mühitə, şəraitə uyğunlaşmaq. Bir də sevgilimi aldatmaq üçün; Dəyişib cildimi başqalaşmadım.

**Cilov**, *is.* 1. Qoşqu ləvazimatının, ağızlığa bənd edilmiş qayış, ip. Əvvəlcə lovğa bir xan; Ağ atın cilovundan; Tutub bir simlə vurdu.

2. *məc.* İtaətdə, əldə saxlamaq üçün bir vasitə, qüvvə. Çayların cilovu əlimizdədir.

◊ Cilovu əlindən buraxmamaq – tabeliyində, əlində saxlamaq. Bir an belə buraxmayaq cilovunu əlimizdən.

**Cilovsuz**, *sif.* Ram olmayan, azğın. Məndə nə iradə, nə ixtiyar var; Xəyalım cilovsuz bir dəli rüzgar. – Sıldırım dağların cilovsuz yeli.

**Cilvə**, *is.* [ər.] Naz, qəmzə, işvə; nəzakət, incəlik, lətafət. Çəmənlər, yasəmənlər göz vurub bir cilvə göstərsə; Durar könlüm, çıxar seyrə həyatın qəm otağından. – Göylər ki, müləvvan o şəfəqlərlə bərabər; Dəryalara, səhralara min cilvə sərasər; Ərz etmədə, bilməm nə zamandan bəri aləm; Göylər deyə, göylər deyə çalxalandı dəmadəm.

**Cilvələnmək**, *f.* Nazlanmaq, naz etmək. Bir cüt sona kimi cilvələnirlər. – Bəzən cilvələnən nazlı bir pəri.. – Yalnız cilvələnib gülümsər bəzən. // *məc.* Buludların arasından sıyrılıb cilvələndi.. [Günəş]

**Cin**, *is.* [ər.] Mövhumat təsəvvürə görə gözəgörünməz, şəri təmsil edən bir varlıq; şeytan, iblis. Artıq nə molla var, nə cin, nə şeytan; Nə yumruq, nə qamçı, nə nökər, nə xan.

**Cinayət**, *is.* [ər.] 1. Mövcud quruluşa və ya hüquqi qanuna qarşı yönəldilmiş təhlükəli hərəkət; suç. Əli bəy, alçaldar cinayət bizi.. – [Səhər:] Nolsun.. bu cinayət deyildir məncə..

2. *məc.* Yolverilməz, yaramaz pis hərəkət, əməl. Cinayət sayıldı gəlinə, qıza.. – İçimdə gizli bir cinayət vardır…

**Cinayətkar**, *is.* [*ər.* cinayət və *fars.* kar] Cinayət edən, cinayət törədən adam; suçlu. O gün məlun cinayətkar; Asılacaq boğazından.

**Cindar**, *is.* [*ər.* cin və *fars.* dar] *köhn.* Mövhumatçıların fikrində, guya cinləri zərərsizləşdirə bilən adam. Gəlinlər sığınmış cindara, fala; Bir el tapşırılmış bir ağsaqqala. – İnsanın üzünə düşəndə yara Kitablar açdırır gedib cindara.

**Cingildəmək**, *f.* Cingiltili səs çıxarmaq, cingilti çıxarmaq. Dağlar yaran mərd səsindən Uzaq göylər cingildəsin!

**Cins**, *is.* [ər.] müəyyən cinsə mənsubiyyət, qadın ya kişi, erkək ya dişi. ..Yabı cinsi kimi şıllaq atırlar… □ Cinsi-bəşər – insan, adam. İnsandır onları qurub törədən. Bu da bir sirrdir cinsi-bəşərdə.

**Ciyər**, *is.* 1. İnsan və onurğalı heyvanlarda döş qəfəsində yerləşən tənəffüs orqanı. Ciyərə dolmayır nə toz, nə torpaq.. – ..O saf bir qan olub ciyərə dolur..

2. *məc.* Ürək, qəlb; iç; vücud. Muğanın ciyəri su istəyir, su! – Budur Şərqin ciyərini gəzən ilk azar..

◊ Ciyəri yanmaq – mütəəssir olmaq, acımaq. Yox, yox! Heç ovutma, yansın ciyəri.. Ciyərinə dağ çəkmək – ürəyinə dağ çəkmək, əzab vermək, incitmək. Çəkdin ciyərimə alosman dağı.. Ciyərini yaxıb-yandırmaq – ürəyini yandırmaq; dərin təsir etmək, həyəcan və iztirab vermək. ..Hüsnün ciyərimi yaxıb-yandırır.

**Cizgi**, *is.* Xətt, cızıq. Sonra xəritəni qoynundan alıb; Rəngli cizgilərə heyrətlə dalıb..

**Corab**, *is.* Yun, iplik və s.-dən toxunan uzun və ya qısa boğazlı ayaq geyimi. Ara bir də ağ əlləri İsti corab toxuyarmış. – Bir corab, bir əlcək, bir isti köynək.. göndərirəm, al!

**Cocuq bax.** Çocuq.

**Coşdurmaq,** *f. icb.* Qızışdırmaq, şiddətləndirmək. Qanı qan coşdurur, şiddəti şiddət.

**Coşqun**, *sif.* Güclü, gur, şiddətli; təlatümlü. Daş, kəsək dolaşır coşqun bir selə.. – ..Coşqun dalğaları buluta çatan..

**Coşmaq**, *f.* 1. Şiddətlənmək, gurlamaq, tüğyan etmək; daşmaq, kükrəmək. Dəniz coşur, köpüklənir.. – Göy kimi kişnəyir, sel kimi coşur. – Coşur dalğa-dalğa, ucalır dağ-dağ.

2. *məc.* Özündən çıxmaq, hirslənmək, qızışmaq, qəzəblənmək. Qızıb coşur, hücum çəkir şiri-nər kimi. – Bəzi beyniqanların da qanı qaynar qəlbi coşar.. // Ruhlanmaq, canlanmaq, vəcdə gəlmək, cuşa gəlmək. Gah Bakıda nəğmə deyir, gah da coşur Moskvada. – Gözəldir avazın, xoşdur nəfəsin; Coşub tribunadan danışanda sən. – Səndən aşıqlar da deyib coşurlar.

**Coşub-çağlayan**, *sif.* Coşqun, təlatümlü. Görsün, sular kimi coşub çağlayan; Bu qızılbayraqlı gənc nəslimizi.

**Coşub-daşmaq**, *f. bax* coşub-qaynamaq. Dəniz kimi coşub-daşır; Zirehlənmiş pəhləvanlar.

**Coşub-qaynamaq,** *f.* Coşmaq, güclənmək, şiddətlənmək, gurlamaq. Baş küçəsi dəniz kimi coşub-qaynar.

**Cövlan**, *is.* [ər.] Dolanma, hərlənmə, dövri hərəkət; dövretmə, dövran. Volqa cövlandadır, Don çayı azad..

□ Cövlan etmək – dolanmaq, hərlənmək, fırlanmaq, dövr etmək. Yeni bir səhnədə cövlan edirəm..

**Cövhər**, *is.* [*ər.* əsli *fars.*] esensiya, ekstrat; şirə. Daşların bağrından cövhər çəkərək.

**Cummaq**, *f.* 1. Dalmaq, baş vurmaq. [Atın] Üstündə girdablı çaylara cumduq.

2. Üstünə atılmaq, həmlə etmək. Gəlin, dostlar, son hücuma Şahin kimi cuma-cuma.

3. *məc.* Dalmaq. Cumdum dəniz kimi xəyallara mən… – Cumub gedir fikirlərə, düşüncələrə.

**Cunalı**, *sif.* Başına, üzünə cuna salmış; rübəndli. ..Oxuyur bizə Vaqifin cunalı gözəllərindən. – Çünki mən nə gülləri, çiçəkləri sayrışan tər cunalı yazıların şairiyəm..

**Cücərmək,** *f.* Göyərməyə, bitməyə başlamaq, çırtlamaq. Yerdəki əlvan otlar; Cücərib boy atdılar. – Keçdi bir neçə ay, yetişdi bahar; Nə gördüm? Cücərdi bütün toxumlar.

**Cümlə**, *is.* Bitmiş bir fikri ifadə edən söz və ya söz birləşməsi. Qafilələr çəkən cümlələrə bax. – Qoy gətirim yadına Oxucumun onları; Bir cümləm olsun barı! Hər sadə, mürəkkəb cümləmizində.

**Cür(ə)**: bir (üç, beş) cürə – bir növ. Bunlarda bir cürə uydurmalardır.. – O sovxoz bağında bitən ağaclar; Üç cürə, beş cürə meyvə yetirdi.

**Cürbəcür**, *sif.* Müxtəlif, hər növ, növ-növ, hər cür. İncidirsən məni cürbəcür sözlə..

**Cürət**, *is.* [*ər.*] cəsarət, igidlik, hünər; qorxmazlıq. Alqış cürətinə! – Bir də cürət eləməsin kolxozu aldatmağa. – Aha! Cürətə bax, cəsarətə bax!

**Cürətlə**, *z.* Qorxmadan, cəsarətlə, igidcəsinə. [Kütlə] Bağırsın, hayqırsın, həm də cürətlə; Qursun bir ailə..

**Cürətsiz**, *sif.* Cəsarətsiz, qorxaq. Cürətsiz bir həyat məhv olur insan.

**Cüssə**, *is.* [ər.] gövdə, bədən; boy-buxun. Özü qorxaq, cüssəsi dar..

**Cüt**, *sif.* və *z.* Bir yerdə işlənən və bir bütövü təşkil edən. Məhəbbət cüt olar, bu bir məsəldir.. – Gəl indi cəbhədə yoldaş olaq biz; Bir cüt aslan kimi vuruşaq qoşa.

**Cütbaşlı**: cütbaşlı qartal – iki başı olan, ikibaşlı qartal. (Keçmiş rus imperiyasının və indiki Rusiya Federasiyasının rəmzi). Çatır qaşlarını cütbaşlı qartal. – Alay-alay hücum çəkin O cütbaşlı qartal üstə.

**Cüyür**, *is.* Xırda ceyran növü. Ceyran qaçar, cüyür mələr. Nə çoxdur oylağın sənin.

**Cütçü**, *is. köhn.* Cüt sürən əkinçi. Cütçülərin min dərdi var; Barmaqları qabar-qabar. – Dağın ətəyində bir cütçü vardı; Nə bilim, yer əkib, yer şumlayırdı.

# Ç

**Çabalamaq**, *f.* Ağrıdan çırpınmaq, əl-ayağını oynatmaq; çapalamaq. Gördüm çabalayır yazıq quşcuğaz…

**Çadır,** *is.* 1. Su buraxmayan parçadan və s. materialdan düzəldilən müvəqqəti, adətən, yay mənzili; alaçıq [yaylaqda] Çadırdan çadıra qonaq gəzərdin. – Onun zirvəsində çadır durur tək.

2. *məc.* Çətir. Açmış çadırını boylu çinarlar.

◊ <u>Çadır qurmaq (açmaq)</u> – məskən salmaq, məskunlaşmaq. Qədim Muğan çöllərində çadır qurub bahar fəsli. – Ay gözəllik çadırını açıb buludlarda.

**Çadır-çadır**, *is. topl.* Çadırlar, alaçıqlar. Binələri çadır-çadır; Çox gəzmişəm özüm, dağlar!

**Çadra**, *is.* Keçmişdə müsəlman qadınlarının evdən çıxarkən bədənlərini örtdükləri yüngül bürüncək; çarşab. Qara çadralara səf-səf düzülən.

**Çağa**, *is. dan.* Körpə uşaq; qundaq. Aygün alıb çağasını bağrına basır.. – Qucağında çağa görünür ana.. // çağacıq. Çağacıq da yuxusundan qalxıb oyanır.

**Çağırılmaq**, *f. məch.* 1. Bir yerə dəvət olunmaq. [Səhər:] Onu deyirəm ki, sən də çağırılırsan.

3. Tanınmaq, hesab edilmək; sayılmaq. Dahilər anası çağrılır adın. – Topal Gəray – deyə çağrıldı adı.

**Çağırış,** *sif.* Müraciət; şüar. Ana yurdun çağrışından qüvvət aldın.. – Səda dedim! – İstiqbala çağırışdır.

**Çağırışmaq**, *f. qarş.* Bir-birini çağırmaq, səs-səsə verərək çağırmaq. Sonalar çağrışır, göllər şad olur.

**Çağırmaq**, *f.* 1. Birinin adını deyərək yanına gəlməsini, ya da cavab verməsini istəmək. Çox gözəl, Vaqifi çağırın görək… – Haydı, get, vəziri yanıma çağır!

2. Mühüm bir işi görməyə dəvət etmək, cəlb etmək; ruhlandırmaq. Cəbhələr çağırır… – Gəl deyə çağırır bizi bu çöllər. – İnsanı ölümə, qana çağırır. – Təbiət ilhama çağırır məni!

3. *məc.* Hava ilə oxumaq. Qımıldandın dodaqaltı, xoş mahnılar çağırdın.. – Yaxşılıq çağırsın hər qəlbin neyi..

**Çağlamaq**, *f. məc.* Qaynamaq, coşmaq. Yerin qəlbində tufanlar, təlatümlər qopub çağlar.. – Ömrü-günü sular kimi çağlasın.

**Çaxma**. «Çaxmaq²»-dan *f. is.* Uzaq-yaxın üfüqlərdə şimşəklərin çaxması..

**Çaxmaq¹**, *is.* Odlu silahlarda zərb mexanizmin hissəsi; yay. Nə tüfəngin çaxmaqdır, nə sünbənin toxmağı.

**Çaxmaq²**, *f.* 1. Əllə, ya əldə tutulan bir şeylə vurmaq, çaxmaq. [Fərhad:] Hər daşın bağrına bir külüng çaxdım.

2. Birdən-birə işıldamaq, parıldayıb bərk şaqqıldamaq (ildırım, şimşək haqqında). Burda nə ildırım, nə şimşək çaxar // *məc.* Birdən coşmaq, hirslənmək, özündən çıxmaq. Neçin şimşək olub birdən çaxırsan.

**Çaxnaşdırmaq**, *f.* Aranı qarışdırmaq, qarışıqlıq salmaq, bir-birinə vurdurmaq, çaxnaşma salmaq. [Hürmuz:] Sən deyilsənmi bu tarixləri çaxnaşdıran əl..

**Çaxnaşıq**, *sif.* Həyacanlı, vahiməli. Car çəkir çarxların çaxnaşıq səsi..

**Çaxnaşma**, «Çaxnaşmaq»dan *f. is.* Çaxnaşma salmaq – həyəcan salmaq, vəlvələ salmaq, aranı qarışdırmaq. Düşməndir araya çaxnaşma salan.

**Çaxnaşmaq**, *f.* 1. Asayiş, əmin-amanlıq pozulmaq, hamı bir-birinə dəymək, qarışıqlıq düşmək. Talan oldu elin varı; Aralıq çaxnaşdı yenə. – Kəndlər də çaxnaşır mənim bəxtimdən…

2. *məc.* Coşmaq, tufan qopmaq, ildırım çaxmaq, göy guruldamaq. Yer tərpənir, göy çaxnaşır. – Dənizlər, ümmanlar çaxnaşır.

**Çaqqal,** *is.* [*fars.*] *məc.* Qorxaq, əl altından pislik eləyən adam haqqında. Kəsiləcək aslanların yurdundan; Toyuq tutan çaqqalların ayağı.

**Çal**, *is.*.: <u>çal düşmək</u> – ağarmağa başlamaq, dən düşmək. Azacıq çal düşmüş qaşlar altından; Qırğı baxışları gülümsəyərək..

**Çala-çala**, *z.* Çalaraq. O, fışqırıq çala-çala çıxdı qapıdan.

**Çala-çuxur**, *is.* Hamar olmayan, çala-çökək yer, oyuq-oyuq yer. Bir çala-çuxur var hər addımbaşı.

**Çalağan**, *sif.* Sancan, vuran, dişləyən. ..Bir çalağan ilan kimi burulmuşdur..

**Çalar**, *is.* Rəng müxtəlifliyi; incəlik. Baxıb çalarına sevinir torpaq; Göyün də üzündən nur tökülürdü.

**Çal-çarpaz**, *z.* və *sif.* Çarpaz, çarpaz şəkildə. Bəllidir Şirinin çal-çarpaz dağı..

**Çalğı**, *is.* Musiqi, musiqi aləti. Çalğı çalır..

**Çalxalanmaq**, *f. məch.* Hərəkətə gəlmək, coşmaq, təlatümə gəlmək, həyəcana gəlmək, bir-birinə dəymək. [Aləm] Göylər deyə, göylər deyə çalxalandı dəmadəm.

**Çalxamaq**, *f.* Tərpətmək, silkələmək. Sənəti yağ tutub, nəhrə çalxamaq..

**Çalxana-çalxana**, *z.* Həyəcanlı, təlatümlü, coşaraq. Könül yenə bəhri-bipayan kimi; Səslənir çalxana-çalxana, dağlar!

**Çalxanmaq**. 1. Dalğalanmaq, təlatümə gəlmək. Fırtına çalxanıb su bulandıqca.. – İnsan nərəsindən, yerin səsindən; Dalğalanır Bakı, çalxanır Xəzər.

2. Həyəcana gəlmək, həyacanlanmaq, coşmaq. Bir qəlb ki, çalxanar, hər zaman coşar..

**Çalıb-çağırmaq**, *f.* Bir havanı musiqi alətində çalaraq oxumaq. Yenə də çal-çağır öz yuvanda sən..

**Çalıb-oynamaq**, *f.* Musiqinin müşayiətilə oynayıb şənlənmək. Qoy çalıb-oynasın Vətən torpağı..

**Çalınmaq**, *f. məch.*: Əl çalınmaq – çəpik çalmaq. Nəğmə uçur, əl çalınır..

**Çalışqan**, *sif.* Səy və qeyrət göstərən (işdə), cəhd edən, canyandıran, zəhmətsevən. // *məc.* işlək, çoxişlənən. ..Çalışqan kotan…

**Çalışmaq**, *f.* 1. Bir şeyi əldə etmək üçün səy göstərmək, əlləşmək. [Şiruyə:] Çalış Şirini də arabir yoxla. – Anam çalışırdı, bir ana kimi..

2. İşləmək, fəaliyyət göstərmək. Qul kimi çalışır orda milyonlar. – İnsanlar çalışır, yaradır..

3. Zəhmət çəkmək, əmək sərf etmək, iş görmək. Kimindir sabahdan-axşama qədər; Yağışda-yağmurda çalışan əllər? – Mənim ki borcumdur çalışmaq sizə..

**Çalma,** *is.* Başa sarınan sarıq. Ağarır başında bir ipək çalma.

**Çalmaq**[1], *f.* Çalğı alətində bir musiqi nömrəsi icra etmək; çalğı alətini səsləndirmək. Sazım gəldi-gedər çalmayacaqdır. – Çalır orkestro… // *məc.* Çalırdı qəlbinin kamançasını… □ Layla çalmaq – körpəni yatızdıraraq zümzümə etmək. Yaxşı yadımdadır on beş il əzəl; Özgə qundağına layla çaldığın.. ◊ Öz sazında çalmaq – başa düşdüyü, istədiyi kimi demək, yazmaq. Olub-keçən hər şeyi öz sazında çalırsan.

**Çalmaq**[2], *f.* 1. *dan.* Oğurlamaq, çırpışdırmaq. Özgənin fikrini çalandan danış!

2. *məc.* Cəlb etmək, öz təsiri altına salmaq; olsunlamaq. Fikrini, qəlbini çalmışdı əlan; Mahtabın sulara düşən haləsi.

**Çalmaq**[3], *f.* Zərbə endirmək, vurmaq. Qılıncını çalan zaman qüvvət gəlsin qoluna!

◊ Zəfər çalmaq – qələbə çalmaq. Çaldığı zəfərlə heç sevinmədi. Nərə çalmaq – bərk qışqırmaq, bağırmaq. Top-tüfəng atdılar, nərə çaldılar.. Rəngə çalmaq – müxtəlif rənglər vermək, müxtəlif rənglərə çalmaq. O al şəfəq neçə-neçə rəngə çalır.

**Çalpa**, *is. məh.* Parça, tikə, qırıntı. Bir odlu vulkandan yadigarmıdır; O xəncər ağızlı daş çalpaları?

**Çalpapaq(lı)**, *sif.* Başında çalrəngli papaq olan, başına çalpapaq qoymuş. Çalpapaq Kərəm də gəlib arabir; Onların üstünə özü baş çəkir. // *is.* İçlərindən bir çalpapaq; Tez-tələsik qalxır ata.

**Çanaq**, *is.* Qab növü: qan çanağı – çoxlu adam öldürülən, qan tökülən yer. Top-tüfəng səsinin kəsilməz ardı; Olub «Qan çanağı» bu dağın adı.

**Çanta**, *is.* Şey daşımaq üçün parça, dəri və s.-dən tikilən kisə. Onun [ovçunun] çantası.. boşdur… – Yığıb çantalara yerdən-yemişdən..

**Çaparaq**, *z.* Yüyürərək, yüyürə-yüyürə, qaça-qaça, tez, cəld. Komandan qabaqda gedir çaparaq.. – Aslan gəlir çaparaq.

**Çapı(r)tmaq**, *f.* Çapmaq, bərk sürmək (adətən at haqqında). Yenə çapırdacaq atını külək; İsti ocaqları soyudacaqdır. – Çapırdır öz atını Bir dağın arxasından.

**Çapıq**, *is.* Bədənin hər hansı bir yerində sağalmış zədə yeri, yara yeri, yarıq izi. Üzündə bir çapıq yeri də vardır.

**Çapmaq$^1$**, *f.* İti sürmək (atı). Çaparsan atını hey sola-sağa. – Biz at çapdıq.

◊ Atını çapmaq – sürətlə irəliləmək, qabağa getmək. Çapdırır atını bir-başa dünya.. – O qədər atını çapdı rüzgar ki..

**Çapmaq$^2$**, *f.* Çapacaq, balta, külüng və s. ilə parçalamaq, doğramaq. Fərhad kimi dağlar çapır bizim insan.

**Çar** *is.* [*rus.* царь] *tar.* Padşah; rus padşahı. Qalmamışdır nə çar, nə də «Müsavat». – Çarın orduları ikinci dəfə; Hücuma başladı Bakı tərəfə.

**Çardaqlı**, *sif.* Çardağı olan, talvarlı. Çardaqlı damlar xəyalı küsdürür..

**Çarə**, *is.* [*fars.*] Əlac, kömək, yardım. [Şapur:] Lakin oradadır hər dərdə çarə.. □ Çarə bulmaq (etmək, tapmaq). Bəlkə bu dərdimə bulacaq çarə.. – Çarəsiz dərdlərə çarə et-

məyə..; Sərf ediniz hər zamanı, cavanlar. – [Azər baba:] İnsanlıq səninlə çatır çörəyə; Sən çarə tapırsan hər bir diləyə.

**Çarəsiz**, *sif.* Çarəsi, əlacı olmayan; sağalmaz. Çarəsiz dərdlərə çarə etməyə.. Sərf ediniz hər zamanı, cavanlar.

**Çarx**, *is.* [*fars.*] 1. Öz oxu ətrafında fırlanmaqla avtomobilləri və ya başqa mexanizmləri, maşınları hərəkətə gətirən dairə; təkər. Car çəkir çarxların çaxnaşıq səsi..

2. *məc. bax* çərxi – dövran. Çarxın gedişi; Qocaman türklüyə gülmüyor çoxdan..

**Çarxlı**, *sif.* Çarxı, təkəri olan. Əkir də, biçir də çarxlı nəhənglər. – Od-alov nəfəsli, çarxlı nəhənglər..

**Çarizm** *is.* [*rus.* царизм] Çara məxsus olduğu dövlət idarə üsulu; çar üsuli-idarəsi; çarlıq. Yoxsa bu qalanın hər divar daşı olacaq çarizmə bir məzar daşı.

**Çarmıx**, *is.* [*fars.*] Qədim zamanlarda xaçşəkilli darağacı: çarmıxa çəkmək – *məc.* çox işgəncə vermək, incitmək, əziyyət vermək. Çarmıxa çəkdilər Qafqaz dağında.. – Ölümlə bir yerdə çarmıxa çəkdik.

**Çarpaşıq**, *sif.* 1. Dolaşıq, dolanbac, qarışıq. Bu çarpaşıq dalğalarda özün göstər mənə yol. – Gözündə çarpaşıq yollar ayrılır.

2. *is. məc.* Anlaşılmazlıq, dolaşıqlıq, keşməkeş. Ah! Ölən məhəbbət! Ah! Ölən istək! Nədir həyatdakı bu çarpaşıqlar?!

**Çarpayı**, *is.* [*fars.*] Üstündə yatmaq üçün ayaqlar üzərində duran dəmir və ya taxta çərçivədən ibarət yataqlıq; krovat. Səninçün ayrıca çarpayım da var.. – Sonra çarpayının üstünə yıxılır.

**Çarpışmaq**, *f.* 1. Vuruşmaq, döyüşmək, mübarizə etmək. Bakı fəhləsi də..; Çarpışır Xəzərdə sərt dalğalarla.. // *məc.* Həyatla çarpışır ölüm üz-üzə.

2. Əlləşmək, çalışmaq, gərgin işləmək. Mən də çox əlləşdim, çırpışdım, ancaq.. – Çarpışıb yaşamaq asan deyildir.

**Çarpmaq**, *f.* 1. Zərblə, şiddətlə toxunmaq, dəymək, vurmaq. Sinənə çarpdıqca kinli dalğalar..

2. Döyünmək, çırpınmaq; vurmaq. Sinəsində çarpan ürək; Qan dağıdır əllərinə. – sən onun qəhrəman, igid oğlusan; Çarpan ürəyisən, vuran qolusan!

**Çarşaf (çarşab)**, *is.* Bax çadra. O çarşaf ki üzü qara, qəlbi qışdır. – Nə çarşaf götürür, nə sırğa taxır. [Xumar]

**Çaş**, *sif.* Əyri, çəp. Qırdım.. biri çaş, biri sarı gözlüyü mən.

**Çaşdırmaq**, *f.* Çaşmasına səbəb olmaq, özünü itirməsinə səbəb olmaq. Bizi çox çaşdırır dolaşıq yollar.

**Çaşmaq**, *f.* 1. Yanılmaq, səhv etmək. O çaşır, unudur bəzən adını.

2. *məc.* Yolunu azmaq, sapmaq, yanlış yola düşmək. İnsan oğlu dinc durmadı, Düz yolunu çaşdı yenə.

**Çatı**, *is.* Qıldan və s.-dən hörülmüş qalın ip. ..Bir qırıq çatıdan asdın özünü..

**Çatıq**, *sif.* Çatılmış, ucları qovuşuq, bir-birinə bitişik. Qayaların çatıq daşı; Başım üstə kölgə salsın. – Üfüqlərin çatıq qaşı..

**Çatılmaq**, *f. məch.* 1. Çatılmış şəkildə olmaq, ucları qovuşmaq, bir-birilə bitişmək. Ağaclar baş-başa çatılmış burda; Günəş salam verir bu doğma yurda. // *məc.* tutulmaq. Çatılmışdır alnı göyün. □ Qaşları çatılmaq – fikrə getmək, fikrə dalmaq; hirslənmək. De, neçin qaşların çatıldı birdən? – O çatılmış qaşlardakı mənaları duya bilsən!..

2. Qalanmaq. Ocaqlar çatıldı, kabablar bişdi..

**Çatış(ma)maq**, *f.* Kifayət etmə(mə)k, bəs olma(ma)q, yetmə(mə)k, çatma(ma)q. Ancaq bu nikbinlikdə bir cəhət çatışmırdı..

**Çatlamaq**, *f.* 1. Çat əmələ gəlmək, çatlaq olmaq, bütövlüyü pozulmaq; parçalara ayrılmayacaq şəkildə yarılmaq. Nar çatlayıb, şaftalılar saralır. – Susuz dodaq kimi çatlayır torpaq.

2. *məc.* Bağrı yarılmaq, partlamaq, ölmək. Qoy faşistlər çatlasın ki; Şeir yazır proletar.

**Çatmaq**, *f.* 1. Gəlmək, yetişmək (səs, küy). Sahilə çatmayır fəqət səs-küyü. □ Köməyə çatmaq – özünü vaxtında yetirmək, vaxtında köməyə gəlmək. Çatar köməyinə bizim dəstələr.

2. …yaşa qədər yaşamaq, yetişmək. Çatandan bəridir on beş yaşıma. Çox bəlalar gəlib qanlı başıma.. – Bir zaman gəlinlik yaşına çatdım.

◊ Qaşını çatmaq – narazılığını, hirsini göstərmək. Hirsindən bozarır, çatır qaşını.. – O, çatdı qara qaşını.. Əl çatmayan – uzaqda, xəyalda olan, əlçatmaz. Göz görüb, əl çatmayan ulduzlu bir dünyası var. Çörəyə çatmaq – ərsəyə çatmaq, meydana gəlmək, ortalığa çıxmaq. [Azər baba:] İnsanlıq səninlə çatır çörəyə, Sən çarə tapırsan hər bir diləyə.

**Çay¹**, *is.* [çin.] 1. Çay kolunun xüsusi surətdə qurudulmuş yarpaqları. Odur, bax, soğan da, çay, şəkər də var..

2. Həmin yarpaqlardan dəmlənib hazırlanan ətirli içki. Yanında samovar, çay tökür əli.. – ..Sadə çay içək.

3. Çay içmə, çay süfrəsi. Döşəmədə süfrə açıb, çay üstündə nağıl deyək.

**Çay²**, *is.* Atmosfer yağıntılarından və ya bulaqlardan qidalanan və özü əmələ gətirdiyi yataqla axan təbii su axını. Axır şırıltıyla köpüklü çaylar. – lalə tək qızardı Amazon çayı.

**Çayan**, *is.* Çoxayaqlılar sinfindən kiçik zəhərli heyvan; skolopendra. Bu ilanlar, bu çayanlar mələşən çöllər..; Daş saraylar yaradacaq öz hünərilə.

**Çayçı**, *is.* Çayçı dükanı, çayxana. Sən hey soxulursan Kirli çayçıların küncünə sarı..

**Çayır**, *is.* Çəmən. Al bəzənir çayır, çəmən..

**Çaylaq**, *is.* Quru çay yatağı. Enəndə çaylağa dağın dumanı..

**Çeçen**, *is.* Qafqaz xalqlarından biri, və bu xalqa mənsub adam. ..Yetdin harayına ləzgilərin, çeçenlərin.. – Tatar da, gürcüdə, türk də, çeçen də; Ayrılıb gəlmişdir öz ocağından.

**Çex**, *is.* Çexiyanın əsas əhalisini təşkil edən qərbi slavyan xalqlarından biri, və bu xalqa mənsub adam. Çex də görür taleyini.

**Çekist**, *is.* [*rus.*] ÇEKA əməkdaşı. [ÇEKA –əksinqilab və ehtikarla mübarizə aparan fövqəladə komissiya (idarə adı)] Böyük Vətən bir nəfəslə qalxacaq bir çekist kimi.

**Çeşid**, *is.* Növ, cür. Əlvan-əlvan o çeşidlər, o naxışlar; Zümrüd kimi, yaqut kimi şölə salır.

**Çeşmə**, *is.* [*fars.*] 1. Yerin altından sızıb çıxan su mənbəyi; bulaq, qaynaq. Maral.. Enib gələr çeşmə üstə. – Sonunda ömrümün məzarı olsun; Gəlinli çeşmələr, sünbüllü çöllər.

2. *məc.* Həyat mənbəyi; mənbə, qaynaq. Sənət nədir? O, həyatın.. çeşməsidir.. – O gözəllik sənətinin çeşməsindən yenə içək. // saflıq, təmizlik; dərinlik. Onun gözlərində bir çeşmə vardır..

◊ <u>Çeşmə kimi qurumaq</u> – tükənmək, qurtarmaq, daha qalmamaq. Bəlkə təbim çeşmə kimi qurumuşdur binadan.

**Çeşmək**, *is.* [*fars.*] Gözlük, eynək. Əlimdə bir əsa, gözümdə çeşmək. – Günah nə gözdədir, nə də çeşməkdə..

**Çevirmək**, *f.* 1. Bir şeyin vəziyyətini, yerini dəyişmək, döndərmək. Çevirir ocağın isti közünü.

2. Tərcümə etmək. Rusiya şeirinin şah əsərini; Çevirdim Vaqifin şirin dilinə!

**Çevrilmək**, *f.* 1. Özünü çevirmək, dönmək. Öləndə çevrilib divar tərəfə..

2. Dönüb başqa bir şey olmaq, başqa keyfiyyət almaq. Mən qorxurdum ki, rus adamına çevriləm..

**Çeynəmək**, *f.* 1. Ağıza qoyulan bir şeyi dişlə əzmək. Ağzımda çörəyi çeynəyib bəzən; Xırdaca-xırdaca yemlərdim onu.

2. *məc.* Bir sözü çox təkrar etmək, təkrarlamaq, bayağılaşdırmaq. Sözlərini çeynər udar.. – Sözünü çeynəməz çəkilsə dara!

**Çeynənən**, *f. sif. məc.* Tapdalanmış, ayaqlar altına salınmış. Şahımız, sən çəkdiyimiz ağrıları duya bilsən; Çeynənən haqqımızı alarıq..

**Çeynənmək**, *məch. məc.* Ayaqlar altına salınmaq, tapdalanmaq, zülm edilmək. Yenə də çeynənir bizim haqqımız. – Çeynəndi ömrün.

**Çəhrayı**, *sif.* Açıq-qırmızı, qızılgül rəngli. Bulutlar çəhrayı, üfüqlər laldır.

**Çəkə-çəkə**, *z.* Darta-darta, çəkərək. Məni çəkə-çəkə hey apardılar..

**Çəkic**, *is.* Mıx vurmaq, metal döymək və bu kimi işlərdə işlədilən metal və ya taxta dəstəyə keçirilmiş müxtəlif formalı metal alət; toxmaq. Çəkicini yerə qoyub qurşadıqca yarağını.. □ <u>Oraqla çəkic</u> – kəndli sinifi ilə fəhlə sinfinin birliyinin rəmzi. .. Orağını çəkiclə öpüşdürən bir ölkənin nümayəndəsiyəm.

**Çəkicli**, *sif.* Əlində çəkici olan; çəkiclə işləyən. Çəkicli, külünglü sevdalı gənclər ..; Səs salır mədənə toy-bayram kimi.

**Çəkilmək**, *f. məch.* 1. Salınmaq, tikilmək, qurulmaq. Dağların döşündən yollar çəkilsin.

2. *z.* Yox olmaq, keçib getmək, görünməz olmaq. Yerdən çəkiləcək soyuq və azar.. – Humay xəyaldadır… Çəkilir Cəlal; Gedir yavaş-yavaş qaranlıqlara…

3. *məc.* Dediyindən dönmək, birinin qabağından qaçmaq. Hünər çəkilməyir paslı bir qına. // gizlənmək. Qurdquş da çəkilir öz yuvasına. – Bir qaranlıq küncə həp çəkiləlim..

4. Köçmək, getmək, köçüb-getmək. Günəş azca qızan kimi çəkilərdik bağlara.

5. Durduğu, dayandığı yerdən başqa bir tərəfə hərəkət edib durmaq. Durmayın, çəkilin tez meşələrə! – Çəkilib dağlara, coşub hayqırır. // geri oturmaq, geriyə doğru getmək. Cəbhədən çəkilib dönməyin geri. – Biz geri qaçmadıq, geri çəkildik.

6. Əmr şəklində: çəkil! Get! Rədd ol! İtil! Çəkil, səni görmək bəladır məncə.. – Çəkil, çəkil artıq yoruldum, bıqdım..

◊ Qına çəkilmək – heç nəyə qarışmamaq, heç nə ilə maraqlanmamaq. Gürzələr, şahmarlar çəkilir qına. Dara çəkilmək – öldürülmək, edam olunmaq. Elə bil mənliyim çəkilir dara. Rüzgar(ı) çəkilmək – taleyi üz döndərmək, bəxti küsmək. Basılmış ordu tək çəkildi ruzgar. Çəkilib durmaq – qarışmamaq, baş qoşmamaq. – Necəsən! – Deyərək çəkilib durur.

**Çəkinmək**, *f.* 1. Hər hansı bir səbəbə görə bir şeyi etməyə əli getməmək. İştahı olsa da, hey çəkinərək; Qız olan bəndələr az yesin gərək.

2. Ehtiyat etmək, saqınmaq, qorxmaq. Vulkanlar çəkinir insan oğlundan.. – Gərək çəkinməyək borandan, qardan. – Tünlükdən çəkinər, qorxar canavar.

3. Əl çəkmək, üz döndərmək. Ondan çəkinmədi illər uzunu. [Arzusundan] – Çəkindim və döndüm qibləgahımdan.

4. Utanmaq, utanıb-çəkinmək. Xan məndən utanır, çəkinir bir az..

5. Geri oturmaq, geriyə doğru getmək. Qorxub çəkinməyir o cəbhələrdən..

**Çəkmə**, *is.* Botinka; ümumiyyətlə ayaqqabı. Ağan çəkməsiylə döyərdi səni.

**Çəkməçi**, *is.* Ayaqqabı tikən və ya təmir edən adam. Çəkməçi Trenqo – adi bir usta; Parisdə şanlı bir kommunar oldu.

**Çəkmək**, *f.* 1. Bir şeyi tutub özünə və ya başqa bir tərəfə dartmaq. Çək başına yorğanı.

2. Tutub dartmaq, tutmaq. Çəkib Əmirxanın qolundan Elyar; Apardı onların üstünə sarı.

3. Bir yerə və ya bir şeyin yanına aparmaq, gətirmək. Köçünü çək evinizə! – İndi nəyin varsa Əsgərana çək. – çəkin atları! – Ordu çəkibdir Qacar..

3. Davam etmək, sürmək, vaxt aparmaq. ..Tamam bir ay çəkəcəkdir bu səfər… – Yüz il qəzəmət çəksəm.

4. Tikmək, düzəltmək; iş görmək. Alqış!.. Kanallar çəkən.. zərbəçilərə!

5. Rəsm etmək. Şair, bir rəssam tək bu lövhəni çək!

6. Dözmək, əzaba dözmək; əzab çəkmək. Nələr çəkməmişəm bu qaynanadan! Nələr çəkdiyimiz sənə əyandır.

7. *məc.* Ovsunlamaq, cəlb etmək. İndisə qəlbimi çəkib aparan. // Ovsunlayıb aparmaq, gətirmək. Hansı qüvvət, hansı məqsəd bu yerlərə çəkdi sizi?

8. Çəkisini müəyyənləşdirmək; tərəzidə ölçmək. Başımızdan keçəni tərəzidə çəksələr; Dağdan ağır gələrdi…

9. Bir sıra isimlərdən sonra gətirilərək, mürəkkəb fel və müxtəlif ifadələr düzəldilir: *məs.* Qeyrətini çəkmək. – Mənim qeyrətimi çəkirsən, demək; əziyyəti çəkmək – Çox əziyyət çəkəcəksən.. Kef çəkmək – Dünyanın kefini, ləzzətini çək! Tədbir çəkmək – Sən də Xuramana yaxşı tədbir çək..

◊ Baş çəkmək – yoxlamaq. Bir baş çəkin dərdi-məndin halına. Dara çəkmək – asmaq, edam etmək. Çəkin boğazımdan məni min dara. Əl çəkmək – buraxmaq, incitməmək. Elimiz qoçaqdır, zülmdən əl çək. – Əl çək bu tərslikdən, qulaq as mana!

**Çələng**, *is.* Gül və ya bitkilərdən dairə şəklində hörülmüş bəzək. Utanma, sevgilim, söylə köksünə; Taxılmış nə qədər matəm çələngi..

**Çəlik**, *is. məc.* Dəmir, polad. Azəri yurdunun zəhmətkeş oğlu; Çəlikdir duruşlu, dəmirdən qolu.

**Çəltik**, *is.* Qabığı çıxarılmamış düyü; düyü. ..Kəndli biçməmişdir; Tarlasının.. çəltiyini..

**Çəmən**, *is.* [*fars.*] 1. Yaşıl otla örtülmüş sahə; yaşıllıq. Yağış da isladır o göy çəməni. – Çoxdur sərin bulaqların, Göy çəmənin, yaylaqların.. // Təşbehlərdə: gözoxşayan, könülaçan açıqlıq. Ağ ulduzlar çiçək-çiçək, göy üzü çəmən. Hər eşqin çəməni min gül bitirir.

**Çəmən-çəmən**, *sif.* Əlvan, rövnəqli. Hüsnünün şöləsi çəmən-çəməndir.

**Çəmənli**, *sif.* Çəmənləri olan, çəmənlik. Göy çəmənli yaylaqlarım! Qəlbim isti, canım sağdır.

**Çəmənlik**, *is.* Çəmən olan sahə, yaşıl ot bitmiş yer. Qulaq asdı sıra dağlar, çəmənliklər, zəmilər..

**Çəmənzar**, *is.* [*fars.*] Çəmənlik. Hər daşın, torpağın çəmənzar olsun. – Dərdli gəzdi çəmənzarı [Cambul] // Təşbehlərdə: *bax* çəmən. Min çiçəyin çəmənzarı məndədir. – Parlar qızıl yaqut kimi mavzoleyin divarları; Baxar ona, qəmgin olar vicdanların çəmənzarı..

**Çən**, *is.* Rütubətli duman pərdəsi; sis. Sağ olun, çən gəlir, hava qaralır. – Nə yağış, nə yağmur.. nə duman, nə çən..; Səni qorxutmadı..

**Çən-çisək**, *is.* Çən, duman, sis. Çən-çisək içindən günəşin doğar..

**Çənə**, *is.* Üzün aşağı hissəsi. Yol üstündə titrəyən ağ saqqallı çənələr. – Çənəndəcə xalın da var.

◊ Çənə söhbəti – adi mehriban söhbət. Sevgilim yanımda yatır baş-başa; Uzanır ortada çənə söhbəti. Boş çənə – həddən çox danışan. Şahid yenə də; Nəysə donquldadır o boş çənədə.

**Çəngəl**, *is.* 1. Şey asmaq üçün qarmaq, asılqan. O indi dustaqdır hissin əlində, Asılmış sevginin bu çəngəlində…

2. *məc.* İnkişafa, tərəqqiyə, sərbəstliyə mane olan şey haqqında; çəng. Düşmə çəngəlinə soyuq əllərin.. – İnlədi Şərq..; Tunc əsirlərin dəmir çəngəlində.

**Çəpiş**, *is.* Əmlik keçi balası. Körpə əmlik, ala çəpiş..

**Çərçi,** *is.* Gəzərək xırda alver edən adam, gəzərgi alverçi; xırdavatçı. Ölüm!.. Təkatlı çərçilərə!

**Çərxi-dövran** *klas.* Dünya, kainat, fələk. Bu çərxidövrandan aldım bir yara!

**Çərməmək**, *f. dan.* Çırmalamaq. Sonra da çərməyib o sağ qolunu; Gilin cərəyanı düz deyil, dedi.

**Çərşənbə**, *is.* Axır çərşənbə – Novruz bayramına qalan axırıncı həftənin ikinci günü; ilaxır. Axır çərşənbədir.. il tamam olur…

**Çətin**, *sif.* Çətinliklə başa gələn; ağır. Gediş-gəliş çətin, güzaran ağır. // çox ağır, dözülməz. Yollar uzun keçdi, döyüşlər çətin. – Bu çətin günlərin var istiqbalı!.. □ çətin (gəlir) gəlmək – qorxutmaq. Çoxlarına çətin gəlir mübarizə günləri.

**Çətinlik**, *is.* 1. Maneə, əngəl. Çətinlikdən çəkinib də hər xəyala uyanlar.. – Bilirsən dilini çətinliklərin.

2. Məhrumiyyət, əziyyət, məşəqqət. Çətinliyin.. hər dərdinə alışaq. □ Çətinliyə düşmək – ağır, çıxılmaz vəziyyətə düşmək. İş üstündə çətinliyə düşdüyü zaman. Çətinlik görmək – böyük əziyyətlə, çox çətin yaşamaq. Hər kim çətinliyi görsə doyunca; Ömrünün iç üzünü o anlayacaq…

**Çiçək**, *is.* 1. *bot.* Əksər bitkilərin çoxalma orqanı. Söyüdlər də çiçək açar.

2. Çiçəkləri olan bitki; gül. Ətirlər qoxuyan hər gül, hər çiçək.. – Vaxtsız tökülməyir güllər, çiçəklər.

3. *məc.* Bəzək, yaraşıq, rövnəq. Dedi: – oğlum, göz bəbəyim, sən ey ömür çiçəyim!..

4. təşbehlərdə: Dərilməmiş bir çiçəksən.. – Solğun bir çiçəksən..

◊ Çiçək açmaq – çin olmaq, həyata keçmək. ..Böyük arzular Çiçək açar.. – O, insanın çiçək açmış arzusudur. (Bir)çiçək dərmək – pay götürmək. Hər gələn ömründən bir çiçək dərdi… Çiçək çiçəyi çağırmaq – ətraf mənzərənin gözəlliyini ifadə etmək üçün işlənir. Baharda çağırır çiçək çiçəyi.

**Çiçək-çiçək**, *sif.* və *z.* 1. Çiçəklə, güllə örtülmüş, bəzədilmiş. Ağaclar bu bağda çiçək-çiçəkdir.. – Hər biçənək.. sayrışacaq çiçək-çiçək.. // Gül-çiçək açmış. Yaz nə deyir: – Bağlarım var, güllərim var çiçək-çiçək.

2. Al-qırmızı, qıpqırmızı. Qızın yanaqları çiçək-çiçəkdir..

3. Yaraşıqlı, biri-birindən gözəl; mənalı. Sözün ulduz-ulduz, çiçək-çiçəkdir.

◊ Çiçək-çiçək açılmaq – həyata keçmək, həqiqət olmaq. Açılmışdır qəlb evində əməllərin çiçək-çiçək.

**Çiçəklənmək**, *f. məc.* 1. İnkişaf etmək, tərəqqi etmək. Gündən-günə çiçəklənən Bu diyarda nə xoşbəxtsən.. – İnsanlığın günü-gündən; Çiçəklənib boy atdı..

2. Abadlaşmaq, abad olmaq. Bu dövranla çiçəklənsin qoca şəhər! // Rahatlanmaq, yaxşılaşmaq. Şax budaqlı ağac kimi çiçəklənir qocalıq..

3. Həyata keçmək, yerinə yetmək. Artıq çiçəkləndi arzun, əməlin..

**Çiçəkli**, *sif.* Çiçək açmış, gül açmış; çiçəklənmiş. [Valentina:] – bu əlvan çiçəkli gözəl sahillər. – Tutduğum çiçəkli, reyhanlı bu yol; Hər qəlbə sevinclər vəd edir bol-bol… – Güldü ölkəmizin çiçəkli yazı..

**Çiçəklik**, *is.* Çiçək əkilmiş yer, çoxlu çiçək bitən yer, bağça, güllük. Cənnət ki bir uydurmadır, gəl gör nədir çiçəkliyim! – Sizi qarşılayan güllük, çiçəklik.. – Bülbül ağlasın ki, solur çiçəklik..

**Çil**, *sif.* Tükləri müəyyən rəngdə olan, tükləri ləkəli, xallı olan (əksərən quşlar haqqında). Qalxdı tar üstünə bizim çil toyuq. – Çil toyuğun tək yumurtası..

**Çil-çil**, *sif.* Çoxlu çili olan, çil basmış. ..Üzünün dərisi çil-çil; Bir ledi..

**Çilçıraq**, *is.* Bir neçə lampadan ibarət asma işıq cihazı, lüstr. Çilçıraqlar üstə yanır ağ şamlar..

**Çilingər**, *is.* Əllə metaldan müxtəlif şeylər qayıran, quraşdıran və ya təmir edən usta. Yazsam çilingərin iş, hünərindən; Sanki çilingərlik sənətim də var.

**Çilingərlik**, *is.* Çilingərin sənəti, işi, ixtisası. ..Sanki çilingərlik sənətim də var.

**Çimçişmək**, *f.* İyrənmək, ürəyi götürməmək. Ürpərdi tüklərin, çimçişdi ətin..

**Çimdik**, *is.* İki barmaq ucu ilə birinin ətini tutaraq sıxma. O [Kosa] göyçək qızların qolundan bəzən; Ağrılı-ağrısız çimdik də alır.

**Çimdikləmək**, *f.* İki barmağın ucu ilə birinin ətini tutub çıxmaq; incitmək. Hər kimin qolundan çimdikləyirsə..

**Çimişmək**, *f. qarş.* Hamı bir yerdə çimmək; Sahilində çimişəcək yaşılbaşlı sonalar..

**Çimmək**, *f.* Yuyunmaq; suya baş vurmaq, üzmək. Suyuna baş vurub çimən sonalar..

**Çinar**, *is.* Pəncəvarı yarpağı olan gövdəli hündür ağac. Bizim xallı xalçalardan; Sər çinarlar kölgəsinə.. – Kəhriz başındakı çinar kölgəsi.. – Sarı yarpaq tökür boylu çinarlar. // *məc.* Təşbehlərdə hündürboy, qamətli mənasında. ..Qamət çinar; ..Ağzı püstə.

**Çinli**, *is.* Çin Xalq Respublikasının əsas əhalisini təşkil edən xalq və bu xalqa mənsub adam. Sabah çinli dostum ad qoyur Çində.

**Çirk**, *is.* [*fars.*] İrin. Kəndimizdə nə çirk qalsın, nə öskürək, nə azar..

**Çirkab**, *is.* [*fars.*] Çirk sular, natəmiz sular. İmdisə onun eşqini çirkab ilə sildim.. – Şərəf sözü ülviyyətə yüksəlir; Qaralmayır çirkablara düşərək.

**Çirkin**, *sif.* 1. Gözəl olmayan, gözə, qulağa xoş gəlməyən; kifir, eybəcər. Gözəl, çirkin, ağ, qara Xoş gəlir insanlara. // *z.* mənasında. Yoxsa gözlərinə çirkinmi göründü?

2. *məc.* Yaramaz, ləyaqətsiz, xoşagəlməz. Mən o çirkin səhnəciyi təsvir etmərəm. – Nədir üzündəki o çirkin ləkə? [yapma xal] // *is.* mənasında. Bütün çirkinlərin budur yasarı..

**Çiskin**, *is.* Tutqun havada narın yağış; çisək. Üstünü çiskinlər, dumanlar alan..

**Çiskinli**, *sif.* Çiskin. O dağın dumanlı, çiskinli başı..

**Çit**, *is.* Basma güllü və ya saya yüngül pambıq parça. Sadəcə bir çit də, ipək də geyir. – Elə, əynindəki bu çitdir varın?

**Çiy**: ◊ (insan) Çiy süd əmib – insan qəlbində şeytan əli var. Gülmə! Çiy süd əmib deyirlər insan..

**Çiyələk**, *is.* Qırmızı rəngli ətirli meyvəsi olan çoxillik ot-bitki. Dağ kimi çiyələk yetirir aran.

**Çiyin**, *is.* 1. Bədənin boyundan qollara qədər olan hissəsi. Qızlar, gəlinlər də çiynində kətmən. – Çılpaq çiyinləri günəşdə yanan.. zənci..

2. *məc.* Geyimin çiyinləri örtən hissəsi. Çiyni zərpaqonlu şahların.. əlində inlədi Şərq.

◊ Çiynində daşımaq – ağır, məsuliyyətli bir işi öz üzərinə götürmək, görməli olmaq. Ömrün ağırlığını çiynində tabut kimi daşıyan.. – ..Motorlu kəlmələri çiynində daşıyan.. şairindən salam! Çiynində gətirmək – ağırlığını, əziyyətini çəkmək. O, çiynində gətirmiş tarixləri bugünə.

**Çiyin-çiçinə**, *z.* Birgə, birlikdə, bir yerdə. Siz ölkəmizin başqa xalqları ilə çiyin-çiyinə Sovet ölkəsini.. XX əsrin barbarlardan qoruyursunuz.

**Çığ(ı)rışmaq**, *qarş.* Hamı birdən çığırmaq; bir-birini çağırmaq. Sonası çığrışan göllər bizdədir.

**Çıxar(t)maq**, *f.* 1. Təhlükəli yerdən uzaqlaşdırmaq. Bir zəfərlə çıxar məni bu sahilə.

2. Çəkərək bitdiyi, yapışdığı yerdən qoparmaq. Dartaraq heyvanın buynuzunu sən, Çəkib çıxarmısan onu dibindən.

3. İşdən, vəzifədən, məktəbdən və s. xaric etmək; azad etmək. Nə?.. Çıxarsalar?

4. Paltarını, ayaqqabını, papağını və s. kənar etmək; soyunmaq. Çıxar əmmaməni, sən keçəl dazsan…

5. Bir sıra sözlərin yanına gətirilərək, müxtəlif ifadələr və mürəkkəb fellər düzəldilir. □ Yadından çıxarmaq – unutmaq. Ancaq çıxarmasın bizi yadından…

◊ başa çıxarmaq – üz verib qudurtmaq; ayaqlandırmaq. Hər yoldan ötəni başa çıxardaq! Oyun çıxartmaq – masqaraçılıq etmək, masqara qurmaq; hoqqa çıxartmaq. Kosanın başında bir keçə papaq..; Onun çıxardığı oyunlara bax..

**Çıxılmaz**, *sif.* 1. Çıxmaq, qalxmaq çətin olan və ya mümkün olmayan. Karvanım çıxdı yoldan bir çıxılmaz yoxuşda..

2. Ümidsiz, çarəsiz, əlacsız; mümkün olmayan. O qaranlıq ki, çıxılmaz yolu var, ah!

**Çıxış**, *is.* 1. İclasda və s.-də söylənilən nitq, məruzə, verilən məlumat və s. Qoca qəhrəmanın çıxışı..

2. İfa etmə, göstərmə; səhnəyə çıxma. Bir azyaşlı.. çıxış vaxtı yanılsa..

◊ Çıxış yolu axtarmaq – çıxılmaz vəziyyətdən, böhrandan qurtarmaq üçün çarə, əlaç, nicat, xilas axtarmaq. Axtarır bir çıxış yolu düşdüyü dərdə…

**Çıxmaq**, *f.* 1. Bir yerdən (otaqdan, binadan və s.) kənar olmaq, xaric olmaq. Qoca bağban.. çıxacaqdır otağından. – Hər gün çıxıb eyvana.. – Sarvan çıxır Mavzoleydən rəngi saralmış…

2. Getmək, üz tutmaq; istiqamətlənmək. Çıxdı traktorlar Muğan düzünə. – Naxırlar, sürülər yaylağa çıxdı.

3. Yuxarı qalxmaq, başıyuxarı getmək, qalxmaq. Vaxtsız xoruz olub çıxırsan dama.. – Gah düzə səyirtdi, gah dağa çıxdı.

4. Yerin altından hasil edilmək. Ot bitməyən, su çıxmayan bir dağ başında..

5. Bir işi görmək üçün getmək, gəlmək. Ova çıxmış Əli bəy. – Al bayraq götürüb çıxdıq üsyana. – Yarıb çıxacağam şiri-nər kimi!

6. Birdən-birə zahir olmaq, görünmək, qarşısına çıxmaq. Çıxır qarşımıza qoca bir çoban. – Qızın qarşısına çıxır Bəxtiyar.

7. İşini, vəzifəsini buraxmaq, tərk etmək. Atam çıxmışsa da vəzirliyindən.

8. Boşanmaq, ərindən ayrılmaq. Çıx, ona arvad ol!

9. Doğmaq, görünmək, tülu etmək. Gəlin kimi bəzək vurub ay da çıxmış otaqdan.

10. Olmaq. Nə çıxar bu qədər can-can deməkdən? – Nə çıxır bir anlıq yanan həvəsdən? – Hər nəsə uydurmaq istədi bizə; Bir şey çıxmadı…

11. Bir sıra isimlərdən sonra gətirilərək, mürəkkəb fel və müxtəlif ifadələr düzəldilir: dilindən (dilimdən) çıxmaq – deyilmək. Xeyir söz çıxmayır yenə dilindən. – Gör bir nələr çıxdı mənim dilimdən!.. Düz çıxmaq – sadiq qalmaq. Görək tanrısına düz çıxan hanı? Zidd çıxmaq – əleyhinə çıxmaq. Zidd çıxmaq olarmı xanın sözünə?.. Yalan çıxmaq – düz çıxmamaq. Yalan çıxmağımın qorxusu da var… Seyrə çıxmaq – tamaşa etmək, seyr etmək. Gəlin, seyrə çıxaq dağlara bir az. – Dənizin seyrinə çıxır körpələr.. Gəlib çıxmaq – gəlmək. İlyas! Gəlib çıxdın? De nə var, nə yox? – Gəlib çıxmadımı bizim elçilər?

◊ Ağ günə (günlərə) çıxmaq – xoşbəxt olmaq. Körpə quzum, ağ günə çıx! – Ağ günlərə çıxsın sizin Əli bəy! Dizə çıxmaq – həddən artıq çox olmaq. Çöldə tar bağlayıb qar çıxdı dizə. – Mən orda olmasam, qan çıxar dizə. – [Valentin:] Burda bir bataqlıq çıxırdı dizə.

**Çıldıran**, *sif.* Dəli, azğın. Çıldıran bir quduz kimi səslənirdi küləklər..

**Çılğın**, *sif.* 1. Dəli, azğın, dəli kimi hərəkət edən. Çılğın dühalar ki hökm edər qərbə; Onlar səbəb olmuş bir geniş hərbə. ..Bir zamanlar bəlkə çılğın, əsəbi; Yürüdüm bir əziz ideal deyə..

2. Qızğın, coşqun, ehtirasla dolu. Atəşli vicdanlar, çılğın ürəklər..; Baxdım keçmişlərə, bu həqiqətdir..

3. *məc.* Çılğınlıq verən. Yuxusuz gecələr… çılğın badələr..

**Çılpaq**, *sif.* 1. Açıq olan, paltarla örtülməmiş. Çılpaq çiyinləri günəşdə yanan (zənci) – Çılpaq çiynimizdə dağ boyda yüklər.

2. Yarpağı tökülmüş, yarpaqsız. Yarpaq töküb çılpaq qalır boysuz ağaclar.

3. *məc.* Yoxsul. ..Çılpaq ..səfalətzadə uyuyur yaslı..

4. *məc.* Təmiz, aydın; buludsuz. Kürün sahilində var əski bir köy; Üstündə hər zaman çılpaq olur göy.

**Çınqıl**, *is.* Tikinti işlərində istifadə olunan daş qırıntısı, xırda daş. Top səsindən çınqıl kimi səpələnir pəncərələr. – Çəpərlər aradan bir-bir sökülsün; Palçıqlı yollara çınqıl tökülsün.

**Çıraq**, *is.* [*fars.*] 1. Hər cür işıqlandırıcı cihaz. [Dənizdə]. Neçə min od yanır, neçə min çıraq.. – Alışan çıraqlar bizə nə deyir? □ Çıraq salmaq – işıq çəkmək. Mehrab o dilbərə çıraqmı salmış?

2. *məc.* İşıq, nur, ziya. Azadlıq çırağı əlimizdədir. – Azadlıq çırağı əlində yanır.

◊ Çıraq tək sönmək – ərimək, məhv olmaq. [Mahnigar:] Yunisdir.. deyəsən söndü çıraq tək..

Çırağı sönmək – sonu çatmaq, məhv olmaq. Qaranlıq yollarda çırağın söndü.

**Çıraqban**, *is.* [*fars.*] 1. Çıraqlarla işıqlandırılmış, çıraqbanlıq. Çıraqbandır tamam yer, göy..

2. Çilçıraq, brilyand. Ulduz kimi qatarlanmış çıraqbanlar. // İşıq mənbəyi. Sanki çıraqbandır insan əməli..

□ Çıraqban olmaq – nura, işığa boyanmaq. Çıraqban olduqca kəndin axşamı..

**Çıraqbanlı**, *sif.* İşıqlı, çilçıraqban. El bənzədi toy günündə çıraqbanlı bir otağa..

**Çıraq-çıraq**, *z.* və *sif.* 1. Çıraqlarla işıqlandırılmış, çıraqban. Bir dön bizim Bakıya bax; Sahilləri çıraq-çıraq. – Mingəçevir işıqları şölə verir çıraq-çıraq.

2. *məc.* İşıq saçaraq; işıqlı; parıltılı. Yanır libaslarda o [neft] çıraq-çıraq. // al-qırmızı. Bütün qızlar geyir düm ağ, Yanaqları çıraq-çıraq.

◊ Çıraq-çıraq axtarmaq – çox çətin tapılan şey haqqında. Axtarsan da bu dünyanı sən çıraq-çıraq..

**Çırma(k)lı**, *sif.* Paltarının qolu və ya şalvarın balağı bir neçə qat qatlanıb yuxarı qaldırılmış. Biləklər çırmaklı, döşlər önlüklü..

**Çırma(la)maq**, *f.* Paltarının qolunu, ətəyini və ya şalvarının balağını bir neçə qat qatlayıb qaldırmaq. Ətəyini çirməyərək Samurçaydan keçəndə sən. – Onun da ruhuna qaranlıq çökür; Çırmayıb qolunu itə yal tökür..

**Çırmanmaq**, *qayıd.* Paltarının qolunu və ya şalvarının balağını çırmamaq. Qoy çırmansın igidlərin qolları..

**Çırpınış**, *is. məc.* Çalışma, çalışıb çapalama. Təkamül, tərəqqi, çırpınış, uçuş; Ölçüyə gəlməyən hərəkətdədir.

**Çırpınmaq**, *f.* 1. Bərk döyünmək, vurmaq; titrəmək. Onun sinəsində çırpınan ürək.. – Xəstənin köksündə çırpındı ürək. // *məc.* Daima hərəkətdə olmaq. Çırpınıb döyünür gecənin qəlbi.. // Sevincdən və ya bəd bir xəbərdən həyacanlanmaq, lərzəyə düşmək; sarsınmaq. Çırpındım ürəyimdə bir xəstəlik var kimi.

2. *məc.* Həyəcanlanmaq, coşmaq; baş qaldırmaq. Xəyalı çırpınıb dağlara qonur.. – Çırpınmağa başlar yenə ruhumdakı fəryad.

3. *məc.* Can atmaq, arzulamaq, istəmək. O sərin buludlar, o boylu çinar. Həm sənə gülümsər, sənə çırpınar. – Hisslərim, həyəcanım Həp onlara çırpınar [dağlara]

4. *məc.* Vuruşmaq, döyüşmək, gərgin işləmək. Yaşayan, çırpışan, sevən insan var. – Bir az da çırpınsın, gülsün, əylənsin..

5. Ayılmaq; silkələnmək, əmələ gəlmək. Qafqazda çırpınar, Altaya qoşar; Dağlardan atılan bir yaya bənzər [qəlb]

◊ Qəfəsdə çırpınmaq – azadlığını itirmək. [Fərhad:] O indi qəfəsdə çırpınır, aman..

**Çırpıntı**, *is.* Döyünmə, döyüntü, çırpınma. Orijinalda olan poeziya, ilham və qəlb çırpıntıları hərfi tərcümələrdə yoxdur.

**Çırpmaq**, *f.* 1. Şiddətlə vurmaq, çarpmaq, zərbə endirmək. Yaşılbaşlar qanad çırpar suyuna. ..Az qala..; Qədəhi.. başına çırpam.

2. Döymək. Ağ at qulaq çırparaq..

◊ Daşını çırpmaq (nəyin) – yox eləmək, məhv eləmək. Yaxın bir keçmişin ağır daşını Çırpdın öz daşına tökdüyün qanla.

**Çoban**, *is.* [*fars.*] 1. Qoyun-keçi sürüsünü güdüb otaran adam. Bir cavan çobana qoşulub qaçdın. – Çobanın, naxırçın tütək çalanda Gümrah olar yanın, yançağın sənin [Kür] □ Çoban tütəyi – tütəyin ən sadə növü. Çoban tütəyindən axan bayatı..

2. *məc. is.* və *sif.* Kobud, bisavad, mədəniyyətsiz. Yox bir, patavalı çoban bir ölkə..

**Çobanbayatı(sı)**, *is. mus.* Tütəkdə çalınan xalq havalarından biri. Şikəstəm, segahım, çobanbayatım; Bir şərbət dadıyır ağızda, dildə.

**Çoban-çoluq**, *is.* Qara camaat; gədə-güdə. Vəzir, çoban-çoluq məclisidir bu?

**Çocuq,** *is.* Uşaq. Pək çocuqdum yerə gömdülər səni.. – O, qəbrin üstündə, çocuq səsilə Xanların eşqinə şeir oxuyur.

**Çocuqluq**, *is.* Uşaqlıq. ..Ta çocuqluqdan; Birlikdə çalışır, əkin əkərdik..

**Çodar**, *is.* Keçmişdə: mal-qara alveri ilə məşğul olan adam. Tanıyın.. hökumət atları yarı qiymətinə satan.. köhnə çodar Şirəlini.

**Çox**, *sif.* və *z.* 1. Sayca az olmayan, miqdarı artıq olan. Yüz min sətirdən çox söz sənətini.. – Az işləyib çox qazanar.. – Qüvvəti çox olar birləşən elin.

2. Az sürməyən, uzun müddət davam edən, uzun sürən. Dövranmı çox sürmüşəm.. – Çox sürməz bu qış.. – Gödək ömrü çox yaşadır; Canım dağlar, gözüm dağlar!

3. Tez-tez, bol-bol, çoxlu. Çox vaxt da su kimi rəngi bulanır.. – Çox dedim, sözümə baxmadınız siz..

4. Xeyli, artıq, artıq dərəcədə, olduqca. Deyəsən, şöhrəti çox sevir qadın.. – Dünya çox böyükdür, min bir yuvam var. – Mənim çox ağıllı bir gəlinim var.

5. *is.* mənasında. Bir çoxu piyada, bir çoxu atlı.. – Gəray bəy çoxunu diri soyubdur.. // çoxları şəklində – əksəriyyəti,

böyük qismi. Bir çoxları deyir sənə.. – Bu sözlərim bir çoxlarını vuracaq qəlbindən bir ilan kimi.

◊ Çox gözəl – yaxşı, lap yaxşı (bəzən istehza ilə deyilir). Çox gözəl, Vaqifi çağırın görək… – Çox gözəl, hər sözün iti bir bıçaq… Çox görməsin (kim kimə) – əlindən almasın, daima yaşasın, yanımızda olun; ölməsin. Sizi çox görməsin tanrı ellərə. – Mənə çox görmədi zaman çalışıb yaşamaq həvəsini.. Çox gördün – əlindən aldın, qalmadı, yaşamadı; öldü. Onu da çox gördün axırda bizə? Çox şükür (Allaha, Tanrıya və s.) – razılıq, alqış ifadəsi. Allaha çox şükür, xoş olsun xəbər.

**Çoxalmaq**, *f.* Miqdarca, sayca, həcmcə və s. artmaq. Qoy qüvvəmiz çoxalsın! – Çoxaldı qarnıaçıq və yurdsuz yavruların sayı.

**Çoxaltmaq**, *f.* Sayca, miqdarca, həcmcə və s. artırmaq, çox etmək. Tez ol, yoldaş! Çoxalt toku!

**Çoxdan**, *z.* Xeyli zaman bundan əvvəl; əvvəldən, qabaqlardan. – Qalmamış qüdrətim.. dalğınam çoxdan. – Gəlin! Gəlin! Muğan sizə çoxdan tanışdır. – Çoxdandır atmışam onu üstümdən.

**Çoxəsrli**, *sif.* Çox əsr ərzində mövcud olan; çox əsr yaşayan, davam edən; qədim. Azərbaycan xalqının çoxəsrli tarixi salnaməsinə öz qanı ilə yeni səhifələr yazan xalqımızın oğullarının adı ilə fəxr edirəm.

**Çoxlu**, *sif.* Sayca, miqdarca artıq, çox. Gərçi istər çəkim çoxlu cəfa yar..

**Çolpa**, *is.* Təzə qanad açıb uçan bəzi quşların balası. Qoca qartal.. Uçurduğu çolpaları.. seyr edər. – Tısbağalar şahin kimi çolpa uçurmaz.

◊ Çolpaları yuvasından uçurtmaq – uşaqları evdən, ana qoynundan böyük həyata yola salmaq. Çolpaları yuvasından mən uçuraydım.

**Çomaq**, *is.* Başı yumru ağac; dəyənək. Yox, bir başa keçsin çiynində çomaq.. – Yapışdım çomağa ..Çəkilin geri..

**Çopur**, *is.* Çiçək xəstəliyindən üzdə qalan yara yeri. Bozarmış üzündə sıx çopurları.

**Çovğun**, *is.* 1. Qarlı, yağışlı külək; boran, qasırğa. Çovğunda yol azmış qocalar kimi.. – Nəfəsi çovğunla, boranla dolu (Qış…) □ Çovğun vurmaq – bərk külək, boran qopmaq, başlamaq. Çovğun vurur, qum sovrulur, külək əsir.

2. *məc.* Təlatüm, həyəcan, təlaş, təşviş. ..Gözləyirəm eşqin bağını; Bu qopan çovğundan. – [Eloğlu:] Görəndə üstümdən bir çovğun əsdi.

**Çovğunlu**, *sif. məc.* Hadisələrlə, həyacanla dolu, gurultulu, keşməkeşli. Yaxşı bax, dünyanın başından keçən; Tufanlı, çovğunlu qərinələrə!

**Çoyumaq**, *f.* Yanından ötüb keçmək (güllə haqqında); çovumaq. Güllələr çoyuyub keçdi yaxından…

**Çoyutma**, *sif.* İstiqamətini dəyişmiş, hədəfdən yayınmış; çovuma (güllə haqqında). Çoyutma bir güllə gözlənilmədən yapışır alnıma..

**Çöhrə**, *is.* Üz, surət, sima. Xəndan çöhrəsindən nurlar saçılsın.. – ..Çöhrəsində sənin ələm hicranından əlamətin var.

**Çökmək,** *f.* 1. Aşağı enmək, çuxura düşmək; uçmaq. Səqfi çökmüş bu qalanın boz daşları; Boran görmüş, külək döymüş bir dənizdir.

2. Çulğalamaq, qaplamaq, bürümək, basmaq. Alov rəngi çökmüş bütün asimana. – Qızartı çökmüşdür yanaqlarına.. – Çökərkən axşamın qaranlıqları.. // basmaq, örtmək (ot haqqında). Çökmüş yamaclara körpə yaşıllıq.

◊ Qaranlıq çökmək (ürəyə, gözlərə, baxışa…) – ümidsizləşmək, ümidi sönmək; ürəyi sınmaq. Qaranlıq çökmüşdür baxışlarına. – Hər könülə min qaranlıq çökə-çökə; Dustaq olmuş neçə qadın məhəbbəti.

**Çöl**, *is.* 1. Susuz, meşəsiz düzənlik; bozqır. İlanlı çöllərdə şəhərlər saldıq. – Sibir çöllərində zəncir səsləri.. – Əmirxan… çöl yeri, vəhşi təbiət. // Boş, atılmış torpaqlar, çölbiyaban, biyaban. Çöldə yaşarmı insan? – Atın meyidimi,

düşsün çöllərə.. // qumluq, səhra. Nə mən Məcnun kimi çöllərdəyəm, bil; Nə sən Leyli kimi hicran xəstəsi.

2. Tarla, əkin yeri. Tökülsün xırmana çöllərin varı.. – İxtiyar nənəm də çöldədir bu gün..

3. *dan.* Bayır, dışarı, eşik, həyət. Çöldə nə var, nə yox? – Deyib gülə-gülə dağıldı çölə.

4. *sif.* Çöldə bitən, çöldə yaşayan. Mən nə idim, bir çöl quşu.. – Nə bir quş vurmuşdur, nə çöl heyvanı.

◊ Çölə atmaq – evindən-eşiyindən qovmaq, məhrum etmək; işdən, vəzifədən qovmaq. [Vəzir:] İndisə, yaşımın bu ötkün vaxtı; Məni çölə atır bu gəyan taxtı. Çöllər oğlu – çoban. O çöllər oğluna salam verirəm. Çöllərə düşmək – sərkərdan olmaq, ev-eşiyindən, yurdundan ayrı düşmək, yad yerləri dolaşmaq. [Fərhad:] Çöllərə düşdüyüm o vaxtdan bəri; Dolaşdım dağları, meşəlikləri. Çölləri gəzmək (dolanmaq) – *bax* çöllərə düşmək. İndi sənsiz gəzirəm çölləri divanə kimi.. – Nə də Sarvan eşqə düşüb çöllər dolanır. Çölün düzünə salmaq – *bax* çölə atmaq. Yazığı saldılar çölün düzünə.

**Çöp**, *is.* Taxta, ağac, saman və s. parçası. Dostluğun töhfəsi bir çöp olsa da; Anlayan bilər ki, mənası nədir.

**Çör-çöp**, *is. top.* Ağac, ot və s. qırıntısı. Dimdiyimdə çör-çöp yığıb yuva quraydım…

**Çörək**, *is.* 1. Undan bişirilən qida məhsulu. Payız ola, pendir-çörək qarpızla.. – Çörək bol olarsa, basılmaz Vətən. □ Çörək dilənmək – dilənçilik eləmək. İndi nəvələrin çörək dilənir..

2. *məc.* Ümumiyyətlə yemək, xörək. Çörəyindən yeyib, suyundan içdik. – Çörəyilə böyümüsən bizim ana Vətənin.

3. *məc. dan.* Çörək pulu, yaşamaq üçün gündəlik cüzi pul, vəsait. Bəşərin ilk dərdi çörək dərdidir. – Bizə bir kimsə çörək verməyəcək.. – Onun çörəyilə boya-başa çatmaq..

◊ Bir parça çörək – cüzi dolanacaq. Bizə qəhət olmaz bir parça çörək. – Bir parça çörəyə, suya möhtacdır. Quru çörək (yavan çörək) – kasıbçılıq, yoxsulluq rəmzi. Nə də tək-

nəmizdə quru bir çörək… Ömrün boyu yaşasan da yavan çörəklə. Çörəyə çatmaq – böyümək, püxtələşmək, yetkinləşmək; əli çörəyə çatmaq. [Azər baba:] İnsanlıq səninlə çatır çörəyə; Sən çarə tapırsan hər bir diləyə. – Bir parça çörəyə çatmışdır əli.. Çörəyi çıxmaq (nədən) – dolanacaq mənbəyi olmaq. Bu qara torpaqdan çıxır çörəyim.

**Çörəkbasan**, *sif.* Yaxşılığı unudan, nankor, çörəkitirən. Çörəkbasan, duzitirən; Bir şairin üzü gülməz.

**Çubuq**, *is.* Budaq parçası. Yerini əyri bir çubuqla sürmüş..

**Çuğul**, *is.* Xəbərçi, şeytan, xəbərçilik edən adam. Çuğul xəbər verir bunu knyaza..

**Çuxa**, *is.* Qafqazlıların o cümlədən də azərbaycanlıların üstündən geydikləri, beli büzməli, uzun kişi geyimi.. Əlimdə tikdiyim bax bu ağ çuxa. – Ağ çuxaçı vəznəlidir bizim Aslan. – O baftalı çuxası.

**Çuxur**, *is.* Yer səthindən aşağı çökmüş yer; oyuq, çala. Günəşin altında od tutub yanar; Batıqlar, çuxurlar, keçəl təpələr… – Qazılmış bir çuxura o yerləşdi..

**Çuxurluq**, *is.* Çuxur yer, çalalıq. – Şair! O gördüyün çuxurluğa bax!

**Çul**, *is.*: çul kimi döşənmək (sərilmək) – yerə sərilmək; yerə sərilib qalmaq. Çul kimi döşənib yorğun düşərdik… – Çul kimi torpağa sərmişdi məni..

**Çulğamaq**, *f.* Qaplamaq, bürümək, basmaq. Səhərdir, günəşin rəngi sapsarı; Sarılıq çulğamış ağ buludları. – [Cəlal:] Göyləri çulğayan o qara bulud.

**Çuval**, *is.* 1. Böyük kisə, xaral. Nə çuval dibində bir arpa vardır..

2. Tutum. Bir də, söz çuvalı deyilik ki, biz!

◊ Saman çuvalı (başı, beyni) – kütbeyin, başıboş, ağılsız, axmaq. Beyni saman çuvalıdır..

**Çünki**, *bağl.* 1. Ona görə ki, bundan dolayı, bu səbəbdən. Çünki insan yaranır insana dost olmaq üçün. – [Xosrov:] Çünki şöhrət hara, səadət hara?..

2. Bir halda ki, madam ki. Çünki boşdur nalə qılmaq, çünki boşdur ahuzar; Göz yaşından gözlənən məlhəm mahal olsun gərək! – Çünki yalvarmadım və diz çökmədim; Gözümdən od kimi yaşlar tökmədim.

**Çürük**, *sif.* Çürüyüb xarab olmuş, çürümüş. Qoy qarımış kapitalın; Çürük və laxlamış dişləri ağarsın..

**Çürümək**, *f.* Mikroorqanizmlərin təsiri altında pozulub xarab olmaq; yox olmaq. Babamın ağ sümükləri çürümüşdür bu torpaqda.

**Çürütmək**, *f.* 1. Çürüməsinə səbəb olmaq... Xəstəlik çürüdür ağaclıqları.

2. *məc.* Əzab içərisində məhv etmək. İnsanlar ömrünü çürüdür bəzən...

# D

**Da (Də)**. 1. Danışan şəxsin məsələyə münasibətini, hiss və həyəcanını bildirməyə xidmət edən və çox vaxt yerindən və məna çalarından asılı olaraq müəyyən intonasiya ilə deyilib aşağıdakı vəzifələrdə işlədilən ədat.

1) Özündən əvvəl gələn sözün mənasını qüvvətləndirir, nəzərə çarpdırır və ayırır. [İbrahim xan:] Yenə də şikayət? Gəl inan ki sən; Nə qədər mən sağam, kef görəcəksən. Yaşayan bir təhər, bu da zamandır.

2) İntonasiyadan asılı olaraq, danışanın bir şeyə müsbət və ya mənfi münasibətini bildirir. Onu da çox gördün axırda bizə.

3) «Əlbəttə» mənasında (görünən, yaxud görüləcək bir işə haqq qazandırır). [Valentin:] Filosof, adı da…

4) «Dəxi», «Hələ də», «Bir də» mənasında işlədilir. Bu dünya durduqca o da var olsun!

2. Həmcins üzvlü cümlələrdə həmcins üzvləri, tabeli mürəkkəb cümlələrdə isə baş və budaq cümlələri bir-birinə bağlayan və aşağıdakı mənaları ifadə edən bağlayıcı.

1) Hər isti yazın da, soyuq qışın da. Ağsaçlı, birçəkli zənci qarı da.

2) Şərt şəklində olan cümləni başqa sözlə bağlayıb ikinci cümlənin birinciyə qarşı olduğunu bildirir. Qızılı udsa da qara torpaqlar; Yenə qiymətini özündə saxlar.

3) Həmcins üzvləri bir-birinə bağlayır. Xatirə tək sönüb gedir o məkan da, zaman da. Bakı! Bakı! – deyir Muğan da, Mil də.

4) «Habelə», «dəxi» mənasında işlədilir. İşıqla gün doğur, yağış da yağır.

**Daban**, *is.* 1. Dabanda – tüfəng, tapanca kimi silahların çaxmağı, tətiyi çəkilib atmaq üçün hazır vəziyyətdə olduğu hal. Tüfəngin dabanda bir döyüşçüsən.

2. Qapının, pəncərənin, darvazanın alt tərəfində olub, çərçivəyə girən və yuvasında fırlana bilən çıxıntı; rəzə, həncamə. Dağ kimi tərpənir durduğu yerdən; Dabandan qapını oynadıb qırar.

**Dad**, *is.* 1. *məc.* Ləzzət, nəşə. Deyirlər, şirindir busənin dadı. Vüsalın dadı yox, hicran görməmiş. □ Dad vermək – ləzzət vermək, nəşələndirmək. Onlara dad verir xumarlar kimi.

2. *məc.* Xoş hiss, ləzzət. Ana nəfəsinin özgə dadı var. □ Dad vermək – xoşa gəlmək, ləzzət vermək. Bahar nə xoş gəlir, ruha dad verir.

**Dadanmaq**, *f.* Öyrəşmək, adət etmək. İndi haman bülbül sizə dadanmış.

**Dadılmaq**, *f. məc.* Dadına baxılmaq. Həyat da romandır... tez-tez dadılır; Gah şirin, gah acı səhifələri.

**Dadlı,** *sif.* Xoşagələn, ləzzətverən, ruhuoxşayan, ürəyəyatan, xoş, şirin. Bir əfsanə qədər dadlı sözlərin.. Rəqib imiş ona dadlı xəyalı.

**Dadmaq**, *f. məc.* Sınamaq, təcrübədən keçirmək, duymaq, hiss etmək. Görünür dadmamış qüvvətimizi. Dadsın hər arzunun yüz nemətini.

**Dağ**, *is.* 1. Yerin hündür, dik, yamaclı və zirvəli hissəsi. Göylərə baş vuran bu qəlbi dağlar.. Şirvan dağlarını üstdən aşaraq. □ Dağ başı – dağın ucu, ən hündür yeri. Yenə dağ başını duman, dağ alır. Dağ döşü – dağın ön və orta tərəfi, azca mail səthi; doğdöşü. Dağlar döşündəki şır-şır bulaqlar... Bükür dağ döşündə boynunu maral.. Dağ sinəsi – *bax* dağ döşü. Bu dağların snəsində neçə min il bundan qabaq. Dağın üstü – *bax* dağ başı. Qoy Sarvan işləsin, dağın üstədik; Qızıl bayrağı da yelləsin külək. Dağ havası – təmiz hava, insan sağlamlığı üçün xeyirli, oksigeni çox olan hava. Səndə dağ havası duyuram, inan!

2. *məc.* Möhkəm, əzəmətli, sarsılmaz (çox zaman «kimi» qoşması ilə işlənir). Sellərin önündə durur dağ kimi.

3. *məc.* Qəm, qüssə, kədər. Yaman olur hicran dağı. □ Dağ ağırlığında dərd – çox böyük dərd, kədər, qüssə. Dağlar ağırlığında dərdim var mənim.

◊ Dağ aşmaq – çox zəhmət sərf etmək. Mən də, qardaş, sənin kimi dağ aşmalıyam. Dağ boyda – 1) çox iri, çox böyük, nəhəng. Dağ boyda tankı da tərpədir yerdən; 2) çox ağır. Çılpaq çiynimizdə dağ boyda. Dağ olmaq – dağ kimi hündür olmaq, çox bir-birinin üstünə yığılmaq. Qoca Kürün qabağında dağ olur torpaq. Dağ yarmaq (uçurmaq) – «Fərhad və Şirin» poemasının qəhrəmanı Fərhad kimi igidlik, qəhrəmanlıq göstərmək. O da Fərhad kimi dağ uçurur. Bizim dağlar yaran haqq səsimizdən; Əsdi Qış sarayı, əsdi padşah da. Dağ üstə dağ qaldırmaq – çox böyük iş görmək, hünər göstərmək, çox ağır, böyük işin öhdəsindən gəlmək. Dağı dağ üstə qaldırır insan. Dağı dəlmək (əritmək) – *bax* dağ yarmaq (uçurmaq). Siz ey Fərhad kimi dağı dələnlər. Əridəcək Sarvan dağı. Dağlara arxalanmaq – bütün varlığı ilə müdafiə etmək, himayə etmək. Dağ olsan da sən dağlara arxalanmasan; Parça-parça sovuracaq səni küləklər.

**Dağ-dağ**, *z.* 1. Dağ kimi uca, çox yüksək. Coşur dalğa-dalğa, ucalır dağ-dağ.

2. Bu dağdan o dağa, bir-bir dağları. Gəzər dağ-dağ, təpə-təpə.

**Dağ-daş**, *is.* Yolu olmayan, yaşamaq üçün yaramayan təpəlik və daşlıq ərazi. Kur çayları, dağı-daşı aşıb gələr. // Ümumiyyətlə dağlıq, təpəlik, qayalıq. Seyr eləyim dağı-daşı. Hər dağa-daşa zəfərlər yazdıq: Salam, Azərbaycan! // *məc.* Cansız təbiət. Qanad verir dağa-daşa; Ana yurdun havaları.

**Dağ-dərə**, *is. Bax* dağ-daş. Dağ-dərə tutmayır o qoçaqları.

**Dağgövdəli**, *sif.* Yekə, böyük, zorba, azman. Uzunboylu, alagözlü, dağgövdəli birisi.

**Dağılmaq**, *məch.* 1. Sökülmək, uçulmaq, alt-üst olmaq, xaraba hala gəlmək. Qoca bir bənna dağılmış bir evi qurur yenidən.

2. *məc.* Yavaş-yavaş seyrəkləşmək, yayılaraq yox olmaq, çəkilib getmək. Buludlar dağılır uzaqda lay-lay.

3. Pərakəndə halda tökülmək. Dağılmış saçları o gül üzünə.

4. Müxtəlif tərəflərə getmək, hərə bir yana getmək; dağılışmaq. Əlvida! – deyərək dağılır hamı.

5. Yayılmaq, eşidilmək. Polad motorlardan dağılan səda; Göy gurultusu tək gəzir havada. Ətirlər dağılır xoş nəfəsindən.

6. Səpələnmək, müxtəlif tərəflərə getmək. Maşınlar, insanlar dağılır düzə; Çoxalır səhrada gediş-gelişdə. Köçəri quşlar da uçub dağıldı.

7. *məc.* Qurtarmaq, sonu çatmaq. Yıpranmış bir dəmət kimi dağıldı hicran. Başımdan dağılır qəm də, möhnət də.

8. Əmr şəklində – dağılsın! – xaraba qalsın! Məhv olsun. Söyləmərəm ki, dağılsın bu kəndi.

**Dağınıq**, *sif.* Qeyri-müəyyən, rabitəçiz. Xəyalı dağınıq mənzilə gəldi.

**Dağıstanlı**, *sif.* və *is.* Dağıstanda yaşayan əhalidən olan. Dağıstanlı Süleymanı – o ağsaçlı aşiqi biz dinləyiriz.

**Dağıtmaq**, *f.* 1. Sökmək, uçurmaq. Qayalar dağıdıb, yollar çəkirəm. // *məc*. Bu qürbət məni dağıtdı, sökdü.

2. Qovmaq, pərən-pərən salmaq, dağılıb getməyə məcbur etmək. Sən dağıtdın yurdumuzdan hər azğını, hər alçağı.

3. İşlətmək, geymək, sürtmək və s. nəticəsində yırtmaq, cırmaq, yararsız hala salmaq. Köhnə mitilləri dağıdıb sökür. // Ümumiyyətlə yırtmaq. Bütün maskaları dağıtmasaq biz; Faydasız qalacaq mübarizəmiz.

4. Müxtəlif tərəflərə yaymaq, intişar etmək, saçmaq. O şad olur, o sevinir balasının hünərindən; Günəş qalxıb nur dağıdır ona vətən göylərindən.

5. Səpmək, tökmək. Adsız ölən igidlərin o pərişan məzarına; Çiçək səpir qucaq-qucaq, gül dağıdır ətək-ətək.

**Dağlaləsi**, *is.* Əksərən dağlarda bitən soğanaqlı çiçək bitkisi. Dağlaləsi açılmışdır yanaqlarında.

**Dağlamaq**, *f. məc.* Adətən «sinə», «qəlb», «ürək» sözlərilə – çox bərk təsir etmək, dərd və kədər vermək, yandırmaq, yaralamaq. Qanun sinəmizi şişlə dağladı.

**Daha**, *əd.* 1. Sifətlərdən əvvəl gələrək çoxaltma dərəcəsi əmələ gətirir. Daha xoşbəxt edəcəksən məni sən. Bu gün daha bəxtiyardır sinəmdə ürək.

2. Artıq, bundan sonra. Könül! Daha kimsəsiz gəz.

3. Çox, artıq. Mən də bu gün çox yazmışam, yorğunam daha.

4. Feillərdən sonra gələrək işin qurtardığını bildirir. Bəsdir! Vuruşmaqdan yorulduq daha. Sən də sağ ol, qoca çoban! Vaxt ötür daha. // Eyni mənada feillərdən əvvəl işlənir. Aygün, daha yığış, yetişdi zaman. Yox, daha qalmadı səbrü qərarım.

5. Bəzən «bir» sözü ilə bundan sonra, bundan belə mənasında işlənir. Hpyqırmaz bir daha nərə çəkərək. Getdi… Gəlməsə də onlar bir daha..

**Dahi**, [ər.] 1. *İs.* Xariqüladə ağıl və zəkaya malik olan şəxs. Bir dahi demiş ki, mən də insanam. Nəbilər, dahilər,

ərlər, ərənlər; Həyat meydanında çapmış atını. // *sif.* mənasında. Görürəm, dalğındır bu dahi şair.

2. *sif.* Dahicəsinə, dahiyanə, dahilərə yaraşan bir tərzdə. İndi hər vətəndaş düşünsün dərin; Gəlsin xatirinə dahi sözlərin.

**Daxil**, *is.* [ər.] daxil olmaq – girmək, içəri keçmək. Papağını başdan alıb daxil olur mavzoleyə.

**Daxili**, *sif.* [*ər.*] Bir dövlətin, idarənin, təşkilatın və s.-nin öz daxilindəki həyat və fəaliyyətə aid olan (xarici ziddi). Daxili vəziyyət belədir, düzü.

**Daxma**, *is.* Daş, palçıq və s.-dən tikilən təkotaqlı, balaca, yastı, ibtidai ev. Çin qızı, hind qızı öz daxmasında. Ömrümüz daxmalarda keçdi.

**Daxmacıq**. «Daxma»dan kiçik. Yox! Bəlkə də bu torpaqdan daxmacıqda sən; Bir kitabca vərəqləyib məni anırsan?!

**Daima**, *z.* [ər.] Həmişə, hər vaxt, arasıkəsilmədən. Var olsun daima yaradan. Əlin! Didildi daima ixtiyarımız.

**Daimi**, *bax* daima. Bir düşün, Vaqifa, daimi gülər. Cahan daimidir, ömür amanat.

**Dal**, *sif.* 1. Ardında olan, arxasında yerləşən; arxa. Gəlir bizim bu qəhrəman; Dal çərgədə əyləşir.

2. Dalda şəklində – xəlvətdə, gizlində, başqasının yanında olmayan. Üzüm.. gülürsən; Dalda paxıllıqdan yanıb ölürsən.

**Dalamaq**, *f. məc.* Qapmaq, dişləmək. Faşist gəlir quduz kimi; ..Dörd tərəfi dalayır.

**Dalan**, *is.* İki qonşu ev arasında olan və bir tərəfi həyət qapısına çıxan dar yol. İndisə bax, nələr deyir dar dalanlar. O, qaranlıq bir dalanda açdı səhəri.

**Dalaşdırmaq**. *Bax* döyüşdürmək. Xoruz dalaşdırar, qoç döyüşdürər.

**Dalaşmaq**, *qarş.* Savaşmaq, vuruşmaq, dava eləmək. Canım, dalaşmayın, mən gedim. Gülpəri də dolaşmışdır ərilə.

**Dalbadal**, *z.* Bir-birinin dalınca, bir-birinin ardınca; ardıcıl. Qatarlar, avtolar gəlir dalbadal.

**Dalğa**, *is.* 1. Su səthinin hərəkəti nəticəsində əmələ gələn böyük ləpə. Həmdəmim ləpələr, göy dalğalardır. Axar Kürün silsiləli dalğalarında.

2. *məc.* Hərəkət edən kütlə, camaat, izdiham. Bu gün mən də bu dalğanın içindəyəm. Tətilmi? Üsyamlı? Nədir o dalğa.

**Dalğa-dalğa**, *z.* 1. Dalğalar şəklində, dalğalanaraq; ləpə-ləpə. Dalğa-dalğa, ləpə-ləpə; Aşıb-daşır, daşıb-aşır.

2. Dalğalanaraq, küləyin təsirilə dalğa kimi tərpənərək, enib-qalxaraq, yellənmək. Mən baxıram dalğa-dalğa; Keçən qızıl bayraqlara.

3. *məc.* Çox, çoxlu. Baxışlardan dalğa-dalğa, bulud-bulud heyrət yağır. Nədir gözlərdəki dalğa-dalğa qəm?

4. *məc.* Dalğalar halında, arasıkəsilməz axın halında, bir-birinin ardınca. O xoşbəxt gecənin o xoşbəxt səsi. Axıb dalğa-dalğa yayıldı göyə.

**Dalğalandırmaq**, *f.* Hərəkətə gətirmək, tərpətmək. Dalğalandır! Dalğalandır! Göy havanı.

**Dalğalanmaq**, *f.* 1. Suyun üzərində dalğa əmələ gəlmək, təlatüm etmək; ləpələnmək. Dalğalanan Volqa.

2. (*fiz.*) Yayılmaq, intişar etmək. Berlinin qəlbində səs dalğalanır. Dalğalanır tarın səsi.

3. Yellənmək, hərəkətə gəlmək. Yenə dalğalanır bizim bayraqlar. Dalğalan, bayrağım, qayna, dalğalan!

4. *məc.* Hərəkətdə olan kütlə, camaat, izdiham, axın mənasında. Moskva hərgünkü kimi; İnsan dalğasılə dalğalanırdı.

5. *məc.* Yel əsdikcə dalğa kimi tərpənmək, yellənmək. Otlar dalğalanırdı. Gözəl çiçək, dalğalanır dağ döşü.

**Dalğalı**, *sif.* 1. Dalğası olan, təlatümlü; ləpəli. Dalğalı çayları keçdik ayaqla.

2. Dalğa şəklində görünən, dalğaya oxşayan; dalğavarı. Dalğalı saçları ağarmış qarla.

3. *məc.* Həyəcanlı, coşmuş, hirsli, coşqun gedir o dalğalı, o hirsli axın.

4. *məc.* Fikirli. Mariya, dalğalı ala gözlərin; Axardı daima ulduzlar kimi.

**Dalğatelli**, *sif.* (*məc.*) Teli dalğaya oxşayan, dalğa kimi teli olan. Dalğatelli axar çaylar.

**Dalğın**, *sif.* Dərin fikrə batmış, çox fikirli, fikri bir şeylə məşğul olan. Zənci dalğın… Salon səssiz. Ah, o dalğın gözlərdəki; Nə ümiddir? Nə xəyaldır? // *mənasında*. Nə mənalar oxuyuram dalğın baxan o gözlərdə. Səhər! Səni dalğın görəndə bir an.

**Dalıb-düşünmək**, *f.* Fikrə dalmaq, düşünmək, fikrə getmək. Dalıb-düşünürkən öz otağında.

**Dalınca**, *z.* 1. Ardınca, arxasınca, izincə, izləyərək, təqib edərək. Ülkərin dalınca Aygün də qalxdı; Əmirxan bu dəfə Əlyara baxdı.

2. Bilavasitə sonra, ardınca, ara vermədən. Yağışın dalınca bərk gəldi qarda. Fəsillər dalınca keçən fəsillər.

**Daloy**, *rus. dan.* Rədd olsun, yox olsun. Daloy qəlbini proletarın qəlbi kimi duymaram. Mən – daloy istismar! Deyə qızıl süngünü soxmalıyam piyli və yekəqarınlara!

**Dam**, *is.* 1. Ev, bina, tikili. Atam oldu torpaq damda. Görürsən yüzillik torpaqlı bir dam.

2. Evin, binanın, tikilinin örtüsü; üstü. Çardaqlı damlar xəyalı küsdürür.

**Damaq**, *is.* [*ər.* dimaq – beyin]: damağı çağ – kefi kök, kefi saz, şad, qayğısız. – Əli bəy necədir? Damağı çağdır. Kefim kökdür, damağım çağ.

**Damar**, *is.* 1. Canlıların bədənində içərisində qan və ya limfanın dövr etdiyi boruşəkilli orqan. Bu gün damarlarımı dolaşan bu qan; Heç də dünənkinə dənzəmir, inan! Gördüm damarlarımı dolaşan o köhnə qanın..

2. *məc.* Bir şeyin əsası, mərkəzi, canı. Yerin damarlarımı sökən hər traktor köməyidir elin.

◊ Damar(lar)ında qan donmaq – qorxudan, dəhşətdən donub qalmaq, bərk qorxmaq. Donar damarlarda qan da.

Bir ovuc damar, bir parça ət – çox arıq adam haqqında. Bir ovuc damarsan, bir parçacıq ət...

**Damar-damar**, *z.* Bir damardan o biri damara. Nədir damar-damar dolaşan bu qan?

**Damcı**, *is.*: bir damcı – çox az, bir zərrə, cüzi. İçək, bir damcı da qalmasın gərək. Hər damcı – hər kiçik hissə. Hər damcı qüvvədir bir daşqın selə. Bu adi su deyil, abihəyatdır; Bunun hər damcısı bir kainatdır.

◊ Damcı boyda – çox kiçik, çox balaca. Damcı boyda görür dənizi.

**Damcıcıq**, *is.*: bir damcıcıq – kiçik damcı. Can qardaşım! Görsə gözüm bir damcıcıq saf qanını; Min şairin qüvvətilə yazacağam dastanını.

**Damdan-dama**, *z.* Bir damdan obiri dama, bir evdən obiri evə. Damdan-dama haray saldı nağaralar.

**Damlacıq**, *is.* Kiçik damla, kiçicik damcı. Dünya görməmişdi bir damlacıq qan.

**Damla-damla**, *z.* Damla halında, damcı-damcı; az-az, azca-azca. Əsgər kişi, and da içdin şəhid olmuş o qıza sən; Damla-damla göz yaşları axıtmadın gözlərindən.

**Dan**, *is.*: dan yeri – dan işığının göründüyü yer; üfüq. Dan yerinin şəfəqləri; öpür onu ana kimi. Dan əsri ağarmaq (sökülmək) – sübh açılmağa başlamaq. Dan yeri yenicə sökülən zaman; Mən yenə keçirdim o göy tarladan. Görürəm dan yeri yenə sökülür. // *məc.* Gözlərdəsə səhər-səhər; Bir dan yeri sökülür. Dan sökülmək – *bax* dan yeri sökülmək. Muğan səhrasına dan söküldükcə. // *məc.* Dahilərin gözlərində dan sökülür. Dan yıldızı (ulduzu, ülkəri) – Zöhrə ulduzu, Venera. Parladı gün kimi o dan yıldızı. // *məc.* Şirin ana yurdun doğma qızıdır; Bizim bəxtimizin dan ulduzudur. ..Baxtımızın dan ülkəri. Dan üzü – dan vaxtı, sübh tezdən, ala qaranlıq. Gah tər qarışanda, gah da dan üzü.

**Dana**, *is.* Bir yaşdan iki yaşa qədər olan inək balası. Ha!.. ha.. ha! Qaçmışdır kələbaş dana!

**Danışdırmaq**, *icb.* 1. Danışmağa məcbur etmək... Danışdırdın Nizamini öz dilində. Onu danışdıran meyxana imiş // Sorğu-suala tutmaq, dindirmək, soruşmaq. Ata kimi danışdırıb hər bir nəfəri.

2. *məc.* Çalmaq, dilləndirmək, oxutmaq. Arabir də pianonun ağ dillərini; Danışdırır, min zövq alır, onun səsindən; Qoy gözümün önündə el aşığı danışdırarkən sazını.

**Danışıq**, *is.* 1. Şifahi fikir mübadiləsi; söhbət. Odur kolxoz gənclərinin danışıqdan dirisi.

2. İki tərəf arasında bir şey haqqında fikir mübadiləsi; müzakirə. Nazir özü danışığa dəvət elədi.

**Danışılmaq**, *məch.* Söylənilmək, deyilmək, söhbəti getmək, bir şey haqqında söhbət etmək. Onun boyu və saçları danışılır ağız-ağız.

**Danışmaq**, *f.* 1. Sözlə ifadə etmək, bildirmək, anlatmaq, demək, nəql etmək, söyləmək. Astadan danışır gur səsimiz də. Çox danışır hünər haqda. // *məc.* Elə bil dil açıb danışır torpaq. Yox, yox! Danışmayır, dinməyir göylər. // Dinmək, söz söyləmək. Ancaq danışmadı, dinmədi yenə.

2. Söhbət etmək. Gör nələr danışır ağıllı təlxək. Vaqif! Danışmadıq heç Əli bəydən.

3. Fikir söyləmək, mühakimə, yürütmək. Qoy sənin adından danışsın qələm.

4. Bildirmək, xəbər vermək. Mətləbini danış gedək. Yerini bilirsən? Di tez ol, danış.

5. Telefonla əlaqə saxlamaq, zəng etmək. Allo! Allo! Danışır Moskva!

6. Çıxış etmək, nitq söyləmək. Gözəldir avazın, xoşdur nəfəsin; Coşub tribunadan danışanda sən.

7. Çalınmaq, ifa edilmək. [Pianoda] danışır şirmayı dillər.

8. İşləmək, deyilmək *(radio haqqında)*. Danışdı radio Çindən, Əfqandan.

9. Fikir söyləmək. Aha… bundan danış… danış görüm sən.

**Danlamaq**, *f.* Töhmət etmək, məzəmmət etmək. Əmirxanı danlamadı bircə kərə də. Qoy məni danlasın hər yeni insan.

**Danmaq**, *f.* 1. İnkar etmək, boynuna almamaq, boynundan atmaq. O verdiyi sözü dandı.. // Bir şeyin mövcud olduğunu qəbul etməmək, rədd etmək, inkar etmək. Kosmopolit səni dandı..

2. Gizləmək. Sən deyilsənmi bu aləmdə bütün xeyri danan.

**Dar[1],** *sif.* 1. Ensiz (enli ziddi). Nəzir bu dolaşıq, bu dar dalanlar? Səsə düşür dar dərələr.

2. Kiçik, balaca (böyük ziddi). İşıqsız, istisiz dar mağaralar; Günün şəfəqilə boyansın, dedi. Sizə darlıq olar, daxmamız dardır.

3. *məc.* Sıxıcı, gen-bol olmayan. Qəlbim sığışmayır dar saraylara.

4. *məc.* Cılız, kiçik, balaca. Özü qorxaq, qüssəsi dar.

5. *məc.* Çətinlik, çətin vəziyyət, acınacaqlılıq. ..Qəhrəmanım dardadır. // Azlıq etmə, çatmama, kifayət qədər olmama. Könülmü dustaqdır? Havamı dardır? Of… bu yerlər yazıq ruhuma dardır.

6. *məc.* Əhatəsi geniş olmayan, məhdud, birtərəfli. tarimar düşüncəm, dar xəyalım var. Fikri dar, qəlbi dar, acgöz, acgödən.

◊ Dar kəsilmək – *bax* dar olmaq. Bir şey vursam, bu gün dünya düşmənlərə dar kəsilər. Dar gün – həyatın çox çətin, çox ağır, böhranlı, məhrumiyyətlərlə dolu vaxtı. Aygün alıb çağasını bağrına basır, Analara təsəllidir dar gündə çağa. Doğmalar dar gündə yad ola bilməz. Dar gəlmək – 1) yerləşməmək, sığmamaq, sığışmamaq. Hər gölün yatağı ona dar gəlir. Əyninə dar gəldi geydiyim paltar; 2) uyğun gəlməmək, bir-birinə uyuşmamaq. [Xoş hala] O sınıq ruhuna yenə dar gəlir. Dar olmaq – *bax* dar gəlmək. Fransanın qəlbinə köksü dar oldu. Dara düşmək – çətin vəziyyətə düşmək, işi çətinə düşmək. [Hürmüz:] Dara düşdükcə, oğul, başqasının qeydini çək! Darda qalmaq – çətin vəziyyətdə

qalmaq, çıxılmaz vəziyyətdə qalmaq. İki qardaş qaldı darda. Kasadlıq çəkməyir, qalmayır darda. Dardan qurtarmaq – çətin vəziyyətdən qurtarmaq, sıxıntıdan azad olmaq. Qurtarmaq istəyir səni bu dardan. Nə qədər qurtardın sən məni dardan.

**Dar**[2]**,** *is.* [*fars.*] Edama məhkum olunanları asmaq üçün dikəldilən ağac (bəzən «dar ağacı» kimi işlədilir). Nədir o dar ağacları? Qaçıb qurtarmışam dar ağacından. □ Dar ağacından asılmaq – dar ağacından asılmaqla edam edilmək. Asıldıq hər zaman dar ağacından. Asılacaqsınız dar ağacından. Dara çəkmək – dar ağacından asmaqla edam etmək. İnsan donlu iblisləri; Boğazından çəkək dara.

**Daraq**, *is.* Silahın (tüfəngin və s.) sandığına keçirilən patronları yan-yana qoymaq üçün qab, qutu. İgidlər də boşaldacaq tüfənginin darağını. Mən dünəndən doldurmuşam patronumun darağını.

**Daralmaq**, *f.* Qurtarmaq üzrə olmaq; məhdudlaşmaq, qısalmaq. Sonra kecikərik, gün də daralır.

**Daramaq**, *f.* Daraqdan keçirmək, darayıb təmizləmək *(yun haqqında)*. Bişir, düşür, yama, dara.

**Daranmaq**, *məch.* Daraqla bir-birindən ayrılıb nizama salınmaq; düzəldilmək. Daranmış saçları ənbər qoxuyur. Daranmış saçları bir sünbül kimi.

**Daraşmaq**, *f.* Bir şeyin üzərinə qonmaq, toplaşmaq, yığışmaq. O daraşır qızıl gülə.

**Dargözlü**, *is.* Paxıl, gözü götürməyən adam Qoy utansın dünyamızdan dargözlülər. Deyinməsin dargözlülər, bilir insan; Paxıllıq da bir qurdudur rəzalətin.

**Darğa**, *is.* [monq.] Keçmiş zamanlarda vergi yığmaq üçün hakim, hökmdar, xan və s. tərəfindən, vergiləri yığmaq üçün göndərilən məmur. Taladı qurd kimi eli darğalar.

**Darğın**, *sif.* İncik, dərdli, küskün, pərişən, pərt. Böyük bir şairin darğın xəyalı; Vətən çöllərini pərişan gəzir.. // *məc.* Zamanın qəlbi darğındır.

**Darıxmaq**, *f.* 1. Sıxılmaq, canı sıxılmaq, bıqmaq, bezmək, təngə, gəlmək, narahat olmaq. Heç darıxma, gül-çiçəyim. // Vidadi, darıxma, bizdə məsəl var.

2. Özünü pis hiss etmək, sıxılmaq. Bürküdən darıxır, sıxılır Muğan. Of, darıxır lap üəyim..

**Darılmaq**, *f.* Ürəyi sıxılmaq, kədərlənmək, məyus olmaq, incimək. Özünü toxtaq tut bir az; Düşəndə dar günə insan darılmaz. // *məc.* Darılmışdır üfüqlər. // ürəyi sıxılmaq, kədərlənmək, məyus olmaq, incimək. Özünü toxtaq tut bir az; Düşəndə dar günə insan darılmaz.

**Darısqal**, *sif.* 1. Çox dar, ensiz. Yerliyi darısqal, içi bürkülü.

2. Sahəsi çox kiçik olan. Yer darısqal, hava tozlu, nəfəs durur, can sıxılır.

**Darkeçidli**, *sif.* Keçidləri dar olan, dar olduğu üçün çətin keçilən, dar. Doldu darkeçidli sokaklara üsyançıların alayı.

**Darlıq**, *is.* Yer, sahə azlığı, darısqallıq. Sizə darlıq olar, daxmamız dardır..

**Dartmaq**, *f.* 1. Bir şeyi əli və ya başqa şeylə tutub özünə tərəf və ya kənara çəkmək. Dartaraq heyvanın buynuzunu sən; Çəkib çıxarmısan onu dibindən.

2. Gərmək, tarım çəkmək, tarımlaşdırmaq. Cilovu dartaraq at.

**Dastan**, *is.* [*fars.*] 1. Şifahi xalq ədəbiyyatının epik janrları içərisində qəhrəmanlıq və aşiqanə məzmunda olan həcmcə ən böyük əsər. Ağlatmayır insanları; «Leyli Məcnun» dastanları. Dastanlar eşitdim qoç Koroğludan.

2. Hekayə, povest, poema. «Muğan» dastanını iki il qabaq. Sətirlər yığışıb bir dastan olur.

3. Əfsanə, macəra, sərgüzəşt. Nə bir əfsanədir, nə də ki dastan. Mənim də öz dastanım var, mənim də macəram vardır.

◊ dastan demək – dastan yazmaq, dastan yaratmaq. ...gözəllərə dastanlar dedin. Dastan yazmaq – *bax* dastan

demək. Sənin dastanını mən yazacağam. Yazdıq illər boyu dastanımızı.

**Daş**, *is.* 1. Təbiətdə parçalar, yaxud böyük və kiçik kütlələr şəklində təsadüf olunan, suda həll olunmayan bərk süxur (cisim). [Fərhad:] Hər daşın altına bir külüng çaxdım // Həmin süxurun tikinti materialı kimi işlədilən ayrı-ayrı kiçik parçası, hissəsi. Daş yonub, qum yığan qoca bir usta.

2. Kitabə, başdaşı, qəbirdaşı. Ağ mərmərdən yondurduğu məzar daşında..

3. *sif.* mənasında daşdan tikilmiş, daşdan düzəldilmiş. Min il daş məbədlər, o daş Allahlar. □ Daş Allah – daşdan yonulmuş büt. Min il daş məbədlər, o daş Allahlar.

4. Bəzək üçün işlədilən firuzə, yaqut, almaz, brilyant və s.-yə verilən ümumi ad; qaş-daş. Fontan buruqları, mədən daşları.

6. *məc.* Hissiyyatsız, heç bir şeydən təsirlənməyən adam haqqında. Nə var ki, mən daşam, yoxsa torpağam.

7. Daş olan yer, daşlıq ərazi; daşlıq. Yatağımız daş, qaya; Yurd salırıq o yerlərin torpağında, daşında.

◊ Daş ərimək – çox zülmün, əziyyətin nəticəsi olmaq. Qoyun bir ah çəkim, ərisin daşlar! Daş doğmaq – zalım, zülmkar bir adamın doğulması mənasında işlədilir. [Hürmüz:] Niyə daş doğmadı, zalım, səni xəlq etdi anan. Daş əsri *(tar., arxeol.)* – ibtidai icma quruluşunun, daşdan müxtəlif alətlər hazırlanması ilə səciyyələnən dövrü. Bizə daş əsrindən bir yadigardır. Daş qəlb (ürək) – zalım, rəhmsiz, mərhəmətsiz. Nə qədər soyuqdur daş ürəyiniz. Zülmətlərin daş qəlbini nizə kimi dəlib keçir. Daş üstə daş qoymaq – tikmək. Daş üstə bir daş da qoymadı, getdi. Daş üstündə daşını qoymamaq – sökmək, xaraba qoymaq, dağıtmaq. Nəsillərim qoymayacaq daş üstündə daşını. Daşa dil vermək – canlandırmaq, ruhlandırmaq. O, daşa dil verir, torpağa qanad. Daşa dönmək – 1) çox qalmaqdan daşlaşmaq, daş kimi olmaq. Arçan ağac daşa dönmüş, fəqət torpaq olmamışdır; 2) hissiyyatını itirmək, gücdən düşmək. Bu gün

sana soyuq baxan gözlər daşamı döndü? Daşdan keçmək – çox təsirli olmaq, hər yerdə işə keçmək. ..Haqq söz keçər daşdan. Daşdan çörək çıxarmaq – çox çətinliklə, ağır zəhmətlə dolanmaq. Daşdan çörək çıxardanın zəhmətini; Öz əlinlə sən qurtardın köləlikdən. Daşı daş üstündə qoymamaq – tikməmək, abad etməmək. Daşı daş üstündə qoymazdı bir an. Gərək biz qoymayaq daşı daş üstə. Daşı ətəyindən tökmək – fikrindən daşınmaq, rəyini dəyişmək, tərslikdən əl çəkmək. Oğul! Daşı tökün ətəyinizdən; Bir yaxşılıq qalsın dünyada sizdən. Daşını atmaq – azad olmaq, yaxasını qurtarmaq; əl çəkmək, tərk etmək. Bütün çətinliyin daşını atır.

**Daşa-daşa**, *z.* Daşaraq, ətrafı basaraq. Ağ dalğalar sıçraşacaq sahilləri daşa-daşa. Adım yazdır, gələndə mən axar çaylar daşa-daşa.

**Daşaynalı**, *sif.* Qalın şüşədən düzəldilmiş bahalı güzgüsü olan. [İnsanlar:] Yığılmışdıq divarları daşaynalı bir salona.

**Daşdan-daşa**, *z.*: daşdan-daşa dəymək – heç olmaq, nəticə hasil olmamaq. [Xosrov:] Daşdan-daşa dəydi bəxtimin oxu.

**Daşımaq**, *f.* Bir yerdən başqa yerə aparmaq, nəql etmək. Bir tərəfdə insan əli daş daşıyır, saray qurur.

**Daşqalaq**, *is.* (tar.): daşqalaq etmək – müttəhimi daşa basmaqla, üstünə daş yağdırmaqla cəzalandırıb öldürmək. Daşqalaq eylədi hər bir kəs məni.

**Daş-qaş**, *is.* Qiymətli daşlar, cavahirat *(brilyant və s.)*. Qızıl sırğa, gümüş kəmər, neçə daş-qaş; Düzülərmiş gözəllərin gərdəninə. Boynunda şax daş-qaşları.

**Daşqın**, *sif.* 1. Yatağından və s.-dən kənara çıxmış, ətrafı basmış. Hər damcı qüvvədir bir daşqın selə. Daşqın sular kimi qırır səddini.

2. *məc.* Coşğun, güclü, ehtiraslı. Bu daşqın həyəcan, bu qaynar həyat..

**Daşlamaq**, *f.* Daş atmaq, daşa basmaq, daşla vurmaq. İrilər sarıldı silaha, körpələr daşlaşdı..

**Daşlı**, *sif.* Daşı olan, çoxlu daş olan; içində daş, daş parçaları, qırıntıları olan. Bu daşlı, qayalı kiçicik dağa; Gərir qandını payız axşamı. // *məc.* Daşlı, tikanlıdır uğurlu yolun.

**Daşmaq**, *f.* 1. Kənarlarından çıxaraq ətrafı basmaq *(su haqqında)*. Fəlakət! Fəlakət! Yenə Kür daşır.

2. Qabın tutumundan çox olduğuna görə kənarlarından aşıb tökülmək. Qoyun, quzu bir-birinə qarışır; Qulplu qazanlardan qatıqlar daşır.

3. *məc.* Coşmaq, qızışmaq, hiddətlənmək, son dərəcə acıqlanmaq. Daşacaq Bakıda insanın sayı.

**Daşnak**, [ermə.] İfrat millətçi daşnaksütyun partiyasının üzvü. ..Basdırdıq müsavatı, daşnakı..

**Daş-torpaq**, *is.* Daş və torpaqdan ibarət ərazi; sahə. Müqəddəsdir daş-torpağı bizim yurdun.

**Dava**, *is.* Müharibə, vuruşma, döyüş. Get! Düşmənə aman vermə davada.. Axmaq bu dediyin davalarda sən. □ Dava meydanı – müharibə, cedən ərazi vuruş, döyüş meydan. [Banu:] Dava meydanında qısalt dilini. Dava meydanında bir əskərik biz.

**Dava-dərman**, *is.* [*ər.* dəva və *fars.* dərman] Dərman... Dava-dərman verməyəcək.

**Davam**, *is.* [*ər.* dəvam]: davam etmək – başladığı bir işin arasını kəsməmək; dayandırmamaq. Zənci davam edir, kövrəlir səsi.

**Davasız**, *sif.* Dərmansız, əlacsız. Təbibsiz, davasız xəstə neyləsin?

**Davasız-dərmansız**, *z.* Dərman olmadan, əlacsız, dava-dərman vermədən. Davasız-dərmansız sağaldır məni.

**Dayaq**, *is.*: yıxılanın dayağı olmaq – kömək olmaq, arxa olmaq, müdafiə etmək, dalında durmaq, himayə etmək. Kim istəməz yıxılanın dayağı olmaq?

**Dayamaq**, *f.* Dirəmək, söykəmək, kip yaxınlaşdırmaq, yapışdırmaq. Dayamış alnını soyuq şalbana.

**Dayandırmaq**, *f.* Dayanmağa, durmağa məcbur etmək; saxlamaq. Dayandıran deyiləm mən bu qatarı bir an belə.

**Dayanıb-durmaq**, *f. bax.* dayanmaq 1. Mən dayanıb-dursam bir az; Ayaqlanar qarı düşmən.

**Dayanılmaz**, *sif.* Dözmək mümkün olmayan, dözülməz, çox bərk, çox möhkəm. Dayanılmaz zərbəsilə, qızıl qana boyandım.

**Dayanmadan**, *z.* Fasilə vermədən, ardıcıl surətdə, davam etdirərək. Sən də dayanmadan dedin: – İrəli.

**Dayanmaq**, *f.* 1. Hərəkətini, işini saxlamaq, hərəkətsiz hala düşmək. Uçdu dəmiryolu, qatar dayandı. // Kəsilmək, qurtarmaq, ara vermək. Külək yatır, qar dayanır, açılır səhər. // Fəaliyyətdən qalmaq, fəaliyyətini kəsmək. Qızlar nə dincəlir, nə də dayanır.

2. Bir yerdə qərar tapmaq, gəlib bir yerdə durmaq, daha irəli hərəkət etməmək. Araz qırağında dayandı qatar.

3. Ayaq üstə durmaq. Bəzən ayna qabağında dayanıb gəlin; Öz hüsnünə dönə-dönə baxır vüqarla..

4. Gözə görünmək, nəzərə çarpmaq. Dayanmış qarşımda ölü Reyxstaq.

5. Səbir etmək, gözləmək, toxtamaq, duruş gətirmək. Pis günü daldadır, hələ dayansın.

6. Qalxmaq, yüksəlmək (adətən «ərşə», «göyə» sözlərilə). İşıq sütunları ərşə dayanır. Tüstülər ah çəkib göyə dayanır.

7. Dayan şəklində – gözlə, hərəkətini kəs. Dayan!.. Dayan!.. Oyaq gəzir hər ürəkdə bir aslan. Əsmə, dayan, ey külək!

**Dayaz**, *sif. məc.* 1. Dərin olmayan, səthi, qeyri-ciddi. Bəzən də dayaz bir əsər gözümüzə ümman görünür.

2. *məc.* Üzdən olan, dərin olmayan. Fikri, qəlbi dayazların xəyalatı dayaz olar.

**Dayı**, *is.* Qoca və ya yaşlı kişiyə müraciət edərkən və ya onun haqqında danışarkən işlədilir. Sağ ol, Əhməd dayı, kefin necədir?

**Dedikcə**, *sif.* və *z.* Olduqca, xeyli çox, son dərəcə ( çox zaman sifətin dərəcəsini gücləndirir). Şərt dedikcə azad nəslimiz. Dedikcə Gərayın sərt baxışları.

**Dehqan**, *is.* [*fars.*] *dan.* Kəndli, əkinçi, rəncbər. Böylə həyat içrə yüzdən çox yaşar; Zəhmətkeş dehqanı bizim dağların.

**Demək**[1], *f.* 1. Danışmaq, söyləmək. .. Çay üstündə nağıl deyək.

2. Çatdırmaq, yetirmək. Bu sözləri demə mənə.

3. Adlandırmaq, ad qoymaq. «Qanlı Kür» demişdir adına ellər.

4. Şeir yazmaq, nəzmə çəkmək. Di, gəl durnalara bir şeir deyək; Gələcək günlərə şeir demisən. // Çalıb oxumaq (aşıqlar haqqında). Deyirəm öz sazım, öz sözüm ilə. Səndən aşıqlar da deyib coşurlar.

4. Xəbər vermək, söyləmək. Alışan çıraqlar bizə nə deyir? Bir dahi demiş ki, mən də insanam.

5. Tez-tez demək, çox təkrar etmək. Elə durub-durub ellər, deməkdən?

6. Müraciət etmək. Dönüb «qardaş» deyir, «dost» deyir bizə.

7. Soruşmaq, sual etmək. Hamısı bir səslə deyir ki, nə var?

8. Haqqında danışmaq. Axmaq! Bu dediyin davalarda sən.

9. Deyib şəklində – xəbər vermək, söyləmək. Aqronom gedirəm, – deyib Əmirxan.

◊ Deyib gəlmək – bir şeyi nəzərdə tutub birisinin yanına gəlmək. Yenə də mən sizi deyib gəlmişəm.

Deyirlər ki – belə danışırlar ki, belə məlumat verirlər ki. Oğul! Deyirlər ki, qış bərk gələcək. Deyirlər ki, gözü varmış neçə gözəlin.

**Demək**[2], ara söz mənasında. Söylənmiş fikrə yekun vurmaq, onu xülasə etmək üçün işlənir; deməli, bundan o nəticə çıxır ki… Demək, satılırsan sən şeytanlara! Yaxşı, Əlibəyin toyudur, demək?

**Deməli**. Bax demək[2]. Ax! Namərd… Deməli, boş qaldı tabaq!.

**Deyə**, *qoş.* Səbəb və ya məqsəd bildirir. Əmirxanı oyatmayır, dincəlsin deyə; Bəzən onun nəfəsinə qulaq da asır. Mən səni sevmədim «o gözlər» deyə..

**Deyə-gülə**, *z.* Gülə-gülə, şən bir halda söhbət edə-edə. Əmirxan quş kimi qalxdı ayağa; Dostlar deyə-gülə getdilər bağa. Deyə-gülə.. biz Berlinə gedirik.

**Deyən**. *Bax* deyəsən. Aşna! Deyən, yenə sən, Deyən, qalmış orda-burda yenə vicdan oğruları.

**Deyəsən**, ara söz mənasında. Ehtimal (ki), gərək ki, görünür (ki). Yol verin, deyəsən, qonaqlar gəlir. Deyəsən, şöhrəti çox sevir qadın. // Sanki, elə bil (ki). Hə… deyəsən iş var.

**Deyib-danışmaq**, *f.* Söhbət etmək. Deyib-danışmaqdan doymamışam mən. Deyib-danışmayır xeyli zamandır.

**Deyib-gülmək**, *f.* Şən bir halda söhbət etmək, şirin söhbət etmək; şənlənmək, sevinmək. Bu şəhərdə səadətlə deyib-gülərsən. Heç kəs danışmayır, deyib-gülməyir.

**Deyil**, *əd.* Özündən qabaq gələn sözə inkarlıq, ya zidlik mənası verir. Yox, yox, işıq deyil, ürəkdir yanan. Qız deyil, pələngdir söylədi hamı. // Eyni mənada şəxs sonluqları ilə işlənir: deyiləm, deyilsən, deyildir və s. Dayandıran deyiləm mən bu qatarı bir an belə.. Vəfasız deyildin sən ki əzəldən.

**Deyilmək**. «Demək»dən *məch.* [Əhriman:] Bir əsarətdir əzəldən o məhəbbət deyilən.

**Deyinmək**, *f.* Narazılığını bildirərək danışmaq, söylənmək, şikayətlənmək. Arabir də pul üstündə evdə deyinir. Deyinir küçədə kaftar bir qarı.

**Də.** *Bax* da. Sizdə fəzilət də, ədalət də var. Siz onu sur edin, seyr edin bir də.

**Dədə**, *is.* Ata. Gərək yadındadır rəhmətlik dədən.

**Dəf**, *is.* [*fars.*] Xatəmdə və ya dəfçalanların barmaqla çaldıqları, bir üzünə dəridən sələ çəkilmiş soğanaqdan ibarət çalğı aləti; qaval. Dəf vurub, qızışıb zurnaçı həmən.

**Dəfə**, *z.* [ər.] Kəmiyyət bildirən sözlə birgə işləndikdə bir işin, hərəkətin, hadisənin hər bir, təkrarını bildirir; kərə. Buğa, bu adətdən bir dəfə əl çək!

**Dəfəcik.** «Dəfə»dən kiç. Sinəsindən açıldı qan; Son dəfəcik mavi göyə.

**Dəfələrlə**, *z.* 1. Bir neçə dəfə, təkrarən. Ona dəfələrlə söylədim ki, mən.

2. Çox dəfə, çox-çox. Bunu dəfələrlə sınamışam mən.

**Dəfinə**, *is.* [ər.] Yer altında gizlədilmiş, yaxud gizli halda qalan xəzinə. Bu yeraltı Mingəçevir bir tükənməz dəfinədir. // *məc.* Yeraltı sərvət mənasında. Biz açdıq torpağın altında qalmış; Kün üzü görməmiş dəfinələri.

**Dəfinə**, *is.* [ər.] Yer altında qalmış, yeraltı sərvət. Biz açdıq torpağın altında qalmış; Gün üzü görməmiş dəfinləri.

**Dəfn**, *is.* [ər.]: dəfn eləmək – torpağa getmək, basdırmaq. Bilirəm ki, sən cəbhədə dəfn elədin sevgilini. // *məc.* Bu günlərin qucağında dəfn edilmiş qəhrəmanlar.

**Dəftər**, *is.* [ər., əsli yun.] Əsasən obrazlı ifadələrdə işlədilir. Könül dəftərini açır ixtiyar. Sənin həyat dəftərindən nə dövranlar gəlib keçdi. ..Alın tərimlə, can dəftərimlə; Böyük etibarı doğrultmalıyam.

**Dəhşət**, *is.* [ər.] 1. Qorxu, vahimə hissi doğuran hadisə, vəziyyət, mənzərə (çox vaxt cəm şəklində işlənir). Bu nizələr, bu süngülər muzeylərdə pas tutacaq; İnsan oğlu yaratdığı dəhşətləri unudacaq.

2. Faciə, çıxılmaz vəziyyət, çıxılmazlıq (çox vaxt cəm şəklində işlənilir). [Şahbaz:] Dəhşətlər törədir insanın əli.

**Dəhşətli**, *sif.* Dəhşət doğuran, son dərəcə qorxunc; müdhiş. Yuxu dəhşətlidir, – qorxusu yoxdur.

**Dəqiqə**, *is.* [ər.] 1. Bir saatın altmışda birinə bərabər və ya 60 saniyədən ibarət vaxt ölçüsü. On beş dəqiqəyə tamamlanır, bax.

2. Az, lakin qeyri-müəyyən vaxt, an. Dəqiqələr tez ötüşür. □ Bir dəqiqə – dərhal, tez. Hər saat dolanır bir dəqiqə tək.

**Dələduz**, *is.* Fırıldaqçı, adamaldadan, hiyləgər, bic. Bəli, o dələduz? // söyüş mənasında işlədilir. Yaxşı, ay dələduz! Bir danış görək; Neçəyə satmısan yox vicdanını?

**Dələmə**, *is.* Pendir halına keçmək üzrə olan süd, pendir üçün mayalanmış süd. Qoyun sürüləri nə çox görünür; Bir dələmə tapıb içsək, pis olmaz.

**Dəli**, *is.* 1. Gic, sarsaq, ağılsız, öz danışığını və hərəkətini bilməyən adam. Bıy… dəlidir, nədir qarı…

2. *sif.* (*məc.*) Azğın, coşğun, hiddətli, şiddətli, önüalınmaz. Dəryada da qorxunc, dəli bir fırtına vardı. Dəli selli; Başı yelli; Axar çaylar.

**Dəli-dolu**, *sif.* (*dan.*) İntizamsız, danışığını, hərəkətini bilməyən; dəlibaş. Hirsli, dəli-dolu bir gəncə bənzər; Atalar demişkən, acıqlı mərddir.

**Dəlik-deşik**, *sif.* Çox deşiyi olan deşik-deşik. Dəlik-deşik bayraqların rəngi qana boyanmışdır.

□ Dəlik-deşik olmaq – çoxlu deşiklər açılmaq, çox dəlinmək. Dəlik-deşik olmuş əski qayalar.

**Dəlikli**, *sif.* Dəliyi (dəlikləri) olan; deşikli. Bağrından su sızan dəlikli daşlar.

**Dəliqanlı**, *is.* Coşğun, tezqızışan, qızğın, qudurğan, dəlibaş. Deyirlər, arabir dəliqanlıyam. // *məc.* Mənim aslan könlüm dəliqanlıdır.

**Dəllal**, *is.* [ər.]: qafiyəli dəllal – şair olmayıb şeir yazan adam, istedadsız şair. Daloy… bu qafiyəli dəllallar!

**Dəlmək**, *f.* 1. Deşib keçmək, dəlib keçmək; deşmək. Ağır qayaları, daşları dələr. ..Qayaları dələrək; Balta vurar, külüng çalar yorulmayan qolları.

2. Adətən «bağrını» sözü ilə mənən incitmək, ruhən əziyyət vermək. [Səhər:] Qüssə xəncər kimi bağrımı dəlir.

**Dəm**, *is.* [*fars.*] Qısa vaxt; an, ləhzə. Mən bu sətirləri yazdığım dəmdə. □ Bir dəm – bir vaxt, bir anlıq. Gətir xəyalına Vaqifi bir dəm; 2) heç, əsla. Gözəl üzündə bir dəm; Nə dərd görmüşdüm, nə qəm. Bu dəm – bu vaxt, bu əsnada. Bəlkə bu dəm şinelinə səpələnir qar. Hər dəm – hər dəqiqə, hər an,

hər ləhzə, həmişə, daima. Gah gülər, gah ağlayar – hər dəmdə bir mənası var.

◊ Dəm vermək – işləməyə və s. başlamaq. O axşam qızışıb dəm verdi tara. Dəm vurmaq – danışmaq, söhbət etmək. Kişilər dəm vurur pəhləvanlıqdan. Dəmə çəkmək – *bax* dəm vermək. Dəmə çəkdim bizim tarı.

**Dəmadəm**, *z.* [*fars.*] Hər an, hər vaxt, həmişə. Həyat öz atını sürür dəmadəm.

**Dəmbədəm**, *z.* [*fars.*] *Bax* dəmadəm. O, sönük hisslər əridir dəmbədəm səni.

**Dəm-dəm** [*fars.*] *Bax* dəmadəm. Qafiyə axtarıb vurnuxur dəm-dəm.

**Dəmət**, *is.* [ər.] Çiçək dəstəsi, gül dəstəsi. Yıtranmış bir dəmət kimi dağıldı hicran.

**Dəmir**, *is.* 1. Təbiətdə çox yayılmış, karbonla birləşdikdə polad və çuqun əmələ gətirən boz rəngli ağır kimyəvi element. Cansız dəmiri də əridir birdən.

2. Dəmirdən qayrılmış, dəmirdən hazırlanmış. Gedən dirəkləri, dəmir telləri.

3. *məc.* Möhkəm, yenilməz, sarsılmaz. Dəmir qolları ilə fəxr edən kütlə.

◊ Dəmir yolu – qatarların hərəkət etməsi üçün relsli yol. Kəndimizə su gəlsin, dəmir yolu çəkilsin!

**Dəmlənmək**, *f.* Keflənmək, nəşələnmək, ruhlanmaq. İçin övladlarım! Dəmlənin hər vaxt.

**Dəmyə**, *is. k.t.* Suvarılmayan yer. Günəşin altında yanan dəmyələr.

**Dən**, *is.* 1. Dənli bitkilərin məhsulunun hər bir dənəsi; ayrıca toxumu, tumu. Torpağa düşməsin havayı bir dən.

2. *məc.* Saç və saqqalda tək-tək ağ tük. Kiçik bir zeh açdı saçlarına dən; Başda çiçək açar insan hünəri. □ Dən düşmək *(saçına)* – ağarmağa başlamaq. Saçlarına dən düşməsin.

**Dənə**, *is.* [*fars.*] Səpələnən yaxud ovulan şeylərin ən kiçik hissəciklərindən biri. Səpdiyimiz hər dənədən böyük bir gülşən olur.

**Dəniz**, *is.* 1. Yer kürəsinin acı-duzlu su ilə örtülü olan və az-çox quru ilə əhatə olunmuş böyük sahəsi, okeanın bir hissəsi; dərya. Xəzər dənizindən başlayaq sözü. Baltik dənizindən Xəzərə birbaş.

2. Su anbarı, dəryaça. Bozdağın qoynunda bir dəniz vardır.

3. Yer üzündəki okean və dinzlərin məcmusu. Dənizlər fəth edib, dəryalar keçdik.

**Dənləmək**, *f.* 1. Dənli yemləri, yarpağı və s. bir-bir dimməklə götürüb yemək. Öpüb yarpağını, dənləyim bir-bir.

2. *məc.* Bir-bir qırmaq, öldürmək, tələf etmək, məhv etmək. Elə, başçıları qırıb dənləsək; Qorxudan çəkilər yerdə qalanlar.

**Dərd**, *is.* [*fars.*] 1. Qəm, qüssə, kədər, ürək acısı, mənəvi əzab, əziyyət, iztirab. Dünyada dərd varmı mənim dərdim tək? // Haqqında düşünmək lazım gələn, qayğıya səbəb olan şey; ürəyi incidən daxili sıxıntı; qayğı, qeyd. Nə çörək dərdi var, nə su dərdi var.

2. Ağrı, bədən nasazlığı, xəstəlik, azar. Saf havalar udmaq üçün, unutmaqçün dərdini.

3. *məc.* Ürəkdəki sözlər, gizli arzular; fikir, düşüncə, məqsəd. Bu xəstə Vurğunun dərdi azalmaz.

◊ Dərd yemək – *bax* dərd çəkmək. Dərd alıb, dərd yedin illər uzunu. Dərd görmək – dərdə düşmək, dərdə düçar olmaq. O nə dərd görmüşdür, nə də ki bir qəm. Dərd olmaq – qayğı, fikir obyekti olmaq, həmişə haqqında düşünmək tələb edən bir iş olmaq. Sənin ayrılığın dərd olub bizə. Dərd çəkmək – 1) acı bir hadisəni xatırlayaraq çox kədərlənmək, qəm-qüssə etmək, ruhi iztirab çəkmək. Böyük faciələr yaradır, demək; Sonra ömrü boyu dərd çəkir ürək; 2) *bax* dərdini çəkmək. [Şapur:] Odur ki, dərd çəkir o gözəl pəri. Dərdə qərq olmaq – bir şeyin fikri, qayğısı ilə məşğul olmaq, bir

şeyi özünə dərd etmək. Yenə gürcü qızı dərdə qərq olmuş. Dərdə dolmaq – *bax* dərdə qərq olmaq. Nə qəmə qərq olur, nə dərdə dolur. Dərdə düşmək – bir şeyi özünə dərd etmək. Cahanda düşübsə nə qəmə, dərdə; Qaranlıq çəkmədi gözünə pərdə. Dərdə salmaq – dərdə düçar eləmək, dərdə giriftar eləmək, dərdlənməsinə səbəb olmaq. Qızım, nə salmışdır Loğmanı dərdə? Dərdə tutulmaq – dərdlənməsinə səbəb olmaq, dərdə salmaq. Bu adla çoxları tutulmuş dərdə. Dərdi olmaq – dərdə düçar olmaq, dərdə düşmək. Başqa nə dərdimiz olacaq bizim? Dərdinə qalmaq – yazığı gəlmək, halına acımaq. Dərdimizə qalmayanlar çıxsın bizim cərgədən. Dərdinə çarə olmaq – yazığı gəlmək, halına acımaq. Olmazlar dərdinə çarə cavanlar. Dərdini çəkmək – bir şeyin yaxud başqasının fikrini, qayğısını çəkmək. Hər qışın dərdini çəkdi bir bahar.

**Dərdbilən**, *is.* Başqasının dərdini, kədərini, ürək sirrini duyan, başa düşən, ona acıyıb kömək edən adam. Qoy nə dərdbilənim, nə yarım olsun. // *sif.* mənasında. Vurğun deyər, bir dərdbilən dar olsun.

**Dərdlənmək**, *f.* Dərdə düşmək, dərd çəkmək, kədərlənmək, xiffətlənmək. Mən də dərdlənmişəm küskün səsindən.

**Dərdli**, *sif.* Dərdi, kədəri olan. Ah, onun nə dərdli nəzərləri var. // Hüzn gətirən, həzin, kədərli, qüssəli, ələmli, yanıqlı. Mən səni görmüşəm on beş il əzəl; Dilində bir qoşma, bir dərdli qəzəl. // *is.* mənasında. Açılacaq dərdlilərin bulud kimi qaş-qabağı.

**Dərə**, *is.* 1. İki dağ və ya təpə arasında, eləcə də düzənliklə dərin çuxur; vadi. [Azər baba:] İgidlər! Dərələr, dağlar olsa da; Üstündən atılfn şiri-nər kimi.

2. Çay yatağı, çayın axdığı yer (bəzən çayın qurumuş yatağı mənasında işlədilir). Qoy qanla sulansın hər susuz dərə!

**Dərəbəy**, *is.* (*tar.*). Keçmiş zamanlarda bir neçə kəndi idarə edən iri torpaq sahibi. Burda şahlar, dərəbəylər, xanlar; Çoxdan öz taxtını tərk etmişdir.

**Dərə-dərə**, *z.* Dərərək. Azadlıq bağından gül dərə-dərə. // *məc.* Zəhmətin nübarını dərə-dərə; Salamlayır ömrün azad illərini!

**Dərgah**, *is.* [*fars.*] (*klas.*) 1. Allahların, böyük adamların qapısı, saray, iqamətgah. Zevsin dərgahından od oğurladı.

2. *məc. (tənt.)*. Ev. Peymanımı pozan xəyal həmdəmim; Dərgahıma sayə salmayacaqdır.

**Dəri**, *is.* 1. İnsan və heyvanın bədəninin üstünü örtən mikroskopik məsaməli ət örtüyü. Siz də yaxşı baxın, qaradır dərim.

2. Heyvanın türklə örtülü dərisi. Bu ceyran dərisi sağaldır məni.

◊ Dərisinə sığmamaq – çox kökəlmək. Dərisinə sığmayır bürokratlar.

**Dərilmək**. «Dərmək»dən *məch.* Dərilməklə gül əksilməz bizim sovet torpağından.

**Dərin**, *sif.* 1. Səthindən yaxud ağzından dibinə qədər xeyli məsafə olan, böyük dərinliyi olan (dayaz əksi). Dərələri dərindir.

2. *məc.* Çox məzmunlu, çox mənalı, əsaslı, əhəmiyyətli, ciddi; çox düşünmək tələb edən. Həyat dərin, nəşə dərin, könül dərin, duyğu dərin.

3. *məc.* Heç bir şeylə pozulmayan, dərin. Dərin bir yuxuya getmişdir şəhər.

◊ Dərinə getmək – hərtərəfli danışmaq. Oğul, Sarvan! Dərinə get, heç çəkinmə, qorxma məndən.

**Dərindən**, *z.* Əsaslı surətdə, hərtərəfli. Hər bir şərqisini duyub dərindən.

**Dərin-dərin**, *z.* Çox dərin, çox ciddi, əsaslı surətdə. Məndən öyrən yer üzünün; Mənasını dərin-dərin.

**Dərinlik**, *is.* 1. Çox uzaqlıq, çox yüksəklik, intəhasızlıq. Arabir gözlərin dərinliyindən; Gecikmiş durnanın səsi gəlirdi.

2. *məc.* «Qəlbinin» sözü ilə – bir şəxsin daxili duyğuları, hissiyyatı, təəssürat. Yol verir qəlbinin dərinliyinə.

3. *məc.* Ciddilik, dərinmənalılıq, dərinməzmunluluq. Səp deyən dərinliyə; At çapmayır şairlər.

**Dərk**, *is.* [ər.]: dərk etmək – anlamaq, başa düşmək, öz düşüncəsi ilə qavramaq. Yalnız ağılsızlar dərk etməz bunu.

**Dərman**, *is.* [*fars.*] 1. Müalicə vasitəsi; dava. Dərmandır hər çiçəyim.

2. (*dan.*). qəbahətdə, zərərvericilərlə mübarizədə və s.-də işlədilən kimyəvi preparatlar. Oğru qarğalara tüfəng atılır; Qocalmış torpağa dərman qatılır.

3. *məc.* Əlac, çarə, tədbir. Dərdin dərmanını xəyalda axtar.

**Dərmansız**, *sif.* Davası, dərmanı olmayan, çarəsiz, əlacsız; sağalmaz, davasız. Davasız, dərmansız sağaldır məni.

**Dərmək**, *f.* Meyvə, çiçək və s.-ni bir-bir qoparmaq, toplamaq. Bəlkə zədələndi o dərdiyim gül. // Yığmaq, toplamaq. Bir maşın çıxıb ki, o, pambıq dərir.

**Dərmək**. *Bax* demək. Sən nə dersən bu hala?

**Dərmənd**, *is.* və *sif.* [*fars.*] (*klas.*) Dərdli, kədərli, qəmli. Bir baş çəkin dərməndin halına.

**Dərrakə**, *is.* [ər.] Ağıl, düşüncə, şüur, anlaq; dərketmə qabiliyyəti. Bəs sənin dərrakən, ağlın hardadır?

**Dərs**, *is.* [ər.] Müəyyən bir fənni öyrənmək üçün daimi, müntəzəm məşğələ. Öz gündəlik dərslərinə ötərgi baxdı. □ Dərs oxumaq – təhsil almaq. Burda dərs oxuyur bizim uşaqlar.

◊ Dərs almaq – öyrənmək. Dərs al Nizamidən, Füzulidən sən. Dərs vermək – öyrətmək. O böyük müəllim dərs verdi bizə. Dərs olmaq – ibrət olmaq. Hər kiçik səhvimiz dərs oldu bizə.

**Dərya**, *is.* [*fars.*] 1. Dəniz. Xəzər dəryasının qucağındakı..

2. *məc.* Hədsizlik, son dərəcə çoxluq, nəhayətsizlik. Hər könülün sığıncağı bir məhəbbət dəryasıdır. □ Dərya boyda – son dərəcə çox, intəhasız dərəcədə. [Dədə Qorqud:] O, məclisə can verəcək; Azərbaycan torpağının; Dərya boyda kamalilə. Elm dəryasında üzə bilməmək – çox elmli, bilikli

olmamaq, yalançı alim olmaq. Elmin dəryasında üzə bilməsin?

**Dəryaca**, *is.* [*fars.* dəryaçə] Süni dəniz, kiçik dəniz. Yeni dəryaçalar, çaylar üzündə; İqlimdən-iqlimə gedib-gəlirlər.

**Dəryaz**, *is.* Ot çalmaq üçün uzunsaplı, dişsiz orağa oxşayan alət; kərənti. Mən görürəm əlindəki köhnə dəryazı.

**Dərz**, *is.* Biçilmiş taxıl bağlaması. Nə xırman, nə də dərz gördü qapımız.

**Dəsmal**, *is.* [*fars.*] Əl-üz və s. silmək üçün ensiz, uzunsov parça; məhrəba. Dost dəsmal götürər, düşmən açılar.

**Dəst**, *is.* [*fars.*] Əl (daha çox fars izafət birləşməsinin birinci tərəfi kimi işlədilir). Öpərkən gecələr dəsti-səbahi; Duyurdum hərəkət namütənahi. Lakin ümid, o böyük dəsti-kərəm.

**Dəstə**[1], *is.* [*fars.*] Birgə fəaliyyət üçün birləşmiş adamlardan ibarət qrup. Böyük bir qayığa doldu dəstəmiz.

**Dəstə**[2], *is.* [*fars.*] Bir şeyin əldə tutulacaq qədər, ip və s. ilə bağlanmış gül, göyərti, ot və s. toplusu. Nə çoxdur əllərdə gül dəstələri.

**Dəstə-dəstə**, *z.* [*fars.*] Dəstələr halında, dəstələrlə. Gözəllər də dəstə-dəstə; Gül-çiçəklə çıxacaqdır; sən gəldiyin yollar üstə.

**Dəvə**, *is.* Səhralarda və quru çöllərdə istifadə olunan, bir və ya iki hürgüclü, aclığa və susuzluğa çox dözümlü iri yük heyvanı. Dəvə karvanları deyil şöhrətim.

**Dəvət**, *is.* [ər.]: dəvət etmək (eləmək) – hörmətlə bir işi görməyə çağırmaq, məsləhət etmək. Nazir özü danışığa dəvət elədi. // *məc.* Ən müqəddəs xəyallara dəvət edir o bizi.

**Dəyə**, *is.* Qarğıdan, qamışdan, keçədən və s.-dən düzəldilən komacıq; alaçıq, qazma. Dəyəsi qurulur qalın keçədən.

**Dəyişilmək**. «Dəyişmək»dən məch. Dəyişilən həyat, dəyişən eldir.

**Dəyişmək**, *f.* 1. Dəyişdirmək, əvəz etmək. Kim dəyişər yer üzünə öz yurdunu, yuvasını?

2. Yeniləşmək, başqa şəklə düşmək. Dəiyşsin insanın, ömrün mənası!..

3. Bir şeyi verib başqasını almaq, əvəz etmək. Bir ovuc torpağı göyə dəyişməz.

4. Başqalaşmaq, başqası ilə əvəz edilmək. Dəyişdi adını, familiyasını.

**Dəymək**[1], *f.* 1. Əlini toxundurmaq, toxunmaq. Çiyninə asta bir əl dəyir bu dəm. Hələ dəyməmişdir Gülzara əli.

2. Vurulmaq *(güllə və s. ilə isti silahla)*. Düşmənin gülləsi dəysə sinəmdən.

3. Toxunub ağrıtmaq. Burnun uşaq kimi dəyər daşlara. Ayağına daş dəysə.

4. *məc.* Qiyməti olmaq, qiymətlənmək. Yenə Vaqif kimi, əlbəttə, yüz oğlana dəyər. Nəyə dəyər həyat, olmasa həmdəm?

**Dəymək**[2], *f.* Dəymiş hala gəlmək, yetişmək. Payız vaxtı bağçamızın heyvaları dəyəndə.

**Dəyməz**, *əd.* mənasında. Layiq deyil. Bir anlıq ömrə dəyməzmiş yüz illik nalənin ömrü.

**Dəyyus**, *is.* [ər.] Əsl mənası «öz arvadının xəyanətinə dözən» olub söyüş məqamında işlədilir. Vəzifə düşkünü o dəyyusları!

**Dəzgah**, *is.* [*fars.* dəstgah] 1. Ağac, metal və başqa materialları emal etmək üçün üzərində ustaların iş gördükləri böyük masa. Yad əllərə verməərəm mən dəzgahımı, zindanımı.

2. Xalça, palaz, parça və s. toxumaq üçün qurğu; hana... Dəzgah üstə ipək parça toxuyan.

**Di**, *əd.* Təkid, əmr ya xahiş bildirir. Yaxşı, di durmayın, dayanmaq olmaz? Di qaçın! Tez qaçın, indi fürsət var. □ Di get – tez get, aradan çıx. Di get, yerin olsun o boş mağara. Di gəl – tez gəl, yubanma. Di gəl, durnalara bir şeir deyək.

**Dib,** *is.* 1. Okean, dəniz, çay, göl və s. suyunun altındakı torpaq səthi. Görünməz olmuşdur dənizin dibi; Qayıt, yırğalanır bir beşik kimi. Dənizlər dibinə batdı gəmilər. // Qab,

kisə, çuval və s.-nin alt səthi, alt divarı. Nə çuval dibində bir arpa vardır.

2. Ağac, kol və s.-nin altı, kökə yaxın yeri. Hər kolun dibinə diqqətlə baxın. // Daş, qaya və s. yerə yapışan hissəsi, yerlə birləşən ən aşağı hissəsi, yanı. Hər daşın dibində bir toy qurulur.

3. Qulaq, buynuz, diş, tük və s. bədənlə birləşən və ətin içində olan hissəsi. Dartaraq heyvanın buynuzunu sən; Çəkib çıxarmısan onu dibindən. Onun saçları da dibdən töküldü.

**Dibsiz**, *sif.* Sonsuz, sonu olmayan, ucsuz-bucaqsız. Dərin və dibsiz göylərin «mələkli» boşluğuna. İşıqlı bu dibsiz qaranlıqları.

**Didib-parçalamaq**, *f.* Doğramaq, doğrayıb tökmək, mənəvi əzab-əziyyət vermək; xırpalamaq. Didib-parçalayır məni şübhələr. Didib-parçaladı bağrımı bu qəm.

**Didilmək**, *f.* Mənən əzab və əziyyət çəkmək, parça-parça olmaq; bölünmək. Orda parçalanır, didilir vətən.

**Didim-didim**, *z.*: didim-didim parçalanmaq – parça-parça, didik-didik olmaq. Caynağında didim-didim parçalandı yapalaq.

**Didişdirmək**, *qarş.* Hərə bir tərəfdən didmək. Didişdirir yun kimi, beyninə sıçrayır qan.

**Didmək**, *f.* Ruhi əzab vermək, iztirab vermək. Hakimi qurd kimi didəcək zaman.

□ Qəlbini didmək – mənən incitmək. Diddi qəlbimizi tüfeyli kimi. Didirdi qəlbimi o xain qartal.

**Dik**, *sif.* Çox yüksək, uca, hündür; sarp. Uzanan dik qayalar, silsilələr; Qara yellər ora dörd yandan əsər.

◊ Dik baş – əyilməyən, tabe olmayan; yenilməz. Əyilməyən dik başıyam.

**Dikmək**, *f.*: gözlərini dikmək – gözlərilə bir nöqtəyə baxmaq, gözlərini bir nöqtəyə zilləmək. Şəhla gözlərini dikmişdi yenə.

**Diksindirmək**, *f.* Səksəndirmək. Diksindirdi Cəlalı.

**Diksinmək**, *f.* Hürkmək, qorxmaq, xoflanmaq. O, səfalət yuxusundan diksinərək oyandın.

**Diqqət**, *is.* [ər.] Fikrin, yaxud görmə və eşitmə qüvəsinin bir obyektə tərəf yönəldilməsi və onun ətrafında cəmlənməsi. Düşərgə axtarır huşum, diqqətim. □ Diqqəti ayrılmaq – diqqəti müxtəlif tərəflərə yönəlmək, diqqəti dağılmaq. Bir də, dostlar, mən istərəm diqqətiniz; Ayrılmasın gözəl-gözəl səhnələrdən. Diqqəti tutmaq – xoşu gəlmək, bəyənmək. Onun diqqətini tutardı həmən.

**Diqqətlə**, *z.* Diqqət verərək, ciddi fikir verərək, diqqət yetirərək. Baxır shralara, baxır diqqətlə.

**Dil¹**, *is.* 1. İnsanlar arasında ünsiyyət vasitəsi olub, onların bir-birini başa düşmənlərinə və bir-biri ilə danışmalarına imkan verən səs, söz və qrammatik vasitələr sistemi. Mənim də öz dilim, öz lisanım var. Salam sənə, əziz yoldaş! Bilməsəm də mən dilini.

2. Danışıq. Dilində bir qoşma, bir dərdli qəzəl. Dilində qardaşlıq, əlində silah.

3. Danışıq qabiliyyəti; nitq. Bülbülü mat qoyan dillər bizdədir.

4. Danışma tərzi, danışıq şəkli. Diplomat dililə sağlıq deməyə.

5. Pianinoda səs çıxarmaq üçün üstündən barmaqla basılan lövhəcik; klaviş. Arabir də pianonun ağ dillərini.

◊ Dil ayrı – başqa dildə danışan. Din ayrı, dil ayrı olsa da onlar. Dil açmaq – 1) danışmağa başlamaq, öz fikrini ifadə etmək. Qızlar dil açar ki: – Zəhmət çək bir az; Gözəllik sözünün kamalından yaz. Hələ dil açmamış oxucumla mən; Min nalə eşitdik yerin qəlbindən; 2) ilk dəfə danışmağa başlamaq; danışmaq *(körpə uşaq haqqında)*. Bəs niyə körpə tək dil açmamışdır? 3) oxumaq, ötmək *(quşlar haqqında)*. Nə sərvsən, qumru kimi budağında dil açım; 4) səslənmək, səsi eşidilmək. Yarpaqlar dil açıb danışacaqdır; 5) eşidilmək *(çalğı, musiqi səsi haqqında)*. Dil açdıqca rübabının o mənası telləri. Dil açmışdır orkestrin ahəngdar səsi. Dil vermək

– öyrətmək, danışmağa cürətləndirmək. Bəlkə də özünsən ona dil verən? Xeyr, yanıldınız, ona dil verən; 2) səsləndirmək, çalmaq. İnsan əli yüz dil verir neyə, kamana. Dil demək – təkrar etmək, eyni şeyi təkrarən demək. Dil deyib ağlayan yaslı gəlinlər; Qanadlı nalələr, ahlar, əninlər. Dilsiz qayalara dil deyib durdun. Dil deyib ağlamaq – bayatı çağırmaq, bayatı deyib ağlamaq. – O ölsə, dağlar da dil deyib ağlar; Əfv edin, yaxşılıq qalar yadigar. Dil əzbəri – çox deyilən, tez-tez təkrar olunan adam və ya şey haqqında işlədilir. Gözəllər dünyası, dilim əzbəri. Dil tökmək – şirin sözlərlə yola getməyə, razı salmağa yaxud başını tovlamağa başlamaq, dilə tutmaq. Belə, bir cür dil tökürsən? Dil çıxarmaq – istehza etmək, ələ salmaq, sataşmaq. Maral kimi dil çıxarıb hayqırır. Dildə dastan olmaq – *bax* dillərdə dastan olmaq. Dildə dastan olan məhəbbətin var. Dildə dolaşmaq – yayılmaq, məşhur olmaq. Gəzib dolaşardı ağızda, dildə. Dilə düşmək – yaddan çıxmamaq, məşhur olmaq, unudulmamaq, daim söylənmək. Dilə düşsün kəndimizin bu bəxtiyar dövranı. Dilə gəlmək – 1) danışmağa başlamaq. Pioner bir qız da gəlmişdir dilə; 2) oxumaq, ötmək. Dilə gəldi bülbüllər. Dilə gəlir göyərçin də; 3) çalıb-oxumaq, çalmaq. Elin məclisində ney tut, dilə gəl; 4) atılmaq (odlu silahlar haqqında). Uzaq toplar da dilə gəlib dinəndə ruzgar. Dilə gətirmək – səsləndirmək, təsir etmək. Musiqi daşları gətirir dilə. Dilə tutmaq – şirin sözlərlə birini razı salmağa, yola gətirməyə çalışmaq. Sonra da atamı tutaraq dilə. Kimini yalvarıb xoş dilə tutdu. Dili var olsun – alqış məqamında işlədilir. Belə cavab verən dilin var olsun. Dili qurumaq – qarğış məqamında işlədilir. Mən sənə yar desəm, dilim qurusun! Yarı, məhəbbəti sən atmadınmı. Mən ona bir daha öz anam desəm; Qoy dilim qurusun. Dili gəlməmək – 1) deyə bilməmək, tələffüz edə bilməmək, danışmaq qabiliyyətində olmamaq. Ona yalan deməyə də dili gəlmədi; 2) deyilməsini caiz bilməmək, dilinə gətirə bilməmək. [Şiruyə:] A kişi, bir danış. [Vəzir:] Dilim gəlməyir. Dili lal ol-

maq – danışa bilməmək. Ziyarətə gələnlərin ağzı qıfıl, dili laldır. Dili olmaq – müəyyən vasitələrlə özünü göstərmək, bildirmək. Sayların da öz dili var, təkliflər deyir. Dili titrəmək – qorxmaq. Ey əski dostlar! Adınız gələndə titrəyir dilim. Dili tutulmaq – danışmaq qabiliyyətini itirmək, danışmağa qüdrəti olmamaq. Sonra tutuldu dili; Öz canının qatili. Dili uzanmaq – qürrələnmək, öz üstünlüyünü göstərmək (mənfi mənada). Ömründə doğruluq, düzlük görməmiş; Axund Şirəlinin uzanmış dili. Dili uzun olmaq – iftixar etmək, qürrələnmək. Uzun olsun da həyatımda dilim. Dilindən dara çəkmək – dilindən dar ağacından asmaqla cəzalandırmaq. [Məryəm:] Nə dara çəkərəm səni dilindən. Dilindən düşməmək – daim təkrar etmək. Dilindən düşməyir gözəl nağıllar. Dilindən düşmək – demək, təkrarən danışmaq. Kəlmələr od kimi düşsün dilindən. Dilindən incimək – danışığından narazı olmaq. Bir kəs inciməmiş sakit dilimdən. Dilimdən çıxmamaq – deməmək, söyləməmək. Xeyir söz çıxmayır yenə dilindən. Dilini bilmək – baş açmaq, sirrindən xəbərdar olmaq. Bilirsən dilini çətinliklərin. Yenə sən bilirsən eşqin dilini. Dilini qısaltmaq – az danışmaq. [Banu:] Daha meydanında qısalt dilini. Dilini tapmaq – qarşılıqlı anlaşmaq, razılıq əldə etmək, razı etmək üçün yol tapmaq. Bunların dilini tapandan bəri; Biz aclıq sözünü qovmuşuq evdən. Dillər dastanı, yaxud dillərin dastanı – çox məşhur, yayılmış. [Azər:] De, oğlum! Dillərin dastanı oğlum. Bu ad dillər dastanıdır. Dillər ötüşmək (ötmək) – danışmağa başlamaq, nitqə gəlmək. İllərcə paslanmış dillər ötüşsün. Ötsün şirin-şirin tuti dillərin. Dillərdə əzbər olmaq – çox məşhur olmaq. Hər kəlməsi, hər sözü dillərdə əzbər olsun. Dillərdə şüar olmaq – çox məşhur olmaq, yayılmaq. Hər sözü dillərdə bir şüar oldu. Dillərə düşmək – məşhur olmaq, haqqında hamı tərəfindən danışılmaq. Gözəl sözləriniz düşüb dillərə. Adın düşdü dillərə. Ağızda dil – çox istəkli, əziz adam haqqında. O, ağzımda dilimdir.

**Dil²**, *is.* [*fars.*] *(klas.)*: dil vermək – ürəkdən sevmək, könül bağlamaq, bənd olmaq. Əğyara dil verən o bivəfaya; De ki, Vurğun dəryalara dönübdür.

**Dilbər**, *sif.* [*fars.*] *(şair.)* Sevgili, canan, gözəl. Anamın dilbər gəlini. // *is.* mənasında. Görmək olmur o dilbərin camalını. Qələm qaşlı, xumar gözlü bu dilbər. // Şairanə təşbehlərdə həm isim, həm də sifət vəzifəsinə işlədilir. [Şahbaz:] De, niyə dalğınsan, dilbər səhər? Hava sakit… Dəniz şəffaf… Səhər dilbər.

**Dilbilən**, *sif.* və *is.* Düşüncəli, yolbilən, təcrübəli. Dedi: sən ki, dilbilənsən; Düşmədinmi məni başa?

**Dildar** [*fars.*] *Bax* dilbər. [Nizami:] Sənsən əbədiyyat dediyim sevgili dildar. İndi bulaq başındadır onun dildarı.

**Dildən-dilə**, *z.*: dildən-dilə qanad çalmaq – *bax* dildən-dilə düşmək. Nəğmə kimi qanad çalır dildən-dilə. Dildən-dilə düşmək – ağızlarda danışılmaq, yayılmaq, məşhurlaşmaq, dillərdə deyilmək. Şeir tək dillənib, nəğmə tək ötüb; Dildən-dilə düşək, əzbər oxunaq. Dildən-dilə düşdü inqilab andı.

**Dilək**, *is.* İstək, arzu, xahiş, tələb, təmənna. Onun hər diləyi, hər bir arzusu. Həyat aşiqidir eşqin, diləyin. □ Dilək bəslənilmək – arzu edilmək, istənilmək. Bu dünyada bəslənilən hər dilək; Çətinlikdən çəkinərsə bir xəyala dönəcək. Dilək yuva salmaq – *bax* dilək bəslənilmək. Gözlərində yuva salır gözəl diləklər. Diləyi (dilәklәri) yarı yolda qaldı – arzusu yerinə yetməmək, istəyinə nail olmamaq. Yarı yolda qaldı diləklərimiz. Diləyi gözündə (dilində) qalmaq – arzusu həyata keçməmək, istəyinə nail olmamaq. Bütün dilәklәri gözündə qaldı. Heyif ki, diləyi dilində qaldı. Diləyinə qovuşmaq – arzusuna çatmaq, istədiyinə nail olmaq. Qovuşsun diləyinə bütün insan övladı. Dinləyini başa vurmaq – arzusuna yerinə yetirmək, istəyinə çatdırmaq. [Xosrov:] Nə qədər xoşbəxtəm görəli sizi; Tanrım başa vursun diləyinizi.

**Diləmək**, *f.* Arzu etmək, istəmək. Mən dilərəm, sürsün çoxlu səfa yar. Görmək dilərəm, varsa görünsün o, «əyani».

**Diləncі**, *is.* 1. Dilənmək yolu ilə dolanan adam. O gördüyün kənddə dilənçi yoxdur.

2. *məc.* Çox yoxsul, çox kasıb, heç bir şeyi olmayan adam. Yaz əkinçi, qış dilənçi.

**Dilənmək**, *f.* Dilənçilik etmək, yolçuluq etmək; özgədən sədəqə kimi pul, çörək və s. istəmək. İndi nəvələrin çörək dilənir. // Obrazlı təşbehlərdə işlədilir. Şu xəstə könlümdən qopan fəryada; Bülbüllər dilənsin, güllər ötüşsün!

**Dilim-dilim**, *z.* Uzun dillər halında yuxarı qalxan. Dilim-dilim alovlanan baxışlardan qəzəb yağır.

**Dillənmək**, *f.* 1. Dilə gəlmək, ağzını açıb söz söyləmək; danışmaq. Bahar gələndə neçin pərişanlıq dillənir səndə?

2. Eşidilmək, səsi gəlmək. O gün ki dilləndi topların səsi.

3. Oxumaq, ötmək. Ey sevdalı bülbül; Sən gülün eşqilə dillən.

**Dilsiz**, *sif.* və *is.* 1. Danışa bilməyən, hələ dil açmamış. Beşikdə ölməsin dilsiz körpələr. Hər dilsiz körpənin ilk baxışında.

2. *məc.* Səssiz, cansız, sakit. Bəzən dilsiz bir vüqarla qılınc çəkir qəhrəmanlıq. Ürək dilsiz bir daş kimi asılmışdı sinəmdən. // Obrazlı təşbehlərdə işlədilir. Diz çöküb yalvarır o dilsiz göyə. Nədir istədiyi dilsiz gecədən?

**Dilsizlik**, *is.* Səssizlik, sakitlik, sükut. Bu dilsizlik nədəndir?

**Dimdik**, *is.* Quşların ağızlarının irəliyə uzanmış buynuz kimi sərt hissəsi. Dimdiyimdə çor-çöp yığıb yuva quraydım.

**Din**, *is.* [ər.] Xariqüladə qüvvələrə və allahlara, ruhlara inanmağa əsaslanan görüşlərin, təsəvvürlərin məcmusu. Məbədləri, məscidləri, Məhəmmədin dinini; Ayaqladım. Bəs mənim şöhrətim. Bəs tanrı? Bəs din?

◊ Din ayrı – başqa dinə inanan. Din ayrı, dil ayrı olsa da onlar.

**Dinamit**, *is.* [yun.] Əsas tərkib hissəsi nitroqliserindən ibarət olub, dağları, qayaları partlatma və hərbi işdə istifadə

edilən partlayıcı maddə. Dinamitlər qoyuldu dağlara. Qoyub dinamiti çəkildin.

**Dinc**, *sif.* Başqasını narahat etməyən, əziyyət verməyən; sakit. Dərib nəfəsini sonra dinc axar. □ Dinc durmamaq – başqalarına sataşmaq, başqalarını narahat etmək. İnsan oğlu dinc durmadı. Dinc oturmaq – başqalarına toxunmamaq, onları narahat etməmək. Qoymadın dinc otura. Dincini almaq – istirahət etmək, dincəlmək. Dincini aldınmı bir göy çəməndə. Heç dincini almaz bir az.

**Dincəlmək**, *f.* İstirahətlə öz qüvvəsini bərpa etmək, yorğunluğunu almaq, istirahət etmək; rahatlanmaq. Yolçular arxların üstdə dincəlir. Yol üstdə dincələn o gəlin kimdir? // Rahat olmaq, sakit olmaq. Ürəkdə dincəlməz cəsarətin var. // Sakit olmaq, işinə, hərəkətinə, fəaliyyətinə ara vermək. «Burada dincəlin» dedi komandan.

**Dinclik**, *is.* Rahatlıq, sakitlik, istirahət. Yuxusuz günlərdir mənim dincliyim. □ Dinclik bilmək – istirahət etmək, çalışamamaq, fəaliyyətdə olmamaq, işləməmək. Nə yorğunluq bilir, nə də ki dinclik.

**Dindar**, *is.* və *sif.* [*ər.* din və *fars.* …dar] Allahın varlığına inanan və mənsub olduğu dinin ehkamlarına ciddi surətdə əməl edən adam; mömin, dindar. Ömrü boyu tanrı deyən dindar qocalar.

**Dindirmək**, *is.* 1. Danışdırmaq, söylətmək. Dedi: «Məni dindir özün». Arifləri dindir. // Obrazlı təşbehlərdə işlədilir. Onların qəlbini hey dindirirdi.

2. *məc.* Çalmaq, səsləndirmək. Odlar ölkəsinin nəğməkarları; Saz üstündə dindirdi öz rübabını.

**Dinib-danışmaq**, *f.* Səslənmək, çalınmaq. Dinib-danışdıqca sazının səsi.

**Dinləmək**, *f.* Danışığa və ya hər hansı bir səsə qulaq asmaq. Qızı dinlədikcə bizim Bəxtiyar. Dinləyir suların sakit səsini. // Obrazlı təşbehlərdə işlədilir. Amerika, yaxşı dinlə, bu qatarın ilk səsini.

**Dinmək**, *f.* 1. Söz söyləmək, danışmaq. Ancaq danışmadı, dinmədi yenə. Söhbət vaxtı danışmadı, heç nə dinmədi.

2. *məc.* Səslənmək, çalınmaq. Saz sözlə dinəcək, tar şikəstəylə.

3. *məc.* Səslənmək, oxunmaq. Dinir Füzulinin şirin qəzəli.

4. *məc.* Eşidilmək, səsi gəlmək. Dinir qulağında topların səsi. Nəvanın üstündə «Avropa» dindi.

**Dinməz**, *z.* Dinmədən, danışmadan, sakitcə, heç bir söz demədən. Qayaların baxar dinməz.

**Diplomat** [*fr.* diplomate]: diplomat dili – üstüörtülü danışıq, fikrin açıq ifadə edilməməsi. Diplomat dililə sağlıq deməyə.

**Dirçəlmək**, *f.* 1. Canlanmaq, cana gəlmək, yavaş-yavaş qüvvətlənmək. Qanad açıb dirçələndə körpəcə quşlar; Çolpaları yuvasından mən uçuraydım.

2. Böyümək, inkişaf etmək. Ağaclar dirçəlib çiçək açmamış.

**Direktor**, *is.* [*lat.* director] Müəssisə, idarə yaxud məktəb və s. rəhbəri. Sovxoz direktoru oyandı səhər.

**Dirə**, *is.*: dirə tutulmaq – əzab verilmək, divan tutulmaq. O məhkum insana tutulan dirə; Özün görürsən ki, bir faciədir.

**Dirək**, *is.* 1. Bir şeyi saxlamaq üçün altına vurulan tir, sütun, dayaq. Dirəyi titrərmiş ağac evlərin.

2. *məc.* Arxa, kömək. Şair deyər mahnısında: «Ellər bizim anamızdır; Evimizin ellər adlı bir yıxılmaz dirəyi var».

**Diri**, *is.* və *sif.* Diribaş, əlli-ayaqlı, bacarıqlı, çevik, qıvraq. Odur kolxoz gənclərinin danışıqdan dirisi.

**Diri-diri**, *z.* Diri halda, öldürmədən, ölməmiş, məhv olmamış. Odlara diri-diri qalandı Şərq.

**Dirigözlü**, *sif.* və *z.* Diri-diri, diri halda. Öldü dirigözlü yazıq analar. Çox vaxt dirigözlü çəkildik dara.

**Dirilik**, *is.* 1. Diri, canlı cismin halı, diri halda olma. Cansız cəsədlərə dirilik qurar.

2. Həyat, güzəran, yaşayış. Bu birlik şəhərlə kəndin ən gözəl diriliyidir.

**Diş**, *is.* Yeyilən şeyləri tutmaq, dişləmək, xırdalamaq və çeynəmək üçün ağızda olan sümük törəmə. Dişləri var mərcan kimi. Dişlər inci, ağız püstə.

◊ Diş ağartmaq – *bax* dişini ağartmaq. Diş ağardıb güləndə mən. Diş qıcamaq – *bax* dişini qıcamaq. Kinayəli baxışları diş qıcayır bir iblis tək. Dişi tökülmək – qocalmaq. Ağarsa saçlarım, tökülsə dişim; İstərəm yetişəm o yarə, bəlkə; Dişini ağartmaq – acıq vermək, isteza etmək; gülmək. Ağardıb dişini güldü insana. Ağardıb dişini gülür təbiət. Dişini qıcamaq – intiqam almaq üçün bəhanə axtarmaq; üzərinə atılmağa hazırlaşmaq. İndi cə dişini qıcamış Qacar… Dişləri ağarmaq – səbəbsiz gülmək, irişmək. Qoy qarımış kapitalın; çürük və laxlamış dişləri ağarsın. Dişləri dilini kəsmək – çox hirslənmək, bərk hirslənmək. Hirsindən dişləri dilini kəsir. Dişləri kilidlənmək – həddən artıq çox qəzəblənmək, hirslənmək. Artıq onun dişləri də kilidlənmiş qəzəbindən. Dişləri göynədən – çox soyuq (əsasən bulaq suyu haqqında). Dişləri göynədən soyuq bulağı. Dişlərində qan donan – çox zalım, zülmkar. Nə də dişlərində qan donan o qurd.

**Dişarı**. *Bax* dışarı. Humay pəncərədən baxır dişarı.

**Dişi**, *sif.* və *is.* Canlıların doğan və yumurtlayan cinsi (erkək ziddi). Aslanın erkəyi, dişisi olmaz.

◊ Dişi canavar – təhqirlə kişi haqqında işlədilir. O [Qacar] sizi talayan dişi canavar.

**Div,** *is.* [*fars.*] Şərq nağıllarında: müsbət qəhrəmanlara qarşı qoyulan çirkin, eybəcər, həddən artıq yekə, buynuzlu, əfsanəvi vücud, heyvan. [Fərhad:] Şirlərin, divlərin qarnına baxdım; Yenə də tutmadım ondan bir xəbər. // Obrazlı təşbehlərdə işlədilir. Gəlir ölüm səsi, fəlakət divi.

**Divan¹**, *is.* [*fars.*]: divan qurmaq – məhkəmə qurmaq. Nəsimi zahidlə durdu üz-üzə; Söylədi: – Həqq adlı bir divan quraq. Divan tutmaq – məcbur etmək, yaxud cəzalandır-

maq məqsədilə amansızcasına zor işlətmək. Biz divan tutduqca yadellilərə; «Ağlar»ın başına dünya dar oldu. Baxın divan tutur bizə təbiət.

**Divan**[2], *is.* [*fars.*] oturmaq və ya uzanmaq üçün uzun yumşaq taxt. [Mahnigar:] Gəl əyləş divanda, azacıq dincəl.

**Divanə**, *is.* [*fars.*] Dəli. Of… Sənin eşqindən divanəyəm mən. // *sif.* mənasında. Divanə qadının o ağ saçları; Dağılıb çiyninə səpələnmişdir.

**Divanxana**, *is.* [*fars.*] Məhkəmə və onun yeləşdiyi bina. Divanxana… ən dəhşətli bir mənzərə; Şahididir min ölümün, ayrılığın.

**Divar,** *is.* [*fars.*] Binaların üstünü saxlamaq və daxilini bölmələrə ayırmaq üçün müxtəlif tikinti materiallarından çəkilmiş sədd. Yığılmışdı divarları daş aynalı bir salona.

**Diyar**, *is.* [ər.] Ölkə, məmləkət. Qatarlaşıb nə diyardan gəlirsiz? Bakı, Bakı, gözəl diyar; Qəhrəmanlıq şöhrətin var.

**Diyar-diyar**, *z.* [ər.] Bir ölkədən obiri ölkəyə, ölkələri dolanaraq, diyarbədiyar. Bu əllərdə o gəzdirdi məşəl kimi diyar-diyar. Kor kimi dolaşıb hey diyar-diyar.

**Diz**, *is.* Qıçın diz oynağı olan hissəsi, bükülən yeri. Döşündə sarı gil, dizində bataq.

◊ Diz çökmək – 1) Dizi üstə oturub yalvarmaq. Çünki yalvarmadım və diz çökmədim. Diz çöküb yalvardım o dilsiz göyə; 2) hörmət, ehtiram əlaməti olaraq dizi üstə oturub baş əymək. Bu qəbrin önündə diz çöküb mən də. O tabutun qarşısında diz çökərək; 3) *məc.* tabe olaraq. Önündə diz çökür boz qaya, Bozdağ. Dizə enmək – *bax* diz çökmək. Endim, ay var ki, endikcə dizə. Dizə çıxmaq – dizə qədər olmaq, diz hündürlüyündə olmaq. [Valentin:] Burda bir bataqlıq çıxırdı dizə. Dizinə döymək – hirsindən, məyusluqdan əllərini dizlərinə döymək. Qocalar, qarılar döymür dizinə. Dizini yumruqlamaq – *bax* dizinə döymək. «Vay» deyib dizini yumruqlayaraq. Dizləri əsmək – qorxudan ayaqları titrəmək. Bir gurultu qopur... Dizləri əsir.

**Diz-dizə**, *z.* Dizbədiz, bir-birinə lap yaxın. Təbiət bizimlə durub diz-dizə. Zülmətlə diz-dizə əyləşən babam.

**Dırmalamaq**, *f.* Qıcıqlandırmaq, əziyyət vermək, pis təsir etmək. O dırmalar qulları, balta kimi odun yarar.

**Dırmanmaq**, *f.* Əl və ayaqları vasitəsilə dik bir yerə, yuxarıya qalxmaq, çıxmaq, dırmaşmaq... Dırmandım bir dağ başına.

**Dırmaşmaq** *Bax* dırmanmaq. Mən çox dırmaşmışam qarlı dağlara.

**Dırnaq**. Barmaqların ucunun üst tərəfindən sümük kimi maddədən ibarət örtü. Soysun dərinizi dırnaqlarınız.

◊ Dırnağı ilə (çalışmaq və s.) – ağır zəhmət və çətinliklə. Sən süngünlə, dırnağınla yer altına yol açırsan.

**Dışarı**, *is.* Bayır, çöl, eşik. Yazıq qorxa-qorxa çıxır dışarı.

**Dobrovol** [rus.] Könüllü. Həsrət adlı oğlunu apardılar dobrovol.

**Dodaq**, *is.* Ağız kənarlarını təşkil edən iki mütəhərrik dəri-dodaq büküklərinlən hər biri. Bal kimidir dodaqların. Hər gülən dodaqda bir qəmi həsrət.

◊ Dodaq altından gülmək – istehza ilə gülmək. Bir gülərmiş dodaq altından ona. Dodaq büzməsi – ağlamsınma, doluxsunma, kövrəlmə. «Anam hardadır?» Deyən bir körpənin dodaq büzməsi. Dodağı ballı – dodağı bal kimi şirin olan. O dodağı ballım, ceyran yerişlim. Dodağında gül açmaq – deyilmək, söylənilmək (söz haqqında). ..Türfə cananlar dodağında gül açdın sən. Dodağında səslənmək – *bax* dodağında gül açmaq. Dodağında səslənməmiş ürəyinin nəğmələri. Dodaqlarına söz gəlməmək – danışa bilməmək və ya danışmaq istəməmək. Ağır söz gəlməyir dodaqlarına. Dodaqlarında gümüş gəzmək – gülmək. Bəzən də bir gümüş gəzir dodaqlarında. Dodaqlarını gəmirmək – çox hirslənmək, acıqlanmaq. Gəmirdi qurd kimi dodaqlarını.

**Dodaqaltı**, *z.* Yavaşcadan, pəsdən öz-özünə. Qımıldandın dodaqaltı, xoş mahnılar çağırdın.

**Doğalı**, *sif.* Doğmuş, çıxmış. Bəxtinə gün doğalı.

**Doğma**, *sif.* 1. Ögey olmayan, özünün olan. Doğma balanız da yad olacaqdır. Doğma balasının üstə sərən tək. // *is.* mənasında. Bir məzar ki, nə baş daşı; Nə doğması, nə yadı var. Doğmalar yad gündə yad ola bilməz.

2. Anadan olduğu, doğulduğu, həyata gəldiyi (yer və s.). Amerika! Yeni dünya; Mənim doğma vətənimdir. Sabah olarsınız doğma vətəndə.

3. *məc.* Əziz, sevimli, çox istənilən. Bizim doğma səhnə. Nə qədər doğmadır burda hər nəfəs.

**Doğmaq**, *f.* 1. Dünyaya bala gətirmək; balalamaq. Yeddi oğul, ya qız doğan bizim sağlam analardır. Məni yalnız insan deyil, bir də şair doğmuş anam.

2. *məc.* Baxmaq, görünmək, tülu etmək (göy cisimləri haqqında). Sabah bu dağlara gün doğan zaman. Ay doğub, sinənə kölgə salanda.

□ Sabah (səhər) doğmaq – sabah olmaq, səhər açılmaq. Gecələr uzanır, doğmayır sabah. Xoşüzlü bir uşaq kimi doğur səhər.

3. *məc.* Əmələ gəlmək, meydana gəlmək. Bu hiss, həyəcan qəlbimdən gəlmədi, fikrimdən doğdu. Gah doğur, gah batır könül riqqətim.

**Doğmalıq**, *is.* Doğma olma, yad (ögey) olmama. Doğmalıq var hər torpağın adətində. Doğmalıq var səsində.

**Doğranılmaq**, *məch.* Parça-parça edilmək, doğrayaraq öldürülmək. Qolçomaq əlilə doğranılmışdır.

**Doğru**[1], *sif.* 1. Düzgün, düz, haqq, Doğru söz, düz ilqar, bir də etibar. // *z.* mənasında. Şeyx doğru deyir! Kor qalsın onlar. Gördüm, qoca doğru deyir. // *is.* mənasında. işlədilir. Bədən «təmiz çıxan» bu doğrular da.

2. Doğrusu – həqiqətdə, əslində, həqiqətən, doğrudan. Gedirsən, Vidadi, sözün doğrusu. O gündən bəridir təbiətində; Doğrusu, düşkünlük, ağrılıq vardır.

3. Doğrudur – düzdür, həqiqətdir. Doğrudur, cavansan; Düşünsən bir az. Nə söylədimsə doğrudur. // Doğrudurmu

– eyni mənada sual məqamında işlədilir. Doğrudurmu bunlar barı?

**Doğru²**, *qoş.* Tərəf istiqamət, cəhət bildirir. Göyə doğru getdilər. Zilləyir gözünü Humaya doğru.

**Doğrudan**, *z.* Ay Eldar! Doğrudan bu bəylər ki, var. Bu dünya doğrudan bir bilməcədir. // «Da» ədatı ilə ara söz mənasında işlədilir. Ellər gəlir, doğrudan da, ellər gücilə. Əmirxan, doğrudan da, tək gedə bilməz. // *...məc.* mı şəkilçisilə sual məqamında işlədilir. Söylə, doğrudanmı, yaralısan sən?

**Doğrultmaq**, *f.* Verilən ada, göstərilən etibara və s.-yə layiq olduğunu göstərmək, sübut etmək; gerçəkləşdirmək. Böyük etibarı doğrultmalıyam.

**Doğruluq**, *is.* 1. Düzgünlük, həqiqilik, düzlük; səmimiyyət. Səndə var doğruluq, var səmimiyyət . Məhəbbət, doğruluq, cəsarət, ürək; Dil açıb danışır hər gül, hər çiçək.

**Doğulmaq**, *məch.* Anadan olmaq, dünyaya gəlmək. Mən bu yerdə doğulmuşam. Təbiətin ən qarışıq bir günündə doğuldu.

**Doğurmaq**, *məch.* Meydana gətirmək, törətmək. Fəlakətlər doğurmuşdur riyalar.

**Doktor** [lat. doctor] Həkim, təbib. Doktor kömək üçün çağırır bizi. Dedi: – Doktor! Aman, doktor!

**Doqqaz**, *is.* Adətən kənd yerlərində evin, həyətin, bağın və s.-nin hasarında bir-birinə keçirilən ağaclardan ibarət primitiv qapı. Doqqazın ağzında Cəlal və Humay.

**Dolama**, *sif.* Dümdüz olmayan, düz xətlə getməyən, tez-tez o yan-bu yana burulan; dolanbac. Qalın və dolama yollar aşaraq. Dolama yollardan keçərək həpən.

**Dolama-dolama**, *sif.* Dövrə vura-vura, ətrafına fırlana-fırlana. Dolama-dolama daş pilləkanlar; Bir türbə yanına qaldırır bizi.

**Dolamaq**, *f.* 1. Sarımaq. Qolunu boynuma dola!

2. *məc.* (*dan.*) Lağa qoymaq, ələ salmaq, masqara etmək; sarımaq. İndi xanı dolaram. Qoy görək, ay Cəlal, dolama bizi.

**Dolanacaq,** *is.* Yaşama şəraiti; güzəran, məişət, keçinəçək, yaşayış, həyat. Həyatdır… Onun da dolanacağı…

**Dolandırmaq**, *f.* İşlətmək, iş görmək. Fırçanı ..dolandırdıqca.. nəqş eləyir son nəqşəsini.

**Dolanmaq¹**, *f.* 1. Bir şeyin ətrafında fırlanmaq, dövr etmək, hərlənmək, dövrə vurmaq. Oder çayı dolanmışdır Brotislavın gövdəsiz. Arabir də səhraların boynuna; Acıqlı Kür ilan kimi dolanar.

2. *məc.* Gəlib-keçmək, ötüb getmək. Saatlar dolanır saniyələr tək. Ay dolandı, il dolandı.

3. Gəzmək, dolaşmaq, gəzişmək. Əzəl gündən dolanmışam, yer üzünü qarış-qarış. Hey gəzişər, hey dolanar.

4. Dövr etmək. Dolandıqca göy üzünü sən vüqarla; Biz məşğuluq bu torpaqla, bu həyatla.

5. Fəaliyyət göstərmək, iş görmək. Ayıq-sayıq dolanaq biz. // Obrazlı təşbehlərdə işlədilir. ..Ovçu könlüm.. ellər dolanır, çöllər dolanır.

**Dolanmaq²**, *f.* Öz həyatını, dolanacağını bir vasitə ilə təmin etmək, güzəran etmək, keçinmək, yaşamaq. Biz sənsiz də dolanarıq. Necə dolanırıq, dilənçilər tək.

**Dolaşıq**, *sif.* 1. Düz getməyən, əyri-üyrü, dolanbac. Bizi çox çaşdırır dolaşıq yollar. Nədir bu dolaşıq, bu dar dalanlar?

2. Aydın olmayan, anlaşılmayan, başa düşülməyən; anlaşılmaz. Eşidilir radiolarda müqəssirlərin dolaşıq səsi.

3. *məc.* Çox mürəkkəb, aydın olmayan, bəlli olmayan, çətin həll olunan. Bu həyatın dolaşıq yollarını.

**Dolaşmaq**, *f.* 1. Gəzmək, gəzişmək, dolanmaq. Dolaşdım qəbiristanı, nə ucu var, nə bucağı. Asta addımlayıb ağır dolaşaq. // Obrazlı təşbehlərdə işlədilir. Fikri dolaşdığı vaxt «ya böyük Allah» deyir.

2. Yayılmaq, eşidilmək. Fırlanır, dolaşır təkər səsləri.

3. Keçmək, keçib getmək. Əsrlər dolaşıb keçsə də zaman.

**Dolay**, *is.* Dağın, təpənin döşündən gedən köndələn və əyri-üyrü, dolama yol; cığır. Dolaylarda bu gün belə; Ayaq izin yadigardır. Dolaylarda bahar çağı; Bir doyunca gəzim, dağlar!

**Doldurmaq**, *f.* 1. Tüfəng, tapança və b. odlu silahlara patron və s. qoyub atmağa hazırlamaq. Sizsə, tüfəngləri doldurub gedin.

2. *məc.* Yazılmaq, tutmaq, çulğalamaq, bürümək. Çadırı doldurdu şərabla tütün.

**Dolğun**, *sif.* 1. Dolu, iri. Yaşasın sünbülü dolğun zəmilər.

2. Lazımi dərəcəyə çatmış, kamala yetmiş; yetişmiş, yetkin. Gəncliyin bəzəkli və dolğun çağı; Bizə ümid verir, bizə can verir.

3. Yaşla dolmuş, ağlamsınmış. Bir aya bənzədi camalı solğun; Bir qıza bənzədi gözləri dolğun. Onun dolğun gözlərində min bir ümid şölələnir.

**Dollar** [*ing.* dollar] ABŞ və bəzi başqa ölkələrdə pul vahidi. Sən, ey beş-on dolların eşqinə 150 milyon azad insanları satan şarlatan! □ Dollar dünyası – dolların pul vahidi kimi işlədildiyi ölkələr. Yenə dollar dünyasının lərzə düşür varlığına.

**Dolmaq**, *f.* 1. Bir yerə daxil olub onu doldurmaq, hər yerini başdan-başa tutmaq, boş yer qoymamaq. Qarlı bir qış günü bir evə dolduq. Böyük bir qayığa doldu dəstəmiz.

2. Müəyyən yaşa çatmaq. Gəncliyin dolmuşdur iyirmi yaşa.

3. Çoxlu adam, müəyyən yerə yığılmaq. Min insanla doldu yolun solu-sağı.

4. İçində boş yer qalmamaq. Yelinləri dolacaqdır yenə sağmal inəklərin. // *məc.* Könlünə dolmuşdur mehrü-məhəbbət.

◊ Dolan bulud boşalacaq – mütləq baş verəcək, həyata keçəcək. Dolan bulud boşalacaq! – Bu hökmüdür təbiətin.

**Dolu**[1], *sif.* Bir şeyin çoxluğunu, bolluğunu bildirir. Vicdanı bir böyük eşq ilə dolu. Nəfəsi .. boranla dolu; Qış günü.

**Dolu**[2], *is.*: dolu kimi yağmaq – çoxluq bildirir. İbarələr dolu kimi yağır onun ağzından.

**Don**[1], *is.* 1. Qadınların üstdən geydikləri uzunətəkli, beli büzməli və ya büzməsiz paltar. Gündə ipək bir dona; Bəzənərmiş Mahniyar. // *məc.* Şəfəqdən don geysin yenə də göylər!

2. Donunda şəklində – görkəmində, bənzərində. O, insan donunda qocaman iblis.

◊ Don biçmək – kələk gəlmək, başını tovlamağa çalışmaq. Boz dağlara, qayalara yeni don biçir. Dona girmək – əsil mahiyyətini gizlətmək, cilddən-cildə girmək. Həyat bizə. Nələr deyir: düşmən girir min dona.

**Don**[2], *is.* Havanın sıfırdan aşağı dərəcəsi; şaxta. Əritdi donunu şaxtanın, qarın.

◊ Don vurmaq – bərk şaxtadan xarab olmaq. Bir çox ağacları don vurdu o il.

**Dondurmaq**, *f.* Soyuğun təsiri ilə buz halına salmaq. Donduraram torpaqları.

**Donlu**, *sif.* 1. Örtülü, geyinmiş, paltarlı. Yenə Krım göylərinin parlayacaq ulduzları; Yenə yaşıl donlu dağlar geyinəcək toy paltarı.

2. *məc.* Bənzətmə məqamında işlədilir. İnsan donlu iblisləri; Boğazından çəkək dara.

**Donmaq**, *f.* 1. Soyuğun şaxtanın təsirindən, şiddətindən bərk soyuq olmaq. Ayazda, şaxtada donan əlləri; Nə boyu görmüşdü, nə də bir əlcək.

2. Buz bağlamaq, buzla örtülmək. Dondu gölməçələr də, qamışlıqlar da. Dağlarda qar yağıb su donan vaxtda. // Obrazlı təşbehlərdə işlədilir. Donmuş ürəklərdə sönük bir ilham.

3. *məc.* Hər hansı bir hiss və ya təəssüratın təsiri altında bir anlıq sərbəst hərəkət qabiliyyətini itirmək. Donuram bu əksin qarşısında mən.

4. Bərkimək. Dondu cəbhələrdə laxta-laxta qan.

**Donub-qalmaq**, *f.* Mat qalmaq, heyrət içində qalmaq, çox təəccüb etmək (bəzən «yerində» sözü ilə). Öz yerimdə donub-qaldım, – budur! – dedim, – əmirin nədir? Əzəmətin qarşısında donub-qaldı qəsbkarlar.

**Donuq**, *sif.* 1. Aydın olmayan, naməlum. Donuq bir xırıltı titrək səsində.

2. *məc.* Key, hissiz, duyğusuz, quru, ölgün. Eşqsiz yaşayan donuq bir insan; İçini qurd yemiş boş bir ağacdır.

**Donuz**, *is.*: donuz burunu – enli, kifir burun. Yumruğumuz əzəcəkdir sənin donuz burnunu.

**Dost**, *is.* [*fars.*] 1. Birisi ilə dostluq münasibəti olan adam, yaxın yoldaş, arkadaş. Əziz qonağımdır, dostumdur Eldar! Dostum, a qardaşım, apar məni tez! □ Dost olmaq – aralarında dostluq münasibəti olmaq ya yaratmaq, dostlaşmaq. Duyub bu insanın dost olduğunu. // Obrazlı təşbehlərdə işlədilir. ..Qoşa yatıb dostum baharla.

2. Bir şeyi çox sevən, onun vurğunu olan (əsasən «dostu» kimi işlədilir). Şeir dostu bir insandan; Bir xatirə söylədilər.

2. *sif.* mənasında. Havadar, tərəfdar, müdafiəçi. Sən həyat dostusan, ellər zinəti! İnsanlıq eşqidir könlündə yanan.

3. Adətən dosta, yaxın adama müraciət məqamında işlədilir – dost! Gəlin, dostlar! Fərhad kimi külüng vuraq; Biz yaradaq dünyamızın qəhrəmanlıq dastanını!

**Dost-aşna**, *top.* [*fars.*] Dostlar, yaxın adamlar, yaxın yoldaşlar. Qulaq asın, dost-aşnalar.

**Dostluq**, *is.* Qarşılıqlı etimad, ruhən yaxınlıq, mənafe birliyi və s. əsasında əmələ gələn yaxın münasibət. Dostluğu dar gündə unutmaq olmaz. Dostluğu da rüşvət olan bir iblis. □ Dostluq yaratmaq – aralarında dostluq münasibəti əmələ gətirmək. O vaxt hər tərəfə mən əl-qol atdım; Bizans dövlətilə dostluq yaratdım.

**Dost-tanış**, *top.* Dost, yaxın adam, yaxın yoldaş, dost-aşna. ..Hal-əhval tutdu dostdan-tanışdan.

**Dovğa**, *is.* Ayran, göyərti və düyüdən (bəzən də ətdən) bişirilən duru xörək. Yaz ola, dovğa ola yarpızla.

**Doymaq**, *f.* Təngə gəlmək, bıqmaq, bezikmək, ürəiyni vurmaq. Deyib-danışmaqdan doymamışam mən. Yazıb-yaratmaqdan heç doymamışdır.

**Doyunca**, *z.* 1. Doyana qədər. Suyunu içdikcə çöllər doyunca. □ Doyunca içmək – *məc.* çox qaniçən, zalım adama müraciətlə və ya onun haqqında deyilir. Buyur, doyunca iç, tökdüyün qandan. Doyunca içərəm sənin qanından.

2. *məc.* İstədiyi qədər, ürəyinin ehtiyacı dəf olana qədər, çoxlu. Doyunca islandı göy biçənəklər.

3. *məc.* Həddən artıq, lap çox. Yalan vədləri gördük doyunca.

**Döndərmək**, *f.* 1. İstiqamətini dəyişmək, başqa səmtə istiqamətləndirmək. Sarvan Kürü döndərməmiş, su basmamış bu yerləri.

2. *məc.* Başqa şəklə, görünüşə salmaq. [Xosrov:] Gədayə döndərdi məni məhəbbət.

3. *məc.* Məzmununu dəyişmək, yeni məzmun vermək. şeirlərimi şüarlara döndərirəm…

**Dönə-dönə**, *z.* Təkrarən. Dönə-dönə göz gəzdirib insanlara yenə baxır. Öz hüsnünə dönə-dönə baxır vüqarla.

**Döngə**, *is.* Küçənin, yolun, arxın və s.-nin dönən, burulan yeri. Basıb daş yığını dar döngələri..

**Dönmək**, *f.* 1. Qayıtmaq, geri qayıtmaq. Camışlar belində dönərdik evə. Bir gün dönəcəyəm çıxdığım yurda. Axşamlar öz yurduna həsrətlə dönərkən.

2. Sözünü, vədini, qərarını pozmaq, sözündən qaçmaq. Sən öz dediyindən dönməyəcəksən.

3. Dönüb şəklində – 1) başını, üzünü çevirərək, dönüb baxdı gülə-gülə; 2) qayıdaraq, cavab olaraq. Dönüb «qardaş» deyir, «dost» deyir bizə.

4. Başqa şəkil almaq; dəyişmək. Dönmüş, o da dönmüş və dəyişmiş, bunu bildim. // Obrazlı təşbehlərdə işlədilir. Qoy axsın o qanlar, sellərə dönsün.

5. ...halına düşmək, ...şəklini almaq. Sonra baş götürüb dön bir ağ yelə. // Çevrilmək. İnsan oğlu iftixarla dönüb baxır qüdrətinə. // Keyfiyyəti dəyişmək, başqa keyfiyyət almaq. Sən o deyilən, ah! Dəyişdin, döndün.

**Dönməz**, *sif.* Səbatlı, əzmli, dözümlü, fikrində, qərarında möhkəm və ardıcıl. Dönməz oğulların iradəsindən; Gəncləşir qocaman vətən torpağı.

**Dönük**, *sif.* Sözündə, əhdində, məsləkində durmayan; səbatsız, etibarsız, vəfasız. O boyalı sima, o dönük iman.

**Dörd**, *miqd.s.* Beşballı sistemdə şagirdin müvəffəqiyyətini göstərən və «yaxşı» ifadə edən nömrə. Bir il sonra institutu dördlə bitirdi.

◊ Dörd bir yan (tərəf) – *bax* dörd yan. O qoca dünyanın dörd bir yanında. Fotoqraflar hücum çəkir dörd bir tərəfdən. Dörd qat əyilmək – qocalıqdan beli bükülmək. Unutmaram, bil ki, hər axşam-səhər; Tamam qocalıb da dörd qat əyilən. Dörd qat bükülmək – baş əymək. Özündən güclüyə dörd qat bükülən. Dörd divar içində qalmaq – heç kəslə, xarici aləmlə əlaqəsi olmaq, əlaqəsi kəsilmək. Daima dörd divar içində qaldım. Dörd yan – hər yan, hər tərəf, ətraf. Axar sular dörd yanında. Misri qılıncını çaldın dörd yana. Dörd yer – *bax* dörd yan. Elə bil sıxırlar məni dörd yerdən. Dörd tərəf – *bax* dörd yan. Onun dörd tərəfi qara dumandır.

**Dörddivarlı**, *sif.* Dörd divarı olan. Sığmaz.. ürək; Dörddivarlı bir otağa.

**Dördnala**, *z.* Atın dörd ayağını yerdən üzüb atıla-atıla çaparaq getməsi. Öz kəhər ürkəni çatdın dördnala. Sür atını, dördnala çat! Meydan sənindir!

**Döş**, *is.* 1. Bədənin boyundan qarına qədər olan ön hissəsi; köks, sinə. Döşlərində neçə orden vardır onların. Biləklər çirməkli, döşlər önlüklü.

2. Məmə, əmcək. Mənə süd vermişdir öz döşlərindən. Bol süd də əmmədik ana döşündən.

3. Dağın, təpənin yamacı. Əriyir güneylər döşündəki qar. Çıxıram döşlərə ….dərə-dərə.

◊ Döşünə qalxan çəkmək – keçmişdə: qalxanla özünü düşmənin qılınc zərbəsindən müdafiə etmək. Öz döşlərinə qalxan çəkib, qılınc tutmuş sağ əlində. Döşünə döymək – lovğalanmaq, özünü öymək, öyünmək. Döşünə döyməzdi o, məclislərdə. Öz döşünə döyüb ellər önündə.

**Döş-döşə**, *z.*: döş-döşə gəlmək – üz-üzə gəlmək, qabaq-qabağa çıxmaq, qarşılaşmaq. Bəzən də döş-döşə gəldikcə onlar.

**Döşək**, *is.* Davamlı parçadan hazırlanmış və üzərində yatmaq üçün içərisi yun, pambıq və s. Yumşaq şeylərlə doldurulmuş kisə. Yorğanın, döşəyin yununu tökür. // Obrazlı təşbehlərdə işlədilir. Deyirlər ki, döşəyin yer, yastığın daşlar olur.

**Döşəmə**, *is.* Otağın və s.-nin alt tərəfini örtən taxta, torpaq və s. Mərmər döşəmələr üstə xalılar.

**Döşəməli**, *sif.* Döşəməsi olan, üstü bir şeylə döşənmiş, örtülmüş. Düşməniyəm onların; Divarları məxmər və ipək döşəməli salonların. İpək döşəməli xanimanlardan; Rəqqasə qızların səsi yüksəlir.

**Döşənmək**, *məch.*: məxmər kimi (tək) döşənmək – yaşıl ot (əsasən yonca) bitmək. Yaşıl məxmər tək döşənmiş yonca.

**Dövlət**[1], *is.* [ər.] Ölkənin hakim sinfinin, mövcud idarə üsulunu qorumaq və başqa siniflərin müqavimətini aradan qaldırmaq məqsədini güdən siyasi təşkilatı. Vətənimin, dövlətimin al bayrağıdır. [Xosrov:] Bizans dövlətilə dostluq yaratdım.

**Dövlət**[2], *is.* [ər.] Mal, mülk, pul və s. maddi nemətlərin məcmusu; sərvət. Qolumdan yapışdı dövlətim, varım. Atıb-daşacaqdır sizinçin dövlət.

◊ Dövlət quşu – 1) nağıllarda əfsanəvi və mövhumi bir quşdur ki, padşah seçilən zaman uçurdulur və hər kimin

başına qonsaydı, onu padşah təyin edirlərmiş. Dövlət quşu kimi başıma düşdü; 2) bəxt, tale, səadət rəmzi. O, bir dövlət quşudur ki, hər eyvana uçub qonmaz.

**Dövlət-mal**, *is.* Var-dövlət, mal-dövlət. Bəylərin dövləti-malı talandı; Onların yurdunda ocaq qalandı.

**Dövr**, *is.* [ər.] *bax* dövran. Belədir babalar dövründən bəri.

**Dövran**, *is.* [ər.] Zaman, zəmanə, dövr, vaxt, çağ. Tarix o dövranı qaytaran deyil. Xəstə Vurğun bu dövranı alqışlar. // Obrazlı təşbehlərdə işlədilir. O varlığı acı dövran; Bir heçliyə aparmışdır.

◊ Dövran açmaq – toy və b. şadlıq məclisi qurmaq. Xəyalımda dövran açır, büsat qurur; Bizim Muğan düzlərinin ovlaqları. Dövran bada vermək – məhv etmək, bada vermək. Səninkidir o tək məzar; Onu dövran verdi bada. Dövran keçirmək – yaşamaq, həyat sürmək, gün keçirmək. Qarlı dağlar şahid durur keçirdiyim bu dövrana. Dövran keçmək – həyat öz axarı ilə davam etmək, keçib-getmək. Darıxma, darıxma, keçər bu dövran. Dövran gəlib-keçmək – bax dövran keçmək. Sənin həyat dəftərindən nə dövranlar gəlib-keçdi. Dövran beşdaş oynamaq – adamla oyuncaq kimi rəftar etmək (dövran haqqında). [Məryam:] Beşdaş oynamasın mənimlə dövran. Dövran sürmək – *bax* dövran keçirmək. Dünən dövran sürən bu gün can verir. Dövranımı çox sürmüşəm. Dövran üzə xoş baxmaq – dövranı xoş keçmək, rahat yaşamaq. Dövran üzə xoş baxanda; Ömür, gün də təzələnər. Dövranlar sürmək – bax dövran sürmək. Bizim gənclik nə dövranlar sürəcəkdir? Xoş dövranlar sürəsiniz. Dövranı getmək – vaxtı kemçk. Oyanın, qəflətin dövranı keçdi. Dövranı olmaq – həyat sürmək, yaşamaq. [Səhər:] Of… tale! Nə yaman dövranın varmış. Dövranın üzü dönmək – taleyi pis gətirmək, çətin yaşamaq. Yoxsa.. o ülfətdən; Dövranınmı üzü döndü? Aman dövran əlindən – həyatdan narazılığı yaşayışdan şikayəti bildirir. Ay aman! Gündə bir don geyən dövran əlindən!

**Dövrə**, *is.* [ər.] Ətraf, həndəvər, yan. Buruqlar dövrəmdə cərkələnmişdir.

**Döyə-döyə**, *z.* Dözərək, fiziki qüvvə işlədərək. İşçi qardaş ağ günlərin qapısını döyə-döyə.

**Döymək**, *f.* 1. Birini əl və yaxud başqa şeylə vurmaq; kötəkləmək, əzişdirmək. Əvət! Tapdalardım, döyər, əzərdim; İnsanlığın məğrur, dönməz başını.

2. Bir şeyi başqa bir şeylə vuraraq səs çıxarmaq; taqqıldatmaq. Artıq gəlib mən döyərəm qapımızı.

3. *məc.* Vurmaq, döyəcləmək, çarpmaq. Sahili döydükcə bəzən ləpələr; Şairin xəyalı uçub yüksəlir. Küləklər döydükcə al yanağını; Nədir gözlədiyin? – soruşuram mən.

4. *məc.* Sındırmaq, qırmaq. Mənim sərvimi birdən boran döydü, külək əydi.

**Döyünmək**, *f.* 1. Xəstəlik üzündən yaxud qorxudan, həyəcandan, sevinməkdən və b. səbəblərdən tez-tez vurmaq, çırpınmaq (ürək). Ürəyi döyünür, gözü qaralır.

2. *məc.* Hirslənmək, coşmaq (Kür). Görürsənmi? O bulanır, o hirslidir, o döyünür.

3. *məc.* Vurulmaq, döyəclənmək. Sahillər döyünüb titrəyir zağ-zağ.

**Döyüntü**, *is.* Döyünmə. Döyüntü bilməyir burda ürəklər; Səyirdir atını qopan küləklər. // *məc.* Sakit olur yerin-göyün qəlbindəki döyüntülər.

**Döyüş**, *is.* Pozmaz cərgəmizi nə dərə, nə düz; Hazırdır döyüşə qızıl süngümüz. Yollar uzun keçdi, döyüşlər çətin. // Mübarizə, mübahisə, deyişmə. Dünya şairləri döyüşə gəlsin.

**Döyüşçü,** *is.* Əsgər. Yorğun döyüşçütək yatıb dincəlir.

**Döyüşdürmək**, *icb.* Bir-biri ilə vuruşdurmaq, dalaşdırmaq, döyüşməyə məcbur etmək. Xoruz dalaşdırır, qoç döyüşdürər..

**Döyüşmək**, *qarş.* (Bir-biri ilə) çarpışmaq, vuruşmaq, savaşmaq, toqquşmaq. Döyüşdükcə qoca qartal; Qüvvət alır balü pəri. Biz az döyüşmədik qoca dünyada..

**Dözmək**, *f.* Davam gətirmək, tab gətirmək, səbr edərək keçirmək, qatlaşmaq. Dözdük hər qıtlığa, hər kasadlığa. Ah, yazıq babalar, dözüb min dərdə. ◊ Dözməyə qüvvəsi qalmamaq – daha dözə bilməmək. [Banu:] Danış ki, dözməyə qüvvəli qalmamış.

**Dözümlü**, *f.* Dözümü olan; səbrili, davamlı, mətanətli, tablı. [İdris] Gələcəkdə dözümlü ol!

**Dua**, *is.* [ər.] Dindar adamların bir mətləblə Allaha və müqəddəs saydıqları şəxslərə müraciət yaxud da ibadət zamanı zikr etdikləri sözlər. Ağzındakı duaları şaşırmışdır Vatikan da.

**Duaçı**, *is.* [*köhn.*] Birinə yaxşılıq, uzun ömür, səadət arzu edən, dua edən adam. Sizə duaçıdır nəsillərimiz.

**Dul**, 1. *sif.* Ərinin ölümündən sonra ərə getməmiş (qadın) və ya arvadının ölümündən sonra evlənməmiş (kişi). ..Dul gəlinlər, yaslı qızlar. □ Dul qalmaq – əri (və ya arvadı) ölmək. [İslam:] Neyləyim, qızların hamsı dul qalsın?. Dul qalan gəlinin odlu naləsi.

2. *is.* Dul kişi və ya dul arvad. Bağırdım. Gülərək, ey ləkəli dul!

**Duman**, *is.* 1. Atmosferin aşağı təbəqələrində su buxarının toplanması nəticəsində əmələ gələn kəsif, tutqun hava kütləsi; sis. Yenə dağ başını duman, sis alır. Sıx buludlar, boz dumanlar.

2. Tüstü. Dumanlar, tüstülər qopmuş qılınclar, toplar ağzından; Həyat eşqilə odlardan, alovlardan keçir insan!

3. Toz, tüstü və s.-nin havaya qalxmasından hasil olan tutqunluq, bulanıqlıq. Nə yağmur, nə yağış, nə boran, nə qar; Nə duman, nə çən səni qorxutmadı.

4. *məc.* Bir şeyi örtən pərdə, örtü mənasında. Gözlərində duman, baxışları qar. ….Əflakı ahım dumanı sarsın.

5. *məc.* Üzdə, gözdə kədər, qəmginlik, hüzn əlaməti. Gəlin, balalarım! Öpüm sizi mən; Bir duman görməsin xoş sifətiniz.

**Dumanlanmaq**, *məch.* Duman qalxmaq, tüstü çıxmaq. Bu sadə tonqalın yaşıl tüstüsü; Gecənin qoynunda dumanlanırdı. // Nazik təbəqə ilə örtülmək, tutqunlaşmaq, kəsifləşmək. İnsanın başında dağ dumanlanır.

**Dumanlı**, *sif.* 1. Dumanla örtülü, duman bürümüş. Dumanlı dağlara boylanıb durur. Dumanlı dağ, sulu dərə.

2. *məc.* Qarışıq, tutqun, aydın olmayan. Bəşər qardaşlığı tərk etmiş, əfsus! Hər əməl dumanlı xülyaya bənzər. // *məc.* Üstüörtülü, qeyri-müəyyən, anlaşılmaz, aydın olmayan. Dağın bir dumanlı heçmişi vardır.

3. *məc.* Keçmişi və ya gələcəyi aydın olmayan; naməlum. [Əsrimiz] üstü sıx dumanlı bir dənizdir. [Şahbaz:] Sən ey başladığım dumanlı əsər.

◊ Dumanlı olmaq – aydın olmamaq, qeyri-müəyyən olmaq. Ömründə bir dəfə gülmədi üzü; Çünki dumanlıydı düşüncələri.

**Durbinli**, *sif.* Durbini olan, əlində durbin olan. Pəncərədən baxıb qaçır ağ durbinli xanımlar.

**Durduqca**, *z.* Nə qədər ki, var, mövcuddur. Vətən sevdası durduqca; Sənin eşqin də var olsun.

**Durğun**, *sif.* Axarı olmayan, bir yerdə duran; axmayan. Durğun sulardakı axışla ruhum.

**Durmadan**, *z.* Dayanmadan, arası kəsilmədən, ara vermədən, daim. Əsirdi durmadan birbaşa yellər; Döyürdü bağrını dağ-daşa sellər. Gəzər, gəzər öylə durmadan bir an.

**Durmaq**, *f.* 1. Ayaq üstə, şaquli vəziyyətdə, hərəkətsiz dayanmaq. Hamı qulluğumda hazır durardı. // *məc.* Evlər ordu kimi durur nizamla.

2. Yerləşmək, olmaq, dikəlmək. Keçici bayraq da yanında durur.

3. Dayanmaq, hərəkətinə ara vermək. Qatar durur… Yollar susur; Yer tərpənir ağır-ağır.

4. Qərar tapmaq, rahat qalmaq, sakit qalmaq. İnsan fikri səyyar olar, bir yerdə durmaz.

5. Davam etmək, var olmaq, mövcud olmaq, yerində durmaqda davam etmək. Bilməm, qaç əsrdir yaranmış durur.

6. İşləməmək, fəaliyyətdən qalmaq, hərəkətsiz qalmaq. Nə bir durur, nə dincəlir. // Durun şəklində, əmr formasında dayanın, etməyin. Durun! Mən deyiləm vətən xaini. // Müəyyən yerdə hərəkətinə ara vermək; əylənmək. Gəlib bir təpənin yanında durdu.

7. Gözləmək, səbir etmək, toxdamaq. [Vəzir:] Otuz il durmuşam əmrə müntəzir.

8. Yerləşmək, vaqe olmaq. Ormanlar içində durur. Talıstan.

9. Olmaq, mövcud olmaq. Ayağa qalxaraq durduğu yerdən.

10. İsraf etmək, dediyindən dönməmək. Dilsiz qayalara dil deyib durdun.

11. Nəzərə çarpmaq, görsənmək. Durur divarlarda güllə nişanı.

12. Hərəkət etmək, davranmaq. Qoy bizə gülməsin nə dost, nə də yad; ehtiyatlı dolan, ehtiyatlı dur.

13. İnkar şəklində, ikinci şəxsin cəmində: durmayın – tələsin, tez olun, dayanmayın, gecikməyin. Yaxşı, di durmayın, dayanmaq olmaz. Durmayın, çəkilin tez meşələrə!

**Durna**, *is.* (*zool.*). Dimdiyi, boğazı və ayaqları uzun, köçəri iri bataqlıq quşu. Di gəl durnalara bir şeir deyək. Siz, ey göy üzündə uçan durnalar!

◊ Durna baxışlar *(şair)* – təmiz, saf, şəffaf, dupduru gözlə baxışlar. Durna baxışları, şirin söhbəti. Durna gözü *(şair)* – təmiz, saf, şəffaf, dupduru göz. Nə də ki o durna gözlərin sənin; Artıq güldürməyir, açmayır məni. Gecikmiş durna – köçüb gedən durna qatarından ayrı düşmüş, geri qalmış durna. İnsanın xəyalı hey yüksəlirdi; Gecikmiş durnanın səsi gəlirdi.

**Durnagözlü**, *sif.* Təmiz, saf, dumduru (əsasən su haqqında). Ətəkləri məskəniymiş durnagözlü bulaqların. Çox keçmişəm bu dağlardan; Durnagözlü bulaqlardan.

**Durub-durub**, *z.* Təkrar edərək, təkrarən. Elə durub-durub ellər deməkdən.

**Durub-oturub**, *z.* Durub-oturaraq, həm durub, həm də oturaraq, durub və oturub. Öz yaşından böyüklərlə durub-oturdu.

**Durulmaq**, *f.* 1. Duru olmaq, duru hala gəlmək, saf və təmiz hala düşmək. Boz səhralar çiçək açır, sular durulur; Dağlar üstə dağlar qoyur insan hünəri.

2. *məc.* Hava açılmaq, işıqlanmaq. Gecə yarı günəş doğur… zülmət durulur…

◊ Göz kimi durulmaq – lap saf, çox təmiz olmaq. Göz kimi durulur qaynar bulaqlar. Gah bulanmaq, gah durulmaq – haldan-hala düşmək, halı rəngli və s. dəyişmək. Bu el qızı, el gözəli; Gah durulur, gah bulanır. Rəngi gah bulanır, gah da durulur.

**Duruş**, *is.* Durma tərzi, durma vəziyyəti, özünü tutma tərzi. Ceyranın duruşu, durnanın gözü; Kəkliyin ayağı yadıma düşdü. Gəzişinə, duruşuna bizim bu şəhər.

**Dustaq**, *is.* Həbs olunmuş, yaxud dustaqxanada saxlanılan adam; məhbus. Bir dustağam qolum bağlı. // *məc.* Məhbus kimi evdən bayıra çıxmayan, xarici aləm, cəmiyyət ilə əlaqəsi olmayan adam haqqında. Yüz ildir ki, dustağam mən. // Obrazlı təşbehlərdə işlədilir. Fikir azad, ürək dustaq deyildir. Qurtuluş axtarır dustaq arzular. // *məc.* Hiss, qayğı və s.-nin əlində giriftar olan adam haqqında. Dolaşıq qayğıların, fikirlərin dustağı. O indi dustaqdır hissin əlində. □ Dustaq qalmaq – *bax* dustaq olmaq. [Loğman:] İşıqsız bir evdə dustaq qalanlar. Dustaq olmaq – obrazlı ifadələrdə azad olmamaq, məhbus olmaq, nəzarət altında saxlanmaq mənasında işlədilir. Dustaq olmuş neçə qadın məhəbbəti. Can dustaq olanda gülərmi ürək.

**Duvaq**, *is.* Gəlin gedən qızın üzünü örtən tül pərdə. Üzündəki lalərəngli o al duvaq; Parıl-parıl ətrafına şölə salır [Vaqif:] A qızım, üzündən götür duvağı.

**Duya-duya**, *z.* Hiss edə-edə, duyaraq. Nələr keçdiyini o duya-duya.

**Duyğu**, *is.* 1. Obyektiv aləmin hadisələrini qavrama, hiss etmə qabiliyyəti; hiss. O təmiz duyğular, o saf ürəklər.

2. Öz hissləri, təəssüratı əsasında bir şeyi qavrama, dərk etmə, başa düşmə qabiliyyəti. Gözəlliksiz bir sənətin nə duyğusu, nə canı var.

3. Başa düşmə, anlama qabiliyyəti. Heyranam qızdakı bu duyğulara!..

**Duyğusuz**, *sif.* 1. Duyğusu olmayan, heç bir şey hiss etməyən, duymayan. Mən ona (rəqəmə) duyğusuz deyə bilmərəm.

2. *məc.* Həyata, hadisələrə, varlığa laqeyd baxan, onları dərk etməyən, heç bir şeydən təsirlənməyən. Dastanlar yaradaq, dastanlar quraq; Gələcək duyğusuz (*z.*) deməsin bizə. Ancaq faşist duyğusuzdur. // Obrazlı təşbehlərdə işlədilir. Əsdi zərbələrlə duyğusuz ruzgar..

**Duymaq**, *f.* 1. Hiss etmək, hiss üzvlərinin biri vasitəsilə qavramaq. Səndə dağ havası duyuram, inan! Duyan bir qəlb, görən bir göz deməlidir.. // Obrazlı təşbehlərdə işlədilir. Səhra duyur, səhra duyur bir insan kimi.

2. Anlamaq, sezmək, başa düşmək, ürəyinə dammaq. Zənci bunu deməsə də, arzusunu mən duyuram. Axan şeiriyyəti duymadı əri.

**Duyulmaq**, *məch.* Hiss edilmək, başa düşülmək sezilmək. Çadırdan-çadıra qonaq gəzərdin; Yazıq! Duyulmadı sənin də dərdin.

**Duz-çörək**, *is.* Duz və çörək. O yediyim duz-çörəklər. Duz-çörək hazırla qəhrəmanlara.

**Duzitirən**, *sif.* və *is.* Yaxşılığı itirən; nankor. Duzitirən bir şairin üzü gülməz.

**Duzlu**, *sif.* Xoş, ürəyəyatan, sevimli, xoşagələn, qanışirin, suyuşirin, cazibəli. Hər sözü, söhbəti duzlu, məzəli; Süzür kəklik kimi ellər gözəli.

**Düçar**, *if.* [*fars.*]: düçar olmaq – mübtəla olmaq, başına gəlmək, tutulmaq. İnsan oğlu düçar olmaz; Hər zülmətdən doğan dərdə. [İslam:] Eşqə düçar olur seçilməyənlər.

**Düha**, *is.* [ər.] 1. İnsan zəkasının, istedadının ən yüksək zirvəsi; xariqüladə ağıl və zəka; dahilik. Başqadır elm, düha, min hikmət. Alqış bizim bu dünyanı dühasilə qurana.

2. Bu cür ağıl və zəkası olan şəxs; dahi. Bəşərin ölməyən dühaları var. Çılğın dühalar ki, hökm edər qərbə.

**Dükan**, *is.* [ər.] Mal satmaq üçün kiçik bina, kiçik mağaza. Soğan da qalmayıb bu dükanlarda.

**Dümağ**, *sif.* Ağappaq, lap ağ, tamamilə ağ. Ağardı Aygünün sifəti dümağ. Mən gördükcə saçlarını dümağ.

**Dümdüz**, *sif.* Tamamilə düz, çox düz, lap düz. Göyü xəncər kimi dümdüz (*z.*) yararaq..

**Dümsükləmək**, *f.* Vurmaq, zərbələmək, dümsük vurmaq. [Samur çayı] Dümsükləyib təbiəti yuxusundan oyadır.

**Dün**, *is.* (*köhn.*) Dünən. Dün öylə gedirdim ahəstə, rəvan. Dün tutqun könüllər artıq açıldı.

**Dünən**, *is.* Bu gündən əvvəlki gün, keçən gün, irəliki gün. Dünəndən bu günə bir yadigardır. // Yaxın və uzaq keçmiş. Dünən «mən, mən» deyən lövğa «rəhbərlər».

**Dünənki**, *sif.*: dünənki gün – keçmiş gün, bu gün yox, keçmiş gün. Biz ayrı düşdükcə dünənki gündən.

**Dünənsiz**, *sif.* Dünəni olmayan. Sabah da bugünsüz, dünənsiz, deyil.

**Dünkü**. *Bax* dünənki. Dünki bir lövhə ki bir səmti viran.

**Dünya**, *is.* [ər.] 1. Bir küll kimi maddənin bütün formalarının məcmusu; kainat. Dünya çox böyükdür min bir yuvan var.

2. Yer kürəsi, yer üzü; aləm. Baxın bu dünyada neçə hakim var. Dünya başdan-başa qoy cənnət olsun. □ Axirət dünyası – öldükdən sonra insanların qalacaqları və bu dün-

yaya qarşı qoyulan dünya; Axirət dünyası qalacaq bizə. Bu dünya – insanların axirət dünyasına qarşı qoyulan yaşadıqları dünya. Bu dünya beş gündür beşi də qara. Cənnəti alıram mən bu dünyadan. // Obrazlı təşbehlərdə işlədilir. Hünər dünyasından doymadı, getdi. Həqiqət dünyası yalanmı olsun?! // Keçmiş, keçmiş həyat. [Telli saz] Bizə dünyamızdan bir yadigardır.

3. *məc.* Müəyyən ictimai quruluş; mədəni və ictimai-tarixi əlamətlərinə görə birləşmiş insan cəmiyyəti, ictimai mühit. Yıxılsın ağalar, qullar dünyası. Bu əllərlə o uçurdu qəsbkarlar dünyasını.

4. *məc.* İnsanın müxtəlif şəkildə təzahür edən mənəvi aləmi, hissləri, təəssüratı, təsəvvürləri. Hər ürəyin öz dünyası bir səadət arzular; Qanlar ilə yazılmışdır hər azadlıq dastanı.

5. *məc.* Bütün insanlar, adamlar, el, xalq, camaat. Dünya tanımamış hələ adımı.

6. *məc.* Həyat, yaşayış. Dünyada kasadlıq görməyəsən sən.

7. *məc.* İnsanlırn müəyyən fəaliyyət sahəsi, aləmi. Sənət dünyasına eşqin nə deyir?

◊ Dünya boyda – çox böyük, həddən artıq iri. Gəzir dünya boyda bir ev içində. Dünya boyda fikri unudub. Dünya varı – var, dövlət, zənginlik. Səhraların oğlu, qızı; Bir görmədi dünya varı. Şair! Çox aldanma dünya varına. Dünya qocalmaq – vaxtı keçmək, zaman ötmək. İnsan yaşa dolur, dünya qocalır. Dünya qurmaq – yeni bir şey düzəltmək, icad etmək. Görürəm ki, o, yeni bir dünya qurur. Dünya dar olmaq – çətin yaşamaq, ağır həyat sürmək. Yurdunu atana dünya dar olsun! Dünya durduqca – həmişə daima. Bu dünya durduqca o da var olsun! Dünya gözəli – çox gözəl qız (qadın) haqqında; dilbər. Dünya gözəli, qaçma bəşərdən. Dünya hərbi – dünya müharibəsi, dünyanın bir neçə qitəsində olan çoxlu dövlətlərin iştirak etdiyi genişmiqyaslı müharibə. O dünya hərbinə yollar aradın. Dünyada qalmaq – unudulmamaq, həmişə xatırlanmaq.

Qalır ancaq yenə dünyada səsi. Dünyada həyat sürmək – yaşamaq. Sürmədim bir həyat canlı dünyada. Dünyadan keçmək – ölmək, vəfat etmək. O yeyib-içib... dünyadan keçib... Dünyadan ləzzət aparmaq – kef içində, şadlıqla yaşamaq. Kef çəkin, dünyadan ləzzət aparın! Dünyaya dəymək – çox, dünya qədər qiyməti olmaq. Bu sadə istəyin dünyaya dəyər. Dünyaya gəlmək – doğulmaq, anadan olmaq. Dünyaya gəldiyim zamandan bəri. Elə bil ki, qara zənci bu dünyaya gələn zaman. Dünyaya gətirmək – vücuda gətirmək, törətmək, boğmaq. Biri məni bu dünyaya gətirmişdir məhəbbətlə. Dünyalar qədər – lap çox, son dərəcə çox, hədsiz. Aygün hələ soyunmamış toy paltarını; Hələ şaddır, bəxtiyardır dünyalar qədər. Dünyanı tutub qalmamaq – həmişəlik ömür sürməmək, daimi yaşamamaq. Tutub bu dünyanı qalmayacaqsan. Dünyanın xəritəsi dəyişmək – bəzi dövlətlərin məhv olması, yeni dövlətlərin əmələ gəlməsi mənasında. Dəyişir dünyanın ilk xəritəsi. Dünyanın mənası dəyişmək – dünyanın məzmunca dəyişməsi mənasında. Dəyişir dünyanın köhnə mənası. Dünyanın məhvəri dönməz – dünya geriyə getməz, dünyanı geri qaytarmaq olmaz. [Azər baba:] Dedim ki, dünyanın məhvəri dönməz. Dünyası olmaq – hər bir şeyin öz aləmi olmaq. Hər kiçik sözün də öz dünyası var.

**Dünyagörmüş**, *sif.* Həyat təcrübəsi çox olan, mübarizələrdən, çətinliklərdən, sınaqlardan çıxmış; təcrübəli, müdrik. Dünyagörmüş bir qocadan soruşdum. // Obrazlı təşbehlərdə işlədilir: çox qədim, tarixi. Bakı kimi dünyagörmüş bir limanda; O hökmdar qurdu Şirvan paytaxtını. Bizim dünyagörmüş o qoca dağlar..

**Dür(r)**, *is.* [ər.]: ağzından dürr saçmaq – çox gözəl, mənalı və rəvan danışmaq, gözəl və dəyərli sözlər söyləmək. Öz sədəf ağzından yüz min dür saçar.

**Dürlü**, *sif.* Müxtəlif cür. Həm də bidətlərdən, dürlü imandan; Bir əsər görünməz. ☐ Min dürlü – min cür, çox müxtəlif, çoxlu. Min dürlü ziya parladı, min ah ilə söndü.

Hər dürlü – hər cür, müxtəlif. Bir həvəs məni; Hər dürlü matəmdən, qəmdən uçurdu.

**Dürüst**, *sif.* [*fars.*] Düz işləyən. Dürüst bir saatın əqrəbləritək..

**Düstur**, *is.* [ər.] Qanun, qayda, üsul. Həmən bu düsturu öyrənib də sən; Ər oğlu ər kimi tab et bəlaya. Böylə bir düstur qocalmış ideal olsun gərək.

**Düşərgə**, *is.* Müvəqqəti yaşayış yeri, müvəqqəti yurd, mənzil. Düşərgə axtarır huşum, diqqətim.

**Düşkün**, *sif.* 1. Xoşbəxtliyini, rifahını itirmiş; yazıq, bədbəxt, zavallı. Mənim düşkün könlüm sizdən eləyir; Bu fərz olan təmənnanı, cavanlar.

2. Zəif, cansız, əldən düşmüş, üzgün, xəstə. Sənə qurban olsun bu düşkün canım.

3. Bir şeyin hərisi olan, bir şeyin həddən artıq aludəsi olan. Sevdalar düşkünü komsomol Cəlal. Vəzifə düşkünü o dəyyusları.

**Düşkünlük**, *is.* Düşkün adamın halı, düşkün olma. Təbiətində, doğrusu, düşkünlük, ağırlıq vardır.

**Düşmək**, *f.* 1. Oturduğu, durduğu, ya çıxdığı yerdən aşağıya enmək. Artıq zənci tribunadan vüqar ilə düşüb gedir.

2. Bir şeyin içinə dalmaq, içində olmaq. Odlara düşsəm də «ölmərəm» dedi.

3. Yuxarıdan aşağı enmək. Az qalır ki, düşə başımdan papaq.

4. Çatmaq, yetişmək. Əsgərliyə düşmür yaşım.

5. Baş vermək, vaqe olmaq. İş ki belə düşdü – meydanda varam.

6. Başqa yerə tökülmək. Dənizdən bir dalğa düşsə quruya; Bir çuxur yer qazıb dönər quyuya.

7. Başqa yerdə yaşamaq, olmaq. Kaş ki düşməyəydim bu saraylara.

8. Atmaq, tullamaq. [Şirin:] Məni, doğrudan da, sevirsənsə sən; Qılıncı yerə at, düşsün əlindən!

9. Əks etmək. Al günəşin şəfəqləri düşür suya.

10. İtirmək, qeyb etmək, məhrum olmaq. Düşübdür o keçən təravətindən. // Hər hansı bir vəziyyət, şərait və s. içərisində olmaq, giriftar olmaq. Yeraltı damlarda ana bətnindən; İşığa düşmədik, zülmətə düşdük.

12. Tökülmək. Əsdi xəzan, düşdü yarpaq.

13. Başlamaq, girmək. Axşam qaranlığı düşdüyü zaman. Düşdü axşam… Gəldi gecə // Eyni mənada fəsillər haqqında. Payız düşüb saralmamış; Ağacların yarpaqları.

14. Bir çox isimlərə qoşularaq müxtəlif ifadələr düzəldilir. O qara gözlərin dillərə düşdü. Düşüb qapılara gəzərdi hamı. Tərlanlar oylağı yadıma düşdü.

**Düşmən**, *is.* [*fars.*] 1. Müharibə, döyüşdə əks cəbhədə vuruşan adam, dövlət; yağı. [Baku:] Düşmənlə qoç kimi durun üz-üzə; Sizi tapşırıram ulu Hürmüzə. Düşmən basıldıqca dedi: od vurun.

2. Birinə qarşı ədavət düşmənçilik bəsləyən və onunla mübarizə aparan, çəkişən şəxs. Düşmən öz kinini möhkəm gizlədi. // Obrazlı təşbehlərdə işlədilir. Sükunət başdan düşmənimdir üzü murdar qaranlıq.

◊ Düşmən olub qalmamaq – həmişə düşmənçilik etməmək, daima düşmən olmamaq. Düşmən olub qalmayacaq tarix boyu xeyirlə şər.

**Düşüncə**, *is.* 1. Xəyal, fikir. O bir inqilabdır düşüncələrdə. □ Düşüncəyə getmək – xəyala dalmaq, fikirləşmək. Hansı xəyallara, düşüncələrə; Onun getdiyini deyə bilmərəm. // Fikrə, xəyala gələn şeylər; xəyalat. Ağır düşüncədən qəlbi sıxılır. Ömründə bir dəfə gülməzdi üzü; Çünki dumanlandı düşüncələri.

2. Düşünmə nəticəsində hasil olan qənaət; anlaq, şüur, dərrakə. Düşüncələr yeni, duyğular yeni; Dəyişmiş dünyanın söhbəti, sazı. // Ağıl, kamal, qanacaq, mərifət. Düşüncə, tərbiyə, zəka zinəti; Budur qadınlığın, məncə qiyməti.

**Düşündürmək**, *icb.* 1. Düşünməyə, fikirləşməyə məcbur etmək. Bu hal düşündürdü tənbəl əsgəri.

2. Əndişəyə salmaq, təlaşa salmaq, narahat etmək. Ancaq düşündürür məni hər zaman; Yazılmış bir şeir, bir yeni dastan.

**Düşünmək**, *f.* 1. Bir şey haqqında fikiriləşmək; fikir etmək. Ömrün varlığını izləyən şair; Bu günə dair; Nəsə düşünürdü haman salonda. // Ümumiyyətlə fikirləşmək, götür-qoy etmək. Düyün, düşün, – deyir bizə hər sətir.

2. Yada salmaq, fikrinə gətirmək, xatirinə gətirmək. Yazıq babaları düşündükcə mən; Ağrımış ürəyim bəlkə min kərə.

3. Başa düşmək, dərk etmək; anlamaq. İndi düşün, oğul, Sarvan! Oğlum, düşündükcə, duyduqca dərin.

4. Narahat olmaq, əndişə etmək, fikir çəkmək. Gecə keçmiş, Sarvan yenə düşünür yalqız. Nə yazım? Nə edim? Düşündükcə mən.

**Düşürmək**, *f.* 1. Bir şeyin və ya adamın yerə düşməsinə kömək etmək. Onu düşürün.

2. *məc.* Salmaq, düçar etmək, məruz etmək. Mən, zarafat deyil, ey sevdiciyim, can yıxıram! Sənsən, əlbət, düşürən bu qara sevdaya məni.

**Düyümlü**, *sif.* Naməlum, hələ açılmamış, dolaşın, düyünlü, məlum olmayan. Düyümlü bir sirri var asimanın.

**Düyün**, *is.* Toy, şənlik. Bir tərəfdə düyün, bir tərəfdə yas. [Xosrov:] Keçdi düyünlərdə ömrümün çoxu.

**Düyün-düyün**, *sif.* Zərbə, sıxılma və s.-dən bərkimiş yerləri olan. Yerin bağrı düyün-düyün.

**Düyünlü**, *sif.* Bir birinə qarışmış, dolaşıq. Düyünlü dağları kökündən vuran..

**Düz**, *sif.* Enişi, yoxuşu, çüxuru, təpəsi olmayan; hamar. Mən cıdır düzünü gördüyüm zaman.

2. *is.* Düzən, çöl, düzəngah, düzənlik. Qarlarla örtülü bir düzə gəldik. Sibir düzlərində; Türkmən çölündə; Açıldı qolların dəmir bağları.

3. *əd.* mənasında. Özündən sonra gələn sözə dəqiqlik verir. ..Düz bir saat deyinər.

4. *sif.* Doğruçu, namuslu, vicdanlı, hiyləsiz. Əl-ayağı düz gəlin. // *məc.* Doğru söz, düz ilqar, bir də etibar. Düz ilqarlı bizim dağlar.

5. *z.* Düzgün, doğru. Vallah düz deyirəm, pələngsən, pələng! Əmirxan düz deyir, tək gedə bilməz.

6. Düzü şəklində, *z.* – həqiqətən, həqiqətdə (təsdiq məqamında işlədilir). [Vəzir:] Bıy, bu nə sözdür ki, düzü atandan; Mən çox incimişəm.

7. Xəbər şəkilçisi ilə: düzdür – həqiqətdə belədir, doğrudur (təsdiq mənasında). – Düzdür! – dedi, – nəfəsimdir ilhamın da, sənətin də. Düzdür, ağıllıdır qızımız Gülnar.

◊ Düz gəlməmək – uyğunlaşmamaq, razılaşmamaq, yola gəlməmək, aralarında müvafiqət olmaq. [Xosrov:] Belə… Düz kəlməyir mənimlə dövran. Düz çıxmaq – sadiq qalmaq. Görək tanrısına düz çıxan hanı? Düz görməmək – ayırd edə bilməmək, səhv salmaq. Onlar bəzən düz görməyir nə gecəni, nə gündüzü. Düzdə qoymaq – kimsəsiz, tək qoymaq. Bəni düzdə qoyub aşdın bərəni.

**Düzəlmək**, *f.* 1. Qaydaya düşmək, nizama düşmək, yoluna düşmək, başa gəlmək. [Vəzir:] Dünyada səbr ilə hər şey düzələr. Hər məsələ düzələr.

2. Bir səmtə tərəf üz tutmaq, getməyə başlamaq; getmək. Enişdən, yoxuşdan keçib düzəldik. Yeddi yoldaş olub yola düzəldik.

**Düzəltmək**, *f.* 1. Qaydaya salmaq, nizamlamaq. O, tərləmiş çeşməyini sol əlilə düzəldərək.

2. Təşkil etmək, həyata keçməsinə kömək etmək. Sağ olsun bu xeyir işi düzəldən.

3. Saxta şey hazırlamaq. Saxta partbilet də düzəltdi hərdən.

4. Qayırmaq, hazırlamaq. Mismar da düzəldir, şeir də yazır.

5. Yoluna qoymaq, nizama salmaq. Hər diləyi, hər müşkülü düzəldən; Mələk ruhlu bir müqəddəs eşqi var. [Azər baba:] Hər müşkül işi də ümid düzəldir.

**Düzəngah**, *is.* Düz, düzən, düzənlik. Bir dağ ətəyində qar <u>düzəngahı</u>.

**Düzləmək**, *f.* Düzən halına salmaq, çala-çuxurunu düzəltmək, hamarlamaq. Od-alov nəfəsli, çarxlı nəhənglər; Yüz çuxur doldurur, təpə <u>düzəldir</u>.

**Düzlük**, *is.* Doğruluq, həqiqət. Gah da sözlərində <u>düzlük</u> var imiş.

**Düzmək**, *f.* Sıralamaq, bir-birinin ardınca qoşmaq. Budur, bax; az qalmış yenə səhərə; <u>Düzürəm</u> sözləri mən sətirlərə.

**Düzülmüş**, *f.sif.* Müəyyən tərtib və qayda ilə bir-birinin ardında və ya yanında yerləşmiş. <u>Düzülmüş</u> şəfəqli ulduzlar kimi.

**Düzüm**, *is.* Düzülmə, sıra. Ceyran qaçar, cüyür mələr <u>düzümdə</u>.

# E

**Ediləşmək**, *qarş.* (*məh. köhn.*) Ağız-ağıza verib edi demə, ağı oxuma. Bəzən qonşuluqda ağlaşma səsi; Kəndli qadınların <u>ediləşməsi</u>.

**Eh**, *nida*. 1. Kədər, təəssüf, ümidsizlik, həsrət kimi hissləri ifadə edir. <u>Eh</u>, ölüb getmədi bircə bu qarı; <u>Eh</u>, baisin evi yıxılsın.

2. Etinasızlıq, etiraz bildirir. <u>Eh</u>, ay Musa, düzü mən.

**Ehram**, *is.* [ər.] Qədim Misirdə: fironların nəhəng məqbərəsi; piramida. Nəfəssiz buddalar, bütlər, <u>ehramlar</u>. □ <u>Ehram(lar) kimi</u> – hündür, düz. Sərvlər görürəm ehramlar kimi. Buruqlar dayanmış <u>ehramlar kimi</u>.

**Ehtiras**, *is.* [ər.] Ağlın çətinliklə idarə edə bildiyi hiss. Bir qara ehtiras, bir qara vicdan. // Coşqunluq, ruh yüksəkliyi, vəcd, həyəcan. Ötərgidir şərablardan qopan <u>ehtiras</u>.

**Ehtişam**, *is.* [ər.] (*tənt.*) Gözqamaşdırıcı təmtəraq, dəbdəbə, calal, əzəmət. O bir şeirdir ki, <u>ehtişamı</u> var.

**Ehtişamla**, *z.* Ehtişamlı bir surətdə, əzəmətlə, möhtəşəm. Yermi göyə gülür bu ehtişamla.

**Ehtişamlı**, *sif.* Əzəmətli, dəbdəbəli, təntənəli, çox möhtəşəm. Ehtişamlı bir dünyası var onun!

**Ehtiyac**, *is.* [ər.] 1. Yoxsulluq, kasıblıq. Ehtiyac qul eylər qəhrəmanı da.

2. Tələb, gərəklik, lüzum. Vuruş öz haqqın uğrunda, hünər bir ehtiyac olsun.

**Ehtiyat**, *is.* [ər.] 1. Təhlükəni nəzərə alaraq, tədbirli, üsullu hərəkət etmə, davranma. Ən böyük bir qüvvədir cəsarətlə ehtiyat. Qınama qızları, bu ehtiyatdır.

2. Ehtiyatla şəklində, *z.* – ehtiyat edərək, ehtiyat gözləyərək. Baltaları ehtiyatla.

**Ehtiyatlı**, *sif.* Öz hərəkətlərində, işində ehtiyat gözləyən, meydana çıxa biləcək hər bir ehtimala qarşı lazımi tədbir görən. Ehtiyatlı, səliqəli hər bir əsər; Gah şəfəqli xoş görünür, gah kölgəli. // *z.* Ehmallı, üsullu, ehtiyatla. Ehtiyatlı danış, ehtiyatlı dur.

**Ehtiyatsız**, *sif.* Ehtiyat gözləməyən, qabaqcadan tədbir görməyən, tədbirsiz, üsulsuz. Ehtiyatsız bir gözəli qara yellər tez soldurar.

**Ekiz**, *sif.* Bir anadan bir vaxtda doğulmuş. Ekiz (z.) də doğulduq anadan bəzən. // *məc.* [Azər baba:] Fəlakət özü də bir cür adətdir; Özü də adətlə ekiz (z.) yaranmış.

**El**, *is.* 1. Camaat, xalq. Ellərin yanında üzü ağ oldu. El axıb, el gəlir bu böyük günə. // Bəzən «ellər» şəklində toplu mənada işlədilir. Mən ellər oğluyam! Ellər canımdır. Ellər gözəlinin, ellər qızının.

2. Ölkə, məmləkət, vilayət. Gürcüstanın dost elindən. Bir eli tapşırdı hər birimizə. □ Eldən-elə – bir eldən o biri elə, elbəel. Qartal kimi qanad çalır eldən-elə. Atlı keçir eldən-elə.

◊ El gücü – sel gücü – camaat, xalq birləşdikdə çox güclü olur mənasında. El gücü – sel gücü, dəstəbədəstə.

**Elan**, *is.* [ər.]: elan etmək – rəsmi surətdə bildirmək, xəbər vermək. [Vəzir:] Bəli, vəzirliyə keçəndən sonra; Özünü padişah elan edəcək.

**Elat**, *top. (köhn.)*. Bir yerdə, bir yurdda yaşayan camaat, xalq, el. Görünür ki, o zamanlar bizim elat; At belində yetişərmiş hər şurada. Axır qoşun-qoşun ellər, elatlar.

**Elçi**, *is.* 1. Müəyyən məqsədlə və ya rəsmi danışıqlar üçün bir yerə göndərilən şəxs; nümayəndə. [Vəzir:] Bizans dövlətindən gələn elçilər. Gəlib çıxmadımı bizim elçilər?

2. Nümayəndə. Sözləri az, hünəri bol o bəxtiyar; Elçisidir kəndimizin qurultayda.

3. *məc.* Müjdəçi, xəbər gətirən mənasında. Günəş elçi gəlsin al bayrağımı.

**Elektrik** [*yun.* elketron] Xalq təsərrüfatının, demək olar ki, bütün sahələrində və məişətdə işlədilən enerji növlərindən biri. Elektrik qüvvəsindən min bir cana gələrək.

2. Elektriklə işləyən, elektriklə hərəkətə gətirilən, elektriklə işıqlandırılan. Elektrik lampaların şöləsi rəng-rəng. Samur çayı əks edəcək elektrik işığını. □ Elektrik qatarı – elektrik dəmir yolu qatarı (vaqonu). Qoy minsin elektrik qatarına.

**Elə**, *əvəz.* 1. O cür, o sayaq. Elə yazır, yazır yenə. // Elədir elə şəklində – o cürdür. Elədir, elə. Elədir, ona can dedin ürəkdən.

2. Ancaq, təkcə, yalnız. Elə şirin-şirin danışmağın var. Dərdin elə busa, lap arxayın gəz!

3. «ki» bağlayıcısı ilə – o zaman ki, necə ki, onda ki mənalarında zaman bildirir. Elə ki yaradıb-yarıtmaz olur. Elə ki ağzını açır gilavar.

◊ Elə bil – sanki, guya. Elə bil varlığın ürəyi əsir. Elə bil sönmüşdür onda arzular. Elə bil ki – sanki, guya ki. Elə bil ki, göy də yerə tökülmüşdür. Elə bil ki, səma gülür, torpaq da gülür. Elə bu – bu qədər, ancaq bu qədər. Ha… ha… Bəs elə bu? Elə isə – anda, belə olduqda. Elə isə. Elə isə mətləbi, sözü dəyişək.

**Eləmək**. «Etmək» feilinin üslubi variantı. Bir də eləmərəm ömrüm uzunu. Xəbərdar eləyin sərkərdələri.

**Elli**, *sif.* Bir eldən, bir yerdən olan. Bizim elli… Bir yaralı qızıl əsgər.

**Elm**, *is.* [ər.] Təbiət və cəmiyyətin inkişfındakı qanunauyğunluqları və obyektiv aləmə təsir üsullarını meydana çıxaran biliklər sistemi. Elminlə tapaydın mənhis adəti. // oxumaqla əldə edilən bilik, məlumat. Unutmayaq bəşər sizdən diləyir; Elm, ədəb, həm ürfanı, cavanlar! // İnsan biliklərinin müəyyən sahəsi. Yranmış, deyirlər, hər elmə vaqif.

**El-oba**, *top.* Camaat, el, xalq. Sən atıldın klublara, el-oba gördü bunu. İndi nə deyəcək el-oba bizə?

**Eloğlu**, *is.* Bir evdən olan, elli. Eloğlu da nağıl deyir xanlığın eyvanında.

**El-ulus**. *Bax* el-oba. Axışıb öz el-ulusu gəlir.

**Enmək**, *f.* 1. Yuxarıdan və ya bir şeyin üstündən aşağı düşmək. Artıq zənci tribunadan vüqar ilə düşüb enir. Maral enib gələr çeşmə üstə. // Düşmək. Lakin enən zaman qaya başına.

2. Torpağa, yerə oturmaq, yerə düşmək. Təyyarəmiz enib düşür meydana.

3. *məc.* Alçalmaq, hörmətdən düşmək. Nə qədər alçalıb, nə qədər endim.

**Erkək**, *is.* və *sif.* 1. Kişi cinsinə mənsub fərd. Aslanın erkəyi, dişisi olmaz.

2. Kişi mənasında. Nə erkək, nə qadın əyləncə deyil.

**Erkən**, *z.* 1. Səhər tezdən, sübhdən, ertə. Bilməm nə xəyal ilə oyandım yenə erkən. Yatan günəş qalxıb erkən; Yuxusundan tez ayılsın.

2. Vaxtından əvvəl, tez. O qanadlı ulduzun; Hər halını sevərkən; Bu bəlaya lap erkən; Düşməyimi bilməzdim.

**Erməni**, *is.* Ermənistan Respublikasının əsas əhalisinin təşkil edən xalq və bu xalqa mənsub adam. Yolun kənarında bir kor erməni..

**Eskavator** [lat. eksavare-dən] (*tex.*) Yerqazıyan, torpağı, daşı və s.-nin başqa yerə tökən maşın. O daşlı, qumsallı, gilli torpağı; Udur, …lay-lay udur ekskavatorlar.

**Eşik**, *is.* Bayır, dışarı, çöl. Gəzinir gah evdə, gah da eşikdə.

**Eşitmək**, *f.* 1. Hər hansı bir səsi qulaqla qavramaq, almaq, duymaq, mənimsəmək. Mən demişdim ona: eşit, ey insan.

2. Dinləmək, qulaq asmaq, fikir vermək. Dastanlar eşitdin qoç Koroğludan.

3. Xəbərdar olmaq, xəbər almaq, xəbər tutmaq, agah olmaq, bilmək. Eşidin, bu haqda şahid nə deyir?

**Eşq**, *is.* [ər.] 1. Sevgi, məhəbbət, sevda, böyük istək hissi, sonsuz bağlılıq. Vətən eşqi insanlığın bir əbədi sevdasıdır; Bu eşq ilə yaşamağın, yaratmağın cəlalı var!

2. Şiddətli arzu, həvəs, meyil, istək. Sözün eşqilə, qəlbilə yaşar aləmdə insanlar; Sözün səyyar xəyalilə uçar əflakə dastanlar.

3. Müxtəlif obrazlı tərkiblərdə: eşq əhli, eşq aləmi, eşq yarası, eşq afəti, eşq quşu və s. Bir məslək eşqiylə bir məhəbbətlə.

◊ Eşq olsun! – mədh, tərif yerində işlənir (bəzən «afərin» mənasında da işlənir). Eşq olsun vətənin igid oğluna! Eşq düşmək – aşiq olmaq, sevmək, bənd olmaq, vurulmaq. Nə də Sarvan eşqə düşüb, çöllər dolanır. Eşqə gəlmək – təbə gəlmək, cuşa gəlmək, coşmaq, ilhamlanmaq. Yoxsa ki, gündə bir eşqə gələrək; Sonra da ardınca baxıb ağlamaq; Əskiklik gətirir hər insana, bil! Eşqi qurumaq – eşqi sona yetmək, daha sevməmək. Nə dəniz quruyur, nə eşq, nə ürək. Eşqinə salmaq – birisini sevmək, eşq yetirmək. Leylinin eşqinə saldı Məcnunu.

**Eşqsiz**, *sif.* Eşqi olmama, eşq yetirməmə. Eşqsiz yaşayıb, eşqsiz qocaldım.

**Eşmək**, *f.* Burmaq. Eşib bığlarını yenidən burur.

**Etibar**, *is.* [ər.] 1. Bir şəxsin ixlasına, sədaqətinə, səmimiyyətinə, doğruluğuna, düzgünlüyə inam, etimad, əmniyyət və bunlara əsaslanan münasibət. İnsan oğlu can verər pərvanə tək atəşlərə; Düz sözün, düz ilqarın, düz etibarın eşqinə // *məc.* Vəfa. İnsan ömrü cavan qalar etibarı görəndə.

2. (*klas.*) Ad, san, şərəf, hörmət, nüfuz. Ağ alnına yazılmışdır etibar.

**Etibarsız**, *sif.* Etibarı olmayan. Etibarsız, məhəbbətsiz keçən ömür.

**Etiqad**, *is.* [ər.] Bir şeyə qəlbən və möhkəm inanma, inam. Böyük sənət əsərləri bir etiqad qüdrətidir.

**Etila** [ər.] (*tənt., klas.*) Yüksəlmə, ucalma, yüksəklərə qalxma; yüksəliş; tərəqqi. Mən bu sözlərimlə nə dedim, bilsən: – Çırpın üfüqlərə, uç etilaya!

**Etiraf**, *is.* [ər.] Öz qüsur və nöqsanını, özünün az-çox günahı olan bir şeyi inkar etməyib, qəbul etmə, təsdiq etmə, boynuna alma. Aygün eşitdikcə bu etirafı.

**Etmək**. Köməkçi feil kimi isimlərlə yanaşı işlənib mürəkkəb feil əmələ gətirdiyi zaman ismin mənası ilə bağlı olan hərəkəti bildirir. Torpaq evciyimi ziyarət edim. Lütf edib danışın gördüyünüzü. Qanlı qılıncımla hökm edəm gərək.

**Ev**, *is.* 1. Yaşayış binası, həmçinin müxtəlif idarə, müəssisə və təşkilatları yerləşdirmək üçün bina, tikili. Evlər ordu kimi durur nizamla. [Qoca Usta] Dağılmış bir evi qurur yenidən.

2. Yaşayış evlərindən ibarət bina. Aynabənd evlərin eyvanı sərin. Uçotaqlı bir evim var Kür qırağında.

3. Otaq, mənzil: Meylimi mətbəxə, evəmi salım? // *məc.* Açılmışdır qəlb evində əməllərin çiçək-çiçək.

◊ Ev yıxmaq – birinə pislik etmək, onu bədbəxt etmək. [Şirin:] Yenə evlər yıxacaqdır o sənin murdar əlin. Evi yanmaq – qarğış məqamında işlədilir. Eh… baisin evi yansın. Ev(ini) uçurmaq – bədbəxt etmək, fəlakətə uğratmaq. [Məryəm:] Şirin, gözəl bacım, tanrını dinlə; Uçurma evimi

sən əllərinlə. Ev sökmək – *bax* ev(ini) uçurmaq. Mənim qəhrəmanım nə evlər sökür.

**Evah**, **eyvah ki**, *nida*. Əfsus, təəssüf, heyif ki, təəssüf ki. Eyvah ki, min pənçədən olsam da həp azad. ☐ Eyvah eyləmək – təəssüflənmək, heyifsilənmək. Çıx ki, arxanca mən eyvah eyləyim.

**Evciyəz, evcik**. «Ev»dən kiç., çox kiçik, balaca ev. [Vidadi:] Vaqif, sabah məni yola sal, gedim; Torpaq evciyimi ziyarət edim.

**Evet**. Təsdiq bildirən ədat – bəli, hə, həri. Evet əfəndilər! Çarxın gedişi; Qocaman tülküyə gülmüyor çoxdan.

**Evlad**. *Bax* övlad. Hər duyan insan; Fəxr edir bəşərin bu evladilə.

**Evlənmək**, *f.* Arvad almaq, ailə qurmaq üçün qanunən qızla (qadınla) birləşmək. Bir ay deyil evlənəli biz. [Səhər:] bu nə tərslikdir ki, evlənməyirsən.

**Evli**, *sif.* Arvadı olan (kşi), əri olan (qadın); ailəli. Mən evli hər kəndin, hər qəsəbənin.

**Evsiz**, *sif.* 1. Evi, mənzili olmayan. Heç evsiz də, eşiksiz də rəssam olan yaradarmı?

2. Ailəsi olmayan, ailəsiz. Evsiz, ailəsiz məhəbbətmi var?

**Evyaran**, *is.* Ev oğrusu, ev yarıb oğurluq edən adam. Evyaran, başkəsən quldurlar kimi.

**Ey**, *nida*. 1. Müraciət, çağırış məqamında işlədilir. [Vəzir:] Dostu yaman gündə sınarlar, ey şah! Ey göyərçin, çox da yanma; can evinin möhnətinə.

2. İntonasiyadan asılı olaraq bəzən etiraz, narazılıq bildirir. Nə var, ey! Bir desən nə istəyirsən; Balam, tovlayırsan bizi yenə sən. Ey vah – təəssüf bildirir. Ey vah! O xəyal pərisi nolmuş?

**Eyham**, *is.* [ər.]: eyham vurmaq – kinayəli danışmaq, üstüörtülü söz demək, eyhamlıq sözlər işlətmək. Deyərək bir eyham vurdu gəlinə.

**Eyhamla**, *z.* Kinayə ilə, üstüörtülü, eyhamlı. O qansız ürək; Gizli bir eyhamla gülümsəyərək.

**Eynək**, *is.* Gözlük, çeşmək. Gözlərinə sarı bir eynək taxdın.

**Eyş-şirət**, *is.* [ər.] Kef, eyş, şirət, zövq-səfa, ləzzətli həyat. Eyş-şirətdən ayılmayanlar.

**Eyşü-şirət**. *Bax* eyş-şirət. Uydun hər keçici eyşü-şirətə.

**Eyvan**, *is.* Adətən evin, otağın ya tağların ön tərəfində üstüörtülü, qabağı və yanları açıq balkon; seyvan. Sarmaşıqlar boy atmışdır eyvana sarı; Aynabənd evlərin eyvanı sərin.

# Ə

**Əba,** *is.* [ər.] (*köhn.*) Müsəlman ruhanilərinin və mömin adamların üstdən geydikləri qolsuz və ya gödəkqollu, yaxası açıq uzun kişi paltarı. Kimdir əbasının altda ağlayan.

**Əbədi**, *sif.* və *z.* [ər.] 1. Daimi, həmişəlik. [Şapur:] Şərabın nəşəsi bir anlıq olur; Əbədi qalansa, insanlıq olur.

2. Ölməz, daim yaşayan. Məhəbbət əbədi bir ehtiyacdır.

**Əbədilik**, *is.* Həmişəlik, sonsuzluq, daimilik, daim (həmişə) yaşama, sonu olmama; heç vaxt bitməməzlik, qurtarmamazlıq. Yoxşa sönüb gedəcəkmi əbədilik sənətin?

**Əbədiyyət**, *is.* [ər.] Daimilik, əbədilik, həmişə var olan şey. Azadlıqdır… Əbədiyyət… Əbədiyyət deyib günəş sandığın… // İntəhasızlıq; intəhası olmayan zaman. Canlı heykəlisən əbədiyyətin.

**Əbəs**, *sif.* [ər.] 1. Nahaq, bihudə, faydasız. □ Əbəs yerə – 1) nayaq yerə, boş yerə; lüzumsuzcasına, faydasızcasına; 2) əsassız, səbəbsiz, ciddi səbəb olmadan. Sən də əbəs yerə olma pərişan.

2. Xəbər şəkilçisi ilə: əbəsdir – nahaqdır, əsassızdır, faydasızdır. Səadət, ailə, sevgi əbəsdir…

**Əbləh**, *sif.* [ər.] Axmaq, səfeh, gic, sarsaq, başıboş. [Xosrov:] Ha… ha… ha… Əbləhin iştahına bax.

**Əcəb**, *sif.* [ər.] Çox yaxşı, çox gözəl, əla. Bir əcəb gülşəndir torpağın, daşın.

**Əcəl**, *is.* [ər.] Hər bir canlının, xüsusən insanın qabaqcadan qədərlənmiş ölüm vaxtı. [Xəyali səsi] <u>Əcəl</u> qanadını gərdiyi bir gün. // Ümumiyyətlə ölüm, ölüm çağı. Ölümə də «qismət» kimi baxmış onlar; «Əcəl gəldi, ömür tamam oldu», – deyə.

**Əcəlsiz**, *z.* Əcəli çatmadan, vaxtsız, vaxtı çatmadan. «Yenəmi əcəlsiz insan öləcək?»

**Əda**, *is.* [ər.] Tərz, tövr, qayda, üsul. Səndə görünürdü bu söz, bu əda.

**Ədalət**, *is.* [ər.] 1. Hərəkət və münasibətlərin əxlaq və hüquq normalarına uyğunluğu, haqq və insaf normalarna uyğunluğu, haqq və insaf prinsiplərinə riayət. Arar qaranlıqda ədalət səsi! Aldadır bəşəri yalan vədələr; Haqdan, <u>ədalətdən</u> yoxdur bir əsər. □ <u>Ədalət məhkəməsi</u> – ədalətlə işə baxan, ədalətli hökm çıxaran. Bu gün, sabah qurulacaq; Bir ədalət məhkəməsi.

2. İnsaf, mürüvvət. Sizdə fəzilət də, ədalət də var.

**Ədalı**, *sif.* Ədəbaz, ədası olan; əda ilə dolu, sadəlikdən, adilikdən məhrum. Sarayda hökm edir ədalı bir xan.

**Ədəb**, *is.* [ər.] Əxlaq qaydalarına riayət, əxlaq və hərəkətdə, danışıqda nəzakət, incəlik; tərbiyə. Unutmayaq bəşər sizdən diləyir; Elm, ədəb həm irfanı cavanlar.

**Əfi**, *is.* [ər.] 1. Rəngi sarı, başı uçbucaq şəklində iri zəhərli ilan. Əfilər oynaşar ilanlar mələr.

2. *məc.* Məkrli, mənhus, xain. Əqrəbə, əfiyə, ilana bənzər.

**Əfsanə**, *is.* [*fars.*] 1. Nəsillərdən nəsillərə, ağızda dolaşan və mövzusu çox zaman fövqəladə xarakter daşıyan hekayə, rəvayət; əsatir. Bəşər xəyallara qapanıb hərdən; Təsəlli bulmuşdur <u>əfsanələrdən</u>. // *məc.* Uydurma, nağıl, boş söhbət. Quşlar yuva saldı onun başında; Sanma əfsanədir bu qəmli dastan!

2. Dillərə düşmüş, geniş yayılmış dastan, hekayə. Sənin kimi bir əfsanə xəyala; Uyğunlaşsa yaşar cəfalı Göygöl.

**Əfsus**, *nida.* [*fars.*] Heyf, təəssüf. Bəşər qardaşlığı tərk etmiş əfsus!

**Əfv**, *is.* [ər.] Günah və qüsurunu nəzərə almama, günah və təsirindən keçmə, günahı bağışlama. □ Əfv elə, əfv edin – bağışlayın, üzr istəyirəm. Günah mənimkidir, əfv elə ustad! [Şirin:] Əfv edin, görünür, yanılıram mən. Əfv etmək – 1) Günahından keçmək, təqsirini bağışlamaq. Sevdalı bir könül əfv edər bunu; 2) Üzrlü saymaq. Məni əfv edin ki, günahım vardır. Əfv olunmaq – günahından, təqsirindən keçilmək, təqsiri bağışlanmaq. Zövqü sadə gülüş bilmək heç bir kəsə əfv olunmaz.

**Əgər**, *bağl.* [*fars.*] Şərti bildirən cümlənin müxtəlif yerində işlənərək şərti gücləndirir. [Banu:] Bu gün – sabahımdır… Mən ölsəm əgər; Gözəl yurdumuzu yadlar qəsb edər.

**Əğyar**, *is.* [ər. *ğeyr sözünün cəmi*] (*klas.*). Özgə(lər), dost, yoldaş olmayan(lar); rəqib(lər), yad(lar), özgə(lər). Əğyara dil verən o bivəfayə; De ki, Vurğun gədalara dönübdür.

**Əhali**, *is.* [*ər. əhl. sözünün cəmi*] Bir yerdə yaşamaqda olan adamlar; camaat. Həyatda zəhmətkeş əhali Göygöl.

**Əhd**, *is.* [ər.] 1. Öhdəsinə alma, söz vermə, üzərinə götürmə; and. □ Əhdinə düz olmaq – verdiyi sözü, vədi yerinə yetirmək, sözünə əməl etmək. O da öz əhdinə düz ilqar olur. Əhdini qırmaq (sındırmaq, pozmaq) – vədini yerinə yetirməmək, sözünə əməl etməmək, sözündən qaçmaq. [İsmət:] Bir də, öz əhdini qırma, Mahnigar.

**Əhd-peyman**, *is.* [*ər.* əhd və *fars.* peyman] Bir-birinə təntənəli surətdə söz vermə, əhdləşmə. [Xosrov:] Nə əmriniz varsa, hazıram canla; Bir səadət quraq əhdi-peymanla.

**Əhl**, *is.* [ər.] 1. (*köhn.*) Yiyə, malik, sahib. □ Əhli-qələm (*köhn.*) – qələm əhli, qələm sahibi, yazıçı, mühərrir. Gecəlir, yorğundur o əhli-qələm. Əhli-hal – ailədə olanlar: ər, arvad, uşaqlar; ailə. Əhli-haldan dəm vuran kəs. Əhli-hal olsun gərək! Əhli-zülm – zülmkar, zülm edən adam. Əhli-zülmü necə bərbad eylədi bir ləhzədə; Sən bizim dağlar pələngi qəhrəman Eldara bax! Əhli-kef – kef əhli, vaxtını kefdə və xoş

keçirən adam. Restoran bu gecə çox maraqlıdır; Əhli-kef insanlar aşıb-daşırlar. // (*dan.*) Vaxtını əyyaşlıqda keçirən adam. Zəng çalınır; Gəlin qalxır qapını açır; Zümzüməylə gəlib «əhli-kef» əri.

2. Bir yerdə sakin olan, daim bir yerdə yaşayan, bir yerin əhalisindən olan adam. Dağıstan əhliyəm, ləzgiyəm, qardaş!

**Əhrimən**, *is.* [*fars.*] Zərdüşt dinində: şər Allahı, şər və zülmət mənbəyi // *məc.* Pis qüvvə, mənhus, qüvvə, şər qüvvə. Nə iblis var, nə də əhrimən; Əqlin övladıdır xeyir də, şər də.

**Əhval**, *is.* [ər. hal *söz. cəmi*] Kef, hal, ruhi vəziyyət. …Etdi əhvalımı pərişan.

2. Keçinmək, dolanmaq vəziyyəti; güzəran. Sonra əhvalımı izah eləyim.

**Əhvalat**, *is.* [ər.] Hadisə, olmuş iş; olub keçən işlər, qəziyyə. Sonra da atamı tutaraq dilə; Açmış əhvalatı o gülə-gülə.

**Əxlaq**, *is.* [ər.] İnsanın mənəvi keyfiyyətini, əhvali-ruhiyyəsini müəyyən edən etnik normalar; mənəviyyat. …əxlaq, tərbiyə üzərində qurulmayan bir dövlət.

**Əxlaqsız**, *sif.* Əxlaqı pis, mənəvi cəhətdən pozğun. Həyatın pozulmuş bir əxlaqsızı.

**Əxtəri-ismət**, *is.* [*fars.*] əxtər [*ər.*] ismət. *şair.* həya ulduzu, namus ulduzu. Parlayır alnında əxtəri-ismət.

**Əjdaha**, *is.* [*fars.*] 1. Ağzından od püskürən, insan və heyvanları udan, qanadlı nəhəng, ya ilan şəklində təsəvvür olunan mövhum bir heyvan. İlan başlı o əjdaha…

2. *məc.* Çox qüvvətli, iri, heybətli, qorxu bilməyən adam və s. haqqında. Kür udur onları bir əjdaha tək.

**Əkib-biçmək**, *f.* Əkinçiliklə-biçinçiliklə yaxud təvəzçiliklə məşğul olmaq. Bir də mən işıqla əkib-biçərəm. Dünya böyüksə də, əkib-biçməyə; Yerimiz olmadı bircə qarış da.

**Əkilmək**, *f.* «Əkmək» feilinin. *məch.* Yollar kənarında güllər əkilsin.

**Əkin**, *is.* 1. Taxıl, bostan məhsulları və s. əkilmiş yer; zəmi. Əkində, tarlada, suda biçində. Ta çocuqluqdan; Birlikdə çalışar, əkin əkərdik.

2. Əkmə işi, əkmə. – Nə zaman ki, arabalar köç yoluna düzülür; Kəndli yoldaş əkinindən, biçinindən üzülür.

**Əkinçi**, *is.* Əkin əkib biçməklə (əkinçiliklə) məşğul olan adam; cütcü. Yaz əkinçi, qış dilənçi.

**Əkiz**, *z. məc.* Bərabər, eyni zamanda. Ölüm əkiz yaranmışdır ömrümüzlə…

**Əkmək**[1], *f.* Sürülmüş, şumlanmış yerə toxum səpmək, toxum atmaq. Birlikdə çalışar əkin əkərdik. Yer şumlayıb, toxum səpib, taxıl əksəydim…

2. Quyu şəklində qazılmış yerə ağac, kol, gül və s. basdırmaq. Yollar kənarında güllər əkərdik. Hələ qəbrin ətrafına ağac da əkdi.

**Əkmək**[2], *is.* Çörək. Çoxunun bir para əkmək qayğısı.

**Əks**, *is.* [ər.] 1. Bir şeyin işıq şüalarının sınması nəticəsində hamar, parlaq səth, güzgü, su və s. üzərində görünən şəkli surəti. □ Əks etmək – hamar və parlaq səth üzərində inikas etmək. Ağ sulara əks edəcək ulduzlar, aylar.

2. *is.* Şəkil, fotoşəkil. Ortada əksi var bizim rəhbərin. □ Əksini çəkmək – şəklini çəkmək. Öz əlilə anasının əksini çəkdi.

◊ Əks olunmaq – əyani surətdə göstərilmək, ifadə edilmək. «Muğan» dastanında əks olunardı; O yerdə gördüyüm gözəl bir səhnə.

**Əksilmək**, *f.* Kəsilmək, səsi gəlməmək; azalmaq. Onun [qoca çinarın] yaşıl zirvəsindən əksilməyir quş səsi.

**Əqrəb**[1], *is.* [ər.] *məc.* Pislik edən müzür adam haqqında. İlandan, əqrəbdən yar ola bilməz. İnanmamaq iblislərin, əqrəblərin fitrətidir.

**Əqrəb**[2], *is.* [ər.] Saat, kompas və sairədə öz oxu ətrafında fırlanıb müəyyən işarəni göstərən mil. Dürüst bir saatın əqrəbləritək…

**Əqrəbli**, *sif.* Əqrəb çox olan. Əqrəbli çöllərdə bağ-bostan quran; Zəhməti güldürən sənət olacaq.

**Əl**, *is.* 1. Qolun biləkdən dırnaqlara qədər olan hissəsi. Əlindəki məktubunu oxuyur bir də. Ovcumda tutmuşam onun əlini.

2. İştirak, əlaqə. □ Əli ilə – O, insan eşqinə öz əllərilə; Zevsin dərgahından od oğurladı.

3. Əlində, əlimdə və s. – mülkiyyət ixtiyar, iqtidar, idarə, sərəncam, asılılıq mənasında. Çiyni zər paqonlu şahların əlində… inlədi Şərq.

4. Tərəf, yan. Qəbristanın sol əlində… bir gölcüyəz var.

5. …əlindən şəklində işlənərək səbəb bildirir. Yar əlindən yaman şikayətim var…

◊ Əl aparmaq – əl uzatmaq, əl atmaq. Gizli nöqtələrə əl aparma sən… Əl açmaq – yalvarıb xahiş etmək, dilənmək. Yadlara açma əlini. Əl boyda – böyük. …Əl boyda yarpaqların. Əl vermək – əl-ələ tutmaqla görüşmək. Artıq, əl ver, vidalaşmaq, ey qəhrəmanım! Əl tutuşmaq – əllərini bir-birinə verməklə görüşmək. Dostlar əl tutuşub gülümsədilər. Əl uzatmaq – əl-ələ verib görüşmək. ..Cənab Çörçill. Mənə əl uzadır təzim edərək.. Əl üzmək – ümidini kəsmək, daha gözləməmək. Üç aydır ki, ormanların arasında yataraq. Əl üzmüşdür vətənindən, millətindən Gəray bəy.. Əl çalmaq – alqış əlaməti olaraq əllərini biri-birinə vurmaq, alqışlamaq. Sənə alqış deyib əl çaldı bu an; Qafqaz dağlarının şəlalələri. Əl çatmayan – çox uzaqda, çox hündürdə olan bir şey haqqında. Göz görüb, əl çatmayan ulduzlu bir dünyası var. Əl çəkmək – 1) vərdiş etdiyi bir şeydən imtina etmək, daha etməmək, buraxmaq, tərk etmək. Buğa bu adətdən bir dəfə əl çək. Elimiz qoçaqdır, zülmdən əl çək. 2) Rahat buraxmamaq, əl götürmək. Əl çəkmədi dəli rüzgar; Qamçıladı o qartalı. Əldə etmək – bir şeyə nail olmaq, ələ keçirmək, tapmaq, qazanmaq. Vicdan sədasını əldə edə…. Əldən buraxmaq – əl çəkmək, boşalmaq. Qacar, buraxmayın onu əldən! Əldən düşmək – zəifləmək, haldan düşmək, üzülmək,

halsızlaşmaq. Əşi lap qocadıb əldən düşmüsən. Əldən-ələ dolanmaq – birisindən başqasına keçmək, bir-birinə ötürülmək. İndi bu bayraq gəzir əldən-ələ, dolanır… Ələ almaq – ələ keçirmək, sahib olmaq, yiyələnmək, ixtiyarına almaq. [Vəzir:] Şahlığı tez gərək alasan ələ… Ələ düşmək – tapılmaq, ələ keçmək, hasil olmaq. Belə bir gün ələ düşməz… Ələ salmaq – *məc.* dolamaq, oynatmaq, masqara etmək, araya qoymaq. [Məryəm:] Tülküyə bax! Bir qız da Məryəmi ələ salacaq. Əli qələm tutmaq – yazmağı bacarmaq, savadlı olmaq. Aşiqəm insana və təbiətə; Əlim qələm tutub yazandan bəri. Əli (əlləri) qoynunda – məyus, çarəsiz, naçar bir halda, kefsiz, qəmli. …Gəlinlər, qızlar; Əlləri qoynunda zarıyar, sızlar… Əli (əlləri) qana batmaq – cinayət etmək, adam öldürmək. Knyazin əlləri çox batmış qana. Əli soyumaq – işdən soyumaq, həvəsdən düşmək, ruhdan düşmək. Əl işdən soyumaz, ürək arzudan. Əli üzülmək – ümidi kəsilmək, çarəsiz qalmaq, əli çıxmaq, məhrum olmaq. [Şahbaz:] Elə ki, aləmdən əlim üzülür… Əlində qalmaq – ixtiyarında olmaq, yiyələnmək, hakimiyyətində qalmaq. [Xosrov:] İran da Bizansın əlində qalır. Əlindən almaq – 1.Başqasının şeyinə, malına və s.-yə zorla və ya başqa yolla sahib olmaq, yiyələnmək. [Məryəm:] Xosrovun arvadı ola-ola mən; Almaq istəyirsən onu əlimdən?! 2. Birini bir şeydən məhrum etmək. Həsrətin səbrimi əlimdən aldı. Əlindən bezar olmaq – bezmək, usanmaq, təngə gəlmək, cana gəlmək. Zülm əlindən həyatdan bezr idi. Əlindən buraxmaq – bir şeydən vaz keçmək, bir şeydən özünü məhrum etmək. Niyə buraxırsan kefi əlində? Əlindən getmək – boşa çıxmaq, qeyb etmək. Məhəbbət ümidim əlimdən getdi. Əlindən gəlmək – bacarmaq, imkanı, iqtidarı olmaq. Sadə şeir yazmaq gəlir əlimdən. Əlini-əlinə vermək – birləşdirmək, qovuşdurmaq, görüşdürmək; birləşmək, görüşmək. Əlimi mən də verməliyəm işçilərin əlinə. Əlini kəsmək – ümidini üzmək, əlini çəkmək. Haqqımıza toxunan; Hər quldurun kəsəcəyiz əlini!.. Əlini tutmaq – yazmağa qoymamaq, imkan verməmək.

Tutma, qoy yazsın, əzizim, əlimi. Əllərdə getmək – namusuna toxunmaq, qızlığına toxunmaq. Qızlığı əllərdə gedəndən bəri.

**Əlac**, *is.* [ər. elac] Çarə. Bu yerlərdə payım yoxmuş, əlacım bir səyahətdir.

**Əlaltından**, *z.* Xəlvəti, gizlicə, heç kəsin xəbəri olmadan, əlaltı. Üzdə bizi alqışlayıb, əlaltından dağıdan…

**Əlamət**, *is.* [ər.] *məc.* Rəmz, ifadə, işarə. Çöhrəndə sənin; Ələm hicranından əlamətin var.

**Əlan**, *z.* [ər.] 1. Bu an, indi. Əlan fikrimdəki tufan; Dünyaları gəzmək deyə xülayalara vardı..

2. Hələ də, indiki halda. Mədənlər yavrusu cəsur bir insan; Yerindən sıçrayıb danışır əlan.

**Əl-ayaq**, *top.* Qollar ilə qılçalar birlikdə. ..Gey ki, əl-ayağın üşüməsin. Dar meydanda aslanın da zəncirlənər əl-ayağı…

◊ Əldən-ayaqdan salmaq – yormaq, taqətdən salmaq. Düşməni salmışıq əldən-ayaqdan.

**Əlbət** [ər.] 1. *Bax* əlbəttə. Artacaq yurdumun əlbət camalı.

2. *ara s.* Yəqin (ki), gürünür (ki). Mən də yolçusuydum bir zaman, əlbət; Bu köhnə dünyanın…

**Əlbəttə**, *z.* 1. Mütləq, hər halda. Əlbəttə basılar…

2. *ara s.* Şübhəsiz, təbii ki. [Vəzir:] Əlbəttə, şəksiz!; Arxanda dağ kimi durmuşuq ki, biz..

**Əlbir**, *sif.* Həmrəy, çox yaxın, birgə işləyən. Hər ikisi birdir, onlar əlbirdir.

**Əlcək**, *is.* Əli soyuqdan və s.-dən qorumaq üçün barmaqlı, ya barmaqsız əl geyimi. Ayazda, şaxtada donan əlləri; Nə boya görmüşdü, nə də bir əlcək.

**Əlçatmaz**, *sif. məc.* Əldə etmək mümkün olmayan. Əl yetməz; uzaq, yüksək, hündür. Məndə də möhtəşəm, əlçatmaz vüqar.

**Əleyhüsəllam** [ər.] Salam, salaməleyküm. Buyurun peyğəmbər əleyhüssəlam!

**Əl-ələ**, *z.* Birgə, bir yerdə, həmrəycəsinə, dostcasına. Əl-ələ işləmək.

◊ Əl-ələ vermək – bir-birinə kömək etmək, köməkləşmək, birlikdə çalışmaq. Neçə min insanla verib əl-ələ…

**Ələm**, *is.* [ər.] Dərd, qəm, kədər, qüssə. Nə dərd, nə ələm, nə də göz yaşları ənisim deyil.

**Əlhəd**: ◊ Başı əlhəd daşına dəymək – bərkdən-boşdan çıxaraq, bir şeyin aqibətini təcrübədə görərək ayılmaq. Özünə gəlmək. Əmirxanın başı dəydi əlhəd daşına; O ayıldı məclislərin gec yuxusundan.

**Əliqanlı**, *sif.* və *is.* Cinayətkar, qatil, cani. Ürəyi fitnəli, əliqanlıdır.

**Əl-qol**, *is.* Əllər və qollar. [Zənci:] Zəncirlə bağlıdır mənim əl-qolum. □ Əl-qol atmaq – çapalamaq, əlindən gələni etmək, çalışmaq. [Xosrov:] O vaxt hər tərəfə mən əl-qol atdım; Bizans dövlətilə dostluq yaratdım.

**Əlləşmək**, *f.* 1. Çalışmaq, bir şeylə məşğul olmaq. Mən də çox əlləşdim, çırpındım, ancaq…

2. Mübarizə etmək. Qartal göylə əlləşərək; Qanadından lələk saldı.

**Əlli**. Qırx doqquzdan sonra gələn say – 50. Elə ki, əllini aşırdı yaşı…

**Əlvan**, *sif.* [ər.] Cürbəcür rəngdə olan, rəngbərəng, alabəzək, müxtəlif. Geyinəcək; Ukraynanın gözəlləri; Əlvan çiçəkləri saralmaz, solmaz.

**Əlvida**, *nida* [ər.] Sağlıqla qal, xudahafiz. Əlvida! – deyərək – dağılır hamı. Əlvida!.. Əlvida, qurduğum şəhər.

**Əlyazma(sı)**, *is.* Əl ilə yazılmış mətn, kitab və s.; əlyazısı. Min illərdir qalmış o əlyazmaları.

**Əmanət**, *is.* [ər.] Saxlamaq üçün birinə tapşırılan şey. Bir dünya könüldə əmanətin var.

**Əmək**, *is.* İnsanın, əqli və cismani gərginlik tələb edən məqsədəuyğun və ictimai cəhətdən faydalı fəaliyyəti; zəhmət. [Fərhad:] Halaldır əməyin, halaldır südün.

**Əməkçi**, *sif.* Öz əlinin zəhməti ilə dolanan, öz əməyi ilə yaşayan, zəhmətkeş. // *is. mənasında.* Sən inqilab ocağısan, əməkçilər obasına.

**Əməl¹**, *is.* [ər.] İş, fel. Mən ölsəm də, ölməyəcək sevdiyim əməl. □ Əməl etmək (eləmək) – yerinə yetirmək, icra etmək, riayət etmək. Verdiyin vədəyə tamam əməl et!

2. Rəftar, hərəkət, iş. İdealist əməllər rənglədi maskasını.

**Əməl²**, *is.* [ər.] Qayə, məqsəd, şiddətli arzu. Açılmışdır qəlb evində əməllərin çiçək-çiçək.

◊ Əməli ərşə dayanmaq – şiddətli arzunda olmaq. Ürəkdir əməli ərşə dayanan.

**Əmələ**, *is.* [ər.] Fəhlə, işçi. Hind, Çin .. əmələləri, irəli!

**Əmi**, *is.* 1. Atanın qardaşı. [Valentin:] Əmi, lap qocalıb əldən düşmüsən.

2. Yaşlı kişiyə ehtiramla müraciət. Dönüb sual verir: – Kimsən, ay əmi?

**Əmin**, *sif.* [ər.] Tamamilə xatircəm, arxayın, qane. Əminəm, vurduğum bu sanki zərbə; Əyəcək yüklənən o qanadları!..

**Əmizdirmək**, *f.* Döşdən süd vermək. [Amaliya:] Gecənin yarısı uşaq əmizdirir.

**Əmlik**, *is.* Yenicə ota düşən və eyni zamanda anasını əmən quzu, keçi. Körpə əmlik, ala çəpiş, yelinli inək...

**Əmmamə**, *is.* [ər.] Bəzi Şərq ölkələrində: sarınmış uzun ağ parça yaxud tirmə zolağından ibarət baş geyimi; sarğı; çalma. Çıxar əmmaməni, sən keçəl qızsan.

**Əmmək**, *f.* 1. Dodaq və dilin müvafiq hərəkəti vasitəsilə döşdən südü soraraq içmək. ..Bol süd də əmmədik ana döşündən.

2. *məc.* Qidalanmaq, qüvvət almaq. Daşlar yarılanda günün telindən Əmərsən dağların qarlı selindən.

**Əmr**, *is.* [ər.] 1. Bir işin görünməsi üçün verilən hökm, göstəriş. [Xosrov:] Nə əmriniz varsa, hazıram candan. □ Əmr etmək – Bir işin görülməsini hökmlə tapşırmaq, buyurmaq. Zabotkin əmr edir, yenə əmr edir.

2. Hökumət orqanının, idarə, müəssisə, təşkilat və s. rəhbərlərinin rəsmi sərəncamı. Nazirin əmrini göstərdi ona.

**Əmzik**, *is.* Sormaq üçün körpə uşağın ağzına verilən içiboş rezin borucuq. Uşağa əmzik ver ağlamasın. – // Şairanə təşbehlərdə. Buludların döşündən əmzik tutub süd əmən…

**Ən**, *əd.* Keyfiyyət bildirən sifətlərin və zərflərin əvvəlinə gətirilərək üstünlük, şiddət bildirir. Bu ən böyük ustamızın ən böyük sözüdür.

**Ənbər**, *is.* [ər.] Gözəl iy, ətir. Daranmış saçları ənbər qoxuyur.

**Əngin**, *sif.* 1. *şair.* Geniş, vüsətli, açıq, ucu-bucağı olmayan. Mənimsə qəlbimə doğur bir səhər; Açılır qarşımda əngin üfüqlər.

**Ənin**, *is.* [ər.] (*şair*) İnləmə, inildəmə, zarıltı. Gəl bu əninindən, ahından əl çək.

**Ənis**, *is.* [ər.] (*şair.*) Yaxın dost, ürək dostu, həmdəm. Nə dərd, nə ələm, nə də göz yaşları ənisim deyil.

2. (*şair.*) Ənginlik, genişlik, vüsət, açıqlıq; dənizin sahildən uzaq nöqtələri. Dəniz! Dəniz! Nə genişdir ənginlərin.

**Ənlik**, *is.* Qadınların yanaqlarına sürtdükləri toz və ya yağ halında olan kosmetik maddə – al boya. Ənliyi, kirşanı neylər camalın.

**Əntər**, *is.* Bədəninə nisbətən çox uzun qolları olan meymun (burada məcazi mənada). Gözünün üstündə buxara papaq; Əntərə bənzəyir o kor yapalaq.

**Ər**, *is.* 1. Arvadın qanuni və məhrəm yoldaşı olan kişi; zövc. [Məryəm:] Bəli İrandır; Ərim də ən böyük bir hökmdardır.

2. *sif.* və *is.* Sözündə möhkəm mərd; qəhrəman, igid, qoçaq. Var olsun.. qılıncla qurşanın ərlər.

◊ Ər oğlu // Ər oğlu ər – igid, qəhrəman. Ər oğlunu unutmamış qoca dünya. Bilirəm, doğrudan ər oğlu ərsən.

**Ərəb**, *is.* Qabaq Asiyada və Şimali Afrikada yaşayan, sami dilləri qrupuna daxil olan xalq və bu xalqa mənsub adam.

◊ Ərəb atı – xüsusi cins, əla minik atı. Səyirtdi düzlərdə ərəb atları; Ayaqlar altında insan başları.

**Ərən**, *is.* (*adətən cəm şəklində*). Ər, qoçaq, igid. Əsrlər boyunca ərlər, ərənlər; Hünər dünyasından boylandı, getdi. Nəbilər, dahilər, ərlər, ərənlər; Həyat meydanında çapmış atını.

**Ərimək**, *f.* 1. Hərarətin təsiri ilə bərk yaxud donmuş haldan maye halına keçmək; ərgin hala gəlmək. – Əriyir güneylər döşündəki qar. // Yanaraq azalmaq. Yanıb əriyirdi evimizdə şam.

2. *məc.* Utanmaq, xəcalət çəkmək. Böhtanını geriyə ud! Əriyərsən bir sözümdən.

3. *məc.* Yavaş-yavaş yox olub getmək, çəkilmək, çəkilib-getmək, itib-getmək, duyulmaz olmaq. Əriyir göydəki sıx-sıx dumanlar.

**Ərinmək**, *f.* Tənbəllik etmək. Ərinmə sevgilim, dur gedək vaxtdır.

**Əritmək**, *f.* 1. Hərarət təsiri ilə bərk yaxud donmuş halda olan şeyi maye halına salmaq. Cansız dəmiri də əridir birdən.

2. *məc.* Qazıyıb atmaq, düzləmək. Sarvan tez əritdi yıxdığı dağı.

3. *məc.* Yavaş-yavaş batırmaq. Bu ay qaranlığı sorub əridir.

4. *məc.* Hiss edilmədən keçirmək. Əridib gecəni, gündüzə gəldin?

**Ərizə**, *is.* [ər.] (*rəs.*). Bir arzu və ya xahiş ifadə edən məktub, yazılan müraciət. Ərizə yazsın, qələm alsın əlinə.

**Ərk**, *is.* 1. Bir şəxsin yaşca böyüklüyü, yaxın qohumluğu yaxud dostluğu səbəbi ilə başqa birisi ilə sərbəstcə davranmasına, rəftar etməsinə (söz deməsinə, nəsihət verməsinə, məsləhət verməsinə, açıqlanmasına və i.a.) yol verən yaxınlıq münasibəti. □ Ərk etmək (eləmək) – həmin münasibətə əsasən özünə yaxın bilib dostcasına bir şey etmək, demək, öz adamı bilmək. Sənsə ərk eləyib danladın məni.

**Ərköyün**, *sif.* Hədindən artıq əzizlənmək, bütün arzu və şıltaqları yerinə yetirilmək nəticəsində xudbin böyümüş. Ərköyün yaşardım anam ölməmiş.

**Ərməğan**, [*fars.*] Armağan, hədiyyə. Ərməğan göndərir Bağdad elinə…

**Ərş**, *is.* [ər.] (*şair.*) Göy, səma. Şəfəqlərin ağ sütunu ərşə toxunur.

◊ Ərşə dayanmaq – çox uca, hündür, yüksək şey haqqında. …işıq deyil, ürəkdir yanan; Ürəkdir əməli ərşə dayanan. Ərşə çıxmaq – ucalmaq, göydərə qalxmaq. Ərşə çıxmış yenə zülüm… Ərşə ucalmaq – *Bax* ərşə çıxmaq. Günəş… ucalmış ərşə..

**Ərz**, [ər.] Söylənilən, nəzərdə tutulan, söz, fikir, mətləb. ☐ Ərz eləmək (etmək) – bildirmək, anlatmaq, məlum etmək, ifadə etmək. Çox gözəl, Vaqifə ərz elə ki, sən…

**Ərz-hal**, [ər.] Şikayət. *Bax* ərizə. Yenə dərd əlindən ərzihalım var.

**Ərzində**, *z.* İçərisində, müddətində. Bir günün ərzində aylarla yansın; Al günəş…

**Əsa**, *is.* [ər.] Əlağacı. Vəzir, əlindəki o əsa nədir?

**Əsarət**, *is.* [ər.] Əsirlik, köləlik, qulluq; kölə, qul vəziyyəti. Əsarət zənciri. Azad qəlbə çətindir ömrün əsarət çağı.

**Əsatir**, *is.* [*ər. əsli yun.*] Allahlar, əfsanəvi qəhrəmanlar və yer üzündə insanların əmələ gəlməsi haqqında qədim xalq nağıl və əfsanələri; mifologiya. Mən uymadım əsatirlər xülyasına…

**Əsəbi**, *sif.* [ər.] Sinirləri son dərəcə həssas olduğu üçün cüzi bir şeydən çox tez əsəbiləşən, təsirlənən, hirslənən. O zaman bu xəstə qəlbim əsəbi; Və coşğun sulara məxsus ahəngə…

**Əsər**, *is.* [ər.] 1. İz, nişanə, əlamət, bir şeyin varlığına fəlakət edən hal. Hər alçaqdan, hər satılmış yağıdan; Qoy qalmasın bir əsər… İndi yoxdur o talanlardan əsər.

2. İnsan əməyi, insan yaradıcılığı, icadi məhsul. // Yazılı əmək məhsulu; ədəbi, elmi kitab, məqalə və s. Burda yazılmışdır yüzlərlə əsər.

3. Təsir. Gərək keçə sizdən ona bir əsər. □ Əsər etmək (eləmək) – təsir etmək. [Xosrov:] Şöhrətim etməyir o qəlbə əsər.

**Əsgər**, *is.* [ər.] 1. Sıravi hərbi qulluqçu; soldat. Budur, burdadır ki, əsgərlərimiz. Əsgər artıq yola düşdü.

2. Silahlı adamlar dəstəsi; qoşun. Hücuma toplasın bütün əsgəri!

3. Hərbi adam, hərbi xidmətdə olan adam, ümumiyyətlə hərbi xidmətçi. □ Əsgər paltarı – hərbi geyim. Geyib əsgər paltarını, silahlandı qəhrəman.

**Əsil**, *sif.* [ər.] Əsilli, nəcabətli, əsil-nəcabət sahibi, nəcib. – Dedi: Əsil şairlərin nə yurdu var, nə vətəni. Alqış zamanının əsil oğluna!

**Əsir**, *is.* [ər.] Müharibədə ələ keçirilən əsgər, zabit və s. – Bizi əsir aldılar. Cana yanğın salır əsirin səsi.

2. Qul, kölə, məhkum. Ey dilsiz gözlərin qara röyası; Ardınca qarğadı qullar, əsirlər.

3. *məc.* Vurğun, məftun, mübtəla. [Amaliya:] Ət-qan əsiridir bütün kişilər.

**Əsirgəmək**, *f.* Qıymamaq, qıyıb verməmək, heyfi gəlmək, xəsislik etmək, qızırqamaq. Hansı namərd can əsirgər bir nigarın eşqinə?

**Əski**, *sif.* 1. Qədim, keçmiş dövrlərlə aid. Qoy əski dünyanın məhvəri sınsın.

2. Çoxdankı, köhnə. – Deyib gülüşdülər o əski dostlar.

**Əskik**, *sif.* Çatışmayan, bütün olmayan, naqis, natamam. □ Əskik olmamaq – həmişə var olmaq, mövcud olmaq, daim olmaq. Çeşmələr başından heç əskik olmaz; Zurnabalabanı bizim dağların.. Əskik olma, əskik olmayasan – sağlıq, salamatlıq arzusu bildirən ifadə. [Vidadi:] Yaxşı, nə tapmısan o saraylarda? Sağ ol, əskik olma, sən yaşa barı.

**Əskiklik**, *is.* Eyib, nöqsan, qüsur; çatışmayan cəhət. □ Əskiklik gətirmək – alçaltmaq, eyib olmaq, hörmətdən salmaq. Əskiklik gətirər hər insana, bil.

**Əskimək**, *f.* Köhnəlmək *(paltar, söz, yara və s. haqqında)*. Əskimişdir yaram, artıq sağalmaz. Ən yaxşı sözləri seçərək bir-bir; Bunlar əskilmişdir, – deyə uduxur.

**Əskimiş**, *f. sif.* Köhnəlmiş. Əskimiş məbədlər, yeni saraylar.

**Əsl**, *is.* [ər.] 1. Əsas, təməl, özül, bünövrə. Bəlkə də insanın əslindədir.

2. Nəsil, soy, nəsəb, mənşə. Yox, yox! Unutmadım mən öz əslimi.

**Əsmək**, *f.* 1. Titrəmək. …dodaqları tir-tir əsib uçunur.

2. Hərəkət etmək, dalğalanmaq. Külək əsir, təpə üstdə yellənir bayraq.

3. Həddindən artıq qayğısını çəkmək, gözündən iraq qoymamaq, həddindən artıq əzizləmək, istəmək. Sonbeşik üstündə əsir analar.

4. *məc.* Əsəbiləşmək, özündən çıxmaq, hirslənmək. Əsdi Qış sarayı, əsdi padşah da.

**Əsnəmək**, *f.* Yuxu gəldikdə, yaxud yuxudan təzə ayılanda, yaxud da yorğunluq nəticəsində qeyri-iradi olaraq ağzını geniş açaraq nəfəsini içəri çəkib dərhal buraxmaq. Yolda gah üşüyüb, gah əsnəyərək // *məc. mənada.* Ayılır yuxudan, əsnəyir şəhər.

**Əsr**, [ər.] 1. 100 illik dövr. Bu əsr şairi vaxtsız unudur. Orta əsrlərdən qalma bir saray…

2. Dövr, zaman, vaxt, çağ. Bizsə baxıb alqış deyək; Öz əsrinin sürətinə. Əsrimiz daima tufanlı; Bir dənizdir.

**Əsrlərcə**, *z.* Əsrlər boyu, əsrlər ərzində. Bayaq sizə söylədiyim o qalalar; Əsrlərcə sinə gərdi azğınlara.

**Əş**, *is.* Dost, yar, həmdəm, yoldaş. Söylədilər səni könlümün əşi; Həqiqətmi o da xülyamı yoxsa?

**Əşi**, *nida.* «A kişi» sözünün canlı dildə işlənən ixtisar şəkli olub, yerinə görə etinasızlıq, narazılıq, yaxud təkid və s. hissləri ifadə edir. O kimdir? – Gəl görək əşi!

**Əşrəfi**, *is.* [ər.] (*köhn.*). Ən şərafətli, ən əziz, çox hörmətli. Budur, yer üzünün əşrəfi insan; Yaradır gündə bir hicranlı dastan.

**Ət**, *is.* 1. Canlıların bədənində sümüklə dəri arasındakı maddə; əzələ toxumalarının adi adı // Heyvan və insan bədəninin yumşaq hissəsi. Qoy daşlı səngərlər yesin ətini. Bir ovuc damarsan, bir ovuc ət…

2. Bədən, vücud, əndam mənasında. Qandan mayalanmış dəmir ətin var.

◊ Ətə dolmaq – ətlənmək, bir qədər kökəlmək. ..ətə dolardın.

**Ətək**, *is.* 1. Paltarın beldən aşağı tərəfə uzanan hissəsi. Yox deyil bizim kəndlərdə ətəyinin altında rüşvət alanlar.

2. Dağın, yamacın və ümumiyyətlə hündür yerin aşağı tərəfləri. Deyirlər bu dağın ətəklərindən.

3. Açıqlıq yer, düzənlik yer. Bölük-bölük, sıx meşələr; Ətəyində bənövşələr.

◊ Ətək altdan ötürmək – 1) xəlvəti, gizli vermək. 2) yaddan çıxarmaq, unutmaq. Bəzən böyük kitablardan nümunələr gətirir; Lakin vicdan kitabını ətək altdan ötürür.

**Ətək-ətək**, *z.* Çoxlu, çoxlu miqdarda; bol, bolluqca, ətəkdolusu. Lakin ellər; İgidlərin məzarına; Çiçək səpir qucaq-qucaq, gül dağıdır ətək-ətək.

**Ətəkləmək**, *f. məc.* Yarısını keçmək, getmək *(yol haqqında)*. Düzəldi mənzilə yenə dəstəmiz; Ətəkləyib yolu, vardın birbaşa.

**Ətəkli**, *sif.* Ətəyi, ətəkləri olan. // *məc.* Ətəkli çöllərdə ağaran dəniz…

**Ətir**, *is.* [ər.] 1. Gözəl iy, rayihə. Ətirdən məst olur yüz bağça, yüz bağ. Ot ətrindən məst olacaq güllər-çiçəklər.

□ Ətir saçmaq (yaymaq, səpmək) – xoş iy vermək. Sahil boyu ətir saçır yasəmənlər. Ətir çəkmək – distillə yolu ilə ətirli maddə istehsal etmək. Bütün aləm çiçək dərsin, ətir çəksin bu gülşəndən.

2. Ətirşah. Ətirli yarpaqları olan çoxillik çiçək (əksərən otaqlarda becərilir). Qızlar gülab çəksin qoy ətrimizdən.

**Ətirli**, *sif.* Özündən ətir saçan; rayihəli. Ətirli çiçəklər. Ətirli otlar. Ətirli bir çiçək, ətirli bir gül. // Xoşiyli, gözəl iyi olan. Salam; Bu ətirli səhərin hər körpə ulduzuna.

**Ətraf**, *is.* [ər.] tərəf *sözünün. cəmi.* Cəhətlər, tərəflər.

2. Dörd tərəf, yan-yörə, hər tərəf. Düşün, ətrafını gör, bir də düşün.

**Əvət**, *əd.* [*türk.*] Təsdiq bildirir – bəli, hə. Onun təmənnası deyildir əvət. Əvət! Tapdalardım, döyər, əzərdim; İnsanlığın məğrur dönməz başını…

**Əvəz**, *is.* [ər.] Qarşılıq, bir şeyin yerini tuta bilən şey. Hələ yaranmamış həyata əvəz. □ Əvəz olmaq – bərabər olmaq, uyğun olmaq. Nə hədiyyə, nə mükafat buna [kitabça və s.] əvəz ola bilməz…

**Əvəzsiz**, *sif.* Əvəzi olmayan, hayıfsız. Dedim ki, zülmlər qalmaz əvəzsiz.

**Əvvəl**, *z.* [ər.] 1. Əvvəlcə, qabaqca. Əvvəl girəcəyəm onun qılığına.

2. Qabaqlarda, əvvəllərdə, ilk vaxtlarda, keçmişdə. Əvvəl şirin dili vardı.

3. Zaman etibarilə daha qabaq, daha əvvəl, daha irəli, daha birinci. Jan Alezar saralmadı ölümdən əvvəl.

**Əvvəlcə**, *z.* Qabaqca. Əvvəlcə lovğa bir xan…

**Əvvəlinci**. Birinci, ilk. Əvvəlinci vərəq, sıra və s. Hünər olsun hər dastanın əvvəlinci varağı.

**Əvvəlki**, *sif.* 1. Bundan qabaqkı, bundan əvvəl olmuş, keçmişdə olmuş, keçmiş. Yoxdur o əvvəlki sözüm, söhbətim. Dünya o əvvəlki dünya deyildir.

2. *is.* mənasında. Keçmişdə, daha əvvəl olan. Səndən əvvəlkilər uymuş zinətə…

**Əvvəllər**, *z.* İlk dəfə, keçmişdə, keçmiş zamanda. Qızdırman yoxdur ki? Əvvəllər vardı.

**Əyan**, *sif.* [ər.] Gözlə görünən, açıq, aydın, aşkar (adətən xəbər şəkilçisi ilə işlənir). …halım əyandır sana…; Nələr çəkdiyimiz sənə əyandır..

**Əyani**, *sif.* [ər.] Açıq, aşkar, gözlə görünən, göz qabağında olan, inandırıcı. Görmək dilərəm, varsa görünsün o «əyani».

**Əyilmək**, *f.* 1. Əyri hala düşmək, yan üstə düşmək. Söylə neçin əyilmişdir buruqların vüqarı. …Gözlərim baxır; Əyilmiş, yıxılmış baş daşlarına.

2. Belini, başını əymək, aşağı qatlanmaq. Kiçik bir kitaba əyilir başım.

3. *məc.* Sitayiş etmək, səcdə etmək, baş əymək. Əyilsin səcdənə ulduzlar, aylar.

4. *məc.* Təslim olmaq, baş əymək. Çünki düşməninə əyilir özü.

**Əyin**, *is.* Bədənin başdan qeyri bütün hissəsi. Əyninə dar gəldi geydiyi paltar.

**Əyləncə**, *is.* Urəyi əyləndirəcək, könlü açacaq şey, əylənmək üçün vasitə. Get axtar kəndinə başqa əyləncə.

2. *məc.* Çox asan iş mənasında. [Xosrov:] Başqa bir əyləncə yoxdur dünyada.

3. *məc.* Oyuncaq, əylənmək üçün alət. Unutdum sevdiyim əyləncələri…

**Əyləndirmək**, *f.* Əyləncə ilə məşğul etmək, başını qarışdırmaq, şənləndirmək, şadlandırmaq, ürəyini açmaq. Düşündürün bu xüsusda, azca əyləndirin bizi…

**Əylənmək**, *f.* Oynamaq, şənlik etmək. Bir az da çırpınsın, gülsün, əylənsin…

**Əyləşmək**, *f.* Oturmaq. Əyləşin, Əli bəy gələr indicə.

**Əymək**, *f.* 1. Bir yana meyil etdirmək, aşağıya, yerə tərəf meyilləndirmək. Şaftalılar şirinlənib budağını əyəndə.

2. *məc.* Belini bükmək. [Loğman:] İnsanın başını əyir qocalıq.

3. Razı salmaq, qane etmək, tabe etmək; məğlub etmək. Əyərdim qarşımda yüz min düşmanı.

◊ Baş əymək – *bax* baş. Min ildir baş əydik yalnız Qurana. O da baş əyməyir bir əmrimizə.

**Əyri**, *sif.* 1. Düz istiqamətdə olmayan, düz xətt təşkil etməyən (düz ziddi). Yerini əyri bir çubuqla sürmüş.

2. Sözündə, işində, hərəkətində düz olmayan, yalançı, fırıldaqçı. Oğrular, əyrilər, o şarlatanlar; Toplanıb başına «Sağ ol!» – deyirlər.

◊ Əyri göz – gözü dəyə bilən adamın gözü. [Qızyetər:] Yox…, yox…, qadan alım, min əyri göz var; Bircə farağat dur, ..göz dəyər sənə.

**Əyriburun**, *sif.* Burnu əyri olan. Görəcəyəm əyriburun hampaların ölümünü.

**Əyrilik**, *is. məc.* Hiylə biclik, düz, namuslu yolla getməmə (düzlük əksi). Onda nə əyrilik, nə də ki, qan var.

**Əyyam**, *is.* [*ər.* yövm *sözünün cəmi*] Günlər, zaman; dövr. Varaqlayır kitab kimi keçmiş əyyamı.

**Əzab**, *is.* [ər.] Əziyyət, şiddətli mənəvi sıxıntı. Ruhum əzab içrə..

**Əzan**, [ər.] Müsəlmanları namaza çağırmaq üçün azançının səhər, günorta və axşamüstü minarədən ucadan oxuduğu təkbir, azan. Bir yaz sabahının ilk əzanıydı…

**Əzbər**, *is.* Bir mətni, şeiri və ya sözü eyni ilə yadda saxlama. □ Əzbər oxunmaq – əzbərlənmək… Dildən-dilə düşək, əzbər oxunaq.

**Əzbərdən**, *z.* Əzbər olaraq, yazıya baxmadan; sinədən, hafizədən, yaddaşdan. Almışam, əzbərdən bilirəm bütün.

**Əzbərləmək**, *f.* Əzbər etmək (öyrənmək), oxuduğu bir şeyi yaddaşında saxlamaq, mənimsəmək. Həyat böyük bir dastandır, əzbərləməz bir insan.

**Əzəl**, *z.* [ər.] Əvvəl, irəli, qabaq, ilkin, əvvəlcə, qabaqca. Yaxşı yadımdadır, on beş il əzəl; Bu ilk müəllimim, əzəl sirdaşım. // *sif.* İlk, birinci. İnanmam ki, bunun [eşqin] hökmü əzəldir. □ Əzəl başdan (gündən) – lap əvvəldən, lap əvvəlcədən, qabaqdan, başlanğıcdan. Əzəl başdan düşmənimdir üzü murdar qaranlıq. Əzəl gündən gəncliyini sənə qurban demişdir. Əzəl gündən dolanmışam yer üzünü qarış-qarış.

**Əzəldən**, *z.* Lap əvvəldən, ilk vaxtdan, ibtidadan. Əzəldən təmizdir, safdır ürəyin… Vəfasız deyildin sən ki, əzəldən. [Xosrov:] Vəfalı bir dostdur Şapur əzəldən. □ Əzəldən bəri – ilk vaxtdan olaraq, əvvəldən. İnsanlıq böyükdür əzəldən bəri…

**Əzəli**, *sif.* [ər.] Həyatın əzəli bir qanunu var; İşsiz hünər yoxdur, hünərsiz də iş.

**Əzəmət**, *is.* [ər.] 1. Vüqar, qürur, böyüklük. Alnında əzəmət, qəlbində vüqar; Nə fəryad qoparır, nə aman deyir.

2. *z.* «Əzəmətlə» şəklində – təntənə ilə, ehtişamla, təmkinlə, vüqarla. …Əzəmətlə baxın qayalar…

**Əzəmətli**, *sif.* Böyük, möhtəşəm. Dənizdəki vaporların əzəmətli nərəsi!

**Əziyyət**, *is.* [ər.] Əzab, məşəqqət, cəfa. Arabir məni də salır qüvvətdən; Həyat qurtarmadan bu əziyyətdən.

2. Ağır zəhmət, ağır iş, əziyyətli və çətin iş. Vardır əziyyəti, vardır qayğısı. □ Əziyyət çəkmək – zəhmət çəkmək, çox işləmək, əziyyətli işlə məşğul olmaq. Çox əziyyət çəkəcəksən.

**Əziyyətsiz**, *sif.* Əzabsız; asanlıqla, çətinlik çəkmədən əldə edilən. Əziyyətsiz qazanılmaz bu dünyada qəhrəmanlıq.

**Əziz**, *sif.* [ər.] Sevimli, istəkli. Bizim əziz qardaşlar! □ Əziz olmaq – hörmət bəslənilmək, hörmət edilmək; əzizlənmək. Oğul! Bir qayda var eldə-obada; Qonaq əziz olar, qaçaq olsa da. // Ən qiymətli, ən dəyərli. Ən əziz sözümüz «yoldaş» sözüdür. // İstəkli. Əzizlər ağlaşır asta səs ilə.

2. Ən çox istənilən, ən çox sevimli. Əziz qonağımdır, dostumlur Eldar. // Az tapıldığı, çətin işə düşdüyü üçün çox qiymətli sayılan. Nə qədər şirindir qəlbə məhəbbət; Ömrün mənasıdır bu əziz nemət.

2. «Əzizim» şəklində – nəvazişlə müraciət, nəvazişlə deyilən söz. [Səhər:] Sənsən düşündüyüm sənsən, əzizim! Hər oxuyan qəlbin, əzizim, gizli sevdası var.

**Əzizləmək**. 1. Qoruyub saxlamaq, gözləmək. …bizi hər vaxt əzizləmiş Vətənimiz.

2. Çox istəmək, nazını çəkmək. Ellər onu əzizləyir, deyir «Aslan qayası».

**Əzmək**, *f. məc.* Döymək, kötəkləmək, əzişdirmək. // Vurub yaralamaq. Yumruğumuz əzəcəkdir sənin donuz burnunu!

**Əzrail**, *is.* [ər.] 1. Dinə görə bütün insanların ölmək vaxtı çatanda onların canını alan ölüm mələki. Yoxsa əzrayıllar durar gözünə.

2. *məc.* Amansız, qəddar, əzazil, qorxunc adam haqqında. O, əzrayıl yaranmışdır, qılınc qurşar, qiyam eylər.

# F

**Faciə**, *is.* [*ər.*] Müsibət, fəlakət, bəla, dəhşətli hadisə. [Şirin:] Yazıq… doğrudan da bu faciədir. – Hələ qanlı faciələr.. var..

**Fahişə**, *is.* [ər.] Pul qazanmaq üçün mənini kişilərə satan qadın. Bu səhnə.. Fahişələr yurdundan bir nümunədir..

**Fahişəlik**, *is.* Fahişə peşəsi. Fahişəlik, yazıqlıq..

**Fal**, *is.* [ər.] Keçmişdən və gələcəkdən xəbər vermənin bu və ya digər mövhumi üsulu. □ Fala baxmaq – fal açmaq (suya, güzgüyə, kitaba, gəncəfə kağıza və s. baxmaqla). Qarılar, qocalar baxmayır fala..

**Famil(i)ya**, *is.* [*lat.*] Ailəvi soyadı. Dəyişdi adını, familyasını.

**Fanar**, *is.* [*yun.*] Fənər, fanus (*işıq cihazı*). Əlində bir hisli, bir qırıq fanar.

**Fani**, *sif.* [*ər.*] Puç, heç. Yer üzü fanidir, uzaq gəzəlim..

**Fantan**, *is.* [*ital.*] Fontan, fəvvarə, şırnaq. ..Fantan buruqları, mədən daşları..

**Farağat**, *sif.* və *z.* Sakit, dinc. □ Frağat durmaq – dinc durmaq, sakit olmaq. Bircə farağat dur… göz dəyər sana!

**Faraş**, *sif.* və *z.* [*ər.*] Mövsümündən, vaxtından tez əkilən, doğulan, yetişən, böyüyən, əmələ gələn, özünü göstərən. □

Faraş gəlmək – təzə əmələ gəlmək. Muğanın pambığı faraş gələndə; Könüllər mülkündə ilk bahar olur.

**Faşist**, *is.* [*ital.*] Faşizm tərəfdarı. Faşistlərə ölüm yazar Mürəkkəbim..

**Fayda**, *is.* [ər.] Xeyir, mənfəət. Bəlkə cana faydadır..

**Faydasız**, *sif.* və *z.* Xeyirsiz, səmərəsiz. [Xosrov:] Sənin məsləhətin faydasız olmaz.

**Fel**, *is.* [ər.] Əməl, hərəkət. ..gözəldir feli, rəftalı.

**Feyz**, *is.* [*ər.*] Zövq, həzz. □ Feyz almaq – feyzlənmək, zövq almaq, həzz almaq. ..feyz al.. söhbətdən.. – Sən ey vəhşətindən feyz alan insan!

**Feyz(i)yab** [*ər.* və *fars.*] □ Feyz(i)yab olmaq – feyzlənmək, feyz aparmaq. .olurdu könül feyziyab.

**Fəcri-şəfəqqət** [ər.] Mərhəmət, nuru. Köksündə açmışdır fəcri-şəfəqqət.

**Fədai**, *is.* [ər.] Amal, məslək uğrunda mübarizədə canından belə keçməyə hazır olan şəxs. Sənmi, de, qaçırsan fədailər nəslini?

**Fədakar**, *sif.* [ər. və *fars.*] Amalı yolunda canını qoyan. Görmədin sən.. fədakar insanları..

**Fədakarlıq**, *is.* Fədakar olma. Budur fədakarlıq..!

**Fəğan**, *is.* [*fars.*] Nalə, fəryad. Təsəllim ah ilə fəğandır, ana!

**Fəhlə**, *is.* [ər.] Əmələ. Bakı fəhləsinin tunc sinəsi..

**Fəxr**, *is.* [ər.] İftixar, iftixar ediləcək şəxs. Sənsən dünyaların fəxri, şöhrəti. □ Fəxr etmək – qürur hissi keçirmək. Dostum! Şöhrətinlə fəxr edirik biz..

**Fəqət**, *bağl.* [ər.] Lakin, amma, ancaq. Fəqət məni düşündürən nə bu şadlıq, nə bahardır..

**Fəlakət**, *is.* [ər.] Bəla, bədbəxt hadisə. Kəsiləcək yer üzündən.. fəlakətin ilan nəfəsi.

**Fələk**, *is.* [ər.] Elə bir səmavi qüvvə ki, ondan tale, müqəddərat nazil olur. Fələklər başıma soyuq kül tökdü. – [Xosrov:] ..Göydən od tökürdü başıma fələk. – Fələk bəxtimizə baxdı qıyqacı…

**Fəlsəfə**, *is.* [*yun.*] 1. Təbiətin, cəmiyyətin və təfəkkürün ümdə qanunauyğunluqları haqqında elm. Hər elmdən çox; Sevirəm fəlsəfəni.

2. Nəzəriyyə, əqidə, konsepsiya, doktrina, görüş. «Cahan qəmxanədir» fəlsəfəsi son nəfəsi.. çəkmək üzrədir.

3. Həyat reallıqlarını nəzərə almayan söz-söhbət, mühakimə. Eh, bu fəlsəfələr bir yanda dursun..

**Fənd**, *is.* [*fars.*] Hiylə, kələk, biclik. □ Fənd qurmaq – tələ qurmaq, hiylə düzəltmək. Dayan, bir fənd qurum indi bülbülə..

**Fənər**, *is.* [*yun.*] fanus (*işıq cihazı*). Azmı işıq verir o zəif fanar.

**Fənn**, *is.* [ər.] Bilik sahəsi tədris obyekti kimi. Məncə, bütün fənlərdən o, beş alardı.

**Fərə**, *is.* Cavan toyuq, kəklik. ..fərələri qovlayır..

**Fərəhlənmək**, *f.* Xürrəm olmaq. Könül fərəhlənib eylədi pərvaz..

**Fərman**, *is.* [*fars.*] Hökmdarın yazılı sərəncamı, əmri, qərarı. Burdan da Rusiya göndərir fərman..

**Fəryad**, *is.* [*fars.*] Nalə, fəğan, vaveyla, ah-zar, ah-fəğan. Biz and içdik anaların, bacıların fəryadına..

**Fərz**, *is.* [ər.] Güman, zənn, təxmin, ehtimal. Mənim düşkün könlüm sizdən eləyir; Bu fərz olan təmənnanı, cavanlar.

**Fəsəli**, *is.* Qoğal. Bizim kəndlərin bayramqabağı; Fəsəli yaymağı yadıma düşdü.

**Fəsil**, *is.* [ər.] 1. Mövsüm (yaz, yay, payız, qış). Dəyişir hüsnünü aylar, fəsillər.

2. Əsərin ayrıca bölməsi. Ayrıca bir fəsil açıb söz qoşmalıyam.

**Fəsil-fəsil**, *z.* Fəsildən fəslə, hər fəsildə. Fəsil-fəsil təzələnir saf duyğular.

**Fəth**, *is.* [ər.] Özünə tabe etmə, yiyələnmə, zəbt. Günəşimi fəthə gedir.. nəslimiz? □ Fəth etmək – ) özünə tabe etmək, zəbt etmək, yiyələnmək. O, ayı, ulduzu fəth edəcəkdir!

[Şahbaz:] Xəyalım fəth edir asimanları..; 2) *məc.* ürəyini ələ almaq, hüsn-təvəccöhünü qazanmaq. O könül yolçusu.. Min ürək fəth edir..

**Fəvvarə**, *is.* [ər.] Fontan. ..göylərə fəvvarə vurur..

**Fəza**, *is.* [ər.] Asiman, səma. Sahil görünməyir, fəza bucaqsız.

**Fəzilət**, *is.* [ər.] Yüksək mənəvi keyfiyyətlər, müdriklik. Sizdə fəzilət də, ədalət də var..

**Fikir**, *is.* [ər.] 1. Təfəkkür, düşüncə nəticəsində hasil olan ağıl, zəka qənaəti, mühakiməsi. Atamın fikrini söyləyirəm mən. – Bəzən bir alimin.. Dediyi özgənin fikirləridir.

☐ Fikirdə olmaq – fikrə dalmaq, fikrə qərq olmaq. ..Bakı fikirədir.. – Nə var, fikirdəsən sən, ey sərvinaz. // Rəy, görüş, baxış, baxım. Yaxşı, fikrin nədir, bir danış görək?!

2. Fikir çəkmə, fikir eləmə, fikir götürmə, fikir-zikir. [Xosrov:] Fikirdən qocalır dünyada bəşər. – Ey ürək! Yoruldu fikirdən başım.. – Gecə fikir, gündüz fikir…

◊ Fikir vermək – diqqət yetirmək. Fikir ver sözümə.. Fikrə dalmaq – fikrə getmək, fikrə qərq olmaq, fikirdə olmaq. Mənsə kiçik bir komada fikrə dalmışam. Fikrə getmək – fikrə dalmaq, fikirləşmədə olmaq. O da fikrə getdi, düşündü bir az. – ..Fikrə gedib danışıram yalnız ürəklə.. Fikri dolaşmaq – fikri qarışmaq, çaşbaş qalmaq. Muğan sakit, ağlım çaşır, fikrim dolaşır. Fikrindən dönmək – fikrini (rəyini, qərarını) dəyişmək. Bəlkə öz fikrindən Əmirxan dönə? Fikrindən keçmək – xəyalından (yada salmaqla) keçmək. Bir anda fikrindən yüz illər keçdi.

**Fikirləşmək**, *f.* Düşünmək. Ayaq üstə fikirləşir, gəzir otaqda.

**Fikirli**, *sif.* Dalğın, fikirli halda. [Şahbaz:] Belə bir təhərsən… çox fikirlisən..

**Fikrən**, *z.* [ər.] Əqlən, zehnən. Sənə məhkum mən olmadım fikrən.

**Fil**, *is.* [*fars.*] Tropiklərdə yaşayan iri xortumlu, qulaqlı və xortumlu heyvan. «Qurbağalar fil olmaqçın şişər, şişər, partlayar…»

**Filosof**, *is.* [*yun.*] Mütəfəkkir, yaradıcılığına filosofanə dünyagörüşü hopmuş sənətkar. Mən istərəm, filosoflar səhnəmizdə söz yaratsın.

**Fincan**, *is.* Əsasən çay, qəhvə içmək üçün dəstəli çini, saxsı qab. Bir fincan suyu da gizlində içməz.

**Fındıq**, *is.* Ləpəsi formaca noxuda, keyfiyyətcə məğzibadama bənzər bərk qabıqlı meyvə. □ Fındıq boyda – bapbalaca. ..bir fındıq boyda iş görər; Özünü aləmə igid göstərər.

**Fırça**, *is.* Rəng, lak, yapışqan maddələri yaxmaq üçün işlədilən saplı qıl topası. Deyirəm ki, öz fırçama; Rəng toplayım çiçəklərdən.

**Fırıldaq**, *is.* Dələduzluq. [Şapur:] Yox, canım, mən hara, kahinlik hara? O ki fırıldaqdır başdan ayağa. □ Fırıldaq gəlmək – kələk işlətmək, badalaq qurmaq, aldatmaq. Mən az görməmişəm.. Min fırıldaq gələn o alçaqları!

**Firqə**, *is.* [ər.] *köhn.* Partiya. Məni Leninin Leninsiz firqəsi göndərəcək..

**Firqəvi**, *sif.* Partiyalı. Onlar olur gah «firqəvi», gah bitərəf.

**Fırlanmaq**, *f.* Hərlənmək, dolanmaq, dövr etmək. Dörd tərəfdə atlı kazak, göy fırlanır gedir.

**Fırtına**, *is.* 1. Dənizdə qasırğalı hava, güclü dalğalanma. Dəryada da qorxunc, dəli bir fırtına vardır. – Qayıq qalır fırtınada, dalğalara düşür yelkən…

2. Tufan, sərt küləkli yağıntı. Meşələr! Solmayın fırtınalarda?

3. *məc.* Təlatüm, həyəcan. [Şahbaz:] Cəlal, üzündəki fırtına nədir?

4. *məc.* Bərk-boş, ağır sınaq. Ürəyində çiçək açdı bir məhəbbət adlı bahar; O baharın camalına soldurmadı fırtınalar.

**Fırtınalı**, *sif.* Qasırğalı, tufanlı. Xəzər! Xəzər! Fırtınalı, dəli Xəzər..

**Fısıldamaq**, *f.* Fısıltı, fıs-fıs səsi çıxarmaq. O, tox qaban kimi fısıldayır..

**Fişəng**, *is.* Pirotexnikada atəşfəşan raket. ..Bayramlara ziynət verən fişəng səsi.

**Fitnə**, *is.* [ər.] Ara qarışdırma, provokasiya, qızışdırıcılıq. Sən ömründə fitnə toru qurmamısan.

**Fitnəkar**, *is.* və *sif.* [ər. və *fars.*] Fitnə-fəsad ifadə edən. Kinindən qızardı fitnəkar gözü..

**Fitnəkarlıq**, *is.* Provokatorluq, hiyləbazlıq. ..yerə batsın.. fitnəkarlıq..

**Fitnəli**, *sif.* Fitnəsalan. Bir çoxu fitnəli, ..böhtanlıdır. – Ürəyi fitnəli, əli qanlıdır..

**Fitrən**, *z.* Təbiətən, xilqətcə, yaradılışında. Ey fitrən xəlq olmuş təbabət, Şuşa!

**Fitrət**, *is.* [ər.] Xasiyyət. İnanmamaq iblislərin, əqrəblərin fitrətidir.

**Fitri**, *sif.* [ər.] Anadangəlmə. Nə qədər fitri, gözəl bir yaranış..

**Fleyta**, *is.* Nəfəsli musiqi aləti. Gülzarın da fleytası yayılır cana.

**Fotoqraf**, *is.* [yun.] Fotoşəkilçəkən. Fotoqraflar hücum çəkir dörd bir tərəfdən.

**Fövq**, *is.* [ər.] Zirvə, yuxarılar. Zamanın fövqünə qaldıran bizi; Könül pərisinin qanadlarıdır.

**Fraklı**, *sif.* Əynində frak (sürtük növü) olan. ..fraklı serlər Gülür..

**Fransız**, *is.* Vətəni Fransa olan millətin fərdi. Marat kimi bayraq alıb hücum çəkir fransızlar.

**Frezer**, *is.* [fr.] Sürətlə fırlanan çevrəsi çoxtiyəli olan dairəvi kəsici, yonucu alət. Sürətimiz keçsin gərək sürətini frezerin! // Frezer dəzgahı. Yüz xəncər tiyəli frezer üstə; Gah qolumuz getdi, gah da əlimiz.

**Fuf**, *nida*. Bezginlik, narazılıq bildirir. [Amaliya:] Fuf… dərdim, azarım qurtarıb, demək..

**Fürsət**, *is.* [ər.] Əlverişli vaxt, münasib məqam. □ Fürsəti tutmaq – fürsəti fövtə verməmək, fürsəti əldən qaçırmamaq, fürsətdən istifadə etmək. Fürsəti bərk tutun..

# G

**Gah** [*fars.*] 1. Cümlənin həmcins üzvlərini və tabesiz mürəkkəb cümlənin tərkib hissələrini bölüşdürmə əsasında birləşdirən bağlayıcı (əsasən təkrar edilərək işlədilir). Gah Allah bağladı, gah da hökmdar. – Gah bir qoyun oldu, gah bir canavar. – Gah durulur, gah bulanar..

2. *z.* Hərdənbir, bəzən, arabir. Gah olur ki, ovçu könlüm.. çöllər dolanır.

**Gah-gah**, *z.* Bəzən, hərdən, arabir. Bir qadın kimi də nazlanıb gah-gah; Özünü sevdirir gülümsəyərək.

**Gec**, *z.* Adi və ya müəyyənləşdirilmiş vaxtdan sonra. Biz gedək, vaxt gecdir.

**Gecə**, *is.* Günün axşamdan səhərə qədər olan hissəsi. Yuxumda görmüşəm səni gecələr.. – Keçmişəm gecələr Çanaqqaladan.. – Gecə zülmət, üfüq qara.. // *z. mənasında* – gecədən şəklində. Şeh düşər otların üstə gecədən.

◊ Gecə açılmaq – başlanmaq. İşıqla açılır gecəm, gündüzüm.. Gecə qaralmaq – axşam qurtarıb gecə başlanmaq; qaranlıq düşmək. Buludlar oynadı, gecə qaraldı.. Gecə keçmək – səhər açılmaq. Gecə keçmiş; Sarvan yenə düşünür yalqız.. Gecə taxtını gündüzə tapşırmaq – gecənin yerinə mütləq səhər gələcək. Öz taxtını tapşıracaq gecə gündüzə. Gecəni gündüzə qatmaq – çox işləmək, həddindən artıq çalışmaq. Mən ki, hər gecəmi qatdım gündüzə.. Gecən(iz) xeyrə qalsın! – gecəçağı bir-biri ilə vidalaşanda söylənilən təbrik sözü. Artıq, gecən xeyrə qalsın bir az dincələk. – Sağ olun, gecəniz xeyrə qalsın.

**Gecə-gündüz**, *is.* 1. Gecədən gecəyədək davam edən 24 saat müddəti. O bir qarşıladı gecə-gündüzü. – Söhbətlə keçirdi gecə-gündüzü.

2. Daim, həmişə; vaxt bilmədən. Gecə-gündüz çöldə qaldım.. – Gecə-gündüz çörək deyib, nalə çəkmiş hər laylası.

**Gecələmək**, *f.* Gecəni qalmaq, gecəni keçirmək, bir gecəni yatmaq. Gecələdim təbiətin qucağında çox zaman.. – Qalın, gecəliyin, evimiz vardır!

**Gecəyarı(sı)**, *z.* 1. Gecənin tən yarısında. O məşəllər.. Yol göstərir gecəyarı.. – Qurtardı söhbətin gecəyarısı.

2. *is.* mənasında. Gecənin tən yarısı. Qapılar bağlanır, gecəyarıdır.

**Gecikmək**, *f.* 1. Vaxtında gəlməmək, yubanmaq, gec çatmaq. O öz vədəsinə gecikdi ancaq. – Bir an da gecikmək ölümdür indi. – Qoy uzansın gecə, geciksin səhər..

2. Ləngimək, təxirə düşmək. Bu il Avropada gecikmiş bahar..

3. Gecikən şəklində *is.* mənasında. Bayırdadır gecikənlər, geri qalanlar..

**Gedər-gəlməz**, *is.* Qayıtması mümkün olmayan yer; ölüm. Vaxtsız ölüm.., gedər-gəlməz bir yolun var! – Çox axtardıq, çox aradıq; Gedər-gəlməzlərə vardıq..

**Gedərgi**, *sif.* Getməli olan, qala bilməyən. Həqiqət eşqilə gəldik cahana; Onun hökmüylə də gedərgiyik biz.

**Gediş**, *is.* 1. Getmə; getmə tərzi. Nələr andırırsan bu gedişlə sən.. – Səbəb nədir bu işə? Bu sərsəri gedişə.

2. Yol. Çünki yolçusuyam mən bu gedişin. – Gözəllik yoludur mənim gedişim.

3. Əməl, hərəkət. Anlamaz ki, bu gedişlə o aldadır özünü…

**Gediş-gəliş**, *is.* Müxtəlif istiqamətdə hərəkət etmə, gedib-gəlmə. Gediş-gəliş çətin, güzəran ağır.. – Çayların üstündən buz körpü saldı, Seyrəldi get-gedə gediş-gəliş də.

**Gen**, *sif.* 1. Geniş, enli. Zağ-zağ əsir aynabəndlər, gen pəncərələr.. – Biz and içdik gen dərələr, Sıra dağlar qucağına..

2. *z.* Uzaq, aralı. Ay uzaqlarda, küsüb gendə durur.. □ Gen düşmək – uzaq düşmək, uzaqda yaşamaq, aralanmaq. Fəqət səndən gen düşəndə.. – Azad vətən, Mən .. düşsəm də gen; Ah… sevirəm Qafqazı mən.

◊ Dar dünya gen olmaq – güzaran, həyat düzəlmək, yaxşılaşmaq. Nə deyim, ay oğul, sən deyən olsun! Təki bu dar dünya bizə gen olsun!

**Gendən**, *z.* Uzaqdan, kənardan. Qoy külə döndərsin gendən baxanı..

**General** [lat.] Yüksək komanda heyətində hərbi rütbə. Satdı Şuralar ölkəsini uzun və ağbığlı generallara. – Kimlər ola.. generallar, zabitlər?

**Geniş**, *sif.* 1. Eni çox olan, gen (dar əksi). Geniş pəncərələr açılır tay-tay. – Şəhərə sığmayır geniş küçələr.

2. Ucsuz-bucaqsız, sonsuz. Qəlbin kimi nə genişdir asimanın? – Geniş fəzalardır onun oylağı..

3. Böyük, iri. Əsrin geniş addımları sürət tapandan bəri..

4. Miqyası, dairəsi, ölçüsü böyük. Səbəb olacaqdır bir geniş hərbə..

◊ Ürəyi geniş – səxavətli, qayğıkeş, comərd, genişqəlbli. Ürəyin genişdir, kamalın dərin.. – Ürək geniş olsun!

**Genosse**, *is.* [alm.] Yoldaş, partiya yoldaşı. Ordusunu çəkirkən yazdı genosse Telman..

**Gerçək**, *z.* Həqiqətən, əslində. Ah, təbiət! Ən böyük övladın insandır, gerçək! – Mən bu səhnəciyə inandım gerçək..

**Geri**, *z.* 1. Arxaya, arxa tərəfə, dala. Böhtanını geriyə ud! – Alman soldatları geri qaçırdı.

2. *is.* Dal, ard. Düzəldi manqalar geriyə doğru. □ Geri qalmaq 1) dalda, arxada qalmaq. Mən hücumdan geri qalsam! 2) yubanmaq,, ləngimək. Bayırdadır gecikənlər, geri qalanlar. Geri(yə) dönmək – dala dönmək, qayıtmaq. Geri dönməsə də günlər bir daha.. – Öz yayından çıxan oxlar bir

də geri dönməyəcək. Geri çəkilmək – dala çəkilmək, geri addımlamaq. Basqın güruhları çəkildi geri. Gəlmə mənim göylərimə, qara bulut, çəkil geri! Geridən baxmaq – seyirçi kimi uzaqdan baxmaq, yaxın durmamaq. Zalımlar geridən baxar sizinlə..

**Get-gedə**, *z.* Tədricən, yavaş-yavaş; zaman keçdikcə. Soyudu get-gedə ömrün illəri… – Çoxaldı get-gedə, artdı hərəkət.. – Get-gedə düşsə də qolu qüvvədən..

**Get-gəl**, *is.* Bir yerə çox gedib-gəlmə. Get-gəli sevməyir bizim quruluş…

◊ Get-gələ salmaq – işini qəsdən uzatmaq, yubatmaq, süründürməyə salmaq. Yuxulu yorğun şikayətçiləri get-gələ salanlar..

**Getmək**, *f.* 1. Yerimək, addımlamaq. Hey gedirəm durmadan; Bir yuvacıq qurmadan.. – Humayı çiyninə götürüb gedir..

2. Olmaq, iştirak etmək. Nə bir toya getdik, nə də şadlığa. – Bayramlara, şənliklərə qoşa gedirlər.

3. Cərəyan etmək, davam etmək. Onu da boğacaq gedən üsyanlar.. – ..İclas gedir..

4. Yola düşmək, istiqamət almaq. Gündüzlər iqlimdən-iqlimə gedir. – Olmazmı Muğana yalnız gedəsən?

5. Bir işin dalınca varmaq; peşə seçmək. Aqronom gedirəm, – deyib Əmirxan.

6. Tərk etmək, qoyub getmək. Mən getsəm qırğının hesabı olmaz. – Yanından getməyib günlü, gecəli. – Biz gedək, vaxt gecdir. – Ana! Getdim, salamat qal!..

7. Evlənmək, ərə getmək. Dedi ki, razıyam, gedərəm xana.

8. *məc.* İrəliləmək, istiqamət almaq. Güllələr gah sağa, gah sola gedir.

9. *məc. tex.* Özü addımlayan, özüyeriyən; Gedən dirəkləri, dəmir telləri..

10. *məc.* Ölmək, dünyanı tərk etmək. Daş üstə bir daş da qoymadı, getdi. – Getdi ürəyində vətən möhnəti. – Getdi süfrəsinin başında duran..

11. Gedən şəklində *is.* Yol gedən, piyada. Bir dayan, ay gedən, de haralısan?

12. Əmr ədatı, məsləhət, əmr, xahiş bildirir. Gedin, dostlar! Təbiətdən intiqam alın. – Gedək! Bizim yerlər xoş keçər sizə.

Allaha xoş getməz – nalayiq, pis hərəkətdir mənasında. Yox… xoş getməz bu Allaha..

◊ Bada (zaya) getmək – heçə çıxmaq, puç olmaq. Onların ömrü də tez gedər bada.. – Bir yaxşılıq getməz bada.. – Ömrümüz getdi zaya. Qanı getmək – solmaq; qocalmaq. Gedir qəlbimizin isti qanı da.. Zidd getmək – qarşı çıxmaq, razılaşmamaq. Xanın təklifinə zidd getmək olmaz. – *kob.* – öz işi ilə məşğul olsun mənasında. Getsin kərməsini ayaqlamağa! Ömründən getmək – ömrünü azaltmaq, ölümə yaxınlaşmaq. Hər ağ gün, qara gün ömürdən gedir.. – «Xoş günlər ömürdən gedir».. Sabaha getmək – irəli, qabağa getmək; gələcəyə irəliləmək. Ürəklə bir yerdə gedir sabaha. Xeyrə qənşər (qarşı) gedin – yaxşı yol, sağ-salamat gedin mənasında. Xeyrə qənşər gedin, çox şad oldum mən.

**Geydirmək**, *f.* Geyməyə məcbur etmək. Şəhər qızlarına geydirirsiniz..

**Geyim**, *is.* 1. Əyninə geyilən hər şey; paltar, üst-baş, libas. Sadə geyimimdən gileylənirsən.. – Qamət gözəl, geyim təzə, qaş qara..

2. Yaraşıq; yaraşan, tutan, malı olan. [Amaliya:] Doğrudan geyimdir qadına ziynət.

**Geyinmək**, *qayıd.* 1. Əyninə paltar keçirmək, geymək; özözünü geyindirmək. ..Təpədən-dırnağa geyinir dümağ..

2. Müəyyən dəbdə, növdə paltar geymək. Geyin xara, geyin ipək.. Gah koverkot, gah da şevyot paltar geyindi.

3. *məc.* Örtülmək. Yenə də yamyaşıl geyinir dağlar.. – Geyinmiş dan yeri yenə qırmızı..

**Geymək**, *f.* 1. Əyninə paltar, ayaqqabı keçirmək. Əyninə dar gəldi geydiyin paltar. – [Yadigar:] Səhər geydi donunu. □ Əsgər paltarını geymək – orduya çağrılmaq, əsgər olmaq. Geyib əsgər paltarını, silahlandı qəhrəman..

2. *məc.* Örtülmək, üstü örtülmək. Atlas geyər göy yaylağı bizim yurdun. □ Toy libası geymək – bəzənmək. Toy libası geyən ana təbiət..

◊ Qara geymək – yasa batmaq; yas saxlamaq. Qara geymiş.. polyakların ana yurdu. Sağlıqla geyəsən! – təzə paltar geyən adama deyilən təbrik. Sağlıqla geyəsən, mehriban bala!

**Gəda**, *is.* [*fars.*] *məc.* Dilənçi, yazıq, binəva. [Xosrov:] Gədayə döndərdi məni məhəbbət. – De ki, [Dürrəyə] Vurğun gədalara dönübdür.

**Gədə**, *is. dan.* Oğlan. Gədə lap divanədir.

**Gəldi-gedər**, *sif.* Müvəqqəti, daimi, sabit olmayan. Biz gəldi-gedərik, sən yaşa, dünya! – Demə, Səməd Vurğun gəldi-gedərdi.. – Səndən özgə nə varsa da, gəldi-gedər, əfsanədir.

**Gələcək**, *sif.* 1. Zaman baxımından hələ çatmamış, lakin çatması gözlənilən. Gələcək günlərə bəlkə müjdədir? – Gələcək günlərə salam aparaq.

2. *is.* Hələ çatmamış, lakin gözlənilən zaman. ..Səadət də, gələcək də sizindir.. Gözəl gələcəyi görürəm sizdə.. – Mənimdir gələcək.. müəllimim var…

**Gələn**, *is.* Zühur edən; qonaq, mehman. Şahim! Qarabağın şeyxidir gələn. – Ziyarətə gələnlərin ağzı qıfıl, dili laldır.

**Gəl-gəl**, *is.* Çağırış, dəvət, çağırma. «Gəl-gəl!» – deyir təbiətin qucağı.

**Gəlhagəl**, *is.* 1. Bol gəlir; var, dövlət. Vətən torpağının gəlhagəlini..

2. *məc.* Xoş məqam. Əcəb baxtımızın gəlhagəldir.

**Gəlib-çatmaq**, *f. bax* gəlib-çıxmaq. Səbr elə, sevgilin gəlib-çatacaq. – Arxada qonaqlar gəlib-çatsınlar.

**Gəlib-çıxmaq**, *f.* Çatmaq, yetişmək. Biz gəlib-çıxırıq bir qəbristana. – Gəlib-çıxmadımı bizim elçilər?

**Gəlib-gedən**, *is.* 1. Hər hansı bir münasibətlə bir yerə gələn. Hər şərəfli keçmiş, hər gəlib-gedən. – Gəlib-gedən seyr eləsin qoy..!

2. Yoldan ötən hər kəs. Qəpik-quruş atır ona gəlib-gedənlər. – Gördü ki, yığışır gəlib-gedənlər.

**Gəlib-getmək**, *f.* Baş çəkmək, yoxlamaq, yoluxmaq. Kimindir bu tək məzar? Nə yazısı, nə daşı var, Nə üstünə gəlib-gedən?

**Gəlib-keçmək**, *f.* 1. Getmək, hərəkət etmək, addımlamaq. Bibiheybət mədənilə gəlib-keçir izdiham.. – Bu qapıdan neçə nəsil gəlib-keçmiş.

2. Ötmək, ötüb-keçmək, sovuşmaq, qurtarmaq. Qış gəlib-keçəcək bir bahar kimi. – İllər gəlib-keçdi ömürdən, illər!

**Gəlin**, *is.* 1. Toyu edilmiş, ərə getmiş qız. Gəlinin yolları gül-çiçək olsun! – Bəzən ayna qabağında dayanıb gəlin. □ Gəlin gəlmək – ərə getmək, ər evinə köçmək. Sən də bizim bu şəhərə gəlin gələsən! Gəlin gətirmək – oğlunu evləndirmək; evlənmək. Elə o yaz Aygünü də gəlin gətirdi.

2. Qayınanaya, qayınataya görə oğlun arvadı. Mənim çox ağıllı bir gəlinim var. – On ildir, bu evin gəliniyəm mən.. – Gəlininiz bir mələk..

3. Cavan qadın. Elin kəlağayılı gözəl gəlini.. – Üzsün qan içində gəlinlər, qızlar.. – Şeirlər deyirdim gəlinə, qıza..

4. *sif.* mənasında. Gənc, cavan. [Eloğlu:] Məni tərk etdi gəlin yaşında. // Bəzəkli, gözəl, xoşagələn. Yenə gəlin camalını açacaqdır bizim dağlar..!

**Gəlinli**, *sif.* Başına gəlinlər, cavan qadınlar, qızlar toplanmış. Sonunda ömrümün məzarı olsun gəlinli çeşmələr, sünbüllü çöllər.

**Gəlinlik**, *sif.* 1. Gəlinə aid, gəlinə məxsus, gəlin üçün. Öz gəlinlik paltarını sandığından çıxardaraq..

2. Gənc, cavan. Ağ kalağay başında; Qız gəlinlik yaşında.. – Qız gəlinlik yaşında Nə çovğun görmüş nə qar.

**Gəliş**, *is.* Gəlmək işi, gəlmə. ..Yazın gəlişində bu il özgə bir dad var. – Gəlişin ruhuma dərd verir, aman!

**Gəlmək**, *f.* 1. Hərəkət edərək, yeriyərək bir yerə çatmaq, yetişmək. Bir kəndli gəlmişdir, sözü var sizə. – Toyudur.. Gəldim ki, aparım sizi. – Hər axşam qapıma min naxır gəlir. // Yol açmaq, yol eləmək. .. Özünə yol açıb səhraya gəlir [Su]

2. Nəqliyyat vasitəsilə bir yerə çatmaq. Gəncədən gəlmişik, qonağıq sizə. – İndi albayraqlı vaporlar gəlir. // Böyük bir məsafə qət edərək çatmaq. Qatarlaşıb nə diyardan gəlirsiz.. [Durnalar]

3. Köçmək, köçüb məskən salmaq. Quşlar bölük-bölük meşəyə gəlir. – El axıb düzlərə, çöllərə gəldi.

4. Baş çəkmək, dəymək, yoxlamaq. Vallah, gələsiydik bu həftə sizə.. – Ayda bir dəfə də gələ bilməzsən?

5. Yaxınlaşmaq, çatmaq. Gəlir sürüsilə bizi soymağa. – Elə ki, quraqlıq od çaxır, gəlir.

6. Mövcud olmaq, özünə yer eləmək, çatmaq. Mədəniyyət gəlməmişdir hələ kəndlərə. – Səyyar kitab öz yurduna gəlməlidir.

7. Yetişmək, açılmaq, düşmək. Keçdi gecə, gəldi səhər. – Düşdü axşam… Gəldi gecə…

8. Zahir olmaq, görünmək; çökmək. Yağışlı, yağmurlu buludlar gəlir. – ..Buludlar da gəldi lay-lay – Sağ olun, çən gəlir, hava qaralır.

9. Yağmaq. Yağışın dalınca bərk gəldi qar da..

10. Təyin olunduğu yerə çatmaq, yetişmək. Deyirlər, kəndə bir maşın gələcək.

11. Gözlənilmək. Oğul! Deyirlər ki, qış bərk gələcək.

11. Yetişmək, gəlib çatmaq; varid olmaq. Zəncirsiz, zindansız günlər gələcək. – Gəldi zaman.. Gəldi bu gün sənin növbən…

12. Gəl(in) şəklində – *nida.* Bir işə dəvət mənasında xitab kimi işlənir. Gəl onun eşqini ucuz tutma sən.. – Gəl indi Xəzərin cəlalına bax! – Gəlin, seyrə çıxaq dağlara bir az.

◊ Qapıya gəlmək – elçi gəlmək. O gün qapınıza gəldi çoxları. Qara xəbər gəlmək – ölüm xəbəri gəlmək. Gəlir cəbhələrdən qara xəbərlər. Qələmə gəlməz – təsvir edilə bilməz. Nə var bu dünyada qələmə gəlməz.. Dar gəlmək – azlıq eləmək, çatmamaq. Ruhuma dar gəlir bütün xaniman. Yumurtası tərs gəlmək – narahatçılıq keçirmək, özünə yer tapmamaq. Gözünə işıq gəlmək – eyni açılmaq; rahatlanmaq. Yenə işıq gəldi Ayın gözünə.. Gözü(nün) qarşısına (önünə) gəlmək – görünmək, canlanmaq. Gəlir gözü qarşısına ürək sirdaşı.. – ..Gəlir gözlərimin önünə; Bir dostumun.. surəti. Oyuncaq gəlmək – yüngül, adi şey görünmək. Oyuncaqmı gəlir sənə vətənimin haqq səsi? Öhdəsindən gəlmək – üstün olmaq, qalib gəlmək. Gələr öhdəsindən lələşin İlyas.. Rast gəlmək – qabağına çıxmaq. Hələ rast gəlmədim vəfalı yara! Səsi gəlməmək – yox olmaq. O gündən gəlmədi çobanın səsi. Səcdəyə gəlmək – diz çökmək, sitayiş etmək. Gəlir səcdəsinə ulduzlar, aylar. Xoş gəlmisən (gəlmişsiniz)! – gələnə söylənən mehriban salam ifadəsi. Vaqif, xoş gəlmisən, üzünü görək! – Siz xoş gəlmişsiniz; Həyata gəlmək – doğulmaq, anadan olmaq. Yaşarır Humayın qara gözləri Həyata gəldiyi o gündən bəri.. Şir gəlmək – vəhməli təsir bağışlamaq, şirə oxşamaq. ..Dağ gövdəsi baxanlara gəlir şir. Şirin gəlmək – ürəyə yatmaq, xoş gəlmək. Sizə şirin gəlir xəyalplovlar.

**Gəmi**, *is*. 1. Su üzərində hərəkət edən üzücü nəqliyyat vasitəsi. Lap uzaqda o yanda ..Bir gəmi görsəndi.. – Dənizlər dibinə batdı gəmilər.

2. *məc*. Gəlib keçən şey haqqında. Keçirdi gəmimiz hər keçən günü.

◊ Gəmiləri (gəmisi) dənizdə (dəryada) batmaq – (qərq olmaq) – var yoxu əldən çıxmaq, müflis olmaq (çox qəmli, qüssəli adam haqqında). Dəryayi-eşqində qərq oldu gəmim. – Açılmamış boğuq rəngin gülər üzlü baharda; Elə bil ki gəmin batıb qərq olmuşdur sulara.

**Gəmiçi**, *is.* Gəmini idarə edən, gəmidə işləyən adam; dənizçi. Gəmiçi özünü itirsə əgər Tufanlar içində qərq olub gedər. – Sonra bizim gəmiçilər qayıdan baş; Min sovqatla gələrlərmiş yar yanına.

**Gəmirmək**, *f.* 1. Bərk bir şeyi dişlərilə dişləmək, didişdirmək. Təpiklərdə yer gəmirdi o ingilis casusları..

2. *məc.* Dağıtmaq; qırıb tökmək. Sahilləri gəmirsə də o, hirsindən; Yenə bir saf ana qəlbi, bir eşqi var. – [Axar çaylar:] Qayaları dəlib keçər, Dağa girər, daş gəmirər.

**Gənc**, *sif.* 1. Yeniyetmə, cavan, hələ yaşa dolmamış (qoca ziddi). Hər gənc bəstəkarın ürək nəğməsi.. – Ağlayır o yanda bir gənc gəlin də. – Sənin bu gənc yaşında; Dayanmışam qarşında..

2. *is.* Cavan, yeniyetmə oğlan. Bu səbəbdən o gənc ilə mən bu qədər sirdaş oldum. – Körpələr böyüdü; Gənclər qocaldı.

2. Gəncdir şəklində – cümlədə xəbər kimi çıxış edir. Fəqət qüvvətlidir, gəncdir proletar.

**Gəncləşmək**, *f.* 1. Cavanlaşmaq, qıvraqlaşmaq. Könül istər şeir yaza; Gəncləşirəm yaza-yaza…

2. *məc.* Tərəqqi etmək, inkişaf etmək, yeniləşmək. ..Gəncləşir qocaman vətən torpağı. *məc.* Zaman yaşa dolur, gəncləşir illər.

**Gənclik**, *is.* 1. Gənc yaşlar, cavanlıq. Keçib gəncliyimdən otuz beş bahar; Keçdiyim yollara baxdım bir daha. – Gəncliyim tükənməz məlala düşdü.

2. *top.* Gənc nəsil, cavanlar. ..Gəncliyə bir bax! Fikrində, hissində inqilab yarat.. – Yenə gənclik duyacaqdır məhəbbətin xoş dadını.. – Baharla gəncliyin bir qəlbi vardır..

3. *sif.* mənasında. Cavanlığa, gəncliyə xas olan. Sən öldün həyatın gənclik yaşında; Adın səadətə yazıldı sirdaş… – ..Mənim gənclik illərimdə göstərdiyim hünər kimi.

**Gəraylı**, *is.* Aşıq şeirinin formalarından biri. Hər gəraylı pərdəsində min ananın qəlbi var…

**Gərçi**, *əd.* [*fars.*] Hərçənd; baxmayaraq; əgərçi. Gərçi istər çoxlu cəfa yar.. – Nə qədər olsa qoca, gərçi Vidadi xəstə..

**Gərdən**, *is.* [*fars.*] 1. Boynun ön tərəfi; boyun. Qızıl sırğa, gümüş kəmər, neçə daş-qaş; Düzülərmiş gözəllərin gərdəninə. – Gərdənin minadır, boyun tamaşa..

2. *məc.* (təşbehlərdə). [Axar çaylar] Gərdəninə zümrüd taxar. – Dost qəlbindən axıb-gələn sənət ruhlu o səsi; İnci kimi sözün, şerin gərdəninə düzürəm.

**Gərdiş**, *is.* [*fars.*] Dövran, dövr etmə, hərlənmə. Bir də sənin, qoca dünya, Qəribə bir gərdişin var. – Beyinlər işdədir, əllər işdədir; Moskva hər zaman bir gərdişdədir. – Yer də, göy də hər zamankı bir gərdişdədir.

**Gərək**, *əd.* Feildən qabaq işlənərək, onun ifadə etdiyi işin, hərəkətin arzu edildiyini bildirir. Gərək yumşalmasın cəbhədə ürək! – Gərək çəkinməyək borandan, qardan! – Vaqifə göz dağı bu olsun gərək!..

2. Gərəkdir şəklində – lazımdır, zəruridir. Yox, yox! Bu təəssüf nəyə gərəkdir? – Qafil! Bu sualın kimə gərəkdir? □ Nə gərək – lazım deyil. ..Təbiət nə gərək sovet şeirinə..

3. Ehtimal ki, deyəsən, yəqin ki. «..Gərək yadınızdan çıxmamış ola!». Gərək yadındadır rəhmətlik dədən..

**Gərmə**, *is.* Təzək.

◊ Get gərməvi ayaqla *dan.* – öz işinlə məşhul ol; burnunu soxma mənasında. Getsin gərməsini ayaqlamağa!

**Gərmək**, *f.* Gərilmiş hala gətirmək, dartmaq, tarım etmək; açmaq. Köksünü aləmə gərəndən bəri; Köhlən bir at kimi getdi illəri. □ Qanad gərmək – 1) qanadını bütövlüklə açmaq. Qanadını gərir axşam; Soyuq keçir ürəyimdən; 2) uçmaq. Uçub getmək. Çiçəkli düzlərə qanad gərmədim.

◊ Sinə gərmək – atılmaq. Süngülərə sinəni gər.. – Bir şir kimi sinə gərdi o, danışıq kürsüsünə.. // Sipər olmaq. Dalğalara sinə gərdi, meydan açdı o yenə.

**Gətirmək**, *f.* 1. Bir şeyi olduğu yerdən başqa yerə köçürtmək, çatdırmaq (aparmaq ziddi). ..Hanı kağız? Tez ol gətir!.. – Tükəzban, bir tez ol, gətir sazları.

2. Birinin hərəkətini yönəltmək, özü ilə bərabər bir yerə gəlməsinə kömək, yaxud özü ilə bərabər gəlməyə məcbur etmək. Sizin yanınıza məni gətirən.. // Özü ilə gətirmək, yaymaq. Bir buxar istisi gətirir külək. – Orduya pozğunluq gətirmə, sarsaq!

4. Bar vermək, məhsul vermək. Hər bir budaq neçə meyvə gətirmişdir. – İndi çiçək gətirmiş; Bizim bu qarlı dağlar.

5. *məc.* Uğurlu olmaq; bəxti gətirmək, işi gətirmək. Yaxşı gətirmədi ömrümün sonu.

◊ Bərəkət gətirmək – uğurlu olmaq. [Azər baba:] Qolunda gücü var qara torpağın; Bərəkət gətirir sənin ayağın.. Yada (xatirinə, xəyalına) gətirmək – yada salmaq. Bəzən o günləri gətirib yada.. – Gətir xatirinə «Leyli-Məcnunu».. – Onu heç gətirmə sən xəyalına.. Gözlərinə gətirmək – gözündə canlanmaq, yadına düşmək. ..Sən ölümü bir an belə gətirmə gözlərinə… Xəbər gətirmək – gördüyü və ya eşitdiyi bir şey haqqında məlumat vermək, bildirmək. [Azər baba:] Bu gün gətirərlər ondan bir xəbər. – Xoş xəbər gətirib gəlmişik sizə.

**Gəzdirmək**, *f.* 1. Birisini əlindən tutaraq, ya qucağına götürərək, yaxud miniyə mindirərək, yaxud da yanında özü ilə bərabər hərəkət etdirmək. Gəzdirir gözünü böyük bir vapor.. – Elə bil Göygödə gəzdirir məni.

2. Gəzməyə, gəzintiyə vadar etmək; cəlb etmək. Gəzdirir bizi də mehriban dəniz.

3. Birini özü ilə aparıb, ya onu müşayiət edib göstərmək. Bu əllərdə o gəzdirdi məşəl kimi diyar-diyar.

4. Bir şeyi başqa bir şeyin üstünə sürtmək, dolandırmaq. Barmağını xəritədə o gəzdirərək..

5. Xəyalən aparıb getmək. İndi fikrim Ural üstdə gəzdirir məni. – Bəlkə də ilahmdır məni gəzdirən?

**Gəzici**, *sif.* Hərəkət edən, bir yerdə dayanmayan; gəzən. Bu aralıq salam verən gəzici bir ixtiyar – Qoyun mən danışım, – dedi gəzici, siz də edin tamaşa.

**Gəzinmək**, *f.* 1. Yerimək, obaş-bu başa gəzmək. Bir az gəzinərək yenə oturdu.

2. Gəzmək, dolaşmaq. On addım kənarda yatmayır təkə; Gəzinir, oylağa baş çəkə-çəkə.

3. *məc.* Görünmək, zahir olmaq. Uzaq buludlarda gəzinirdi ay..

**Gəzinti**, *is.* 1. İstirahət etmək üçün miniklə ya ayaqla edilən səyahət; gəzişmə, seyr. Gecələr qayıq gəzintisinə çıxan.. London xanımları.. Gəzinti görməmiş suların üstü..

2. Açıq havada keçirilən kütləvi şənlik. Sahildə səslənir gəzinti marşı..

**Gəziş**, *is.* 1. Gəzmə, yerimə tərzi. Gəzişinə, duruşuna bizim bu şəhər..

2. Gəzmə, gəzinti. O axşam röyada gəzişə çıxdım.

**Gəzişmək**, *f.* 1. Gəzmək, dolaşmaq. Hey gəzişər, hey dolanar..

2. Görünmək, zahir olmaq. Ay kimi gəzişir qız dalğalarda.

**Gəzmək**, *f.* 1. Yerimək, ümumiyyətlə, hərəkət etmək, hərəkətdə olmaq. Ayaq üstə fikirləşir, gəzir otaqda. – Maral gəzər asta-asta. – Gəzməsəm, görməsəm, duya bilməsəm.

2. Səyhət etmək, hər yeri dolaşmaq. Ayağım tutduqca dünyanı gəzdim. – Nə zamandır gəzirəm, dövr edirəm aləmi mən.

3. Bir yerdən başqa yerə keçmək, çox yerə baş vurmaq. Çox gəzmişəm bu dünyanı oba-oba, oymaq-oymaq.. – Söylə, gəzdin hansı dağı, dərəni? – Pərişan gəzirsən bütün aləmi.. // *məc.* nəğmən gəzir-çəmənləri gözəllərin dilində..

4. Gəzərək baxmaq, tamaşa etmək. Hələ Sarvan doymamışdır, gəzir şəhəri. – Gəzib görmədiyim ən uzaq ellər. – Bir ağ yer üzünü gəzib seyr edək. // *məc.* Xəyalən getmək, səyahət etmək. Hərdən sizin ilə gəzə, durnalar!

5. *məc.* Gəzərək özünə yer eləmək, yerləşmək. Budur Şərqin ciyərlərini gəzən və onu bəzən öldürən ilk azar. – Yenə də ruhumu gəzdi bir duyğu..

6. Axtarmaq, axtarış aparmaq. Mənada gəz şeirin, sözün hikmətini! – Gəzdiyi – məhv olmuş səadət idi.. – Tarixi gəzdimsə, bizim Xanların; Nə kitabı qalmış, nə də övladı.

7. Toxunmaq. Simləri gəzdikcə ağ barmaqları..

◊ Ağız-ağız gəzmək – dillərdə əzbər olmaq. Barı gəzsin ağız-ağız. İndidən belə yazdıqlarım… Ağızda (dildə) dolaşmaq – *bax* ağız-ağız gəzmək. Gəzib dolaşardı ağızda, dildə.. Arxayın gəzmək – qorxmamaq, rahat yaşamaq. Dərdin elə busa, lap arxayın gəz! Gəzib dolanmaq – yaşamaq, ömr sürmək. Bu ki, qoltuqlarda gəzib dolanır. Uzaq gəzmək – özünü gözləmək, çəkinmək. Yer üzü fanidir, uzaq gəzəlim..

**Giclənmək**, *f.* Axmaqlaşmaq, səfehləşmək, gicləşmək. Zəhərdən giclənib gülən qardaşlar..

**Gil**, *is.* Çöküntü süxurlardan biri. ..Sıyıqmı, qatımı axır gil, dedi. □ Gil məhlulu – qazmada, tikintidə və s. işlənən xüsusi məhlul. Ovcuna götürüb gil məhlulunu; Sıyıqmı, qatımı axır gil, dedi.

**Gilas**, *is.* Müxtəlif növləri olan çəyirdəkli şirin meyvə. Əriklər, gilaslar sayrışdı rəng-rəng.. Bağlarımda gilas da var, üzüm də..

**Gilavar**, *is.* Azərbaycanın bəzi yerlərində cənub və cənub-şərqdən əsən küləyin adı. – Elə ki, ağzını açır gilavar; Bir ölüm istisi duyur səhralar. – Xəzri də çox əsdi, gilavar da çox.. – Gilavarın ruzgarı; Toz qaldırır göylərə..

**Gileylənmək**, *f.* Giley etmək, şikayətlənmək, narazılıq etmək. Füzuli, incidin yandan, gileyləndin saraylardan.. – Sadə geyimimdən gileylənirsən.

**Gileysiz**, *is.* Narazılıq, şikayət olmama. Gileysiz danışar ondan insanlar.

**Gilli**, *sif.* Tərkibində gil olan, gil qatılmış. O daşlı, qumsallı, gilli torpağı; Udur, lay-lay udur ekskavatorlar.

**Girdab**, *is.* 1. Burulğan. Girdabları yara-yara; Yem olmuşdur balıqlara! – Girdablar içində boğulmadıq biz. □ Girdaba salmaq – burulğana salmaq; burulğanda öldürmək. Gah olur ki, cəbhə yarıb ordular basan; Bir igidi kiçik bir çay girdaba salır.

◊ Girdaba düşmək – çətinliyə, keşməkeşə düşmək. O dünya girdaba düşdükcə bəzən..

**Girdablı**, *sif.* Girdabı olan, burulğanlı. Volqadan su içmiş köhlən atların; Üstündə girdablı çaylara cumduq.

**Girişmək**, *f.* 1. Həvəslə, ciddiyyətlə bir işə başlamaq. [Vəzir:] Bu gündən hazır ol, hərbə girişək.

2. Cürət etmək, cəsarət göstərmək. Kimsə girişməzmiş onunla cəngə.

**Girmək**, *f.* 1. Daxil olmaq, içəriyə keçmək. Bir fabrikin qapısından girərəm mən.

2. Soxulmaq; girişmək. Bağban olub o girdikcə hər bağa; Nar çatlayıb şaftalılar saralır.

3. Cummaq, atılmaq. [Fərhad:] Boylandım göylərin yeddi qatına; Dənizə baş vurub, girdim altına.

4. Ayaq basmaq, başlamaq. ..Sən girmişdin on dörd, on beş yaşına.

□ Qılığına girmək – birinin etibarını qazanmaq üçün ona xoş sifət göstərmək. Bir günü yenə də qılığına girib… – Əvvəl girəcəyəm onun qılığına..

**Girvənkə-tərəzi**, *top.* Tərəzi və çəki daşları. Arşın, girvənkə-tərəzi yenə möhkəm işə düşmüşdü.

**Giryan**, *sif.* 1. Gözüyaşlı, ağlar. *z.* ..Yenə də giryan; Gəliyor nəzərə, yenə də ağlar..

2. Giryandır şəklində xəbər kimi çıxış edir. Hardasan gözlərim həp səni bəklər; Bax, evladın necə giryandır, ana!

**Gizləmək**, *f.* 1. Başqasının görməməsi, tapmaması üçün gizlin yerdə saxlamaq, gözdən uzaq yerə qoymaq. Gizləmə.., gizləmə, ağıllı gəlin! – gizlədi gözlərdən, düşüncələrdən.

2. Bildirməmək, hiss etdirməmək. Düşmən öz kinini möhkəm gizlədi. – Gəl məndən gizləmə, aç söylə aşkar!

**Gizlənmək**, *f.* Başqalarının görə və tapa bilməməsi üçün örtülü bir yerə girib qapanmaq. Odur yaxınlaşır! Gizlənin barı.. – Gizlənə bilməzsən şair gözündən. – Qabağı saxlasın gizlənincə biz. // *məc.* Sözün ruhunda gizlənmiş bütün dahilərin eşqi.

**Gizlənpaç**, *is.* Gizlənib axtarmaqdan ibarət olan uşaq oyunu.

◊ Gizlinpaç oynamaq – əsl fikrini gizlədərək hərəkət etmək. Onunla gizlinpaç oynayanları..

**Gizli**, *sif.* 1. Başqaları üçün sirr olan, onlardan gizlədilən. Hər duyan qəlbin, əzizim, gizli bir sevdası var. – Ortada gizli bir əhvalat olur…

2. Özünü büruzə verməyən, gizli hərəkət edən. İçimdə gizli bir «cinayət» vardır…

3. Məhrəmanə, intim. Gizli nöqtələrə əl aparma sən.. – Onundur qəlbimin gizli telləri…

4. Məxfi. ..Gizli şikayətim var..

5. *z.* Xəlvəti, gizlində, gizli olaraq. Gizli zəhərləyir fahişələr tək.. □ Gizli tutmaq – başqalarına bildirməmək, heç kəsə məlum etməmək. Gizli tutdu hərcayilik xəyallarını.

**Gizlicə**, *z.* Heç kəs görmədən, gözə görünmədən; heç kəs bilmədən. İnsan oğlu şam təki Bəzən yanır gizlicə. – Mavi göydən almaz bir ay endi gizlicə..

**Gizlin**, *sif.* 1. *Bax* gizli 3-cü mənada. Yoxsa qəlbimdəki gizlin əməli; Bəlkə bilmişsən, a Səlyan gözəli.

2. Gizlindədir şəklində xəbər mənasında işlənir – məxfidir. Özü gizlindədir, fəqət nəfəsi..

◊ Gizlindən ox atmaq – əlaltından iş görmək, açıq hərəkət etməmək. Gördük o gizlindən ox atanları..

**Gor**, *is.* Qəbir, məzar. ..Tökməyəcəkdir ki pulu goruna.. – ..Deyirlər, kasıbın bilinməz goru.

**Göbək**, *is.* 1. *Məc.* Qarın. Sənriyə-sənriyə piyləndikcə göbəklərindəki qatlar; Dərisinə sızmayan.

2. *məc.* Bir şeyin mərkəzi, tən ortası. Qarşı dağın göbəyindən zərqanadlı bir pəri; Gülümsəyən gözlərinə söyləyirdi «irəli!..»

**Gödək**, *sif.* Qısa, uzun sürməyən. Gödək ömrü çox yaşadır; Canım dağlar, gözüm dağlar! – İndi salamat qal, ömür gödəkdir, Səfərim uzandı, anam da təkdir..

**Gödəkcə**, *is.* Qısa isti üst geyimi. Sonra əynindəki bir gödəkçəni; Mənə bağışladın o məclisdəcə. – Sazaq qılınc kimi kəsəndə məni; Geyirəm verdiyin o gödəkçəni..

**Gödəlmək**, *f.* Gödək olmaq, qısalmaq, azalmaq. Səssiz gecələrin ömrü gödəlir. – Qış vaxtıdır. ..Gödəlmişdir hicran günləri.. – Ürək dil açır ki, gödəlir ömür!

**Gödəltmək**, *f.* Qısaltmaq, məhdudlaşdırmaq. ..Meyvəsiz xəyallar ömür gödəldir! – Gödəlt fəryadını, bir daha çalma.

**Göl**, *is.* 1. Dənizlə birləşməyən təbii su hövzəsi. Mən ki çox keçmişəm sonalı göldən..

2. Gölməçə. Hələ tamam qurumamış yağış gölləri.

**Gölcüyəz**, *is.* Kiçik göl. Qəbiristanın sol əlində.. bir gölcüyəz var.

**Göllənmək**, *f.* 1. Gölməçələr əmələ gəlmək. Yağışlar çoxalır, göllənir sular.

2. Axıdılan göz yaşının intensivliyini bildirir. Anamın göz yaşı axıb gölləndi.

**Gölmə**, *is.* Gölməçə. Gölmələrdən su içən..

**Gömgöy**, *sif.* Yamyaşıl. Yanıb külə döndü gömgöy meşələr.

**Gömmək**, *f.* Basdırmaq. Məzarlara gömdün həp mövhumatı..

**Gön**, *is.* Dəri. Günəşin işığından.. yandı gönümüz..

**Göndərhagöndər**, *is.* və *z.* Ardı-arası kəsilməyən göndərmə. Gündə yüz zəng olur: göndərhagöndər!

**Göndərmək**, *f.* Çatdırmaq üçün yollamaq. Burdan da Rusiya göndərir fərman.. – Su göndər bu yerdə yanana, dağlar!

**Gönsoyan**, *sif.* Qəddar. Dözə bilməz insan oğlu; Bu gönsoyan qanunlara.

**Görən**, *əd.* Görəsən (maraqlanma bildirir). Bu nədir? Bunlara nə olmuş, görən? – Azmı qalır, çoxmu qalır, görən, sabaha?..

**Görəsən**, *əd.* Görən. Varmı.. aramızda, görəsən..

**Görkəm**, *is.* İnsanın zahiri görünüşü. Onun görkəmindən iyrənməyin siz..

**Görmək**, *f.* 1. Gözlə qavramaq. Gördüm, qayıqdadır o qaçaq Eldar… – Onu tarlalarda çoxmu görmüsən?

2. Qarşılaşmaq, rastlaşmaq, təsadüf etmək. Bir duman görməsin xoş sifətiniz!.. – Görməmiş ömründə bu halla Göygöl. – Bu təzə evlər.. Yenəmi alovlar, odlar görəcək? – Bir də çovğun görməyəcək səadətin ilk baharı…

3. Hiss etmək, duymaq. İnsan ömrü cavan qalar etibarı görəndə. – Görmədi mürüvvət bir kəsdə könlüm.. – Hüsnünü görürəm şeirin, sənətin.

4. Zənn etmək, hesab etmək, saymaq. Ellərdə görürəm hər qurtuluşu. – Dünyanın sirrini görürəm ordan… – Qərib görsən də bizi..

5. Qismət olmaq, nəsib olmaq, keçirmək, giriftar olmaq, uğramaq. Şaxta da görürük, ayaz da, gün də. – Ölüm gördü, həyat gördü bu torpağın nəsilləri. – Ağır günləri də az görmədik biz.

6. Müşahidə etmək, bəlli etmək, yəqinləşdirmək. [Məryəm:] Görürəm, təmizdir, safdır ürəyin. – Görürəm ki, qəhrəmansan, sənə halaldır südüm.. – Gördüm, qoca doğru deyir..

7. Gör şəklində – təəccüb, heyrət bildirir. Yer üzünün xəritəsi gör neçə rəngin.. – Yaxşı bax, gör neftin qüdrəti nədir.. – Tarix adlı carçıya bax; Gör nə deyir onun səsi..

8. Görək şəklində – intizar, narahtlıq, səbirsizlik bildirir. Mətləbini danış görək. – De, qızım, de görək, qəlbində nə var? – Kimsiniz, qardaşlar? Danışın görək! – Qış gəlir, qar gəlir, tez olun görək.

9. Görüm şəklində – a) arzu, istək, dilək bildirir. Görüm, büdrəməsin sürdüyümüz at... – ..kəndimiz görüm var olsun..; b) səbirsizlik, narahatlıq, maraqlanma bildirir. Yaxşı, bir de görüm, özün necəsən? c) təkid, israr bildirir. Bu saat sal görüm tüfəngi yerə!

**Görsənmək**, *f.* Görünmək, nəzərə çarpmaq. Lap uzaqda o yanda.. Bir gəmi görsəndi..

**Görünmək**, *f.* 1. Gözlə qavranılmaq. ..Görünmədi sahillər, ..işıqdan da yox əsər. – Şeytanmı görünür gözlərinizə?!

2. Peyda olmaq, zahir olmaq, gözə dəymək. Tez-tez görünərdi xeyirdə, şərdə..

3. Hesab edilmək, ..kimi gəlmək. Xoş görünür, şirin gəlir Aygünə hələ.. – Mənə bu divarlar zindan görünür.

4. Görünür şəklində – ehtimal bildirir. Görünür, yazığın qəlbi qırıqdır.. – Şairdir, görünür, düz ilqarı var..

**Görünməz**, *sif.* Təəccüblü, qəribə, görünməmiş. Görünməz bir işdir səndəki vüqar..

**Görünüş**, *is.* Zahiri görkəm. ..Gecələrin sarımtıraq Çarpaşıq görünüşündə həyat, duymaq yaramaz!..

**Görüş**, *is.* Müəyyən vaxtda və yerdə təyin edilmiş görüşmə. Sən ki bizim ilk görüşdə öz sirrini dedin mənə..

**Görüşmək**, *f.* 1. Salamlaşmaq, hal-əhval soruşmaq. Tez əl verib görüşürük..

2. Bir-birini görmək, rastlaşmaq. Bəlkə bir də görüşmədik bu dünyada biz.

**Göstərilmək**, *f.* Tamaşaçılar qarşısında nümayiş etdirilmək. Burda göstərilir min bir pəhlivan.

**Göstərmək**, *f.* 1. Görsədərək tanış etmək. Göy dağlara, boz çölləri göstərdi bir-bir. – Ona da göstərin daş zindanları!..

2. Düçar etmək. Tanrı göstərməsin sizə bir acı. – [Şirin:] Eləsə... əfv edin, böyük hökmdar; Mənə göstərməyin bu fəlakəti.

3. Nişan vermək, işarə etmək. Vəziyyət xarabdır, yol göstər mana!

4. Büruzə vermək. ..orda göstər hünərini.

**Götürmək**, *f.* 1. Əlinə almaq. Yanından götürür öz naqanını... – Bayrağı götürdü Bombey fəhləsi.

2. Yanınca aparmaq. [Fərhad:] Əlli min nəfərlik ordu götürək. – Götür beş-altı atlı..

3. Dözmək, qəbul etmək, təhəmmül etmək. Dünya naz götürüb yaşada bilməz..

4. Örtünü qaldırmaq. A qızım, üzündən götür duvağı..

**Götürülmək**, *f.* Birdən yerindən tərpənib qaçmağa başlamaq. ..tez götürül..

**Gövdə**, *is.* 1. Bədən. Qalır gövdəmizdə dırnaq yerləri. – Gülpəri.. Acığından gövdəsini qaldırıb çırpmış yerə.. – Nədir gövdəndəki o zəncir səsi.

2. *tex.* Mexanizmin, maşının və s. əsas hissəsi; korpus. ..Polad tankların.. gövdəsinə.. qan olur.

3. *məc.* Torpaq, yer. Hopduqca səhranın gövdəsinə su.. – Oder çayı dolanmışdır.. Vrotslavın gövdəsinə..

**Gövdəli**, *sif.* 1. Bədənli, iribədənli. Budur gəlir dağ gövdəli, bir ağsaçlı ixtiyar.

2. *tex.* İri, ağır, korpusu olan. O ağır gövdəli ağır topların.

**Gövhər**, *is.* [*fars.*] 1. Giymətli daş, cavahir. Hər daşın altında bir gövhər axtar.

2. *məc. dan.* Faydalı qazıntı. Donbas şaxtyoru, Bakı fəhləsi; Gövhərlər axtarır, mədənlər qazır.

**Göy**[1], *is.* 1. Yer üzünün üzərində mavi bir qübbə kimi görünən fəza. Oxşadı alnını ulduzlu göylər.. – Göy darısqal idi, üfüqlər qara. □ Göyə ucalmaq – yüksəlmək. Torpağın şöhrəti göyə ucaldı.

2. İlahiyyət. ..Qamçılarmış göyü, qanunu, dini..

3. Yüksəklik, ülvilik. Şeir, sənət göylərindən salam verdin səhərlərə.

◊ Göydən od yağmaq – bərk isti hava olmaq. Muğandan keçirəm, göydən od yağır. Göyün yeddi qatı – çox hündür, yüksək. O, düşmənə meydan açdı göyün yeddi qatında..

**Göy²,** *sif.* Yaşıl. Göy zəmilər, göy bağlar da hələ tək-təkdir. – Doyunca islandı göy biçənəklər.

**Göyçək**, *sif.* Gözəl, qəşəng. Nə şirinsən, nə göyçəksən..

**Göyərçin**, *is.* 1. Ağ və ya kül rəngli iri çinədanlı quş, ..o ağacda; Bir göyərçin oturmuşdur.

2. Nəvaziş, oxşama, əzizləmə məqamında işlənir. Səndən uzaq olar… Göyərçin balam!

**Göyərmək**, *f.* Yaşıl (göy) rəng almaq, yaşıllaşmaq, cücərmək. Hələ nə ot göyərmişdir, nə də ki yarpaq..

**Göynətmək**, *f.* Qıcıqlandıraraq ağrıtmaq. Diş göynədən bulaqları məndədir.

**Göz**, *is.* 1. İnsan və heyvanda görmə orqanı. Əlimdə bir əsa, gözümdə çeşmək. – Bir bax gözlərinə… Baxışı qandır.. – Baxdı arxasınca qızın gözləri..

2. Baxış, nəzər. Bir də lütfkardır onun gözləri. – Nizə tək parladı gözümüzdə kin. – Gizlənə bilməzsən şair gözündən. // *məc.* Vətənin gözləri indi bizdədir..

3. Görmə qabiliyyəti. Yolunu gözləyir zəif gözlərim.

4. *məc.* Bədnəzər. Yox, yox… qadan alım, min əyri göz var. – Gizlədi gözlərdən, düşüncələrdən.

6. *məc.* İç, əsas. Yol aç, oğlum, yol aç elmin, düşüncənin gözünə sən. – O ana yurdumun ocağı, gözü.. – Məhəbbət yaranmış sənətin gözü..

6. *məc.* Bulağın başladığı yer, suyun çıxdığı yer; qaynaq. Qaynar bulaqların gözündən içər; O ellər gözəli, o el yavrusu. – Araz kənarında suyun gözündə..

7. Gözüm şəklində – əzizləmə, nəvaziş, oxşama ifadəsi. Əzizim anacan, gözüm anacan! – Can, ay Musa, gözüm Musa! – Gödək ömrü çox yaşadır; Canım dağlar, gözüm dağlar!

◊ Göz ağartmaq – qorxuducu nəzərlə, hədələyici tərzdə baxmaq. ..Məqam tapıb göz ağardar uşağa..

Göz alışmaq – öyrəşmək, vərdiş etmək; bıqmaq. Göz alışır, könül doyur bəzən ondan. Göz atmaq – gözlə işarə etmək. Göz atdım gözünə, himlədim bəri.. – ..İçəriyə pəncərə-

lərdən göz atanların. Göz açmaq – 1) dünyaya gəlmək, doğulmaq. İnsan oğlu bu aləmə göz açdığı gündən bəri.. // açılmaq. Bir azdan gözünü açacaq səhər.

2. Macal tapmaq, imkan əldə etmək, vaxt tapmaq. [Hürmüz:] Sən ki varsan, göz açılmaz dediyin faciədən! Göz bəbəyi – əziz və sevgili sayılan. Dedi: «oğlum, göz bəbəyim, sən ey ömür çiçəyim!».. Göz vurmaq – *bax* göz atmaq. Şairə göz vuran hər çiçək, hər gül.. – Sərvar göz vurur göyə. Göz qabağında – üzdə, ortada, meydanda; göz önündə. Gözümüzün qabağında Mingəçevir şəhər olur. Göz qırpmaq – sayrışmaq, yanıb sönmək. Baxıb gecələrə, göz qırpır mayak.. – Ulduzlar göz qırpır gülümsəyərək.. Göz qoymaq – 1) hiss etdirmədən diqqətlə baxmaq; müşahidə etmək. Mənsə ona göz qoyuram pəncərəsindən. – Göz qoydunmu əlindəki o romana? 2) nəzarət etmək, baxmaq. Göz qoyun bu yerə, bir yadigardır. – Yerə girib göz qoyuram şaxtalara mən. Göz dağı – 1) çox böyük dərdi, itkini xatırladan, nişanəsi olan, hər bir şey. Vaqifə göz dağı bu olsun gərək!.. 2) dərd, qüssə, ağır zərbə, itki. Allah göstərməsin sizə göz dağı. – Ona göz dağıdır yerdə yaşamaq. Göz dəymək – mövhumata görə baxışdan (bədnəzərdən) ziyan, zərər çəkmək. Bircə farağat dur… göz dəyər sana! Göz dəyməsin! – guya gözdəymənin, bədnəzərin qarşısını almaq üçün işlədilən ifadə. Gözələ göz dəyməsin!.. Göz dikmək – 1) bir şeyi ələ keçirmək arzusunda olmaq, sahib olmağa çalışmaq. İndi də göz dikib Azərbaycana. – Bu ağ günlərimə göz dikənlər var. – Sənin dövlətinə göz dikən alçaq; Yalnız öz ömrünə qəbir qazacaq!.. // çox istəmək; can atmaq. Yenə qan içməyə dikib gözünü.. 2) bel bağlamaq, ümid olmaq, arxayın olmaq. Oydu göz dikdiyim, oydu köməyim. – ..Mənim bayrağıma göz dikir aləm. – Qızım, Gülüm, Mahniyar! Göz dikdiyim bircəsən! 3) nəzər yetirmək, baxmaq. Sən gözünü günəşə dik.. – [Banu:] Gözünü dikdiyim Şirindir yalnız.. – Göz dikdi Mahniyara.. Göz döymək – mat-mat baxmaq, heç bir şey anlamadan baxmaq; məəttəl qalmaq. Yalvarır sulara göz

döyə-döyə. – Zülmətlər içində göz döydükcə sən.. Göz etmək (eləmək) – gözlə işarə eləmək. Mənə baxıb göz eylər. – Göz yaşı – göz yaşı vəzlərin ifrat etdiyi maye (qəm-qüssə rəmzi kimi). Bu fəlakət, bu ağrı, bu göz yaşı nədəndir?! [Şirin:] Burda nə həmdəmim, nə sirdaşım var; Bir özüm, bir qəlbim, bir göz yaşım var. – Boğulduqca göz yaşıma.. Göz yaşı kimi – saf, təmiz dumduru. Axır almaz kimi, göz yaşı kimi.. Göz yaşı tökmək – ağlamaq; kədərlənmək, qüssələnmək. [Vəzir:] Nolacaq! Anan Bizans torpağına qayıdan zaman Göz yaşı tökürdü. // Həsrətləmi yanır şam; Göz yaşları tökərək? Göz yaşını silmək – ovutmaq, təsəlli vermək, təskinlik vermək. Gözünün yaşını silən analar.. Göz yummaq – əhəmiyyət verməmək, fikir verməmək; etinasız olmaq. Nə bədbəxtdir göz yumanlar təbiətin vergisinə. – Yeniliklər dünyasına yummaq istər gözünü.. – Göz yumaraq yerə, göyə. Göz kimi durulmaq – təmizlənmək, saflaşmaq. Göz kimi durulur qaynar bulaqlar… Göz gəzdirmək – 1) hər tərəfə baxmaq, başdan-ayağa süzmək. ..Yollara göz gəzdirərək; Ah çəkirsən.. 2) nəzər salmaq, diqqətini yönəltmək. Dönüb göz gəzdirdin baxışlarıma.. – Lakin usta göz gəzdirib sağ tərəfə. // Maraqlanmaq. Tarixə bir daha gözünü gəzdir.. Göz görməyən – uzaqlarda olan. Göz görməyən uzağı.. Göz görüb, əl çatmayan – əlçatmaz, həyata keçirilməz. Göz görüb, əl çatmayan ulduzlu bir dünyası var. Göz olmaq – muğayat olmaq, himayə etmək. «..Allah sənə göz olsun..» // nəzarət etmək. Ona (quyuya) kim göz olub..? Göz üstə! – razıyam, olsun; baş üstə. Nə buyursan göz üstədir… – Göz üstə, göz üstə! Göz üstə yerim(iz) (yerin(iz) var – əziz, hörmətli adamı nəzakətlə dəvət məqamında söylənir. Göz üstə yerimiz var.. Göz üstündə saxlamaq – bəstələmək, əzizləmək, qeydinə qalmaq. Vətən göz üstündə saxlamış səni.. Göz çıxartmaq – kor etmək. O, ağıllı olsa belə, yenə xanmış. Adətiymiş göz çıxarıb, boyun vurmaq. Gözdən aşmaq – gizlədə bilməmək, gözlərindən oxu(n)maq. Ürəklərin məhəbbəti, səadəti gözdən aşır.. Gözdən qaçırmaq (qaç-

maq) – diqqətdən kənarda qalmaq. Sement verin! Beton tökün! Qaçırmayın Kürü gözdən. Gözdən qoymamaq – daima nəzarət altında saxlamaq, təqib etmək, izləmək. Mən artıq ölürəm.. Safdır Mehriban… Onu gözünüzdən qoymayın bir an. Gözdən (gözlərdən) iraq – 1) arzu edilməyən bir şey haqqında deyilir. ..Gör nələr demişəm, gözlərdən iraq! 2) deyiləsi münasib olmayan. Həm də, gözdən iraq, gəlinlər, qızlar; Əlləri qoynunda zarıyar, sızlar. Gözdən itmək -1) görünməz olmaq, uzaqlaşıb yox olmaq. Sonra yelkən itir gözdən. – [Qartal] Göydən yerə o vüqarla; Baxıb-baxıb gözdən itdi. 2) yox olmaq, dövrü bitmək. Qar, çovğun gözdən itdi; Dağlarda lalə bitdi. Gözdən yaralı olasan! – kor olasan (qarğış kimi işlənilir). Olasan gözündən yaralı, maydan! Gözdən yox olmaq – *bax* gözdən itmək 1-ci mənada geniş fəzalardır onun oylağı Bircə an içində gözdən yox olur. Gözdən getmək – yayınmaq, nəzarət altından çıxmaq. Gözümdən ki getdin bir axşam çağı; Taladın bütüncə bostanı-bağı. Gözdən oğurlanmaq – gizlənmək, görünməz olmaq, yox olmaq. Gözdən oğurlanan bir dənin belə; Köməkdir insana, köməkdir elə. Göz(ün)dən oxumaq – gözlərinin ifadəsindən bilmək, sezmək. Bu gəncliyin gözlərindən oxuyuruq ilk baharı. Gözdən (nəzərdən) salmaq – uqutmaq, etina etməmək; uzaqlaşdırmaq. [Vəzir:] ..Lap məni salmışdır gözdən, nəzərdən.. Gözdən uzaq, könüldən iraq – ayrı düşmək, uzaqda olmaq, aralı yaşamaq. Getmə gözdən uzaq, könüldən iraq.. Gözdən uzaqlaşmaq – görünməz olmaq, yox olmaq, dövrü bitmək. «Gözəllərim», «Qəzəllərim», ..lərim…, lərim və nələrim… Artıq gözlərimdən uzaqlaşdınız.. // tarixə dönmək gözdən uzaqlaşır qurtuluş günü. Gözə dəymək – görünmək, görsənmək, diqqəti cəlb etmək. Gözlərimə dəydi birdən ..Bir məzar.. Gözə dolaşmaq – bax gözə dəymək. Qırdım.. gözlərimə dolaşan biri çaş, biri sarı gözlüyü mən. Gözə görünmək – nəzərə çarpmaq, diqqəti cəlb etmək, qabağına çıxmaq. Görünsə gözünə o Dürrə xanım; De ki, Vurğun gədalara dönübdür. – Gözünə görünür

komsomol Cəlal.. Gözə mil salmaq – qorxuzmaq, incitmək. ..İnsanların görməyən gözlərinə Millər salındığı gündən.. – Gözə pərdə tutmaq – aldatmaq, həqiqəti gizlədib yalan danışmaq. Yalançı dumalar məhv olsun gərək! Çünki qucaq-qucaq söz verib bizə; Sonra pərdə tutur gözlərimizə. Gözə (qara) pərdə çəkilmək – halı pisləşmək, gözü qaralmaq. Gözünə bir qara pərdə çəkilmiş. …Gözə pərdədir – aldadıcı sözlər, hərəkətlər. ..O da bir pərdədir gözlərimizə.. Gözlə ölçülməmək – həddi-hüdudu olmamaq, sonu olmamaq. Gözlə ölçülməyir sonsuz yamaclar. Gözü ayrılmamaq – baxa-baxa durmaq, gözünü çəkməmək. Qoca bağban suladıqca çiçəkləri; İlk bahardan ayrılmayır gözlərimiz.. Gözü alışıb yanmaq – 1) üzündə, gözündə sevinc, fərəh görünmək; gözləri işıqlanmaq. Dedikcə alışıb yanır gözləri; Qabardıb döşünü verir irəli. 2) hirsdən, qəzəbdən gözləri od saçmaq. Hirsindən alışıb yanırdı gözü.. Gözü (gözləri) açıq(dır) – hər şeyi görən, duyan, fərqinə varan. Gözəri açıqdır, üzləri şaddır. – Ondakı hər fikrin açıq gözləri.. Gözü batmaq – çox arıqlamaq, gözləri çuxura düşmək; ölmək. Şahsuvar tərəfə patron boşaltdı, Qüvvədən düşərək gözləri batdı. Gözü var – 1) umacağı var; çox şey gözləyir. Bütün bir ölkənin gözü var səndə.. 2) istəyir, sevir (kim kimi) . Deyirlər ki gözü varmış neçə gözəlin. Gözü qalmaq – 1) gördüyü bir şeyin həsrətində olmaq, həsrətini çəkmək. Gözü qaldı ziyafətlər təntənəsində.. 2) baxa-baxa durmaq, gözünü çəkməmək. Yenə də gözlərim qaldı üzündə. – Gözlər qalıb yanağında.. Gözü qaralmaq – halı pisləşmək, başı fırlanmaq. Ürəyi döyünür, gözü qaralır.. // bir nöqtəyə uzun müddət baxmaqdan gözə qaranlıq çökmək. Asta bax: qaralar birdən gözlərin.. – Baxdıqca insanın gözü qaralır.. Gözü qızarmaq – bərk hirslənmək, qəzəblənmək, hirsdən, qəzəbdən gözləri qanla dolmaq. Kinindən qızardı fitnəkar gözü.. Gözü qızmaq – həvəsə gəlmək, qızışmaq. Sonra sərməst olub, qızar gözləri.. Gözü qorxmaq – bir zərər, bədbəxtlikdən sonra ehtiyatla hərəkət etmək. Qorxdu gözüm səni alalı,

maydan. Gözü dar (olmaq) – paxıl, xəsis olmaq; gözü götürməmək. Belə deyirlər ki, səndə hünər var.. Bacaran insanın gözü dar olmaz. Gözü doymaq – heç bir şeydə gözü olmamaq, nəfsi az olmaq, gözü tox olmaq. Bəlkə, doyacaqdır acların gözü… Gözü doymamaq – həris olmaq, tamahkarlıq eləmək. Dünyadan doymadı şahların gözü. Gözü dolmaq – ağlamaq dərəcəsinə gəlmək, gözləri yaşla dolmaq. Gözlərin dolmasın, ey nazlı pəri! – Sarvan baxır, gözü dolur, qaşlarını sıx-sıx çatır. Gözü dörd yanı gəzmək – ətrafa göz gəzdirmək, dörd tərəfini seyr etmək. Gəzir gözü dörd yanı. Gözü düşmək – görüb aşiq olmaq, vurulmaq. Gözü düşüb xanın sana.. Gözü ilə baxmaq (kimin) çox inanmaq, əqidəsini qəbul etmək. Sabaha … gözüylə baxdıq. Gözü ilə görmək – bir işin, hadisənin şahidi olmaq. Nə yazsam, görürəm öz gözüm ilə. – Gözümlə görmüşəm körpəliyimdən. Göz(ü) ilə (gözüylə) odlar görmək – çətin, ağır ömür sürmək. Gözüylə odlar görən bizim sonsuz Qızyetər.. – Göz ilə dünyada nə odlar görmüş!.. Gözü yanmaq – üzündə sevinc hissi olmaq, fərəh içərisində olmaq. Mən səni gördükcə gözlərim yanır. Gözü yaşarmaq – *bax* gözü dolmaq. Onda yaşarardı şadlıqdan gözüm. Gözü yol üstədir – sevilən, arzulanan bir adamın yolunu gözləmək, intizarında qalmaq. Qəmli gözlər yol üstədir. – Sən ey gözü yol üstündə boynu buruq duran pəri. Gözü yol çəkmək – 1) gözləri(ni) bir nöqtəyə zilləyib qalmaq; donmaq. Ay susdu, yol çəkdi qəmli gözləri.. 2) *bax* gözü yol üstədir. Görürəm eşqinlə gözü yol çəkən Dağlar pərisini, dağlar qızını. – Elə bil yol çəkir onun gözləri.. Gözü yolda, könlü səsdə – bax gözü yol üstədir. Gözüm yolda, könlüm səsdə; Dinlə məni son nəfəsdə. – Deyin, necə dözüm, dağlar? Gözü yorulmaq – görmə qabiliyyəti azalmaq. İşıq yolda göz yorulmaz. Gözü kimi qorumaq – böyük diqqətlə qoruyub mühafizə etmək, qayğısını çəkmək. Gözü kimi qoruyacaq onu bizim bu ölkə. Gözü kor – savadsız, biliksiz; cəhalət içində. Bizim kor yaranmış gözlərimizə.. Gözü gözündən uzaq – ayrı düşmüş; aralı.

Gözüm gözünüzdən uzaq olsa da.. Gözü görmək – hadisələrin iştirakçısı olmaq, başına gəlmək. Yuxusuz gecələr görsə də gözüm.. – Gözümüz görsə də odlar, alovlar.. Gözü gülmək – fərəh içərisində olmaq; sevinc izhar etmək. Onun üzü, gözü gülürdü bu dəm.. …Gözü məndədir (səndədir və s.) – yardım gözləmək, asılı olmaq; möhtac olmaq. ..Bir böyük külfətin gözü məndədir. Gözü oynamaq – vəcdə gəlmək. O həris gözləri oynadı qanda. Gözü sancılmaq – gözünü çəkməmək, baxa-baxa durmaq. Gözlərim (gözləri) sancılarkən bu bayrağın rənginə.. Gözü saralmaq – gözləməkdən yorulmaq, usanmaq, çox gözləmək. Yoluna baxmaqdan gözüm saraldı. Gözü su içməmək – inanmamaq, etibar etməmək, şübhə etmək. Mənim gözüm su içməyir bu uşağın sözündən.. – Gözüm su içməyir İlyasdan, düzü.. Gözü süzülmək – yuxusu gəlmək. Yuxusuz gözləri hərdən süzülür.. Gözü tutulmaq – 1) görməmək, görmək istəməmək. Gözləri tutulur bəzən insanın. 2) qaşqabağını tökmək. Bulud kimi tutulmuşdur qara gözləri. Gözü üstündə yeri olmaq – çox əziz, hörmətli olmaq gözlərim üstündə sənin yerin var.. Gözü çuxura batmaq – bax gözü batmaq. Gecən qara, günün qara, Batdı gözün çuxurlara.. Gözü şölələnmək – bax gözü yanmaq. Görürsənmi, onun gözü şölələnir bircə anlıq. Gözün aydın! – gözaydınlığı, təbrik ifadəsi. Ana torpaq! Anan mərddir, gözün aydın. – Ay ellər, obalar, gözünüz aydın! Düşmənin səfləri pozulur bu gün.. Gözün yuxusu çəkilmək – yata bilməmək, bidar olmaq. Gözümün yuxusu çəkilib gedir. Gözündə bahar zimistan olmaq – halı dönmək, pisləşmək; ruh düşkünlüyü əmələ gəlmək. Gözündə ilk bahar zimistan olur. Gözündə qaynayaq – gözündə sevinc, cəsarət görünmək, gözü parıldamaq. Gözümdə qaynayır gənclik illəri. – Gözündə qaynayır eşqim, qüdrətim. Gözündə qalmaq – 1) daima yadında olmaq; yaddan çıxmamaq. Anamın örtdüyü sarı kalağay; Gözümdə qalmışdır ömür uzunu. 2) arzu, niyyət yerinə yetməmək; kamına çatmamaq. Bütün dilәkləri gözündə qalmış. …Gözündə (göz-

lərində) qarışmaq – dolaşmaq, qarışmaq; səmti pozulmaq. Dünya gözlərində qarışır yenə.. Gözündə qoymaq… – arzsunun, niyyətinin yerinə yetirməməyinə bais olmaq. Gözümdə qoymayın mənim kamımı. Gözündə durmaq – daima görmək, görünmək. Gözümdə qarışıq səhnələr durdu… Gözündə dunya daralmaq – əhvalı pozulmaq; qorxmaq. Sanki gözlərində dünya daraldı. Gözündə ildırım çaxmaq – hiddətə gəlmək, qəzəblənmək. İgidlər gözünə ildırım çaxdı. Gözündə işıq var – gözündə inam, arxayınçılıq var. Gözümüzdə bol işıq var, evimizdə bol çörək.. Gözündı (arzular) yanmaq – üzündə görünmək, gözündən oxunmaq. Gözlərində ulduz-ulduz arzular yandı. Gözündə yer dolanmaq – başı gicəllənmək; halı pozulmaq. Axar sular ellər kimi; Gözlərində yer dolanır. Gözündə (gözlərində) yuva salmaq – üzündə, gözündə əks olunmaq; məskunlaşmaq, kök salmaq. Gözlərində yuva salır gözəl diləklər. Gözündə od qalanmaq – *bax* gözündə ildırım çaxmaq. Gözlərində od qalansın!.. …Gözündə olmaq – qəlbində, beynində yer eləmək. Həqiqət gözümdə bir xəyal olur. Gözündə parıldamaq – *bax* gözü şöləlşənmək. Gözündə parlayır qaynar bulaqlar.. – O dedikcə bu sözləri od parladı gözlərində. Gözündə (gözlərində) oxumaq – bax gözündən oxumaq. İnsanların gözlərində bir mərhəmət oxuyuram. Gözündə rəqs etmək – üzündə, gözündə daima görünmək, əks olunmaq. Gözündə nur kimi rəqs edir hünər. – Yanar gözlərində rəqs edir şimşək. Gözündə saxlamaq – əzizləmək, əziz tutmaq. Tarix sevənləri gözündə saxlar.. Gözündə hava qaralmaq – əhvaliruhiyyəsi pozulmaq; halı pisləşmək. Yenə gözlərində hava qaralır. Gözündə həyat (var) – həyat eşqi, yaşamaq həvəsi. Bəxtiyar tüfəngə söykənib durur; Gözlərində həyat, alnında qürur. Gözündə canlanmaq – yada düşmək; gözünün qabağına gəlmək, görünmək. Canlanır gözündə müdhiş bir röya.. – Gözümdə canlandı anam yenidən. Gözündən yaş tökülmək – ağlamaq. Gözümdən od kimi yaşlar tökmədim.. Gözündən yuxu qaçmaq – yatmamaq, bidar olmaq. Bir az

qorxdu… Bir az çaşdı… Gözlərindən yuxu qaçdı. Gözündən yuxu tökülmək – yuxusu gəlmək, ayaqüstə yatmaq. Gözlərindən tökülür üç axşamlıq yuxusu. Gözündən keçmək – bax gözündə canlanmaq. Bütün bunlar Sarvanımın gözündən keçir.. – Fikirlər karvanı keçir gözümdən.. Gözündən getmək – yox olmaq, görünməmək. Getsəniz gözlərimdən… Gözündən nur yağmaq – işıq saçmaq, ətrafa nur saçmaq. Gözündən ətrafa nur yağa-yağa Könül dəftərini açır ixtiyar.. – ..aylarla yansın; Al günəş, gözündən nur yağa-yağa… Gözündən od çıxmaq – *bax* gözündə ildırım çaxmaq. Gözümdən od çıxır, başımdan duman.. Gözündən oxumaq – gözlərinin ifadəsindən bilmək, sezmək. Xəyalından keçənləri gözlərindən oxuyuram. Gözündən süzülmək – bilinmək, hiss edilmək; gözündən yağmaq. Gözündən süzülür qəlbinin kini. Gözünə batmaq – kor etmək; gözünü çıxartmaq. Kimdir qartal kimi qayada yatan; Pəncəsi düşmənin gözünə batan? Gözünə (gözlərinə) vurmaq – hiddətdən özünü bilməmək, coşmaq. Çaylar kimi dalğa-dalğa gözlərimə vurur qanım. Gözünə (gözlərinə) qaranlıq çökmək – *bax* gözü qaralmaq. Qıyıq gözlərinə qaranlıq çökdü.. – Yollarda gözümə qaranlıq çökdü.. Gözünə qum dağıtmaq – incitmək, vuruşmaq, yox eləmək. Torpaq tökür, qum dağıdır kor gözünə zülmətlərin. Gözünə doğru (düz) baxmaq – haqlı olmaq, heç nədən çəkinməmək. Bir gözümə doğru bax! – «Alim» adamların gözünə düz bax! Gözünə durmaq – gözünün önünə gəlmək, canlanmaq. Yoxsa əzrayıllar durar gözünə.. Gözünə zülmət çökmək – bax gözünə qaranlıq çökmək. Çan Kay-şinin gözlərinə ölüm gəlir, zülmət çökür. Gözünə (gözlərinə) inanmamaq – gördüyünə inanmamaq; çaşmaq. Baxır gözlərinə inanmır adam. Gözünə işıq vermək – dirçəltmək, canlatmaq, həyat vermək. Anam baxdı üzümə; İşıq verdi gözümə. – Bəlkə də kor kimiyəm, işıq ver gözlərimə… Gözünə yuxu gəlmək – gözü yumulmaq, yuxulamaq; Nə yorulur, nə dincəlir, Nə gözünə yuxu gəlir.. Gözünə yuxu gəlməmək – yata bilməmək, nara-

hat olmaq. Gecələr gözünə yuxu gəlməsin? Gözünə… gəlmək – təsəvvür edilmək. Yollar gəlir indi gözünə. Gözünə gözlük taxmaq – yaxşı, düz görmək, səf etməmək. Qoy oxucu gözlərinə gözlük taxsın.. Gözünə görünmək – 1) mövcud olmadığı halda görünmək. Şeytanmı görünür gözlərinizə? 2) təsəvvür edilmək. Bəzən də.. dayaz bir əsər Bizim gözümüzə ümman görünür. – Sirrini görmədiyim dünya; Gözlərimə göründü yenidən. Gözünə görünməmək 1) əhəmiyyət kəsb etməmək; dəyəri olmamaq. Nə şöhrət, nə mənsəb, nə dünya malı; Görünməz gözümə.. 2) rastlaşmamaq, gözünə dəyməmək. Görünmə gözümə, a nazlı dilbər.. Gözünə ox kimi batmaq – çox təsir etmək, zülm olmaq. Onun gözlərinə batır ox kimi.. Gözünə (gözlərinə) ölüm gəlmək – ölümü yaxınlaşmaq. Çan Kay-şinin gözlərinə ölüm gəlir, zülmət çökür. Gözünə (qara) pərdə çəkilmək – halı pisləşmək; gözü qaralmaq. Başında hər zaman bostan əkilmiş; Gözünə bir qara pərdə çəkilmiş.. Gözünə torpaq dolsun! – qarğış ifadəsi. Sovurduğum torpaqlar yellərə qarışaraq.. Avropanın gözlərinə dolsun! Gözünə torpaq tökmək – *bax* gözünə qum dağıtmaq. Torpaq tökür, qum dağıdır kor gözünə zülmətlərin. Gözünü (gözlərini) ayırmamaq – uzun müddət baxmaq, gözünü çəkməmək. Ayırmayır gözlərini o, zəncinin dodağından. Gözünü açmaq – 1) oyanmaq, yuxudan oyanmaq. Qızcığaz gözünü yuxudan açır.. – Ağır yatan ovçu dostum; Gözlərini aç daha.. 2) ayıltmaq, başa salmaq, gözlərini öyrətmək. Sən xalqın gözünü açarsan bizə.. 3) diqqət etmək, fikir vermək. Açıb gözlərini ətrafına bax.. Gözünü qan örtmək – qan tökməyə, öldürməyə hazır olmaq. Tutub gözlərini örtür qızıl qan. Gözünü qaraltmaq – görməməyə səbəb olmaq. Vəhşi tayqaların qaranlıqları; İnsanın gözünü qaraldır həmən. Gözünü dikmək – ümid bağlamaq. Dikib gözlərini bir təmiz adı.. Gözünü zilləmək – gözünü bir nöqtəyə, bir yerə dikib baxmaq. Göz zillədi o min dəfə; Hər qayığa, hər gəmiyə. – Bəxtiyar tüfəngi doldurub qalxdı; Zilləyib gözünü bir az da baxdı. Gözünü yummaq – 1) yat-

maq, yuxuya getmək. Fəqət gözlərini yummuşdur Humay. 2) ölmək, keçinmək. Yumdu gözlərini o, iftixarla! – Bir axşam varlığı yumub gözünü. Gözünü yummamaq – yatmamaq, bidar olmaq. Gözünü yummayır, onun dərdi var.. – Gözünü yummayır xəzri əsəndə.. Gözünü sıxmaq – ağlamaq. ..Bir qız.. ağlayır yalqız. Gözünü sıxdıqca.. Göyləri andırır ala gözləri. – Buludlar gözünü sıxmış üstündə.. Gözünü (gözlərini) süzmək – nazlanmaq, naz-qəmzə etmək. Şəhla gözlərini süzdüyü zaman.. – Bəzən də xanımın süzüb gözünü. Gözünün qarası – 1) ən əzizi; gözünün bəbəyi, gözünün işığı. Nişan alsalar da gözlərimin qarasına.. 2) gözünün içi. Gecə-gündüz yaş tökülür Gözlərimin qarasından. Gözünün düşməni – zəhləsi getdiyi, nifrət etdiyi adam. «Gözümün düşməni» bilirəm sözü.. Gözünün (gözümün) işığı – ən əzizi. Yaxşı gözümüzün sən işığıydın.. Gözünün odu – ilham verən, cuşa gətirən. Bahar.. Gözünün odusan şerin, sənətin.. Gözünün önünə gəlmək – xatirinə gəlmək, yadına düşmək; gözündə canlanmaq. Gəlir gözlərinin önünə bəzən.. Şirvanın, Muğanın, Eldarın düzü.. Dörd gözlə gəzmək – bərk axtarmaq. Onu jandarmalar gəzir dörd gözlə. Xudaya! Qəribdir, sən onu gözlə! İtil gözümdən! – rədd ol; cəhənnəm ol! İtil gözlərimdən, bivəfa yarım! Öz gözüncə tiri görməyib, başqasının gözündə qılı seçmək – ədalətsiz olmaq; xudbin, eqoist olmaq. Nə zaman ki, gözümüzdə tiri görməyib, başqasının gözlərində qılı seçirik. Ölümün gözünə sakit baxmaq – ölməkdən qorxmamaq; ölümə getmək. O altı kommunist, o altı insan; Ölümün gözünə sakit baxırdı. Sərraf gözü – səf etməyən, çox düz görən, həll edən. Yox… Sərraf gözüdür mənim bu gözüm. Şahin gözü – uzaqgörən; ən incəlikləri seçən. Onun uzaqgörən şahin gözü də..

**Gözaltı**, *z.* Xəlvətcə, gizlincə. Gözaltı bir daha süzüb gəlini..

**Gözaydınlığı**, *is.* Şad xəbərlə əlaqədar təbrik. Gah gözaydınlığı, gah qeybət olur..

**Gözəgörünməyən**, *sif.* Gözəgörünməz, xəyali. «Gözəggörünməyən Allahların» əlində inlədi Şərq.

**Gözəl**, *sif., is., z.* 1. Xoş, ruhu oxşayan, insana zövq verən. Gözlərində yuva salır gözəl diləklər. – Salamlayıb gözəl ömrün xoş baharını.. – Gözəl sözləriniz düşüb dillərə.. – Şahin, nə gözəldir bu çiçəkli yaz! – Keçdi pəncəmizə gözəl Qarabağ..

2. Göyçək, qəşəng, quruluşu, tənasübü qüsursuz olan. Qamət gözəl.. – Çoxdu Qarabağda gözəl sənəmlər.. // *is.* Sifəti, bədəni gözəl-göyçək olan gənc qız. Sən ki zövq alırsan gözəldən, yardan..

3. Müsbət keyfiyyətlərə, xassələrə malik olan. Deyirlər ki, şirin yuxu gözəl nemətdir. – [Azər baba:] Səbr elə, hər şeydən ümid gözəldir.

4. *z.* Yaxşı, əla. İliç lampaları nə gözəl yanır! – [Valentin:] Çox gözəl qalmışdır hələ hafizən..

5. Xitablarda əzizləmə. Gözəl balam, gözəl qızım.. – Artıq sizi yormayıram, gözəl dostlar!

**Gözəlcə**, *sif.* Çox gözəl, çox yaxşı. ..gözəlcə bir məsəl var..

**Gözəl-göyçək**, *sif.* Gözəl, qəşəng. Bir gəlinsən gözəl-göyçək..

**Gözəl-gözəl**, *sif.* Çox gözəl, bir çox gözəl. Gözəl-gözəl adı var..

**Gözəllənmək**, *f.* Gözəlləşmək, qəşəngləşmək. ..gözəllənib, rəngin açılıb..

**Gözəllik**, *is.* Gözəl varlıq. Bu gözəllik, bu bahar, bu qış.. – Bu gözəllik heykəlinin baxışında qəzəb vardır!..

**Gözəlliksiz**, *z.* Gözəl varlıq olmayan. Gözəlliksiz bir sənətin nə duyğusu, nə canı var.

**Göz-göz**, *sif.* Qaynaq-qaynaq. Hər ağac altında göz-göz bulaqlar..

**Göz-gözə**, *z.* Üz-üzə. Göz-gözə baxışıb güldük..

**Gözişləməz**, *sif.* İntəhasız. Əsrimiz.. Bir dənizdir – gözişləməz bir dəniz…

**Gözləmə**, *is.* Təyin edilmiş görüş. – Sən niyə oyaqsan, gözləmənmi var?

**Gözləmək**, *f.* 1. İntizarında olmaq. Elçilər gözləyir, tez yola salın! – Səhraların sabahı da gözləyir məni.

2. Muğayat olmaq, qayğısını çəkmək. Deyir: gözləyirəm eşqin bağını; Bu qopan çovğundan.. – Gözlə, qırılmasın ortada ilqar..

3. Ehtimal etmək, düşünmək. Düzü, gözləməzdim heç sizdən bunu.

**Gözlənilmədən**, *z.* Qəflətən, birdən, təsadüfən. Çoyutma bir güllə gözlənilmədən; Yapışır alnıma..

**Gözlənilməz**, *sif.* Gözlənməz, nagahani, naqafıl. Sizdən gözlənilməz bir cavabdır bu.

**Gözlənmək**, *f.* Qorunmaq. Göz yaşından gözlənən məlhəm mahal olsun gərək!

**Gözlük**, *is.* Çeşmək, eynək. Qırdım.. gözlüyü mən.

**Gözmuncuğu**, *is.* Bəd nəzərdən, gözəgəlmədən qorunmaq üçün taxılan qara-ağxallı) muncuq. ..ipək sapa gözmuncuğu taxır.

**Gummaq**, *f.* Gömmək, basdırmaq. Pək çocuqdum, yerə gumdular səni..

**Gumulmaq**, *f.* Gömülmək, soxulmaq. Bulud arasına gumulmuş aya; Əks etmişdir.. ziya!

**Gur**, *sif.* və *z.* 1. Güclü, bərk. Bütün salon qulaq asdı bu qocanın gur səsinə. – Lal olar gur səsli.. motor da.

2. Güclü və coşğun. Gur çayları dağı, daşı aşıb dələr..

3. Gurultulu. Gur alqışlar kəsir sədrin sözünü..

4. Sıx və qalın. ..Yay aləmə.. gur saçlarını…

**Gurhagur**, *z.* Lap gur, coşğun. Bahar! Qoy suların gurhagur axsın..

**Gurlamaq**, *f.* Bərkdən səslənmək. Qoy gurlasın zəfər marşı.. – Gurlayan səsin; Bizə xəbər versin qərinələrdən..

**Gurlanmaq**, *f.* Gurultusu şiddətlənmək. Gurlansın dağlarda şeypurun səsi..

**Gurultu**, *is.* Çox bərk qarışıq səs. Propellerin gurultusu.. ☐ Gurultu salmaq – gurlamaq, guruldamaq. ..Gülləsi dağlara gurultu saldı.

**Gurultulu**, *sif. məc.* Dəbdəbəli, təmtəraqlı, bəzəkli. Gurultulu nitqlərlə olmaq istər komissar.

**Guşə**, *is.* [*fars.*] *mus.* Dəstgahlarda (muğamatda) vokal-instrumental epizod. Ah, o xallar, o guşələr… fikir uçur.

**Guya**, *bağl.* Sanki, elə bil. «İnqilab ocağı sönmüşdür» guya.

**Gübrə**, *is.* Torpağa qatılaraq bitkini qidalandıran maddə. Torpağa qarışır o bir gübrə tək..

**Güc**, *is.* 1. Fiziki qüvvə. Yaxşı, lovğalanma, bildik, gücün var. // ☐ Gücdən düşmək – gücünü, qüvvəsini itirmək. Gücdən düşür, gözü dolur.

2. Qüvvət, qüdrət, təsir və qabillik qüvvəsi. Tanrıların gücü çatmaz inqilabın qüdrətinə.

**Gücsüz**, *sif.* Qüvvəsiz, zəif. Özündən gücsüzün üstünə gülən..

**Güdaz** [*fars.*]: Güdaza vermək – evini yıxmaq, fəlakətə uğratmaq, uçuruma yuvarlatmaq. Sonradan güdaza verəcək bizi?

**Güdmək**, *f.* 1. Qorumaq. Güdür gözü kimi hər qızıl əsgər..

2. Gözləmək, ummaq. Hər yerdə, hər zaman tariflər güdən..

**Gül**, *is.* [*fars.*] 1. Çiçək. Yollar kənarında güllər əkilsin..

2. Qızılgül. Güllərin başına dolanan bülbül.. – ..ey sevdalı bülbül, ..Sən gülün eşqilə dillən..

3. Al, zərif, təravətli. Nəsə pıçıldayır gül dodaqları… – Körpə uşaqların gül yanaqları… – Dağılmış saçları o gül üzünə..

◊ Gül açmaq – çiçəklənmək, rövnəq tapmaq, həyatilik kəsb etmək. Dodağında gül açmışdır bəxtiyarlıq. – ..arzuların gül açır rəng-rəng.

**Gülab**, *is.* [*fars.*] qızılgül suyu. Qızlar gülab çəksin qoy ətrimizdən.

**Gülbədən**, *sif.* Zərif, incə, lətif, tər. Mənim atım nazənin, gülbədəndi..

**Gül-çiçək**, *top. is.* Gül və çiçəklər. Gül-çiçəklə bəzənmişdir, buyurun, baxın. – Ellər məni gül-çiçəklə saldı yola.

**Güldəstə**, *is.* Gül-çiçək dəstəsi. Ellər ona.. güldəstələr bağışlar..

**Güldürmək**, *f.* 1. Gülməsinə səbəb olmaq, gülüş doğurmaq. Ay Musa, bir güldür məclisi yenə!

2. Sevindirmək, şadlandırmaq, xoşuna gəlmək. ..Nə də ki o durna gözlərin sənin; Artıq güldürməyir, açmayır məni. – İnsanı güldürür bu mənzərələr. – Xəyalı güldürən bir xoş mənzərə..

◊ Üstünə güldürmək – istehza etməyə, ələ salmağa, masqaraya qoymağa, lağ eləməyə (lağa qoymağa) səbəb olmaq. ..Güldürürsən üstümə hər alçağı.. – [Vəzir:] Üstümə güldürün bütün aləmi..

**Gülə-gülə**, *z.* Sevinc ifadə edərək. Hər il bizi gülə-gülə qarşılayır May bayramı.

**Gülər**, *sif.* Şən. Gülər görüm, oynar görüm.. hər vaxt sizi. – Gülər üz, şad ürək burda tək-təkdir.

**Gülərüz**, *sif.* Şən, mehriban, üzügülər. Yenə baxır gülərüz ay pəncərəmdən xumar-xumar..

**Gülgü**, *is.* Satirik gülüş, yumor. ..Bir az da gülgüdən danışsın qələm.

**Güllə**, *is.* Odlu silahdan atılan mərmicik. ..güllənin ağrılarından Zarıyırsan.. – [İslam:] Elə bil ilk güllə buna dəyəcək… □ Gülləyə tutulmaq – hər tərəfdən atılan çoxlu gülləyə məruz qalmaq. Gülləyə tutuldu min oğul, min qız.

**Gülləbatmaz**, *sif.* Güllə batmayan, möhkəm, bərk. Hər nəfəri gülləbatmaz, topdağıtmaz ordudur.

**Güllələnmək**, *f.* Güllə ilə öldürülmək, edam edilmək. ..güllələndi yüz kommunarla. – ..Səs verdi milyonlar: «Güllələnsin onlar!»

**Güllü**, *sif.* 1. Çiçək açmış. Güllü sarmaşıqlar..

2. Güllü-naxışlı. Qoynumdakı güllü yaylıq..

**Güllük**, *is.* Çiçəklik, gülşən, gülzar. Sizi qarşılayan güllük, çiçəklik..

**Gülmək**, *f.* 1. Şadlanmaq. Onunla bir ağla, onunla bir gül.

2. Şadlandırmaq. Sənsiz gülməmişdir ruhuma səhər…

3. *məc.* Sevinc ifadə etmək. Gülür dəniz, gülür Xəzər. – Göy gülür, yer gülür.. – Gülür günəş, gülür səhər..

4. *məc.* Uğruna gəlmək, nəsib olmaq. Hamının arzusu, ümidi gülür.. – Gülmədi səadət..

5. *məc.* Açılmaq, fərəhlənmək. Can dustaq olmanda gülərmi ürək?

6. İstehza etmək. Qoy bizə gülməsin nə dost, nə də yad.. – Mənim bu günümə gülənlər azmı? – Qacarın üstünə biz də gülərik.

**Gülməli**, *sif.* Gülünc, gülüş doğuran. Gülməli insanlar həyatda çoxdur. – Gəl gedək, doğrudan, bu gülməlidir. – «Savadsız müəllim!» Bu gülməli ad..

**Gülöyşə**, *sif.* Meyxoş (nar növü). Əyir budağını gülöyşə narlar.

**Gülşən**, *is.* [*fars.*] Güllük, çiçəklik, gülzar, gülüstan. Bir əcəb gülşəndir torpağın, daşın.. – ..gülşən olur min xarabazar.

**Gülüb-sevinmək**, *f.* Sevinc ifadə etmək. Gülüb-sevinməzdi nə göy, nə də yer..

**Gülümsəmək**, *f.* 1. Təbəssüm etmək, qımışmaq. Qəhrəmanım gülümsədi.. – Deyib, gülümsədi, susdu bir anlıq.

2. *məc.* Sevinc, fərəh fiadə etmək. Yazda gülümsərkən; Bütün kainat..

**Gülünc**, *sif.* və *z.* Gülməli, gülüş doğuran. [Loğman:] İndi gülünc gəlir onun sözləri.. // *məc.* Mənasız, qeyri-ciddi. Məhəbbət, sədaqət gülünc görünür… Gülüncdür bu başısoyuqluq şək siz..

**Gülüstan**, *is.* [*fars.*] Güllük,, gülzar. Qoy sənin əlində gülüstan olsun!

**Gülüş**, *is.* 1. İnsanlarda sevincdən, yumordan və s. Təsirlənmənin duyğu ifadəsi olan qırıq-qırıq səslər və spesifik mimika. Hər təzə gülüşdən zövq almalıyam.. – O gülüş söz açar qərinələrdən..

2. Sevinc ifadəsi. İlham aldın günəş ilə səadətin gülüşündən.

**Gülüşmək**, *qarş.* Qarşılıqlı ya da hamı birdən gülmək. Bu vaxt evdəkilər gülüşür bir az.. – Nə bir danışmadıq, nə gülüşmədik..

**Gülüzar**, [*fars.* və ər. (uzar)] Gülüzlü. Ey könül! Min namə yaz bir gülüzarın eşqinə..

**Gülüzlü**, *sif.* Gözəlin epitetlərindən biri. Başına döndüyüm gülüzlü sona! // *məc.* Gözəl, parlaq, xoş, könül oxşayan. Doğdu gülüzlü səhər..

**Gülzar**, *is.* [*fars.*] güllük, çiçəklik, gülüstan. Neçə ildir, könül deyir: – Söylə, şair; Şer, sənət gülzarında Bakı hanı?

**Güman**, *is.* [*fars.*] Ümid. Sağlığıma güman yoxdur…

**Gümrah**, *sif.* Qıvraq, sağlam. Bizi gümrah tutan havadır, işdir!

**Gümüş**, *is.* Nəcib metal olan gümüşdən emal edilmiş. Gümüş qədəhlərdə bir şərbət..

**Gümüşü**, *sif.* Gümüş rəngində olan (parlaq bozumtul-ağ). Oder çayı.. gümüşü bir kəmər..

**Gün¹**, *is.* 1. Günəş. Qızarsın od kimi rəngi günün də!

2. Günəşin işığı. Yollarına nə gün düşdü, nə də ki ay.

3. Nurlu, nursaçan. Bakı, Bakı. ..Gün camalın şölə salır…

**Gün²**, *is.* 1. Gecə-gündüz, sutka. Günlərdən ay olur.. – Günlər baş götürüb gedir irəli. □ Bir gün – günlərin birində. Bir gün ayağını uzatdı qarı..

2. Vaxt, zaman. Gün keçər, ağarar saçı-saqqalı. // Dövr. Bu günün qayəsi.. Zəhmətdir. // Çağ. Eşqin, məəbbətin xoş-

bəxt günləri.. // An, məqam. Yaman gündə ayrı düşmə öz peymanından. – Dar gündə «Allaha kərimdir» söylə..

3. *məc.* Həyat, ömür, yaşayış, dolanacaq, güzəran. [Səhər:] Günümüz nə olar? – Elim, günüm, obam sənsən! – Nə vaxt qurtaracaq pis gündən insan?! – ..Xəyalətsiz keçiririk günlərimizi… – Yoxsa günün burda qara keçəcək.. □ Nə gündə – nə vəziyyətdə. Nə gündədir, görün, polyak.

4. Gündə şəklində *z.* – tez-tez, daim, mütəmadiyyən. Rəhmətlik gündə bir məclis qurardı… – Tovlayıb azdırır gündə birini.

5. Günü-gündən şəklində zərf – tədricən, günbəgün, getdikcə, gündən-günə, get-gedə. Onsuz günü-gündən çoxalır qəmim..

◊ Gün ağlamaq – dərdinə qalmaq, qayğısına çəkmək, gələcəyini düşünmək. ..daş məbədlər bizə bir gün ağlamadı… Gün vermək – rahat qoymaq. Nə bizə gün verdi, nə özü yatdı.. Gün verməmək – incitmək. Ona gün verməmiş polis nəfəri. Gün görmək – yaxşı yaşamaq. Barı bir gün görsün övladlarımız. Gün görməmək – pis yaşamaq. Sən qaranlıq bucaqlarda; Gün görmədin əzəlləri..

**Günah**, *is.* [*fars.*] təqsir. Həyat amansızdır… səndə nə günah?! – Günah nə gözdədir, nə də çeşməkdə.. □ Günahından keçmək – günahını bağışlamaq, əfv etmək. böyüksən, adilsən, keç günahımdan!

**Günahsız**, *sif.* və *z.* Təqsirsiz. Sayıb sona yetmədim günahsız qurbanları. – Günahsız töküldü.. qanın.

**Günbəgün**, *z.* Günü-gündən, tədricən, get-gedə. Artır məhəbbəti ona günbəgün..

**Gündəlik**, *sif.* Hərgünkü (birgünlük). Humayın gündəlik işləri budur..

**Gündoğan**, *is.* Günçıxan, şərq. Məndən işıq alır bütün gündöğan. – Gündoğan al geyir..

**Gündüz**, *sif.* və *z.* Sutkanın işıqlı hissəsi (gündoğandan günbatana qədər). ..hər gecənlə, hər gündüzünlə; Həmsöh-

bət olmuşam.. – Boğa bilməmişdir gecə gündüzü.. – Gecə fikir, gündüz fikir…

◊ Gündüzü gecəyə qatmaq – gecəni gündüzə qatmaq, gecəli-gündüzlü çalışmaq. [Fərhad]: Nə vaxtdır gündüzü qatıb gecəyə; Gəldim aslanlarla pəncə-pəncəyə..

**Gündüzlü**, *sif.* İşıqlı. Günəşli, gündüzlü bir sabah güldü..

**Güney**, *is.* Dağın, təpənin cənub yamacı. Əriyir güneylər döşündəki qar.. – Güneyləri tamaşadır.

**Günəş**, *is.* 1. Planet sisteminin işıq və istilik verən, mərkəzi göy cismi, gün. Günəş yaydı şöləsini..

2. İşıq, nur. Günəş qaranlıqla yaşaya bilməz…

3. Günəşin şüaları. Uşağın üzünə çəkir şalını; Günəş gözlərinə düşməsin deyə.

**Günəşli**, *sif.* 1. Günəşi olan, günəşin nuru olan. Günəşli gündüzlər nəslidir bunlar..

2. İşıqlı. Günəşli metrolar, aylı tunellər..

**Günəşli-gündüzlü**, *sif.* İşıqlı, parlaq, xoşbəxt. Xəyalım yol gedir.. Günəşli-gündüzlü bir gələcəyə.

**Günəşsiz**, *sif.* Günəş üzü görməyən. Hünərsiz millətin yurdu günəşsiz bir qaranlıqdır!

**Günlü-gecəli**, *z.* Gecə və gündüz, gecəli-gündüzlü, daim. Yanından getməyib günlü-gecəli..

**Günlük**, *is.* Çətir. Günlüyün altına dolur qarılar.

**Gürcü**, *is.* 1. Gürcüstanın əsas yerli əhalisinə mənsub olan adam. Çox vuruşdu gürcülər.

2. Gürcü millətindən olan, milliyyətcə gürcü olan. Yenə gürcü qızı dərdə qərq olmuş.

**Güruh**, *is.* [*fars.*] Qeyri-mütəşəkkil yığnaq, toplu, dəstə; pis niyyətlə birləşmiş adamlar dəstəsi. Basqın güruhları çəkildi geri.

**Gürzə**, *is.* Boz rəngli, parlaq, zolaqlı zəhərli ilan. Gürzələr, şahmarlar Araz boyunca..

**Güşad**, *sif.* [*fars.*] Geniş, açıq. □ Güşad olmaq – vüsətlilik kəsb etmək. Onsuz [Nizamisiz] hünər evi güşad olmazdı.

**Güvənmək**, *f.* 1. Arxalanmaq, bel bağlamaq. Hələlik güvənin zəhmətinizə. – Azad yaşar bu qüdrətə güvənən insan.. – [Şahbaz:] Həqiqət güvənir yalnız qüvvətə..

2. Lovğalanmaq, öyünmək, qürrələnmək. Düşmən çox güvənməsin öz topuna, tüfənginə.. – İncə xanım çox güvənir özündəki gözəlliyə..

**Güzar**, *is.* [*fars.*] Yol. Lakin ellər baş endirir qəhrəmanlar güzarına! – Bu yerə şairin düşdü güzarı..

**Güzaran**, **güzəran**, *is.* [*fars.*] Dolanacaq, yaşayış. Başqadır güzaran, başqadır insan.. – ..güzəran ağır.

**Güzgü**, *is.* 1. Əks, inikas. Ay da güzgüsünü salmış dənizə..

2. Hər hansı hadisəni özündə əks etdirən şey. Sən ey gəncliyimin güzgüsü bahar!

◊ Güzgü kimi – ayna kimi, hamar və parlaq. Parıldasın güzgü kimi bizim kəndin yolları. – Qara dəniz güzgü kimi parlayacaq..

# H

**H(ı)m**, *nida.* Şübhə, şəkk, tərəddüd bildirir. [Qacar:] Hım… hım…

**Ha** – *nida.* 1. Saqındırma, xəbərdarlıq və ya əmr, tapşırıq bildirir, habelə diqqəti cəlb etmək üçün işlənir. Yenə şairliyin baş aparır ha!..

2. İntonasiyadan asılı olaraq, bəzən sözə, cümləyə istehza çaları verir. Ha, ha… qəm yeməyin, adil hökmdar! – Ha… ha… Bəs elə bu?

3. Təkid, vaciblik, lazımlıq bildirir. Ha… ha… Vaqif, elə uşaqlıqdan da…

**Hacət**, *is.* [ər.] Ehtiyac, lüzum. Tərif eləməyə məncə nə hacət..

**Hacı**, *is.* [ər.] *din.* Məkkəni ziyarət etmiş müsəlmanlara verilən ad.

◊ Hacılar yolu – süd yolu, kəhkəşan. Hacılar yolunda böyük bir ulduz Uzaq üfüqlərə sayə salmışdır.

**Hacıleylək**, *is.* Uzun ayağı və düz uzun dimdiyi olan, su kənarında yaşayan iri köçəri quş. O yuvada yaşayan.. Hacıleylək quşudur.

**Haça**, *sif. məc.* Yarıq, paralanmış. Ürəyim haçadır, dilim haçadır..

**Haçadil**, *sif.* Ucu, başı haça şəklində olan. Göygölün üstündə haçadil Kəpəz.

**Haçaq**, *əvəz.* Havaxt, haçan, nə vaxt, nə zaman. De görüm, mən səndən dönmüşəm haçaq?

**Haçan**, *əvəz. dan. Bax* haçaq. Dostum deyir: – Bizdən haçan yazacaqsan?

**Hadisə**, *is.* [ər.] 1. Həyatın adi qaydasını, normal gedişini pozan iş, qəziyyə. Keçdi hadisədən düz on altı gün.. – ..İnsana dərd verən hadisələrdən.

2. Əhvalat, vaqiə, macəra. O hadisə heyran qoyur hər kəsi. – Deyirlər maraqlı bir hadisə var..

**Hafizə**, *is.* [ər.] Bir şeyi zehnində, yadında saxlama və yenidən təsəvvüründə canlandırma qabiliyyəti; yaddaş. [Valentin] Çox gözəl qalmışdır hələ hafizən..

**Ha-ha, ha-ha-ha** – *nida.* Qəhqəhə, gülüş bildirmək üçün səs təqlidi söz kimi işlənir. Ha-ha-ha! Qaçmışdır kələ baş dana! – [Xosrov:] Ha-ha-ha! Əbləhin iştahına bax!

**Hakim**, *is.* [ər.] 1. *hüq.* Məhkəmə orqanlarında baxılan iş haqqında hökm və ya qərar çıxaran vəzifəli şəxs. Sən hakimsən! Çıxardığın bu qərarlar; Bu qanunlar müqəddəsdir həyat qədər!

2. *tar.* Bir ölkənin başında duran, onu idarə edən şəxs (padşah, hökmdar, xan və s.). İran torpağına hakimsiniz siz. – Hakimi qurd kimi didəcək zaman.

**Haqq** [ər.] 1. *sif.* Doğru, düz, düzgün, həqiqi. Nahaq söz od vurar qəlbə, fəqət haqq söz keçər daşdan. – Sinəmdədir Vətənimin haqq səsi..

2. *is.* Ədalət, doğruluq, düzlük, insaf. İnsafı tərk edib, haqqı unutdu.. – Batan deyil haqqın sözü.

3. *is.* Hüquq, ixtiyar. İnsanın haqqını özünə verdik.. – Xalqın ayılan zaman haqqını anlar. – Sevin ki, sevinmək haqqındır sənin! // Əsas. Nə qədər qırsa da, onun haqqı var.

4. *is.* Gördüyü iş müqabilində birinə verilməli olan pul, muzd; cəza və s. Heç kəsin haqqına göz dikmədik biz.. – Hitler ona [Polşaya] kəfən biçir.. Sənin haqqın budur! – deyə..

5. Nisbət şəkilçiləri ilə: barədə (barəsində), xüsusda (xüsusunda) və i.a. Deyin, haqqımızda tarix varmıdır? – Bilirsiniz fitrətimi mənim bu haqda.

◊ <u>Haqq vermək</u> – təsdiq etmək, doğru saymaq, düzgün, haqlı hesab etmək. Qara torpaq bir vicdana haqq verəcək. – Haqq verərsən sözümə.. <u>Haqqa keşik çəkmək</u> – ədalət, doğruluq, düzgünlük tərəfində durmaq. Haqqa keşik çəkir hər təmiz ürək. <u>Haqq şərbəti</u> – ədalət, doğruluq, insaf. Doldur piyaləni haqq şərbətindən.

**Haqq(ı)-salam**, *is.* [ər.] Yaxşı ünsiyyət, dostluq, sədaqət münasibəti. Bu da haqqı-salam, bu da duz-çörək! – Sizin adətdə yazılmış quru söz haqqı-salam.

**Haqq(ı)-say***, is.* [ər.] Biri üçün çəkilən zəhmət, birinə edilən yaxşılıq. Boynunda bu qədər haqqı-sayım var! – Elin haqqı-sayı haramdır sizə!

**Haqlamaq**, *f.* 1. Yüyürüb çatmaq, dalınca qaçıb yaxalamaq; başının üstünü almaq. Bir dağ ki, hər zaman haqsızı haqlar; Qaçağı, qulduru gizləyib saxlar.

2. Bəraət qazandırmaq, doğrultmaq; haqlı çıxarmaq. O sərt baxışlarda nələr saxlanır? Doğru – taqsırlanır, əyri-haqlanır…

**Haqlı**, *sif.* Düz deyən, düzgün fikirləşən, düz hərəkət edən (haqsızın əksi).

**Haqlıdır, haqlısan** şəklində (cümlədə xəbər mənasında işlənir). Nə deyim, haqlısan bəlkə də, Cəlal. – Şübhəsiz haqlı-

san tələbində sən; Söylə nə etmək ki, dağılır vətən.. – Məncə, bu üsyanda bəşər haqlıdır.

**Haqsız**, *sif.* Haqq və insafa uyğun olmayan; ədalətsiz, nahaq, əsassız. Yaşayanmı haqsız, ölənmi haqsız? // *is.* mənasında. Bir dağ ki, hər zaman haqsızı haqlar; Qaçağı, quldurü gizləyib saxlar.

**Haqsızlıq**, *is.* Ədalətsizlik, insafsızlıq. Tarix unutmamış bu haqsızlığı. – Vicdan götürməyir bu haqsızlığı.

**Hal**, *is.* [ər.] 1. Hər hansı bir səbəbdən, şəraitdən doğan vəziyyət, keyfiyyət. Görməmiş ömründə bu halı Göygöl. – Xudaya! İnsanın halı yamandır.. – Salon səssiz bir hal aldı..

2. İnsanın cismani vəziyyəti yaxud əhvalı, əhvali-ruhiyyəsi. Başına döndüyüm əziz Şikəstə. Dinlə məni, halı yaman olmuşam. – Tənha bir şairin uzaq xəyalı şairlik halı..

3. Güc, qüvvət, taqət. Bu haldan ordu da heyrətə gəldi.

◊ Halı dəyişmək – 1) normal halından çıxmaq, pozulmaq; qanı qaralmaq. Yenə də Cəlalın dəyişir halı. 2) Halı dağa da pisləşmək, ağırlaşmaq. O gündən dəyişdi atamın halı.. Halı pərişan olmaq – qanı qaralmaq, kefi pozulmaq. Böylə halı çox pərişan olmuşam. Halına ağlamaq – qeydinə qalmaq, qayğısını çəkmək, halını düşünmək. Dedi: «Ağlayıram sənin halına..» Halına yanmaq – yazığı gəlmək, acımaq, şəfqət göstərmək, canıyananlıq etmək. Bilirəm, gənclikdən sən qəhrəmansan; Bir az da millətin halına yansan. Halını sormaq – maraqlanmaq, diqqət göstərmək. ..Halını sorardı dostum onların.

**Halal**, *sif.* [ər.] 1. İslam dininə görə yeyilməsinə, işlədilməsinə və ya özünə mal edilməsinə icazə verilən (haram əksi). Alqış, əmdiyimiz halal südünə!

2. *məc.* Zəhmətlə, namusla, qanuni yolla qazanılmış. Halal olsun igidlərə bizim halal çörəyimiz.

3. Halaldır şəklində (cümlədə xəbər mənasında işlənir). Halaldır donunu qızıldan geysən.. – [Fərhad:] Halaldır əməyin, halaldır südün.

◊ Halal etmək – borcunu yaxud vaxtilə etmiş pisliyin üstündən keçmək, bağışlamaq. Zəhmətini öz yurduna halal elə.. Halal olsun! – bir şeyi könüllü, əvəzsiz olaraq birinə verəndə deyilir. Halal olsun bu ilhamım qəhrəmana. Qanı halaldır – ölməlidir, ölməyə layiqdir. Bəxtiyar! Babamın qanı halaldır.. Qanım(ız) halal olsun! – ölməyə hazıram, canımı verməyə hazıram. Olsun inqilaba qanımız halal.. Südü(n) halal – yaxşı, layiqli övlad böyüdən anaya tərif kimi deyilir. [Fərhad:] Halaldır əməyin, halaldır südün. Südüm halal (olsun) – yaxşı, ləyaqətli övlada ananın xeyirduası. Anası da sevinib – südüm halaldır, – deyə.

**Halə**, *is.* [ər.] Ayın və bəzi iri ulduzların ətrafında bəzən görünən işıq dairəsi, halə. Dillərdə nəğmə var, sularda halə. – Mahtabın sulara düşən haləsi.

**Hal-əhval**, *is.* [ər.] Vəziyyət, əhval. □ Hal-əhval tutmaq – qeydinə qalmaq, halını düşünmək. ..Hal-əhval tutdu.. dostdan, tanışdan.

**Halət**, *is.* [ər.] *klass.* Hal, vəziyyət. Dünyada doğru bir halət görmədin. – Mən cahan mülkün də mütləq halət görmədim..

**Hali**, *sif.* Bir hadisə, iş haqqında məlumatı, xəbəri olan; xəbərdar, agah. Ellərin dərdindən bir az haliyəm.

**Halqa**, *is.* Çəmbər, qurşaq (əsasən metaldan olur). Dəmir bir halqaya saldısa bizi.. □ Halqa vurmaq – dairə vurmaq, dövrə vurub oturmaq, dairələmək. Enin yerə, saf ulduzlar, halqa vurun dörd yanıma..

**Halqalanmaq**, *f. məch.* Halqa kimi olmaq, halqa şəklinə düşmək, burum-burum olmaq. Top tüstüsü halqalanır sıx ormanlar arasından.

**Halqalı**, *sif.* Halqalardan ibarət olan. Halqalı zəncirlərin qırıldığı bir zaman..

**Hamam**, *is.* Çimmək üçün xüsusi bina. Çayların suyunda yumuş özünü; Ömründə bilməmiş hamam sözünü.

◊ Köhnə hamam, köhnə tas – hər şey köhnə qaydada, heç bir yenilik yoxdur. Dumanın verdiyi bütün vədələr; Ye-

nə yalan çıxdı; Desək müxtəsər; Elə köhnə hamam, köhnə də tasdır!

**Hambal**, *is.* [ər.] Belində yük daşımaqla keçinən adam. Oturmuş palanın üstündə hambal.. – Bulanmış hambalın gözlərində su..

**Hamı**, *əvəz.* Bir nəfər də kənarda qalmayaraq, hamısı, bütün adamlar. De bu gün hamı qəmdən azaddır? – «Qız deyil, pələngdir», – söylədi hamı.

**Hamısı**, *bax* hamı. Hamısı qulluğunda hazır durardı. – Hamısı bir səslə deyir ki, nə var…

**Hampa**, *is.* [*fars.*] Kəndin varlısına, dövlətlisinə keçmişdə verilən ad. Görəcəyəm Quduran.. Hampaların ölümünü.. – Hampalar od vurub yüz min anbara.

**Hanı**, *əvəz.* Harada, haradadır. [Banu:] Hanı Şirin balam? Nə oldu qızım? – Hanı mənim azadlığım?

**Hankı, hansı**, *əvəz.* 1. Ayırıcı, müəyyənləşdirici sual kimi işlənir. Nədəndir demədin heç mənə, oğlum, Dolandın nerlərdə hankı yerlərdə. – Hansı namərd can əsirgər..?

2. Ayrıcı, müəyyənləşdirici sual kimi işlənir. [Şirin:] Hansı məhəbbətdir sizi qəhr edən? – De, hansı qəhrəman, hansı komandan..?

3. «Hər bir», «hər hansı», «hər hansı bir» mənasında işlənir. Hankı səmtə, hankı yana Hey uçsam da yuvam sənsən..

**Hara**, *əvəz.* 1. Hansı yer, hansı məkan, hansı istiqamət, hansı tərəf. Toz-duman içindən hara baxırsan? – Hara qanadlanır fikri sürətlə?

2. Hər tərəf, hər yan. Hara baxıramsa xeyir görünür.

◊ Hara gedim? – nə edim, başıma nə çarə qılım mənasında işlənir. «Hara gedim?..».. Hara… hara – iki və ya çox şeyin keyfiyyətinin, vəziyyətinin müqayisəsində işlədilir. Deyirik: biz hara, intizam hara?.. – Qız hara, mən hara, komsomol hara? Sən hara, bura hara – bir adamı gözlənilməyən bir yerdə gördükdə təəccüb məqamında işlədilir. –

Xoş gördük! Sən hara, bu yerlər hara? – De, sən hara? Rusiya hara?

**Harada, harda**, *əvəz.* Hansı yerdə? Hayanda? Bizim Sarvanımız, deyin, hardadır? – [Şirin:] Söylə bir, hardasan, Fərhad?! // hardasa *şəklində* – hansı yerdəsə, naməlum yerdə. Hardasa nəşəmiz kökəlir bir az..

◊ Harda .. orda – hərəkətlərin, şeylərin birin o birisindən asılılığını göstərir. Harda hərəkət yaşarsa, orda yaşar bərəkət. – [Xəyalım] Harda axşamlasa, orda da yaşar.

**Haradan, hardan**, *əvəz.* Hansı yerdən, hayandan? Hansı tərəfdən? [Valentin:] Yaxşı, hardan belə? – Yaxşı, hardansınız, kimlərdənsiniz? – Vay, səni xoş gördük, haradan belə?

**Haralı**, *əvəz.* Birisinin hansı yerdən, harada anadan olduğunu bilmək üçün işlədilir. Bir dayan, ay gedən, de haralısan? – Kimsən, haralısan? Danış, ay çoban!

**Haram**, *sif.* və *z.* 1. İslam dininin ehkamlarına görə yeyilməsinə, işlədilməsinə icazə verilməyən (halal əksi). Eşqi haram bildi bizə şəriət.

2. *məc.* Zəhmətlə, əməklə, düz yolla qazanılmayan. Elin haqqı-sayı haramdır sizə! □ Haram olsun! – qarğış məqamında işlədilir. Görüm sənə haram olsun boynundakı haqq-sayım. – ..Sənə haram olsun bu.. duz-çörək! Südüm haram olsun – ananın pis, nalaiq övlada qarğışı. «..Döyüşdə düşmənə arxa çevirsən, südüm haram olsun sənə..!»

◊ Harama qatmaq pozmaq, mane olmaq. Nə bizə gün verdi, nə özü yatdı; Bütün yuxumuzu harama qatdı.

**Haray**, *is.* 1. Qışqırıq, hay-küy, çağır-bağır. Məscidi doldurur haray, qışqırıq; Qarğış, hədələmə, söyüş, fışqırıq. □ Haray salmaq – qışqırmaq, bağırmaq; köməyə çağırmaq. Əzəl gündən min arzuyla bu ürək; Çox qışqırıb haray salır gecələr. Haray çəkmək – 1) Müraciət etmək; kömək istəmək. Lenin haray çəkir: silahlı gəlin. 2) Səs-küy salmaq, qışqırıb-bağırmaq. ..Ovçu könlüm.. Haray çəkib, qıy qoparıb çöllər dolanır. – O bəzən qışqırır, haray çəkərək, Sahilə çatmayır fəqət səs-küyü.

2. Kömək, imdad. □ Haraya yetmək – köməyə gəlmək, imdada yetmək. ..Yetdin harayına ləzgilərin, çeçenlərin..

**Haraylamaq**, *f.* 1. Səsləyib çağırmaq, qışqıraraq çağırmaq. Bir qərib kimsə ki, səni haraylar.. – Dalda qalanları haraylayırsan.

2. Hava ilə oxumaq. El sazını, el sözünü yüz il keçsə el haraylar.

**Harın-harın**, *sif.* və *z.* Qudurğan, azğın, həddindən artıq lovğa, özündən razı. Burjuylar piyləndi hey harın-harın.

**Hasar**, *is.* [ər.] 1. Daşdan, taxtadan və s.-dən tikilmiş divar; barı, sədd. Böyük bir qala var, dörd yanı hasar.. – Humay qonşuluqda aşıb hasarı..

2. *məc.* Bir şeyin birləşməsinə, yaxınlaşmasına mane olan şey; maneə; sərhəd, hüdud, hədd. Vicdana, idraka hasarsınız siz. – Bölünməmiş dünya min bir hasarla. □ Hasar olmaq – mane olmaq, maneçilik törətmək. Tunc sinələr hasar olmuş ürəklərin sevdasına. Hasar çəkmək – *bax* hasar olmaq. Məhəbbətə hasar çəkməz nə ayrılıq, nə də zaman…

**Hasarlı**, *sif.* Hasarı, barısı, divarı olan; divarlı. Tüstü çıxıb, səs qoparmış daş hasarlı* qalalardan..

**Haşiyə**, *is.* [ər.] 1. Parçanın, divar kağızının və s.-nin kənarlarını çevrələyən zolaq; çərçivə. Haşiyəsi yamyaşıl bir xalı kimi.. // Kənar, qıraq. Bayraqlar.. Qara tutulmuşdur haşyələrinə.. – Axşamdır, qaralır göyün həşyəsi..

2. *məc.* Əsas məsələ ilə əaləqsi olmayan və ya az əlaqəsi olan danışıq ya yazı. Bu haşiyəm qoy hələlik qalsın bir yana.

□ Haşiyə çıxmaq – mətləbdən kənara çıxmaq, əsas məsələni qoyub başqa şeylərdən danışmaq, ya yazmaq. O, bir şəlalədir axır ürəkdən, Burda bir haşiyə çıxmalıyam mən.

**Hava**[1], *is.* [ər.] 1. Yer atmosferini əmələ gətirən qazların qarışığı. ..Hava şəffafdır. – Saf havalar uda-uda… – Torpaqdan, havadan, sudan güc alır..

---

* daşhasarlı

2. Yeri əhatə edən boşluq, ənginlik; fəza. Bir zaman havada qanad saxlayın.. – Yerin qüvvətindən titrədi hava..

3. Hər hansı bir yerdə müəyyən vaxtda atmosferin vəziyyəti. Hava tutqun.. – Havalar xoş keçir ilk bahar kimi. – Bu yerin havası, suyu sərindir.

4. Bir yerin sağlamlıq baxımından vəziyyəti, keyfiyyəti. Deyin vətən havasından.. – Səndə dağ havası duyuram, inan! – ..Udacaqdır öz evinin havasını. Zəhrimar qoxuyur onun havası..

5. *məc.* Bir yerin mühiti, şəraiti. Burda olmasa da saray havası. – Dəyişmiş bu hava, dəyişmiş bu yer.. – Bu böyük sabahın xoş havasını..

◊ Hava açılmaq – işıqlanmaq; bulud, duman çəkilərək göyün üzü görünmək. – Günorta yetişdi, hava açıldı. Hava qaralmaq – 1) axşam olmaq, axşam düşmək. – Lakin axşam olur, hava qaralır – Moskvanın axşamıdır, hava qaralmış. 2) Bulud, çən, duman gələrək havanın tutulması, qaralması. Sağ olun, çən gəlir, hava qaralır. 3) Yorğunluqdan, gücsüzlükdən gözünə qara çökmək. – Yenə gözlərimdə hava qaralır. Hava daralmaq – *bax* hava qaralmaq 1-ci mənada. – Muğandan keçirəm, daralır hava. Havada barıt var – müharibə, dava ehtimalı var. Barıt vardır havalarda.. Havada gəzmək – hiss olunmaq, ehtimalı olmaq. Havasında bir ölüm, bir də ayrılıq gəzən..

**Hava²**, *is. mus.* Musiqi ahəngi, təranə, melodiya. Çaldığın havalar yandırıb yaxdı.. – ..Yüz havası var onun [rübabının]. □ Ölüm havası – çox qəmli, qüssəli melodiya; ağı; rekviyem. – Ruhuma can verir ölüm havası..

**Havaxtdan**, *əvəz.* Hansı vaxtdan, hansı müddətdən, haçandan. Nə borcludur? Havaxtdan?

**Havalanmaq**, *f.* 1. Havaya qalxmaq, uçmaq, hər yeri bürümək. Axşam üstü qoy uzaqdan; Havalansın Xanın səsi Qarabağın şikəstəsi.

2. cuşa gələrək fikrən uzaqlara getmək, uçmaq. Tərlan təbim havalanıb uçsa da.. – Könül havalanıb gəzir dağları. – Tərlan könlüm ağ buluda havalanmasın.

**Havalı**, *sif. məc.* azad. 1) cuşa gəlmiş, vəcdə gəlmiş; qızğın. Qanadlan ilhamım, havalı könlüm! – Könlüm azad gəzən havalı bir quş.

2. Yaxşı havası olan; səfalı. Dağlarından qopan havalı yellər..

**Havasız**, *sif.* Havası olmayan və ya pis olan; boğanaq. ..Dar daxmalar havasızdır..

**Havayı** [ər.] 1. *z.* Boş yerə, əbəs, nahaq, hədər. Havayı axmasın nə su, nə külək.. – Torpağa düşməsin havayı bir dən..

2. *sif.* Boş, əsassız, mənasız, faydasız. Və sonra Mirpaşa səksənsin deyə. Havayı bir güllə buraxır göyə.

**Hay**, *səs təql.* 1. Çağırışa cavab. ☐ Hay vermək – çağırışa cavab vermək, səsə səs vermək. Hay verib, hay alır gümrah adamlar.

2. Səs-küy, hay-küy, qarmaqarışıqlıq. Hayla girər hər iclasa.. ☐ Hay vurmaq – qışqırmaq, bağırmaq, çağırmaq. Hay vurub, qıy vurub qışqırmaz yenə.. Hay salmaq *məc.* – hay-küy qoparmaq, küy salmaq. Hay salır, qışqırır nəhəng motorlar.

3. ay-hay, hay-hay (istehza, rişxəndlik bildirir). – Demək ki, işlərin yaxşı gedir, hay!

**Hayan**, *əvəz.* Hansı tərəf, hansı səmt, hara. Baş alıb gedirsən hayana, ceyran? – Əzəldən hayanda xoş keçsə ruzgar; Orda yuva salır insan arzusu.

**Haydı**, *nida.* Bir yerə getmək, yaxud bir işə başlamaq üçün çağırış və ya əmr mənasında işlənir. Haydı, arş irəli, Vətən ordusu! – Haydı, insanlara qaynayıb qarış..

**Hay-haray**, *is.* Səs-küy, qışqırtı, dava, mərəkə. Hay-haray qoparıb çox əl-qol atmaz, Gəmisi də batmaz, özü də batmaz. ☐ Hay-haray salmaq – səs-küy salmaq, qaraqışqı-

rış salmaq. Usta! Usta! Tufan gəldi! – deyə, şagirdlər; Çaxnaşaraq mədən boyu hay-haray saldı.

**Hay-hay**, *nida.* İntonasiya ilə deyilərək istehza, rişxəndlik bildirir. [Xəyali səs] Hay-hay… nə tez boğur həyat hünəri. – Hay-hay! Qəribədir dünyanın işi!

**Hayıf**, *əd.* Birisinə acıma, ona canı yanma, yazığı gəlmə; heyf. Hayıf, tez qocaldı Qızyetər qarı; Elə dərd içində keçdi rüzgarı.

**Hayqırmaq**, *f.* 1. Bağırmaq, bərk qışqırmaq, hay salmaq, nərə çəkmək. Maral kimi dil çıxarıb hayqırır. – Gah da ki, dağlara çıxıb hayqırır. – Gürlayan səsinlə «irəli!» hayqır..

2. *məc.* Səs-küylə işləmək (nəhəng, qurğular haqqında). Hayqır, zavod! O nərəndə həyat deyə. – Buruqların hayqıraraq; Nərə salır çöllərə..

**Hayl**, *nida.* [alm.] Alman ordusunda salam nidası. Bəs necə? Bu günü düşündünmü heç; «Hayl Hitler!» deyib qışqıranda sən?

**Hazır**, *sif.* və *z.* [ər.] Bir işi icra etmək üçün hər şeyi olan, amadə. Silahlı əsgər tək dayanmış hazır. – Önümdə tufan var, hazır olunuz… Hazırdır, hazıram şəklində – xəbər mənasında işlənir. Eviniz hazırdır bir bağ içində. – Hücuma hazırdır Məhəmməd Qacar.

◊ Qulluğunda hazır durmaq – amadə durmaq (birinin qabağında). Hamısı qulluğunda hazır durardı..

**Hazırlamaq**, *f.* 1. İstifadə üçün yararlı hala salmaq, hazır etmək. Hər bir igid hazırlasın tüfəngini, yarağını..

2. Bir şeyi, işi yerinə yetirmək üçün, həyata keçirmək üçün üzərində çalışmaq, işləmək. O hazırlar yer altında şöməndüfər yolları.

3. Xörək və s. bişmiş bişirmək, bişmiş hazır etmək. Xalama bir plov hazırla, barı.

**Hazırlanmaq**, *f. məch.* Özünü hazırlamaq, hazırlaşmaq, öyrənmək, çalışmaq. Hazırlansın qoy insanlar, Başlanmışdır imtahanlar.

**Hazırlaşmaq**, *f.* Bir iş görmək və ya bir yerə getmək üçün hazırlıq görmək, hazırlanmaq, özünü hazır etmək. [Fərhad:] Gedin hazırlaşın gün doğanadək. – Ordu hazırlaşıb bir də yeridi. – Dərsə hazırlaşır məktəbli Xumar..

**Heç**, *z.* [*fars.*] 1. Qətiyyən, əsla, bilmərrə, büsbütün. Yazıb-yaratmaqdan heç doymamışdır. – Şair! Heç aldanma dünya varına..

2. *əd.* Sual cümlələrində cümlənin sual səciyyəsini gücləndirmək üçün işlədilir. İnsan da əslini heç unudarmı? – Bəs necə? Bu günü düşündünmü heç?..

3. *is.* Heç bir qiyməti, dəyəri, hörməti olmayan adam və ya şey haqqında. Boş sözdür, dünyanı heçdən yaradan. // Yoxluq, puçluq, fanilik. – Bütün varlığıyla bir heçə dönər..

4. *ara söz.* Əvvəlki sual və ya cavabdan fikri yayındırmaq məqsədilə işlədilir. [Şapur:] Nə kahin? [Şirin:] Heç… heç. – «Biz heç… Qoy şairə soyuq dəyməsin!»

5. Heçdir şəklində; cümlədə xəbər kimi çıxış edir. Xumarsız gözümdə bir heçdir həyat!

◊ Heç eyləmək (etmək) – yox etmək, məhv etmək. Muğan tufan olsa üçü heç eylər. Heç kəs – heç bir adam, heç bir şəxs. Heç kəsin haqqına göz dikmədik biz. – Heç kəsə dərdimi aça bilmirəm.. Heç nə – heç bir şey heç zad. Söhbət vaxtı danışmadı, heç nə dinmədi. Heç olmasa – barı, yaxşı olardı ki. Heç olmasa, vətənimizin eşqinə bu gün; Bircə tablo yaradaydı hər söz ustadı. – Deyin, heç olmasa, ağlınız varmı?

**Heçlik**, *is.* 1. Yoxluq, fanilik (varlıq ziddi). Varlığı izləyir heçlik kölgə tək… – O artıq olmuşdur heçliyə yoldaş. // *məc. mənada.* İçimdə bir boşluq, heçlik duyuram.

2. *məc.* Fəza, boşluq. Sonra sonsuz bir heçlikdən dönüb «ilham» alırlar. – Seyrə vardıqca o heçlikləri mən..

3. Mənasızlıq, boşluq; miskinlik. Ölüm!.. Gözünü köhnə dunyanın heçliyinə dikənlərə.

□ Heçliyə varmaq – puç olmaq, məhv olmaq. Qoy onların.. bəxtiyarlığı.. heçliyə varsın!

**Hekayə**, *is.* [ər.] Rəvayət şəklində kiçik ədəbi nəsr əsəri. Azərbaycan sovet ədəbiyyatında gənclərimizin həyat və mübarizəsinə həsr edilmiş gözəl şeirlər, poemalar, hekayə və povestlər az deyildir.

**Hekayət**, *is.* [ər.] Əhvalat, sərgüzəşt, qəziyyə; hekayə. [Mahnigar] Ürəyə dağ çəkən hekayətlərin.

**Hesab**, *is.* [ər.] 1.Hər hansı hesablanmanın rəqəmlərlə ifadə olunan nəticəsi, say, miqdar. O rəqəmdən, o hesabdan qorxma, şair!

2. Bir şey və ya iş haqqında izahat, geniş məlumat; hesabat. Qurultayın al məxmərli kürsüsündən; Hesab verir neçə beyin, neçə ürək. – Bu səhvimçün ana yurdum məndən hesab almayacaq.

3. Hesabına *şəklində z.* – vəsaiti ilə, pulu ilə. Gündüzləri birliyin hesabına yaşayan..

◊ Hesabı olmaz (yoxdur) – çoxluq, saysızlıq bildirir. Mən getsəm, qırğının hesabı olmaz.

**Hesablaşmaq** – *qarş. məc.* Qisas almaq, əvəzini çıxmaq. Hesablaşmaq istər könül xilqətlə..

**Hey**[1], *nida.* Çağırış və ya müraciət bildirir. Hey!.. Hey!.. Addımlarını möhkəm at!

**Hey**[2], *ədəd.* Bir şeyin daim, arasıkəsilmədən və ya tez-tez təkrarlandığını bildirir. İrigözlü projektorlar hey işıq saçır. – Kor kimi dolaşıb hey diyar-diyar.

**Heyf**, *is.* [*ər.*] Kədərlənmə, acıma hissi; təəssüf. Soruşmayın orda nə var, heyifdir əsər..

◊ Heyfi gəlmək – əsirgəmək; yazığı gəlmək. Puşkində sözlər qüvvətlidir, onları dəyişdirmək və nə isə əlavə etmək istəmirsən, heyfin gəlir.

**Heykəl**, *is.* [ər.] 1. Heykəltəraş tərəfindən daşdan, tuncdan və s.-dən hazırlanmış insan və ya heyvan surəti. Altı heykəl şöhrətidir bu binanın. – Heykəllər də durur səf-səf.. // *məc.* mənada. Tozu da qalmasın qanlı heykəlin!

2. *məc.* Hər hansı bir keyfiyyəti, xüsusiyyəti təcəssüm etdirən adam, şey və s. haqqında, mücəssəmə. Gözəlliyin heykəlidir sənətində canlanan..

3. *məc.* Surət, obraz, tip. Oxuyub qıl tamaşa; Əsərimdən görünən heykəlimi.

◊ Heykəl kimi (durmaq) – hərəkətsiz, müqəvva kimi. Heykəl kimi dayandı lal. Bu gün keçdi, sabah deyə..

**Heykəltəraş**, *is.* [*ər.* heykəl və *fars.* təraş] Heykəltəraşlıq əsərləri (heykəl, büst, barelyef və s.) yaradan sənətkar. ..Bir surət yaradır bir heykəltəraş..

**Heyran**: heyran qalmaq (olmaq) – valeh olmaq, məftun olmaq, çaşıb qalmaq. Çoxları hüsnünə heyran qaldılar.. – Bu qanlı səhnəyə heyran qalmayın.. – Oder çayı.. Heyran olur öz səsinə. Heyran qoymaq (etmək) – valeh etmək, məftun etmək; heyrət içində buraxmaq. O hadisə heyran qoydu hər kəsi. – Hüsnün eylər hər kəsi heyran..

**Heyrandır, heyranam** şəklində – xəbər mənasında işlənir. Heyrandır hüsnünə Kazbek, Ararat.. – Özüm tutduğuma heyranam özüm..

**Heyrət**, *is.* 1. Qeyri-adi, gözlənilməz, qəribə, anlaşılmaz bir şeydən hadisədən çaşqınlıq halı; təəccüb. Humayın heyrətdən böyüyür gözü. □ Heyrət almaq – çaşıb qalmaq, heyrət etmək. Kərəmi heyrət alır, Kərəm xəyala dalır. – Hamını heyrət aldı. Heyrət içində(dir) – təəccüblənmiş halda, təəccüb içində, təəccüblənərək. Heyrət içindədir gələn qonaqlar. – Salon heyrət içindədir… Heyrətə salmaq – təəccübləndirmək, heyrətləndirmək. Heyrətə salmışdı mahalı maydan. Heyrətlə *şəklində z.* – təəccüblə, heyranlıqla. Baxıram heyrətlə yanan gecəyə..

**Heyrətlənmək**, *f.* Təəccüblənmək, təəccüb etmək. Mənsə heyrətləndim, sözün doğrusu..

**Heyva**, *is.* cənubda bitən, iri bərk sarı meyvəsi olan ağac və bu ağacın meyvəsi. Payız vaxtı bağçamızın heyvaları dəyəndə.. – ..Heyvası, narı mənimdir.

**Heyvan**, *is.* [ər.] *məc.* Qanmaz, anlamaz, kobud adam haqqında. ..Həp heyvan kimi.. // Yazıq, fağır, aciz (adətən uşaq haqqında). Nolacaq.. heyvan..

**Hə**, *əd.* 1. Verilən suala müsbət cavab və ya təsdiq məqamında işlənir; bəli, elədir. Hə… Sonra?

2. Sual cümlələrində sualı gücləndirir və təkid bildirir. [Şiruyə:] Hə… gəldin, vəzir? – Bilirəm… Hə, Vaqif? Yaşamayacaq!

3. Yaddan çıxmış bir şey birdən yada düşdükdə və ya başqa mətləbə keçdikdə deyilir. Hə… deyəsən iş var…

**Həbəş**, *is.* Efiopiyanın əsas əhalisini təşkil edən xalq və bu xalqa mənsub olan adamın keçmiş adı; efiopiyalı. Zəncinin, həbəşin qanıdır onlar.

**Həbs**, *is.* [ər.]: həbs etmək – həbsxanaya salmaq, azadlıqdan məhrum etmək. Ata, həbs etdilər yazıq Eldarı!

**Həbsxana**, *is.* [*ər.* həbs və *fars.* xanə] Dustaqların saxlandığı yer; dustaqxana, qazamat. Dəmir pəncərəli həbsxanadan; Dustaqlar boylanır yollara sarı…

**Həcv**, *is.* [ər.] Bir şəxsə, ictimai quruluşa, yaxud həyatdakı mənfilikərə qarşı yönəldilmiş istehzalı, kinayəli yazı. [Qacar:] ..Mənə həcv yazır hər yoldan ötən..

**Hədd**, *is.* [ər.] 1. Sərhəd, hüdud. Sözün mənası hədd bilməz! – Dəli Kür qızışıb həddini aşır.

2. *məc.* son. □ Həddən (həddindən) artıq – son dərəcə çox, hədsiz. Özün də həddindən artıq gözəlsən. – Həddən artıq səxavətlər göstərib ona. Həddini azmaq – *bax* həddini aşmaq. Deyirlər ki, o quldurlar öz həddini azmış yenə. Həddini anlamaq – öz hərəkətində, davranışında, danışığında ədəb dairəsindən kənara çıxmamaq; cızığından çıxmamaq. Həddini anladı, bildi o murdar. Həddini aşmaq – öz hərəkətində, danışığında ədəb normalarına riayət etməmək, cızığından çıxmaq; qudurmaq. Jurnal adamları həddi aşmasın. – Həddindən aşmışdır yenə qaçaqlar. Həddini vermək – dərsini vermək, yerini bildirmək, yerinə oturtmaq, cəzalandırmaq. ..Həddini verin azğına.

**Hədd-hüdud**, *is.* [ər.] Hədd, son, axır. Sevincimin həddi-hüdudu yoxdur.

**Hədəf**, *is.* [ər.] Tüfəng, top və s. atarkən güllənin, mərminin və s. dəyməli şey, yer və s. Quşlar da qorxudan yerə yatdımı? Hədəfi oldunmu cahangirlərin?

**Hədiyyə**, *is.* [ər.] Bağışlanan şey, bəxşiş, sovqat, töhfə, ərmağan. ..Hədiyyələr, mükafatlar almışam mən. – Yekaterinadan bir hədiyyədir. // Yadigar. Vətən şərqisi Balalara hədiyyə. – Azğın ürəklərə budur hədiyyə. – Onun divarları əl-əlvan naxış; Əsrdən-əsrə hədiyyə qalmış.

**Hədsiz**, *sif.* Həddi-hüdudu olmayan, həddən artıq, say-sız-hesabsız. Bu dünyada bayraqların hədsizdir sayı.

**Həftə**, *is.* [*fars.*] Şənbədən növbəti bazar gününə qədər yeddi günə bərabər vaxt ölçüsü, vahidi. Vallah, gələsiydik bu həftə sizə.. // Hər hansı gündən başlayaraq hesablanan yeddigünlük vaxt, müddət. Həftəsi tamam olmamış..

**Həkimanə**, *sif.* və *z.* Hikmətli, ağıllı, müdrik(anə); dərin. Bunun həkimanə kəlamlarından…

**Həqiqət**, *is.* [ər.] 1. Doğrudan, həqiqətən olmuş və ya olan şey, hadisə və s. Nə odlar görmüsən!.. Bu bir həqiqət! // Düzlük, vicdan, yaxşılıq, ədalət. Mən bu həqiqəti səndən öyrəndim. – Sən həqiqət aşiqisən! Nələr deyir..

2. həyatda, təcrübədə sınanmış fikir, mülahizə, mühakimə. [Səhər:] Həqiqət olsa da bu fəlsəfələr.. – Aç… aç qapısını sən həqiqətin.

**Həqq**[1], *bax* haqq 4-ü mənada. Desəm, çox münasib həqqindir əlbət.

**Həqq**[2], *is.* [ər.] Allahın adlarından biri; Allah, Tanrı. Həqdən istəmişəm yarıyaq qoşa..

**Hələ**, *z.* 1. İnkar cümlələrində gözlənilən bir işin vaxtında baş vermədiyini, gecikmiş olduğunu bildirir; hələ-də. Hələ yaranmamış həyata əvəz. – [Şirin:] Hələ də bilmirəm günahım nədir. // İndiyədək; hələ ki. Hələ rast gəlmədim vəfalı yara! – Dünya tanımamış hələ adımı…

2. Bir də, əlavə, üstəlik. Hələ qəbrin ətrafına ağac da əkdi. – Hələ sən şadlanıb-sevindin də bir.. – Hələ saatı da var..

◊ Hələ ölməmişəm – hələ gücü, hökmü var. Hələ bu dağlarda ölməmişəm mən. Hələ harasıdır! – hələ məsələ, iş və s. qurtarmayıb, bitməyib; ardı var. ..Hələ bunlar harasıdır!

**Hələlik**, *z.* Bir müddət, bir qədər, bir müddətə qədər. Qoy qalsın hələlik, sonra bilərsən. – Bu haşiyəm qoy hələlik qalsın bir yana. // Müvəqqəti olaraq. Qoy hələlik ayrı düşsün dost əllərimiz. – Bilirəm yalnızsan hələlik sən də.. // Hazırda, bu saat. [Şapur:] Ümidi verməyin hələlik bada. – Hələlik güvənin zəhmətinizə. – ..Hələlik məni; Düz-çörək eşqinə keçir sahilə..

**Həm**, *bağl.* [*fars.*] Üstəlik, dəxi, da(də). Həm də bidətlərdən, dürlü imandan; Bir əsər görünməz.

**Həmail**, *is.* [ər.] Boyundan asılan qadın bəzəyi. Hələ həmaili, saatı da var..

**Həmdəm**, *is.* [*fars.*] Yaxın yoldaş, yaxın dost, sirdaş. [Şirin:] Burda nə həmdəmim nə sirdaşım var. – O nə tapdı həmdəmini, nə bir şirin yuxu yatdı. // *məc. mənada.* Həmdəmim ləpələr, göy dalğalardır.

□ Həmdəm olmaq – dost, sirdaş olmaq. Çaylar həmdəm olur, dənizlər sirdaş.

**Həmən**, *əvəz.* [*fars.*] 1. Həmin, haman, o. Mən də sənin kimi bir gəncəm həmən..

2. *z.* O saat, dərhal, əlüstü. Vəhşi tayqaların qaranlıqları; İnsanın gözünü qaraldır həmən. – Günü-gündən, həmən açdı; Şərq qollarını..

**Həmin**, *əvəz.* [*fars.*] Yaxında olan bir şeyi, ya şəxsi göstərmək üçün işlənir. Həmin kəmənd keçdi düz boğazıma.

**Həmişə**, *z.* [*fars.*] Daima, hər vaxt, hər zaman. Qaldı xan… – Həmişə əlimizdədir..

**Həmişəlik**, *z.* Vaxtı məhdud olmadan, müddətsiz, əbədi, daim(i). Bu qaranlıq gecələr həmişəlikmi əşi?

**Həml**, *is.* [ər.] *klass.* Yük, ağırlıq. Qorxutmasın səni zəhmət acısı; Bu həmli üstünə aldığın gündən.

**Həmli**, *sif.* İkicanlı, boylu, boyudolu; hamilə. Qorxub, uşaq salır həmli arvadlar.

**Həmsöhbət**, *is.* [*fars.* həm və *ər.* söhbət] Birisi ilə söhbət edən, söhbət yoldaşı, müsahib. ..Hər gecənlə, hər gündüzünlə Həmsöhbət olmuşam..

**Həmyaş**, *is.* Yaşı eyni olan; yaşıd. Vaxt oldu ki, qonaq getdi həmyaşlarına..

**Hənirti**, *is.* canlı səsinə oxşar yavaş səs, qulağa deyən anlaşılmaz səs. Yerdə nə hərəkət, nə hənirti var..

**Hənuz**, *z.* [*fars.*] Hələ, hələ də. Mən görmədim, söyləyirlər, hənuz körpə yaşında.. – Gəray bəy fikirdə oyaqdır hənuz..

**Həp**[1], *əd.* Da, də. Azadlıq haqqına həp malik oldun.. – Baxışları.. həp süzgün-süzgün.

**Həp**[2], *z.* Daim(a), həmişə, hər vaxt. Nərdəsən, gözlərim həp səni bəklər.. – Bir qaranlıq küncə həp çəkiləlim..

**Həpsi**, *əvəz.* Hamısı, hamı. ..Həpsi xar olsun..

**Hər**, *əvəz.* 1. Bir toplunun ayrıca götürülən fərdi, onu təşkil edən şeylərdən hər biri. Hər damcı qüvvədir bir daşqın selə. – Ata kimi danışdırıb hər bir nəfəri..

□ Hər an – *bax* hər vaxt. Bir eşqin istisi qızdırdı hər an. Hər bir (hər biri) – toplu halındakı adamlardan, ya şeylərdən ayrıca götürülmüşü. Ata kimi danışdırıb hər bir nəfəri. – Bir eli tapşırdı hər birimizə. Hər vaxt – həmişə, hər zaman. [Şirin:] Qoy olsun, bəxti də hər vaxt ağ olsun. Hər dəm – *bax* hər an. [Xosrov:] Bu meylə, məzəylə keçinən hər dəm; Böyük bir dövrandır, böyük bir aləm.. Hər zaman – *bax* hər vaxt. Odur ki, hər zaman söz qaytarmayır. Hər yan – hər tərəf, ətraf. Bürüdü dövranı hər yandan düşmən. Hər kəs (kim) – 1) Hər bir adam, hamı, bütün adamlar. Vüsalın hər kəsə səadət, Şuşa! – [Vəzir:] Nə var ki.. hər kimi istəsən əgər; Gəlib bir qul kimi sənə baş əyər. 2) naməlum adam, kim olur olsun. Hüquq almaz, artıq hər kəs çalışmaz. Hər halda

– yəqin, nə olursa olsun. Hər halda Muğan da faydasız olmaz. Hər şey – bütün, hamı, nə varsa hamısı. [Xosrov:] Onsuz da fanidir hər şeyin sonu… – [Azər baba:] Səbr elə hər şeydən ümid gözəldir.

2. Həmcinsüzvlü cümlələrdə bölgü bildirir. Hər ayın, hər ilin şöhrəti vardır. – Hər bağın, hər bağçanın bir bülbülişeydası var..

◊ Hər addım başında – tez-tez, daim. Hər addım başında bir xəyanət var. Hər yaza bir qış gətirmək – pozmaq, dağıtmaq, dağıdıcı təsir göstərmək. Özüylə hər yaza gətirir bir qış.. Hər yoldan ötən – başqası haqqında saymazyana işlədilən ifadə. Mənə həcv yazır hər yoldan ötən. – Hər yoldan ötəni başa çıxardaq! Hər günün bir qanunu (hökmü) var – hər zamanın öz tələbi, ağası vardır. Dünyada hər günün bir hökmü vardır. – Hər günün gecənin bir qanunu var. Dünyanın, həyatın hər şərbətini içmək – həyatın acısını da, şirinisini də dadmaq, həyatın hər tərəfini görmək. İçirəm dünyanın hər şərbətini…

**Hərami**, *is.* [ər.] quldur, çapovulçu, yölkəsən. Hərami nəslinin pozuldu səfi.

**Hərarət**, *is.* [ər.] 1. İstilik. Bahar günəşinin hərarəti tək; Xəyalım dünyanı salama gəlir.

2. *məc.* Mehribanlıq, səmimiyyət; səmimi, xoş hisslər. Bir duraraq diz-dizə; Qanında yox hərarət.

**Hərarətli**, *sif. məc.* Qızğın, atəşin alovlu. Sizə hərarətli salamımı göndərirəm.

**Hərb**, *is.* [ər.] müharibə, döyüş, savaş. Biz qərb istəmirik, hərbə hazırıq. – [Vəzir:] Bu gündən hazır ol, hərbə girişək.

**Hərbi**, *sif.* Hərbə, orduya aid olan; müharibə, ordu ilə əlaqədar olar; əsgəri. Söhbət gedir hərbi xəstəxanalardan. – Kimdir bizi qarşılayan burda hərbi salamla..

**Hərcayi**, *sif.* [*fars.*] *məc.* Avara boş, xeyirsiz, idarə olunmayan; yersiz. Od-alov püskürən hərcayi yellər. – Əmirxan hərcayi dumanlar kimi.. // *is.* Bilmirəm, yenəmi hərcayilər tək; Qayəsiz, məqsədsiz keçinəcəksən.

**Hərcayilik**, *is.* və *sif.* Avaralıq, mənasızlıq, boşluq. Gizli tutdu hərcayilik xəyallarını.

**Hərçənd(i)** [*fars.*] *bağl.* Bir cümləni ona zidd olan və ya onu aydınlaşdıran başqa cümlə ilə qarşılaşdıran bağlayıcı. Söyləmərəm ki dağılsın bu kəndi; Layiqdir bu dağılmağa hərçəndi. – Hərçəndi məhv oldu iyirmialtılar..

**Hərdəm (hərdən)**, *z.* [*fars.*] Bəzən, arabir, hərdənbir, gah-gah. Hərdəm sizin ilə gəzə, durnalar! – Bir mələk donuna girsə də hərdən.

**Hərə**, *əvəz.* Toplu halında olan adamların hər biri; hər kəs. Hərə zəhmət çəkir bir iş üstündə. // Hərəsi *şəklində* – ayrı-ayrılıqda, hər biri. Uzanıb hərəsi yatır bir yerdən.

**Hərəkət**, *is.* [ər.] 1. Bir şeyin sabit bir nöqtəyə görə öz yerini və ya vəziyyətini dəyişməsi. Çoxaldı get-gedə, artdı hərəkət. // Müxtəlif istiqamətlərdə (küçələrdə, yollarda və s.-də)piyada və ya miniklə gedib-gəlmə; gediş-gəliş. Artıq şəhər oyanmışdı… başlamışdı hərəkət. □ Hərəkətdən düşmək – dayanmaq, xarab olmaq, işləməmək; gedib-gəlməmək. Onlar düşməmişdir hərəkətindən.

2. *fəls.* Materiyanın varlıq forması; maddi aləmin fasiləsiz dəyişmə və inkişaf prosesi. Duyuram hərəkət namütənahi*…

**Hərəkətsiz**, *sif.* Hərəkət etməyən, tərpənməz halda olan. Hərəkətsiz o təbiət məzarlığı andırır.

**Hərəmxana**, *is.* [ər. hərəm və *fars.* xanə] *köhn.* Sarayda hərəmlərin yaşadığı otaqlar, bina. Onun sarayında hərəmxanalar..

**Hərf**, *is.* [ər.] Əlifbanı təşkil edn yazı işarələrdən hər biri. Xırda hərflərlə yazılsın adım.

**Hərfi**: hərfi tərcümə – cümlədəki sözləri olduğu kimi bir dildən başqa dilə çevirməkdən ibarət olan tərcümə. Mənim fikrimcə, tərcüməçi gərək sözlərin hərfi tərcüməsi ilə məşğul

* sonsuz

olmasın. – Orijinalda olan poeziya, ilham və qəlb çırpıntıları hərfi tərcümədə yoxdur.

**Hərif**, *is.* [ər.] 1. Şübhəli görünən tip; cüvəllağı. Dayan, ..qansız hərif..

2. *məc.* Bic, çoxbilmiş, ayıq. Aha.. heç saymayır bu hərif bizi.. – Hərifi bir təhər yuxuya verib..

3. Yüngül söyüş məqamında işlənir. Doğrusu şey hərif [maydan] bana çox xəcalət verirdi.

4. Alçaq, yaramaz (adı çəkilməyə layiq olmayan adam haqqında). – Nə var? – Nə oldu? – Hériflər özgə bir səngərə doldu.

**Həris**, *sif.* və *z.* [ər.] Bir şeyə həddindən artıq can atan, ona aludə olan, onun düşkünü olan; gözüdoymaz, düşkün. ..O dəbdəbələr; Həris gözümüzə munis görünür. – Mənsəbə, şöhrətə, pula həris də..

**Hərləmək**, *f.* Dairəvi şəkildə hərəkət etdirmək, fırlatmaq; o tərəf-bu tərəfə çevirmək. Hərləyib durbini gözünə taxdı.

**Hərlənmək**, *f.* Gəzmək, dolaşmaq, dolanmaq, gəzişmək. Hərlənib, dolanıb, çıxdılar düzə..

**Həsb(i)-hal**, *is.* [ər.] Baş-başa söhbət, hallaşma, dərdləşmə, bir-birinə öz halından danışma. Onun [Göygölün] ehtiyacı yox həsbi-hala. – Ürəklərdən-ürəklərə keçən hansı həsbi-haldır.

**Həsəd**, *is.* [ər.] 1. Paxıllıq. Həsəd olmuş ilk anası xəyanətin. – Sənə sirdaş olur həsəd ilə kin. □ Həsəd çəkmək – paxıllıq etmək, paxıllığını çəkmək. Ona həsəd çəkir ulduz da, ay da. – Baxıb başqasına həsəd də çəkməz.

2. Həsədlə *şəklində* zərf mənasında. Qoy bizə həsədlə baxsın Avropa!

**Həsrət**, *is.* [ər.] 1. Bir şeyi və ya birini bir daha görmək, qovuşmaq arzusu. Həsrətin səbrimi əlimdən aldı. – Həsrətlər yorğunu, şikəstə könlüm..

□ Həsrət qalmaq – istədiyinə çatmamaq, arzusu ürəyində qalmaq. Suya həsrət qaldıq, çörəyə möhtac. – [Xosrov:] Həsrət qaldım bu dünyada eşqə mən. Həsrət çəkmək – çox

arzusunda olduğu, lakin əldə edə bilmədiyi bir şeyin üzüntüsünü çəkmək; son dərəcə arzulamaq. Yerə həsrət çəkəcəkdir göydə mələklər. – Baxıb həsrət çəkir ulduzlar, aylar.

2. Yaxın adamından, sevgilisindən ayrılma; ayrılıq, hicran. Vaxt yetişdi, ..anası rəhmətə getdi. Bu həsrətin ağrısını duydu Əmirxan. – Aygün fikrə getdi. Ayrılıq… həsrət…

3. Nigarançılıq, qüssə. ..Dərələrə bir həsrət çökür. – Dəqiqədən dəqiqəyə həsrətimiz çoxarlır..

4. Həsrətlə *şəklində z.* – şiddətli arzu ilə, həsrət ifadə edən nəzərlərlə. Həsrətlə ayrılsaq daha gözəldir. – Həsrətləmi yanır şam, göz yaşları tökərək?

◊ Həsrət nəğməsi – qəmli, ürəksıxıcı lirik melodiya; blüz. Bir həsrət nəğməsi çalır ləpələr.

**Həsrətli**, *sif.* Həsrət ifadə edən; arzulu. Həsrətli gözlərlə boylanır qarı.. – Öpüb salamlayan həsrətli bir göz.

**Həssas**, *sif.* [ər.] Çox tez hiss edən, duyan; çox tez təsirlənən. İnsan gözü! Onun həssas bir qəlbi var.

**Həş(i)r**, *is.* [ər.] *məc.* Gurultu, səs-küy, mərəkə. Ölsünmü bu həşrü qiyamətdən?

**Hətta**, *bağl.* [ər.] Üstəlik, həm də, belə. Hətta onun hər tərsliyi, hər inadı da.. Hətta anasının üzünə belə; Başını qaldırıb baxmayır bir an.

**Həvəs**, *is.* [ər.] 1. Bir şeylə məşğul olma, bir iş görmə arzusu; meyl, istək. Mənə çox görmədi zaman çalışıb yaşamaq həvəsini.. – Gözlərindən aşıb-daşan həyat həvəsi..

2. Nəşə, zövq. Sonsuz məhəbbət, sonsuz bir həvəs. – Bir həvəs məni hər dürlü matəmdən, qəmdən uçurdu.. – Nə çıxar bir anlıq yanan həvəsdən?

◊ Həvəsdən düşmək – bir işi görməyi daha istəməmək, marağı soyumaq, həvəsi olmamaq. ..Könlüm düşməz həvəsdən.. Həvəsə düşmək – həvəsi gəlmək, meyl etmək; həvəslənmək. Yüz həvəsə düşüb bəzən; Səyahətə çıxıram mən.

**Həvəslənmək**, *f.* Həvəsi gəlmək, meyl etmək,həvəsi oyanmaq, maraqlanmaq. Göy gülür, yer gülür, can həvəslənir. – Könüllər həvəslənir Təbiətin rənginə..

**Həvəsli**, *sif.* Bir şeyə və ya bir işə həvəsi olan, həvəs göstərən; meylli. İnqilab qüdrətli, günəş həvəsli..

**Həya**, *is.* [ər.] Abır, ar, ismət, utanma hissi. [Məryəm:] Hələ bir sən bunun həyasına bax! – Həyadan, ismətdən, namusdan kənar; Yüyürür Bəxtiyar gələn tərəfə..

**Həyalı**, *sif.* 1. Abırlı, ismətli, utancaq, Ağzı xeyirsözlü həyalı qızı..

2. *məc.* Başıaşağı, boynubükük. Bizim gəlin kimi həyalı sünbül..

**Həyasız**, *sif.* Abırsız, utanmaz, ədəbsiz, arsız; üzündə abır-həya olmayan. ..Həyasız, qansız insanlar.

**Həyat**, *is.* [ər.] 1. Materiyanın hərəkətinin müəyyən inkişaf mərhələsində əmələ gələn xüsusi forması; varlıq, dirilik. Bunları duyduqca, düşündükcə mən; Həyata, varlığa məftun oluram! – cahanda ən gözəl, məncə, həyatdır..

2. canlı vücudun törədiyi andan yox olana qədərki dövr; ömür. Humay həyatında birinci dəfə.. – Həyatdır, vaxt olur, xəstələnirik.. – Həyatla çarpışır ölüm üz-üzə.

3. Məişət, yaşayış qaydası. Sadə həyatdadır hər bəxtiyarlıq..

4. *məc.* canlanma, dirçəlmə; qaynaşma, qızğın fəaliyyət. O, fəhlə sinfinin həyat səsilə.. – Həyat sevir canlıları.

5. *məc.* İnsanda cismani və mənəvi qüvvələrin təzahürü. Həyat aşiqidir eşqi bilənlər. – Bir həyat şairi, bir yer övladı.

6. Bizi əhatə edən real vardıq. Zülm əlindən həyatdan bizar idi. – Həyat bizə nələr deyir: düşmən girir min dona..

◊ <u>Həyat vermək</u> – canlandırmaq, ruhlandırmaq. Həyat verir bir arzunun zümzüməsi. – Həyat vermiş bizim yurda. <u>Həyat yoldaşı</u> – daima yanında olan, əhatə edən. Dumanlı dağlardır həyat yoldaşın.. [Şuşanın] <u>Həyat nəğməsi</u> – həyatı tərənnüm edən şeir və s. Sevgilim istəyir həyat nəğməsi.. – Şüara döndükcə həyat nəğməsi.. <u>Həyat salmaq</u> – yurd salmaq, yaşayış məntəqəsi salmaq. Orada başqa bir həyat salınmış. <u>Həyat sönmək</u> – viran olmaq, yox olmaq; ölmək. Göylərin altında bir həyat sönür. <u>Həyat sulu bulaqlar</u> –

müalicəvi təsiri olan, həyat verən, canlandıran. Azərbaycan torpağının..; Həyat sulu bulaqları.. Həyat sürmək – yaşamaq, ömür sürmək. Sürmədim bir həyat canlı dünyada.. Həyata at(ıl)maq – valideyinin, böyüklərin himayəsindən çıxmaq, müstəqil yaşamaq. Həyata qanadsız atdılar məni. Həyata gəlmək – dünyaya gəlmək, doğulmaq. Həyata gəldiyi o gündən bəri; O küskün baxışlı qara gözləri. Həyata çağırmaq – inkişafa, quruculuğa çağırmaq. Həyata çağırır hər zaman bizi.

**Həyəcan**, *is.* [ər.] 1. Hər hansı bir səbəbdən doğan daxili təlaş, narahatlıq, təşviş, iztirab. Bu darğın qəlbimin həyəcanısan.. – Hisslərim, həyəcanım Həp onlara çırpınar.

2. Vəlvələ, çaxnaşma, küy. [Loğman:] Bir tufan yaratsın hər həyəcanı..

**Həyəcanlanmaq**, *f.* Həyəcana gəlmək, təşvişə düşmək. Yazığı dərd alıb, həyəcanlanır.

**Həyət**, *is.* [ər.] Adətən evin qabağında ətrafı hasar və ya başqa binaların divarları ilə əhatə olunmuş sahə. Həyətlər bomboşdur.. – [Gülzar:] Sonra da həyətdə çırpır örtünü..

**Həzərat**, *is.* [ər. həzrət söz cəmi] *köhn.* Həzrətlər, cənablar, ahalar. [Şapur:] Ağa, şah həzərəti buyurur, yəqin. – Badə götür, de «həzərat!»

**Həzin**, *sif.* [ər.] Hüzn gətirən, hüzndoğuran, hüznlü, kədərli, yanıqlı. Dinlədikcə tarın həzin səsini. – Həzin bir vəlvələ düşür otağa…

**Həzin-həzin**, *z.* Qəmli-qəmli, yanıqlı-yanıqlı, yavaş-yavaş. Həzin-həzin bu nəğmədən döyünürdü ürəklər.. – Bu acı xəbəri axıdan Araz; Axdı həzin-həzin ürəyində yas.

**Həzz**, *is.* [ər.]: □ həzz almaq – ləzzət almaq, zövq almaq, nəşələnmək, xoşlanmaq. Baxdı dönə-dönə həzlər alaraq. – ..O yerlər; Həzz alır insanın xoş nəfəsindən..

**Hicran**, *is.* [ər.] Ayrılıq, firqət, fəraq. [Banu:] Aman… Tablamayır qəlbim hicrana. – Yaman olur hicran dağı. □ Hicran xəstəsi – ayrılığa, hicrana tab gətirməyib xəstəliyə

düşən. Nə sən Leyli kimi hicran xəstəsi... Hicran çəkmək – ayrılıq çəkmək. Desələr ki, brilyant da hicran çəkir, saralır.

**Hicranlı**, *sif.* Ayrılıq çəkmiş, hicran çəkmiş. Könüllər zədəli və hicranlıdır.

**Hiddət**, *is.* [ər.] 1. Qəzəb, acıq, qeyz, hirs, sərtlik. Qamçısını döyür suya hiddətindən Gəray bəy.

2. Hiddətlə *şəklində. z.* Qeyzlə, sərtcəsinə. Kimə çəkmiş hücumunu o hiddətlə?

**Hifz**, *is.* [ər.] □ Hifz etmək – qorumaq, mühafizə etmək, qoruyub saxlamaq. Ulu Hürmüz! Onu sən hifz eylə!..

**Hikmət**, *is.* 1. Dərin fikir, dərin məna, müdriklik, dərinlik. Bu sözlərdə nə şeir var, nə də ki hikmət. – Gözlərim hər şeydə bir hikmət arar.

2. *məc.* Anlaşılmaz şey, sirr, müəmma. Bu röyada fəqət varmı bir hikmət?

3. Ağıl, zəka, düha. Ey cəbini* qərbin, sizdəsə əlbət; Hikmətin ən qorxunc aparatları.

4. Keçmişdə: təbiət elmlərinə verilən ad. Yad deyilik hikmətlərin mənasına.

5. Hikmətlə şəklində *z.* – ağılla, dərrakə ilə, müdrikliklə. ..Danış hər yerdə hikmətlə. // Ağır, ağır-ağır, ləyaqətlə. O nədir? Kimdir o, hikmətlə gələn?

**Hilal**, *is.* [ər.] aypara. Nifrəti var əski ulduz, hilala..

**Himləmək**, *f.* Birinə gözü, ya əli ilə işarə etmək, him eləmək; işarə, mimika ilə bildirmək. Göz atdım gözünə, himlədim bəri..

**Himn.** [*yun.*] 1. Dövlət və ya sinfi birlik rəmzi kimi qəbul olunmuş təntənəli mahnı. Sovet himni! Dalğalansın qadir səsin!

2. Birinin və ya bir hadisənin şərəfinə ifa edilən təntənəli musiqi əsəri; mədhiyyə, mədhnamə. Bir yeni himn yaz öz əllərinlə.

---

* cəbin – alın

**Hirs**, *is.* [ər.] Qəzəb, hiddət, acıq, qeyz. Hirsindən az qala.. Qədəhi.. başına çırpam. – Hirsindən alışıb yanırdı gözü. // *məc.* Köpüklü çayların hirsi azalır. □ Hirsə dolmaq – hirslənmək, hirsi tutmaq. Hərdən hirsə dolan kimi ürəyində kin saxlayır.. Hirsi odlanmaq – bərk hirslənmək, cinlənmək. Deyin, qəsbkarlar hökmünü siz də; Andıqca, hirsiniz çoxmu odlanır? Hirsi soyumaq – hirsi keçmək, qəzəbi keçmək; sakitləşmək. Yenə də hirsiniz soyumadımı?

**Hirslənmək**, *f.* Hiddətlənmək, qəzəblənmək, qızışmaq, acığı tutman. Gəray bəy hirslənib yerindən durur.

**Hirsli**, *sif.* və *z.* 1. Hiddətli, acıqlı, qəzəbli, hirslənmiş. coşur danışdıqca bu gün Muradxan; O qədər hirsli ki, gözündə vulkan.

2. *məc.* Şiddətli, coşğun, kəskin. Dinləyir suların hirsli səsini.. – Görürsənmi? O bulanır… O [Kür] hirslidir, o döyünür..

**His**, *is.* Yanan bir şeydən çıxan kəsif tüstü. Hisini çox udduq qaranlıqların. – ..Nə tüstü, nə his..

**Hisli**, *sif.* 1. His verən, yaxşı yanmayıb his eləyən; tüstülənən. Əlində bir hisli, bir qırıq fanar*. – Hisli buxarısı kömürdən qara..

2. His çəkmiş, his basmış, hisdən qaralmış. Hisli, nəmli, qaranlıq zirzəmilərdə yaşayan.. – Divarlar hislidir..

**Hisli-paslı**, *sif. dan.* His-pas basmış, hisli, çirkli. Gördün bizim kəndimizin hisli-paslı çırağını.. – ..Sarayların hisli-paslı divarları; Yenə düm ağ suvanacaq..

**Hiss**, *is.* [ər.] 1. Obyektiv aləmin hadisələrini qavrama, hiss etmə qabiliyyəti; duyğu. [Gəncliyin] Fikrində, hissində inqilab yarat.. – Vücuda sızmayır nə hiss, nə şüur.

□ Hiss etmək – duymaq, qavramaq. Əmirxan özü də hiss etdi bunu. Hissə qapılmaq – öz hisslərinə uymaq, tabe olmaq. – Yox, Cəlal, bu qədər hissə qapılmaq..

---

* fənər

2. *məc.* Sevgi, məhəbbət. Ondan ayrılmasın sənin hisslərin.. – Hisslərim, həyəcanım həp onlara çırpınar.

**Hissi-hörmət**, *is.* Hörmət, ehtiram, sayğı. Duyurdum hər gözdən bir hissi-hörmət.. – Anam bu səsdəki hissi-hörmətə..; cavab verməyərək evə tələsmiş..

**Hiylə**, *is.* [ər.] Kələk, fırıldaq, fənd, məkr. Onun.. gözlərində.. min tikanlı hiylə var..

◊ Hiylə qurmaq – biclik işlətmək, kələk qurmaq. Bəzən hiylə qurdu düşmən.. Hiylə yağır (sifətindən, üzündən, gözündən və s.). O fitnələr övladının hiylə yağır sifətindən.

**Hiyləsiz**, *sif.* Hiylə olmadan, hiylə işlətmədən; düz, doğru. Alqış o boyasız, rəngsiz üzünə! Alqış o hiyləsiz təmiz sözünə!

**Hıçqırıq**, *is.* 1. Səsini içinə alıb ağlarkən boğazından çıxan qırıq-qırıq səslər; hıçqırtı. Hər söz bir nalə, bir hıçqırıqdır… – Yalandan ağlayır o hıçqırıqla..

2. Diafraqmanın sıxılması nəticəsində qırtlaqdan qeyri-ixtiyari olaraq çıxan qırıq səslər. // Bəzən canvermə zamanı müşahidə olunur. Cahan qəmxanədir fəlsəfəsi son nəfəsi, Son hıçqırığını çəkmək üzrədir..

**Hıçqırmaq**, *f.* 1. Dərindən içini çəkərək ağlamaq, hıçqıra-hıçqıra ağlamaq. [Eloğlu:] Odur bax, hıçqırır onun da səsi.

2. *məc.* Əsən küləyin, axar çayın və s. hıçqırtıya oxşar səsin çıxarması. Bəzən də hıçqırır o [Araz çayı]

**Hırıltı**, *is.* Hırıldayan adamın çıxardığı səs. Nəşəni də, qüssəni də duymayanlar… Gözəl ömrü hırıltıyla verər bada.

**Hopmaq**,*f.* canına, içinə keçmək; sorulmaq. İsti qanlar yerə hopur.. – Hopduqca səhranın gövdəsinə su..

**Hoppanmaq**, *f.* Atlanmaq, tullanmaq, sıçramaq, atılmaq. Uşaqlar hoppanır od-alov üstündən.. – Hoppanırdım pişik təki..

**Hovuz**, *is.* [ər.] Su yığıb saxlamaq üçün daşdan və s. düzəldilmiş sututar; çarhovuz. Gözüylə seyr edir, zövq alır qəlbdən; Sərin hovuzlardan, fəvvarələrdən..

**Hökm**, *is.* [ər.] 1. Əmr, buyruq, sərəncam. Baş əysin hökmümə bütün Qarabağ! – [Xosrov:] Bu torpaqda mənəm hökmdar; Mənim də öz hökmüm, öz qanunum var!.. □ Hökm etmək (eləmək) 1) əmr etmək, buyurmaq, sərəncam vermək. Qanlı qılıncımla hökm edəm gərək. – İndi təbiətə hökm edir insan. 2) *məc* ağalıq etmək, hökmranlıq etmək, hökm sürmək. Çılğın dühalar ki, hökm edir qərbə.. Hökm sürmək – *bax* hökm etmək 2-ci mənada. Deyər: Mən hökm sürdükcə bir insan bəxtiyar olmaz.

2. *məc.* Güc, qüvvə, təsir. [Şahbaz:] Lakin məhəbbət hökmü yamandır. – Hər dövranın bir hökmü var.. // Qanunauyğunluq. Dolan bulud boşalacaq! – Bu hökmüdür təbiətin.

3. Məhkəmənin çıxardığı qərar. Kimin qanunu düzdürsə, onun hökmündə qüdrət var. // *məc.* Əmr, buyruq. Zamanın hökmüdür kamala yetmək!

□ Hökm vermək – işə baxdıqdan sonra məhkəmədə qərar çıxarmaq. Ölüm hökmü versin cahangirlərə. // *məc.* Amerika, hər qərarı, hökmü verən zaman olur. Ayrılıq hökmünü verəndən bəri. Hökm çıxarmaq – bax hökm vermək. Hakim kimi çıxardığı hökm ilə durur. Hökmünü yazmaq – qərar çıxarmaq. Hökmünü vaxtında yazdı zamanın.

◊ Hökmünü qurşundan tökmən – əmri, qərarı qəti olmaq; mütləq həyata keçmək. Günlər öz hökmünü qurşundan tökür. Hökmünü göstərmək – öz gücünü, nüfuzunu; hökmünü nümayiş etmək. Hökmünü göstərib göyə doyunca..

**Hökmdar**, *is.* [ər. hökm və *fars.* …dar] Padşah, şah, hakim. [camaat:] Razıyıq.. razıyıq.. olsun hökmdar. – Buyruq sizinkidir, adil hökmdar.. – Of… o qanlı hökmdar!..

**Hökmi-əzəl**, *is.* Allah tərəfindən verilən tale, qismət. [Loğman:] Belədir dünyanın hökmi-əzəli. – Sən oldun qismətim hökmi-əzəldən.

**Hökmran** [*ər.* hökm və *fars.* …ran] *bax* Hökmdar. [Məryəm:] Bəli, İrandır! Ərim də ən böyük bir hökmrandır.

**Hökmranlıq**, *is.* Hakimiyyət; padşahlıq, şahlıq. [Xosrov:] Nə verdi Xosrova bu hökmranlıq?

**Hökumət**, *is.* [ər.] Dövlət hakimiyyətinin, dövləti bilavasitə idarə edən icraedici və sərəncamverici orqanı. – *sif. mənasında.* Hökumətə aid olan. Tanıyın.. hökumət atlarını.. satan.. Şirəlini.

**Hönkür(ə)-hönkür(ə)**, *z.* Səslə, hönkürtü ilə, hıçqıra-hıçqıra (ağlamaq, qışqırmaq). Hələ ağlayır da o hönkür-hönkür.. // *məc.* Hönkürtüyə oxşar səs çıxartmaq (külək, çay haqqında). Bəzən də hıçqırır o [Araz çayı] hönkür-hönkür.

**Hönkürmək**, *f.* Hönkürtü ilə, səslə ağlamaq. Görürkən yuxuda qaçaq babamı; Hönkürüb ağlaram əlimdə yaylıq…

**Hörmək:** ilham hörmək – ilhama gəlmək, ilham tapmaq, ilhamlanmaq. O qızın saçından mən ilham hördüm.

**Hörmət**, *is.* [ər.] 1. Böyüklərə, yaşlılara və ya ləyaqətinə, xidmətinə görə birinə göstərilən ehtiram, sayğı. Kəndistan yerində çox hörməti var. – Salonu doldurur alqış və hörmət.

2. Şərəf, şan, heysiyyət. Bizdə şeir də var, sənət də vardır! Şairə, sənətə hörmət də vardır!

3. Güzəşt, mərhəmət, iltifat, xətir. Qocaları hörmət görən bizim həyatdır!

4. Hörmətlə *şəklində z.* – hörmət edərək, ehtiramla, sayğı ilə. Hörmətlə sıxıram əllərinizi. – [Şapur:] Siz onu hörmətlə, qəlblə dinləyin!

◊ Hörmətdən düşmək – hörmətini, nüfuzunu, etibarını itirmək. Bir mələk olsa da ağılsız bəşər; Yüzillik hörmətdən bir gündə düşər. Hörmətin çox (artıq) olsun! – təşəkkür etmək üçün işlənir. [Səhər:] Hörmətin çox olsun, filosof yoldaş!

**Hörük**, *is.* 1. Hörülmüş qadın saçı; hörmə. Qız! Gözəl olmağa gözəlsən şəksiz, Ancaq hörüklərin indi gərəksiz.. – Uzun hörüklərlə topuğa sarı; Yellənə-yellənə dalğalanırdı..

2. Otlamaq üçün buraxılan heyvanın uzağa qaçmamaq üçün ayağından bağlanan ip. Arabir kişnəyir hörükdəki at.

– Bir səhər tezdən [maydanın] hörüyünü dəyişməyə qalxdım.

**Hörüklü**, *sif.* Hörüyü 1-ci mənada olan, saçı hörülmüş. Hörüklü saçları iki qatardır..

**Hörümçək**, *is.* Özünə yem olan həşəratı tutmaq üçün tor toxuyan buğumayaqlı böcək. Pul azarı hörümçək tək torlar toxuyub. – [Daxmanın] Kərəni, pərdisi hörümçək toru..

**Hövsələ**, *is.* Səbir, dözüm, dözmə. Bir az hövsələniz olmasa sakin; Yenə də günahsız qanlar axacaq.. □ Hövsələsi dar – hövsələsiz; tez özündən çıxan; cırtqoz. Özü lovğa, biliyi az, hövsələsi dar..

**Höyüş**, *sif.* və *is.* Bir qədər yaş, nəm, nəmçəkmiş, nəmli. İnsanlar bezikib cana dayandı! Qurunun oduna höyüş də yandı.

**Huri**, *is.* [ər.] Əsl mənasında «cənnət qızı» olub, klassik şeirdə təşbeh yolu ilə gözəlin epitetlərindən biri kimi işlənir. Dedin ki, hurilər çatmaz köməyə.. – Bizim qızlar ..nə huridir, nə də pəri.

**Huş**, *is.* [*fars.*] 1. Diqqət, fikir. Lakin müəllim.. [uşağın] dağınıq huş.. səbəbini araşdırmadan uşağa sadəcə «tənbəl», «zəkasız» deyə ad verir. □ Huşunu aparmaq – diqqətini cəlb etmək. ..Dağıdır huşumu alır başımdan.

2. Yaddaş, hafizə. Düşərgə axtarır huşum, diqqətim.

**Hücrə**, *is.* [ər.] Məscid, təkyə, karvansara və s. yanındakı kiçik otaqlardan hər biri. Ətrafdakı kiçik-kiçik hücrələrə; Saray əhli toplaşarmış yığın-yığın.

**Hücum**, *is.* [ər.] 1. İrəliləmək məqsədilə qoşunların düşmənə qarşı apardığı hərbi əməliyyat; həmlə. Hücuma hazırdır Məhəmməd Qacar. – Hücuma toplasın bütün əsgəri! – Mən hücumdan geri qalsam! □ Hücum çəkmək – 1) həmlə etmək. Düşmən üstünə..; Hücum çəkərək; Zəfər çalmış.. 2) bir şeyin və ya bir şəxsin üzərinə yürümək, üstünə cummaq. Fotoqraflar hücum çəkir dörd bir tərəfdən. // birdən üstünə atılmaq. Yadındamı, bəzən üzüyuxarı sən; Gedən vaxtda hücum çəkir sənə külək. Hücuma başlamaq –

*bax* hücuma keçmək. Hücuma başlayır mənim söz ordum. Hücuma keçmək – birinə, və ya nəyə qarşı müdafiədən hücuma keçmək. Keç, qələmim, hücumlara!

2. *məc.* Sıçrayış, atılma, hücum etmə. Pələng nərə çəkər hücumdan qabaq..

3. İttihamla yaxud qərəzlə birinin üstünə düşmə. Bu dostların hücumunu çox görmüşəm mən..

◊ Hücum borusu – hücum siqnalı mənasında. Toxunub dağlara qayıdır yenə Sərhəd boyundakı hücum borusu..

**Hüdud**, *is.* [ər.] 1. Sərhəd. Vaxta ki, bu hüdud, bu sərhəd vardır; Ömür dedikləri röyaya bənzər. – Onun [Xəyalının] nə hüdudu, nə silqəti var.

2. Hədd, ölçü, hədd-hüdud. Hüdudu var hər ağrının, hər işgəncənin; Külək yatır, qar dayanır, açılır səhər.

**Hüdudsuz**, *sif.* Həddi-hüdudu olmayan, ucsuz-bucaqsız, sonsuz. Şair xəyalı tək hüdudsuz çöllər..

**Hüquq**, *is.* [ər.] dövlət qanunları ilə verilən azadlıq, imkan, ixtiyar. Artıq hüququnuz tapdalanmasın.

**Hüquqsuzluq**, *is.* Siyasi və ictimai hüququn olmadığı hal. Əsarət və hüquqsuzluq görməmiş sovet gəncliyi..

**Hündürboy**, *sif.* Boyu hündür olan, ucaboy. Bu əsgər, bu yürüş, bu hündürboy at..

**Hünər**, *is.* 1. Bacarıq, məharət, ustalıq, fərasət. Böyük bir hünərin yoxsa da bu gün. – Bir dəniz olsa da mənim hünərim.. – Bu hünərlə yaşamağa yer üzündə yerim varmı?

□ Hünər göstərmək – öz ustalığını, məharətini, bacarığını nümayiş etdirmək. İndi hünər göstərməyə Göy üzü var, yer altı var… – Göstər bu meydanda yeni bir hünər..

2. Rəşadət, şücaət, igidlik, qoçaqlıq, fədakarlıq. Hünər çəkilməyir paslı bir qına.. – Qəfəsdə bağlanıb qalarmı hünər? – Gözündə nur kimi rəqs edir hünər. □ Hünər göstərmək – qəhrəmanlıq etmək, qoçaqlıq, igidlik göstərmək. Oğlum bu gün cəbhədədir, nərə çəkir bir nər kimi; Mənim gənclik illərimdə göstərdiyim hünər kimi.

3. Sənətkarlır, ustalıq, istedad. İnsanın şöhrəti hünərdir, işdir.

◊ Hünər evi – hünərlilik, hünər. Onsuz [Nizamisiz] hünər evi güşad olmazdı. Hünər çiçək açmaq – qeyrətə gəlmək, cəsarətə gəlmək, ürəklənmək; hünərlənmək. Hünər çiçək açdı ilk bahar kimi..

**Hünərli**, *sif.* və *is.* Qoçaq, igid, cəsur. [İslam] Yenə hünərlisi bunun tək olur.

**Hünərlik**, *is. bax* Hünər, hünərlilik. Yaşadır vicdanın qadir səsini; Özündən neçə qat çox hünərliyə..

**Hünərsiz**, *sif.* Hünəri olmayan, hünəri çatışmayan, hünər göstərə bilməyən. Hünərsiz millətin yurdu günəşsiz bir qaranlıqdır. // *is.* mənasında. Qoy utansın.. hünərsizlər!..

**Hürküşmək**, *f.* Hürkmək, qorxmaq, ürküşmək (çoxları haqqında). Quşlar da hürküşüb birdən uçuşdu.

**Hürmək**, *f. məc. kob.* Söyləmək, yava danışmaq. Avropanın, Asyanın köpəkləri hürdülər..

**Hürriyyət**, *is.* [ər.] Azadlıq. Mən ilk eşqim – hürriyyətə səs verirəm!

**Hüsn(i)-kəlam**, *is.* [ər.] Gözəl, mənalı söz. Yox… yox… hüsni-kəlam Vaqifdə vardır..

**Hüsn**, *is.* [ər.] 1. Gözəllik. Heyrandır hüsnünə [Qafqazın] Kazbek, Ararat.. – Hüsnün ciyərimi yaxıb-yandırır.

2. Gözəl üz, camal. Xəyalım hüsnünü [camalını] ziyarət edir. – Öz hüsnünə dönə-dönə baxır vüqarla. // Sifət, üz. Surəti peyğəmbər, hüsnü pürvüqar; Bir qoca.. – [Şahbaz:] Hüsnünü açdıqca o gözəl pəri.. – Öz əli, öz hüsnü, öz ixtiyarı.. // *məc.* Hüsnü [Ayın] salamlayır pəncərələri! – ..Örtməsin o dilbər hüsnünü duman [Dağların] □ Hüsnünü dəyişmək – görkəmini dəyişmək. Dəyişir hüsnünü aylar, fəsillər.

**Hüsn-camal**, *is.* [ər.] Gözəl üz, gözəl sifət. [Şahbaz:] Bir mələk olsa da hüsn-camalın..

**Hüsn-hörmət**, *is.* [ər.] Dərin hörmət, böyük hörmət. Onun hər sətrinə mən də baş əydim hüsn-hörmətlə.

**Hüzn**, *is.* [ər.] Kədər, qəm, qüssə. İvanovun poemasında Nəsiminin gözəl və hüznlə dolu həyatı təsvir olunmuşdur.

**Hüzur**, *is.* [ər.] 1. Ön, qabaq. O vaxt gəlib keçəcəkdir hüzurundan saymazyana. – Xanın hüzurunda nə ölümü var? □ Hüzuruna gəlmək – yanına, qabağına gəlmək. [Şapur:] Salam gətirmişəm Xosrovdan sizə; Şah gəlmək istəyir hüzurunuza. – Demişdim ki, gələcəyəm hüzuruna.

2. Şəxsiyyət mənasında. Salam göndərirəm hüzuruna mən.. – Şahim! Bağışlayın, hüzurunuza.

# X

**Xab(i),** *is.* [*fars.*] Uyqu. Böylə bir xabidə bulmuşdum rahət..

**Xaç**, *is.* Xaçpərəstliyin (xristian dini)1 rəmzi. Gecələr döşünə xaç taxanların; Canını bir qara üşütmə kəsdi.

**Xaçlı**, *sif.* Xaçı olan. Qədim-qədim kilsələrin xaçlı qülləsi..

**Xain**, *sif.* və *is.* [ər.] 1. Vətəninə, xalqına xəyanət edən, xəyanətkar, müxənnət, satqın, dönük. Durun! Mən deyiləm vətən xaini..

2. *məc.* Etibarsız, xəbis, qəlbiqara. Çox da öyünməsin xain ingilis.. – Qoy olsun yamanlıq, o xain iblis!..

**Xaqan**, *is.* *tar* və *köhn.* Hökmdar. Şəni-şöhrət keçirən xaqanlar..

**Xal¹**, *is.* Dərinin rəngindən seçilən piqmentasiyaya uğramış anadangəlmə qabarıq ləkəcik. Çənədəcə xalın da var.

**Xal²**, *is.* Nəqş, bəzək. □ Xal(lar) vurmaq – cuşa gəlmək, şura gəlmək. Ortada qışqırıb bir xal da vurdun.. – O gün şeyda bülbül xallar vururdu.. – Könül xallar vurur bəzənəndə siz!

**Xala**, *is.* 1. Övlad üçün ananın bacısı. Çıxdı yadından birdəfəlik Tükəzban xalan?

2. Yaşlı qadına müraciət məqamında işlənir. Çox sağ ol, çox sağ ol, Əminə xala!

**Xalça**, *is.* Naxışlı (xallı) xovlu toxunma yun (eləcə də iplikli) döşənəcək. Çinarların kölgəsində xalça salıb məclis quraq.

**Xal-xal**, *sif.* Ala-bula, alabəzək, əlvan, rəngbərəng. Səyyar buludların rəngi xal-xaldır.

**Xalı**, *is.* Böyük xalça. Mərmər döşəmələr üstə xalılar..

**Xaliqi-sübhan**. Yaradan, tanrı. Səndən razı qalar xaliqi-sübhan…

**Xalq**, *is.* [ər.] Ölkənin əhalisi, millət. Bütün xalqlar və tayfalar ona qulaq asacaqdır.

**Xallı**, *sif.* Nəqşli. Bizim xallı xalçalardan Sər çinarlar kölgəsinə..

**Xaltura**, *is.* [rus.] Ləyaqətsiz, qabiliyyətsiz, səliqəsiz, başdansovma görülmüş və keyfiyyətsiz iş. Sevmədim onların sənət adına xaltura yaratmasını..

**Xan**, *is. tar.* 1. Feodal hakim titulu olub bu titulu daşıyan şəxs. Səni vəzirlikdən qovlayacaq xan! – Nə bəydə insaf var, nə xanda qan var.

2. Kişi adının sonunda işlənərək feodal zadəganlığa mənsubluğu bildirir. Şair, Cavad xanın adamıyıq biz..

**Xancal**, *is.* [*fars.*] *dan.* Xəncər, sivriuclu ikiağızlı soyuq silah. Gəray bəy arxadan, əlində xancal..

**Xanəndə**, *is.* [*fars.*] Peşəkar müğənni. ..xanəndəmiz əlində qaval..

**Xanım**, *is.* Qadın adından sonra işlədildikdə hörmət və nəzakətlilik bildirir. Görünsə gözünə o Dürrə xanım; De ki, Vurğun gədalara dönübdür.

**Xaniman**, *is.* [*fars.*] 1. Ev. ..bəlkə də od içində.. Söndürürsən.. bir xanimanı.

2. *məc.* Yaşama, mövcudluq, varlıq yeri, sığınacaq yurdu, yuvası, məskəni. Uçdu könlüm xanimanı…

**Xanımlıq**, *is.* Xanım-xatın olma, alicənablıq, nəciblik, qadınlıq gözəlliyi. Xanımlığınla məşhuri-cahansan..

**Xanlıq**, *is.* Xanın imarəti. Eloğlu da nağıl deyir xanlığın eyvanında..

**Xar**, *sif.* [*fars.*] Zəlil, həqir, bədbəxt. Əsrlərdən bəri ömrü xar idi. □ Xar olmaq – rüsvay olmaq, pis günə qalmaq. Xar olmuşdur neçə ləşkər, neçə ordu. – Bu ellər baş əyib xar ola bilməz.

**Xara**, *is.* Özündən naxışları olan ipək parçadan tikilmiş paltar. Bəzən şal geyirəm, bəzən də xara!

**Xarab**, *sif.* [ər.] Pis, yaman, fəna. Vəziyyət xarabdır, yol göstər mana!

**Xaraba**, *sif.* [ər.] Viran. □ Xaraba qoymaq – viran qoymaq (etmək), dağıtmaq, xaraba-zara döndərmək. Xaraba qoymayın bu obaları!

**Xarabazar**, *is.* [ər. və *fars.*] *klas.* Xarabalıq, viranəlik. ..Gülşən olur min xarabazar.

**Xata**, *is.* [ər.] 1. Xəta, qələt, səhv. Qələt eləmişəm, bir xatadır bu..

2. Təhlükə, xətər, fəlakət, bəla. Bəlkə bir xata var onun başında?

**Xatir**, *is.* [ər.] Yaddaş, zehin. Mənasız gözəllik xatirdə qalmaz.. □ Xatirə salmaq – yada salmaq, yad etmək, anmaq. O qara keçmişi xatirə saldım.. – Sən ikinci nəğməmizi xatirə sal! Xatirinə düşmək – yadına düşmək. Yenə xatirinə düşdü cəbhələr… Xatirinə gəlmək – xatırlamaq. Gəlir xatirinə qərib bir axşam..

**Xatirat**, *is.* [ər.] Xatirələr. ..ən şirin bir xatiratla İslamı yad edir tanışlar..

**Xatirə**, *is.* [ər.] Yadda qalan şey, hadisə. ..Xoş xatirə.. təsəllidir.. – ..Şer dostu bir insandan Bir xatirə söylədilər…

**Xatirəsiz**, *z.* Xatırlanmadan, anılmadan, yad edilmədən. Sənin şerin xatirəsiz keçə bilməz.

**Xatırlamaq**, *f.* Yada salmaq, xatirə gətirmək. ..O viran bağı Xatırlamazmısan..?

**Xatırlatmaq**, *f.* Andırmaq. Mənə xatırladır o zamanları..

**Xayır**, *əd.* [ər.] Xeyr, yox. Xayır! Aldanma, əziz arkadaşım..

**Xeyir**, *is.* [ər.] 1. Fayda, mənfəət. Yoxsula bir xeyir çıxmadı bundan.

2. Yaxşı, yaxşılıq, müsbətlik. İnsandır ayıraq xeyiri şərdən… – Düşmən olub qalmayacaq tarix boyu xeyirlə şər..

3. Xoş, ürəkaçan, sevindirici, şad. [Xosrov:] Xeyir söz çıxmayır sənin dilindən. – Xeyir xəbər aparacaq..

◊ <u>Xeyir iş</u> – izdivac, nişanlama (nişanlanma), toy-düyün. Oğlum! Xeyir işin olsun mübarək.. Gecəniz xeyrə qalsın! – axşam vidalaşarkən deyilən ifadədir ki, xoş arzu, sağ-salamatlıq diləyi bildirir.

**Xeyir-dua**, *is.* [ər.] Səadət, uğur diləyi. □ <u>Xeyir-dua vermək (demək)</u> – xoşbəxtlik, uğurlar diləmək. Xeyir-dua versin Azərbaycana O ana qəlbinin saf məhəbbəti! – ..analar xeyir-dua demiş sənə hər zaman.

**Xeyir-duaçı**, *is.* Xeyirxah, duaçı, minnətdar. Sizə xeyir-duaçıyıq..

**Xeyirxah**, *sif.* [ər. və *fars.*] Xeyir-dua verən. Onun da xeyirxah dilində ellər.. // Qayğıkeş. Qocalar dən səpdi xeyirxah əllə.

**Xeyirxahlıq**, *is.* Yaxşılıq. ..Xeyirxahlıq qalacaq elçin!

**Xeyirsözlü**, *sif.* Xoşsöz. Ağzı xeyirsözlü..

**Xeyir-şər**, *is.* [ər.] Toy və yas mərasimləri. Tez-tez görünərdi xeyirdə-şərdə..

◊ <u>Xeyrə-şərə yaramaz</u> – başqasının sevincinə və kədərinə laqeydlik göstərən qanısoyuq adam. Xeyrə-şərə yaramaz… xeylağı. Mənsubiyyəti, təəllüqü bildirir. Arvad xeylağıdır, özü də qızdır…

**Xeyli**, *sif.* və *z.* 1. Çox-çox. İşıqdan, insandan xeyli aralı.. – Vəzir, xeyir işiniz xeyli mübarək.

2. Uzun. Hardasan, can bala, xeyli zamandır? – Deyib danışmayır xeyli zamandır. // Uzun müddət. Əyildin şahlara, xanlara xeyli..

3. Olduqca, dedikcə. Mən indi bildim ki, xeyli ağırdır Dünyanı düşünən bir şair olmaq!

**Xeyr**, *əd.* [ər.] 1. Mənfi cavab bildirir (yox). Xeyr, Qarabağdan yoxdur bir xəbər.

2. Etiraz səsini qüvvətləndirən inkar ifadə edir. Xeyr, yumulmamış zamanın gözü..

**Xəbər**, *is.* [ər.] məlumat. Vaqifdən gəlməyir təzə bir xəbər. □ Xəbər almaq – soruşmaq. Əhvalını bəzən xəbər almalıyıq. – ..Kəklikli daşlardan xəbər al məni. Xəbər vermək – bildirmək, danışaraq çatdırmaq. Bizə xəbər verir tarixlər bunu.. – İndi sizə alimlərdən xəbər verim. Xəbər tutmaq – soruşub öyrənmək, agah olmaq. [Fərhad:] Yenə də tutmadım ondan bir xəbər.

**Xəbərdar**, *sif.* [ər. və *fars.*] Agah. ..Özüm xəbərdaram… □ Xəbərdar eləmək – agah etmək, bildirmək, çatdırmaq. Xəbərdar eləyin sərkərdələri.. Hücuma toplasın bütün əsgəri.

**Xəcalət**, *is.* [ər.] Utanma, ar, həya. □ Xəcalət çəkmək – ar etmək, həya etmək, utanmaq. Siz satdınız maralı; Mən çəkirəm xəcalət.

**Xəfif-xəfif**, *z.* Xəfifcə, xəfifcəsinə, yüngülcə, zəifcə. Xəfir-xəfir əsən külək..

**Xələt**, *is.* [ər.] Bəxşiş. Xələtlər vermişəm hər cahangirə…

**Xəlvət**, *is., sif.* və *z.* [ər.] Gizli, gizlin, məxfi, gizlicə. Xəlvət ağı qatdı xörəyimizə.. – Xəlvətdəsə ona, buna; Ləkə yaxar..

**Xəlvətcə**, *z.* Gizlicə, xəlvəti. Xəlvətcə arxama dolanıb..

**Xəncər**, *is.* [*fars.*] Sivriuclu ikiağızlı soyuq silah. □ Xəncər kimi – kəskin ruhi ağrı verərək. [Səhər:] Qüssə xəncər kimi bağrımı dəlir.. – Ürəyimdən xəncər kimi keçdi bu səs!

**Xəncərağızlı**, *sif.* Sivriuclu ikiağızlı. Bir odlu vulkandan yadigarmıdır; O xəncərağızlı daş çalpaları..

**Xəndan**, *sif.* [*fars.*] *klas.* Gülər, şən. Xəndan çöhrəsindən nurlar saçılsın..

**Xəraba**, *is.* [ər.] Xarabalıq. Bir cənnətə dönəcəkdir.. xərabələr.

**Xərac**, *is.* [ər.] bac. Mənə xərac verdi bütün ölkələr.

**Xərcləmək**, *f.* Məsrəf etmək. O nə qədər xərcləsə də, yenə cibi doludur.

**Xəritə**, *is.* [ər.] 1. Coğrafi təsvir. Dəyişir dünyanın ilk xəritəsi.

2. Sxem. Şeirimiz oxşayır biri-birinə… Eyni xəritələr, eyni şəkillər..

**Xəsis**, *sif.* və *is.* Simic, dargöz. O, xəsis görəndə əzrail olur..

**Xəstə**, *sif.* və *is.* [*fars.*] 1. Azarlı, naxoş, bimar. Xəstəmiz tərpənir gülümsəyərək.. – «..Yoxsa bu yaradan xəstə sağalmaz».

☐ Xəstə düşmək – xəstələnmək, azarlamaq, naxoşlamaq. İşıq yolda göz yorulmaz, Xəstə düşməz əsəblər də.

2. Xarab, korlanmış, ölgün. Xəstə yarpaq kimi ovxalan, tökül! – Xəstədir ağalar, qullar dünyası.

3. *məc.* Müztərib. A dostlar, baxınız, bir xəstəyəm mən.. – Bu xəstə Vurğunun dərdi azalmaz…

**Xəstəgan**, *sif.* Xəstəməzac. Həsrətin çəkməkdən xəstəgan oldum..

**Xəstəhal**, *sif.* [*fars.* və ər.] Kefsiz, nasaz, əzgin. Bir axşam darğındım, həm də xəstəhal..

**Xəstəxana**, *is.* [*fars.*] Stasionar müalicə müəssisəsi, müalicəxana. Bu gün şəndir xəstəxana..

**Xəstələnmək**, *f.* Naxoşlamaq, azarlamaq. Həyatdır, vaxt olur, xəstələnirik..

**Xəstəlik**, *is.* 1. Azar. [Azər baba:] Get, ulu Hürmüzə yalvar ki, bir də; Ölüm və xəstəlik olmasın yerdə.

2. Aludəlik, mübtəlalıq. Onda bu xəstəlik bir adət olmuş..

**Xəşəm**, *is.* *zool.* Karp (sazan) fəsiləsindən olub kütüm (ziyad) balığı qədər ləzzətli balıq. ..Yağlı xəşəm, Salyandadır bu nemətim.

**Xəta**, *is.* [ər.] Xata, bəla, fəlakət, bədbəxt hadisə. Cəlalın başında xəta var..

**Xətər**, *is.* [ər.] Ziyan, zərər. □ Xətər gəlmək – ziyan dəymək, bədbəxtlik üz vermək. Xətər gəlməyəcək sənin halına..

**Xətt**, *is.* [ər.] 1. Cızıq, cizgi. Yüz xətt bölür hər ümmanı, hər kiçik çayı.

2. Cərəyanı nəql edən məftil, kabel qurğusu. İşıq xətlərini mən qurmadımmı?

**Xəyal**, *is.* [ər.] 1. Təxəyyül, xəyalət, xülya, fantaziya. Xəyal idrakla bir yerdə gəlib.. – Xəyalında məclis qurur saf arzularla. – Bəlkə ömür bir xəyaldır? – Xəyal deyil, röya deyil gələcəyin, o aləmin…

2. Kabus, kölgə, xəyali surət. ..pəncərəsindən; Baxar üfüqlərə sanki bir xəyal.

3. Ağıl, fikir, düşüncə. Necədir bu işə xəyalın sənin? – Xuraman, gör nəyin xəyalındasan! □ Xəyala varmaq (qərq olmaq, dalmaq, getmək) – fikrə getmək. Mən bu sətirləri yazdığım zaman Aybəniz yanımda xəyala vardı. – Xəyala da o qərq olur bir insan kimi. – Neçin bu qədər xəyala dalır? – Özü də bilmədən xəyala getdi. Xəyalına gəlmək – anılmaq, xatırlanmaq. Xəyalıma qara dövranlar gəlir.. Xəyalına gətirmək – düşünmək, yada salmaq. Onu heç gətirmə sən xəyalına..

**Xəyalat**, *is.* [ər.] Xəyalət, xəyal, xülya; fantaziya. Səfasız bir xəyalatdır hünərsiz bir həqiqət..

**Xəyalən**, *z.* Fikrən, zehnən. Onu məhv etdi xəyalən bəşəriyyət.

**Xəyalətsiz**, *sif.* və *z.* Xəyallara varmadan. ..Xəyalətsiz keçiririk günlərimizi…

**Xəyalpərvər**, *sif.* [ər. və *fars.*] Xəyalpərəst, xəyalçı, xülyaçı, düşüncələrə qapılmağı sevən. O çox mütəfəkkir, çox xəyalpərvər..

**Xəyalplov**, *is.* Xülya. Sizə şirin gəlir xəyalplovlar.

**Xəyanət**,*is.* [ər.] xainlik, dönüklük, namərdlik. Etibarsız.. keçən ömür Xəyanətdən ilham alan şərəfsizə xoş görünür. – Yer üzündə nə xəyanət, nə də iblis qalacaqdır..

**Xəzan**, *is.* [*fars.*] 1. Payız. Sardımı çöhrəni xəzan soyuğu?

2. Payız küləyi. Əsdi xəzan, düşdü yarpaq. – Xəzan əsdi, soldu barım..

**Xəzəl**, *is.* Payızda saralıb tökülən quru yarpaqlar. Sapsarıdır ağacların; Xəzəl olmuş yarpaqları.

**Xəzinə**, *is.* [ər.] Maddi və mənəvi mədəniyyət sərvətləri. Ağzı qıfıllanmış xəzinələri. İnsana qaytarır insan əlləri… – Hər böyük dühanın xəzinəsindən; Sadə bir inci də dövlətdir bizə.

**Xəzri**, *is.* Abşeronda şiddətli şimal küləyi. Gözünü yummayır xəzri əsəndə.

**Xilas**, *is.* [ər.] Nicat, qurtuluş. □ Xilas etmək – qurtarmaq, azad etmək. Xilas et bu darğın qəlbi möhnətdən.. Xilas olmaq – qurtulmaq, nicat tapmaq, canını qurtarmaq. Ölümlərdən xilas olmuş neçə insan!

**Xilaskar**, *sif.* və *is.* [ər. və *fars.*] Xilas edən. Gələcəkmi xilaskarlar?

**Xilaskarlıq**, *is.* Xilas etmə, nicat vermə. Sənin.. bayrağını ilk andırır xilaskarlıq..

**Xilqət**, *is.* [ər.] 1. Yaradılış, varlıq, mövcudat. Şikayətçi idim, bəlkə, xilqətdən.. – Günəştək nurə qərq olmuş bütün xilqət!

2. Vücud. O gözəl xilqətin nəydi vərdişi?

**Xına**, *is.* [ər.] Hənə, boyama maddəsi. Gedək, xına qoyaq əllərimizə..

**Xınalamaq**, *f.* Xına qoymaq. Bığlarını xınalayıb..

**Xınalanmaq**, *f.* Xına yaxılmaq. ..Əllər.. xınalanmış..

**Xınalı**, *sif.* Xına rəngində (sarımtraq-qırmızılı) olan. Muğan düzündəki xınalı kəklik..

**Xırda**, *sif.* Kiçik, balaca. Xırda hərflərlə yazılsın adım.

**Xırdaca**, *sif.* 1. Kiçikcə, nazikcə, bambalaca. Oynayır xırdaca əllər, ayaqlar..

2. Cüzi, əhəmiyyətsiz. Ən xırdaca nöqsanı da bəzən danırıq.

**Xırdaca-xırdaca**, *z.* Mürurla, balaca-balaca. Xırdaca-xırdaca yağar yağışlar..

**Xırda-xuruş**, *sif.* Əhəmiyyətsiz, boş. Tənqidçilər deməsin ki, burda qələm; Vaxt itirir xırda-xuruş təsvirlərə.

**Xırıltıyla**, *z.* Xırıltılı səslə, xırt eləyib. Körpü xırıltıyla qopdu yerindən.

**Xırman**, *is.* [*fars.*] Dəni sünbüldən ayırmaq üçün taxılı döymə, sovurma və qurutma əməliyyatı aparılan dairəvi meydança. Tökülsün xırmana çöllərin varı..

**Xısın-xısın**, *z.* Xıs-xıs, altdan-altdan. Qızlar xısın-xısın baxıb gülərdi.

**Xış**, *is.* İbtidai şumlama aləti (ağacdan düzəldilir). Getdi əlimizdən öküz də, xış da.. – Gördün.. ağac xışı..

**Xışıldamaq**, *f.* Xış-xış eləmək. Azca xışıldasa ağacda yarpaq.. – Xışıldayır dəniz kimi sıx-sıx çərkəzlər.

**Xof**, *is.* [ər.] Qorxu. ☐ Xofa düşmək – xoflanmaq. Niyə düşmən xofa düşüb?..

**Xonça**, *is.* İçində şirniyyat, xuşgəbər, eləcə də nişan şeyləri olan bəzəkli sini, məcməyi. Xonçalar bəzənir rəngbərəng şamla.

**Xor: xor baxmaq** – həqarətlə baxmaq, etinasızlıqla yanaşmaq, laqeyd münasibət bəsləmək. ..Sənmi xor baxırsan mənim şeir dilimə?

**Xortumlu**, *sif.* Xortumu olan. ..Fil xortumlu dəhşətli toplar..

**Xorul-xorul**, *z.* Xorhaxor. Cərgəmizə soxulmasın xorul-xorul yatanlar..

**Xoruz**, *is.* Toyuğun erkəyi. Xoruz dalaşdırar, qoç döyüşdürər..

**Xoruzbeçə**, *is.* Cavan xoruz, çolpa. Doymaq olmaz orda xoruzbeçədən..

**Xoş**, *sif.* və *z.* [*fars.*] 1. Ürəyəyatan, bəyənilən, səfalı, ləzzət verən. ..Yay gününün xoş səhəri.. – Ey könül! ..Can

evindən seyrə çıx bir xoş güzarın eşqinə. – Xoşdur ağacların sərin kölgəsi. // Şirin. Nə xoşdur vüsal dəmi.

2. Yaxşı, gözəl. «Xoş yaşasın ana yurdun qız-gəlini». – Etibarsız.. keçən ömür.. şərəfsizə xoş görünür. // Mehriban, ürəkaçan. Bir duman görməsin xoş sifətiniz!.. – ..O yerlər Həzz alır insanın xoş nəfəsindən. // Sevindirici, ruhlandırıcı. Xoş xəbər gətirib gəlmişik sizə. – Ağır gündə xoş xatirə.. Təsəllidir…

◊ Xoş getməz Allaha – günahdır, pis işdir. Yox… xoş getməz bu Allaha.. Xoş gəlmisən! Xoş gördük! – mehribancasına görüşüb salamlaşma zamanı işlənən ifadələrdir. Vaqif, xoş gəlmisən, üzünü görək! – Xoş gördük, Əminə bacı!

**Xoşbaxışlı**, *sif.* Xoşsifətli, iltifatlı. Xoşbaxışlı bir günəşin gülüşündən ayrılmısan.

**Xoşbəxt**, *sif.* [*fars.*] Bəxtiyar, bəxtəvər, bəxtli, taleli, səadətli, məsud, uğurlu. Eşqin, məhəbbətin xoşbəxt günləri.. – Nə xoşbəxt açılır Muğanda sabah!

**Xoşbəxtlik**, *is.* Səadət. Azadlıq, xoşbəxtlik şüarlarıdır.

**Xoşhal**, *sif.* [*fars.* və *ər.*] Məmnun, razı. Onun köməyindən çox xoşhalam..

**Xoşlamaq**, *f.* Bəyənmək, sevmək, istəmək. Humay xoşlamayır bu söhbətləri..

**Xoşsifət**, *sif.* və *z.* Səmimi. Çoban qarşılayır bizi xoşsifət.

**Xoşüz**, *sif.* Xoşsima, mehriban. Birincisi oynaq, qayğısız, xoşüz..

**Xoşüzlü**, *sif.* Üzügülər. Səhəri xoşüzlü, axşamı sərin..

**Xotma**, *is.* Tayacıq. Səninkidir o xotmalar, o şiş tayalar..

**Xörək**, *is.* Bişmiş, yemək, aş. Xörəklər.., şərablar rəngrəng..

**Xudaya**, *nida* [*fars.*] Ay Allah, ilahi, xudavəndi aləm. Xudaya! İnsanın halı yamandır..

**Xumargözlü**, *sif.* Süzgün baxışlı. ..Xumargözlü bu dilbər.. İçək… Xumarlansın qoy gözlərimiz!

2. Qəmzə satmaq, işvə satmaq. O.. xumarlanaraq Nazlanmaq istəyir qucağımda.. – Şair qəlbi xumarlanıb nazlanmasın..

3. *məc.* Şuxluq, oynaqlıq kəsb etmək. İlk baharın gəlişilə xumarlanan gözəl səhər..

**Xumar-xumar**, *z.* Süzgün-süzgün, nazlı-nazlı. Yenə baxır gülərüz ay pəncərəmdən xumar-xumar.

**Xuraman**, *sif.* [*fars.*] *klas.* İşvəkaranə yerişli. ..xuramandır bütün dünya… – Ey mələkədalı.

**Xurma**, *is.* Subtropik ağac və onun şirin meyvəsi. Xurma kölgəsində ərəb qızları..

**Xurmayı**, *sif.* Açıq-qəhvəyi. Xurmayı saçları iki qatardır.

**Xülya**, *is.* [ər.] Xəyalət, fantaziya. Mən uymadım əsatirlər xülyasına.. – Hər əməl dumanlı xülyaya bənzər.

**Xülyaçı**, *is.* Xəyalçı, xəyalpərəst. İnan evladına «səadət tapan»; Platon xülyaçıları!

**Xüsus** [ər.]: *xüsusda* – barədə (haqqında, dair). Bu xüsusda oxucumla söhbətim var.

**Xüsusi**, *sif.* [ər.] Məxsusi, özünəməxsus, spesifik. «xüsusi hörmət» var.. bizə..

# İ

**İbadət**, *is.* [ər.] Dua oxuma, namaz qılma şəklində icra edilən dini ayin. Son təsəllisi də – ibadət idi.

**İbarə**, *is.* [ər.] Qəliz, təmtəraqlı, əksərən mənasız boş söz, ifadə. İbarələr dolu kimi yağar onun ağzından; Otuz dəfə məhəbbətə düçar olmuş azından…

**İblis**, *is. məc.* Araqarışdıran, fitnə salan, fitnəkar, hiyləgər. Yer üzündə nə xəyanət, nə də iblis qalacaqdır. Beyin yeyən, könül yaxan.. bir iblissən.

**İblissayağı**, *z.* İblis kimi, şeytancasına, iblisanə. Səssizcə qımışır iblissayağı…

**İbrət** [ər.] Ağır, pis, bir hadisədən, işdən alınan dərs. O ibrət bağına oğlanlar gəlir. □ <u>İbrət almaq</u> – bir işdən, hadisədən dərs almaq, özü üçün nəticə çıxarmaq, nümunə götürmək, öyrənmək. Biz də oxuyardıq…, bir ibrət alardıq.

**İclas**, *is.* [ər.] Bir məsələni müzakirə etmək üçün hər hansı bir təşkilat üzvlərinin bir yerə yığılması; yığıncaq. Yaşamağını götürüb iclas açan qadına…

**İç**, *is.* 1. Bir şeyin içərisi, daxili, iç tərəfi. Köhnə bir evciyəz gördüm, içi toz, torpaq… // *z.* kimi. İç sarayda altı hücrə gördüm ki, mən; Hər birinin öz mənası, öz adı var.

2. *məc.* Bir şeyin daxili və gizli, görünməz cəhəti; batin. İçim dalğalanır sanki bir dəniz.

3. <u>İçində</u> şəklində (*z.*) – 1) daxilində, içərisində. 2) …arasında, …içərisində. Tüstülər içində biz nəfəs aldıq. 3) …ərzində, …müddətində, …içərisində. Bir an içində…

4) bir şeyin çoxluğunu, artıqlığını, yaxud hansı vəziyyətdə baş verdiyini bildirir. Ehtiyac içində süründüm yenə.

◊ <u>İç üzü</u> – bir şəxsin hələ heç kəsə məlum olmayan siması, xasiyyəti, mahiyyəti və s. keyfiyyəti. Bilirəm hər qəlbin mən iç üzünü. // Bir şeyin həqiqi mahiyyəti, batini, gözə görünməyən daxili cəhəti. Həyatın iç üzü örtünür bəzən. <u>İçini yemək</u> – acıq çəkmək, dərd çəkmək; qəm, dərd, qüssə içində qovrulmaq. Qadın bu dərd ilə içini yedi.

**İçim**. Adətən bir sözü ilə – bir dəfə içməyə kifayət edəcək qədər. Bir içim su verən olmasınmı bəs?

**İçin-için**, *z.* Yanıqlı-yanıqlı, yana-yana, acı-acı. Həm için-için; Ağlatdın yenə…

**İçirtmək**, *f.* İçməyə sövq və ya məcbur etmək; içdirmək. Yedirtdi, içirtdi köpəyi qarı…

**İçmək**, *f.* 1. Maye bir şeyi udmaq. Çörəyindən yeyib, suyundan içdik. [Fərhad:] Mən şərbət içmişəm sənin əlindən.

2. Eyni mənada spirtli içkilər haqqında; sərxoşluq etmək, əyyaşlıq etmək. Bir az da yeyər, içər keyfi durular. …İçib qızışırıq biz birdən-birə.

3. *məc.* Oxumaq, mənimsəmək. Mənim bu şeirimi iç dərman kimi!..

**İçrə**, *qoş.* (*köhn., klas.*) İçində, içərisində. Böylə həyat içrə yüzdən çox yaşar; Zəhmətkeş dehqanı bizim dağların.

**İdeal**, *is.* [fr. ideal] Ən yüksək məqsəd; qayə, amal. Böylə bir düstur qocalmış ideal olsun gərək! Keçindim nə yaman dərdi-hal ilə; Bir qaraüzlü, ah, ideal ilə…

**İdealist**, *is.* [fr. idealiste] Həqiqəti ideallaşdıran, malik olmadığı sifətləri ona istinad edən adam; xəyalpərəst. [Səhər:] Lap idealistsən…

**İdrak**, *is.* [ər.] Dərketmə, bilmə; dərketmə qabiliyyəti. [Şahbaz:] İdraka sığmayır bu düşüncələr! □ <u>İdrak etmək</u> – dərk etmək, anlamaq. Bunu idrak edib də bir öyrən..

**İfadə**, *is.* [ər.] Bir şeyin xarici təzahürünü, inikasını təşkil edən şey. Bu səs bir şairin vicdan səsidir; Düşünən bir qəlbin ifadəsidir.

**İftixar**, *is.* [ər.] <u>İftixarla</u> şəklində (*z.* – qürurla, fəxrlə, iftixar hissi ilə). Bəzən bir alimin çox iftixarla; Dediyi özgənin fikirləridir.

**İgid**, *sif.* Bir işdə, döyüşdə, qoçaqlıq, cəsarət, cəsur, qoçaq. Önümdə tufan var, hazır olunuz; İgid Qafqazımın köhlən atları! // *is.* mənasında. Çox igidlər səndən ilham aldılar.

**İğtişaş**, *is.* [ər.] Qarğaşalıq, qarışıqlıq, hərc-mərclik. Budur, iğtişaş var Bibiheybətdə.

**İxtiyar¹**, *is.* [ər.] 1. Öz arzusu və iradəsi; öz iradə və arzusu ilə hərəkət etmə. [Banu:] Özümdə deyildir öx ixtiyarım. // Bir şeyə hüququ çatma, bir şeyi etməyə, sərəncəm verməyə haqqı olma, hüquq, səlahiyyət. Gedibdir əlindən hər ixtiyarı…

2. Qüvvət, güc, taqət. Tarix! Bu ixtiyar gəncliyinlə sən; Mənim sözlərimin ilk şahidisən.

**İxtiyar²**, *sif.* [ər.] Qoca, yaşlı; parani. İxtiyar nənəm də çöldədir bu gün. // *məc.* Qədim, dünyagörmüş. İxtiyar dağların döşündə meşə; Qayalar yüksəkdən baxır keçmişə.

**İxtiyarsız**, *z.* Özündən asılı olmayaraq, özü istəmədən; qeyri-iradi, qeyri-ixtiyari. Budur, bir ev yanında mən; İxtiyarsız dayanmışam…

**İki**, *miqd. s.* 1. Birdən sonra gələn ədəd – 2. Yoxsa bir qoyunun iki olacaq?

2. (*dan.*) Bir neçə, çox az mənasında Qoca fəhlə iki sözlə iclası açır.

**İkicə**, *say.* İki. Bir dastan yaradır ikicə sözlə.

**İkiəlli**, *z.* Hər iki əllə, iki əlin iştirakı ilə, hər iki əlini işlədərək. Sonra ikiəlli başına döyür.

**İkiqat**, *sif., z.* İki dəfə çox, iki dəfə artıq. Səni oğul və ər kimi salamladım ikiqat.

**İkinci**, *sıra s.* Ən əsas (ən vacib) hesab edilməyən. İkinci bir məna… ya qaçış yolu…

**İqlim**, *is.* [ər.] (*klas.*) Ölkə, məmləkət. İqlim-iqlim gəzməyi var; Hər havaya dözməyi var.

**İqtidar**, *is.* [ər.] Qüvvət, taqət, güc. ...gözlərə bu iqtidarla.

**İl**, *is.* 1. Yer kürəsinin Günəş ətrafında bir dəfə dövr etdiyi müddət (yanvarın 1-dən başlayaraq hesablanan 12 aylıq dövr). Hər günü, saatı ağır bir ildir. [Valentin:] Yaxşı yadımdadır, 30 il qabaq. // Hər hansı bir gündən başlayaraq hesablanan 12 aylıq bir müddət. Reyxstaqı seyr elədim iki il qabaq.

2. Cəm şəklində: İllər gəlib keçdi ömürdən, illər.

**İláhi**, *nida.* Ey Allah, Ay Allah (Allaha xitab, yalvarış). [Şirin:] İlahi… nə qədər tanışdır bu səs..

**İlahi**, *sif.* [ər.] 1. Allaha mütəəlliq, Allaha məxsus, Allaha aid, Allah tərəfindən verilmiş; qeyri-bəşəri. Ana qucağında bu ilahi söz…

2. *is.* Allah // *məc.* Qeyri-maddi, qeyri-cismani, mənəvi. Budur! «Leyli-Məcnun» – böyük sənətdir! Nə qədər ilahi bir insansınız; Mənə qardaşdan da mehribansınız.

**İlan**, *is.* 1. Bədəni uzun və qıvrılan, ayaqsız, adətən zəhərli dişləri olan sürünən heyvan. Ərəblər oynaşar, ilanlar mələr…

2. *məc.* Məkrli, xain, acıdil, kinli adam haqqında. Bu xan bir ilanmış, saray yuvası..

**İlanlı**, *sif.* İlan çox olan, ilan yaşayan. İlanlı çöllərdə səhərlər saldıq; Dəyişdik dünyanın xəritəsini.

**İldırım**, *is.* Havada yığılmış atmosfer elektrikinin çox vaxt əyri-üyrü zolaq şəklində ani parıltısı. Burda nə ildırım, nə şimşək çaxar. ◊ İldırım sürəti ilə – çox iti, çox sürətlə, çox tez, çox cəld. Ölüm! Bir ildırım sürətilə bax.

**İldırımbaxışlı**, *sif. məc.* İti baxışlı. İldırımbaxışlı gözlərinlə süz; Həyatda milçəkdən fil yapanları.

**İlə** (ixtisarı …la, …lə), *qoş.* Qoşulduğu sözlə bəzən (samitlə qurtaranda) bitişik, bəzən də (saitlə qurtaranda) ayrı yızılır. [Vəzir:] Dünyada səbr ilə hər şey düzələr..

**İlham**, *is.* [ər.] Yaradıcılıq zamanı özünü göstərən ruhlanma halı, yaradıcı fikrin yüksəlişi; təb. Bəlkə də ilhamdır məni gəzdirən?

◊ İlham almaq – bir şeydən ruhlanmaq səcdəyə gəlmək, yaratmaq üçün ondan qüvvə almaq, təbə gəlmək. Mən də ilham alım bu gün səsindən. İlham vermək – ruhlandırmaq, yaratmaq üçün qüvvə vermək, vəcdə gətirmək, şövqləndirmək. İlham verir min arzuya, min duyğuya. İlhama gəlmək – *bax* ilham almaq. Aşıqlar eşqinə ilhama gəlir.

**İlhamsız**, *sif.* İlham verən, ruhlandıran, şövqləndirən, ruh və yaradıcılıq qüvvəsi verən şəxs. Odur ilhamçısı şeirin, sənətin.

**İlxı**, *is.* At sürüsü. Oynaşır ilxılar kişnəşir atlar.

**İlik**, *is.* İnsanın, həmçinin onurğalı heyvanların sümüyü içərisində olan yağaoxşar yumşaq maddə. Şeirdə qurudu qanım, iliyim.

◊ İliyinə işləmək – çox dərin təsir etmək, nüfuz etmək. Bil ki, iliyimə işlədi bu səs; Yüz min il yaşasam canımdan getməz.

**İlişdirmək**, *f.* 1. Bir şeyi başqa bir şeyə keçirib bənd etmək, taxmaq; bir şeyi çəngəl, mıx, düymə və s. bu kimi şey-

lərlə tutdurmaq. // Bağlamaq, bənd etmək. // Dolaşdırmaq, dolaşıq salmaq.

2. *məc*. Bərk vurmaq, çəkmək *(sillə, yumruq, təpik və s.)*. İlişdirdi gülləsini quzğunların başından.

**İlk**, *sif.* 1. Birinci, əvvəlinci, ən əvvəl olan, ən qabaq (son qarşılığı). Bu ilk müəllimim əzəl sirdaşım. □ <u>İlk bahar</u> – *bax* bahar. Hünər çiçək ..........ilk bahar kimi.. // Əvvəl, başlanğıc, ibtida. Dünyada hər könül yüksəlmiş arar; Varlığın nə ilki, nə axırı var.

2. <u>İlki</u> şəklində – ananın ilk uşağı, övladı və s. İlki kimi şirin gecə hər eşqin sonu.

◊ <u>İlk baxışda</u> – baxan kimi, görən kimi. Ormanlar içində durur Talıstan; Ona ilk baxışda vurulur insan!.. // Əvvəlcə. <u>İlk dəfə</u> – birinci dəfə, əvvəlinci dəfə. Həyata ilk dəfə baxandan bəri; Göz yaşı görməmiş ala gözləri.

**İlqar**, *is.* [*ər*. ..iqrar *dan.*] Söz vermə, əhd, vəd, vəfa. Şairdir, görünür, düz ilqari var. ..Əhdimiz var əzəldən; Bu ilqardan nə mən döndüm, nə də sən.

**İlqarlı**, *sif.* İlqarında möhkəm, sözünün üstündə duran, əhdinə əməl edən; vəfalı. // Şairanə təşbehlərdə. ..Düz ilqarlı bizim dağlar.

**İllərcə**, *z.* Bir çox illər boyu. İllərcə paslanan dillər ötüşsün!

**İllət**, *is.* [ər.] Məqsəd, arzu, niyyət. Dedik, qoy yaşasın, nə illəti var?

**İllik**, *sif.* Bir il davam edən və ya davam etmiş. Min illik yuxudan oyanır torpaq.

**İltica**, *is.* [ər.] Sığınma, birinin yanına qaçıb himayə istəmə, pənah gətirmə. Vurğun görün sini sarı; Gəldi axır ilticayə…

**İltifat**, *is.* [ər.] Lütfkarlıq, lütf, mərhəmət, etina. Mərhəmət, iltifat ürəkləri keçər…

**İman**, *is.* [ər.] 1. İnanma, dərin inam. Yenə də bidətlərdən dürlü imandan; Bir əsər görünməz // İslamiyyətdə: dinə,

Allahın birliyinə, peyğəmbərlərə inanma və bunu dillə iqrar etmə; etiqad. O boyalı sima, o dönük iman…

2. İmanla şəklində (*z.*) – etiqadla, inanaraq. [Şapur:] İmanla yetişər aşıq şikarə.

**İmarət**, *is.* [ər.] Böyük və qəşəng bina, ev; mülk, tikili. ..təzə imarət; …məktəb, …kitabxana…

**İmdad**, *is.* [ər.] Kömək, yardım; darda qalmış bir adamın köməyinə yetişmə, dadına yetmə. Ummadım kimsədən imdad mərhəmət. □ İmdadına yetmək – kömək etmək, dadına yetmək. Quşu vurub həm imdadə yetməyə; Sərf ediniz hər zamanını cavanlar.

**İmdi**. *Bax* indi. İmdisə onun eşqini çirkab ilə sildim.

**İmkan**, *is.* [ər.] Hər hansı şərait daxilində bir işin həyata keçirilə bilinməsi, mümkünlük, mümkün olma. Müftəxorlar artıq bulammaz imkan…

**İmrənmək**, *f.* Həvəslənmək, tamaha düşmək, iştahaya gəlmək, ağzı sulanmaq; arzu və həvəs oyanmaq. Dillənib cavab ver! – imrənir Gəray!..

**İmtahan**, *is.* [ər.] 1. Hər hansı bir fənn üzrə keçirilən yoxlama sınağı. Hazırlansın qoy insanlar; Başlanmışdır imtahanlar.

2. *məc.* Sınaq, sınama, yoxlama, sınaqdan keçirmə. İmtahandır yaxınlaşan bu şanlı gün, a yoldaş! □ İmtahan etmək (eləmək) – sınamaq, yoxlamaq, sınaqdan keçirmək, təcrübə eləmək. İmtahan etmişəm onları bir-bir. İmtahandan çıxmaq – sınaqdan yaxşı çıxmaq, yoxlamadan keçmək. [Vəzir:] Mən də çox çıxmışam imtahanlardan!..

**İmza**, *is.* [ər.] Bir məktubun, sənədin və s.-nin altında öz dəst-xətti ilə adını və ya soyadını yazma, qol çəkmə, imza qoyma; qol. □ İmza etmək (atmaq) – imzalamaq. ..İmzasını görünmək üçün atan…

**İmzalamaq**, *f.* Altında öz soyadını (ya adını) yazmaq, öz imzasını qoymaq, qol çəkmək. Aygün imzalamış əmrə baxaraq.

**İmzasız**, *sif.* Altında imza olmayan, imza edilməmiş, qol çəkilməmiş. İmzasız, ünvansız «qəhrəman»lara..

**İnad**, *sif.* 1. Əsassız olaraq dediyini yeritməyə çalışan, heç bir güzəştə getmək istəməyən; tərs, höcət // *məc.* mənada. Təslim ol, dəli Kür, inadı burax.

2. *is.* Əzm, dəyanət, səbir; əzmindən dönməmə. İgidə ehtiyat və inad gərək!..

**İnadkar**, *sif.* [ər. inad və *fars.* kar] İnad, inadcıl, tərs, dediyindən əl çəkməyən. Şairəm ən inadkar bir çocuq kimi…

**İnandırmaq**, *f.* İnanmasına nail olmaq, inanmasına çalışmaq, birində bir şey haqqında inam yaratmaq; qane etmək. Şerim inandırmasa, gəl onun rənginə bax!

**İnanmaq**, *f.* 1. Bir işin, sözün və s.-nin yəqinliyinə, doğruluğuna qəti əmin olmaq, arxayın olmaq, yəqin etmək. [Şirin:] Bir qərib könüllü xəstəyəm, inan.

2. Ümid etmək, ümidvar olmaq, yəqin etmək, əmin olmaq. Kəsiləcək yer üzündən, inanıram mən; Müsibətin, fəlakətin ilan nəfəsi.

3. Həqiqəti bilmək, doğru bilmək, gerçək bilmək. Sən ölmədin, qardaş! Ölmədin inan.

**İncə**, *sif.* 1. Zərif işlənmiş, nəfis, qəşəng. // Nazik, zərif. Şair! Nə incədir rübabın sənin!

2. *məc.* Mehriban, mülayim, həssas, riqqətli. Ruhu oxşar, qəlbi oxşar incə bir canan səsi.

**İncəlik**, *is.* Riqqət, şəfqət. İcazə versəniz danışaram mən; O qız xəyalının incəliyindən.

**İncəlmək**, *f.* Arıqlamaq, zəifləmək, üzülmək. // Nazikləşmək, zəifləşmək, daha incə olmaq. Elyar oxuduqca incəlir səsi.

**İnci**, *is.* 1. Bəzi molyuskaların balıqlulaqlarından çıxarılan ağ və ya çəhrayı (nadir hallarda qara) rəngli dənələr şəklində qiymətli sədəf maddəsi; mirvari, dürr. Almazdan, incidən ulduzdan parlaq. // Həmin maddədən hazırlanan qiymətli qadın bəzəyi. Dişlər inci, ağız püstə.

2. *məc.* Çox qiymətli şey haqqında. Yığır öz əliylə torpaq altından; Yerdə gizlədilmiş o inciləri.

3. *məc.* Təşbehlərdə: saflıq, təmizlik, parlaqlıq mənasında. Axıtdım alnımın inci tərini…

**İncik**, *sif.* İncimiş, küsmüş, rəncidə, ürəyi sınmış. Bir incik dost kimi gileylənərək. □ İncik salmaq – incitmək, küsdürmək, qəlbini qırmaq. Neçin incik salmalıyam öz araq yoldaşımı?

**İncil**, *is.* [ər.] Bibliyanın, İsanın həyat və təlimindən bəhs edən və xristian dininin əsasını təşkil edən hissəsi. Ağlasın cahan; Bu Tövrat, bu İncil, Quran əlindən.

**İncimək**, *f.* Küsmək, qəlbi qırılmaq, sınmaq. [Vəzir:] Bıy, bu nə sözdür ki, düzü atandan; Mən çox incimişəm. Yox! Məndən incimə, müqəddəs ana!

**İncitmək**, *f.* 1. Narahat etmək, narahatlığına səbəb olmaq. Heç… Bir az incidir məni bu qürbət.

2. Küsdürmək, xatirini qırmaq, qəlbinə toxunmaq, narazı salmaq. İncidirsən məni cürbəcür sözlə…

**İndən**: indən belə, indən sonra – bu ondan etibarən, bundan sonra. İndən belə yüz havası var onun!

**İndi**, *z.* 1. Hazırda, bu anda, hazırkı vaxtda, bu saat olan. Gəl indi Xəzərin cəlalına bax. // Bu saat, tez. Di qaçın! Tez qaçın, indi fürsət var. // Əvvəlki vəziyyətə, şəraitə, keyfiyyətə qarşılıq mənasında. Mən indi hər sözün üstündə bəzən…

◊ İndi də – 1) hələ də. İndi də rusların tərəfdarısan; 2) indi, bu dəfə. İndi də dişini qıcamış Qacar…

**İndicə**, *z.* Bu saat, bu dəqiqə, bu anda. İndicə bizdeydi şeyx ilə qarı.

**İndidən**, *z.* Bu vaxtdan, bu andan, bu gündən, bu dəqiqədən, qabaqcadan. İndidən duyuram bu şeiriyyəti. / Fürsət varkən, imkan varkən, nə qədər ki gec deyil. İndidən bəslənib böyüyürəm mən.

**İndiyədək**, *z.* Bu ana qədər, bu vaxta qədər, bu günə kimi. Duymamışdım, sevməmişdim indiyədək.

**İnək**, *is.* Süd verən iri ev heyvanı, öküzün dişisi. İşıqla ot tutub, inək sağıram.

**İngilis**, *is.* İngiltərənin əsas əhalisini təşkil edən, hind-Avropa dillərindən birində danışan xalq və bu xalqa mənsub adam. Ürəyimdən səslər gəlir; İngilisdir, ingilisdir.

**İnildəmək**, *f.* 1. Bərk ağrı, əziyyət, ruhi iztirab və s. nəticəsində yavaşca, ağlar kimi həzin səs çıxarmaq; zarımaq, sızıldamaq. // Şairanə təşbehlərdə. Odalar ağladı inildəyərək…

2. *məc.* Həzin, yanıqlı musiqi, nəğmə səsi haqqında; ümumiyyətlə, insanda hüzn və kədər oyadan səs haqqında. Saz inildəyir. – Yenə inildədi qəlbimdəki saz…

**İnqilab**, *is.* [ər.] Zorakı ictimai çevriliş; dövlət hakimiyyətinin hakim sinfin əlindən başqa sinfin, ictimai cəhətdən qabaqcıl sinfin əlinə keçməsi. İnqilabın qəhrəmanı, cavanlar.

2. (*klas.*) Dəyişiklik, dəyişkənlik. [Gəncliyin] fikrində, hissində inqilab yarat…

**İnqilabçı**, *is.* İnqilabi ideyalar daşıyan, inqilabi ruhda olan. İspaniyanın inqilabçı şairəsi.

**İnləmək**. *Bax* inildəmək. Xəstə uşaq kimi inlərəm hər an…

**İnsaf**, *is.* [ər.] İnsanda vicdan və ədalət hissi, öz hərəkətləri üçün mənəvi məsuliyyət hissi; vicdana müvafiq hərəkət. İnsafı, mürvəti sən atmadınmı? // Rəhm, mürüvvət, şəfqət, ədalət. Nə bəydə insaf var, nə xanda qan var. □ <u>İnsaf eləmək (etmək)</u> – rəhm etmək, mərhəmət göstərmək, ədalətlə yanaşmaq. Ovçu, insaf elə, keçmə bu düzdən; O dağlar qızını ayırma bizdən!

**İnsan**, *is.* [ər.] Adam, bəşər. Zaman yaşa doldu, insan ağıla.

◊ <u>İnsan oğlu</u> – adam, insan. Dünya karvan yaranmışsa, insan oğlu bir sarbandır.

**İnsanlıq**, *is.* 1. *top.* Bəşəriyyət, insanlar. [Azər baba:] İnsanlıq səninlə çatır çörəyə; Sən çarə tapırsan hər bir diləyə.

2. *məc.* İnsanpərvərlik, əsil insana xas olan sifət və fəzilətlər; mürüvvət. İnsanlıq eşqiylə yaşayıb hər an.

**İnstitut**, [lat. institutum] Bəzi ali məktəblərin, habelə elmi tədqiqat idarələrinin adı. Bir il sonra institutu dördlə bitirdi.

**İntiqam**, *is.* [ər.] Özünə pislik edənə pislik etmə arzusu və işi, qisas, qisasalma, heyfalma, əvəzə əvəz. Yerdə qalmayacaq intiqamımız. Min intiqam duyğusuyla alovlanmış ürəklərdə; Dalğalanır nəslimizin and içdiyi qızıl bayraq. ☐ İntiqam almaq – heyfini almaq. [Səslər:] Gedək, yağılardan intiqam alaq!

**İntizam**, *is.* [ər.] Hər hansı bir kollektivin bütün üzvlərinin tabe olması məcburi olan möhkəm qayda, qanun, nizam. Canlı bir ahəngdir orda intizam.

**İntizar**, *is.* [ər.] Həsrət içərisində gözləmə, səbirsizliklə gözləmə. Onu da ağladan bir intizardır…

**İntriqa** [fr. intrigue] Bir məqsədi (adətən pis məqsədi) ələ etmək üçün əlaltından görülən iş; hiylə, fitnə. Sordu qanımızı, sordu zəli tək; Onun törətdiyi intriqalar.

**İpək**, *is.* 1. Tut yarpaqları ilə bəslənən barama qurdlarının əmələ gətirdiyi çox incə bir parlaq tellər və bu tellərdən toxunan qiymətli parça. Sadə bir çit də, ipək də geyir.

2. *sif.* mənasında. İpəkdən hazırlanmış, ipəkdən tikilmiş (toxunmuş). Uçur qayıqların ipək yelkəni…

3. *məc.* İncə, parlaq. O meyxoş dodaqlar, o ipək əllər.

**İradə**, *is.* [ər.] İnsan psixikasının, insanın öz qarşısına qoyduğu məqsədə nail olmaq, arzu və istəklərini həyata keçirmək qabiliyyətində təzahür edən xüsusiyyətlərindən bri. İradə! İradə yaşadır bizi.

**İradəsiz**, *sif.* İradəsi olmayan, iradəsi zəif, qətiyyətsiz. Başa vurmamışdır iradəsizlər.

**İraq**, *z.* Uzaq, uzaqda. Qalma bu dünyada həyatdan iraq. ☐ İraq düşmək – uzaq düşmək, ayrılmaq. [Şirin:] Eldən uzaq düşdüm, vətəndən iraq.

**İrəli**, *z.* 1. Hərəkətin istiqamətinə görə qabağa, qabaq tərəfə (geri əksi). Eldarın dəstəsi gəlir irəli.

2. Qabağa, irəli uzanmış (çıxmış) halda. Qaməti sərv kimi, köksü irəli…

**İrfan**, *is.* [ər.] 1. Bilik, məlumat; oxumaq və zehni işlətmək nəticəsində hasil olan yetkinlik, kamillik. Unutmayaq bəşər sizdən diləyir; Elm, ədəb, həm irfanı, cavanlar.

**İri**, *sif.* Həcmcə, ölçücə, cüssəcə böyük, yekə; cüssəli, həcmli. İrilər sarıldı silaha, körpələr daşladı…

**İrigözlü**, *sif.* Gözləri iri olan. İrigözlü projektorlar hey işıq saçır.

**İrişmək**, *f.* Çatmaq, yetişmək, açılmaq. Səhər irişincə bin nəğmə udar…

**İrs**, *is.* [ər.] Sahibinin ölümündən sonra başqasının (övladın və ya yaxın qohumların) ixtiyarına keçən mal, mülk və s. İrs qoyub getdi bizim nəslimizə; Ömrün imanla keçən dəmlərini.

**İrticaçı**, *is.* Siyasi irtica tərəfdarı, mədəniyyət və tərəqqi düşməni. İran irticaçıları…

**İrz**, *is.* [ər.] Namus, ismət, iffət, şərəf. Yazılsın Vətənin irzi, şərəfi; Sizin bu eşqiniz, bu ilhamınız.

**İsə**, *bağl.* «Əgər», «hərgah» mənasında ədat yerində işlənir. Barı yüz addımlıq bir mənzil isə…

**İsitmək**, *f.* İsti eləmək, isti hala gətirmək, qızdırmaq. // İstilik vermək, öz hərarətini vermək, qızdırmaq. O… isidir bizi.

**İslam**, *is.* [ər.] VII əsrdə Məhəmməd peyğəmbər tərəfindən təsis edilmiş din; müsəlmanlıq. Elm günah işdir, təmizdir islam. // Müsəlman.

**İslanmaq**, *f.* İslaq hala gəlmək. Yağış yağır narın-narın, islanır torpaq.

**İslatmaq**, *f.* Yaş eləmək, islaq hala gətirmək. Yağış da isladır o göy çəməni.

**İsmət**, *is.* [ər.] Namus, irz, həya, abır, pərdə. Elə bil ki, nur tökülür, qız ismətindir.

**İsmətli**, *sif.* Namuslu, həyalı, abırlı, əxlaqlı, təmiz; məsum. // Şairanə təşbehlərdə. Üzlərdə ismətli bir şəfəq oynar.

**İssız**, *sif.* Heç bir insan yaşamayan, əhalisiz, boş, xali, şənliksiz. Qopdu issız ruhumda tufan, gəlin…

**İstehkam**, *is.* [ər.] (*hərb.*) Düşməndən qorunmaq məqsədi ilə düzəldilən səngər, sədd, qala, divar və s. müdafiə tikintiləri. Uca dağlar başındadır igidlərin istehkamı.

**İstəkli**, *is.* Əziz. Bahar istəklisən başdan, binadan.

**İstəmək**, *f.* 1. Arzu etmək, ürəyindən keçirmək, bir şeyin qəsd və niyyətində olmaq, ürəyində bir istək duymaq. Ana! Şair olmaq istəyirəm mən. // Bir şeyə ehtiyac hiss etmək. «Həyat», – deyir, su istəyir o yana-yana.

2. Sevmək, məhəbbət yetirmək, əzizləmək. Dedilər ki, ..səni çox istəyir xan.

3. Xahiş etmək, rica etmək, təmənna etmək. Bir al bayraq istəmişdir rəfiqəsindən.

4. İstəməz şəklində – hacət yoxdur, lüzumu yoxdur, ehtiyac yoxdur, bəsdir, kifayətdir. Nə bir toya, nə bir yasa; İstəməz ki, ayaq basa.

**İsti**, *sif.* 1. Qızdırılmış, isidilmiş, hərarəti artırılmış (soyuq qarşılığı). İşıqlı, istimi bir ocaq..

2. İstilik verən, qızğın. İsti qan, isti əl. Gedir qəlbimizin isti qanı da…

3. *sif.* Bədəni soyuqdan yaxşı qoruyan; yun. İsti corab.. isti köynək… O yun əlcək; Ziynətdir gördüyümüz bu səhnənin.

4. Yandırıcı, istilik verən, qızğın. Yayın istisində; Yolçular dincəlsin qoy kölgəmizdə. // Hava haqqında. Cənubdan da əsən külək isti küləkdir.

**İstiqbal**, *is.* [ər.] 1. Gələcək. [Şahbaz:] Söylə, nələr deyir bizə istiqbal?

2. Gələn adamın qarşısına çıxma; qarşılama. İnsan istiqbalı salona gəlir.

**İstiqlal**, *is.* [ər.] Müstəqillik, istiqlaliyyət. Səhərlərə müjdə verir hər vicdanın istiqlalı. İnsan da, torpaq da deyir: – İstiqlal.

**İstilik**, *is.* 1. Bir şeyin qızğınlıq halı; isti yaxud qızdırılmış şeydən çıxan hərarət. Bir istilik belə keçməz onun soyuq qanından.

2. Qızdırma, hərarət, temperatur. Əlində duyduğun istiliyə bax.

**İstirahət**, *is.* [ər.] Dincəlmə, rahatlanma; dincik, rahatlıq. Tənhalıqda gördüm mən istirahət.

**İstirahətsiz**, *sif.* Rahatsız, istirahəti olmama, narahat. İşıqsız, istisiz, dar mağaralar; Günün şəfəqilə boyansın.

**İstismar**, *is.* [ər.] İstehsal vasitələri üzərində xüsusi mülkiyyət sayəsində insanların bir qisminin başqalarının əmək məhsulunu mənimsəməsi. Yenə də hökm edir xain istismar…

**İş**, *is.* 1. Fəaliyyət, çalışma, zəhmət, əmək. Az danışıb, çox iş görür danışanlar. // Məşğuliyyət, məşğələ, bir şeylə baş qarışma. İşdə yorulmadı ürəklərimiz.

2. Bir idarədə və ya müəssisədə çalışma, xidmətetmə, qulluqetmə; xidmət, vəzifə, qulluq. Öz yerində, öz işində qoyuram səni.

3. Münasibət, əlaqə, aidiyyət, dəxli olma. [Şiruyyə:] Bir də, sən qarışma bu işlərə gəl!

4. Əməli hərəkət. Kişi, bu nə işdir? Küsüb getdi xan?!

5. Hadisə, əhvalat, qəziyyə. Oldu, bir işdir bu da.

6. Şey, hadisə. Of, nə iş tuturam? Yatmışammı mən!

◊ <u>İş görmək</u> – 1) işləmək, müəyyən bir işlə məşğul olmaq, bir şey üzərində çalışmaq, zəhmətlə məşğul olmaq. İş görür, tər tökür indi gündoğan; 2) hərəkət etmək. Nə tez yoruldunuz?; Qoyun iş görək! <u>İşə düşmək</u> – işə salınmaq. Arşın, girvəngə, tərəzi yenə möhkəm işə düşübdü.

**İşçi**, *is.* 1. Zehni və fiziki əməyin hər hansı bir sahəsində çalışan adam. Fəal işçi. Zavodun qabaqcıl işçiləri. Bax, bu seyr etdiyim işçinin yurdu..

2. Fəhlə. Bir gün silahlandı işçinin əli…

**İşçi-kəndli**, *top.* Fəhlə və kəndli, zəhmətkeş, əməkçi. Bu tok, bu toku yaradan blok; İşçi-kəndli birliyidir.

**İşıq**, *is.* 1. Ətrafı işıqlandıraraq, onu gözlə görünəcək hala salan şüa enerjisi; nur, ziya. Doymadı günəşin işıqlarından. □ İşıq vermək – işıqlandırmaq, işıq saçmaq, nurlandırmaq. Azmı işıq verir o zəif fanar. İşıq salmaq – işıqlandırmaq, nurlandırmaq // Şairanə təşbehlərdə. Ağıl işıq salır gözlərimizə. İşıq saçmaq – ətrafa işıq vermək, şüalanmaq, işıq yaymaq. İrigözlü projektorlar hey işıq saçır.

2. Günün hər hansı bir vaxtı üçün səciyyəvi olan aydınlıq. Gündüz işığı, sabah işığı. O, işıqda gəzən, yaşar vüqarla // Şəfəq. İşıqdır zülməti əridən qüdrət.

3. Lampa, fənər, şam və s. İşıq mənbəyi mənasında. Bəzən işığımız axşamdan söndü.

4. *məc.* Ağ gün, aydınlıq, xoşbəxtlik, fərəh mənasında. Ağ günün işığı görünər sizə. [Azər baba:] Dünya – bir evdirsə, övlad – işıqdır.

5. *məc.* Maarif, mədəniyyət, ürfan, tərəqqi mənasında. Fikrin gözlərinə bir işıq oldu…

◊ İşıq sürətilə – tez, cəld, təcili. İşıq sürətilə qurur əllərim.

**İşıqlanmaq**, *f.* 1. İşıq olmaq, aydınlaşaraq görünə bilmək, işıqla dolmaq. // *məc.* mənada. [Fitnə:] Qızlar, gəlin biz də lopa yandıraq; Dünya işıqlansın ilk səhər kimi.

2. Səhər açılmağa başlamaq, dan yeri sökülmək. Artıq işıqlandı, nə yaxşı, of, sən…

**İşıqlatmaq**, *f.* İşıq eləmək, işıqlandırmaq. Doğan günəş işıqlatdı hər ürəyin yuvasını.

**İşıqlı**, *məc.* Fərəhli, məsud, xoşbəxt. İşıqlı günlərə yol göstərənlər…

**İşıqsız**, *sif.* İşıqlı olmayan yaxud yaxşı işıq düşməyən. İşıqsız, istisiz, dar mağaralar; Günün şəfəqinə boyanın, – dedi.

**İşlək**, *sif. mex.* İşləyən, hərəkət edən ya hərəkət etdirici. Göylərə baş vuran işlək buruqlar.

**İşləmək**, *f.* 1. İş görmək,bir işlə məşğul olmaq, çalışmaq, əməyini tətbiq etmək. Az işləyib çox qazanar… // Kiməsə qulluq etmək. [Vəzir:] Şaha sədaqətlə işləmişəm mən.

2. Bir şeyin içərisinə keçmək, dərinləşmək. İşlədi gecənin dərinliyinə topların səsi. Atdığın toplar işlədikcə yerə…

**İşsiz**, *sif.* İş yeri və maaşı olmayan. İşçilər işsiz qaldı…

2. Bikar, avara, veyl, heç bir işlə məşğul olmayan. şeir dünyasında işsiz gəzənlər!..

**İştah(a)**, *is.* [ər. iştiha] *məc.* Arzu, istək, həvəs. [Xosrov:] Ha… ha…, ha… Əbləhin iştahına bax.

**İştahlanmaq**, *f.* Yeməyə həvəs oyanmaq, iştaha gəlmək. Şirin söhbət içində; İştahlanıb yeyirlər.

**İştə**, *əd.* [türk.] Budur, bax. İştə dodaqların nə diyor mələk?

**İşvə**, *is.* [ər.] Naz, şəmdə, şivə, cilvə; qəmzəli baxış. Bilmirəm qəlbində nə işvələr var! ◊ İşvə satmaq – naz-qəmzə eləmək. Maralın, ceyranın min işvə satır.

**İt**, *is.* Ganavar, tülkü heyvanların mənsub olduğu yırtıcı məməli heyvanların xüsusi fəsiləsinə mənsub ev heyvanı. İtə qurban olsun qarının varı.

**İtaət**, *is.* [ər.] Tabe olma, boyunəymə, sözə qulaq asma, göstərişə əməletmə; tabelik. Təvəkkül itaət, göylərə hörmət.

**İti**, *sif.* 1. Yaxşı itilənmiş, kəskin, çox kəsici. // Ucu şiş, batıcı, deşici. Sancıldı könlünə iti bir tikan.

2. *z.* və *sif.* Çox sürətli; tez, cəld, bərk, qaparaq. Bəzən iti, bəzən seyrək; Addımlarımla mən yaxınlaşdım ona…

3. *sif.* Kəskin, nüfuzedici, çox təsirli. Çox gözəl, hər sözün iti bir bıçaq.

**İtilmək**, *f.* Əmr şəklində: itil, itil cəhənnəmə şəklində – rədd ol! Çıx bayıra! Çəkil get. İtil gözlərimdən, bivəfa yarım!

**İtkin**, *sif.* İtmiş; xəbərsiz, soraqsız, yox olan, yoxa çıxan. // *is.* mənasında. O zamandan gülmədim; İtkinəm, aranmadım. □ İtkin düşmək – xəbərsiz itmək, yox olmaq. Analar da tapacaqdır itkin düşmüş övladını…

**İtmək**, *f. məc.* Puç olmaq, heçə çıxmaq, hədər getmək, boşa çıxmaq. Bizim dünyamızda itməz zəhmətin.

**İydə**, *is.* [bot.] İsti yerlərdə bitən, ətirli çiçəkləri olan ağac və bu ağacın dərisi sərt, əti ağ ün halında olan meyvəsi. Ətirli iydələr və akasiyalar.

**İydəlik**, *is.* İydə ağacları əkilmiş yer. Odur kölgəsi var iydəliklərin.

**İyirmi**, *say.* On doqquzdan sonra gələn say – 20. [Xosrov:] İyirmi il keçir o vaxtdan bəri.

**İyirminci**, «İyirmi»dən sıra sayı. Keçirməni yer altına iyirminci təbəqədən.

**İyrənc**, *sif.* 1. Özünə nifrət doğuran, ikrah doğuran, qətiyyən xoşa gəlməyən, mənfur, çox çirkin. Yararlı nazənin, incə bir çiçək; Böylə iyrənc olsun…

2. *məc.* Rəzil, yaramaz, alçaq, mənfur. Yaltaq təbiətli bu iyrənclər də.

**İyrənclik**, *is.* İyrənc şeyin hal və keyfiyyəti; çirkinlik // İyrənc şey, iyrənc hərəkət; rəzalət, yaramazlıq, alçaqlıq. Qayğısız bu yaramazlıq, ömrün bu iyrəncliyi.

**İyrənmək**, *f.* Xoşa gəlməyən şeydən ikrah etmək, diksinmək, nifrət etmək, görə bilməmək. Artıq öz-özünə baxıb iyrəndim.. Onun görkəmindən iyrəndiniz siz.

**İz**, *is.* 1. İnsan və ya heyvan ayağından yer üzərində qalan nişanə; ləpir. Nə cığır görünür, nə ayaq izi… // Bir şeyin hərəkətindən sonra səth üzərində qalan çuxurluq, xətt, şırım, əlamət və s. Mən bir karvanam ki, qalmadı izim. Keçdiyim yollarda qalmasın bir iz?

2. Hər hansı bir şeydən qalan və onun keçmiş varlığına şəhadət edən nişanə, əsər, əsər-əlamət. Üzlərdə qalmamış sarılıqdan iz… // Ümumiyyətlə, bir hadisənin, keyfiyyətin və s.-nin olmasına şəhadət edən hal, əlamət, nişanə, qalıq. Dünyada qan izi kəsilsin deyə…

**İzafi**, *sif.* [ər.] ◊ <u>İzafi dəyər</u> (*iqt.*) – müzdlü fəhlənin əməyi ilə onun öz iş qüvvəsinin dəyərindən artıq yaradılan və kapitalist tərəfindən havayı mənimsənilən dəyər. «Manifest», «Kapital», «İzafi dəyər»; Zəhmət dünyasının ilk fəlsəfəsi.

**İzah**, *is.* [ər.] Bir fikri, əsəri və s.-ni yazılı və ya şifahi şəkildə aydınlaşdırma, anlatma, şərhetmə, bəyanetmə; şərh. □ <u>İzah etmək</u> – anlatmaq, şərh etmək, açmaq, bəyan etmək. Sonra əhvalımı izah eləyim.

**İzdiham**, *is.* [ər.] Bir yerə çoxlu camaat yığılması, çox qələbəlik, böyük camaat kütləsi. Axıb gəldi sellər kimi küçələrin izdihamı. // Çoxlu adam yığılmış yer, tünlük, basırıq, qələbəlik. Qışqırdı salonun sıx izdihamı.

**İzdivac**, *is.* [ər.] (*kit., köhn.*). Evlənmə. Qəlbsiz izdivacdan xəyanət dağlar.

**İzin**, *is.* [ər. izn] icazə, rüsxət. <u>İzin vermək</u>. – [Şiruyə:] İzin ver, bızansa orduyla gedim.

**İzinsiz**, *z.* İcazəsiz, icazə olmadan, icazə verilmədən. Hər evə izinsiz girər… yüz ev yıxarmış.

**İzləmək**, *f. məc.* Təqib etmək, göz qoymaq. Ürəklərə nəşə səpər, könül səadət izlər…

**İztirab**, *is.* [ər.] Təlaş, təşviş, daimi həyəcan, narahatlıq, mənəvi əziyyət, nigarançılıq. Qəlbində iztirab, alnında vüqar. Orda sevinclər var, iztirablar var.

**İzzət**, *is.* [ər.] Hörmət, şərəf, etibar. Baxıb şərəfə, izzətə…

# J

**Jaketli**, *sif.* Jaket geymiş adam. Görmədin meşin jaketli rus işçisinin qızıl gülləsini…

**Jurnal** [fr. journal] Kitabça şəklində nəşr edilən dövri məcmuə, dərgi. Baxır jurnalların bir nömrəsinə. □ <u>Jurnal adamı</u> (*köhn.*) jurnalist. Jurnal adamları həddi aşmasın.

# K

**Kabab**, *is.* [ər. kəbab] Adətən şişə taxılıb köz üstündə yaxud tavada qızardılan tikə-tikə doğranmış ətdən, bəzən də balıqdan ibarət yemək. – Tez olun, yaxşı bir kabab bişirin.

Kabab olmaq (ürəyi, ciyəri və s.) – od tutub yanmaq, alışıb yanmaq. – Körpələrin meyitləri kabab olur, cidalarda.

**Kabinet**, [fr. cabine] İdarə və müəssisələrdə məsul şəxslərin məşğuliyyəti üçün ayrılmış otaq. – Mənsə kabinetə keçirəm.

**Kabus**, *is.* [ər.] Xəstə təxəyyüllü və ya mistikaya qapılmış adamın gözünə görünən şey, xəyalən təsəvvürə gələn surət; xəyal. O vaxt ölüm kabus da öz qanına bulanacaq…

**Kafir**, *sif.* [ər.] Mütərəqqi fikir sahiblərinə, dinə tənqidi yanaşan və ya inanmayan şəxslərə cəhalətpərəstlərin verdikləri ad; dinsiz, məzhəbsiz, laməzhəb. İnanmaq olarmı bu kafirlərə.

**Kaftar**, *is. məc. dan.* Qoca, çirkin, idbar adam haqqında (bəzən «qoca» sözü ilə söyüş məqamında). [Amaliya:] Sən qanırsan ki, ay qoca kaftar! Deyinir küçədə kaftar bir qarı.

**Kağız**, *is.* 1. Üzərində yazı yazılan, yazı çap edilən, rəsm çəkilən yaxud başqa məqsədlər üçün işlədilən, ağac kütləsindən və s.-dən hazırlanan xüsusi material. Hanı qələm, hanı kağız? // Həmin materialın bir vərəqi, bir parçası. Oturmuş qapıda məktəbli bir qız; Əlində bir qələm, bir parça kağız.

2. Məktub. – Budur, bax müxbirin yazdığı kağıza…

**Kaha**, *is.* Qayalıqda, dağda təbii və ya süni oyuq; mağara. …yetdim harayına; Ömür günü.. kahalarda keçənlərin…

**Kahin**, *is.* [ər.] qədim misirlilərdə, israillilərdə qeybdən xəbər verən ruhani. [Şapur:] Kimə oxşatdınız səsimi birdən? [Şirin:] Bir kahin səsinə.

**Kahinlik**, *is.* Kahinin işi, peşəsi. // Qeybdən xəbər vermə iddiasında olma. [Şapur:] Yox canım, mən hara, kahinlik hara?

**Kainat**, *is.* [ər.] 1. Bütün dünya sistemi (yer, göy, ulduzlar və b. varlıqların məcmusu). Bütün kainata qan olsun kəfən.

2. Dünya, aləm, bütün yer üzü, bütün varlıq. Bir yeni kainat çıxdı qarşıma.

**Kalağay(ı)** *is.* bax kələğay(ı). Anamın örtüyü sarı kalağay…

**Kalağaylı**, *sif.* Bax kələğay(ı)lı. Baxır kalağaylı keçən gəlinə…

**Kam**, *is.* [*fars.*] Arzu, məqsəd, məram, murad. Bəşər qəlbi müqəddəsdir, bu qüdsiyyətdə kamımı var. Kama yetmək (yetişmək, çatmaq) – arzusuna nail olmaq, məqsədinə çatmaq, arzusuna çatmaq. Yoxsa yetməyəcək kamına şair; Quru bir taxtanı simsiz çalacaq? Kamı gözündə qalmaq – arzusuna çatmamaq, arzusu ürəyində qalmaq. Gözlərində qalmayacaq heç bir kamın.

**Kamal**, *is.* [ər. kəmal] Ağıl, zəka, dərrakə. [Şahbaz:] Qalib gələcəkmi cahanda kamal? Kamala yetmək (yetişmək) – yetkinləşmək, yetkinlik dövrünə çatmaq; kamilləşmək, təkmilləşmək. Deyirəm, kamala yetişdik daha. Yoxsa yetməyəcək kamala şair… Kamal yaşına dolmaq – *bax* kamala yetmək (yetişmək). Ana torpaq fikrə gedib dolur kamal yaşına…

**Kaman**, *is.* [*fars.* kəman] *Bax* kamança. Bütün qəlblər titrəyəcək bir kamanın xoş səsindən. Kaman kimi əyilmək *məc.* – əyilmək, beli bükülmək (əyilmək), ikiqat olmaq. Onun kaman kimi əyilmiş qaşı.

**Kamança**, *is.* [*fars.* kəmança] Alt tərəfi diz üstünə qoyulub yayla çalınan musiqi aləti; kaman. Kamançanın, tarın səsi…

**Kamyab**, *is.* [*fars.*] *klas.* Kamına, arzusuna çatan; xoşbəxt, bəxtiyar. Kamyab olmaq – kam almaq. Ensin, qaranlıqda kamyab olsun.

**Kanal** [lat. canalis – boru, navalça] Suvarma, hidrotexniki və s. məqsədlər üçün çəkilmiş süni su yatağı. Alqış.. kanallar çəkən zərbəçilərə.

**Kapital** [*lat.* capitalis-dən] *iqt.* Sahibinə, muzdlu fəhlələrin istismar yolu ilə izafi dəyər gətirən dəyər (sərmayə, istehsal vasitələri və s.) «Manifest», «Kapital», «İzafi dəyər»; Zəhmət dünyasının ilk fəlsəfəsi. // *top.* Kapitalistlər, burjua sinfi; kapitalizm. Basmış kapitalın ürəyini yaz.

**Kapitalist**, *is.* Kapitalizm cəmiyyətində hakim sinfin nümayəndəsi, muzdur fəhlələri istismar edən kapital sahibi. Yalmanıb baş əyir kapitalistə.

**Kapitan** [fr. capitane] Orduda: baş leytenant rütbəsindən sonra gələn zabit rütbəsi, habelə bu rütbəni daşıyan şəxs. Onun zirvəsində durur kapitan.

**Kar**, *sif.* Eşitmək qabiliyyətini tamamilə və ya qismən itirmiş. Mərmər salonların kar səssizliyində… // *is.* mənasında. Qulağı eşitməyən adam. Qulağı kar, dili də lal; Bir aləmə aparmışdır; Bu gün məni səyyar xəyal. Kar aşmamaq – nəticə hasil olmamaq, işə yaramamaq, bir nəticə çıxmamaq. Bu sənətdən bir kar aşmaz.

**Karet(a)** [*pol.* kareta] *köhn.* Hər tərəfdən örtülü dördtəkərli, at qoşulan yaylı minik arabası. Apardı mənzilə bizi kareta; Orda bir gecəlik qonağım ol sən.

**Karxana**, *is.* [*fars.* karxanə] *köhn.* Fabrik, zavod. Bircə qolumuzun qüvvəti qaldı; Onu da biz satdıq karxanalara.

**Karvan**, *is.* [*fars.*] 1. Bir-birinin ardınca sıra ilə hərəkət edən yüklü heyvan (əsasən dəvə) dəstəsi (qatarı); qafilə. Səsindən ordular, karvanlar qaçar.

2. *məc.* Toplu halında bir-birinin ardınca, sıra ilə hərəkət edən şeylər haqqında. Ağır karvan yürüşünə dalğalanır insanlar.

3. *məc. klas.* Gəlib gedən şey haqqında (Bu dünyadan köçmə mənasında) Mənim də karvanım yığışıb köçür.

4. Sıra, cərgə. İşıq karvanları göründü birdən.

Karvan yolu *köhn.* – keçmişdə karvanların işlədiyi yol. Bağladın bir köhnə karvan yolunu…

**Karyerist** [fr. carriere-dən] Karyerasını hər şeydən üstün tutan adam; mənsəbpərəst, şöhrətpərəst. Ona baxar, nəğmə deyər qızların gül dodağı; Karyeristin açılmayır tutqun qaşı, qabağı.

**Kasad**, *sif.* [ər. kəsad] Ticarətdə: mala tələb olmadığı müştəri tapılmadığı, onun satılmadığı hal; alış-veriş durğunluğu. Kasad keçmək – kasadlaşmaq, müştərisi olmamaq;

malları satılmayıb qalmaq, alış-verişdə durğunluq əmələ gəlmək (çox vaxt «bazar»ı sözü ilə). …kasad keçir bazarı…

**Kasadlıq**, *is.* 1. Ticarətdə malın satılmadığı vəziyyət; rəvacsızlıq, alış-verişdə durğunluq, böhran. Dözdük hər satlığa, hər kasadlığa.

2. Qıtlıq, qəhətlik. Başlanır əllərin kasadlıq işi; Muğanın başına dünya dar olur. Kasadlıq çəkmək – qıtlıq, qəhətlik keçirmək. Kasadlıq çəkməyir, qalmayır darda.

3. Kasıblıq, yoxsulluq. Dünyada kasadlıq görməyəsən sən.

**Kasıb**, *sif.* [fars] 1. Heç bir var-dövləti olmayan, ehtiyac içində yaşayan adam, yoxsul (Varlı, dövlətli əksi). Ancaq olmasaydı kasıb kəndlilər.

2. Yoxsul, kasıbyana, kasıbvarı, yoxsulvarı. [Vidadi:] Kasıb komacığım özümə yetər; Burda yazılmışdır yüzlərlə əsər.

3. *məc. zar.* Zəif, naqis, qüsurlu. Asta, kasıb bir dil ilə danışdığı bu qoca…

**Kasıblıq**, *is.* Kasıbın halı və vəziyyəti; yoxsulluq. Bir də kasıblıqdan görməzsən əsər.

**Kaş**, *əd. klas.* Bəzən «ki» bağlayıcısı ilə birlikdə işlənib, fövqəladə arzu, həsrət yaxud təəssüf və peşmançılıq bildirir. Kaş ki, düşməyəydim bu saraylara.

**Kaşanə**, *is.* [*fars.*] Qəsr, saray, imarət. …kaşanələr yüksələcək cəlal ilə.

**Katib**, *is.* [ər.] Hər hansı bir təşkilatın seçilmiş rəhbəri. Gördüm. Kəndimizə; Özək katibi gedən bolşevik işçiləri; O qırxıncı ildə..; …Raykom katibiydi, bizim Qazaxda.

**Kazak**, *is.* Keçmiş hərbi vilayətlərdə doğulmuş şəxs, kəndli. – Qoca kazak yabasilə taya quracaqdır.

**Kecinmək**, *f.* Yaxşı-yaxşı geyinmək, bəzək şeyləri taxmaq, bəzənmək. Geyinirik, kecinirik yurdumuzun varından.

**Keçə**, *is.* Yunu döyüb basmaqla hazırlanan sıx qalın material. Keçə atmaq – yundan keçə hazırlamaq. Gərək yadındadır, rəhmətlik dədən; Bükülmüşdü beli keçə atmaqdan. // Bu cür materialdan hazırlanmış. Dəyəsi qurular qalın keçədən.

**Keçəl**, *sif.* 1. Başda dərinin xəstəliyi nəticəsində başının tükü tökülmüş. Çıxar əmmaməni, sən keçəl dazsan…

2. Ot bitməyən, çılpaq, daz. Batıqlar, çuxurlar, keçəl təpələr; Burda yaşıllıqdan görünməz əsər.

**Keçən**. «Keçmək»dən *f., sif.* 1. Bundan əvvəlki, ötən, cari, axırıncı, sonuncu. Fəsillər dalında keçən fəsillər…

2. *sif.* Keçmiş, keçib getmiş, vaxtilə olmuş. Keçən gün uzaqda qaralıb-qalır.

**Keçib-getmək**, *f.* 1. Yanından ötüb keçmək, getmək. Yanlarından saymazyana keçib-gedirik.

2. Keçmişdə olan, arxada qalmaq. Keçib-getdi o kef vaxtı, işrət vaxtı.

**Keçici**, *sif.* 1. Hər hansı bir yarışda və s.-də yeni qaliblərə, birincilik qazananlara verilən mükafat. Keçici bayraq da yanında durur.

2. Müvəqqəti, ötəri, ötüb keçən. Uydun hər keçici eyşü-işrətə.

**Keçinmək¹**, *t.-siz.* Dolanmaq, yaşamaq, güzəran etmək, saxlamaq. [Xosrov:] Bu meylə məzəylə keçinən hər dən; Böyük bir dövrandır, böyük bir ailə; O mənsiz keçinib, mənsiz yaşarmı?

**Keçinmək²**, *t.-siz.* Ölmək. Keçinmək kimiydi, yatmış kimiydi…

**Keçirmək**, *f.* 1. Yönəldərək, istiqamətləndirərək bir yerdən keçib getməsinə kömək etmək, ya keçirməyə məcbur etmək. Keçir məni yer altına iyirminci təbəqədən.

2. Bir şəxsin duyduğu həyəcan və s. hissələri bildirir. [Məryəm:] Yuxusuz gecələr keçirmişəm mən.

3. Bir müddət bir yerdə yaşamaq, qalmaq, olmaq. Üç ay yarı keçirərək; Göy yaylaqlar başında.

4. *məc.* Ötürmək, sovuşdurmaq, əziyyət çəkmək. İnsan ölümünü bildiyi zaman nələr keçirirmiş.

5. Düçar olmaq. Yenəmi yanğınlar keçirəcək yer?..

**Keçmək**, *f.* 1. Hərəkət edərək, yeriyərək, addımlayaraq irəliləmək, yer dəyişmək, ötüb keçmək, yolla keçmək. –

Keçdiyi yollara baxdı vüqarla // Bir sahənin, yerin içindən, ortasından ötüb keçmək. – Keçirəm yenə də Muğan çölündən // Ayaq və ya miniklə ötüb keçmək, yeriyərək bir şeyi arxada qoymaq. Piyada keçsəm də axar çayları. // Sərhəd, mərz və s.-ni adlamaq, adlayıb keçmək. Bütün sərhədləri o keçəcəkdir.

2. Vəzifəyə keçmək, vəzifəsini, sənətini, iş yerini yaxud işini dəyişmək və s. Keçmək istər bir vəzifə başına.

3. Ötüb keçmək, başa çatmaq (vaxt haqqında). Darıxma, darıxma, keçər bu dövran. Gəlib keçmək – ötmək. Şaxta vurmayacaq göy zəmiləri; Qış gəlib keçəcək bir bahar kimi.

4. Çox davam etmək. Yollar uzun keçdi, döyüşlər çətin.

5. Yaxşı təsir bağışlamaq, xoş keçmək. Gedək. Bizim yerlər xoş keçir. Gedək sizə.

6. Davam etmək. May bayramı. Bakı böyük; Parad keçir, bax.

7. Hücum etmək. Basqına keçmişdir Məhəmməd Qacar.

8. İrəlidə olmaq, etmək. Başladığım bu yarışda; Mən Sarvanı keçəm gərək.

9. Keçib, keçibdir şəklində – olub-bitmiş bir iş, hadisə və s. haqqında (adətən güzəşt mənasında işlənir). Keçib… Fikirləşmə; Yığışın gedək.

**Keçmiş**, 1. *f. sif.* Ötən, keçən, ötmüş, keçmiş gün, keçmiş dövr. – Varaqlayır kitab kimi keçmiş əyyamı.

2. *is.* mənasında. Olub keçmiş zaman, ötüb keçmiş zaman, ötüb keçmiş vaxt, keçmişdəki həyat, hadisələr. Oxuyub keçmişə lənət yaşaram…

3. Keçmişlər şəklində *is.* mənasında – keçmiş zaman, dövr (qeyri-müəyyənlik bildirir. Atəşli vicdanlar, çılğın ürəklər). Baxdım keçmişlərə, bu həqiqətdir.

**Kef**, *is.* [ər. keyf] 1. Ruhi və ya səhhətcə vəziyyət; hal, əhval. Yaxşı, nə var, nə yox, kefin necədir?

2. Xoş, əyləncə, xoş vaxt keçirmə, nəşə, ləzzət. Niyə buraxırsan kefi əlindən; Bu fani dünyanın kefi, ləzzəti.

3. Arzu, həvəs, istək, meyil; Nə kefdən əsər var, nə təntənədən; Kefimiz sonradan dərd olur bizə.

Kef görmək – *bax* kef çəkmək. Nə qədər mən sağam kef görəcəksən. Kef çəkmək – şənlənmək, zövq almaq, vaxtını xoş keçirmək, nəşələnmək. ...Kef çökməyə gedər... Kefi durulmuq – kefi açılmaq, şadlanmaq, könlü açılmaq, əhvalı yaxşılaşmaq, kefi kök olmaq. Bir az yeyər, içər keyfin durular. Kefindən qalmamaq – daim kef, nəşə içərisində yaşamaq. ...Öz kefindən qalmasın heç kəs... Kefinə dəymək – ürəyini sındırmaq, ürəyinə dəymək. Xanım kefinə dəyir. Kefini pozmaq – əhvalını pozmaq, kədərləndirmək, qanını qaraltmaq. Kefini heç pozma, vətən qardaşı; Əzilər dediyi ilanın başı.

**Kefsiz**, *sif.* Yüngül xəstə, naxoş, azarlı. [Cəlal:] Kefsizəm bir az...

**Keşik**, *is.* Qarovul, güdük; qoruma. Qəbristana keşik çəkən bir qocadan soruşdum... Keşik çəkmək – qarovul çəkmək, bir obyekti qorumaq. Gecə də, gündüz də keşik çəkərək. Keşiyində durmaq (dayanmaq) – qoruyub müdafiə etmək. Ey Vətən...; Durmuş keşiyində sükanımız. Sülhün, səadətin keşiyində biz; Gəl qoşa dayanaq.

**Keşikçi**, *is.* Adətən silahlı surətdə keşik, mühafizə edən, qoruyan, adam; qarovulçu. O, bir keşikçidir hər zaman oyaq.

**Keşiş**, *is.* Xristianlarda: yepiskop ilə dyakon arasında ruhani rütbəsi və bu rütbəni daşıyan ruhani. Mən burada görmədim nə keşiş, nə çar; Bunları nəql etdi bizə qarılar.

**Kəc**, *sif.* Tərs, höcət. Bizik kəc yağının döşündən vuran..

**Kədər**, *is.* [ər.] Qəm, qüssə, dərd, ruhi iztirab. ...ürəyimdə.. kədər vardır.

**Kədərli**, *sif.* Qəmgin, dərdli, mükəddər, hüznlü. Kədər verən, kədər gətirən, qəmgin edən; kədərlə dolu. Bu qəmgin təranə... bu kədərli ney.

**Kəfən**, *is.* [ər.] 1. *məc.* Ölüm rəmzi kimi. Bizimdir bu buruq, bu dolu mədən; Bizə səadətdir, onlara kəfən.

2. *məc.* Ağ örtük. ...Kəfən geyir qış.

3. *məc.* «Bulud» mənasında. Ağarırkən göyün siyah kəfəni.

**Kəhər**, *sif.* Açıq-şabalıdı rəng (*at haqqında*). Öz kəhər atını çapdın dördnala…

**Kəhriz**, *is.* [*fars.*] Yerdən çıxan böyük bulaq, yeraltı su yolu, su kəməri. Bir sığallan kəhriz başında.

**Kəklik**, *is.* Toyuq cinsindən əlvan tüklü çöl quşu. [Vəzir:] De necədir kəklik ovlamaq? Kəklik kimi – cilvəli hərəkət haqqında. Bəzən kəklik kimi qaqqıldaşırlar.

**Kəklikli**. Kəklik olan yer. Kəklikli daşlardan xəbər al məni.

**Kəlağay(ı)**, *is.* Müxtəlif rəngli, haşiyəli, nazik qadın ipək baş örtüyü. Üstünə çəkilən kəlağay qara…

**Kəlağayılı**, *sif.* Başına kəlağayı örtmüş, başında kəlağayı olan. Odur, odur, kəlağayılı o qıza bax.

**Kəlam**, *is.* [ər.] Söz. Şeyxin kəlamı xoşdur. Nə gözəl, nə şirin kəlamları var… // Hikmətamiz, nəsihətamiz söz (ifadə). Böyük dahilərin hər bir kəlamı…

**Kələbək**. *Bax* kəpənək. Yenə ruhum dəli, yurdsuz kələbək; Kimi izlər sarı torpaqda çiçək.

**Kəlisa**. *Bax* kilsə. Onların qoyduğu məscid, kəlisa; Hələ də sarmada xanın varını.

**Kəllə**, *is.* [*fars.*] 1. Baş. Kəlləni yastığa atmaq (qoymaq) = yıxılıb yatmaq, yuxulamaq. At kəlləni yatağına, uzan… yat…

2. Bir şeyin ən yuxarı hissəsi, təpəsi; zirvə. Berlinin kəlləsində sancılacaq bu bayraq.

**Kəlmə**, *is.* [ər.] Söz. Könüldən sevirəm hər bir kəlməni.

**Kəlmə-kəlmə**, *z.* Ayrı-ayrı, sözlərlə, hər sözü ayrıca. Kəlmə-kəlmə danışsa da o saf qadın; Geniş köksü nəfəs alır iftixarla.

**Kəmənd**, *is.* 1. Qədim müharibələrdə düşməni tutmaq üçün uzaqdan atılan ucu ilməli uzun ip. Həmin kəmənd keçib düz boğazıma. Kəmənd atmaq – bir kəsi tutmaq üçün ilməkli ip atmaq. Arazın boynuna kəmənd atırıq.

2. *klas.* Şairanə təşbehlərdə gözəlin saçına, zülfünə işarə. Ürək dedi: bağla məni; O gözlərin kəməndinə.

**Kəmər**, *is.* [*fars.*] Qayış. // Təsbehlərdə: Oder çayı.. Gümüşü bir kəmər kimi…

**Kənar** [*fars.*] 1. Qıraq. – Yollar kənarında güllər əkilsin.

2. *z.* Qıraq, uzaq, mərkəzdən uzaq. Bir su kənarında şəhərdən uzaq…

3. *z.* Çox vaxt yerlik halda: kənarda – uzaqda, aralıda. [Xosrov:] Yaxın gəl, kənarda dayanma, Şapur.

◊ Kənar gəzmək (dolanmaq) – əlaqəni kəsmək, özünü uzaq tutmaq, uzaq olmaq, yaxınlıq göstərməmək. [Qafil:] Dolanma gəl, eşqdən kənar; Ən böyük musiqi canan səsidir.

**Kənd**, *is.* Əhalisi əsasən, kənd təsərrüfatı ilə məşğul olan yaşayış məntəqəsi. Alovlar bürüdü şəhəri, kəndi. Kənd yeri – kənd salınmış yer, kənd. Deyir, kənd yerindən seçmişəm səni. // Kənd rəhbəri – kəndi idarə edən şəxs. Kəndin başçısı. Bu qoca kommunist, bu kənd rəhbəri.

**Kəndciyəz**. «Kənd»dən oxş. Kürün qırağında, Muğan düzündə; Salmanlı adlanan bir kəndciyəz var.

**Kəndxuda**, *is. tar.* Keçmişdə Azərbaycan kəndlərində əhali tərəfindən seçilən və kəndin inzibati işlərini idarə edən şəxs. Onların mənim kimi kəndxudası var.

**Kəndistan**, *is.* [Vaqif:] Xeyir, yanıldınız, ona dil verən; Kəndistan yeridir, bəli, Kəndistan.

**Kəndli**, *is.* 1. Kənddə yaşayan və əsas peşəsi kənd təsərrüfatı olan adam; kənd əhli, kəndçi. Bir kəndli gəlmişdir, sözü var sizə.

2. Bir kənddən olan adamlardan hər biri; yerli. Bizim kəndlilərin nə təqsiri var?

**Kənkan**, *is.* [*fars.*] *köhn.* Əl ilə quyuqazan kankan; quyuçu. Neçə kənkan gəldi, neçə mühəndis.

**Kəpənək**, *is.* Bədən və qanadları toz kimi incə pullarla və cürbəcür rənglərlə bəzənmiş dördqanadlı böcək. Uçuşur arılar, ağ kəpənəklər.

**Kərə**, *z.* [ər. kərrət] Dəfə. [Şapur:] Neçə?.. Gözəl pəri… bu ola bilməz; Biz ki, görüşürük birinci kərə. Bir kərə, bircə kərə – heç. Əmirxan dolamadı bircə kərə də.

**Kərən**, *is. məh.* Yonulmamış yoğun ağac, dirək, iri kötük. Kərəni, pərdəsi hörümçək toru; Deyirlər kasıbın bilinməz goru.

**Kərənti**, *is.* Ot çalmaq üçün uzunsaplı, dişsiz orağa oxşayan alət: dəryaz. Gah kərənti çəkir, gah odun qırır.

**Kərgədan**, *is.* [*fars.*] *zool.* Başının qabaq tərəfində bir ya iki buynuzu olan, Afrika və Cənub-şərqi Asiyada yaşayan, otyeyən, məməli iri heyvan. Kərgədanın çürüməmiş sümükləri; Yaşamışdır yüz min illər bundan qabaq.

**Kərmə**, *is.* Təzək. …Üstü kərmə qoxuyan.

**Kərpic**, *is.* Düzbucaqlı şəkildə qəliblənmiş (bişmiş və ya çiy) gildən hazırlanan tikinti materialı. O (usta, bənna), kərpic qoyduqca kərpicin üstə; Onun əllərini seyr edirəm mən.

**Kərpickəsən**, *sif.* Gildən qəlib vasitəsilə kərpic kəsən, hazırlayan. // *is. mənasında.* Təbib də, alim də, kərpickəsən də; Qəlbində yaşadır o böyük günü.

**Kəs**, *əvəz.* [*fars.*] Şəxs, adam, kimsə. Güldürəcək, şübhəsiz ki, görüb duyan kəsləri. Bir kəs – bir adam, kimsə. [Səhər:] Şəxsi taleyini duymayan bir kəs… Heç (bir) kəs – kimsə, heç kim, bir nəfər də, bir adam da. Heç kəsin haqqına göz dikmədik biz: Hər kəs – hər bir adam, hər şəxs. Hüsnün eylər hər kəsi heyran, gəlin.

**Kəsək**, *is.* Quruyub bərkimiş palçıq yumurusu. Kəsək kimi – bərk. Varlığa daş kimi, kəsək kimi sərt; Bir insan eşqilə gülməyənlər var.

**Kəsər**, *is.* Hər hansı bir kəsici alət. Atam hazırlayır əlində kəsər; Toyuq banlayanda başı kəsilər.

**Kəsilmək**. 1. «Kəsmək»dən *məch.* – Toyuq banlayanda başı kəsilər.

2. *məch.* Yanılmaq, çatlamaq. – Qalın dodaqları gömgöy kəsilir.

3. Bir sıra isimlərlə birləşərək mürəkkəb feil və ifadələr düzəldilir; məs.: ayağı kəsilmək, əli kəsilmək, çarəsi kəsilmək. – Ana yurdun hər yerindən kəsiləcək yad ayağı.

**Kəskin**, *sif. məc.* Nüfuzedici, iti. – Şahin baxışları olduqca kəskin…

**Kəsmək**, *f.* 1. Kəsərti vasitəsilə bütövdən bir hissə ayırmaq; bölmək, parçalamaq. Ay oğlum, bir loxma kəs bu çörəkdən.

2. Boğazlamaq, başını bədənindən ayırmaq. Bəslədiyi kök quzulardan kəsər..

3. Susmaq. Atam acıqlanıb: «Kəs, – dedi, – murdar; Bu gecə vaxtında nə azarın var?»

4. Şiddətli təsir etmək, kəskin ağrı vermək, göynətmək. Ayaz xəncər kimi yeri kəsirdi.

5. Dayandırmaq, saxlamaq, son vermək, daha davam etdirməmək. Qabağı kəsmişdi yoldan Şahsuvar.

6. Ara vermək, dayanmaq, sakitləşdirmək. Sus, ey bülbül, kəs, ey tufan…

7. Örtmək, mane olmaq, qabağını tutmaq. Bağlayıb bəndləri, kəsib yolları; Qıy vurub keçdiniz.

**Kəsməşikəstə**, *is. mus.* Azərbaycan xalq havalarının birinin adı. ..Dillərdə bayatı, kəsməşikəstə…

**Kəşf**, *is.* [ər.] Məlum olmayan bir şeyi tapıb meydana çıxarma // Tədqiqat, axtarışlar nəticəsində tapılmış, aşkara çıxarılmış şey. <u>Kəşf etmək</u> – tədqiqat, axtarışlar, müşahidələr nəticəsində tapmaq, aşkar etmək, müəyyən etmək, açmaq. [Cəlal:] Hələ kəşf etməmiş dahilər onu.

**Kətmən**, *is.* Alaq vurmaq, torpağı yumşaltmaq üçün kənd təsərrüfatı aləti. Qələm də, süngü də, bel də, kətmən də… <u>Kətmən vurmaq</u> – kətmənlə işləmək. Bəzən gül altında kətmən də vurdu.

**Ki**[1], *bağl.* 1. Baş cümlə ilə budaq cümləsini bir-birinə bağlayır. Zənn etmə ki, qapıcınam mən.

2. Bağlayıcı vəzifəsini görən bir sıra sözlərə (ki, necə, niyə və s.) qoşularaq, onlarla sonrakı sözlər arasında əlaqəni daha da qüvvətləndirir. [Valentin:] Necə ki, bilirəm?

3. Feildən sonra başqasının nitqini ifadə etməyə xidmət edir. Dedilər ki, səni çox istəyir xan.

4. Müxtəlif sözlərdən sonra gələrək həmin sözlərin mənasını qüvvətləndirir. O ki qalxmayacaq bir də məzardan.

5. Sadə bağlayıcı, qoşma, ədat, feili bağlama, işarə əvəzliyi və s.-dən sonra gələrək, mürəkkəb bağlayıcı əmələ gətirir; məs., ancaq ki, ona görə ki, odur ki, indi ki, nə də ki. Bu sözlərdə nə şeir var, nə də ki, hikmət.

**Ki**[2]. Aşağıdakı mənalarda və hallarda işlədilən ədat.

1. Əsasən cümlənin sonunda kinayə məqamında işlədilir. Yox, Molla Nəsrəddin deyiləm ki, mən.

2. Kinayə, istehza və ya etiraf məqamında işlədilir. Eh, onunla nə işim var, cəhənnəmə ki.

**Kiçicik**, *sif.* Olduqca kiçik, çox kiçik. Bu daşlı, qayalı kiçik dağa; Gərir qanadını payız axşamı.

**Kiçik**, *sif.* 1. Həcmcə, ölçücə balaca; xırda (böyük müqabili). Yüz xətt bölür hər ümmanı, hər kiçik çayı.

2. *məc.* Əhəmiyyətsiz, cüzi, yüngülvarı. Hər kiçik səhvimiz dərs oldu bizə.

**Kiçilmək**, *f.* Həcmcə, miqdarca, ölçücə daha kiçik olmaq; azalmaq, balacalaşmaq // Getdikcə kiçik görünmək, balacalaşmaq. Nöqtə kimi kiçilmişdir təyyarələr.

**Kifayət**, *z.* [ər.] Kifayətdir (şəklində) – yetər, çatar, bəsdir. Elə bu da kifayətdir, qızlara…

**Kilidləmək**, *f.* Kilidlə bağlamaq. // *məc.* mənada. Öz kinini dişlərilə kilidləmiş böyük torpaq [Fransa]

**Kilidlənmək**, *məch.* Bərk, möhkəm qapanmaq; açılmamaq. Aclığından dişləri kilidlənən… insanları…

**Kilidli**, *sif. məc.* Möhkəm qapanmış, qırılmaz. Orda kilidlidir buz dənizləri.

**Kilo** [fr.] 1000 qrama bərabər çəki ölçüsü. Hər qozasından; Bir kilo toplansın azı pambığın.

**Kilometr** [*fr*. kilo *yun*. metron] 1000 metrə bərabər, məsafəsi 1000 metr olan uzunluq. Onun qanadında saatda beş min; Kilometr uçacaq sabah insanlar.

**Kilsə**, *is.* əsli *yun.* Xristian ibadətgahı, məbədi. Qədim-qədim kilsələrin xaçlı qülləsi. // Xristianlıqda: din işləri ilə, dini həyatla məşğul olan təşkilat. Dini təriqət, məzhəb səsi. Katolik kilsəsi

**Kim**, *əvəz*. 1. Cümlədə sual mənasında işlənib, insan adlarını və insan təsəvvürü verən varlıqların adlarını əvəz edir; hansı adam. Kim aldı? İlyas!

2. «Adam», «tanış», «qohum», «dost» mənalarında işlənir. Yaxşı, hardasınız, kimlərdənsiniz?

3. «Hər kəs» sözünü əvəz edir. Kim bilir, neçə baş kəsilir gündə.

**Kimi**, *qoş*. 1. Bənzətmə və müqayisə bildirir. [Azər baba:] İgidlər; Dərələr, dağlar olsa da; Üstündən atılın şirü nər kimi. İş üstündə Fərhad kimi külüng çaldı.

2. Ani zaman bildirir. Söylə, ilham həsrətinə dözüm nə vaxta kimi?

**Kimisi**, *əvəz*. Kimi, bəzisi. Kimisi su səpir; Kimisi gül əkir…

**Kimsə**, *əvəz*. 1. Məlum olmayan şəxs, adam. Bir qərib kimsə ki, səni haraylar.

2. Heç kim, heç kəs, heç biri, heç bir adam. Kimsə girişməzmiş onunla cəngə.

**Kimsəsiz**, *sif.* Heç kəsi (yaxın qohumu, arxası, köməyi) olmayan; adamsız. [Şirin:] Ah, nələr var imiş dünyada nələr; İçimdə kimsəsiz bir quzu mələr; İndi mən uzaqlarda tək yaşaram, kimsəsiz // *is.* mənasında. Ey! Siz! Yurdsuz və kimsəsiz..

**Kin**, *is.* [*fars.*] Gizli ədavət hissi. Yox onun qəlbində nə qərəz, nə kin..

**Kinayəli**, *sif.* İçində kinayə olan, kinayə. Kinayəli baxışların diş qıcayır bir iblis tək.

**Kinli**, *sif.* Kin saxlayan. Onun kinli gözlərində sabahın qorxusu vardır.

**Kino** [*yun.* cinema – hərəkət edən] *dan.* Kinofilm, ekranda göstərilmək üçün kinoşəkil. Ürəyindən keçən yeri kinolarda görmüş ancaq.

**Kirimək**, *f.* Susmaq, danışmamaq, dinməmək, səsini kəsmək. [Məryəm:] Neçin kiriyirsən, möhtərəm qonaq?

**Kirimişcə**, *z.* Sakitcə, susmuş halda, dinməz-söyləməz. …Kirimişcə sıpıxar…

**Kirli**, *sif.* Çirk basmış, çirkli. Başında bir kirli, bir əski təsək; Dünyada qazancı bir budur desək…

2. *saf.* Olmayan, təmiz olmayan. Ah, o rəzil qadın; O kirli amal…

**Kirpi**, *is. zool.* Məməlilər sinfindən dərisi tikanla örtülü heyvan. Dar qəlbinin qabağında kirpi kimi yaşayan…

**Kirpik**, *is.* Göz qapağının kənarlarındakı tükcüklər. Azacıq islandı sıx kirpikləri.

**Kişi**, *is.* 1. Cinscə qadının əksi. [Məryəm:] Bəs necə? Kişi də arvadsız olar?

2. Hörmət əlaməti olaraq yaşlı kişilərin adlarına əlavə olunur. Qasım kişi dünən gecə qoşub ulaqlarını.

**Kişilik**, *is.* Qoçaqlıq, igidlik, mərdlik, mətanət, səbat, qeyrət, hünər. [Şapur:] Məncə, min kişilik orduya dəyər.

**Kişmiş**, *is.* [*fars.*] Üzüm qurusu. Görəcəyəm… bığlarını kişmişlə buran hampaların ölümünü.

**Kişnəmək**, *f.* 1. Kişnərti səsi çıxarmaq. Köhlən atlar kişnədikcə ərənlərin nərəsinə; Ağır göylər, asimanlar dilə gəlmiş yer səsinə.

2. *məc.* Uğultu səsi çıxarmaq; uğuldamaq. Qum təpəsi kimi yeridikcə qar; Buludlar kişnədi. Göylər ağladı.

**Kişnəşmək**, *qarş.* Kişnəmək (eyni vaxtda bir çox at haqqında). Muğanda sayrışır bağlar, bağatlar; Oynaşır ilxılar, kişnəşir atlar.

**Kitab**, *is.* [ər.] Üzərində hər hansı bir mətn olan vərəqlərin bir araya gətirilərək tikilib cildlənmiş nəşriyyat növü // Əlyazması şəklində olan bu cür əsər. Kamala yetdikcə sona çatmadın; Həyatın yazdığı kitablar kimi.

**Kitabça**, *is.* Kiçik kitab, balaca kitab. Bəlkə də...; Bir kitabça varaqlayıb məni anırsan?

**Kitabxana**, *is.* [*ər.* kitab və *fars.* xana] Ümumi istifadə üçün kitabların toplandığı və mühafizə edildiyi yer. Yanıb külə döndü kitabxanalar.

**Klub**, *is.* [*ing.* club] Müəyyən ictimai qrupa, peşəyə, sənətə mənsub, şəxslərin birgə istirahətini, əyləncəsini, idman məşğələlərini və s. təşkil edən ictimai təşkilat. // Mədəni-maarif müəssisəsi. Sən atıldın klublara, el, oba gördü bunu.

**Knyaz** [*rus.*] *köhn.* Bəzi zadəgan nəsillərinə nəslən keçən fəxri titul və bu titulu daşıyan şəxs. Knyaz Sisyanovun o məğrur başı; Burda parçalandı.

**Kol**, *is.* Torpaqdan qol-budaq şəklində ayrılan alçaq, ağacaoxşar bitki. Kollarında turac gəzir.

**Kolxoz**, *is. köhn.* [rus «kollektivnoye xozyaystvo» söz. ixtisarı] Kollektiv təsərrüfat, iri yüksək səviyyədə mexanikləşdirilmiş kənd təsərrüfatı arteli. Gedəcəyəm: ...Kolxoza birxətlə yazılan əməkçilərin ağsaçlı qarısını.

**Kolxozçu**, *is. köhn.* Kolxoz üzvü olan kəndli, kolxoz üzvü. Kolxozçu baxdıqca yerin izinə...

**Kol-kos**, *top.* Bir-birinə qarışmış, dolaşmış müxtəlif kollar; kolluq. Kolları-kosları yıxıb uçurur.

**Koma**, *is.* Primitiv ev, daxma. Bu yaxın komada dincələk bir az.

**Komacıq**, «Koma» söz. kiç. Kasıb komacığım özümə yetər.

**Komandan** [alm. kommander-dən] Komandir. Şairlər ordusu səf-səf düzülsün; Yoldaş Mayakovski komandan olsun.

**Komissar** [*fr.* komissare] Üzərində ictimai-siyasi, təşkilati və inzibati vəzifələr həvalə olunmuş rəhbər şəxs // Hərbi hissənin döyüş qabiliyyəti və siyasi vəziyyəti üçün komandirlə bərabər (1918-1942-ci illər). Gurultulu nitqlərlə olmaq istər komissar.

**Kommuna** [*fr.* kommune] Əmək və mülk ümumiliyi əsasında birlikdə işləmək və yaşamaq üçün birləşmiş kollektiv. Kommuna uğrunda şeirin nəfəsi.

**Kommunar** [*fr.* kommunard] *tar.* 1871-ci ildə Paris kommunası iştirakçısı. Çəkməçi Trenqo adlı bir usta; Parisdə şanlı bir kommunar oldu.

**Kommunist** [*fr.* kommunism, əsli *lat.* communus-dən] *köhn.* Kommunist partiyasının üzvü. …Bir kommunist adlanıram bu gündən.

**Kommunizm** [*fr.* kommunizme, əsli lat. kommunist – ümumi] *köhn.* İstehsal alətlərinin ümumiləşdirilməsi, sosialist inqilabı, proletar diktaturası, istismarçı siniflərin aradan qaldırılması prinsipinə əsaslanan və iki mərhələsi olan yüksək ictimai quruluş // Həmin ictimai quruluşun ikinci, yüksək fazası. Odur kommunizmin zəfər bayrağı.

**Komsomol** [*rus.* «Kommunistiçeskiy soyuz molodyoji»nın ixtisarı] 1. *köhn.* Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı. Bəxtiyar, məni də komsomola yaz.

2. Canlı dildə «komsomolçu» mənasında. Ah, neçə kommunist, neçə komsomol…

**Konsert** [*ital.* concerte] Bir sıra musiqi, balet əsərlərinin estrada və s. nömrələrinin müəyyən proqram əsasında kütləvi surətdə ifa olunması. Bizim kolxoz kəndlərinin konsertinə gedirsən.

**Kor**, *sif.* 1. Görmək qabiliyyətini itirmiş, gözü görməyən. Bizim kor sənəmin bir mərəzi var.

2. *məc.* Ətrafdakı hadisələri, işləri görməyən, dərk etməyən, başa düşməyən, hiss etməyən. Şeyx doğru deyir; Kor qalsın onlar.

3. Kor adam. Mən kor deyiləm ki, saç ağartmısan.

4. Qoşulduğu sözlərə pislik, məşumluq məfhumu verir. Nə qədər küskünəm kor taleyimdən.

**Kor-koranə**, *z.* Düşünmədən, fikirləşmədən, mülahizə etmədən, görmədən, bilmədən. Kor-koranə bir zəhmətdən; Tez yorular başla bədən…

**Kosa**, *sif.* Üzündə tük bitməyən yaxud seyrək tük bitən // *is.* mənasında. Ancaq ürəyində deyir ki, kosa.

**Kosmopolit** [*yun.* kosmopolites – dünya vətəndaşı] Özünü heç bir millətə mənsub etməyən, kosmopolitizm tərəfdarı olan adam. Kosmopolit tənqidçilər ömrü boyu dandı məni.

**Kotan**, *is.* Yer şumlamaq üçün enli metal kavahını olan kənd təsərrüfatı aləti. Bir kotana qayış olub özüm çəkdiyim.

**Koverkot** [ing. koverkoat] Üst paltarlıq bahalı yun parça növü. Bu parçadan tikilmiş paltar və s. Gah koverkot, gah da şevyot paltar geyindi.

**Köç**, *is.* Bir yerdən başqa yerə köçən adam qrupu, qafilə. Köç yolu – köçərilərin yaxud çöl heyvanlarının, sürülərin saldığı, keçdiyi yol. Nə zaman ki, arabalar köç yoluna düzülür; Kəndli yoldaş əkinindən, biçinindən üzülür. Köçünü çəkmək – köçmək, getmək (bir yerə). Köçünü çək evimizdən.

**Köçəri**, *sif.* 1. Oturaq həyat keçirməyən, ev-eşiyi ilə daim bir yerdən başqa yerə köçən (oturaq ziddi). // *is.* mənasında. Yadigardır köçərilər dünyasından; Köçəridir xalqımızın çox hissəsi əzəldən.

2. Qışda isti cənub ölkələrinə uçub gələn (quşlar haqqında). Tarladakı sünbülləri dənlər köçəri quşlar.

3. *məc.* Bir yerdə qərar tutmayıb, tez-tez yerini dəyişən, köçəri həyat keçirən. [Xəyalım:] Köçəri quş kimi hər yerə qonar.

**Köçmək**, *f.* 1. Yaşayış yerini dəyişmək, bir yerdən qaçıb başqa yerə gəlmək, daşınmaq. De, köçürsən?

2. Ötüb getmək, keçmək, yerini dəyişmək (fəsil haqqında). Min yay gəlib qış köçsə; Bizim bahar saralmaz.

3. *məc.* Ərə getmək, gəlin getmək. Gəlin köçür! Gəlin köçür! Bərəkət var!

4. *məc.* Ölmək, dünyadan getmək. Biz köçürük, gəlir yeni nəsillər.

**Köçürmək**, *icb.* 1. Surətini çıxarmaq, üzünü çıxarmaq, olduğu kimi yazmaq. Qoy onun kiçicik bir şeirini mən; Burdaca köçürüm öz dilimizə.

2. *məc.* Ərə vermək. Qızımı da köçürmüşəm.

**Köhlən**, *sif.* Harın bəslənmiş *(at haqqında)*. Volqadan su içmiş köhlən atların; Üstündə girdablı çaylara cumduq. // *is.* mənasında. Cıdırda qızışan köhlənlər kimi.

**Köhnə**, *sif.* [*fars.*] 1. Çoxdan qalmış, keçmiş indiyədək davam edən, keçmişə aid olan, vaxtı keçmiş. Tunc baltalar kimi köhnə qanunlar; bir əllə də qılınc vurmaq mənim köhnə adətimdir…

2. Qədim, keçmiş dövrə aid, əski. Köhnə bir evciyəz gördüm. Onu dinlədikcə köhnə Reyxstaq; Berlinin qəlbində səs dalğalanır.

3. Çoxdankı, əski. A köhnə yoldaşım, a köhnə atım.

**Köhnə-köşkül**, *sif.* Çox köhnə, istifadəyə yaramayan; cındır, dağılmış, cırılmış, köhnə-kürüş. Köhnə-köşkül paltarımı öz əyninə geyənlərə..

**Köhnəlmək**, *icb.* Vaxtı keçmək, dəbdən düşmək, az işlənmək, az istifadə olunmaq, bu gün üçün yaramamaq (söz və ifadələr haqqında). Artıq bu sözlərin köhnəldi vaxtı.

**Kök**, *sif.* Ətli, şişmiş, gombul, yoğun (arıq ziddi). Bəslədiyi kök quzulardan kəsər…

**Köklü**, *sif.* Torpaq altında kökü, rişələri olan. // Kökü üstündə olan, kökü ilə birlikdə. Uçduqca yarğanlar, köklü ağaclar; Kür udur onları bir əjdaha tək.

**Köks**, *is.* 1. Döş, sinə. Köks qəfəsi. Köksün qəfəsinə sığmayır ürək.

2. *məc.* Ürək, qəlb. Xeyirxah arzular köksün içində… Döyünən köksümün qəfəsi dardır. <u>Köksünü gərmək</u> – özünü qorxmadan qabağa vermək, döşünü qabağa vermək, sinə gərmək, müqavimət göstərmək. Qanlı süngülərə gərmiş köksünü; Qanilə yazmışdır hər qalib günü.

**Köksüz**, *sif.* Kökü rişəsi olmayan. Köksüz bir ağacın meyvəsi varmı?

**Kölə**, *is.* Quldarlıq və feodalizm cəmiyyətində: bütün hüquq və istehsal vasitələrindən məhrum və sahibkarın xüsusi mülkiyyəti olan adam; qul. ...Zülm elinin bir köləsi sayılmasan.

**Köləlik**, *is.* Kölənin, qulun vəziyyəti, halı; qulluq. Bəxtiyar arzular eylər bir dünya; Ağalıq, köləlik olmasın orda.

**Kölgə**, *is.* Qarşı tərəfdən işıq düşən hər hansı bir şeyin qara əksi. Onun nə kölgəsi, nə meyvəsi var. <u>Kölgə salmaq</u> – kölgələmək, kölgə etmək. Başım üstə kölgə salsın. <u>Kölgə kimi</u> – tək yanından əl çəkmədən, daim izləyərək, ayrılmadan. Xudpəsəndlik kölgə kimi izləyir bizi. [Mahnigar:] Yenə əl çəkmir məndən kölgə tək.

**Kölgələnmək**, *f.* 1. Kölgə düşən yerdə oturmaq. Araz gah parlayır, gah kölgələnir...

2. *məc.* Üzündə qəm, qüssə, kədər əlaməti zahir olmaq; qəmlənmək, qüssələnmək, kədərlənmək (adətən «gözləri», «çöhrəsi», «üz-göz», «baxışı» sözləri ilə). Nəhayət yorulur, kütləşir başı; Donub kölgələnir məyus baxışı.

**Kölgəli**, *sif.* 1. Kölgə salan, kölgəsi olan. Kölgəli çinarlar qatar-qatardır.

2. Kölgə düşmüş, kölgə altında olan; kölgə. O kölgəli eyvanları gördünmü sən?

3. *məc.* Şübhəli, qaranlıq. Ehtiyatlı, səliqəli hər bir əsər; Gah şəfəqli, xoş görünür, gah kölgəli.

**Kölgəlik**, *is.* Kölgə düşmüş yer, kölgə olan yer; kölgəli yer. Yayda... Yol üstü... Ağac kölgəsi; ...Ana sığınmışdır bu kölgəliyə.

**Kömək**, *is.* 1. Birinin qarşılaşdığı çətinlikləri, sıxıntıları yüngülləşdirmək üçün görülən iş, hərəkət; yardım. Onun köməyindən çox xoşlandım, – de. <u>Köməyinə çatmaq</u> – kömək etmək, yardım etmək, yardım göstərmək. Çatar köməyinə bizim dəstələr.

2. *məc.* Arxa, himayəçi, havadar. Oydu göz dikdiyim, oydu köməyim.

**Köməkçi**, *is.* Bir işdə kömək edən şəxs; yardımçı. Buyur köməkçim ol, yapış əlimdən.

**Köməksiz**, *sif.* Heç bir köməyi olmayan, heç kəsdən kömək görməyən; aciz. // Tək, kimsəsiz, himayəsiz. Təkəm, köməksizəm, uşaqlar körpə…

**Kömlək**, *is. köhn.* Köynək. Gördüm kirli kömləyini əynindən atanların döşündəki beşbucaqlı qırmızını.

**Könül**, *is. şair.* Qəlb, ürək (mənəvi mənada). Sevgilim, könlümdən keçənlərə bax. [Şahbaz:] Könlümdə rəqs edir bütün xilqətdə // *məc.* Obrazlı təşbehlərdə, tərkiblərdə işlənir. Mənsə könül mülkündəki bir riqqətlə; Qonağıma başlayıram söhbətimi. Könül vermək -1) aşiq olmaq, ürəkdən sevmək. Sənsə ona könül verdin və sarıldın boynuna; 2) razılıq vermək, razılaşmaq, razı olmaq. [Xosrov:] Şirin də verməyir könlünü görək.

**Könülaçan**, *sif.* Ürəkaçan, xoşagələn; xoş; sevindirici, zövq verən, ləzzət verən. Dillərdəsə könülaçan min bir xəbər.

**Könüllü**, *sif.* …təbiətli, …ürəkli (adətən qoşulduğu sözü səciyyələndirir). Deyən bir insana uydu zavallı; O şair könüllü, rəssam xəyallı.

**Könülsüz**, *sif.* və *z.* İstəmədən, istəməyərək, arzusuz, həvəssiz, ürəksiz razılığı olmadan, istər-istəməz. Ovçunun könülsüz atdığı güllə…

**Köpək**, *is.* 1. İt. Ala-seyrək, arabir gəlir köpək səsləri.

2. Söyüş kimi işlənir. Sus, köpəyin qızı, doğraram səni.

**Köpüklənmək**, *f.* 1. Köpük əmələ gəlmək, köpük hasil olmaq, köpüklə örtülmək. Dəniz coşur, köpüklənir…

2. Çox tərləmək, tər tökmək. Atım köpüklənir, atım buğlanır.

**Köpüklü**, *sif.* Köpüyü olan, köpük verən, köpüklənən, köpüklə, örtülü. Axır qıjıltıyla köpüklü çaylar…

**Köpürmək**, *f.* Qabarıb köpüklənmək, qabarıb şişmək, kükrəmək. Köpürüb ağarır qabarcıqları…

**Körpə**, *sif.* Südəmər, çağa. Yanır od içində körpə uşaqlar. // Yenicə doğulmuş, bala. Heç tələsmə, körpə quzum. // *is.* mənasında. Südəmər uşaq. Bizim evdə bir körpə var; Qəlbi yeni, fikri yeni.

2. *məc.* Təzə, tər, yeni, sütül. Bu gün basdırdığın körpə şitillər…

3. Yeniyetmə, lap gənc, uşaq kimi görünən, hələ yetişməmiş. Körpə yaşlarında çox ağlamışam.

**Körpəcə**, *sif.* Çox balaca, çox körpə, kiçik. Alagöz, sarışın, körpəcə bir qız; Dörd divar içində ağlayır yalqız.

**Körpəcik**, *is.* «Körpə» söz. oxş. Ah. O körpəciyin nə dərdi vardır? Onu da ağladan bir intizardır.

**Körpəlik**, *is.* İnsanın, heyvanın südəmər, südyeyən dövrü; körpə uşağın, heyvanın hal və keyfiyyəti. // Körpəlikdən, körpəliyindən şəklində – lap uşaqlıqdan, kiçik yaşlarından. Mən səni sevmişəm körpəliyimdən.

**Körpü**, *is.* Çay, dəmir yol və s. üzərindən keçmək üçün daşdan, torpaqdan, dəmirdən qurulan tikili, keçid. Çayların üstündən bir körpü saldı.

**Körpüsüz**, *sif.* Körpüsü olmayan, körpü tikilməyən. Yer üzündə qalmayacaq körpüsüz çaylar.

**Körük**, *is.* Kürədə odu qızartmaq və s. məqsədlər üçün yanları büküşlü dəri və taxtadan düzəldilmiş alət. Körük kimi – qabarıq, şişərək. Körük kimi sönüb gedir propellerin gur səsi.

**Kötük**, *is.* 1. Kök rişə. Qopur kötüyündən tikanlı kollar.

2. *məc.* Gic, küt, kütbeyin. Ağıl ummayıram boş kötüklərdən.

**Kövrək**, *sif. məc.* Zəif, titrək, nazik, yumşaq. Min ildir ki, bu əsərlərin qəlbi kövrəkdir.

**Kövrəlmək**, *f. məc.* Bəzən «ürəyi», «qəlbi», «könlü», «səsi» sözləri ilə – mütəəssir olmaq, riqqətə gəlmək, təsirlənmək, doluxsunmaq, ağlamsınmaq. Salon davam edir, kövrəlir səsi.

**Köy**, *is.* [*türk.*] Kənd. Kürün sahilində var əski bir köy; Üstündə hər zaman çılpaq olur göy.

**Köynək**, *is.* Bədənin yuxarı hissəsinə geyilən yüngül geyim. İslanıb su olur əynində köynək // *məc.* Libas, paltar mənasında (adətən rəng adları ilə). Yaşıl köynəyini geyinir meşə; Yaxama quş kimi qonur bənövşə.

**Köynəklik**, *sif.* // *is.* mənasında. Qızıl güldür köynəkliyim.

**Kral**, [rus. korol, əsli slavyancadan] Bəzi dövlətlərdə hökmdarların titulu; padşah, habelə titulu daşıyan şəxs. Amadu! Qradaşım, ucalt səsini; Sən ümid gözləmə kraldan, serdən!..

**Kulak** [*rus.*] Qolçomaq. Əsmər qarı sümüklənir kulakların yanında.

**Küçə**, *is.* Nəqliyyatın və adamların hərəkəti üçün yaşayış məntəqələrində iki sıra tikililər arasındakı açıq sahə, boş yer, yol. Şəhərə sığmayır geniş küçələr.

**Küçük**, *is.* 1. İt balası.

2. Bəzən «kiçik» əvəzinə işlənmişdir; Türküyə türklərinin dilində də kiçik kimi işlədilir. Böyük Füzulinin şu küçük bağı; Gülümsər hər gecə məlahətindən.

**Kükrəmək**, *f.* Hirslənmək, özündən çıxmaq, bərk qızmaq; coşmaq. Bir zaman kükrəyib at oynatdığım; Turaca, kəkliyə tüfəng atdığım… // *məc.* Həddindən artıq qalxmaq, yüksəlmək, qabarmaq. Sel kimi kükrəyib su kimi axdın; Axar Kürüm kükrədiyim zamandan.

**Kükürd**, *is.* Sənayedə, kənd təsərrüfatında, tibdə işlənən sarı rəngli tezalışan kimyəvi maddə. Mən nəfəsləri benzin və kükürd qoxulu milyonların şairiyəm.

**Kükürdlü**, *sif.* Tərkibində kükürd olan, kükürdlə qarışığı olan. Kükürdlü nəfəslərilə, zəif səslərilə qarın; Qış sarayına doğru getdilər…

**Kül**, *is.* Yanmış şeylərdən qalan boz-qara rəngli toz. Fələklər başına soyuq kül tökdü. Külə döndərmək – *məc.* məhv etmək, yox etmək. Qoy külə döndərsin gedən baxışı. Külə dönmək – 1) yanıb qurtarmaq, kül olmaq. Yanıb külə

döndü gömgöy zəmilər. 2) *məc.* məhv olmaq, yox olmaq. ...Külə dönməz arzular. Külü göyə sovrulmaq – tamam məhv edilmək, axırına çıxmaq. Külünüz göylərə sovrulacaqdır. Külünü göyə sovurmaq – tamamilə məhv etmək, axırına çatmaq. Gələndə düşmənlə süngü-süngüyə; Bir nərən sovurur külünü göyə.

**Külək**, *is.* Havanın üfüqi istiqamətdə hərəkətindən ibarət təbiət hadisəsi; yel. Külək əsir, qum sovrulur, gözə girir toz-torpaq.

**Külliyyat**, *is.* [ər.] Bir yazıçı, şair və ya alimin çap edilmiş bütün əsərlərinin toplusu. Açıb qarşısında külliyyatını...

**Külüng**, *is.* Daş çıxarma və torpaq qazmaq üçün istifadə edilən bir ucu sivri, o biri ucu isə enli alət. O kimdir, külüngü dağ kimi vurur; Zülmün... qəbrini qazan; Kürəklər, külünglər... bizdədir. [Fərhad kimi] külüng vurmaq (çalmaq) Gəlinlər də, ağbirçəkli qadınlar da; Fərhad kimi külüng vurub bu dünyada. Külüng şairi – zəhmətkeş şair haqqında deyilir. Dedilər arxamca: «El şairidir, külüng şairidir, bel şairidir...»

**Künc**, *is.* [*fars.*] Bucaq, guşə. Bir qaranlıq küncə hər çəkiləlim.

**Küp**, *is.* Bişmiş sarı palçıqdan, gildən qayırılan iri saxsı qab. Küp dibində yatan – daim sərxoş olan adam haqqında. Tanıyan Salyanda; Yıxılıb küp dibində yatan Şirəlini. Küp-küp içmək – həddindən çox içki içmək. Yaxşı gündə küp-küp içər sağlığına.

**Kürd**, *is.* Bir çox ölkələrdə (Türkiyədə, İranda, Əfqanıstanda, Azərbaycanda və s.) yaşayan irandilli xalq və bu xalqa mənsub adam. Kürd qızından belə oğul?

**Kürək**, *is.* Torpaq və s. atmaq üçün ağacdan qayrılmış uzundəstəkli alət. Zülmün... qəbrini qazan; Kürəklər... bellər bizdədir.

**Kürən**, *sif.* Saçı, tükü parıltılı sarı-qırmızı rəngdə olan. Qaraqabaq, yerəbaxan, gözü gömgöy, rəngi kürən...

**Kürsü**, *is.* [ər.] Tribuna, kafedra. Bir şair kimi sinə gərdi o, danışmaq kürsüsünə.

**Kürü**, *is. zool.* Balıqların, amfibiyaların, molyuskaların və suda yaşayan başqa heyvanların artmaq üçün tökdükləri dənəşəkilli yumurtacıqlar. Gəzir onlar bir nizamla; Yuva qurub kürü salır.

**Küsdürmək**, *t-li.* Küsməsinə, incimәsinə səbəb olmaq; incitmək, ürəyinə toxunmaq, qəlbini qırmaq. O tayda gördüyüm çardaqlı damlar; Xəyalı küsdürür bu kainatdan…

**Küsənmək**. 1. Ummaq, gileylənmək, küsən kimi olmaq. …yağılar küsəndi bizə.

2. Qibtə etmək, həsrətini çəkmək. Mən də küsənmişdim sənin halına.

**Küskün**, *sif.* Küsmüş, incik, incimiş, narazı. O küskün baxışlı qara gözlərin; Nələr düşündürür… onun həyatı; Nə qədər küskünəm kor taleyimdən.

**Küskünlük**, *is.* Küskünlük, küsü saxlama, küsmə, incik-lik, narazılıq. Dedi: – Az-az görünməyim küskünlükdən ni-şanədir.

**Küsmək**, *f.* Hər hansı bir səbəbə görə birindən incimək, onunla danışmamaq, onu dindirməmək. Aqil olmaq istə-yənlər bir-birindən küsməsin // Ümumiyyətlə incimək, qəlbi sınmaq, xətri qalmaq. [Şapur:] Nə olar… nə olar… küsmə-rəm sizdən.

**Küt**, *sif.* Kütbeyin, gec başa düşən, zehinsiz, dərrakəsiz, fərasətsiz, qanmaq, qavrama qabiliyyətindən məhrum. …Paxılların küt başında.

**Kütlə**, *is.* [ər.] Əhalinin, xalqın böyük bir topluğu: əhali-nin, zəhmətkeşlərin geniş dairəsi; camaat. …Böyük bir kütlənin başına darmış. // Ümumiyyətlə camaat, xalq, əhali, böyük izdiham. Dəmir qolları ilə fəxr edən kütlə…

**Kütləşmək**, *f. məc.* Həssaslığını itirmək, qavramaq qabi-liyyətini, dərrakəsini itirmək. Nəhayət, yorulur kütləşir başı; Donub kölgələnir məyus baxışı.

**Kütüm**, *is. zool.* Çəkikimilər fəsiləsindən vətəgə balığı, ziyad balığı. Kütüm balıq təmiz, dadlı; Plov üstdə məzəlidir.

# Q

**Qabaq**, *z.* 1. Əvvəl, irəli. Reystağı seyr elədim iki il qabaq.

2. Üz, surət, çöhrə, sifət. Ağ alnında açılmışdır ay qabağı.

3. Tez, əvvəl. Kəndin yoxsulları hər kəsdən qabaq.

4. Ön tərəf, qabaqdakı tərəf. Ax! Namərd… Deməli, boş qaldı qabaq!

5. *qoş.* mənasında. Yerlik halında – qabağında – önündə, qarşısında, qənşərində. Bəzən ayna qabağında dayanıb gəlin. // Özündən irəlidə. Qabağında qulluqçular.

6. Bir şeyin olduğu, özünü göstərdiyi tərəf. Yelin qabağını yel kimi kəsdi.

☐ Qabaqdan qaçmaq – qorxmaq, çəkinmək, qorxaqlıq göstərmək. Qaçdı tülkü kimi, qaçdı qabaqdan. Qabağa düşmək – irəli çıxmaq, özünü qabağa vermək. Deyərək qabağa düşdü İzmistan. Qabağı saxlamaq – bir hadisənin baş verməsinə mane olmaq üçün lazımi tədbirlər görmək, onu baş verməyə qoymamaq. Qabağı saxlasın gizlənincə biz.

**Qabaqca**, *z.* Əvvəlcə, irəlicə, əvvəldən, irəlidən. Qabaqca bilin ki, bu döyüşlərin..

**Qabaqdakı**, *sif.* Qabaqda olan, irəlidə yerləşən; irəlidəki. Tutaq qabaqdakı qayalıqları.

**Qabaqlaşmaq**, *f.* Üz-üzə durmaq, qarşılaşmaq. Tanbur ilə telli sazı; Qabaqlaşıb çalaq barı.

**Qaban**, *is.* Vəhşi donuzun erkəyi. O, tox qaban kimi fısıldayır.

**Qabar**, *is.* Çox sürtülməkdən, toxunmaqdan qalınlaşmış, sərtləşmiş ət təbəqəsi; döyənək. Əllərində qabar, gözlərində qan. ☐ Qabar tutmaq – sürtülməkdən, toxunmaqdan qabar əmələ gəlmək. ..qabar tutan əllər.

**Qabarcıq**, *is.* Dənizdə, göldə ləpənin yuxarı tərəfindən su damlacığı. Köpürüb ağarır qabarcıqları.

**Qabarıq**, *sif.* Qabarmış, irəli çıxmış, şişmiş. Qabarıq sinəsin sürmüş irəli.

**Qabar-qabar**, *sif.* Çoxlu qabarı olan, qabarla örtülmüş. Yenə əllərimiz qabar-qabardır.

**Qabarlı**, *sif.* Qabarı olan, qabarla örtülmüş. Yer əkən, ot biçən hər qabarlı əl.

**Qabarmaq**, *f.* Şişmək, qabarıq hala düşmək. Qabardıqca əzələlər, tunc sinələr.

**Qabartmaq**, *f.* Şişirtmək, dik-dik etmək, qabarıq hala saldırmaq. Buğa tüklərini qabardıb birdən.

**Qab-qacaq**, *is.* İçərisində xörək hazırlamaq yaxud içərisinə yemək şeyləri qoymaq üçün qablar. O qabların-qacaqların rəngi hələ solmamışdır.

**Qaç**, *sif.* Hansı. Bilməm qaç əsrdir yaranmış durar.

**Qaçaq**, *is.* 1. Bir cinayət edib hökumətdən və ya həbsdən qaçaraq meşələrdə, çöllərdə və s. yaşayan və hökumətlə mübarizə edən adam. Məsəldir: – Qaçağı el özü saxlar.

2. Quldur, yolkəsən, çapqınçı, soyğunçu. Nə qaçaq var, nə də quldur səsi var.

**Qaça-qaça**, *z.* Qaçaraq, yüyürərək, yüyürə-yüyürə. O oğlan qaça-qaça, qız qova-qova.

**Qaçar**, *is.* Qaçan, yüyürən, qaçaraq gedən. Uçarda turacdır, qaçarda ceyran.

**Qaçış**, *is.*: çıxış yolu – vəziyyətdən çıxmaq üçün çarə. İkinci bir məna.. ya qaçış yolu.

**Qaçqın**, *is.* Əsasən siyasi əqidəsinə görə öz vətənini tərk edib başqa yerdə yaşayan adam; muhacir. İstanbulun qucağında qaçqınların məclisi.

**Qaçmaq**, *f.* 1. Çox iti, sürətlə getmək, yüyürmək. Ceyran qaçar, turac uçar.

2. Həbsdən, iş yerindən və s.-dən özbaşına getmək; xəlvəti getmək. Di qaçın! Tez qaçın, indi fürsət var.

3. Uzaqlaşmaq, əlaqəsini kəsmək, aralanmaq. Sənsə üz döndərib, gəl qaçma bizdən.

4. Geri çəkilmək, döyüş meydanından qaçsa bir nəfər..

5. Uçmaq, getmək. Quşlar yad ellərə qaçır.

6. Getmək, hərəkət etmək. Bir yeni sürətlə qaçır tramvay.

7. *məc.* Aralanmaq, uzaqlaşmaq. Burda sirr alırıq; Çaxan ildırımdan, qaçan buluddan.

**Qada**, *is.*: qadan alım – yalvarış yaxud nəvazişli xahiş bildirir. Yox… yox… qadam alım, min əyri göz var.

**Qadağan**, *is.* [ər.]: qadağandır – qanunla icazə verilmir, yasaqdır. Dilənmək də qadağandır.

**Qadın**, *is.* 1. Cins etibarilə kişinin əksi; arvad. Ey müqəddəs qadın, müqəddəs ana.

2. Ərli qadın; arvad. Qadının «ver», çocuğun «ver» deyəcək.

**Qadınlıq**, *is.* Qadına xas olan sifət, xüsusiyyət. Gül açmışdır səhər çağı; Qadınlığın gül yanağı.

**Qadir**, *sif.* [ər.] Qüdrətli, böyük qüdrət və qüvvəti olan. Dənizlər aşdıqca qadir nəslimiz. // Bacaran, qabil, qüvvəsi, gücü çatan. Qadir yaranmışdır müqəddəs Vətən. // Təsirli. Qulaqlara lərzə salır bu natiqin qadir səsi.

**Qafil**, *is.* [ər.] Nə edəcəyini, başına nə iş gələcəyini qabaqcadan düşünməyib işini boş tutan; qəflətdə olan; ehtiyatsız, diqqətsiz adam. Qafil, səninkidir o tək məzar.

**Qafilə**, *is.* [ər.] Birlikdə yol gedən atlılar və s. dəstəsi; karvan. İndi yoxdur uzanan qafilələr. // *məc.* Qafilələr çəkən cümlələrə bax.

**Qafiyə**, *is.* [ər.] (*ədəb.*). Şeirdə: beytlərin və ya misraların son söz və ya səslərinin uyğunluğu, həmahəngliyi. Yoxsa şeir olmaz hər qafiyədən.

**Qafiyəli**, *sif.*: qafiyəli dəllal – əslində şair olmayıb şeir yazmağa çalışan adam; qafiyə pərdaz. Daloy… Bu qafiyəli dəllallar.

**Qağayı**, *is.* (*zool.*). dəniz sahilində yuvalayıb, sahil suları üzərində və balıqla qidalanan iri qanadlı dəniz quşu. Uçur qağayılar – o nazlı quşlar.

**Qah-qah**, *z.* 1. Qah-qah çəkmək – qəhqəhə ilə, bərkdən gülmək. Bu dəm qah-qah çəkib qız birdən gülür.

2. Qaqqıldayaraq, qaqqıltı səsi çıxararaq. Başım üstə qah-qah ötən durna qatarı.

**Qaxınc**, *is.*: başına qaxınc (etmək) edilən yaxşılığı və s. (başa vurmaq). [Loğman:] Başıma qaxıncsa bu gün qocalıq.

**Qaxsımaq**, *f.* Köhnəlib qoxumaq, acı tam vermək. Hopduqca səhranın gövdəsinə su; Tərlədi qaxsımış bir bədən kimi.

**Qaq-qaq: qaq-qaq qaqqıldamaq** – qaqıltı səsi çıxarmaq, qaqqıldamaq (toyuq və quşlar haqqında). Çil toyuq bağırır Qaq-qaq qaqqıldayır.

**Qaqqıldaşmaq**, *qarş.* 1. Hamı birdən qaqqıldamaq *(toyuq və quşlar haqqında)*. Qırqovullar qaqqıldaşıb uçanda..

2. Qəhqəhə ilə, bir-birinə qoşularaq gülmək. Hamı duyub bu halı, gülüb qaqqıldaşırlar.

**Qaqqıltı**, *is.* Toyuq, kəklik, durna çığırtısı. Onun qaqqıltısı kəsmədi bir an.

**Qaqqıltısız**, *sif.* və *z.* Qaqqıltı səsi çıxarmadan, səssiz. [Çil toyuq] yatır qaqqıltısız.

**Qala**, *is.* 1. Uzun müddət içində qapanıb düşmənə müqavimət göstərmək üçün möhkəm müdafiə tikililəri və vasitələri olan istehkam. Hər qalanın yazısında bir dünya var.

2. Həbsxana, dustaqxana, qazamat, zindan. Dolmuş ağzınadək bütün qalalar.

**Qalaq-qalaq**, *sif.* və *z.* Qalaqlanmış, üst-üstə yığılmış halda; yığın-yığın, topa-topa. Kəndə qalaq-qalaq kitablar gəlir.

**Qaldırmaq**, *f.* 1. Yuxarı aparmaq, aşağıdan yuxarı çıxartmaq. Mələklər öz yaşıl qanadlarında; Qaldıracaq göyə tanrı yanına.

2. Ələ götürmək, olduğu yerdən yuxarı qaldırmaq. İndi badələri qaldırın, dostlar!

**Qalxan**, *is.* (*köhn.*). Qədimdə döyüş zamanı düşmənin zərbəsini dəf etmək üçün əldə tutulan dairəvi (bəzən də düzbucaqlı) sipər (ağacdan, metaldan, dəridən qayırılardı). Bu nizələr, bu qalxanlar, bu şeypurlar, soruş, nədir? // *məc.* Nəyin vardırsa aləmdə sən öz simana qalxan tut.

**Qalxanlı**, *sif.* (*köhn.*). Qalxanla silahlanmış, əlində qalxan olan. Qılınclı, qalxanlı qəhrəmanlar…

**Qalxıb-enmək**, *f.* Sinəsi qalxıb-enmək – dərindən nəfəs almaq, tez-tez nəfəs almaq. Qəzəbindən dalğa kimi qalxıb-enir sinəsi.

**Qalxmaq**, *f.* 1. Ayağa durmaq, dik vəziyyət almaq. Qalxıb başmağını geyir hər səhər. // Yuxudan ayılıb yatağından qalxmaq. Yenə də qalxaraq yatdığı yerdən..

2. Yüksəyə getmək, yüksəlmək. Gün bir az qalxanda od tutub çöllər.. // Daha yüksək vəziyyət almaq. Yavaş-yavaş pərdə qalxır, səhnə görünür.

3. Yuxarıya tərəf getmək, yüksəlmək. Qalxır bacalardan alovlar, odlar.

4. Minmək. Şamilin atına minir Dağıstan.

5. Yüksəklərə uçmaq, qanad çalmaq. Qatar-qatar olub qalxıb havaya..

6. Yuxarı qaldırmaq. Ah! Qolum qalxmayır.

7. *məc.* Çıxmaq. Qalxsın cəhalətin qaranlığından!

**Qalib**, *is.* [ər.]: qalib gəlmək (çıxmaq) – 1) Qələbə əldə etmək, müzəffər olmaq, qələbə çalmaq *(döyüşdə, müharibədə və s.-də)*. Hər qanlı döyüşdən qalib çıxanda; 2) *məc.* Üstün gəlmək, birincilik qazanmaq. [Şahbaz:] Qalib gələcəkmi cahanda kamal. – Vətən övladı, qalib çıx zamanın imtahanından.

**Qalibiyyət**, *is.* [ər.] Qələbə, üstünlük. [Şahbaz:] Ümidim çox azdır qalibiyyətə.

**Qalıb**. *Bax* qəlib. Həyat bir qalıba sığışa bilməz.

**Qalın**, *sif.* 1. Köndələn vəziyyətdə çox yer tutan; yoğun (nazik əksi). Dəyəsi qurular qalın keçədən.

2. Bir-birinə çox sıx, yaxın olan. Nə qalın meşələr, nə zolaqlar var.

**Qalmaq**, *f.* 1. Var olmaq, mövcud olmaq, davam etmək. Nə evimiz qaldı, nə heykəlimiz.

2. Qalmaqda davam etmək, qorunmaq. Yarımçıq əsərlər, kitablar qaldı.

3. Başa çatdıra bilməmək, nail ola bilməmək. Yarı yolda qaldı diləklərimiz.

4. Müvəqqəti olaraq bir yerdə yaşamaq, yatmaq, gecələmək. Qalın, gecələyin, evimiz vardır!

5. Aid olmaq, dəxli olmaq, üzərinə düşmək. Gülür bu gün bütün aləm, bir ağlamaq mənə qalmış.

6. Vaxtı hələ gəlib çatmamaq. Budur bax az qalmış yenə səhərə.

7. Yaşamaq, unudulmamaq. Deyir, bu dünyada qalacaq sənət.

8. Görsənmək, silinməmək. Qalır gövdəmizdə dırnaq yerləri.

9. Qismət olmaq, çatmaq. Axirət dünyası qalacaq bizə.

10. Mövcud olmaq, var olmaq. Nə bir azar qalacaqdır, nə ölüm, nə qan.

11. Mühafizə olunma, qorunub saxlanmaq. Çox gözəl qalmışdır hələ hafizəm.

12. Qarğış məqamında işlədilir. Gərək qan altında qalsın bu dağlar.

13. İnkar şəklində: qalmamaq – 1) işlənib qurtarmaq, sərf edilmək. Soğan da qalmayıb bu dükanlarda; 2) qırılıb qurtarmaq, məhv edilmək. ..İranda qalmadı sağlam nəsillər; 3) qurtarmaq, daha olmamaq. Bunda qalmamış nə namus, nə ar; 4) vəfat etmək, ölmək. Qalmamış düşünən mənim halıma; 5) həmişəlik mövcud olmaq, daim olmaq. Bu dünya qalmamış ulu şahlara.

14. Bir sıra isimlərdən sonra gələrək müxtəlif feil yaxud ifadələr düzəldilir. Sağ olun, gecəniz xeyrə qalsın.

**Qalstuklu**, *sif.* Boynuna qalstuk bağlamış, qalstuku olan. Gördüm!.. Məktəbə gedən anamın qalstuklu qızını.

**Qamaşmaq**, *f.* Parlaq, güclü işıq, külək və s.-dən gözləri görməz hala düşmək. Tərlanımın qumral gözü qamaşmadı küləkdən.

**Qamçı**, *is.* Heyvanları vurmaq yaxud onları qorxudub yeritmək üçün bir ağacın ucuna bağlanmış ip, dəri və s.; qırmanc, şallaq. Əlində bir qamçı, belində nağan.

**Qamçılamaq**, *f.* 1. Döyəcləmək, qamçı ilə vurmaq, qırmanclamaq, vurmaq. Küləklər qamçılayır qaranlıqları.

2. *məc.* Bərk tənqid etmək, ifşa etmək, içüzünü açmaq. Qamçıla gündə bir cildə bürünən..

**Qamət**, *is.* [ər.] Boy, boy-buxun, qədd. Qaməti sərv kimi, köksü irəli.. □ Qaməti bükülmək – bəli əyilmək (bəzən «qocalmaq» mənasında işlədilir). Hələ bükülməmiş onun qaməti. Qamətini bükmək – belini əymək (bəzən «qocaltmaq» mənasında işlədilir). Bükür qamətini ağır zamanlar.

**Qamış**, *is.* Əsasən sucaq yerlərdə bitən uzun, içiboş, gövdəli, buğumlu bitki; qarğı (qurusundan yaşayış üçün koma düzəltməkdən ötrü istifadə olunur). Qamış komalara külüng vurulur.

**Qamış**, *sif.* Qamışdan qayrılmış. Qarğı qələmini alır əlinə.

**Qamışlıq**, *is.* Çoxlu qamış bitmiş yer. Seyrək ağaclıqlar, qamışlıqlar da.

**Qan**, *is.* 1. Qan qohumluğu mənasında. Şahim, biz qardaşıq… birdir qanımız.

2. Düşmənçilik, qanlı ədavət. Burda gözlərimə min qan görünür.

3. Axıb tökülmüş qan. Dondu cəbhələrdə laxta-laxta qan.

4. *Bax* qanlı. Əlimiz, dişimiz, tüfəngimiz qan.

5. Embrion. Ana qarnındakı o qandanam mən.

6. *məc.* Qırmızı. Bizə həyat verən günəş də qandır.

7. *məc.* Qeyrət, təəssüb. Nə olursa-olsun… Bunlarda qan var.

8. *məc.* İnsaf, ədalət. O aləmdə nə qan vardır, nə ədavət.

9. *məc.* Dava, müharibə. Avropa qurtardı ölümdən, qandan.

◊ Qan ağlamaq – çox mütəəssir olmaq, qanlı göz yaşı tökmək, yasa batmaq. Yoxsa qan ağlayar yenə sərbəsər. Qan almaq – müalicə məqsədilə damardan qan çıxarmaq. Qan aldı o qızın şümşad qolundan. Qan altında qalmaq – çox qan tökülmək, dava düşmək. Gərək qan altında qalsın bu dağlar. Qan aparmaq – çox qan axmaq nəticəsində üzülmək, özündən getmək. Deyir: – Yoldaş, qorxma məndən, məni qan aparmaz. Qan axmaq – qırğın düşmək, dava olmaq. [Fərhad:] Yenə də axacaq min günahsız qan. Qan açılmaq – qan gəlməyə başlamaq. Sinəsindən açıldı qan. Qan beyninə sıçramaq – son dərəcə qəzəblənmək, hirsindən özünü bilməmək. Beyninə sıçramış qəzəbindən qan. Qan qaynamaq – qan axmaq, qanı tökülmək. Bulaq kimi qan qaynayır igidlərin yarasından. Qan qaraltmaq – acıqlandırmaq, əsəbiləşdirmək, dilxor etmək. Ucuz söz qan qaraldar. Qan qoxusu – müharibə təhlükəsi, dava qorxusu. Yalnız qan qoxuyur əsən küləklər! Qan qucağı – qan tökmüş, qanlı. Get, atıl murdarın qan qucağına. Qan qusmaq – vərəm xəstəliyinə tutulmaq, vərəmləmək. Qızıl qan qusdu. Qan dizə çıxmaq – çox qan tökülmək. Mən orda olmasam, qan çıxar dizə. Qan düşmək – dava başlamaq, ədavət düşmək. Görürsən ki, qırğın olub, qan da düşür. Qan izi – dava, döyüş. Dünyada qan izi kəsilsin deyə. Qan içində üzmək – çoxlu adam öldürmək, qırğın olmaq. Üzsün qan içində gəlinlər, qızlar. Qan içmək – zülm etmək, əziyyət vermək, çox incitmək. Yenə qan içməyə dikib gözünü. Qan ocağı – fitnə-fasad yeri, cinayət yuvası, qan tökülmə səbəbi. Tükəzban! O saray qan ocağıdır. Qan sormaq – zülm etmək, istismar etmək, var-yoxunu əlindən almaq. Burjuyun qan sormaq olmuş adəti. Qan tökən – vuruşan, döyüşən. Səndən tüfəng tutub qan tökən olmaz. Qan tökmək – öldürmək. Ölür və öldürür, qızıl qan tökür. Qan tökülmək – adam

öldürülmək, dava olmaq. Azadlıq uğrunda tökülən qanlar.. Qan uddurmaq – əzab və əziyyət vermək, incitmək, zülm etmək. İnsanlara qan udduran. Qan udmaq – çox əzab-əziyyət çəkmək, iztirablı günlər keçirmək. Humay yol gözləyir qan uda-uda. Qan coşmaq – canlanmaq, dirçəlmək. Hər insan qəlbində neçə qan coşur. Qana boyanmaq – qan rəngi almaq, qırmızı olmaq. Dəlik-deşik bayraqların rəngi qana boyanmışdır. Qana qərq olmaq – qan içində batıb qalmaq, qanlı olmaq. Al qana qərq olmuş bütün kainat. Qana dolmaq – çoxlu qan tökmək. Düşmən qana doldu, qandan doymadı. Qana dönmək – qandan qırmızı olmaq, qan rəngi almaq. Qana döndü dağ, dərə.. qana çağırmaq – müharibə istəmək. İnsanı ölümə, qana çağırır. Qandan doymaq – qan tökməkdən əl çəkmək, daha dava etməmək. Bəsdir, bir doymadın içdiyin qandan. Qanı axmaq – məhv olmaq, qırılmaq. Qoy axsın millət qanı. Qanı başına sıçramaq – son dərəcə hirslənmək, özündən çıxmaq, coşmaq. Başına sıçrayıb qəlbinin qanı. Qanı qaynamaq – özündən çıxmaq, çox hirslənmək. Beyni qanların da qanı qaynar, qəlbi coşar. Qanı dizə çıxmaq – çox qan axıdılmaq. Qanı dizə çıxan vuruşmalardan. Qanı donmaq – xəstələnmək (əsasən soyuqdəymədən). Xanpaşa tərli-tərli su içmişdir, qanı donmuş bədəndə. Qanı donmaq – özünü itirmək, nə edəcəyini bilməmək. De, niyə donmadı bədəndə qanın? Qanı soyuq – heç kəsin halına acımayan, heç kəsə yazığı gəlməyən adam haqqında. Bahar, gəl demə ki, qanım soyuqdur.. Qanı halal olmaq – cəzaya, ölümə layiq (müsbət mənada) olmaq. Olsun inqilaba qanımız halal. Qanı coşmaq – *bax* qanı qaynamaq. Mənim də qəlbimdə coşdu qanlarım. Qanına boyanmaq – öldürülmək. Qıyma öz qanına boyana ceyran. Qanından içmək – öldürmək. Doyunca içərəm sənin qanından. Qanını vermək – canından keçmək, ölməyə hazır olmaq. Lazım gəlsə, bu uğurda vercəyəm öz qanımı. Qanını qaynatmaq – hirsləndirmək, coşdurmaq. Bu lövhə qaynadır yenə qanımı. Qanını içirtmək – özünü fəda etmək. Qəlbimin

axar qanını içirdim sənətə. Qanını halal etmək – ölümünü bağışlamaq. Bu məmləkət halal etməz igidlərin qanını. Qanla sulanmaq – çoxlu qan axmaq, çoxlu adam öldürülmək. Qoy qanla sulansın hər susuz dərə. Qanlar içində boğulmaq – ölmək, məhv olmaq. İnsanlar boğulur qanlar içində.

**Qanacaq**, *is.* 1. Düşüncə, şüur, anlaq. Nə elm qazandın, nə də qanacaq.

2. Ədəb, mərifət, tərbiyə. Amma çox razıyam qanacağından.

3. Zehniyyət, görüş. Yaşayır hər zaman bu qanacaqla.

**Qanad**, *is.* 1. Quşlarda və cücülərdə uçmaq orqanı. Nə qanad şaqqıldar, nə də qıy vurar.

2. Təyyarənin qalxma qüvvəsini yaradan, hər iki tərəfindəki yastı səthlərdən hər biri. Qanadların hiddətindən parçalanır buludlar.

3. *məc.* Fikir və s.-ni yayan əsas. Bu axşam fikrimin qanadı vardı.

◊ Qanad açmaq – 1) uçmağa başlamaq, uçmaq. Qartal olub qanad açdım; 2) havada görsənmək. Əldə yaylıq, kalağaylar qanad açmış havada; 3) *məc.* inkişaf etmək, artmaq. Rübabında qanad açar insanlığın kamalı. Qanad vermək – ürəkləndirmək, ruhlandırmaq, ruh vermək. Dağlar, daşlar qanad verir bir şairin xəyalına. Qanad vurmaq – dəyişmək, yeniləşmək, təzələşmək. Sənin arxanda həyat çox vurmuş qanad. Qanad gərmək – 1) *bax* qanad açmaq. Şəhər üstə qanad gərir bir yaz axşamı; 2) başının üstünü almaq, çökmək, üstünü örtmək. Qanadını gərir axşam. Qanad saxlamaq – uçmağını saxlamaq, dayanmaq. Bir zaman havada qanad saxlayın. Qanad çalmaq – uçmaq. [Qoca qartal:] Bir qıy vurub qanad çaldı. Qanadı kəsilmək (sınmaq) – köməksiz və himayəsiz qalmaq. Kəsilib qanadım, uça bilmirəm; Qamçılar altında sındı qanadın. Qanadına almaq – himayəsinə almaq, kömək etmək. Alıb qanadına gəzdirər səni. Qanadını qırmaq – köməksiz və himayəsiz qoymaq, köməkdən məhrum etmək. Qırdın qanadımı, qırdın qolumu. Qanadı-

nın altında yaşatmaq – himayəsinə almaq, kömək etmək, əlindən tutmaq. Yaşatdım qanadımın altında bir an..

**Qanadlanmaq**, *f.* 1. Uçmaq, qanad açmaq. Qartal kimi qanadlanıb fəzaları aşaram.

2. *məc.* İnkişaf etmək, yüksəlmək. O da qanadlandı aşıb-daşaraq.

3. *məc.* Son dərəcə sevinmək, ruhlanmaq, ürəklənmək. Qanadlan hüsnü eşq ilə.

4. *məc.* İrəli getmək, inkişaf etmək. Çırpın, Oktyabr! Qanadlan! Ucal!

**Qanadlı**, *sif.* 1. Qanadı olan, qanad çıxarmış. Qanadlı bir quş kimi dağlar aşmaq istərəm.

2. *məc.* Çox iti, iti gedən, sürətli. Uçur gözlərində qanadlı bir hal.

◊ Qanadlı sözlər – dildən-dilə keçən, yayılan, əsasən, məcazi mənalı ifadələr. Yoxdur sənətində qanadlı sözlər.

**Qanadsız**, *sif.* Köməyi, yardımı olmayan; kimsəsiz. Həyata qanadsız atdılar məni.

**Qanamaq**, *f.* Dərinin yaralanması, zədələnməsi və s. nəticəsində damardan qan çıxmaq, qan axmaq, qan sızmaq. Əsdi qara yellər, qanadı dizim.

**Qandal**, *is.* [əsli ər.] . Keçmişdə: ağır cinayət etmiş məhbusların əl və ya ayaqlarına, bəzən də həm əllərinə, həm də ayaqlarına keçirilən zəncir.

2. *məc.* Maneə, buxov mənasında. Nə qanun qoluma qandallar vurur.

**Qandallı**, *sif.* Əlinə və ya ayağına, ya da həm əlinə; həm də ayağına qandal vurulmuş; zəncirli. ..Ayaqlarımız qandallı..

**Qaniçici**, *sif.* Zalım, qəddar, rəhmsiz, qaniçən. Hitler özü avtorudur qaniçici fərmanların.

**Qanlı**, *sif.* 1. Qana batmış, qana bulaşmış. Qanlı süngüsünü yudu çoxları.

2. Çoxlu qurbanlara, çoxlu adam qırılmasına, çoxlu qan axıdılmasına səbəb olan, çoxlu qan axıdılan. Hər qanlı döyüşdən qalib çıxanda.

3. Qan tökülmək tərəfdarı olan, qaniçən. Of... O qanlı hökmdar.

4. *məc.* Qan tərəfdarı olan, qan tökməyə meyil edən. [Xosrov:] Görək, qanlı fələk nə göstərəcək.

**Qanmaq**, *f.* Anlamaq, başa düşmək. Rəvadırmı qələmdaşlar məni qanmasın.

**Qansız**, *sif.* 1. Rəhmsiz, mərhəmətsiz, insafsız, amansız, qəddar. Qanunlar, qanunlar, nə qədər qansız.

2. Qeyrətsiz, tərəfsiz, vicdansız. Dayan, ..qansız hərif.

**Qan-tər**, *is.*: qan-tərə batmaq – çox tərləmək, tər tökmək. Vücudu istidən qan-tərə batmış. // *məc.* Bu gün mənim qan-tərə batan qəlbimi; Bir şad xəbər salamladı.

**Qanun**, *is.* [ər. əsli yun.] 1. İctimai və hüquqi münasibətlərin müəyyən sahəsini nizama salmaq üçün dövlətin müəyyən etdiyi qərar, nizamnamə. Bunlar bizim qanunların insana hörmətidir.

2. Hakimi mütləyin istəyi, arzusu. [Xosrov:] Mənim də öz hökmüm, öz qanunum var.

3. Obyektiv aləmdəki hadisələr arasında özünü göstərən zəruri əlaqə və qarşılıqlı asılılıq, səbəb və nəticə arasındakı daxili əlaqə. Ancaq bu dünyanın öz qanunu var.

**Qanunsuz**, *sif.* Qanuna zidd olan, qanunu pozan, qeyri-qanuni. Bu yerdə qanunsuz və məhkəməsiz..

**Qapanmaq**, *f.*: gözləri qapanmaq – gözləri örtülmək, bağlanmaq. Tamam qapanmamış ala gözləri.

**Qapaz**, *is.*: qapaz vurmaq – əlin ayası ilə birinin başına vurmaq. Anama vurulan qapaz; Qadının başını endirmiş yerə.

**Qapı**, *is.* 1. Girib-çıxmaq üçün evin yaxud barının və s.-nin divarında açıq yer, deşik. Oturmuş qapıda məktəbli bir qız.

2. Evin, binanın qabağı, girəcəyi; həyət. Hər axşam qapıma min naxır gəlir. // *məc.* Gündə bir qapıya müsafir olmuş.

◊ Qapı açıqdır – hər kəs gələ bilər, kim istəyirsə gəlsin. Buyurun, qapımız açıqdır sizə. Qapı açmaq – bir yerə gedib-gəlmək, onunla tanış olmaq, onu öyrənmək üçün bir iş görmək. Bir yeni aləmə qapılar açdı. Qapı nökəri – ağasının hər cür tapşırığını yerinə yetirən qulluqçu. Olsa da adi bir qapı nökəri. Qapıda külək əsmək – evi-eşiyi dağılmaq, xaraba qalmaq. Qapımızda qoy əsməsin o ağıllı küləklər. Qapıya qoymamaq – yaxın qoymamaq, özündən uzaqlaşdırmaq. Qapıya qoymuram can möhnətini. Qapıya gəlmək – evinə gəlmək. Qapıya bir əziz qonaq gələndə. Qapını qara qış gəsmək – qışa az qalmaq. Elə ki qapını qara qış kəsir. Qapını gəzmək – axtarmaq. Ölümlər qapını çox yaman gəzir. Qapının ağzını almaq – lap yaxınlaşmaq, yaxın olmaq. Qapının ağzını almış qara qış. Qapısı qıfıllanmaq – ev-eşiyi xaraba qalmaq, dağılmaq. Deyəsən, qapımız qıfıllanacaq. Qapısını açmaq – 1) yanına gəlmək, baş çəkmək. Onun qapısını açan olmadı; 2) açıb söyləmək, bildirmək, demək. Ah… aç qapısını sən həqiqətin. Qapısını döymək – gəlmək, yaxınlaşmaq. Əsrin qapısını döydüyü zaman.. Qapısı bağlanmaq – *bax* qapısı qıfıllanmaq. Bağlansın qapılar, sönsün ocaqlar. Qapılarda sürünmək – onun-bunun hesabına yaşamaq, yolçuluq etmək, dilənmək. Sürünüb körpənlə qapılarda sən. Qapılardan çəkilmək – rədd olub getmək, yox olmaq. Qapılardan duman kimi çəkilmişdir vaxtsız ölüm.

**Qapqara**, *sif.* Tünd qara, zil qara. Qapqara saçları, qaşları vardı.

**Qar**, *is.* Qışda müxtəlif şəkillərdə, ən çox da ulduz şəklində yağan və hər tərəfi örtən donmuş ağappaq su kristalları. Əriyir güneylər döşündəki qar. □ Qar almaq – qar yağmaq, qar örtmək. Yenə dağ başını duman, qar alır. Qar basmaq – qarla örtülmək. Yenə qar basacaq dağ döşlərini. Qar kimi – ağappaq, düm ağ, süd kimi ağ. Saçları da, saqqalı da qar kimi ağ. Qar suya dönmək – qar ərimək. Ahımdan, gözəl

qız, suya dönər qar. Qar tökülmək – qar yağmaq. Göydən üstümüzə tökülüncə qar..

**Qara**[1], *sif.* His, kömür rəngində olan. Bulud kimi tutulmuşdur qara gözləri. // Çox tutqun (açıq ziddi). Bəzən mənə qara bulud düşmən kimi baxar, gedər. // Qaranlıq, tutqun. Bu qaranlıq gecədən gözə gəlir göy qara. // *məc.* Ədalətsiz, insafsız. Qanunların qara belə yazır nə zamandır. // *is.* Qara rəngdə olan at və s. haqqında. Gah qaralar keçir, gah da ağ atlar.

2. *is.* Qaradərili, qara irqə mənsub adam. Bizdə nə ağlar var, nə də qaralar

□ Qara qul (*köhn.*) – əsasən zəncilərdən olan qul, kölə, nökər. Durub boylanardı qara qul kimi. Qara zənci – bax qara[1] 2-ci mənada. Qara zənci ağız açır.

3. *sif. məc.* Pis, ağır, mənhus, dəhşətli, qorxulu. Min qara gecədən, min qara gündən.

□ Qara keçmiş – qorxulu, dəhşətli, mənhus keçmiş zaman. O qara keçmişi xatirə saldım.

4. *məc.* Əziyyətli, məşəqqətli, çox ağır. Bu dünya beş gündür, beşi də qara.

5. *məc.* Cani, cinayətkar. Toplamış başına bir qara dəstə.

6. *sif.* Yas, matəm mənasında. Hər ağ gün, qara gün ömürdən gedir.

□ Qara gey(in)mək – yaslı olmaq, yas saxlamaq. Qara geymiş polyakların ana yurdu / Qara örtmək – *bax* qara gey(in)mək. Nədir o başına örtdüyün qara? Qara xəbər – ölüm xəbəri. Gəlir cəbhələrdən qara xəbərlər.

7. *is. məc.* Nöqsan, çatışmazlıq. Otuzillik gəncliyimin dəftərində yoxdur qara.

◊ Qara bağlamaq – yas əlaməti olaraq başına qara örpək və s. örtmək. Yaslı gəlin kimi qara bağlayan.. Qara qüvvələr – inkişafın qarşısını alan, onu geri çəkən adamlar, şər qüvvələr. O qara qüvvələr xəyala döndü. Qara yel – əsasən yayda cənubdan əsib bitkiləri məhv edən külək. Əsdi qara yellər kimi. Qara geymək – yas əlaməti olaraq qara paltar

geymək. Yasa batsın, qara geysin qoy Əhrimən. Qara tökmək – pis məsləhətlər vermək, pis yola salmaq. Eh, elə sən dinib-danışıb qara tökürsən. Qara üşütmə – qorxudan, xəstləikdən və s.-dən üşümə. Canını bir qara üşütmə kəsdi.

**Qara²**, *is.* Quru, torpaq. Eşitsin dənizlər, qaralar məni.

**Qaraçay**, *is.* Şimali Qafqazda yaşayan türkdilli kiçik xalqlardan biri; qaraçaylı. Ruha tanış gələn qaraçay qızı.

**Qaradinməz**, *is.* Daima susan, lal-dinməz, danışmayan adam. Ürəyi xain adam – qaradinməz, yerəbaxan.

**Qaragöz**, *sif.* Gözləri qara olan, qaragözlü kimi. Axşam! Axşam! Bu qaraqaş, qaragöz pəri!

**Qaragözlü**, *sif.* Gözləri qara rəngdə olan. O bəlkə də eşqə düşüb, hicran çəkən; Qaragözlü bir gözəlin timsalıdır.

**Qaragül**, *is.* Orta Asiyada yetişdirilən qıvrımtüklü dərili qoyunun bahalı dərisi; Buxara dərisi. Türkmənlərin bol qaragül dəriləri..

**Qarağan**, *is.* (*bot.*). Əsasən qış otlaqlarında bitən çoxillik yem bitkisi. Muğanda qarağan, yovşan yerinə..

**Qaraqabaq**, *is.* Üzü gülməyən, qaşqabaqlı, üzügülməz, adamyovuşmaz. Qaraqabaq, yerəbaxan, gözü gömgöy, rəngi kürən.

**Qara-qara**, *sif.* Lap qara, tünd-qara, qapqara. Kölgə kimi qara-qara əllər gəzir vicdanında.

**Qaraqaş**, *sif.* Qaşları qara olan, qaraqaşlı. Axşam! Axşam! Bu qaraqaş, qara göz pəri.

**Qaraqışqırıq**, *is.*: qaraqışqırıq düşmək – səs-küy, çığırbağır düşmək, heç bir ciddi səbəb olmadan hay-küy qalxmaq. Düşmüş evimizə qaraqışqırıq.

**Qaraquş**, *is.* Qartal. Qaraquşsa göy üzündə tənha dolanır.

**Qaralmaq**, *f.* 1. Hisdən, oddan, günəşdən yaxud başqa bir təsirdən qara rəng almaq. Yanan şəhərlərin qaraldı yeri.

2. Qaranlıq olmaq, qaranlıqlaşmaq. Qaraldı get-gedə gecənin üzü.

3. Daha işıq verməmək, sönmək. Ay çatıb qaşını birdən qaraldı.

4. Qara görünmək. Başının üstündə duman qaralır. // *məc.* Qaralmaz ulduzu əbədiyyətin.

5. *məc.* Öz yaxşı xüsusiyyətlərini itirmək; pisləşmək, xarablaşmaq. Şərəf sözü ülviyyətə yüksəlir; Qaralmayır çirkablara düşərək.

**Qaraltı**, *is.* Uzaqdan görünən qara şey; kölgə. Sayrışan nə kölgə, nə qaraltıdır. // *məc.* Gələn qaraltıdır, yoxsa təhlükə?

**Qaranquş**, *is.* Haçaquyruqlu, dar, uzun qanadları olan, itiuçan sürətli quş. Qaranquş şığıyır qanadlanaraq.

**Qaranlıq[1]**, *is.* və *sif.* Heç bir şey görünməyən hal, işıq yoxluğu; zülmət. O, qaranlıq bir dalanda açdı səhəri. □ Qaranlıq çökmək – axşam olmaq, hava qaralmaq, çökərkən axşamın qaranlıqları.

2. *sif.* İşığı olmayan; işıqsız, zülmətli. Ömrümüz, günümüz.. soyuq və qaranlıq daxmalarda keçdi.

3. *sif.* (*məc.*). Bəlli olmayan, aydın olmayan, anlaşılmaz. Mənalar dünyası qaranlıq deyil.

4. *is.* (*məc.*). Cəhalət, mədəniyyətsizlik, mədəni gerilik mənasında. Qaranlıqdan, əsarətdən, xəyanətdən nişan yoxdur.

**Qarapapaq**, *is.* Kişi. Ağsaqqallı, nazikxətli, qarapapaq; Bardaş qurub cütləmişdir başmaqları.

**Qardaş**, *is.* 1. Bir ata-anadan yaxud yalnız bir atadan və ya anadan olan oğulların ya da bacıların bir-birinə qohumluq münasibəti. Sən qayıt, qardaşım, barı sən yaşa.

2. *tənt.* Fikir, ictimai vəziyyət və s.cəhətdən danışan şəxsə yaxın olan başqa şəxs. – Qardaşlar, qalxın, – səsindən; Qırır qapıları həbsxanalar.

3. Kişiyə, oğlana dostcasına, yaxud təklifsizcəsinə müraciət. Dağıstan əhliyəm, ləzgiyəm, qardaş! // «Qardaşım» şəklində: mehribancasına müraciət – dostum, əzizim. Of… dostum, qardaşım, Xoş buyurmusan.

4. *məc.* Qardaş kimi yaxın, dost olan adam haqqında. Dönüb «qardaş» deyir, «dost» deyir bizə.

5. *məc.* Yaxın, oxşar, bənzər. Boranların, çovğunların, dumanların qardaşısan.

**Qardaşlıq**, *is.* Birlik, dostluq, səmimiyyət, səmimi əlaqə. Azadlığın, qurtuluşun, qardaşlığın mənasını.

**Qare**, *is.* [ər.] (*köhn.*). Oxucu, mütaliəçi. Möhtərəm qarelər məni bağışlar.

**Qarğa**, *is.* Leş və böcəklə qidalanan, döşü boz qara iri quş. Tərlan oylağında qarğa, sar olmaz!

**Qarğamaq**, *f.* Qarğış etmək, nifrət etmək, qarğımaq. Təbiət varlığa belə qarğımış!

**Qarı**, *is.* 1. Qoca qadın, qoca arvad. Qoca qarılar eyvanlardadır.

2. Arvad, zövcə. Gəl. Gəl yaxın otur, vəfalı qarım!

◊ Qarı düşmən – qatı, qəddar, hiyləgar düşmən. Ayaqlanır qarı düşmən.

**Qarımaq**, *f.* 1. Qocalmaq, qoca yaşlarına çatmaq. Qızlarımız da varmış – Qocalıb qarıyarmış.

2. *məc.* Vaxtı keçmək, köhnəlib sıradan çıxmaq üzrə olmaq. Qoy qarımış kapitalın; Çürük və laxlamış dişləri ağarsın..

◊ Qoşa qarımaq – yenicə evlənənlərə «birlikdə çox yaşayasınız» mənasında xoş arzu bildirir. Qarıyın qoşa…

**Qarın**, *is.* 1. İnsan və heyvan bədəninin qara ciyər, mədə, bağırsaqlar, dalaq və b. daxili orqanlar yerləşən hissəsi. Şirlərin, divlərin qarnına baxdım.

2. Ana bətni; uşaqlıq. Ana qarnındakı o qandanam mən.

**Qarınca**. *Bax* qarışqa. Səndən inciməmiş qarıncalar da.

**Qarış**, *is.*: bir qarış – çox az, çox kiçik. Yad ölkəyə verilməsin torpağımız bir qarış!

**Qarışıq**, *sif.* 1. *Məc.* Qanunsuz, özbaşına, hərki-hərkilik olan. Bu qarışıq zamanda; Humay düşmən qızıdır. // *z.* mənasında. Bilirsən ki, çox qarışıq keçdi zaman.

2. *məc.* Anlaşılmaz, dolaşıq, aydın olmayan, qeyri-müəyyən. Gözləri yuxusuz, fikri qarışıq.

**Qarışıqlıq**, *is.* Hərc-mərclik, qanunsuzluq, özbaşınalıq. Kəndə qarışıqlıq salanlardır.

**Qarışqa**, *is.* 1. Torpaq altında böyük dəstə ilə yaşayan zərqanadlılar fəsiləsindən kiçik cücü. Baharın eşqilə çıxır yuvadan; Balası dalında qarışqalar da.

2. *məc.* Aciz, əlindən heç bir iş gəlməyən. Qarışqa zənn edir bizi…

**Qarış-qarış**, *z.* Qarışla ölçər kimi, heç bir yerini buraxmadan, hər yerini, hər tərəfini, hər nöqtəsini. Deyirəm ki, qarış-qarış; Gəzim vətən torpağını.

**Qarışmaq**, *f.* 1. Başqa bir şeyin ya şeylərin içərisində itib getmək, ondan ayrılmayacaq, seçilməyəcək hala düşmək. Torpağa qarışır o bir gübrətək.

2. Birləşərək bir küll halına gəlmək. Qızıl meydan üstündəki insanlara qarışaraq.

3. Qarma-qarış olmaq, nizam və tərtibi pozulmaq. Dünya gözlərimdə qarışır yenə // *məc.* Şəhər qarışmışdı bir sabah erkən. □ Bir-birinə qarışmaq – həyəcan(a) düşmək, çaxnaşma düşmək. Zavodların qışqırığı bir-birinə qarışdıqca. // Səs-küy düşmək, hərəkətə gəlmək, canlanmaq. Qarışdı, səsləndi birdən aralıq.

4. Müdaxilə etmək, iştirak etmək, bir işin gedişinə təsir etmək və ya təsir etməyə çalışmaq. Bir də, sən qarışma, bu işlərə gəl.

**Qarlı**, *sif.* 1. Qar yağan. Yazından, yayından, qarlı qışından.

2. Qarla örtülmüş, qarla örtülü, qar olan. Qarlı zirvəsinin vüqar yerinə..

**Qarmaq**, *is.* Balıq tutmaq üçün ucu şiş çəngəl; tilov. Dəmir qarmaqlara soxulcan taxıb..

**Qarmon**, *is.* [əsli *yun.*] Üzərində dilləri olan iki taxta parçasına bənd edilmiş açılıb-yığılan körüklərdən ibarət musiqi aləti. Əldə qarmon, sinədə tar.

**Qarnıaçıq**, *sif.* Səfil, yolçu, sərgərdan. Çoxaldı qarnıaçıq yurdsuz yavruların sayı.

**Qarovul**, *is.* Keşikçi, gözətçi, qarovulçu. Qaranlıq üstündə qarovul kimi; Durub boylanardı qara qul kimi.

**Qarpız**, *is.* Qabaq fəsiləsindən iri, əsasən yumru, içi çox zaman qırmızı və çox sulu, şirin bostan meyvəsi. Payız ola, pendir-çörək qarpızla.

**Qarşı**, *is.* 1. Bir şeylə üzbəüz olan yer və ya şey, müqabil tərəf; qabaq. Qarşımda diz çöküb göylər alçalır. // Yerlik halında: qarşısında – qabağında, önündə. Fəqət qarşısında gəlib dayanır.

2. *sif.* Bir şeyin müqabilində olan; üzbəüz, müqabil. Qarşı dağın göbəyindən zərqanadlı bir pəri…

◊ Qarşısında dayanmaq – gözü önünə gəlmək. Dayandı qarşımda böyük bir cahan.

**Qarşı-qarşıya**, *z.*: qarşı-qarşıya gəlmək – toqquşmaq, döyüşmək. Düşmən qüvvələr qarşı-qarşıya gəlsin.

**Qarşılamaq**, *f.* 1. Qabağına çıxmaq, qarşısına çıxmaq, görüşünə çıxmaq. İlk baharın sevincilə xumarlanan gözəl şəhər; Min zəfərlə qarşılayır alnıaçıq ordumuzu.

2. Gələn bir şəxsə, yaxud biri ilə görüşərkən, müəyyən vasitə ilə öz münasibətini bildirmək. Bizi hörmətlə qarşılayan.. // *məc.* O yerdə ki sarı bülbül yaz gününü qarşılar..

**Qart**, *sif.* 1. Qocalmış, əldən düşmüş, çox qoca. Ağır yaralanmış o qart canavar.

2. *məc.* Çox ağır, üzücü, əldən salan. Bəzən də qart fikirlər salınca gücdən onu.

**Qartal**, *is.* 1. Dağlıq və çöllükdə yaşayan iri dimdikli qüvvətli yırtıcı, iri quş; qaraquş. Qayalar döşündə qartal yuvası.

2. *məc.* Obrazlı təşbehlərdə işlədilir. Qartal pəncələrdə qəhr olur aləm.

**Qartalgözlü**, *sif.* İri, parlaq gözləri olan, uzağı görən gözləri olan. // Obrazlı təsbehlərdə. Qartalgözlü Əmirxanın baxışlarında..

**Qartallı**, *sif.* Qartal yaşayan, qartal uçan, qartal yuvaları olan. Qartallı qoynundan uzaqlaşmışam.

**Qasırğa**, *is.* Ardı kəsilmədən fırlanıb havaya qalxan çox şiddətli, sürətli külək; tufan, boran. Dənizdə çırpışmış qa-

sırğalarla // *məc.* Könlümdə yenə hirsli fırtınalar, qasırğalar var..

**Qaş**, *is.* 1. İnsanın gözləri üstündə qövs şəklində uzanan tüklərdən ibarət xətt. Qapqara qaşları vardı.

2. Dağın, təpənin qabaq tərəfi, aşağı yeri. Gah qolpuna yatır, gah çıxır qaşa.

◊ Qaş(lar)ı çatılmaq – *bax* qaş(lar)ını çatmaq. Qaşları çatıldı qızın heyrətlə. Qaş(lar)ını çatmaq – dərin fikrə dalaraq yaxud hiddətlənərək qaşlarını yığmaq, qaş-qabağını sallamaq. Ay çatıb qaşını «yox» – dedi birdən. Çatıb qara qaşlarını fikrə getdi o, bir anlıq. Qaşını çəkmək – *bax* qaşını çatmaq. Gəray bəy qaşını çəkib yuxarı.

**Qaşqabaq**, *is.*: qaşqabaq sallamaq – qaşlarını çataraq və alnını qırışdıraraq, öz sifətinə acıqlı yaxud narazı bir ifadə vermək. Qaşqabaq sallayıb pürvüqar olur. Qaş-qabağı açılmaq – üzündə fərəh əlaməti görünmək; acığı, hirsi soyuyaraq üzü açılmaq. Açılacaq dərdlilərin qaşqabağı. Qaşqabağı çatılmaq – *bax* qaşları çatılmaq («qaş»da). Bir yay kimi çatılmışdır Sarvanımın qaşqabağı. Qaşqabağı tökülmək – qaşları çatılıb sifətinə acıqlı yaxud narazı bir ifadə verilmək. Elə dərd tökülür qaşqabağından.

**Qat**, *is.* 1. Üfüqi vəziyyətdə bir-birinin üstündə yerləşən cismin laylarından hər biri; lay; təbəqə. Yarılsın nərəmdən dağın qatları. □ Göylərin yeddi (qatı) qatı – çox uca mənasında. [Fərhad:] Boylandım göylərin yeddi qatına; Göylərin ən qatı qatına qalxan..

2. Dəfə, kərə. Özündən neçə qat çox hünəriylə..

**Qatar**[1], *is.* [ər.-dən] 1. Bir-birinin ardınca sıralanmış heyvanlar düzümü; karvan, qafilə. Durnaların düz qatarı məndədir. // *z.* mənasında: qatarla – sıra ilə, cərgə ilə. [Bayraqlar] Bayram günü yüz-yüz olub keçir qatarla.

2. Dəmiryol vaqonları düzümü. Qatarlar, avtolar gəlir Muğana.

3. Uzun hər bir şey haqqında. Hörüklü saçları iki qatardır.

◊ Qatar vurmaq – sıra ilə düzülmək. Cərgə-cərgə qatar vursun üzüm bağı, nar bağı.

**Qatar²**, *is.* [ər.-dən] (*mus.*). Azərbaycan klassik muğamlarından birinin adı. Mənim zil şikəstəm, sənin qatarın.

◊ Söz qatarı – çoxlu söz, sıra ilə düzülmüş sözlər. Durna kimi səf-səf oldu; Sinəmizin söz qatarı.

**Qatar-qatar**, *z.* 1. Bir-birinin ardınca, dəstə-dəstə, cərgə-cərgə, sıra-sıra. Quşlar qatar-qatar ellərdən keçər.

2. *sif.* Qatar halında, sıra ilə. Dəniz buruqları qatar-qatardır.

**Qatarlaşmaq**, *f.* Qatar düzülmək, qatar bağlamaq. Qatarlaşıb nə diyardan gəlirsiz? // *məc.* Qatarlaşan sözlərindən ilham aldı azad Vətən.

**Qatı**, *sif.* 1. Sərt, amansız, rəhmsiz, qəddar. [Qacar:] Görürsən? O imiş qatı düşmənim.

2. *məc.* Çox yüksək, lap hündür; uca. Göylərin ən qatı qatına qalxan..

**Qatıq**, *is.* Bir qədər soyudulmuş qaynar süddən maya qataraq üstünü basdırmaqla hazırlanan ağartı. Qatıqdan, qaymaqdan, yağdan, pendirdən.

**Qatil**, *is.* və *sif.* [ər.] Adam öldürən, cani, öldürən. Bu iblis qatil olduqca; Həyat sevdası var olmaz. // *məc.* Hər baxışdan kin püskürür o qatil qəlbə qarşı.

**Qatır**, *is.*: qatır dırnaq salmaq – çoxlu daşlar, qayalar olan yer haqqında. Qatır dırnaq salan qayalıqları.. Qatır kimi dırnaq tökmək – çox əziyyət çəkmək, ölüb-dirilmək. Homindanın ordusu da qatır kimi dırnaq tökür. Qatır cinsi – övladı olmayan, sonsuz. Qatır cinsisiniz, doğub-törəməz.

**Qatırkeçməz**, *sif.* Daşlı-kəsəkli, çox pis, gedilə bilməyən. Açdı sənin mərd üzünə; Qayaların qatırkeçməz yollarını.

**Qat-qat**, *z.* 1. Üfüqi halda bir neçə təbəqə; lay-lay, çin-çin. Elə bil üst-üstə toplanılmışdır; Bir əsrin şahidi qat-qat kitablar. // *məc.* Dumanlar dağılır ətrafa qat-qat.

2. Bir neçə kərə, dəfələrlə. Qat-qat çoxalt kəndimizə; Yaraşıq və işıq verən elektrik tokunu.

**Qatlanmaq**, *f.* Tab gətirmək, səbr etmək, dözmək. Sən də hər şaxtaya, soyuğa qatlan.

**Qatmaq**, *f.* Qarışdırmaq. Qatsın nəfəsimə öz nəfəsini.

**Qaval**, *is.* Üzünə dəri çəkilmiş sağanaqdan ibarət zınqırovlu və ya zınqırovsuz musiqi aləti, dəf. ..Xanəndəmiz əlində qaval. // *məc.* Uzaq kəhkəşanda qavallar vuraq.

**Qaya**, *is.* 1. Daşlı və sarı dağ; daşlıq uçurum, yarğan. Qayalar dağıdıb, yollar çəkirəm.

2. Çox iri və sərt daş. Öpsün qılıncımı hər qaya, hər dağ.

**Qayalı**, *sif.* Qayası olan, qayadan ibarət olan. Qayalı dağlar da salama gəlir.

**Qayalıq**, *is.* Qaya olan yer, qaya. Külüng ağır… Yer qayalıq… Hava boğuq.

**Qayçıkəsməz**, *sif.* Çox bərk, çətin kəsilən. Hollandiyanın qayçıkəsməz mahudları..

**Qayda**, *is.* [ər.] 1. Adət, ənənə.Ata-baba qaydamızla şərbət içib, plov yeyək.

2. Dəb, adət. Qayda belədir ki, birinci kərə. // Qaydadır şəklində – adətdir. [Vəzir:] Şahim… Qadınlarda bir qaydadır bu.

**Qayə**, *is.* [ər.] Yüksək məqsəd, bir işin, təşəbbüsün son məqsədi. Bu günün qayəsi çünki zəhmətdir.

**Qayəsizlik**, *is.* Heç bir qayəsi, məqsədi olmama; məqsədsizlik. Əmirxanı qayəsizlik yerdən qopardı.

**Qayğı**, *is.* Dərd, möhnət, fikir, qəm, qüssə. Burda hər qayğıdan, dərddən azadam. □ Qayğısına qalmaq – dərd çəkmək, fikir çəkmək. Qayğısına qaldığım bir insandan, Bir xatirə söylədilər.

**Qayğısız**, *sif.* 1. Fikri, qayğısı olmayan, heç bir şeyin fikrini, qeydini çəkməyən; laqeyd. Bu azad aləmin qayğısız qızı.

2. Qəmsiz, kədərsiz, dərdsiz. Bütün varlığı ilə gümrah qayğısız, səmimi bir qız…

**Qayğu**, *is.* «Qayğı» sözünün klassik dildə işlənən forması. Dəryalara hakim olan bir şairin qayğusu.

**Qayıq**, *is.* Kiçik gəmi. Qayıq yırğalanır bir beşik kimi..

**Qayınana**, *is.* Ər və ya arvadın anası. Necə mehribandır qayınanam mana.

**Qayış**, *is.* 1. Hərəkəti fırlanan çarx və s.-dən başqasına ötürmək üçün zolaq şəklində ucları bir-birinə tikilmiş dəri, brezent və s. Dayandı motorlar, durdu qayışlar.

2. Atı və s.-ni kotana, arabaya və s. qoşmaq üçün işlədilən dəri, brezent və s. zolağı. Bir kotana qayış olub özüm çəkəydim.

**Qayıtmaq**, *f.* 1. Getdiyi yoldan və ya yerdən geriyə, əvvəlki yerinə dönmək. Şahim, qayıtmışdır bizim elçilər.

2. Hərəkətini saxlamamaq, getmək. Ancaq geri qayıtmadı; Dedi: – Yolum irəlidir.

**Qaymaq**, *is.* Bişirilən ya sərilən südün yaxud qatığın üzünə yığılan qatılaşmış yağ maddəsindən ibarət ağartı növü. Payızın qaymağı yadıma düşdü.

**Qaynamaq**, *f.* 1. Yerdən şiddətlə çıxıb fışqırmaq, axmaq, köpüklənmək. Hər daşın dibində qaynayır narzan.

2. *məc.* Nizamsız halda hərəkət edən çoxlu adam və ya heyvan, həşərat və s. kütləsi haqqında. Yenə qaynayırsan, qocaman şəhər!

3. *məc.* Daim hərəkətdə olmaq, bir an da rahat olmamaq. Dalğalan, bayrağım, qayna, dalğalan!

4. *məc.* Çox adamın bir yerdə işləməsi. Səninkidir gecə-gündüz qaynayan tarla.

**Qaynar**, *sif.* 1. Çox isti, hərarətli, qızğın, qızmar. Əsən yellər ətir saçır bizim qaynar çöllərə.

2. Daim hərəkətdə olan, fəaliyyət göstərən. Dayanmayır köksündəki qaynar ürək.

3. Qaynayan, fışqıran, qaynayıb çıxan. Göz kimi durulur qaynar bulaqlar.

4. *məc.* Coşğun, qızğın. Sənət nədir? O, həyatın qaynar axan çeşməsidir.

**Qaynaşmaq**, *f.* *Bax* qaynamaq 3-cü mənada. İnsanlar qaynaşır bir motor kimi.

**Qaynayıb-qarışmaq**, *f.* İsnişmək, üns tutmaq, dostlaşmaq. Qaynayıb-qarışıb yoxsul kəndlilər.

**Qaytarmaq**, *f.* 1. Alınmış yaxud göndərilmiş bir şeyi geri vermək və ya göndərmək. Bizə minnət qoyma, borcunu qaytar.

2. Rədd etmək, dəf etmək, başdan sovuşdurmaq. Sözünü qaytarsam zorla aparar.

**Qaz**, *is.* (*zool.*). Ördəyə oxşayan, lakin ondan böyük, uzunboğaz, əti yeyilən, həm quruda, həm də suda yaşayan quş. Üzür quba qazlar sularda rəng-rəng.

**Qazax**, *is.* Qazaxıstanın əsas əhalisini təşkil edən türkdilli xalq və bu xalqa mənsub adam. Qazax da, gürcü də, rus da, türkmən də..

**Qazaq**, *is.* 15-17-ci əsrlərdə Rusiyada feodal və mülkədarların zülümündən ucqarlara (Don, Zaporojye, Fank və s.) qaçıb azad olmuş təhkimli kəndlilərə, nökərlərə, şəhər yoxsullarına mənsub adam. At belində qılınc vuran; Don çayının qazağını.

**Qazan**, *is.* Xörək bişirmək, su qaynatmaq və s. üçün böyük girdə metal qab. Qulpu qazanlardan qatıqlar daşar.

**Qazanmaq**, *f.* 1. İşləyib, çalışıb əldə etmək. Yoxsullar qazanıb, varlılar yedi.

2. Qazanc götürmək, qazanc əldə etmək. Az işləyib çox qazanar.

3. Mənimsəmək, yiyələnmək, sahib olmaq. Nə elm qazandın, nə də qanacaq.

**Qazılmaq**, «Qazmaq»dan *məch. f.* Zalımın məzarı qazılır bu gün.

**Qazmaq**, *f.* Müəyyən alətlə torpağı qaldırıb yeri oymaq, oyuq açmaq, dərinləşdirmək, çuxur etmək. Yer qazdı, daş yondu insan.

**Qeyb**, *is.* [ər.]: <u>qeyb etmək</u> – yox etmək, itirmək (burada feili sifət). Səsini kəndlərdə qeyb edənlərdən?

**Qeyd**, *is.* [ər.] Fikir, qayğı, narahatlıq, əndişə. Çətinliyin hər qeydinə, hər dərdinə alışaq. □ <u>Qeydinə qalmaq</u> – qayğı-

sını çəkmək, fikrini çəkmək, taleyi üçün narahat olmaq. Ellərin qeydinə siz qalırsınız.

**Qeydsiz**, *sif.* Qayğısı, fikri, dərdi, qəmi olmayan; laqeyd. Qeydsiz bir könül, azad bir könül..

**Qeyrət**, *is.* [ər.] Vətən, xalq, ailə namusu; ən əziz, ən müqəddəs bir şeyin təəssübünü çəkmə, tərəfini, namusunu qoruma. El qeyrəti könül açır dodağında. □ Qeyrətini çəkmək – heysiyyətini, namusunu qorumaq, təəssübünü çəkmək. Mənim qeyrətimi çəkirsən, demək?

**Qeyz**, *is.* [ər.]: qeyzə gəlmək – *bax* qeyzlənmək. Gəray bu fikirlə qeyzə gələrək..

**Qeyzlənmək**, *f.* Qəzəblənmək, hiddətlənmək, acıqlanmaq. Kəndlilər qızışıb qeyzlənərək..

**Qəbilə**, *is.* [ər.] Tayfa, xalq, millət. Bütün xalqlar, qəbilələr od içindən çıxacaqdır.

**Qəbir**, *is.* [ər.] Ölünü basdırmaq üçün xüsusi şəkildə qazılan çuxur; məzar, gor. [Xosrov:] Bir şahla gədanın kim olduğunu; Torpaq sormayacaq qəbirdə bizdən. □ Qəbir qazmaq – başqasına pislik etməyə çalışmaq. O vaxt qəbir qazacaqdır insan əlləri.

**Qəbiristan**, *is.* [ər. qəbr və *fars.* stan] Ölülərin basdırıldığı yer; məzarlıq. Tabut yetir qəbristana.

**Qədəh**, *is.* [ər.] Şərab, su, konyak və s. içməyə məxsus qab; piyalə, rumka. Gümüş qədəhlərdə bir şərbət kimi.

**Qədəm**, *is.* [ər.]: qədəm qoymaq – ayaq basmaq, daxil olmaq, girmək. İndisə biz qədəm qoyaq bir salona.

**Qədər** [ər. qədr] 1. *İs.* Miqdar, say, kəmiyyət bildirir. Şerimin qəlbi qədər qoy saf olub gülsün həyat. □ Bu qədər – bu miqdarda (adətən çoxluq bildirir). O neçin bu qədər xəyala dalır? Nə qədər? – 1) nə miqdar: neçə, neçə dənə? Bilirsən nə miqdar sinəmdə söz var? 2) nə dərəcədə, nə nisbətdə. Nə qədər təmizdir, safdır təbiət; 3) o vaxta qədər ki. Nə qədər mən sağam kef görəcəksən!

2. *qoş.* Bir hadisənin, şeyin sonunu bildirir. Tutaq ki, məşriqdən məğribə qədər.

3. *qoş.* Müqayisə bildirir – kimi. Bil ki, balıq qədər qanım soyuqdur.

**Qədim**, *sif.* [ər.] 1. Çox köhnə, çox qədim. Göylərə baş vuran qədim binalar.

2. Keçmişə aid olan, keçmişlə əlaqədar olan. Qədim muzeylərə göndərilmişdir.

3. Çox uzun tarixi olan, çox qədimdən qalan. Qədim Muğan çöllərində çadır qurub bahar fəsli…

**Qədimdən**, *z.* Çox köhnə zamandan, çox köhnə dövrdən bəri; köhnədən, çoxdan, əskidən. Qışlaq yerimizdir qədimdən Muğan!

**Qədim-qədim**, *sif.* [ər.] Çox qədimdən qalan, lap köhnə. Qədim-qədim kilsələrin xaçlı qülləsi..

**Qədir**, *is.* [ər.] Dəyər, qiymət, etibar, hörmət, heysiyyət, ləyaqət. Onların şərəfi, qədri böyükdür. □ Qədir bilən – qiymət verən, hörmət edən. Nankor olmaz bu dünyada qədir bilən. Qədrini bilməmək – qiymət verməmək, hörmət etməmək. Bəzən də qədrini bilməyirik biz. Qədrini bilməmək – layiqincə qiymətləndirməmək, hörmət etməmək. Onun qədri o qədər də bilinməyir. Qədrini qaldırmaq – hörmətə mindirmək, qiyməti vermək. Qaldırdın qədrini şerin, sənətin.

**Qədirbilən**, *sif.* Bir adamın, ya şeyin qiymətini, əhəmiyyətini bilən, başa düşən. Ağsaqqallı qocaların qədirbilən düz ilqarı.

**Qədirbilməz**, *sif.* Adama qiymət qoymayan, adamın qədrini bilməyən. Yarandım qədirbilməz (*z.*).

**Qədirnaşünas.** Qədirbilməz, qiymət verməyən. Gərək yaşamasın qədirnaşünas.

**Qəfəs**, *is.* [ər.] 1. Quşları, heyvanları salmaq üçün məftil və ya ağac çubuqlarından qayrılmış ya hörülmüş qutu şəkilli qurğu. Şahım! Sevinməz ki, qəfəsdəki quş.

2. *məc.* Həbs, həbsxana, zindan mənasında. Gəlin tez uçuraq o daş qəfəsi.

◊ <u>Sinə qəfəsi</u> (*anat.*) – skeletin, qabırğalardan ibarət olan içərisində ciyərlərin və ürəyin yerləşdiyi döş boşluğunu təşkil edən hissəsi. Sinəmin qəfəsi o qədər dar ki..

**Qəflət**, *is.* [ər.] Qafillik, xəbərsizlik. Oyanın, qəflətin dövranı getdi!

**Qəflətən**, *z.* [ər.] Qəfildən, gözlənmədən, birdən-birə, təsadüfən. Elə ki qəflətən xəstələnirəm. // *məc.* O gün ki ölümün ilan nəfəsi; Yayıldı qəflətən ana torpağa..

**Qəhət**, *is.* [ər.]: <u>qəhət olmaq</u> – tapılmamaq, yoxa çıxmaq; yox olmaq. Bizə qəhət olmaz bir parça çörək.

**Qəh-qəh**, *is.* Bərkdən gülüş, uca səslə gülmə. Ətrafı güldürür hər qəhqəhəsi. □ <u>qəh-qəh çəkmək</u> – bərkdən gülmək, səslə gülmək. Qəh-qəh çəkib gülür onlar.

**Qəhr**, *is.* [ər.] Bir məhrumiyyət, haqsızlıq və s. üzündən doğan hədsiz ruhi əzab və iztirab. Bir pəncə əzər qəhr ilə vicdanımı yeksər.

◊ <u>Qəhr etmək</u> – 1) məhv etmək, yox etmək. Dünyaları qəhr edərdi bəlkə bulmaq fürsət; 2) cəbr etmək, zülm etmək; cəzalandırmaq. İncəlik hər qəlbi qəhr edər gerçək. <u>Qəhr olmaq</u> – məhv olmaq, yox olmaq. Qartal pəncələrdə qəhr olur aləm.

**Qəhrəman** [*fars.*] 1. *Sif.* Müharibədə yaxud başqa bir işdə qoçaqlıq, fədakarlıq nümunəsi göstərən; igid. Bir qəhrəman fədaidən söhbət açım mən. // *is.* mənasında. Dəniz kimi dalğalanır qəhrəmanlar. // *sif.* Qoçaq, cəsur, qorxmaz. [Vəzir:] Şöhrətin şahzadə, özün qəhrəman.

2. *is.* Öz dövrünün ictimai mühitinin səciyyəvi xüsusiyyətlərini özündə təcəssüm etdirən şəxs. Bu yeni dünyanın qəhrəmanları..

3. *is.* Ədəbi əsərdə iştirak edən şəxslərin başlıcası. Şairi olduğum qəhrəmanların; Şöhrəti aylara, illərə gəldi.

**Qəhrəmanlıq**, *is.* İgidlik, qoçaqlıq, cəsurluq, qəhrəmancasına hərəkət. Bəzən dilsiz bir vüqarla qılınc çəkir qəhrəmanlıq.

**Qəlb**, *is.* [ər.] 1. Ürək (adətən insanın daxili aləmi, onun hisslərinin, təəssüratının, əhvali-ruhiyyəsinin simvolu, rəmzi

təzahürü mənasında işlənilir). Nədir qəlbindəki o döyüntülər? // *məc.* Azadlığın böyük qəlbi; Günəş kimi şəfəq salır.

2. *məc.* Bir şeyin ən dərin, ən uzaq yeri, mərkəzi. Elə bil səs gəlir yerin qəlbindən.

◊ Qəlb açmaq – ürəyindəkiləri açıb demək. [Ay:] Elə mənim özümə də qəlb açmışdır min bir kərə. Qəlbə nur yağmaq – sevinmək, şadlanmaq. Hər böyük mənadan qəlbə nur yağır. Qəlbi ağrıtmaq – incitmək, əziyyət vermək. Bu gün də ağrıdır qəlbi o qəmlər. Qəlbi vurmaq – var olmaq, sağ olmaq. Əmirxanın qəlbi hələ şiddətlə vurur. Qəlbi qan – qan istəyən, qan tökmək tərəfdarı olan, qan tökməkdən həzz alan adamın qəlbi. Mənim vicdanım da, qəlbim də qandır. Qəlbi qana dönmək – dərdli olmaq, kədərlənmək. Döndü ana qəlbi o gündən qana. Qəlbi qanadlanmaq – sevinmək, şadlanmaq. Qəlbi qanadlanır, açılır tel-tel. Qəlbi qanamaq – incimək, narazı qalmaq. O gündən qadının qəlbi qanadı. Qəlbi qırıq – incik, incimiş. Görünür yazığın qəlbi qırıqdır. Qəlbi qırılmaq – incik düşmək, xatiri qırılmaq. Ağ insanlar kimi qəlbi qırılır. Qəlbi dağa dönmək – lap çox sevinmək, fərəhlənmək. Anaların yazıq qəlbi döndü dağa. Qəlbi daş – zalım, zülmkar. Qəlbi daşdır, nədir yerin! Qəlbini doğramaq – bərk təsir etmək. Doğrayır qəlbini acı bir külək. Qəlbi döyünmək – ürəyi birgə işləmək, bir-birini duymaq. Onun qəlbi qəlbim kimi döyünür. Qəlbini duymaq – başqasını başa düşmək. Hər duyan qəlbin, əzizim, gizli bir sevdası var. Qəlbi yanmaq – heyifsilənmək. Sənətin düşündükcə qəlbi yanardı. Qəlbi yaralı – dərdli, kədərli, qəmli, ürəyində dərdi olan. Qayalar qoynunda qəlbi yaralı. Qəlbi yumşalmaq – yazığı gəlmək. Dedim ki, qəlbiniz yumşalsın bir az. Qəlbi köyrək – tez təsirlənmək, əlüstü mütəəssir olmaq. Min ildir ki, bu yerlərin qəlbi köyrəkdir. Qəlbinə gülmək – sevindirmək, şadlandırmaq. [Şahbaz:] Qəlbimə təzədən yüz səhər gülür. Qəlbi ləkəli – pis bir iş gördüyü üçün dili qısa olan. Lal ol! Ləkəlidir qəlbin, niyyətin. Qəlbi oxşamaq – xoşa gəlmək. Ruhu oxşar, qəlbi oxşar incə bir

canan səsi. Qəlbi sadə – hər şeyə tez inanan. Cərgəmizdə yeri yox «qəlbi sadələrin». Qəlbi sevinmək – sevinmək, şadlanmaq. Məni görər-görməz sevindi qəlbi. Qəlbi... sığışmamaq – yaşadığı mühit, olduğu yer ona dar gəlmək, narazı olmaq. Qəlbim sığışmayır dar saraylara. Qəlbi sıxılmaq – çətinlik hiss etmək, sıxıntı çəkmək. Nə yoruldum söyləyər o, nə də qəlbi sıxılır. Qəlbi sükuta getmək – sakit olmaq, səssəmir kəsilmək. Gedərkən sükuta gecənin qəlbi. Qəlbi tablaşmaq – dözmək, tab gətirmək. [Banu:] Aman... Tablaşmayır qəlbim hicrana. Qəlbi fikrə getmək – fikrə dalmaq, düşünmək. Fikrə getdi qəlbim. Qəlbi çatlamaq – dözə bilməmək, dayana bilməmək. Göyün qəlbi çatladı. Qəlbinə axmaq – özünə yer etmək, yerləşmək. Axdıqca qəlbimə nurlu sətirlər. Qəlbinə dəymək – incitmək, ürəyinə toxunmaq, könlünü qırmaq. Nə də onun bircə dəfə qəlbinə dəydi... Qəlbində danışmaq – fikirləşmək, fikrinə gətirmək. O danışır öz qəlbində. Qəlbində qan coşmaq – cuşa gəlmək, coşmaq. Hər insan qəlbində neçə qan coşur. Qəlbinə qulaq asmaq – özü müəyyən qərara gəlmək, öz fikrilə hərəkət etmək. Bu sükutun mənasına öz qəlbində qulaq asır. Qəlbində yaşamaq – unutmamaq. qəlbində yaşadır o böyük günü. Qəlbində yurd salmaq – özünə yer etmək, olmaq. Qəlbində yurd salır canlı bir şeir. Qəlbində gülmək – şadlanmaq, sevinmək. Gülürdü qəlbində, doğrudan, aləm. Qəlbində tufan – narahatlıq, sakitliyin olmaması. De, yerin qəlbində tufanmı vardır? Qəlbindən vurmaq – yada salmaq, xatırlatmaq. Bu təsadüf məni qəlbimdən vurdu. Qəlbindən qanlar axmaq – bərk həyəcan keçirmək, daxilən narahat olmaq. Anam üzümə baxdı; Qəlbindən qanlar axdı. Qəlbindən keçmək – fikirləşmək, fikrinə gətirmək. Duyuram qəlbindən keçənləri mən. Qəlbinə dəyməsin – incimə. qəlbinə dəyməsin sözüm, söhbətim. Qəlbinə istinadgah tapmamaq – arxalana bilmək, əsaslacaq bir istinadgahı olmamaq. Tapmadı qəlbinə bir istinadgah. Qəlbinə qazılmaq – özünə yer etmək. Böyük bir gün, əziz bir gün qəlbimizə qazılır. Qəlbini almaq

– özünə cəlb etmək, əlinə almaq. [Məryəm:] O mənim qəlbimi alıb oynatdı. Qəlbini açmaq – birinə inanaraq ürəyini açmaq, sirrini açıb demək. O zaman qəlbini bizə el açar. Qəlbini qoparıb daşa vurmaq – arzusunu ürəyində qoymaq. Qoparıb qəlbimi sən vurma daşa. Qəlbini vermək – sevmək, aşiq olmaq. [Xosrov:] Bir sizə vermişəm öz qəlbimi mən. Qəlbini qurd kimi söküb yemək – çox incitmək, əziyyət vermək. qəlbini qurd kimi söküb yeyənlər.. Qəlbini duymaq – başqasını başa düşmək. Onların qəlbini duya bilsəniz! Qəlbini oda yaxmaq – özünü oda-közə vurmaq, hər bir çətinliyə dözməyə hazır olmaq. Yaxır qəlbini odlar.. Qəlbinin yumşaq teli – ürəyinin ən incə nöqtəsi. Söz verdi qəlbinin yumşaq telinə.

**Qəlbən**, *z.* [ər.] candan, könüldən, qəlbdən, səmimi olaraq. Kainatı Loğman kimi duyub qəlbən..

**Qəlbi**, *sif.* (*məh.*). Hündür, uca. Bu qəlbi dağları qoy asta aşaq.

**Qəlbsiz**, *sif.* Qəlbdən olmayan, ürəksiz, könülsüz. Qəlbsiz izdivacdan xəyanət doğar.

**Qələ**, *is.* [ər.] «Qala» sözünün klassik dildə işlənən forması. Sabah alınmalı Şuşa qələsi.

**Qələm**, *is.* [ər.] 1. Mürəkkəbə batırıb yazmaq üçün ucu şiş və yarıq yazı aləti. Hanı qələm, hanı kağız? // Metal qələm ixtira olunana qədər qamışdan, quş lələyindən düzəldilən yazı aləti. Qarğı qələmini alır əlinə.

2. *məc.* Yazma qabiliyyəti, inşa qabiliyyəti; üslub, yazı. Sənin qələmindən inci tökülsün. // Yazıçılıq simvolu kimi işlədilir. Yazacaq «Hamlet»i coşqun qələmim. // İstedad mənasında işlədilir. Qələm dilə gəlir, coşur arzular.

3. *məc.* Qayda, qanun. Hər dövranın bir hökmü var; Hər zamanın bir qələmi.

◊ Qələm qaş (*şair.*) – qələmlə çəkilmiş kimi incə, gözəl qara qaş. Qələm qaş altında piyalə gözlər. Qələm çalmaq (*şair.*) – çox yazıb tərifləmək, çox yazmaq. İyirmi ildir ki, qələm çalırsan.

**Qələmdaş**, *is.* 1. Qələm yoldaşı, yazıçı. Rəvadırmı qələmdaşlar məni qınasın?

2. Karandaş. Mürəkkəbim, qələmdaşım.

**Qələmə**, *is.* (*bot.*). Düz uzanıb qalxan uca ağac. Hər yeni qələmə, şitil.

**Qələmqaşlı**, *sif.* Qələmlə çəkilmiş kimi incə, gözəl qara qaşı olan. Qələmqaşlı bu dilbər.

**Qələmsiz**, *sif.* Qələm kimi düz hündür olmayan. Qərənfiləm qələmsiz.

**Qələt**, *is.* [ər.] Səhv, yanlış, xata. Bir də bu qələti. □ Qələt eləmək – səhv etmək, bir daha etməyəcəyinə söz vermək. Qələt eləmişəm, bir xatadır bu.

**Qəlpə**, *is.* Bərk bir şeyin qopub parçalanmış hissəsi, parçası. Qəlpə də qopmayır təməl daşından.

**Qəlyan**, *is.* Tənbəki çəkməyə məxsus cihaz. Çinar kölgəsində tüstülənməyir; İxtiyar babanın ağac qəlyanı.

**Qəm**, *is.* [ər.] Kədər, dərd, qüssə, könül tutqunluğu. Məndən çox uzaqdır hər bəla, hər qəm. // Obrazlı təşbehlərdə işlədilir. Qəm mülkündən azad olum; Yaratdığım bir sənətlə! □ Qəm yemək – fikir çəkmək, qəm çəkmək, qəmə batmaq. Dövran da sürmüsən, qəm də yemisən. Qəm çəkmək – *bax* qəm yemək. Çəkdi dünyanın əzəl qəmlərini. Qəmə qərq olmaq – son dərəcə kədərlənmək, qəmlənmək, qəmgin olmaq. Nə qəmə qərq olur, nə dərdə dolur. Qəmə düşmək – *bax* qəmə qərq olmaq. Cahanda düşdüsə min qəmə, dərdə.

**Qəmgin**, *sif.* [*ər.* qəm və *fars.* …gin] 1. Qəmli, kədərli, tutqun, məyus, pərişan. O günlər böyləcə qəmgin deyildin.

2. Qəm doğuran, kədər gətirən, qəmləndirən, cansıxıcı, darıxdırıcı. Bu qəmgin tərانə, bu kədərli ney…

**Qəmgin-qəmgin**, *z.* Qəmgin halda, dərdli-dərdli, həzin-həzin. Qərib-qərib, qəmgin-qəmgin ötürsüz.

**Qəmxanə**, *is.* [*ər.* qəm və *fars.* xanə] Qəm evi, dərd-qəm gətirən yer. Həyatda göz yaşı, qəmxanələr var.

**Qəmlənmək**, *f.* Məyus olmaq, qəmə batmaq; kədərlənmək. Oxucum! Qəmləndi ürəyin bir az.

**Qəmli**, *sif. Bax* qəmgin 1-ci mənada. Qəmli baxışları su kimi axdı.

**Qəmli-qəmli**, *z.* Bax qəmgin-qəmgin. Hər ürəyin telləri də qəmli-qəmli saz tutur.

**Qəmzə**, *is.* [ər.] Naz, işvə, şivə, süzgün baxış, işvəli nəzər. Qəmzələr göstərən, işvələr satan..

**Qəmzəli**, *sif.* Qəmzə edən; nazlı, işvəli, şivəli. Məzəlidir, qəmzəlidir, axan çaylar.

**Qəpik-quruş**, *is.* Xırda pul, azacıq pul, əhəmiyyətsiz pul. Qəpik-quruş atır ona gəlib-gedənlər.

**Qərar**[1], *is.* [ər.] 1. Müzakirədən sonra çıxarılan qərar; nəticə. [Xosrov:] Səncə, təslim olum? Budur qərarın? □ Qərar vermək – bir şeyi müzakirə etmək, müəyyən nəticəyə gəlmək, qət etmək. [Banu:] Şirini tez tapın, tez qərar verək; Bu gündən şah olsun o gözəl mələk. Qərarını vermək – *bax* qərar vermək. Ellər qərarını verdiyi gündə.

**Qərar**[2], *is.* [ər] Aram, rahatlıq. Qərarım yoxdur sənsiz. Qərar tutmaq – bir yerdə dayanmaq, qalmaq. Qoca qartal dağ başında qərar tutub; Uçurduğu çolpaları seyr edər. // *məc.* Könlüm quşu bir qayanın sinəsində tutmuş qərar.

**Qərargah**, *is.* [*ər.* qərar və *fars.* …gah] Qərar tutulan yer, dincəlmək yeri, ev, məskən. Məcnunun bəxtiyar və gənc yaşında; Axır qərargahı oldu biyaban.

**Qərb**, *is.* [ər.] 1. Dünyanın, günəşin batdığı cəhət. Cənub, Şimal, Şərq, Qərb; Bölünsün iki düşmən və barışmaz cəbhəyə.

2. Şərqə müqabil olan səmt, cəhət. Qərbin üfüqündə bir bulud gəzər.

**Qərənfil**, *is.* Müxtəlif rənglərdə çiçək açan gözəl gül. Saralmasın göy çəmənlər; Qərənfillər, yasəmənlər.

**Qərəz**[1], *is.* [ər.] Pis, gizli məqsəd, pis niyyət, gizli ədavət. Yox onun qəlbində nə qərəz, nə kin.

**Qərəz²**, *ara s.* [ər.] Xülasə, sözün qısası (bəzən «ki» bağlayıcısı ilə işlənir). Qərəz ki… mən getdim, dincəlim bir az.

**Qərib**, *sif.* [ər.] 1. Yad yerdə yaşayan, özgə yerli, gəlmə. Bir qərib kimsə ki, səni haraylar..

2. *is.* mənasında. Qərib adam, başqa yerli. Bir qəribəm, sinəm dağlı.

3. *Bax* qəribə 1-ci mənada. Sakit axşamların qərib röyası.

4. *məc.* Dərdli, qəmli, kədərli. Qərib könlüm bəs necə ki, yanmasın.

5. *məc.* Həzin, hüzn gətirən. Burda gecələrin qərib səsi var.

**Qəribə**, *sif.* [ər.] 1. Eşidilməmiş, görünməmiş, qeyri-adi, təəccüblü, çox maraqlı. Qəribə insanlar gəlir səhnəyə.

2. Qəribədir şəklində – çox təəccüblüdür, çox maraqlıdır. [Cəlal:] Həyat doğrudan da çox qəribədir.

**Qərib-qərib**, *z.* [ər.] Qərib kimi, yazıq-yazıq, məzlum-məzlum, yanıqlı-yanıqlı. Qərib-qərib, qəmgin-qəmgin ötürsüz.

**Qəriblik**, *is.* Sakitlik, sükunət. Axşam qəribliyi dağlardan enir.

**Qərinə**, *is.* [ər.] Əslində 33 illik bir dövr mənasında olub, əsr mənasında işlədilir. İllər, qərinələr keçirsə aləm..

**Qərinədən-qərinə**, *z.* Əsrdən-əsrə, həmişə. Bir çoxunu yaşatmışdır indiyədək; Qərinədən-qərinəyə «qalx» deyərək.

**Qərq** [ər.] Adətən «olmaq», «etmək» köməkçi felləri ilə birgə işlənir. □ Qərq etmək – batırmaq (suda). Xəzər! Xəzər! Fırtınalı, dəli Xəzər; Neçə yelkən qərq eləmiş, neçə çayın. Qərq olmaq – 1) batmaq, görünməz olmaq. Gəmiçi özünü itirsə əgər; Tufanlar içində qərq olub gedər; 2) suya batıb məhv olmaq. Sularda qərq olmuş gəmisi bəzən; 3) bir şeyin çoxluğunu, şiddətini bildirir. Yenə gürcü qızı dərdə qərq olmuş.

**Qəsb**, *is.* [ər.]: qəsb etmək – tutmaq, zəbt etmək, işğal etmək. [Banu:] Bu gün-sabahımdır… Mən ölsəm əgər; Gözəl yurdumuzu yadlar qəsb edər.

**Qəsbkar**, *is.* [*ər.* qəsb və *fars.* kar] Bir ölkənin torpağını zorla tutan, malını, mülkünü, torpağını ələ keçirən adam. Ölür cahangirlər və qəsbkar.. // *məc.* Vətən oğlu qılınc çəkmiş qəsbkarlar dünyasına.

**Qəsd**, *is.* [ər.] Pis niyyət, məqsəd, məram. Qəsdinin altında talan olmuşam.

◊ Qəsd eyləmək – birini öldürmək, yaralamaq və s. üçün təşəbbüs etmək, fikirləşmək. Qəsd eyləyir mənə o bivəfa yar. Qəsdinə durmaq – birisinin ölümünə, məhvinə yaxud bədbəxtliyinə çalışmaq. Yenə cəllad olub durdu qəsdimə.

**Qəsdən**, *z.* [ər.] Bilərəkdən, bilə-bilə, müəyyən məqsədlə. Qəsdən olacağam onun sağ əli.

**Qəşəng**, *sif.* [*fars.*] Görünüşcə çox gözəl, bəzəkli, insanda bədii təsir oyadan. Bir insan vüqarı, bir qəşəng libas.

**Qəşş**, *is.* [ər.]: qəşş etmək – özündən getmək, ürəyi keçmək, bayılmaq. Qəşş edib ayağı yerdən üzüldü.

**Qətl**, *is.* [ər.] Öldürmə, öldürülmə. Bilmədim nəymiş o qətlin səbəbi.

**Qətrə**, *is.* [ər.] damcı, damla. Bir qətrə böyüyüb bir dəniz olur.

**Qəvvas**, *is.* [ər.] Batmış şeyləri və s. çıxarmaq üçün dənizin dibinə baş vurub çıxan üzgüçü; dalğıc. Bu ümmanda üzmək üçün qəvvas gərək. // *məc.* Ana qəlbin bir ümmandır, ey Vətən; Vurğun kimi bir qəvvası var onun!

**Qəzet**, *is.* [ital.] Hər gün, bəzən vaxtaşarı çap olunan və ictimai-siyasi həyatın cari məsələlərindən bəhs edən, habelə tənqidi və kütləvi, bəzən də bədii şeir və hekayələr dərc edən böyük səhifələr şəklində dövri mətbuat orqanı. London qəzetləri yazdı.

**Qəzetə** «Qəzet» sözünün köhnə forması. Xəbər verdi qəzetələr vətənə.

**Qəzəb**, *is.* [ər.] 1. Hiddət, acıq, hirs, qeyz. Artıq onun dişləri də kilidlənmiş qəzəbindən.

2. Qəzəblə, *z.* – hirslə, qeyzlə, hiddətlənərək. Qəzəblə sıçrayır hey üstümüzə.

**Qəzəblənmək**, *f.* Çox hiddətlənmək, hirslənmək, qızmaq, acığı tutmaq. Qəzəblənmiş ürəkləri yenə tufan bürüyür.

**Qəzəbli**, *sif.* və *z.* Hiddətli, qeyzli, hirsli, acıqlı. Bu axşam o qədər qəzəbliyəm ki..

**Qəzəl**, *is.* [ər.] (*ədəb.*). Eşq və məhəbbəti tərənnüm edən, beytləri eyni qafiyəli 5-10 beytli lirik şeir (əski şeir forması). Qoca Şərqin şöhrətidir Füzulinin qəzəli.

**Qibləgah**, *is.* [*ər.* qiblə və *fars.* gah] 1. (*dan.*) Qiblə tərəf, qiblə yeri çəkindim və döndüm qibləgahımdan.

2. Keçmişdə padşahlara verilən adlardan biri. [Vəzir:] Söylə əmrin nədir, ey qibləgahım?

3. *məc.* Çox sevilən, səcdə edilən. O səcdə qıldığın çinar kölgəsi; Mənim də şerimin qibləgahıdır.

**Qiblənüma**, *is.* [*ər.* qiblə və *fars.* nüma] Kompas. O zamanlar hələ yoxmuş qiblənüma.

**Qismən**, *z.* [ər.] Bir şeyin hamısı deyil, bir hissəsi; tamamilə yox bir qədəri; bir qədər. Bu sözdə doğruluq olsa da qismən.

**Qismət**, *is.* [ər.] 1. Tale, nəsib, qədər, bəxt; bəxtə çıxan hər bir şey. Görünür taleyim, qismətim budur. □ Qismət olmaq – bəxtinə çıxmaq, nəsib olmaq, payına düşmək, çatmaq. Qismət olsun dost dediyim bu insana. Qismətinə düşmək – *bax* qismət olmaq. Mənim qismətimə düşmüş əzəldən.

2. *məc.* Pay. Allah qonağının öz qisməti var.

3. Parça, hissə. Göz doymayır şeriyyətin bu qismətindən.

**Qıcamaq**: diş(lər)ini qıcamaq – acığından, hiddətindən və ya başqa səbəbdən dişlərini bir-birinin üstünə basıb bərk sıxmaq. İndi də dişini qıcamış Qacar.

**Qıfıl** [əsli *fars.*] Qıfıllamaq (bağlamaq) üçün açarla bağlanıb-açılan alət; kilid. Nə varsa içəri götürür asta; Cehiz sandığına bir qıfıl vurmaq.

**Qıfıllanmaq**, *məch.* Qıfılla bağlanmaq, qıfıl vurulmaq. Ağzı qıfıllanmış xəzinələr. // *məc.* Qıfıllanır hər könüldə insanlığın pak əməli. Qıfıllandı o zamandan; Zərnigarın gəlin baxtı.

**Qığılcım**, *is.*. Yanar yaxud qızarmış və ya bir-birinə dəyən bərk şeydən sıçrayan od zərrələri; çırtdağ, cılğam, cınqı. Qığılcım parladı polad nalından. □ Qığılcım kimi parlayıb-sönmək – tez parlayıb sönmək, tez keçmək. [Sözlər] bir qığılcım kimi parlayıb sönür.

**Qıjıltı**, *is.* Çox iti axan suyun çıxardığı səs. Axır qıjıytıyla köpüklü çaylar.

**Qıl**, *is.*: qıl körpü – islam dininə görə qiyamət günü adamların günahkar olub-olmamalarını müəyyənləşdirmək üçün üstündən keçəcəyi qıl kimi nazik körpü. Bir zaman gələr ki, qıl körpüdən; Günahkar kəçərkən yızılıb qalar.

**Qılıq**, *is.* Xasiyyət, yaxşı rəftar. Salam, sevgilimin xoş qılığına. □ Qılığına girmək – birisinin etibarını qazanmaq, yaxud müəyyən məqsədlə ona xoş sifət göstərərək şirin dillə yaxud yaltaqlanmaqla onu ələ almaq; tovlamaq. İnsan da var, tez-tez girir qılığına.

**Qılınc**, *is.* 1. (*köh.*) Xəncərdən böyük, əyri və ya düz, birağzılı kəsər silah. Onu bir qılıncla vurardım yəqin! // *məc.* İndi qılınc yazır həqiqətləri.

2. *məc.* İti, çox ensiz. Teylənir dağların qılınc yalında.

◊ Qılınc vurmaq – 1) qılıncla vuruşmaq. Bir əllə də qılınc vurmaq mənim köhnə adətimdir; 2) zülm etmək, əziyyət vermək, incitmək. Min il qılınc vurdu bizə mülkədar. Qılınc qına qoyulmaq – daha vuruşmamaq, döyüş qurtarmaq. O vaxt qoyulacaq qılınclar qına. Qılınc qurşamaq – 1) vuruşmaq üçün belinə qılınc bağlamaq, döyüşə hazır olmaq. [Əhriman:] Mən qılınc qurşamışam, bax, bu gələn nəslimə bax; 2) döyüşə hazırlaşmaq. Qılıncmı qurşamış zamanın əli. Qılınc kimi kəsmək (keçmək) – çox təsir etmək. Sazaq qılınc kimi kəsəndə məni. Şaxta qılınc kimi keçir sinəmdən. Qılınc oynatmaq – mənəm-mənəm demək, hərbə-zorba gəlmək. Burda çox oynatdı qılınclar, qınlar. Qılınc taxmaq – belinə qılınc bağlayıb döyüşə hazırlaşmaq. Misri qılınc taxır Koroğlu nəsli. Qılınc çalmaq – *bax* qılınc vurmaq. At belində qılınc çalmış; Sənin şanlı babaların. Qılınc çəkmək – *bax*

qılınc qurşamaq. Ölüm qılınc çəkdi həyatın üstə. Qılınca qurşanmaq – *bax* qılınc qurşamaq. Qılınca qurşandı o, ölüm üstdə. Qılıncdan keçirmək – hamısını qılıncla öldürmək. Qılıncdan keçirdi bizi bu ağalar. Qılıncını qına qoymamaq – vuruşmadan əl çəkməmək, döyüşməkdə davam etmək.. Avropanın oğulları qılıncını qoymur qına. Qılıncını üstünə çəkmək – *bax* qılınc çəkmək. Yenə qılıncını çəkdi üstümə.

**Qılınclı-qalxanlı**, *sif.* Qılınc-qalxanla silahlanmış, qılınc-qalxanı olan. Qılınclı-qalxanlı qəhrəmanlar.

**Qıllı**, *sif.* Tüklü, kobud qoyun dərisindən tikilmiş. Başında saçaqlı, qıllı bir papaq.

**Qılmaq**, *f.* (*köhn.*). Etmək, əda etmək, icra etmək. Gözəl camalına qılır tamaşa.

**Qilü qal**, *is.* [ər.]: qilü qal olmaq – mübahisə düşmək, səs-küy qalxmaq. Bu kəmamın barəsində qilü qal olsun gərək!

**Qımıldanmaq**, *f.* 1. Yavaşca hərəkət etmək, az tərpənmək. Azca qımıldanır onun bədəni.

2. Dodaqaltı çox yavaşdan danışmaq və ya oxumaq. Qımıldandın dodaqaltı, xoş mahnılar çağırdın.

**Qımışmaq**, *f.* Dodaqaltı gülümsəmək. Uşaq yuxusunda qımışıb gülür.

**Qımız**, *is.* Turşudulmuş at (bəzən dəvə) südündən hazırlanan qidalı ağartı-içki. Bəylər içdi ağ qımızı.

**Qın**, *is.* 1. Xəncəri, qılıncı və s. kəsən silahları qoymaq üçün qab. Tüfənglər bağlıdır, qılınclar qında.

2. Bəzi heyvanların bədənini örtən bərk qabıq, örtü, pərdə, tikan və s. kirpi kimi çəkilmə qınına.

◊ Qınına girmək – *bax* qınına çəkilmək. O, aşkarda girər qına. Qınına çəkilmək – gizlənmək, özünü göstərməmək, heç bir işə qarışmamaq. Paslı qılınc kimi çəkildi qına. Qından sıyrılmaq – qınından çıxarılmaq, çəkilmək. Zəhərli qılınclar sıyrılır qından.

**Qınamaq**, *f.* Məzəmmət etmək, danlamaq, təqsirləndirmək, töhmətləndirmək, danlamaq. Məni qınamayın.

**Qıpqırmızı**, *sif.* Tünd qırmızı, çox qırmızı, qıpqırmızı. Görünsün gözümə qıpqırmızı ət.

**Qır**, *sif.* Kül rənginə çalan ağ, çal. Sürürəm əsrimin qır atlarını.

**Qıraq**, *is.* Sahil, kənar. Gözüm yollarda qalmışdır; Xəbər yox Kür qırağından.

**Qırğı**, *is.* (*zool.*). Balaca quşları ovlayan iti və uzun caynaqlı, qısa qarmaqvarı dimdikli yırtıcı quş. Yığıb qanadını qırğı sayağı; Şığıyıb süzəndə o bir ox olur. ☐ Qırğı baxış – başını aşağı salıb gözaltı baxma. Azacıq çal düşmüş qaşlar altından; Qırğı baxışları gülümsəyərək.

**Qırğın**, *is.*: qırğın düşmək – çoxlu canlı həlak olmaq. Qırğın düşmədi ki, bu kəkliklərə?

**Qırğınlı**, *sif.* Çoxlu canlı qırılan, çox canlı ölən. Bu qanlı, qırğınlı döyüşlərdə sən; Yalnız zəncirini itirəcəksən.

**Qırx**, *say.* Otuz doqquzdan sonra gələn say, 40 ilə işarə olunan rəqəmin adı. Qırx bahar əvvəlki bir səhnə keçir.

**Qırıb-tökmək**, *f.* Kütləvi surətdə tələf etmək, məhv etmək, öldürmək. Bizi qırıb-tökdü soyuq səngərdə.

**Qırıb-tükətmək**, *f.* Kütləvi surətdə tələf etməklə, qurtarmaq, hamısını öldürmək. Ah!.. Qırıb-tükətdi bizi alçaqlar.

**Qırıq**, *sif.* 1. Sınıq, sınmış. Əlində bir hisli, bir qırıq fanar.

2. *məc.* İncimiş, incik, sınmış, sınıq. Görünür, yazığın qəlbi qırıqdır.

3. *məc.* Pis nəsildən olan, alçaq zatı olan. Mayan turş ayrandır, zatın qırıqdır.

**Qırıldamaq**, *f.* Qır-qır etmək, qırıltı səsi çıxarmaq. Çox qırıldama..

**Qırılmaq**, *f.* 1. Sınmaq, parçalanmaq. Mən yazmaq istərəm, qırıldı qələm.

2. Kütləvi surətdə tələf olmaq, məhv olmaq, ölmək. Ac qalıb qırıldı körpə turaclar.

3. *məc.* Məhv olmaq. Qırıldı qəlbimin sədəfli sazı.

**Qırılmaz**, *sif.* Sarsılmaz, möhkəm, əbədi, həmişəlik olan. Bu qırılmaz peymanı uzaqlardan gördülər.

**Qırışıq**, *sif.* Üz, bədən və s. dərisində əmələ gələn dərin cizgi; qırış. Nə alnın qırışıq, nə alnın dardır.

**Qırış-qırış**, *sif.* Qırışları çox olan, qırışıq halda olan, qırışmış. Ancaq geniş alnı qırış-qırışdır.

**Qırqovul**, *is.* (*zool.*). Toyuq fəsilindən rəngarəng tüklü, ləzzətli əti olan iri ov quşu. Qırqovullar qaqqıldaşıb uçanda; Sıx ormanlar səsə düşür hər axşam.

**Qırmaq**, *f.* 1. Sındırmaq, parçalamaq. Qırır qapıları həbsxanalar.

2. Dağıtmaq, sökmək. Daşqın sular kimi qırır səddini.

3. Kütləvi surətdə tələf etmək, məhv etmək, öldürmək. Sənmi, de, qırırsan fədailər nəslini.

4. *məc.* Bağlayan, məhkum edən bir şeydən xilas olmaq. Qırdı zəncirini müstəmləkələr.

**Qırmızı**, *sif.* 1. Qan rəngli; al. Qırmızıdır bu ordunun zəfər bayrağı. // *z.* mənasında. Başdan-ayağadək geymiş qırmızı.

2. Qadınların dodaqlarına (bəzən üzlərinə də)1 sürtdükləri qırmızı rəng; pomada. Yaramaz şu boya; şu qırmızı rəng.

3. Qırmızılar şəklində, *is.* mənasında cəmdə – tar. İnqilabçılar, kommunistlər, bolşeviklər, inqilabi qoşunlar. Qırmızıları güllələdiyi zaman aparmışdı top əlini.

**Qırov**, *is.* Payızın axırlarında soyuqlar düşən zaman gecələr yerə, yarpaqlar və s. üzərinə kiçik kristal şəklində qonan qar kütləsi, donmuş şeh zərrələri. Qırov səpələndi çölə, yamaca.

**Qırpınmaq**, *f.* Tez-tez açılıb-yumulmaq, açılıb-örtülmək, gözə görünüb gizlənmək. Günəş qırpınanda açıldı hava.

**Qısa**, *sif.* Müxtəsər, təfsilatsız, yığcam. On beş dəqiqəyə tamamlanır bax; Bir anlıq ölümün qısa dastanı.

**Qisas**, *is.* [ər.] İntiqam, əvəzini çıxma. Baş qaldırıb torpaq altdan; Hayqıracaq qisas deyə. □ Qisas almaq – intiqam almaq, əvəzini çıxmaq. [Xosrov:] Mənim qisasımı o alacaqdır.

**Qısqanc**, *sif.* Çox qısqanan. Səndən nə gizlədim, qısqancam yaman. [İsmət:] Kişidir, kişilər çox qısqanc olur.

**Qısqanclıq**, *is.* Sevdiyi bir adamın tam sədaqət və məhəbbətinə şübhə etmə. Sevgilim! Anla ki, qısqanclıq nədir?

**Qısqanmaq**, *f.* 1. Sevdiyi, məhəbbət bəslədiyi bir adama başqasının yaxşı münasibətinə dözə bilməmək, yaxud yaxın bir adamının başqasına daha çox meyil və məhəbbət göstərməsinə, daha çox yaxın olmasına şübhələnərək ruhi əzab çəkmək. Bəlkə də qısqanır nişanlısından. // *məc.* Günəş də qısqanaraq ürkdü gecədən.

2. Çəkinmək, utanmaq, sıxılmaq. Çəkinmə; qısqanma.

3. Qorxmaq, qorxaqlıq göstərmək. Nə zaman ki, el içində öz səhvimizi; Boynumuza götürməyə biz qısqanırıq.

4. Şübhələnmək, ehtiyat etmək, çəkinmək. ..Çox qısqanır bizim yaman nəzərlərdən.

**Qısmaq**, *f.* Aşağı salmaq, azaltmaq. Heç qısmayın səsinizi.

**Qış**, *is.* İlin payızdan sonra gələn soyuq fəsli. O şiddətli qışın sonunda bu yaz; yuyurdu tozları kükrəmiş sellər. Hər isti yazın da, soyuq qışın da.. Qışın şaxtasında taxıl becərən.

**Qışqırıq**, *is.* 1. Çığırtı, bağırtı, çığırıq səsi. Kişnəyib aləmə qışqırıq salır.

2. Sənaye müəssisələrindən, nəqliyyat vasitələrindən, silahlardan eşidilən gurultu, patıltı, siqnal və s. zavodların qışqırığı bir-birinə qarışdıqca.

**Qışqırmaq**, *f.* 1. Çağırtmaq, bağırtmaq, çığırtmaq. Gülpəri qışqırır: – Öldüm, ay haray! Qışqırdı salonun sıx izdihamı.

2. Sənaye müəssisələrindən, nəqliyyat vasitələrindən, silalardan gurultulu, patıltım, səs eşidilmək. Car çəkir, qışqırır nəhəng motorlar. Bəzən də qışqıran pulemyotların.

3. Bərkdən elan etmək, car çəkmək. İnqilab qışqırır onun haq səsi.

4. Bərkdən oxumaq *(xanəndə, aşıq və s. haqqında)*. Ortada qışqırıb bir xal da vurdun.

**Qışlaq**, *is.* 1. Əsasən qoyun, bəzən də başqa ev heyvanlarının qışda saxlandığı mötədil iqlimi və bol otlaqlı yer. Şirin olur yol söhbəti… qışlaqlara köçəndə.

2. *məc.* Qışda yaşamaq üçün müvəqqəti yurd, binə, köç. Min bir oba qurub, qışlaq saldınız.

**Qitə**, *is.* [ər.] (*coğr.*). Yer kürəsinin okean və dənizlərlə əhatə olunmuş böyük hissələrindən hər biri. Dünya beş qitədir.

**Qıtlıq**, *is.* Bir şeyin tapılmaması, azlığı, çatışmaması, kasadlıq, ehtiyac. Dözdük hər qıtlığa, hər kasadlığa.

**Qıvrılmaq**, *f.* Qıvrıq hala gəlmək, qıvrıq şəkil almaq; burulmaq, buruq-buruq olmaq. Ancaq faşist.. İlan kimi gah qıvrılır, gah burulur.

**Qıvrım**, *sif.* Qıvrılmış, qıvrım, qıvrıq, buruq-buruq. Qıvrım telli bənövşələr.

**Qıy**, *is.*: <u>qıy vurmaq</u> – qışqırmaq, bağırmaq, nərə çəkmək. Tərlan yuvasından qopub qıy vurur. <u>Qıy qoparmaq</u> – *bax* qıy vurmaq. Haray çəkib, qıy qoparıb çöllər dolanır.

**Qiyam**, *is.* [ər.] Özbaşına, qeyri-mütəşəkkil üsyan, silahlı çıxış. Şəhidlərin qiyam ruhu yapışacaq yaxandan.

**Qiyamət**, *is.* [ər.] 1. Dini etiqada görə dünyanın axırında bütün ölülərin dirilib məhşərə gəlməsi; həşr, məhşər. Ölsünmü bu həşrü qiyamətindən?

2. *məc.* Calal, gurultu, patıltı, mərəkə. Nədir bu cəlalın, bu qiyamətin?

◊ <u>Qiyamət eyləmək</u> – çox şöhrət qazanmaq, hamının diqqətini özünə cəlb etmək. Eyləyirsən yenə qiyamət, Şuşa!

**Qiybət**, *is.* [ər.]: <u>qiybət eləmək</u> – birisinin özü olmadığı halda sözünü danışmaq, dalısınca danışmaq. Qohumdan, qonşudan qeybət eləyir.

**Qıyıq**, *sif.* Gözlərinin ucu dar, qıyılmış. Qıyıq gözlərinə qaranlıq çökdü.

**Qıymaq**, *f.* Heyfi gəlmək, əsirgəməmək; bir şeyi başqasına rəva görmək. Qıyma öz qanına boyana ceyran!

**Qız**, *is.* 1. Qadın cinsindən olan uşaq, övlad. Yatır qucağında südəmər bir qız. // *məc.* Həyatın qızıdır məhəbbətimiz.

2. Həddi-büluğa çatmış, lakin hələ ərə getməmiş qadın cinsindən olan gənc. [Banu:] Hanı Şirin qızım? Nə oldu, qızım? // «Bakirə» mənasında. Anam, bacım, qız gəlin.

3. Müəyyən xalqın, millətin qadın cinsindən olan övladı. Yenə gürcü qızı dərdə qərq olmuş.

4. Qıza müraciət etdikdə işlədilir (bəzən «qızım» şəklində). Ay qız, de, bir danış; Nə var, qızım, nə oldu sana?

**Qızarmaq**, *f.* 1. Qırmızı rəng olmaq, qızarmaq, qırmızılaşmaq. Üfüqlər qızarıb, güləndə səhər; Bülbül öpə-öpə oyatsın gülü.

2. *məc.* Utanmaq, xəcalət çəkmək. Gülpəri qızarıb başını salır. // Çox içməkdən, xəstəlikdən, küləkdən gözləri, üzü və s. qırmızı rəng almaq. Gözlər qızardıqca qızdı məclis də; Gah bozarır, gaz qızarır, üşütmələr var canında.

**Qızartı**, *is.* 1. Qırmızı rəng, qırmızılıq. Günəş doğmadan qabaq; Bir qızartı parladı.

2. Yorğunluqdan, xəstəlikdən üzdə, gözlərdə əmələ gələn qırmızılıq. Onun gözlərində bir qızartı var.

**Qızcığaz**. *Bax* qızcıq. Qızcığaz gözünü yuxudan açır.

**Qızcıq** «Qız»dan oxş. Dəyişdi günbəgün qızcığın halı.

**Qızdırma**, *f.is.* (*dan.*). İsitmə xəstəliyi, malyariya, titrətmə-qızdırma. Üşütmə, qızdırma olmasın dedik.

**Qızdırmaq**, *t-li.* İsitmək, isti eləmək. .. qızdırır əllərini. // *məc.* Bir eşqin istisi qızdırdı hər an.

**Qız-gəlin**, *is.* Qızlardan və gəlinlərdən ibarət gənclik. Xoş yaşasın ana yurdun qız-gəlini.

**Qızğın**, *sif.* 1. Çox isti, çox qızmış halda olan, yüksək hərarəti; yandırıcı. Çünki sən qızğın qurşunlara sinə gərmədin.

2. *məc.* Çox gərgin, güclü, ehtiraslı, şiddətli. O gün insanların qızğın səsindən.

**Qızıl**[1], *is.* Sarı rəngli, bahalı bəzək şeyləri və s. qayrılan və dəyər vahidi kimi işlədilən qiymətli metal. Üzə çıxır yer altının qızıl mədəni.

2. Qızıldan hazırlanmış metal pul; sikkə. Qızıl verib sağaltmışdı topalını.

3. *sif.* Al, qırmızı. Bir qızıl bayraq ki rəngi lalədən. □ Qızıl qan – qırmızı qan. Bir qızıl qan olub, axar sular da.

4. *sif.* (*məc.*) (*köhn.*). İnqilab, sosializm quruluşu, sosialist üsuli-idarəsi ilə əlaqədar olan; qırmızı. O dindikcə ağ kağıza inci düzdü qızıl qələm. □ Qızıl əsgər (*tar.*) – Qızıl Ordu (1918-1946) döyüşçüsü. Hansı qızıl əsgər zəfər günündə..

5. *sif.* (*məc.*). qızıldan düzəldilmiş. Qızıl çarpayılar üstdə yatmadıq.

6. *sif.* (*məc.*). Çox qiymətli, dəyərli, tayı-bərabəri olmayan. Bizim bu qızıl Bakı aldı onu qoynuna.

◊ Qızıl qana boyanmaq – bərk zərbə vurulmaq, ölümcül yaralanmaq. Dayanılmaz zərbəsilə qızıl qana boyandın. Qızıl xətlə yazılmaq – həmişəlik qeyd olunmaq, unudulmamaq. Bu gün bütün tarixlərə qızıl xətlə yazılır.

**Qızılbayraqlı**, *sif.* (*tar.*). Qızıl bayraqla təltif olunmuş. Görsün… Qızılbayraqlı gənc nəslimizi..

**Qızılquş**, *is.* (*məc.*). İtigözlülük, cəldlik, çeviklik, qoçaqlıq simvolu kimi işlədilir. Silahlı qardaşım sərhəd boyunca; Alıcı gözlərin qızılquş olsun.

**Qızılrəngli**, *sif.* Qızıl rəngində olan, sarırəngli; sarı. Satdı şuralar ölkəsini qızılrəngli medallara.

**Qızınmaq**, *qayıd.* Odun və ya günəşin qabağında, yaxud bir şeyin istisində özünü qızdırmaq, istiləndirmək; isinmək. Qışın səhərində bu qarlar düzü; Günəşdən qızınıb xumarlanırdı. // *məc.* Qızındıq eşqimiz, həməsimizlə.

**Qızışmaq**, *f.* 1. Canı qızmaq, bədənində xoş bir istilik hiss etmək, soyuqluğu rəf olmaq. Humay qızışdıqca açır gözünü.

2. *məc.* Özündən çıxmaq, hirslənmək, qızmaq, acığı tutmaq. Gəray bəy qızışıb, birdən əl çalır. // Eyni mənada cansızlar haqqında. Dəli Kür qızışıb həddini aşır.

**Qızlıq**, *is.* 1. Qadın cinsinin ərə gedincəyə qədər olan halı, qız olma dövrü. Qızlıq günlərini yada salaraq..

2. Bəkarət, bakirəlik. Xanın qismətiymiş onun qızlığı.

**Qızmaq**[1], *f.* 1. Bərk istilik almaq, hərarət almaq, çox istilənmək, hərarəti artmaq. Torpaq qızır, qar əriyir, çaylar bulanır.

2. *məc.* Hirslənmək, hiddətlənmək. Zənci qızır aslan kimi, qabarmışdır tunc sinəsi.

3. *məc.* Qızışmaq, coşmaq. Zənci qızır, hücum çəkir «Şirinər» kimi.

**Qızmaq**[2], *f.* (*dan.*). İnanmaq, etibar etmək, bel bağlamaq. Ölüm pəncəsində yaşamaq meyli; Cəlladlara qızdı «bir az dur» dedi.

**Qızmış**, *sif.* Özündən çıxmış, qızışmış, coşmuş, azğın. Yox, dil açar Muğan, o qızmış pələng.

**Qoca**, *sif.* 1. Yaşlı, qocalmış, ixtiyar (cavan ziddi). Orda qoca çobanlar var. Qoca rəngsaz zinət versin saraylara!

2. *is.* Qocalmış, yaşı ötmüş, qocalıq yaşına çatmış kişi. Qocalar dən səpdi xeyirxah əllə. Bütün salon qulaq asdı bu qocanın gur səsinə.

3. *Bax* qocaman. Qoca Hafiz, qoca Sədi; bir də Xəyyam; Nizaminin dastan olmuş İsgəndəri. // Əzəmətli, iri, qollu-budaqlı. [Fərhad:] Hər qoca çinarın öz vüqarı var.

4. *sif.* (*məc.*). Qədim, köhnə. Biz qoca Şərqə də xilaskar olduq. [Azər baba:] Bu qoca dünyada bir adət də var: Qadın olan yerdə ədalət də var.

**Qocalıq**, *is.* Qoca adamın, heyvanın, ağacın və s.-nin halı. Şaxbudaqlı ağac kimi çiçəklənir qocalıq. [Loğman:] İnsanın başını əyir qocalıq.

**Qocalmaq**, *f.* 1. Qoca olmaq, qocalıq yaşına çatmaq. Körpələr böyüdü, gənclər qocaldı. Şair, nə tez qocaldın sən?! // *məc.* Fikirdən qocalar dünyada bəşər.

2. *məc.* Gücdən düşmək, yıpranmaq, köhnəlmək. Vətən mülkü heç qocalmamış.

**Qocalmış**, *f. sif.* Gücdən düşmüş, məhsuldarlığını itirmiş. Qocalmış torpağa dərman qatılır. // Keçmiş. Ayrılıb qocalmış qərinələrdən.

**Qocaltmaq**, *icb.* Vaxtından tez qocalmasına səbəb olmaq. Qocaldır insanı ömrün yolları.

**Qocaman**, *sif.* 1. Yaşlı, çox yaşamış, çox təcrübəli. O, insan donunda qocaman iblis. Yoxsa ölmüşmü sanırdın qocaman Əhriməni. // Qoca, yaşa dolmuş. O qocaman Taqor, o böyük insan.

2. *məc.* Əzəmətli, iri, böyük. Qocaman Qaf dağında məbədgah; od-alov asimana yüksəlmiş. Tarixlər şahidi Qocaman Bakı.

3. *məc.* Çox qədim, köhnədən qalmış çoxdan yazılmış. Tarixin qocaman bir qanunu var.

**Qoç**, *is.* 1. Qoyunun erkəyi, damazlıq erkək qoyun. Qoç kimi üz-üzə vuruşmuşam mən. □ Qoç döyüşdürmək – əyləncə üçün xüsusi təlim verilmiş qoçları bir-birilə kəllə-kəlləyə vuruşdurmaq. Xoruz dalaşdırar, qoç döyüşdürər.

2. *məc.* İgid, qəhrəman. Dastanlar eşitdim qoç Koroğludan.

**Qoçaq**, *sif.* İgid, şücaətli, qorxmaz; mərd. [Xosrov:] Şapur, görürsənmi, balam qoçaqdır. Elimiz qoçaqdır, zülmdən əl çək. // Nida yerində işlənir. Ay qoçaq! Ay qoçağım! Gəl, ey qoçaq Aslanım! Gəl, ey qoçaq Aslanım!

**Qoçu**, *is.* Keçmişdə: xalqa əziyyət verən, camaatı qorxu altında saxlayan; özbaşınalıq edən silahlı (tapançalı) adam. Demirəm ki, qoçuyam; Yerində dur farağat.

**Qohum-qardaş**, *top.* Qohumlar, əqrəba. Yığılın başıma, qohum-qardaşlar! Qohuma-qardaşa üz görənlər də.

**Qoxlamaq**. *Bax* qoxulamaq. [Məryəm:] O mənim qəlbimi alıb oynatdı; İndisə gül kimi qoxlayıb o yeri, laləzər gördüm.

**Qoxu**, *is.* Burunla hiss olunan yaxşı iy; rayihə. Yayılacaq reyhanların, nanələrin qoxusu. // Burunla hiss olunan pis iy; üfunət. Quşlar belə ürküb qaçır orda cəmdək qoxusundan.

**Qoxulu**, *sif.* Müəyyən yaxşı iyi olan, yaxşı iy verən. Bənövşə qoxulu sərin küləklər.

**Qoxumaq**, *f.* Yaxşı iy vermək; rayihə yaymaq. Qızıl güllər qoxuyacaq ana yurdun səhəri. Ətirlər qoxuyan hər gül, hər çiçək. // Müəyyən pis iyi olan; pis iy verən, üfunət saçan. Milyonların tər qoxuyan nəfəsidir. Küləkləri zəqqum qoxuyan qum çöllərinin.

**Qol**, *is.* 1. İnsan bədəninin, çiynin başından barmaqların ucuna qədər olan iki üzvündən hər biri. Sol qoluna hələ qızıl saat da taxdı. Qollarda səslənən bu zəncirlərin.

2. At və b. heyvanların ayaqlarından hər biri. Poladdan möhkəmdir sizin qolunuz.

3. Əsas bir şeydən, ana xəttindən ayrılan şöbə, hissə, qism, xətt. Dağın ətəyindən ayrılır bir qol. De, Kürdən, Arazdan neçə qol gəlir?

◊ Qol çəkmək – razı olmaq, razılığını bildirmək, qəbul etmək. Qol çəkə bilmərəm bu fikrinə mən. Yenə də fikrinə qol çəkirəm mən. Qollarına atılmaq – qucağına girmək, qoynuna girmək, ağuşuna atılmaq. Sevmədiyin bir qocanın qollarına atıldın. Qollarına qüvvə gəlmək – qüvvətlənmək, güc hiss etmək. İş üstündə qüvvə gəlsin qollarınıza. Qollarını açmaq – birini qucaqlamağa hazırlaşmaq, onu gülər üzlə qarşılamaq. Ana igid balasına açdı qollarını. Açır qollarını mənə üfüqlər. Qollarını boynuna salmaq – qucaqlamaq, ağuşuna almaq. Qollarını sal boynuma. Qolu bağlı – qollarına qandal vurulmuş. Bir dustağam qolum bağlı. Qolu getmək – qəza, bədbəxt hadisə nəticəsində qolu kəsilmək. Yüz xəncər tiyəli freyzer üstə; Gah qolumuz getdi, gah da əlimiz. Qolunda qüvvə olmaq – güclü, qüvvətli olmaq. Hər kimin qüvvəti varsa qolunda. Qolunda gücü olmaq – *bax* qolunda qüvvə olmaq. [ Azər baba:] Qolunda gücü var qara torpağın; Bərəkət gətirir sənin ayağın. Qolundan yapışmaq – kömək etmək, yardımçı olmaq. Qolundan yapışdı dövlətim, varım. Qolunu çirməmək – asan işləmək üçün qolundakı paltarı yuxarı qatlamaq, işləməyə hazırlaşmaq. Çir-

məyib qolunu qızlar, gəlinlər; Yığsın qucağına sarı sünbülü. Baxın, qol çirməmiş indi, gəlir saysız pəhləvanlar. Çirməyib qolunu mərdanə dağlar. Qolunun qüdrəti qalmaq – işləməyə hazır olmaq, yorulmamaq, işləmək həvəsi olmaq. Bircə qolumuzun qüvvəti qaldı.

**Qolçomaq**, *is.* (*köhn.*). Dövlətli kəndli, yoxsul kəndliləri özü üçün işlədən varlı kəndli. Qolçomaq əlilə doğranılmışdır.

**Qol-qanad**, *is.*: qol-qanad atmaq – inkişaf etmək, böyümək. Ayrı dağlar kimi qol-qanad atan. Qol-qanad açmaq – canlanmaq, ruhlanmaq, fəaliyyət göstərməyə başlamaq. Bir də açılmadı qolu-qanadı. Açıl, açıl, qol-qanadım. Qol-qanad vermək – ruhlandırmaq, canlandırmaq, fəaliyyətinə kömək etmək. Yarıb fəzaları bir şimşək kimi; Qol-qanad verirsən qəhrəmanlara. Qol-qanadı bağlanmaq – canlanmasının qarşısını almaq, ruhlanmasına mane olmaq, fəaliyyətinin qarşısını almaq. Yarandığım gündən bəri bağlanmamış qol-qanadım.

**Qol-qola**, *z.* Qollarını bir-birinə keçirərək, qol-qola vermiş halda. Sonra qol-qola düzəldik yola. Bütün aləmi gəzək qol-qola. □ Qol-qola tutmaq – bir-birinin qolunu tutaraq, bir-birinin qoluna girərək. Qol-qola tutuşub rəqs edir lordlar.

**Qollu**, *sif.* Qolu olan (*bax* qol 3-cü mənada). Neçə qollu; Axar göllü; Axar çaylar.

**Qoltuq**, *is.*: qoltuqlarda gəzib dolanmaq – başqalarının himayəsində yaşamaq. Bu ki qoltuqlarda gəzib dolanır. Qoltuqlarda ömür sürmək – başqalarının hesabına yaşamaq, tüfeyli həyat sürmək. Ömür sürməmisən qoltuqlarda sən.

**Qonaq**, *is.* 1. Görüşmək və ya başqa bir məqsədlə birinin evinə gələn adam; mehman. [Məryəm:] Neçin kiriyirsən, möhtərəm qonaq? Bu mənim evimdir, siz qonaqsınız! □ Qonaq qalmaq – görüşmək və ya başqa bir məqsədlə birinin evinə gəlib, orada qalmaq. Məni incidir bəzən; Hər axşam

bir evdə qonaq qalmağım. Qonaq düşmək – *bax* qonaq qalmaq. Şəhərlərə qonaq düşmək qaralara qadağandır. Qonaq düşdüm Kükəl kəndinə. Qonaq getmək – görüşmək və ya başqa məqsədlə birinin evinə və ya bir yerə getmək. Birgə qonaq getdik yara, yoldaşa. Qonaq gəzmək – bir yerdən başqa yerə qonaq getmək, qonaq kimi tez-tez yerini dəyişmək. Çadırdan-çadıra qonaq gəzərdik. Qonaq gəlmək – görüşmək və ya başqa məqsədlə birinin evinə və ya bir yerə gəlmək. Ya qonaq gələydi bir gün evinə. Yol verin, deyəsən, qonaqlar gəlir. // *məc.* Günəş bizə qonaq gələr. Gecələr qoynuna ay qonaq gələn göllər bizdədir. Qonaq görməmək – heç vaxt qonaq gəlməmək. Bir qonaq görməmiş bu səssiz bucaq. Qonaq çağırmaq – qonaq dəvət etmək. Qonaqmı çağırır səni istiqbal? Allah qonağı – gözlənmədən gələn qonaq, əsasən tanış olmayan qonaq gələn adam. Allah qonağının öz qisməti var.

2. *məc.* Bu dünyada yaşayan hər kəs; insan, adam. Beş günlük dünyanın qonağı insan. Bir qonağam bu dünyada.

**Qonmaq**, *f.* Yuxarıdan, havadan enərək bir şey üzərində oturmaq, dayanmaq; enmək. Bir qaya başına qartal qonaraq; Dayanmış yenə də sakit vüqarla. // *məc.* Xəyalı çırpınıb dağlara qonur.

**Qonşu**, *sif.* Yaxınlıqda yerləşən, yaxın olan. Sənə qonşu olan Qazax elindən.

**Qonşuluq**, *is.* Yaşayış yerinə görə bir-birinə bilavasitə yaxınlıq. Bir dəstə uşaqdıq qonşuluqda biz. Gəlir qonşuluqdan piano səsi.

**Qonum-qonşu**, *top.* (*dan.*). Yaxın və uzaq qonşular; ətrafdakı, yaxınlıqdakı qonşular. İndi nə deyəcək qonum-qonşular.

**Qopmaq**, *f.* 1. Olduğu yerdən ayrılmaq; sınmaq. Qoca palıd qopur kökündən. Qəlpə də qopmayır təməl daşından.

2. Baş vermək, başlanmaq *(təbiət hadisələri haqqında)*. Əlinlə qurduğun barlı bağçalar; Tufanlar qopsa da saralıbsolmaz. Dağlarından qopar havalı yellər. Boran qopub yel əsəndə; Cəbhələrə sən də vardın.

3. Eşidilmək, gəlmək. Qayadamı qopdu bu səs. Gurultu qopduqca ac mədəsindən; Diksinir suların oynaq səsindən.

4. Əmələ gəlmək, görünmək. Tüstülər qopmuş toplar ağzından. Qılınclardan alov qopur.

5. Birdən uçmaq, qanadlanmaq. Laçın qopur yuvasından.

6. *məc.* Əmələ gəlmək, baş vermək. Ötərgidir şərablardan qopan ehtiras. Yanğın qopur üfüqlərdə.

◊ Yerindən qopmaq – dağılmaq, sökülmək. Körpü xırıltıyla qopdu yerindən.

**Qorxaq**, *sif.* Qorxan, ağciyər, ürəksiz, cəsarətsiz. Özü qorxaq, cüssəsi dar.

**Qorxmaq**, *f.* 1. Bir adamda şey yaxud hadisə qarşısında qorxu hiss etmək, hürkmək, xoflanmaq, qorxaqlıq göstərmək. Tünlükdən çəkinər, qorxar canavar.

2. Qorxma şəklində – çəkinmə, sapınma, fikir etmə. [Banu:] Qorxma, açıq söylə, qurbanın olum! Yox, xala! Heç qorxma, indi bahardır.

**Qorxu**, *is.* Gözlənilən və ya yaxınlaşan təhlükə qarşısında hasil olan həyəcanlı hal, dəhşət, təlaş hissi; xof. Qorxusu yamandır bu nümayişin. Hər şeyi bir ölüm qorxu sarsa. Qalmamış bu bizim azad diyarda; Nə zindan qorxusu, nə çörək dərdi.

◊ Qorxuya düşmək – qorxmaq, vahiməyə düşmək. Gah bütün varlığı düşür qorxuya. Qorxusu yoxdur – qorxmaq lazım, deyil. Yuxu dəhşətlidir – qorxusu yoxdur.

**Qorxub-çəkinmək**, *f.* Qorxmaq. Qorxub-çəkinmədik isti qanlardan.

**Qorxulu**, *sif.* 1. Qorxu gətirən, xətərli. Düzü, qorxuludur Eldarın adı.

2. Təhlükəli, xətərli, xatalı. Şahim! Arxa cəbhə çox qorxuludur.

**Qorxunc**, *sif.* 1. Dəhşət doğuran, qorxuya salan; dəhşətli. Kitablara düşməmiş qanlı, qorxunc zamanlar. Bu gecə qor-

xunc bir vaqeə gördüm. // Çox güclü, çox dəhşətli. Dəryada da qorxunc, dəli bir fırtına vardı.

2. Vahimə hissi doğuran, görəndə, eşidəndə qorxu hiss edilən. Qaçaq Gəray bəyin qorxunc xəyalı. Qayalıqlar, dərələr, ən qorxunc mənzərələr.

**Qorxutmaq**, *f.* Qorxmasına səbəb olmaq, qorxu hissi əmələ gətirmək, xoflandırmaq. Nə yağmur, nə yağış; nə boran, nə qar; Nə də duman, çən; Səni qorxutmadı.

**Qoşa**, *z.* 1. İkisi bir yerdə, ikisi yan-yana; birgə, bərabər, cüt. Bayramlara, şənliklərə qoşa gedirlər. Bir cüt aslan kimi vuruşaq qoşa.

2. Bir-birindən ayrılmaz, dialektik vəhdət təşkil edən; cüt. Həyat yaranmışdır ölümlə qoşa.

◊ <u>Qoşa qarımaq</u> – ərlə arvadın uzun müddət birgə yaşaması, qocalması arzusu. Oğul fikri, qız arzusu, qoşa qarımaq. <u>Qoşa zurna</u> – Azərbaycan xalq oyun havaları çalınarkən biri aparıcı kimi, o birisi isə züy tutmaq üçün çalınan iki zurna. Vur, nağara! Di şaqqılda, qoşa zurna!

**Qoşacıq**, *sif.* Ancaq iki, çox olmayan; iki. Burda... Bu qoşacıq məzar yanında; Bir söyüd altında bulaq da qaynar.

**Qoşa-qoşa**, *z.* 1. Cüt-cüt, iki-iki. Sevgililər qoşa-qoşa.

2. *məc.* Çox, çoxlu, saysız-hesabsız. Taxıl zəmiləri qoşa-qoşadır.

**Qoşma**, *is.* (*ədəb.*). Hər bəndi dörd misradan ibarət lirik şeir forması. Mənim dilimdədir bayatılar, qoşmalar. Noldu söylədiyin axar qoşmalar?

**Qoşmaq¹**, *f.* 1. Arabanı və s.-ni çəkib aparmaq üçün atı və ya başqa qoşqu heyvanlarını arabaya və s.-yə bağlamaq. Qasım kişi dünən gecə qoşub ulaqlarını.

2. Getmək, hərəkət etmək. Bir iş üçün, məqsəd üçün qoşur hamı. // *məc.* [Xəyalım] Köçəri quş kimi hər yerə qoşar.

3. Təqib etmək, gəzmək. [Mahnigar:] On ildir o mənim arxamca qoşur.

**Qoşmaq²**, *f.* Düzəltmək, tərif etmək, demək, yazmaq. Adına.. dastan qoşurlar. Az söz qoşmamışam hər cəlalına.

**Qoşulmaq**, *məch.* Birləşmək, qarışmaq, bir işin iştirakçısı olmaq. Bu gündən onlara qoşulam gərək. Yaxşı, qoşul bizə, bizimlə də get.

◊ Qoşulub qaçmaq – ata-anasının razılığı və xəbəri olmadan, qızın sevdiyi oğlanın evinə getməsi. Sonra yad oğluna qoşulub qaçmaq.

**Qoşun**, *is.* Bir dövlətin hərbi qüvvələri və ya onların bir hissəsi. [Xosrov:] Qoşun göndərəkmi Bizansa sarı. Şeypur çalır qoşunlar.

◊ Qoşun çəkmək – hücum etmək, müharibəyə başlamaq. Arxasınca qoşun çəkib buludlar da gəldi lay-lay. Balıqlarmı qoşun çəkən?

**Qoşun-qoşun**, *z.* Hücum edən çoxlu, saysız-hesabsız hərbi hissə, tank və s. haqqında. Axıb qoşun-qoşun yeridi tanklar. Keçdik qoşun-qoşun son hücumlara. // *məc.* Hərəkət edən çoxlu adam, quş və s. haqqında. Axdıq qoşun-qoşun, biz yenə axdıq. Gəldi qoşun-qoşun köçəri quşlar.

**Qotazlı**, *sif.* Qotazı olan, qotaz asılmış, qotazla bəzədilmiş. Qotazlı karvanlar gəlib keçəndə. Ağacdan qotazlı bir at mindiyim.

**Qotur**, *sif.* (*məc.*). Qoturluq xəstəliyinə tutulmuş, qoturlu olan; qoturluqdan tükü tökülmüş, qoturlu. Kapital qotur itlər kimi tükünü tökür.

**Qovaq**, *is.* (*bot.*). Söyüd fəsiləsindən müxtəlif növləri olan qollu-budaqlı ağac. Qovaqlar, ardıclar, söyüdlər, narlar.

**Qova-qova**, *z.* Qovaraq, yüyürməyə məcbur edərək, qaçırdaraq. Oğlan qaça-qaça, qız qova-qova.

**Qovarlanmaq**, *f.* Öyünmək, qürrələnmək. Cəlal qovarlanıb nəşə yeyirdi.

**Qovğa**, *is.* Dava, dava-dalaş, qalmaqal, dalaşma, vuruşma. Bu qanlı qovğalar, bu vuruşmalar.

**Qovlamaq**, *f.* 1. Bax qovmaq 1-ci mənada. [Vəzir:] Axırda qovladın qızım Məryəmi.

2. Vəzifədən, işdən çıxarmaq. Səni vəzirlikdən qovlayacaq xan!

**Qovmaq**, *f.* 1. Bir yerdən çıxıb getməyə, güclə və ya qorxudaraq başqa yerə getməyə məcbur etmək; qovalamaq. Sahillər boyunca qovduq ağları.

2. Yerini dəyişdirmək, bir yerdən başqa yerə getməyə məcbur etmək. Qovur bir-birini suyun üzündə.

**Qovrulmaq**, *f.* Əzab çəkmək, iztirab və işgəncə içində olmaq; qovrulub-yanmaq. Beşikdə qovrulduq; Qundaqda bişdik.

**Qovuşdurmaq**, *f.* Birləşdirmək, bitişdirmək. Bir-birilə qovuşdurur ayrı düşmüş iki dağı.

**Qovuşmaq**, *f.* 1. Çatmaq, yetişmək, nail olmaq. İnsanlıq qovuşur arzularına. Ağ günə qovuşur yenə də Vətən.

2. *məc.* Bir-birinə lap yazxınlaşmaq, çox yaxın olmaq. Əzəldən göy yerə qovuşmuş sanki. Yermi göyə qovuşur?

**Qovuşuq**, *sif.* Bir-birinə bağlı, əlaqədar, əlaqəli. Dəniz aydınlıqdır, qan qovuşuqdur.

**Qoymaq**, *f.* 1. Həmişəlik bir yerdə saxlamaq üçün yerləşdirmək. Bu dərdlə qəflətən əgər ölərsəm; Siz Allah, qoymayın məzara məni.

2. İcazə verməmək, qapıya qoymamaq. Qapıya qoymuram can möhnətini.

3. Vəzifəyə təyin etmək. [Vəzir:] Atayın vəfasına bax!.. Deyirlər, Şapuru vəzir qoyacaq.

4. Yaxmaq, sürtmək. Gedək, xına qoyaq əllərimizə..

5. İcazə vermək, mane olmamaq. Qoymadın dinc otura.

6. Qalmasına kömək etmək, mane olmamaq. Öz yerində, öz işində qoyuram səni.

7. Gəlməsinə mane olmamaq; icazə vermək, mane olmamaq. Bu yurda qoymayaq zalım Qacarı.

8. Qalmaq, qorunmaq. Vurub-yıxmadığı bir ev qoymadı.

9. Qaçmasına, aradan çıxmasına yol vermək, mane olmamaq. Qoymayın, tez olun, tutun Eldarı.

10. Qoy şəklində – mane olma, işin olmasın. Şeirimin qəlbi qədər qoy saf olub, gülsün həyat. Qoy sənin əlinlə gülüstan olsun.

11. Qoy olsun – arzu, razılıq bildirir. [Fərhad:] Qoy olsun! Xosrovun o tacı-taxtı; Mənim külüngümə tablaşmayacaq!

12. Bir sıra sözlərə qoşularaq mürəkkəb feil və müxtəlif ifadələr düzəldilir. Səni yalnız qoyub gedəmmərəm mən. Eldə can qoymadı ağır vergilər.

**Qoyulmaq**, *f.* Yerləşdirmək, düzülmək. Bəzən qoyulmayır hər söz yerinə.

**Qoyun¹**, *is.* Ət, yun və süd verən sıx, qıvrım tüklü gövşəyən ev heyvanı. Nə mal, qoyun mələşməsi; Nə də isti bir ocaq var; Qoyun səsi, quzu səsi.. // *məc.* Gah bir qoyun oldu, gah bir canavar.

◊ Qoyun kimi qaçmaq – qorxudan sürətlə qaçmaq, bərk qaçmaq. Deməsinlər, bizim xan; Düşmənin qabağından; Qaçdı qoyunlar kimi.

**Qoyun²**, *is.* 1. Qucaq, ağuş. Uşaq da qoynunda bir balıq kimi. □ Qoynuna girmək – qucağına girmək, ağuşuna atılmaq. Gecə xanın gir qoynuna. // *məc.* Yuyunur qoynunda al şəfəqlərin. Gecənin qoynuna nur sacmadınmı..

2. *məc.* Yer, məkan. Bu dağlar qoynunda aslan yatmışdır. Qoca Roma! Mən görürəm qoynundakı izdihamı.

3. Qoyun şəklində – arzu, istək bildirir. Qoyun bir ah çəkim ərisin dağlar.

◊ Qoynuna almaq – öz içərisinə almaq, ehtiva etmək. bəzən ömrü izdihamlar alır qoynuna. Bizim bu qızıl Bakı aldı onu qoynuna. Kökündən qoparıb alır qoynuna.

**Qönçə**, *is.* [*fars.*] Açılmamış gül, çiçək; gül, çiçək tumurcuğu. Hər çəmən min qönçə açmış. // *sif.* mənasında. Ətir saç aləmə, sən ey qönçə gül! // *məc.* Açdı qönçə kimi al yanaqları. ..Qönçələr açır hər dilək.

◊ Qönçə tutmaq – *bax* qönçələnmək. Yenə qönçə tutacaqdır könüllərin arzuları.

**Qönçələnmək**, *f.* Qönçə açmaq; açılmaq. Sənin açıq, ağ alnını öpdü sərin küləklər; Hər addımın dəyən yerdə qönçələndi çiçəklər.

**Quba**, *is.* (*zool.*). Vəhşi qaz. Üzür quba qazlar sularda rəng-rəng.

**Qucaq**, *is.* 1. Qolları açdıqda döş ilə qollar arasında əmələ gələn boşluq; qoyun. Yatır qucağında südəmər bir qız. // *məc.* Bir də dilimizdə Vətən sözü var; Ana qucağıdır bu ilahi söz. Qucağında bir vaxt bəslədi sizi; Görmədi sizləri vəfalı Göygöl.

2. *məc.* Əhatəsində, içində. Alovların qucağında gələcəyə yol göstərir.

◊ Qucağına almaq – qucaqlamaq. Aldı qucağına məni səhərlər. Qucağına atılmaq – qucağına girmək, qucaqlamasına şərait yaratmaq. [Vaqif:] Get, atıl, murdarın qan qucağına. Qucağına yığmaq – yığmaq, toplamaq. Çirməyib qolunu qızlar, gəlinlər; Yığsın qucağına sarı sünbülü. Qucağından keçmək – içindən keçmək. Mən keçdikcə bu odların, alovların qucağından. Qucağını açmaq – qucaqlamaq üçün əllərini yana açmaq, qucaqlamağa hazır olmaq. Açdı qucağını Məcnuna çöllər. Açır qucağını ilk məhəbbətlə.

**Qucaq-qucaq**, *z.* Çox, lap çox, çoxlu miqdarda, bolluca, bol-bol. Adsız ölən igidlərin o pərişan məzarına; Çiçək səpir qucaq-qucaq, gül dağıdır ətək-ətək. Alim yenə qucaq-qucaq yığır qədim saxsıları.

**Qucaqlaşmaq**, *qarş.* Bir-birini qucaqlamaq, bir-birinə sarılmaq, bir-birini bağrına basmaq. Sevgililər həsrət ilə qucaqlaşırlar. [Yadigar:] Qucaqlaşıb öpüşmək.

2. *məc.* Qovuşmaq, birləşmək. Çünki mən aşıb-daşan dalğalarla; Qucaqlaşan dalğalardan yarandım. Bu vüqar göylərlə qucaqlaşırdı.

**Qudok**, *is.* (*rus.*). Fit, uğultu, fit səsi. Qudokun səsindən canlanan sürət. Andırırdı sağlam, polad bir qəlbi. Çağırdıqca podvallardan işçiləri qudoklar.

**Qudurmaq**, *f.* (*məc.*). 1. Coşmaq, tüğyana gəlmək, şiddətlənmək. Sellər, sular qudurmasın! Dalğalar qudurub daşdığı zaman; Sahilə ən yaxın evləri haman.

2. Son dərəcə hiddətlənmək; hirsindən, acığından özünü itirmək dərəcəsinə gəlmək. Bir vaxt Neron kimi qudurdu Hitler. Şahın əmrilə qudurdu polislər.. // Lovğalanmaq, özünü başqalarından üstün tutmaq. Qudurmasın insan gərək.

**Qudurtmaq**, *f.* Öz hərəkətləri ilə qudurmasına, həddini aşmasına, həyasızlaşmasına səbəb olmaq; harınlaşdırmaq. Qudurtdun bunları, doğrudan da, sən.

**Quduz**, *sif.* 1. Quduzluq xəstəliyinə tutulmuş; qudurmuş. Ah, bu quduz köpək ölüb getmədi.

2. *məc.* Azğın, zalım, qəddar, qudurğan, qızmış, qızışmış. Sən ey quduz təbiət. // *məc.* Şiddətli, hədsiz, önüalınmaz. Faşist gəlir quduz kimi.

**Qul**, *is.* 1. Qədimdə: müharibədə əsir tutulub satılan adam. Bütün bu bəndələr xanın quludur. Qul kimi aldılar, satdılar bizi. // *məc.* Volterin vətəni qul ola bilməz.

2. Xidmət üçün satın alınmış adam; hər cür istehsal vasitələri və hüquqdan məhrum olan və tamamilə öz sahibinin ixtiyarında olub, heyvan və ya əşya kimi alınıb satılan adam; kölə. Cəllad yanıb od olsa da, külə dönməz arzular; Təbiətin ana qəlbi qul doğmamış insanı. // Nökər, xidmətçi. Üzündən nur yağa-yağa; Nə qul görüm, nə də ağa. Bu hal mənə düşündürdü hər qulu, hər kənizi.

◊ <u>Qul olmaq</u> – bir şeyi həddən artıq sevmək, ona dəlicəsinə vurulmaq. [İnsan] Rəvamı qul olsun bir məhəbbətə. Mən qul olmamışam şöhrətə, ada.

**Qulac-qulac**, *sif.* Uzun-uzun, çox uzun. Qulac-qulac saçların var.

**Qulaq**, *is.*: <u>qulaq asmaq</u> – 1) dinləmək. Eldar! Bir qulaq as, qulaq as, Eldar! Qulaq as, sevgilim, qulaq as bu dəm. // *məc.* Daşların da nəfəsinə o, qulaq asır. Dalğalandı yenə hava, bir qulaq as; 2) deyilən sözə əməl etmək, sözə baxmaq, deyiləni qəbul etmək. Kim qulaq asacaq bu nəsihətə? // Fikir vermək, əhəmiyyət vermək, saymaq. Bir başqa mətləbə indi qulaq as! Sayım gördüyümü bir-bir, qulaq as! <u>Qulaq vermək</u> – *bax* qulaq asmaq. [Fərhad:] İndi qulaq verin mə-

nə, igidlər; Meydanda sınanır kimdədir ürək! Dünya qulaq verəcəkdir kainatın ney səsinə. Qulaq dincliyi – rahatlıq. Qəm oldu hər qulaq dincliyimiz də, «Taleyin ulduzu» söndü bir anda. Xoş olsun indiki qulaq dincliyi. Qulaq tutulmaq – dəng olmaq, səsdən, bərk danışıqdan heç şey eşitməmək, kar olmaq. Qulaq tutuldusa cəbhədə səsdən. Qulaqda səslənmək – eşidilmək. Qulaqda səslənən nəğmələr kimi. Qulaqlar tutulmaq – hər iki qulaq tutulmaq, dəng olmaq. Qulaqlar tutulur yerin səsindən. Qulaqları dırmalamaq – pis səslənmək, yerində işlənməmək (əsasən söz haqqında). O dırmalar qulaqları, balta kimi odun yarar. Qulaqları cingildəmək – qulağında zəng kimi cingilti səsi eşitmək. Döyüş meydanında qulaqları cingildəyir. Qulaqlarını burmaq – *bax* qulaqlarını çəkmək. Tutub buracağam qulaqlarını. Qulaqlarına köhnə gəlmək – köhnə, vaxtı keçmiş qəbul etmək. Bu söz bir az köhnə gəldi qulaqlarına. Qulaqlarına xoş gəlmək – xoşuna gəlmək, ləzzət etmək. Nə qədər xoş gəldi qulaqlarına. Qulaqlarını çəkmək – yüngül cəzalandırmaq, tənbeh etmək. Gərək tutub yaxşı çəkək onun qulaqlarını; Bir də cürət eləməsin kolxozu aldatmağa. Qulağı səsdə – bir şeyin intizarında, xəbər gözləyərək. Min il yola baxdı qulağı səsdə. Bu günsə onların qulağı səsdə. Qulağına gəlmək *(səs, nərə, musiqi və s. haqqında) – bax* qulağına çatmaq. Gəlir qulağıma qızımın səsi. Qulağına çatmaq – bir sözü və ya bir xəbəri hər hansı vasitə ilə eşitmək. Çatdı qulağıma onun nərəsi. Qulağında qalmaq – unutmamaq, yadında saxlamaq. Qulağında yaxşı qalsın mənim sənə öyüdüm. Qaldı qulağında ana sözləri. Qulağından asmaq – yaddan çıxarmamaq, yadında saxlamaq, unutmamaq. Bu son sözlərimi qulağından as. Qulağını çatmaq – qulaqlarını dikətmək, qulaqlarını şəkləmək *(əsasən at haqqında)*. Qaranlıq düşəndə qulağını çat!

**Quldur**, *is.* 1. Çapqınçı, yolkəsən, soyğunçu; quldurluqla məşğul olan adam. Sonrasa qəflətən quldurlar kimi. Nə qaçaq var, nə də quldur səsi var.

2. *məc.* Zülmkar, istismarçı, zalım. On dörd cahangirin, on dörd quldurun.

**Quldurluq**, *is.* Soyğunçuluq yaxud öldürmək məqsədilə silahlı basqın; çapovulçuluq, çapqınçılıq. ..Sövq etmədinmi; Onu quldurluğa, soyğunçuluğa.

**Qulluq**, *is.* 1. Xidmət, iş, vəzifə. Gedib xəbər alım qulluq yerindən.

2. Əmr, göstəriş. Bəli, qulluğunuz bəndəyə dair?

◊ Qulluğunda hazır durmaq – böyük bir adamın əmrini yerinə yetirmək üçün onun hüzurunda durmaq. Hamı qulluğumda hazır durardı.

**Qulluqçu**, *is.* Ev xidmətçisi, xadimə. Qabağında qulluqçular.

**Qulunlu**, *sif.* Yanında balası olan, qulunu olan. Qulunlu at üstə… Bu bir muraddır.

**Qum**, *is.* Bərk mineralların, əksərən kvarsın narın dənələri. Külək əsir, qum sovrulur, gözə girir toz-tozanaq. Daş yonub, qum yığan qoca bir usta. // *məc.* Qumlar dənizindən, odlar içindən.

◊ Qum göyərmək – qum sahəsində ot və s. göyərmək. Baharın eşqilə göyərdi qumlar.

**Qumar**, *is.* [ər.] Pul və s. ilə oynanılan oyun. Bir qumardan, bir atdan.

**Qumaş**, *is.* [ər.] İpək, yun, kətan və s.-dən toxunan parça; ümumiyyətlə parça, arşınmalı. Al qumaşa bəzənərək yurdumuzun qızları; Bir şairin könlü kimi qarşılayır baharı. İpəkdən, qumaşdan saxlancı vardır.

**Qumral**, *sif.* Açıq-şabalıdı rəngində olan. Tərlanın qumral gözü qamaşmadı küləkdən. Sığal verilməyən o qumral teli; Tarımar görürəm.

**Qumru**, *is.* (*zool*). Göyərçin cinsindən boz rəngli gözəl bir quş. Ötən qumruların rübabı dindi. Nə sərvsən, qumru kimi budağında dil açım.

**Qumsal**, *is.* Qumlu yer, qumla örtülü, gölün, dənizin və s.-nin sahili. Kürün qumsal sahilində qaşlarını çataraq; Qamçısını döyür suya hiddətindən Gəray bəy.

◊ Qumsala oturmaq – gəminin dibinin quma toxunub hərəkət edə bilməməsi; suya oturmaq. Mən qumsala oturmuşam bir sahibsiz gəmi tək.

**Qumsallı.** *Bax* qumsal. O daşlı, qumsallı, gilli torpağı; Udur, lay-lay udur ekskavatorlar.

**Qundaq**, *is.* Körpə uşaqları sarımaq üçün sarğı ləvazimatı (bəzən qundaqda olan körpə mənasında işlədilir). Özgə qundağına layla çaldığın.

**Quraqlıq**, *is.* Havaların isti keçməsi ilə bərabər, uzun müddət yağış yağmaması nəticəsində torpaqda rütubətin çatmaması və bunun nəticəsində əkin və bitkilərin tamamilə ya qismən quruyub tələf olması. Quraqlıq keçəndə tez solur gülü. Elə ki quraqlıq od çaxır, gəlir.

**Qura-qura**, *z.* Quraraq, tikərək, bina edərək. Sabahı da bu gün kimi qura-qura; Söyləyək ura! Ura!

**Qurama**, *is.* Uydurma, qondarma, yalan.Sevmədim qurama sözlərin cansız hərəkətini.

**Quran**, *is.* [ər.] Müsəlmanların müqəddəs dini kitabı. Min ildir baş əydin yalnız «Quran»a. Bir mömin babayam «Quran» görməmiş.

**Qurbağa**, *is.* Sıçramaq üçün dal ayaqları uzun, suda-quruda yaşayan quyruqsuz heyvan. Qurbağalar fil olmaqçın şişər, şişər, partlayar.

**Qurban**, *is.* [ər.] 1. Dini adətlərə görə, Allah yolunda kəsilən qoyun və ya başqa heyvan (bəzən insan da qurban olur). Onun yolunda qurbanıq biz.

2. Ən əziz, ən müqəddəs bir şey yolunda canından keçmiş, özünü fəda etmiş adam. Sayıb sona yetmədim günahsız qurbanları. □ Qurban olmaq – *bax* qurbanı olmaq. Ürək qurban olur ehtiraslara. Sənə qurban olsun bu qoca nənən. Qurbanı olmaq – ən əziz, ən müqəddəs bir şey uğrunda fəda

olmaq, canından keçmək. Qurbanı olduğum Odlar ölkəsi. Qurbanı olduğum o növrəstə qız.

◊ Qurban vermək – çox əziz, çox müqəddəs bir şey yolunda öz canını da vermək. Deyərdin ki, öz canımı sənə qurban verməsəm mən. Qurban demək – müqəddəs bir şey yolunda özünü fəda etməyi nəzərdə tutmaq. Əzəl gündən gəncliyini sənə qurban demişdir. Qurban(ın) olum! – nəvaziş, mehribanlıq yaxud yalvarış bildirir. Danış, qurban olum, bildiklərindən. [Banu:] Qorxma, açıq söylə, qurbanın olum. [Xosrov:] Bu taxt da, bu tac da sənindir, oğlum; Bizansa gəl vermə, qurbanın olum!

**Qurd**[1], *is.* (*zool.*). Canavar. Qurdu tanıyırlar qurd baxışından. // *məc.* Təşbehlərdə işlədilir. [Vaqif:] Xalq razı olmasa bir hökmdardan; Hakimi qurd kimi didəcək zaman. Qurd kimi parçalar insan insanı.

◊ Qurdla qiyamətə qalmaq *(zar., kin.)* – çox yaşamaq, ölməmək, həmişə yaşamaq. Qurdla qiyamətə qalacaq insan.

**Qurd**[2], *is.* (*zool.*). Yumşaq bədənli, uzunsov, ayaqsız, sürünərək hərəkət edən kiçik heyvan. ..Sürünmək qurda adətdir. O daraşır qurdlar kimi qızıl gülə.

**Qurdağızlı**, *sif.* Qurd ağzı kimi təhlükəli. Ruhuna girməmiş qurdağızlı qış.

**Qurd-quş**, *top.* Həşərat, cücülər. Çöldə qurd-quş kimi yuvasız qalar. Qurd-quş da çəkilir öz yuvasına.

**Qurdlu**, *sif. məc.* Kinli, qəlbiqara, paxıl. O paxıldır, o qurdludur.

**Qurğu**[1], *is.* Bir yerdə qurulmuş mexanizm, maşın, cihazlar sistemi və s. texniki avadanlıq. Orda keşik çəkən bütün fəhlələr; Gözü tək qoruyur qurğuları.

**Qurğu**[2], *is.* Büsat, təntənə, dəsgah. Ey ariflər, nəzər salın təbiətin qurğusuna.

◊ Qurğu qurmaq – biri üçün gizlindən tələ qurmaq, hiylə hazırlamaq, biclik işlətmək. Duyub qurduğumuz böyük qurğunu.

**Qurğuşun**, *is.*: qurğuşun kimi – «çox ağır» mənasında. Hava ağırlaşır qurğuşun kimi.

**Qurmaq**[1], *f.* 1. Yaratmaq, bərqərar etmək, təşkil etmək. Öz əlimiz qursun gərək bu yurdda sosializm. Sevgisi var bizim yeni insanlarda; Qurduğumuz hər qaydanın, hər adətin.

2. Tikmək, inşa etmək, bina etmək. Adi daşdan qurur, adi taxtadan. Əllərimlə yaratdığım, tikib qurduğum. Saraylar da qurdu bir memar kimi.

3. Təmir etmək. Dağılmış bir evi qurur yenidən.

4. Radio, saat və s.-ni işlək vəziyyətə gətirmək. Radionu qurdu Aygün bir səhər çağı. Quraq [atların] tərkinizdə pulemyotları!

5. Düzəltmək. Gəlin quraq çadırları. Qoca kazak yabasilə taya quracaqdır.

6. Təşkil etmək. Rəhmətlik gündə bir məclis qurardı. // *məc.* Bir ağlaşma qurdu göyün nərəsi.

7. Meydana gətirmək, düzəltmək. İşıq xətlərini mən qurmadımmı? Xəyalına gətir bir an; Qurduğumuz bu dənizi.

8. Əkmək, əkib becərmək, salmaq. Əlinlə qurduğun barlı bağçalar; Tufanlar qopsa da saralıb-solmaz.

**Qurmaq**[2]**,** *f.* Biri üçün tələ düzəltmək, hiylə hazırlamaq. [Xosrov:] Mənimmi tacımı, taxtımı almaq? Ah, Məryəm, Məryəmdir bunları quran.

**Qurnaz**, *sif.* Hiyləgər, aldadıcı, məkrli. Bilirik, tülküdən daha qurnazsan; Dilində «qardaşlıq», əlində silah.

**Qurşaq**, *is.* Bel. Gəray bəy sudadır qurşağa qədər.

◊ Qurşaq tutmaq – güləşmək. Qurşaq tutub, at oynadıb, ox süzdürmüş pəhləvanlar. Qurşaq tutub güləşməyin bir dadı var. // Təbiət hadisələri haqqında. Yerdə qurşaq tutub oynayır şimşək.

**Qurşun**, *is.* 1. Göyə çalan bozumtul rəngli metaldan qayrılmış, qurğuşundan düzəldilmiş. Qurşun qələminə sarılaraq yaz!

2. Tüfəng və ya tapança gülləsi. Poladdan mərmilər, qurşunlar tökdü. Çünki sən qızğın qurşunlara sinə gərmədin. // *məc.* Gəlin qurşunlardan tökək şeiri biz.

3. *məc.* Çox ağırlıq mənasında. Kitabın hər sözü qurşundan ağır.

**Qurtarmaq.** 1. *t-li.* Bitirmək, axıra çatdırmaq, tamamlamaq. [Aygün:] Yaxşı, institutu qurtarmalıyam. Bu böyük dastanı qurtaracaqdır. // *məc.* Ey könül, Kür ilə söhbəti qurtar.

2. *t-li.* Xilas etmək, azad etmək, nicat vermək. Vaqif ölməmişdir, onu qurtarar. Dava meydanında qısalt dilini; Qurtar öz eşqini, öz sevgilini.

3. *t-siz.* Xilas olmaq, azad olmaq, özünü xilas etmək, qurtulmaq, nicat tapmaq. Qaçıb qurtarmışam dar ağacından. Avropa qurtardı ölümdən, qandan. Nə vaxt qurtaracaq pis gündən insan.

**Qurtulmaq**, *is.* Xalis, nicat, azadlıq; azad olma, xilas olma, nicat tapma. Əlində tutduğun o böyük məşəl; Göstərir aləmə qurtuluş yolu.Salam yetir qurtuluş səhərinə. Nədir üzündəki o aydın səhər; Azadlıq, qurtuluş onda gülümsər.

**Quru**[1], *sif.* 1. Yaş olmayan, islanmış. Quru bir taxtanı simsiz çalacaq!

2. Bitkisiz, çılpaq, yaşıllıqsız. Boz dağın döşündə, quru bir yerdə.

3. *məc.* Maraqsız, cansıxıcı, darıxdırıcı. Daima qısqanan ürkək bir həyat; Məncə, bu dünyada bir quru səsdir.

4. *məc.* Soyuq, sərt, hissiz, ruhsuz, laqeyd. Göz quru baxmasın, ...görsün hər şeyi.

◊ Quru çörək (*məc.*) – heç bir yeyiləcək şey olmayan, aclıq. Bir yanda bir quru çörək möhtacı.

**Quru**[2], *is.* (*coğr.*). Torpaq, qitə, yer (su, dəniz müqabili). Bu quruda, bu dənizdə; Xar olmuşlar qəsbkarlar. ...Batır suda, vur quruda, havada.

**Quruca**, *sif.* 1. Çox quru. Yediyi quruca pendir-çörək də.

2. *məc.* Başqa heç nə; ancaq. Hər bir evdən; Quruca dörd divar qalmış.

**Qurulmaq**, *məch.* 1. Yaradılmaq, təşkil olunmaq. ..Əxlaq, tərbiyə üzərində qurulmayan bir dövlət.. [Şahbaz:] Dünya da qurulur bu arzulardan.

2. Tikilmək, təsis edilmək. Yerində ağdaşlı evlər qurulur. // Quraşdırılmaq, tikilmək. ..Dəmir körpü qurulacaq.

3. Yığılıb bağlanmaq, aparmaq üçün hazırlanmaq. cehizlər qurulub toy başlanacaq.

4. Quraşdırılmaq, düzəldilmək, hazırlanmaq. Kür üstə qurulmuş dəmir çarxlardan; Polad motorlardan dağılan səda. Dəyəsi qurular qalın keçədən..

5. Təşkil olunmaq, düzəldilmək. Qəlbində gah matəm, gah toy qurulur. Hər daşın dibində bir toy qurulur.

6. Yığılmaq, düzəldilmək, vurulmaq. Hər zəmidə qurulduqca yüz taya; Dağa dönür Qızxanımın ürəyi.

7. Təşkil edilmək, olmaq. Qurulacaq bir ədalət məhkəməsi.

**Qurultay**, *is.* Hər hansı bir təşkilat və ya ixtisas nümayəndələrinin ictimai-siyasi, yaxud elmi xarakterdə olan geniş toplantısı. Gedir nümayəndə qurultaylara.

**Quruluş**, *is.* İctimai, dövləti sistem üsulu, idarə üsulu. Get-gəli sevməyir bizim quruluş.

**Qurumaq**, *f.* 1. Günəşin istisindən, quraqlıqdan solmaq və ya torpaqdan qida almamaq nəticəsində tələf olmaq *(bitkilər haqqında)*. [Ağac da] yarpaq töküb qurumuşdur.

2. Rütubəti, nəmliyi yox olmaq, quru hala düşmək. Hələ tamam qurumamış, yağış gölləri. // *məc.* Əziz dostlar. Qurumamış sinəmdəki axan çaylar.

3. *məc.* Öz vəzifəsini yerinə yetirə bilməmək, işdən qalmaq. Sinəsi qurudu, beli büküldü.

4. *məc.* Hirsindən, acığından, qürrələnməkdən donmaq, hissiz hala gəlmək. Qürrəsindən qurumuşdur.

◊ Quruyub-getmək – məhv olmaq, tamam qurumaq *(bitkilər haqqında)*. ..Şitillər quruyub-getdi.

**Qurumsaq**, *is.* (*dan.*). Namussuz, qeyrətsiz. Qurumsağın sifətindən kin tökülür.

**Qurumuş**, *f. sif.* Quru hala gəlmiş. Berlinin qurumuş şam ağacları..

**Quruş**, *is.* [əsli *ital.*] «Qəpik» mənasında. O tərlan könlünün şahin vüqarı; Beş quruş uğrunda bəzən alçalır.

**Qurutmaq**, *icb.* 1. İslanmış yaxud nəmli paltarı və s.-ni quru hala gətirmək. Yuyub qurudun əynindəki tərli köynəyi.

2. Suyunu, rütubətini yox etmək, quru hala salmaq. Biz qurudan zaman bataqlıqları; Dörd yanın çiçəklər, güllər açacaq.

3. *məch.* Hirsindən, acığından, həsədindən dondurmaq, hissiz hala gətirmək. Həsəd qurutmuşdur onun canını.

**Qusmaq**, *f.* (*məc.*).: <u>yalan qusan</u> – yalan danışan, yalançı. Biz lənətlə unutduq gündə min yalan qusanların ..şərqisini. <u>Yalan qusmaq</u> – yalan danışmaq. Yüz yalan qussa da hər gəlib-gedən.

**Quş**, *is.* Bədəni tük və lələklə örtülü ikiqanadlı, ikiayaqlı, dimdikli, uçan heyvan. Quşların avazı bir toya dönsün. Quşlar bölük-bölük meşəyə gəlir.

**Quşcuq**, «Quş»dan oxş. Bir quşcuğun uçuşunda.

**Quşqonmayan**, *bax* quşqonmaz. Gözlərimdən qüvvət alır; Quşqonmayan dağlar başı. Quşqonmayan o dağlar ki nərəsindən yıxılar.

**Quşqonmaz**, *sif.* Çox uca, lap yüksək. Quşqonmaz qayalar vermiş baş-başa; Xəyalım az qalır, oynayıb coşa.

**Qutu**, *is.* İçinə, rəng və s. tökülüb satılan qab. ..Bircə qutu rəngim də vardır.

**Quvarlanmaq**, *f.* (*məh.*). Ürəklənmək, fərəhlənmək. Bəxtiyar tüfənglə vermədən ara: – Ya mən ötməliyəm, ya siz deyirdi; Cəlal quvarlanıb nəşə yeyirdi.

**Quyu**, *is.* Su, neft, qaz çıxarmaq və s. məqsədlər üçün silindr şəklində qazılmış dərin (bəzən də dayaz) çüxur. Humayı götürüb atır quyuya.

◊ Quyu qaz(ı)maq – birisinin bədbəxtliyinə, pisliyinə çalışmaq, ayağından çəkmək, əleyhinə iş görmək. Quyu qazıb, tələ qurar, ev də yıxar.

**Quzey**, *is.* Dağın, hündür tikilinin gün düşməyən, günəş görməyən yeri; həmişə kölgəlik olan yer (güney ziddi). Əriyir yaz günü quzeydəki qar; Gəzir dağ döşünü gəlinlər, qızlar.

**Quzğun**, *is.* 1. *zool.* Qarğa növündən iri və iti şığıyan yırtıcı quş. Qurtardı quzğunun caynaqlarından, Səhralara quzğun qonar.

2. *məc.* Böyük Vətən müharibəsi dövründə faşist təyyarələrinə verilən ad. Uçun, qızıl şahinlərim; Siz uçduqca hey ucalın! Quzğunların qanadını bir vuruşda yerə salın!

◊ Quzğuna dönmək – quzğun kimi vəhşiləşmək. Bəzən durur quzu kimi, bəzən dönür quzğuna.

**Quzu**, *is.* 1. Qoyun balası. Mən gələndə bu düzlərə ceyran qaçar, quzu mələr. [Yadigar:] Dağda bir quzu mələr. // *məc.* [Şirin:] Ah, nələr var imiş dünyada, nələr; İçimdə kimsəsiz bir quzu mələr.

2. *məc.* Sakit, həlim. Bəzən durur quzu kimi, bəzən dönür quzğuna.

3. Quzum, körpə quzum şəklində əzizləmə, oxşama məqamında nəvazişlə, mehribanlıqla əsas uşağa müraciət Oxu, quzum, öz qəlbinlə, həvəsinlə. Körpə quzum, ağ günə çıx!

**Qüdrət**, *is.* [ər.] 1. Güc, iqtidar, qüvvət, bacarıq. Yorulmaq bilməmiş əqlin qanadı; Gör insan əqlinin nə qüdrəti var. Bunları yazmağa canda qüdrət yox.

2. Taqət, iqtidar, güc. Qalmamış qüdrətim, dalğınam çoxdan. Sən öz qüdrətinə sığındın əvət.

3. Böyük təsir, nüfuz qüvvəsi. Bildim, insan kimi böyük bir qüdrət; Hələ yaratmamış bizim təbiət. Qalib gələn bir qüdrətə səs verirəm.

4. Möhkəmlik, iradə, iradə qüvvəsi. Yazın qüdrətinə təslim olur qış. Qüdrətini sizdən aldı; Mənim sazım, sözüm, dağlar! Böyük sənət əsrləri; Bir etiqad qüdrətidir.

5. *z.* Qüdrətlə şəklində – güclə, iqtidarla. Dünya bu qüdrətlə nura boyanır.

**Qüdrətli**, *sif.* Çox güclü, çox qüvvətli, iradəli. İnqilab qüdrətli o böyük hünər; Şüurdan yol açdı gözlərimizə.

**Qüdsi**, *sif.* [ər.] Müqəddəs. Onun qüdsi kitabında nə istibdad, nə möhnət var. İndi bir az sizin qüdsi fikrinizi; Ayırıram bu bağçanın xoş səsindən.

**Qüdsiyyət**, *is.* [ər.] Müqəddəslik, təmizlik, paklıq; müqəddəs olma, qüdsilik. Bu qüdsiyyət, bu şeriyyət laləzarımdır.

**Qüllə**, *is.* [ər.] Sütunşəkilli uca tikili. Qədim-qədim kilsələrin xaçlı qülləsi.

**Qürbət** [ər.] 1 *is.* Qəriblik; yad ölkədə, yad yerdə olma, vətəndən uzaqda olma. [Şapur:] Bir də alışmamış hələ qürbətə. Bu qürbət məni dağıtdı, sökdü.

2. *sif.* Vətəndən uzaq, yad, özgə, yabançı. Qürbət eldə can vermərəm ölümə!

**Qürrə**, *is.* Məğrurluq, iddialılıq, kibrlilik, qürrəli olma. Qürrəsindən qurumuşdur.

**Qürrələnmək**, *f.* Əsassız və boş bir şeyə arxalanaraq qürurlanmaq; güvənmək; lovğalanmaq. Yaxşı, qoca vaxtı qürrələnmə sən.

**Qürub**, *is.* [ər.] 1. Batma, üfüqün altına keçib görünməz olma. Bu gün günəş qürubundan ilham alır. Qüruba yaxın həzin bir mənzərə. □ Qürub etmək – batmaq (ay və ya günəş haqqında). Qürub edən bir axşamı o andırdıqca.

2. Günəş batarkən, hava qaralan zaman. Hər qürub zamanı.. baxar üfüqlərə. // *məc.* Seyr edərmiş Britaniyanın qürub çağını.

**Qürur**, *is.* [ər.] Təkəbbür, məğrurluq, lovğalıq, özünü yuxarı tutma. Qürurun gülşəni saralsın,solsun!

**Qüssə**, *is.* [ər.] Qəm, kədər, hüzn; fikir, dərd. Nəşə bir aləmdir, qüssə bir aləm. [Xosrov:] Olaq hər qüssədən, hər qəmdən azad.

**Qütb**, *is.* [ər.] (*coğr.*). Yer kürəsinin, üzərində fırlandığı xəyali mehvərin iki nöqtəsindən hər biri; habelə onun bu nöqtəyə düşən hissəsi. Bir eşqin istisi qızdırdı hər an; Cənub səhrasını, şimal qütbunu.

**Qüvvə**, *is.* [ər.] 1. Qüvvət, taqət, cismani enerji. Hər kimin qüvvəsi varsa qolunda.

2. Güc, qüdrət, iqtidar, nüfuz. Qüvvəmiz günəşə, aya təməldir; Sinifsiz gələcək bizə əməldir.

3. Kömək. Hər damcı qüvvədir bir daşqın selə.

4. Hərbi hissə, əsgəri bölmə; qoşun. Ayrılan qüvvələr birləşməlidir!

**Qüvvəli**, *sif. Bax* qüvvətli. Düşmən hələ qüvvəlidir.

**Qüvvət**, *is.* [ər.] 1. Bir işi görə bilmək qabiliyyəti, iqtidarı, bacarığı. Böyük bir qüvvətdir, adı – məhəbbət.

2. Güc, qüdrət, iqtidar, nüfuz. Odur öz qüvvəti, öz qüdrətilə. Qüvvəti çox olar birləşən elin.

3. *z.* Qudrətlə şəklində – 1) bərkdən, birdən. Vurur ayağını yerə qüvvətlə; 2) qüvvə ilə, qoşunla. Böyük bir qüvvətlə yenə gələrik.

◊ Qüvvət almaq – güclənmək, qüvvətlənmək. Bu gün qüvvət aldım mən təbiətdən. Mənsə qüvvət alım ellər gücündən. Qüvvət vermək – gücləndirmək, qüvvətləndirmək. [Hürmüzd:] Mənə qüvvət verəcəkdir ana yurdun havası. [Fərhad:] O indi qəfəsdə çırpınır, aman; Qəlbinə qüvvət ver, böyük yaradan! Qüvvət əmmək – *bax* qüvvət almaq. Qüvvət əm günəşin dodaqlarından. Qüvvət göstərmək – kömək etmək, yardım etmək. [Vəzir:] Bir az qüvvət göstər, böyük hökmdar! Qüvvətdən düşmək – gücünü itirmək, gücdən düşmək. Get-gedə düşsə də qolu qüvvətdən. Qüvvət gəlmək – güc gəlmək, qüvvətlənmək. O səsdən ürəyi qüvvətə gəlir. Qüvvətə gətirmək – gücləndirmək, qüvvətləndirmək. Ruhumu qüvvətə gətirdin. Qüvvətini dadmaq – gücünü hiss etmək, qüvvətini görmək. Görünür dadmamış qüvvətimizi.

**Qüvvətli**, *sif.* 1. Çox güclü, çox sağlam. [Azər baba:] Get, oğlum, get, sənə uğurlar olsun; Taleyin qüvvətli, eşqin var olsun.

2. Çox güclü, böyük müdafiə və hücum qüvvəsinə malik olan. Fəqət qüvvətlidir, gəncdir proletariat.

# L

**Laçın**, *is.* 1. Yırtıcı, alıcı quş. Laçınlar yuvası, haylar ocağı; Laçın qopur yuvasından…

2. Bədii təşbehlər; gözəlin gözlərinə, boyuna işarə. Laçın boylu tankçıya bax!

**Lağlağı**, *sif.* Çoxdanışan, boşboğaz, naqqal. // *is.* Hər ötərgi lağlağıya; Söylə, neçin əl çalırsan?

**Laxlamış**, *f. sif.* «laxlamaq» sözündən. Boşalmış, yerindən oynamış, tərpənən, laxlayan. Bu qarımış kapitalın; Çürük və laxlamış dişləri ağarsın.

**Laxta-laxta**, *sif.* Laxtalar halında, donmuş halda, parça-parça. Dondu cəbhələrdə laxta-laxta qan.

**Lakey**, *is.*Qul. Lenin düz deyir ki, «lakeydir onlar».

**Lakin**, *bağl.* [ər.] Amma. Cümlələri, habelə cümlə üzvlərini birləşdirərək qarşılıq bildirir. Bəzən cümlənin əvvəlində də gəlir. [Məryəm:] Lakin unutma ki, mən də Məryəməm.

**Lal**, *sif.* Danışmaq qabiliyyətindən məhrum olan, danışa bilməyən. Qulağı kar, dili də lal; Bir aləmə .. (aparmış məni səyyar xəyal).

□ lal olmaq – sakitləşmək, sakit olmaq, susmaq, dili tutulmaq. Mənim tuti dilim birdən lal olur; Lal ol! – qarğış kimi işlənir. Lal ol! Ləkəlidir qəlbin, niyyətin.

2. *məs.* Ahəstə, sakit, səssiz. O, bəzən də bir şairin ruhu tək; Qəmli-qəmli fikrə gedib lal axar.

**Lalə**, *is.* [*fars.*] 1. *bot.* İriləçəkli çiçəkləri olan bitki və bu bitkinin çiçəyi. Lalələr açıldı Muğanda, Mildə..

2. Qırmızılıq rəmzi kimi işlənir. Zümrüd göyə çox yaraşır lalə rəngi.

**Laləzar**, *is.* [*fars.*] Laləlik, çiçəklik, güllük, çoxlu lalə bitən yer. Açılıb gülsün əzizim, hər çəmən, hər laləzar. // *məc.* Gəzənlər çıxacaq yenə seyrinə; Gəlin tək bəzənən min laləzarda.

**Lampa**, *is.* [fr. lampe] Müxtəlif növ və quruluşlu işıq verən cihaz. Yenə sahil lampaları alışacaq…

**Lap**, *əd.* Sözlərin qabağında işlənərək onların mənasını daha da şiddətləndirir, dəqiqləşdirir. [Məryəm:] Mən də gözəl idim, lap sənin qədər.

**Layiq**, *sif.* [ər.] Münasib, yaraşan. Söyləyərəm ki, dağılsın bu kəndi; Layiqdir bu dağılmağa hərçəndi.

**Layla(y)**, *is.* Körpə uşaqları yatırdanda oxunan həzin mahnı. Anamızın laylasından daha xoşdur bizə; Bu böyük günlərin beynəlmiləl səsi!

□ Layla demək (çalmaq) – mahnı deyərək körpəni yatırtmaq. // Obrazlı təşbehlərdə. Ona layla deyir səhər küləyi; Bizə layla çalır dənizin səsi.

**Lay-lay**, *sif.* Laylar halında, qat-qat, sıx-sıx, çin-çin, qalın, sıx. Ekskavator təpələri lay-lay açıb, lay-lay qazır; Buludlar dağılır uzaqda lay-lay.

**Lazımdır**, «lazım» sözündən. Gərəkdir, vacibdir. [Şapur:] Odur ki, ehtiyat lazımdır bizə!

**Leninizm**, *köhn.* V.İ.Leninin imperializmə və proletar inqilabları şəraitində marksizmin daha da inkişaf etdirib konkretləşdirilməsindən ibarət təlimi. Son andım: Leninizm bayrağımız…

**Lenta**, *is.* [*rus.*] Müxtəlif materialdan kəsilmiş, uzun, ensiz zolaq; lent. Sənət nədir?; O, zamanın gözümüzdən lenta kimi…

**Leş**, *is.* Ölmüş heyvan cəsədi; təhqir kimi insan meyiti haqqında da işlənir. [Qacar:] Atın yığın-yığın leşi baş üstə.

**Ləğv**, *is.* [ər.] Yox etmə (edilmə), aradan qaldırma (qaldırılma). □ Ləğv etmək – aradan qaldırmaq, yox etmək. Gördüm «savadsızlığını» ləğv edən bolşevik işçiləri.

**Ləhçə**, *is.* [ər.] Nədən bu torpağın şirin ləhçəsi: – Şairəm, – deyənə biganə qalsın?

**Ləkə**, *is.* 1. Bir şeyin səthi üzərində olan iz. Hələ al qan ləkəsi var baş qaldıran çiçəklərdə. □ Ləkə salmaq – ləkələmək. Nə tüstü, nə his; Bir ləkə salmamış onun hüsnünə. // Bədənin müxtəlif yerlərində hər hansı bir səbəbə görə əmələ gələn rəng dəyişikliyi. Ləkə yoxdur sənin o gül yanağında.

2. *məc.* Adamı ləkələyən, rüsvay edən, alçaldan şey; rüsvayçılıq, biabırçılıq, şərəfsizlik. Yarımçıq elm ilə yarımçıq savad; Gəncliyin üstündə böyük ləkədir. □ Ləkə vurmaq (yaxmaq) – birinin namusuna, şərəfinə toxunacaq söz demək, böhtan atmaq, biabır etmək. Ağ üzlərə qəsdən ləkə vurmamısan; Xəlvətdəsə ona, buna; Ləkə yaxar asta-asta.

**Ləkəli**, *sif. məc.* Üstündə ləkə olan, şərəfsiz, ləyaqətsiz. Lal ol! Ləkəlidir qəlbin, niyyətin.

**Ləkəsiz**, *sif.* 1. Təmiz, aydın, açıq, saf. Göylərin aynası, ləkəsiz (z) durur; Xilqətin ən dərin mənası budur.

2. *məc.* Şərəfli, namuslu, adı təmiz, alnıaçıq. Xəyalı yüksəkdir, qəlbi ləkəsiz.

**Ləqəb**, *is.* [ər.] müəyyən bir səciyyəvi xasiyyətinə və ya başqalarından ayrılan əlamətinə görə adama verilən ad; ayama. [Vaqif:] Şairdir ləqəbi.

**Lələk**, *is.* Quşların qanadlarının və quyruqlarının uclarındakı uzun saplaqlı tük. Qartal göylə əlləşərək; Qanadından lələk saldı.

**Lələş**, *is.* zar. Bir adam özünü öydüyü, lovğalandığı zaman özünə işarə olaraq işlətdiyi söz (yalnız şəxs sonluqları ilə işlənir). Gələr öhdəsindən lələşin İlyas.

**Lənət** [ər.] Dinə görə Allahın mərhəmətindən məhrum olma, kafir (adətən köməkçi fellərlə işlənir). Min lənət deyirik iradənizə. □ Lənət oxumaq – qarğımaq, nifrin etmək, lənətləmək. Oxuyub keçmişə lənət, yaşaram. Lənətə gəlmək – qarğış kimi işlənir. [Məryəm:] Lənətə gələydi Xosrovun adı!

**Lənətlənmək**, *f.* Nifrin etmək, qarğımaq, lənət oxumaq. [Xosrov:] Axır lənətlədi məni ruzigar.

**Ləngər**, *is.* Lövbər. Yaxından eşidilir; Kür çayının ləngəri. ☐ Ləngər vurmaq – durmadan gah bir tərəfə, gah o biri tərəfə əyilmək; yellənmək, yırğalanmaq. Kuban çöllərinin.. zəmiləri; Dəniz kimi dalğa-dalğa yenə ləngər vuracaqdır..

**Ləpə**, *is.* Dalğa, kiçik dalğa. Asta-asta oynadıqca göy ləpələr. Ləpə-ləpə – dalğa-dalğa. Dalğa-dalğa, ləpə-ləpə; Aşıb daşar, daşıb aşar…

**Lərzə**, *is.* [*fars.*] Titrəmə, titrəyiş, əsmə. Neyləyəcək iradəmə dəniz lərzəsi? ☐ Lərzə salmaq – dəhşətə gətirmək, vəlvələ salmaq, sarsıtmaq. Mərmilərin qorxunc səsi; Lərzə salır dörd bir yana. Lərzəyə düşmək – əsmək, titrəmək, sarsımaq, hərəkətə gəlmək. Qara torpaq haray çəkir, göy də düşür lərzəyə.

**Ləşkər**, *is.* [*fars.*] (*köhn.*). Qoşun, ordu. Xar olmuşdu neçə ləşkər, neçə ordu.

**Lətafət**, *is.* [ər.] Gözəllik. Səndə vardır başqa lətafət, Şuşa!

**Ləzgi**, *is.* Dağıstan Respublikasında və Azərbaycanda yaşayan Dağıstan xalqlarından biri və bu xalqa mənsub adam. Kimsən, haralısan? Danış ay çoban: – Dağıstan əhliyəm, ləzgiyəm, qardaş!

**Ləzzət**, *is.* [ər.] *məs.* Bir şeydən duyulan xoş hiss, sevinc duyğusu; həzz, nəşə. Ordadır dünyanın zövqü, ləzzəti. ☐ Ləzzət çəkmək – həzz almaq, xoşlamaq. Bir deyib, bir gülüb ləzzət çəkərdik.

**Libas**, *is.* [ər.] 1. Paltar, geyim. Bir insan vüqarı, bir qəşəng libas.

2. *məc.* Örtük mənasında. Toy libası geyən ana təbiət.

**Lilli**, *sif.* Lehməli, bulanıq, batlaqlı, palçıqlı. Qızlar su götürər lilli arxlardan.

**Liman**, *is.* [*yun.* limens] Okean, dəniz və daxili su hövzələrinin sahilində gəmilərin durması və yük vurulub boşaldılması üçün körpü və başqa qurğularla təchiz olunmuş mən-

təqə; port. Şərqin varı; Boşalmayacaq Avropanın limanlarına.

**Limon**, *is.* [*yun.*] subtropik yerlərdə bitən həmişəyaşıl sitrus ağacı və bu ağacın sarı meyvəsi. Bu yerlərdə limon sarı.

**Lira**, [*yun.* lyra] Barmaqla çalınan qədim yunan simli musiqi aləti; rübab. Bu böyük günlərə min dastan deyir; Şairin lirası, aşiqin sazı.

**Lirik**, *sif.* [*yun.*] lirika xüsusiyyətləri olan, lirika mahiyyətində olan. İnqilab bir lirik nəğmə deyildir!

**Lisan**, *is.* [ər.] *klass.* Dil. Aç dərdini, mehriban quş; Sənin də öz lisanın var.

**Loğma**, *is.* Bir dəfədə ağza qoyulan çörək parçası. [Azər baba:] Ay, oğlum, bir loğma kəs bu çörəkdən!

**Loğman**, *is.* Əfsanəvi bir həkimin adı olub, klassik ədəbiyyatda və canlı dildə bütün dərdlərə çarə edən, adamlara yol göstərən bilici şəxs mənasında işlənmişdir. [Xosrov:] İçək… belə deyir bizə loğmanlar; Şərab olan yerdə nə dərd, nə qəm var.

**Loja**, *is.* [*fr.* loge] Tamaşa zalında bir neçə adamın oturması üçün ayrılmış xüsusi yer. Lojalar qatlaşır bir təmtəraqla.

**Lopa**, *is.* Odunu alovlandırmaq və ya işıq yaratmaq üçün neft hopdurulub yumruladılmış əsgi, cındır, alışqan. [Fitnə:] qızlar, gəlin biz də lopa yandıraq.

**Lopa-lopa**, *z.* Lopalar şəklində; topa-topa, parça-parça. Göy üzündə lopa-lopa ulduzlar yanır.

**Lord**, *is.* [*ing.* lord] İngiltərədə nəslən keçən yüksək zadəgan titulu və bu titulu daşıyan şəxs. Utanmadı, Böyük Britaniya lordları.

**Lovğa**, *sif.* Özü haqqında böyük fikirdə olan, başqalarına xor baxan; təkəbbürlü, təşəxxüslü. Dünən «mən-mən» deyən lovğa rəhbərlər..

**Lovğalanmaq**, *f.* Özünü tərifləmək, özünü öymək, təkəbbürlənmək, təşəxxüslənmək. Yaxşı, lovğalanma, bildik, gücün var..

**Lovğa-lovğa**, *z.* Təkəbbürlə, təşəxxüslə, dikbaşlıqla. Burda lovğa-lovğa..; Hitler gedərdi…

**Lövbər**, *is. dəniz*. Gəmini və üzücu mayakları yerində saxlamaq üçün suya buraxılan zəncirə bağlanmış qarmaqlı metal ox. …dənizlərin.. gəmiləri; Sahillərə lövbər saldı.

**Lövhə**, *is.* Şəkil, mənzərə şəkli, rəssamlıq əsəri, tablo. O böyük rəssamın hər bir lövhəsi… // Mənzərə, təsvir. Kənd biçimli bir şəhərin; Lövhəsini çəkirəm mən.

**Lüğət**, *is.* [ər.] Əlifba sırası ilə düzülmüş, izahı və ya başqa dilə tərcüməsi verilmiş sözlər toplusundan ibarət kitab; sözlük. Lüğətlər küncündə qalmış ehtiyac.

**Lütf**, *is.* [ər.] (*klas.*). İltifat, mərhəmət; mehribanlıq, yumşaqlıq; xoş, alicənab münasibət. ☐ Lütf etmək – mərhəmət etmək; iltifat göstərmək. Lütf edib, danışın gördüyünüzü.

**Lütfkar**, *sif.* [*ər.* lütf və *fars.* kar] Mərhəmətli, xeyirxah; adamlara yaxşılıq edən. Sizsiniz!.. Nə qədər lütfkarsınız!

# M

**Maarif**, *is.* [ər.] Əhali arasında savad, bilik, mədəniyyət yaymaq üçün mütəşəkkil surətdə həyatda keçirilən tədbirlər sistemi. Azadlıq haqqında həp malik oldun; Maarif zövqünü aldığın gündən.

**Macar(lar)**. Macarıstanın əsas əhalisini təşkil edən və dil cəhətdən Fin-uqor qrupuna daxil olan xalq və bu xalqa mənsub adam. ..macar oğlu, yunan qızı…

**Macəra**, *is.* [ər.] Başa gələn həyəcanlı hadisə; qəziyyə, sərgüzəşt. Dünyanın nə qədər macərası var.

**Madam**, *bağl.* [ər.] Cümlənin əvvəlində, həm də ortasında gəlib, məzmununda güzəşt olmayan cümləyə güzəştlik xüsusiyyətləri verir – bu səbəbə görə ki, buna görə ki. // Çox vaxt ki, bağlayıcısı ilə işlənir. Mənimçün madam ki, yer üzü dardır.

**Madər**, *is.* [*fars.*] (*klas.*). Ana, yalqız quzu madər deyə ağlar və mələrkən…

**Madyan**, *is.* [*fars.*] Dişi at. Dolaşdım piyada bütün obanı; Səni də görmədim vəfalı madyan.

**Mağar**, *is.* Toy, yas və s. məclislər üçün qurulan böyük çadır. Gülüb oynadığım toyda, mağarada; Qızların qolbağı yadıma düşdü.

**Mağara**, *is.* [ər. məqarə] Dağ və qayanın içinə doğru uzanan yaxud yer altında olan geniş oyuq; zağa, kaha. Di get, yerin olsun o boş mağara.

**Mağaza**, *is.* [əsli ər. «məxazin»dən] Böyük dükan, iri ticarət müəssisəsi. Baş çəkdi aynabənd mağazalara…

**Mağul**, «heç olmazsa», «nə yaxşı ki», «əcəb ki» mənalarında işlədilən ara söz. Mağul adam olub ətə dolardım.

**Mahal**, *is.* [ər. məhəll] (*tar., köhn.*). Bəzi inzibati-ərazi vahidlərinin adı; vilayət. Unutmaz bu oba, bu mahal məni…

**Mahal²**, *sif.* [ər. mühal] Çətin əmələ gələn, mümkün olmayan, baş tutmayan, qeyri-mümkün. Mahal olmaq – çətin əmələ gəlmək, çətin başa gəlmək. Göz yaşından gözlənən məlhəm mahal olsun gərək.

**Mahir**, *sif.* [ər.] Məharətli, bacarıqlı, qabiliyyətli, işini əla bilən, usta. Onun mahir əli, düşünən başı.. ey mahir ustad.

**Mahnı**, *is.* Nəğmə, hava, şərqi. [Vaqif:] Qapıçı, qapıçı çağır gedəni; Oğul lap oyatdı o mahnı məni. Mahnı demək (oxumaq) – səslə nəğmə oxumaq. Ona… mahnı deyib söz də qoşar..

**Mahtab**, *is.* [*fars.*] Ay aydınlığı, aylı gecə. Nə təmizdir, nə parlaqdır mahtabın süd bənizi.

**Makina** [*lat.* machina]. Enerjini bir şəkildən başqa şəklə salmaq yolu ilə hər hansı bir faydalı iş görən. Dəmir makinalar hey çoxaldıqca, Qaldıq illər boyu ac da, işsiz də.

**Mal**, *is.* İribuynuzlu ev heyvanı, mal-qara, qaramal (inək,öküz, camış və b.). Doyunca nə qoyun, nə mal sağıldı.

**Malik**, *is.* [ər.] sahib, yiyə. Malik olmaq – sahib olmaq. Azadlıq haqqına həp malik oldum.

**Manat**, Azərbaycan Respublikasında hazırda pul vahidi (keçmiş SSRİ-də pul vahidi). Günəş manat kimi cibə sığarmı?

**Manevr**, [fr. monouvre] (*hərb.*). düşmənə zərbə endirmək məqsədilə qoşunların və ya donanmanın bir yerdən başqa yerə hərəkəti və bir yerə toplanması. Bu bir manevrdir indi səninçin // Ordu və ya donanmanın döyüş şəraitinə yaxın bir şəraitdə keçirilən taktiki təlimi. Gəlir sorağınız manevrlərdən.

**Manifest**, [lat. manifestari – aydın, aşkar etmək] 1. Müstəsna əhəmiyyəti olan bir hadisə münasibətilə ali hakimiyyət orqanının əhaliyə yazılı müraciəti. Çar manifest verdi öz qorxusundan.

2. Siyasi partiyanın, ictimai təşkilatın proqram səciyyəli müraciəti. «Manifest», «Kapital», «İzafi dəyər»; Zəhmət dünyasının ilk fəlsəfəsi.

**Maraq**, *is.* 1. Bir şeyə diqqət, bir şeyi bilmək, öyrənmək həvəsi, meyli arzusu. <u>Maraqdan düşmək</u> – həvəsi qaçmaq, həvəsi getmək, daha maraqlanmamaq. Keçər aylar, keçər illər, yaz, ey Vaqif, ömür azdır; Düşər bir gün laçın könlüm şer, sənət marağından.

2. <u>Maraqlı</u> şəklində *z.*, maraqlanaraq, həvəs göstərərək, böyük həvəslə, şövqlə. Salon gülür gözlərdəki min bir maraqla.

**Maraqlanmaq**, *f.* Bir şeyə maraq göstərmək, bir şeyi bilməyə, öyrənməyə böyük həvəs və diqqət göstərmək. [Mahnigar:] Çox maraqlanarsan?

**Maral**, *is.* (*zool.*). Buynuzları budaq kimi şaxələnən, gövşəyən cütdırnaqlı heyvan. Maral hürküb talalardan qaçanda; Arxasınca yüz xəyala dalmışam. // Təşbehlərdə «gözəl» mənasında. Yatır sevdalı qız, o yorğun maral…

**Marksist**, *is.* (*köhn.*). Marksizm cəmiyyəti tərəfdarı. Bir para «marksist» cənablar da var.

**Marş** [fr. marche] 1. Sırada bir qayda, ritmik yürüş tərzi, gəzinti tərzi. Sahildə səslənir gəzinti marşı.

2. Hər hansı bir münasibətlə aydın ritmli musiqi əsəri. Qoy gurlasın zəfər marşı.

3. Hüzn üçün çalınan gediş musiqisi. Çalınır matəm marşı.

**Marşal** [fr. marechal] Bəzi ölkələrin ordularında yüksək hərbi ad və ya rütbə. Salam marşalımız Klim yoldaşa.

**Mart** *is.* [lat. martius] Təqvim ilinin üçüncü ayı. Mart ayı olsa da, Berlində qışdır..

**Martı**, *is. zool.* Qağayı. Rəngin şəfəqlərə boylanır Xəzər; Uçuşur martılar – o nazlı quşlar.

**Maska** *məc.* [fr. mascus] Başqa cilddə olan; gizlədilən sima. İdealist əməllər rənglədi maskasını. Maskasını yırtmaq – gizli niyyətlərini aşkara çıxarmaq, iç üzünü açıb göstərmək. …düşmənin maskasını yırtaraq.

**Maşın**, [*fr*. machine, *lat*. machina] Hər hansı bir mexanizm vasitəsilə hərəkətə gətirilən nəqliyyat vasitəsi (əsasən avtomobil). Sonsuz çöllər oynayacaq maşınların gur səsindən. Maşın da, insan da hələ seyrəkdir.

**Mat**, *is.* [*fars.*] Heyrət içində olan, təəccüblənmiş. Mat qalmaq – təəccüblənmək, heyrət etmək, heyrətlənmək. Mat qalmışam mən sizə. Mat qoymaq – heyrətləndirmək, təəccübləndirmək. Bülbül kimi mat qoyan dillər bizdədir.

**Matəm**, *is.* [ər.] Yas, təziyə, əza. Bir bayram sözü var, bir də ki matəm. Matəm saxlamaq – yas saxlamaq, yasa batmaq. Vətən… Matəm də saxlayır axan qanlara. Matəm tutmaq – *bax* matəm saxlamaq. Bir daxmada matəm tutub ağlamışdır öz anası.. Matəmə batmaq – yasa batmaq, kədər içərisində olmaq. Füzuli… matəmə batdı… Matəmə dönmək – *bax* matəmə batmaq. [Mahnigar:] Bir matəmə dönər bayramın sonu.

**Matəmli**, *sif.* 1. Yaslı. Ona matəmlidir üstündəki iş?

2. *məc.* Matəmi andırmaq; qəmli, kədərli, qüssəli, hüznlü. Ey səda, ey matəmli əl!

**Mat-mat**, *z.* Mat-mat baxmaq – donuxmuş halda, sakit-sakit baxmaq, heyrətlə, təəccüblə baxmaq. Üzünə boylanıb baxdılar mat-mat.

**Mavi**, *sif.* [*ər*. mavi – su rəngində] Açıq-göy, aydın göy rəngində olan. Mavi gözlərə yazdığım dastanlar.

**Mavzoley** [yun. mausoleion] Qəbir üzərində tikilən böyük memarlıq abidəsi; türbə. Papağını başdan alıb daxil olur mavzoleyə.

**Maya**, *is.* [*fars.* mayə] (*biol.*). Rüşeym, döl. // *məc.* Əsas, əsl. Mayan turş ayrandır, zatın qırıqdır.

**Mayak**, *is.* (*rus.*). Gəmilərə yol göstərmək üçün siqnal işığı olan hündür qüllə. Baxıb gecələrə göz qırpır mayak.

**Mayalanmaq**, *məch.* Döllənmək. Qandan mayalanmış dəmir ətin var.

**Mazurka**, [pol.] Üçölçülü taktı olan polyak milli rəqsi. Mazurka rəqsinin gurultusundan; Aynalar titrəmiş..

**Medal** [fr. medaille] Xüsusi xidmətlərinə yaxud əməkdə göstərdiyi rəşadətə görə verilən, üzərində hər hansı bir qabarıq təsvir və ya yazı olan fərqlənmə nişanı; ümumiyyətlə Fəxri nişan. Satdı Şuralar ölkəsini… qızıl rəngli medallara…

**Medallı**, *sif.* Medal almış, medalla təltif olunmuş yaxud döşünə medal taxmış. Döşü nal medallı merlər..

**Meh**, *is.* [*fars.*] Xəfif yel, yüngül, yumşaq yel, sakit külək. Meh əsir, astaca yellənir bayraq.

**Mehli**, *sif.* Meh əsən, xəfif küləkli. Yaz günü xoş mehli axşamlar kimi.

**Mehman**, *is.* [*fars.*] qonaq. Sənə qonşu olan Qazax elindən; Vəfalım, vəfasız mehmanlar gəlir.

**Mehmanxana**, *is.* [*fars.*] Başqa yerdən gələnlərin müvəqqəti yaşaması üçün xüsusi təchizatlı otaqları olan ev; qonaq evi. Ümumə bağlıdır mehmanxanalar.

**Mehrab**, *is.* [ər.] məscidlərin qiblə tərəfdəki divarında namaz qılarkən pişnamazın və onun ardınca başqa namaz qılanların üzlərini çevirdikləri oyuq yer. Mehrab o dilbərə çıraqmı salmış?

**Mehri**, *is.* [*fars.*] (*klas.*). Sevgi, məhəbbət. Sən Mehrin, ülfətin..; Bir ilk beşiyisən… Analıq mehrini görmək istərəm.

**Mehriban**, *sif.* [*fars.*] Çox yaxşı münasibət bəsləyən, səmimi, mehr bəsləyən, şəfqətli, xoş rəftarlı. Necə mehribandır qaynatam mana.

**Mehribanlıq**, *is.* Münasibətdə xoşluq, səmimilik, xoşrəftarlıq, dostluq, mehriban. Mehribanlıq beşiyimdir; Yerim bağça, yurdum bağdır.

**Mehri-məhəbbət**. Sevgi, məhəbbət. Könlümə dolmuşdur mehri-məhəbbət.

**Mehri-ülfət**. Məhəbbət. …məktub dil açdı mehri-ülfətdən.

**Memar**, *is.* [ər.] Memarlıq mütəxəssisi; arxitektor. …qoca memar, axıt yenə alın təri…

**Menşevik**, [*rus.*] Menşevizm tərəfdarı, antimarksist, opportunist partiyanın üzvü. Bu xəbər üşüdür varlığını menşevik «kommunistlərin».

**Meşə**, *is.* Çoxlu ağac bitən geniş sahə. Yanıb külə döndü gömgöy meşələr.

**Meşəlik**, *is.* Meşə olan yer, meşə ilə örtülmüş sahə. Budur, yüz meşəlik, yüz yeni şəhər.

**Meşin**, *is.* Aşılama yolu ilə hazırlanan ən sadə yumşaq qoyun və s. dərisi // Həmin dəridən tikilmiş, hazırlanmış. Görmədin meşin jaketli rus işçisinin qızıl güllələsini.

**Meşok** (*rus.*). Kisə, torba. Bir meşok götürüb bizə gəl sabah.

**Metro** [fr. metro] «Metropoliten» sözünün qısaldılmış forması. Günəşli metrolar, aylı tunellər.

**Mey**, *is.* [*fars.*] Şərab. [Xosrov:] Bu meylə, məzəylə keçinən hər dəm; Böyük bir dövrandır, böyük bir aləm.

**Meydan**, *is.* [*fars.*] şəhər və ya kənd, qəsəbə və s. içərisində tikilisiz açıq və geniş düz yer, sahə. …asfalt döşəməli bir meydan.

2. Ümumiyyətlə düz və geniş sahə; düzənlik, genişlik. Genişdir meydanı bizim dağların.

3. Bir işin icrası üçün geniş sahə, yer. [Fərhad:] İndi qulaq verin mənə, igidlər; Meydanda sınanır kimdədir hünər. Yarış meydanıdır əzəldən aləm…

4. Təyyarə meydanı. Təyyarəmiz enib düşür meydana.

5. *məc.* Fürsət, girəvə, imkan; əlverişli şərait. Sür atını, dördnala çap; Meydan sənindir.

6. Yerlik halda: Meydanda – ortada, arada, aralıqda. Sən də bu meydanda kükrəyib-çağla.

◊ Meydan açmaq – mübarizəyə çağırmaq, döyüşə hazır olmaq, döyüşə girişmək. Meydan açın. Meydan açın. Dəstə-dəstə; İndi gəlir o sınanmış pəhləvanlar. Meydan demək – *bax* meydan oxumaq. ..Meydan deyir qaranlığa; Dayanmadan bir anlıq. Meydan qurmaq – toplaşmaq, bir yerə yığılmaq. Meydan quraq, söhbət açaq, saz tutaq; Gül yanaqda qoşa xaldan danışaq. Meydan oxumaq – müharibəyə, döyüşə, mübarizəyə çağırmaq, hədələmək. …bu bina; Meydan oxuyardı bir vaxt aləmə. Manya! Manya! Çöllərə sən; Yenə meydan oxuyursan. Meydana atılmaq – özünü qabağa vermək, irəli atılmaq. Atılsın meydana şir tək. Meydana gəlmək – mübahisə, mübarizə meydanına daxil olmaq. [Hürmüz:] Qoca Hürmüz də mənəm. Gəl yenə meydanıma gəl. Meydana çıxmaq – aşkar olmaq, zahirə çıxmaq, ortada görünmək. Özün gəl, ey sevdiciyim, özün çıx meydana. Meydandan qaçmaq (*dan.*) – axıra qədər bir işi davam etdirməmək, dala çəkilmək, qorxmaq. Zamandır, dəli Kür, qaçma meydandan.

**Meydança**, *is.* [*fars.*] Balaca meydan, kiçik meydan. Hər meydanda, meydançada dar ağacı qurulmuşdur.

**Meyxana**, *is.* [*fars.* meyxanə] (*köhn.*). Şərab satılan və içilən dükan, şərabçı dükanı. Arabir dinləyib… Meyli, rəqqasəli meyxanələri.

**Meyxoş**, *sif.* [*fars.*] *məc.* Muğandan keçirəm, meyxoşdur bahar; Ömrü az olsa da burdakı yazın.

**Meyil**, *is.* [ər.] 1. Həvəs, istək, arzu. Meyil bağlamaq – *bax* meyil salmaq. Bağladın meylini telli bir saza. Meyil salmaq – bir şeylə həvəs göstərmək. Meylimi mətbəxə, evəmi salım?

2. Könül, məhəbbət. Meyil salmaq – sevmək, istəmək, könül bağlamaq. [Cəlal:] Görürsən? Meylini anaya salır.

**Meyit**, *is.* [ər.] Ölmüş adam; cənazə, nəş. Körpələrin meyitləri kabab olur cidalarda.

**Meyli**, *sif.* və *z.* Şərablı, meyi olan. Arabir dinməyib… Meyli, rəqqasəli meyxanələri.

**Meysiz**, *sif.* və *z.* Şərabsız, meyi olmayan. Meysiz, məzəsiz can ilə canan ola bilməz.

**Meyvə**, *is.* [*fars.*] 1. Bəzi ağacların, güllərin yeməli, şirəli məhsulu. Meyvə dəyir, alaq vurur, dərz bağlayır ot biçənlər.

2. *məc.* Məhsul, bəhər, nəticə. Danışır zəhmətimin meyvələri.

**Məbəd**, *is.* [ər.] İbadətgah, ibadət yeri (hansı dində olursa-olsun). Əyilsin səcdənə ulduzlar, aylar; Əskilmiş məbədlər, yeni saraylar.

**Məbədgah** [*ər.* məbəd və *fars.* …gah] *Bax* məbəd. Qocaman Qaf dağında məbədgah; Od-alov asimana yüksəlmiş.

**Məbud**, *is.* [ər.] İbadət, sitayiş edilən şey *(Allah, büt, ay, gün, ulduz və s.)*. Qələlər, zindanlar qorxunc diləklər; Üfüqümdə məbud bir boşluq bəglər..

**Məclis**, *is.* [ər.] 1. Bir məsələ haqqında danışmaq üçün düzəldilən yığıncaq, toplanmış adamlar heyəti; toplanış, iclas. İstanbulun qucağında; Qaçqınların məclisi var.

2. Toy, şənlik və s. bu kimi yerlərdə toplanan yığıncaq. Bir toy məclisində sən oxuyardın.

**Məcnun**, *sif.* və *is.* [ər.] Dəli, divanə. Adına insanlar – məcnundur, – dedi.

**Məcra**, *is.* [ər.] Suyun axdığı yataq, yol. Sular da dəyişir öz məcrasını.

**Mədən**, *is.* [ər.] 1. Yer altından çıxarılan faydalı qazıntı *(metal külçə; mineral və s.)*. Mədən də axtarır, şaxtada qazır.

2. Faydalı qazıntılar, neft və s. çıxarılan yer. Üzə çıxır yer altının qızıl mədəni. Fantan buruqlara, mədən daşlara…

**Mədəniyyət**, *is.* [ər.] Hər hansı bir xalqı və ya sinfin müəyyən dövrdə etdiyi belə nailiyyətlərin səviyyəsi. Yenə beşiyidir mədəniyyətin.

2. Savadllıq, elmlilik, biliklilik. // Cəmiyyətdə özünü apara bilmə; tərbiyəlilik. Hamı bir nəfər tək sakit olmuşdur; Bu da timsalıdır mədəniyyətin…

**Mədh**, *is.* [ər.] Həddindən artıq şişirdilmiş tərif; tərifnamə, vəsf. Mədh etmək – təriflənmək, vəsf etmək. Onları mədh etdi Lin ilə Orfey.

**Mədrəsə**, *is.* [ər.] Dini məktəb, ruhani məktəbi. // (*köhn.*) Ümumiyyətlə məktəb, tədris müəssisəsi. Açılsın hər yerdə məktəb, mədrəsə…

**Məftun**, *sif.* [ər.] Vurğun, özünü unudacaq dərəcədə vurulmuş, aşiq olmuş, eşqə giriftar. Məftun olmaq – özünü unudulacaq dərəcədə vurulmaq, sevmək // Son dərəcə valeh olmaq, heyran olmaq. [Eloğlu:] De,sənin səsinə kim məftun olmuş?

**Məğlub**, *sif.* [ər.] Müharibədə, yarışda, müsabiqədə və s.-də məğlub olmuş, basılmış (qalib əksi). O məğlub çıxmışdır müharibədən.

**Məğrib**, *is.* [ər.] Qərb, günbatan (məşriq əksi). // Şərqə müqabil cəhət. Tutaq ki, məşriqdən məğribə qədər…

**Məharət**, *is.* [ər.] Bir iş görməkdə ustalıq bacarığı, bacarıq, qabiliyyət, hünər. Nəymiş onun məharəti.

**Məhbəs**, *is.* [ər] Həbsxana. Qalmayacaq… Nə bir məhbəs, nə bir zindan.

**Məhbus**, *is.* [ər.] Həbs olunmuş, dustaq. Ellərin məhbusları azad olar.

**Məhdud**, *sif.* [ər.] 1. Əhatə olunmuş dövrələnmiş, hüdudlanmış. Hasarla məhdud bir ev.

2. Kiçik, əhəmiyyətsiz, az, cüzi. Məhdud ömr elədik bu aləmdə biz.

**Məhəbbət**, *is.* [ər.] Eşq, sevgi, sevmə, sevişmə. Məhəbbətə hasar çəkməz nə ayrılıq, nə də zaman.

**Məhəbbətsiz**, *sif.* Məhəbbəti, sevgisi olmayan. [Xosrov:] Öz ömrümü məhəbbətsiz yaşadım.

**Məhkəmə**, *is.* [ər.] 1. Cinayət işlərinə və mülki mübahisələrə baxan ədliyyə orqanı. Quruldu Şuralar salonunda; Şuraların baş məhkəməsi.

2. Bu orqan tərəfindən işə baxılma. Özüm quracağam son məhkəməni.

**Məhkəməsiz**. Məhkəməsi olmayan. Məhkəmə iştirak etmədən. Bu yerdə qanunsuz və məhkəməsiz; Tökdüyünüz qanlar öz qanınızdır.

**Məhkum**, *sif.* [ər.] 1. Haqqında məhkəmə tərəfindən hökm çıxarılmış, hər hansı bir cəzaya məhkum edilmiş. O məhkum insana tutulan dirə.. Məhkum olmaq – məhkəmə tərəfindən müəyyən cəza almaq. Sənə məhkum mən olmaram fikrən.

2. *məc.* İtaət altında olan, asılı vəziyyətdə olan; hüquqsuz, tabe. Sızlar qoca Şərqin məhkum yavrusu.

**Məhrum**, *sif.* [ər.] Nəsibi, hissəsi, payı olmayan; nəsibsiz. Məhrum olmaq – binəsib olmaq, əlindən çıxmaq, əli boş qalmaq, əli çıxmaq. Həyatından məhrum olub əzilən…

**Məhsullu**, *sif.* Çox məhsul verən, məhsullu; gəlirli, xeiyrli. Qapımız ömründə xırman görmədi məhsullu və bərəkətli.

**Məhtab**, *bax* mahtab. Baxıb saatlarca məhtaba sarı…

**Məhtablı**, *sif.* Aylı, işıqlı, aydın (gecə haqqında); mahtablı. Məhtablı bir gecə…

**Məhv**, *is.* [ər.] Yox etmə, ortadan qaldırma, tələf etmə, puç etmə, məhvinə səbəb olma. Məhv etmək – yox etmək, ortadan qaldırmaq, tələf etmək, puç etmək. Heyvanat. Onu məhv etdi xəyalən bəşəriyyət. Mənim məhv etsə də fikrimi… Məhv olmaq – yox olmaq, yer üzündən silinmək, puç olmaq, yoxa çıxmaq. Bəlkə də məhv olur müqəddəs həyat.

**Məhvər**, *is.* [ər. mehvər] 1. Yer kürəsinin mərkəzindən keçən iki qütbü bir-birinə birləşdirən xəyali xətt. [Azər baba:] Bir az arxayın ol, o ulduz sönməz; Dünyanın məhvəri tərsinə dönməz.

2. *məc.* Bir şeyin əsasını, məğzini təşkil edən amil. Qoy əski dünyanın məhvəri sınsın.

**Məhzun**, *sif.* [ər.] Hüznlü, həzin, kədərli, qəmli, məlul, dərdli. Gəzirsən daima məhzun.

**Məxmər**, *is.* [ər.] Üzü qısa xovlu, parlaq ipək parça. Düşməniyəm onların; Divarları məxmər və ipək döşəməli salonların… Məxmər kimi – görünüşcə və ya əl vuranda məxməri xatırladan şey haqqında. Yaşıl məxmər kimi döşəndi yonca; …ayaq altına.

**Məxsus**, *sif.* [ər.] Yalnız birinə aid olan. // Xas olan. Bu fəryad bədbinlərə məxsus, bizi şad etməyəcəkdir.

**Məkan**, *is.* [ər.] 1. Bir adamın, şeyin sakin olduğu yer, oturulan yer; yurd. Qanadlan… Məkanın asimanlardır. // Ümumiyyətlə yer. Üz tutubsuz nə məkanə, durnalar.

2. *fəls.* Materiyanın varlığının, həcm və ölçü ilə səciyyələnən əsas ümumi obyektiv formalarından biri. Səadət zamana məkana bənzər; Onun nə ölçüsü, nə hüdudu var.

**Məktəb**, *is.* [ər.] Yetişməkdə olan nəslə təlim və tərbiyə verən təlim-tərbiyə müəssisəsi. Bəs məktəb? Oxumaq? Gözəl arzular?

**Məktub**, [ər.] Hər hansı bir məqsədlə yaxud bir şeyi xəbər verib bildirmək üçün yazılıb poçt və ya başqa vasitə ilə birinə göndərilən kağız. [Vəzir:] Bizans dövlətindən gələn elçilər; Məktub gətirmişlər…

**Məqam**, *is.* [ər.] Vaxt, zaman, çağ münasibət. [Şapur:] Dünyada hər şeyin öz məqamı var. Məqam gözləmək – vaxt gözləmək, fürsət gözləmək. Səbirlə, təmkinlə məqam gözlədi. Məqam güdmək – fürsət aramaq, imkan axtarmaq. O yandan da məqam güdür talan olmuş fransızlar… Məqam tapmaq – fürsət, fürsətdən istifadə etmək. …məqam tapıb göz ağardar uşağa.

**Məqsəd**, *is.* [ər.] Əldə edilməyə nail olmağa çalışılan, qəsd olunan şey; məram, niyyət, arzu. [Şahbaz:] Bunu söyləməkdən məqsədin nədir?

**Məlahət**, *is.* [ər.] Gözəllik, şirinlik, lətafət; cazibə, duzluluq. Üzündə bir başqa məlahətin var.

**Məlal**, *is.* [ər.] Ürək sıxıntısı; usanma, bıqma, bezmə // Hüzn, kədər, qəm. Məlala düşmək – qəmlənmək, kədərlənmək. Gəncəliyim tükənməz məlala düşdü.

**Mələk**, *is.* [ər.] 1. Dini əsatirdə: Allahın göstəriş və əmrlərini yerinə yetirən, çox gözəl qadın surətində qeyri-maddi qanadlı bir məxluq; məlaikə. Ümid bağlamadan göydə mələkə; Dedin ki, yer qızı ondan gözəldir.

2. *məc.* Çox gözəl və ya məsum, xoşxasiyyət adam haqqında. Bizim qızlar nə mələkdir, ...nə də pəri; Bir çoxları deyir sənə «nazlı mələk, nazlı pəri».

**Mələkədalı**, *sif.* Nazlı, işvəli. Ey mələkədalı, xuraman gəlin.

**Mələmək**, *f.* 1. Çığırmaq, bağırmaq, səs çıxarmaq *(qoyun-quzu, keçi, maral, inək və s. haqqında)*. [Şirin:] Ah, nələr var imiş dünyada, nələr; İçimdə kimsəsiz bir quzu mələr.

2. Sızıltılı səs çıxarmaq, yağlamaq, sızıldamaq, inildəmək. Yalqız quzu madər deyə ağlar və mələyər...

**Mələşmə** «mələşməkdən *f.is.* Nə mal, qoyun mələşməsi; Nə də isti bir ocaq var?

**Mələşmək**, *qarş.* 1. Bir yerdə mələmək, səs-səsə verib mələmək *(qoyun-quzu haqqında)*. Ürəklər oynaşır, atlar güləşir; Qoyunlar səs-səsə verib mələşir.

2. *məc.* Fəryad etmək, ağlaşmaq, ağlamaq. Min il su-su deyib mələşən çöllər; İndi öz donunu lalədən biçər.

**Məlhəm**, *is.* [ər. mərhəm] 1. Yaraya və ya ağrıyan yerlərə sürtülən yağlı dərman. O, gülüşlə məlhəm qoydu yaralara.

2. *məc.* Dərman, əlac, çarə, şəfa. Göz yaşından gözlənən məlhəm mahal olsun gərək. // *məc.* Təsəlli olacaq, təskin edəcək şey. Sən də əsirgəmə kömək əlini; Hər sözün, söhbətin can məlhəmidir.

**Məlul-məlul**, *z.* Qəmgin-qəmgin, həzin-həzin, məyus-məyus, yazıq-yazıq. Baxırdın, sevdiyim, sən məlul-məlul.

**Məlum**, *sif.* [ər.] Bilinən, bilinmiş; bəlli, aydın, aşkar, hamıya məlum olan. Çəkdiyim pis günlər məlum ellərə.

**Məlun**, *sif.* və *is.* [ər.] Əsl mənası «lənətə gəlmiş», «lənətlənmiş», «Allahın rəhmətindən məhrum», «mürtəd» olub, Azərbaycan dilində söyüş, qarğış mənasında işlənir. [Şahbaz:] Hitler dediyiniz o məlun iblis. Ölüm məlun bir iblisdir, o, varlıqdan kənar olmaz.

**Məmə**, *is.* 1. Uşaqları əmizdirmək üçün qadınlaın döş hissəsində yerləşən yumru şəkildə olan iki süd vəzilərindən hər biri; döş // Məməli heyvanlarda süd ifraz edən orqan; yelin. // *məc.* mənada. Kürün məməsindən sorur doyunca.

**Məmləkət**, *is.* [ər.] Bir xalqın yaşadığı yer, ərazi; diyar, ölkə. Azad nəfəs aldığım bu məmləkət.

**Mən**, *əvəz.* Danışan adamı bildirən birinci şəxs əvəzliyinin təki. [Banu:] Bu gün-sabahlıqdır… Mən ölsəm əgər; Gözəl yurdumuzu yadlar qəsb edər. <u>Mən ölüm</u> (*dan.*) – xahiş və ya yalvarış məqamında işlədilir. Bir də, Musa! Mən ölüm!

**Məna**, *is.* [ər.] 1. Sözün, cümlənin ifadə etdiyi məfhum, anlayış. Can alan hər nəğmənin mənası yalnız eşqdir.

2. Bir şeyin ağılla dərk edilən daxili məntiqi məzmunu, mahiyyəti. // Məqsəd, ağlabatan səbəb. Hər insanın baxışında; Bir müqəddəs məna gördüm.

**Mənalı**, *sif.* 1. Mənası olan. Təbiətin bu mənalı gözəl çağında… Mənalı görünür bir qərinədən.

2. Böyük daxili məzmunu, mənası olan; dolğun, ağıllı. [Səhər:] Ya mənalı bir söz, məsum bir baxış.

3. *məc.* Gizli mənası olan, bir şeyə işarə edən; üstüörtülü. Onların mənalı baxışlarından; Qaranlıq gecəyə şimşək çaxırdı.

**Mənasız**, *sif.* 1. Mənası olmayan, heç bir məna daşımayan. Yarımçıq olsa da mənasız olmaz.

2. Əqlə uyuşmayan, yersiz, boş, yaraşmayan; əbəs, bihudə. Ömürdə bir an da mənasız deyil.

3.*məc.* Heç bir məna ifadə etməyən. Yoxsa mənasız olur hər gülüşün.

**Məncə**. Mənə görə, mənim fikrimcə, mənim düşündüyümə görə. [Səhər:] Nolsun… bu, cinayət deyildir məncə.

**Məndil**, *is.* [ər.] Cib dəsmalı, yaylıq. // Obrazlı təşbehlərdə. Sallamış dənizə ay məndilini.

**Mənəviyyat**, *is.* [ər.] İnsanın mənəvi keyfiyyətləri, normaları; yüksək əxlaq. Şərqi təmsil edir mənəviyyatın.

**Mənfəət**, *is.* [ər.] (*dan.*). Fayda, xeyir. Elin zərərindən mənfəət umaq; Boyansın, demişəm, al qana, dağlar.

**Mənfur**, *sif.* [ər.] Nifrət, nifrətə layiq, nifrətli, xoşa gəlməyən, çox pis; sevilməyən, istənilməyən. Bu mənfur kitablar qəsdən bağırır.

**Məngənə**, *is.* [əsli yun. machina-dan] Hər cür şeyi sıxıb saxlamaq üçün çilingər aləti. [Şahbaz:] Sıxır məngənə tək ürəyimizi.

**Mənhus**, *sif.* [ər.] Uğursuz, bədbəxt, nəhs. Elinlə tapdadın mənhus adəti // Pis, alçaq, rəzil.

**Mənlik**, *is.* Öz ləyaqətini dərk etmə, öz şəxsiyyətinin qiymətini bilmə; heysiyyat, şərəf. Əgər mənliyini sevməsə insan; Onu bu dünyada mənası bir daş. <u>Mənliyinə dəymək</u> – şərəfinə, heysiyyatına toxunmaq. Necə… Onun mənliyinə dəymək olarmı?

**Mən-mən**: <u>mən-mən demək</u> – lovğalanmaq, təkəbbür göstərmək, özündən başqa heç kəsi saymamaq. Dünən «mən-mən» deyən lovğa «rəhbərlər»…

**Mənsəb**, *is.* [ər.] Yüksək vəzifə, böyük məqam; Ümumiyyətlə vəzifə. Xoşuna gəlməyəcək bu şerim / Bu dünyada nə mənsəb, nə şöhrətdən doyanların.

**Mənzərə**, *is.* [ər.] 1. Bir yerin uzaqlara qədər gedən ümumi görünüşü, gözün qavraya bildiyi yerin, sahənin, təbiətin görünüşü; axar-baxar. Hər yaşıl mənzərə, hər sarı sünbül.

2. *məc.* Konkret şəkildə təsəvvür olunan, göz qabağına gətirə bilən şey, hadisə və s. İnsanı güldürür bu mənzərələr.

**Mənzil**, *is.* [ər.] 1. Yaşayış evinin adətən bir neçə otaqdan, mətbəxdən və s.-dən ibarət olan hissəsi // Ümumiyyətlə ev. Ancaq Səadətin mənzili yoxdur.

2. Gedilən yolun bölündüyü hissələrdən hər biri; mərhələ. // Gedilən yer, yolun sonu. [Cəmil:] Bəli.. doğrudan da mən-

zil uzaqdır. Mənzil almaq – getmək. Səyyah mənzil aldı. Mənzil kəsmək – lazım olan yerə çatmaq, yolu başa çatdırmaq, qət etmək. Mənzil kəsər; Axar çaylar.

**Məram**, *is.* [ər.] İstək, arzu, dilək, tələb; məramı həyata keçmək // Məqsəd, niyyət, qəsd. ...Məramın istirahətdir.

**Mərcimək**, *is.* (*bot.*). 1. Paxlalılar fəsiləsindən dənli bitki və toxumu.

2. *məc.* (*şair*). Obrazlı təşbehlərdə. Üzündə mərcimək, köksündə tellər.

**Mərd**, *is.* [*fars.*] İgid, qəhrəman, cəsur, qorxmaz adam. Bir badə zəhəri o mərd içərək; Dedi: – Azadlıq çal! – bir kamandara // *sif.* mənasında. Bu insan selinin qarşısında tək; Dayandı Qafqazın mərd oğulları.

**Mərdanə**, *z.* və *sif.* [*fars.*] 1. Mərdcəsinə, açıqcasına. Alovlasın qucağında o, yol açdı mərdana...

2. Kişiyə xas olan, kişiyə məxsus, kişi üçün olan. Hər söhbətin, hər sözün də mərdanədir. // *məc.* Kişi kimi. Kişi tərzində. Ölsəm də, ölməyim xoşdur, mərdana.

**Mərdanəlik**, *is.* Mərdlik, kişilik, igidlik, alicənablıq. Əməl uğrunda candan keç, özün mərdanəlik göstər.

**Mərd-mərdanə**, *z.* və *sif.* [*fars.*] Mərdanə; igidcəsinə, mərdcəsinə. Düşmənə gəl dedin mərd-mərdanə.

**Mərəz**, *is.* [ər.] *məc.* «Adət, vərdiş» mənasında. Bizim kor sənəmin bir mərəzi var.

**Mərhəba**, *nida* [ər.] bəyənmə, tərif bildirir – afərin! bərəkAllah! Eşq olsun! Əhsən! Mərhəba, mərhəba, İlyas pəhləvan!

**Mərhəmət**, *is.* [ər.] Rəhm, şəfqət, acıma, insaf hissi. Mərhəmət, iltifat ürəkdən keçər...

**Mərhəmətli**, *sif.* Ürəyi nazik, rəhmli, şəfqətli, acıyan, rəhv mə şəfqəti çox. [Topal:] Şahimiz, Gördüm ki, mərhəmətlisən.

**Mərhəmətsiz**, *sif.* Mərhəmət etməyən, rəhmi gəlməyən; insafsız, rəhmsiz, daşürəkli. Sən, ey mərhəmətsiz, duyğusuz, casus.

**Mərmər**, *is.* [lat. marmor] 1. Heykəltəraşlıqda və memarlıqda işlənən müxtəlif rəngli kristallik dağ süxuru – Kirəc daş. Ağ mərmərdən yondurduğu məzar daşında.

2. *sif.* mənasında. Mərmərdən düzəldilmiş, mərmərdən qayırılmış, üzərinə mərmər çəkilmiş. Çarın Qış sarayı, mərmər saraylar; Bakı! Bakı! – deyib düşür lərzəyə.

**Mərmi**, *is.* [ər.] Top kimi silahların gülləsi. Bizim ağır toplar o divarlara; Neçə mərmi vurmuş.

**Məruf**, *sif.* [ər.] (*klas.*). Məşhur, tanınmış, şöhrətli. [Cəllad:]Bizim hamımızdan daha mərufsan.

**Məsafə**, *is.* [ər.] İki yerin, iki nöqtənin arası, aralarındakı uzaqlıq. Ən uzaq bir məsafədən salam göndəritrəm.

**Məsəl** [ər.] Zərbi-məsəl. «Məhəbbət cüt olar» bu bir məsəldir.

**Məsələ**, *is.* [ər.] Həll olunması, yerinə yetirilməsi lazım olan iş. Hər məsələ düzələr…

**Məskən**, *is.* İnsanın yaşadığı yer, yurd; ev və s. Məskənim olacaq, sonra da quşlar…

**Məsləhət**, *is.* [ər.] Necə hərəkət etmək, bir işi necə görmək haqqında təklif, göstəriş, tövsiyə. [Xosrov:] Sənin məsləhətin faydasız olmaz.

**Məslək**, *is.* [ər.] 1. Hər hansı bir dünyagörüşünə əsaslanan əqidə; məfkurə, amal. ..məslək dostlarının; Hər qəminə, nəşəsinə ortaq olaydın.

2. İstək,arzu, dilək mənasında. Bütün məsləkləri bir məslək boğar.

**Məsləksiz**, *sif.* Heç bir məsləki olmayan; etiqadsız, əqidəsiz, amalsız. Vətənsiz, yurdsuz insanlar yaşar aləmdə məsləksiz.

**Məst**, *sif.* [*fars.*] *məc.* Xoş və gözəl bir təəssüratdan təsirlənmiş, nəşələnmiş, keflənən kimi olmuş, bihuş olmuş, məftun olmuş. Məst etmək (eləmək) – *məc.* kefləndirmək, nəşələndirmək, bihuş etmək. Bunları məst edər sərin havası. Məst olmaq – *məc.* gözəl bir şeyin təsirindən keflənmiş kimi

olmaq, huşu getmək, məftun olmaq. Öz ətrindən məst olacaq güllər-çiçəklər.

**Məsul**, *sif.* [ər.] Üzərində məsuliyyət qoyulan, cavabdeh olan; cavabdeh, cavabdəhəndə, sorğulu. Məsul bir işçi də, dülgər də olur.

**Məsum**, *sif.* [ər.] Günahsız; heç bir günahı, qəbahəti olmayan // «Yazıq, zavallı» mənasında. Bilirəm, görməmiş bu məsum pəri; Anamın çəkdiyi qara günləri.

**Məşəl**, *is.* [ər.] Ətarfı işıqlandırmaq üçün ağac və s. başına sarınaraq yaxud xüsusi bir alət içərisinə qoyularaq yandırılan yağlı (neftli) əsgi, cındır parçası, yanar maddə olan qab. [Şahbaz:] Bir məşəl tuturam qəlbimi mən də…

2. *məc.* Yol göstərən, mayak. Məşəl ilə yol açıram yüz təbəqədən.

**Məşğul**, *is.* [ər.] Bir işi görən, bir işdə çalışan, iş görməkdə olan, bir işlə başı qarışıq olan. Böyük fikirlərə məşğuldur aləm.

**Məşhur**, *sif.* [ər.] Şöhrət qazanmış adlı-sanlı, şöhrətli, tanınmış. Məşhuri-cahan – dünyada məşhur. Gözəlliyi bəlli məşhuri-cahan…

**Məşriq**, *is.* [ər.] Günəşin doğduğu tərəf, şərq (məğrib əksi). Tutaq ki, məşriqdən məğribə qədər…

**Mətbəx**, *is.* [ər.] Xörək bişirmək üçün sobası, piltəsi və s. ləvazimatı olan yer, otaq. Meylini mətbəxə, evəmi salan?

**Məyus**, *sif.* və *is.* [ər.] Ümidsiz, ümidini kəsmiş, ruhdan düşmüş; naümid. Qanımda, qəlbimdə nədənsə bu an; Məyus və ağlayan bir həyəcan var. Nə qədər məyus, ah, nə qədər ölgün.

**Məzar**, *is.* [ər.] Qəbir. Siz Allah, qoymayın məzara məni.

**Məzardaşı**. Qəbirdaşı. Hər hansı parçası, hər məzardaşı; Nəsildən-nəsilə bir yadigardır.

**Məzarıstan**. *Bax* məzarlıq. [Xəyali səs:] Tez-tez baş çəkirəm məzarıstana.

**Məzarlıq**, *is.* Qəbiristan. Hərəkətiz o təbiət məzarlığı andırır.

**Məzə**, *is.* [*fars.*] Adətən iştaha üçün əsas yeməkdən qabaq və ya onunla birlikdə yaxud içki içilərkən yeyilən müxtəlif yüngül yeməklər, çərəz. [Xosrov:] Bu meylə, məzəylə keçilən hər dəm; Böyük bir dövrandır, böyük bir aləm…

**Məzəli**, *sif.* Əyləndirici, könülaçan, gülməli, güldürücü, duzlu. // Maraqlı, qəribə. Məzəlidir, qəmzəlidir… Axar çaylar.

**Məzəsiz**, *sif.* Məzə olmayan; çarəsiz. Meysiz, məzəsiz can ilə canan ola bilməz.

**Məzhəkəyazan**, *is.* Komediya yazan yazıçı, şair, komediyaqraf. Varmı şerimizdə məzhəkəyazan? Oxucu gözləyir bunu hər zaman.

**Məzlum**, *sif.* və *is.* [ər.] 1. Zülm çəkmiş, zülm olunmuş, zülmə məruz qalmış, zülm altında olan (zalım ziddi). Dünya məzlumların haqq bağıran səsiyəm.

2. Yazıq, fağır, zavallı, dilsiz-ağızsız. O gündən ki, məzlumların safa çıxdı yarası.

**Mığmığa**, *is.* Ağcaqanad. Havada mığmığa sancır insanı..

**Mıxlanmaq**, *məch.* 1. Mıxdan asılmaq; mıxla vurulmaq. Onlar qulağından mıxlandı.

2. *məc.* Bir yerdə dayanıb qalmaq, yerindəcə dayanıb durmaq, yerindən tərpənmək. …Şumlara mıxlanar min traktor da..

**Milçək**, *is.* Bəzi yoluxucu xəstəlik mikroblarını yayan qoşaqanadlı həşərat; çibin. İldırımbaxışlı gözlərinlə süz; Həyatda milçəkdən fil yapanlara.

**Milisioner** [*lat.* militia-dan] (*köhn.*). Milis işçisi, milisiyada xidmət edən adam, milis nəfəri. Yalnız milisioner küçələrdə tək…

**Millət**, *is.* [ər.] İnsanların, tarixən dil, ərazi, iqtisadi həyat və psixika ümumiliyi əsasında əmələ gəlmiş sabit birliyi. Sən ağ saçlı bir millətin; Şöhrətisən, vüqarısan.

**Milyon** [*fr.* million] 1.000.000 saylı. // 1.000.000 miqdarında.

2. Son dərəcədə çoxlu miqdar, sayı-hesabı olmayan miqdar (bu mənada cəmdə işlənir). Oraqlı-çəkicli milyon əllə-

rə… // Çoxlu adam, kütlə haqqında. Şairin açdığı bu dil; Milyonların nəfəsidir.

**Milyon-milyon**, *sif.* və *z.* Milyonlarca (milyonlarla), sayı milyonlarla olan. …azadlıq səsim; Milyon-milyon insanların haqq səsindədir.

**Min**, *say.* 1. Doqquz yüz doxsan doqquzdan sonra gələn ədəd – 1000. Min mələk uçsa da gülümsəyərək. Yanır od içində min incə pəri.

2. Çoxlu, külli miqdarda, hədsiz, saysız-hesabsız. Min nemət yetirib, min söz yaratdı.

◊ Min bir – çox hədsiz. Min bir xəbər verir dünyadan bizə; Üstünü toz almış qalın kitablar.

**Mina**, *is.* [*fars.*] 1. Metal və s. şeylərin üzərinə çəkilən rəngli şüşəvarı təbəqə, çox incə və parlaq naxış. // Üzərinə mina ilə naxışlar çəkilmiş, minalı.

2. *məc.* Mina kimi parlaq, gözəl (obrazlı təşbehlərdə işlənir). Gərdənin minadır, böyün tamaşa…

**Minarə**, *is.* [ər.] Azan vermək üçün məscidlərin yanında və ya üstündə ucalan qüllə. Azca keçməmişdi həmən minarənin başından; Möminləri çağırardı ucalan «Allah» səsi…

**Minmək**, *f.* 1. At və ya başqa minik heyvanının üstünə qalxmaq, oturmaq // Bir yerə getmək üçün nəqliyyat vasitələrinin birinə oturmaq. Qoy mənim elektrik qatarına.

**Min-min**, minlərlə, çoxlu. Köhnə Putilovun min-min fəzləsi; Poladdan mərmilər, qurşunlar tökdü.

**Minnət**, *is.* [ər.] Edilən hörmət və yaxşılığa qarşı daxilən duyulan borcluluq hissi, özünü borclu bilmə. Dedik, qoy yaşasın, nə minnəti var…

□ Minnət qoymaq – etdiyi hörmət və yaxşılığı başa qaxmaq, xatırlatmaq, başqasını özünə borclu çıxarmaq. Bizə minnət qoyma, borcunu qaytar!

**Minnətdar**, *sif.* [*ər.* minnət və *fars.* – dar] Birindən gördüyü yaxşılığa qarşı mütəşəkkil olan; minnətə qarşı özünü borclu hiss edən, yaxşılıq bilən, razılıq edən. Minnətdar ol-

maq – edilən yaxşılığa, hörmətə qarşı özünü birinin qabağında borclu saymaq. Mənim saf südümə sən minnətdar ol!

**Minval**, *is.* [ər.] Qayda, tərz, yol, üsul. Necə? Nə minvalla? Bu minvalla – bu qayda ilə, bu cür, həmin tərzdə. Bu minvalla keçmək istər bir vəzifə başına.

**Mırıldamaq**, *f.* (*dan.*). Söylənmək, deyinmək, donquldanmaq. ..mırıldama çox.

**Mırıltı**, *is.* İtlərin bir şeydən xoşlamadıqları zaman çıxardıqları yavaş alçaq səs. …zövq aldı (itlərin) mırıltısından.

**Misal**, *is.* [ər.] 1. Nümunə, örnək, misal. Yerli-yersiz misal çəkir…

2. Bir şeyin bənzəri, oxşarı, tayı, bərabəri, misli. Yer üzündə yoxdur misalın sənin.

**Miskin**, *sif.* [ər.] 1. Fağır, biçarə, bədbəxt, yazıq. Bu miskin aşiqə baxın da bir az.

2. Bacarıqsız, aciz, əlindən heç bir iş gəlməyən, düşkün. Axan sellər qarşısında aciz, miskin qalırlar.

**Mismar**, *is.* [ər.] 1. Mıx. Mismar da düzəldir, şeir də yazır.

2. *sif. məc.* Möhkəm təsirli. Kitab vardır ki, hər sözü mismar.

**Misri**. Misri qılınc – *məc.* Koroğlunun qılıncına verilən ad. Misri qılıncını çaldın dörd yana…

**Mitil**, *is.* Yorğanın, döşəyin, balışın alt üzü. Köhnə mitilləri dağıdıb sökür.

**Mizrab**, *is.* [ər.] Bəzi simli musiqi alətlərinin simlərini ehtizaza gətirmək üçün sümükdən, mal buynuzundan və ya plastik maddədən qayrılmış nazik plastika. Mənsə mizrab vurub sarı bir simə…

**Mizraq**, *is.* [ər.] Sivriqovucu dəmirdən, poladdan qayrılmış uzun saplı qədəm, döyüş aləti; nizə. Döyüşlər, mizraqlar, azğın ordular.

**Mizraqlı**, *sif.* Nizəli. Keçdi mizraqlı döyüşlər, qanlar.

**Model**, [fr. modele] Bir şeyin kiçildilmiş surəti, sxemi, nümunəsi; maket. Ulduzun, günəşin, ayın modeli; Bizim bu sarayda…

**Molla**, *is.* [ər.] Savadlı şəxslərə verilən titul. Deyirlər dərs alır molla Pənahdan.

**Monoloq** [*yun.* monos – tək və logos – nitq] Başlıca olaraq dramada aktyorun özünə, yaxud tamaşaçılara xitabən söylədiyi sözlər – nitq. Səhnədəki oynaq bir gənc söyləyirdi monoloq.

**Motor** [*lat.* motor – hərəkətə gətirmə] Hər hansı enerjini mexaniki enerjiyə çevirən maşın; mühərrik. O yerlər oynayır motor səsindən.

**Motorlu**, *sif.* Obrazlı təşbehlərdə. Motorlu kəlmələri çiynində daşıyan… şairindən salam.

**Möhkəm**, *sif.* [ər.] 1. Sağlam, davamlı, dözümlü, qüvvətli. Poladdan möhkəmdir sizin qolunuz; Quraq tərkinizdə pulemyotları.

2. İti, kəsərli. Sağlam bir ölkənin möhkəm fikri var.

**Möhlət**, *is.* [ər.] Vaxt vermə; bir işin görülməsi, yaxud vəd olunan bir şeyin yerinə yetirilməsi üçün verilən vaxt, müddət; icazəli vaxt. // Ümumiyyətlə, bir işi görmək üçün təklif olunan vaxt, müddət. Hələlik şadlığa möhlətimiz var.

**Möhnət**, *is.* [ər.] 1. Zəhmət, əziyyət, qayğı, azarlıq, dərdsər. Alışdır özünü bari möhnətə…

2. Dərd, qəm, qüssə, kədər. [Şahbaz:] Başımdan dağılır qəm də, möhnət də.

**Möhtac**, *sif.* Bir şeyə ehtiyacı olan, bir şeyə hacəti olub onu aradan qaldıra bilməyən. Möhtac adam. – Dedim: – Yol gəlmişəm, özüm da acam; Doğrusu, bir parça yemə möhtacam.

2. Xəbər şəkilçisi ilə möhtacdır – ehtiyacı var, ehtiyac hiss edir. Bir parça çörəyə, suya möhtacdır.

□ Möhtac qalmaq – 1) ehtiyac içərisində olmaq, sıxıntı çəkmək; 2) hər hansı bir şey, xüsusən dolanacaq cəhətdən asılı olmaq, tabe olmaq. Yavan bir çörəyə möhtac da qalsam.

**Möhtəkir**, *is.* [ər.] Varlanmaq məqsədilə yeyinti və s. zəruri şeyləri ucuz qiymətə alıb saxlayan və sonradan baha

qiymətə satan alverçi; ehtikarla məşğul olan adam. Neçə min möhtəkir gəlmiş…

**Möhtərəm**, *sif.* [ər.] Hörmətli, əziz, ehtirama layiq. Möhtərəm şairə salamlar olsun. [Məryəm:] Neçin kiriyirsən, möhtərəm qonaq?

**Möhtəşəm**, *sif.* [ər.] Öz əzəməti, böyüklüyü, həşəməti ilə insanı valeh edən; əzəmətli, ehtişamlı. – Möhtəşəmdir, müzəffərdir sənin adın. Bu möhtəşəm binalara diqqətlə bax.

**Möhürlü**, *sif.* Üzərində möhürü olan, möhürlənmiş. Parlaman möhürlü pulemyotları…

**Mömin**, *sif.* və *is.* İnandığı dinin (əsasən islam dininin) ehkamlarına ciddi surətdə əməl edən adam; dindar. Bir mömin babayam Quran görməmiş.

**Mötərizə**, *is.* [ər.] Kiçik şaquli xətt şəklində (düz, dairəvi və ya fiqurlu) qoşa durğu işarələrindən biri; həmin şəkildə qoşa riyazi işarələrdən biri. Hər mötərizə də bir mühasirə.

**Mövhumat**, *is.* [ər.] Mövhüm söz cəmi. Əslində olmayıb xəyala, fikrə gətirilən şeylər; xəyalat. Məzarlara gömdün həp mövhumatı.

**Mövsüm**, *is.* [ər.] Hər hansı meyvənin yetişdiyi, gülün açıldığı vaxt. [Mahnigar:] Hər çiçəyin, gülün öz mövsümü var.

**Mum**, *is.* [*fars.*] Bal arılarının hazırladığı və şan düzəltmək üçün istifadə etdikləri maddə, habelə ona oxşar bitki maddəsi.

◊ <u>Mum kimi ərimək (sönmək)</u> – saralmaq, zəifləmək, üzülmək, çox arıqlamaq. İztirablar keçirərkən mumlar kimi sönəcək. <u>Mum kimi əritmək</u> – zəiflətmək ..o sönük hisslər; Əridir dəmbədəm səni mum kimi.

**Munis**, *sif.* [ər.] Hər kəslə mehriban olan; ünsiyyət, mehriban, istiqanlı. …o dəbdəbələr; Həris gözümüzə munis görünür.

**Murad**, *is.* [ər.] Arzu, məqsəd, niyyət, dilək, istək, kam. Ürək dəmir deyil, daş da deyil ki? Minbir muradı var, minbir arzusu.

□ Murada yetirmək – arzusuna çatdırmaq, istəyinə yetirmək. [Vəzir:] Murada yetirsin sizi qoy Allah! Murada yetişmək (yetmək) – arzusuna çatmaq, istəyinə nail olmaq. At belində yetişərmiş hər murada. Murada çatmaq – arzusu hasil olmaq, məqsədinə, diləyinə, kamına çatmaq. Bir cavab ver, hankı murada çatdın…

**Murdar**, *sif.* [*fars.*] 1. Müsəlman dini etiqadınca təmiz sayılmayan; napak (pak əksi). Odur, alman generalı murdar oldu təpiklərdə.

2. *məc.* Zəhlətökən, xoşagəlməyən, pis, iyrənc. Sizin düşməniniz o murdar iblis; Sizin də, sizin də düşməninizdir.

**Musiqişünas**, *is.* [*ər.* musiqi və *fars.* …şünas] Musiqişünaslıq mütəxəssisi. [Mahnigar:] Qonşumuz Yunisdir musiqişünas.

**Muzey**, [*lat.* museum, əsli *yun.* museion] Tarix, incəsənət abidələrinin, elmi-təbii eksponatları toplayıb mühafizə və nümayiş etdirən müəssisə. Söz açaram Nizaminin muzeyindən.

**Mübarək**, *sif.* [ər.] Xoş bir xəbər, təzə alınan şey və ya bayram münasibətilə deyilən təbrik, gözaydınlığı. Vəzir, xeyir işiniz xeyli mübarək.

□ Mübarək olsun – Allah mübarək eləsin. Oğlum! Xeyir işin olsun mübarək!

**Mübarizə**, *is.* [ər.] Vuruşma, dava, döyüş. Bu gündən sonradır mübarizəmiz.

**Mübhəm**, *sif.* [ər.] Qeyri-müəyyən, gizli, qaranlıq, naməlum, üstüörtülü, anlaşılmaz, hər cür yozula bilən, hər cür başa düşülə bilən, Çox incitdi mübhəm yaralar məni.

**Mübtəda**, *is.* [ər.] Başlanğıc, baş. …Əzəl mübtədası partiyamızdır!

**Mübtəla**, *sif.* [ər.] Aludə, düçar, giriftar, tutulmuş. Bu dərdə mübtəla dünyamı yoxsa?

2. Bir şeyin həddindən artıq aludəsi, düşkünü, azarkeşi. Onun Vurğun kimi mübtəlası var.

**Müdam**, *z.* [ər.] Daim, həmişə, müttəsil, aramsız, fasiləsiz, fasilə vermədən. Şəfəqlər sayrışır o evdə müdam.

**Müddət**, *is.* [ər.] Bir işin, hadisənin başlanması ilə qurtarması arasındakı, yaxud bir şey üçün müəyyən edilmiş vaxt, zaman. // Ümumiyyətlə vaxt, zaman. Uzun müddət – uzun bir vaxt, çox bir vaxt, çox vaxt. Uzun müddət bucaqlara büzülən…

**Müdhiş**, *sif.* [ər.] Dəhşətli, dəhşət doğuran, vahiməli, dəhşətamiz, qorxunc. Canlanar gözümdə müdhiş bir röya…

**Müdrik**, *sif.* [ər.] Dərin dərrakəli, çox ağıllı, çox dərin düşünən; aqil, dünyagörmüş; anlayan, dərk edən, kamala yetişmiş. O müdrik alimin hər bir kəlməsi…

**Müəbbəd**, *sif.* [ər.] (*klas.*). Sonsuz, əbədi, həmişəlik. O açıldı varaq-varaq; Bir müəbbəd dastan kimi.

**Müəllim**, *is.* [ər.] Məktəbdə hər hansı bir fəndən dərs deyən adam. O böyük müəllim dərs verdi bizə.

**Müəllimə**, *is.* [ər.] Qadın müəllim. Tanıyın kənddən şəhərə qaçan bir gənc müəlliməni…

**Müəllimlik**, *is.* Müəllim vəzifəsi, müəllim sənəti, işi. Müəllimlik bir incə sənətdir.

**Müftə**, *sif.* [*fars.*] Pulsuz, havayı, əvəzinə heç bir şey verilməyən; məccani. Gələnlər yedilər, içdilər müftə. // *z.* mənasıda. Neçə min möhtəkir gəlmiş bu axşam; Bu yol ziyafətdə müftə yeməyə…

**Müftəxor**, *is.* [*fars.*] Özü zəhmət çəkməyib başqalarının hesabına yaşayan adam; tüfeyli. Müftəxorlar artıq bulamaz imkan.

**Müharibə**, *is.* [ər.] Dövlətlər arasında mütəşəkkil silahlı mübarizə; hərb. [Səhər:] Heç, Şahbaz, çox böyük müharibədir.

**Mühasirə**, *is.* [ər.] Hər tərəfdən əhatə olunma, araya alınma; dövrələmə. Hər mötərizə də bir mühasirə.

**Mühəndis**, *is.* [ər.] Texnikanın hər hansı sahəsində ali təhsil almış mütəxəssis; injener. Neçə kankan gəldi, neçə mühəndis…

**Mühit**, *is.* [ər.] *məc.* İnsanın yaşadığı ictimai məişət şəraiti, habelə bu şərait ümumiliyi ilə bağlı olan adamlar. Başqa mühitə nəşələr saçarsan.

**Müxbir**, *is.* [ər.] Yerlərdən xəbər yığıb göndərən qəzet, jurnal, radio, televiziya və başqa məlumat orqanı işçisi. Budur, bax müxbirin yazdığı kağıza.

**Müxənnət** [ər. müxənnəs-dən] Alçaq, namərd, qorxaq. Müxənnət adamda düz ilqar olmaz.

**Müxtəlif**, *sif.* [ər.] Bir cür olmayan, cürbəcür, növbənöv, dürlü-dürlü. Xörəklər müxtəlif… // Başqa-başqa, ayrı-ayrı, bir-birinə uymayan, bir-biri ilə düz gəlməyən. Müxtəlif dərdlərin və qayğılarım; Orda, o ilahi çöhrədə gülər.

**Müjdə** [*fars.*] Xeyir xəbər, şad xəbər, xoş xəbər, sevindirici söz; muştuluq. Bağların müjdəsi hər çiçək, hər gül.

**Müjdəçi**, *is.* Xeyir xəbər, muştuluq xəbəri gətirən adam; muştuluqçu. Bahar müjdəçisi bir çiçək kimi.

**Mükafat**, *is.* [ər.] Birinin hər hansı bir sahədəki xidmətlərini, müvəffəqiyyətini qeyd etmək üçün ona verilən pul və ya başqa qiymətli bəxşiş. …hədiyyələr, mükafatlar almışam mən…

**Müqəddəs**, *sif.* [ər.] (*din*). Allaha aid olan, ilahi, ilahi qüvvəyə malik. Aman! Ayaqladı müqəddəs dini. // Dini sitayişlə əlaqədar yer və ya şeylərin adlarının daimi epiteti kimi işlədilir. Öz əlilə o qazmışdır bu müqəddəs məzarı.

2. Pak, təmiz, eyib və nöqsanlardan ari. Odlar ölkəsidir müqəddəs adın. // Mənəvi cəhətdən təmiz, saf, ləkəsiz. Məhəbbətin meyvəsidir müqəddəs insan; Ana müqəddəsdir, ana doğmadır; Ən böyük məhəbbət yalnız ondadır.

3. *məc.* Nəcib, ülvi, ulu, yüksək, təmiz, pak. // Toxunulmaz, sarsılmaz. Bizə ən müqəddəs qanun olmuşdur.

**Müqəssir**, *sif.* və *is.* [ər] Təqsirkar, təqsiri olan, günahı olan, günahkar. [Cəlal:] Cənab müqəssirdir, bir də şairlər.

2. Qanunən təqsirkar sayılan, təqsiri olan adam; suçlu, cani. Eşidilir radiolarda müqəssirlərin dolaşıq səsi.

**Müləvvan**, *sif.* [ər.] (*klas.*). Rəngli, rəngbərəng. Göylər ki, müləvvan o şəfəqlərlə bərabər; Göylər deyə, göylər deyə çalxalandı dəmadəm.

**Mülk**, *is.* [ər.] (*köhn.*). Birinə məxsus torpaq sahəsi, malikanə, nəql olunmaz, daşınmaz əmlak *(bina, ev)*. // *məc.* Obrazlı təşbehlərdə işlədilir. Yenə Vətən mülkü heç qocalmamış…

**Mülkədar**, *is.* [*ər.* mülk və *fars.* …dar] Torpaq üzərində xüsusi mülkiyyət və onun qalıqları mövcud olan ölkələrdə torpaq sahibi olan zadəgan. Min il qılınc vurdu bizə mülkədar.

**Mümkün**, *sif.* [ər.] Hər hansı şərait daxilində həyata keçə bilən, ola bilən. Mümkünmü günəşdən nur oğurlamaq?

2. Maddi imkan. Bağışla, oğlum,mümkünsə əgər…

**Münasib**, *sif.* [ər.] Uyğun, müvafiq, yaraşan. Desəm, çox münasib həqqindir əlbət.

**Münəccim**, *is.* [ər.] (*köhn.*). Bizim zamanlarda və orta əsrlərdə: Göy cisimlərinin vəziyyət və hərəkətinə əsasən gələcəkdən xəbər vermək iddiasında olan şəxs; astroloq. O münəccim şərh eləmiş min əsrarı.

**Müntəzir**, *sif.* [ər.] Gözləyən, intizar içində olan, intizar qalan. Sən nə dersən bu hala; Müntəzirəm vüsala.

**Mürc**, *is.* [*fars.*] (*klas.*). Quş oxurdu… mürcü havası.

**Mürəkkəb**[1], *is.* [ər.] Bir neçə hissədən, ünsürdən ibarət olan (sadə ziddi). Hər sadə mürəkkəb cümləmizin də…

**Mürəkkəb**[2], *is.* [ər.] Yazı yazmağa məxsus rəngli maye – boya. …Mürəkkəbim, qələmdaşım…

**Mürgü**, *is.* Oyaqlıqla yuxuluq arasındakı hal, yarıyuxulu hal. Mürgü vurmaq (basmaq) – *bax* mürgüləmək. Gözlərimiz… mürgü vurur.

**Mürgüləmək**, *f.* Yarıyuxulu halda olmaq, mürgü vurmaq, mürgü basmaq // Şairanə təşbehlərdə. Şəhər üstə qanad gərib mürgülədi yorğun axşam.

**Mürtəce**, *sif.* [ər.] İrticanın xeyrinə iş görən, yenilik və tərəqqi uğrunda mübarizədə köhnəlik və vaxtı keçmiş şeyləri

müdafiə edən, ictimai və mədəni tərəqqinin əleyhinə gedən; irticaçı. Qəlbi qara, fikri qara mürtəcelər; Bir oyunbaz, bir sehrkar demiş ona.

**Mürüvvət**, *is.* [ər.] Mərd adama və həqiqi insana xas olan yaxşı sifətlər; rəhm, insaf, mərhəmət, insanlıq. Görmədi mürüvvət bir kəsdə könlüm…

**Mürüvvətsiz**, *sif.* və *is.* İnsafsız, mərhəmətsiz, zülmkar, mürüvvəti olmayan. Ata, qoy öldürüm o mürüvvət sizi…

**Müsafir**, *is.* [ər.] Mehmanxanalarda, karvansaralarda və s.-də müvəqqəti yaşayan adam // Qonaq. İndi yanıma gəl, yapış əlimdən; Bir Muğan qızına müsafir gedək.

**Müsavat**, *is.* [ər.] Bərabərlik. Qalmamışdır nə qar, nə də müsavat.

**Müsavi**, *sif.* [ər.] Bərabər. Çünki hər yandan; Hər qəlbə müsavi məşəllər doğar.

**Müsəlləh**, *sif.* [ər.] Silahlanmış, silahlı. Bilsin ana torpaq, eşitsin vətən; Müsəlləh əsgərəm mən də bu gündən.

**Müsibət**, *is.* [ər.] Bəla, fəlakət, afət. Ay Allah, onu sən; Saxla müsibəti yaman üzündən.

**Müstəmləkə**, *is.* [ər.] İmperialist dövləti tərəfindən zorla tutulub istismar edilmiş, siyasi və iqtisadi istiqlaliyyətini itirmiş ölkə. Qırdı zəncirini müstəmləkələr.

**Müşkül** [ər.] 1. *sif.* Çətin, zor, çətin başa gələ bilən, çətin həll edilə bilən. [Azər baba:] Hər müşkül işi də ümid düzəldir.

2. *is.* Çıxılmaz vəziyyət, ağır vəziyyət; düyün. Hər diləyi, hər müşkülü düzəldilən; Mələk ruhlu bir müqəddəs eşqi var.

**Müştəri**, *is.* *məc.* İstəyən, arzu edən, həvəskar. Adına min yerdən min müştəri var.

**Müştük**, *is.* [əsli alman mundstuck] Papiros gilizinin içində tütün olmayan, çəkərkən ağıza salınan bərk hissəsi, papiros kötüyü // Papiros və siqaretin keçirildiyi kiçik borucuq. [Eloğlu:] Zoğal müştüyünü tüstülədərkən…

**Mütəfəkkir**, *is.* [ər.] 1. Dərin fəlsəfi fikir sahibi olan adam.

2. *sif.* və *z.* (*klas.*). Fikirli, fikirli-fikirli, fikir-xəyal içində olan, dalğın. O çox mütəfəkkir, çox xəyalpərvər.

**Mütləqiyyət**, *is.* [ər.] Ali dövlət hakimiyyətinin bir nəfərin- padşahın əlində olduğu idarə üsulu, qeyri-məhdud monarxiya, mütləq hakimiyyət. Bu ümman bəlkə də qasırğalarla; Yıxacaq taxtını mütləqiyyətin.

**Müttəsil**, *z.* [ər.] Arası kəsilmədən, ara vermədən davam edən. ..Deyir mənə müttəsil.

**Müvəqqəti**, *sif.* [ər.] Həmişəlik deyil, müəyyən bir müddətdə olan davam edən (daimi əksi). // *z.* mənasında. Həyat müvəqqəti vergidir bizə…

**Müzəffər**, *sif.* [ər.] (*tənt.*). Üstün gələn (gəlmiş), zəfər qazanan (qazanmış), qələbə çalan (çalmış); qalib, qalibiyyət. Müzəffər ordular vüqarla keçir. Müzəffər çıxmaq (gəlmək) – üstün gəlmək, qələbə çalmaq, qalib gəlmək. Müzəffər çıxdınız odlar ağzından.

# N

**Naçar**, *sif.* və *z.* [*fars.*] Çarəsiz, əlacsız, naəlac. Ən sonra təbiətdəki hikmətlərə naçar; Min dürlü ziya parladı, min ah ilə söndü.

**Nağara**, *is.* Hər iki üzünə dəri çəkilmiş silindr şəklində zərbli musiqi aləti. Damdan-dama haray saldı nağaralar.

**Nağıl**, *is.* [ər. nəql] Adətən əfsanəvi, fantastik qüvvələrin iştirakı ilə cəryan edən uydurma hadisələr və şəxslər haqqında hekayə, rəvayət (şifahi xalq yaradıcılığının bir növü). Nə şerə sığındı, nə də nağıla.

**Nahaq**, *sif.* [*fars.* na və *ər.* həqq] Əbəs, yersiz, boş, bihudə. Nahaq qırılmasın bizim adamlar. □ Nahaq yerdən – boş yerdən, əbəs, heç bir ehtiyac olmadan. Nahaq yerdən tələ qurar insanların başına…

**Nahaqdan**, *z.* Heç bir əsas və dəlil olmadan, haqsız olaraq. Canımı odlara yaxdı nahaqdan…

**Nahar**, *is.* [ər. nəhar] 1. Günorta yeməyi.

2. Həmin xörək yeyilən vaxt; günorta. …qəhrəmanlarımızla… nahar vaxtı bir Berlinə gedirik.

**Naxır**, *is.* Bir yerdə otlayan mal-qara sürüsü. Naxır qayıdanda bir axşam çöldən; Üz-üzə gəlmisən o buğayla sən…

**Naxırçı**, *is.* Naxırotaran, naxıra baxan adam. Çobanın, naxırçın tütək çalanda; Gümrah olar yanın, yanağın sənin.

**Naxış**, *is.* [*ər.* nəqş-dən] Rənglərin, cizgilərin, kölgələrin kombinasiyasından ibarət şəkil, çəki, bəzək və s. …hər naxışı… yenidən çək. ☐ Naxış vurmaq (açmaq) – naxışlamaq, cürbəcür rənglər, boyalar və s. ilə şeylərin üzərinə naxış salmaq; həkk etmək. Bir tərəfdən qoca memar saraylara naxış vurur.

**Naxışlanmaq**, *məch.* Naxış vurulmaq, naxış salınmaq, naxışla bəzənmək; həkk olunmaq. Qayalara naxışlanmış köhnə yazılar…

**Naxış-naxış**, *sif.* Naxışları olan, naxışlarla bəzəkli, naxışlı. Ağlımın göyləri naxış-naxışdır.

**Naxoş**, *is.* [*fars.*] Xəstə, azarlı. Deyirlər ki, bərk naxoşdur.

**Nakam** [*fars.*] Kamsız, kamına yetişməmiş; arzusuna çatmamaq. Xəyala hökm edən o baxışlarda; Nakam bir sevginin ilk şöləsi var.

**Nakişi**, *sif.* Namərd, xain. Mənəm bu dünyada bəlalar çəkən; Nakişi, naşükür insan əlindən.

**Naqan** [xüs. isimdən] Hərlənən tonu (barabanı) olan tapança növü. Əlində bir qamçı, belində naqan.

**Nal**, *is.* [ər. nəl] Ayaqqabıların dabanına, bəzən pencəsinin qabaq hissəsinə vurulan nazik dəmir lövhəcik. Asta get nalıyın səsini alçalt.

**Nalə**, *is.* [*fars.*] Ah-zar, inilti, sızıltı, fəryad, fəğan. Bu ana fəryadı, qadın naləsi. // Obrazlı təşbehlərdə. Yazın naləsidir al yanaqların… ☐ Nalə çəkmək (etmək, qoparmaq, qılmaq) – fəryad etmək, inləmək, ağlamaq. Ah qoparıb, nalə çəkir, axşam; O, mənalı baxışları xəyalpərvər; nalə qılır könlü.

**Naltökən**, *sif.* Çınqıllıq, xırda daşlıq, xırda qayalıq. Naltökən dağları yel kimi keçər.

**Namaz**, *is.* [*fars.*] (*din*). Müsəlmanların gündə beş və yaxud da üç dəfə icra etməli olduqları ibadət. Yenə namaz üstə şeir deyirsən? □ Namaza durmaq – namaz qılmaq, bu ibadəti icra etmək. Dilində surələr, durdu namaza.

**Namə**, *is.* [*fars.*] Məktub, kağız. Ey könül! Min namə yaz bir gülzarın eşqinə!

**Naməhrəm** [*fars.* na.. və *ər.* mərhəm] İslam dininə görə, qadının yaşınmalı olduğu kişi, yaxud kişinin görməyə ixtiyarı olmadığı qadın (qız). Allaha bəd gedər… naməhrəmsiniz.

**Namərd**, *sif.* [*fars.*] Alçaq, müxənnət, nakişi, əclaf. Ax! Namərd… Deməli boş qaldı qabaq.

**Namərdlik**, *is.* Nakişilik, əclaflıq, xainlik, xəyanət, vəfasızlıq. Namərdlik eyləməz halal süd əmən.

**Namus**, *is.* [ər.] 1. İnsanın öz şəxsi və ictimai davranışını təyin edən mənəvi və əxlaqi prinsiplərin məcmusu; şərəf, qeyrət, heysiyyat. Var onlarda namus, hünər.

2. Namusla şəklində, *z.* Şərəflə, şərəf və heysiyyətini gözləyərkən. Şərəflə, namusla dözdü o dərdə.

**Namussuz**, *sif.* Namusdan məhrum, namusu olmayan, qeyrətsiz. Tüfəng yaraşmayır namussuzlara…

**Namütənahı**, *sif.* [*fars.* na… və *ər.* mütənahi] İntəhasız, nəhayətsiz, sonsuz, bitməyən, ucu-bucağı olmayan. Öpərkən gecələr dəsti-sabahi; Duyurdum hərəkət namütənahi.

**Nan**, *is.* [*fars.*] (*klas.*). Çörək. Qəlbdən yaralı, könüldən xəstə; Nanı zəhər, ruzu fəğan olmuşam.

**Nanə** [ər. nənə] Yeyilən çoxillik ətirli göyərti növü. Nanələr, reyhanlar inciyər məndən.

**Nankor**, *sif.* və *is.* [*fars.*] Yaxşılıq bilməyən, haq-say itirən, duz-çörək itirən. [Xeyli səs:] Nankor insanların vəzifəsini; Nankor, yaralanmış sənin övladın.

**Nar**[1], *is.* [*fars.* ənar] İçərisində şəffaf pərdə ilə örtülmüş çoxlu turş, meyxoş və ya şirin dənələri olan sərt qabıqlı girdə meyvə. Əyir budağını gülöyşə narlar.

**Nar²**, *is.* [ər.] (*klas.*). Od, atəş, şairanə təşbehlərdə. İsti yanaqların narı məndədir.

**Narın**, *sif.* Son dərəcə xırda, toz kimi. Narın yağışlar da hər səhər-axşam.

**Narıncı**, *z.* Narınc rəngli, qırmızıya çalar sarı. Portağal rəngində. Buludların hüsnündəki o şəfəqlər; Gah abıdır, gah narıncı, gah da sarı.

**Narın-narın**, *z.* Xırda-xırda, kiçik-kiçik. Yay günündə yağış yağsa narın-narın; Qol-budağın yerə düşür büzüşərək.

**Narzan** (Coğrafi addan). Kalium-karbonatlı mineral su. Hər daşın dibində qaynayır narzan.

**Nasıl** [türk.] Necə. Bax, evladın nasıl giryandır, ana!

**Naşı**, *sif.* [ər.] Nabələd, xam, təcrübəsiz, bir işdən yaxşı xəbərdar olmayan. Bu sənəti hiss eləməz hər bir naşı.

**Naşı-naşı**. Xam-xam. Sən qıyırsan naşı-naşı; Ömrün əziz bir vaxtına.

**Naşükür**, *sif.* [*fars.* na… və *ər.* şükür] Yaxşılığa qiymət verməyən, yaxşılıq bilməyən, qədirbilməz, nankor. Mənəm bu dünyada bəlalar çəkən; Nakişi naşükür insan əlindən.

**Natamam**, *sif.* [*fars.* na – və *ər.* təmam] Bitməmiş, qurtarmış, yarımçıq qalmış: Fəqət natamamdır o böyük kitab.

**Natiq**, *is.* 1. Nitq deyən, nitq söyləyən; çıxış edən. Danışdıqca o natiq mənim başım ucalır.

2. Yaxşı danışmaq qabiliyyətinə malik olan, gözəl danışmağı bacaran. Hər natiqin parlaq sözü bir sevincin dəryasıdır.

**Naz(ü)-qəmzə**, *is.* [*fars.* naz və *ər.* qəmzə] İşvə, süzgün baxış, cilvə. Hər nazü-qəmzə halına afərin.

**Naz**, *is.* [*fars.*] 1. Özünü bəyəndəirmək, istətmək məqsədi ilə edilən saxta, süni hərəkət; şivə, işvə, qəmzə. [Vəzir:] Naz sevər, nazlanar ömrü uzunu. □ Naz satmaq (eləmək, göstərmək) – nazlanmaq, əzilib-büzülmək, naz və işvə etmək. Aləmə naz satdılar.

2. Naz-nemət, firavanlıq, maddi-rifah. Daşıyar könlündə elin nazını.

**Nazbarı**, *is.* (*mus.*). Ağır-ağır oynanılan Azərbaycan oyun havalarından birinin adı. Bir nazbarı çal…

**Nazəndə** – *bax* nazənin. Şeyri Sənan adlanan nazəndə bir Leylası var. // Şairanə təşbehlərdə. Bu sualı verir mənə nazəndə bahar.

**Nazənin**, *sif.* [*fars.*] (*şair*). Nazlı, işvəkar, cilvəli, incə və gözəl. [Məryəm:] De, sənmi? Aha… ovlanan şikar; O dillər dastanı Nazənin nigar.

**Nazik**, *sif.* [*fars.*] *məc.* İncə təbiətli, ədəbli, nəzakətli. Bəzi şeir yazan «nazik adamlar»…

**Nazir**, *is.* [ər.] Nəzarət edən, baxan, idarə edən; inspektor. Nazir özü danışığa dəvət elədi.

**Nazlanmaq**, *f.* Naz eləmək, işvə etmək, naz satmaq. [Vəzir:] Naz sevər nazlana ömrü uzunu. // Obrazlı təşbehlərdə. Nazlandıqca sərin külək; Sahillərə sinə gərək.

**Nazlı**, *sif.* İşvəli, qəmzəli, şivəli. [Məryəm:] Mən kiməm? Vaxtilə nazlı bir sənəm. // Obrazlı təşbehlərdə. Qara torpaq üstündəki min nazlı nemət…

**Necə**, *z.* 1. Sual məqamında: nə təhər, nə cür. Əli bəy necədir?; Damağı çağdır?

2. *z.* Nə dərəcədə, nə qədər. Necə mehribandır qaynatam mana.

3. *əd.* Heyrət, təəccüb ifadə edir. Necə? Nə deyirsən?

**Neçə**. 1. Əşyanın miqdarını müəyyənləşdirmək üçün işlədilən sual əvəzliyi; nə qədər, nə miqdar. Neçə əldən keçir, neçə şaxtadan.

2. *əvəz.* Çox, çoxlu; bir neçə. [Fərhad:] Neçə orman yıxdım, neçə bağ yardım; Hər yoldan ötənə bəzən yalvardım.

3. *əvəz.* Zaman bildirən isimlərdən əvvəl gələrək onların qeyri-məhdudluğunu bildirir. Neçə min ildir ki, bu səhralarda…

**Neçə-neçə**, *z.* Bir çox, çoxlu, bir neçə. Həşiyələri neçə-neçə rəng çalaraq; Şölə verir bu torpağın öz ipəyi.

**Neçin, ne(y)çün**. «Nə üçün» sual əvəzliyini şeirdə və canlı dildə işlənən forması. Aç sirrini, de, göyərçin; Niskillisən, söylə, neçin? ..Neyçün inanmışdım sizə mən.

**Neft**, *is.* Yanacaq kimi işlədilir, habelə bir çox müxtəlif məhsullar (benzin, vazelin, parafin və s.) almaq üçün xammal kimi istifadə olunan, adətən tünd-qəhvəyi və ya qara rəngli yağlı mineral. …Neftin nəğmələri dillərə düşsün…

**Nehrə**, *is.* Yağ çıxartmaq üçün içində qatıq çalxanan saxsıdan və ya ağacdan qayrılmış uzunsov qab. Nehrə çalxadığın, qaymaq tutduğun..

**Nemət**, *is.* [ər.] 1. Yaşamaq üçün lazım olan şeylərin məcmusu (yeyəcək, içəcək və s.); rifah. Hər təmiz süfrədə neçə nemət var.

2. *məc.* Səadət, xoşbəxtlik, yaxşılıq. Deyirlər ki, şirin yuxu gözəl nemətdir.

**Ney**, *is.* [*fars.*] Qarğıdan, qamışdan qayrılan nəfəsli musiqi aləti. Bu qəmgin təranə.. bu kədərli ney… □ <u>Ney tutmaq</u> – neydə çalmaq. Elin məclisində ney tut, dilə gəl.

**Nə**[1]. 1. *sual əvəz.* Bu və ya digər əşyanın vəziyyəti, halı, hadisəni müəyyənləşdirmək üçün sual məqamında işlədilir. [Banu:] Hanı Şirin balam?.. Nə oldu qızım?

2. Cəm şəkilçisi ilə «hər şey», «hər nə istəsən» mənasında. Gör bir nələr çıxdı mənim dilimdən…

3. Çıxışlıq halında «niyə», «nə üçün», «nə səbəbə», «nəyə görə», «nədən» suallarını əvəz edir. De, nədən sevinir bu qara torpaq?

4. «var» sözü ilə «heç nə», «heç zad» mənası verir. De, qızım, de görək qəlbində nə var?

5. Xəbər şəkilçisi ilə «nədir?» formasında sual kimi işlənir. Yaxşı fikrin nədir bir danış ürək?

◊ <u>Nə bilim</u> – deyə bilmərəm, bilmirəm. Nə bilim çiçəksən, ağzı göyçəksən; Mələksən, pərisən, dünyada təksən. <u>Nə var, nə yox</u> – yeni xəbər sorğusu. Nə var, nə yox? Kefin necədir? Bir dur şəhərə çıx, gər nə var, nə yox… <u>Nə olursa-olsun</u> –

hər necə olsa, hər nə olsa da, mütləq. Söhbəti bir xəyal bilməz; Nə olursa-olsun, ancaq əyilmə.

**Nə**[2], *bağl.* Sadə cümlələrdə həmcins üzvləri, mürəkkəb cümlələrdə isə onun tərkibinə daxil olan cümlələri bir-birinə bağlayır (Əsasən təkrar edilərək işlədilir, nə, nə də, nə, də ki bağlayıcılarından biri artırılır). Nə yurd salır, nə ev tikir; O nə məndə, nə də səndə var.

**Nəbi**, *is.* [ər.] (*klas.*). Peyğəmbər. İmamalar, nəbilər, sultanlar, şahlar; Min il at oynatdı kürəyimizdə.

**Nəbz**, *is.* [ər.] 1. Ürəyin fəaliyyəti nəticəsində arteriya (qan damarları) divarlarının ritmik vurması (adətən biləyin yuxarı hissəsində duyulur). Ürəklər, nəbzlər sürətlə vurur // Biləkdə həmin titrəyişin hiss edildiyi yer. Loğman kimi nəbz tutub şərh elədi hər ürəyi…

2. *məc.* Bir şeyin (hadisənin, həyatın, vaxtın və s.) ritmi, tempi. Tutub ovcumuzda vaxtın nəbzini…

**Nəcib**, *sif.* [ər.] *məc.* Təmiz, pak, müqəddəs. Nəcib duyğu. Şairlərin nəcib ruhu məzarından qalxaraq… Nəcib ruhu göyə uçdu.

**Nəçi**, *əvəz.* Birinin sənətini, peşəsini, məşğuliyyətini bilmək üçün sual mənasında işlədilən söz. [Şiruyyə:] Söylə, sən nəçisən?

**Nədən**, *əvəz.* Nə üçün, nə səbəbə, nəyə görə, niyə? Söylə, şeirlərin can verir nədən?

**Nədənsə**, *z.* Nə səbəbə görə isə, nəyə görə isə. Onlara xoş gəldi, nədənsə, aşıq…

**Nəfər**, *is.* [ər.] Bir tək adam; kimsə, şəxs, fərd, kəs. Tez olun, döyüşdə sağ qalan nəfər… // Adam haqqında saylarda. Gəlsin vuruşmağa o iki nəfər.

**Nəfərlik**. Adətən saylara qoşularaq şeyin neçə nəfərə, neçə şəxsə məxsus ya aid olduğunu göstərir. [Fərhad:] Gedin hazırlaşın gün doğanadək; Əlli min nəfərlik ordu götürək.

**Nəfəs**, *is.* [ər.] 1. Ciyərlə havanı içəri alıb buraxma (İnsan və heyvanlarda oksigen udub karbon qazı buraxma prosesi) Ciyərlə alınıb buraxılan hava. Elin ciyərilə yalnız nəfəs al.

Torpağa bağlıdır rəssam nəfəsi. // *məc.* İz, qorxu, əlamət. Duyduqca çöllərin xoş nəfəsini. □ Nəfəsini dərmək – müvəqqəti rahatlanmaq, dincəlmək, azacıq istirahət etmək; yorğunluğunu almaq. Dərib nəfəsini, sonra dinc alan…

2. *məc.* «söz», «dil» mənasında. Orda zəhərlədi bir nəfəs məni.

◊ Nəfəs almaq – 1) dincəlmək, istirahət etmək. Gəlin nəfəs alaq, bir az dincələk. // Şairanə təşbehlərdə. Burda nəfəs alır böyük bir şəhər. 2) rahatlanmaq, əziyyətdən qurtarmaq, iztirab və gərginlikdən qurtarmaq. Qoy ağlar da, qaralar da; Səadətlə nəfəs alsın. Nəfəsi kəsilmək – *məc.* ölmək. Kəsiləcək… fəlakətin ilan nəfəsi. Bir nəfəs – bir an, bir dəqiqə, bir saniyə. Bir ağız da bir nəfəs də danışdırın sarı simi… Son nəfəsdə – can üstə, ölərkən. Son nəfəsdə səni andı.

**Nəfəs-nəfəs**, *z.* Çox yaxın, lap yaxın, üz-üzə. Deyək şərqimizi nəfəs-nəfəsə.

**Nəfəssiz**, *sif.* və *z.* Haldan düşmüş, cansız. Mən də lövhələri xəstə, nəfəssiz; Seyr edərək həmən yüyürdüm səssiz. // Şairanə təşbehlərdə. Dilsiz, danışıqsız, cansız, nəfəssiz; Daş məbədlər kimi uçurub yıxdıq; Nəfəssiz buddalar, bütlər, ehramlar.

**Nəfs**, *is.* [ər.] 1. Ehtiras, şiddətli istək, arzu, meyil. Qəlbinin, nəfsinin dustağı olan.

2. Tamah, tamahkarlıq. Sərxoşluq eşqinə uyur nəfsimiz.

**Nəğmə**, *is.* [ər.] Mahnı. [Səhər:] Ya bir bəstəkarın ürək nəğməsi.

**Nəğməkar**, *is.* [nəğmə və *fars.* kar] Nəğmə oxuyan; xanəndə. Yazıq nəğməkarın ürək nəğməsi; Dəydi şüşə kimi daş ürəklərə.

**Nəhayət**, *z.* [ər.] Axırda, sonda, nəticədə. Gəlib çıxdı nəhayət; Şuralar ölkəsinə.

**Nəhayətsiz**, *sif.* və *z.* Sonsuz, bitməz-tükənməz, sonu-axırı, həddi-hüdudu olmayan. Çalxandı nəhayətsiz olan boşluğa əfkar…

**Nəhəng**, *sif.* [*fars.*] Son dərəcə böyük, iri, çox yekə, azman. Buğlana-buğlana nəhəng maşınlar; Qar təpələrinə hücum çəkdi, bax. // *məc.* Canavarlar açır nəhəng ağzını.

**Nəhr**, *is.* [ər.] Böyük çay, axar su. Qarşısında nəhr, arxasında yol.

**Nəkarə**, *dan.* «Kimdir», «nəçidir», «nə cürətin sahibidir?», «Ağzı nədir?» mənalarında sual əvəzliyi məqamında işlənir. Yaqut nəkarədir gül dodaqların?

**Nəqş** [ər.] (*klas.*). Bax naxış. Ana torpaq! Ana torpaq! Sənin bu hüsnün; Şerimizin ürəyində nəqş olunmadı.

**Nəqşə** [*fars.*] Naxış, xalılar. Hər kiçik nəqşədə bir od rəngi var.

**Nəm**, *is. məc.* Yaş (göz yaşı) mənasında. Ağladı ardınca gözlərində nəm.

**Nəmər**, *is.* (*etnoqr.*). Xalq adətincə toyda, nişanda paylanan şirni, pul və s. Toyların nəməri mənimdir…

**Nəmli**, *sif.* Nəm, islaq. Girib nəmli daxmalara aldın ömrün sorağını…

**Nənə**, *is.* Atanın yaxud ananın anası; nəvəsi olan qadın. Sənə qurban olsun bu qoca nənən.

2. Bəzi yerlərdə anaya deyilir. Al, nənə! Özünə get bir inək al!

3. Yaşlı və hörmətli qadın, yaxud yaşlı qadına hörmətlə müraciət. [Qarı:] Qurban sənə qarı nənən; Xeyir xəbər gətirdim mən.

**Nər**, *sif.* [*fars.*] *məc.* Qorxmaz, igid, güclü, qüvvətli, cəsarətli. Qəlbi yox, duyğusu yox, şir kimi nər… □ <u>Nər kimi</u> – qorxmadan, cəsarətlə, igidcəsinə. [Azər baba:] İgidlər! Dərələr, dağlar olsa da; Üstündən atılın şirü nər kimi.

**Nərdivan**, *is.* [*fars.*] Bir yerə qalxmaq və enmək üçün ağacdan, dəmirdən, ipdən və s.-dən qayırılmış pilləli vəsait. // Şairanə obrazlarda. Siz ey insan sümüyündən nərdivanlar yapan…

**Nərə**, *is.* [ər.] Hücum, həmlə, vuruş və s. əsnasında ucadan bağırma; bağırtı. Almaniya lərzə düşsün ordumuzun

nərəsindən // Bərk qışqırıq, səs. Yada saldı həsrət ilə maralların nərəsini; Dağlar, daşlar titrəyəcək zavodların nərəsindən. ☐ Nərə salmaq – səs salmaq. Buruqların hayqıraraq nərə salır boz çöllərə. Nərə çəkmək – bərk bağırmaq. Pələng nərə çəkər hücumdan qabaq.

**Nəs**, *sif.* «Nəhs» ərəb sözünün təhrif edilmiş forması. «Uğursuz, məşum» ağır mənalarında. Düşdün uğursuz dillərə; Nəs aylara, nəs illərə…

**Nəsə** (*dan.*). «Nə isə» sözünün ixtisar forması. Hər nəsə uydurmaq istədi bizə; Bir şey çıxmadı.

**Nəsib**, *is.* [ər.] Qismət, hissə, pay, bəxtə çıxan şey. Mənim də dünyada nəsibim bumu? ☐ Nəsib olmaq – qiçmət olmaq, bəxtinə çıxmaq, payına düşmək, çatmaq; müyəssər olmaq. Nəsibim oldusa bu ahu-vaylar…

**Nəsihət**, *is.* [ər.] Öyüd, yol göstərici sözlər. Kim qulaq asacaq bu nəsihətə?

**Nəsil**, *is.* [ər.] 1. Əcdadı bir olan qohumlar silsiləsi; soy. [Qacar:] Mən Qacar nəsliyəm, şahlar şahıyam; Mən də yer üzünün bir Allahıyam.

2. Fəaliyyət göstərən adamlar. Qoy rəhmət oxusun bizə nəsillər.

**Nəsildən-nəslə**, *z.* Bir nəsildən digərinə. Nəsildən-nəslə qalır yadigar.

**Nəsil-nəsil**, *sif.* Nəsillər boyunca, ata-babadan tutmuş, nəsilbənəsil. Nəsil-nəsil ürəklərdə yuva salır qəhrəman.

**Nəsim**, *is.* [ər.] Xəfif, yüngül yel; meh. Sərin bahar nəsimi tək udur vətən havasını.

**Nəş**, *is.* [ər.] (*klas.*). Meyit, cənazə, ölü. Qismət olsun nəşim axan sellərə.

**Nəşə**, *is.* [ər.] Kef, sevinc, ləzzət, zövq. Ellərin nəşəsi, ellərin qəmi / Sinəmin üstündən aşdı sel kimi.

**Nəşələnmək**, *f.* 1. Şadlanmaq, fərəhlənmək, sevinmək, ürəyi açılmaq. Sevindin, nəşələndin…

2.Keflənmək, yüngülcə məst olmaq. [Xosrov:] İçək, nəşələnək, mehriban dostlar.

**Nəşəli**, *sif.* Şən, şad, fərəhli. Bu gün nəşəlidir söylədiyim qız; Bir qızartı çöküb yanaqlarına.

**Nəşəsiz**, *sif.* və *z.* Bikef, pərt, məyus, kefi pozulmuş. Bu nəşəsiz günlərin, söylə, nə mənası var?

**Nəşidə**, *is.* [ər.] (*şair*). Şeir,mahnı, təranə. Atlı çox dinlədi qoşun səsini; Bir aydın səhərin nəşidəsini…

**Nəva**, *is.* [*fars.*] Avaz, ahəng, musiqi səsi. Demə (ki), susdu rübabının telləri; Hər pərdədə bir nəvası var onun.

**Nəvə**, *is.* Oğul və ya qızın uşağı. İndi nəvələrin çörək dilənir…

**Nəzər**, *is.* 1. Baxma, baxış, baxma tərzi, gözlərin ifadəsi. Yorğun nəzərləri azca nəmlidir. // Göz, baxış… «Sən qarasan» sözlərini oxuyuram nəzərlərdə.

2. *məc.* Nəzərində, nəzərlərində şəklində. …gözündə, gözlərində, təsəvvüründə. …səninsə nəzərlərində; Açıldı… yeni bir aləm.

◊ Nəzər yetirmək (salmaq, qılmaq) – diqqət etmək. Nəzər yetir yurdumuza, min busat var, cəlal var… Uzaq Şərq elinə qılsanız nəzər. Nəzərdən salmaq – unutmaq, yaddan çıxarmaq. [Vəzir:] .. Lap məni salmışdır gözdən, nəzərdən..

**Nida**, *is.* [ər.] (*qram.*). Hiss, həyəcan, arzu, istək və s. ifadə edən, dəyişilməyən nitq hissəsi. Hər nida nöqtəsi polad bir oxdur.

**Nifrət**, *is.* [ər.] 1. Bir adama, işə, hərəkətə və s.-yə qarşı dərin ikrah, kin, narazılıq hissi. Nifrəti var əski ulduz, hilala. □ Nifrət etmək – zəhləsi getmək, iyrənmək, acığı gəlmək, görmək istəməmək, kin bəsləmək. [Şapur:] Şirin nifrət edir hər bir şöhrətə.

2. Sonsuz qəzəb, acıq, kin, lənət bildirən nida məqamında işlənir. Nifrət. Qan çanağı taclara nifrət; Var olsun azadlıq, bir də məhəbbət.

3. Nifrətlə şəklində *z.* – nifrət hissi ilə, öz nifrətini bildirməklə, hiddətlə, son dərəcə narazılıqla. Uzaq-uzaq keçmişləri xatırladım nifrətlə.

**Nigar**, *is.* [*fars.*] Əsl mənası «rəsm», «şəkil», «surət» olub, şeirdə məcazi mənada «gözəl», «məhbub» mənasında işlənir. Bir dayan! Hələ sözüm var; Gəl mənə bir danış, ey nazlı nigar.

**Nigaran**, *sif.* və *z.* [*fars.*] Təşviş içində, rahatsız, həyəcanlı, iztirablı, narahat. □ Nigaran qalmaq – bir adamın və ya bir işin tərəfindən narahat olmaq, təşvişdə qalmaq. Siz nigaran qalmayın heç ananızdan, bacınızdan.

**Nimçə**, *is.* Boşqab. İki sancaq salıb bir nimçə suya.

**Nisəyə**, *is.* Bir şeyin nağd pul olmadan alınması və ya sayılması // Ömür keçirmədin nisyə dalınca…

**Nisgil**, *is.* Bir şeydən dolayı daim ürəkdə qalan məmnuniyyətsizlik hissi, ürəkdə çəkilən qüssə, dərd. Üzlərdə nə nisgil, nə sarılıq var…

**Nisgilli**, *sif.* Ürəyində nisgil olan, daim qüssə çəkən, dərd çəkən, dərdli görünən; məhzun, kədərli. Aç sirrini de, göyərçin; Nisgillisən, söylə, neçin?

**Nişan**, *is.* [*fars.*] 1. Əsər, əlamət, iz. Düşmən ordugahdan nişan qalmasın. □ Nişan vermək – göstərmək, tanıtmaq, bildirmək. Nişan vermə ona ayı, ulduzu; Artıq unutmuş o xəyalı Göygöl.

2. Bir şeyi digərindən ayıran əlamət, tanınmaq üçün qoyulan işarə; nişanə. Lakin mənim canımdan nişan varmı sənətində.

3. Güllə, ox və s. ilə vurulmalı olan hədəf, nöqtə; nişanə. Durur divarlarda güllə nişanı. □ Nişan almaq – silahı hədəfə tuşlamaq, yönəltmək. ..O qəhrəmanın; Polis nişan aldı tunc sinəsindən.

**Nişançı**, *is.* Mahir nişan atan, düzgün nişan vuran; snayper. Qabaqda üç nəfər nişançı vardı.

**Nişanə**, *is.* [*fars.*] Əsər, əlamət, iz; nişan. Açan çiçəklər artıq yaz gününə bir nişanədir; [Loğman] O da insanlardan bir nişanədir.

**Nişanlı**, *sif.* 1. Adaxlı, nişanlanmış, ad edilmiş, deyikli. // *is.* mənasında. Sən şərəflə ölsən əgər; Nişanlın ağlamayacaq.

2. Nişanı olan, nişan taxılmış. Döşü nişanlı qəhrəman.

**Nitq,** *is.* [ər.] İclasda, yığıncaqda, mitinqdə və s.-də camaata, dinləyicilərə xitabən irad olunan söz. Yadındadır o məclislər, o badələr, o nitqlər…

**Niyaz**, *is.* [*fars.*] (*klas.*). Allah yolunda verilən şey, nəzir, sədəqə. [Səhər:] Keçdi o günlər ki, min bir niyazla.

**Niyə**, «nə üçün?», «nə səbəbə?», «nəyə görə?» mənalarında işlənən sual əvəzliyi. [Şahbaz:] De, niyə dalğınsan, dilbər səhərim?

**Niyyət**, *is.* [ər.] 1. Məqsəd, məram, qəsd. Hər məktub yazılır bir niyyət üçün.

2. «Niyyətlə» şəklində zərf – …məqsədlə, arzusu ilə. Aygün bu niyyətlə ərinə baxdı…

**Nizam**, *is.* [ər.] 1. Qayda, tərtib, üsul. Ordu gəlib, nizam qurub, düzülüb səf-səf.

2. «Nizamla» şəklində zərf – müəyyən qaydada, müəyyən üsulla, tərtibatla, düzgün sıra ilə, sistemlə. Yenə öz ordunu nizama düzüb; Baş alıb gedirsiz hayana, ceyran?

**Nizamlı**, *sif.* Nizami, ardıcıl hərbi hazırlıq keçmiş. Dayanmış nizamlı ordular kimi.

**Nizə**, *is.* [*fars.*] (*köhn.*). Uzun ağaca keçirilmiş ucu şiş, deşici qədim silah; cida, mizraq. Bu nizələr, bu süngülər muzeylərdə pas tutacaq.

**Novbahar**, *is.* [*fars.*] (*klas.*). Yazın əvvəli. Hər çəmən min qönçə açmış novbaharın eşqinə.

**Novbar**, *sif.* [*fars.*] İlk yetişən meyvə; birinci təzə meyvə, bitki. Yazın novbarısan bizim diyarda.

**Nökər**, *is.* Ağasına (sahibinə) xidmət edən və onun şəxsi tapşırıqlarını yerinə yetirən ev xidmətçisi (oğlan). Bir az seçilirəm nökərlərimdən…

**Nöqsan**, *is.* [ər.] Qüsur, qəbahət, eyib, naqislik. Gördüyün, seçdiyin nöqsanları sən.

**Nöqtə**, *is.* 1. (*qram.*). Cümləni ayıran, həmçinin sözləri ixtisar şəkildə yazdıqda (və i.a. və s.) qoyulan durğu işarəsi // Şairanə obrazlarda: hər nida, nöqtəsi polad bir oxdur.

2. *məc.* mənada tərkiblərdə. Gizli nöqtələrə əl aparma sən.

3. Hədd-dərəcə; məqsəd. Çatdın bəllədiyin nöqtəyə, Kamal.

**Nömrə**, *is.* [*lat.* numerus – ədəd] Sıra nömrəsi ilə göstərilən hər hansı bir şey. Baxır jurnalların bir nömrəsinə.

**Növbə**, *is.* [ər.] Hər hansı bir işin icrasında ardıcıllıq, sıra qaydası. Həyatın da, ölümün də öz növbəsi var.

**Növbə-növbə**. Növbə ilə. İndi yazım gördüyümü növbə-növbə.

**Növ-növ**, *sif.* Cürbəcür, növbənöv. Kitab da növ-növdür insanlar kimi; Bədsifət, acıdil olur bir çoxu.

**Növraq**, *is.* [*ər.* rövnəq söz. təhrif forması] Bəzək, yaraşıq, lətif, gözəllik, parlaqlıq. Ömrümün növrağı yadıma düşdü. İnsan əli pozmayacaq növrağını təbiətin…

**Növraqlı**, *sif.* Bəzəkli, yaraşıqlı, gözəl. Gəlin bu növraqlı evlərə girək.

**Növrəstə**, *sif.* [*fars.*] Həddi-büluğa çatmış, canan, gənc. Növrəstə qızların al yanaqları; O gül dodaqları solmasın dedik.

**Nur**, *is.* [ər.] Aydınlıq, işıq, şəfəq. Günəş qalxıb nur dağıdır ana Vətən göylərinə. □ Nur saçmaq (tökülmək,yağmaq, səpmək, ələmək, yağmaq) – işıq vermək, işıqlatmaq, parlatmaq, işıq saçmaq. Qoy göyün ulduzu göyə nur saçsın; Sanki nur tökülür baxışlarından; Hər böyük mənadan qəlbə nur yağır; Bircə günəş nur səpəcək; Günəş göydən nur ələyir. Hər danışıb-güləndə sən; Nur yağarmış gülüşündən. Nura boyanmaq – hər tərəf aydınlıq, işıq içərisində olmaq, şəfəq vermək, parlamaq. Gözlərində bütün cahan nura boyanır.

**Nurani**, *sif.* [ər.] Nurlu, işıq, aydın. Nurani saçları … ağ.

**Nurlu**, *sif.* İşıqlı, aydın, parlaq // Obrazlı təşbehlərdə. Axdıqca qəlbinə nurlu sətirlər.

**Nuşcan** [*fars.*] Çox vaxt «olsun» feili ilə canına nuş olsun. Canına sinsin… Nuşcan olsun…

**Nüfuzlu**, *sif.* Nüfuzu, hörməti, etibarı olan; sözükeçən. Polad kimi cingildəyən nüfuzlu səs…

**Nümayəndə**, *is.* [*fars.*] Hər hansı bir kollektiv, təşkilat və s. tərəfindən seçilib bir yerə (konfransa, qurultaya və s.) göndərilən və ya təyin edilən adam, vəkil edilmiş şəxs; müvəkkil. Gedir nümayəndə qurultaylara. // Bir dövlətin və ya təşkilatın mənafeyini təmsil edən, rəsmi şəxs. Orağını çəkiclə öpüşdürən bir ölkənin nümayəndəsiyəm.

**Nümayiş**, *is.* [*fars.*] Siyasi-ictimai əhvali-ruhiyyəni ifadə etmək üçün düzəldilən yürüş. Şəhərdə tətilmi, nümayişmi var?

**Nüsrətlə**, qələbə ilə, zəfərlə. Aşiqin vüsalı bitmir nüsrətlə.

# O

**O**[1], Azərbaycan əlifbasının 19-cu hərfi // «O» hərfi ilə işarə olunan saitin adı.

**O**[2], Üçüncü şəxs əvəzliyinin tək şəkli haqqında danışılan və ya göstərilən şəxsi bildirir. Deyirlər arifdir o İbrahim xan.

**O**[3], 1. *iş. əvəz.* Zaman və ya məkan daxilində bilavasitə göz qabağında olmayan yaxud uzaq olan şeyi göstərir, həm də ismə konkretlik verir (bu müqabili). Gəl, ana! O evdə rahatlan bir az!

2. Qoşa olan iki şeyin ikincisini göstərir (bu biri müqabili). Gəlsin vuruşmağa o iki nəfər.

3. *is. mənasında.* Haqqında danışılan, göz qabağında olmayan və ya uzaqda olan hadisə,şey. Qurtarıbdır indi o da.

◊ O biri – ertəsi, sabahı. Bu gün də, sabah da, o biri gün də.

**Oba**, *is.* 1. Bir neçə evdən ibarət kiçik ibtidai yaşayış məntəqəsi, kiçik kənd, balaca kənd. Xaraba qoymayın bu obaları.

2. Köçərilərin, heyvandarların və b. müvəqqəti sakin olduqları bir neçə alaçıq və ya çadırdan ibarət yer, köç yeri;

köçəbə, düşərgə. Dolaşdım piyada bütün obanı; Səni də görmədim vəfalı madyan.

**Oba-oba**, kənd-kənd. Çox gəzmişəm bu dünyanı oba-oba, oymaq-oymaq.

**Obaşdan**, *z.* Alaqaranlıq, səhər tezdən, hava işıqlanmamış, gün çıxmamış. Hər səhər obaşdan don açılmamış…

**Ocaq**, *is.* 1. Od yandırmaq üçün yer. Bağlansın qapılar, sönsün ocaqlar.

2. *din.* Pir. Nə məbədsən, nə ocaqsan, səcdə qılam tüstünə.

3. *məc.* Doğma ev, ev-eşik, yurd. Ayrılıb gəlmişdir öz ocağından. Hər ocaqda ney tutulub, toy başlanacaq.

4. *məc.* Bir şeyin olduğu, törədiyi, yayıldığı yer; mərkəz; mənbə. Şairin sənəti ilham ocağı.

◊ <u>Ocağı sönmək</u> – evi xaraba qalmaq, dağılmaq. [Banu:] Qoy Kayan taxtının ocağı sönsün.

**Ocaqsız**, *sif.* Odsuz, ocağı olmama, sobası olmama. Soyuq bir axşamdır odsuz, ocaqsız…

**Od**, *is.* 1. Yanan bir şeydən çıxan işıqlı qazlar; atəş. Çıxır asimana odlar, alovlar; Koreya and içdi odlar içində.

2. Çox isti, çox bərk isti. Yenə də göylərdən od, alov yağır.

3. *məc.* Qızartı, qırmızı; hərarət. Yenə od içində yanır bədənim.

◊ <u>Od vurmaq</u> – divan tutmaq, cəzalandırmaq. [Məryəm:] Bir bunu görməzsən… Hələ mən sağam. Bu kəyan taxtına od vuracağam. <u>Od kimi</u> – 1) çox isti, qaynar, qızmar. Gözümdən od kimi yaşlar tökmədim… 2) çox cəld, sürətlə. Üstunə od kimi düşdülər işin… <u>Od tutub yanmaq</u> – qızdırması qalxmaq, hərarəti yüksəlmək, bərk qızdırmaq. Elə bir od tutub yanır bədənim. – Bədənim içimdə od tutub yanır. <u>Odlar ölkəsi (yurdu)</u> – obrazlı ifadə kimi «Azərbycan» mənasında işlədilir. [Azər baba:] Dünyanın başında tufan qopsa da; Odlar ölkəsinin ocağı sönməz… Odlar yurdu, əhdimiz var əzəldən…

**Oda**, *is.* Otaq. Odalar ağladı inildəyərək.

**Od-alov**, *top.* Alovla yanan od // *Şair.* Yanğınlar içində od-alov içdik.

**Odekolon** [*fr.* (Köln şəhərinin suyu)]. Kosmetik maddə kimi işlədilən ətirli, spirtli məhlul. O qədər vurmuş ki, odekolonu…

**Odlandırılmaq**, *məch.* Yandırılmaq. [Valentin:] Sizin gördüyünüz bu gözəl şəhər; «Qardaşlıq şəhəri» odlandırılmış.

**Odlu**, *sif. məc.* 1. Ehtiraslı, coşğun, yanar. Keçdi qaranlıqda odlu gəncliyin… // Atəşin, ehtiraslı, qızğın, hərarətli, coşğun. Nədən söyləməsin ana dililə; Öz odlu nitqini yoldaş komissar?

2. *məc.* Parlaq. Hər isti yanında bir odlu ülkər.

3. *məc.* Təsiredici, təsirli, yanıqlı, yandırıcı, yaxıcı. O qədər keçmədi qarşıkı dağdan; Ucaldı bir qəlbin odlu naləsi.

**Od-ocaq**, *top.* Ocaq, tonqal, soba və s. Kür qırağı. Qarayazı, göy çəmən; Qoşa palıd, tüstülənən od-ocaq.

**Odsuz**, *sif.* Odu olmayan, alovsuz. Soyuq bir axşamdır odsuz, alovsuz…

**Odun**, *is.* Yandırmaq üçün kəsilmiş və doğranmış ağac parçası; ağac yanacağı. [Qasım kişi] …gedib odun satmağa.

**Odunçu**, *is.* Meşədə odun doğrayıb satmaqla məşğul olan adam. Ağaclı çobanlar, odunçular da; Bu qoşa məzara salama gəlir.

**Of**, *nida.* Uf, kədər, təəssüf, məyusluq, ağrı, yorğunluq, əzginlik. Of!.. Bu səs! Nə qədər ömrümə yaddır.

**Oğlan**, *is.* 1. Erkək uşaq. Ya oğlan yarandıq, ya da ki bir qız…

2. Həddi-büluğa çatmış, lakin hələ evlənməmiş gənc. Yenə Vaqif kimi, əlbəttə, yüz oğlana dəyər…

◊ <u>Oğlan vaxtı (çağı, çağında)</u> – bir şeyin ən qızğın, ən gərgin dövrü(ndə). Hər ev qabağında kiçik bir bağ da; Yazın oğlan vaxtı; Gül açdı rəng-rəng. – Yaz günü səhərin oğlan çağında…

**Oğru**, *is.* 1. Oğurluq edən adam, oğurluqla məşğul olan adam. Oğrular, əyrilər, o şarlatanlar; Toplanıb başına «Sağ ol», – deyirlər.

2. *sif.* və *z.* Gizlicə, başqalarına bildirmədən; oğrun. Bu bir gözəllikdir qızlara yalnız; Oğru baxışlardan sığınmaq gərək // *məc.* Olmaq istəyirəm vicdan oğrusu. □ Oğru kimi – gizlicə, xəlvəti. [Vəzir:] Qaçdın oğru kimi öz dediyindən.

**Oğrunca**. Oğrun, gizlicə. Bir atlı oğrunca keçdiyi zaman.

**Oğrun-oğrun**, *z.* və *sif.* Gizlicə, xəlvətcə başqalarına bildirmədən. El malını oğrun-oğrun qucaqlayıb satanlar…

**Oğul**, *is.* 1. Kişi cinsindən olan uşaq, erkək övlad. Gülləyə tutuldu min oğul, min qız; [Azər baba:] Oğul arxadırsa, qız yaraşıqdır.

2. Yaşlı adamın gənc oğlana nəvazişlə müraciəti. Heç, oğlum, Eldar.

**Oğulsuz**, *sif.* Oğlan övladı olmayan, oğlu olmayan yaxud oğlu ölmüş. Oğulsuz analar yasa batmışdır.

**Oğurlamaq**, *f.* Başqasına məxsus şeyi, malı, pulu və s.-ni gizlincə götürüb mənimsəmək, aparmaq. // *Obrazlı təşbehlərdə.* Sevsin dərgahından ad oğurladı.

**Oğurluq**, *is.* Oğurlanmış. Oğurluq pul ilə zər-ziba geyən…

**Ox**, *is.* Yayla atılan itiuclu və ya ucuna iti dəmir keçirilmiş mil *(qədim silah növü)*. Qurşaq tutub, at oynadıb, ox süzdürmüş qəhrəmanlar. // *Obrazlı təşbehlərdə.* [Xosrov:] Daşdan-daşa dəydi bəxtim oxu.

◊ Ox kimi – düz, düzünə. Yay kimi dartınıb, ox kimi süzüb. Oxu daşa dəymək – uğursuzluğa düçar olmaq, işi nəhs gətirmək. Uzandıqca söhbətimiz; Şerin oxu daşa dəyər.

**Oxalanmaq**, *f.* Ovxalanmaq, ovundurulmaq. Xəstə yarpaq kimi oxalan, tökül.

**Oxqay**, *nida.* Məmnunluq, sevinc, bir şeydən xoşallanmanı bildirir. Ürəyində nələr varsa qoy büsbütün; Boşalsın ki… Oxqay… deyim axırda mən.

**Oxlamaq**, *f.* Oxla vurmaq. // *Obrazlı təşbehlərdə.* Sinəmdən oxladı bir maral məni.

**Oxşamaq**[1]. Bənzəmək. Atasına oxşamışdır, – deyərdi ana.

**Oxşamaq**[2]. 1. Nəvaziş etmək, öz sevgisini, riqqətini ifadə etmək; nazlamaq. Məni öpər, oxşayardı. // Nəvaziş, sevgi, riqqət əlaməti olaraq əli ilə sığallanmaq, əlini sürtmək. Onun saçlarını oxşayıb hərdən…

**Oxşatmaq**, *f.* Bənzətmək. [Şahpur:] Kimə oxşatdınız səsimi birdən.

**Oxucu**, *is.* Kitab və s. oxuyan, mütaliəçi. Oxucum sormasın, bu sözlər nədir.

**Oxumaq**, *f.* 1. Yazılmış bir şeyi gözdən keçirib səslə və ya səssiz qiraət etmək, mütaliə etmək. Əlində məktubu oxuyur bir də. – Oxu, gör nə yazır; Qarabağ xanı.

2. Mahnı və s. ifa etmək, bir şeyi hava ilə ifa etmək. Qızlar şərqi kimi oxuyur hər gün. – Tez olun, yaxşı bir segah oxuyun.

3. Cəh-cəh vurmaq, civildəmək, nəğmə oxumaq, ötmək (quşlar haqqında). Bir qaya zirvəsi oxudu şahbaz.

4. *məc.* Hiss etmək, sezmək, duymaq. O bəxtəvər gözəlin; Mən oxudum gözlərindən; Şair, nə tez qocaldın sən?

**Oxunmaq**, *məch.* 1. Gözdən keçirilərək səslə ya səssiz qiraət edilmək. …Oxunduqca varaq-varaq.

2. *məc.* Hiss edilmək, seçilmək, duyulmaq. Bir yorğunluq oxunsa da nəzərlərdən; Görmək olmur od kimidir orda əllər.

**Oxutmaq**, *icb.* Oxumağa sövq etmək, oxumağı xahiş etmək (başqasından). Hər gün oxudardı öz əsərini.

**Oktyabr** 1917-ci il Böyük Oktyabr sosialist inqilabı. Çırpın, Oktyabr! Qanadlan, ucal!

**Olduqca**, *z.* Çox, xeyli, lap çox, həddən artıq. Həyatım olduqca borcluyam sana.

**Olmaq**, *f.* 1. Müstəqil feil kimi bir çox mənalarda işlənir: a) iştirak etmək. Nə hicran olacaq, nə bir intişar; b) gəlib çatmaq, yetişmək. Yaz ola, dovğa ola yarpızla; c) birləşmək. Gəlin qardaş olsun tüfənglərimiz.

2. Köməkçi feil kimi işlənir. Dəryalarda yanan bir mayak oldu.

◊ Olan oldu, keçən keçdi – keçmiş ola, artıq gecdir, keçənə güzəşt deyərlər. Yaxşı, olan oldu, keçən də keçdi; İndi fikrin nədir, de görək nədi?

**Olmaz**. İmkan yoxdur, mümkün deyil. Yaxşı, di durmayın, dayanmaq olmaz.

**Olub-keçən**, *is.* Olmuş əhvalat, keçmiş məsələ, vaqiə, iş, hadisə. Olub-keçən hər şeyi öz sazında çalırsan.

**On**, *say.* 1. Doqquzdan sonra gələn ədəd – 10. Sonra da on para kəndin var, inan.

2. On birdən on doqquza qədər mürəkkəb sayların birinci tərkib hissəsi. On beş dəqiqəyə tamamlanır, bax…

**Onlar**, üçüncü şəxs əvəzliyinin cəm şəkli, haqqında danışılan və ya göstərilən şəxsləri bildirir. [Banı:] Onlar apardı qızı; Apardı baxtımızı.

**Onluq**, *sif.* Onmanatlıq, on manat dəyərində olan. Onluq marıtlayan qara tuzları.

**Onuncu**. «On»dan sonra say. …Merlər; Onuncu əsrdə yaşayır hələ.

**Orada**, *z.* (*bəzən əvəz. mənasında işlənir*). O yerdə. [Şapur:] Lakin oradadır hər dərdə çarə.

**Orada-burada**, *z.* Müxtəlif yerlərdə: həm orada, həm də burada. …Qalmış orda-burda yenə vicdan oğruları.

**Oradan**, *z.* (bəzən əvəz. mənasında işlənir). O yerdən. Dünyanın sirrini görürəm ordan…

**Oraq**. Taxıl, ot və s. biçmək üçün qısadəstəli, yarımdairəvi kəsici kənd təsərrüfatı aləti. Bükülmüş belində paslı orağı…

**Oraqlı-çəkicli**, *sif.* Həm oraqla, həm də çəkiclə, oraq və çəkiclə. Oraqlı-çəkicli milyon əllərə.

**Ord**, *is.* Ağız boşluğunun yanaqlar tərəfindən olan hissələrindən biri. ◊ Ordu (ordları) batmaq – acmaq, xəstəlik və s. nəticəsində çox arıqlamaq, zəifləşmək. Batıb uşaqların acından ordu; Bir tərəf üsyandır, bir tərəf ordu.

**Orden** [*lat.*] Hərbi və ya mülki xidmətlərə görə dövlət tərəfindən verilən müxtəlif dərəcəli və adlı fərqlənmə nişanı. Sinəsinə orden taxır…

**Ordu**, *is.* 1. Dövlətin silahlı qüvvələri (quru qoşunları, hərbi dəniz və hərbi hava qüvvələri). [Valentin:] Alman ordusuyla gəldik üz-üzə.

2. *məc.* Ümumiyyətlə çoxlu, saysız-hesabsız adamlar toplusu haqqında. Komandan altında insan ordusu.

**Ordugah**, *is.* Qoşunların məskun məntəqələrdən kənarda müvəqqəti mənzil saldıqları yer. Düşmən ordugaha yol göstərirəm…

**Orkestr** [fr. əsli *yun.*] Musiqi əsərinin müxtəlif alətlərdə hər yerdə ifa edən çalğıçılar dəstəsi, habelə bu müxtəlif musiqi alətlərinin hamısı bir yerdə. Dil açmışdır orkestrin ahəngdar səsi.

**Orman**, *is.* Meşə. [Fərhad:] Neçə orman yıxdım, neçə dağ yardım.

**Orta**, *is.* İki şey arasında olan boş yer, boşluq, ara; Ülkər seyr edib öz anasını; Ortadan quş kimi qol-qanad açır.

**Ortaq**, *is.* Birlikdə görülən işin, əsasən, alverin iştirakçılarından hər biri; şərik. …Məslək dostlarımın..; hər qəminə, nəşəsinə ortaq olaydım.

**Ortalıq**, *is.* İçi, ortası, daxili. Burjua qanlı bir dəniz sən ortalıqda.

**Ot**, *is.* Ağaclara, kollara mənsub olmayan yaşıl gövdəli inci bitki. Gül açdı, ot bitdi qaya döşündə.

**Otaq**, *is.* Mənzilin, evin divar və ya arakəsmələrlə bir-birindən ayrılmış qisimlərindən hər biri. Qış ola, isti otaq, bir qızla… – Ayaq üstə fikirləşir, gəzir otaqda. // *Obrazlı təşbehlərdə.* Öz qəlbinin otağında sən də qartal eşqi bəslə. Könlünün otağı buludlardır.

**Otaqlı**, *sif.* Otağı olan, yatmaq üçün mənzili olan. Bir xəstəyəm qəm otaqlı.

**Otlamaq**, *f.* Ot yemək. Ot otlayır orda insan…

**Oturmaq**, *f.* 1. Yanını bir yerə ya oturacağa qoyub oturmaq vəziyyəti almaq, əyləşmək. Bir saat da bu dağçada biz oturaq.

2. Hərəkətsiz qalmaq. Qoymadın dinc otura.

3. Qonmaq. ...O ağacda; Bir göyərçin oturmuşdur.

**Oturub-durmaq**, *f.* Əlaqə saxlamaq. Ellər məclisində oturub-durdun.

**Otuz**, *say.* İyirmi doqquzdan sonra gələn say – 30. Otuz dəfə məhəbbətə düçar olmuş azından. – [Vəzir:] Otuz il durmuşam əmrə müntəzir.

**Otuzillik**, *sif.* Otuz illiyə həsr olunmuş, otuz ilin tamam olması ilə əlaqədar olan. Otuzillik gəncliyimin dəftərində yoxdur qara.

**Ov**, *is.* Vəhşi heyvan, quş vurma və ya tutma, həmçinin balıq tutma işi. İndi ova gedib, bu saat gələr.

**Ova**, *is.* (*dan.*). Düzənlik, düzəngah, düzən yer; ovalıq. Çöldə traktorun səsi canlanır; Ovalar şənlənir, həyəcanlanır.

**Ovçu**, *is.* Ovla, ovçuluqla məşğul olan adam. Ovçu, insaf eylə, keçmə bu düzdən; O çöllər qızını ayırma bizdən. // *məc. Obrazlı təşbehlərdə.* Ürək də ovçudur, ovlağı aləm; Hər zaman dolaşır, axtarır o da.

**Ovçuluq**, *is.* Ovçunun işi, peşəsi, məşğuliyyəti. Ovçuluğa meyil saldım.

**Ovlaq**, *is.* 1. Ov heyvanları və quşları çox olan yer, ov yeri. [Topal:] Göstərdim yaylağını; Sonra da ovlağını... // *Obrazlı təşbehlərdə.* Ürək də ovçudur, ovlağı aləm; Hər zaman dolaşır, axtarır o da.

2. Heyvan və s.-nin daim olduğu, yaşadığı yer. Aslanların, pələnglərin ovlağıdır mənim yurdum.

**Ovlamaq**, *f.* 1. Ov vurmaq, şikar etmək. [Vəzir:] De, necədir kəklik ovlamaq?

2. *məc.* Çalmaq, ələ keçirmək, ələ gətirmək. Bu tərlan könlümü ovlaya bilməz.

**Ovuc**, *is.* 1. Əlin barmaqlar və ayadan ibarət hissəsi, əlin içi. Ovucunda saxlamaq. // *məc.* Əl *mənasında*. Ovcumda tutmuşam onun əlini.

2. Ovuc tutan qədər, ovuca yerləşən miqdar (adətən saylarda). Götür məzarından bir ovuc torpaq…

**Ovuc-ovuc**, *sif.* və *z.* Ovuclayaraq, ovuclarla, ovuc dolusu. Mən doymaram ovuc-ovuc içsəm belə qandan.

**Ovutmaq**, *f.* Sakitləşdirmək, təskin etmək, təskin vermək, ovundurmaq. Ovut sinəmdəki bu ağrıları.

**Oyaq**, *sif. məc.* Ehtiyatlı, ehtiyatkar, ayıq, sayıq. Gəray bəy fikirdə oyaqdır hənuz.

**Oyandırmaq**, *f.* Yuxudan durquzmaq, oyatmaq // *məc.* Yatanları cəhalətdən oyandırmış.

**Oyanmaq**, *f.* 1. Yuxudan ayılmaq, gözlərini açmaq. Yumuq gözlərini aç da bir oyan…

2. *məc.* Canlanmaq, hərəkətə gəlmək. Ağardı pəncərə / Oyandı şəhər // *məc.* Torpaq oyanmışdır, insan oyanmışdır.

3. *məc.* Gözü açılmaq, qəflət yuxusundan ayılmaq, hərəkətə gəlmək. Oyanın, qəflətin dövranı getdi.

4. *məc.* Səhər açılmaq. …yenə səhər oyandı…

**Oyatmaq**, *f.* Yuxudan durğuzmaq, oyandırmaq, oyanmağa məcbur etmək. Fəryadınla .. məni oyatdın.

**Oylaq**, *is.* 1. Məskən, yer, meydan. Şairlər vətəni bizim tərəflər; Tərlanın oylağı yadıma düşdü // *Obrazlı təşbehlərdə*. Könlüm oylağını yaxşı gəzəli; Çoxları küsəndə mana, bənövşə.

2. Düzənlik. Genişdir oylağı, gendir meydanı; Yenəndə çaylağa dağın dumanı.

**Oymaq**, *is. (köhn).* Kənd, el. Obalar dolanıb, oymaqlar aşdın.

**Oynaq**, *sif.* 1. Mütəhərrik, oynayan, daim hərəkətdə olan. Buludlar oynaqdır sanma şaşqındır.

2. Şüx, oynağan. Birincisi oynaq, qayğısız, xoşüz… // *məc.* Şux, şən, gümrah. Səhnədəki oynaq bir gənc söyləyirdi monoloq…

**Oynamaq**, *f.* 1. Rəqs etmək. Bəy də öz toyunda oynasın gərək.

2. *məc.* Oynaşmaq. Oynadıqca göy ləpələr; Salam verir hüzuruna. Şəffaf sularında kölgələr oynar.

□ Yerindən oynamaq. O bir oynadı durduğu yerdən.

**Oynaşmaq**, *qarş. məc.* İrəli-geri gedib-gəlmək, hərəkət etmək. Axşamdan oynaşan şıltaq ləpələr.

2. Müxtəlif tərəflərə hərəkət etmək. Oynaşır ilxılar, kişnəşir atlar.

3. *məc.* Təzahür etmək, görünmək, yanıb-sönmək. Birdən buludlarda oynaşan şimşək…

**Oynatmaq**, *f.* 1. *məc.* O tərəf, bu tərəfə tərpətmək. Çadırı oynadır əlində külək. // Tərpətmək. Oynadır qaşını, süzür gözünü.

2. *məc.* Ələ salmaq, dolamaq. // Axtarmaq, aldadaraq yormaq. Tərlan xəyalımı, laçın könlümü / Aldadıb oynatmadınmı?

**Oyun**, *is.* 1. Əylənmək və vaxt keçirmək üçün bir neçə adam (qrup) arasında icra olunan müxtəlif növlü əyləncə, məşğələ. Bu oyun doğrudan ləzzət olacaq.

2. *məc.* Hoqqa, kələk, fənd, fırıldaq, hiylə. Onun çıxardığı oyunlara bax.

**Oyunaz**, *is.* Gülməli oyunlar çıxarıb başqalarını güldürən adam; hoqqabaz. Bir oyunbaz, bir sehrkar demiş ona.

**Oyuncaq**, *is. məc.* Oynamaq, əylənmək üçün obyekt olan hər bir şey. Oyuncaqmı gəlir sənə vətənimin haqq səsi?

**Ozan**, *is.* (*qəd.*). El şairi, aşıq. …Min bir yaşlı bir ozan…

# Ö

**Öd**, *is.* Qara ciyərin ifraz etdiyi sarı-yaşıl rəngli acı maye. [Vəzir:] …Bil ki, qorxusundan ödü saralar.

**Ögey**, *sif.* Doğma olmayan. Vəfasız olurmuş ögey analar.

**Öhdə**, *is.* [ər.] Öz üzərinə götürülən və yerinə yetirilməsi vacib olan vəzifə; təəhhüd, borc. □ Öhdəsindən gəlmək –

*məc.* dərsini vermək, divan tutmaq. Gələr öhdəsindən lələşin İlyas.

**Öksüz**, *is.* Yetim // *məc.* Kimsəsiz, baxımsız. Öksüz qoymaq istəyirsən ulu yurdu.

**Öküz**, *is.* İş heyvanı kimi istifadə edilən buğa. Öküzlərdə nə qanad var, nə də ki, sürət.

**Ölçmək**, *məc.* Ölçüb-biçmək, götür-qoy etmək, hərtərəfli fikirləşmək. Yüz yol ölçər, bir yol biçər.

**Ölçü**, *is.* Hər hansı bir şeyin müəyyən vahidlər əsasında təyin edilən böyüklüyü, kiçikliyi, biçimi, həcmi, dərəcəsi. Onun nə ölçüsü, nə hüdudu var. ◊ Ölçüyə gəlməmək – çox böyük, həddən artıq yekə, ölçülə bilməyən şey haqqında; Ölçüyə gəlməyən hərəkətdədir.

**Ölçüb-biçmək**, *f. məc.* Götür-qoy etmək, hərtərəfli fikirləşmək. Sonra öz ağlında ölçüb-biçdi ki…

**Öldürmək**, *f.* Cismən məhv etmək, həyatdan məhrum etmək, ölümünə səbəb olmaq; qətl etmək. Ata, qoy öldürüm o mürvətsizi.

**Ölgün**, *sif.* Canlılığı, təzəliyi, təravəti qalmamış, düşkün, solğun. Nə qədər məyus, ah, nə qədər ölgün…

**Ölkə**, *is.* Məmləkət, diyar; yer, ərazi. [Banu:] Böyük bir orduyla keç ölkəmizdən.

**Ölmək**, *f.* 1. Həyatı tərk etmək, vəfat etmək; keçinmək. [Banu:] Bu gün-sabahımdır; Mən ölsəm əgər; Gözəl yurdumuza yadlar qəsb edər.

2. *məc.* Özündən qabaq gələn sözün ifadə etdiyi şeyin şiddətini, təsirini bildirir. Bizik, biz. Yenə də öldük acından.

3. *məc.* Məhv olmaq. …Dövlət; tez ölər əlbət.

4. Mən ölüm – şəklində (*dan.*). Bir şeyi təkidli xahış məqamında işlənir. Bir də, Musa. Mən ölüm.

**Ölü**, *sif.* 1. Cansız, həyat əlamətindən məhrum // Dayanmış qarşımda ölü Reyxstaq…

2. *məc.* Hərəkətsiz, süst. Gülürdü sağlara o ölü – tabut.

**Ölüm**, *is.* 1. İnsan və ya heyvan həyatının sona çatması; ömrün sonu; vəfat, ölmə. Ölüm var! Qırğın var, yenə şəhərdə!

2. *məc.* Məhv olmaq təhlükəsi, dəhşətli fəlakət. Avropa qurtardı ölümdən, qandan.

**Ömür**, *is.* [ər.] 1. İnsan, heyvan və ya bitkinin doğuluşundan ölümünə qədərki fizioloji vəziyyəti; həyat. Hər ağ gün, qara gün ömürdən gedir. – [Xosrov:] Neçin verirsiniz bu sualları? Onsuz da sərt əsir ömrün rüzgarı.

2. Ömründə *şəklində* – heç bir zaman, heç vaxt, qətiyyən. Əlinə ömründə kitab almamış; Böyük şəhərlərdə qonaq qalmamış.

◊ Ömür sürmək – yaxşı və rahat yaşamaq; ümumiyyətlə yaşamaq, həyat sürmək. İnsan oğlu ömür sürür vüqarla. Ömrün uzun olsun – xeyir-dua, təşəkkür məqamında işlədilir. Ömrün uzun olsun, çox yaşa, – deyir. Ömrün boyu – həmişə, daima, bütün həyatı boyunca. Ömrün boyu eşqə can ver, yaşa vüqarla.

**Ömür-gün**, *is.* Həyat, yaşayış. Ömrü-günü alovların qucağında belə keçsə; Sərin bahar nəsimi tək udur vətən havasını.

**Ömürlük**, *sif.* Ömrünün axırına qədər davan edən, qüvvədə olan; həmişəlik. Ömürlük sürgünə getdi ehtiyac.

**Ömürsüz**, *sif.* Ömrü az olan, az yaşayan, ömrü uzun sürməyən. Nə var ki, ömürsüz zülmət gecədir.

**Ön**. *qoş. mənasında yerlik halında*: qabağında, qarşısında. Önündə diz çökür; Boz qaya, Bozdağ.

2. *is.* Üzə tərəf olan cəhət; qabaq. Qoy gözümün önündə el aşığı danışdırsın sazını.

**Öncə**, *z.* Qabaqca, irəlicə, əvvəlcə, birinci olaraq. [Şahbaz:] O öz taleyini düşünür öncə.

**Önlük**, *is.* İş görəndə paltar çirklənməsin deyə üstdən taxılan geyim; döşlük. Təzədən döşünə bir önlük taxdı.

**Önlüklü**, *sif.* Önlük geymiş, önlük taxmış; döşlüklü. Biləklər çirkli, döşlər önlüklü.

**Öpmək**, *f.* Sevgi, dostluq, sevinc əlaməti olaraq, yaxud görüşdükdə və ya ayrılanda dodaqlarını birinə və ya bir şeyə toxundurmaq; busə etmək, busə almaq. Ana! Getdim, salam qal; Deyib öpdü qarını. // *Obrazlı təşbehlərdə.* Axar çaylar öpdü o gün; Atlıların ayağından.

**Öpüş**, *is.* Öpmək işi, öpmək tərzi; busə, öpmə. Öpüş görməmişdir onun dodağı.

**Öpüşdürmək**, *icb.* Məcburi və ya xahişlə bir-birini öpdürmək. // *Obrazlı təşbehlərdə.* ...Orağını çəkiclə öpüşdürən bir ölkənin nümayəndəsiyəm.

**Öpüşmək**, *qarş.* Bir-birini öpmək. Sonra öpüşdülər dodaq-dodağa. // *Obrazlı təşbehlərdə.* Öpüşdükcə səadətin ağ günlərilə; Hər ocaqda ney tutulub, toy başlanacaq.

**Örkən**, *is.* Minik heyvanlarının çulunu sarıyıb bərkitmək üçün başında doğanaq olan uzun ip; çatı. ...Örkən, çatı toxuyan...

**Örpək**, *is.* 1. Qadınların başlarına sarıdıqları iri ipək və ya başqa parçadan örtük, iri baş yaylığı. Ana örpəyini boranda, qarda...

2. *məc.* Örtük mənasında. Nədən o yerlərin örpəyi qardır?

**Örtmək**, *f.* 1. Örtük salmaq, üzərinə bir şey salmaq // Üzərinə bir şey çəkib görünməz etmək. Hüsnünü örtməsin nə pərdə, nə rəng.

2. *məc.* Bürümək, sarmaq, çulğamaq, tutmaq, basmaq. Mən çox istərdim ki, sənin hər zaman; Örtməsin o dilbər hüsnünü duman.

**Örtü**, *is.* 1. Başa örtülən hər hansı bir şey. İndi nə örtü var, nə örtülən var.

2. Pərdə. Sinəsini açar mana; Örtüsü ağ pəncərələr. // *məc. mənada.* Üzündə qalmışdır qara ləkələr / Bir matəm örtüsü geyindi şəhər.

**Örtülü**, *sif.* 1. Örtülmüş, örtü çəkilmiş. Yox deyil kəndlərdə, açılır örtülü pərdə.

2. *məc.* Gizli. Örtülü düşmən daha qorxuludur.

**Örtünmək**, *qayıd.* Öz üzünü, yaxud üstünü bir şeylə örtmək. İndi nə örtü var, nə örtünən var…

**Öskürək**, *is.* Adətən nəfəs yollarının xəstələnməsi və ya qıcıqlanması ilə əlaqədar olaraq qeyri-ixtiyari çıxarılan xırıltılı, xışıltılı səs; öskürtü. Eyvaz bir asqırıb, bir öskürərək… // Öskürmə xəstəliyi. Kəndimizdə nə çirk qalsın, nə öskürək, nə azar.

**Öskürmək**, *f.* Öskürək gəlmək. Xəstə uşaq kimi hey öskürərək..

**Ötən**, *sif.* Keçən, bundan əvvəlki, keçmiş. İndi olmasa da ötən gəncliyim.

**Ötərgi**, *sif.* və *z.* Gözucu, tez, ani. O nəğmədə ötərgi bir söhbətə mən; Söz açmışdım bir dostumun surətindən; Öz gündəlik dərslərinə ötərgi baxdı.

**Ötkün**, *məc.* Qüvvətli, təsirli. [Vəzir:] İndisə yaşımın bu ötkün vaxtı; Məni çölə atır bu Kəyan taxtı.

**Ötmək¹**, *f.* Keçmək, keçib getmək, gəlib keçmək. Mənə həcv yazır hər yoldan ötən. // Uçub getmək, uçaraq keçmək. Turac ötər, cüyür mələr… – Başım üstə qah-qah ötən durna qatarı.

**Ötmək²**, Oxumaq, cəh-cəh vurmaq, civildəmək. Baharın eşqiylə ötür turaclar.

**Ötürmək**, *f.* Yola salmaq. Gəl ötürüm səni öz evinizə.

**Ötüşmək**, *qarş.* 1.Gəlib-keçmək, ötmək. Ömrümün günləri nə tez ötüşdü. // Saat, vaxt haqqında. Dəqiqələr tez ötüşür.

2. Yüyürməkdə, qaçışda yarışmaq, bir-birini ötməyə çalışmaq. Yığıb çantalara yerdən-yemişdən / Yolda gah yüyürüb, gah ötüşərdi.

**Övlad**, *is.* [*ər.* vələd söz. cəmi] 1. Oğul və ya qız; uşaq, oğul-uşaq. O bədbəxt ananın övladıyam mən. // *Obrazlı təşbehlərdə.* Bir torpaq övladı, bir rəssamam mən.

2. Nəsil, soy, zürriyyət. Biz zamanın övladıyıq. – Övlad oldum qəhrəmanlıq dünyasına.

**Övladsız**, *sif.* Övladı, uşağı olmayan; oğul-uşaqsız, sonsuz. – …Qarı övladsız qaldı…

**Öylə**, *əvəz.* (*köhn.*). Elə, o cür, o təhər, o sayaq. Öylə bir ahəngi bütün kainat / Yaşar bir rübabın təranəsilə…

**Öymək**, *f.* Tərifləmək. [Səhər:] Qabaqca özünü öyənlər kimi.

**Öyrənmək**, *f.* 1. Xəbərləşib, soraqlaşıb bilmək, məlumat əldə etmək, xəbər bilmək. O bəlkə öyrənib hər sirrimizi…

2. Vərdiş etmək, alışmaq, adət etmək, öyrəşmək. [Şapur:] Hələ öyrəşməmiş bizə gözləri.

**Öyrətmək**, *f.* (*dan.*). Sövq etmək, təhrik etmək (adətən mənfi mənada). Öz doğma balanı öyrətmədinmi; Yüz riyakarlığa, yalançılığa?

**Öyüd**, *is.* Pis hərəkətlərdən saqındırmaq üçün deyilən sözlər; nəsihət. Qulağında yaxşı qalsın, mənim sənə öyüdüm… □ Öyüd vermək – birini pis hərəkətlərdən saqındırmaq üçün öyüdlü sözlər söyləmək, nəsihət etmək. Qulaq as, gör anan nə öyüd verir; Şəfəqlə, vüqarla yaşayın ancaq.

**Öyünmək**, *f.* Özünü öymək, özünü tərifləmək; lovğalanmaq. // Fəxr etmək. Sən də könül; Gəl öyünmə bu əsərlə. – İnsan oğlu öyünəcək göstərdiyi hünərlə.

**Öz**, *əvəz.* 1. Şəxsinə, özünə aid olan, xas olan, mənsub olan. Öz qanım, öz evim, öz nökərlərim. // Şəxsən, müstəqil olaraq özü tərəfindən yaradılmış, görülmüş, alınmış, əldə edilmiş və s. Başqa şəkil verdi öz varağına.

2. Bir işdə şəxsən, bilavasitə iştirak edən (onun mənbəyi ya obyekti olan) şəxsi ya şeyi göstərmək üçün isimdən, şəxs əvəzliyindən sonra işlənir. Özüm tutduğuma heyranam özüm.

3. İsim və ya şəxs əvəzliyi yerində müstəqil işlədilir. Zaman özü taxdı gözlərimizə…

4. Bir adamın və ya bir şeyin böyüklüyünü, əhəmiyyətini, mövqeyini nəzərə çatdırmaq üçün işlədilir. Gəlsən də xan özü peşiman olar.

◊ Özünə gəlmək – 1) huşu özünə gəlmək, ağlı başına qayıtmaq (qəşş etmiş, huşunu itirmiş adam haqqında). Humay bir ah çəkir, gəlir özünə; 2) əvvəlki vəziyyətinə gəlmək,

sağalmaq, düzəlmək, əmələ gəlmək (ağır xəstəlikdən sonra). Bir qədər özünə gəldi xəstəmiz. Özünü toxtaq tutmaq – ürəkli olmaq, özünü ələ almaq. Özünü toxtaq tut bir az… Özünü çəkmək – lovğalanmaq, təşəxxüs satmaq. Oynadır qaş-gözünü / Bir az çəkir özünü. Öz-özünə – öz bildiyi kimi, müstəqil olaraq; özü. Bəzən öz-özümə düşünürəm mən.

**Özbaşına**, *z.* Öz bildiyi kimi, heç kəsdən soruşmadan, icazə olmadan. Bəzən özbaşına çıxıb evimdən…

**Özək**, *is.* Böyük bir birləşmənin əsas tərkib hissəsini təşkil edən kiçik təşkilat qrupu; əsas, özül. Gördüm… kəndimizə özək katibi gedən bolşevik işçiləri.

**Özgə**, *sif.* 1. Başqa, digər. Özgə rəng alacaq çiçəklər, otlar. // Aid olduğu sözə xüsusi emosionallıq verir. Ana nəfəsinin özgə dadı var…

2. *is. mənasında.* Kənar, yabançı, yad, özgəsi. Özgənin dərdinə qalma, Mahnigar.

# P

**Paça**, *is.* İki qıçın aralığı. ..Başını paçasının arasında saxlayan..

**Padşah**, *is.* [*fars.*] Mütləqiyyət idarə üsuluna əsaslanan hər hansı hökmdar, monarx (şah, soltan, çar, kral, imperator). [Məryəm:] Mən kiməm? Vaxtilə nazlı bir sənəm; Bizans padşahının qızı Məryəməm!

**Paho**, *nida.* Təəccüb ifadəsi. Paho… Lap böyüyüb, yaxşı cavandır..

**Paxıl**, *is.* Başqasının məziyyətlərini, müvəffəqiyyətlərini və b. k. gözü götürməyən dargöz adam. Paxılların küt başında..

**Paxıllanmaq**, *f.* Paxıllığı tutmaq, dargözlük etmək. Düzünü söyləsək, paxıllanmadı.

**Paxıllıq**, *is.* Dargözlük, gözügötürməzlik. Qalmayacaq .. nə paxıllıq, nə də bir kin..

**Paxlava**, *is.* Badamlı (ya da qozlu, fındıqlı və b.k.) romb-şəkilli şərq şirniyyatı. Süfrədə paxlava, göyərti, qaymaq..

**Pak**, *sif.* [*fars.*] Müxlis, qəbahətsiz. Hər kimin vicdanı pakdırsa, o bir divanədir..

**Paqon** [rus. poqon] Hərbi və digər formalı paltarın fərqlənmə nişanı olan çiyinliyi. Artıq görünməyir sarı paqonlar.. – Sındı beli salonların, Zər baftalı paqonların.

**Paqonlu**, *sif.* Üst geyiminin paqonu olan. Kimlər ola zər paqonlu generallar, zabitlər?

**Palaz**, *is.* Xovsuz xalça. Yığıb bir palaza atacaq onu..

**Palçıq**, *is.* Gilli yaş torpaq. Palçıq dizə çıxdı, sərt əsdi külək. – Həyəti, qapısı, dalanı palçıq..

**Palıd**, *is.* (*bot.*). Qozalayan iriyarpaqlı möhkəm oduncaqlı ağac. Yüzillik bir palıd uçur kökündən.

**Paltar**, *is.* 1. Geyim, libas. Təzə paltar geyən körpələr şaddır.. – Sənin də əynində bayram paltarı..

2. Örtük, bürüncək (ağ rəngdə). Yenə.. dağlar geyinəcək toy paltarı.

3. Görkəm, qiyafə. İnsan paltarında bir canavardır..

**Palto**, [fr.] Lap üstdən geyilən və uzunluğu adətən dizdən aşağı olan paltar. Bir.. ananın; Qanlı paltosunu geyinəndə sən..

**Pambıq**, *is.* Qozalarındakı liflərin dəyərinə görə «ağ qızıl» adlanan birillik kol. Ağdaşın pambığı çiçək-çiçəkdir..

**Pambıqlı**, *sif.* Pambıq bəzəyi vurulmuş. Pambıqlı sancaqlar elə bir quşdur..

**Pamidor** [ital. pomidoro] Tomat. ..bostanda.. Bir az pamidorla badımcan olsun.

**Papaq**, *is.* Kişi başına qoyulan örtü. Kosanın başında bir keçə papaq.. // Kişilik rəmzi. ..bizim yerlərdə bir papaq, bir at..

**Para**[1], *is.* [*fars.*] 1. Hissə, qisim. □ Bir parası – bəzisi. Bizim cəsur elçilərdən Bir parası batıb hərdən.. – ..bir parası xatirində qalmamış.

2. Ədəd. Sonra da on para kəndin var, inan!

**Para²**, *is.* Pul. Nə düşündün, yoxsa parammı vardır?

**Parad** [fr.] Qoşun hissələrinin təntənəli rəsm-keçidi, eləcə də idmançıların nümayişi. Aç paradı, Qızıl Ordu! – May bayramı. Bakı böyük. Parad keçir, bax.

**Parça**, *is.* Hissə. ..Yazdığım iki parçadır.. ☐ Bir parça – bir tikə, bir qırıq. Bir parça çörəyə, suya möhtacdır. – Bir parça sümükdür sevdasız insan.

**Parçacıq**, *is.* Tikəcik. ☐ Bir parçacıq – kiçik bir parça. Bir ovuc damarsan, bir parçacıq ət..

**Parçalamaq**, *f.* Parça-parça, tikə-tikə etmək. Gəl məni parçala öz əllərinlə. – Buddaların kitabını parçalayıb varaq-varaq.

**Parçalanmaq**, *f.* 1. Parça-parça, tikə-tikə olmaq. Caynağında didim-didim parçalandı yapalaq..

2. Hissələrinə, hissəciklərinə ayrılaraq dağılmaq. ..təyyarəmiz divan tutur göylərə. Qanadların hiddətindən parçalanır buludlar. – Sular parçalanır tunc sinəsində.

3. Məhv olmaq. Parçalan, ey qəlbim! Bir dəfə tökül!

**Parça-parça**. *sif.* və *z.* Hissələrinə ayrılmış halda yaxud hissələrinə ayıraraq. Göydəki sıx dumanlar Axıb gedir dənizdəki parça-parça buz kimi. – Uzun qara saçlarını parça-parça kəsərək..

**Parıldamaq**, *f.* Hamarlıq və təmizlik parlaqlığı ilə seçilmək. Parıldasın güzgü kimi bizim kəndin yolları. ☐ Par-par parıldamaq – gözləri qamaşdıracaq dərəcədə bərq vurmaq, işıl-işıl işıldamaq. Dəniz gümüş kimi par-par parıldar..

**Park** [ing.] Ağaclığı və gülzarlığı, alleyaları və fontanlı hovuzları olan gəzinti və istirahət yeri. Hər axşam bir parka gəzməyə getdi.

**Parlaq**, *sif.* 1. İşıldayan, bərraq, parıltılı. Almazdan, incidən, ulduzdan parlaq..

2. Şanlı, ehtişamlı, gözəl. ..daha parlaq günlər görəcək.. // Gözəl keyfiyyətli. Hər natiqin parlaq sözü bir sevincin dəryasıdır..

**Parlamaq**, *f.* 1. İşıldamaq, parıltı vermək. Qığılcım parladı polad nalından.. – Qara dəniz güzgü kimi parlayacaq..

2. Gözəl keyfiyyətli parlaqlığı ilə seçilmək. ..sözlər / Bir qığılcım kimi parlayıb sönür..

2. *məc.* Ad-san qazanmaq. Elmin qüdrətilə parlayıb çıxdıq!

◊ <u>Bəxti parlamaq</u> – taleyi gülmək. [Banu:] Fərhad, ümidimiz sənədir yalnız, Səninlə parlayır bizim bəxtimiz.

**Parol** [fr.] Gizliliyin açarı olub məxfi saxlanılan şərti söz, ifadə. Eh! .. / Gecənin parolunu mənə deyin!

**Partbilet** [rus.] SovİKP üzvünün bileti. Partbiletim bu gün verildi mənə..

**Partiya** [fr.] Sovet İttifaqı Kommunist Partiyası. Partiyanın eşqiylə sən / Güləcəksən hər bir zaman..

**Partlamaq**, *f.* Partlayış nəticəsində deşilib əvvəlki bütövlüyünü itirmək. «..şişər, şişər, partlayar…»

**Pas**, *is.* Dəmirin üzərində oksidləşmə nəticəsində əmələ gələn nazik qırmızı-qonur təbəqə; paxır. □ Pas atmaq (tutmaq) – paslanmaq. Dəmirlər pas atdı əl-ayağında. – Bu pas tutmuş qılınca bax!

**Paslanmaq**, *f.* 1. Cəng atmaq, pas bağlamaq. Daşında paslanmış əski yazılar.

2. *məc.* Passivləşmək. İllərcə paslanan dillər ötüşsün!

**Paslı**, *sif.* Paslanmış, pas atmış. Bükülmüş belində paslı bir oraq..

**Paşa**, *is.* Paşalıq titulu daşıyan şəxs. Ay ağalar, ay paşalar; Dərd başımdan aşdı yenə..

**Patavalı**, *sif.* Qılçası dolaqlı. Yox bir, patavalı, çoban bir ölkə..

**Patron**, *is.* Piston gilizli güllə. Mən dünəndən doldurmuşam patronumun darağını.

**Pay**[1], *is.* 1. Bölüşdürülən hər hansı şeyin bir adama çatan, düşən hissəsi. …şer, sənət dünyasında yoxdur payım? – Günəşdən payımı mən də içmişəm.

2. Birinə göndərilən hədiyyə, ərməğan, töhfə, sovqat. Hər nübardan pay göndərək. – Göndərərəm sovqatını – sənin də öz payını..

3. Qismət, nəsib olan, bəxtə çıxan şey. Sənin də payına düşdü xəzəllər..

**Pay²**, *is.* [*fars.*] (*klas.*). Ayaq. Yıxılıb payinə ölmək istərəm..

**Payız**, *is.* [*fars.*] İlin yayla qış arasındakı fəsli, son bahar. Payız ola, pendir-çörək qarpızla.

**Paylamaq**, *f.* Çoxları arasında bölüşdürərək bəxş etmək. Dağıdın, paylayın xəzinənizi.. – İşıq payladıqca o, insanlara..

**Pedant**, *is.* Xırdaçı. ..pedant kimi geyinər.

**Pendir**, *is.* Ağarantı (bərk yaxud yarıbərk kütlə şəklində). Payız ola, pendir, çörək qarpızla..

**Peş(i)man**, *is.* [*fars.*] Təəssüf hissi. İndi peşimandır yarandığına.. – Bu tutduğu işdən olmaz peşiman.. – İndi peşmandır doğulduğuna..

**Peyğəmbər**, *is.* [*fars.*] 1. Rəsul, nəbi. Nə Allah verəcək, nə də peyğəmbər.

2. *məc.* Nurani, pak, müqəddəs. Surəti peyğəmbər, hüsnü pürvüqar Bir qoca..

**Peyman**, *is.* [*fars.*] Əhd, and. Yaman gündə ayrı düşmə öz peymanından.

**Pəhləvan**, *is.* [*fars.*] (*dan.* pəhlivan). Çox güclü igid, qəhrəman. Dəniz kimi coşub-daşır Zirehlənmiş pəhləvanlar. – Pəhlivandır bu qəhrəman..

**Pəjmürdə**, *sif.* [*fars.*] Pərişan, solğun, halı pozğun. Şu düşkün, pəjmürdə halıma çarə.. – Gəl, oğlum! Durma pəjmürdə. – Xəyalı pəjmürdə, ürəyi səsdə..

**Pək**, *əd.* Lap. ..Bu bəlaya pək erkən düşməyimi bilmədim. – O könül pək incə..

**Pələng**, *is.* 1. Dərisi zolaqlı iri yırtıcı heyvan; qaplan. Pələng nərə çəkər hücumdan qabaq.

2. *məc.* İgid, qoçaq, hünərvər. VAllah, düz deyirəm, pələngsən, pələng! – Sənət hünər meydanıdır, qoy pələnglər addım atsın..

**Pəncə**, *is.* [*fars.*] 1. Heyvan ayaqlarının barmaq və dırnaq hissələri. Sakitcə baş qoyar öz pəncəsinə..

2. *məc.* Zor, güc. Bir pəncə əzər qəhr ilə vicdanımı yeksər. – Boğmağa cəhd edir öz pəncəsilə Böyük bir insanı adi sətəlcəm.

3. *məc.* Hökmranlıq. [Vəzir:] Pəncənizdə İran boyda ölkə var. – Fənalığın pəncəsindən qəlb azad olur.

◊ Pəncə pəncəyə gəlmək – pəncələşmək, çarpışmaq. Ona boyun bükər bütün təbiət, Gəlsə kainatla pəncə pəncəyə.

**Pəncələşmək**, *f.* Çarpışmaq, vuruşmaq, mübarizə etmək. Həyat eşqi qayıq kimi pəncələşir fəlakətlə! – İşıq qaranlıqla pəncələşərək; Yaşatmaq istəyir cahanda bizi..

**Pəncərə**, *is.* Otaq divarının hörülməmiş hissəsində işıq və hava gəlmək üçün düzəldilən şüşəli çərçivə. Bağlanır qapılar, pəncərələr.. – Top səsindən çınqıl kimi səpələnir pəncərələr.

**Pərçimlənmək**, *f.* 1. İlişib qalmaq, çıxmamaq. ..pas atmış qılınc kimi pərçimlənmə sən qına..

2. *məc.* Girdirilmək, batırılmaq. Sevmədim.. beynimə zorla pərçimlənən bu sözlərin ləzzətini…

**Pərdə**, *is.* [*fars.*] 1. Teatrda səhnəni tamaşa salonundan ayıran iri örtü. Yavaş-yavaş pərdə qalxır, səhnə görünür.

2. Simli musiqi alətinin qolundakı bölmə. Hər gəraylı pərdəsində min ananın qəlbi var.. – Hər incə pərdənin öz aləmi var..

3. *məc.* Çarşab. Hüsnünü örtməsin nə pərdə, nə rəng..

4. *məc.* Örtü, örtük. Göylərin üzünə çəkildi pərdə..

**Pərdələmək**, *f.* 1. Qabağını tutmaq, örtmək, görünməz etmək. ..qaranlıq; Pərdələyir [tablodakı] o şeriyyəti..

2. *məc.* Ört-basdır etmək, gizlətmək. Xainlər necə də pərdələyir, bax.

**Pərdələnmək**, *f. məc.* Üstü örtülmək, ört-basdır edilmək, gizlədilmək. Dualarla pərdələnir yer üzündə cinayət.

**Pərdəli**, *sif.* Üstüörtülü, açıq olmayan, müəmmalı. İnanma.. bu pərdəli sözlərə.. – Sorsalar, bu pərdəli fəlsəfələr neçindir?

**Pərdə-pərdə**, *z.* Simli musiqi alətində bir pərdədən o biri pərdəyə keçərək. Könlüm vurur mizrabını pərdə-pərdə dərindən..

**Pəri**, *is.* [*fars.*] İşvəkar dilbər. Bir çoxları deyir sənə «nazlı mələk, nazlı pəri». – Bizim qızlar ..nə huridir, nə də pəri.

◊ İlham pərisi – ilahi şövqləndirici qüvvə. İlham pərisindən ayrılma, qardaş..

**Pərişan**, *sif.* və *z.* [*fars.*] 1. Dağınıq, nizamsız. Pərişan zülfünü sübhdən dara..

2. Qəmli, kədərli, qüssəli. Baxışlar pərişan, bənizlər sarı. – Pərişan gəzirsən bütün aləmi..

**Pərvanə** *is.* [*fars.*] (*dan.* pərvana). Gecə kəpənəyi. ..Sənin hüsnünə pərvanə kimi gərərək köksümü yandım.. – ..Sən çıraqsan, mən pərvana.

**Pərvaz**, *is.* [*fars.*]: pərvaz etmək (eyləmək) – pərvazlanmaq. 1. Uçmaq. ..uzaq göylərə edək də pərvaz..

2. *məc.* Qanadlanıb ruhlanmaq. Könül fərəhlənib eylədi pərvaz..

**Pərvərdigar**, *is.* [*fars.*] Allah, tanrı. Xoş yaradıb pərvərdigar..

**Pətək**, *is.* Arı yuvası. Pətəyi bal süzən arı məndədir. – Ballı pətəklərə bənzər beynimiz.

**Pıçıldaşmaq**, *f.* Bir-birinin ardınca pıçıltılı-küylü səslər çıxarmaq. De, külək əsdikcə sıx meşəliklər Sənin rübabında pıçıldaşdımı? – Yenə dalğaların, ağ ləpələrin; Sakit gecələrdə pıçıldaşacaq.

**Pıçıl-pıçıl**: pıçıl-pıçıl pıçıldaşmaq – səs təqlidi olub pıçıldaşmanın şiddətləndirici dərəcəsini bildirir. ..Pıçıl-pıçıl pıçıldaşar..

**Piano**, *is.* Pianino, fortepiano. Bir yanda sevgilim piano çalır.. – Gəlir qonşuluqdan piano səsi..

**Pillə**, *is.* [*fars.*] Pilləkanın ayaq qoyulan yeri. Yuvarlanır son pillədən.

**Pilləkan**, *is.* [*fars.*] Çıxmaq (qalxmaq) və düşmək (enmək) üçün pilləli qurğu. Buyur, – deyir bizə mərmər pilləkanlar.

**Pioner**, *is.* [fr.] Uşaq demokratik təşkilatının üzvü. Hər təzə pioner, ..komsomol.. – Pioner bir qız da gəlmişdir dilə.

**Pir**, *is.* [*fars.*] Qoca, ixtiyar. O piri-möhtəşəm kim olsa gərək?

**Pis**, *sif.* 1. Yaman, bəd, xoşagəlməz. [Vəzir:] Çox pisdir xəbər…

2. Ağır, sıxıcı, əzici, mənhus. Nə vaxt qurtaracaq pis gündən insan?!

◊ <u>Pis olmaz</u> – yaxşı olar, istənilən, arzu edilən kimi olar. Bir dələmə tapıb içsək, pis olmaz.

**Pislik**, *is.* Pis əməl, pis hərəkət. Dünyada qalmasın nə pislik, nə şər..

**Piyada**, *z.* [*fars.*] Ayaqla, miniksiz. Dağları, düzləri gəzdik piyada.. – Atımız ölüncə, getdik piyada..

**Piyalə**, *is.* [*fars.*] 1. Şərab, çay içmək üçün qab; qədəh. Açır piyalə tək ağzını zanbaq.

2. Piyaləyə bənzər iri və girdə. Qələm qaş altında piyalə gözlər.

3. Nuş edilən mənəvi varlığın rəmzi badəsi. Yenə sənət piyaləmi doldururam mən…

**Piylənmək**, *f.* Piyləşmək, piy bağlamaq. Burjuylar piyləndi hey harın-harın.

**Piyli**, *sif.* Piy basmış. ..süngümü soxmalıyam piyli.. yekəqarınlara..

**Plakat**, *is.* [lat.] Təbliğat, reklam, tədris və hər hansı məlumat məqsədi ilə tərtib olunmuş iri şəkil və onu izah edən qısa mətn. Bax dünən plakat tutan əllərə..

**Plan**, *is.* [lat.] İnsan fəaliyyətinin yerinə yetirilməsi tərzinin (ardıcıllığının, qaydasının, müddətinin və s.) qabaqcadan düşünülmüş sxematik təxmini. □ <u>Plana almaq</u> – planlaşdırmaq, bir iş niyyətində olmaq, niyyət etmək. ..Mühən-

dis.. plana almışdır ki, mən; İndi çıxmalıyam öz kötüyümdən.

◊ Plan tökmək – arzusuna, məqsədinə nail olmaq üçün tədbirlər, vasitələr, yollar barədə düşünüb-daşınmaq. Nə qanlı hərb üçün planlar tökür.

**Planeta**, *is.* [yun.] Günəş sistemində göy cismi. Bizim planetamız qalxır ayağa.

**Plov**, *is.* Xörək: düyü və xuruşlar; aş. Üstü zəfəranlı bir plov yeyək.. – ..şərbət içib, plov yeyək..

**Podval**, *is.* [rus.] Zirzəmi. Hisli, nəmli, qaranlıq podvallarda yaşayan.. – ..Çağırdıqca podvallardan işçiləri qudoklar..

**Polad**, *is.* [*fars.*] 1. Bərk elastiki gümüşü-boz dəmirəbənzər metal. Polad kimi cingildəyən nüfuzlu səsi..

2. Poladdan düzəldilmiş. ..qoşun-qoşun polad tankların .. gövdəsinə.. qan olur.

3. Polad kimi möhkəm. Ərisin mum kimi polad gəncliyim.. – Qəhrəman bir oğul, polad bir ürək.. – Polad sinəm, döz bu dərdə..

**Polis**, *is.* [alm.] Polisiya işçisi, asayişi qoruyan, qorodovoy, jandarm. ..o qəhrəmanı Polis nişan aldı tunc sinəsindən.

**Polyak**, *is.* 1. Qərbi slavyan xalqlarının ən böyüyünə mənsub olan adam. Qara geymiş.. polyakların ana yurdu..

2. Polyak millətindən olan. ..polyak qızları İslamın qəbrini salama gəlir.

**Pozğun**, *sif.* və *is.* Əxlaqsız. ..bu qızcığı bənzətməyin pozğuna..

**Pozğunluq**, *is.* Nizamsızlıq, qarışıqlıq, ixtilaf. Orduya pozğunluq gətirmə, sarsaq!

**Pozulmaq**, *f.* 1. Dağılmaq, dolaşıqlığa düşmək. Pozuldu onun da fikri, xəyalı..

2. Xarablaşmaq. Pozuldu gördüyüm hər zövqü səfa. – Pozulmaz ilqarın, dağlar!

3. Nizamsız hala salınmaq. Düşmənin səfləri pozulur bu gün..

**Professor**, *is.* [lat.] Ən yüksək elmi adı olan müəllim, mütəxəssis. Səyyah professor..

**Projektor**, *is.* [fr.] Güclü işıqlandırıcı cihaz. İrigözlü projektorlar hey işıq saçır.

**Proletar**, *is.* [lat.] Muzdlu fəhlə sinfinə mənsub və mülkiyyətdən məhrum olan adam. Yazılı bir şüar: «Bütün ölkələrin proletarları, birləşin!»

**Propeller**, *is.* [lat.] Hava vinti; pər. Propellerin gurultusu..

**Puç**, *sif.* Boş, fani, heç. Yatmışdım ömrümün puç niyyətilə..

**Puçur-puçur**, *sif.* Damcı-damcı, damla-damla. Tökür alınları puçur-puçur tər..

**Pul**, *is.* Alqı-satqıda qiymət ölçüsü; bank kağızı; ağca. Mənsəbə, şöhrətə, pula həris də..

**Pulemyot**, *is.* [rus.] Güllə atan avtomatik silah. Quraq tərkinizdə pulemyotları!

**Pul-pul**, *z.* Xırda pul kimi. Pul-pul səpələnmiş yağış gölünə..

**Pusqu**, *is.* Pusma yeri, marıq. Səndin Gəray bəyi pusquda vuran.

**Pusmaq**, *f.* Gizlin güdmək. Qonşu qapısını pusmağa gedir..

**Pünhan**, *sif.* və *z.* [*fars.*] Gizli, xəlvəti. Oxurdu türkülər.. pünhan..

**Pürqübar**, *sif.* [*fars.* pür və *ər.* qübar] *Məc.* Kədərli, qəmli. Qaş-qabaq sallayıb pürqübar olur.

**Pürvüqar**, *sif.* [*fars.* pür və *ər.* vüqar] Vüqarlı. Dayandı şir kimi, pürvüqar gördüm. – Surəti peyğəmbər, hüsnü pürvüqar Bir qoca..

**Püskürmək**, *f.* *məc.* Saçmaq, yağdırmaq. Hər baxışdan kin püskürür o qatil qəlbə qarşı..

**Püstə**, *is.* [*fars.*] *məc.* Püstəyə oxşar (gözəlin ağzı, dodaqları haqqında). ..Dişlər inci, ağız püstə.

# R

**Radio**, *is.* [lat.] Radioqəbuledici, reproduktor. Danışdı radio Çindən, Əfqandan..

**Rahat**, *sif.* və *z.* [ər. rahət] Sakit, dinc. ..qırxıncı ildə, rahat bir vaxtda.. – Dünya rahat oturmadı..

**Rahatlanmaq**, *f.* İstirahət etmək, dincəlmək. Gəl, ana! O evdə rahatlan bir az. – Gecə keçir… Mürgüləyib rahatlanır böyük şəhər.

**Rahatlıq**, *is.* Dinclik, qayğısızlıq. Nə rahatlıq görən, nə yuxu görən..

**Ram** [*fars.*]: ram olmaq – tabe olmaq, müti olmaq. Ram olur səsinə vəhşilər belə…

**Rast** [*fars.*]: rast gəlmək – rastlaşmaq, təsadüf etmək. Hələ rast gəlmədim vəfalı yara! – Dağlara rast gələn axar sular da..

**Raykom**, *is.* Rayon komitəsi («rayon partiya komitəsi»). ..Raykom katibiydi bizim Qazaxda.

**Rayon**, *is.* [fr.] İnzibati-ərazi vahid. Yaşayır şəhərlər, kəndlər, rayonlar..

**Razı**, *sif.* və *z.* [ər. razi] 1. Xahişi məqbul sayıb ona müsbət cavab verən. Dedi ki, razıyam, gedərəm xana.

2. Məmnun. Amma çox razıyam qanacağından.. – [Xosrov:] Söylə, bu dünyada neçə cahangir; Razı yaşamışdır öz taleyindən?

□ Razı qalmaq – məmnun olmaq. Səndən razı qalar xaliqi-sübhan…

**Reaktiv**, *sif.* [lat.] Reaktiv mühərriki olan. Reaktiv ad vermiş alimlər ona..

**Requlyator**, *is.* [lat.] Tənzimləyici. [Zamanın] ..ən qüvvəli motoru və requlyatoru – Proletar ordusu!

**Reyhan**, *is.* [ər.] Rayihəli göyərti. ..Nanələr, reyhanlar inciyər məndən. – Yayılacaq reyhanların, nanələrin qoxusu..

**Reyhanlı**, *sif.* Reyhan bitən. Tutduğum çiçəkli, reyhanlı bu yol; Hər qəlbə sevinclər vəd edər bol-bol…

**Rezin**, *is.* [lat.] Su və hava keçirməyən elastik materialdan düzəldilmiş. ..rezin toplar..

**Rədd**, *is.* [ər.] Qəbul etməmə, razı olmama, tələbə ya xahişə mənfi cavab vermə. ☐ Rədd etmək – qəbul etməmək, razı olmamaq, yox cavabı vermək. [Xosrov:] Bir qız da… bir qız da rədd edir məni.

**Rəfiqə**, *is.* [ər.] Qızın, qadının qız, qadın yoldaşı. Bir al bayraq istəmişdir rəfiqəsindən..

**Rəftar**, *is.* [*fars.*] Davranış münasibətini göstərən hərəkət tərzi. Bülbül bu rəftardan qüvvət alardı..

**Rəhm**, *is.* [ər.] Mərhəmət. ☐ Rəhm etmək – yazığı gəlmək, halına yanmaq (acımaq). [Azər baba:] Döyüş meydanında ürəyi daş ol!.. Xainə rəhm etmə, haqqa yoldaş ol!.. Rəhmi gəlmək – rəhm etmək (qılmaq), insaf etmək. Rəhmin gəlsin atana.

**Rəhmdil**, *sif.* [*ər.* rəhm və *fars.* dil] Ürəyinazik, ürəyiyumşaq, mərhəmətli. [Vəzir:] Yaramaz bu qədər rəhmdil olmaq.

**Rəhmət**, *is.* [ər.] Allahın ölülərə rəhm qılıb onların günahlarını əfv etməsi. ☐ Rəhmətə getmək – ölmək, vəfat etmək. Atası, anası rəhmətə getdi. Rəhmət olsun! – Allah rəhmət eləsin! (təziyə situasiyasında təsəlli ifadəsi). .. – Rəhmət olsun! – deyək biz də. Rəhmət oxumaq – rəhmət demək, öləndən sonra yaxşılığına danışmaq, yaxşılıqla anmaq. Qoy rəhmət oxusun bizə nəsillər.

**Rəhmətlik**, *is.* 1. Ölmüş şəxs; mərhum. Rəhmətlik gündə bir məclis qurardı…

2. Rəhmətə getmiş. Gərək, yadındadır rəhmətlik dədən..

**Rəqəm**, *is.* [ər.] Ədəd, say işarəsi. Ey bütün ömründə rəqəm güdənlər.. – İrəli.. gedir bir rəqəm.

**Rəqib**, *is.* [ər.] Hər hansı bir fəaliyyətdə, davranışda, yarışda müqabil tərəfə üstün gəlməyə cəhd edən tərəf. Rəqib imiş ona dadlı xəyalı.

**Rəqibə**, *is.* [ər.] Bir işdə müqabil tərəfə üstün gəlmək niyyətində olan qız, qadın. [Şirin:] Ağlama… ağlama, talesiz ana, Mən ki bir rəqibə deyiləm sana.

**Rəqqasə**, *is.* [ər.] Rəqs edən (qız, qadın). Rəqqasə də… süzüb gedir çəmənliyə. – Rəqqasə qızların səsi yüksəlir.

**Rəqqasəli**, *sif.* Rəqqasələri olan. Arabir dinləyib.. Meyli, rəqqasəli meyxanələri..

**Rəqs**, *is.* [ər.] Musiqili oyun. □ Rəqs etmək – 1) çalğıya uyğun oynamaq. ..rəqs edir lordlar; 2) ritmik bədən hərəkətləri etmək. Yürüyürsən tavus rəqs edər kimi..; 3) *məc.* parlamaq, bərq vurmaq. Başında rəqs edir od da, şimşək də..; 4) oynaşmaq, tərpəşmək. Gözündə rəqs edir onun heykəli..; 5) *məc.* təzahür etmək. Onun sifətində rəqs edir şadlıq.. – Üzündə rəqs edir boranlı bir qış.

**Rəmz**, *is.* [ər.] Bir hadisənin, anlayışın, ideyanın şərti işarəsi; simvol. İranın da bayrağı var, rəmzi «pələng»dir. – Zəfər taclı bir muradın nur qanadlı rəmzisən.

**Rəncidə**, *sif.* və *z.* [*fars.*] İncik, küskün. □ Rəncidə qalmaq – incimək,qəlbi sınmaq. O qansız, daş ürəklərdən Könül rəncidə qalmazmı?

**Rəng**, *is.* [*fars.*] 1. İşıq tonu. Gah abı rəng olur, gah da qırmızı.. – ..Mavi buludların rənginə uymaq.. □ Rəng alıb rəng vermək – rəngini tez-tez dəyişərək başqa-başqa rənglərə çalmaq. Rəng alıb rəng verir al yanaqları. Rəng verib rəng almaq – qızarıb-bozarmaq. Rəng verib rəng alan ismətinlə sən Ruhumu qüvvətə gətirdin.. …rəngə girmək – müxtəlif rənglərə çalmaq. Üfüqlər min rəngə girir..

2. Sifətin rəngi. De, rəngin nə üçün belə saralmış? – Rəngim solur intizarda..

3. Kef, hal, əhval. Bir az yeyər, içər, keyfi durular, açılar rəngi.. – Ye, rəngin düzəlsin, görürəm, acsan!

4. Kosmetik boya: sürmə, kirşan və s. Hüsnünü örtməsin nə pərdə, nə rəng..

5. Mövcudatın zahiri əlaməti, varlığın təzahür forması. Bu yanan şəhərin od nəfəsindən; Ölüm rəngi çökür torpağa, daşa.

**Rəngbərəng**, *sif.* [*fars.*] Müxtəlif rənglərdə olan. Xonçalar bəzənir rəngbərəng şamla.

**Rəngləmək**, *f.* Üstünü malalamaq, ört-basdır etmək. İdealist əməllər rənglədi maskasını..

**...rəngli**, *sif.* Rəng bildirən adlardan sonra işlənərək əşyanın müvafiq rəngdə olduğunu bildirir. ..sığal versin lalə rəngli yanaqlara.. – Günəş rəngli bayraq asdın.

**Rəng-rəng**, *sif.* və *z.* 1. Müxtəlif rənglərdə, rəngbərəng. ..arzuların gül açır rəng-rəng.. – Lənkəranın gülü rəng-rəng..

2. Cürbəcür, müxtəlifnövlü. Zaman qarışıqdır… «alimlər» rəng-rəng. – …şərablar rəng-rəng..

**Rəngsiz**, *sif.* 1. Qırmızı boyası olmayan. Alqış o boyasız, rəngsiz üzünə!

2. Başqa cür yozulmayan, subyektivcəsinə mənalandırılmayan. Boyaqsız, rəngsiz, əmmasız olan söz..

**Rəsm**, *is.* [ər.] Şəkil. □ Rəsm qurmaq – şəkil çəkmək. İndidən sadəcə rəsmlər qurur.

**Rəssam**, *is.* [ər.] 1. Rəngkar, boyakar. [Şapur:] Şahın rəssamıyam, Şapurdur adım..

2. Bədaye sənətkarı. Rəssam gərək bu səhnəni yazıb-yarada.

**Rəssamxəyallı**, *sif.* Rəssam xəyalına malik. O şairkönüllü, rəssamxəyallı..

**Rəva**, *is.* [*fars.*] Caiz, layiq. Rəvadırmı qələmdaşlar məni qanmasın? – ..insan Rəvamı qul olsun bir məhəbbətə?

**Rəvan**, *sif.* və *z.* [*fars.*] Axıcı, süzə-süzə. Dün öylə gedirdin ahəstə, rəvan..

**Rəyasət** (riyasət), *is.* [ər.] Hökmranlıq iddiası. Ürəyində nə həsəd var, nə rəyasət. – Qalmayacaq nə riyasət, nə paxıllıq, nə də bir kin..

**Rəzalət**, *is.* [ər.] Alçaqlıq, şərəfsizlik. ..rəzalətdir itaət..!..

**Rəzalətlə**, *z.* Şərəfsizcəsinə, rüsvaycasına. ..arsız paxıllar; Rəzalətlə yaşamaqdan heç usanmasın.

**Rəzil**, *sif.* [ər.] Alçaq, əclaf, şərəfsiz. «Rəzil düşmən.. bir canavardır..»

**Ricət**, *is.* [ər.] Mətləbdən kənara çıxma, haşiyə çıxma. ..qayıtma ricətlərə sən!

**Riqqət**, *is.* [ər.] Şəfqət, acıma, təsirlənmə. Gah doğur, gah batır könül riqqətim.

**Riya**, *is.* [ər.] İkiüzlülük, qeyri-səmimilik. Saf dilində nə böhtan var, nə də riya. – Fəlakətlər doğurmuşdur riyalar..

**Riyakar**, *sif.* [*ər.* riya və *fars.* kar] . İkiüzlü. Unutduq onların riyakar səsini..

**Riyakarlıq**, *is.* İkiüzlülük. Öz.. balanı öyrətmədinmi Yüz riyakarlığa..?

**Roman**, *is.* [fr.] 1. Epik nəsrin (bəzən də nəzmin) iri forması: mürəkkəb süjetli və çoxsaylı personajlı təhkiyə əsəri. ..roman oxuyarmış..

2. Roman kitabı. Yatır sinəsində açıq bir roman..

3. Macəra. Sənsiz.. Dünyanın romanı yarımçıq qalar.

**Romantika**, *is.* İnsanın ideyalarını, hisslərini emosional ülviyyətə aparan əhvali-ruhiyyəsi. Mənim romantikam! Sən də qanadlan!

**Rövşən**, *sif.* [*fars.*] Parlaq, işıqlı, nurlu. Parıldayır qızıl yıldız günəşdən rövşən.

**Röya**, *is.* [ər.] 1. Yuxugörmə. Xəyal deyil, röya deyil gələcəyin o aləmi… – Sən ki həqiqətsən, deyilsən röya.

2. Yuxu, uyqu, uyuma. Ömür röya kimi boş keçəcəkdir!

**Ruh**, *is.* [ər.] 1. Materiyanın əksi (ziddi) olan qeyri-maddi aləm. Ruhu gülər torpaqların…

2. Ölüm nəticəsində vücuddan ayrılan qeyri-maddi varlıq – can. O zaman mənim də ruhum şad olar.. – [Eloğlu:] Söylə, danışdımı o ruh səninlə? □ Ruhu uçmaq – dünyasını dəyişmək. Nəcib ruhu göyə uçdu. – Elə bil ruh uçub canı tərk etdi.

3. İnsanın daxili aləmi, əhvali-ruhiyyəsi, mənəviyyatı. Ruhumda ruhunun parçası vardır.. – Ruhu oxşar,qəlbi oxşar incə bir canan səsi. □ Ruh vermək – ruhlandırmaq, cuşa (vəcdə) gətirmək. Şerinə ruh verir gül də, çiçək də.. Ruhunu uçurmaq – ruhunu oynatmaq, ruhunu oxşamaq, ürəyinə yatmaq, xoşlandırmaq, həzz vermək. Uçurdu ruhumu çaldığın bu saz!

4. Davranış və məfkurə tərzini müəyyənləşdirən mənəvi əsas. Onu başqa ruhda böyüdüb zaman.

**Ruhlanmaq**, *f.* Qüvvət almaq, canlanmaq, şövqlənmək. Bütün varlıq ruhlanacaq bir məbədin səcdəsindən..

**…ruhlu**, *sif.* …ruhunda olan, …mənəviyyatında olan. Mələk ruhlu bir müqəddəs eşqi var.

**Ruhsuz**, *sif.* və *z.* Ruhən düşkün, bədbin, həvəssiz. [Şirin:] Bəs nə cür oldu ki, indiyədək siz; Yaşaya bildiniz ruhsuz, eşqsiz?

**Rus**, *is.* 1. Şərqi slavyan xalqlarının ən böyüyünə mənsub olan adam. Qazax da, gürcü də, rus da, türkmən də.. – İndi də rusların tərəfdarısan.

2. Rus millətinin güzəranına, varlığına aid olan. Böyük rus torpağı, rus təbiəti Silaha qurşanıb ayağa qalxdı. – ..rus qışı bərk gəlmiş bu il.

**Ruz(i)gar**, *is.* [*fars.*] 1. Yel, külək, hava axını. Əsər ruzgar, qopar yanğın uğursuz bir qığılcımdan. – Bir canavar kimi ulayır ruzgar.

2. Həyat, güzəran. Ney tutulsun, badə gəlsin ruzigarın eşqinə!

3. *məc.* Dövran, zəmanə. Susuram ruzgarın suallarına..

4. *məc.* Bəxt, tale, fələk. [Banu:] Yaxşı yol göstərsin sizə ruzigar. – Göylərdən od töksün yerə ruzigar!

**Ruz**, *is.* [*fars.*] Gün (gündüz). Qəlbdən yaralı, könüldən xəstə, Nanı zəhər, ruzu fəğan olmuşam.

**Ruzgarqanadlı**, *sif.* Yelqanadlı. Fikrim ruzgarqanadlı bir quşdur.

**Rübab**, *is.* [ər.] Poetik yaradıcılıq simvolu olan simli musiqi aləti. Şair könlüm rübabını eşq ilə çaldı.. – Dostlar alqışladı; Azərbaycanın şeir rübabını, söz rübabını.

**Rübənd**, *is.* [*fars.*] Üz örtüyü (tül örtü), duvaq, vual. Gözəl təbiətin bu saf qızına Günəşli gündüzlər, aylı axşamlar Əlvan şəfəqlərdən rübənd toxuyur..

**Rücu**, *sif.* və *is.* [ər.] Dəfetmə, dəfedici. Rücu.. Zərbələrini bərk vur!

**Rüşeym**, *is.* [ər.] Maya, embrion,toxum, cücərti, inkişafın başlanğıc halı. Eşqin rüşeymi var canlı varlıqda..

**Rüşvət**, *is.* [ər.] Vəzifəli şəxsi qeyri-qanuni hərəkətə, tərəfgirliyə, ədalətsizliyə sövq etmək məqsədi ilə ona verilən pul yaxud qiymətli hədiyyə. Dostluğu da rüşvət olan.. bir iblis.. – Yox deyil bizim kəndlərdə ətəyinin altında rüşvət alanlar.

**Rütbə**, *is.* [ər.] Vəzifə, mövqe. Böyük bir rütbədən düşəndə insan.. – Rütbəyə çatırlar ucuz sataraq..

**Rütubətli**, *sif.* Rütubəti, nəmliyi olan, nəmli, höyüş. Bu vəfasız, bu rütubətli gecə..

# S

**Saat**, *is.* [ər.] 1. Gecə-gündüz müddətində vaxtı göstərən cihaz. Dürüst bir saatın əqrəbləritək..

2. Sutkanın iyirmi dörddə biri, altmış dəqiqə. ..saatda beş min Kilometr uçacaq sabah insanlar… – Hər günü, saatı ağır bir ildir.

3. Sıfırdan iyirmi dördə qədər rəqəmlə bildirilən gecə-gündüz vaxtı. Saatları xəbər verir Kremlin zəng səsi.

◊ Bu saat – indicə, dərhal. İndi ova gedib, bu saat gələr. – Bu saat sal görüm tüfəngi yerə!

**Saatlarca**, *z.* Saatlarla, bir neçə saatlıq müddət ərzində. Baxıb saatlarca məhtaba sarı..

**…saatlıq**, *sif.* Saylarla işlənərək müddəti bildirir. Bir saatlıq mənzilinlə qərinələr keçib aşdın.

**Sabah**, *is.* [ər.] 1. Səhər,sübh çağı. Sarvan, Sarvan, çoxmu qalır, söylə, sabaha? – Bir yaz sabahının ilk əzanıydı..

2. O birisi gün, ertəsi gün. Sabah olarsınız doğma vətəndə. – Sabah hücum vardır…

3. *məc.* Gələcək. Səhraların sabahı da gözləyir məni. – Sabaha Leninin gözüylə baxdıq.

**Sabah-sabah**, *z.* Səhər-səhər, səhər tezdən, sübh çağı. Tüstü göyü bürüdükcə gün tutulur sabah-sabah..

**Saç**, *is.* 1. İnsanın başındakı tüklər, insan başının tükü. Onun saçları da dibdən töküldü. – ..saçlarını təmiz dara!

2. *məc.* Saçaq, şüalar. Günəş yayır saçlarını üzərinə.. – Yaz günəşi saçlarını düzə yayanda..

◊ Saç ağartmaq – 1) qocalmaq. Vaxtsız saç ağardan igid analar..; 2) təcrübələnmək, püxtələşmək, ustalaşmaq. Sən səhnədə saç ağartdın.. Saçlarına dən düşmək – saçı ağarmağa başlamaq, başında seyrək ağ tüklər peyda olmaq. ..düşmüşdür saçlarıma dən..

**Saçaqlı**, *sif.* Sallaqtelli. Başında saçaqlı, qıllı bir papaq.

**Saçılmaq**, *f.* Yayılmaq, səpələnmək. Saralmış üzünə ziya saçıldı. – Elə bil alnına güllər saçılıb..

**Saçma**, *is.* Boş, mənasız söz, hərzə. Boğazdan yuxarı bir məhəbbətin; Soyuq saçmaları şeir yaratmaz..

**Saçmaq**, *f.* Yaymaq, səpmək. Onun fikri qaranlığa işıq saçarmış. – Sən daima ətir saçan.. bir baharsan.

**Sadağa**, *is.* Sədəqə, qurban. Humayın başına sadağa deyir..

**Sadə**, *sif.* [*fars.*] 1. Mürəkkəb olmayan, tərkibcə bəsit olan, asan dərk edilən. Sən bu həqiqəti sadə saysan da.. ☐ Sadə cümlə – monopredikativ cümlə. Hər sadə, mürəkkəb cümləmizin də..

2. Adi, təbii, qeyri-süni. Sadə bir inci də dövlətdir bizə. – Sevgidən, nəşədən, sadə həyatdan.. // Adicə, sadəcə. ..sadə çay içək.

3. *məc.* Sadəqəlb, sadədil. O sadə gənc uzaqlardan.. qonaq gəlmiş..

4. *məc.* İddiasız, təvazölü. Mənim yaratdığım bu sadə əsər.. – Açıq alnındakı o sadə vüqar..

**Sadəcə**, *sif.* 1. Ən adi, bərbəzəksiz. Sadəcə bir çit də, ipək də geyir.

2. Təbii, səmimi, təmiz, saf. Onun sadəcə bir əxlaqı vardır..

**Sadəcə**, *z.* Çeşid məhdudluğu ilə kifayətlənərək. Yediyi sadəcə pendirlə çörək.

**Sadəqəlb**, *sif.* [*fars.* və ər.] Sadədil, ürəyi təmiz, safürəkli, hiyləbilməz, hər kəsə tez inanan. Sadəlövh, sadəqəlb insanları, ah..

**Sadəlik**, *is.* Təbiilik, səmimilik, təmizürəklilik. Məndə bu sadəlik bir adət olmuş..

**Sadəlövh**, *sif.* [*fars.* sadə və *ər*. lövh.] Hər şeyə və hər kəsə inanmağa hazır olan. Sənsə aldanırsan, sadəlövh ürək. – Sadəlövh, sadəqəlb insanları, ah..

**Saf**, *sif.* [ər.] 1. Təmiz, duru, şəffaf. Gözlərimdə saf dənizin mənzərəsi… – Saf havalar udmaq..

2. Sağlam, xalis. ..O saf bir qan olub ciyərə dolur… □ <u>Safa çıxmaq</u> – sağalmaq. O gündən ki, məzlumların safa çıxdı yarası..

3. *məc.* Səmimi, düz, namuslu. Ömür salamlayır saf vicdanları. – O saf eşqin, saf əməlin; Düşəcəkdir dildən dilə..

**Saflıq**, *is.* 1. Təmizlik və sağlamlıq. Təbiətin saflığına qulaq asır uzaqdan..

2. *məc.* Düzlük, səmimilik. Dedi: – İnsan qəlbindəki sadəliyə, saflığa bax!

**Sağ**[1], *sif.* 1. Diri, salamat. Cəbhədə sağ qalanlar dönməsin geri.. – Gülürdü sağlara (*is.*) o ölü-tabut…

2. Sağlam. Nə var, lap yaxşıdır, şir kimi sağdır.

◊ <u>Sağ ol(un)!</u> – Xudahafiz, salamat qal(ın)! Sağ olun, gecəniz xeyrə qalsın. – Sağ olun, çən gəlir, hava qaralır.. Çox sağ ol! Sağ olsun – II və III şəxsə aid edilən təşəkkür, razılıq, minnətdarlıq ifadəsi. Çox sağ ol, çox sağ ol, Əminə xala! – Sağ olsun bu xeyir işi düzəldən..

**Sağ**[2], *sif.* Bədənin ürək yerləşən tərəfinin əksi. Sol əlilə sağ döşünə Bir gül taxdı gülə-gülə.

◊ …sağ əli olmaq – ən yaxın adamı, köməkçisi,sirdaşı, həmdəmi olmaq. Qəsdən olacağam onun sağ əli.

**Sağalmaq**, *f.* 1. Xəstəlikdən qurtarmaq, şəfa tapmaq. «..Yoxsa bu yaradan xəstə sağalmaz».

2. Bədənin xəstəliyi keçib getmək. ..yaram artıq sağalmaz..

**Sağaltmaq**, *f.* 1. Müalicə nəticəsində bədənin xəstəliyini, qeyri-sağlamlığını aradan qaldırmaq. 2.Qızıl verib sağaltmışdı topalını…

3. Bir dərman kimi əlac etmək. Bu ceyran dərisi.. sağaldır məni.

**Sağılmaq**, *f.* Südverən ev heyvanlarının yelinindən sızımla sud çıxarılmaq. Qızıl yelin inəklərim Yad əllərdə sağılır…

**Sağır**, *sif.* [ər.] Kar, eşitməz, dinləməz. …göylər sağırdır.

**Sağlam**, *sif.* 1. Azarı, xəstəliyi, zədəsi olmayan, bədəncə saz olan. Tez-tez töyşüməyir sağlam ürəklər. – Ağzında qalmadı sağlam bir dişi..

2. Müqtədir, sarsılmaz. Sağlam bir ölkənin möhkəm fikri var.

3. *məc.* Ağıllı, tədbirli. İranda qalmadı sağlam nəsillər.. – Sən bu sağlam şüurunla; Qoca Şərqin qapısısan.

**Sağlıq**, *is.* 1. Salamatlıq, ölüm-itim olmama. Sağlığıma güman yoxdur…

2. Tost. □ Sağlığına içmək – tost demək. ..hey içərdin sağlığıma.

**Sağlıqla**, *z.* Sağ-salamat. Sağlıqla geyəsən, mehriban bala!

**Sağmaq**, *f.* Yelindən süd çıxarmaq. Adi inək sağanın (*f. sif.*) da Öz ünvanı, öz adı var.

**Sağmal**, *sif.* Süd verən, sağılan. Yelinləri dolacaqdır yenə sağmal inəklərin..

**Sağrı**, *is.* Yuvarlaq oturaq (oturacaq). Yer tumar versə də öz sağrısına..

**Sahib**, *is.* [ər.] Yiyə, xozeyin, sahibkar. Ev sahibi utanmasın dostu,yarı görəndə. – Torpaq dedi: sahibim var..

**Sahil**, *is.* [ər.] Dənizin, çayın, gölün quruya çıxacağı, kənarı. ..Görünmədi sahillər, Dəniz qara, gecə qara.. – Yenə sahil lampaları alışacaq çıraq-çıraq.

**Saxlamaq**, *f.* 1. Hərəkətini dayandırmaq. Hər könülə ilham verər, hər yolçunu saxlayar!

2. İşə salmamaq. Bıçağını saxla bir dəm..

3. Mühafizə etmək, qorumaq. Məsəldir: «Qaçağı el özü saxlar». □ Allah saxlasın – Allah hifz etsin! (sağ-salamat boya-başa çatsın). Ağıllı baladır, Allah saxlasın.

4. Heç kəsə bildirməmək, yaymamaq, başqalarından gizlətmək, başqasına deməmək, məxfi tutmaq. [Şirurə:] Bu sirri saxla!

**Saxlanc**, *is.* Futlyar. İpəkdən, qumaşdan saxlancı vardır..

**Saxsı**, *is.* Gildən hazırlanan dulusçuluq məmulatı. Qoca alim, saxsı yığıb yer altında, tarix yazır.

**Saxta**, *sif.* [*fars.*] Qondarma, qəlb, qeyri-səmimi, riyakar. Ürəksiz deyilən sözlər saxtadır. – Saxta insanların qəlbindəkini; Sadə baxışlarla yoxlamaq olmaz.

**Sakin**, *is.* [ər.] *məc.* Özünə yer edən və orada yaşayan. Sözün qəlbində sakindir göyün eşqi, yerin eşqi.

**Sakit**, *sif.* və *z.* [ər.] 1. Səssiz-səmirsiz, sükut içində, hərəkətsiz. Gecə sakit, gecə lal; Gecənin alnında xal.. – Ətraf bir az qorxulu; Sakit durur yol üstü..

2. Asta, yavaş, aramlı, aramla. Sakit addımlarla gedir qabaqda.

3. Mülayim, həlim. Bir kəs inciməmiş sakit dilimdən..

**Sakitcə**, *z.* Dinc, susmuş və hərəkətsiz halda. Büküb öz boynunu sakitcə durar.

**Saqi(ya)**, *is.* [ər.] Şərabpaylayan. Saqiya! Saqiya! Gətir gizlicə..

**Sal**, *sif.* Bölünməz, bütöv, yekparə. ..sal buzlu dağlar.. – Yay ola, sərin sular sal buzla.

**Salağanta**, *sif.* və *z.* (*məh.*). Avara, sərsəri. ..salağanta başı batmış.. öküz kimi.. yeyib yatar.

**Salam**, *is.* [ər.] Uğur, şüküm, sağlıq diləmə, alqışlama, salamlama. Kimdir bizi qarşılayan burda hərbi salamla.. Qurtuluşun ilk salamı.. □ Salam aparmaq – salamlamaq, salamla qarşılamaq. Gələcək cünlərə salam aparaq. Salam vermək – xoş niyyətlə görüşmək. Hər duyan ürəyə bir salam verək.. – Samur çayı salam verir bizim ağır ellərə.. Salam demək – salam-dua yetirmək. ..Atana məndən salam de.. Salama durmaq – təntənəli rüsumla görüşmək. Dursun salama doğma Vətən.. Salama gəlmək – salamlamaq (*məc. tənt.*). ..polyak qızları İslamın qəbrini salama gəlir. – Xəyalım gecəni salama gəlir..

**Salamat**, *sif.* və *z.* [ər.] Sağ, xətərsiz-bəlasız, ölüm-itim olmadan. □ Salamat çıxmaq – sağ qalmaq, ölməmək. Salamat çıxmadı bir də sabaha.

◊ Salamat qal(ın)! – xudahafizləşmə situasiyasında ayrılıb gedən adamın dediyi əlvida ifadəsi. – Ana! Getdim, salamat qal! – deyib öpdü qarını. – Di salamat qalın!

**Salamlamaq**, *f.* 1. Alqışlamaq, təqdir etmək. Ömür salamlayır saf vicdanları. – Ürək salamlayır ömrün yazını..

2. *məc.* Yönəldilərək təmas etmək. Günəş salamladı bu qəhrəmanı. – Hər batan axşamın, doğan səhərin Hüsnü salamlayır min pəncərəni..

**Salamlanmaq**, *f.* Ehtiram göstərilmək. Salamlanan bu tabut..

**Saldat**, *is.* [rus. soldat] Əsgər. Bir saldat əyləşmiş..

**Saldırmaq**, *f.* Salmağa, düşürməyə məcbur etmək, endirmək. Hər bir sözüm saldıracaq min faşistin yarağını. – Tonqal vurub əl isitdin saldırdığın paqonlardan.

**Salxım**, *is.* Saplaqdakı üzüm gilələrinin sallanan topasına bənzər bir şey. Buz salxımlarının dodağı gömgöy..

**Salxım-salxım**, *z.* Üzüm salxımları şəklində. Salxım-salxım olacaqdır ağ üzümü tənəklərin..

**Salınmaq**, *f.* Təsis etmək, qurmaq, tikmək, düzəltmək. Bir ilə salındı.. şəhər.

**Sallamaq**, *f.* Yuxarıdan aşağıya uzatmaq. ..ay da ..yaylığını salladı bizə.

**Sallanmaq**, *f.* 1. Üzüaşağı sallaq vəziyyətdə asılmaq. ..meyvələr də sallanacaq budağından..

2. *məc.* Nazla, əda ilə yerimək. O sallanar, sığallanar..

**Salmaq**, *f.* 1. Hündür yerdən aşağı buraxmaq. ..fanar kimi işıq salır ay..

2. Düzəltmək, yaratmaq. Bağ yaradın, bağça salın şoran yerində.

3. Döşəmək, sərmək. Çinarların kölgəsində xalça salıb məclis quraq!

4. İçərisinə keçirmək, düşdürmək. Vaqifi saldın tora..

5. Göndərmək, buraxmaq, atmaq. Yazığı saldılar çölün düzünə..

6. Yormaq, üzmək. Saldı beynimizi, ürəyimizi..

**Salon**, *is.* [fr. salon] 1. Zal, ictimai yığıncaqlar keçirmək üçün böyük otaq. Quruldu Şuralar salonunda Şuraların baş məhkəməsi..

2. Zalda əyləşənlər. Bütün salon qulaq asdı..

**Samalyot**, *is.* [rus. samolet] Təyyarə. ..əvvəlcə yerdə bax samalyotlara..

**Samanlıq**, *is.* Saman anbarı. ..samanlığa girdi çil toyuq.

**Same**, *is.* [ər. same]. Eşidən, dinləyən. Şeydalar saməmə bir şeir oxurdu..

**Samuray**, *is.* [yap.] Yapon qəsbkarı. …samuraylar Göz dikmişdi yurdumuza.

**Sanamaq**, *f.* Saymaq, hesablamaq, miqdarını təyin etmək. Qıvrım tellərini sana, bənövşə!

**Sancaq**, *is.* Bayraq. Sancaqlar üz-üzə gəldiyi zaman..

**Sancılmaq**, *f.* 1. Batıb girmək. Hər soyuq daşına bir ox sancılmış.

2. Taxılmaq, asılmaq, bənd edilmək. Berlinin kəlləsində sancılacaq bu bayraq..

**Sancmaq**, *f.* Batırmaq, soxmaq. Ölümün gözünə nizələr sancaq.

**Sandıq**, *is.* [ər. sənduq] İçərisində paltar, parça və s. məişət şeyləri saxlamaq üçün qapaqlı iri taxta qutu. ..Öz gəlinlik paltarını sandığından çıxardaraq..

**Sanki**, *bağl.* Elə bil, guya. Sanki simfoniyadır bu gözəl ahəng. – Sanki bütün dünya laldır…

**Sanmaq**, *f.* Hesab eləmək, zənn etmək, güman etmək. Cahil ərlər sizi bir qul sanmasın.. – ..Qoy bunu ellər Bir acizlik, bir şikayət kimi sanmasın! □ Sanasan – sanki, elə bil. Sanasan, uğurlu bir gələcəkdir.. – Sanasan, kainat çəkilir dara.

**Sap**, *is.* Nazik eşilmiş (əyirilmiş) iplik (pambıq liflərindən, ipək tellərindən və b.k.). ..ipək sapa gözmuncuğu taxır..

**Saplamaq**, *f.* Saplı iti və ucu şiş aləti dəstəyinə qədər soxmaq. O, xəncər saplayır ürəyimizə..

**Sapsarı**, *sif.* Lap sarı, tamamilə sarı. Gözləri yamyaşıl, rəngi sapsarı.. –Sapsarıdır ağacların.. yarpaqları.

**Sar**, *is.* [*fars.*] Yırtıcı quş. Tərlan oylağında sar olmaz! – Tərlanları sar almaz.

**Saralıb-solmaq**, *f.* Solmaq, soluxmaq, rəngini, təravətini itirmək, solub-saralmaq. Əlinlə qurduğun barlı bağçalar, Tufanlar qopsa da, saralıb-solmaz.

**Saralmaq**, *f.* 1. Solmaq, xəzan olmaq. Saralar bağçası, tökülər bağı..

2. Üzünün rəngi qaçmaq, ağarmaq. jan Alezar saralmadı ölümdən əvvəl.

3. *məc.* Təravətini itirmək. Saraldı ömrümün çiçəkli yazı..

**Saraltmaq**, *f.* Soldurmaq, sarı rəng aldırtmaq. Payız düşüb saraltmamış; Ağacların yarpağını.

**Saray**, *is.* 1. Şahların, xanların evi. Kaş ki, düşməyəydim bu saraylara. // Həşəmətli bina. Böyük sarayları qurub tikən biz.

2. İctimai tədbirləri keçirmək üçün böyük bina. Təpiklərdə uçub gedir mədəniyyət sarayları.

**Sarban**, *is.* [*fars.*] Karvanı aparan, karvanbaşı. Sənə sarban olsun böyük arzular.

**Sarı**[1], *sif.* 1. Qızıl, limon, yemiş rəngi, zərd. Sarı qayalar, qarlı dağlar yıxdıq.

2. Sarı rəng almış, saralmış, saralıb-solmuş. Sarı yarpaq tökür boylu çinarlar. // Üzünün rəngi qaçmış, soluxmuş. O yerlərdə cana gələr sarı, solğun bənizlər.

**Sarı**[2], *qoş.* Tərəf, səmt. Dikilmiş gözləri ocağa sarı.. – Ah, o bir də gəlməyəcək; Bu bağçaya, bağa sarı..

**Sarıbuğda**, *is.* İri sarı dənəli buğda. Sarıbuğda kimi torpağa əkdik.

**Sarıbülbül**, *is.* Sarıtüklü bülbül. O yerdə ki, sarıbülbül yaz gününü qarşılar..

**Sarıca**, *sif.* Sarı rəngdə, sarımtıl. Yumurta deyilmiş, sarıca bir daş…

**Sarıxallı**, *sif.* Xalları sarı rəngdə olan. Sarıxallı pələnglər də sıçrayarmış şikar üstə.

**Sarıqlı**, *sif.* Sarğı ilə sarınmış. ..Ayağı sarıqlı şikəst bir quşam…

**Sarılıq**, *is.* Sarı rəng halı. Üzlərdə qalmamış sarılıqdan iz.. // Saraltı. Göy üzündə sarılıq var… Pərişandır xəyallar.

**Sarılmaq**, *f.* 1. *məc.* Qucaqlamaq. ..ürək ..sevgilim tək ..Boynuma sarıldı..

2. Bərk-bərk yapışmaq, bağlanmaq, bənd olmaq. Sarıl ..al bayrağa.. –Sarıl bu günə! □ Qələmə sarılmaq – yazı-pozuya girişmək. Qurşun qələminə sarılaraq yaz!

**Sarımt(ı)raq**, *sif.* Sarı rəngə çalan, sarımtıl, sarımsov. ..gecələrin sarımtıraq, Çarpaşıq görünüşündə həyat duymaq Yaramaz!..

**Sarışın**, *sif.* Sarıyağız, sarıyanız, sarıyaçalar. Alagöz sarışın körpəcə bir qız..

**Sarmaq**, *f.* Bürümək, çulğamaq, qaplamaq, sarmalamaq. ..ahım dumanı sarsın.. – Sardımı çöhrəni xəzan soyuğu?

**Sarmaşıq**, *is.* Sarmaşaraq boy atan əlvançiçəkli bitki. Sarmaşıqlar boy atmışdır eyvana sarı. – Pəncərədən baş uzatsın otlaqlara sarmaşıq..

**Sarmaşıqlı**, *sif.* Sarmaşıqları olan. Bu bağça.. yarpaqlı, sarmaşıqlıdır.

**Sarmaşmaq**, *f.* 1. Sarılmaq, dövrələnmək. Sarmaşacaq bostandakı şamamanın tağları..

2. Çulğamaq, qaplamaq, sarmalamaq. Sarmaşacaq boz dağlara; Sarvanımın fikri bu dəm.

**Sarsaq**, *is.* mənasında (söyüş kimi). Səfeh, axmaq. Orduya pozğunluq gətirmə, sarsaq!

**Sarsıtmaq**, *f. məc.* Ağır ruhi əzaba düçar etmək. İştə bundan məni sarsıtdı həyat..

**Sarvan**, *bax* sarban. // *məc.* Qatar-qatar dövr edən qafilənin aparıcısı. Gecənin sarvanı o ulduz, o ay..

**Satılmaq**, *f.* Satqın çıxmaq, özünü, əqidəsini, məsləkini pula, sərvətə, mal-əmlaka satmaq. Sən dağıtdın yurdumuzdan.. Hər satılmış vicdansızı.. – ..altunlara satıldın..

**Satın**: satın almaq – pulla əldə etmək, yiyələnmək, sahiblənmək. ..sirrimizi; Min tümənə satın alır.

**Satira**, *is.* Sarkazmla yoğrulmuş, acı istehza və kəskin rişxəndlə yazılmış bədii əsər; cəmiyyətdəki eybəcərlikləri qamçılayan gülüş. Satira gəlməyir mənim əlimdən.

**Satqın**, *is.* mənasında. Heysiyyətsiz, şərəfsiz, rəzil, namərd, xain. Satqın da.. deyərdi ona..

**Satmaq**, *f.* 1. Bir şeyi pula vermək. ..gedib odun satmağa.. – Qul kimi aldılar, satdılar bizi.

2. Xəyanət etmək (öz mənfəətini güdərək). Yarı, məhəbbəti sən satmadınmı?

3. Tamahkarlıqdan, şöhrətpərəstlikdən və b.k. mənfi niyyətdən mənəviyyatını (məsləkini, heysiyyətini, vicdanını və i.a.) itirmək. Şöhrət üçün.. vicdan satar..

**Savab**, *is.* [ər.] Allaha xoş olan, əcri Allahdan umulan əməl. Ağlamaq bir savabdır.

**Savadsız**, *sif.* 1. Savadı olmayan, yazmağı və oxumağı bacarmayan. Öz qəlbi var hər savadsız insanın da.

2. Biliksiz, qabiliyyətsiz, naşı. «Savadsız müəllim!..»

**Savadsızlıq**, *is.* Yazıb-oxumağı bacarmama. Gördüm.. savadsızlığını ləğv edən.. bolşevik işçiləri.

**Say**, *is.* 1. Rəqəm. Sayların da öz dili var, təklif deyir.

2. Miqdar, kəmiyyət. Salon böyük, gələnlərin sayısa min-min. – Saydım nəbilərin sonsuz sayını.

◊ <u>Saya almamaq</u> – hesablaşmamaq. Bütün kainatı almadan saya..

**Sayağı**, *qoş.* Kimi, tək. Yığıb qanadını qırğı sayağı.. – Niyə çatdı qaşlarını iblis sayağı?

**Sayaq**, *sif.* və *z.* Ayıq, sayıq, sərvaxt, huşyar. Yalnız o yatmamış, hələ sayaqdır..

**Sayğısız**, *sif.* Laqeyd. Bəlgə bir sayğısız divanə idi.

**Sayıqlama**, *f. is.məc.* Ağlına gələni danışma, məna rabitəsi olmadan danışma. Şair, nə üçündür bu sayıqlaman?

**Sayıqlatmaq**, *f.* Sayıqlamağa vadar etmək. Bəlgə sayıqladan məni azardır..

**Sayıqlıq**, *is.* Sərvaxtlıq anlayışını bildirən söz. Sayıqlıq sözünü bir gözlük kimi..

**Sayılmaq**, *f.* Hesab edilmək. ..Zülm elinin bir köləsi sayılmısan..

**Saymaq**, *f.* 1. Rəqəmlərin adını bir-birinin ardınca (sıra ilə) çəkmək, sadalamaq, sanamaq. Nişanlı qızların görüşdən qabaq; Telini saymağı yadıma düşdü.

2. Hesabına getmək. ..sayma, quzum, gəlib keçən bu günləri.

3. Bir-bir adlarını çəkmək, adbaad sadalamaq. Sayım gördüyümü bir-bir, qulaq as.. – Nə sayım! Bir deyil, beş deyil onlar..

4. Sayğı göstərmək, hesablaşmaq. Aha… heç saymayır bu hərif bizi..

5. *məc.* Hesab etmək, zənn etmək. Sən bu həqiqəti sadə saysan da..

**Saymazyana**, *z.* Etinasızlıqla, saymazlıqla, saymazca, saymazcasına, laqeyd, laqeydcəsinə. Saymazyana baxma ona.

**Sayrışmaq**, *f.* 1. Zəif və titrək şəfəq saçmaq. O zaman ulduzlar, aylar sayrışar.

2. Titrəyişli hərəkətdə bərq vurmaq. ..Üzündə sayrışır ay şəfəqləri.. – ..Sularda sayrışan ağ şamlar..

3. Bütün əlvanlığı ilə oynaşmaq. ..hər biçənək.. sayrışacaq çiçək-çiçək. – ..görüşərik ilk baharda.. çiçəklərin sayrışdığı çəmənzarda.

**Saysız**, *sif.* Çoxluğuna görə kəmiyyətcə müəyyənləşdirilməsi mümkün olmayan, saya gəlməyən, saysız-hesabsız. Bürüyür dövrəmi saysız ulduzlar.. – Yordu mənim beynimi bu saysız bilməcələr..

**Saz**, *is.* [*fars.*] 1. Aşığın simli çalğı aləti. Ötür sazım min sim üstə. – Bu covğun, bu külək, bu söhbət, bu saz.. □ Saz tutmaq – saz çalmaq. Meydan quraq, söhbət açaq, saz tutaq.. Saza tutmaq – sazda ifa ilə cəzb etmək. Söhbət açır, saza tutur.. məclisləri.

2. Poetik yaradıcılıq simvolu; rübab. Qırılsın Vaqifin qoy ilham sazı! – Qırıldı qəlbimin sədəfli sazı…

**Sazaq**, *is.* Şaxtalı havada soyuq külək. Sazaq qılınc kimi kəsəndə məni.. – Soyuqdan qızarır əsdikcə sazaq.

**Sazan**, *is.* Karp fəsiləsindən olan iripullu ovluq balıq. Sazan da var.. bıçaqkəsməz olur əti.

**Seçilmək**, *f.* 1. Fərqlənmək. Seçilməmiş hərbdə sınaqlı qəhrəmandan.

2. Nəzərə çarpmaq, görünmək. Burda seçilməyir nə yol, nə də iz.

**Seçmək**, *f.* 1. Bəyənmək, daha çox maraq göstərmək, daha üstün tutmaq. Deyir, kənd yerindən seçmişəm səni. – Atlının gözləri tək səni seçdi..

2. Ayırd etmək. Bəlkə də yaxşını seçək yamandan..

3. Aşkar etmək. Gördüyün, seçdiyin nöqsanları sən..

**Segah**, *is.* [*fars.*] Azərbaycan klassik musiqisində 7 əsas laddan olan bir muğam. Tez olun, yaxşı bir segah oxuyun!

**Seh(i)rkar**, *sif.* [ər. və *fars.*] 1. Möcüzəli, ecazkar, xariqüladə. Bu sehirkar maşınların dillərinə qulaq asdı.

2. Füsünkar, əfsanəvi, məftunedici. Hələ baxın qırqovula! Sehrkardır!

3. Hikmətli, hikmətamiz. Sehrkarsan, qəlbimizi kəməndə sal. – Sənət eşqi..! Nə sehrkarsan!

**Sehr**, *is.* [ər.] Möcüz, möcüzə, əfsun, tilsim, ecaz, xariqə. Nə sirsən? Nə sehrsən? Söylə, nədir hikmətin.

**Sel**, *is.* [ər. seyl] 1. Güclü və sürətli su axını. Hər damcı qüvvədir bir daşqın selə… – Axan sellər qarşısında aciz, miskin qalırlar..

□ Sel kimi – çoxluca, bolluca. Sel kimi töküldü göydən yağışlar. – Axıb gəldi sellər kimi küçələrin izdihamı.

2. Bol-bol axan göz yaşı. Ölənlərimizi.. tapşırdıq qara torpağa, Buludlu gözlərimizdən sel yağa-yağa!

**Selli**, *sif.* Güclü və sürətli axını olan. Dəli selli, Başiyelli.. Axar çaylar.

**Sentyabr**, *is.* [lat.] Təqvim ilinin doqquzuncu ayı. Avqust, sentyabr, on yeddinci il.

**Ser**, *is.* [ing.] Mister («əfəndi» tipli titul). ..fraklı serlər Gülür.. – Sən ümid gözləmə kraldan, serdən.

**Sevda**, *is.* [ər.] Eşq, vurğunluq, şövq. Hər duyan qəlbin, əzizim, gizli bir sevdası var. – Nəğmən ..Sevdasına qanad verir bülbülün də, gülün də.

**Sevdalı**, *sif.* Məftun, vurğun, şövqlü. Mən o sevdalı qızın.. Hər halını sevərkən.. – ..ey sevdalı bülbül, gəl gəzək gülşənləri..

**Sevdasız**, *sif.* Sevgisiz, məhəbbətsiz, şövqsüz. Bir parça sümükdür sevdasız insan.

**Sevdiciyim**, *oxş.xitab.* Əziz, istəkli şəxsə müraciət. Özün gəl, ey sevdiciyim, özün çıx meydanıma. – Mən, zarafat deyil, ey sevdiciyim, can yaxıram…

**Sevdirmək**, *f.* İstətmək. Kəndini sevdirmək istədin ona… Özünü sevdirir gülümsəyərək.

**Sevən**, *sif.* və *is.* Sevici, aşiq. Nə xoşbəxtdir bu aləmdə sevən ürəklər! – Unutmaz aləmdə sevən sevəni.

**Sevgi**, *is.* Məhəbbət, eşq. ..sevgi də, hicran da xoşdur!

**Sevgili**, *is.* Sevilən, məşuq və məşuqə, məhbub və məhbubə. Sevgililər həsrət ilə qucaqlaşırlar. – ..Sevgilini yada salıb alovlanırsan?

**Sevilmək**, *f.* 1. Sevimli, sevgili olmaq. ..sevilərək ölənlər…

2. Xoşlanılmaq, bəyənilmək. Bugün sevilsə də əsərlərimiz; Bir şölə saçmayır onlar sabaha…

**Sevinc**, *is.* Sevinmə, şadlıq, fərəh. Sevincindən gözü yaşlı.. – Onda sevinclər var, iztirablar var..

**Sevindirmək**, *f.* Şadlandırmaq, sevinc hissi oyatmaq. Artdı süların səsi. Sevindirdi hər kəsi. – ..sevindirin elləri..

**Sevinmək**, *f.* Şadlanmaq, sevincli olmaq. Məni görər-görməz sevindi qəlbi… – Sevin ki, sevinmək haqqındır sənin!

**Sevmək**, *f.* 1. Məhəbbət hiss etmək. Mən onu sevsəm də, sevməsəm də..

2. Xoşlamaq, aludə olmaq. Deyəsən, şöhrəti çox sevir qadın. – Mən ölsəm də, ölməyəcək sevdiyim əmək.

**Seyr[1]**, *is.* [ər.] Gəzinti. Gəlin.. Seyrə çıxaq biz Göygölə..

**Seyr[2]**, *is.* [ər.] Tamaşa etmə, nəzərdən keçirmə. Səhərin rəngini seyrə dalanda.. – Seyrə vardıqca o heçlikləri mən.. □ <u>Seyr etmək (eləmək)</u> – tamaşa etmək, göz gəzdirmək, müşahidə etmək. Seyr edin.. o ülviyyəti! – Onun gözlərində seyr elədim mən; Sənin o müqəddəs, pak əməlini…

**Seyrək**, *sif.* Bir-birindən aralı. Bəzən… seyrək Addımlarımla mən yaxlaşdım ona.. – Orda da ağaclar hələ seyrəkdir.

**Seyrəlmə**, *f.is.* Seyrək hala gəlmə. Ürəyini sıxır hərdən ..Qozaların seyrəlməsi.

**Seyrəlmək**, *f.* 1. Seyrəkləşmək: bir-birindən aralı olmaq, sıxlığı azalmaq. Gah seyrəlir, gah sıxlaşır əlvan buludlar.

2. Seyrəkləşmək: ara-sıra olmaq, hərəkəti azalmaq. Seyrəldi get-gedə gediş-gəliş də.

**Seyrəngah**, *is.* [ər. seyr və *fars.* …gah] Səfalı, mənzərəli, axar-baxarlı gəzinti yeri. Analarsa öz yanında körpəsini Bu bağçaya seyrəngaha gətirmişdir. – ..tatar qızı seyrəngaha çıxan zaman..

**Səadət**, *is.* [ər.] 1. Xoşbəxtlik, bəxtiyarlıq. Bir anlıq səadət bir qərinədir… – Ondan qaçır səadətlər..

2. «Səadət» sözünün adı. «Səadət» sözü var..

**Səb(i)r**, *is.* [ər.] Hövsələ, dözüm, aram, təhəmmül [Vəzir:] Dünyada səbr ilə hər şey düzələr… – Yollar səbirlidir, tilsimlidir, ah!..

☐ Səbr eləmək – dözmək, qatlaşmaq, tab gətirmək, təhəmmül etmək, hövsələsini basmaq, toxtamaq. Səbr elə, sevgilin gəlib çatacaq. – [Azər baba:] Səbr elə, hər şeydən ümid gözlədir.

**Səbəb**, *is.* [ər.] Hadisənin baş verməsini şərtləndirən, ona bais olan amil. Aşiqin dərdinə «eşq oldu səbəb».. – Səbəb nədir bu işə? Bu sərsəri gedişə…

**Səbəbsiz**, *sif.* və *z.* Üzrsüz, nahaqdan. Səbəbsiz deyildir nə ölüm, nə qan..

**Səbrlə**, *z.* Tələsmədən, aramla. Səbrlə, təmkinlə məqam gözlədi.

**Səbrü-qərar**, *is.* Səbr və qərar, tab, təmkin, dözüm, toxtaqlıq. [Banu:] Yox, daha qalmadı səbrü-qərarım..

**Səcdə**, *is.* [ər.] *məc.* Sitayiş, pərəstiş. Əyilsin səcdənə ulduzlar, aylar.. ☐ Səcdə qılmaq – sitayiş etmək. Bəzən də Marksa səcdə qılırlar. – Göylər səcdə qılsın bu ülviyyətə.

**Sədaqət**, *is.* [ər.] Sadiqlik, dəyanət, vəfa, etibarlılıq. Ancaq sədaqətin mənzili yoxdur.

**Sədaqətlə**, *z.* Sadiqanə, sidqlə. [Vəzir:] Şaha sədaqətlə işləmişəm mən.

**Sədd**, *is.* [ər.] Hərəkət yolunu, hərəkətin qarşısını alan maneə (bənd, sipər və s.). Daşqın sular kimi qırır səddini. ☐ Sədd çəkilmək – hərəkət yolu kəsilmək. Sədd çəkildi dörd yana..

**Sədəf**, *is.* [ər.] *məc.* Sədəf kimi saf və bərraq. Öz sədəf ağzından yüz min dür(r) saçar.

**Sədəfli**, *sif.* Sədəf bəzəyinə tutulmuş. Səsləndi qəlbimin sədəfli sazı..

**Sədr**, *is.* [ər.] Yığıncaq, icma başçısı. Sədr baxır gah Manyaya, gah da Sarvana.

**Səf**, *is.* [ər.] Cərgə, sıra, düzüm. Sən də, yoldaş pioner! Düzəlt səfini.. – Düşmənin səfləri pozulur bu gün..

**Səfa**, *is.* [ər.] Zövq, nəşə, kef. ☐ Səfa sürmək – kef çəkmək, ləzzət aparmaq. Mən dilərəm, sürsün çoxlu səfa yar..

**Səfalət**, *is.* [ər.] Düşkünlük sıxıntısı. O səfalət yuxusundan diksinərək oyandın.

**Səfalətzadə**, *is.* Səfil. ..səfalətzadə uyuyur yaslı…

**Səfalı**, *sif.* Xoş, ürəkaçan, səfa verən; gözəl mənzərəli, axar-baxarlı. Yaşarmı sizinlə səfalı Göygöl?

**Səfasız**, *sif.* Səfası, rahatlığı olmayan. Səfasız bir xəyalatdır hünərsiz bir həqiqət..

**Səfehləmək**, *f.* Sarsaqlamaq, axmaqlamaq. Sən də səfehləmə..

**Səfər**, *is.* [ər.] Səyahət, yol. Səfərimiz uzaq, yolumuz uzun.. – ..bir ay çəkəcəkdir bu səfər…

**Səfərbər**, *sif.* [ər. və *fars.*] Döyüşə hazır. Öylə səfərbərəm, öylə hazıram..

**Səfil**, *sif.* [ər.] Səfalətli, acınacaqlı. Unutdum o səfil gecələrin sərxoş röyalarını..

**Səf-səf**, *z.* Cərgə-cərgə, qatar-qatar. Heykəllər də durur səf-səf.. – Durna kimi səf-səf oldu Sinəmizin söz qatarı..

**Səfsəfə**, *is.* Səfsətə, sxolastika. Keçdi, – deyir, – orta əsrin səfsəfəsi.

**Səhəng**, *is.* Qarınlı qulplu darboğaz su qabı (misdən, saxsıdan; misdən olanı güyüm adlanır). Səhəngini söykəyərək bulaq daşına.. – Yarğan üstü… Bulaq başı.. Mis səhəng…

**Səhər**, *is.* [ər.] 1. Sabah, sübh. ☐ Səhər doğmaq – sübh açılmaq. Gecə çox uzanır, doğmayır səhər. – Doğdu gülüzlü

səhər.. // *z.* mənasında: sabah çağında. Nə axşam dincəlir, nə də ki səhər. – Sovxoz direktoru oyandı səhər..

2. *məc.* Xoş təəssürat. Nədir üzündəki o aydın səhər? – ..şerimin gülən səhəri..

◊ Səhəri açmaq – hava işıqlaşanadək bütün gecəni yuxusuz yaxud yarıyuxulu qalmaq. O, qaranlıq bir dalanda açdı səhəri..

**Səhər-səhər**, *z.* Səhər tezdən, sübh çağında. Ətəyində səhər-səhər.. Dostuna yem verməyəcək!

**Səhifə**, *is.* [ər.] *məc.* Mərhələ, zaman hissəsi. Bu bir qanlı səhifədir mənim həyat dastanıma.

**Səhnə**, *is.* [ər.] 1. Teatr tamaşaları göstərilən meydança. Səhnə bəzənmişdir al bayraqlarla. – Yavaş-yavaş pərdə qalxır, səhnə görünür.

2. Teatr sənəti, teatr fəaliyyəti. Sən səhnədə saç ağartdın..

3. Lövhə, mənzərə. Oxuyun şerimin.. həyat səhnəsini.. – Gözümdə qarışıq səhnələr durdu..

4. Hadisə, əhvalat. Odlar.. şəhəri, Söylə, nə səhnələr keçdi başından?

**Səhnəcik**, *is.* Kiçik lövhə, epizod. Mən bu səhnəciyə inandım..

**Səhra**, *is.* [*ər.*] Susuz və bitkisiz geniş çöl, çöl-biyaban. Muğan səhraları bir tamaşadır.. – Dağlara yol çəkdi, səhralara su.

**Səhv**, *is.* [ər.] Yanlışlıq, xəta, qələt. Hər kiçik səhvimiz dərs oldu bizə. □ Səhv etmək (eləmək) – yanılmaq, düzgün hərəkət etməmək. Əgər etmirəmsə səhv.. – Yox, yox, səhv elədim, ürəkdir yanan.

**Səxavət**, *is.* [ər.] Əliaçıqlıq, comərdlik, genişürəklilik. □ Səxavət göstərmək – əliaçıqlıq etmək. Həddən artıq səxavətlər göstərib ona.

**Səkkiz**, *s.* Səkkizinci. ..səkkiz may günü ..(may ayının səkkizinci günü).

**Səkmək**, *f.* Sıçramalarla irəliləmək, yerimək. Bəxtiyar qabaqda quş kimi səkir..

**Səkriməк**, *f.* Əsmək, titrəmək. Səkriyə-səkriyə piyləndikcə göbəklərindəki qatlar..

**Səksəkəli**, *sif.* Təlaşlı, təşvişli, narahat, rahatsız. Onun da fikri pozğun, ürəyi səksəkəli..

**Səksəkəsiz**, *sif.* Diksinişsiz. Rahat, səksəkəsiz bir yuxu yatdı.

**Səksənmək**, *f.* Diksinmək. Yuxudan səksənib qalxdıq..

**Səliqə**, *is.* [ər.] Sahman, səliqəlik, nizam və qaydada olma. Üzə gülsün hər səliqə..

**Səliqəylə**, *z.* Dəqiq, dürüst, diqqətlə. Səliqəylə o yoxlayır vəsiqəmi.

**Səme**, *is.* [ər.] Eşidən. Oxurdu səmemə mürğü nəvası..

**Səməndər**, *is.* [*fars.*] Əsatiri *(əfsanəvi, mifoloji)* od-alov quşu. Səməndər adlı bir quşdur; Alovlardan doğulmuşdur. – Səməndər quşu tək sən də yanırsan..

**Səmimiyyət**, *is.* [ər.] Səmimilik, safqəlblilik, açıqürəklilik. Səndə var doğruluq, var səmimiyyət..

**Səmt**, *is.* [ər.] İstiqamət, tərəf. Onu küləklər İstədiyi səmtə alıb sürüklər. – Gəzərdim gülşənin hər səmtini mən..

**Səmum**, *is.* [ər.] Şiddətli isti və quru səhra küləyi. Əsir bahar yeli bir səmum kimi.

**Sən**. İkinci şəxs əvəzliyinin təki. Sən zamanın hökmünə bax! – Mənim romantikam! Sən də qanadlan!

**Səncə**. Sənin fikrincə, sən biləni. [Xosrov:] Səncə, təslim olum? Budur qərarın?

**Sənciyəz.** Təki sən, təkcə sən, ancaq sən. ..sənciyəz yaşa!

**Səndələmək**, *f.* Müvazinəti itirərək yırğalanmaq. Qoca rəssam addımlayır səndələyərək..

**Sənə**, *is.* [ər.] İl. O gündən bəriyə keçdi sənələr..

**Sənək**, *is.* Səhəng, güyüm. Bir sabah anamın belində sənək..

**Sənəm**, *is.* [ər.] Dilbər (gözəlin epiteti). Oxuyur qəlbimə bir başqa sənəm.. – Çoxdur Qarabağda gözəl sənəmlər.

**Sənət**, *is.* [ər.] 1. Peşə. Boş deyildi, onun vardı sənəti..

2. İncəsənət. O gözəllik sənətinin çeşməsindən yenə içək..

**Sənətkar**, *is.* [ər. sənət və *fars.* kar] 1. Peşəkar, usta. Neçə sənət bilir hər bir sənətkar.

2. Bədii ədəbiyyat və incəsənət sahəsində yaradıcı sima. Sən ey sözlü sənətkar..

**Səngər**, *is.* Xəndək. Gərdik sinəmizi səngərlərin daşına..

**Sənsiz**, *z.* Sən olmadan. Qərarım yoxdur sənsiz.. – Sənsiz bu kainat vaxtsız qocalar..

**Səpələmək**, *f.* 1. Çiləmək, sıçratmaq. Qızlar da su səpələyir Bu müqəddəs məzarlığa.

2. Narın-narın yağmaq. Hərdən yağış səpələr – gözəldir bu tamaşa.. – Azca sənələyib ötəndə yağış..

**Səpələnmək**, *f.* 1. Tökülmək. ..şinelinə səpələnir qar.

2. Saçılmaq. Səpələnir .. günün.. şəfəqləri.

**Səpilmək**, *f.* Torpağa əkilmək üçün tökülmək. Dən olub səpilək, ..Göyərək torpaqda..

**Səpmək**, *f.* 1. Dəni, toxumu şuma səpələmək. Yer şumlayıb,toxum səpib, taxıl əkəydim..

2. Pərakəndə halda tökmək, səpələmək. Lakin ellər.. igidlərin.. məzarına Çiçək səpir qucaq-qucaq, gül dağıdır ətək-ətək.

3. Çiləmək, sıçratmaq, atmaq. Ana baxdı öz oğluna, su da səpdi dalınca…

4. *məc.* Saçmaq, yaymaq. Ürəklərə nəşə səpər..

**Sərapərdə**, *is.* [*fars.*] Padşahların saraylarında böyük pərdə. Kəfəndir, a balam, sərapərdələr.

**Sərasər**, *z.* [*fars.*] Başdan-başa, bütünlüklə, tamam. Dəryalara, səhralara min cilvə sərasər.. çalxalandı dəmadəm.

**Sərbəsər**, *z.* [*fars.*] Sərasər, tamamilə, daim. Bolluq içrə ömür sürər sərbəsər. – Kor gözlərim ağlar qanı sərbəsər..

**Sərbəst**, *sif.* və *z.* [*fars.*] Asılı olmayan, müstəqil. Könüllər sərbəstdir, duyğular azad…

**Sərçeşmə**, *is.* [*fars.*] Bulaq başı. ..sərçeşmələr, dağlar bizimdir..

**Sərçə**, *is.* İl uzunu bir yerdə yaşayan tükü şabalıdı – boz olan balaca və zəif bir quşcuğaz. □ <u>Sərçə kimi</u> – asanlıqla və külli miqdarda (qırmaq, boğmaq və b.k.). Boğarıq sərçə kimi. – Qırıb tökdü sərçə kimi göy üzündə düşmanı..

**Sərəfraz**, *sif.* və *z.* [*fars.*] Başı uca. □ <u>Sərəfraz olmaq</u> – yüksəlmək, ruhlanmaq. Ürək tazələnər, olar sərəfraz..

**Sərf**, *is.* [ər.] □ <u>Sərf etmək</u> – həsr etmək. Çarəsiz dərdlərə çarə etməyə.. Sərf ediniz hər zamanı, cavanlar.

**Sərgi**, *is.* Nümayiş etdirilmək üçün düzülmüş əşyalar toplusu. Burda nə səhnələr, nə sərgilər var..

**Sərhəd**, *is.* [*fars.* və ər.] Əraziləri bir-birindən ayıran hüdud xətti. Bəzən də «Sərhədləri unutmaq olmaz» deyə Düşmənimlə dayanır, durur süngü-süngüyə..

**Sərxoş**, *sif.* [*fars.*] Kefli, məst, nəşəli. Unutdum o səfil gecələrin sərxoş röyalarını..

**Sərxoşluq**, *is.* Məstlik, nəşə. Sərxoşluq eşqinə uyur nəfsimiz. – ..Açdı Şərq qollarını ..tanrının sərxoşluğuna..

**Sərilmək**, *f.* Yerə yıxılıb uzanmaq. Dağların döşünə sərilmiş hamı..

**Sərinləmək**, *f.* Sərinləşmək, sərinlik düşmək. Hava bir az sərinlədi..

**Sərinlətmək**, *f.* Sərinləşdirmək, təravətləndirmək. Ürək sərinlədən yellər bizdədir. – ..Ürək sərinlədən çeşmələr olaq…

**Sərinlik**, *is.* 1. Sərin yer. Çox tərəfdə nə kölgəlik, nə sərinlik var.

2. *məc.* Soyuq münasibət. Bir sərinlik gəldi o vaxt bizim də qəlbimizə.

**Sərin-sərin**, *z.* Sərin hava hasil olaraq. Əsir sərin-sərin dəniz küləyi.. – ..sarı buğda zəmiləri Sərin-sərin nəfəs aldı; Yaz gününün havasıyla.

**Sərinyelli**, *sif.* Küləyi sərinlədici olan. ..Sərinyelli; Dalğatelli Axar çaylar.

**Sərkərdə**,*is.* [*fars.*] Qoşun başçısı, komandan. O gah soldat oldu, gah da sərkərdə. – [Xosrov:] İran ordusuna sən sərkərdə ol!

**Sərmək**, *f.* Üzərinə salmaq. Doğma balasının üstə sərən tək..

**Sərməst**, *sif.* [*fars.*] Kefli, sərxoş. □ Sərməst olmaq – keflənmək.Sonra sərməst olub, qızar gözləri..

**Sərnimək**, *f.* 1. Hərarəti, istiliyi azalmaq. ..Alovu sərniyib odu sönməyir. – Sərniyir anamız; Odlar ölkəsi.

2. Sərinləmək, sərinləşmək, sərinlənmək. Meşə kölgəsində sərnidi hava..

**Sərnitmək**, *f.* Sərinlətmək. Yerin yanğısını sərnidir külək…

**Sərpmək**, *f.* Saçılaraq tökülmək. Onların gözündən yaş sərpə-sərpə Uzaq bir səfərə getmək olarmı?

**Sərraf**, *is.* [ər.] Arif, bilici, tükü tükdən seçən. Sərraf gözüdür mənim bu gözüm..

**Sərsəm**, *sif.* [*fars.*] 1. Ağlını itirmiş, fikri azmış. Həyat da sərsəmin üstünə gülər.

2. Dəli, qızğın, çılğın, coşğun. ..sərsəm gecələr yolçusuyam..

**Sərsəri**, *sif.* və *z.* [*fars.*] Avara, veyl. Səbəb nədir bu işə? Bu sərsəri gedişə…

**Sərt**, *sif.* və *z.* 1. Kəskin, şiddətli. Kür üstündə at oynadar sərt külək. – [Xosrov:] Neçin verirsiniz bu sualları? Onsuz da sərt əsir ömrün ruzgarı.

2. Ağır, məşəqqətli. Zaman sərtdir!..

3. Acıqlı, kobud, tünd. İncimişdir o, Nemətin sərt sözlərindən.

**Sərv**, *is.* [*fars.*] 1. 20-25 metr hündürlüyündə olan iynəyarpaqlı həmişəyaşıl ağac. Sərvlər baş əyib xəyala varır.. – Göy sərvlər, göy çinarlar..

2. *məc.* Ucalıq, qamətlilik rəmzi. Sərv ağacı kimi ucaldı başım. – Qaməti sərv kimi, köksü irəli..

**Sərvər**, *is.* [*fars.*] Başçı, padşah, hökmdar, hakim, amir. Vaqif! Ey sərvərim, ey tacidarım!

**Sərvinaz**, *is.* [*fars.* sərvi-naz] Nazlı gözəl. Çəkin bağrınıza o sərvinazı..

**Səs**, *is.* 1. Eşitmə hissinə təsir edib qulaqla (eşitmə orqanı ilə) qavranılan akustik hadisə; səda, avaz, ün. Kamançanın, tarın səsi.. – Dinləyir, bu evdən bir səs gəlməyir.. // Bərk səda. Batarmış göylərin ildırım səsi.. – Qulaq tutuldusa cəbhədə səsdən..

2. Nitq aparatı vasitəsilə hasil olub qulaqla eşidilən səda, avaz. Ayağa qalxınız, şeyximiz gəldi! – Deyə Gəray bəyin səsi yüksəldi. – Bütün salon qulaq asdı bu qocanın gur səsinə.

3. Dilək, istək ifadə edən fikir, rəy. Milyon insanların səsiydi bu səs..

◊ Səs vermək – 1) hay vermək, səsinə səs vermək. Qardaşlıq.. nəğməmizə Quşlar da səs verdi..; 2) tərəfdarı olmaq, tərəfində durmaq. Mən yenə də səadətə səs verirəm!; 3) dəstəkləmək, müdafiə etmək. Yenəmi cəllada səs verəcəksən? Səs düşmək – xəbər, şayiə yayılmaq. Bakıya səs düşür bir təmtəraqla. Səs salmaq – səda yaymaq. ..Səs salır bu dağdan o dağa kəklik. Səsə düşmək – səslənmək, səda çıxarmaq. Sıx ormanlar səsə düşür hər axşam. – Səsə düşür dar dərələr. Səsinə səs vermək – həmrəy, həmfikir olmaq. Səsimə səs versin doğma sevgilim! Səsini səsinə qoşmaq – həmrəylik göstərərək birgə hərəkət etmək. Səsini sən də qoş onun səsinə! Səs-səsə vermək – səsləşmək (çoxları haqqında). Sağında, solunda yeni şəhərlər Səs-səsə verəcək min bir büsatla – Qoyunlar səs-səsə verib mələşir..

**Səsləmək**, *f.* Çağırmaq, haraylamaq. ..Öz köməyinə göyü səsləyir. – ..ulduzları yerə səslə!

**Səslənmək**, *f.* Səsi ətrafa yayılmaq. Meşələr səslənib, çöllər sevindi. – Coşur Qara dəniz, Batum səslənir.

**Səsli**, *sif.* Gurultulu. ..Lal olar gur səsli yüz min mator da.

**Səssiz**, *sif.* və *z.* 1. Sükut içində. Bir qonaq görməmiş bu səssiz bucaq..

2. Səs çıxarmadan. [Heykəl] çağırır səssiz Ağasız, köləsiz xoşbəxt bir günə.

**Səssizcə**, *z.* Sakitcə. Görürsən? Səssizcə, başıaşağı.. – Səssizcə qımışır iblissayağı.

**Səssizlik**, *is.* Sükut, sakitlik. Sahildə bir dərin səssizlik vardı.

**Səssiz-səmirsiz**, *sif.* və *z.* Tam sükut içində. Qayıqlar sahildə səssiz-səmirsiz…

**Sətəlcəm**, *is.* [ər.] Ağciyərin iltihabı (soyuqdəymədən). Boğmağa cəhd edir öz pəncəsilə; Böyük bir insanı adi sətəlcəm.

**Sətir**, *is.* [ər.] Yazı sıralanmasının bir xətti. Mən bu sətirləri yazdığım dəmdə.. – Ürəyə sancılır hər sətrin sözü.

**Səyahət**, *is.* [ər.] Müxtəlif diyarlara uzaq səfərlər. Dilbərim yorulub səyahətindən.. □ Səyahətə çıxmaq – səfər edərək gəzmək. O, Avropanı səyahətə çıxdığı andan..

**Səyirtmək**, *f.* Dördnala çapmaq. Gah düzə səyirtdi, gah dağa çıxdı.

**Səyrimək**, *f.* Əsəbi halda titrəmək, əsmək (sifət əzələləri haqqında). Gülpəri diksinir durduğu yerdən, Səyriyib dodağı, qaçır bənizi..

**Səyritmək**, *f.* Səyirtmək, dördnala çapmaq, sürmək (atı). ..Səyridib dolandı dağın dalına..

**Səyyah**, *is.* [ər.] Səyahətçi, səyahət edən, səfər edən. Səyyah professor..

**Səyyar**, *sif.* [ər.] Gəzənti, köçərgi, daim hərəkətdə olaraq gəzib-dolaşan. Səyyar bulud kimi dolaşıram mən. – İnsan fikri səyyar olar, bir yerdə durmaz.

**Səyyarə**, *is.* [ər.] Günəş sistemində göy cismi, planet. ..yanıb-sönən səyyarələr..

**Sifariş**, *is.* [*fars.*] Tapşırma, ismarış. Sifariş verəcək günəşə torpaq…

**Sifət**, *is.* [ər.] Üz, bəniz, çöhrə. Aygünün sifəti dümağ.. ..sifətindən kin tökülür sapsarı.

**Siqlət**, *is.* [ər.] Sanbal, çəki, vəzn, ağırlıq. Hər sözün siqləti dönsün bir tona.

**Siqnal**, *is.* [alm.] *məc.* İşarə. Fikrimiz.. gələcəyə siqnaldır.

**Silah**, *is.* [ər.] Yaraq. Alıb silahını düzəldi yola.. □ Silaha sarılmaq (qurşanmaq) – silahlanmaq, silah işlətmək üçün hazır vəziyyətdə olmaq. İrilər sarıldı silaha.. Silaha qurşanıb ayağa qalxdı.

**Silahlanmaq**, *f.* Yaraqlanmaq, silahlı olmaq. Qoyun silahlanıb girsin meydana.. Geyib əsgər paltarını, silahlandı qəhrəman..

**Silahlı**, *sif.* Yaraqlı. Lenin haray çəkir: silahlı gəlin.. Silahlı əsgər tək dayanmış hazır.

**Silinmək**, *f.* Unudulmaq, yaddan çıxarılmaq, izi qalmamaq. Silinsin əsgimiş hər xatiratım. – Tarixdən silinər mübarizələr.

**Sillə**, *is.* Əl ayası ilə üzə vurulan zərbə. Sillə, yumruq, qamçı, zopa..

**Silmək**, *f.* 1. Qurulamaq. O silib yaylıqla alın tərini.

2. Aradan qaldırmaq. İndisə onun eşqini çirkab ilə sildim..

**Silsilə**, *is.* [ər.] Sıra dağlar. Uzanan dik qayalar, silsilələr..

**Silsiləli**, *sif.* Silsiləvi şəkildə bir-birinin ardınca gələn. Axar Kürün silsiləli dalğaları..

**Sim¹**, *is.* 1. Musiqili alətin teli. Neçə sim üstündə o qurulmuşdur.

2. *məc.* Səslənən tel. Qəlbinin simini tez-tez danışdır.

◊ Sarı sim – riqqət, incəlik. Ruhum da inləyən bir sarı simdir..

**Sim²**, *is.* [*fars.*] Yaranın iltihabından mikrobların qana yoluxması. Təbibsiz, davasız simlər atmışdır..

**Sim³**, *is.* [*fars.*] Gümüş. □ Simüzər – gümüş və qızıl. Bunca qudurtmazdı sizi simüzər… – Yaşamış dünyada simüzər üçün..

**Sima**, *is.* [ər.] Üz, sifət, çöhrə, bəniz, surət. Bulandı siması bir dərya kimi. – O boyalı sima, o dönük iman..

**Simalı**, *sif.* Gözəl siması olan. O mələk simalım, şahbaz baxışlım..

**Simasızlıq**, *is.* Şəxsiyyətsizlik, siması, özünəməxsusluğu olmama. Simasızlıq! Yüz il ömür sürsən də sən; Alqış səsi eşitməzsən bircə kərə.

**Simfoniya**, *is.* [yun.] 1. Yaylı, nəfəsli, zərbli alətləri olan orkestr üçün yazılmış 3-4 hissəli böyük musiqi əsəri. ..zövq alır.. insan ..Bethovenin simfoniyasından.

2. Müxtəlif tembrlərin, köklərin və s. musiqili səda və tonların ahəngi. Bu doğma quşların simfoniyasından; Zövq alır dünyanın şöhrəti insan.

3. *məc.* Ahəngdarlıq, harmoniya. Ağ günlər əsrinin bu simfoniyası; Ömrü uzatdıqca dillənir varlıq.

**Simsiz**, *sif.* və *z.* Simi olmadan. Quru bir taxtanı simsiz çalacaq!

**Simvol**, *is.* [yun.] Anlayışa, hadisəyə işarə, rəmz. ..o yumruq üsyanın simvoludur..

**Sinə**, *is.* [*fars.*] 1. Döş, köks. Aldı sinəsinə sazını Vəli..

2. *məc.* Ürək, qəlb, könül. Bir qəribəm sinəm dağlı.. – Görünür, sinəsi sözlə doludur.

3. Gövdə. Yerin sinəsindən cığırlar salmış zamanın, dövranın karvan yolları..

4. Sinədən (sinəsindən) şəklində – döşdən, hafizədən, bədahətən. Sinədən söz qoşub şeir düzəldən; Ellər məclisində oturub durdun.. – ..sonra şair sinəsindən sözlər deyir..

◊ Sinə gərmək – cəsur olmaq. Sinə gərirsiniz ölümə siz də.

**Sinfi**, *sif.* Müəyyən sinfə mənsub. O da sinfi düşmən olmuş..

**Sinif**, *is.* [ər.] İctimai zümrə. ..beynimin qüvvətini öz sinfimə verirəm..

**Sinifsiz**, *sif.* Siniflərə bölünmə olmayan. Fikrimiz və yolumuz sinifsiz gələcəyə siqnaldır.

**Sinir**, *is.* Əsəb. Açılıb dincəlir sinirlərimiz..

**Sinmək**, *f.* Əyilmək, çökmək, yerə yatmaq. Kinli gözlərdən uzaq.. bir küncə sinmişdir.

**Sino(v)**: sino(v) getmək – can atmaq, həsrətində olmaq. [İslam:] Sino gedirlər ki məni görəndə..

**Sirdaş**, *is.* Yaxın dost, həmdəm. İncidi ən yaxın sirdaşlarından.. – Bir məzar ki, nə baş daşı, ..Nə həmdəmi, nə sirdaşı; Nə doğması, nə yadı var.

**Sırğalanmaq**, *f.* Qulaqlarına sırğa taxmaq. Yenə sırğalanır, sığallanır, bax..

**Sirli**, *sif.* Müəmmalı, əsrarəngiz. Baxıb.. Min bir xatirənin sirli səsinə.. – Kainat ixtiyar, sirli, soraqlı..

**Sirr**, *is.* [ər.] Bildirilməyən, açılmayan, gizli saxlanılan informasiya. Açın sirrinizi.. – Səndə nə sirlər, nə qüdrətlər var!

**Sisli**, *sif.* Çənli, dumanlı. Sisli, yağmurlu sokaklar gedirəm.

**Sitayiş**, *is.* [*fars.*] Pərəstiş, səcdə, tapınma. □ <u>Sitayiş etmək</u> – pərəstiş etmək. Sitayiş et həqiqətin mənasına!

**Sitəm**, *is.* [*fars.*] Zülm, cəfa. Bir ömürlük sitəmdən insan azad olalı..

**Sivri**, *sif.* İti,şiş. Buludlar qoynunda çaxan şimşəyin Sivri qılınc kimi sıyrılır qından. – Sivri bir ox kimi sancıldı yerə.

**Siyah**, *sif.* [*fars.*] Qara. ..o siyah tellim, turac gülüşlüm.. – ..göyün siyah kəfəni..

**Siyahət**, *is.* [ər.] Səyahət, səfər. □ <u>Siyahət etmək</u> – gəzmək, səfər etmək. Hicran deyə bir siyahət etdim…

**Siyirmək**, *f.* Qınından çəkib çıxarmaq. Siyirib xəncəri birdən yönəlir..

**Siz**. Şəxs əvəzliyi (II cəmi). Sözüm vardır mənim sizə, durnalar! – Görmədi sizləri vəfalı Göygöl..

**Sizinki**, *əvəz.* Hörmətli II şəxsə aid olan. Buyruq sizinkidir, adil hökmdar..

**Sıçramaq**, *f.* 1. Yerindən cəld tərpənmək, yerindən qopmaq. Sıçrayıb qalxırlar məni görən tək. – Sıçrayıb göylərə qanad gərərək..

2. Atılıb basmaq. Sarıxallı pələnglər də sıçrayarmış şikar üstə. // Atılıb minmək. «İnək göz etməsə, buğa sıçramaz..»

3. Hoppanıb minmək. Sıçradın.. atın belinə.. – Sıçrayıb Qıratın belinə qalxdın..

4. Hoppanıb düşmək. Sıçrayır atdan.

5. Sıçrantı halında vurmaq. Beyninə sıçradı qan.

**Sıçraşmaq**, *f.* Atılışmaq. Ağ dalğalar sıçraşacaq sahilləri daşa-daşa.

**Sıfır**, *is.* [ər.] *məc.* Heç, əhəmiyyətsiz, boş. Demədim: bir sıfır yazılsın adam..

**Sığal**, *is.* [ər. seyqəl] Cila, süs, bəzək. □ Sığal vermək (vurmaq) – qəşəngləşdirmək. Bizim qızlar sığal versin.. yanaqlara.. – Yenə yanaqlara sığal vurulur..

**Sığallamaq**, *f.* Tumarlamaq. Azca sığallayır yanaqlarını.. – Onu sığallamış qüdrətin əli..

**Sığallanmaq**, *f.* Özünə yaraşıq vermək. O sallanar, sığallanar canlar alan bir can kimi… – Yırğalanan, sığallanan o xanımlar!

**Sığıncaq**, *is.* Sığınacaq, sığınaq. Hər könülün sığıncağı bir məhəbbət dəryasıdır.

**Sığınmaq**, *f.* 1. Daldalanmaq. Ana sığınmışdır bu kölgəliyə. – Sığındın ormanlara.

2. Pənahlanmaq. Sən ilhamın qüdrətinə.. möhkəm sığın! – Sığındıqca sən Hürmüzə..

**Sığışmaq**, *f.* 1. Yerləşmək, sığmaq. ..qılınclar da Sığışmadı öz qınına.. – ..sığışmayır yollara hamı.

2. *məc.* Müəyyən əndazədə olmaq. Həyat bir qalıba sığışa bilməz!

**Sığmaq**, *f.* 1. Yerləşmək, sığışmaq. Şəhərə sığmayır geniş küçələr.

2. *məc.* Girmək, batmaq, nüfuz etmək. Ölüm heçliklə sirdaşdır, bu hikmət sığmaz idraka.

**Sıx**, *sif.* 1. Qalın, bir-birinə çox yaxın olan,seyrək olmayan. ..sıx meşəliklər.. – Sıx buludlar, boz dumanlar..

2. Kəsif, qatı. Sıxdır dumanların, dağlar!

**Sıxılmaq**, *f.* 1. Kiçilmək, daralmaq, balacalaşmaq. Küçələr sıxılır..

2. *məc.* Pərt olub tutulmaq, utanıb-çəkinmək, ruhi qısıntı hiss etmək. Cəlal sıxılırdı o yad məclisdə..

**Sıxıntı**, *is.* Qısıntı, ehtiyac, əzab. İnsan oğlu bir ömürlük sıxıntıdan qurtulalı..

**Sıxlanmaq**, *f.* Sıxlaşmaq, bir-birinə sıx durmaq. Buludlar sıxlanıb bir ordu kimi..

**Sıxlaşmaq**, *f.* Sıx hala gəlmək. Gah seyrəlir, gah sıxlaşır əlvan buludlar.

**Sıxmaq**, *f.* 1. Basıb, qısıb təzyiq etmək. □ Əlini sıxmaq – salamlama, təşəkkür, razılıq və s. əlaməti olaraq iki sağ əlin aya və barmaqlarını bir-birinə bərk qısmaq. Titrəyə-titrəyə əlini sıxdım.. – ..sən qonaq gələndə bizə; O dost əllərini sıxdım ürəklə.

2. *məc.* Ruhən incitmək, sıxıntı vermək. Ruhunu, qəlbini bir duyğu sıxır.

3. Güllə atmaq üçün odlu silahın tətiyini şəhadət barmağı ilə basıb dartmaq. Tüfəngi üzünə tutduğu zaman; Cəlal qaranlığa sıxdı nağanı..

**Sıxnaşmaq**, *f.* Qovuşmaq, sıxlaşmaq, bir-birinə lap yaxınlaşmaq. Sıxnaşıb bir yerə baş-başa durur.

**Sıx-sıx**, *sif.* və *z.* Sıx, bir-birinə çox yaxın. Əriyir göydəki sıx-sıx dumanlar… – Xışıldayır dəniz kimi sıx-sıx cərgələr. – ..qaşlarını sıx-sıx çatır.

**Sıldırım**, *sif.* Sıldırımlı, yalçın, sarp. Sıldırım dağların cilovsuz yeli..

**Sınaq**, *is.* Sınama, yoxlama, imtahan. Düz keçirək sınaqlardan Hər tanışı, dostu, yarı.

**Sınaqlı**, *sif.* Sınanmış,sınaqdan çıxmış. Seçilməmiş hərbdə sınaqlı qəhrəmandan..

**Sınamaq**, *f.* Yoxlamaq, sınaqdan keçirmək. [Xosrov:] Bunu dəfələrlə sınamışam mən.

**Sınanmaq**, *f.* Yoxlanılmaq, sınaqdan keçirilmək. [Fərhad:] ..Meydanda sınanır, kimdədir hünər.

**Sındırmaq**, *f.* 1. Qırıb, üzüb şikəst etmək (qolu, ayağı, beli, qanadı və b.k.). Yazıq! Sındırmışdır qol-qanadını..

2. Şövqlə, vəcdlə (cuşa, qələyana gələrək) rəqs etmək. Sındırıb süzəndə əlində dəsmal..

◊ <u>Baş sındırmaq</u> – həlli çətin olan bir iş,məsələ üzərində xeyli düşünüb-daşınmaq. Oğul gərək bu meydanda baş sındırıb qələm çalsın. <u>Belini sındırmaq</u> – bərk sarsıtmaq. Belini sındırıb onun həsrəti…

**Sınıq**, *sif. məc.* Pərişan, qəmli, kədərli, qüssəli, dərdli. Qoy sınıq könlümdə tellər ötüşsün!

**Sınmaq**, *f.* 1. Qırılmaq, parçalanmaq, bütövlüyünü itirmək. Sınmış qılıncını qoymadı qına. – Qoy əski dünyanın məhvəri sınsın..

2. *məc.* Qırılmaq, sarsılmaq, yenilmək. Vüqarı sınmamış dik dağlar kimi..

**Sıpıxmaq**, *f.* Sivişmək, əkilmək. Çətin işdə, bərk ayaqda Tez sıpıxar asta-asta… – …kirimişcə sıpıxar.

**Sıra**, *sif.* Sıralı, cərgəvi, silsiləli. Biz and içdik gen dərələr, sıra dağlar qucağına..

**Sırsır**, *is.* Sırsıra (axmanın donmasından əmələ gələn buz lüləsi). Qurumuş budaqlar sırsır bağladı.

**Sıslı**, *sif.* Sisli, çənli. Siyah buludların sıslı qoynu..

**Sitat**, *is.* [lat. citatum] Mətndə özgə müəllifin hərfiyyən verilmiş sözləri. Bəzən.. kitablardan sitatlar da gətirir..

**Sıtmalı**, *sif.* Sitəmli, cəfalı. Vərəmli və sıtmalı gecələrimi günəşli gündüzlərə döndərdim.

**Sıyrılmaq**, *f.* 1. Bir şeyin arasından sürüşüb çıxmaq. Buludların arasından sıyrılıb cilvələndi.. – ..şimşəyin Sivri qılınc kimi sıyrılır qından.

2. Təmizlənmək. Dumandan sıyrılır Vətən göyləri.. – Dan yerinin dumanından sıyrıldıqca göy hava..

**Sızıltı**, *is.* Göynərti. Bir sızıltı gəlib keçdi ürəyimdən.

**Sızlamaq**, *f.* Sızıldamaq, yana-yana ağlamaq. ..Gəlinlər, qızlar Əlləri qoynunda zarıyar, sızlar.. – Duydum ki, inlədin, sızladın qəlbən..

**Sızlatmaq**, *f.* İnildətmək. Sızlatdın sazını bir xəstə kimi..

**Skelet**, *is.* [yun.] *məc.* Ölüb qurumuş gövdə. Skelet bürünür ağ bir kəfənə…

**Soğan**, *is.* Acılığı olub ətli xörəyi dadlaşdıran bostan bitkisi. ..Soğan da qalmayıb bu dükanlarda…

**Soğmaq**, *f.* Qurutmaq. Bir ağız bir bulaq suyunu soğar..

**Soğulmaq**, *f.* Qurudulmaq. Soğulmuş çeşmələr axar sizinlə..

**Soxulmaq**, *f.* 1. Girmək, təpilmək, dürtülmək. Bir yeni qüvvətlə soxulmuş yenə; Bu sarı torpağın dərinliyinə. – ..Qaçıb soxulmuşdu qaranlıqlara.

2. Bir yerə zorla girməyə çalışmaq. ..yağılar.. soxulmaq istədi sərhəddimizə.. – O soxulur orda-burda vəzifələr başına..

**Sokak**, *is.* Küçə. Sisli, yağmurlu sokaklar gedirəm.

**Sol**, *is.* və *sif.* 1. Sağ tərəfin əksində, ürək səmtində olan. Sol əlilə sağ döşünə Bir gül taxdı gülə-gülə.

2. *məc.* Radikal tərəf. Nə «sağa» büdrədik, nə də ki «sola».

**Sola-sağa**, *z.* Ora-bura, hər tərəfə. Çaparsan atını hey sola-sağa.

**Soldat**, *is.* [rus.] Əsgər. O gah soldat oldu, gah da sərkərdə.

**Soldurmaq**, *f.* 1. Solğunlaşdırmaq. Ehtiyatsız bir gözəli qara yellər tez soldurar.

2. Ölgünləşdirmək. Yuxusuz gecələr… Soldurur ürəyi..

**Solğun**, *sif.* 1. Saralıb-solmuş, təravətini itirmiş, soluq. O yerlərdə cana gələr sarı, solğun bənizlər.. – Solğun bir çiçəksən..

2. *məc.* Tutqun, pəjmürdə, pərişan. O solğun baxışın edər qiyamət..

3. Parıltısız, sönük, tutqun, zəif işıq saçan. Bəzən də göyləri gəzən solğun ay Yarıb buludları hücuma çıxar..

**Solğunluq**, *is.* Rəngi qaçma, saralma. Lakin onun sifətində bir solğunluq nişanı var..

**Solmaq**, *f.* 1. Rəngi qaçmaq, rəngini itirmək. ..solacaqdır yanaqların.. // Saralmaq. Meşələr! Solmayın fırtınalarda!

2. Azalıb zəifləmək. Sənin məhəbbətin belə solmasın.. – Yaman günün ömrü soldu..

**Soltanlı**, *sif.* Soltanı, hökmdarı olan (yer). O yer ki, krallı və soltanlıdır..

**Solub-saralmaq**, *f.* Parlaqlığını, təravətini itirmək.Onun şəffaf suyu solub-saralar.

**Soluxmaq**, *f.* Həyatiliyini itirmək. ..soluxmaz, abad olar..

**Son**, *is.* və *sif.* Nəhayət, axır, qurtaracaq. Özü də anlayır ki, bu yolun yoxdur sonu… – Qanlı döyüşlərin yoxmudur sonu? // Axırıncı. Ömrə son sözümü deməmişəm mən.. □Son qoymaq – kəsmək, dayandırmaq. «..son qoyaq biz bu dərdə».. Son nəfəsdə – can üstə. Səni son nəfəsdə deyəcək dilim. Sona yetmək (çatmaq) – qurtarmaq, tamamlamaq. Sayıb sona yetmədim günahsız qurbanları. – Kamala yetdikcə sona çatmadıq.

◊ Son bahar – payız. İndi son bahardır, gəlib keçdi yay.. Son beşik – sonuncu balası (ananın). Humay anasının son beşiyidir.

**Sona**, *is.* 1. Qu. Dəryalar üstündə süzən sonalar!

2.*məc*. Nazənin. Bir ağ gün görmədi bizim sonalar.

**Sonalı**, *sif.* Sonalar (qular) olan. Mən ki çox keçmişəm sonalı göldən..

**Sonku**, *sif.* Sonuncu, axırıncı. Əminəm, vurduğum bu sonku zərbə Əyəcək yüksələn o qanadları!..

**Sonra**, 1. *z.* Aradan keçmiş. Bildiyim qisası sonra alaram.

2. *qoş*. Ardınca. Yorğun-arğın insanlar işdən sonra Yığışmışdı bir salona.

**Sonsuz[1]**, *sif.* Bitməz-tükənməz. Bu sonsuz dərələr, qalın meşələr.. – Mən dözə bilmərəm bu sonsuz dərdə..

**Sonsuz[2]**, *sif.* Övladı olmayan (qadın). Oğul anasıyam, deyiləm sonsuz!

**Sonsuzluq[1]**, *is.* İntəhasızlıq. Bircə bu sonsuzluq bizə bəllidir.

**Sonsuzluq²**, *is.* Övladsızlıq. Səni də yandırır sonsuzluq adı..

**Sonuncu**, *sif.* Axırıncı. ..sonuncu peşimançılıq..

**Soraq**, *is.* Xəbər. □ Sorağını almaq – bir xəbər tutmaq. Alınır aləmdə sorağın sənin. Sorağı gəlmək – bir xəbər eşidilmək. Hər gün yeni bir zəfərlə gəlsin onun sorağı.

**Soraqlamaq**, *f.* Soruşub xəbər tutmaq. Keçən ömrü soraqladım.

**Sorğu**, *is.* Sual, soruşma. Cavab ver sorğuma, qoca kainat.. □ Sorğuya (sorğu-suala) çəkmək – dalbadal suallar yağdırmaq. Bu dustaq könlümü, deyin, yenəmi Çəkdiniz sorğuya, suala, gözlər?

**Sorğu-sual**, *is.* Dindirmə, suallar vermə. Bununla bitməyir bu sorğu-sual..

**Sorğusuz**, *z.* Dindirilmədən. ..Bütün sərhədləri sorğusuz keçən Eşqidir, fikridir.. Leninin!

**Sormaq**, *f.* Soruşmaq. Oxucum sormasın, bu sözlər nədir..

**Soruşmaq,** *f.* Xəbər almaq üçün sual etmək. [Topal:] Məndən soruşdu biri Şahzadənin yerini.

**Sosialist**, *is.* Sosializm məfkurəsinin tərəfdarı. «Sosialist» ləqəbli ministrlərin Qorxudan ürəyi-göbəyi əsdi..

**Sosializm**, *is.* [lat.] Kommunizmin birinci fazası. Yaratdıq Sosializm ölkəsi.

**Sovet**, *is.* [rus.] Sovetlər ölkəsinə, sosializm quruluşuna, leninizm məfkurəsinə mənsub olan. Zəfərlə qayıtdı sovet əsgəri. – .. «Təbiət nə gərək sovet şerinə»..

**Sovetlər**, *is.* [rus.] Sovet hakimiyyəti, sosialist dövləti. Sovetlər uğrunda hücuma keçdik.

**Sovxoz**, *is.* [rus.] Sovetlər ölkəsində kənd təsərrüfatı müəssisəsi. Sovxoz direktoru oyandı səhər..

**Sovqat**, *is.* Hədiyyə, bəxşiş, töhfə, ərməğan, pay. Göndərərəm sovqatını – sənin də öz payını.. – Sənə sovqat göndərirəm öz ürəyimi.

**Sovrulmaq**, *f.* Havaya səpələnib yayılmaq. Külünüz göylərə sovrulacaqdır.

**Sovurmaq**, *f.* Havaya qaldırıb səpələmək, yaymaq. Bəzən dondu yanaqların qar sovuran qış yelində. – Parça-parça sovuracaq səni küləklər.

**Soymaq**, *f.* 1. Qabığını, dərisini qoparıb çıxartmaq. Soysun dərinizi dırnaqlarınız..

2. Çalıb-çapmaq. Gəlir sürüsilə bizi soymağa. – Bütün ellərini soyub taladıq..

**Soyuq**, *sif.* 1. Hərarəti aşağı olan. ..qış günlərinin soyuq nəfəsi.. – Ömrümüz, günümüz.. soyuq və qaranlıq daxmalarda keçdi.

2. *is.* Soyuq hava, soyuqluq. Soyuq kəsir qılınc kimi… – Hələ qışın soyuğu var yerin canında. □ Soyuq dəymək – soyuqlamaq, özünü soyuğa verib azarlamaq. «..Qoy şairə soyuq dəyməsin!»

3. *sif.* və *z.* (*məc.*). Hissiyatsız, riqqətsiz, etinasız. Ona toxunmasın o soyuq əllər.. – Nə qədər soyuqdur daş ürəyiniz. – Ürəkdir ən böyük sənət əsəri, Ona bir yad kimi soyuq baxma sən.

**Soyuqlamaq**, *f.* Soyuq dəymək, soyuqdəymədən azarlamaq, özünü soyuğa vermək. Mən soyuqlamışdım.. bir az..

**Soyuqluq**, *is. məc.* Başısoyuqluq, səhlənkarlıq, laqeydlik. ..Dedin ki, bu qədər soyuqluq olmaz, Özünə baxmırsan…

Soyulmaq, *f.* 1. Talanmaq, qarət edilmək. Afrika soyulur…

**Soyumaq**, *f.* 1. İstiliyini, hərarətini itirmək. ..soyuyacaq sənin isti dodaqların..

2. *məc.* Həvəsdən düşmək. Soyumuşam bu işdən…

3. *məc.* Canlılığını itirmək. Soyudu get-gedə ömrün illəri…

◊ Hirsi soyumaq – acığı yatmaq, hiddəti keçmək, qızışması sönüb sakitləşmək. Yenə də hirsiniz soyumadımı?

**Soyunmaq**, *f.* Öz paltarını əynindən çıxartmaq. Aygün hələ soyunmamış toy paltarını..

**Söhbət**, *is.* [ər.] İxtilat. Nizaminin, Füzulinin söhbətinə qulaq asdıq. □ Söhbət açmaq – ixtilata başlamaq. ..bir işdən söhbət açardı.

**Sökmək**, *f.* 1. Uçurub dağıtmaq. Qayaları sökün!

2. Şırım açmaq, şırımlamaq. Yerin damarlarını sökən.. traktor..

3. *məc.* Ruhən əzab vermək. Eşqin ilə könülləri sökərsən. – Bu qürbət məni dağıtdı, sökdü..

**Sökük**, *sif.* Uçuq. Sökük divarları var..

**Söndürmək**, *f.* Yanan şeyi keçirmək. Tez söndürün yanğınları! – Hər odu, yanğını söndürən əldir..

**Söndürülmək**, *f.* Keçirilmək. O fanar işıqlanar, aydınladar Şərqin sönən, söndürülən ülkərini..

**Sönmək**, *f.* 1. Keçmək (yanan şey haqqında). ..Alovu sərniyib odu sönməyir. – Bəzən işığımız axşamdan söndü.

2. *məc.* Parlaqlığını itirmək. ..sözlər Bir qığılcım kimi parlayıb sönür…

3. *məc.* Taqətdən düşmək, üzülmək. Sönür sevgilisiz, sönür sevgisiz..

4. *məc.* Soyumaq, həssaslığını itirmək. Söndümü duyğular, öldümü sənət; Küsdümü şairə, şerə təbiət?..

5. *məc.* Azalmaq, zəifləmək (səs haqqında). □ Sönüb getmək – tədricən azalaraq, zəifləyərək kəsilmək. ..sönüb gedir propellerin gur səsi.

6. *məc.* Təsiri, gücü azalmaq, yatmaq. Xumarlandı gecə, istilər söndü..

**Sönməz**, *sif.* Həmişə parlayan. Sən ey ülkərimiz, sönməz sənətkar!

**Sönük**, *sif.* Solğun, cansız, düşkün. Donmuş ürəklərdə sönük bir ilham.. – Sönük vicdanları yerə soxulsun!

**Sövq**, *is.* [ər.]: sövq etmək – təhrik etmək, vadar etmək. ..sövq etmədinmi; Onu quldurluğa, talancılığa?

**Söykəmək**, *f.* Dayamaq, dirəmək. Səhəngini söykəyərək bulaq daşına..

**Söykənmək**, *f.* Dirənmək. Özü də bir daşa söykənib haman.

**Söyləmək**, *f.* 1. Demək. [Şahbaz:] Bunu söyləməkdən məqsədin nədir?

2. Barəsində danışmaq. Yaxşı söyləməzlər onun adına..

**Söylənilmək**, *f.* Deyilmək. Söylənilir ellərdə..

**Söylənmək**, *f.* Danışılmaq. ..rəhbərin gəncliyi söylənir burda.

**Söymək**, *f.* Qaba, təhqiramiz sözlər söyləmək. ..Yenə məni söymə.. – Öz arvadına söy, qorxutma məni!

**Söyüd**, *is.* (*bot.*). Ensizyarpaqlı əyilgənbudaqlı ağac. Söyüdlər də çiçək açar. – Söyüd ağacında bar ola bilməz.

**Söz**, *is.* 1. Nitq hissəsi olan mərkəzi dil vahidi, kəlmə, ləfz. Kitab da vardır ki, hər sözü mismar. – Hər sözün, söhbətin can məlhəmidir.

2. Nitq, söyləmə, deyib-danışma. Xəzər dənizindən başlayaq sözü. – Bilirsən, nə qədər sinəmdə söz var?

◊ Söz almaq – danışmağa icazə istəmək. Söz alıb danışır özü pambığın. Söz atmaq – sataşmaq, sürtüşmək, toxunmaq, pərt etmək. Söz atır oğlanlar, gülüşür qızlar. Söz açmaq – söhbət salmaq, danışmağa, söyləməyə başlamaq. Söz açıram mən Bakının axşamından. – O vaxt xanəndəmiz.. Söz açdı yurdumun gözəllərindən. Söz vermək – vəd etmək, vədə vermək. O verdiyi sözü dandı.. Söz qaytarmaq – kobudcasına cavab vermək. Odur ki hər zaman söz qaytarmayır. Söz qoşmaq – şeir yaratmaq. Ayrıca bir fəsil açıb Söz qoşmalıyam. Söz salmaq – söhbət açmaq. Nə loğmansan, hüzurunda hikmətlərdən söz salam. Söz uydurmaq – özündən qondarmaq. ..söz uydurmasa, ürəyi partlar. Sözə gəlmək – deyişmək, höcətləşmək. Anasıyla sözə gəlib üzə də durdu.. Sözü var kimi – sanki nəsə demək istəyir. Sığınmış qoynuma sözü var kimi. Sözü keçmək – sayılmaq, sayğı göstərilmək. Sözün keçməzsə bir yerdə, böyüklük.. susmaqdır. Sözüm (sözün, sözü) var (kimə) – demək istəyirəm. Sizə bir sözüm var, böyük hökmdar! – Bəlkə bizə bir sözün var?

Sözüm yoxdur – bilmirəm, nə deyim (danlaq, məzəmmət ifadəsi). Sənə yoxdur sözüm, Musa! Sözüm onda deyil – söhbət ondan getmir. Sözüm onda deyil, «nuşi-can» olsun.. Sözün doğrusu, sözün düzü – əslində, həqiqətdə. Bilirsən, Vidadi, sözün doğrusu.. – [Ay:] Lakin bizim şairlərdən incimişəm, sözün düzü. – Sözün düzü, mən acizəm təsvir üçün. Sözündən dönməmək – dediyinin üstündə durmaq. Öz sözündən, dediyindən dönməməyi də. Sözündən (kənara) çıxmamaq – itaət etmək. Kənara çıxmaram onun sözündən. Sözünü geri götürmək – əzmindən dönmək, rəyindən, qərarından imtina etmək, fikrindən daşınmaq. Geriyə götürməz sözünü zaman.

**Sözlü**, *sif.* Ürəyi dolu. Sən ey sözlü sənətkar..

**Sözsüz**, *sif.* və *z.* Nitqsiz, danışıqsız. Nə lazım dünyada sözsüz yaraşıq..

**Su**, *is.* 1. Hidrogenlə oksigenin kimyəvi birləşməsi: şəffaf rəngsiz maye. Təmiz suyu üflər içər…

2. Yerin dəniz, çay, göl hissəsi. ..Batır suda, vur quruda, havada!

3. İqlim, ab-hava. Alqış sizi böyüdən bu torpağa, bu suya!

4. Yaş. □ Su olmaq – tərdən yaş olmaq. İslanıb su olur əynində köynək. // Tər. □ Su(yun) içində – tər içində. Günəşin altında, suyun içində..

5. Şirə, cövhər. □ Suyu şirin – yapışıqlı, məlahətli, lətafətli. Nə şirindir suyun sənin..

◊ Öz suyunu ürəkdən içmək – canına yatmaq. Hər şey öz suyunu ürəkdən içər…

**Sual**, *is.* [ər.] Cavab almaq üçün soruşma, sorğu. ..Gecdir bu suallar!.. □ Sual etmək – soruşmaq. Sual edirsən ki, bəs nəyi vardır? // Sualedici, suallı görkəm. ..hər baxışda bir sual… □ Sual etmək (eləmək, eyləmək) – cavab gözləmək. ..hər insan zamandan bir sual eylər.

**Subasar**, *is.* Daşqın zamanı su altında qalan sahil yerləri. Körpə ceyran düzə gəlsin subasarı görəndə.

**Subay**, *is.* Evli, ailəli olmayan adam. Subaylarsa ona baxıb ləzzət alır.

**Subaylıq**, *is.* Evlənməmə. Subaylığı çıxarmadı öz xəyalından.

**Suç, suc**, *is.* (*köhn.*). Günah, təqsir. İş üstündə səhvi, suçu olmayan varmı? – Sucum nədir..

**Sulamaq**, *f.* Su çiləmək, suvarmaq. Süpür qapımızı, sula evmizi..

**Sulanmaq**, *f.* Suvarılmaq. Qoy qanla sulansın hər susuz dərə!

**Sultan**, *is.* [ər.] Hökmdar, padşah, soltan. Çöllərin sultanı, şahı çobanlar.

**Sulu**, *sif.* 1. Rütubətli, nəm. O sulu daxmamız, ağac taxtımız..

2. Suyu bol olan. Dumanlı dağ, sulu dərə..

**Surə**, *is.* [ər.] Quranın 114 fəslindən hər biri. Dilində surələr – durdu namaza..

**Surət**, *is.* [ər.] 1.Sima, sifət. Surəti peyğəmbər, hüsnü pürvüqar Bir qoca..

2. Bədii obraz.. Bir surət yaradır bir heykəltaraş.

3. Portret, şəkil. Cavanşirin surəti də baxır divardan.. – Necə çəkim mən hamının surətini?..

**Susdurmaq**, *f.məc.* Məhv etmək. ..Ölən kapitalı birdəfəlik susduracaq!

**Susdurulmaq**, *f.* Susmağa məcbur etmək, səslənməsinin qabağını almaq. Qılınclamı susduruldu azadlığın şüarı?

**Susəpən**, *is.* Suçiləyən. Qızlar susəpənlə küçə suvarır.

**Susmaq**, *f.* 1. Daha səslənməmək, səsi kəsilmək. Orkestro susur birdən… // Səs-küyü kəsilmək. Danışmayır, susur şəhər… // Sükuta dalmaq. Susdu dəniz bir anda.

2. Cavab verməmək. Susaram ruzgarın suallarına..

3. *məc.* Duyğusunu, düşünüşünü büruzə verməmək. Yox, o susmayacaq, susmaz sənətkar!

4. *məc.* Yaradıcılığını dayandırmaq. ..niyə susdun bu qədər?

**Susuz**, *sif.* 1. Suyu olmayan, suyu qurumuş, suyu çəkilmiş. ..bir susuz səhrası var. – Susuz qalan çöllər..

2. Sudan məhrum. Bəzən ac da qaldıq, susuz da qaldıq..

**Susuzluq**, *is.* Bərk susama. □ Susuzluq çəkmək – susuzlamaq, ürəyi yanmaq. ..susuzluq çəkən Bir insanın yollarında bulaq olaydım…

**Suvaqlı**, *sif.* Malalı. ..üz-üzə durmuşdur suvaqlı damlar.

**Suvanılmaq**, *f.* Malalanmaq, suvanmaq. Qoy baxanda üzə gülsün suvanılmış divarlar.

**Suvanmaq**, *f.* Mala çəkilmək, suvanılmaq. ..sarayların.. divarları.. suvanacaq..

**Suvarmaq**, *f.* 1. Sulamaq. Qızlar susəpənlə küçə suvarır.

2. *məc.* Can vermək, həyat vermək, ruhlandırmaq. Hürmüzün ruhu suvarmış bu məhəbbət bağını.

**Sübut**, *is.* [ər.] Faktlarla, dəlillərlə təsdiq etmə. Sübutmu? Kitayın bugünkü halı..

**Süd**, *is.* 1. Qadınlarda və dişi heyvanlarda doğuşdan sonra döş vəzilərinin ifraz etdiyi ağımtıl qidalı maye. Bizə döşlərindən süd verən ana.. □ Südüm sənə halaldır – ana övladına «Afərin, əhsən sənə!» deyə biləcəyi məqamlarda işlənən məmnunluq ifadəsi. Görürəm ki, qəhrəmansan, sənə halaldır südüm.

2. Süd kimi ağappaq. Axşam işıq salır süd bənizli ay.. – Nə təmizdir, nə parlaqdır mahtabın süd bənizi.

**Südağızlı**, *sif.* Südəmər, çağa. Yaşa dolur südağızlı körpələr..

**Südəmər**, *sif.* və *is.* Süd əmən, körpə. Yatır qucağında südəmər (*sif.*) bir qız. – Qocaların, cavanların, südəmərlərin (*is.*) Üz-gözündən səhər kimi nurlar tökülür.

**Süfrə**, *is.* Xüsusi örtük və onun üstünə qoyulan yeməkiçmək əşyaları. Sonra süfrə gəlir.. □ Süfrə açmaq – yeməkiçmək təşkil etmək. Süfrə də açmadı bulaq başında. Süfrəyə oturmaq – yemək-içmək üçün masa arxasında yaxud yerdən əyləşmək. O hər axşam oturduqca süfrəyə. Sevgilisi gəlib düşür yadına.

**Sükunət**, *is.* [ər.] Sükut, sakitlik; durğunluq, hərəkətsizlik. Sükunətin qəlbi qurşun..

**Sükut**, *is.* [ər.] Dinməmə. Baxışlarda bir qəzəb var, dodaqlarda bir sükut. // Sakitlik, sükunət. ..göy sükutda, dəniz lal.. □ Sükut etmək – dinməmək, susmaq. O yenə də sükut edir, danışmayır bir anlıq. Sükut çökmək – səs-səmir kəsilmək. Çökdü evimizə acı bir sükut.. Sükuta varmaq (getmək) – sükuta batmaq, sükuta qərq olmaq, sükuta dalmaq, uyumaq. Suyun.. səsi; Buzların altında sükuta varmış… – Gedərkən sükuta gecənin qəlbi.. – Ay baxıb sükuta getdi bu dəfə.

**Süməklənmək**, *f.* Sülənmək, sümsünmək. Əsmər qarı süməklənir kulakların yanında..

**Sümük**, *is.* Skeletin hissəsi. Babamın ağ sümükləri çürümüşdür bu torpaqda. – ..sümük yeyir orda insan..

**Sünbül**, *is.* 1. Dənli hissəsi olan taxıl bitkisi. Tarladakı sünbülləri dənlər köçəri quşlar.. – Çirməyib qolunu qızlar, gəlinlər; Yığsın qucağına sarı sünbülü.

2. *məc.* Sünbül rəngində, sarışın, sarımtıl. [İslam:] Saçları sünbül..

3. Salxımvarı göy çiçək. Süsənlər, sünbüllər, güllər bizdədir.

**Sünbüllü**, *sif.* Çoxlu sünbülü olan (çöl, tarla). Sonunda ömrümün məzarı olsun; Gəlinli çeşmələr, sünbüllü çöllər.

**Süngü**, *is.* Tüfəng lüləsinin başına taxılan sivriuclu, eləcə də xəncərvarı soyuq silah. Bu nizələr, bu süngülər muzeylərdə pas tutacaq.. – Ey Vətən,.. Durmuş keşiyində süngümüz.

**Sünilik**, *is.* Qeyri-təbiilik, saxtalıq. Nədir o sünilik, nədir, ah, aman!

**Süpürmək**, *f.* Bir yeri zibildən, tozdan və b.k. süpürgə ilə təmizləmək. Süpür qapımızı..

**Sürahi**, *is.* [ər.] *məc.* Qədd-qamətlilik, təndürüstlük mənasında gözəlin təsviri (şairanə təşbehlərdə). Boy sürahi, qamət çinar, Dişlər inci, ağız püstə.

**Sürək**, *is.* 1. Böyük sürü. Sürəkdən ayrılmış dağlar maralı…

2. Heyvan ovu. Sən də igidlərlə çıxıb sürəyə.. Öz kəhər ürgəni çapdın dördnala..

**Sürət**, *is.* [ər.] Hərəkətin, fəaliyyətin tezlik, itilik dərəcəsi. Sürətimiz keçsin gərək sürətini frezerin! – Bu sürət yaraşır torpaq oğluna.

**Sürətlə**, *z.* Tez, iti. ..süzür göylərdə sürətlə.. – Tarix öz atını çapır sürətlə..

**Sürətli**, *sif.* …sürətində olan. İldırım sürətli bir təyyarədir…

**Sürgün**, *is.* Cəza tədbiri olan məcburi köçgünlük, vətənindən uzaqlaşdırma. Yaşamış ömrünü sürgünlərdə.. // Sürgün yeri. Zəncirlər səslənir uzaq sürgündə. □ <u>Ömürlük sürgünə getmək</u> – *məc.* Bir daha qayıtmamaq. Ömürlük sürgünə getdi ehtiyac.

**Sürmə**, *is.* Kosmetik qara boya. Qaşların sürməsiz, üzün boyasız..

**Sürmək[1]**, *f.* 1. İrəli hərəkət etdirmək, yeriməyə təhrik etmək. Sür atını, dördnala çap! Meydan sənindir… // Nəqliyyat vasitəsini idarə etmək. Maşını sür görək, Anatoli, sür!

2. Şumlamaq. İndi sürməyirəm yerimi xışla.

**Sürmək[2]**, *f.* Müəyyən müddət ərzində davam etmək, çəkmək. ..çox sürməz bu qış.. – Bizim dostluq tarixçəmiz beş-altı il sürdü ancaq.

**Sürü**, *is.* Heyvan, quş, balıq dəstəsi. Qoyun sürüləri nə çox görünür? – Ördək sürüsünü seyrə dalacaq.

**Sürükləmək**, *f.* Yerdən qaldırmadan çəkib aparmaq. Onu küləklər İstədiyi səmtə alıb sürüklər.

**Sürülmək[1]**, *f.* Aparılmaq. Sənətin bazarına sürülməsin bu saxta mallar!

**Sürülmək[2]**, *f.* Şumlanmaq. Yağdı güllə, sürüldü yer..

**Sürünmək**, *f.* 1. Bütün gövdə yerə dəyməklə irəli hərəkət etmək. ..Qar üstündə sürünürsən.. sürünmək qurda adətdir.

2. *məc.* Məşəqqət və səfalət içində yaşamaq. Yolunda illərcə süründüm.. – Qoyma ki, yerlərdə sürünsün bəşər..

**Sürü-sürü**, *sif.* Çoxlu sürülərlə. Sürü-sürü marallar…

**Süsən**, *is.* Bənövşəyi yaxud sarımtıl gülləri olan çiçək. Süsənlər, sünbüllər.. bizdədir.

**Süslü**, *sif.* Bəzəkli, zinətli, yaraşıqlı. Qadın! O sevimli, süslü bir sona..

**Sütun**, *is.* 1. Binada daşdan, mərmərdən tikilən hündür dirək. ..dörd divar… Nə bir sütun qalmış, nə dəmir bir tağ..

2. Sütunvarı yuxarıya qalxan toz, tüstü, işıq, buxar və b.k. zolağı. İşıq sütunları ərşə dayanır.

**Süzə-süzə**, *z.* Aram-aram, ağır-ağır, asta-asta. ..Axıb gedər süzə-süzə.

**Süzgün**, *sif.* Nazlı, qəmzəli. – Ah, o baxışlar ki, öylə süzgündür..

**Süzgün-süzgün**, *sif.* və *z.* Naz-qəmzəli. Baxışları.. süzgün-süzgün.

**Süzmək¹**, *f.* 1. Sezmək məqsədi ilə kimsənin görünüşünü qiymətləndirici tərzdə nəzərdən keçirmək. Aslan süzür o xanı…

2. Süzülmək: xumarlanaraq süzgün halda olmaq. Ala gözlər.. Süzüb axdı..

**Süzmək²**, *f.* 1. Asta-asta, aramla və sakitanə havada, suda və quruda qabağa doğru hərəkət etmək. Çayların üstündə süzən sonalar.. – Gəmi süzür yavaş-yavaş.

2. Qanad çalmadan sürətlə uçmaq. ..Şığıyıb süzəndə o bir ox olur. – ..süzür göylərdə sürətlə..

**Süzülmək¹**, *f.* 1. Hissə-hissə axmaq, damcı-damcı tökülmək, sızmaq. Baxın gözlərindən süzülən yaşa! □ Süzülüb axmaq – gur axıb tökülmək. Süzülüb sel kimi axdı göz yaşı.

2. *məc.* Mənbəyindən qopub yayılmaq. Dodağından süzüldükcə o dağların şikəstəsi.. – Qəm süzülür gözlərindən… □ Axıb süzülmək – aramsız axıb yayılmaq. ..Rübabından axıb süzülsün Kamal dünyasının solmaz hünəri.

**Süzülmək²**, *f.* Xumarlanmaq, süzgün halda olmaq. Ala gözlər süzülür.. – ..durna baxışları süzüldükcə xumar-xumar.. □ Süzülüb axmaq – süzgün-süzgün baxmaq. ..süzülüb axan gözlərin..

# Ş

**Şabaş**, *is.* [*fars.*] Toy məclislərində oynayanlara xanəndə və çalğıçılar üçün verilən pul. Şabaş deyib qışqıran toyları tərk edirsən.. – Yengə süzür, şabaş yağır, ölmə, aman!.

**Şablon**, *sif.* [alm.] *məc.* Çeynənmiş, bayağı, basmaqəlib. ..Qəlbi şablon və şarlatan şairlərin..

**Şad**, *sif.* 1. Şən, fərəhli, məmnun. ..Şad ürək burda tək-təkdir.

2. Xoş, ürəkaçan, yaxşı. Bu gün məni.. Bir şad xəbər salamladı. // *z. mənasında.* Ömrümüz şad gəlib şad keçəcəkdir. – [Şapur:] Gecəniz xoş keçsin, gündüzünüz şad! □ Şad etmək (eləmək) – sevindirmək, fərəhləndirmək, şadlandırmaq, məmnun etmək. Bu fəryad.. bizi şad etməyəcəkdir. Şad olmaq – sevinmək, şadlanmaq, məmnun olmaq. O da Əmirxansız şad olub gülməz. – Mən də baxıb bir şad olum. // *məc.* Barmaqlar dincəlir, əllər şad olur. – Yamaclar bəzənir, çöllər şad olur.

3. Şaddır, şadam şəklində – cümlədə xəbər funksiyasında işlənir – sevinir, məmnundur. Yox, yox, mən şadam.. – Odur ki, hamının ürəyi şaddır. – Hamı şaddır!

**Şadlanıb-sevinmək**, *f. bax* şadlanmaq. Hələ sən şadlanıb-sevindin də bir…

**Şadlanmaq**, *f.* Sevinmək, fərəhlənmək, şad olmaq. Gün olsun ki, hamınızla bir şadlanaq, bir oturaq.. – Ömründə şadlanıb gülmədin bir gün..

**Şadlıq**, *is.* 1. Sevinc, fərəh. Daima şadlıqla gülən bir mələk. – [Şahbaz:] Nə mütləq qüssə var, nə mütləq şadlıq. – Gülüb şadlığından qol-qanad açır..

2. İnsana sevinc, fərəh, məmnunluq verən hadisə, şey, əyləncə. Fəqət məni düşündürən nə bu şadlıq, nə bahardır.. – Nə bir toya getdik, nə də şadlığa.

◊ Şadlıqdan yer ilə göyə (yerə-göyə) sığmamaq (sığışmamaq) – hədsiz sevinc içərisində olmaq, sevinmək, şadlanmaq. Şadlıqdan sığışmayıb yer ilə göyə; Öz eşqini övlad kimi bağrına basır.

**Şadyanalıq**, *is.* Şadlıq, şənlik, bayram. Uzandı dostların şadyanalığı; Bürüdü söhbətlə söz ortalığı.

**Şaftalı**, *is.* [*fars.*] Üstü hovlu, sarı-qırmızı rəngli, iritumlu şirəli meyvə. Nar çatlayıb, şaftalılar saralır. – Şaftalılar şirələnib budağını əyəndə..

**Şah**, *is.* [*fars.*] 1. Şərqdə padşahın, hökmdarın titulu, və bu titulu daşıyan şəxs. [Banu:] Şirini tez tapın, tez qərar verək; Bu gündən şah olsun o gözəl mələk! – İmamlar, nəbilər, sultanlar, şahlar; Min il at oynatdı kürəyimizdə.

2. *məc.* Ən birincisi, ən yaxşısı, ən nümunəvisi. Balıqların odur şahı. – ..Çöllərin sultanı, şahı çobanlar.

3. *sif.* Ən yaxşı, ən yüksək, ən qiymətli. ..Coşur xəyalımın şah dalğaları.. – Buludlarla qucaqlaşır xəyalımın şah vüqarı.

4. *məc.* İran şahlığı mənasında. Şahın şiri quyruq qısar tülkülər kimi.

◊ Şah damar(ı) – bir şeyin əsası, mərkəzi, canı. Qırdı qardaşlığın şah damarını. Şah əsər – ən yaxşı, ən nümunəvi, birinci əsər. O alimin zər yazılı şah əsəri.. – Rusiya şerinin şah əsərini; Çevirdim Vaqifin şirin dilinə.

**Şahbaz**, *is.* [*fars.*] 1. Yırtıcı quş; tərlan, şahin. Bir qaya zirvəsi oxurdu şahbaz.

2. *sif.məc.* Məğrur, vüqarlı. O mələk simalım, şahbaz baxışlım, O dodağı ballım, ceyran yerişlim.

**Şahid**, *is.* [ər.] 1. Bir hadisəni, əhvalatı öz gözü ilə görən adam. Şahid atalardır, bir də analar. – Onun həsrətinə şahiddir hamı. // *məc. mənada.* Buna şahid olur hər dağ, hər dərə. – Buna şahid.. bükülməyən qamətimdir.

2. Şəhadət verən şəxs. Eşidin, bu haqda şahid nə deyir.. ☐ şahid durmaq (olmaq) – öz gözü ilə gördüyü bir şey, hadisə haqqında ifadə, məlumat verməklə onun doğru olub-olmadığını göstərmək (həqiqi və məcazi mənalarda). Qarlı dağlar şahid durur keçirdiyin dövranlara. – Şahid olsun sözlərimə qoy gələcək. Şahid tutmaq – *bax* şahid çağırmaq. Mən şahid tuturam bütün aləmi. – Sən anasız balaları şahid tutub bağrına bas.. Şahid çağırmaq – bir şeyin həqiqətən olub-olmadığını sübut etmək üçün rəsmi şəkildə adam göstərmək. Şahid çağır ölkələri (*məc*). Şahiddir tanrı (Allah) – şahid olmayan zaman deyilir. [Şirin:] nə üçün verirsən bu sualları? Mənim vicdanıma şahiddir tanrı. Tarixlər şahidi – uzun illər yaşayan, duran. Tarixlər şahidi qocaman Bakı. – Tarixlər şahidi abidələr də..

**Şahin**, *is.* 1. Yırtıcı quş; tərlan, şahbaz. Çarpışdı şahin tək fırtınalarla. – Tısbağalar şahin kimi çolpa uçurtmaz.

2. *məc.* Cəsur, igid, qorxmaz adam haqqında. İgid şahin.. // Sovet təyyarə və təyyarəçilərinə verilən təntənəli ad. Açır qızıl şahinlərim göy üzündə qanadını..

3. *sif.* Məğrur, vüqarlı. Onun uzaqgörən şahin gözə də. – Sınmış o əvvəlki şahin vüqarı.. ☐ Şahin kimi süzmək – as olmaq (təyyarəçilər haqqında). Hüseynbala şahin kimi süzür havada.

**Şahlıq**, *is.* Padşahlıq, hökmdarlıq. [Vəzir:] Şahlığı tez gərək alasan ələ…

**Şahmar**, *is.* [*fars.*] 1. İri, zəhərli ilan cinsi. İndi Kür boyunca, Araz boyunca; Gürzələr, şahmarlar çəkilir qına.

2. *məc.* Zalım, amansız, lakin imkanlı adam haqqında. Dünyada bir şöhrət, bir altun deyə Şaxmarın qoynunda sən yatmadınmı?

3. Obrazlı təşbehlərdə: gözəlin saçına işarə. O zülfü şaxmar.

**Şahnaz**, *is.* [*fars.*] Azərbaycan klassik müğamlarından biri. Ən sonra gəlirdi ta uzaqlardan; Neyin şikəstəsi, tarın

şahnazı. – «Zəbul segah».. Dəli «Şahnaz».. Mənalı «Şur»; Sanasan ki, bir ananın övladıdır.

**Şahpər**, *is.* [*fars.*] *məc.* Lələk, qanad. Başına pərvanə olmuşdur bu dəm; Bir şair qəlbinin xəyal şahpəri.. – De, hansı dahinin xəyal şahpəri; Ucala bilmişdir bari bir kərə..

**Şahzadə**, *is.* [*fars.*] şah oğlu və ya padşah ailəsindən olan şəxslərin övladlarından biri. [Topal:] Məndən soruşdu biri Şahzadənin yerini.

**Şax**[1], *is.* Ağacdan, koldan ayrılan budaq, qol. Pambıq şaxlarının arasındayam. – Qalın şaxlarımın xışıltısından Zövq alır dünyanın şöhrəti insan.. – Səslənən meşə də, şax da, yarpaq da…

**Şax**[2], *sif.* Düz, dik, sərrast. ..Üzə şax bax bir kərə.. – Gələcək günlərə şax baxa-baxa..

**Şax-budaqlı**, *sif.* İri şaxları, budaqları, qolları olan. Şax-budaqlı ağac kimi çiçəklənir qocalıq..

**Şaxəli**, *sif.* Şaxələri olan, qollu-budaqlı. Tarlada şaxəli bir sünbül olur. – Şaxəli sünbülün, yerin sirdaşı..

**Şaxsey**, *is.* Məhərrəmlikdə: imam Hüseynin qətli günlərində şiyələrin mərsiyə, növhə oxuyaraq başlarına, sinələrinə vurub şivən qoparma mərasimi, şaxsey-vaxsey. Bu gün nə şaxsey var, nə də ki, vaxsey..

**Şax-şax**, *sif.* Düz, dik, hündür. Şax-şax buruqları titrədən külək..

**Şáxta**, *is.* [alm.] Faydalı qazıntıların çıxarıldığı və yeraltı işlərin aparıldığı yer. ..Yer altında.. Şaxtalarda.. mədən qazıram.. – Yeraltı şaxtalar bir şəhər olur.

**Şaxtá**, *is.* Çox soyuq, qış havası, sıfırdan aşağı hava temperaturu. Əritdi donunu şaxtanın, qarın. – Qışın şaxtasında taxıl becərən. // *sif. məc.* Soyuq, ehtirası, hərarəti olmayan. ..Şaxta qəlbi ilk baharsız.. □ Şaxta vurmaq – soyuqdan, şaxtadan məhv olmaq, soyuq aparmaq. Şaxta vurmayacaq göy zəmiləri. Şaxtalar vurmayır bağçanı-bağı.

**Şaxtalı**, *sif.* Bərk soyuq. Bahara yol açdı şaxtalı qışdan. – Ayazlı, şaxtalı bir qış axşamı Yeddi yoldaş olub, yola düzəldik.

**Şaxtyor**, *is.* Şaxtada işləyən fəhlə,, mədən fəhləsi; şaxtaçı. Donbas şaxtyoru, Bakı fəhləsi Gövhərlər axtarır, mədənlər qazır.

**Şair**, *is.* [ər.] 1. Şeir söyləyən və ya yazan şəxs; təbiətində şeir söyləmək və yazmaq qabiliyyəti olan şəxs. Bizdə şeir də var, sənət də vardır! Şairə, sənətə hörmət də vardır.

2. Tərənnümçü. Şairi olduğum qəhrəmanların; Şöhrəti aylara, illərə gəldi. – Ancaq sabahın da öz şairi var.

3. Poetik, şairanə görmək, düşünmək qabiliyyəti olan şəxs; şairkönüllü şəxs. Onun şair qəlbi varmış, O sevirdi təbiəti; Günəş belə salamlarmış; O qızdakı şeiriyyəti. □ Şair xəyalı – hədd-hüdudu olmayan şair təxəyyülü. Şair xəyalı tək hüdudsuz çöllər. – ..Şair xəyalımın qanadları.

**Şairanə**, *sif.* və *z.* [*ər.* şair və *fars.* ...anə] 1. Şairə xas, şairə məxsus; təmiz, pak. Bir də şairanə təbiətin var. – Anam.. Təmiz şairanə bir məhəbbətə; Cavab verməyərək evə tələsmiş..

2. *məc.* Gözəl, məftunedici, füsunkar, romantik. Şairanə bir gecədir Kür qırağında; Ağ ulduzlar çiçək-çiçək, göy üzü çəmən. Şairanədir şəklində – xəbər mənasında – gözəldir, füsunkardır. ..Şairanədir Qayıq gəzintisi..

**Şairə**, *is.* [ər.] Qadın şair. İspaniyanın inqilabçı şairəsi..

**Şairkönüllü**, *sif.* Şair təbiətli, həssasqəlbli, incəqəlbli. Gecə açılmayır, doğmayır sabah; O şairkönüllü, xoşxəyallıya.

**Şairlik**, *is.* Şeir yazma, şeir qoşma sənəti. Tənha bir şairin uzaq xəyalı şairlik halı. – Yenə şairliyin baş aparır ha!..

**Şaqqalamaq**, *f.* *məc.* Parçalamaq; baltalamaq, qılınclamaq. Şaqqaladın şaşqınları – leş bir yana, baş bir yana.

**Şaqqıldamaq**, *f.* *məc.* Cəh-cəh vurmaq, cəh-cəhlə ötmək, oxumaq, çalmaq. Şaqqıldadı qoşa zurna axşamçağı.

**Şaqqıldatmaq**, *icb.* Bir şeyi digərinə toxunduraraq, vuraraq, şaqqıltı səsi çıxartmaq. Bir qurd kimi dişlərini şaqqıldadır zaman-zaman. – Şaqqıldatdın şaşqanı sən.. // Qanad çalaraq şaqqıltı səsi çıxartmaq. Gücilə şaqqıldat qanadlarını.. – Toyuq ..döydü qanadını şaqqıldadaraq.

**Şaqqımaq**, *f.* Şaqqıltı səsi çıxartmaq, şaqqıldamaq. İldırım şaqqıyıb şimşək çıxdımı? – İldırımlar şaqqıyır tərpənməyən dağlara..

**Şaqraq**, *sif.* Şən, nəşəli, sevincgətirən, ürəkaçan. Sizin şaqraq dilinizi eşitməsəm..

**Şal**[1], *is.* Yundan və s.-dən toxunmuş böyük baş örtüyü. Uşağın üzünə çəkir şalını. – Əynində paltosu, başında şalı..

**Şal**[2], *is.* 1. Nazik, yumşaq yun parça. Şəkinin bəzəyi şaldır, ipəkdir.

2. Şaldan tikilmiş paltar. Bəzən şal geyirəm, bəzən də xara! – Al şala bəzənmiş.. qızlar.

**Şalban**, *is.* Şaxı, budağı, üst qatı təmizlənmiş böyük ağacın gövdəsi; dirək. [Humay:] Dayamış alnını soyuq şalbana.

**Şalvar**, *is.* Bədənin beldən aşağı hissəsini və qıçları örtən ikibalaqlı üst geyim növü. [Haşbalın] Cırıq şalvarından çıxmış dizləri..

**Şam**[1], *is.* [ər.] 1. Nazik fitil qoyulmuş mumdan, və ya piyli maddələrdən hazırlanan silindrik işıq ləvazimi. Öpək hər çırağı, hər yanan şamı. – Xonçalar bəzənir rəngbərəng şamla.

2. *məc.* Lampa, fənər və s. işıq cihazları mənasında. ..Xülyalara bənzədi bu axşam; Üfüqümdəki hər şam. – Bir günəş doğmadı, şam da yanmadı.

3. *məc.* İşıq, ürfan; maarif. Yandı hər könüldə murad şamımız. // Şama oxşayan, nazik, uzun, ağ. Donar.. Vətən qızlarının şam barmaqları.

◊ şam kimi (təki) yanmaq – *bax* şam kimi sönmək. Gecələr şam kimi mən də yanmışam. – İnsan oğlu şam təki; Bəzən yanır gizlicə. Şam kimi sönmək (sönüb-qaralmaq, qara-

lıb-sönmək) – puça çıxmaq, yox olmaq. Sanma ki, şam kimi sönüb-qaraldı.. Orda ağladıqca hər dustaq ürək, Şam təki sönmüşdür ümüdlə dilək. Qaralıb-sönmüş şam – talesiz, nakam getmiş hər bir kəs. Hər qaralıb-sönmüş şamın; Öz hüsnü var, adı vardır.

**Şam², şamağacı**, *is.* İynəyarpaqlı həmişəyaşıl ağac. Durmuş ordu kimi şam ağacları. – Şamağacı, şamağacı! Küsmə məndən; Qış da, yaz da camalında baharda yaşar.

**Şamama**, *is.* [ər.] Çox ətirli, kiçik dekorativ yemiş növü. Şamamanın tağı yadıma düşdü.. Çoxdur.. şamamalar, ..qarpızlar.

**Şamayı**, *is.* [*fars.*] Xəzər, Qaradəniz, Azov dənizləri hövzələrində çox yayılmış balıq. Şamayısa az-az olur.

**Şamdan**, *is.* [ər. və *fars.*] Şam qoymaq üçün altlıq. O qəlbini əridir; Şamdandakı mum kimi.

**Şamırtmaq**, *f.* Qamaşdırmaq, görməz hala salmaq (gözləri). İnsanın gözünü şamırdır bəzən…

**Şamü-səhər**, *z.* Həm axşam, həm səhər, hər vaxt, hər zaman, bütün günü; səhər-axşam. Sümüklərin sızıldardı şamü-səhər.

**Şan(a)**, *is.* Balı saxlamaq və toxum tökmək üçün arıların pətəkdə mumdan düzətdikləri gözcüklər. Ballı pətəklərə bənzər beynimiz: İçində boş qalmış bir çox xanalar. – Şanada bal tutan barmağın yalar.

**Şanlı**, *sif.* və *z.* 1. Rəşadətli, cəsur, qəhrəman. At belində qılınc çalmış; Sənin şanlı babaların. – Şanlı yaşasın gənc nəslimiz!

2. Şöhrətli, şərəfli, uca. Yurdumun bu əziz, şanlı günündə - Şöhrətli, şanlı xanlar.

3. Möhtəşəm, əzəmətli. Qarşında diz çökdü Şanlı saraylar. – Cahan gülşənində şanlı bir gülsən..

**Şan-şöhrət**, *is.* Şöhrət, ad-san, həşəmət. Yer üzünün şan-şöhrəti olacaq insan. – Ellər arasında şan-şöhrətim var.

**Şantan**, *is.* [fr.] Estradası olan restoran; kafeşantan. Doldu tay-tay Kitayın ipək malı Parisin şantanlarına..

**Şapalaq**, *is.* Əlin içi ilə vurulan zərbə, şillə. ..Yumruq, şapalaq; Boyamış qana; Ağız burnunu..

**Şapká**, *is.* [rus. əsli türk.] Əsasən isti, yumşaq baş geyimi; papaq. Əyilmiş şapkası tozlu-torpaqlı.. – Axır suyun üzündə; Kakartlı* göy şapkalar…

**Şaraq**, *səs təql.* Sınan, partlayan, bir-birinə dəyən şeylərdən, habelə ildırım çaxmasından, atılan gülədən çıxan səs. Şaraq, haşaraq; Yumruq, şapalaq.

**Şaraqqaşaraq**, *səs təql.* Ağac və s. kövrək şeylərin sınmasından və ya bir-birinə toxunmasından hasil olan səs. Humayın başında şaraqqaşaraq.

**Şarlatan**, *is.* [fr.] Yalançı, fırıldaqçı, kələkbaz, cüvəllağı. 150 milyon azad insanları satan şarlatan! – ..Oğrular, əyrilər, o şarlatanlar; Toplanıb başına «Sağ ol!» – deyirlər.

**Şaşırmaq**, *f.* Bir iş, bir hadisə və s. qarşısında özünü itirmək, çaşıb qalmaq. Ayıq ağlımızı şaşırırıq biz.. □ Yolunu şaşırmaq – yolundan çıxmaq, yolunu azmaq. Bil ki, cəsarətlə vuran bir ürək; Şaşırmaz yolunu… – Bulandırır könlünü Şaşırmışdır yolunu.

**Şaşqa** [rus.] Bir qədər əyri birağızlı kəsər silah; kazakların qılıncı. Şaşqalar başını qaldırdı göyə.. Şaqqıldatdın şaşqanı sən.

**Şaşqın**, *sif.* Nə edəcəyini bilməyən, çaşıb qalmış, fikirli, çaşqın. Buludlar oynaqdır, sanma şaşqındır. // *z. mənasında.* Filosoflar belə şaşqın qalmış.. // *is. mənasında.* Şaqqaladın şaşqınları – leş bir yana, baş bir yana..

**Şaşmaq**, *f.* Özünü itirmək, çaşıb-qalmaq, çaşmaq. Üfüqdəki yanğınmıdır? Şaşır diqqət… – Öz yolunu gəmi şaşdı..

**Şayiə**, *is.* [ər.] Yayılmış, dillərdə gəzən danışıq, söz-söhbət. Bunla gülməyim gəlir, doğrusu; Tarixdə bir qara şayiədir bu! – Bütün şayiələr bir siyasətdir. – De, səni kim saldı şayiələrə..

---

* kokardalı

**Şeh**, *is.* İlin müəyyən vaxtında gecələr torpaq, bitki və s.-nin üzərinə qonan su damcıları; şəbnəm. Otların üstündə şeh damcıları. – Şeh düşər otların üstə gecədən.

**Şehli**, *sif.* Üzərində şeh olan, şeh düşmüş. ..Şehli çiçəklər.

**Şeir**, *is.* [ər.] 1. Ritmik vəzndə ahəngdar poetik əsər. Bu sözdə nə şeir var, nə də ki hikmət. – Yenə namaz üstə şeir deyirsən!

2. Nəzm, poeziya. Varmı şerimizdə məzhəkə yazan?.. – Nədən şeirimizin baş qəhrəmanı Gah Turandan gəlir, gah da İrandan?.. □ <u>Şeir qurmaq</u> – şeir yazmaq. Bizim çoban şairi də saz üstündə şeir qurdu. <u>Şeir demək (kimə, niyə)</u> – tərənnüm etmək. Baxıb şeir dedin göy yaylaqlara. – Şeirlər deyərdin gəlinə, qıza. <u>Şeir olmaq</u> – şairanə, poetik şəkil almaq. Ürəyimdə şeir olur bütün varlıq.

**Şeiriyyət**, *is.* [ər.] 1. Bədiilik, ahənglilik, gözəllik, emosionallıq. Axan şeiriyyəti duymadı əri. – Onun şair qəlbi varmış, O sevirdi təbiəti, günəş belə salamlarmış O qızdakı şeriyyəti.

2. Azad zəhmətin, işin poeziyası. Alışmadı o, zəhmətin şeiriyyətinə.

□ <u>Şeiriyyət pərisi</u> – ilham. Bu şeiriyyət pərisinin yazdıqca mən Bu axşam da nəfəs alsın bütün aləm! <u>Şeiriyyət tablosu</u> – gözəl mənzərə. Bir şeiriyyət tablosudur seyr etdiyim bu tamaşa.

**Şeirlik**, *is. bax* şeiriyyət. ..Şerdə şeirlik izi qoymayan..

**Şenlik**, *is.* Abad yaşayış yeri, ümumiyyətlə məskun yer; qəsəbə. Şenliklər yanında kişnəşir atlar.. – Ocaqlı, tüstülü, şenlikli yurdlar.

**Şeşə**, *sif.* Dik, sivri. [Vaqif:] Niyə, qulağınız çoxdan şeşədir; Böhtan eşidəndə qızarıb yanar; Doğru söz gələndə pambıq tıxanar.

**Şevyot** [*ing.* yer adından] Yüngül, yumşaq, incəxovlu yun və ya yarıyun parça növü. // Şevyotdan tikilmiş. Gah koverkot, gah da şevyot paltar geyindi.

**Şey**, *is.* [ər.] 1. Məişətdə, işdə və s.-də lazım olan hər hansı bir cisim, əşya və s. İçində hər şey var, bütün dünya var. – Bir də hər insanın, hər şeyin adı..

2. İş, əməl, hərəkət, hadisə. Hər şeydə həddindən artıq bir sükunət yaşardı.. □ Bir şey – əhəmiyyət bildirir. [Səhər:] Bir elə şey yoxdur..

**Şeyda**, *is.* və *sif.* [*fars.*] *şair.* Dəlicəsinə sevən, eşq divanəsi, vurğun, məftun. Şeydalar, samemə bir şeir oxurdu..

◊ Şeyda bülbül – dəlicəsinə sevən, vurğun adam. Bir şeyda bülbüləm, daş qəfəsdəyəm. Müjdələr gəlsin bu şeyda bülbülə..

**Şeypur**, *is.* Əyri boru şəklində ağzıgen musiqi və ya siqnal aləti. Şeypur çalır qoşunlar. – Gurlasın dağlarda şeypurun səsi..

**Şeytan**, *is.* [ər.] 1. Dini təsəvvürlərə görə şəri təmsil edən mövhum varlıq; cin, iblis. Şeytanmı görünür gözlərinizə? – Artıq nə molla var, nə cin, nə şeytan..

2. *məc.* Araqarışdıran, fitnəkar, xəbərçi, çuğul adam haqqında. Deməк, satılırsan sən şeytanlara!

3. *sif., məc.* Dəcəl (uşaq haqqında). Bilirsən, nə şeytan baladır Gülnar?

**Şeyx**, *is.* [ər.] 1. Qəbilə və ya əşirət başçısı. Şahim! Qarabağın şeyxidir gələn. – Ayağa qalxınız, şeyxiniz gəldi!

2. Təriqət başçısı, və hər hansı bir təriqətə mənsub olan dərvişlərə başçılıq edən şəxs. Qoy nisyə dalınca şeyxlər yüyürsün.. – Gedib şeyxə tərəf yol verir ona..

3. Pirə baxan, pirdə nəzir yığan adam. Ya şeyx, bir tədbir tök mənim yuxuma!

**Şəbab(ət)**, *is.* [ər.] Gənclik, cavanlıq. ..Şəbabin üzü bir gün güləcək..

**Şəbahət**, *is.* [ər.] Oxşarlıq, bənzərlik. Göylər pərisinə şəbahətin var.

**Şəfa**, *is.* [ər.] Xəstəlikdən qurtarma, sağalma, yaxşılaşma. □ Şəfa tapmaq – xəstəlikdən qurtarmaq, sağalmaq. O, in-

san əlilə şəfa tapacaq. – Xəstələr də şəfa tapsın ilk baharı görəndə.

**Şəfalı**, *sif.* Şəfa verən, sağaldıcı. Şəfalıdır, səfalıdır..; Axar çaylar.

**Şəfəq**, *is.* [ər.] 1. Gün çıxandan və ya batarkən göydə görünən qızartı. Şəfəqi sayrışan bir səhər olur. – Şəfəqdən don geysin yenə də göylər.

2. Parıltı, bərq, şölə. ..Üzündə sayrışır ay şəfəqləri. – Yayır şəfəqini bəxt ulduzu tək.

3. İşıq; elektrik işığı. Şəfəqlər sayrışır o evdə müdam.

□ Şəfəq salmaq – parıldamaq, işıq saçmaq, şölələnmək. Bir insan sürəti şəfəqlər salmış. – O alovlar şölə çəkib şəfəq salır zülmətə… Şəfəq sökmək – işıqlandırmaq, nurlandırmaq. Hər könül mülkündə bir şəfəq sökdü.

**Şəfəqlənmək**, *f.* İşıqlanmaq, şölələnmək, parıldamaq, şəfəq saçmaq; bərq vurmaq. Ağlın hüsnü şəfəqlənir günəş tək.

**Şəfəqli**, *sif.* 1. Şəfəqsaçan, parlayan, işıqsaçan, bərqvuran. Düzülmüş şəfəqli ulduzlar kimi.

2. *məc.* Sevən, şad; mərhəmətli; təmiz, şəffaf. Şəfəqli ürək!

**Şəffaf**, *sif.* [ər.] 1. Baxdıqda o biri tərəfi görünən, işığı asanlıqla buraxan. Hava sakit… Dəniz şəffaf… Səhər dilbər.. – İşıq bol, hava şəffafdır.

2. *məc.* Aydın, tərtəmiz, dumduru. Hər sözü bir ulduz bir şəffaf almaz.

**Şəfqət**, *is.* [ər.] Rəhm, mərhəmət, acıma, ürəyi yanma; riqqət. Hər gözün, baxışın bir şəfqəti var…

◊ Şəfqət bacısı – 1) cəbhədə və ya hospitalda yaralara ilk yardım göstərən qadın, qız. Şəfqət bacısı.. 2) fədakar qadın. Bilik cəbhəsinin şəfqət bacısı..

**Şəhər**, *is.* [*fars.*] 1. İnzibati idarələr, sənaye, ticarət və mədəniyyət mərkəzi olan böyük yaşayış məntəqəsi. Məndən işıq alır min kənd, min şəhər. – Yenə qaynayırsan qocaman şəhər!

2. *məc.* Şəhər sakinləri, böyük insan kütləsi. Şəhər axır qoşun-qoşun sıx dalğalarla. – Kimdir arxasınca bir şəhər gələn?

3. *məc.* Könlüm damı, könlüm sarayı kimi *təşbehlərdə*. Yer, məskan. Yanğına düşmüşdür könlüm şəhəri..

□ <u>Şəhər salmaq (qurmaq)</u> – şəhər bina etmək, şəhər yaratmaq. Zavodlar yaratdıq, şəhərlər saldıq. – İlanlı çöllərdə şəhərlər saldıq. – [Fərhad:] Əlvida!.. Əlvida, qurduğum şəhər.

◊ <u>Odlar şəhəri</u> – Bakının poetik adı. Odlar ölkəsinin odlar şəhəri..

**Şəhid**, *is.* [ər.] Yüksək amal, məslək, əqidə yolunda ölən, həlak olan, canını fəda edən adam. Vətən, ..o doğma ana..; Şəhid oğulları basıb bağrına.. – Biz and içdik.. şəhidlərin məzarına. □ <u>Şəhid olmaq</u> – yüksək amal, əqidə yolunda həlak olmaq, canını fəda etmək, ölmək. Əsgər kimi and da içdin şəhid olmuş o qıza sən.

**Şəhla**, *sif.* [ər.] İri, tünd-mavi (gözlər). O şəhla gözlərin incilər tökdü.. – Şəhla gözlərini süzdüyü zaman.

**Şəhpər**, *is.* [*fars.*] *bax* Şahpər. [Xosrov:] İyirmi il keçir o vaxtdan bəri; Yazıq taleyimin sınıq şəhpəri. – Qafqaz! O xəyal şəhpəri röyama gələrkən..

**Şəxsi**, *sif.* [ər.] Bir şəxsə, adama məxsus olan, şəxsən onun özü üçün olan, özünün. [Səhər:] şəxsi taleyini duymayan bir kəs..

**Şəxsiyyət**, *is.* [ər.] Bir şəxsə xas olub onun fərdiyyətini müəyyən edən xüsusiyyətlərin məcmusu. Əsil insan və şəxsiyyət azadlığının nə olduğunu öz həyatında dərk etmiş gənclərimiz..

**Şəkər**, *is.* [*fars.*] 1. Qənd. Odur, bax, soğan da, çay, şəkər də var..

2. *məc.* Şirin, dadlı, ləzzətli şey haqqında. Sən yuxuna şəkər qat..

**Şəkil**, *is.* [ər.] Bir şeyin ya adamın xarici görünüşü; sifət, surət. Başqa şəkil verdi öz varlığına.. Bir qaya şəklində göylərə sarı..

2. Bir şeyin və ya şəxsin əl və ya foto ilə çəkilmiş surəti; tablo, rəsm. Buna şəkil verən bir sənətkardır.. – Divardan asmışam bir şəklinizi. □ …Şəkilə salmaq – bu və ya başqa bir şəkil almaq, dona girmək, şəklini dəyişdirmək. Gülünc bir şəkilə salır özünü.

**Şəkləmək**: qulağını şəkləmək *bax* qulaq. Qulağını şəklədi..

**Şəksiz**, *z.* Şübhəsiz, yəqin, əlbəttə. Dedilər: – Bərəkət çox olar şəksiz. – Gülüncdür bu başısoyuqluq şəksiz.. – Gözləri yoldadır anamın, şəksiz..

**Şəlalə**, *is. məc.* Tükənə bilməyən, axıb-daşan, çağlayan. O bir şəlalədir axır ürəkdən. – ..Nə də ki, səslənən şəlalələr var..

**Şən**, *is.* Ad-san, şöhrət, şərəf. Nə yazsın şəninə zəif bir qələm. □ şəni ucalmaq – ad-san qazanmaq, xalqın gözündə ucalmaq. Sənin də şöhrətin, şənin ucalır.

**Şən**, *sif.* Sevincli, şad, məmnun. Bu şən sarayda; Vaxtilə güllələr, bombalar varmış. – Bu gün şəndir xəstəxana.

**Şəni-şöhrət**, *is. bax* şən. Şəni-şöhrət keçirən xaqanlar.

**Şənləmək**, *f. məc.* Canlanmaq, ruhlanmaq, səs-küylə dolmaq. Obalar şənlənir həyəcanlanır. – Qapımız şənlənir çıxanda səsin. – Bu məclis şənlənib qızışsın gərək!

**Şənlik**, *is.* 1. Şadlıq, sevinc. Dağların qoynunda o şənliyə bax!

2. Təntənə, şadlıq məclisi; bayram. Bayramlara, şənliklərə qoşa gedirlər.

**Şər**, *is.* [ər.] 1. Pislik, yamanlıq, fənalıq. Dünyada qalmasın nə pislik, nə şər. – İnsandır ayıran xeyiri şərdən…

2. Yas məclisi. Axı o, Cəlalla xeyirdə, şərdə..; Doğma qardaş kimi qoşa gəzərdi.

◊ Şər qarışmaq – qaranlıqlaşmaq, qaranlıq düşmək, qaş qaralmaq. Gah şər qarışanda, gah da dan üzü..

**Şərab**, *is.* [ər.] Üzümdən hazırlanan spirtli içki; çaxır. [Şapur:] şərabın nəşəsi bir anlıq olur. – ..Şərab deyil, sadə çay içək.

**Şərbət**, *is.* [ər.] 1. Suya qənd,meyvə şirələri, müxtəlif ədvacatı qatmaqla hazırlanan şirin içki. Hanı şərbət? Əvvəl verin içsin onlar. – İnsanlıq gah zəhər, gah şərbət içər…

2. *məc.* Şirin, əziz, yadda qalan məqamlar. Eşqin şirin-şirin şərbətləri var. – Günəş parlaq, vicdan təmiz, ömür şərbət içirir.

3. *məc.* Şərbət kimi şirin. Sular şərbət oldu ağızda-dildə.

◊ Şərbət içmək – faydalanmaq; ləzzət almaq. Sənin sənət bulağından neçə nəsil şərbət içdi!.. – Mən şərbət içmişəm, sənin əlindən. – İçirəm dünyanın hər şərbətini. …(nəyin) Şərbətindən içmək – dadmaq, görmək, başına gəlmək. ..İçdi ömrün şərbətindən.. – Bütün aləm qurtuluşun şərbətindən içəcəkdir.

**Şərəf**, *is.* [ər.] 1. İnsanın ictimai və şəxsi davranışında tutduğu mənəvi-əxlaqi prinsiplərin məcmusu; mənəvi yüksəklik. İnsanlıq şərəfi öyrədər bizə! – ..Qəlbinə nəqş edir nəsillərimiz; İnsan şərəfinin qadir səsini.

2. Fəxr, iftixar ediləcək şey. Bir analıq şərəfin də vardır sənin. – Bayrağımın şərəfilə o fəxr edərək..

3. Şərəfinə şəklində – birinə hörmət əlaməti olaraq, birinin adına, xatirəsinə. Mən igidlər şərəfinə hər məclisdə şeir deyim. – İçək təzə ilin şərəfinə..

4. Şərəflə şəklində – ləyaqətlə, vicdanla, üzüağ. Şərəflə, namusla dözdü o dərdə. – ..Şərəflə, vüqarla yaşayın ancaq.

◊ Şərəf lövhəsi – məktəbdə, istehsalatda və s.-ən yaxşı, ən qabaqcıl tələbələrin, işçilərin adı və şəkli vurulan lövhə. Neçə qəhrəmanın əksini Nemət; Şərəf lövhəsindən asdı əlilə.

**Şərəfli**, *sif.* 1. Hörmətli, ehtiramlı, sayğılı, şanlı. Adın şərəflidir sənin, ey qadın; Dahilər anası çağrılır adın. – Şərəfli bir ata kimi bax iftixarla.

2. Hörmət, şərəf gətirən, iftixar doğuran. Hər şərəfli keçmiş, hər gəlib-gedən. – ..Tutduğun yol şərəflidir cahanda.

**Şərəfsiz**, *sif.* 1. Namussuz, vicdansız, alçaq, rəzil. [Hürmüz:] Yenə qanlar tökəcəkdir o şərəfsiz əməlin!

2. *is.* Namussuz, vicdansız, alçaq adam. Şərəfsizlər «buyur» – demiş zalımlara. – Vətəndən ayrılar hansı şərəfsiz?

**Şərh**, *is.* [ər.] Açma, anlatma, izah, komentari. □ Şərh etmək – açmaq, anlatmaq, izah etmək. Özünüz aləmə şərh edin barı.

**Şəriət**, *is.* [*fars.*] İslam dini və hüquqi normaların məcmusu, islam qanunları. Bizi bir qul kimi satdı şəriət.

**Şərik**, *is.* [ər.] Hər hansı bir işdə başqası ilə birgə iştirak edən adam; ortaq. Bu yandan da Türkiyə; Mən də şərikəm deyə, Keçdi Qara dənizi..

**Şərq**, *is.* [ər.] 1. Dünyanın dörd cəhətindən biri – günçıxan tərəfi; gündoğan. Cənub, Şimal, Şərq, Qərb; Bölünsün iki, düşmən və barışmaz cəbhəyə!

2. Günçıxan səmtdə yerləşən ölkələr. Şərqə söyləyirəm bu son sözümü..

◊ Şərqin qapısı – Şərqlə Qərbin arasında olan; Avropa ilə Asiya arasında olan (Azərbaycana deyilir). Qoca Şərqin qapısısan..

**Şərqi**, *is.* [ər.] 1. Nəğmə, mahnı. Küləklər yayardı geniş düzlərə; Muğan qızlarının şərqilərini. – Qurtuluşun şərqiləri.. – Desin şərqini; Şair və bülbül..

2. *məc.* Quşların cəh-cəhi. Şərqilər oxuyan xınalı kəklik..

**Şərsiz**, *sif.* Şər, pislik, xata, iftira olmadan. Ölümsüz, fitnəsiz, şərsiz, – deyirlər, – bir diyar olmaz.

**Şərt**, *is.* [ər.] Bir-birilə saziş bağlayan tərəflərdən hər hansı birinin irəli sürdüyü tələb ya təklif. Soyunun, vuruşun, şərtim var yalnız.. □ Şərt bağlamaq – bir şey haqqında razılığa gələrək yazılı və ya şifahi şəkildə qarşılıqlı öhdəlik götürmək; şərtləşmək. Sizin yanınızda şərt bağladıq biz.

**Şəst**, 1. *is.* [*fars.*] Ləyaqət, vüqar, qürur; təşəxxüs. ..Gövdəsi var, şəsti var. – ..Qabaqcadan şəsti ucalar.. – Nə oldu, bəs hanı sənin o şəstin?

2. *z.* Vüqarla, qürurla, təşəxxüslə. .Həyətdə şəst oturmuşdur.. □ Şəstinə dəymək – mənliyinə toxunmaq, özünə, adsanına layiq bilməmək. – Bir ox kimi şəstə dəyir bu pis xəbər.

**Şiddət**, *is.* [ər.] Qüvvət, güc; kəskinlik, sərtlik. Qanunların şiddətimi öz həddini aşmışdır? – [Su] Günün şiddətindən dönüb buxara..

**Şiddətlə**, *z.* Bərk, güclü, sərt, qüvvətlə, şiddət göstərərək. Adamı şiddətlə döydü küləklər.

**Şiddətli**, *sif.* Çox güclü, çox qüvvətli; dəhşətli. Döyür ətrafımı şiddətli boran.. – O şiddətli qışın sonunda bu yaz… Yuyurdu tozları kükrəmiş sellər.

**Şığımaq**, *f.* 1. Çox böyük sürətlə irəli atılmaq; cummaq (yırtıcı quşlar haqqında). Qıy vurub şığıyır ağ buludlara. – ..Şığıyıb süzəndə o bir ox olur. // *məc. mənada*. Göy qatarlar şığıdıqca irəli.

2. Çaxmaq. İldırımlar şığıyır tərpənməyən dağlara.

**Şikar**, *is.* [*fars.*] 1. Ovlanan heyvan, quş. Sarıxallı pələnglər də sıçrayarmış şikar üstə. □ Şikarını almaq – ovlamaq. Ancaq şikarını aldımı pələng.

2. *məc.* Dara düşmüş, aldanılmış adam. Boğulduqca dara düşmüş o şikar, Maral kimi dil çıxarıb hayqırar.

**Şikayət**, *is.* [ər.] 1. Öz halından və ya başına gələn bir dərd və acıdan ah-zar etmə; giley. ..Qoy bunu ellər; Bir acizlik, bir şikayət kimi sanmasın! [Mahnigar:] Yenəmi başladı şikayətlərin? □ Şikayət etmək – gileylənmək, ah-zar etmək. Şikayət etməyin taleyinizdən. Şikayətim var (kimdən, kimə) – gileyim var, şikayət etmək istəyirəm (şifahi, və ya yazılı). Yar əlindən yaman şikayətim var. – Hər kəsdən ziyadə bu işdə ancaq; Atandan, anandan şikayətim var.

2. Şikayətnamə, yazılı şikayət. Bəzən taleyindən şikayət yazır.

**Şikayətçi**, *is.* Şikayət edən, şikayətə gələn adam. Yuxulu, yorğun şikayətçiləri get-gələ salanlar.. – Şikayətçi idim bəlkə xilqətdən..

**Şikayətkar**, *sif. məc.* Kədərli, yanıqlı, iniltili. Məncə onun şikayətkar nəfəsində Zəfərtaclı bir inqilab dalğası var.

**Şikəst**, *sif.* [*fars.*] Bədənin hər hansı bir üzvündən məhrum olmuş, əlil. Elə zənn etmə ki,.. şikəst bir quşam…

**Şikəstə**, *is.* [*fars.*] 1. Segah məqamında zərbli muğam. Ən sonra gəlirdi ta uzaqlardan; Neyin şikəstəsi, tarın şahnazı. – Mənim zil şikəstəm, sənin qatarın.

2. *sif. məc.* Qəlbi qırılmış, qəlbi yaralı, ürəyi sınmış. Həsrətlər yorğunu şikəstə könlüm. – O zaman mənim bu şikəstə ruhum..

**Şıqqamaq**, *f.* Şıqq səsi çıxartmaq. Şıqqıyan ildırım göyə səs salır.

**Şıllaq**, *is.* <u>şıllaq atmaq</u> – təpik atmaq, şıllaqlaşmaq. Şıllaq atan yabılar.. ◊ <u>Şıllaq atmaq</u> – qızışmaq, həyasızlaşmaq, cızığından çıxmaq. ..Bu bəylər ki, var; Bir azca arpası çox düşən zaman; Yabı cinsi kimi şıllaq atırlar.

**Şıltaq**, *sif.* Daim şıltaqlıq edən, şıltaqçı. Yamanca şıltaqdır bu nazlı sənəm. – Qız tayfası şıltaq olar..

**Şıltaqlanmaq**, *f.* Şıltaqlıq etmək. ..Onlar ilə üzə durdu; Şıltaqlanıb çox qudurdu..

**Şimal**, *is.* [ər.] 1. Dünyanın cənuba əks olan cəhəti. Cənub, Şimal, Şərq, Qərb Bölünsün iki düşmən və barışmaz cəbhəyə! // *sif. mənasında.* Bir eşqin istisi qızdırdı hər an; Cənub səhrasını, şimal qütbünü.

2. *məc.* Rusiya (inqilab beşiyi kimi). – Gedin! – deyir, – şimaldakı ulduza sarı.

◊ <u>Şimal ruzgarı (yelləri)</u> – yeni kommunizm əqidəsi. İncilin, quranın yarpaqlarını; Sovurur göylərə şimal yelləri. – Öpürkən alnımı şimal ruzgarı!

**Şimdi**, *z.* İndi. Şimdi zaman başqa zamandır, ana!

**Şimşək**, *is.* İldırım. Fikirdən yavaşdır, şimşəkdən yeyin… □ <u>Şimşək kimi</u> – çox tez, çox cəld, bir anda. Gəlin şimşək kimi, gəlin sürətlə.. – Uçub getdi şimşək kimi.. <u>Şimşək oynamaq</u> – *bax* şimşək çaxmaq. 1) Bulud gələr, şimşək oynar, od çaxar. – Göy guruldar, şimşək oynar!.. 2) Od saçmaq,

qığılcımlanmaq. Gözündə oynadı bir odlu şimşək.. – Bir şimşək oynadı tutqun gözündə. Şimşək çaxmaq – 1) ildırım çaxmaq. Uzaq-yaxın üfüqlərdə şimşəklərin çaxması. – Qaranlıq gecədə şimşək çaxırdı. 2) Qəzavü-qədər başından əskik olmamaq. Başımın üstündə şimşəklər çaxır..

**Şinel**, *is.* [*rus.*] Xüsusi biçimdə tikilmiş əsgəri qış paltosu. Çıxarıb şineli divardan asır. – ..Şinelinə səpələnir qar.

**Şir**, *is.* [*fars.*] 1. Pişiklər fəsiləsindən irigövdəli məməli yırtıcı heyvan; aslan. Qoca şirlər pəncəsini yerə basıb asta-asta.

2. *məc.* Çox qoçaq, qorxmaz, qüvvətli adam haqqında. [Loğman:] böyük şirin də bir çox səhvi var.

3. *məc.* İranın gerbi olan «Şiri-xurşid». Şahın şiri quyruq qısar tülkülər kimi.

◊ Şir tək (kimi) – igidcəsinə, qəhrəmancasına. Hər bəlaya şir tək gərməkdəyəm mən sinəmi.. – Sıçradım şir kimi atın belinə.. // çox nəhəng, güclü. Nə var, lap yaxşıdır, şir kimi sağdır. Şir gəlmək – vəhməli təsir bağışlamaq, şirə oxşamaq. Tərpənməyən dağ gövdəsi baxanlara gəlir şir.

**Şirə¹**, *is. məc.* Su, yaşlıq. Araz dünya gəzir bir insan kimi; Min yerin şirəsi hopur canına.

**Şirə²**, *is.* Xüsusi gil növü və divarlara çəkmək üçün ondan hazırlanan məhlul. [Quyunun] dibini şirə, qum basıb.

**Şirələnmək**, *f.* Şirə salmaq, sulanmaq, tam yetişmək. Şaftalılar şirələnib budağını əyəndə..

**Şırıl-şırıl**, *səs.təql.* 1. *sif. mənasında.* Axan, tökülən; Şırıl-şırıl göy ləpələr; Yüz naz satır sahillərə.

2. *z. mənasında.* Bəzən şırıl-şırıl axdıqca bir su.. – ..Şırıl-şırıl axan çayın nəfəsi.

**Şırıltı**, *is.* Axan sudan hasil olan səs; şırıldama səsi. Axır şırıltıyla köpüklü çaylar.

**Şırım-şırım**, *sif.* Zolaqlı, cızıq-cızıq, şırımlar halında. Yerin bağrı şırım-şırım…

**Şirin**, *sif.* 1. *məc.* Xoş, əziz, zövqverici, ləzzətli. Deiyrlər şirindir busənin dadı. – Xəyal şirin nemətdir bu acı kainatın… Zəhərdən bu şirin dünyanın sonu.. // ən istəkli, qiy-

mətli, əziz. Mənim şirin balam, ağıllı qızım. – ..Can şirindir. □ Şirin ol(ur)maq – əziz, qiymətli olmaq. Bəzən şirin olur yuxu həyatdan. – İnsan ömrü şirin olur, o ayrıldı bu nemətdən. – ..Şirin olur can.. Şirin keçmək – xoş keçmək, yadda qalmaq. Söhbətimiz şirin keçir… Axşam da xoş. – İlki kimi şirin keçə hər eşqin sonu.

2. İçməli, içməyə yarar (su haqqında). Nə şirindir suyun sənin.

3. Xoşagələn, göyçək, suyuşirin. Nə şirinsən, nə göyçəksən.

4. Ürəkaçan, xoş, maraqlı. Bu bir şirin əfsanədir babalardan yadigar. – Şirin söhbət içində.. İştahlanıb yeyirlər.. – Nə gözəl, nə şirin kəlamları var.. // *z. mənasında.* Min bir gecə dastanından şirin oxunur.

5. Şirindir şəklində – cümlədə xəbər mənasında işlənir. Şirindir yaratmaq, yaşamaq meyli.

◊ Şirin dil – xoş, ürəyəyatan danışığı olan; xoşrəftar, xoşqılıqlı, nəvazişkar. Əvvəl şirin dili vardı.. Şirin yuxu – bərk, qayğısız uşaq yuxusu. ..Gözünə bir şirin yuxu da gəlir. – O nə tapdı həmdəmini; Nə bir şirin yuxu yatdı. Şirin gəlmək – ürəyə yatmaq, xoş gəlmək, qanı çəkmək. Xoş görünür, şirin gəlir Aygünə hələ. Şirin söz – xoş, ürəyə yatan söz. Alardın könlümü bir şirin sözlə.

**Şirincə**, *z.* Çox şirin, şirin-şirin. Şirincə yatmışdım mən səndən əzəl..

**Şirindilli**, *sif.* Avazı, səsi xoş olan. // *məc.* mənada. Şirindilli. Sərinyelli, Dalğatelli Axar çaylar.

**Şiri-nər**, *is.* [*fars.*] *məc.* Təşbehlərdə: 1. Erkək aslana oxşatmadır. Qızıb coşur, hücum çəkir şiri-nər kimi. – [İslam:] Yarıb çıxacaq şiri-nər kimi!

2. İranın keçmiş gerbi «şiri-xurşidə» işarədir. Alovlar içindən şiri-nər kimi; Günəş salam verir iradəmizə! – Dəyişmiş gördüyün köhnə şiri-nər..

**Şirinlik**, *is.* Dad, ləzzət. Bəlkə də hər şirinlik bir acılıq yeməkdir…

**Şirin-şirin**, *z.* 1. Həvəslə, şövqlə, ləzzətlə.Sonra şirin-şirin yuxuya gedir. – Ötsün şirin-şirin tuti dillərin.

2. *sif.* Çox şirin; xoş. Bir otaqda şirin-şirin söhbətdədir iki nəfər. – Açdı könlüm şirin-şirin nəğməli ney dodağını.

**Şirmayı**, *sif.* [*fars.*] Sədəf kimi; ağappaq; hamar. Gördük o şirmayı qamçıları biz.. ☐ Şirmayı dillər – piano.. Danışır şirmayı dillər. – [Şaxbaz:] Şirmayı dillərə öz meylini sal. – Şirmayı dillərdə süzür barmaqlar. «Səadət nəğməsi» yaradır bahar.

**Şirni**, *is.* Dad, ləzzət; şirinlik. Hər intizar acısının bir şirnisi var.

**Şirnikmək**, *f.* Alışmaq, öyrəşmək, həvəslənmək. Şirnikirik hər məclisə, uyuruq ona.. – Gəray bəy şirnikib bu düşkün hala.

**Şır-şır**, *səs.təql.* 1. *sif. mənasında.* Çoşqun, gürultulu (axan, tökülən su, yağış haqqında). Dağlar döşündəki şır-şır bulaqlar.. – Axır şırıl-şırıl şır-şır bulaqlar.

2. *z. mənasında.* ..Gürcüstanın.. şır-şır axan bulaqları..

**Şiş**[1], *sif. məc.* Köp, qabarıq, irəliyə doğru çıxmış; iri; qalın. Bir az sonra.. Parçalanır şiş buludlar. – Səninkidir o xotmalar, o şiş tayalar.

**Şiş**[2], *sif.* İti, sivri. Aşıb şiş dağları. ..Gedək irəli. – O, şiş buynuzilə adam vurarmış..

**Şişmək**, *f.məc.* Köpmək, böyümək, qabarmaq. Qurbağalar fil olmaqçın; Şişər, şişər, partlayar.

**Şitil**, *is.* 1.Sonradan çıxarılıb başqa yerdə əkilmək üçün istixanada və ya xüsusi ləklərdə yetişdirilən bitki. Bu gün basdırdığın körpə şitillər.. – Şitillər quruyub getdi..

2. Bic, haramı. Şitillər yayılıb bir orman olur. – ..Şitillər boy atıb bağça-bağ olmaz..

**Şlyapa**, [rus.] Baş geyimi. Sən də bizim kimi şlyapa geyin..

**Şlyapalı**, *sif.* Başında şlyapa olan, başına şlyapa qoymuş. O, Teylerdir! Şlyapalı bir iblisdir.

**Şoran**, *is.* Duzlu, duz hopmuş torpaq. Gördüyüm Muğanın boz şoranları.. – Bağ yaradın, bağça salın şoran yerində. – Boz üzmü göstərir ellərə şoran?

**Şoranlıq**, *is.* Şoran torpaq, şoran yer. Şoranlıqda bağ salınır, bataqlıqda qızıl güllər. □ <u>Şoranları yumaq</u> – meliorasiya üsulları ilə şoran torpaqları yararlı vəziyyətə salmaq. Yuyub şoranları yonca əkirəm.

**Şose**, *is.* [fr.] Asfalt yaxud sement-betonla örtülmüş yol. Burda qatar-qatar şose yolları; Atmış qollarını dağlara sarı.

**Şöhrət**, *is.* [ər.] Şan, şərəf, iftixar; ad-san. İnsanın şöhrəti hünərdir, işdir. – Mən qul olmamışam şöhrətə, ada… – Kişinin şöhrəti namusdur, Aygün!

□ <u>Şöhrət tapmaq</u> – məşhurlaşmaq, hamı tərəfindən tanınmaq. Şöhrət tapdı zəhmətinlə bizim vətən. – Bizim Bakı şöhrət tapdı intizarla. // Hörmət, ad-san, yer. Adım yazdır, şöhrətim var tərifində şairlərin.

**Şöhrətli**, *sif.* Məşhur, məşhur olmuş; şöhrət, ad-san qazanmış. Miçurin şöhrətli ağaclar kimi..

**Şöhrətpərəst**, *sif.* Şöhrət düşkünü, vəzifəpərəst; təkəbbürlü, lovğa. Aradın bir şöhrətpərəst insanı..

**Şölə**, *is.* [ər.] 1. Alov, parıltı, işıltı, şəfəq. Günəş yaydı şöləsini.. □ <u>Şölə saçmaq (salmaq)</u> – qızarmaq, allanmaq; işıldamaq, parıldamaq; şölələnmək. Üfüqlərə şölə saldı.. – Yer üzünə şölə salır neçə min çıraq. // Nurlandırmaq, ziyalandırmaq. Bir şölə saçmayır onlar [əsərlərimiz] sabaha. <u>Şölə çəkmək</u> – alovla yanmaq, alovlanmaq, işıq saçmaq. O alovlar şölə çəkib şəfəq salır zülmətə.. // *məc.* Günəş təbim şölə çəkib alovlanmasın…

2. İşıq, nur, elektrik işığı. Mingəçevir işıqları şölə verir çıraq-çıraq.

**Şölələnmək**, *f.* Şölə saçmaq, alovlanmaq, işıqlanmaq, şəfəqlənmək. Dönüb şölələnir ala-qaranlıq. – Yanır Kreml ulduzları, yaqut kimi şölələnir.

**Şöməndüfər**: <u>şöməndüfər yolları</u> – dəmir yol. O hazırlar yer altında şöməndüfər yolları.

**Şövkət**, *is.* [ər.] Cah-cəlal, dəbdəbə, həşamət; əzəmət. Pozulub şövkəti, tarımar olub.

**Şövkətli**, *sif.tənt.* Dəbdəbəli, əzəmətli, həşəmətli. Sürmədim bir həyat canlı dünyada; Şövkətli dünyada, qanlı dünyada.

**Şövq**, *is.* 1. Şiddətli meyl, həvəs, istək, arzu. □ Şövqə gəlmək – vəcdə gəlmək, həvəsə gəlmək; ruhlanmaq. Gənclik kimi dalğalanıb gəlir şövqə.

2. İşıq, nur. Üzündən şövq almış xəstəxanalar.

**Şrak**, *səs.təql.* Atın ayağından hasil olan səs; nal səsi. ..Qalın və dolama yollar aşaraq – Şrak! Şrak! Şrak!

**Şrapnel**, *is.* [ing.] Top mərmilərinin növlərindən biri. Şrapnellər ötürkən sağından və solunlan.. – Düşmənin topları şrapnelləri; Pusur bu bəxtiyar, azad elləri.

**Şu**, *işarə əvəzl.* O, bu. Ah, şu dərdli könlüm, şu xəstə könlüm.. – Öksüz qoymaq istəyirsən şu yurdu. – Şu düşkün, pəjmürdə halıma çarə..

**Şux**, *sif.* [*fars.*] Şən, işvəli, oynaq. ..Şux bülbülü.. Axar çaylar.

**Şum**, *is.* Şumlanmış torpaq, sürülmüş tarla. Buğlandı səhralar, qaraldı şumlar. – ..Şumlara mıxlanar min traktor da..

**Şumal**, *sif.* Düz, təndürüst; qəd-qamətli. Salıncaq qolları ətli və şumal..

**Şumlanmaq**, *f.* Torpağı kotanla sürmək, şum eləmək. Yeri şumlayan biz, onu əkən biz.. – Yer şumlayıb, toxum səpib, taxıl əkəydim..

**Şunur (şnur)**, *is.* (*dan.*). Qaytan, odkeçirən qaytan; bikford qaytanı. Azacıq keçmədən alışdı şunur.

**Şur**[1], *is.* [*fars.*] Azərbaycan klassik muğamlarından birinin adı. ..«Zabul segah»… Dəli «Şahnaz»… Mənalı «Şur», Sanasan ki, bir ananın övladıdır.

**Şur**[2], *is.* [*fars.*] Vəcd, şövq, coşqunluq; cuşa gəlmə. Məcnun öz şur ilə çox da aləmə səs salmasın; Hansı namərd can əsirgər bir nigarın eşqinə?.

□ Şur tutmaq – *bax* şura gəlmək. Sən el bağçasında şur tutub, səs sal. Şura gəlmək – vəcdə gəlmək, cuşa gəlmək, ruhlanmaq. Rəfiqənin sinəsində şura gəlir tar.

**Şura**, (bəzən cəm şəklində şuralar). *sif.* Sovet. Gəlib çıxdı nəhayət Şuralar ölkəsinə.. – Şuralar Şərqinin ilk qurultayı..

**Şüa**, *is.* [ər.] *məc.* İşıq, ziya. Zehnin, düşüncənin şüalarıdır..

**Şüar**, *is.* [ər.] 1. Müraciət, çağırış. Birləşin! – dedilər, bir şüar gördüm. – Şerlərimi şüarlara döndərirəm.. – Belə bir şüar; Hər qəlbə tac verən bir fəzilətdir. – «Yaşasın səadət!..» – Bu böyük şüarı verən zamandır. // Üstündə belə çağırış sözləri olan transporant. Üzərində var; Yazılı bir şüar..

2. *məc.* Bir şəxsin məsləkini, hərəkət tərzini, məqsədini ifadə edən kəlam və ya ifadə. Zehnin, düşüncənin şüarlarıdır. □ Şüar olmaq – 1. daima təkrarlanmaq, məsləki, məqsədi olmaq. Sevgi dildə şüar olsun. 2. məşhurlaşmaq, tanınmaq. Dərdim el içində bir şüar olub.. – Sənətim dillərdə bir şüar olsun!

**Şübhə**, *is.* [ər.] Bir şeyin həqiqətə uyğun ola biləcəyi haqqında fikir; güman, şəkk, tərəddüd. Onda da [Quranda] şübhələr, əfsanələr var. – [Şahbaz:] Dağılan başımdan qara şübhələr..! – [Loğman:] Şübhələr içində dincəlmək olmaz! □ Şübhədən çıxmaq (qurtarmaq) – inanmaq, arxain olmaq. Ölümsə şübhədən çıxmaq deməkdir. – [Eloğlu:] Gəl məni qurtar bu şübhələrdən.

**Şübhələnmək**, *f.* Şübhə etmək, şəkk etmək, inanmamaq. ..Bir adamdan şübhələndikdə deyirlər: gözüm səndən su içmir.

**Şübhəli**, *sif.* 1. Şübhə oyadan, şübhə doğuran, şübhəyə səbəb olan; etibarsız. Həyat dedikləri şübhəli bir şey..

2. *məc.* Ləyaqətsiz, mənəviyyatsız, əxlaqsız. Məni incidir.. bəzən.. Şübhəli qızlardan adres almağım..

3. Şübhəlidir şəklində xəbər mənasında – inanmaq olmur, etibarsızdır. Burda şübhəlidir ümid, qurtuluş.

**Şübhəsiz**, *z.* 1. Mütləq, şəksiz. Veriləcək bu bayraq; Birincilik qazanan insanlara şübhəsiz.. – Düşünür: «Şübhəsiz bir zaman gələr..»

2. *ara s.* Əlbəttə, təbii. Güldürəcək, şübhəsiz ki, görüb duyan kəsləri. – Bu dəstə, şübhəsiz, bizim ordudur..

**Şücaət**, *is.* [ər.] İgidlik, rəşadət, cəsarət. O gündən şücaəti ağıza-dilə düşdü..

**Şüd**, *ədat.* Bu qədər, sözün qısası, şüd tamam. [Şahbaz:] Fəzilət məlum şüd..

**Şükür**, *is.* [ər.] Razılıq, minnətdarlıq ifadəsi. [Mariya:] Xanım, ağlınıza nə olub, şükür?

◊ Şükür Allaha (tanrıya, yaradana) – razılıq, minnətdarlıq, təşəkkür ifadəsi. Niyə, nə dərdim var, Allaha şükür! – Allaha çox şükür, xoş olsun xəbər!

**Şümşad**, *is.* 1. Möhkəm oduncaqlı həmişəyaşıl ağac. Müqayisədə işlənir. Şümşad kimi bir gənc idi o, üç il qabaq.

2. *sif.məc.* Ağ, hamar, atlaz kimi. Doktor sevinərək durmadı bir an; Qan aldı o qızın şümşad qolundan.

**Şüşə**, *is.* Şüşədən hazırlanmış qab; butulka. Şüşəyə tutulmuş bir saf qan kimi; İşləyir Muğanın damarlarına.

□ Şüşə kimi – soyuq, ölgün, cansız, hərəkətsiz. [Nəhmə] Dəydi şüşə kimi daş ürəklərə..

**Şütümək**, *f.* Bərk qaçmaq, sürətlə getmək, ötüb keçmək, bərk sürüb getmək. Suda ilan kimi şütüyür qayıq.. – [Axar çaylar] Şütüyər bir ilan kimi..

**Şüur**, *is.* [ər.] 1. Dərrakə, anlaq, düşüncə; dərk etmə, anlama qabiliyyəti. Sən bu sağlam şüurunla qoca Şərqin qapısısan. – Ancaq dayanmayır, axtarır şüur.

2. Müəyyən ictimai sinifləri təmsil edən adamların psixologiyası, siyasi və fəlsəfi baxışları, dini, bədii və s. görüşləri. Yenə hökm edirsən şüurlara sən..

**Şüursuz**, *sif.* Özündən getmiş, bayılmış. O, artıq bir şüursuz.. Təngimişdir nəfəsi.

# T

**Ta**, *əd.* Lap. Ən sonra gəlirdi ta uzaqlardan. Neyin şikəstəsi, tarın şahnazı.

**Tablamaq**, *f.* Tab gətirmək, dözmək, tablaşmaq. [Banu:] Aman… Tablamayır qəlbim hicrana.

**Tablo**, *is.* [fr.] İri şəkil, rəsm. Yaratdığın tablolarda hüsnü vardır şəfəqlərin… – Seyr et haman ğablodakı ölən sənəti…

**Tabut**, *is.* [ər.] İçində cənazə yerləşən qutu (adətən taxtadan düzəldilmiş). Kimindir bu tabut? Kimdir bu ölən?

**Tac(i)dar**, *is.* [*fars.*] Şaha, padşaha, hökmdara xitabən işlədilən təntənəli nitq klişesi. Vaqif! Ey sərvərim, ey tacidarım!

**Tac**, *is.* [*fars.*] 1. Hökmdarlıq rəmzi, atributu (əlaməti) olan padşah, çar papağı. [Banu:] İran torpağında tufanlar yarat; Xosrovun tacını ayaqlara at!

2. Çələng. O baharın hər məclisi.. Gəlin kimi tac qoyacaq öz başına çiçəklərdən.

**Tac-taxt, tacü təxt**, *is.* Tac və taxt hökmranlıq mücəssəməsi kimi. Könlüm ayrılmayır tacü təxtimdən.. [Fərhad:] Xosrovun o tacı-taxtı; Mənim külüngümə tablamayacaq.

**Tağ**[1], *is.* Bitki kolu. ..şamamanın tağları..

**Tağ**[2], *is.* [*fars.*] Alaqapının qövsvarı üst hissəsi. ..dörd divar.. Nə bir sütun qalmış, nə dəmir bir tağ..

**Taxıl**, *is.* Dənli bitki (arpa, buğda, qarğıdalı, çovdar, yulaf…). Yer şumlayıb, toxum səpib, taxıl əkəydim.

**Taxmaq**, *f.* 1. Pərçimləyib bənd etmək. Sol əlilə sağ döşünə; Bir gül taxdı gülə-gülə. – Sinəsinə orden taxar.. – Al bayrağı ora taxır..

2. Əyninə, boynuna, qoluna, barmağına… keçirmək, geydirmək. Təzədən döşünə bir önlük taxdı.. – Boynuna tax daş-qaşları.. – Sol qoluna hələ qızıl saat da taxdı.

**Taxsır**, *is.* [ər.] (*dan.*). Təqsir, günah, suç. Taxsırım deyim..

**Taxt**, *is.* [*fars.*] 1. Söykənəcəksiz divan, sofa. Axşamdan uzandı ağac taxtına.

2. Padşah, hökmdar kürsüsü – mütləqiyyətin təcəssümü kimi. De, nədən titrəyir taxtın təməli? – [Banu:] Qoy Kəyan taxtının ocağı sönsün.

**Taxta**, *is.* [*fars.*] Tikintidə, təsərrüfatda, mebeldə material kimi istifadə olunan ağac növləri. Adi daşdan qurur, adi taxtadan..

**Taqət**, *is.* [ər.] Tab, qüvvət. Yazdıqda qalmayır taqətdən əsər.. ☐ Taqətdən düşmək – üzülmək, halsız olmaq. ..ala gözləri; Taqətdən düşərək.. yumulmuş..

**Tala**, *is.* Meşədə çəmənli açıqlıq. Sürü-sürü marallar da yol salarmış talalardan.

**Talamaq**, *f.* Qarət etmək. Bütün ellərini soyub taladıq..

**Talan**, *is.* [*fars.*] Qarət, soyğunçuluq. İndi yoxdur o talanlardan əsər.. ☐ Talan olmaq – talanmaq, var-yoxu əlindən alınmaq. Talan olmuş gözəl Vətən.. – Talan oldu hər varımız.

**Talançılıq**, *is.* Soyğunçuluq. ..sövq etmədinmi. Onu quldurluğa, talançılığa?

**Talanlı**, *sif.* Talana məruz qalmış. Bəs necə?! Bu dövlət talanlı olsun?

**Talanmaq**, *f.* Talan edilmək, talan olmaq, var-yoxu əlindən alınmaq. Ağır ellər kimi sən də talandın..

**Tale**, *is.* [ər.] Bəxt, qismət. Sən insan oğlunun taleyinə bax! // Müqəddərat, iqbal. Sizə taleyini tapşıran əllər..

◊ Tale ulduzu – bəxt simvolu. [Banu:] Bir söylə, söndümü tale ulduzum?

**Talesiz**, *sif.* Bədbəxt, bəxtsiz. [Şirin:] Ağlama… ağlama, talesiz ana.

**Taleyikəm**, *sif.* Bədbəxt, zavallı. Həyatı tərk etdi o taleyikəm..

**Tamahkarlıq**, *is.* Hərislik, acgözlük. Canından çıxmamışdır köhnə tamahkarlığın..

**Tamam**, *is., sif.* və *z.* [ər.] 1. Axıradək, başacan. O, elmi, məktəbi qoydu yarımçıq; Tamam yazılmamış bir kitab kimi…

□ Tamam olmaq – tamamlanmaq, bitmək. Həftəsi tamam olmamış.. – Hələ onun beş yaşı tamam olmamış.

2. Tam, bütöv, düz. Deyirlər ki, tamam bir ay çəkəcəkdir bu səfər…

3. Tamamən, tamamilə, bütünlüklə. Verdiyin vədəyə tamam əməl et!

4. Büsbütün, lap. Unutmaram, bil ki, hər axşam, səhər, Tamam qocalıb da dördqat əyilsən.

**Tamamən**, *z.* [ər.] Tamamilə, bütünlklə. Yazlıq əkin işlərini unudurlar tamamən.

**Tamamlamaq**, *f.* Qurtarmaq, sona yetirmək. Can atır ki, tamamlasın başladığı bir əsəri.. – Ömrün kitabını tamamlamağa; Çox da can atmasın əlimdə qələm..

**Tamamlanmaq**, *f.* Sona yetirilmək, bitirilmək. On beş dəqiqəyə tamamlanır, bax..

**Tamaşa**, *is.* [*fars.*] 1. Baxıb seyr etmə. □ Tamaşa qılmaq – nəzər salmaq, nəzərdən keçirmək. Hərdən qılsan məzarıma tamaşa.. – Oxuyub qıl tamaşa əsərimdən görünən heykəlimi..

2. *məc.* Valehedici, heyranedici bir şey. Buruqların bir tamaşa.. – Gərdənin minadır, boyun tamaşa..

3. Tamaşaçılara ünvanlanmış hər hansı bir incəsənət növü (səhnə əsəri, sirk, konsert nömrələri, kinofilm və s.). Bizim bu sarayda.. Keçir səhnəmizdə min bir tamaşa.

**Tamaşaçı**, *is.* Tamaşaya (teatrda, kinoda, sirkdə, konsertdə), eləcə də televiziya verilişlərinə baxan adam. ..yoldaş tamaşaçı!

**Tanımaq**, *f.* Bələd olmaq, aşina olmaq. Tanıyıram o dağları. – Tanıdım… Kitabda görmüşəm hələ adımı… // Məxsusiyyəti seçə bilmək. Qurdu tanıyarlar qurd baxışından.

**Tanış**, *sif.* 1. Bələd, məlum. Bu qayalıq, bu dağ döşü o natiqə tanışdır. □ Tanış gəlmək – tanınan kimi görünmək. [Valentin:] Səsi tanış gəlir.. Tanış olmaq – tanışlıq qatmaq. Buyur, dostum, bu gözəllə gəl ol tanış.

2. *is.* Tanış adam. Əlvida söylədim tanışlarıma.. – Bilsin axtaranım, tanışım, dostum..

**Tanış-biliş**, *is.* Tanış-tunuş, yaxın adamlar. ..Tanış-biliş xanımların əllərini sıxanda..

**Tanıtmaq**, *f.* Kim olduğunu bildirmək. Qardaşa tanıtdın öz qardaşını.. – Aparsın qoy məni uzaq ellərə; Tanıtsın hər yerdə biçarə məni.

**Tank**, *is.* [ing.] Zirehli, tırtıllı silahlı döyüş maşını. Axıb qoşun-qoşun yeridi tanklar.

**Tankçı**, *is.* Tank qoşunlarında hərbi qulluqçu. Laçın boylu tankçıya bax!

**Tanrı**, *is.* 1. Allah. Tanrı göstərməsin sizə bir acı!

2. «Tanrı» sözü. Ömrü boyu tanrı deyən dindar qocalar..

3. Yaradan qüvvə. Bəlalar tanrısı o məhəbbət..

**Tanrısimalı**, *sif.* Nurani. Tanrısimalı gözəl bir qocadır.

**Tapdalanmaq**, *f.* 1. Ayaqlanmaq, basdalanmaq. ..tapdalanmış qara torpaq..

2. *məc.* Kobudcasına pozulmaq. Artıq hüququnuz tap-daoanmasın..

**Tapdamaq**, *f. məc.* Tapdalamaq, rədd etmək, saymamaq. Elminlə tapdadın mənhus adəti..

**Tapdanmaq**, *f. məc.* Tapdalanmaq, basılmaq, əzilmək. Tapdandı gəncliyin, şərəfin, adın..

**Tapılmaq**, *f.* 1. Axtarılaraq üzə çıxarılmaq (yoxa çıxan obyekt haqqında). [Banu:] Bilin, tapılması o gözəl pəri; Canımdan nəfəsim çıxacaq birdən.

2. Nəsib olaraq, qismət olaraq əldə edilmək. Onsuz da tapılar bir parça çörək.

**Tapınmaq**, *f.* Sitayiş etmək. Məbəl kimi tapınmışdır öz oğluna.

**Tapmaq**, *f.* 1. Yoxa çıxanı axtarıb üzə çıxarmaq. [Banu:] Şirini tez tapın, tez qərar verək.

2. Yenidən qovuşmaq. Yuvasından ayrılanlar tapacaqdır yuvasını..

3. *məc.* Nail olmaq, müvəffəq olmaq. Yaxşı, nə tapmısan o saraylardan?

**Tapşırıq**, *is.* Yerinə yetirilməsi həvalə olunan bir iş. «Tapşırıq görüldü..!»

**Tapşırılmaq**, *f.* Həvalə edilmək (bir iş, xidmət haqqında). ..tərbiyəmiz tapşırılır bugün sana.

◊ <u>Torpağa tapşırılmaq</u> *tənt.* – basdırılmaq, dəfn olmaq. Tabut tapşırılır ona torpağa.

**Tapşırmaq**, *f.* Bir işi, xidməti, qayğını kimsəyə həvalə etmək. O yenə tapşırır: silahlı gəlin. Bizi tapşırmışdır Azərbaycana!

**Tar(i)mar**, *sif.* Tar-mar, dağınıq, dolaşıq. Tarimar düşüncəm, dar xəyalım var. □ <u>Tarimar etmək</u> – darmadağın etmək, alt-üst etmək, viran etmək. [Şiruyə:] İzin ver, Bizansa orduyla gedim; Taxtını, tacını tarimar edim.

**Tar(ı)mar**, *sif.* Tar-mar, qarışıq, dolaşıq. Sığal verilməyən o qumral teli Tarımar görürəm.. □ <u>Tarımar olmaq</u> – dağılmaq. Pozulub şövkəti tarımar olub.

**Tar¹**, *is.* Azərbaycan simli musiqi aləti (mizrabla çalınır). Ən sonra gəlirdi ta uzaqlardan; Neyin şikəstəsi, tarın şahnazı.

**Tar²**, *is.* Hində quş üçün ağac. Qalxdı tar üstünə bizim çil toyuq..

**Tar³**, *is.* Dərədə qalın qar yığını. [Səhər:] Qışdakı qar tarı, yazdakı yağış.. □ <u>Tar bağlamaq</u> – qar qalağı əmələ gəlmək. Körpünün üstündə tar bağlayır qar.

**Taraqhataraq**, *səs.təql.* Tapataq, taqqıltı səsi (çıxararaq). Qaçır mənzilinə taraqhataraq..

**Tarix**, *is.* [ər.] 1. Bəşəriyyətin inkişafının gedişi. Tarixin təkəri dönməyir geri.

2. Keçmişin gerçəkliyində ardıcıl baş vermiş hadisələr, bunların şüurda inikası və hafizədə saxlanılması. Tarixlər şahidi qocaman Bakı..

3. Əhvalatın, qəziyyənin cərəyan etməsi. Bunun uzun tarixi var..

**Tarixçə**, *is.* Konkret əşyanın, hadisənin və s. yaranması və inkişafı barəsində məlumat. Bizim dostluq tarixçəmiz..

**Tarla**, *is.* Əkin yeri, zəmi. Yamyaşıl göründü yenə də tarla.

**Tatar**, *is.* 1. «Tatarlar» adlanan bir sıra türk xalqlarına mənsub olan. ..Volqa sahilinin tatar qızları. – ..Krım göylərinin.. Qara gözlü tatar qızı..

2. Milliyyəti tatar olan adam. Tatar da, gürcü da, türk də, çeçen də; Ayrılıb gəlmişdir öz ocağından.

**Taun**, *is.* [ər.] Qusma və ishal epidemiyasını gətirən yel. ..dövranın taun küləyi.. – İrandan Muğana taun tək əsən..

**Tavariş**, *is.* [rus. tovariş] Yoldaş. ..Soruşur; Tavariş! ..Bu təzə evlər.. Yenəmi alovlar, odlar görəcək?

**Tay¹**, *is.* Yük (qablaşdırılmış). ..o taya baxışır halı.

**Tay²**, *is.* və *sif.* Cüt şeylərin hər biri; tək. Siz tay əlinizlə tutmayın məni..

**Taya**, *is.* Ot, saman, taxıl, pambıq, odun, çırpı qalağı. Hər zəmidə, qurulduqca yüz taya; Dağa dönür Qızxanımın ürəyi… – Səninkidir o xotmalar, o şiş tayalar..

**Tayfa**, *is.* [ər.] 1. Qövm, millət. Bütün xalqlar və tayfalar ona qulaq asacaqdır.

2. Silk, zümrə (..tayfası formasında). Özün yaxşı bilirsən ki; Qız tayfası şıltaq olar.

**Tayqa**, *is.* Başlıca olaraq Şimali Asiyada keçilməz iynəyarpaqlı meşəlik. Vəhşi tayqaların qaranlıqları..

**Tay-tay¹**, *sif.* və *z.* Topa-topa, qalaq-qalaq, top-top. Yüklənərmiş gəmilərə o vaxt tay-tay; Azərbaycan torpağının ipək malı.

**Tay-tay²**, *z.* Taybatay, hər iki tayı (qapı-pəncərənin açılmasından danışıldıqda). Aynabənd qapılar açılmış tay-tay…

**Tay-tuş**, *is.* Birisinə həmyaş, həmnişin, həmkar olanlar. Yenə insan tay-tuşunu öz yanında görəcəkdir!

**Tel**, *is.* 1. Saç, zülf. Sığal verilməyən o qumral teli; Tarımar görürəm..

2. Musiqi alətində sim. ..rübabının o mənalı telləri..

3. *məc.* Həssas irtibat bağı. ..Hər ürəyin telləri də qəmli-qəmli saz tutur.

**Teleskop**, *is.* [yun.] Optik astronomik cihaz. Alim teleskopla göyə baxanda..

**Tellənmək**, *f.* Saçaq-saçaq olmaq. Yaşıl bağlar tellənəcək banduranın xoş səsindən..

**Telli**, *sif.* Telləri olan. ..Kuban çöllərinin ipək telli zəmiləri.. – Bağladın meylini telli bir saza..

**Tel-tel**, *z.* Saçaq-saçaq. □ Tel-tel olmaq – tellənmək. Tel-tel olsun.. yasəmənlər..

**Tema**, *is.* [yun.] Mövzu, süjet. Bugün başqa bir temadan söhbət açır qələmim. – Sabir sağ olsaydı, bu temanı mən; Ona bağışlardım..

**Teylənmək**, *f.* Oynaqlamaq. Teylənər dağların qılınc yalında..

**Tez**, *z.* 1. Dərhal, cəld, gecikdirmədən. Tez söndürün yanğınları! □ Tez ol(un) – cəld tərpən(in). Qapıları tez ol bağla.. – Tez olun, yaxşı bir kabab bişirin! – Qoymayın, tez olun, tutun Eldarı!

2. Erkən, vaxtından əvvəl. Şair, nə tez qocaldın sən…

3. Tezdən, hələ vaxt yetişməmiş. Axşamdan tez yatan insan səhərdən tez ayıoarmış.

4. Çox çəkmədən, sürəksiz, qısa bir vaxtda. Andını da tez unudar.

5. İti-iti, sürətlə. Dəqiqələr tez ötüşür..

**Tezdən**, *z.* Sübh erkəndən. [Banu:] Topla igidləri başına tezdən; Böyük bir orduyla keç ölkəmizdən.

**Tez-gec**, *z.* Gec-tez, əvvəl-axır. Sizin bu kəndə də gələcək tez-gec.

**Tez-tez**, *z.* Qısa fasilələrlə təkrarən. Tez-tez görünərdi xeyirdə-şərdə.. – Tez-tez ana məzarını ziyarət etdi.

**Təb**, *is.* [ər.] İlham. Tərlan təbim havalanıb uçsa da.. – Təbim qanadlanan bir ruzgar olsun!

**Təbabət**, *is.* [ər.] Tibb, sağlamlaşdırma, sağlamlıq yurdu. Ey fitrən xəlq olmuş təbabət, Şuşa! – Bizim dağlar bir təbabət qucabı..

**Təbəssüm**, *is.* [ər.] Gülümsəmə. Bir təbəssüm işığı var sifətində. – Söylə, üzündəki təbəssüm nədir?

**Təbib**, *is.* [ər.] Həkim, doktor (xəstəni müalicə edən). Təbib kimi məlhəm qoyub yaralara. – Gəlin təbib kimi hər nəbzi tutaq..

**Təbibsiz**, *sif.* və *z.* Həkimi olmadan. Təbibsiz, davasız can üstündədir..

**Təbiət**, *is.* [ər.] 1. İnsanlığa müqabil qoyulan üzvi və qeyri-üzvi aləm. «Gəl-gəl!» deyir təbiətin qucağı.

2. Xilqət, fitrət. Onu çox görməsin sənə təbiət. – [Amalya:] Zərif yaratmışdır bizi təbiət..

3. Xasiyyət, xarakter, şakər, əhvali-ruhiyyə. Bir də şairanə təbiətin var. – Xeyirxah, sadə bir təbiəti var.

**Təbiətli**. *Sif.* Bir kefiyyət, xassə təbiətində olan. Yaqo təbiətli bar alçaq..

**Təbil**, *is.* [ər.] Gurultulu nağara. Elə bil. Göy təbil çalır…

**Təbrik**, *is.* [ər.] Gözaydınlığı. □ Təbrik etmək – gözaydınlığı vermək. Bəd də təbrik edirəm..

**Təcrübəsiz**, *sif.* Tədrübəsi olmayan yaxud kifayət qədər olmayan. Bir azyaşlı, təcrübəsiz.. yanılsa..

**Tədbir**, *is.* [ər.] Əlac, çarə. □ Tədbir tökmək (çəkmək) – əlac vermək, çarə tapmaq. Ya şeyx, bir tədbir tök mənim yuxuma! – [Vəzir:] Bir tədbir tökərik keçdikcə zaman. – Sən də xuramana yaxşı təbir çək..

**Təəccüb**, *is.* [ər.] Heyrət. □ Təəccüb gəlmək – heyrət doğurmaq. Təəccüb gəlməsin sizlərə bu iş..

**Təəssüf**, *is.* [ər.] Heyfsilənmə. Bu təəssüf nəyə gərəkdir?

**Təəssüflə**, *z.* Təəssüf hissi keçirərək. Sinəsində təəssüflə döyündü ürək.

**Təftiş**, *is.* [ər.] Görülən işlərin qanuniliyini və düzgünlüyünü yaxlama, hər hansı fəaliyyətin təhqiq edilməsi. Təftiş komisoynu qalsın yarına..

**Təhər**, *is.* [ər. (tövr.)] Hal, tərz, cür. □ Bir təhər – 1) qeyri-adi. [Şahbaz:] Belə bir təhərsən, çox fikirlisən; 2) bir sayaq, bir yolla. Yaşayaq bir təhər, bu da zamandır…; 3) gücbəla. Sənəm bu söhbətdən keçdi bir təhər… – Hərifi bir təhər yuxuya verib..

**Təhqir**, *is.* [ər.] Heysiyyətinə toxunma, həqarət. Təhqirə çox dözdü babalarım, ah!.. □ Təhqir olunmaq – alçaldılmaq, mənliyinə toxunulmaq. Açıq bilirdi ki, təhqir olunmuş..

**Təxəyyül**, *is.* [ər.] Xülya, xəyalət, fantaziya. O nədir? Məncə, təxəyyül..

**Tək**[1], *sif.* və *z.* 1. Bircə, yeganə. Qarabağ gözəli dünyada təkdir.. // Bənzərsiz, tay-bərabəri olmayan. Şaiqim! Şairlər içində təksən..

2. Yalqız. ..tək qoymadı evdə yarını.

3. Tənha, issız. Kiminkidir bu tək məzar?

**Tək**[2], *əd.* Təkcə, yalnız. [Topal:] Şirinin yerini mən bilirəm tək.

**Tək**[3], *qoş.* Kimi. Lalə tək qızardı Amazon çayı. Yazın səhəri tək ruhum da güldü.

**Təkamül**, *is.* [ər.] İnkişaf prosesində təkmilliyə yönəlmiş dəyişmə, evolyusiya. Təkamül, tərəqqi.. hərəkətdədir.

**Təkatlı**, *sif.* Yalnız bir atı olan. Ölüm!.. Təkatlı çərçilərə!

**Təkə**, *is.* Erkək keçi. Desələr ki, pendir verən.. təkədir..

**Təkəlli**, *sif.* Bir əli, qolu kəsik. Görürsünüz, təkəlliyəm, mənim bircə qolum vardır.

**Təkər**, *is.* [ər.] 1. Çarx. Fırlanır, dolaşır təkər səsləri..

2. *məc.* Gərdiş, dövran. Həyatın təkəri dönər hər zaman. – Dünyanın təkəri gerimi döndü..?

**Təki**, *qoş.* Kimi. ..İnsan oğlu şam təki; Bəzən yanır gizlicə.

**Təkqollu**, *sif.* Tayqol(lu), bir əli, qolu kəsik. Cəbhələrdən qayıtmış təkqollu qəhrəmanlar.

**Təklənmək**, *f.* Təklikdə, təkbaşına qalmaq. Təklənib gedirəm Kür qırağına.

**Təklif**, *is.* [ər.] Buyuruq, sərəncam. Xanın təklifinə zidd getmək olmaz.

**Təknə**, *is.* Dərin tabaq. ..Nə də təknəmizdə quru bir çörək…

**Təkrar**, *is.* [ər.] Bir neçə dəfə etmə, edilmə, olma. □ Təkrar etmək – təkrarlamaq, təkrarən etmək. Almanlar etmişdir çox kərə təkrar – Mənimdir gələcək…

**Tək-tək**, *sif.* və *z.* 1. Tək-tük, təkdənbir. Palıd da, çinar da orda tək-təkdir. – Gülər üzə şad ürək burada təktəkdir.

2. Hərdənbir, arabir. ..Muğanın seyrinə çıxıram tək-tək.

**Təqib**, *is.* [ər.] Pis niyyətlə izləmə, güdmə. Əlbət, məni təqib edəcəklər..

**Təqsir**, *is.* [ər.] Günah, suç. Bizim kəndlilərin nə təqsiri var?

**Təqsirkar**, *is.* [ər. və *fars.*] Təqsirli, təqsiri olan. Bəlkə təqsirkarəm doğrudan da mən…

**Təqvim**, *is.* [ər.] Kalendar. Hər ilin təqvimi qurtaran gündə..

**Təlatüm**, *is.* [ər.] Bərk dalğalanma. ..təlatümlər qopub çağlar..

**Tələ**, *is.məc.* Hiylə, kələk, fənd bağlamaq, qurğu qurmaq. Quyu qazıb, tələ qurar, Ev də yıxar..

**Tələbəlik**, *is.* Tələbə olma dövrü. Gah sevindi tələbəlik sirdaşlarına.

**Tələsik**, *z.* Səbirsizliklə, təxirsiz. Açardım tələsik o sandıqları..

**Tələsmək**, *f.* Əcələ etmək, səbirsizlik göstərmək. Mən tələsmirəm… – Neçin bizim qoca alim çox tələsir?

**Təlxək**, *is.* Nədim. Gör nələr danışır ağıllı təlxək..

**Təməl**, *is.* [ər.] 1. Bünövrə, özül. Qəlpə də qopmayır təməl daşından..

2. *məc.* Əsas, kök. Bəşərdir torpağın, göyün təməli..

**Təmənna**, *is.* [ər.] Umacaq. Yerdənmi, göydənmi təmənnası var? □ Təmənna etmək (eləmək) – rica etmək, təvəqqe

etmək. Mənim düşkün könlüm sizdən eləyir; Bu fərz olan təmənnanı, cavanlar.

**Təmiz**, *sif.* və *z.* 1. Dumduru, şəffaf, saf. Təmiz suyu üflər içər… // Açıq, aydın. Nə təmizdir, nə parlaqdır mahtabın süd bənizi.

2. *məc.* Yüksək mənəviyyata malik, ülvi, pak. ..Ürəyiniz təmiz, üzünüz ağdır. – Təmiz sevgi, ilqar, vəfa.. // Ləkəsiz, ləkələnməmiş. Koroğlunun bir təmiz adı.. – Bir kəndli babadır, vicdanı təmiz..

3. Mükəmməl. ..təmiz bilin dilimizi. // Səliqəli. ..saçlarını təmiz dara!

**Təmizləmək**, *f.* Çirkini, tozunu, ləkəsini və s. aparmaq. [Amaliya:] ..bir təmizlə tuflilərimi..

**Təmizləşmək**, *f.* Saflaşmaq, təmizlənmək, durulmaq. Burda təmizləşən qara qanlar..

**Təmizlik**, *is.* Paklıq, daxili saflıq, mənən nöqsansızlıq. Təmizlik, doğruluq, insana kömək..

**Təmkin**, *is.* [ər.] Soyuqqanlılıq, vüqar. Mən bilirəm, ..səndəki.. təmkin nədir!

**Təmkinlə**, *z.* Öz halını pozmadan, soyuqqanlılıqla, vüqarla. Səbrlə, təmkinlə məqam gözlədi.

**Təmtəraq**, *is.* [ər.] Dəbdəbə, calal, dəstgah. Deyin, bu nə büsat, nə təmtəraqdır?

**Təmtəraqla**, *z.* Büsatla, dəstgahla. ..təmtəraqla; Keçən günlər vəfasızdır!

**Tənbəl**, *is.* və *sif.* Zəhməti sevməyən, zəhmətdən qaçan. Bu hal düşündürdü tənbəl Əsgəri..

**Tənə**, *is.* [ər.] Danlaq, məzəmmət. Sən ey kinlibaxış, tənəni burax.. – Tənələr yanımdan keçdi yel kimi..

**Tənəffüs**, *is.* [ər.] Nəfəsalma və nəfəsvermə. Əsən sevdalı ruzgardan; Tənəffüs ruha sığmazmı?

**Tənək**, *is.* Üzüm ağacı, meyvə. Salxım-salxım olacaqdır ağ üzümü tənəklərin..

**Təng**, *sif.* [*fars.*] Dar, məhdud. □ Təngə gəlmək – bezmək, bıqmaq. Əlindən insanlar gələrmiş təngə..

**Təngimək**, *f.* Təngləşmək, sıxılmaq, boğulmaq. Quşun da nəfəsi təngiyir.. – Təngiyir şəhərin dar küçələri.. – Ağırlıq altında təngiyir torpaq.

**Təngnəfəs**, *sif.* və *z.* [*fars.* və ər.] Təngiyən,təngiyərək. □ Təngnəfəs olmaq – təngişmək, tövşümək. Ürək təngnəfəs olduğu vaxtda..

**Tənha**, *sif.* və *z.* [*fars.*] Yalqız, tək. Tənha bir şairin uzaq xəyalı.. – Qaraquşsa göy üzündə tənha dolanır..

**Tənhalıq**, *is.* 1. Təklik, yalqızlıq. Tənhalıqda gördüm mən istirahət.

2. İssızlıq, kimsəsizlik. Tənhalıq dərdini çöllər unudur.

**Tənqid**, *is.* [ər.] Ədəbi əsərlərin təhlili. Söylə, tənqid! Neçə qış var, neçə bahar; Bir Sabirin o məzəli, xoş səsində!

**Tənqidçi**, *is.* Tənqidlə məşğul olan adam. Tənqidçi.. niyə ağlayır?

**Təntənə**, *is.* [ər.] Büsat, bayram. Nə kefdən əsər var, nə təntənədən.. – Bakı təntənədə, salon darısqal…

**Təpə**[1], *is.* Hündür yer, hündürlük. Bir təpə üstünə sancmışdır onu.

**Təpə**[2], *is.* Baş, kəllə. Çırpır, yapışdırır lap təpəsindən..

**Təpədən-dırnağa**, *z.* Başdan-ayağa, başdan-başa, bütöv. ..Təpədən dırnağa geyinir dümağ. – Təpədən dırnağa geyindin qara…

**Təpəl**, *sif.* Alnında qaşqası (ağ ləkəsi) olan. Təpəl öküz bürkülənib..

**Təpə-təpə**, *z.* Təpəbətəpə. Gəzər dağ-dağ, təpə-təpə..

**Təpik**, *is.* Ayaqla vurulan zərbə. Təpiklərdə uçub gedir mədəniyyət sarayları.

**Təpiklənmək**, *f.* Təpiklər altında qalmaq. Həyat təpikləndi, insan alçaldı…

**Təpinmək**, *f.* Üstünə hücum etmək, hədə-qorxu gəlmək. [Vəzir:] Ona bircə dəfə təpinsək yalnız; Bil ki, qorxusundan ödü saralar.

**Tər**[1], *is.* Dərialtı vəzilərin istidən, ağır işdən, həyəcandan ifraz etdiyi qoxulu maye. Şairin açdığı bu dil Milyonların

tər qoxuyan nəfəsidir.. □ Alın təri – zəhmət təri. ..alın tərimlə, ..can dəftərimlə Böyük etibarı doğrultmalıyam. Tər basmaq – bərk tərləmək, qan-tər içində olmaq. Gah tər basır vücudunu, gah büdrəyir, gah yıxılır. Tər tökmək – zəhmət çəkmək ucbatından çox tərləmək. Tökür alınları puçur-puçur tər.. – İş görər, tər tökər bir yandan o da.

**Tər²**, *sif.* və *z.* Təravətli. Açmadı çiçəklər, tər bənövşələr. Ucu tər cığalı tellər bizdədir.

**Təranə**, *is.* [*fars.*] Nəğmə, şərqi, mahnı. Bu qəmgin təranə…

**Təravət**, *is.* [ər.] Lətafət; təzəlik, cavanlıq, sağlamlıq gözəlliyi. □ Təravətdən düşmək – lətafətini, gümrahlığını itirmək. Düşübdür o keçən təravətindən..

**Tərbiyə**, *is.* [ər.] Ailə, məktəb, mühit vasitəsilə təlqin, təlim, təhsil və təsir nətidəsində gözəl əxlaq, ictimai həyatın aşılama; insanın sosial cəhətdən formalaşmasında bütün belə bilik və vərdişlərə yiyələnməsi. ..əxlaq, tərbiyə üzərində qurlmayan bir dövlət.. – ..tərbiyəmiz tapşırılır bugün sana.

**Tərəf**, *is.* [ər.] 1. Cəhət, yan, səmt. Öləndə çevrilib divar tərəfə.. – Heç yolu da düşməmişdir şimal tərəfə. □ Dörd tərəf – hər yan. Onun dörd tərəfi qara dumandır.

2. Yer, ərazi. Çox tərəfdə nə kölgəlik, nə sərinlik var. – şairlər vətəni bizim tərəflər..

3. Çıxışlıq halda (…tərəfindən) hərəkət subyektindən istiqamətlənməni bildirir. Elin tərəfindən, xalqın adından..

◊ Tərəf tutmaq (saxlamaq) – havadarlıq etmək. Yalan deyən, rüşvət alan, tərəf tutan, üz görən.. Çıxsın bizim cərgədən..

**Tərəfdar**, *is.* [ər. və *fars.*] Tərəfgir, tərəfkeş, havadar. İndi də rusların tərəfdarısan.

**Tərəqqi**, *is.* [ər.] İnkişaf prosesində irəliləmə, irəliləyiş. Təkamül, tərəqqi.. hərəkətdədir.

**Tərif**, *is.* [ər.] 1. Təqdir, yaxşı rəy, bəyənmə. □ Tərif etmək (eləmək) – təqdir etmək, bəyənmək, tərifləmək. Tərif eləməyə.. nə hacət..

2. Mədh, vəsf. □ Tərif demək – mədh etmək, vəsf etmək. Saz aldı söz qoşub tərif deyənlər.

**Tərifləmək**, *f.* Tərif etmək, təqdir etmək. Bugün söz açmıram tərifləməkdən.. – Bir vaxt təriflədin mənə Eldarı..

**Təriqət**, *is.* [ər.] Məzhəb, etiqad, amal. ..xəyal küsməz.. təriqətdən. – Məni bir başqa təriqətdə böyütmüşdür anam.

**Tərk¹** [*fars.*] Tərk etmək – qoyub getmək, çıxıb getmək. Ey məni tərk edən, qal yana-yana! – ..toyları tərk edirsən..

**Tərk²**, *is.* Atın üstündə yəhərin dalı. Quraq tərkinizdə pulemyotları!

**Tərki-dünya**, *is.* və *sif.* [*fars.* və ər.] Münzəvi, zahid, asket. ..Nə də tərki-dünya olmuş Harolda bənzər.

**Tərki-dünyalıq**, *is.* Münzəvilik, asketizm. Bu tərki-dünyalıq yaman adətdir.

**Tərlan**, *is.* 1. Şığıyıcı güclü dimdikli yırtıcı quş. Tərlan oylağında qarğa, sar olmaz! – Tərlanlar oylağı yadıma düşdü…

2. *məc.* Tərlan kimi cəsur. Bu tərlan könlümü ovlaya bilməz!

**Tərləmək**, *f.* 1. Bəndəndən tər axmaq. Tərləyib islanır əynimdə köynək.

2. Nəmlənmək, nəmləşmək. O, tərləmiş çeşməyini sol əli-lə düzəldərək..

**Tərli**, *sif.* Tərdən islanmış. Yuyub qurudun; O qocanın əynindəki tərli köynəyi..

**Tərli-tərli**, *z.* Tərli halda. Tərli-tərli su içmişdir..

**Tərpənmək**, *f.* 1. Qımıldanmaq. Azacıq keçmədən tərpəndi xəstə.. – Ayaqları tərpənmədi durduğu yerdən..

2. Dalğalanmaq, yellənmək. Yel əsir, tərpənir gömgöy zəmilər.

3. Hərəkətə gəlmək, işə, fəaliyyətə başlamaq. ..cəsur insanlar; Qoşdu iş başına, tərpəndi şəhər…

4. *məc.* Titrəmək. Yer tərpənir, göy çaxnaşır..

5. *məc.* Həyəcanlanmaq, riqqətlənmək. Ürək tərpənməyir ötərgi səsdən..

◊ Hava tərpənməmək – azacıq belə külək əsməmək, hava durğun olmaq. Nə hava tərpənir, nə meh..

**Tərpənmiş**, *is.* Tərpənti, hərəkət. Ürəkdəndir tərpənişin.

**Tərpətmək**, *f.* Hərəkətə gətirmək. □ Yer(in)dən tərpətmək – itələmək, dartmaq, çəkmək. ..Dağ boyda tankı da tərpədir yerdən.

**Tərs**, *is.* və *sif.* İnad, inadkar, inadcıl, höcət, höcətkar, höcətçi. Biz bilirik Əmirxanın tərs olduğunu.

◊ Yumurtası tərs gəlmək – bir yerdə qərar tapa bilməmək. Yumutası tərs gələn..

**Tərsinə**, *z.* Əksinə, biləks. Dünyanın məhvəri tərsinə dönməz.

**Tərslik**, *is.* İnadcıllıq, inadkarlıq, höcətlik. Bu nə tərslikdir ki, evlənməyirsən..

**Təsadüf**, *is.* [ər.] Təziyyə, vəqə. Bu təsadüf məni qəlbimdən vurdu.

**Təsadüfən**, *z.* [ər.] Gözlənmədən, qəflətən. Bunu təsadüfən görən Mirpaşa..

**Təsəlli**, *is.* [ər.] Ovundurma, təskinlik. Ağır gündə xoş xatirə insan üçün təsəllidir… – Son təsəllisi da ibadət idi..

**Təslim**, *is.* [ər.] 1. Çarpışmaya, çəkişmədə məğlub tərəfdən müqaviməti dayandırma. □ Təslim olmaq – mübarizədə (müharibədə, yarışda və b.k.) daha müqavimət göstərməkdən vaz keçmək və bununla da öz məğlubiyyətini etiraf etmiş olmaq. Düşmən, təslim ol! – [Xosrov:] Səncə, təslim olum?

2. *məc.* Tabe olmaq, ram olma. □ Təslim olmaq – tabe olmaq, ram olmaq. İnsanların qüdrətinə təslim olur təbiət.. – Təslim ol, dəli Kür, inadı burax!

**Təsvir**, *is.* [ər.] Səciyyələndirici məlumat. Qorx ki, təsvirimiz yarımçıq qalır. □ Təsvir etmək – səciyyələndirici məlumat vermək. İndi öz əsrimi təsvir edirəm.

**Təşkilat**, *is.* [ər.] İctimai birləşmə. Təşkilat üzvünü təhqir etdiniz..

**Tətil**, *is.* [ər.] İşin mütəşəkkil və kütləvi surətdə dayandırılması. Şəhərdə tətilmi, nümayişmi var?

**Təvəkkül**, *is.* [ər.] Allahdan imdad gözləmə, taleyə bel bağlama. Təvəkkül, itaət, göylərə hörmət… – Təvəkküllə keçən ömrün nəsibi qələmlə iöhnətdir. – «Təvəkkül Allaha» deməsin gərək..

**Təyyarə**, *is.* [ər.] Aeroplan. Uçur tanklar, təyyarələr. – [Şahbaz:] Bizim təyyarəmiz, topumuz azdır…

**Təyyarəçi**, *is.* Pilot, təyyarə sürücüsü. Dostdur onunla.. təyyarəçi..

**Təzə**, *sif.* [*fars.*] 1. Yeni, hələ məlum olmayan. Vaqifdən gəlməyir təzə bir xəsər.

2. Təzəcə bişlanan. Təzə il sovqatı.

3. Əcəri, əcərli, qədtəzə. ..geyim təzə..

**Təzədən**, *z.* 1. Yenidən, bir də, bir daha, təkrarən. təzədən döşünə bir önlük taxdı..

2. Yenə, yenə də (əvvəlki kimi). [Şahbaz:] Qəlbimə təzədən yüz səhər gülür..

**Təzələnmək**, *f.* Təzələşmək, yeniləşmək, yenilənmək. ..Ömür, gün də təzələnir.

**Təzələşmək**, *f.* Yeniləşmək, təzələnmək. Təzələşir fəsillər. – Min il nəfəs verək torpağa, daşa; Nəsildən-nəsilə təzələşərək…

**Təzəlmək**, *f.* Saflaşdırmaq. Təmiz havam təzələyir ciyərini insanların..

**Təzə-təzə**, *z.* Təzəcə, yenicə-yenicə. Sən də təzə-təzə qəlbə dəyirsən…

**Təzətoylu**, *sif.* Təzəcə evlənmiş. O təzətoyludur, həm də utancaq.

**Təzim**, *is.* [ər.] 1. Baş əyməklə salamlama. □ Təzim etmək – baş əyməklə salamlamaq. ..cənab Çörçill; Mənə əl uzadır təzim edərək.

2. *məc.* Baş əymə, ehtiram etmə. Burda təzim olur el adətinə.

**Tfu**, *səs təql.* «Tüpürüm» məzmununda olub danışanın bir şeyə, bir şəxsə mənfi münasibətini (nifrətini, hiddətini və b.k.) bildirir. Tfu… sənin üzünə! Buna bax, buna..

**Tif**, *is.* [rus.] Yatalaq. Tif də, ehtiyac da, vaxtsız ölüm də!

**Tikan**, *is.* 1. Dəvətikanının, qızılgülün, itburnunun, böyürtkənin və bir sıra başqa kol bitkilərin iynəvarı hissəsi. Bir tikan olacaq sənə hər çiçək..

2. *məc.* Ağrı, acı. Sancıldı könlümə iti bir tikan.

3. Tikanlığı olan. O keçdiyi uçurumlu, daşlı, tikanlı yollar.. – Tikanlı çöllərin bir yolçusuyam.

4. Acılayıcı, qanqaraldan, zəhərli. Onun kinli gözlərində min tikanlı hiylə var..

**Tikdirmək**, *f.* Tikiş ustasına sifarişlə geyim şeyləri (paltar, papaq, ayaqqabı və s.) hazırlatmaq. Alıb tikdirərdik o parçaları.

**Tikmək**, *f.* Bina qoymaq, qurmaq. Nə yurd salır, nə ev tikir. □ Tikib-qurmaq – inşa etmək, qayırmaq. Əllərimlə yaratdığım, tikib-qurduğum..

**Tilsim**, *is.* [far.] Ovsun, sehr. Bağlı tilsimləri mən açmadımmı?

**Tilsimli**, *sif.* Tilsimləşmiş, ovsunlanmış, sehrli. O, tilsimli bir aləmdir… – Hər tilsimli yolu bir hünər açar… – Tilsimlidir.., Qan da axmaz yarasından..

**Timsal**, *is.* [ər.] Nümunə, örnək, təcəssüm. Qəhrəman bir elin timsalıyam mən..

**Tiren, tren**, *is.* [fr.] Qatar, tramvay. Yağsız, makinasız çalışan tiren! – Dırmaşırkən o trenlər irəli..

**Tirmə**, *is.* Tirməşal: qiymətli toxunma naxışlı yun ya da ipək parçadan tikilmiş paltar, şal. Yurdumuzda toxunulmuş şal tirmələr; Bu toydakı gözəllərin.

**Tir-tir**, *z.*: tir-tir əsmək (titrəmək) – bərk titrəmək, əsim-əsim əsmək (ən çox soyuqdan və qorxudan). ..dodaqları tir-tir əsib uçunar..

**Tiryəksatan**, *is.* Tiryək alverçisi. Tiryəksatanısan bəşəriyyətin!

**Titrək**, *sif.* 1. Titrəyən, əsən, titrər. «..Qoca vaxt kim tutacaq titrək əlimdən?»

2. Kəsik və dəyişkən. Neyin titrək sədasından könül mülkü xuramandır.

**Titrək-titrək**, *z.* Əsə-əsə. Bugün titrək-titrək şeir yazan bu əl; At tumarladı, yer qazdı…

**Titrəmə**, *f.is.* Titrəyiş, əsmə. Vəcdə gəlir ürəyinin titrəməsindən.

**Titrəmək**, *f.* 1. Uçunmaq, rəqslənmək. Yol üstündə titrəyən ağ saqqallı çənələr..

2. Hava axını yaratmaq, əsmək (külək, yel haqqında). Titrədi Qafqazın qoynunda yellər.

3. *məc.* Cuşa gəlmək. Bütün qəlblər titrəyəcək bir kamanın xoş səsindən.

**Titrətmək**, *f.* 1. Lərzəyə gətirmək. Salonu titrədir sonsuz bir alqış. – Dağları titrətdi atışma səsi..

2. *məc.* Cuşa gətirmək (insanın daxili aləmini). [Şahbaz:] O, qəlbi titrədən xoş bir kamandır..

**Titrəyiş**, *is.* Titrəmə, əsmə, lərzə. Sənin səsində bir titrəyiş var..

**Tox**, *sif.* Harın. O, tox qaban kimi fısıldayır..

**Toxa**, *is.* Kətmən.. Pas atır toxalar, bellər, kürəklər..

**Toxdaq, toxtaq**, *sif.* və *z.* Sakit, təskin. □ Toxdaq vermək – toxtaqlıq, təskinlik, xatircəmlik vermək, arxayın etmək, sakitləşdirmək. ..rəssam toxdaq verdi qəlbinə bir az.

**Toxqarına**, *z.* Qarnıtək. Ömrü, günü gəlib keçir toxqarına..

**Toxluq**, *is.* Harınlıq. Duyuram toxluğun nə olduğunu.

**Toxmaq**, *is.* Bir başı yoğun olub müxtəlif məqsədlə istifadə edilən uzunsov alət. «Nə tüfəngin çaxmağıdır, nə sünbənin toxmağı».

**Toxtatmaq**, *f.* Toxtaq vermək, sakitləşdirmək. ..Özünü toxtadır Cəlal..

**Toxum**, *is.* [*fars.*] Dən. Yer şumlayıb, toxum səpib, taxıl əkəydim..

**Toxumaq**, *f.* Toxuculuq sənayesi malları hazırlamaq. ..dəzgah üstə ipək toxuyan.. – ..toxuduğu xalılar üstə.. – İsti corab toxuyarmış..

**Toxunmaq**, *f.* 1. Təmas etmək, dəymək. Ona toxunmasın o soyuq əllər..

2. *məc.* Xətrinə dəymək. Sözüm toxunmasın şairlərimizə..

3. Qəsd etmək, əl atmaq. Haqqımıza toxunan; Hər quldurun kəsəcəyiz əlini?..

**Tok**, *is.* [rus.] Elektrik cərəyanı. Tez ol, yoldaş! Çoxalt toku.

**Toqquşma**, *is.* Vuruşma. Gəldi toqquşmamız süngü-süngüyə..

**Toqquşmaq**, *f.* Bir-birinə zərblə toxunmaq, dəymək. ..toqquşduqca qədəh-qədəhə..

**Tom**, *is.* [rus.] Cild, ayrıca kitab. Hər tomda neçə min varaq saraldı..

**Tom-tom**, *sif.* və *z.* Tomlarla, cild-cild, çoxcildli. Hanı tom-tom o kitablar?

**Ton¹**, *is.* [fr.] Min kiloqram ağırlığı. Hər sözün siqləti dönsün bir tona.

**Ton²**, *is.* [yun.] Nitq üslubunun ifadə tərzi. Dəyişir söhbətin bir az tonunu..

**Tonqal**, *is.* Yandırılan odun, çırpı qalağı. Baxın, hər qapıda bir tonqal yanır.. ☐ Tonqal vurmaq – tonqal qalamaq. Tonqal vurub əl isitdin..

**Tonqar**, *is.* Kaha, mağara. Titrəyə-titrəyə girmiş tonqara..

**Top¹**, *is.* Elastik oyun şarı. ..rezin toplar..

**Top²**, *is.* Uzunlüləli artilleriya silahı. Atılan topların fəlakət səsi.. – [Şahbaz:] Toplar, təyyarələr gəlmiş baş-başa..

☐ Topa tutulmaq – top atəşinə məruz qalmaq. Topa tuldunuz siz zaman-zaman.

**Top³**, *is.* Topa, toplu, dəstə, yığın. Göründü qarşıda bir top qaraltı..

**Topal**, *is.* və *sif.* Qol-qıç şikəstliyi. ..Qızıl verib sağaltmışdı topalını…

**Topçu**, *is.* Artilleriya əsgəri. Topçular alayı gəlir arxadan..

**Topdağıtmaz**, *sif.* Sarsılmaz. ..Hər nəfəri gülləbatmaz, topdağıtmaz ordudur.

**Topxana**, *is.* (*köhn.*). Artilleriya, topçu qoşunu. Toplar, topxanalar keçmiş başından; Dayanmış o heykəl yenə vüqarla.

**Toplamaq**, *f.* Bir yerə yığmaq. Meydana toplasın fransızları. □ Başına toplamaq – ətrafına yığmaq. [Banu:] Topla igidləri başına tezdən. Özünü toplamaq – özünü ələ almaq, iradə qüvvəsini səfərbər etmək. Özünü toplayıb dinir Gülpəri..

**Toplanılmaq**, *f.* Yığılmaq, bir yerə cəm olunmaq. Elə bil üst-üstə toplanılmışdır.

**Toplanmaq**, *f.* Yığılmaq, dərilmək (bitki məhsuluna şamildir). ..Hər qozasından; Bir kilo toplansın azı pambığın..

**Toplaşmaq**, *f.* Bir yerə yıtışmaq, cəmləşmək. Çadırlara toplaşır qaçaqlar dəstə-dəstə..

**Toppuz**, *is.* Kürz kimi bərk zərbə endirmək üçün istifadə olunan qədim silah. Enir hiddətlə toppuzlar, poladdandır nədir canlar?

**Top-tüfəng**, *is.* Odlu silahlar. Rusiyanın.. Top-tüfəngi, bol-bol xəzi.. – O top-tüfəng səsini görmədin sən..

**Tor**, *is.* 1. İpdən çarpaz toxunan və balıq, quş tutmaq üçün istifadə olunan ov aləti. Bir az sonra tor açılır; İslandıqca batır suya.

2. *məc.* Hiylə, kələk, qurğu, dam; çələ, duzaq. □ Tor qurmaq – fənd işlətmək, tələ qurmaq, kələk gəlmək, hiylə düzəltmək, qurğu qurmaq. Eldar qurtulammaz qurduğum tordan… Tora düşmək – kələyə düşmək, pis vəziyyətə uğramaq. Toruna düşürsən hər müsibətin. Tora salmaq – hiylə işlədərək tələyə salmaq, əl-qolunu bağlamaq. Vaqifi saldın tora..

3. Qurum. □ Tor bağlamaq – qurum bağlamaq. ..Evlərin üstündə tor bağlayır qar.

**Torba**, *is.* Kisə. Elə ki torbası.. dolur..

**Torbalı**, *sif.* Əlində, yanında, üstündə torba, kisə. ..hamısı torbalı, hamısı yüklü..

**Torpaq**, *is.* 1. Yer qabığının (planetimizin) üst qatı. Torpağa qarışır o bir gübrə tək.. – Torpaqdan, havadan, sudan güc alır. □ Torpağa tapşırmaq – torpağa təslim etmək, dəfn etmək. Ölənlərimizi .. tapşırdıq qara torpağa.. // Torpaqdan olan, düzələn, salınan, tikilən. ..Torpaq damımız. – Atam öldü torpaq damda..

2. Ölkə, məmləkət, diyar, yurd, ərazi. Qədim Asiyanın torpaqlarında.. – Torpağımda nə zəncir var, nə də zindan.. – Yoxdur bu torpaqda şair sizin tək..

**Torpaqlı**, *sif.* Torpaqdan tikilmiş. Torpaqlı damlarda ömür sürənlər; Xosrov ordusunun döşündən vurdu.

**Tovlamaq**, *f.* 1. Aldadıb başdan çıxarmaq, yoldan çıxarmaq. Tovlayıb azdırır gündə birini.

2. Yerindən oynatmaq, girə salmaq. ..tovlayır qəlbi ehtiras..

**Tovuz, tavus**, *is.* [ər.] Qırqovul fəsiləsindən olan çox bəzəkli iri quş. Yürüyürsən tavus rəqs edər kimi..

**Toy**, *is.* 1. İzdivac münasibətilə keçirilən şənlik-şadlıq büsatı, mərasimi, düyün. Yaxşı, Əli bəyin toyudur, demək? – Bəy də öz toyunda oynasın gərək!

2. *məc.* Şadyanalıq. Quşların avazı bir toya dönsün. □ Toy düşmək – şənlənmək, canlanmaq. May günü toy düşür bizim dənizə..

**Toy-bayram**, *is.* Toy-büsat, şənlik-şadlıq. ..gözəl Bakı, .. Toy-bayramdır qoynundakı…

**Toyluq**, *is.* Toy mərasimi üçün təxsis edilmiş. Ordadır qarının toyluq paltarı.

**Toy-mağar**, *is.* Toy büsatı. Bəs necə gedirəm toya-mağara?

**Toyuq**, *is.* Yumurtası və əti yeyilən ev quşu. Çil toyuğun tək yumurtası. ..Toyuq tutan çaqqallar..

**Toz**, *is.* 1. Havada, yerdə, şeylərin üzərində olan narın quru zərrəciklər! Ciyərə dolmayır nə toz, nə torpaq. – O getdi şir kimi, toz qalxdı yerdən..

2. Toz pərdəsi, duman pərdəsi. Cəhalət tozunu gözündən sildin..

**Tozanaq**, *is.* Tozlu külək, tozlu hava. Yadımdadır qum sovuran o tozanaq.

**Toz-duman**, *is.* Havada tutqunluq əmələ gətirən tozanaqlı duman, tüstü, his. Ayaqlar altından toz-duman qalxır. – Motorlar Bozdağı yarıb sökdükcə Toz-duman içində hara baxırsan?

**Tozlanmaq**, *f.* Üstü tozla brtülmək. Tolzanan yolları boylanır yenə…

**Tozlu**, *sif.* Tozanaqlı. Yer darısqal, hava tozlu.. – Tozlu bir diyarla qucaqlaşmışam..

**Toz-torpaq**, *is.* və *sif.* Toz və torpaq basmış. Köhnə bir evciyəz gördüm, içi toz-torpaq..

**Toz-tozanaq**, *is.* Tozlu küləkli hava. Külək əsir qum sovrulur, gözə girir toz-tozanaq..

**Töhfə**, *is.* [ər.] Bəxşiş, hədiyyə, ərməğan. Elə bil ki insanlara töhfəsidir təbiətin; Göy təpələr, yaşıl dağlar.

**Töhmət**, *is.* [ər.] Danlaq, məzəmmət. Sənin söylədiyin bu töhmətləri; Eşidə bilsəydi, əriyərdi dağ…

**Tökmə**, *sif.* Əridilib qəlibə tökülmüş mateldan hazırlanan. Mərmər abidələr, tökmə heykəllər; Bəzəkdir şəhərə.

**Tökmək**, *f.* 1. Bir yerdən başqa yerə blşaltmaq. Tuluqdan süd tökür.. – Qurşun tökür boğazına..

2. Yerindən qopub tökülmək. Sarı, yarpaq tökür boylu çinarlar.

3. Yağdırmaq, saçmaq. Başıma ildırım töksə də fələk..

4. Tökmə üsulu ilə hasil etmək. Gəlin qurşunlardan tökək şeri biz.

**Tökülmək**, *f.* 1. Üzərinə enmək, çökmək. [Şahbaz:] Üstümə tökülür bütün asiman..

2. Üzərinə sallanmaq. Tökülsün sinənə qara birçəklər..

3. Üzərinə bol-bol yağmaq. Tökülür üstünə gül dəstələri.

4. Qopub düşmək. Onun saçları da dibdən töküldü. – Vaxtsız tökülməyir güllər, çiçəklər.

5. Bədəndən maye axmaq. Azadlıq uğrunda tökülən qanlar.. – Gecə-gündüz yaş tökülər..

6. Tökülüşmək, axışıb gəlmək. Quba-qazlar.. Araz üstə tökülür.

7. *məc.* Yağmaq, saçmaq. Səadət tökülür xoş üzünüzdən! – Elə dərd tökülür qaş-qabağından…

8. Tökmə üsulu ilə hasil edilmək. Poladdan töküldü vüqarlı sinən.

**Törəmək**, *f.* Nəşət etmək. Hər ikimizdən törəyən..

**Törətmək**, *f.* Doğurmaq. [Şirin:] Tapdanan bir eşqin pərişan səsi; Fəlakət törədər…

**Tövrat**, *is.* [qəd. jəh. tora] Bibliyanın beş kitabdan ibarət olan birinci hissəsi. ..tövratı, incili yan…dır…dı…

**Tövşümək, töyüşmək**,*f.* Təngimək. Fəqət töyüşmədi bu polad sinəm.

**Traktor**, *is.* [ing.] Kənd təsərrüfatı maşını. Çıxdı traktorlar Muğan düzünə.

**Tramvay**, *is.* [ing.] Şəhər yerüstü dəmir yolu elektrik qatarı. Səkirdi quş kimi yerdə tramvay.

**Tribuna**, *is.* [fr.] Xitabət kürsüsü. ..Xoşdur nəfəsin; Coşub tribunadan danışanda sən..

**Tufan**, *is.* 1. Boran, fırtına. Əlinlə qurduğun barlı bağçalar, Tufanlar qopsa da, saralıb-solmaz. Yaman qopdu o gün tufan.

2. *məc.* bəla, müsibət, fəlakət, qovğa, təlatüm. [Azər baba:] Dünyanın başında tufan qopsa da; Odlar ölkəsinin ocağı sönməz!.. – Qopdu issız ruhumda tufan, gəlin.

**Tufanlı**, *sif.* Fırtınalı. Əsrimiz daima tufanlı; Bir dənizdir..

**Tufli**, *is.* [rus.] Topuqdan yuxarı olmayan ayaqqabı. [Amaliya:] ..bir təmizlə tuflilərimi..

**Tula**, *is.* Uzunqıçlı iri ov iti. Tulalar da zingildəşir..

**Tulan**, *is.* Sürünənlər sinfinə mənsub olan heyvan. Şütüyər bir ilan kimi, Göyxallı bir tulan kimi.

**Tuluq**, *is.* Motal qəbilindən olan sal dəri. □ Bir tuluq – bir ğuluq tutan qədər (maye). Başını bir tuluq qana salaraq «Diriykən doymadın, indi iç!» dedi.

**Tulumba**, *is.* [ital.] Kaçalka, nasos. Dəmyəmiz su əmir tulumbalarla.

**Tumarlamaq**, *f.* Sığallamaq. ..Bu əl; At tumarladı, yer qazdı…

**Tumarlanmaq**, *f.* Sığallanmaq. Quşlar qanadından tumarlanırdı..

**Tumbul**, *sif.* Koppuş, toppuş, yumru. Qızsa daş oynadır tumbul əlində.

**Tunc**, *is.* 1.*məc.* Tunc rəngində (qızılı-qəhvəyi) olan. Zənci qızır aslan kimi, qabarmışdır tunc sinəsi.

2. *məc.* Tunc kimi bərk, möhkəm. O igidin tunc sinəsi; Bir Koroğlu qalasıdır. – Dildə dastan olan tunc iradəniz..

**Tunel**, *is.* [ing.] Yol üçün yeraltı yaxud dağiçi dar və uzun koridor. Qatarlar da.. şığıyacaq tunellərə..

**Turac**, *is.* Ov quşu. Ceyran qaçar, turac uçar.

**Turaclı**, *sif.* Turac çox olan. Turaclı çöllərdə sən at oynatdın.

**Tutaq (ki)**, *ara s.* Tutalım, tutalım ki, deyək ki, fərz edək ki. Tutaq ki, məşriqdən məğribə qədər..

**Tutar**, *is.* Qüvvət, taqət. Xanlarda, bəylərdə tutar qoymadı. – Ay qız, gülcamalın tutarı yoxdur.

**Tuti**, *is.* [*fars.*] Tutuquşu, şirindil quş. Bülbüllərə dil verəcək, tutilərə kamança ..sənət bağı, söz bağı!

2. *məc.* Axıcı (tutinin dili kimi). Mənim tuti dilim birdən lal olur.

**Tutqun**, *sif.* Buludlu, dumanlı, toran. Tutqun üfüqlərdə açılmaz sabah.

2. *məc.* Qaşqabaqlı. Onun tutqun baxışında bulud gəzir, şimşək çaxır. // Qəmgin, pərişan. Dün tutqun könüllər artıq açıldı.

**Tutmaq**, *f.* 1. Əlində saxlamaq. Ovcumda tutmuşam onun əlini. – [Səslər:] Gedək, qalxan tutub, qılınclar çalaq.

2. Ələ keçirmək. Qoymayın, tez olun, tutun Eldarı! – Gərək tutub yaxşı çəkək onun qulaqlarını..

3. Ovlamaq. Kürün sahilində balıq tutardıq..

4. Etmək, eləmək, görmək (iş, əməl). Nələr tutduğunu bir düşün, bir qan! – Bu tutduğu işdən olmaz peşiman.. – [Şirin:] Nəydi bu dünyada tutduğum günah…

5. Özündə yerləşdirmək, sığışdırmaq. Dağ-dərə tutmayır o qoçaqları.

6. Ehtiva etmək, qaplamaq. Kəndlər, qəsəbələr tutmuş çölləri.

7. Bağlamaq, (özündə) əmələ gətirmək. Yenə axar çaylar buz tutacaqdır. – Yenə qönçə tutacaqdır könüllərin arzuları.

8. Niyyət etmək, qəsdindən keçmək, məramında olmaq. Nə tutmusan qəlbində sən?

**Tutulmaq**, *f.* 1. Məruz qalmaq. Tutuldu güllələrə qızıl qanlar içərək..

2. Pərt olmaq, halı pozulmaq. Həyəcandan tutularaq, nəfəs aldı o dərindən. – Tutuldu Aygünün bu sualından.

**Tutuşmaq**, *f.* 1. Bir-birindən yapışmaq. Qol-qola tutuşub rəqs edir lordlar. – Əl-ələ tutuşub yallı gedilir..

2. Güləşmək. Günəşlə tutuşan, ayla yarışan..

**Tuz**, *is.* [pol.] Gəncəfə oynunda ən dəyərli kart (ortasında bir xal olur). Onluq marıtlayan qara tuzlar..

**Tüfeyli**, *is.* [ər.] parazit, müftəxor. Bir tüfeyli kimi çıxır cərgədən.

**Tüfəng**, *is.* Odlu yaxud pnevmatik uzunlüləli əl silahı. [Şahbaz:] İndi meydan açır toplar, tüfənglər.. □ <u>Tüfəng atmaq (atılmaq)</u> – tüfəngdən atəş açmaq (açılmaq), güllə boşaltmaq, güllə açılmaq. Oğru qarğalara tüfəng atılır..

**Tüğyan**, *is.* [ər.] Coşub-daşma, təlatüm. □ Tüğyana gəlmək – tüğyan etmək, coşub-daşmaq. Xəyalı bir dəniz tək yenə gəlir tüğyana..

**Tük**, *is.* Dəridə sapaoxşar qərni törəmə. Buğa tüklərini qobardıb birdən..

◊ Tük ürpərmək, tükləri qabarmaq – tükləri biz-biz durmaq, vahimələnmək, hövl götürmək. Tük ürpərir lal gecənin vahiməsindən. – Qabardı tükləri şeyda bülbülün.. Tüklərini biz-biz qaldırmaq – dəhşətə gətirmək, dəhşətləndirmək. Amansız dənizin bu mənzərəsi; Başın tüklərini qaldırır biz-biz.. Tükünü tökmək – soyulmaq, müflisləşmək. Kapital qotur itlər kimi tükünü tökür..

**Tükənilməz**, *sif.* Tükənməyən, tükənməz. Məhəbbətdir bu dünyanın tükənilməz böyük varı.

**Tükənmək**, *f.* Azalıb qurtarmaq, sona yetmək. Təmiz sevgi, ilqar, vəfa Tükənməyir ürəklərdən…

**Tükənməz**, *sif.* Bitib-tükənməyən, tükənilməz. Bu yeraltı Mingəçevir bir tükənməz dəfinədir. – İlham alıb yazım mən də; Bir tükənməz səadətlə.

**Tülək**, *sif.* Tükünü tökmüş. Tülək tərlan sənindir!

**Tülkü**, *is.* Hiyləgər və qorxaq şələquyruq. Bilirik, tülküdən daha qurnazsan.. – Qaçdı tülkü kimi, qaçdı qabaqdan…

**Tülkülük**, *is.* Hiyləgərlik, biclik. [Məryəm:] Tülkülüyə bax! Bir qız da Məryəmi ələ salacaq.

**Tümən**, *is.* İranda (XVIII əsr – 1930) qızıl pul: 1 tümən 10 rialla əvəzlənmiş. ..sirrimizi; Min tümənə satın alır.

**Tünd**, *sif.* [*fars.*] qatı, qəliz, ağır, kəsif, kəskin. Hava qızır insanların tünd nəfəsindən.. // *məc.* Bərk, şiddətli. Ya da.. yanağının tünd alovları; İşıqladır.. asimanı.

**Tünlük**, *is.* Qələbəlik, basırıq, izdiham. Qarışıb tünlüyə gözümdən itdi… – Tünlükdən çəkinər, qorxar canavar.

**Tüpürmək**, *f.* Ağızdan tüpürcək, ya da ağzındakını atmaq.

◊ Sifətinə (üzünə) tüpürmək – hiddətlə «tfu!» deyərək nifrətini bildirmək və lənətləmək. Tarix tüpürəcək sifətinizə!

**Türbə**, *is.* [ər.] Məqrəbə, məzar. Türbənin üstündə zərif naxışlı; Aypara şəklində bir daş ucalmış!

**Türfə**, *sif.* və *z.* [ər.] İncə, məlahətli, qəşəng, füsunkar. ..türfə cananlar dodağında gül açdın sən..

**Türkcə**, *sif.* və *z.* Türk dilində. Türkcə salam verib iclas açacaq..

**Türkmən**, *is.* Milli mənsubiyyəti oğuz türk xalqlarından birinə aid olan adam. Qazax da, gürcü də, rus da, türkmən də..

**Türkü**, *is.* Nəğmə, şərqi, mahnı, təranə. Sabahın türküsü.

**Tüstü**, *is.* 1. Yanan bir şeydən (pis yanandan daha çox) havaya qalxan bozumtul-qaramtıl his, duman. Orda nə işıq var, nə də ki tüstü.

2. *məc.* Ruhən odlanmanın, yanmanın əlaməti. Dumanlar, tüstülər qalxdı canımdan.

**Tüstülənmək**, *f.* 1. Havaya tüstü buraxmaq. Sığınıb bir bucağa; Tüstülənən ocağa..

2. *məc.* Dərunda gizli közərmək, alovsuz yanmaq. Ürəklərdə tüstülənir bir intiqam atəşi.

**Tüstülətmək**, *f.* Elə etmək ki, tüstü buraxsın, tüstüsü çıxsın. [Eloğlu:] Zoğal müştüyünü tüstülədərkən..

**Tüstülü**, *sif.* Tüstü qaplamış. ..tüstülü daxmasında yemlik yediyim..

**Tütək**, *is.* Nəfəsli sadə musiqi aləti. ..tütək, qaval yapardı. – Çoban tütəyindən axan bayatı..

# U

**Uc**, *is.* Uzun şeyin qurtaracaq hissəsi. Ucu tər cığalı tellər bizdədir. ◊ Nə ucu var, nə bucağı – ucu-bucağı görünməyir (*çox geniş sahə, ənginlik haqqında*). ..qəbiristanın nə ucu var, nə bucağı..

**Uca**, *sif.* 1. Hündür, yüksək. Boyu da sərv ağacından ucadır. – Uca dağlar başındadır igidlərin istehkamı.

2. *sif.* və *z.* Zil, ucadan. Bəzən uca, bəzən asta; Ötür sazım..

3. *məc.* Ülvi. ..Yandım uca eşqimlə həmən..

**Ucalmaq**, *f.* Qalxmaq, yüksəlmək. Günəş.. ucalmış ərşə.. // Ucadan səslənmək. Hər evdən ucaldı inqilab səsi. // *məc.* Mənəvi yüksəkliyə nail olmaq. İnsan oğlu öz eşqiylə ucalmışdır..

**Ucaltmaq**, *f.* Gücləndirmək, qaldırmaq (*səs haqqında*). Amadu! Qardaşım, ucalt səsini.

**Ucuz**, *sif.* və *z.* 1. *məc.* bayağı, yüngül, şit. Ucuz söz qan qaraldır..

2. *məc.* Əbəs yerə, boş yerə, faydasız. ..Ucuz ölmək gülüncdür..

◊ <u>Ucuz satmaq</u> – özünü əskiltmək, mənliyini itirmək çatırlar ucuz sataraq.. Rütbəyə çatırlar ucuz sataraq.. Ucuz tutmaq – lazımınca qiymətləndirməmək, etinasızcasına yanaşmaq, əhəmiyyət verməmək. Ucuz tutmayırsan şeiri, sənəti. – Gəl onun eşqini ucuz tutma sən..

**Ucuzlaşmaq**, *f.məc.* Qiymətdən düşmək, dəyərini itirmək. Bir sənət, bir də söz ucuzlaşmasın!

**Uçar**, *sif.* və *is.* Quş uçması. Uçarda turacdır, qaçarda ceyran.

**Uçqun**, *sif.* 1. Havada hərəkət edən, uçmada olan; uçar. Yaracaq göyləri uçqun buludlar..

2. *məc.* Dolaşıq, qarışıq, qərarsız. Xəyalı, dağınıq, fikri uçqundur..

**Uçmaq**[1], *f.* 1. Pərvazlanmaq, havalanıb fəzada hər hansı istiqamətdə hərəkət etmək. ..göy üzündə uçan durnalar! – Onun qanadında.. uçacaq sabah insanlar…

2. Böyük sürətlə getmək, irəliyə doğru hərəkət etmək. Uçur qayıqların ipək yelkəni..

3. Qopmaq, qalxmaq, ucalmaq, yayılmaq. Nəğmə uçur, əl çalınır..

4. Təbəxxür etmək. Canından istilik uçub əksilir..

5. *məc.* Ənginliklərdə gəzib dolaşmaq, pərvaz etmək. Xəyal qanadlanır, uçur göylərə. – Sarvanımın fikri bu dəm Uçub gedir uzaqlara..

**Uçmaq²**, *f.* Dağılmaq. Gündə min ev uçur, min ev yıxılır. – Uçdu dəmir yolu, qatar dyandı. // Yıxılmaq. Yüzillik bir palıd uçur kökündən. □ Uçub tökülmək. *məc.* məhv olmaq. Uçub tökülürdü ömrümün bağı…

**Uçmaz**, *sif.* Sarsılmaz, dağılmaz. Bu könül adlanan uçmaz saray..

**Uçuq**, *sif.* və *is.* Sökük, yıxıq. Uçuq divarlarda.. qar.

**Uçulmaq**, *f.* Uçmaq, sökülüb tökülmək, dağılmaq. Sən baxma ki bir çox yeri uçulmuşdur.

**Uçunmaq**, *f.* Əsmək, çırpınmaq. O bəzən.. uçunub titrər..

**Uçur(t)maq¹**, *f.* 1. Pərvazlamaq. Çolpaları yuvasından mən uçuraydım. – Qoca qartal.. Uçurduğu çolpaları.. seyr edər.

2. Sürətlə aparmaq. Məni yelkən kimi fikrim uçurur..

3. *məc.* Yüksəklərə qaldırmaq. ..xəyal məni yerdən uçurur..

**Uçur(t)maq²**, *f.* Yıxılıb dağıtmaq, söküb dağıtmaq, söküb yıxmaq. Uçurub dağıdır yenə bəndləri. – Sellər, sular qudurmasın! Qurğumuzu uçurmasın! – İnsan uçuracaq daş zindanları. // Yarıb tökmək. İnsan oğlu yer altda da uçurur dağı. – Polad sinəsilə dağlar uçuran.. // *məc.* Devirmək, təsviyə (ləğv) etmək, yox etmək. Bu əllərlə o uçurdu qəsbkarlar dünyasını.

**Uçurum**, *is.* Sıldırım, sarp yamac, yalçın və dərin yarğan, dərə. Hələ dağlar, uçurumlar, dərələr..

**Uçurumlu**, *sif.* Sıldırımlı, yarğanlı. O keçdiyi uçurumlu, daşlı, tikanlı, yollar..

**Uçuş**, *is.* 1. Uçma, pərvazlanma. Bir quşcuğun uçuşu..

2. *məc.* Yksəmiş, vüsət. Arzularım çoxalır, mən acizəm uçuşda..

**Uçuşmaq**, *f.* Birlikdə o yana bu yana uçmaq. Uçuşdu arılar, ağ kəpənəklər.

**Udqunmaq**, *f.* Udlaq əzələlərinin hərəkəti ilə ağız, burun, boğaz seliyini qeyri-ixtiyari olaraq qida borusuna ötürmək. Hey udqunar asta-asta…

**Udmaq**, *f.* 1. Qida və ya da nəfəs borusundan içəri ötürmək. İntiqamın yanan qəlbi şaxta udur, qar içir. – ..Ana yurdun havasını biz uduruq..

2. *məc.* Öz içinə alıb yox eləmək, görünməz etmək, məhv etmək. Udur insanı bu zülmətli gecə.. – Nə bir səs var, nə də nəfəs, Yoxsa uddu onu tufan?..

**Uduxmaq**, *f.* Sözü boğazında qalmaq, udqunmaq. «Bunlar əskimişdir», – deyə uduxur.

**Udum**, *is.* Qurtum. □ Bir udum – bir dəfəyə udulacaq qədər, bir qurtum. A dostlar, su verin mənə bir udum.

**Uduzmaq**, *f.* Ziyan çəkmək. Fəqət uduzmamışdır.. ayıqlıq… // Zərər etmək. Bəlkə bu alverdə uduzuram mən?

**Uğrunda**, *qoş.* …yolunda, …naminə. Azadlın uğrunda vuruşmalara!..

**Uğuldamaq**, *f.* Uğultu səsi çıxarmaq, göyərçin sayaq boğuq səslə quruldamaq. Qayalar dil açıb bərk uğuldayır..

**Uğunmaq**, *f.* Qəşş olmaq. Az qalır uğuna səadətindən.

**Uğur**, *is.* Müvəffəqiyyət. Lazım gəlsə, bu uğurda verəcəyəm öz qanımı. □ Uğur(lar) olsun! – bir işə iqdam edənə müvəffəqiyyət, nailiyyət əldə etmək arzusu, diləyi bildirir. [Azər baba:] Get, oğlum, get, sənə uğurlar olsun! – Gedin, dostlar! Uğur olsun yollarınıza!

**Uğurlu**, *sif.* və *z.* Xoşbəxt, səadətli, məsud. Yadından çıxdımı o uğurlu gün?..

**Uğursuz**, *sif.* və *z.* Bədbəxt, talesiz. Mən uğursuz yaranmışam.. // Bədbəxtlik gətirən, məşum, fəlakətli. Kükrəyib axdıqca uğursuz külək; Yanğının alovu yayılır göyə. // Nəhs, pis. Uğursuz birxəbər..

**Ul**, *sif.* Böyük. Onun ağıl adlı bir ul gücü var..

**Ulaq**, *is*. Uzunqulaq, eşşək. Qasım kişi dünən gecə qoşub ulaqlarını..

**Ulamaq**, *f.* 1. İniltiyə bənzər səs çıxarmaq (it, canavar, çaqqal, bayquş haqqında). Gecələr çox səssiz olur, yalnız ular bayquşlar.

2. Vıyıldamaq. Bayırda uladı qışın boranı..

**Ulaşmaq**, *f.* Ağız-ağız verib ulamaq. Qurdlar da ulaşdı çöldə səs-səsə.

**Ulduz**, *is.* 1. Gecələr göydə parıldayan nöqtə kimi görsənən səma cismi. O, ayı, ulduzu fəth edəcəkdir! – Bir azdan doğacaq göydə ulduzlar.

2. Dairə üzrə üçbucaq çıxıntıları olan fiqur və bu cür fiqurlu əşya. Yanır Kremlin beş bucaqlı yaqut ulduzu. – Sarvan baxır ulduzlara, baxır hörmətlə.

◊ Ulduzu sönmək – taleyi gətirməmək, uğursuzluğa düçar olmaq. Nələr deyir qara bayatım? Əzəldən ulduzu sönmüş…

**Ulduzlu**, *sif.* Saysız-hesabsız ulduzları parlayan. Oxşadı alnını ulduzlu göylər.. – gecə ulduzludur..

**Ulduz-ulduz**, *z.* Odlu-odlu. Ulduz-ulduz alışdıqca onun gözləri..

**Ulğun**, *is.* Ağac növü. Çoxu söyüdlərdir, bir az ulğunlar.

**Ulu**, *sif.* Böyük, uca, ali, aliyə, əzəm. Təslim olub baş əyəcək ulu Hürmüzə. – Ey səhər, ey günəş, ey ulu qüvvət!

**Ulus**, *is.* Oba, yurd, oymaq. Arzularım ulusumda, elimdədir. – Axışıb öz eli, ulusu gəlir…

**Ummaq**, *f.* 1. Ümid etmək, gözləmək. Ummadın kimsədən imdad, mərhəmət..

2. Məqsəd güdmək, qəsd etmək. Elin zərərindən mənfəət uman; Boyansın, demişəm, al qana, dağlar!

**Umuz**, *is.* Çiyin. Günəşin altında çılpaq umuzlar..

**Unlu**, *sif.* Üst-baş una batmış. Üstü unlu olan hər arif qoca..

**Unudulmaq**, *f.* 1. Yaddan çıxarılmaq, yaddaşdan silinmək. Unuduldu eşqin andı.

2. Yad edilməmək, xatirələrdə qalmamaq. Çox danışıb az yazanlar Unudulur..

3. *məc.* Yox olub getmək. Bütün dərdlər unudulur.

**Unutdurmaq**, *f.* Unudulmasına səbəb olmaq. Mənə bir baxışla unutdurursan.

**Unutmaq**, *f.* 1. Yaddan çıxarmaq. Unuduram hər canlının, hər cansızın öz adını. – Andını da tez unudar.

2. *məc.* Sədaqətsizlik, vəfasızlıq, dəyanətsizlik göstərmək. Öz sadiq oğlunu torpaq unutmaz. – Dostluğu dar gündə unutmaz könül.

3. Nəzərə almamaq, nəzərdən qaçırmaq, sərf-nəzər etmək. [Şapur:] Şahim, ..unutma ki, hökmdarsan sən. – Yazlıq əkin işlərini unudurlar tamamən.

4. *məc.* Daha hiss etməmək. Ağrısını unutmuşdur bir anlığa yaralılar. – Çəkdiyimiz ağrıları, zillətləri unuduruq…

5. *məc.* Fikirləşməmək, narahat olmamaq, iztirab çəkməmək. Unut o bayaqkı faciəni sən…

6. *məc.* İmtina etmək, əl çəkmək. Uzun nitqləri artıq unudaq..

7. Nisyana uğratmaq. Zamanın dərdini zaman unudur.

**Ura!** *Nida.* Şura gətirmək üçün işlədilən ruhlandırıcı, şövqləndirici nida. Sabahı da bu gün kimi qura-qura; Söyləyək: Ura! Ura!!!

**Usandırmaq**, *f.* Bezdirmək, bıqdırmaq. Məni candan usandıran arsız paxıllar..

**Usta**, *is.* Mahir sənətkar. ..qoca bir usta; Dağılmış bir evi qurur yenidən. – O sarı simlərin ustası..

**Ustad**, *is.* [*fars.*:] Nüfuzlu müəllim, yolgöstərən, rəhbər. [Şapur:] Şahın rəssamıyam, Şapurdur adım; Təbiət olmuşdur böyük ustadım.

**Uşaq**, *is.* Yeniyetməlik dövrünə qədər olan (12 yaşına qədər) azyaşlı oğlan, qız; çocuq. Bənövşə toplyır çöldə uşaqlar.. – Uşaq kimi inanmayın.. – Böyüklə böyüksən, uşaqla uşaq.. // Cavan, gənc. Ayə, ay uşaqlar! // *məc.* Sadəlövh,

sadəlilikdən hər şeyə inanan. Dedi: – Nə deyirsən, uşaqsan nədir? Uşaqsan?!..

◊ Uşaq salmaq – Ananın bətnindəki balasının tələf olması üzündən hamiləliyini doğuşla nəticələndirməmək. Gülpəri ..yazıq, uşaq salmışdır..

**Uşaqlıq**, *is.* İnsan həyatının ilk onilliyi. Uşaqlıq nə qədər gülünc olsa da..

**Utancaq**, *sif.* və *is.* Məhcub. ..O dinmədi… Utancaqdır…

**Utanmaq**, *f.* 1. Xəcalət çəkmək, üzüqara olmaq. Utanır Bəxtiyar dediklərindən. – Qoy utansın dünyamızdan hünərsizlər..

2. Çəkinmək, saqınmaq, cəsarət etmək. [Loğman:] Utanma… de görək! – Utanma, gəl, bacım, gəl..

3. Abır gözləmək, həya etmək. [Məryəm:] Budur, bax, bu boyda oğlumdan utan!..

**Utanmaz**, *sif.* və *is.* Həyasız, abırsız, arsız. Alçaq, utanmaz!

**Uydurma**, *is.* və *sif.* Qondarma, quraşdırma, yalan.. bunlar da bir cürə uydurmalardır… – İnanma gəl bu uydurma, bu pərdəli sözlərə..

**Uydurmaq**, *f.* Özündən quraşdırmaq, qondarmaq. Bəsdir uydurduğun bu min bir yalan.. – Yüz qanun uydurur hər gəlib gedən…

**Uyğun**, *sif.* Uyar, müvafiq, münasib. Söylə, təbiətə uyğunmu, səncə..

**Uyğunlaşmaq**, *f.* Uyuşmaq. Sənin kimi bir əfsanə xəyala; Uyğunlaşsa, yaşar cəfalı Göygöl.

**Uyqu**, *is.* Yuxu. Əlvida, əlvida, daldığım uyqu..

**Uymaq**, *f.* 1. Qapılmaq. ..hər xəyala uyanlar..

2. Mübtəla olmaq. Arif ol, ey Vurğun, uyma şöhrətə..

3. Bənd olmaq, inanaraq etibar etmək. ..Bir insana uydu zavallı.. – Yanıldım, doğrusu, uyub aldandım..

**Uyumaq**, *f.* Yuxulamaq. O səfalətzadə uyuyur yaslı…

**Uzaq**, *is.* və *sif.* 1. Böyük məsafəli, çox aralı yer. [Cəlal:] Bizi uzaqlara aparır külək… – ..gözaltı seyr edir ta uzaqla-

rı.. – İndi mən uzaqlarda tək; Yaşaram kimsəsiz.. □ Uzaq düşmək – uzaq diyarda qalmaq. [Şirin:] Eldən uzaq düşdüm, vətəndən iraq. // Böyük məsafədə olan. Bizdən işıq aldı uzaq ölkələr. – Zəncirlər səslənir uzaq sürgündə. // Böyük məsafəni qət edən. Səfərimiz uzaq, yolumuz uzun.. – Həsrət ilə salamlayır uzaq yolları!.. □ Uzaq top – uzaqvuran top, artilleriya. Uzaq toplar dilə gəlib..

2. *məc.* Kənar, özgə, yad, yabançı. Şeirdən, sənətdən uzaq kimiyəm. – Məndən çox uzaqdır hər bəla, hər qəm.. // Yad adam. Şərqinizi dinləyir ən yaxınlar, uzaqlar.

**Uzaqda**, *z.* Uzaq məsafədə, uzaq yerdə. Bəli, uzaqdadır, həsrəti çoxdur…

**Uzaqdan**, *z.* Uzaq məsafədən, uzaq yerdən. Ay da taleyinə uzaqdan baxdı..

**Uzaqgörən**, *sif.* Bəsirətli. Onun uzaqgörən şahin gözü..

**Uzaqlaşmaq**, *f.* Özündən uzaqlaşdırmaq, əlaqəni qırmaq. İmamların kömək əli; Bizdən uzaqlaşdı yenə.. // İraq olmaq. İnsanlardın uzaqlaşdım.. // Əsas məsələdən (mətləbdən, məqsəddən) kənara çıxmaq. Uzaqlaşma, qələm, yenə mətləbdən.

**Uzaq-uzaq**, *sif.* Məkan və zaman etibarilə çox-çox uzaq olan. Uzaq-uzaq keçmişləri xatırladım nifrətlə…

**Uzaqvuran**, *sif.* Uzaq məsafəyə atəş aça bilən. ..uzaqvuran toplar..

**Uzalı**, *z.* Uzadılmış halda. Uzalı getdisə dünyadan əlin..

**Uzanmaq**, *f.* 1. Bir yer üstünə sərilərək. Bütün bədəni ilə üfüqi vəziyyət almaq. Axşamdan uzandı ağac taxtına.. – Uzanmamış qəhrəmanım hələ yatağa..

2. Boylanmaq. Başlar uzanmışdır pəncərələrdən..

3. Davam edərək uzanıb getmək. Yolçular getdikcə yol uzanırdı.. // Çox çəkmək, davam etmək. Uzandı dostların şadyanalığı.. – Qoy uzansın gecə, geciksin səhər..

**Uzatmaq**, *f.* 1. Bir şeyin səmtinə tərəf hərəkət etdirmək, səmtləndirmək, yönəltmək. Hər səhər günəşə uzat əlini..

2. Vaxtını, müddətini, davamiyyətini artırmaq. Ellər uzadacaq şair ömrünü.

**Uzun**, *sif.* və *z.* 1. Xətti ölçüsü böyük. ..Uzun yollu, Neçə qollu; Axar göllü; Axar çaylar.

2. Sürəkli, davamlı. Onun cavan ömrü başa gəlməyən; Uzundur Muğanın sözü, söhbəti. // Həddindən çox vaxt aparan. Uzun nitqləri artıq unudaq..

**Uzunboylu**, *sif.* Ucaboy. Uzunboylu, alagözlü.. birisi..

**…uzunu**: …boyu, …la/…lə. ..belə qalaydım ömrüm uzunu. – Saatlar uzunu fikrə gedirəm.

**Uzun-uzun**, *sif.* və *z.* Uzun-uzadı, çox uzun. Düşündükcə uzun-uzun Deyirəm..

# Ü

**Üç**, *say.* 3 ədədi. ..üç günə qədər.. □ Üç min – 3.000 ədədi. Üç min il qabaq..

**Üçotaqlı**, *sif.* Üç otağı olan, üç otaqdan ibarət olan. Üçotaqlı bir evim var; Kür kənarında.

**Üçün**, *qoş.* Aidiyyət bildirir. Bu vərdiş də insan üçün bir səadətdir. – Bu dünyada min il ömür sürsə insan; İdrak üçün, Kamal üçün yenə azdır.

**Üfləmək**, *f.* Üfürmək, püfləmək.

◊ Suyu üfləyib içmək – vasvası olmaq. Təmiz suyu üflər içər…

**Üfüq**, *is.* [ər.] Görünən səmanın qurtaracağı (yer, su səthi ilə bitişməsi kimi nəzərə çarpan xətti). Üfüqdən üfüqə çapsın atını.. – Üfüqlər qızarıb güləndə səhər Bülbül öpə-öpə oyatsın gülü.

**Üfüqsüz**, *sif.* Uc-bucaqsız, intəhasız. Bu bayraq ki, üfüqsüz dənizlərdən keçərək..

**Üklü**, *sif.* Evlərində yük yeri olan. Üklü, alıqlı kəndimiz!..

**Ülfət**, *is.* [ər.] Mehr, mehribanlıq, istiqanlılıq, ürəkdən bağlılıq, məhəbbət. Sahildəyəm, mən dənizi bu ülfətlə; Duymamışdım, sevməmişdim indiyədək. – Sən mehrin, ülfə-

tin.. Bir ilk beşiyisən.. – [Loğman:] Kəsmə ülfətini məndən, amandır!..

**Ülfətlə**, *z.* Mehribananə, məhəbbətanə. Xəyal.. süzür göylərdə ülfətlə..

**Ülkər**, *is.* Dana bürcündə yeddi ulduz topası. Səhərlərin ülkər gözü.

**Ülviyyət**, *is.* [ər.] Ülvilik, mənəvi yüksəklik, ucalıq. Bizi ülviyyətə çağırdıqca sən; Bəzən günəş kimi alovlanırsan.

**Üm(m)id**, *is.* [ər.] 1. Arzuman, amal, xeyir və uğur gözləmə, güman. Yoğruldu bütün varlığın ümmidlə hünərdən.. [Azər baba:] Səbr elə, hər şeydən ümid gözəldir. □ Ümid bəsləmək – güman etmək, gözləmək. ..İnsan oğlu bir ağ günə ümid bəsləyir. Ümidini kəsmək – əlini üzmək. Humay ümidini kəsməmiş hələ..

2. Çarə, əlac, ümidləndirmə. ..Sən ümid gözləmə kraldan, serdən.

**Ümidli**, *sif.* Ümidverən, ümidverici. Baxışlar ümidli, gözlər müntəzir..

**Ümidsizlik**, *is.* Ümidin yoxluğu, naümidlik. ..Düşdüm əvvəlləri ümidsizliyə.

**Ümman**, *is.* [ər.] 1. Dəniz, dərya. Hər kiçik zərrədə bir ümman axtar.. // Okean. Dəryaları, ümmanları keçdi bu səs.. – Dənizlər, ümmanlar çaxnaşır..

2. *məc.* Ucsuz-bucaqsız məkan, yer. Lakin bizim böyük şəhər bir ümmandır. // *məc.* İntəhasızlıq. Sən ey yazıq şeirim.. dərd ümmanısan.

**Ünvan**, *is.* [ər.] Aidiyyət. Nədir bu həsrətin adı, ünvanı? – .Öz ünvanı, öz adı var.

**Ünvansız**, *sif.* Yeri-yurdu məlum olmayan. İmzasız ünvansız «Qəhrəman»lar..

**Üradü**, *sif.* Uzanan, artan. Günəş qısqanaraq üradü gecədən..

**Ürək**, *is.* 1. Orqanizmdə qan dövranı sisteminin mütəmadi döyünən canlı mühərriki. Ürəklər, nəbzlər sürətlə vurur. – ..yuxularda ürək dincəlir.

2. Ruhun, hissiyyatın təcəssümü olan qəlb, könül. [Xosrov:] Məryəmlə yaşamış yalnız bədənim, Ancaq yaşamamış ürəyim mənim… – Can dustaq olanda gülərmi ürək?

◊ Ürək açmaq – 1) üzə gülmək, xoşlandırmaq. Ürək açan mənzərələr.. – Üzə gülür, ürək açır küçələrin səliqəsi; 2) xoş əhvali-ruhiyyə yaratmaq, nəşələndirmək. Ürək açar hər oylağı bizim yurdun. Ürək (ürəyi) geniş olmaq – alicənab, nəcib, cömərd olmaq. Ürək geniş olsun! Ürəyin genişdir, kamalın dərin.. Ürək (ürəyi) sıxılmaq – ruhən əzab çəkmək, iztirab keçirmək, darılmaq. Yalqızlıq içində sıxılır ürək. – Deməsəm, ürəyim sıxılacaqdır. Ürəyi açılmaq – xoşlanmaq, nəşələnmək. Açılmaz ürəyim hər vüsal ilə.. Ürəyi bulanmaq – ikrah etmək, ikraha gəlmək. Paxılların sifətində bir qaşqabaq, Bəlkə bir az ürəyi də balanacaq. Ürəyi dağa dönmək – böyük ruh yüksəkliyi keçirmək. ..Dağa dönür Qızxanımın ürəyi… – Hər insan ürəyi dönsün bir dağa! Ürəyi darda olmaq – darılmaq. De Qollun ürəyi yenə dardadır.. Ürəyi darıxmaq – qəlbi sıxılmaq, öz qəlbini sıxmaq. Ürəyi daş olmaq – mətanətli olmaq, möhkəm dayanmaq. [Azər baba:] Döyüş meydanında ürəyi daş ol!.. Xainə rəhm etmə, haqqa yoldaş ol!.. Ürəyi yanmaq – canı yanmaq, halına acımaq, yazığı gəlmək. Sənin də çox yanır ona ürəyin? Ürəyi (ürək) yumşalmaq – hiddətini yatırdıb rəhmdil olmaq. Gərək yumşalmasın cəbhədə ürək! Ürəyi kövrəlmək – riqqətə gəlmək, riqqətlənmək, mütəəssir olmaq. Ürəyi kövrəldi, yumşaldı bir az. Ürəyi səsdə – qəlbi səksəkədə, təşvişli intizarda. Xəyalı pəjmürdə, ürəyi səsdə.. Ürəyi çatlamaq – bağrı partlamaq, tab gətirməmək, dözməmək. Bir söz uydurmasa, ürəyi çatlar.. Ürəyindən keçmək – arzulamaq. Vaşinqton salonları – bir adamın hüsn-rəğbətini qazanmaq. Yol açdı, yol tapdı ürəyimizə. Ürəyini didmək – daxili həyəcan və iztirab keçirmək. Öz kinindən ürəyini qurd kimi didir.

**Ürəkcik** – «ürək»dən *oxş.* və *kiç.* Zəif ürəkciyi birdən sıxılır..

**Ürəkdən**, *z.* Səmimi qəlbdən. [Şirin:] Bayaq qulaq asdım

ürəkdən ona. – ..bu temanı mən ona bağışlardım candan, ürəkdən.

**Ürəkdolu (su)**, *z.* Ağızdolusu, həvəslə, sevinə-sevinə, sevincək, fərəhlə. Qohum-qardaş bir məclisdə ürəkdolu güləsiniz.

**Ürək-göbək**: ürək-göbəyi əsmək – qorxudan tir-tir əsmək. Qorxudan ürəyi-göbəyi əsdi.

**Ürəklə**, *z.* Səmimiyyətlə, saf qəlblə. ..Sən ürəklə sevirdin bizi.

**Ürəksiz**, *z.* İstəmədən, həvəssiz, könülsüz. Ürəksiz əkilən yerlər saralar.. – Ürəksiz deyilən sözlər saxtadır.

**Ürəyində**, *z.* Batində, batinən. ..ürəyində sözü var.

**Ürəyindən, ürəyimdən**, *z.* İstədiyi kimi, arzuladığı kimi. Vidadi, nə dedin! Lap ürəyimdən! □ Ürəyindən olmaq – ürəyi istədiyi kimi olmaq. Aygünün də ürəyindən oldu bu xəbər.

**Ürfan**, *is.* [ər.] Maarif, bilik. Həqiqət nur saçar elmə, ürfana. – Ürfana çağırır o öz nəslini.

**Ürgə, ürkə**, *is.* İkiyaşar at. Öz kəhər ürgəni çapdın dördnala..

**Ürkək**, *sif.* və *z.* Hövlnak. Ovçu görüb ürkək qaçır körpə ceyran.

**Ürkmək**, *f.* Qorxmaq. Quşlar belə ürküb qaçır..

**Ürpərmək**, *f.* Dərisinin tükü biz-biz olmaq (sarsıntıdan). [Eloğlu:] Tüklərim ürpərir onun səsindən..

**Üryə**, *is.* *Bax* ürgə. Üryələr oynaşır, atlar güləşir..

**Üslub**, *is.* [ər.] Stil, şakər, fərdi yzı tərzi. Məndən də bu üslub qalsın yadigar.

**Üst**. 1. Yuxarı tərəf, səth. Hər ağac üstündə min yaşıl yarpaq. // Qabıq, üz, cild. Yazılmış üstündə «Dövlət – İnqilab».. // Bayır, qiyafə. Üstünü toz, torpaq almış Bu pas tutmuş qılınca bax! // Su (çay, dəniz, göl…) səthinin, təbii, ondan hündür olan ətrafı. Yolçular arxaların üstdə dincəlir. – Yalnız Araz üstə bir az meşə var.

2. Üstünə şəklində hərəkətin yönəldiyi obyekti göstərir.

[Şahbaz:] Üstümə tökülür bütün asiman.. – Maral.. Enib gələr çeşmə üstə. – ..gözəllər də.. çıxacaqdır sən gəldiyin yollar üstə. – Üstünə tanklarla yeridik biz də. – Vaxtsız ölümmüdür üstümə gələn? – Güldürürsən üstümə hər alçağı.. – Aygünün üstünə açıldı birdən.

3. Üstündə şəklində: a) əsas, özül, təməl. Dünya qan üstündə bir xanimandır. – Biz yenə yaşadıq torpaq üstündə. – [Xosrov:] Dünya mey üstündə tutmuşdur qərar! B) bir iş zamanı, …başında. Döşəməyə süfrə açıb, çay üstündə nağıl deyək. – Yenə namaz üstə şeir deyirsən! – İş üstündə qüvvə gəlsin qollarınıza; v) …görə, ..ucbatından. Ötərgi.. bir söz üstündə.. dostluğu vururuq yerə…

◊ Üstündən dağ götürülmək – ruhi əzabdan, ağır qayğıdan, iztirabdan canının qurtarmaq. Elə bil ki, üstümüzdən dağ götürülür. Üst(ün)dən keçmək – bənd olmamaq, ağartmamaq. Dediyinin üstdən keçər, Altdan çıxar asta-asta… Üstünə düşmək – bərk girişmək, şüru etmək. Üstünə od kimi düşdülər işin. Üstünü almaq – haqlamaq, yaxalamaq. ..üstünü cəlladlar aldı.. – Bağların üstünü ölüm almasın.

**Üstəlik**, *z.* Əlavə olaraq, hələ. Üstəlik bir söz də dedin o gecə..

**Üstün**, *sif.* Məziyyətli, ötgün. □ Üstün gəlmək – qalib çıxmaq, öhdəsindən gəlmək. Mənə üstün gələn bir oğul hanı?

**Üsyan**, *is.* [ər.] 1. Mövcud hakimiyyətə qarşı kütləvi silahlı çıxış. Hər üsyana səbəb olan böhran yenə çoxaldı.

2. Asilik, itaətsizlik. Ala gözlərindən üsyan oxunur..

**Üsyançı**, *is.* Üsyan iştirakçısı, üsyankar. Doldu darkeçidli sokaklara üsyançıların alayı.

**Üsyankar**, *is.* Üsyançı. Üsyankar bir ordu..

**Üşümək**, *f.* Soyuqluq hiss etmək, canına vicvicə düşmək. ..Gey ki, ayağın üşüməsin heç.

**Üşütmə**, *is.* Titrətmə, vicvicə. Gülşənə döndərib boz səhraları; Üşütmə, qızdırma olmasın, dedik. □ Canına üşütmə düşmək – üşümək. ..bir üşütmə düşüb canına..

**Üşütmək**, *f.* Canına vicvicə salmaq, lərzəyə gətirmək, sar-

sıtmaq. Şübhələr üşüdür onun canını..

**Üz**, *is.* 1.İnsan başının qabaq hissəsi; bəniz, çöhrə, sifət, sima, surət, qabaq. Söylə, üzündəki təbəssüm nədir? – Zəng çalınır, hamı susur, üzlərdə diqqət.

2. Səth, üst, görünən tərəf. ..bu çöllərin güzgü kimi üzü vardır.. – Göydən yer üzünə nurlar tökülür. – Göy üzündən nur tökülür.

3. Cəhət. Ay Allah, onu sən.. Saxla müsibətin yaman üzündən. – Etibarsız, məhəbbətsiz hər üzünə keçən ömür..

4. *məc.* Ar, həya; xəcalətsiz cəsarət. Yanına getməyə üzümmü vardır?

◊ Üz vermək – baş vermək, başına gəlmək. Bir insan oğluna üz verəndə qəm, ..sən də yanırsan.. Üz qoymaq – yönəlmək, yollanmaq. Deyin, üz qoyubdur hansı diyara? Üz döndərmək – əlaqəni, ünsiyyəti qırmaq, kəsmək. Canan üz döndərdi… Dövran bivəfa. – Hamı üz döndərdi, o yalqız qaldı.. Üz görmək – tərəfgirlik, havadarlıq etmək. Qohuma-qardaşa üz görənlər.. – Yalan deyən, ..tərəf tutan, üz görən! Üz tutmaq – üz qoymaq – istiqamət almaq. Üz tutubsuz nə məkanə, durnalar? Üzə vurmamaq – xatırlatmamaq, toxunmamaq, üstündən keçmək. Gəl üzə vurma heç o zamanları.. Üzə durmaq – inad etmək, inada durmaq, tərslik eləmək. Aqronomla üzə durub söz qaytaracaq!.. – Quyu üzə durub, sudan əsər yox. Üz(ün)ə gülmək – xoş təsir bağışlamaq, ürək açmaq. Qoy baxanda üzə gülsün suvanılmış divarlar. – Burda üzə gülür təmiz küçələr. – Zəmilər, tarlalar üzümə gülür. Üzə çıxmaq – xilas olmaq, qurtulmaq. Odun, suyun arasından Üzə çıxar.. Üzü ağ olmaq – etimadı, ümidi doğrultduğuna görə xəcalətli qalmamaq, alnıaçıq olmaq. Bilirəm ki, el yanında; Alnı açıq, üzü ağsan. Üzü bərk – sərt. Boranların ..üzü bərk olarmış.. Üzü dönməmək – ilqarı düz çıxmaq, ilqarından dönməmək. Mərd oğullar kimi üzü dönməyən.. – Yaman gündə üzün dönməz.. – Sənət eşqli..! ..sənin bu dünyadan üzün dönməyir! Üzünə söz gəlmək (burada inkarda) – məzəmmətlənmək, danlanmaq.. Ömrümdə

üzümə bir söz gəlməmiş. Üzünü bozartmaq – özünü göstərərək tüğyan etmək. ..Dayan! Ey külək! Nə üzünü bozart, nə də inad ol. Üzünü görək! – Çoxdandır, görükməyirsən! Vaqif xoş gəlmisən, üzünü görək!

**Üzdə**, *z.* Zahirən. Haqqı söylədilər hər zaman üzdə…

**Üzdən**, *z. məc.* Səthi, dayaz, yüngül, qeyri-ciddi. Üzdən gülər, üzdən yanar…

**Üzərində**, *z.* 1. Üstündə, üst tərəfində. Üzərində var; Yazılı bir şüar..

2. Əsasında. ..əxlaq tərbiyə üzərində qurulmayan bir dövlət..

**Üzəvarı**, *z.* Üzdə, zahirdə. Ürək yıxan bir iblis də; Üzəvarı deyir hərdən: Şair, nə tez qocaldın sən!? – Qızsa üzəvarı qaşqabaq tökür.

**Üz-göz**, *is.* 1. Sifətin hər yeri. ..Üz-gözündən öpə-öpə bağrına basdı onu..

2. Sifətin ifadəsi, sir-sifət. Üz-gözündən bulud yağır.

**Üzlü**, *sif.* Xassəli. Bahar donlu, şaxta üzlü bir yol..

**Üzmək¹**, *f.* 1. Suyun üzündə hərəkət etmək. Bu dənizdə üzür qayıqlar.. – Üzür quba qazlar sularda rəng-rəng.

2. Bərq olmaq. Bütün aləm üzür qanda. – Tabutu günəş də salamlayır.. Şəfəqlər içində üzür cənazə.

**Üzmək²**, *f.* Taqətdən salmaq. [Vzəir:] Aman, şahim, üzür sizi xəyallar.

**Üzr**, *is.* [ər.] Üzrxahlıq. □ Üzr istəmək – əfv olunmağını xahiş etmək. [Loğman:] Sizdən üzr istəsə, neylərsiniz?..

**Üzüqoylu**, *z.* Üzü aşağı tərəfə yönəlmiş halda, üzüstə. Üzüqoylu.. sürünüm..

**Üzülmək¹**, *f.* Ayrılmaq, aralanmaq, uzaqlaşmaq. Üzüldüm, dünyanın hər nemətindən.. – Kəndli yoldaş əkinindən, biçinindən üzülər.. – Ayaqlaş dövranın sürətilə sən; Onun karvanından üzülməyəsən.

**Üzülmək²**, *f.* Taqətdən düşmək. Yollara baxmaqdan üzülmüşəm mən.

**Üzüm**, *is.* Meynə (tənək) salxımı. Cərgə-cərgə qatar vur-

sun üzüm bağı, nar bağı..

**Üzüstə**, *z.* Üzüqoylu, üzü aşağı. Quş kimi.. üzüstə yatdın..

**Üzüyuxarı**, *z.* Aşağıdan yuxarıya doğru, başıyuxarı. Sürürəm atımı üzüyuxarı.

**Üz-üzə**, *z.* Üzbəüz, qabaq-qabağa, qarşı-qarşıya. Neçin oturmayaq hər gün üz-üzə? – Üz-üzə durmuşdur suvaqlı damlar. □ Üz-üzə durmaq – qarşı-qarşıya gəlmək, bir-birinə zidd olmaq, çəkişmək. [Banu:] Düşmənlə qoç kimi durun üz-üzə, Sizi tapşırıram ulu Hürmüzə! – Yamanlıq, yaxşılıq durmuş üz-üzə.. Üz-üzə gəlmək – toqquşmaq, çarpışmaq. [Valentin:] Aman ordusuyla gəldik üz-üzə.. – Yüz il qılınc kimi gəldik üz-üzə.

# V

**Vadi**, *is.* [ər.] *məc.* Sahə, meydan, zəmin. Sənət vadisində gəlsin üz-üzə.

**Vah ki**, *nida.* Həyəcan, kədər,ağrı, təəccüb bildirir. Ey vah ki, ruhum yenə bir əski xəyalla..

**Vaxsey**. *Bax* şaxsey. Bu gün nə şaxsey var, nə də ki vaxsey.

**Vaxt**, *is.* [ər.] 1. Bir hadisənin, işin baş verdiyi, baş verəcəyi, yaxud baş verməli olduğu zaman, moment. Sevda yuxusundan bizi vaxtında oyatdı.

2. Dövr, zamanə, çağ. Əfsanələr vaxtı deyil.

3. Günün, ayın, ilin, mövsümün müəyyən çağı. Çiçəklər vaxtında açılmamışdır.

4. Fəsil, mövsüm. Payız vaxtı bağçamızın heyvaları dəyəndə.

5. Münasib zaman, fürsət. İndi hünər vaxtı, qeyrət dəmidir.

6. Yaşın müəyyən dövrü. Mən də qoca vaxtı gördüm o günü.

◊ Vaxt yetişmək – bir işin olacağı vaxt gəlib çatmaq. Vaxt yetişdi, anası da rəhmətə getdi. Vaxt gec olmaq –

müəyyən vaxt keçmək, gecikmək. Biz gedək, vaxt gecdir. Vaxt gəlmək – vaxtı çatmaq. Tarixlərə şərəfli bir vaxt gələcəkdir. Vaxt olmaq – gözlənmədən bir iş baş vermək. Həyatdır, vaxt olur, xəstələnirsən. Vaxtı qalmaq – başqa əlavə iş görmək üçün də vaxtı bəs eləmək. Vaxtınız çox qalar elmə, savada. Vaxtı gələndə – müəyyən bir işi görmək vaxtı gəlib çatanda. Böyük səadətdir vaxtı gələndə; Vətənin eşqilə vətəndə ölmək. Vaxtından gec – nəzərdə tutulmuş vaxtda deyil, sonradan. Vaxtından gec yatıb, tez oyanmışam. Vaxtından tez – nəzərdə tutulmuş vaxtdan əvvəl. Bu gün tez açıldı səhər vaxtından. Vaxtını almaq – vaxtını nəzərdə tutulmayan işə sərf etmək. Vaxtını almasın nə toy, nə də yas. Bir vaxt – vaxtilə, keçmişdə, bir zaman. Bir vaxt tərəfindən mənə Eldarı. Nə vaxt – haçan. Nə vaxt qurtaracaq pis gündən insan? O vaxt – o zaman, onda. O vaxt anan kimi tutub əlindən. Öz vaxtından – olacaq vaxtdan, nəzərdə tutulmuş müddətdən. Deyir: – Sarvan öz vaxtından bir ay da qabaq. Çox vaxt – vaxtın çoxusunu, həmişə. Çox vaxt roman oxuyarmış.

**Vaxta**, *z.* [ər.] Nə qədər, hələ. Vaxta ki, bu hüdud, bu sərhəd vardır.

**Vaxtilə**, *z.* Bir vaxt, keçmişdə. Bu nəm sarayda; Vaxtilə güllər, bombalar varmış.

**Vaxtsız**, *z.* 1. Vaxtı çatmamış, vaxtından tez. Qanunsuz, qaydasız mübarizələr; Vaxtsız ölümlərdən gətirir xəbər.

2. Çox tez, gözlənmədən. Vaxtsız saç ağardan igid analar.

3. Qeyri-münasib vaxtda, yersiz, gec. Vaxtsız qonaq kimi birdən əsərək.

4. Çox tez, vaxtından qabaq. [Xosrov:] Eşqsiz yaşayıb, vaxtsız qocaldım.

**Vaqiə**, *is.* [ər.] Yuxu, yuxugörmə. Bu gecə qorxunc bir vaqiə gördüm.

**Vaqif**, *sif.* [ər.] Müəyyən bir işdə məlumatı, biliyi olan; məlumatlı, xəbərdar. Yaranmış, deyirlər, hər elmə vaqif.

**Val** [rus.] *köhn.* Qrammafon və ya patefonda çalınmaq

üçün xüsusi üsullarla üzərinə səs yazılmış yastı çarx; plastinka. Səs çıxmır vallardan.

◊ Valları dəyişdirmək – söhbətin məzmununu dəyişdirmək, bir mövzudan başqasına keçmək. Tez-tez dəyişdirmə vallarını sən.

**Vallah**, *nida.* [ər.] Allaha and olsun! Allah haqqı! Vallah, gələsiydik bu həftə sizə.

**Vapor** [lat.] (*köhn.*). Buxar gəmisi, paroxod. Vaporda səslənir, döyünür motor.

**Var**[1], 1. Xəbər mənasında (əsasən «vardır» şəklində işlədilir). Nə dərdim var, qəmim var.

2. Birinci şəxs sonluğu ilə: varam (*dan.*) – 1) diriyəm, ölməmişəm. Ömür boyu yaşayacaq, – varam! – deyə; 2) qorxmazlıq mənasında hədə bildirir. İş ki belə düşdü – meydanda varam!

◊ Var ol (osun)! – yaşasın! həmişə baqi olsun! Var ol! məni bu ümmana atan ürək! – Qoy var olsun bu nəslimiz!

**Var**[2], *is.* Dövlət, sərvət, mal-mülk, var-yox. Talan olur elin varı.

**Varaq**, *is.* [ər. vərəq] Səhifə. Bu böyük dastanın ilk varağına..

**Varaqlamaq**. *Bax* vərəqləmək. Nə dastansan, yavaş-yavaş varaqlayam mən səni.

**Varaqlanmaq**, *məch.* Vərəqləri, səhifələri bir-bir çevrilmək. Tez-tez varaqlanır, tez-tez dadılır.

**Varaq-varaq**, *z.* Bir-birinin ardınca, bir-bir, ardıcıl surətdə. De, gözündə hansı tarix varaq-varaq oxunur?

**Varis**, *is.* [ər.] 1. Birisinin işini davam etdirən adam. Böyük bir dövlətin varisi oldu.

2. Birini əvəz edən; xələf, davamçı. Onun .. kimi bir varisi var.

**Varlı**, *sif.* və *z.* Dövlətli, sərvətli, rifah və bolluq içində yaşayan (adam). Yoxsullar qazanıb, varlılar yedi.

**Varlıq**, *is.* 1. Olma, var olma, mövcud olma; mövcudiyyət. Başqa şəkil verdi öz varlığına. // Real insan məna-

sında işlədilir. O varlığı acı dövran; Bir heçliyə aparmışdır.

2. Təbiət, kainat, aləm. Bütün varlıq ruhlanacaq bir məbədan səcdəsindən.

3. *məc.* Həqiqətdə mövcud olan şeylər; mövcudat. Günəş nur ələyir.. bu varlığa; Bu müqəddəs məzarlığa. // Real aləm, real həyat, ictimai mühit. Unutdum varlığı… dönmədim yoxdan.

4. *məc.* Ömür, həyat. Nədir bu səhnədə gördüyüm varlıq.

5. *məc.* Güc, qüvvət mənasında. Mənim varlıq nəfəsimdən torpaqlar da gələr cana.

6. Bədən, vücud mənasında. Onun gözəlliyi, incə varlığı; Duyan ürəklərə lərzə salırdı.

◊ Varlığı titrəmək – özünü itirib nə edəcəyini bilməmək. Titrədi varlığım onun səsindən. Varlığa əlvida demək – ölmək, vəfat etmək. Bir axşam varlığa əlvida dedi.

**Var-yox**, *is.* 1. Bir adamın malik olduğu şeylərin (*pul, mal-mülk və s.*) hamısı. Mən də bir kişiyəm, varım-yoxum var.

2. Vur-tut, ancaq, təkcə, bircə. Varım-yoxum bir oğuldur, – deyərək ana.

◊ Var-yoxundan keçmək – yaxşı bir şey yolunda bütün var-dövlətini xərcləmək. Bu gün din yolunda, millət yolunda; Keçsin öz canından, öz var-yoxundan.

**Vay,** *nida*: vay demək – qışqırmaq, çığırmaq, fəryad etmək. Ömrün tükənəcək vay deyə-deyə.

**Vergi**, *is.* 1. Əhalidən, müəssisədən və s.-dən alınan məcburi dövlət rüsumu. Ellər talan olur, vergilər ağır.

2. *məc.* İstedad, talanma, qabiliyyət. Bu dilbərdə təbiətin vergisi var.

3. *məc.* Verilən hər bir şey. Həyat müvəqqəti vergidir bizə.

**Vergül** [fr.] (*dilç.*). Sözləri, söz qruplarını yaxud mürəkkəb cümləni əmələ gətirən cümlələri bir-birindən ayıran qarmaqşəkilli durğu işarəsi (,). Bircə vergülü də o qoymamışdır.

**Verilmək**, *məch.f.* İstifadə etmək üçün başqasına tapşırılmaq, onun malı edilmək. Deyirlər, kəndliyə verilsin torpaq.

**Vermək**, *f.* 1. Bir şeyi özündən başqasına ötürmək, çatdırmaq. O sonra bayrağı verdi Sarvana.

2. Tələb etmək, istəmək. Qadının «ver!» çocuğun «ver!» deyəcək.

3. Müəyyən formaya salmaq, düzəltmək. Buna şəkil verən bir sənətkardır.

4. İstifadə üçün başqasının sərəncamına çatdırmaq, onun malı etmək. – Bir az işıq göndər! – Verə bilmərəm!

5. Əlindən çıxarmaq. Öz əlilə verir öz rütbəsini.

**Verstlik**, *is.* Rəqəmlərdən sonra gələrək məsafənin neçə verst olduğunu göstərir. Yayılmış qoxusu iki verstliyə.

**Və**, *bağl.* Sadə cümlələrdə həmcins üzvləri bir-birinə bağlayır. [Azər baba:] Ölüm və xəstəlik olmasın yerdə.

**Vəcd**, *is.* [ər.]: <u>vəcdə gəlmək</u> – son dərəcə sevinmək, şadlanmaq, ruhlanmaq. Vəcdə gəlir ürəyinin titrəməsindən. // *məc.* Vəcdə gəlir boran görmüş dağlar başı.

**Vəd**, *is.* [ər.] Bir işi yerinə yetirmək üçün qabaqcadan söz vermə, öhdəyə götürmə. Boyun qaçırmadıq öz vədimizdən. □ <u>Vəd etmək</u> – bir işi edəcəyinə söz vermək, öhdəsinə götürmək. Hər qəlbə sevinclər vəd edər bol-bol.

**Vədə**, *is.* [ər.] *Bax* vəd. Sizi aldatmasın yalan vədələr. □ <u>Vədə vermək</u> – *bax* vəd vermək («vəd»də). Mən gələndə vədə verdim, and da içdim komsomola.

**Vəfa**, *is.* [ər.] Sözünün üstündə durma; borcunu, təəhhüdünü yerinə yetirməklə möhkəm olma; səbat, etibar. [Vəzir:] Atanın vəfasına bax! Deyirlər, Şapuru vəzir qoyacaq. □ <u>Vəfası olmaq</u> – sözünün üstündə durmaq, vəfalı olmaq. [Məryəm:] Xosrovun vəfası olsaydı bir an; Boyun qaçırmazdı öz peymanından. // Məhəbbətdə sədaqət, sevgidə etibarlı olma, ilqar. Təmiz sevgi, ilqar, vəfa..

**Vəfadar**, *sif.* və *is.* [ər. vəfa və *fars.* dar] (*şair.*). Sevgisində möhkəm olan; vəfalı. Məhəbbətin vəfadarı məndədir. // Öz

vətənini, elini sevən, yaşadığı yerə məhəbbət bəsləyən. Vətən mülkü abad yaşar vəfadarı görəndə.

**Vəfalı**, *sif.* və *is.* *Bax* vəfadar. Gözlə məni, gözlə məni, ey vəfalı qız; Vəfalım, vəfasız mehmanlar gəlir.

**Vəfasız**, *sif.* və *is.* 1. Sözünün üstündə durmayan, təəhhüdünü yerinə yetirməkdə möhkəm olmayan. Vəfasız olurmuş ögey analar. // Sevgisində möhkəm olmayan; ilqarsız. Ömür sənətinin vəfasız yarı.

2. *məc.* Keçici, fani, etibarsız. [Xosrov:] Görən kimə verər vəfasız dövran.

**Vəhşət**, *is.* [ər.] 1. Vəhşilik, mədəniyyətsizlik. Sən ey vəhşətindən feyz alan insan.

2. Qorxu, dəhşət. Sən sadəcə vəhşət kimi baxma buna.

**Vəhşi**, *sif.* [ər.] 1. Çöllərdə bitən; yabanı. Bir zaman dağlarda vəhşi lalə tək.

2. *məc.* Adam yaşamayan, insan ayağı dəyməmiş, adamsız, insansız. Bu vəhşi dağlarda bələdçilik et!

**Vəhşicəsinə**, *z.* Vəhşi kimi, azğıncasına, qudurğancasına. Kitabları vəhşicəsinə yandırırlar.

**Vəhşilik**, *is.* Vəhşi hərəkət, azğınlıq, qudurğanlıq. Hansı təriqətdə bu vəhşilik var?

**Vəliəhd**, *is.* 1. Hökmdarın (padşahın, kralın və s.) yerini tutmalı olan şəxs. [Xosrov:] Gəl, oğlum, vəliəhd sənsən İrana.

2. *məc.* Oğul, qız, övlad. Yoxdur vəliəhdim, bir sonsuzam mən.

**Vəlvələ**, *is.*: vəlvələ düşmək – çaxnaşma düşmək, qarmaqarışıqlıq düşmək, həyəcan düşmək. Bir vəlvələ düşər hər yana, dağlar.

**Vərdiş**, *is.* Təcrübə, təkrarlama və ya çox işləmək nəticəsində əldə edilən iş bacarığı, adət. Bu vərdiş də insan üçün bir səadətdir. □ Vərdiş olmaq – adət olmaq, öyrəşmək. Yüz nemət yaratmaq bir vərdiş olur.

**Vərəqləmək**, *f.* Kitabın və s.-nin vərəqlərini (səhifələrini) bir-bir çevirmək. [Vəzir:] Şahim, tarixləri vərəqləyib bax.

**Vərəm**, *is.* [ər.] (*tib*). Ağ ciyərdə, bəzən isə başqa hissələ-

rində Kox mikrobu adlanan xüsusi mikrobun törətdiyi yoluxucu xəstəlik. Ya sadə bir dərddən, ya da vərəmdən; Gah atamız öldü, gah da anamız. □ Vərəm üzlü – vərəmlə xəstələnmiş adamın üzü kimi solğun xəstə üzü olan. Ümid donlu o al səhər, vərəm üzlü o axşam.

**Vərəmləmək**, *f.* Vərəm xəstəliyinə tutulmaq. Anan vərəmlədi yoxsul yuvada.

**Vərəmli**, *sif.* Vərəm xəstəliyinə tutulmuş. Vərəmli və sıtmalı gecələrimi günəşli gündüzlərə döndərdim.

**Vəsf**, *is.* [ər.]: vəsf etmək – bir şeyin xüsusiyyətlərini, sifətlərini, keyfiyyətini əks etdirmək, təsvir etmək. Alim şair kimi yeri vəsf edir.

**Vəsiqə**, *is.* [ər.] Bir şeyi təsdiq edən və ya bir şeyə icazə verən sənəd; şəhadətnamə. Həyat əsridir hər vəsiqə də.

**Vəsiyyət**, *is.* [ər.] Ölərkən (bəzən də sağ ikən) öz övladına, yaxınlarına və s.-yə verilən tapşırıq, göstəriş, sərəncam, məsləhət. «Qaç» dediyim, zaman görmüş bu başdaşı; Bəlkə olmuş bir çobanın xəsiyyəti.

**Vəsmə**, *is.* [ər.] (*köhn.*). Qadınların qaşlarına çəkdikləri qara boya, rəng. Qoşa vəsmə, gözə sürmə çəkilmişdir.

**Vətəgəçi**, *is.* Balıq tutmaq üçün çay və dəniz sahillərindəki vətəgədə balıq tutan adam. Professor, vətəgəçi və komissar; Hər insanın öz nəfəsi, öz səsi var.

**Vətən**, *is.* [ər.] 1. Bir adamın doğulub böyüdüyü, vətəndaşı olduğu, yaşadığı ölkə, məmləkət, doğma yurd. Vətənimin, dövlətimin al bayrağıdır. // Bir adamın doğulduğu yer. Nəyim varsa sənindir; Bakı və vətənindir. □ Vətən mülkü (torpağı) (*şair.*) – vətənin ərazisi, sahəsi. Loğman tək gəzirəm vətən mülkünü; Vətən torpağına xəyanətə bax.

**Vətənsiz**, *sif.* Vətəni olmayan. Vətənsiz də insan olan insan kimi yaşayarmı?

**Vəz**, *is.* [ər.]: vəz etmək (eləmək) *(isteh.)* – nəsihət vermək, öyüd vermək; Uzun danışmaq, uzunçuluq etmək. Min vəd eləsən də mənası yoxdur! Dedim ki, vəz etmə fəlsəfələrdən.

**Vəzifə**, *is.* [ər.] 1. Bir şəxsin üzərinə qoyulan və onun məcburən yerinə yetirməli olduğu, yerinə yetirdiyi üçün də əməkhaqqı aldığı iş. Vəzifəsi kiçik bir şey. // Borc. Bil ki, vəzifəmdir.. deyim yenə.

◊ Vəzifə başına keçmək – müəyyən vəzifədə olmaq, vəzifə tutmaq. Keçmək istər bir vəzifə başına.

**Vəzir**, *is.* [ər. əsli *fars.*] (*köhn.*). Padşahın ən yaxın məsləhətçisi; nazir. [Qacar:] Vəzir! Sözlərimə yaxşı qulaq as.

**Vəzirlik**, *is.* [*köhn.*] vəzir vəzifəsi, vəzir rütbəsi; nazirlik. Sizi vəzirliyə dəvət edir xan.

**Vəziyyət**, *is.* [ər.] 1. İctimai-siyasi münasibətlərin məcmusu, ictimai həyat şəraiti, halı. Daxili vəziyyət belədir, düzü.

2. Hər hansı bir şəraitdən doğan hal, keyfiyyət. [Vəzir:] Yalnız vəziyyəti danışıram mən.

**Vəzn**, *is.* [ər.] (*ədəb.*) Şeirdə misraların ölçüsü. Dəyişirəm vəzni qəsdən.

**Vəznəli**, *sif.* (*köhn.*). döşündə vəznəsi olan cərgəsi çuxasına vəznə tikilmiş. Ağ çuxası vəznəlidir bizim Aslanın.

**Vicdan**, *is.* [ər.] Öz hərəkəti üçün mənəvi məsuliyyət hissi, hərəkətlərinin yaxşı və ya pisliyinə fikir vermə. Sənin vicdanın da, qüvvətin də var. // *məc.* [Qacar:] Mənim vicdanım da, qəlbim də qandır.

☐ Vicdan azadlığı – vətəndaşların istədikləri dinə etiqad etmək (yaxud dindən imtina etmək) azadlığı. Vicdan azadlığı lazımdır elə. Vicdan oğrusu – başqasının xoşbəxtliyinə pis baxmaq, paxıllıq etmək. Olmaq istəmirəm vicdan oğrusu. Vicdandan əsər olmaq – insafı olmamaq, zalım olmaq, çox əziyyət vermək, zülm etmək. Yoxmuş bu zalımda vicdandan əsər. Vicdanı əsirgəməmək – vicdanla hərəkət etmək, insaflı olmaq. Bu işdə vicdanı əsirgəmə sən. Vicdanı yada salmaq – bir işi görərkən götür-qoy etmək, vicdanla hərəkət etmək. Görəsən, vicdanı salırmı yada? Vicdanı ağrımaq – peşman olmaq, gördüyü işdən xəcalət çəkmək. Şahım! Vicdanınız sonra ağrıyar. Vicdanı pak (təmiz) – insaflı, öz hərəkətində ölçü-biçi gözləyən. Hər kimin vicdanı

pakdırsa, o bir divanədir. Qəlbi qanadlıdır, vicdanı təmiz. Vicdanını yaxmaq – bərk təsir etmək. Vicdanımı yaxdı bu zəhri xəndə. Vicdanın səsi – daxilən məsləhətləşmə, götür-qoy. Yaşadır vicdanın qadir səsini.

**Vicdanən**, *z.* [ər.] Vicdan cəhətindən, vicdana görə, daxilən. Mən buna vicdanən ağladım, inan!

**Vicdansız**, *sif.* Vicdanı olmayan; insafsız. Neron kimi vicdansızam. // *is.* Boğsun azğınları, vicdansızları.

**Vida**, *is.* [ər.]: vida demək – ölərkən son sözü demək, vəsiyyət etmək. Vida deyib ölmək yaramaz.

**Vidalaşmaq**, *f.* Görüşüb bir-birindən həmişəlik və ya müvəqqəti ayrılmaq; xudahafizləşmək, sağollaşmaq. Cəlal vidalaşıb yola düzəldi. // *məc.* Uzaqlarda batan günəş şəhər ilə vidalaşır.

**Viran**, *sif.* [*fars.*] Uçuq, yıxıq, dağılmış, bərbad. Viran Qız qalası dalmış səcdəyə. □ Viran qalmaq – xaraba qalmaq, bərbad olmaq, uçulmaq. Neçə şəhər viran qalır. // *məc.* Viran könül varaq-varaq. □ Viran qalmaq – dərdli-qəmli olmaq, dərd çəkmək. Könül viran qalan bir xanimandır. Viran olmaq – *bax* viran qalmaq. Könlüm evi.. viran ola bilməz.

**Viranə**, *sif.* [*fars.*] Xaraba bina, uçuq bina və s. qalıqları. [Şirin:] Dünya gözlərimdə bir viranədir.

**Vulkan** [lat.] Təpəsindəki deşikdən od, qaz püskürən konusşəkilli dağ; yanardağ. Bir odlu vulkandan yadigarmıdır. // *məc.* Başımda sevdanın vulkanı yanar.

**Vurğu**, *is.* 1. Hərəkət, fəaliyyət. Bir ahəng, bir vurğu, bir intizarla.

2. Nəbz, vurma. Hər qəlb vurğusunun öz mənası var.

3. Hadisə hərəkət. Ayırdı bir vurğu əzəldən bizi.

**Vurğun**, *sif.* və *is.* Vurulmuş, aşiq, məftun, çox sevən. «Zəfər» sözünün də vurğunuyam mən.

**Vurharay**, *is.* Dolaşma, dava, döyüş. Meydan qızır, gözlər qızır vurharaydan.

**Vurhavur**, *is.* Qarmaqarışıqlıq, səs-küy; qalmaqal. Baş-

landımı vurhavur?

**Vurmaq**, *f.* 1. Zərbə endirmək. O, şiş buynuzuyla adam vurarmış.

2. Öldürmək. Çobanı vurdular dağlar başında.

3. Ov etmək, ovda öldürmək və ya yaralamaq. Nə bir quş vurmuşdur, nə çöl heyvanı.

4. Dəymək. O dalğalar zaman-zaman sənə coşar, səni vurar.

5. Zəng etmək, zəng çalmaq. Saatlar vurduqca yetişir zaman.

6. Qoymaq. Qoy vurum belinə gümüş yəhəri.

7. Məhv etmək, öldürmək. Batır suda, vur quruda, havada.

**Vurnuxmaq**, *f.* Həyəcan keçirmək, təlaşa düşmək, təşvişə düşmək. Qafiyə axtarır, vurnuxur dəm-dəm.

**Vurub-yıxmaq**, *f.* Azğınlıq etmək, dağıtmaq, zərər vermək, sökmək. Vurub-yıxmadığı bir ev qoymadı.

**Vurulmaq**, *f.* Aşiq olmaq, çox sevmək, bənd olmaq. Bilmədim Cəlala vurulduğunu. // *məc.* Vuruldum dünyanın o gənc yaşına.

**Vuruş**, *is.* *Bax* vuruşma. Vuruş meydanında vuruşmağa çıx.

**Vuruşma**, *is.* Döyüş, vuruş, savaş, savaşma, dava. Zəfər çalır, qalib çıxır vuruşmalardan.

**Vuruşmaq**, *f.* 1. Döyüşmək, savaşmaq, çarpışmaq. Çox vuruşdu gürcülər.

2. Qurşaq yapışmaq, güləşmək. Gəlsin vuruşmağa o iki nəfər.

**Vücud**, *is.* [ər.] Bədən, orqanizm, cisim. Vücuda sığmayır nə hiss, nə şüur.

**Vüqar**, *is.* [ər.] Öz heysiyyətini, mənliyini qoruma, yüksək tutma; təmkin, ağırlıq, ciddilik. Vüqar da bir ziynət olsun qoy gəncliyə! // *məc.* Böyüklük, əzəmət. Könlüm, gözüm heyran idi buruqların vüqarına.

◊ Vüqarı alçalmaq – hörmətdən düşmək, nüfuzunu itirmək. O tərlan könlünün şahin vüqarı. Beş quruş uğrunda bəzən alçalır. Vüqarı sınmamaq – özünü alçatmamaq, mən-

liyini qoruyub-saxlamaq. Sınmadı qəlbinin tərlan vüqarı. Vüqarı tapdalanmaq – *bax* vüqarı alçalmaq. Ayaqlarda tapdalanır hər igidin mərd vüqarı. Vüqarına sığışdırmamaq – layiq bilməmək. Öz kişilik vüqarına sığışdırmayır. Vüqarını sındırmamaq – *bax* vüqarına sığışdırmamaq. Fəqət sındırmadı öz vüqarını.

**Vüqarla**, *z.* Əzəmətlə, başını dik tutaraq, təmkinlə. Dayanmış yenə də sakit vüqarla. // *məc.* İftixarla, fəxr edərək. Ömrün boyu eşqə can ver, yaşa vüqarla.

**Vüqarlı**, *sif.* Öz heysiyyətini, mənliyini qoruyan, təmkinli, məğrur, başıuca. Vüqarlı qəlbim tək bu uca dağlar. // Əzəmətli. Vətənimin vüqarı tək vüqarlıdır mənim adım.

**Vüsal**, *is.* [ər.] (*şair.*). Sevgilisinə çatma; görüşmə, qovuşma. Ötdü… hər vüsalda ayrılıq da var. □ Vüsala yetişmək (yetmək) – sevgilisinə qovuşmaq, çatmaq. Vüsala yetişmək mümkün olarmı? [Vəzir:] Bir tanrım yetirsin səni vüsala!

# Y

**Ya**[1], *bağl.* Bölgü və ehtimal mənalarını bildirir. Ya özü yazıb, ya yazdırıb.

**Ya**[2], *nida.* [ər.] Xitab bildirir. Ya şeyx, bir tədbir tök mənim yuxuma.

**Yaba**, *is.* Ot, saman və başqa bu kimi şeyləri toplayıb atmaq, qaldırmaq, habelə başqa işlər üçün uzun saplı, iki yaxud daha da artıq dişi olan kənd təsərrüfatı aləti. Qoca kazak yabasilə.. taya quracaqdır.

**Yabanı**, *sif.* 1. Çöldə özbacına bitən, vəhşi. Körpünü basmışdır yabanı otlar. // *Cır.* Yabanı meyvə, yabanı alma.

2. Əhliləşməmiş vəhşi, yırtıcı. Yabanı pişik.

**Yabı**, *is.* Arıq, əldən düşmüş, yaraşıqsız at. Yabı cinsi kimi şıllaq atırlar..

**Yad**[1], *sif.* 1. Qohum olmayan, qohumluq və ya yaxınlıq əlaqələri ilə bağlı olmayan; özgə, kənar. Ov… Bu səs! Nə qədər ömrümə yaddır.

2. Öz vətəni, yeri olmayan; yabançı. Yad ölkələrə verilməsin torpağımız bir qarış!

3. Rühca, mahiyyətcə, görüşcə uzaq olan; zidd olan. Doğmalar dar gündə yad ola bilməz.

4. *məc.* Düşmən mənasında. Yad ellərə verməyəm mən dəzgahımı, zindanımı; Ana yurdum hər yerindən kəsiləcək yad ayağın… // *is.* mənasında. Qoy bizə gülməsin nə dost, nə də yad.

**Yad²**, *is.* Bir şeyi zehnində saxlamaq və yenidən təsəvvürdə canlandırmaq qabiliyyəti; hafizə, yaddaş. Söylə yadındamı: o yay gecəsi. □ Yada düşmək – hafizədə, yaddaşda yenidən canlanmaq, xatirə gəlmək; xatırlanmaq. …Çobanlar yaylağı yadıma düşdü. Yad etmək (eləmək) – yadına salmaq, xatirə gətirmək, anmaq. Hörmət ilə yad eləyir bizi nəsillər. Yada gəlmək – *bax* yada düşmək. Yadıma çox köhnə zamanlar gəlir. Yada salmaq (gətirmək) - hafizədə, yaddaşda canlandırmaq, xatirə gətirmək. Oxuyub heç məni yada saldınmı? [Vəzir:] Məcnunu, Leylini gətirin yada. Yadda qalmaq – hafizədə, yaddaşda saxlamaq. Yadda qalacaqmı barı bir sözün? Yaddan çıxarmaq – unutmaq. Amma çıxarmasın bizi yadından. Yaddan çıxmaq (silinmək) – unudulmaq. Yadından çıxdımı o uğurlu gün; Xatirəsi yadımızdan silinməyir. Yadında saxlamaq – unutmamaq; daim xatırlamaq. Bir şair sözünü yadında saxla; Bil ki, bu dünyada hünər qalacaq.

**Yadelli**, *sif.* Başqa ölkədən, yad ölkədən olman; yabançı. // *is.* mənasında. Biz divan tutduqca yadellilərə / «Ağların» başına dünya dar oldu.

**Yadigar**, *is.* [*fars.*] xatirə olaraq verilən, saxlanılan yaxud qalan şey. Qoynundakı güllü yaylıq; Sən verdiyin son yadigar.

2. *məc.* Qalıq, nümunə. Hər zəfər dastanı yadigar olsun.

**Yağ**, *is.* 1. Ev heyvanlarının südündən hasil edilən, asan əriyən, yeyilən və xörək bişirmək üçün işlədilən yağ. Qatıqdan, qaymaqdan, yağdan, pendirdən.

2. Ətin içində olan ağ və əriyən maddə; piy; iç yağı, quyruq yağı. // Heyvanın dərisi altından qalın bir təbəqə təşkil edən piy maddəsi. Onun dərisindən süzülür yağı.

◊ Yağ kimi – *dan.* Asanlıqla, maneəsiz. Canına yağ kimi yayılır şeir…

**Yağı**, *is.* Düşmən. [Səslər:] Gedək yağılardan intiqam alaq.

**Yağış**, *is.* Xırda su damlaları şəklində atmosfer yağıntısı; yağmur. İşıqla gün doğur, yağış da yağır.

**Yağışlı**, *sif.* Yağmurlu, yağış yağan, yağış olan. Yağışlı, yağmurlu buludlar gəlir.

**Yağlı**, *məc.* (*dan.*). təsirli, tutarlı, kəsərli; yağlı töhmət; yağlı dil, yağlı vəd. Yağlı vədlərə mən satılmışam.

**Yağmaq**, *f.* 1. Havadan qar, yağış, dolu kimi şeylər düşmək, tökülmək. Yağış yağır narın-narın. // *şair təşbehlərdə.* Özüm yağış olub göydən yağıram.

2. Çox miqdarda, arası kəsilmədən tökmək. // *məc.* Bir şeyin çoxluğunu, şiddətini, davamlılığını bildirir. Şəhərlərə bomba yağır; Yağdı güllə…

3. *məc.* (*dan.*). Bir şeyi ifadə etmək. Yenə də göylərdən od, alov yağır.

**Yağmur**, *is.* Yağış, yağıntı. Nə yağmur, nə yağış, nə boran, nə qar; …nə duman, nə çən; səni qorxutmadı.

**Yağmurlu**, *sif.* Yağışlı. Sisli, yağmurlu sokaklar gedirəm.

**Yaxa**, *is.* 1. Paltarın boyun keçən hissəsi, habelə bu hissəyə tikilən və boyunu əhatə edən parça zolağı. O düyməli yaxası..

2. Geyimin yaxanı, boğazı örtən hissəsi. Cırır yaxasını əllərilə.

3. Sahil, kənar, ətraf. Paris küçəsində, Nil yaxasında; Yenə al bayraqlı izdihamlar var.

4. Sinə, döş (*dağın sinəsi*). Çıxmışam dağların göy yaxasına.

◊ Yaxa qurtarmaq – *bax* yaxasını qurtarmaq. Şairəm; Yaxanı bir qurtar da sən; İnsana dərd verən hadisələrdən. Yaxasını qurtarmaq – canını qurtarmaq, xilas olmaq, qur-

tulmaq. Quşlar yaxasını qurtardı qışdan. Yaxasından əl çəkmək – rahat buraxmaq, daha işi olmamaq, dəyib-toxunmamaq. Yaşaram kimsəsiz, yaxamdan əl çək!.. Yaxasından yapışmaq – yaxalamaq, tutub buraxmamaq, əl çəkməmək. Yaxandan yapışıb, soruşur insan.

**Yaxarmaq**, *f.* Adətən «yalvarmaq» feili ilə birlikdə işlənərək, israrla yalvarmaq mənasını bildirir. Deyərək yalvarır, yaxarır göyə.

**Yaxıb-yandırmaq**, *f. məc.* Qəlbə əzab verən, ürəyi incidən, bərk acıdan. Hüsnün ciyərimi yaxıb-yandırır.

**Yaxın**, *sif.* 1. Məsafə etibarilə çox uzaqda olmayan; yovuq. Onun oylağına yaxın kəndləri. // Qısa. O günlər nə qədər yaxın görünür.

2. Zaman etibarilə uzaq olmayan, tezliklə olacaq; gələcəyinə az qalmış və s. Bu yaxın günlərdə bacara bilsən… // Dostluq münasibəti ilə bağlı olan. Həyat durduqca ölümdür ən yaxın dostu.

3. Səmimi. Gəl yaxın əyləşək, yaxın danışaq.

**Yaxından**, *z.* 1. Yaxın məsafədən, uzaqdan olmayan, yaxın yerdən. Diksindirin məni bəzən, yaxındakı topun səsin.

2. Çox yaxın, yaxşı. Şair bu yerləri yaxından tanı..

**Yaxınlaşmaq**, *f.* Yaxın durmaq, hərəkət edərək bir şeyin yaxınına gəlmək; yanaşmaq. Sahildəki bir dudağa yaxınlaşdım bu gün mən.

2. Vaxt, zaman və s. haqqında; çatmaq, yetişmək. Həyat yaxınlaşır ölümə hər gün.

**Yaxlaşmaq**, *bax* yaxınlaşmaq. Bəzən iti, bəzən seyrək; Addımlarımla mən yaxlaşdım ona.

**Yaxmaq**, *f.* Yandırmaq. Doğrudan yandırır, yaxır insanı.

**Yaxşı**, *sif.* 1. Müsbət xüsusiyyətlərə və ya keyfiyyətlərə malik olan; öz keyfiyyəti ilə verilən tələbləri təmin edən, lazımi qaydada olan; bəyənilən (*yalan ziddi*). Bəlkə də yaxşını seçək yamandan. Tez olun, yaxşı bir kabab bişirin. // Əlverişli, münasib yer. Kənd yaxşıdır yenə bizə. // Gözəl, xoş. Tez ol, yaxşı bir segah oxuyun! // Müsbət, mənəvi key-

fiyyətlərə malik olan; nəcib. Paho… Lap böyüyüb, yaxşı cavandır.

2. «Yaxşı», «razıyam», «sən deyən olsun» mənalarında razılıq bildirir. Yaxşı, vergiləri azaltsaq bir az. // Sual cümlələrində. Yaxşı, öldürməyə fürsət olmadı?

3. «Yadda saxla», «çox əcəb», «baxıb görərsən» mənasında hədə bildirir. Yaxşı, di durmayın, dayanmaq olmaz.

◊ Yaxşı yol – yola düşən adama xeyir-dua. Dedi: - qızım, yaxşı yol! Ancaq bir az ayıq ol! Nə yaxşı – məmnunluq bildirir. Artıq işıqlandı, nə yaxşı, of, sən…

**Yaxşılıq**, *is.* İnsanın müsbət mənəvi keyfiyyəti, sifəti (*pislik ziddi*). Yamanlıq, yaxşılıq durmuş üz-üzə; Dilsiz əsrlərdən mirasdır bizə. // Yaxşı, müsbət iş, hərəkət; xeyirxahlıq, qeydkeşlik, kömək. [Şirin:] Daima yaxşılıq gəlmiş əlimdən.

**Yaqut**, *is.* [ər.] 1. Qırmızı rəngdə olan qiymətli daş Yaqut üzük (*qaşı yaqutdan olan üzük*). …Kərpici bir yaqut kimi qızarır.

2. *məc.* (*şair.*). Al-qırmızı rəng simvolu kimi. Yanır kremlin beşbucaqlı ulduzu.

**Yal**[1], *is.* Atın (və bəzi heyvanların) boynunun üst hissəsində bitən uzun tüklər. Yataraq bir təhər atın yalına…

**Yal**[2], *is.* Hündür bir yerin təpəsi, dikdir, yoxuşun başı. O qız yaldan tək aşanda…

**Yalamaq**, *f.* 1. Bir şeyin üstünə dilini sürtmək.

2. *məc.* Üzdən dəyib keçmək, toxunmaq. Ac qurd kimi yalayırlar dodaqlarının qəmini.

**Yalan**, *is.* Aldatmaq məqsədi ilə deyilən əsilsiz söz (doğru gerçək ziddi). Yalan demək. Yalan söyləmək. Yalanlar, böhtanlar sürür hökmünü; Ona yalan deməyə da dili gəlmədi. □ Yalan danışmaq – yalançılıq etmək, doğru söyləməmək, danışarkən həqiqəti gizlətmək. Bir də yalan danışmazdı. Yalan satmaq – aldatmaq, yalan demək. Yalan satar… qadına.

**Yalançı**, *is.* Yalan danışan adam, yalan danışmağı özünə adət etmiş adam. Yalançı-yaltaqlar və oğrulardır.

**Yalançılıq**, *is.* Yalançının xasiyyəti, yalan danışma xasiyyəti. Öz.. balanı öyrətmədinmi yalançılığa?

**Yalandan**, *z.* Əsli olmadan. Aldadaraq, aldatmaq məqsədi ilə. // Süni olaraq, ciddi olmayaraq; yalanbaşdan. Yalandan ağlayır o…

**Yalavac**, *sif.* və *is.* Ac-susuz, yeməksiz (çox vaxt «ac-yalavac» şəklində işlənir). ..ac və yalavac.

**Yalçın**, *sif.* Çox dik və çılpaq, sıldırımlı, sarp. Bizim yalçın qayalarda; Tərlanları səsləmisən.

**Yalçın-yalçın**, *z.* Dik-dik, sarp-sarp. Qayaları yalçın-yalçın..

**Yalqız**, *sif.* Tək, kimsəsiz, yalnız, tək-tənha. Tanış deyilmiş o qız; Bəzən də sadə, yalqız; Yalqız ömür sürəcəksən?

**Yalqızlıq**,*is.* Təklik, tək-tənhalıq, tək qalma // Kimsəsizlik, adamsızlıq. Qarı yalqızlığa düşəndən bəri; Meylini bir qoca köpəyə saldı.

**Yalquzal**, *is.* Canavar, qurd; tək gəzən canavar. // *məc.* Gaz yalquzaq kimi ulayır külək.

**Yallı**, *is.* Bir-birinin əlindən tutaraq dəstə ilə oynanılan Azərbaycan xalq rəqsi. □ Yallı getmək – yallı oynamaq. Yallı gedir qatar-qatar; Ana yurdun gözəlləri.

**Yalman**, *is.* *Bax* yal[1]. Min Qazaxda köhlən ata; Yalmanına yata-yata.

**Yalmanmaq**, *f.* (*məh.*). Yaltaqlıq etmək, baş əymək. Yalmanıb baş əyir kapitalistə.

**Yalnız**, *əd.* 1. Məhdudiyyət bildirir – ancaq, təkcə. Yalnız şeir yazmaq gəlir əlimdən.

2. *z.* mənasında. Tək, tənha, başqaları olmadan, başqalarından ayrıca. Gecələr yalnızam mən yatağımda.

**Yaltaq**, *sif.* Yaltaqlıq edən, başqasına yaltaqlanan. Yaltaq təbiətli bu iyrənclər də…

**Yaltaqlanmaq**, *f.* Öz şəxsi xeyri və ya birinə xoş görünmək üçün başqasının qarşısında özünü alçaldaraq onun istədiyinə uyğun hərəkət etmək, danışmaq, riyakarcasına onu tərifləmək, yaltaqlıq etmək. Yaxşısı budur ki, yaltaqlanma sən.

**Yalvarıb-yaxarmaq**, *f.* Həddindən artıq yalvarmaq, çox yalvarıb xahiş etmək. O bəlkə yalvarıb-yaxarır göyə…

**Yalvarmaq**, *f.* Birinin könlünü yumşaldıb bir şeyə razı etmək üçün öz nəfsini alçaldaraq təkidlə acizanə xahiş etmək, rica etmək. [Azər baba:] Get ulu Hürmüzə yalvar ki, bir də; Ölüm və xəstəlik olmasın yerdə!

**Yal-yamac**, *top.* Dağın yal və yamacları. Təngnəfəs olub yanır yal-yamac.

**Yamac**, *is.* Dağın, təpənin ən yüksək nöqtəsindən aşağıya mayili səthi. Sükutə qərq olmuş sonsuz yamaclar.

**Yamaqlı**, *sif.* Yamağı ya yamaqları olan, yamaq vurulmuş; yamanmış. Bir də əynindəki yamaqlı şinel..

**Yamamaq**, *f.* Bir şeyin cırıq və ya yırtıq yerini təmir etmək. Beşik yırğalayıb, paltar yamamaq.

**Yaman**, *sif.* 1. Pis. Başına döndüyüm əziz Şikəstə; Dinlə məni, halı yaman olmuşam.

2. *məc.* Təsiri şiddətləndirmək üçün bəzən «çox», «həddindən artıq», «bərk», «tez», «şiddətli» kimi mənalarda işlənir. [Valentin:] Yaman zülmət idi.

**Yamanca**, *sif.* Çox, olduqca. Yamanca şıltaqdır bu nazlı sənəm. // Bəzən «çox yaxşı», «yaman» mənasında işlənir. Çox sağ ol, ay qızım, yamanca şeysən…

**Yamanlıq**, *is.* Pis iş; pislik. Qoy olsun yamanlıq, o xain iblis!.. Ymanlıq, yaxşılıq durmuş üz-üzə.

**Yamyastı**, *sif.* Çox yastı olan, tamamilə yastı vəziyyətdə olan. …Yamyastı; Bolqar dağlarının üstündən aşan təyyarəmiz.

**Yamyaşıl**, *sif.* Tamamilə yaşıl, çox yaşıl. Haşiyəsi yamyaşıl bir xalı kimi. // Tamamilə göyərib yaşıllaşmış. Yenə də yamyaşıl geyinir dağlar; Eyvanlı yamyaşıl yarpaq içində.

**Yan**, *is.* 1. Tərəf, ətraf. Bürüdü dövranı hər yandan düşmən. Bir yanım Kür çayı, bir yanım çəmən. □ <u>Dörd bir yanında</u> – hər tərəfdə, dörd tərəfdə. O, qoca dünyanın dörd bir yanında.

2. Bədənin çiyinlərdən buda qədər olan sağ ya sol hissəsi;

böyür. Sınıb qol-qanadım yanıma düşür.

4. Sağrı, oturacaq. Gümrah olar yanın, yançağın sənin.

4. Bilavasitə yaxınlıq, birgəlik bildirir. Dost-düşmən yanında xar olar tez-gec.

**Yanaq**, *is.* Uzun almacıq sümüyündən çənəyə qədər olan qismi. Bir od kimi yanır qızın bir çırt yanağı.

**Yanar**, *sif.* Odpüskürən, alovsaçan, atəşsaçan, odsaçan. Bir yanar dağ kimiyəm daima oddur nəfəsim.

◊ Yanar dağ – 1. Vulkan. 2. *məc.* simvolik mənada. Yandı öz içində yanar dağ kimi.

**Yanaşı**, *z.* Bir-birinə yaxın vəziyyətdə, bir-birinin yanında; yan-yan, yanbayan. Mehriban çobanlar durub yanaşı.

**Yana-yana**, *z.* 1) yanan vəziyyətdə, yanar halda yanaraq; 2) qovrula-qovrula, əzab və iztirab çəkə-çəkə. İçində yana-yana; Dedi: - Qızım Mahniyar! 3) ürək acısı çəkə-çəkə, həsrətlə, dərdli-dərdli, yanıqlı-yanıqlı. Nə baxırsan yana-yana; Külə dönmüş o eyvana?

**Yana-yana**, *z.* Yanaşı olaraq, bir-birinin yanında, bir-birinin yanınca. Keçici bayraqlar yan-yana durur.

**Yancaq**, *is.* (*dan.*). sağrı, yan. Gümrah olar yanın, yancağın sənin.

**Yandırılmaq**, «Yandırmaq»dan *məch.* De, bəlkə də od içində bu gecə yarı; Söndürürsən yandırılmış bir xanimanı.

**Yandırmaq**, *f.* 1. Yanmağına səbəb olmaq; alışdırmaq. Min işıq yandırır köpüklü sular.

2. Məhv etmək, yandırıb yox etmək. ...kitabları yandırır.

3. Şiddətli təsir etmək (*isti, qızmar, qaynar şey*). Yayın orta aylarında gün otları yandırır.

4. *məc.* Mənəvi əzab və iztirab vermək, ruhən incitmək, çox ağır təsir etmək. Cəlalın ölümü məni yandırır.

**Yanğı**, *is.* Ürəyi su istəmə, susama, susuzluq, atəş. Yerin sinəsində yanğılar vardır.

**Yanğın**, *is.* Binanı, əmlakı, ümumiyyətlə yana bilən hər şeyi geniş miqyasda qaplayıb məhv edən alov, atəş; habelə yanma prosesinin özü. Kükrəyib əsdikcə uğursuz külək;

Yanğının şöləsi yayılır göyə.

**Yanıqlı**, *sif. məc.* Kədərli, ələmli, qüssəli, qəmli, həzin; kədər gətirən, təsirli. Yanıqlı bir qəlblə kamança çalır.

**Yanılmaq**, *f.* Bir işi düz görməmək, yanlışlığa, səhvə yol vermək, səhv etmək. [Şirin:] Əfv edin, görünür, yanılıram mən.

**Yanmaq**, *f.* 1. Odlanmaq, alovlanmaq, od tutmaq, tutaşmaq. Eh… baisin evi yansın.

2. İşıq vermək, işıqlanmağa başlamaq. Sağımda, solumda işıqlar yanır; Bir şam yanır qəbrin üstə.

3. Bərk qızdırması, hərarəti olmaq. Yağış duman, külək döyən bir daxmada mən yanardım; Od tutub yandıca hey bədənimiz.

4. Görünmək, nümayan olmaq, qızararaq parlamaq. Gecə ulduz yanıb söndü.

5. İstilik vermək, şəfəq saçmaq; parıldamaq. Göydə günəş yanır bir ehtişamla.

6. Günəşin şüalarının təsirindən rəngi qaralmaq. Çılpaq çiyinləri günəşdə yanan… zənci..

7. Yağışsızlıqdan, quraqlıqdan məhv olmaq, qurumaq. …tarla yanır.. ocaq sönür…

8. Bərk susuzluq hiss etmək, bərk su içmək istəmək, susuzluqdan əziyyət çəkmək. Gəzdim hər yanını Milin, Muğanın; Yandıqca arxların suyundan içdim.

9. *məc.* Güclü bir hissi, ehtirası ifadə etmək. Hirsindən alışıb yanırdı gözü.

10. (*dan.*) Hədərə çıxmaq, boşa getmək, heçə çıxmaq; uduzmaq. Kartı yandı. // *məc.* Başqasının əziyyətini çəkmək, halına qalmaq, qeydinə qalmaq, başqası üçün təəssüflənmək. Haray salır ağlar səslə; «Qardaş» deyib o yandıqca.

**Yanvar** [*lat.* januarius] Təqvim ilinin birinci ayı. O soyuq gecədə, yanvar ayında; Rahat, səksəkəsiz bir yuxu yatdı.

**Yapalaq**, *is.* Bayquşlar dəstəsindən yırtıcı gecəquşu. Caynağında didim-didim parçalandı yapalaq…

**Yapı**, *is.* (*kit.*). Bina tikinti // *məc.* Təməl, bünövrə mənasında. Zəncirlərdən azad olan bir dünyanın yapısısan.

**Yapıncı**, *is.* Basılmış keçə yunundan (keçədən) hazırlanan plaşa oxşar qolsuz, uzun, enli geyim. Keçə yapıncısını geyib dayandı həmən.

**Yapıncılı**, *sif.* Əynində yapıncı olan. Çöldə yapıncılı adamlar kimi…

**Yapışmaq**, *f.* 1. Tutmaq, bərk-bərk tutmaq, əlindən yapışmaq. İndi yanımca gəl, yapış əlimdən. // Tutub buraxmamaq. Yaxasından yapışmaq. Boğazından yapışmaq. Şəhidlərin qiyam ruhu yapışacaq yaxandan.

2. *məc.* Dəymək, toxunmaq. Çovutma bir güllə gözlənilmədən; Yapışır alnıma, yıxılıram mən.

**Yapma**, *f. is.* 1. «Yapmaq»dan.

2. *sif.* Süni, saxta, yalançı, uydurma, qondarma, yalan. Gizli varlığının kölgələr gəzən; Yapma bir gözəllik…

**Yapmaq**, *f.* (*köhn.*). Tikmək, qayırmaq, düzəltmək, qurmaq. …tütək, qaval yapardı.

**Yapon**, *is.* Yaponiyanın əhalisini təşkil edən xalq və xalqa mənsub adam. …O quldur biçimli casus yaponlar.

**Yar**, *is.* [*fars.*] Dost, yoldaş. Bir zamanlar nə sən, nə mən; Şad görmədik dostu, yarı. □ Yar olmaq - [Vaqif:] Basma ayağını bizim torpağa; İlandan, əqrəbdən yar ola bilməz. Yar olsun! – kömək olsun! (*xeyir-dua ifadəsi*). Dünya sizə yar olsun!

2. (*klas.*) Sevgili, məşuq, məşuqə. [Vaqif:] İtil gözlərimdən vəfasız yarım.

**Yara**, *is.* 1. Bədən yaxud onun daxili orqanları toxumalarına hər hansı bir silah və ya başqa iti, bərk şeylə zədələnməsi və bu zədənin yeri. [Səhər:] Qılınc yarasını insan unudur. □ Yara almaq – yaralanmaq. Bu çərxi-dövrandan aldım bir yara! Yara vurmaq – 1) yaralamaq; 2) *məc.* qəlbini incitmək, qəlbə toxunan söz demək, tənə vurmaq. Ağ sinəmə sağalmayan isti yaralar vurdu.

2. *məc.* Dərd, iztirab, ruhi sarsıntı, ürək acısı; ürək yarası. – Ürəyimin yarasıdır…

**Yaradan**, «Yaratmaq»dan *f. is.* Tarixdə tarixi yaradan

durur.

**Yaradılmaq**, *məch.* Vücuda gətirilmək, törədilmək. Mən ki, nəğmələrçin yaradılmışam.

**Yaraq**, *is.* Silah. Hər bir igid hazırlasın tüfəngini, yarağını…

**Yaraqlanmaq**, *f.* (*köhn.*). Silahlanmaq. Yaraqlandın o gün sən də; Səsin düşdü dağdan-dağa.

**Yaraqlı**, *sif.* (*köhn.*). Silahlı, silahlanmış. Daş-torpaq da yaraqlıdır.

**Yaralanmaq**, *qayıd.* 1. Bədənin bir yeri güllə, kəsərti və s. ilə zədələnmək, yara almaq. // Obrazlı təşbehlərdə. Daşlar yaralandı günün telindən.

**Yaralanmış**, *sif.* Yara almış; silah və s. ilə bir yerindən zədələnmiş; yaralı. Yaralanmış bir göyərçin kimi…

**Yaralı**, *sif.* 1. Yarası olan, bir yerindən yaralanmış, yara almış. …Bir yaralı qızıl əsgər; Son nəfəsdə səni andı…

2. *is.* Yarası olan adam, yaralanmış adam. Ağrısını unutmuşdur bir anlığa yaralılar.

3. *sif.* (*məc.*). Dərdli, kədərli, qəmli, dərdi-kədəri olan. Qəlbdən yaralı, könüldən xəstə; Nanı zəhər, ruzu fəğan olmuşam.

**Yaramaz**, *sif.* Söyüş yaxud zarafat məqamında işlənir. Belə bir gündə mavi buludların rənginə uymaq… / Yaramaz!.., lənətlər oxudu o yaramaza...

3. Cümlədə xəbər yerində – olmaz, yol verilməz, yol verilə bilməz. [Vəzir:] Yaramaz bu qədər rəhmdil olmaq.

**Yaramazlıq**, *is.* 1. Heç bir şeyə yaramama, xeyir verməmə; xeyirsizlik.

2. Yaramaz hərəkət; pislik, alçaqlıq. Qayğınız bu yaramazlıq, ömrün bu iyrəncliyin.

**Yaranış**, *is.* Xilqət, təbiət, doğuluş. Sən ki, yaranışdan gözəlsən belə; Bir dastan olmusan ağıza, dilə.

**Yaranmaq**, *f.* 1. Əmələ gəlmək, meydana gəlmək, doğulmaq, törəmək. Bilisən ki, mən gözələm, dastanlara düşmüş adım; Yarandığım gündən bəri dağlanmamış qol-qanadım.

2. Əmələ gəlmək. [Şahbaz:] Ümman da yaranır bir çox sulardan.

3. *əsər.* Yazılmaq, meydana çıxmaq. Bu böyük kitablar yaranır.

**Yaranmış**, *f. sif.* Xəlq olunmuş, məxluq, canlı; doğulmuş. Qol-qanad açardım, sözün doğrusu; Hər bir yaranmışın arzusudur bu.

**Yaraşıq**, *is.* Bəzək, zinət. Hər məclisə yaraşıqdır gözəl kəlam. // Yaraşma, uyğunluq, tutma. Xilqətin o gözəl yaraşığını…

**Yaraşıqlı**, *sif.* Yaraşığı olan, görünüşcə qəşəng, gözəl. Bu balaca nə qədər yaraşıqlıdır…

**Yaraşmaq**, *f.* 1. Uyğun gəlmək, yaxşı tutmaq, yaxşı göstərmək. Yerin məlum! Bilsən necə, necə yaraşar…

2. Layiq olmaq, münasib olmaq. Nə gözəl yaraşır Muğana ceyran. Böyük Firdovsilər yaraşdı bəlkə… // Uyğun olmaq, uyğun gəlmək, münasib olmaq. Nə gözəl yaraşır bu gediş ona.

**Yaratmaq**, *f.* 1. Zəhmətlə, yaradıcı əməklə vücuda gətirmək. Yaşamaq şirindir deyir hər zaman; Yaşamaq eşqilə yaradır insan! // Xəlq etmək. Xoş yaradıb pərvərdigar…

2. Tikmək, meydana gətirmək. Böyük sarayları yaradır memar.

3. Əlaqə saxlamaq, dost olmaq, əlaqəni yaxşılaşdırmaq. [Xosrov:] O vaxt hər tərəfə mən əl-qol atdım; Bizans dövlətilə dostluq yaratdım.

4. Əsər yazmaq, yaradıcılıqla məşğul olmaq. Bir də «İlliada»nı yaratdı Homer.

**Yarəb, yarəbbi** [ər.] (*dan.*). Ey Allah! Allahım! İlahi! (*Allaha müraciət*) Yarəb!.. nə yazıq olarmış insan.

**Yarğan**, *is.* Ətrafı sıldırımlı iri, uzun dərə. Yarğan üstü… Bulaq başı… Mis səhəng…

**Yarı**, *is.* Tən bölünmüş iki hissədən biri. Tanıyın.. hökuməti atlarını yarı qiymətinə satan Şirəlini. □ <u>Yarı yolda qalmaq</u> – səfəri başa çatdıra bilməmək. Yarı yolda qaldı

diləklərimiz.

**Yarımaq**, *f.* Təmin olmaq, məmnun olmaq, arzusuna çatmaq. Yaxşısa da hər muraddan doyub yarımaq.

**Yarımçıq**, *sif.* 1. Sona, axıra çatdırılmamış; natamam, bitməmiş. // *z. mənasında*. Yarısında, ortasında, axıra çatdırmayaraq, natamam. Yarımçıq əsərlər, kitablar qaldı; Başladıqca hər bir işi yarımçıq atdı.

2. *məc.* Sənətini yaxşı bilməyən, bir şey haqqında lazımınca məlumatı, biliyi olmayan adam haqqında. ..yarımçıq savad..

**Yarın**, *is.* [türk.] (*kit.*). Sabah, gələcək gün. Bütün arzularım gülür yarına; Xəyaldan ilhamlar almamaq üçün.

**Yarış**, *is.* Bir işdə üstün gəlmək, birinciliyi qazanmaq üçün bir-birini keçməyə çalışmaq. Bağladığım bu yarışda; Mən Sarvanı keçəm gərək. Bayronu yarışa çağıram gərək.

**Yarışmaq**, *f.* Bir işdə birinciliyi qazanmağa, bir-birini ötməyə çalışmaq. Yoldaşlar! Yarışdıq Sarvan ilə mən.

2. Yüksək əmək məhsuldarlığına nail olmaq üçün yarışda iştirak etmək. Tarlada üç dəstə qız yarışırdı.

**Yarmaq**, *f.* Maneəni dəf etmək, parçalamaq, parçalayıb yol açmaq. O yarıb dağları keçir irəli.

**Yarpaq**, *is.* 1. Ağac və s. bitkilərin yastı və cinslərinə görə müxtəlif şəkildə olan yaşıl rəngli tənəffüs orqanı. Sarı yarpaq tökür boylu çinarlar. □ Yarpaq tək (kimi) titrəmək (əsmək) – tir-tir əsmək (*qorxudan, soyuqdan*). Qorxudan titrəyir bir yarpaq kimi; Ağacda yarpaq tək əsirəm bəzən.

2. Vərəq, səhifə. İncilin, Quranın yarpaqlarını; Sovurur göylərə şimal yelləri.

**Yarpaqlı**, *sif.* Yarpağı olan, yarpaq açan; yarpaqla örtülü. Bu bağça… yarpaqlı, sarmaşıqlıdır.

**Yarpız**, *is.* (*bot.*). Əsasən su kənarlarında bitən, ağ və qırmızı çiçəkləri olan ətirli bitki; çölnanəsi (nanənin bir növü olub xörəkdə işlədilir). Yaz ola, dovğa ola yarpızla.

**Yarpızlı**, *sif.* Yarpız bitən yer. Mən o yaşıl bağların; Bu yarpızlı dağların; Bəslədiyi bir canım.

**Yar-yaraq**, *top.* Yaraq, silah, əsləhə. Öz yerində olsun gərək igidin yar-yarağı; Hər gün yeni bir zəfərlə gəlsin onun sorağı.

**Yar-yoldaş**, *top.* Yoldaşlar, dostlar. Göstərir gücünü yar-yoldaşına.

**Yas**, *is.* [ər. yəs] 1. Yaxşı bir adamın özünü münasibətilə hüzn və kədər; matəm. Ölüb gedənlərin yasını burax..

☐ <u>Yas saxlamaq</u> – ölən adamın yasını saxlamaq. Bəxtiyar dostuna yas da saxlayır… <u>Yaz tutmaq</u> – *bax* yas saxlamaq. …fəlakət yas tutub ağlar…

2. *məc.* Kədər, ələm; ümidsizlik. Bu acı xəbəri axıdan Aras; Axdı həzin-həzin ürəiyndə yas. ☐ <u>Yasa batmaq</u> – çox kədərlənmək, çox qəmlənmək, çox qüssələnmək; üzü gülməmək. Adını qəlbində hər kim arasa; Bilirəm, ağlayıb batacaq yasa…

**Yasaq**, *is.* [*qəd.* yasa – qanun sözündən] Qadağan. Bizə yasaq oldu başqa kitablar.

**Yasəmən**, *is.* [*fars.*] (*bot.*). Ağ, qırmızı və bənövşəyi rəngində ətirli salxımları çiçəklər açan kol. Tel-tel olsun yasəmənlər…

**Yaslanmaq**, *f.* Yayılmaq, sərilmək. Yaslanıb samanın üstünə cansız; Yatır qaqqıltısız, ahsız, imansız.

**Yaslı**, *sif.* Yaxın adamının ölümü münasibətilə yas saxlayan, matəm tutan; matəm əlaməti olaraq qara geyinmiş. Çaldığın havalar yandırıb yaxdı; Yaslı gəlinləri, yaslı qızları…

**Yaslı-yaslı**, Yaslı halda. Yaslı-yaslı baxdıqca; Deyir: - dünya kimə qaldı?

**Yastıq**, *is.* Yatanda baş altına qoyulan; içərisi quş tükü, pambıq və ya hava ilə doldurulan dördkünc kisəcik. [İslam:] Başıyın altına yastıq qoy sən də.

**Yastı-yastı**, *z.* Aramla, asta-asta, sakit-sakit. Yastı-yastı təpələr; Yatışırlar baş-başa.

**Yaş**[1], *is.* 1. Doğuluş, dünyaya gəlmə günündən keçən vaxt, il. [Vəzir:] İndisə, yaşımın bu ötkün vaxtı; Məni çölə

atır bu Kəyan taxtı.

2. Çıxışlıq halda. Öz yaşından böyüklərlə durub-oturdu.

□ Yaşa dolmaq – böyümək, yaşlı olmaq. İnsan yaşa dolur, dünya qocalır. Yaşı ötmək – hər hansı bir yaş həddini ötmək, keçmək. Dedi: «Yaşım ötsə belə qulaq verin, söz mənimdir».

**Yaş**[2], Göz yaşı. Yalnız o durmuşdu gözlərində yaş. ◊ Qanlı yaş tökmək – ağlamaq, acı-acı ağlamaq. [Mahnigar:] Yunis də gözündən qanlı yaş tökür.

**Yaşamaq**, *f.* 1. Həyatda var olmaq, diri olmaq, sağ qalmaq. [Şirin:] Bəs nə cür oldu ki, indiyədək siz; Yaşaya bildiniz ruhsuz, eşqsiz.

2. Ömür sürmək, həyat keçirmək. Açıq yaşamışdır bizim nənələr // Həyatdan, onun zövq və səfasından faydalanmaq. Yaşamağın dadı var.

3. Bu və ya başqa tərzdə həyat sürmək, dolanmaq. Yaşayaq bir təhər, bu da zamandır..

4. Bir yerdə həyat keçirmək, bərabər ömür sürmək. Gəl bizimlə yaşa, ana!

5. Xatirində qalmaq, yadda saxlamaq, yaddaşından çıxmamaq. O ellər dünyası yaşar yadımda.

6. Əmr formasında: yaşa! – müvəffəqiyyət arzusu bildirən yaxud mərhəba!, var ol! Mənasında nida. Yaşa, - dedi, - ey qəhrəman!

7. Əmr formasında: yaşasın! (*tənt.*) – var olsun! Yaşasın gələcək! Yaşasın insan!

8. Bir yerin sakini olmaq. Qəfəsdə quş kimi yaşayıram mən.

**Yaşarmaq**, *f.* «Gözləri» sözü ilə – yaşla dolmaq, yaş tökülmək, ağlamaq istəmək. O vaxt sevgilinin yaşardı gözü..

**Yaşatmaq**, *icb.* Yaşamasına səbəb olmaq, yaşamasına imkan vermək. Ömrü, günü şad yaşadır; Bu yerlərin ilk baharı.

**Yaşıd**, *is.* və *sif.* Bir başqası ilə bir yaşda olan (*adam*); həmyaş, yaşdaş. Yüzillik bir ömrə bir yaşıd olduq.

**Yaşıl**, *sif.* Yarpaq, ot şəklində olan (rəng). Mən o yaşıl bağların; Bəslədiyi bir canım.

**Yaşılbaş**, *is.* Ördəyin erkəyi. Quba qazlar, yaşılbaşlar; Araz üstə tökülür.

**Yaşıldonlu**, *sif.* Yaşıl rəngdə olan. Yaşıldonlu neçə orman; Salamlayıb ilk baharı.

**Yaşıllıq**, *is.* Təzə otlarla örtülü yer. O, yaşıllıqları yalnız gəzərək; Düşünərmiş bəşərin taleyini.

**Yaşınmaq**, *qayıd.* Yad kişilərə görünməmək üçün üzünü örtmək. …yaşınmadı Azərbaycan gözəlləri.

**Yaşlı**, *sif.* Yaşarmış, yaşla dolmuş. Sevincindən gözü yaşlı..

**Yaşmaq**, *is.* Müsəlman qadınlarının yad kişilərdən gizlətmək üçün gözlərinin gözdən aşağı hissəsinə örtdükləri örtük. Üzündə son bahar, ağzında yaşmaq.

**Yataq**, *is.* 1. Yatmaq üçün yorğan-döşəkdə salınmış yer, yorğan-döşək. Gecələr yalqızam mən yatağımda…

2. Heyvanlar üçün olan yer. Tülkülərə verməyəcək aslanların yatağını.

**Yatırtmaq**, *icb.* Yuxuya vermək, yatmağa məcbur etmək. Sizi yatırtmasın ağır yuxular.

**Yatışmaq**, *qarş. məc.* Sükuta dalmaq, səs-küy gəlməmək. Yastı-yastı təpələr; Yatışırlar baş-başa.

**Yatmaq**, *f.* 1. Yuxu halında olmaq; yuxulamaq. Kölgəsində yorğun yolçular yatır.

2. Uçulmaq, süqut etmək, dağılmaq. Toplar guruldadı, saraylar yatdı; Bunları insanın əli yaratdı.

3. *məc.* (*şair.*). Coşmamaq, sakitləşmək. Kürsə yavaş-yavaş yatıb lal axır.

4. *məc.* Fəaliyyətindən qalmaq. Bəzən inkar da işlənir. Yatmamışdır, yatmamışdır böyük şəhər.

**Yavan**, *sif.* Təkcə çörəkdən ibarət olan; yavanlığı olmayan. – Ömrün boyu yaşasan da yavan çörəklə..

**Yavanlıq**, *is.* Çörəklə yeyilən hər şey. Körpənin adını Qərib qoydunuz; Yediyi arpadır, yavanlığı duz.

**Yavaş**, *z.* 1. Hərəkəti asta, zəif, ağır; yavaş yerimək. Çay da yavaş axsın...

2. Asta, sakit, yavaş. Fikirdən yavaşdır, şimşəkdən yeyin...

**Yavaş-yavaş**, *z.* Asta-asta, zəif-zəif, sakit-sakit. Azca-azca, ağır-ağır. Yavaş-yavaş pərdə qalxır, səhnə görünür.

**Yavru**, *is.* Çocuq, uşaq, körpə, bala (*nəvazişlə deyilir*). O nəğməni yavru kimi bağrına bas!

**Yavrusuz**, *sif.* Çocuqsuz, uşaqsız, körpəsiz. Yavrusuz üşüyən boş lanələr var.

**Yavuq**, *sif.* Yaxın. ..Səhərə yavuq..

**Yay¹**, *is.* İlin yazla payız arasında olan ən isti fəsli. Yayda da, qışda da bir baharsınız. Yay ola, sərin sular sal buzla.

**Yay²**, *is.* 1. Ox atmaq üçün yarımdairə şəklində əyilib ucları tarım iplə birləşdirilmiş ibtidai silah. Dağlardan atılan bir yaya bənzər.

2. *məc.* Klassik şeirdə gözəlin qaşına işarə. Çalılmış yay kimi kinlərlə dolu.

**Yayılmaq**, *f.* 1. Öz əhatə, təsir, nüfuz dairəsini genişləndirmək, geniş sahə tutmaq, əhatə etmək, genişlənmək, intişar etmək. Onun səsi bu kürsüdən dünyalara yayılmaq. Çiçəklərin bahar ətri Kür üstünə yayılmış.

2. Hər tərəfdən eşidilmək, hər yerdə məlum olmaq. Şöhrətin yayılıb hər yana, ceyran!

3. *məc.* Zahir olmaq, görünmək, gəlmək. Günün saçları yayılır düzə.

**Yayınmaq**, *f.* (*dan.*) Xəlvəti getmək, qaçmaq, gözdən itmək, gizlənmək. Yayınar gözümdən uzağa kəklik.

**Yayla**, *is.* Yaylaq. Oxudum ki, yoxdur sizin yaylada; Gülü gülüstanı bizim dağların.

**Yaylaq**, *is.* Sərinliyinə görə yay istirahəti üçün əlverişli olan dağ yeri. Çobanlar yaylağı yadıma düşdü. // Ümumiyyətlə səfalı yer. Baxıb şeir dedin göy yaylaqlara.

**Yaylaqlı**, Yaylağı olan. Aranlı, yaylaqlı ağır ellərim.

**Yaylıq**, *is.* Üçkünc, ya dördkünc parçadan ibarət qadın baş örtüyü. Güllü yaylığınla çıxırlar yola.. // Burun, üz,tər

silmək üçün dördkünc parça. İpək yaylıq. Burun yaylığı. O silib yaylıqla alın tərini.

**Yaylım**: yaylım atəşi – bir neçə silahdan eyni zamanda açılan atəş. O taydan qalxdıqca bir dəstə; Yaylım atəşləri yayıldı düzə.

**Yaymaq**, *f.* 1. Bir şeylə yastıladaraq nazik qat halına salmaq, uzatmaq. Bizim gəlinlərin bayramqabağı; Fəsəli yaymağı yadıma düşdü.

2. Ətrafa səpələmək, yaymaq. Günəş yayır saçlarını üzərinə..

3. Öz təsirini (*səsini, iyini və s.*) ətrafda hiss etdirmək (eşitdirmək), ətrafa saçmaq, ətrafı doldurmaq. Küləklər yayırdı geniş düzlərə; Muğan qızlarının şərqilərini.

**Yaz**, *is.* İlin qış ilə yay arasında olan fəsli; bahar. Əriyir yaz günü quzeydəki qar.

**Yazan**, *is.* Yazı ilə məşğul olan şəxs; jurnalist, yazıçı və s. Cavandır yazanı bizim dağların.

**Yazı**, *is.* 1. Yazmaq üçün tətbiq edilən qrafik işarələr sistemi; əlifba. Ərəb yazısı. Slavyan yazısı. □ Yazı masası – yazı işləri üçün xüsusi şəkildə düzəldilmiş stol. Çəkək kölgəliyə yazı masamı.

2. Kağız və ya başqa material üzərində yazılmış şeylər; xətt. ..bu yazılar yazılaydı qəbrim üstə; Mən öləndə.

**Yazıb-yaratmaq**, *f.* Əsər yazmaqla, əsər yaratmaqla, yazıçılıqla məşğul olmaq. // *is.* mənasında. Yazıb-yaratmaqdan heç doymamışdır.

**Yazıçı**, *is.* Bədii əsərlər yazan, ədəbi yaradıcılıqla məşğul olan adam.Yazıçılar ki, öz qədrini bilmədi özü.

**Yazıq**, *sif.* Dinc, sakit, fağır, aciz. Öldü diri gözlü yazıq analar. // *is.* mənasında. Onun o yazığın fəlakətidir. // Acınacaqla, zavallı, bədbəxt. Gəray bəy, yazığam, zavallıyam mən…

**Yazıqlıq**, *is.* Fağırlıq, məzlumluq, acizlik, yazıq adamın hal və vəziyyəti. Fahişəlik, yazıqlıq, sonra bilməm ki, nələr…

**Yazılmaq**, *məch.* 1. Kağız və ya başqa material üzərində qrafik işarələr /(hərflər, rəqəmlər və s.) Cızılmaq.

2. Bir şey haqqında yazılı məlumat vreilmək.

3. Ədəbi-bədii, elmi, musiqi və s. Əsərlər yaradılmaq. Burda yazılmışdır yüzlərlə əsər.

4. Bir təşkilata və s.-yə qəbul edilib adı dəftərə qeyd edilmək. Dərnəyə yazılmaq. Kitaba yazılmaq. Bizim də adımız yazılmış dostlar.

**Yazlıq**, *is.* 1. Yaz vaxta, yaz çağı.

2. Yazda, baharda əkilən yaxud yazda yetişən. Yazlıq əkin işlərini unudurlar tamamən.

**Yazmaq**, *f.* 1. Kağız və ya başqa material üzərində qrafik işarələr (*hərflər, rəqəmlər və s.*) cızmaq. Nə yazım? Neyləyim; Düşündükcə mən. // Məktub vasitəsilə müraciət etmək, bildirmək, məktub göndərmək. Qacara yazdığım cavabdır, alın!

3. Ədəbi-bədii, elmi, musiqi və s. əsərlər yaratmaq, təlif etmək. Bizim «Aslan qayası»nın dastanını yazmışam. // Mətbuatda iştirak (çıxış) etmək, öz əsərlərini hər hansı bir mətbuatda dərc etdirmək. London qəzetləri yazdı…

4. Bir təşkilata və s.-yə qəbul edib adını dəftərə qeyd etmək. Bəxtiyar, məni də komsomola yaz! // Siyahıya almaq, qeyd etmək, qeydə almaq. İyirmidir yaşın bu gün, yazmalıyam bu günü mən.

**Yeddi**, *say.* Altıdan sonra gələn 7 ədədi. O yeddi həftədi yorğan-döşəkdə.

**Yedək**, *is.* Yedəyində şəklində (*zərf*) arxasında, yedəyində tutaraq. Kəndi dolaşıram yedəyimdə at; İçimdə bir qüvvə əmr edir: yarat!

**Yedirmək**, *f.* Bir başqasına yemək vermək, bir şeylə təmin etmək. Dövlət mallarını yedirdək, yeyək…

**Yedirtmək**, *icb.* Yemək vermək, yem vermək. Yedirtdi, içirtdi köpəyi qarı.

**Yekəbaş**, *sif.* Başı böyük olan. Yekəqarın, yekəbaş…

**Yekəqarın**, *sif.* Qarnı çox yekə, iri olan. Mən.. qızıl

süngümü soxmalıyam piyli və yekəqarınlara.

**Yel**, *is.* Külək. Yel əsdi, gül soldu, yarpaq saraldı.

◊ Yel kimi, yel tək – çox sürətlə, çox iti. Tənəklər yanından keçdi yel kimi. Qıy vurub tərlanım yel tək keçəndə; Bir vəlvələ düşür hər yana, dağlar. Yel kimi yerimək – iti getmək, yeyin getmək. .. səsinə bütün ölkələr; Yel kimi yeriyib sel kimi axdı. Səhər yeli – nəsimi, səmum, səhər çağı əsən yel. Səhər yeli öpsün sənin şər əlini.

**Yelikli**, *sif.* Yeliki olan. ..yelikdi inək.

**Yelin**, *is.* Məməli heyvanlarda süd yığılan orqan. Salxım-salxım olacaqdır ağ üzümü tənəklərin; Yelinləri dolacaqdır yenə sağmal inəklərin.

**Yelkən**, *is.* 1. Dor ağacına bənd edilən və içinə yel dolduğu zaman gəmini, qayığı hərəkət etdirən xüsusi biçimli qalın, möhkəm bez parçası. Mərd oğullar yelkən vurub gəmilərə; Bismillah! Atılarmış dalğalara.

2. *məc.* [Xosrov:] Sularda qərq olur ömrün yelkəni.

**Yelləmək**, *f.* Dalğalandırmaq, əsdirmək, tərpətmək. Bayrağı yelləyir səhər küləyi.

**Yellənə-yellənə**, *z.* Yellənərək, dalğalanaraq. Qızın saçları, uzun hörüklərlə topuğa sarı; Yellənə-yellənə dalğalanırdı.

**Yellənmək**, *f.* 1. Dalğalanmaq, əsmək. Yel əsir, astaca yellənir bayraq.

2. Yellənə-yellənə getmək. Dalğaları yara-yara; Yellənmişdir uzaqlara.

**Yelpazəli**, *sif.* Yelpikli, başına yelpik bağlamış. Yelpazəli xanım, fraklı serlər…

**Yem**, *is.* Yemək, yeyiləcək şey. Ətəyində səhər-səhər; Dostuna yem verməyəcək!

**Yemək**, *f.* 1. Qida qəbul etmək. Bir az yeyər, içər keyfi durular.

2. *məc.* Yox etmək, məhv etmək. [Qacar:] bu qılınc olmasa yeyərlər məni.

3. *məc.* (*dan.*). Həyasızcasına mənimsəmək. Yoxsullar qazanıb, varlılar yedi.

4. Bir sıra sözlərə qoşularaq müxtəlif frazeoloji ifadələr düzəldilir.

**Yemləmək**, *f.* Heyvanlara, quşlara yem vermək; bəsləmək, yedirtmək. Əli bəy quş kimi yemləyir məni.

**Yemlik**, *is.* (*bot.*). Çöllərdə, bağlarda bitən çoxillik ot bitkisi. Unutdum tüstülü daxmasında yemlik yediyim babamın aciz xülyalarını.

**Yenə**, *z.* (*bəzən «də» ədatı ilə*). 1. Təkrar, bir daha, təzədən, yenidən. [Şiruyə:] Elə bil od çıxdı yenə canımdan. [Fərhad:] Yenə də tutmadım ondan bir xəbər.. // Sual şəklində: təəccüb bildirir. Yenə də şikayət? Əl inan ki, sən…

2. Eyni qayda üzrə, əvvəlki kimi. Yenə dağ başını duman, qar alır.

3. Hər halda, hər necə olsa, hətta, belə, hələ də, o halda da. Yenə Vaqif kimi, əlbəttə, yüz oğlana dəyər.

**Yengə**, *is.* (*etnoqr.*). Gəlin köçürülən zaman onun yanınca gedən və ona rəhbərlik edən qadın. Yengə süzür, şabaş yığır, ölmə, aman!

**Yeni**, *sif.* 1. İlk dəfə yaradılmış yaxınlarda meydana gəlmiş, təzə (*köhnə ziddi*). Bu yeni ordunun hər bir nəfəri; Budur, yüz meşəlik, yüz yeni şəhər.

2. Dövrümüzə aid olan, müasirimiz olan, müasir (*keçmiş, köhnə qarşılığa*). Yeni tarix! Yeni tarix! De fəlsəfən; Hansı böyük həqiqəti açdı bizə?!

3. Məlum olmayan, təzə. [Azər baba:] Hər sirrin yenidir, hər mənan dərin; Qəlbə mehribandır qumral gözlərin.

4. Əvvəlki deyil, başqa, digər, bambaşqa. Bir yeni aləmə qapılar açdı.

5. Cavan, tər, yeni məhsul; təzə. Hər addım başında bir yeni nemət.

**Yenidən**, *z.* Bir də, təzədən, təkrarən. Gəlin qanunları.. yazaq yenidən!..

**Yenilik**, *is.* Yeni bir şey, keçmişdə olmamış, təzə meydana gəlmiş şey. A yoldaşlar, yenilikdə köhnəlik çox qalmışdır…

**Yenilməz**, *sif.* Basılmaz, məğlubedilməz, yıxılmaz, dağıdılmaz, çox möhkəm. Nəsildən nəsilə yadigar olsun; Sizin bu yenilməz ehtişamınız.

**Yeniyetmə**, *is.* Çox gənc, gənclik yaşına ayaq qoymuş oğlan ya qız; ümumiyyətlə gənc, cavan. Hər meydançan olacaqdır yeniyetmə gülüstan…

**Yenmək**, *f.* Basmaq, məğlub etmək, qalib qalmaq. Bizim Maksimi də cərgədən aldı; Yenərkən ölümün qara pəncəsi.

**Yer**, *is.* 1. Yer kürəsi. Yer kürəsini xırman kimi ayaqladın! Yerin də suyun da, asimanın da…

2. Yer qabığının üst qatı; torpaq. Yer altda yaşadı min elim, obam.

3. Kənd təsərrüfatı məqsədləri üçün istifadə edilən. Yeri şumlayan biz, onu əkən biz.

4. Ölkə, ərazi, vətən, diyar, məmələkət. Bizim bu yerlərdə bir məsəl də var..

5. Ölkə, şəhər, kənd və s. Bizim kənd yerinin gözəllərinə.

6. Üzərində bir şey olan yaxud ola bilən müəyyən sahə, məntəqə, məkan və s. Yerində ağdaşlı evlər qurulur.

7. Teatrda, kinoda, nəqliyyatda və s.-də oturacaq (stul, skamya və i.a.). Xuraman yerində daş kimi donur.

8. Ev, məskən, mənzil və s. Di, get, yerin olsun o boş mağara.

9. Vəzifə, xidmət, qulluq, iş və s. Bu yer, bu vəzifə sənindir deyə.

10. Üz, nişanə əlamət əsər. Yanan şəhərlərin qaraldı yeri…

11. *məc.* Mənbə, …dağ tərpəndi yerindən…

12. Yorğan-döşək, yataq. Gəldi yuxu vaxtı, salındı yerlər…

13. Bir adamın cəmiyyətdə, ailədə, elm sahəsində və s.-də tutduğu mövqe. Yaltaqların cərgəmizdə nə haqqı var, nə yeri.

14. Yeridir şəklində – məqam. Yeridir, bir məsəl desəm yadigar.

15. Yerinə şəklində – əvəzinə. ...qarağan, yovşan yerinə; Çinarlar boy atdı.

◊ Yerə atmaq – qeyrətini, namusunu tapdalamaq, itirmək. Mən öz namusumu yerə atmaram. Yerə salmaq - endirmək. Bu saat sal görüm tüfəngi yerə! Yeri gəlmişkən – təsadüfən, istifadə edərək, məqamı gəlmişkən. Qoy yeri gəlmişkən söyləyim sizə. Yerə batsın! – qarğış ifadəsi. İblis kimi yerə batsın; Ölüm ilə fitnəkarlıq. Yerə vurmaq –heçə çıxarmaq. Vurdun yerə on səkkizcə tüməni; ...dostluğu vururuq yerə.. Yeri gələndə – məqamında, məqamı çatanda. Elə gedirəm ki, yeri gələndə. Yer ulduzları – lampalar nəzərdə tutulur. Min rəng alıb, min rəng verir yer ulduzları. Yerlə yeksan olmaq – xarabaya dönmək, məhv olmaq. Yerlə yeksan oldu yaşıl meşələr.

**Yeraltı**, *sif.* Yer səthinin altında. Yeraltı şaxtalar bir şəhər olur.

**Yerəbaxan**, *is.* və *sif.* Zahirən sakit, dinməz, əslində isə hiyləgar, fəndgir, xəbis adam haqqında. Qaraqabaq, yerəbaxan, gözü gömgöy, rəngi kürən...

**Yer-göy**, *is.* Dünya, kainat. ◊ Yerə-göyə sığmamaq – 1) çox sevinmək, çox şad olmaq. ..Yerə-göyə sığmayırsan min iftixarla!.. 2) bir şeyin həddindən çox olduğunu bildirir. Bu həsrətlə sığmayırsan yerə-göyə.

**Yerimək**, *f.* 1. Ayaqlarını işə salmaq, hərəkət etmək; addımlamaq. Qüvvəsi qalmamış artıq yeriyə. O yeridi beş-on addım...

2. Hərəkət etmək. Axıb qoşun-qoşun yeridi tanklar.

3. Hücum etmək, üzərinə getmək, axın etmək. Üstünə tanklarla yeridik biz də.

**Yeriş**, *is.* Yerimək tərzi, yerimək işi. Onu yerişindən bilirdi hamı.

**Yerlik**, *is.* Döşəmə, yer. Yerliyi darısqal, içi bürkülü; O qamış komalar bəs indi hanı?

**Yerli-yersiz**, *z.* Münasib, məqamında, yerində olub-olmadığını bilmədən. Mənə yerli-yersiz söz qaytarırsan.

**Yersiz**, *sif.* 1. Yerində, məqamında olmayan; uyğunsuz, namünasib, münasibətsiz. Bəzən onun yersiz gülüb yersiz sözlər danışmağa; Şübhə salır ürəklərə..

2. Boş yerə, nahaq, əbəs, əsassız. Necə gözləməzdin, lap yersiz, nahaq.

**Yetim**, *sif.* Atası-anası, yaxud atası və ya anası ölmüş. Yetim bir uşaq kimi o qısqanır özündən.

**Yetimlik**, *is.* Ata-anası olmayan uşağın halı, vəziyyəti. Yetimlik, xəstəlik, aclıq, ehtiyac; Oldu ilk dostumuz, ilk sirdaşımız.

**Yetirmək**, *f.* Bir şeyi yaxud bir sözü (*xəbəri, məlumatı*) başqa bir kəsə və ya yerə hər hansı bir vasitə ilə çatdırmaq. Stz yetirin bir nişanə durnalar!

2. Özünü gedən ya qaçan birisinə yaxud bir yerə çatdırmaq. Amandır, yetirin o yarə məni!

3. Yetişdirmək; becərmək. Bir nübar yetirir ana təbiət.

**Yetişmək**, *f.* 1. Özünü çatdırmaq, vaxtında çatmaq. Knyazın ordusu yetişib həmən; Bürümüş şəhəri dörd bir tərəfdən. // Gəlib çatmaq. Sona yetişməyir insanın səsi.

2. Dəymək, yeməli hala gəlmək. Yazıq kəndli bicməmişdir; Tarlasının yetişməmiş çəliyini…

**Yetkin**, *sif.* Hər cəhətdən yetişmiş, kamilləşmiş, təcrübəli. Ən böyük ürəklər, yetkin ağıllar.

2. Dəymiş, yetişmiş, yetişkən. Yetkin, sulu meyvələr…

**Yetmək**, *f.* 1. Çatmaq, səsi gəlmək. Zəncir səsləri; Lal oldu, yetmədi o gündən bəri.

2. Yetər şəklində – bəsdir, kifayətdir. Birisi yorulub deyir ki, - yetər…

☐ Kama yetmək – arzusuna, muradına çatmaq. Kama yetməmişdi haqqı, muradı.

**Yetmiş**, *say. is.* Yetmiş yaş. Yetmişdən yuxarı olsa da yaşı…

**Yeyib-içmək**, *f.* Qidalanmaq, yemək. Bizim süfrəmizdə yeyib-içəcək…

**Yeyilmək**, *məch.* 1. Yeməyə sərf edilmək. Nə varsa yeyi-

lir, üstündən də çay; Hamıdan az yeyir, az içir Humay.

2. *məc.* Yeyildi varlığın, çeynəndi ömrün.

**Yeyin**, *sif.* Tez, iti, cəld, sürətli. Fikirdən yavaşdır, şimşəkdən yeyin. // *z. mənasında*. Sellərdən.. yeyin axsam…

**Yeyin-yeyin**, *z.* Tez-tez, iti-iti, sürətlə. Gecə keçir, mən gedirəm yeyin-yeyin.

**Yezid**, [*xüs.* isimdən] Zalım, qəddar, insafsız. Yezid, imansız!

**Yəhər**, *is.* Üstündə oturmaq üçün qayışlarla atın belinə bağlanan oturacaq. Töküldü yəhərə Gərayın qanı.

**Yəhərləmək**, *f.* 1. Atın belinə yəhər bağlamaq. Yəhərləyib atını yenə qalxır yuxarı.

2. *məc.* (*dan.*). Özünə tabe etmək; cilovlamaq. Yenə günəş öz atını yəhərləyib asimanda; Toy xəbəri yayacaqdır…

**Yəqin.** *z.* 1. Şəksiz, şübhəsiz, səhih, inamla. [Şapur:] Aha, şah həzrəti buyurur, yəqin. // Xəbər şəkilçisi ilə: <u>yəqindir</u> – şübhəsizdir, şübhə yoxdur. Yəqinimdir, mən vurmaram ta başa.

2. *ara s.* Ehtimal,ola bilsin, görünür (*bu mənada çox vaxt «ki» bağlayıcısı ilə*). Yəqin ki, bunun da öz cəlalı var.

**Yəs**, *is.* Ümidsizlik, məyusluq, yas, hüzn. Bütün varlığımla yəs, ələmdəyəm.

**Yığılmaq**, *f.* Bir yerə toplaşmaq, cəm olmaq; cəmləşmək. Qoşunlar yığılıb qapını döyür.

**Yığın**, *is.* Koma, qalaq, topa; yığıntı halında olan şey. Basıb daş yığını dar döngələri.

◊ <u>Bir yığın</u> – çox miqdarda, çoxlu. Səhərdir. Məktəbə yollanır Xumar; Yanında bir yığın yoldaşı da var.

**Yığın-yığın**, *sif.* Topa-topa, dəstə-dəstə. Sahildəsə gənclər gəzir yığın-yığın.

**Yığışılmaq**, *qayıd.* Hazırlaşmaq. Keçib, fikirləşmə, yığışıl, gedək!

**Yığışmaq**, *f.* 1. Bir yerə toplanmaq, yığılmaq, cəmləşmək, toplaşmaq. Yorğun-arğın insanlar işdən; Yığışmışdı bir salona.

2. Bir yerə getmək, yola çıxmaq üçün hazırlıq görmək, şeylərini qablaşdırıb hazır olmaq. Bəs biz? Biz neyləyək? Yığışın, gəlin. // Hazırlaşmaq. Aygün, daha yığış, yetişdi zaman. // Bir yerdən başqa yerə köçüb getmək. Mənim də karvanım yığışıb köçür…

**Yığmaq**, *f.* Toplamaq, bir yerə çalaqlamaq. Daş yolub, qum yığan qoca bir usta.

2. Yetişmiş məhsulu toplamaq. Biz pambıq yığırıq bu tarlalarda.

3. Bir yerə qısmaq. Yığıb qanadını qırğı sayağı; Şığıyıb süzəndə o bir ox olur.

3. Hissə-hissə toplamaq, kolleksiya düzəltmək. Alim yenə qucaq-qucaq yığır qədim saxsıları.

**Yığnaq**, *is.* Qonaqlıq, məclis. Çox olur qoçağın, yığnağın sənin.

**Yıxılmaq**, 1. Öz ağırlığı ilə yerə enmək, yerə dəymək. Gərək yadındadır… üç il qabaq mən; Qayadan dənizə yıxıldım birdən. // Uçmaq, dağılmaq (*köhnəlikdən və s.*). Gündə min ev uçar, min ev yıxılar.

2. *məc.* Hakimiyyətdən salınmaq, devrilmək, düşürülmək, düşmək. Yıxıldı ağalar, qullar dünyası. // Əmr formasında: yıxılsın! – məhv olsun! Yox olsun! Dağılsın! Viran qalsın! Yıxılsın məğrur saray; Buludlara batsın ay.

3. *məc.* Fəaliyyətdən düşmək, zəifləmək. Ey dağılan xəyal, yıxılan ürək!

**Yıxılmaz**, *sif.* Yıxılması, dağılması mümkün olmayan; sarsılmaz, devrilməz. İpəkdir vicdanın, poladdır yaxan; Yıxılmaz dağlara dayanmış arxan.

**Yıxılmış**, «Yıxılmaq»dan *f. sif.* …gözlərim baxır; Əyilmiş, yıxılmış baş daşlarına.

**Yıxmaq**, *f.* Uçurmaq, dağıtmaq, xaraba qoymaq, viran etmək. Böyük bir dünyanı yıxmaq, uçurmaq; Yerində başqa bir dünya ya qurmaq?

**Yıldız**, *is. qəd.* Uduz. Parlayır qızıl yıldız günəşdən rövşən…

**Yıpranmış**, *f. sif.* Tamamilə köhnəlib, xarab olmuş. Yıpranmış bir dəmət kimi dağıldı hicrin…

**Yırğalamaq**, *f.* O yan-bu yana, aşağıya ya yuxarıya işləyərək hərəkət etdirmək; tərpətmək, silkələmək. Beşik yırğalayıb, paltar yamamaq…

**Yırğalanmaq**, *f.* O tərəf-bu tərəfə əyilərək hərəkət etmək, tərpənmək, silkələnmək. Görünməz olmuşdur dənizin dibi. Qayıq yırğalanır bir beşik kimi.

**Yırtılmaq**, *f. məc.* Yırtıldı günəşin qara pərdəsi…

**Yırtmaq**, *f.* 1. Dağıtmaq. Biz qaranlıq zindanları yırtaraq…

2. Uçurtmaq**.** Trak.. Trak.. Divarları yırtaraq.

3. Deşmək, parçalamaq. Elçiləyər uzaqları dağı, daşı yırtaraq.

4. *məc.* Üfüqləri yırtan; Beynəlmiləl havası.

**Yiyə**, *is.* Hər hansı bir şey üzərində mülkiyyət hüququ olan adam; sahib. Ay ev yiyəsi!

**Yoğrulmaq**, *məch. məc.* Yaranmaq, əmələ gəlmək. Şeir, sənət əzəl gündən sözün hüsnilə yoğrulmuş; Zamanın sirri, sevdası onun qəlbində nəqş olmuş.

**Yoğurmaq**, *f. məc.* Bəsləmək, saxlamaq. [Əhrimən:] Doqquz ay qanla yoğurmuş səni bətnində anan.

**Yox**, *əd.* 1. Xəbər mənasında. Bir şeyin hazırda, yaxud ümumiyyətlə, olmadığını bildirir (var ziddi). Mənim «hə sözümə» yox deməmişlər. // Həmin mənada yoxdur şəklində işlənir. Yuxu dəhşətlidir, qorxusu yoxdur.

2. Suala mənfi cavab və ya bir şeylə razı olmamağı bildirmək üçün işlənir (hə, bəzi ziddi). Yox xala! Heç qorxma, indi bahardır // Ümumiyyətlə etiraz, narazılıq bildirmək üçün işlənir (*bəzən təkrar şəklində*). Yox, yox, uzaq deyil bizdən o aləm.

◊ Yox deyil – vardır, mövcuddur, yaşayır. Yox deyil bizim sənədlərdə ətəyinin altında rüşvət alanlar… Yox olmaq – çəkilib görünməz olmaq. Ömürlük yox olur bizim ölkədən. Nə var, nə yox? – yeni xəbər sorğusu. İlyas! Gəlib çıxdın?

De, nə var, nə yox?

**Yoxlamaq**, *f.* 1. Vəziyyət barədə yəqinlik etmək üçün araşdırmaq. Yoxlayın, hardasa əsir gürcülər.

2. Bir şeyə əl ilə toxunmaq; müəyyənləşdirmək. ...vaxtın nəbzini; Hər an yoxlayaq öz nəbzitək.

3. Hal-əhval bilmək üçün birinin yanına getmək, ona baş çəkmək, yoluxmaq. [Şiruyə:] Çalış Şirini də arabir yoxla...

**Yoxlanmaq**, *məch.* Sınanmaq, sınaqdan keçirilmək, yoxlanılmaq. Burda yoxlandı qılınclar, qınlar.

**Yoxluq**, *is.* Yox olma, olmama, bir şeyin olmaması (varlıq ziddi). Özü bir yoxluqkən, adı var idi.

**Yoxsa**, *bağl.* 1. Olmaya, bəlkə (sual yerində). Yoxsa... O ülfətdən; Dövranınmı üzü döndü?

2. Sual cümlələrində ehtimal, bildirir – ya, yaxud. Nə düşündün, yoxsa paranmı vardır?

**Yoxsul**, *is.* 1. Yaşamaq üçün kifayət qədər vəsaiti, imanı olmayan, ehtiyac içində olan adam; kasıb, möhtac. Pirinə təpik atan kəndin o yoxsulunu; Yoxsullar qazanıb, varlılar yedi.

2. *sif. məc.* Bizim yoxsul olan bu evimizə.

**Yoxsulluq**, *is.* Yoxsul, hal, yoxsul vəziyyət; kasıblıq, ehtiyac. Elə bil dünyaya yenidən gəlmiş; Yoxsulluq keçirən heç bu deyilmiş.

**Yoxuş**, *is.* Yolun dağa, təpəyə qalxan hissəsi; ümumiyyətlə getdikcə yuxarı qalxan yer (eniş müqabili). Hər enişin, yoxuşun. // Dik (yer), dikdir. İndi yuvasından uçacaq quşlar; Min rəngə girəcək düzlər, yoxuşlar.

**Yol**, *is.* Gediş-gəliş və nəqliyyat işləməsi üçün ayrılmış yer. Yollar kənarına güllər əkilsin.

□ Yola salmaq – bir yerdən gedib-gəlməklə cığır açmaq. Sürü-sürü marallar da yol salarmış talalardan. // Keçiləcək yer, keçmək üçün yer. Keçdiyi yollara baxdı vüqarla.

2. Dəmiryol xətti, rels. Qatarlar işıqla salınır yola.

3. Səfər, səyahət. Gedin dostlar! Uğur olsun yollarınıza.

□ Yol üstə olmaq – səfər ərəfəsində olmaq,səfərə hazır-

laşmaq. Qoca Zərdüşt; Gecə keçir, yol üstəyəm mən.

4. İnkişaf xətti. Bir çox döyüşdən çıxdı, qayıtmadı yolundan.

□ Yolu azmaq (itirmək) – yolu tapmamaq. Qaranlıqlar çökən zaman düz yolumu azardım. O qaranlıq gecədə mən itirdim yolumu. // *məc.* İmkan. Qaçdı İbrahim xan, açıldı yollar.

5. Bir şeyi əldə etmək üçün üsul, vasitə, vəsait. O dünya hərbinə yollar aradın.

6. *məc.* Dəfə, kərə. Yüz yol canımıza o and içərək…

7. Yolunda şəklində – uğrunda, üçün, naminə. Ya da öz canını onun yolunda; Odlara ataydın.

◊ Yol açmaq – hər hansı bir yenilik sahəsində birinci olmaq; // Təşəbbüsçü olmaq, nümunə olmaq, yol göstərmək. Yol aç, oğlum yol aç elmin, düşüncənin gözünə sən. Yol vermək – *məc.* Yol verir qəlbinin dərinliyinə. Yol göstərmək – istiqamətləndirmək, məsləhət vermək. Vəziyyət xarabdır, yol göstər mənə! Yol tutmaq – bir tərəfə istiqamət götürmək, getməyə başlamaq. Yol tutub, qaralar bağlamasınlar. Yola düzəlmək – yola düşmək (ayaqla). Alıb silahını düzəldi yola… Yola düşmək – getmək, hərəkət etmək. Əsgər artıq yola düşdü. Yola salmaq – səfərə çıxanı müəyyən yerə qədər ötürmək, müşayiət etmək. Elçilər gözləyir tez yola salın! Hər yoldan ötən – hər kəs, hər adam. Mənə həcv yazır hər yoldan ötən… Yolu düşmək – təsadüfən gəlmək, getmək, bir yerdə olmaq. De yolun düşdümü Muğan düzünə? Yolunu kəsmək – maneçilik törətmək, mane olmaq, əngəl törətmək. Gəlib quldur kimi kəsir yolunu. Yolundan saxlamaq – söhbətə tutub gecikdirmək. Bağışla saxladım yolundan səni.

**Yolçu**, *is.* Yola,səfərə çıxmış adam, yol gedən adam. Yolçu, yolçu, uğur olsun! Hara belə? – Kimsiniz? – Yolçuyuq! - Tərpənməyiniz!

**Yoldaş**, *is.* 1. Görüş ümumiliyi, iş yaxud həyat şəraiti və s. cəhətdən birinə yaxın olan adam; arxadaş, dost, rəfiq. Bizim zəhmət dünyasının iki yoldaşı. Oğlum, oğlum! Kimə yoldaş

olsan əzəldən…

2. Müraciət formasında. Dostlar. Yoldaşlar! Yarışdıq Sarvan ilə mən.

**Yollanmaq**, *f.* Yola düşüb getmək, bir səmtə istiqamət almaq. Səhərdir, məktəbə yollanır Xumar; Yanında bir yığın yoldaşı da var.

**Yollu**, *sif.* Yolu olan. …Uzun yollu; Neçə qollu; Axar göllü.

**Yolmaq**, *f.* Dartıb qoparmaq, çəkib qoparmaq. Saxlamış sarayda o qızı bir qış; Qız yolub saçını, təslim olmamış.

**Yonca**, *is.* (*bot.*). Paxlalılar ailəsinə mənsub üç qovuşuq yarpaq şəklində yem bitkisi (ot). Yuyub şoranları yonca əkirəm.

**Yondurmaq**, *icb.* Yonma işi gördürmək. Ağ mərmərdən yondurduğu məzar daşında..

**Yonmaq**, *f.* Daşdan və s.-dən yonmaq yolu ilə hazırlamaq. Daş yolnub, qum yığan qoca bir usta…

**Yorğan**, *is.* Yatanda örtünmək üçün içi yunlu və pambıqlı geniş örtü. Çəkdik başımıza qalın yorğanı; Dərin bir yuxuya getdik hamımız.

**Yorğanüzü**, *is.* Yorğanın üzünə çəkilən adi və ya naxışlı parça. [Eloğlu:] Anam öz cehizi yorğanüzündən…

**Yorğun**, *sif.* Çox işləmək, yerimək, hərəkət etmək və digər fəaliyyət nəticəsində yorulmuş, üzgün düşmüş. [Mahnigar:] Görünür, yenə yorğunsan.

**Yorğun-arğın**, *sif.* Çox yorulmuş. Yorğun-arğın insanlar işdən sonra; Yığışmışdı divarları daş aynalı bir salona.

3. <u>Yoldaşı, yoldaşım</u> şəklində (*dan.*) – arvadı (əri), arvadım (ərim). Onun bayrağını yoldaşı alır. ☐ <u>Ömür yoldaşı</u> – 1) həyat yoldaşı, ər, arvad. …Dedim ömür yoldaşıma.. 2) *məc.* həmişəlik bir yerdə olan. Ey ürək! Ey ömür yoldaşım.

4. Vətəndaş, adam. Gedən yoldaşların sayı altıdır. // Eyni mənada belə şəxsin soyadı, adı, vəzifəsi qabağında, ya onlardan sonra. [Səhər:] Hörmətin çox olsun, filosof yoldaş.

**Yorulmaq**, *f.* Çox işləmək, çalışmaq, hərəkət etmək və s.

fəaliyyət nəticəsində yorğunluq hiss etmək. Yox… yox! Yorulmayır onun qolları. // Təngə gəlmək, bıqmaq, usanmaq, bezmək. Bəsdir! Vuruşmaqdan yorulduq daha.

**Yorulmaz**, *sif.* Yorulmaq bilməyən,yorulmayan hər qartalın bir yorulmaz qanadı var.

**Yosma**, *sif.* (*şair.*). Zərif, incə, işvəli, işvəkar, nazənin. İpəklər içində xumarlandıqca; Yosma gözəllərə dastanlar dedin.

**Yovşan**, *is.* (*bot.*). Mürəkkəbçiçəklilər fəsiləsindən kəskin qoxulu ot və yarımkol bitki. …qarağat, yovşan yerinə; Çinarlar boy atdı.

**Yön**, *is.* Üz, üz ərəf, ön tərəf. Yönünü döndərib qibləyə qarşı.

**Yöndəmsiz**, *sif.* Qaba, kobud, biçimsiz, səliqəsiz, tənasübsüz. Gecələri banditlərə güllə daşıyan; O yöndəmsiz Qulunu.

**Yönəlmək**, *f.* Bir tərəfə istiqamət alıb getmək, üz tutub getmək, istiqamət almaq. Ortadan birini keçib yönəldi.

**Yubiley**, *is.* Bir hadisənin yaxud bir şəxsin fəaliyyətinin və s.-nin təntənəli surətdə qeyd edilən ildönümü. …şer yazır yubileyinə sənin.

**Yuxarı**. Yuxarıdan baxmaq – bəyənməmək, xor baxmaq, həqarətlə baxmaq, saymamaq. Əlifxansa yuxarıdan baxdı hər kəsə.

**Yuxu**, *is.* 1. Dövraşırı yatmaq şəklində davam edən fizioloji hal. Deyirlər ki, şirin yuxu gözəl şeydir.

☐ Yuxuya vermək – 1) yuxulatmağa çalışmaq, gözü yuxuya gedincə gözləmək. Uzan, qardaş, yuxuya get, bir azca dincəl; 2) *məc.* yuxulatmaq, aldatmaq. Hərifi bir təhər yuxuya verib… Yuxuya getmək – mürgüləyərək yatmaq, yuxulamaq. Sonra şirin-şirin yuxuya gedir. Yuxusu qaçmaq – hər hansı bir səbəb üzündən yaxud səbəbsiz yuxusu pozulmaq. Qaçdı yuxumuz… Yuxusu gəlmək – yuxulamaq, yatmaq ehtiyacı hiss etmək. Nə də ki, gecələr yuxusu gəlir. Yuxusunu almaq – yatıb dincəlmək, doyunca yatmaq. Uşaq yuxusunu alacaq indi. Yuxusunu harama qatmaq - yuxusu-

nun pozulmasına səbəb olmaq. Bütün yuxumuzu harama qatdı… Gözlərinə yuxu gəlmək – yuxulamaq. Yorğun gözlərinə bir yuxu gəldi. Gözlərinə yuxu getməmək – yuxulaya bilməmək, yata bilməmək. Qızın gözlərinə yuxu getməyir. Gözündən yuxu çəkilmək – yata bilməmək. Gözümün yuxusu çəkilir…

2. Yuxugörmə, yuxuda görülən şey, röya. Ya şeyx, bir tədbir tök mənim yuxuma! □ Yuxusuna girmək – bir şeyi yuxuda görmək. Yuxuna girsin! // Qeyri-real, xəyali, gerçək olmayan bir şey haqqında. Yuxumda görmüşəm səni gecələr.

◊ Yuxu kimi (gəlmək, keçmək) – tamamilə unudulmuş bir şey, hadisə haqqında. Ömrü, günü gəlib keçir, yuxu kimi.

**Yuxulamaq**, *f.* Yuxuya getmək; yatmaq, uyumaq. Atam yuxulardı tər tökə-tökə..

**Yuxulu**, *sif.* və *z.* Yatmış halda (olan) yaxud yatmış halda ikən. // Obrazlı təşbehlərdə. Gecədir… kənd yuxulu; Nə işıq var, nə tüstü.

**Yuxusuz**, *sif.* Yatmadan keçirilən, uyğusuz. Yuxusuz gecələr çıxdı qarşıma; Fəqət döyüşmədi bu polad sinəm. // *z.* Kimdir gecələr yuxusuz qalan; Səhvlər buraxan, töhmətlər alan.

**Yuxusuz**, *is.* Uymama, yuxusu olmama; uyğusuzluq. Bəlkə əsiridir yuxusuzluğun…

**Yumaq[1]**, *f.* 1. Su və ya su və sabun, yaxud başqa bir maye ilə təmizləmək. Yuyub qurudun; ..əynindəki tərli köynəyi; Qağayılar sahil boyu əl-üzünü yuyanda.

2. Toxunaraq ağarmaq, dağıtmaq. Yuyurdu tozları kükrəmiş sellər…

**Yumaq[2]**, *is.* Top kimi sarılmış sap, ip və s.

◊ Yumağa dönmək – büzüşmək, kiçilmək. O, kinindən büzüşdükcə bir yumağa dönür bəzən.

**Yummaq**, *f.* Qapamaq, örtmək. Həyata, hər şeyə yumdu gözünü.

**Yumruq**, *is.* 1. Yumulmuş əl, əlin yumulmuş vəziyyəti.

Üstündəki o yumruq; Üsyanın simvoludur.

2. Bu vəziyyətdə olan əl ilə vurulan zərbə. Yumruq əzəcəkdir sənin donuz burnunu. □ Yumruğa tutmaq - yumruqlamaq, yumruqla vurmaq (döymək). O səni yumruğa, qapaza tutdu.

**Yumşalmaq**, *f.* Mülayimləşmək; hirsi, acığı, qəzəbi, hiddəti, hirsi soyumaq. [Vəzir:] Qoy atılıb düşsün sonra yumşalar.

**Yumuq**, *sif.* Yumulmuş vəziyyətdə olan, yumulu, qapalı. Yumuq gözlərini aç da, bir oyan; İndi zaman başqa zamandır, ana!

**Yumurta**. Quşların, tısbağaların və s.-yumurtlayan heyvanların qabıqla örtülü hüceyrəsi. Çil toyuğun tək yumurtası.

**Yumurtalamaq**, *f.* Yumurta vermək, yumurta çıxarmaq. Bir fındıq boydaca yumurtalamışdır.

**Yun**, *is.* Heyvandan (adətən qoyundan, dəvədən və s.) qırxılan tük. …yun başlıq göndərirəm…

**Yunan**, *is.* Yunanıstanın əsas əhalisini təşkil edən xalq və bu xalqa mənsub adam. …mağar oğlu, yunan qızı…

**Yurd**, *is.* 1. İnsanın doğulub böyüdüyü yer, məmləkət; ölkə, vətən. [Banu:] Bütün yurdumuza şöhrətdir o qız.

2. Yaşayış, ev-eşik, məskən. Yaşamağa nə yerim, nə yurdum vardır.

□ Yurd salmaq – oturmaq, sakin olmaq. Bir ağac altında bir parça torpaq; Ayır ki, yurd salım kölgəsində mən. // Yaşayış məntəqəsi; kənd, el, oba. Ocaqlı, tüstülü, şənlikli yurdlar.

3. *məc.* Bir şeyin çox olduğu yer. Qatillər, casuslar yurdu bu bina.

**Yurdlamaq**, *f.* Özünə yurd düzəltmək, yuva qurmaq. Nə gördüm? Samanda o yurdlamışdır; Bir fındıq boydaca yumurtlamışdır.

**Yurdsuz**, *sif.* Yurdu, evi, məskəni olmayan, evsiz-eşiksiz, ev-eşiyindən, yurdundan məhrum olmuş. Çoxaldı qarnaçıq və yurdsuz yavruların sayı // Vətənsiz. Vətən! Qoynunda

bəslənmiş əməllər, arzular, şəksiz; Vətənsiz, yurdsuz insanlar yaşar aləmdə məsləksiz // Sahibsiz, kimsəsiz. Ey! Siz! Yurdsuz və kimsəsiz..

**Yurd-yuva**, *is.* Ev-eşik, ev, məskən. □ Yurd-yuva salmaq – yaşamaq üçün şərait düzəltmək, ev-eşik düzəltmək. Qış günü evlərdə yurd-yuva salır.

**Yuva**, *is.* 1. Quşların yumurtlayıb bala çıxarmaq və onları saxlayıb böyütmək üçün çöp-çöpdən və s.-dən düzəltdikləri yer. Qayalar döşündə qartal yuvası… // Heyvanların və cücülərin düzəltdikləri yer, məskən. Ətrafı taladır, ceyran yuvası. Baharın eşqilə çıxır yuvadan; Balası dalında qarışqalar da.

2.*məc.* Ev, məskən, ev-ocaq mənasında. Anan vərəmlədi yoxsul yuvada. □ Yuva salmaq – 1) yurd salmaq, məskən salmaq, yaşamaq üçün şərait yaratmaq; özünə yer düzəltmək. Üç dəfə qaçmışam qarlı Sibirdən; Bizim meşələrdə salmışam yuva… 2) *məc.* yer tutmaq, yaşamağa başlamaq. Hər zəfər şeirinin səadət səsi; Onun ürəyində yuva salardı. Yuva qurmaq – *bax* yuva salmaq 1. Sən də ev tik, bir yuva qur.

3. *məc.* Yurd, Vətən mənasında. Sən ey igid mədən torpağından qüvvət alıb gülən diyar; İgid ərlər meydanısan, qəhrəmanlar yuvasısan.

4. *məc.* Bir şeyin çox olduğu yer (*həm müsbət, həm də mənfi mənalarda*). İgid ərlər meydanısan, qəhrəmanlar yuvasısan; Fitnələr yuvası Vaşinqtona…

**Yuvacıq**, «Yuva»dan oxş. və kiç. Hey gedirəm durmadan; Bir yuvacıq qurmadan.

**Yuvarlanmaq**, *qayıd.* Yuvarlana-yuvarlana düşmək, deyirlənə-diyirlənə getmək, gedib düşmək. Yuvarlanıb atından; Yerə dəydi komandan.

**Yuvasız**, *sif. məc.* Yurdsuz, mənzilsiz, evsiz-eşiksiz; avara, sərgərdan. Yurdsuz və yuvasız yolçu kimi…

**Yuyunmaq**, *qayıd. məc.* İslanmaq; nəmlənmək. Aynabənd evlərin eyvanı; Yuyunur qoynunda al şəfəqlərin.

**Yük**, *is.* 1. Daşınmaq, aparılmaq üçün hər şey, daşınmalı

olan mal və s. Çiynində yük daşıyan.

2. *məc.* Ağır vəzifə, məsuliyyətli iş; məsuliyyət. Ömrə yük olmayır vaxt ağır-ağır…

**Yüksək**, *sif.* 1. Adi səviyyədən yuxarı. Yüksəyə qalxdıqca sinəm qabarır.

2. Qeyri-adi məzmunlu, böyük, ali. Xəyalı yüksəkdir, qəlbi ləkəsiz.

3. Keyfiyyətcə yaxşı. Mənim sarayımdır yüksək əməllər!

**Yüksəliş**, *is.* İnkişaf prosesində irəliyə, yaxşılaşmağa doğru hərəkət; yüksəlmə, irəliləmə, tərəqqi, inkişaf. Dünyada hər könül yüksəliş arar; Varlığın nə ilki, nə axırı var.

**Yüksəlmək**, *f.* 1. Artmaq, şiddətlənmək, qalxmaq. Qayalı dağlardan duman yüksəlir.

2. Hörməti, nüfuzu, mövqeyi, qiyməti, dəyəri artmaq; tanınmaq, şöhrətlənmək. Dedi: - Az-az görünməyim nədən sizə ağır gəlir? Dedim: - Çünki bu dünyada gözəlliklə söz yüksəlir.

3. Eşidilmək, gəlmək, qalxmaq *(səs haqqında)*. Yüksələr tar səsi hər eyvanından.

**Yükü**, *sif.* Yük vurulmuş, yüklənmiş, yükü olan. Hanı zınqırovlu yüklü karvanlar?

2. Bir şeylə yüklənmiş, üzərində, əllərində ya dalında bir şey olan. Biləklər çirməkli, döşlər önlüklü; Hamısı torbalı, hamısı yüklü.

**Yüngül**, *sif. məc.* Səthi, qeyri-ciddi. // Adam, hərəkət, xasiyyət haqqında. Onu söyləməyə gəlmişəm sizə; Yüngül (*z.*) görünməyim gözlərinizə.

**Yürümək**, *f.* 1. Yerimək, ayaqlarını işə salaraq hərəkət etmək; addımlamaq. Ordumuz yürüyüb ellər keçəndə; Tarixə dastanlar yazılır bu gün.

2. Hərəkət etmək. Yürüyürkən parovozlar irəli; Daşınır zəhmətimin meyvələri.

**Yürüş**, *is.* İrəliyə doğru hərəkət; yerimə. Ağır karvan yürüşü ilə dalğalanır insanlar; Həm də qızlar-oğlanlar.

2. Hücum, axın, hərbi əməliyyat. Bu əsgər, bu yürüş, bu

hündürboy at…

**Yüy(ü)rək**, *sif.* Bərk qaçan; itigedən, qaçağan. Kimin atı hamısından yüyrək olsa; Ağ kəlağay bağlanacaq yalmanına.

**Yüyən**, *is.* Atın başına keçirilən gəm və cilovdan ibarət qoşqu ləvazimatı. Yəhəri.. yüyəni boyandı qana…

**Yüyürmək**, *f.* Qaçmaq, qaçaraq getmək, bərk getmək. Başqa bir qapıya yüyürür Humay.

**Yüz**, *say.* Doxsan doqquzdan sonra gələn rəqəm – 100. Məşəl ilə yol açaram yüz təbəqədən.

2. Qeyri-müəyyən çox miqdar mənasında. Yüz illər keçsə də unutmaz ürək.

◊ Yüz qat – çox. Çünki milyonlardan yüz qat azsınız. Yüz yol – çox, çoxlu. Yüz qat canımıza; O and içərək.

**Yüzillik**, *sif.* Yüz il davam edən, bir əsrlik. Yüzillik bir palıd uçur kökündən. Yüzillik bir ömür boyu yazsa qələm; Camalından ilham alır bütün aləm.

**Yüzlərlə**, *sif.* Bir şeyin sayca çox olduğunu bildirir; yüzlərcə. Burda yazılmışdır yüzlərlə əsər.

**Yüz-yüz**, yüzlərlə, yüzlərcə sayılacaq qədər çox. Bayram günü yüz-yüz olub keçir qatarla.

# Z

**Zabit**, *is.* [ər.] Orduda və donanmada komanda heyətinə mənsub şəxs. Kimlər ola.. generallar, zabitlər?

**Zabul**, *is.* [*fars.*] Muğamatlardan birinin adı. [Mahnigar:] Nə də tar siminin zabul səsi var.

**Zağ-zağ**: Zağ-zağ əsmək (titrəmək) – bərk qorxmaq, qorxudan titrəmək. Bütün məclisdə heyrət var, ürəklər titrəyir zağ-zağ. // Eyni mənada bəzən «qorxudan», «əlindən» sözləri ilə. Zağ-zağ əsir aynabəndlər, gen pəncərələr.

**Zahid**, *is.* [ər.] Dünyanın zövq və nemətlərindən əl çəkib vaxtını ibadətlə keçirən dindar adam. Zahid kimi könül verdi bir guşəyə.

**Zahirən**, *z.* [ər.] Xarici görünüşünə, görkəminə görə, xa-

ricən, üzdən. Çox gözəl olsa da zahirən insan.

**Zalım**, *sif.* və *is.* [ər. zalim] Zülm edən, zülmkar, qəddar mərhəmətsiz, insafsız. Bu yurda qoymayaq zalım Qacarı.

**Zaman**, *is.* [ər. zəman] 1. Vaxt, müddət. Deyib danışmayır xeyli zamandır. // Adətən feillərdən sonra – bir hadisənin, işin baş verdiyi və ya baş vermiş olduğu vaxtı, anı bildirir. [Vəzir:] Nolacaq? Anan; Bizans torpağına qayıdan zaman; Göz yaşı tökürdü. // Zəmanə, dövr, vaxt. Zaman yaşa doldu, biz yaşa dolduq.

2. Fəlsəfədə: sonsuz inkişaf edən materiyanın vaxtın davamı və ardıcıllığında təzahür edən ümumi obyektiv varlıq forması. [Şahbaz:] Odur ki, daima zaman və məkan.

◊ Bir zaman – 1) bir vaxt. Bir zaman Marsa da yol gedəcəkdir; 2) az müddət, bir müddət, bir qədər vaxt. Bir zaman havada qanad saxlayın. Hər zaman – daim, həmişə, hər vaxt. Savab gör, hər zaman yaxşılıq elə. Çox zaman – çox vaxt, tez-tez. Çox zaman uyuruq alqışlara biz..

**Zaman-zaman**, *z.* Hərdən, gah-gah, torpağın can yanğıları; Soyuduqca zaman-zaman. Onun aqil məsləhəti zaman-zaman; Yol göstərdi hökmdarlar dünyasına.

**Zanbaq**, *is.* [ər.] (*bot.*). Soğanaqlı, zəngəoxşar, ətirli çiçək. Açır piyalə tək ağzını zanbaq.

**Zarafat**, *is.* [ər. zərafət] Gülmək, əylənmək və dilxoşluq üçün deyilən söz və ya edilən hərəkət; hənək. Zarafatdır, hər məhlənin, hər nəslin; O medanda öz qeyrəti. Öz adı var. □ Zarafat deyil – ciddi məsələdəir, əhəmiyyətli məsələdir. Mən, zarafat deyil, ey sevdiciyim, can yaxıram.

**Zarımaq**, *f.* 1. Zarıldamaq, şiddətli həyəcan, ağrı, əziyyət və s. təsirindən zarıltı səsi çıxarmaq; inildəmək. Sən uğursuz bir güllənin ağrısından; Zarıyırsan pələng kimi, sinən yaralı.

2. Zar-zar ağlamaq. Gəlinlər, qızlar; Əlləri qoynunda zarıyır, sızlar.

**Zaval**, *is.* [ər. zəvval] Ziyan, zərər, fəlakət, afət // Bəla, müsibət, xətər, qorxu. Bir zəfər sözü var, bir də ki zaval! Atını dördnala sürdükcə zaval.

◊ Zavala düşmək – bədbəxtliyə uğramaq, bədbəxt olmaq. Ömrümün ilk günü zavala düşdü.

**Zavallı**, *sif.* Acınacaqlı halda olan, yazıq, biçarə, başıbəlalı, bədbəxt. Çünki tələb edir zavallı bəşər.. Çox ağlama zavallı quş! // *is.* mənasında. Bir müjdə gəlməyir o zavallıya.

**Zavod** [*rus.*] İri sənaye müəssisəsi. Dağlar, daşlar titrəyəcək zavodların nərəsindən…

**Zay** [ər. «zaye»dən] Heç, puç; tələf olmuş, korlanmış, puç olmuş, hədər olmuş. □ Zaya getmək (çıxmaq, dönmək) – hədər yerə məhv olmaq, puç olmaq, hədər getmək. Tökdüyün qanlar getməsin zaya; Çıxın bu qarışıq imtahanlardan.

**Zehin**, *is.* [ər. zehn] İnsanda düşünmə, anlama və yaddaş qabiliyyəti; dərrakə istedad. Ancaq onun yaranışdan bir zehni vardı. // Hafizə, yaddaş, xatirə. Zehin, düşüncənin şüarlarıdır.

**Zədələnmək**, *f.* Bir şeyə toxunmaq və ya bir şeyə dəymək nəticəsində bir yeri əzilmək, zədə dəymək, zədə əmələ gəlmək, yaralanmaq, şikəst olmaq. Bəlkə zədələndi o dərdiyim gül.

**Zədəli**, *sif.* Zədəsi olan, zədə dəymiş; əzik. Könüllər zədəli və hicranlıdır.

**Zəfər**, *is.* [ər.] (*tənt.*). Qalibiyyət, qələbə. Elin zəfərindən mənfəət uman; Boyansın, demişəm, al qana, dağlar! □ Zəfər çalmaq (qazanmaq) – qalib gəlmək, qələbə çalmaq. Zəfər çalır, qalib çıxır vuruşmalardan.

**Zəfəranlı**, *sif.* Zəfəran qatılmış, tərkibində zəfəran olan. – Üstü zəfəranlı bir plov yeyək; Bu günün eşqinə mahnılar deyək.

**Zəhər**, *is.* [*fars.* zəhr] ağı // *məc.* Acı. Zəhərdir bu şirin dünyanın sonu.

**Zəhərləmək**, *f.* 1. Acılamaq, zəhərlə təsir etmək, zəhər vermək, zəhər içirmək, zəhər verib öldürmək, zəhərli maddələrlə öldürmək, qırmaq. Zəhərlədi o gözəl qızı; Həyatın pozulmuş bir əxlaqsızı.

2. *məc.* Korlamaq, xarab etmək, pozmaq, çox pis təsir

etmək. Orda zəhərlədi bir nəfəs məni.

**Zəhərlənmək**, *f.* Bədənə zəhərli bir şey daxil olmaq nəticəsində xəstələnmək ya ölmək. Havada mığmığa sancır insanı; Dönüb zəhərlənir insanın qanı.

**Zəhərli**, *sif.* Tərkibində zəhər maddəsi olan, zəhər qatılmış, zəhər vurulmuş. Of… bu şəhər bir bəla; Ruha bir zəhərli su…

**Zəhmət**, *is.* [ər.] 1. Əmək. Bu günün qayəsi çünki zəhmətdir.

2. Əziyyət, rahatsız, narahatlıq. …Sənə zəhmət olar… □ Zəhmət çək(in) – xahişlə birinə müraciət (bəzən kinayə) ilə deyilir. Qapıçı, qapıçı bura zəhmət çək; Özünlə bir az da su gətir içək. – Gəray bəy, gecədir… zəhmət çəkin siz… Zəhmət çəkmək – əziyyətə düşmək, narahat olmaq. Zəhmət çəkib bu diyarə… gəlsin! Zəhməti itmək – əməyi itmək, çəkilmək əziyyətin faydası, xeyiri olmamaq. Mənim ara yerdə zəhmətim itdi.

**Zəhmətkeş** [ər. zəhmət və *fars.* …keş] Zəhmətsevən, əməksevən adam. Azəri yurdunun zəhmətkeş oğlu.

**Zəhr**, (*klas*). *Bax* zəhər. Qaralan zəhrimi birdən soracaq.

**Zəhri-xəndə**, *is.* [*fars.*] Zəhərli gülüş, acı gülüş. Bəlkə sayılardım o gün bəxtiyar; Vicdanım yaxan bu zəhri-xəndə…

**Zəhrimar**, *is.* [*fars.*] Əsil mənası «ilan zəhəri» olub, aşağıdakı mənalarda işlənir: 1) zəhər, çox acı şey mənasında. Yediyim, içdiyim zəhrimar oldu. // Söyüş məqamında. Zəhrimar! Elə bil gizlənib qəsdən.

2. Çox pis, mənfur, xoşagəlməz şey haqqında deyilir. Zəhrimar qoxuyur onun havası.

**Zəif**, *sif.* [ər.] 1. Cismən az qüvvətli, gücsüz. Zəif adam. Zəif qanadlarçün, bil ki, yoxuşdur. Yolunu gözləyən zəif gözlərim.

2. Təsirsiz, təsiri olmayan, təsiri və gücü az olan. Nasıl izah etsin bir zəif qələm?

3. Qüvvəsi, gərginlik gücü, fəaliyyət gücü az olan. Azmı işıq verir o zəif fanar…

4. Az, əhəmiyyətsiz, kifayətsiz, pis, zəif qabiliyyət. Qulağı zəiv (z) eşidir – neyləyim, qüdrətim zəifdir hələ; Görüm təbiətin kor olsun gözü.

**Zəlalət**, *is.* [ər.] Zillət, əzab və əziyyət, çətinlik, möhnət. Məhəbbət uğrunda zəlalətim var.

**Zəlil**, *sif.* [ər.] Zəlalətə düşmüş; yazıq, bədbəxt, həqir, fəqir, xar. Sənsiz (zəfərsiz) zəlil yaşa ana torpağın.

**Zəlzələ**, *is.* [ər.] Yer qabığının bəzi sahələrinin vulkanik və ya tektonik proseslər üzündən güclü titrəməsi; yer sarsıntısı. Bir zəlzələ qopdu o gün; Hər könülün otağından.

**Zəmi**, *is.* [*fars.*] Əkin yeri, tarla. Taxıl zəmisi. Hər zəmidə qurulduqca yüz taya; Dağa dönür Qızxanımın ürəyi. Buğda zəmiləri qoşa-qoşadır.

**Zənci**, *is.* [ər.] Tropik Afrikanın, dərisi tünd-qara rəngdə olan yerli əhalisi və bu əhaliyə mənsub adam. Zəncirdəki zənci deməzdi bunu!

**Zəncir**, *is.* [*fars.*] Bir-birinə keçmiş halqalardan ibarət dəmir bağ; silsilə. Halqalı zəncirlərin qırıldığı bir zaman…

2. Buxov, qandal. O gəmirir zəncirini qəfəsdəki pələng kimi.

3. *məc.* Əsarət, zülm, məhkumluq rəmzi. Torpağımda nə zəncir var, nə də zindan.

◊ Zəncir kimi – bir-birinin ardınca, silsilə şəklində. Atlı kazak zəncir kimi məzarlığı dolanır. Zəncirdən qurtarmaq – əsarətdən, zülmdən qurtarmaq, azadlıq əldə etmək. Yaşıllıq çağırsın hər qəlbin neyi; Qurtaraq zəncirdən Prometeyi!..

**Zəncirlənmək**, *məch.* Zəncirlə bağlanmaq, zəncir vurulmaq; bağlanmaq. Dar meydanda aslanın da zəncirlənər əl-ayağı.

**Zəncirli**, *sif.* 1. Zəncirlə bağlanmış, zəncir vurulmuş. Zəncirli bir pələng kimi deyindikcə hər ürək. // Əl-ayağında zəncir olan. Zəncirli dustaq – sənin yaratdığın zəncirli qullar; Ağzını bir dəfə açıb gülmədi.

2. *məc.* Əl-ayağı bağlı, əsir edilmiş, müti. Zəncirlidir qoca qartal; Qanadları qəfəsdədir.

**Zəncirsiz**, *sif.* Zəncir vurulmayan. Azad kamal deyir! Zəncirsiz ürək.

**Zəng**, *is.* 1. Vurulduqda xüsusi səs çıxrmaq üçün içərisində metal dili olan, ağzıgen, kəsik konusşəkilli mis, ya mis ərintisindən qayrılmış alət. Uzaqda çalınan gəlirsə zəngi.

2. Səs siqnalı vermək üçün metalcığaz. Saatları xəbər verir Kərimin zəng səsi.

3. Bu alət vasitəsilə çıxarılan səs siqnalı. – Gündə yüz zəng olur: göndərhagöndər.

**Zəngin**, *sif.* 1. Çoxlu mal-dövləti, sərvəti, maddi vəsaiti olan, çox varlı. Bu torpaq, bu hava, bu zəngin vətən. // Eyni mənada adam haqqında. Fəqət, sən ey zənginlərin böyüklərin yavrusu…

2. Çox qəşəng, çox gözəl, möhtəşəm, dəbdəbəli, təmtəraqlı, cah-cəlallı. Qarabağ… Şuşada zəngin bir saray…

**Zənn**, *is.* [ər.] Kafi dəlil üzərində əsaslanmayan ehtimal güman, qeyri-qəti fikir. ☐ Zənn etmək (eləmək) – güman etmək, ehtimal etmək, düşünmək. Onlar elə zənn edir ki, gözəllik bir oyuncaqdır.

**Zəqqum**, *is.* [ər.] Acı meyvəsi olan bir cins ağac; acıağacı. // bu ağacın meyvəsi. // *məc.* Çox acı şey haqqında. Həyat bir zəqqum kimi görünürdü o xana.

**Zər**, *is.* [*fars.*] (*klas.*) 1. Qızıl suyu yaxud qızılı toz. O zər yazı bir rəssamdan yadigardır.

2. Zərli ipəkdən toxunmuş parlaq və şax ipək parça. Sındı beli…; Zər baftalı paqonların…

**Zərbə**, *is.* [ər.] Qolaylayaraq bir şeylə şiddətlə vurma; vuruş. Zərbələri böyük vur! ☐ Zərbə vurmaq (endirmək) – bir şeydə bərk vurmaq. Əminəm, vurduğum bu sonku zərbə; Əyəcək yüksələn o qanadları!..

**Zərbəçi**, *sif.* Zərbəçiliklə əlaqədar olan; qabaqcıl. Sizi yaşadır bu gün bolşevik və zərbəçi briqadalar… // *is.* mənasında. Pəhləvandır bu qəhrəman, zərbəçidir öz adı; İçlərində baş qaldırıb şahin kimi sıçradı.

**Zərəfşan**, *sif.* [*fars.*] (*klas., şair.*). Qızıl səpən, qızıl saçan.

..Zülfü zərəfşan gəlin.

**Zərər**, *is.* [ər.] Ziyan. Bunun xeyri var ki, zərəri yoxdur; Gülməli insanlar həyatda çoxdur. □ Zərər çəkmək – zərər etmək, maddi itki vermək, zərərə məruz qalmaq, ziyan çəkmək. [Xosrov:] Zərər çəkməmişəm məsləhətindən.

**Zərərçi**, *is.* Ziyançı, pislik edən, dövlətə, xalqa ziyan vuran. Gərək ölsün zərərçilər!

**Zərgər**, *is.* [*fars.*] Qızıldan, gümüşdən bəzək şeyləri qayıran usta. …Zər qədrini zərgər bilər!

**Zərif**, *sif.* [ər.] İncə. [Amaliya:] Zərif yaratmışdır bizi təbiət.

**Zərifnaxışlı**, *sif.* İncənaxışlı, naxışları incə, zərif, gözəl, parlaq. Türbənin üstündə zərifnaxışlı; Aypara şəklində bir daş ucalmış.

**Zərif-zərif**, *z.* İncə-incə. Hələ baxın, zərif-zərif o cizgilər; Nə həssasdır nə mahirdir insan əli!

**Zərqanadlı**, *sif.* Sarı rəngli qanadı olan; sarıqanadlı. Zərqanadlı paqonları sonsuz şöhrətinə uyan dünya. // *məc.* Qarşı dağın göbəyində zərqanadlı bir pəri.

**Zərpaqonlu** *sif.* Paqonları zərdən olan. Çiyni zərpaqonlu şahların.. əlində inlədi Şərq.

**Zərrə**, *is.*_[ər.] Bir şeyin ən kiçik hissəsi. Hər kiçik zərrədə bir ümman axtar. □ Bir zərrə – bir az, çox cüzi miqdar. Kiçik bir zərrədən ilham alanda!

**Zərrəcə**, *z.* Zərrə qədər də olsa, az da olmuş olsa; heç, əsla, qətiyyən. ..İnsanın , zərrəcə əsər etməyir.

**Zərrəcik**, *is.* Ən kiçik zərrə; zərrənin ən kiçicik, ən xırda hissəciyi. Bir zərrəcik gəlib dönür bir ümmana.

**Zər-ziba**, *is.* [*fars.*] Bərbəzəkli paltar, bahalı parça. Oğurluq pul ilə zər-ziba geyən..

**Zəvvar**, *is.* [ər. züvvar] Ziyarət edən, ziyarətə gələn, yaxud ziyarətdən qayıdan şəxs; ziyarətçi. // Poetik dildə *məc.* Zəvvarın olmuşdur, ay da, ulduz da; Göydəki mələk də, yerdəki qız da. [Zülmət:] Mənim eşqim, mənim qayəm sənin zəvvarın olmaqdır.

**Zınqırov**, *is.* Heyvanların boynuna, dəfin sağanağına taxılan xırda zəng, qumrov. Zınqırov da asıblar kəlləsindən.

**Zınqırovlu**, *sif.* Zınqırov asılmış, zınqırovu olan. Zınqırovlu dəvə. Keçdi… Zınqırovlu dəvələr… Bizim qala qapılardan azmı keçmiş; Zınqırovlu, yüklü dəvə karvanları.

**Zidd**, *sif.* [ər.] Tamamilə başqasına əks olan, onunla qətiyyən düz gəlməyən. Qanuna zidd olan nə var ki, burda? □ Zidd getmək – əleyhinə çıxmaq, əksini demək, qarşı durmaq, müxalif olmaq. Düz sözün, haqq fikrin ziddinə gedən… Zidd çıxmaq – əleyhinə (əksinə çıxmaq) zidd çıxmaq olarmı xanın sözünə?

**Zil**, *is.* [*fars.*] *əd.* Tünd, lap, çox, tamamilə (adətən «qara» və «qaranlıq» sözlərində işlənib, onların mənalarını şiddətləndirir). Uçardı göylərə zil baxışları. Ortalıq; Zil qaranlıq.

**Zilləmək**, *f.* Gözlərini bir nöqtəyə dikmək, kirpiklərini qırpmadan diqqətlə bir nöqtəyə baxmaq (çox vaxt «gözlərini» sözü ilə). Gözümü zillədim gözünə…

**Zillət**, *is.* [ər.] Çətinlik, ağır şərait, pis vəziyyət, ağır maddi ehtiyac, yoxsulluq, məşəqqət, üsrət. Bilməyəcəksiniz nə dərd, nə zillət; Aşıb-daşacaqdır sizinçin dövlət.

**Zimistan**, *is.* [*fars.*] (*şair.*). Qış, qış fəsli. Gözündə ilk bahar zimistan olur.

**Zindan**[1], *is.* [*fars.*] Keçmiş zamanlardan: qaranlıq və müdhiş dustaqxana (adətən yerin altında olardı). Tələlər zindanlar, qorxunc diləklər; Üfüqümdə məbud bir boşluq bəklər // Ümumiyyətlə həbsxana, həbs, dustaqxana. Nə bir dustaq, nə bir zindan; Qalmasın bir yadigar da.

**Zindan**[2], *is.* [ər.] Üzərində metal döymək üçün dəmirçi aləti. Bir qolumuz oldu, bir də ki, zindan.

**Zinət**, *is.* [ər.] Bəzək, yaraşıq. Sən həyat dostusan ellər zinəti… □ Zinət vermək – zinətləndirmək, bəzəmək, süsləmək. Bu evlərə zinət vermiş neçə memar.

**Zingildəmək**, *f.* Zınqıldamaq, incə zəng səsi çıxarmaq. Qəlbi qırıq saxsılar kimi zingildəyən…

**Zingildəşmək**, *qarş.* Hamı birdən zingildəmək. Tulalar da

zingildəşir bayaqdan.

**Zirehlənmiş**, *f.sif.* Zireh geymiş. Dəniz kimi coşub-daşır; Zirehlənmiş pəhləvanlar.

**Zirək**, *sif.* [*fars.*] Bacarıqlı, əlindən iş gələn, cəld, çevik, çox diribaş. Bir az… zirək kimi.

**Zirvə**, *is.* [ər.] Dağın ən yüksək nöqtəsi, təpəsi. Bir qaya zirvəsi oxurdu şahbaz.

**Ziya**, *is.* [ər.] İşıq, aydınlıq, nur. Artıq günəşin ziyası sönsün… □ Ziya saçılmaq – nurlanmaq, işıqlanmaq. Saralmış üzünə ziya saçıldı.

**Ziyadə**, *z.* [ər.] Çox,artıq, çoxlu. Yazıq il yarımdan ziyadə yatdı. Hər kəsdən ziyadə bu işdə ancaq; Atandan, anandan şikayətim var.

**Ziyafət**, *is.* [ər.] Təntənəli qonaqlıq. Neçə min möhtəkir gəlmiş; Bu bol ziyafətə müftə yeməyə!..

**Ziyarət**, *is.* [ər.] Hörmət əlaməti olaraq birini görməyə, biri ilə görüşməyə gəlmə; görüşə gəlmə; vizit. [Mariya:] Xanım, bu gün yenə ziyarətin var? [Eloğlu:] Gəlmişəm anamın ziyarətinə. □ Ziyarət etmək – görüşmək üçün yanına getmək, görüşünə getmək, görüşmək. Xəyalım hüsnünü ziyarət edir. Ziyarətə (ziyarətinə) getmək – görüşünə getmək. Görürsənmi? Eldir gedən ziyarətə.

**Zoğal**, *is.* Yeməli, qırmızı meyvəsi olan bərk oduncaqlı ağac. [Eloğlu:] Zoğal müştüyünü tüstülədərkən. // bu ağacın xırda turş meyvəsi.

**Zolaq-zolaq**, *sif.* Zolaqlar şəklində olan. Dağların döşündə qar zolaq-zolaq.

**Zopa**, *is.* (*dan.*) Dəyənək, kötək. Sillə, yumruq, qamçı, zopa…

**Zor**, [*fars.* zur] *İs.* 1. Güc. …kefə getdi o pul zoruna. □ Zor vermək – 1) güc vermək; 2) ağır təsir etmək. Ayrılıq zor verdi onun qəlbinə; Gəl! – deyib yanına çağırdı yenə.

2. Zorla (zor ilə) şəklində (*z.*). 1) güc işlədərək (işlədilərək), güc tətbiq edərək (edilərək), məcburiyyət altında. [Məryəm:] De görüm gəlməkdə nədir məqsədin? Zorla gə-

tirdilər, özün istədin?

**Zöhrə**, *is.* [ər.] *məc.* Eşq ilahəsi (klassik poeziyada adətən gözəllik rəmzi kimi «Zöhrə ulduzu» şəklində işlənmişdir). Zöhrə ulduzuna məftun olmuş sap; Sürürsən üstünə öz təyyarəni.

**Zövq**, *is.* [ər.] 1. Hər hansı bir xoş təəssüratdan duyulan sevinc hissi, məmnunluq hissi; ləzzət, həzz, nəşə. Çünki başdan-başa zövqdür, hissdir. Ordadır dünyanın zövqü, ləzzəti. □ Zövq almaq – ləzzət almaq, həzz almaq, xoşlanmaq, nəşələnmək.Oxuyun zövq alın mənim şeirimdən. Sən ki, zövq alırsan gözəldən, yardan?

2. Gözəllik, hüzn. Başqa bir zövqü var bugünkü toyun.

3. Gözəlliyin, incəliyin hiss etmə, duyma, seçmə, başa düşmə qabiliyyəti; estetik duyğu. □ Zövq ilə – incəliklə, incə duyğu ilə, estetik tələblərə uyğun surətdə. Nə yerlər ruhumu zövq ilə oxşar…

4. Meyil, həvəs, istək. Zövqü varmış babaların bu ziynətə.

5. Əyləncə, şadlıq, kef, səfa. Unutdun hər zövqü, qəlbi, vicdanı.

**Zövq-səfa**, [ər.] Zövq, əyləncə, şadlıq, kef, səfa. Pozuldu gördüyüm hər zövqü-səfa.

**Zurna-balaban**, *is.* Zurna və balaban. // Çalğı, kef mənasında. Çeşmələr başında heç əskik olmaz; Zurna-balabanı bizim dağların.

**Zurnalı**, *sif.* Zurna çalınan. Çünki mən… nə də ki zurnalı düyünlər şairiyəm.

**Zülf**, *is.* [*fars.*] (*şair.*). Saç (xüsusilə uzun iki tərəfində sallanan tellər). Üzündə zülfünü parlar gördüm.

**Zülm**, *is.* [ər.] Ədalət və insafa zidd olan hal və hərəkət, güclünün gücsüzə qarşı göstərdiyi amansız təzyiq, haqsızlıq, insafsızlıq, ədalətsizlik, cəfa. Elimiz qoçaqdır, zülmdən əl çək. // Özbaşınalıq və zorakılıq əsasında qurulan idarə üsulu; Zülüm də, zalım da var ola bilməz! // Ümumiyyətlə əziyyət, əzab, işgəncə. Zülm əlindən həyatdan bezar idi. □ Zülm etmək (eləmək) – amansızcasına sıxışdırmaq, incitmək, istis-

mar etmək, ədalətsizlik etmək, haqsızlıq etmək, cəfa etmək. Bəşər bir-birinə zülm edir nədən.

**Zülmət**, *is.* [ər.] 1. Qaranlıq. [Valentin:] Yaman zülmət idi…

2. Qaranlıq yer. [Səhər:] Gözümə tilsimli bir zülmət gəlir.

3. *məc.* (*kit.*). Mədəniyyətsizlik, nadanlıq, cəhalət mənasında. Bizim qızlar göz yaşları tökə-tökə; Zorla örtmüş öz başına o zülməti.

**Zülmkar**, *is.* [ər. zülm və *fars.* kar.] Zalım, zülm edən, müstəbid. Rusiya padşahı o zülmkardan…

**Zümrüd**, *is.* [ər.] Zümrüddən qayırılmış. [Axar çaylar] gərdəninə zümrüd taxar.

2. *sif.* mənasında. Yamyaşıl, yaşıl, tünd-yaşıl şey haqqında (təşbeh məqamında). Zümrüd səma! Zümrüd səma! Bu hüsnündən; Qoca rəngsiz ziynət versin saraylara! Hər zümrüd yamacdan bir çiçək seçər.

**Zümzümə**, *is.* [ər.] Ahəstə səslə, pəsdən, özü üçün oxuma, dodaqaltı oxuma. Ellər zümzüməylə onu oyatdı // *məc.* Nəğmə, təranə, tərənnüm (bəzən şairanə təşbehlərdə işlənir). Axşam sularının zümzüməsində; Bir yeni dünyanın nəşidəsi var.

**Züy**, *is.* Nəfəslə çalınan musiqi alətlərində səsi əsas alətin ahənginə uyğunlaşdırma; □ Zü(y) tutmaq (getmək) – çalınan havanı təkrar etmək, səsi onun ahənginə uyğunlaşdırmaq (nəfəslə çalının musiqi alətində): // *məc.* müşayiət etmək, bərabər çalmaq. Züy tutur gecələr suların səsi; Burda çobanların zil şikəstəsi.

# MÜNDƏRİCAT


Ön söz……………………………………………3

Lüğətdə gedən ixtisarlar……………………………6

Şərti işarələr………………………………………8

Lüğətin quruluşu……………………………….....9

Azərbaycan əlifbası…………………………….10

Aa……………………………………………..11

Bb……………………………………………..53

Cc……………………………………………102

Çç……………………………………………120

Dd……………………………………………..146

Ee……………………………………………208

Əə……………………………………………215

Ff……………………………………………235

Gg……………………………………………241

Hh……………………………………………..280

Xx……………………………………………312

İi……………………………………………..322

Jj……………………………………………..339

Кk……………………………………………339
Qq……………………………………………364
Ll……………………………………………430
Mm……………………………………………435
Nn……………………………………………462
Oo……………………………………………476
Öö……………………………………………485
Pp……………………………………………491
Rr……………………………………………501
Ss……………………………………………507
Şş……………………………………………548
Tt……………………………………………572
Uu……………………………………………598
Üü……………………………………………606
Vv……………………………………………613
Yy……………………………………………623
Zz……………………………………………658

**Kitabın nəşrində maddi köməyə görə**
**ARİF YUNUSOĞLUNA minnətdarıq**
***Tərtibçilərdən***

# SƏMƏD VURĞUNUN BƏDİİ DİLİNİN İZAHLI LÜĞƏTİ

**Bakı – MBM – 2011**
**672 səh.**

**Lüğət MBM mətbəəsinin kompyuter mərkəzində yığılıb və səhifələnmişdir**

Operator: **İradə**
Korrektor: **Ruhiyyə Quliyeva**
Dizayner: **Ramiz Əbilov**

Yığılmağa verilib: 03.06.2011
Çapa imzalanmışdır: 05.10.2011
Format: 60x84 1/16
Şərti çap vərəqi: 42
Tiraj: 500 nüsxə